Nəriman Süleymanov

# RUHLAR ÇAĞIRIR




Bakı-2015



*...başa düşürdüm ki, bütün bunlar həqiqətdə baş vermir. Yuxudur, yuxu. Amma məni bir hiss də çuğlamışdı: Necə ki anam burda, mənim yanımdadır, demək, o, diridir, sağdır. Çıxıb getsə, o dəqiqə öləcək.*

*Müəllif*

Nəriman Süleymanov

# RUHLAR ÇAĞIRIR

*Nəriman Süleymanovun oxucularına onun övladları Elçin və Azərdən hədiyyə*

*Tərtib edəni* **Mustafa Çəmənli**

**S96 Süleymanov Nəriman.**
**Ruhlar çağırır** *(povestlər və hekayələr)*.
Bakı, «Təhsil», 2015, 832 səh.

Tanınmış yazıçı, jurnalist, Əməkdar mədəniyyət işçisi Nəriman Süleymanovun bu kitabına onun müxtəlif illərdə yazdığı «Ömrün iki payızı», «Tərs külək», «İnsan yaşayır», «Qurumuş bulağın nağılı», «Əsas ürəkdir», «Məhəbbət çölü», «Keçən günün əzabı», «Sevən həmişə tapılar» adlı povestləri və hekayələri toplanmışdır.

Uzun illər «Pioner» jurnalının baş redaktoru olmuş Nəriman Süleymanov sağlığında Moskvada, indiki Sankt-Peterburqda, Daşkənddə və Düşənbə şəhərlərində gənc nəslin tərbiyəsi və ədəbiyyat problemlərinə həsr olunmuş müşavirələrdə, simpozium və konfranslarda iştirak etmişdir. Yazıçının əsərləri bir çox əcnəbi dillərə tərcümə olunmuş, hekayələri Macarıstan və Yuqoslaviya ölkələrində çıxan uşaq jurnal və almanaxlarında çap edilmişdir.

**S $\frac{4702060201}{053}$ 2015**

**© «Təhsil», 2015**

---

***Nəriman Qoca oğlu Süleymanov***
RUHLAR ÇAĞIRIR
**Bakı, «Təhsil», 2015.**

Nəşriyyat redaktoru ***Məsudə Əvəzqızı***
Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***
Kompüter tərtibatçıları ***Mələk Şimşek, Təhmasib Mehdiyev***
Korrektorları ***Ülkər Şahmuradova, Ülkər Rəhimova***
Üz qabığının rəssamı ***Eldar Cəlilov***

Çapa imzalanmışdır 27.10.2015. Kağız formatı 70x100 $^1/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi 52. Sifariş 113. Tiraj 1000.

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 121$^A$
Tel.:(+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: tahsil_az@yahoo.com

## RUHU BİZİMLƏDİR

Yaşasaydı, indi Nəriman müəllimin 85 yaşı tamam olacaqdı. Hündür boylu, qədd-qamətli, üz-gözündən xoş təbəssüm və mehribanlıq yağan o gözəl insan müdrik bir qoca, ağsaqqal bir ziyalı görkəmində qarşımıza çıxardı. Amma o, cəmi 65 il yaşadı. Deyim ki, ömrünün son illərində Nəriman müəllim elə ağsaqqal idi: ideal ailəsi vardı, ömrü boyu halallıqla yaşamışdı, bir nəslin – qohum-qardaşların üz tutduğu bir insan idi. Baş redaktor olduğu «Pioner» jurnalında hamı ona hörmətlə yanaşırdı, jurnala yazı gətirən müəlliflər onu sevirdilər. Nəriman müəllim gənc yazarlara xüsusi qayğı ilə yanaşırdı, üzvü olduğu Yazıçılar Birliyinin tədbirlərində müntəzəm iştirak edirdi, xüsusilə uşaq ədəbiyyatı ilə bağlı məsələlərdə onun rəyini soruşurdular.

Nəriman Süleymanov Qərbi Azərbaycanın Körpülü kəndində dünyaya göz açmışdı (1930–1995). Bu kənd, deyildiyinə görə, böyük bir ərazi imiş, kəndin belə adlanması da orada çoxlu körpülərin olmasıyla bağlıymış. Keçən əsrin iyirminci illərində Azərbaycan və Ermənistan sərhədlərini müəyyənləşdirərkən kənd əsassız olaraq ermənilərə bağışlanmışdı. Orada yaşayan azərbaycanlılar isə məlum hadisələr zamanı öz dədə-baba yurdlarından qovuldular, didərgin düşdülər. Bu dərd, heç şübhəsiz, Nəriman müəllimin də ürəyində qövr edən yaraya döndü.

Nəriman Süleymanovun atası Qoca müəllim ziyalı bir insan idi, vaxtilə Qori Müəllimlər Seminariyasını bitirmişdi, oğluna ədəbiyyatı elə uşaqlıqdan sevdirmişdi. Atasının təkidilə o, sənədlərini ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsinə təqdim etdi. Beş il (1947–1952) tələbəlik həyatı ona təkcə bilik, dünyagörüşü deyil, həm də həyatı, yaşadığı mühiti, insanları müşahidə qabiliyyəti də bəxş etdi.

O, ədəbiyyata uşaq yazıçısı kimi gəldi. Dahi V.Q.Belinski deyirdi ki: «Uşaq yazıçısı olmaq yox, doğulmaq lazımdır». Nəriman Süleymanov hələ tələbəlik illərində balacaların həyatından kiçik hekayələr yazırdı, amma bunları çap elətdirməyə tələsmirdi. Azərbaycan yazıçılarının, xüsusilə S.S.Axundovun, A.Şaiqin, M.Rzaquluzadənin, E.Ağayevin,

həmçinin rus yazıçılarının uşaqlar üçün yazdığı nəsr əsərlərini mütaliə edir, onlardan necə yazmağın sirlərini öyrənirdi. Nəhayət, 1954-cü ildə uşaqlar üçün yazdığı bir hekayəsini «Azərbaycan pioneri» qəzeti redaksiyasına aparır. Baş redaktor Əmrah Əmrahov hekayəni oxuyur və deyir ki, Nəriman, səndə istedad var, yolun açıqdır, yeni yazılar gətir. Bu sözlər Nəriman Süleymanovu ruhlandırır və o, tez-tez uşaq hekayələri ilə mətbuatda öz imzasını tanıdır. 1956-cı ildə «Uşaqgəncnəşr» onun ilk kitabını – «Balaca atlı»nı oxuculara təqdim edir.

Nəriman Süleymanovdan, onun bir yazıçı kimi yaradıcılığından, əsərlərinin bədii məziyyətlərindən söz açmağa, heç şübhəsiz, məhz uşaqlar üçün yazdığı əsərlərdən başlamaq lazımdır. Professor Qara Namazov «Azərbaycan uşaq ədəbiyyatı» dərsliyində («Maarif», 1984) bir neçə səhifə Nəriman Süleymanovun da yaradıcılığına yer vermişdir. O, Nəriman müəllimin uşaqlar üçün yazdığı hekayə və povestlərin mövzularını müəyyənləşdirmiş, bu əsərlərin uşaqların tərbiyəsində mühüm rol oynadığını qeyd etmişdir. Ancaq biz hörmətli professorun mülahizələrini təkrar etmək fikrindən uzağıq. Sadəcə olaraq, Nəriman Süleymanovun bir uşaq yazıçısı kimi özünəməxsus xüsusiyyətlərindən söz açacayıq.

Vaxtilə böyük şairimiz Səməd Vurğun yazırdı: «Uşaq xəyalı səyyardır. O, şıltaq bir ulduz kimi daima süzüb oynar. O, güldən-gülə, çiçəkdən-çiçəyə qonan bir kəpənəyə bənzər. Daim hərəkət uşaq təbiətinin hüsnüdür. Xəyal və romantika bu təbiətin qanadlarıdır. Uşaq xəyalı bəzən ağ buludların cərəyanına qoşulub uçur, aydınlıq gecələrdə sayrışan ulduzlar içində gəzib seyr edir, ayla batır, günlə doğur, dərin dəryalarda qəvvas kimi üzür, keçilməz ormanlardan, dağlıq və qayalıqlardan öz zərif ayaqları ilə keçir, şirlər və pələnglərlə pəncələşir. Biz bütün bu sonsuz xəyallar dünyasında qəhrəmanlıq, yüksəliş, uca arzular və əməllər görürük…Bədii söz uşaq qəlbini bahar kimi şəfəqləndirməyi bacardığı kimi, onu zülmətlərdən, tufan və fırtınalardan da keçirərək mübarizəyə, inkişaf və tərəqqiyə hazırlamalıdır. Uşaqlarımız sevinməklə yanaşı, pərişan olmağa, gülməklə bərabər, ağlamağa, şənlik və zarafatla yanaşı, dalğınlıq və mütəəssir olmağa da alışmalıdır».

Bu fikirlər indi də öz müasirliyini hifz edir və mətndən aydın görünür ki, uşaq yazıçısının vəzifəsi, onun görəcəyi iş nə qədər məsuliyyətlidir. Nəriman Süleymanov da bu məsuliyyəti dərk edən, uşaqlar üçün yazmağın heç də böyüklər üçün yazmaqdan asan olmadığını anlayan yazıçı idi.

Onun uşaqlar üçün yazdığı əsərlərin mövzu dairəsi çox genişdir. Burada hələ məktəb yaşına çatmamış körpə uşaqların da payı var, məktəb şagirdlərinin də, təbiəti sevən, dünyaya heyranlıqla baxan, hər gördüyündə bir məna axtaran balacaların da, uşaqlıq illərini arxada qoyan, ilk gənclik illərini yaşayan yeniyetmələrin də… Onun hekayələri uşaqlara vətənpərvərlik, Azərbaycan sevgisi, doğma yurda bağlılıq hisləri aşılayır. Bu hekayələrdə təbiətə, ilin fəsillərinə, güllərə-çiçəklərə, dənizə, başıqarlı dağlara, quşlara, heyvanlara sonsuz bir məhəbbət var. Bu hekayələrdə müdrik babalar, sinəsi nağıllı nənələr, vətən sevgisi ilə yaşayan igid oğullar, gözəllik timsalı qızlar, sadə peşə adamları hərarətlə vəsf olunur. Ana sevgisi Vətən sevgisiylə birləşir. Yazıçının «Qocalar və uşaqlar» («Gənclik», 1968), «Babamın bağı» («Gənclik», 1974), «Tək çiçək» («Gənclik», 1979) kitablarında toplanan kiçik hekayələr mənalı, ibrətli hadisələrlə diqqəti cəlb edir. Nəriman müəllim bir hadisəni təsvir edərkən heç də nəsihətçiliyə, sırf didaktikaya meyil etmirdi, həmin hadisənin özündən tərbiyəvi fikir doğurdu. Balaca bir qız uşağının su kanalının açılışında öz sevincini əlindəki gül dəstəsini adamların başı üstünə səpməsi nə qədər təbiidir. Bu qız həmin kanalın tikintisində çalışan bir əmiyə minnətdarlıq eləmək istəyir, bu əmi onu sevindirmişdi ki, «sizin yerlərə bol-bol su gələr. Çölləriniz gül-çiçək, bağ-bağat olar». Amma balaca qız mitinqdə o əmini görə bilmir. Bu uşağın qəlbində yaxşı adamlara, xeyirxah insanlara sevgi də o gündən yaranır («Babamın bağı»).

«Biri vardı, biri yoxdu, bir qaranquş vardı. Bir evin eyvanında yuva qurmuşdu. Ovuc boyda, qəşəng yuva idi. İçərisində də ətcəbalalar vardı. Gündüzlər yuvada ancaq balalar olardı. Çünki anaları səhər tezdən uçub gedər, çöldən-çəməndən balaları üçün yem daşıyardı. Hər gəlib gedəndə də dincəlməz, tezcə qayıdardı».

«Ana quşun yuxusu» hekayəsi bu abzasla başlayır və bir neçə abzasdan sonra da bitir. Amma bu kiçik hekayədə balacaların ibrət götürəcəyi bir hadisə nəql olunur. Ana quş balaları rahat uyusun deyə, öz yuvasını tərk edir, teleqraf xəttinin üstə yuxulayır. Belə tərbiyəvi, örnək götürüləsi hadisələrə Nəriman müəllimin hekayələrində sıx-sıx təsadüf olunur. Uşaqlara ən nəcib keyfiyyətləri aşılamaq, təbiəti sevdirmək, onları ata-anaya, baba və nənəyə, qardaş və bacıya, müəllimlərinə məhəbbət ruhunda tərbiyə etmək Nəriman Süleymanovun əksər hekayələrinin məzmununu təşkil edir. Həm də təsvir edilən hadisələr uşaqların – balaca oxucuların anla-

yacağı dildə, şirin ləfz ilə ifadə olunur. Ən əsası o idi ki, Nəriman müəllim təsvirlərində konkretliyə, obyekti, əşyanı, bir sözlə, obrazların xarakterini canlandırmağa yardımçı olan hər bir detala diqqət yetirirdi. Bu da ondan irəli gəlirdi ki, o, təbiəti, kənd həyatını və məişətini gözəl bilirdi.

Uşaqlar üçün yazdığı hekayələrində Nəriman Süleymanovun bir təbiət aşiqi, otun, gülün, bitkilərin, ağacların yaşam tərzinə yaxşı bələd olan, quşların, heyvanların yaşayış tərzi haqqında da bilgiləri yetərincə nəzərə çarpan bir yazıçı olduğu dərhal nəzərə çarpır. O bu hekayələrdə balaca uşaqlarda heyvanlara, quşlara, ümumən təbiətə qarşı məhəbbət oyatmağa can atır və deyərdim ki, buna nail olur.

Qara Namazov Nəriman Süleymanovun «Tək çiçək» kitabında toplanan hekayələrin mühüm bir qisminin müharibə mövzusunda yazıldığını qeyd edir. Bu da təbiidir. O özü də müharibə illərinin uşağı olub, təsvir etdiyi hadisələrin əksəriyyəti ona tanışdır. Qara müəllim Nəriman Süleymanovun «Qaşıq» hekayəsini nümunə gətirir, həmin hekayənin qəhrəmanı Mahal kişinin arxa cəbhədə kənd camaatı üçün çömçə-qaşıq hazırlamasını və düzəltdiyi qaşıqlardan cəbhəyə də göndərməsini müharibə dövrünün səciyyəvi bir hadisəsi kimi ümumiləşdirir, yazıçının uğurunu qeyd edir.

Nəriman Süleymanovun əksər hekayə və povestləri gənclərin həyatına, onların mənəvi aləminə həsr olunmuşdur. Hiss olunur ki, bu hekayə və povestlərində Nəriman müəllim mənsub olduğu gəncliyin, özünün və yaşıdlarının həyatını, duyğu və düşüncələrini qələmə alır. Bu gəncliyin uşaqlığı müharibə illərinə, o illərin ağır, çətin, məşəqqətli dövrünə təsadüf edir. Onun «Qocalar və uşaqlar» povesti məhz o illərin uşaqlarından söz açır. Ancaq onları uşaq adlandırmaq doğru olmazdı. Onlar yeniyetmə gənclərdir, kənddə öz ata-analarına, qocalara hər işdə əl tuturlar. Nəriman müəllimin bu povestdə ən böyük nailiyyəti həm də koloritli kənd həyatını, çölçülük, maldarlıq məişətini real bədii lövhələrlə canlandırmasıdır. Bu povesti mütaliə edən cavanlar biləcəklər ki, ipə-sapa yatmayan côngələri necə ram edib cütə qoşmaq olar, fəsəlini, qatlamanı bişirməyin qaydası nədir, öküzləri necə sulayırlar, malı canavarlardan necə qoruyurlar, öküzləri həvəsləndirmək üçün hansı mahnıları oxuyurlar («holoy») və s. Bütün bunlar elm və texnikanın sürətli inkişafı fonunda indi arxaik səslənə bilər, amma söhbət müharibə illərindən gedir.

Nəriman Süleymanovun hekayələri haqqında ayrıca söz açmaq olar. Deyim ki, onun hekayələri bu janrın poetikasına yaxşı bələd olan bir müəl-

lifin, sözün əsl mənasında, ustalığından xəbər verir. Hekayədə – bu «kiçik» janrda maraqlı süjet qurmaq, dolğun obrazlar yaratmaq və canlı həyat lövhələri ilə diqqəti cəlb eləmək heç də asan deyil. Nəriman Süleymanovun bir neçə hekayəsi var ki, onları qeyd-şərtsiz o dövrün ən gözəl hekayələri sırasına qatmaq olar. «Lal», «Qaraçı qızı», «Ruhlar çağırır», «Təndirlər qalandı», «Qu quşu», «Məhəbbət», «Buğda biçinində», «Yetər nənə», «Bənövşə», «Od» hekayələri Nəriman Süleymanovun bu janrda uğurlarından soraq verir. «Lal» hekayəsinin qəhrəmanı uşaqlıqdan dili tutulan, danışıq qabiliyyətini itirən Göycə adlı bir oğlandır. «O, ucaboy, sümüklü bir oğlan idi. Kürəyinin arasında bir adam gizlənərdi. Qıvrım saçları günlüyü uzun şapkasının altından çıxıb alnına dağılmışdı. Bürkü olduğundan üst köynəyini çıxartmışdı. Əynində qolsuz tor köynək vardı». Hekayə onun zahiri portretinin təsviri ilə başlayır. Dili lal olsa da, Göycə ətrafında cərəyan edən hadisələrə həssaslıqla yanaşır, kobudluğu, biganəliyi bağışlamır, ona olan münasibətin təmiz, ya saxta olduğunun fərqinə varır. O, ot biçinində hamıdan bacarıqlı olan Alpaşanın əməkgününün kəsilməsinə etirazını bildirir, bu işdə təqsirkar olan briqadir Dünyamalını çəkə-çəkə mühasibin yanına gətirir, haqsızlığı aradan qaldırır, ədaləti bərpa edir. Briqadir Dünyamalı istəyir ki, dul bacısı Tamaşanı Göycəyə ərə versin. Kimi-kimsənəsi olmayan, özgə qoltuğunda yaşayan yetim bir qız – Zərnişanın da Göycədən umacağı var. «Tamaşa ona ərə getsə, dağı-daşı yandırram, onun saçlarını bircə-bircə yollam. Özüm gedəcəyəm, – deyə yetim qız inad edirdi». Bəs Göycə kimə meyil edir? Müəllif bu məqamda obrazın daxili aləminə enir, diqqətini psixoloji aspektə yönəldir. Göycə Tamaşanın – bu dul qadının zahiri gözəlliyənə məftun olsa da, onun soyuqluğunu, lallığına görə etina etməməsini hiss edir, bunu bir ağrı kimi yaşayır, hətta anasına da etirazını ifadə edir. Amma hekayə heç də bədbin notlarla bitmir, Göycə Zərnişanın yanına gəlir: «Lal şəhadət barmağını qoşalaşdırıb bir-birinə sürtdü. Başa saldı ki, səni aparmağa gəlmişəm…Kəndin başındakı evdən işıq gəlirdi. Lal və yetim qız evə tələsirdilər». Buna «xoşbəxt final» da demək olar. Amma bu final süni deyil, obrazın daxili təkamülünün nəticəsidir ki, sonu bu məqama gəlib yetişir.

Başqa bir hekayə – «Məhəbbət» – ənənəvi mövzuda yazılsa da, ənənəvi təsir bağışlamır. Hekayənin qəhrəmanı Bağçagül sadə bir ailənin övladıdır, Böyük Vətən müharibəsi zamanı atadan, anadan yetim qalıb. Atası müharibədən qayıtmamış, anası isə xəstələnib vəfat etmişdi. Onu balaca vaxtından

ana nənəsi Xanbacı və babası usta Yusif böyütmüşdü. Bağçagülün gözəlliyinə heyran olan Ənvər adlı varlı bir gənc ona elçi düşür. Amma Bağçagül onu deyil, özü kimi sadə bir gənci – Qulunu sevir. Hekayə novellavari bir sonluqla bitir. Bağçagül gələn elçilərin qarşısına iş paltarında çıxır və varlı evin adamları «bu qız nə kökdədir?» deyə narazı baxışlarla geri qayıdırlar. Beləliklə, adi bir görünüş qıza elçi düşənləri çaşdırır. İki aləm – iki dünyagörüşü üz-üzə gəlir. Bağçagülə elçi gələcək deyə ona «vəfasız» söyləyən Qulu isə dediyi sözə görə xəcalət çəkir.

«Qu quşu» hekayəsində «xoşbəxt final» baş tutmur. Hekayənin qəhrəmanı Adilə sadə bir peşə adamıdır – suvaqçıdır. Gözəl qızdır və müəllif onun zahiri gözəlliyini təsvir etmək üçün boyalarını əsirgəməmişdir: «Su sonası tək incə bir qızdır. Qara gur saçları çiyinlərinə tökülür, ağ bənizində gözləri bir cüt qara muncuq tək görünür. Güləndə yanaqları batır, gözləri azca qıyılır. Bunlar onu daha da qəşəng və şirin göstərir. Qızın danışığı, hərəkətləri də incə və zərifdir. Kamil bu göyçək qıza aşiq olub. Ondan ötrü lap ürəyi gedir». Adilə də Kamili sevir. Amma onların xoşbəxtliyi baş tutmur, çünki Kamil sevdiyi qızın toz-torpaq içində işləməyini istəmir, ona təklif edir ki, kinoteatrda biletsatan işləsin. Adilə uzun müddət tərəddüd edir, sonda onun təklifi ilə razılaşır. Amma bilet satmaq, bütün günü dar bir otaqda guşənişin olmaq Adiləni bezdirir və o, iş yerini tərk edir. Kamilə təzə mənzil verirlər və o bu mənzildə Adiləni düşünür. «Divarlar ağappaq idi. Pəncərələrin yanları da gözəlcə ağardılmışdı. Ağ suvaqlı tavan şüşə tək parıldayırdı. Kamil bunların hamısında bir səliqə və gözəllik gördü. Bu divarlarda sənətkar əli gəzmişdi. Bəlkə, onun bu mənzilini də Adilə suvamışdı. Kamil birdən sıçrayıb ayağa qalxdı». Belə görünür ki, Kamil artıq peşmandır və bu da təbiidir. Çünki o, Adiləni, doğrudan da, həqiqi məhəbbətlə sevir. Ancaq təbiətindəki dəyişkənlik, Adilənin peşəsinə yüngül münasibəti, sadə fəhlə əməyinə xor baxması Adilədə də dəyişkənlik yaradır. Kamil Adiləni səsləyir, Adilə isə: «Nə fikirləşdisə, birdən üzünü ondan çevirdi, qaçıb avtobus dayanacağında fəhlə yoldaşlarına qarışdı…Kamil dönüb son dəfə qızın ardınca baxdı. Adilə yenə ağappaq paltarda cilvələnirdi. O, daha qəşəng, daha gözəl görünürdü. Lakin bu Qu quşu ondan uzaqlara uçurdu». Hekayənin belə sonluqla bitməsi inandırıcıdır. Heç şübhəsiz, Kamil də, Adilə də öz xoşbəxtliklərini tapacaqlar, amma birləşə, bir könül ola bilmədilər.

Nəriman Süleymanovun yaradıcılığında onun povestləri də əhəmiyyətli yer tutur.

Azərbaycan nəsrinin 60–80-ci illər mənzərəsini, o illərdə yazılan əsərləri nəzərdən keçirəndə povest janrının öncül mövqeyini görməmək mümkün deyil. Hətta deyə bilərəm ki, həmin onilliklərdə nəsr əsərləri içərisində ən çox oxunan da məhz povest idi. Xüsusilə miniatür povestlər daha çox yazılırdı. Bu sırada Nəriman Süleymanovun povestlərini də xatırlamamaq mümkün deyil. Onun «Məhəbbət çölü», «Əsas ürəkdir», «Qurumuş bulağın nağılı», «Keçən günün əzabı», «Sevən həmişə tapılar», «Ömrün iki payızı», «İnsan yaşayır», «Tərs külək», «Qocalar və uşaqlar», «Adam yalnız soyuqdan üşümür» adlı çox maraqlı, oxunaqlı povestləri var. Bu povestlərdən yalnız biri – «Tərs külək» şəhər həyatından bəhs edir, digər adını çəkdiyimiz povestlərin hər biri kəndə həsr olunub. Ümumiyyətlə, Nəriman Süleymanovun nəsr yaradıcılığı Azərbaycan kəndinin keçmişinə və bu gününə bədii baxışdır desək, qətiyyən yanılmarıq. Hətta belə bir qənaətə gəlirik ki, Nəriman Süleymanov da Süleyman Rəhimov, Əli Vəliyev, Sabir Əhmədli, Bayram Bayramov, İsa Hüseynov (Muğanna) kimi kənd nəsrinin nümayəndəsidir. Yəni bu o deməkdir ki, Nəriman Süleymanov da özünə ustad sandığı bu nasirlər kimi kəndi, onun məişətini, adət-ənənələrini, insanlarını – onların psixologiyasını, kənddə baş verən sosial-mənəvi problemləri, ziddiyyət və münaqişələri dərindən müşahidə edir və kənddən danışanda ona idillik naxışlar vurmur, hər şeyi olduğu kimi – bütün mürəkkəbliyi və ziddiyyətləri ilə bədii təsvir hədəfinə çevirir.

Onun təsvir etdiyi qəhrəmanlar XX əsr insanlarıdır, konkret desək, əsl azərbaycanlı obrazlarıdır. «Ömrün iki payızı»nda Nəriman Süleymanov keçən əsrin iyirminci illərinin Azərbaycan kəndini, burada baş verən hadisələri qələmə alır. İnqilab – Şura hakimiyyəti qalib gəlir və hər bir Azərbaycan kəndində olduğu kimi, onun təsvir etdiyi kənddə də ictimai-siyasi hadisələrin axarı dəyişir. Şura inqilabına zidd çıxanlar öz ağalıqlarını itirdikləri üçün qaçaqçılıq edir, meşələrə, dağlara çəkilir, gözləyirlər ki, Şura hökuməti haçansa çökəcək və yenə ağalıqlarına qayıdacaqlar. Kənddə isə yeni quruluşun bünövrəsi qurulur və getdikcə bu bünövrə üzərində sütunlar ucalır. Bolşevik təbliğatı insanları yeni quruluşa həvəsləndirir. Ancaq Nəriman Süleymanov bu məlum hadisələrə o qədər də aludə olmur, yəni Sovet hakimiyyətinin qələbəsini zamanın hökmü kimi qəbul edir, buna səhifələr həsr etmir. O, kənddə maarifçilik işinin gücləndiyini, xalqın həyatında, məişətində baş verən yenilikləri ön plana çəkir. Povestdə Abdulla müəllim obrazı kamildir. Yeni quruluşun təbli-

ğatçısı olan Talıb kişi, Çapar obrazları da səciyyəvi cizgilərlə rəsm olunmuşlar. Onlar bolşevik kimi yox, daha çox insan kimi təsvir edilmişlər. Nəriman Süleymanovun təsvir etdiyi və mənfi obraz kimi səciyyələndirdiyi Qandalıbəy, Molla Bidad, Müəsəllim, Quşbaş Alı, Çalvadaroğlu da mənsub olduğu sinfin xarakterik xüsusiyyətlərini özündə cəmləşdirmişlər. Maraqlıdır ki, müəllif onların heç birinə öz münasibətini bildirmir, buna heç ehtiyac da yoxdur, çünki bu obrazların hərəkəti, davranışı, inqilaba münasibəti, ən başlıcası, fərdi insani keyfiyyətləri baş verən hadisələrdə daha aydın nəzərə çarpır. Onları bir araya gətirən səbəblər məlumdur, hər biri yeni quruluşa kin bəsləyirlər, amma hər birinin də öz fərdi aləmi var. Qandalıbəy sonda peşmançılıq çəkir və buna görə elə öz qaçaq yoldaşları onu güllələyirlər. Müsəllim və Çalvadaroğlu – biri gizli, biri açıq düşməndir, amma xasiyyətcə bir-birinə bənzəmirlər. Nəriman Süleymanov nəsrinin özəlliyi də məhz bu məqamda üzə çıxır – obrazların fərdiliyi, özünəməxsusluğu…

Müharibə dövrünün ağrı-acılarını, sərt həqiqətlərini əks etdirən nəsr əsərlərimiz az deyil və bu sırada Nəriman Süleymanovun «İnsan yaşayır» povesti də xüsusi qeyd olunmalıdır. Fikrimizcə, «İnsan yaşayır» Nəriman Süleymanovun ən yaxşı, bədii sanbalca ən dəyərli povestidir. Əslində, bu povestin adı «İnsan yaşayır» yox, «Şinel» olmalı idi. Vahid adlı bir uşaq çöldə heyvan otararkən yolla bir əsgərin getdiyini görür. Ona yaxınlaşır: «Davadan əsgər qayıtması o qədər fərəhli, sevincli hadisə idi ki, Vahid sevinməyə bilmədi. Özündən asılı olmayaraq qımışa-qımışa kişinin üzünə baxdı. Bu əsgər ayağından yaralı idi. Yeriyəndə qıçını çəkirdi. Əynində qəşəng bir şineli, başında qabağı ulduzlu papağı vardı. Özü də üzügülər adam idi». Əsgər uşağın nazik əynini görüb şinelini soyunur, onu uşağa uzadır. Vahid tərəddüd etsə də, şineli alır, əyninə keçirir, soyuqdan qorunur. Amma onun bu əsgər şinelinə məhəbbəti heç də soyuqdan qorunmaq üçün deyil. Vahid ona bir yadigar kimi baxır. Vahidin atası da cəbhədədir, döyüşür və burada şinelə olan məhəbbət, əslində, səngərlərdə ölüm-dirim savaşına çıxan əsgərlərimizə məhəbbətdir. Əsər boyu bu şinelin söhbəti bitib-tükənmir, onu Vahidə bağışlayan əsgəri hamı xeyirxahlıq mücəssəməsi kimi yad edir. «Əgər işdir, o adam bu kəndə gəlsəydi, allah bilirdi nə olardı?! Hamı onu qarşılamağa çıxardı. Bütün kənd qulluğunda durardı. Hamı ona hörmətlə, məhəbbətlə yanaşardı. Vahidin ürəyində isə onun xüsusi yeri vardı… Vahid ona adi bir paltar kimi bax-

mırdı…Vahid şineldə, həqiqətən, özünü elə şax tuturdu ki, deyirdin əsl əsgərdir». Və beləliklə, Şinel özü də əsərdə bir obraza çevrilir, rəmzi – simvolik məna kəsb edir. Bu şinel də müharibə illərinin o ağır günlərinin bir iştirakçısına çevrilir. Vahid onun ətəyindən bir azca kəsir ki, qonşular qaranlıqda qalmasınlar deyə, ondan piltə yerinə istifadə etsinlər. Beləcə, şinel bir neçə dəfə ətəyindən qısalır, amma nəticədə kiməsə soyuqdan qorunmağa lazım olur.

Povestdə müharibə illərinin tipik bir Azərbaycan kəndi canlandırılmışdır və təsvirlər o qədər təbii və realdır ki, sanki oxucu özü də bu hadisələrin iştirakçısına çevrilir. Oxucu Vahidlə yanaşı, digər obrazların da taleyinə biganə qalmır. Fermada mühasib işləyən Əsədin sevdiyi qız Südabənin bir sözü ilə əsgərliyə yollanması, ondan gələn qara kağız əsərin dramatizmini artırır. Məhz bundan sonra, bu acı xəbərin təsirilə Vahid şineli doğram-doğram eləyir, amma şinelin qırıqları yenə kara gəlir, lampa üçün piltə düzəltməyə yarayır. Şinel əhvalatı bununla da bitir, «amma onu əyninə geymiş adamlar hələ dururdular. Hələ yaşayırdılar».

Nəriman Süleymanovun «Məhəbbət çölü», «Əsas ürəkdir» povestləri isə kənd həyatının, maldarlıqla məşğul olan adamların işi-gücü, çölçülük təsərrüfatı ilə bizi tanış edir. Təbii ki, bu əsərlərdə peşə ilə bağlı təfərrüatlar, canlı, real təsvirlər nəzərdən qaçmır. İndi, XXI əsrdə – qloballaşma erasında bir az keçmişə qayıtmaq, bizim maldarlıq, əkinçilik mədəniyyəti ilə yaxından tanış olmaq üçün bu təsvirlərin əhəmiyyəti heç də az deyildir. Amma Nəriman Süleymanov bütün hekayə və povestlərində olduğu kimi, əsas diqqəti İNSANA, onun mənəvi dünyasına yönəltmişdir. Onun təsvir etdiyi kənd və adamlar Böyük Vətən müharibəsindən sonrakı dövrün kəndi və adamlarıdır və biz ötən illərə qayıdır, ən yaxın keçmişimizin Azərbaycan kəndini və bu kənddə yaşayan insanların həyatı, məişəti, onları düşündürən qayğılarla tanış oluruq. Özü də bu povestlərin qəhrəmanları əksərən cavanlar və qocalardır. Müəllif hər iki povestdə bu iki nəslin bir-birinə həmdəm, dost münasibətini daha çox nəzərə çarpdırır. Müəllifin təqdim etdiyi sevgi səhnələri də çox təbiidir. «Əsas ürəkdir» povestində yuxarı sinif şagirdi Sərxanla Aynurun sevgisi oxucuda xoş təəssürat oyadır, «əsl sevgi belə olar» qənaəti yaradır. Müəlifin «Qurumuş bulağın nağılı» povesti isə əxlaqi-didaktik səciyyə daşıyır. Həsənağa kişi (hansı ki, şikəstdir, qocadır, ömrünün son illərini yaşayır) və arvadı Səltənət qarı kimsəsiz bir uşağa hayan olurlar.

Nəriman Süleymanovun nəsri öz dilinin sadəliyi, üslubunun aydınlığı ilə də seçilir və onun əsərlərindən onlarla misallar gətirə bilərik ki, bu misallar müəllifin dilimizin incəliklərinə, xalq danışıq dili ilə ədəbi dilimizin vəhdətinə sübut olar. Baxın: «Sevən həmişə tapılar» povestində bu kiçik mətnə: «Gələndən elə hey istəyirəm ki, səhər obaşdan durub meşəni seyrə çıxam, amma hər dəfə yuxu bişirib gün-günortaya qalmağım mənə mane olurdu. Nəhayət, bu dəfə, deyəsən, arzuma çatırdım. Doğrudan da, meşənin ətəyinə çatanda gördüm əsl gözəllik buralardadır. Səhər-səhər təbiət elə gözəl, elə füsunkar idi ki, adam az qalırdı ürəyini sürtsün. Hayana baxırdın yamyaşıl otluq, gül-çiçək idi. Səhərin gözü açılıb hava işıqlandıqca bir-birinə söykənəcəkli dayanıb, bir-birinin məxmər çiyninə baş qoyub yuxulamış, yatışmış otlar, al-əlvan güllər-çiçəklər dikəlib qalxır, təbiət elə bil quşları ilə, böcəkləri ilə, bütün canlıları ilə birgə öz böyük anaları olan Günəşi qarşılamağa çıxırdı». Nəriman Süleymanovun nəsri beləcə zəngin dil materialı ilə diqqəti cəlb edir. Dilimizin şəhdi-şəkərini özündə əks etdirir bu əsərlər.

Nəriman Süleymanovun ölümündən iyirmi il keçir. Amma bu iyirmi ildə onu unutmayanların sayı heç də azalmır. Onun ruhu bizim başımız üzərində dolanır. Fiziki ölüm mənəvi diriliyə qalib gələ bilmir. Ruhu şad olsun!

**VAQİF YUSİFLİ,**
*filologiya elmləri doktoru*



# POVESTLƏR



# ÖMRÜN İKİ PAYIZI

*Atamın əziz xatirəsinə*

Telefonda neçə səs bir-birinə qarışmışdı. İki nəfər qız şirin-şirin danışır, bir başqasının da səsi lap uzaqdan gəlirdi. Kişi xeylağı idi. Səsindən hiss olunurdu ki, yaşlı adamdır. Zəif halda:

– Alo! Alo! – deyə qalmışdı. Deyəsən, şəhərlərarası telefon stansiyasından idi. Necə olmuşdusa gəlib bu iki qızın danışdığı xəttə düşmüşdü.

– Alo! Alo! Alo!

Danışan qızlardan biri o birinə dedi:

– Aa, bu nədir? Kimdir bu?

O biri də bu birinə cavab verdi:

– Nə bilim, aaz. Kimdirsə, deyəsən, başqa söz bilmir. Elə hey «alo!» – deyir.

Sonra yenə başladılar danışmağa. Biri o birinə təzə paltar tikdirməsindən danışırdı. Deyirdi kiminsə nişanına geyib gedəcək. Bu biri də o birinə bu gün-sabah xaricə gedəcəyini söyləyirdi. Üçüncü adamın isə yenə zəif səsi gəlirdi.

– Alo! Alo! Alo! – Səsi elə bil quyunun dibindən çıxırdı. Görünür, çox uzaqdan, ucqar bir yerdən danışırdı. Xətdə başqa səslər də vardı. Həzin bir gurultu bütün bu danışıqları müşayiət edirdi. Nəhayət, qızlardan biri bu haqq-hesaba dözməyib «alo, alo» – deyən kişiyə çımxırdı.

– Əşi, əl çəkməzsən? Niyə mane olursan?!

Həqiqətən, uzaq bir rayonun ucqar bir kəndindən zəng etmişdilər. Zəng edən Çapar adlı yaşlı bir kişi idi. Uşaqlarından biri şəhərdə – Bakıda yaşayırdı. Onlara sifariş etmişdi. Görünür, stansiyadan səhlənkarlıq edib düz birləşdirməmişdilər. Qız ona çımxıranda qoca istədi başa salsın ki, düz demirsən, nahaq yerə məni belə imtahan edirsən. Ümumiyyətlə, həyatda o, indiyədək heç kəsə mane olmayıb, heç kəsə ziyanı dəyməyib, əksinə, bir parça vaxtından hamıya hər bir işdə kömək etməyə çalışıb. Amma dillənmədi, bunu artıq hesab elədi. Dəstəyi yerinə qoyub əlini üzünə dayayaraq xəyala daldı, ömrün bu payızından o payızına keçərək hələ də yadında, hafizəsində yaxşı qalan hadisələri və adamları xatırladı.

## BİRİNCİ HİSSƏ

Başı aşağı çevrilmiş göbələk formasında eyvandan asılmış polad dəmir parçası danqadanq döyülcək uşaqlar bir-birlərini itələyə-itələyə tappatap ikinci mərtəbəyə qalxdılar. Qandalıbəyin ikigöz altda, ikigöz üstə dörd otağı vardı. Üst gözün birini məktəb eləmişdilər. Bundan qabaq yerləri olmadığından eşikdə, açıq havada dərs keçirdilər. Özgə çarələri yox idi. Mütləq məktəb təşkil etmək lazım idi. Meşədən, evlərindən kör-kötük gətirib kəndin ortasında heç kəsə mane olmayan boş bir yerdə oturacaqlar düzəltmişdilər. İntəhası burada yekə bir dağdağan ağacı var idi. Həmişə günortalar bura qoyun-quzu yığardılar. İndi bu yeri uşaqlar tutmuşdular, Abdulla müəllim də evindən yekə bir yuxayayan gətirib lövhə əvəzinə ağacdan asmışdı. Dağdağanın kölgəliyində üzü urvalı olduğundan yuxayayan ay tək ağarırdı. Abdulla müəllim həmin bu yuxayayan üzərində kömürlə hərflər yazıb uşaqlara öyrədirdi. Bax bu – «a»dır, bu – «b»dir, bu da...

Bir dəfə dərsin şirin yerində haradansa şaqqıltıyla tüfəng necə atıldısa güllə düz onun barmağının ucundan yuxayayana dəydi. Elə bil yazısının ardına nöqtə qoydular. Başa saldılar ki, bəsdir, daha bu işdən əl götür. Abdulla müəllim əlində qara kömür parçası ayaq üstəcə quruyub qalmışdı. Bilmirdi necə etsin. Uşaqlar da qorxub ağappaq ağarmışdılar. Bu ara Abdulla müəllimin haradan ağlına gəlmişdisə birdən acıqca ucadan səslənmişdi:

– Yaşasın Şura hökuməti!

Özü deyib, özü eşitmişdi. Səsinə daha səs verən olmamışdı. Ancaq eybi yoxdur. Sözünü dedi, münasibətini bildirdi. Sonra uşaqlara tapşırdı ki, işdir belə bir hadisə yenə olsa, bizim yazı taxtamıza güllə atsalar, qorxmayın, mən «Yaşasın Şura hökməti!» – deyəndə siz də «Ura» deyə qışqırın. Onda bizim dərsimizə mane olmaq istəyənlər qorxarlar.

Səhəri gün həmin hadisə, həqiqətən, yenidən təkrar olunmuşdu. Abdulla müəllim «Yaşasın Şura hökuməti!» – deyə səslənəndə uşaqlar birağızdan necə qışqırmışdılarsa bütün kənd arvad-uşaqlı eşiyə çıxmışdı. «Uraaa!» Sonra tökülüb uşaqlarının oxuduqları yerə gəlmişdilər. Gülədən deşik-deşik olmuş yuxayayana baxıb başlarını bulamışdılar.

– Müxənnət uşağı, müxənnət! – deyə yan-yörəyə boylanmışdılar. Tüfəngin haradan atıldığını müəyyənləşdirmək istəmişdilərsə də, bir şey başa düşməmişdilər. Sonra kənd sovet sədri Talıb kişi ilə onun köməkçisi Çapar düşmüşdülər ev-ev, həyət-həyət gəzib baxmağa. Damlara çıxırdılar, evlərin ardına hərlənirdilər, ot tayalarını süngünün ucu ilə eşim-eşim eləyirdilər. Mərəklərə, tövlələrə girib baxırdılar. Ancaq əllərinə bir şey keçməmişdi. Talıb kişi camaatın içində hamıya demişdi ki:

– Belə görünür ki, uşaqlara tüfəngi göydən allah atır. Atır ki, məktəbləri bağlansın. Atır ki, balalar oxumasınlar, elm, savad öyrənməsinlər, kor qalsınlar; hə, necə bilirsiniz, ay camaat, allah uşaqlara tüfəng atarmı?

Saqqallı-saqqallı kişilər, ağızları yaşmaqlı arvadlar bir-birinin üzlərinə baxıb çiyinlərini ataraq bu işə məəttəl qaldıqlarını bildirmişdilər.

Axşam Abdulla müəllimin anası Fatma arvad eşikdə sac asıb fətir bişirəndə xəmirdən bir parça götürüb dizinin üstə qoyduğu balaca bir taxta parçasının üstündə yastılaya-yastılaya hündürdən demişdi:

– Səni də sağ ol, uşaq tək yuxayayanla oynayırsan.

Abdulla müəllim ocaqdan bir az aralıda oturub əlini üzünə dayamışdı, nə barədəsə fikir edirdi. Anasının sözünü eşitcək əlini üzündən çəkib:

– Heç nə olmaz, ay ana, – demişdi, – birtəhər yola gedərik. Uşaqlar üçün lazım oldu, bir şey tapa bilmədim, məcbur olub onu apardım.

– Mən də bir söz demirəm, oğul. Ancaq günahdır deyirlər. Yuxayayanı nişana qoymazlar.

– Günah ona güllə atandadır.

Fatma arvad yastıladığı kündəni sacın üstə atıb əlini unlu-unlu yaylığına aparmış, gözlərini silmişdi.

Abdulla cəld yerindən durub anasının yanına getmişdi.

– Sən ağlayırsan, ana?!

Yaş onu boğduğundan Fatma arvad qırıq-qırıq danışmışdı:

– Neynim, qorxuram. Baxıb-baxacağım bir sənsən.

Abdulla aşağı əyilib anasının boynunu qucaqlamışdı.

– Qorxma, heç nə olmaz, ana. Mən pis iş görmürəm ki, narahat olasan. Yuxayayana da yaxşı sözlər yazıram. Elə elm, savad, özü də xeyir-bərəkətdir.

Fatma arvad gözləri yaşlı-yaşlı oğluna baxmışdı:

– Özünü gözlə, ömrüm-günüm. Cavansan, yazıqsan.

Üst tərəf dikdən taqqıltı səsi gəlmişdi. Fatma arvadla Abdulla həmin səmtə boylanmışdılar. Qaranlıqda bir şey görmək mümkün deyildi. Amma taqqıltı getgedə artırdı. Elə bil təkər dığırlayırdılar. Bir də qaranlığın içərisindən, həqiqətən, təkərəbənzər bir şey çıxmışdı. Həyətdə dövrə vurub ocağın işığında yanı üstə düşəndə görmüşdülər yuxayayandır.

Vəziyyəti belə görən Fatma arvad çox narahat olmuşdu. Təlaşla yan-yörəyə boylanıb:

– Durun, durun, içəri gedək, – demişdi.

Abdulla yerindən qımıldanmamışdı. Fatma arvad isə uçunurdu. Oğlana görə ürəyi quş ürəyinə dönmüşdü. Dirsəyilə oğlunun qoluna vurub yavaşca yalvarmışdı:

– Qurban olum sənə, ay oğul, dur içəri gedək. Görürsən sənlə düşünüşüblər, bunlardan nə desən çıxar.

Əlbəttə, düz deyirdi. Bunu Abdulla özü də yaxşı başa düşürdü. Başa düşürdü ki, ona sataşanlar buralarda, evin həndəvərindədirlər. Bunlar onları qaranlıqda görməsələr də, onlar bunları yaxşı görürlər. İstəsələr ona müxənnətlik edə bilərlər. Qara-qorxu, təhlükə ona bu qədər yaxın olsa da, Abdulla indi onların gözü qabağında durub tez evə keçməyi özünə sığışdırmadı. Əksinə, bir kösöv götürüb ocağı qarışdırdı, odunları daha da alışdırdı, daha da işıqlı elədi.

Səhər məktəbə gələndə gördü ki, uşaqların oturacaqları kör-kötük nə varsa hamısını dağıdıblar. Bir şey qalmayıb. Balta götürüb hamısını doğram-doğram eləyiblər. Bundan sonra məcbur olub məktəbləri üçün yer axtarmalı oldular. Harada? Sonra bu qərara gəlmişdilər ki, Qandalıbəyin imarətindən yaxşı bir yer tapa bilməyəcəklər. Birincisi, kənddə ondan başqa elə bir ev yox idi. Hamısı, demək olar ki, yeraltı qazmalar idi. İkinci bir tərəfdən otaqları çox idi. Özləri isə iki nəfər idi. Bir ana, bir qız. Qandalıbəyin özündən xeyli vaxt var idi ki, xəbər-ətər yox idi. Kimi deyirdi xaricə qaçıb, kimi deyirdi qaçaqlara qoşulub. Hər nə təhər Qandalıbəyin bir otağını sinif eləmişdilər. Çox yaxşı otaq idi, geniş, işıqlı. Bu otaqda Qandalıbəy vaxtilə qonaq-qara qəbul eləyirdi. Yemək-içməkləri bu otaqda olardı. Bəzən stolu eşiyə-eyvana çıxartdırardı. Bura həm də küləkdəyən idi. İsti havalarda sərinlənə-sərinlənə oturub çay içər, arvad-uşağı ilə dilxoşluq eləyərdi. O vaxtlar desəydilər ki, gələcəkdə sənin bu imarətini məktəb eləyəcəklər, kişinin bağrı çatlardı. Onun malına, qoyununa gedən sığırçı-buzovçuya da desəydilər ki, bir vaxt gələcək uşaqlarınız Qandalıbəyin otağında dərs keçəcək, yazı-pozu öyrənəcək, mahnı oxuyacaqlar, inanan olmazdı. Gəlib dünya elə dəyişdi ki, ağıla gəlməyən başa gəldi. Qandalıbəyin evinə, eşiyinə, dəm-dəsgahına uzaqdan, çəpər-çüpərin ardından boylanan cındıryoluq, ayaqyalın, başıaçıq uşaqlar gəlib başa keçdilər, evində, eyvanında sərçə tək civildəşməyə başladılar. İndi sinfə girib, hələ dərs başlamamışdan qabaq müəllim dönə-dönə tapşırmalı oldu:

– Uşaqlar! Ay uşaqlar!

Uşaqlar sevincək olmuşdular. Qulaqlarına heç nə girmirdi.

– Uşaqlar, sizinlə deyiləm?!

Uşaqlar müəllimi eşidib kirişdilər. Abdulla müəllim əllərini açdı:

– Belə olmaz axı, səs salırsınız!

Uşaqlardan kimsə dedi:

– Müəllim, deyirlər Qandalıbəy gəlib hamımızı qıracaq.

Abdulla müəllim tutulan tək oldu. Bu nə söhbətdir? Bunu kim çıxartmışdır? Uşaqları nə üçün qorxudurdular? Bu şəraitdə keçilən dərs, deyilən söz uşaqların yadında qalardımı? Gözləri daim qapı-pəncərədə olardı ki, Qandalıbəy budu gəldi, odu getdi. Abdulla müəllim bilmədi necə başa salsın ki, elə şey olmaz, onu heç ağlınıza gətirməyin.

Dilində «yox, belə şey olmaz» desə də, müəllim ürəyində Qandalıbəydən hər halda ehtiyat etməmiş deyildi. Fikirləşirdi ki, Qandalıbəy buralarda olsa, evinin məktəb edildiyini mütləq eşidəcək. Arada nə qədər şuğul var. Qandalıbəy də, sözsüz, narazı qalacaqdır. Ola bilsin lap acığı tuta, gözünü qan örtə, hücum çəkə camaatın üstünə. Böyük-kiçik qanıb-qandırmaya. Qızmış başda ağıl olmaz deyərlər, hər cür ola bilərdi. Müəllim özündən çox şagirdlərinin qeydinə qalırdı. Həm də nə günlə, nə çətinliklə qurduğu məktəbin hər hansı xoşagəlməz hadisənin ucbatından dağılmasını istəmirdi. Məktəb açmaq, uşaqları oxutmaq onun çoxdankı arzusu idi. Bu iş üçün oxumuşdu. Atası onu əvvəlcə molla məktəbinə qoymuşdu.

– Ay oğul, oxu, – demişdi, – camaatı allah yoluna çağır. Elə elə ki, oğurluq olmasın, ədalətsiz işlər görülməsin. Heç kəs heç kəsin xətrinə dəyməsin, çəpərinə daş atmasın.

Amma balaca Abdulla molla məktəbində oxumayıb qaçmışdı. Atası onu aparıb bir də molla məktəbinə qoymuşdu. O bir də qaçmışdı. Ata aparıb uşağı bir də mollaxanaya qoymuşdu. O bir də qaçmışdı. Kişi görmüşdü daha olmur, neyləsin. Onlara yaxın, az qala bitişik olan kənddə dördillik rus-tatar məktəbi varmış, uşağının oxumasını istəyən kişi aparıb indi də ora qoyur, özü də möhkəm-möhkəm tapşırır:

– Ay oğul, allaha bax, tanrıya bax, heç olmasa burada oxu. Qaçma. Elə eləmə, arzum gözümdə qalsın.

Bu dəfə balaca Abdulla qalıb oxumuşdu. Sən demə, elmə, oxumağa həvəsli uşaq imiş. Az vaxtda müəllimə özünü bacarıqlı, zehinli bir şagird kimi tanıtdırır.

Bir dəfə müəllimləri şagirdlərinə deyir:

– Uşaqlar, bu günlərdə bizim məktəbə bir qonaq gələcək. Ona inspektor deyirlər. Gəlir ki, görsün siz necə oxuyursunuz. Bir şey öyrənə bilirsinizmi. Bax, sizə tapşırığım budur ki, sıxılıb eləməyin, nə soruşursa ədəb-ərkanla ayağa qalxıb cavab verin. Qoy inspektor bilsin ki, siz müsəlman balaları da elm, savad öyrənə bilirsiniz.

– Yaxşı! – Uşaqlar söz verirlər.

Həqiqətən də, bir-iki gün keçmiş inspektor gəlir. Sarıyanız, saqqallı, göygöz bir kişiymiş. Sinfə girib deyir.

– Zdravstvuyte, rebyata!

Balaca Abdulla da təntidiyindən elə bilir ki, o bunların biliyini yoxlayır, nə öyrəndiklərini bilmək istəyir. Tezcə ayağa durur, indiyədək öyrəndiklərinin hamısını bircə-bircə sadalamağa başlayır.

– Vorobey, solovey, vorona, dver, okno.

Müəllim şagirdin bu yersiz hərəkətindən acıqlanır. Ağzını-gözünü əyib işarə ilə ona «Kiri! Otur!» – deyir.

Balaca Abdulla isə bülbül tək ötür:
– Çelovek, derevo, luna, solntse.
Müəllim dayana bilməyib ona acıqlanır.
– Otur aşağı!
Bunu inspektor eşidib əlini onun qabağına tutur:
– Niçeqo. Niçeqo. Puskay qovorit.
Uşaq hüdülləyib tökür.
– Bık, korova, loşad, ptisa.

İnspektor elə oradaca Abdullanın adını öz dəftərçəsinə yazır və müəllimə tapşırır ki, bu uşaq buranı qurtaran kimi onu Qoriyə göndərsinlər.

Həmin gün gəlib çatır. Abdullanın atası oğlunu yanına salıb pay-piyada Yağlıca deyilən yerdən aşıb Tiflisə gəlir. Orada stansiyada Qoriyə gedən qatarı birtəhər öyrənib, bilet alıb oğlunu vaqona mindirir. Aşağıda dayanıb ayaqlıqda durmuş oğluna öyüd-nəsihət verir:

– Ayə, başına dönüm, darıxıb eləmə. Biz sarıdan da fikrin olmasın. Sən özünə qulaq as, fikir ver. Oxumağına da gərək söz olmasın. Vaxt-vədə papağını fırlayanda gəlib-keçəcək.

Bu da yuxarıdan başını tərpədir:
– Yaxşı, ay qağa, yaxşı.

Qatar yola düşür. Taqqataq yellənib gedəndə atasının ürəyi durmur, kövrəlir, qatarın böyrüncə yüyürə-yüyürə yalvarır, nə yalvarır.

– Ayə, dərdin alım, düş. Ayə, qadan alım, düş. Ayə, başına dönüm, düş.

Bunu Abdulla müəllim özü belə mehriban-mehriban, xoş, şirin, ən əziz bir xatirə kimi çox danışmış, eşidənlər də məmnun qalmışdılar. Belə söhbətlər zamanı Abdulla müəllimin çiçəyi çıtlayırdı, hiss olunurdu ki, məktəb işinə çox həvəslidir. Həqiqətən də, Abdulla müəllim xalqının maariflənməsi işinə canını da qoymağa hazır idi. Bax, ona görə indi çalışırdı ki, məktəbi yaxşı təşkil eləsin. Bu barədə Talıb kişiyə, demək olar ki, hər gün danışırdı. Deyirdi ki, təkcə otaq əldə etməklə iş aşmır, məktəb üçün mütləq avadanlıq almaq lazımdır. Çünki uşaqların oxuması üçün heç bir şərait yoxdur. Uşağın biri oturanda, o biri otura bilmir, biri-birlərinin qollarına toxunurlar. Kağız-qələmi olan da dizinin üstə yazır. Şura sədri də gəlib məsələni rayon təşkilatları qarşısında qoymuşdu. Onlar da qəti söz verməmişdilər. Amma demişdilər ki, baxarıq, imkan olsa sizə kömək eləyərik.

Nəhayət, beş-on gündən sonra xəbər göndərdilər ki, gəlib aparsınlar. Bax, o gün kənddə əsl toy-bayram oldu. Məktəb avadanlığı ilə dolu arabalar Qandalıbəyin həyətinə gələndə uşaqlar dərsdə idilər. Pəncərədən görcək boylanmışdılar. Biri boğazını uzatdı, biri ayaq üstə qalxdı, digəri az qaldı pəncərənin ağzına çıxsın. Müəllim əli ilə onlara oturmaq işarəsi verdi.

– Sakit, uşaqlar, sakit! Oturun yerinizə. İndi mən baxaram, görüm bu nə arabalardır. – Müəllim belə deyib sinifdən çıxdı, amma elə o an da içəri qayıtdı. Üz-gözündən sevinc tökülürdü. Gülə-gülə dedi:

– Uşaqlar, məktəbimiz üçün avadanlıq gətiriblər. Sizi təbrik edirəm!

Bu nə avadanlıq idi? Nə olan şeydi? Necə deyərlər, evdə bişməmiş, qonşudan gəlməmişdi. Ona görə də uşaqlar bir şey başa düşmədilər, bir-birlərinin üzünə baxışa-baxışa qaldılar. Amma gözlərinin qarşısındaca gördülər ki, müəllimləri sevinc içərisindədir. Get-gedə daha da şənlənir.

– Uşaqlar, niyə durmusunuz, gəlin arabaları boşaltmağa kömək edək.

Uşaqlar da elə himə bənd idilər. Quş tək pırıldaşıb necə qalxdılarsa az qaldılar özlərini qapı-pəncərəyə vursunlar. Eşiyə çıxanda gördülər arabalardan oturacaqlar, stollar düşürürlər. Həm də elə qəşəngdirlər ki, baxdıqca adamın xoşuna gəlir. Hamısına da sarı rəng çəkilib. Xeyli də adam yığışıb onlara tamaşa edir. Elə baxırlar ki, deyirsən çeşidini çıxaracaqlar. Əlbəttə, belə şeyi harada görmüşdülər? Həmişə xalça-palaz üstə oturmuşdular. Bir də bunlar ona görə qiymətli, maraqlı idi ki, onları uşaqlar üçün gətirmişdilər. Gətirmişdilər ki, məktəbdə rahat otura bilsinlər, yazmaq üçün qabaqlarında stolları olsun. Bunu başa düşən valideynlər razı-razı başlarını tərpədib deyirdilər:

– Sağ olsun hökumətimizi, nə lazımdır eləyir.

Hətta bəziləri təəccüb edirdi ki, bu qədər avadanlığı pulsuz-parasız nə əcəb veriblər.

– Ayə, yavaş. Sındırarsan, – deyə stolları, stulları düşürəndə hərə bir yandan dillənib üsullu tərpənir, məktəbin avadanlığına ehtiyatla yanaşırdılar.

Uşaqlar da bunların dövrəsində şən-şən hərlənirdilər. Hətta sinifdəki körkötüyü çıxarıb bayıra tökəndə onlar da işə qoşuldular. Təzə avadanlığı içəri daşıyanda isə lap sevincək olmuşdular. Hərə birinin böyründən tutub deyirdi:

– Bax, bu mənimdir.

– Bu da mənimdir.

– Mənim stolum hamısından qəşəngdir.

– Mən stolumu lap qabağa qoyacağam.

Stolları üç cərgə düzdülər. Birini də qabağa, müəllim üçün qoydular. Hələ yazı taxtası da gətirmişdilər. Onu da divardan asdılar. Sinif otağı tamam dəyişmişdi. Baxdıqca adamın xoşu gəlirdi. İndi əsl məktəb idi. Oxumaq üçün az-çox şərait yaratmışdılar. Buna hələ uşaqlar bir yana qalsın, Abdulla müəllim onlardan çox sevinirdi. Gülümsəyə-gülümsəyə gah o cərgəyə, gah bu cərgəyə nəzər salır, stolların düzümünə fikir verir, düz qoyulmayanını çəkib düzəldirdi. Sonra da uşaqları iki-iki oturtdu. Talıb kişi ilə Çapar da içəri gəlmişdilər. Valideynlərdən də var idi.

– Uşaqlar, hələ sizin üçün hədiyyə də gətirmişik, – deyə Çapar qabağa gəldi. Müəllimin stoluna yaxınlaşdı. Hamı düşünürdü ki, görəsən, nədir? Nə ola bilər?

Çapar çiynindən asdığı dəri çantanı qabağa hərlədi, dizinin üstə qoyub açdı və içərisindən bir yekə qalaq dəftər çıxartdı. Gülə-gülə stolun üstə qoydu. Sonra da çantanın o biri gözündən bir ovuc karandaş çıxartdı, dəftərlərin böyrünə qoydu.

Müəllimin sevinci birə-beş artdı. Bilmədi Talıb kişiyə, Çapara necə təşəkkür etsin. Üzünü şagirdlərə tutdu:

– Uşaqlar, – dedi, – görürsünüzmü oxumağınız üçün indi hər bir şeyimiz var. Gəlin Talıb dayıya, Çapara söz verək ki, yaxşı oxuyacağıq.

Uşaqlar ya müəllimin dediyini başa düşmürdüər, ya da utanırdılar. Ona görə dillənib bir söz demədilər.

– Nə deyirsiniz, uşaqlar?

Uşaqlar yenə bilmədilər nə desinlər. Müəllim dedi:

– Yaxşı oxuyacağınıza söz verirsinizmi?

– Hə...ə.

Üstündən üç-beş gün keçmədi ki, bir səhər məktəbə gəldikdə gördülər uşaqların partalarını yenə eşiyə töküb qırıq-qırıq eləyiblər. Müəllim də, uşaqlar da, xəbər tutub gələn valideynləri də pis oldular. Belə insafsızlıq olardı?! Axı bunu nə günlə əldə etmişdilər. Bundan ötrü neçə idarəyə getmişdilər, minnət eləmişdilər, axırı birtəhər almışdılar. Onu da belə elədilər. Hamının gümanı Qandalıbəyə qaçdı. Bununla hamı bildi ki, Qandalıbəy heç yana getməyib, buradadır, gecələr evinə gəlib-gedir. O gündən işlərini bildilər. Elə ki gün batdı, bir-iki nəfər əlində tüfəng kəndin aralarında gizlincə hərlənirdi. Hər şeyə göz olurdular. Bir gecə isə bərk şübhələndilər. Belə ki, gecə Qandalıbəyin evində işıq bir-iki dəfə yanıb-sönmüşdü. Dedilər daha o yanı-bu yanı yoxdur, Qandalıbəy gəlib, evindədir.

Dan yeri sökülüb üfüqlər ağarışanda kəndin dörd yanındakı təpələrdə tüfəngli adamlar dayanmışdı. Xüsusilə Qandalıbəyin malikanəsini çox möhkəm mühasirəyə almışdılar. Şura sədri ilə köməkçisi kəndin arası ilə yanaşı gedirdilər. Onlar bir-iki ev keçib Qandalıbəyin imarətinə yaxınlaşdılar. Həyətdə ayaq saxlayıb qapı-pəncərəyə diqqət kəsildilər. Şura sədri səsini çıxartdı.

– Ev yiyəsi!

– ...

– Ay ev yiyəsi!

Səsə Məlahət xanım çıxdı. Talıb kişi ilə Çaparı gördü. Bunların belə tezdən əlləri tüfəngli onun qapısına gəlmələrinə təəccüb etdi. Qorxan tək oldu. Talıb kişi tam yəqinliklə dedi:

– Məlahət xanım, kişiyə de, eşiyə çıxsın, təslim olsun. Belə eləsə, hər halda onun xeyrinə olar. Hökumət nəzərə alar ki, özü təslim olub.

Çapar da ötkəm-ötkəm dedi:

– Onsuz da bu dəfə aradan çıxa bilməyəcək. Bax, hər tərəfi kəsmişik.

Məlahət xanım bir söz demədi, fikirli-fikirli onlara baxa-baxa dayandı. Sonra dedi:

– Orada niyə dayanmısınız, evə gəlsəniz.

Təklif Şura sədri ilə köməkçisini təəccübləndirdi. Bir-birinin üzünə baxdılar. Yəni bu bizi nə hesab eləyir? Başımızın altına yastıq qoymaq istəyir? Şura sədri ev sahibinə sarı çevrildi.

– İşimiz var, tələsirik.

Məlahət xanım təklif etdi:

– Yox, yox, Qandalıbəy deyir içəri buyursunlar.

Yenə tərəddüd etdilər. Nəhayət, Şura sədri qabağa düşdü. Çapar da onun ardınca gələndə Talıb kişi dedi:

– Bəylərin zatı qırıq olur, ehtiyatlı ol.

– Başa düşdüm.

Otaqda təkcə balaca Gülcahan idi. Bir neçə gün olardı ki, o da məktəbə gedirdi. Uşaqlara baxıb həvəsə düşmüş, anası da etiraz etməmişdi. «Evdə tək qalmaqdan uşaqların içərisində olması yaxşıdır», – demişdi. İndi oturub nəsə yazırdı. Talıb kişi ilə Çapar içəri gircək ayağa qalxdı, stoldan çəkilib kənarda dayandı. Bunu qız o qədər incə bir hərəkətlə etdi ki, səliqəliliyindən, ağıllı oturub-duruşundan Şura sədrinin xoşu gəldi, bura nə məqsədlə ayaq basdığını elə bil unudub qabağa getdi, əlini ehmalca, mehribanlıqla Qandalıbəyin qızı Gülcahanın çiyninə qoydu. Düzü, bunu Talıb kişi bir az ehtiyatla, çəkinə-çəkinə etdi, düşündü ki, qız birdən kənara çəkilər, ona pis baxar, o da pərt olar. Ancaq qız heç şey eləməyib sakitcə dayandı. Talıb kişi dedi:

– Niyə durdun, bala? Sən otur dərsini yaz, işində ol.

– Sonra yazaram. – Qız yenə ayaq üstə dayandı.

Talıb kişi bu ailə ilə yaxınlıq yaratmaq istədi. İstədi ki, onların gəlişindən qız sıxılıb eləməsin. Demək olmaz, uşaqdır, qorxub-eləyər, ürəyində bir sınıqlıq əmələ gələr. Mehribanlıqla soruşdu:

– Necə oxuyursan, qızım?

Talıb kişinin sözündə, səsində nəvaziş, qayğı hiss edən qızın könlü açıldı, şənlənən tək oldu.

– Yaxşı.

– Ay qoçaq! – Talıb kişi onun cavabından məmnun qaldığını, yaxşı oxumasından şad olduğunu bildirdi. Əlini qaldırıb bir ata kimi qızın saçını sığalladı. Sonra nəzərlərini otaqda gəzdirib, başının hərəkəti ilə Çapara eşiyə çıxmağı işarə etdi.

Onlar qapıdan çıxdılar. Məlahət xanım da dallarınca gəldi. Talıb kişi astadan dedi:

– Məlahət xanım, uşağın yanında danışmağı lazım bilmədim. Bir də ona mane olardıq. Başa salın bu nə deməkdir?

– Nə başa salım? – Məlahət xanım dilləndi.
– İndicə demədinizmi Qandalıbəy sizi evə dəvət edir?
Məlahət xanımın çöhrəsi allanmışdı.
– Dedim.
– Bə hanı?
Gözlədilər ki, Məlahət xanım danışsın, cavab versin ki, bu nə deməkdir? Onları niyə aldadır? Niyə onları ələ salır? Arvad olduğu yerdə bunlara nə cəsarətlə sataşır. Yoxsa əri Qandalıbəyə güvənir? Amma Məlahət xanımdan səs çıxmadı. Gördülər gözləri yaşla doldu. Özünü toxtaq tutub ağlamamaq istədisə də, mümkün olmadı. Barmaqlarının ucu ilə gözünün yaşını silib, titrək səslə, həm də acıqla dedi:
– Nə istəyirsiniz məndən? Niyə qoymursunuz azad nəfəs alım?
Talıb kişi çox pis oldu. Onun ağlamasından, belə sözlər deməsindən pərtləşdi. Məlahət xanımda bu cür xasiyyət yox idi. Səs-küy salsın, qarayaxalıq elsin. İndi, görünür, cana doymuşdu ki, özünü saxlaya bilmədi. Talıb kişi mehribanlıqla dedi:
– O nə sözdür, Məlahət xanım? Biz, əksinə, çalışırıq hamı qorxusuz-hürküsüz yaşasın. Hökumətimizin məqsədi budur.
– Sözünüzə inanım, yoxsa silahınıza?
– İkisinə də, Məlahət xanım. Tüfəngi də əmin-amanlığı qorumaq üçün götürürük.
– Eləsə, xahiş edirəm, siz də mənə inanın. İnanın ki, Qandalıbəyi mən də görmürəm. Çoxdan görmürəm. Nə ölüsündən xəbərim var, nə dirisindən. Sizə də acıqcan dedim. Neynim, görürəm inanmırsınız. – Məlahət xanım ağlaya-ağlaya danışırdı.
Talıb kişi dedi:
– Xahiş edirəm, Məlahət xanım, elə edin ki, uşaq ağlamağınızı görməsin. İndi məktəbə gedəcək, dərsə qulaq asa bilməz.
Məlahət xanım üzünü yana çevirib, yaylığını gözünə apardı.
Onlar həyətə düşüb evdən bir qədər aralananda Talıb kişi dedi:
– Bu necə işdir, qana bilmirəm.
Düzü, buna Çapar da məəttəl qalmışdı. Ona görə bayaqdan bəri bir kəlmə söz danışmırdı. Yalnız hərdən qaşlarını çatıb, gözlərini qıyıb fikirləşir, götür-qoy edirdi. Amma yenə də bu işdən bir şey qana bilmirdi.
Çaparla Talıb kişi oradan Şura idarəsinə gəldilər. İçəri gircək Çapar dedi:
– Sən də bunlarla çox qılıqla danışırsan, Talıb dayı.
Talıb kişi geri çevrilib arxasında dayanan köməkçisinə baxdı və təəccüblə soruşdu:
– Bəs necə danışım?

Çapar cavab verənədək yenə özü dilləndi:
– Asım-kəsim?
Çapar tüfəngini qayışından çiyninə keçirmişdi. Əlinə aldı, fikrini dedi:
– Hər halda öz sinfi münasibətini bildirməlisən. Yoxsa...
– Hə, nə yoxsa?..
– Qızının başını sığalla, özü ilə «xanım-xanım» deyə danış.
– Hm.
– Düz demirəm?
Talıb kişi Çaparın üzünə baxıb-baxıb çiynini çəkdi.
Çapar idarədən evə gələndə başında tüklü papaq, çiynində qara yapıncı olan yeznəsi Çalvadaroğlu təsbeh çəkə-çəkə onun qabağına çıxdı, gileyləndi:
– Ayə, başın hökumət işinə necə qarışıbsa, daha bizi yada salmırsan. Belə olmaz axı.
– Nə edim?! İşim çoxdur.
– İş həmişə var. Amma gərək bajı-cijini də yoxlamağa vaxt tapasan. Yoxsa bir-birimizi görməyə-görməyə yad oluruq. İndisə bəri dön, bizə gedək, bajın xəngəl bişirir, adama bir-iki yarpaq yeyərik.
Çaparın getməyə fikri yox idi. Əlacı olsa yeznəsi Çalvadaroğlunun heç üzünə baxmazdı. Görəndə beş-on addım aralı keçərdi. Ancaq nə etsin ki, bacısı Güləsərdən keçə bilmirdi. Onun xətrinə çox şeyləri udmalı olurdu. Buna baxmayaraq, getməmək üçün bir bəhanə gətirmək istəyirdi ki, Güləsər eşiyə çıxıb yolda qardaşını gördü. Ona əl eylədi.
– Bəri gəl, a bajın sənə qurban olsun, bəri gəl.
Bu da məcbur olub getdi.
Bir yekə sini xəngəl çəkib ortaya qoydular. Əlini bir tərəfdən Çalvadaroğlu uzatdı, digər tərəfdən Çapar. Hərəsi bir yarpaq götürüb ağzına aparırdı ki, məktəbin zəngi çalındı. Danq! Danq! Danq!..
Çalvadaroğlu elə bil diksindi. Əlindəki yarpağı bir azcana saxladı. Sonra tez ağzına apardı, zəngin səsindən əsəbiləşdiyini büruzə verməməyə çalışdı. Yeyə-yeyə dedi:
– Bajın xəngəlin ustasıdır. Görürsən necə yaxşı bişirib.
Çapar başını tərpətdi:
– Yaxşıdır.
– Quruduna, yağına da söz ola bilməz.
– Hə.
– Qorxuram axırda bizi buna da tamarzı qoyasınız.
Çaparın əli elə bil havada dondu. Bildi ki, yeznəsi sözü haradan vurur, nə məqsədlə deyir. Bildi ki, onun qarnına azar hardan dolub.

Qalın bığlarının altından Çalvadaroğlunun iri balta dişləri göründü.

– Zarafat eləyirəm, ə, – dedi. – Öz aramızdı, sənin də acığın ovcundadır.

Çalvadaroğlu yaman siyasətcil adam idi, amma özünü elə aparırdı ki, guya zarafat edir.

Çapar bir istədi partlasın, sonra nə fikirləşdisə acığını içərisində boğub dinmədi.

Bir az sonra Çalvadaroğlu göy atına minib harasa yola düşəndə gün yaxmaq üzrə idi.

– Belə vaxtlarda bu kişi hara gedir? – deyə Çapar şübhəli-şübhəli onun ardınca baxdı. Başa düşürdü ki, bu elə-belə, boş-boşuna deyil. Ancaq başa düşə bilmədi ki, bu nə ola bilər? Anası qara torpaqdan bir azcana qabarıq qalxan qazmanın qabağında kör-kötüyün üstünə atdığı paltar-palazı yığışdırırdı. Xəbər aldı:

– Ay ana, göyün hara gedir?

– Hanı?

– Odur ey! – Çapar əlini Çalvadaroğlunun getdiyi səmtə uzatdı. Arvad əlini qaşının üstə qoyub baxdı. Gözü iti idi. İynəni saplayırdı.

– Nə bilim, ay oğul, – dedi, – onun qarnının azarını bilmək olmur.

Anasının belə deməsi Çaparın marağını artırdı. Nə fikirləşdi, nə fikirləşmədisə gedib atı minib yeznəsinin ardınca yola düşdü. Daha doğrusu, atı yeyin sürüb yan tərəfdən hərlənərək yolun qalınlığında kişinin qabağını kəsdi. Gördü yeznəsi qabağına on-on beş mal salıb harasa aparır. Çapar heyvanları tanıyırdı. Çalvadaroğlunun özünün mal-qarasından idi. Təəccüblü burası idi ki, günün belə dönən vaxtında camaat heyvanı çöldən yığıb qapıya gətirəndə bu, tərsinə iş görürdü. Yox. Burada nəsə vardı. Ya satmağa aparırdı, ya da aparıb haradasa gizlədəcəkdi. Xülasə, Çalvadaroğlu mal-qarasını aradan çıxarmaq istəyirdi.

Çapar onu uzaqdan-uzağa qorxuzmaq istədi. Tüfəngi qaldırıb tətiyi çəkdi. Axşamın ala-toranında necə gurultu qopdusa heyvanlar dayandı. Çalvadaroğlu atın başını çəkdi. Çapar tüfəngi bir də doldurub atdı. Heyvanlar da hiss etdilər ki, bu şaqqıltı qarşı tərəfdən gəlir. Ona görə hürküb qabağa getmədilər. Bir-ikisinin də ağzı geri döndü. Atın üstündə qaşlarını çatıb fikrə getmiş Çalvadaroğlu mal-qaranı sürüb getmək qərarından döndü. Atı yan tərəfdən irəli sürüb mal-qaranın ağzını geri çevirdi.

Səhər obaşdan Talıb kişi, Çapar, yenə bir-iki nəfər tüfəngli adam kənddə idi.

– Kəndin heyvanını siyahıya alırıq, – deyə orda-burda mal-qaranın qabağını kəsib sayırdılar. – Bir, iki, üç...

Çalvadaroğlu mal-qarasını tövlədən təzəcə çıxardırdı ki, üstünü aldılar. Səhər-səhər onun qanı yaman qaraldı. Qayınından acığı gəldisə də, özünü o yerə qoymadı?

– Xeyir olsun?

Talıb kişi dilləndi:

– Xeyir olmayanda nə var, eləcə kimin nə qədər heyvanı var ocığazı yazırıq.

Çalvadaroğlu bic adam idi. O dəqiqə məsələni qandı. Qandı ki, axşamkı əhvalat bu işlə əlaqədardır. Bildi ki, bu işdə qayınının əli var. Onun çəpərinə daş atanlardan biri də odur. Dünən gecə heyvanın qabağını kəsən bu olubdur. Qapısına gəlmiş bu adamlardan zəhləsi getsə də:

– Hə, neynək, – dedi. Və başını əyib çardağın altına girdi. Gedib tövlənin ağzını açdı. İçəridən bir-iki inək, bir-iki düyə, iki dana, sonra da dörd-beş qoyun çıxdı. Bunlar çıxdıqca Çapar kənarda durub bir-bir sayırdı. Daha gəlmədiyini görcək yeznəsinə baxdı. Çalvadaroğlu onun üzünə bozardı:

– Nə var?! Çeşidimi çıxardacaqsan?!

– Elə bu?

– Özün dama gir, gör yenə varmı?

Çapar özünü tövləyə saldı. Tövlə boş idi. Pərt oldu. Başa düşdü ki, Çalvadaroğlu onu aldadıb. Axşam bir bölük malı onun gözü qabağında tövləyə salsa da, hiyləsindən, əməlindən əl götürməyib. Onu arxayın salıb, başının altına yastıq qoyub. Özü isə mal-qaranı qaçırdıb. Dilxor-dilxor tövlədən çıxıb əlini-əlinə çırpdı.

– Daha heyvan yoxdur, – dedi.

Talıb kişi başa düşdü ki, Çalvadaroğlu onlara kələk gəlib. İş-işdən keçdiyini görüb bir söz demədi. Çapara:

– Gedək, – deyib başını tərpətdi.

O gün Şura idarəsində bu barədə xeyli söhbət oldu. Hamı bilirdi ki, Çalvadaroğlunun malı-qoyunu az deyil. Bəs o heyvanları neyləmişdi? Bəlkə, satıb pul eləmişdi? Bəlkə, başqa yerə aparmışdı? Hər nə təhər bu işi belə qoymaq olmazdı. Öyrənmək lazım idi. Ancaq ondan-bundan nə qədər soraqlaşdılarsa, gördüm deyən olmadı.

Çalvadaroğlu da yatmamışdı. Bilirdi ki, onunla möhkəm maraqlanırlar. Hər addımını izləyirlər. Bilirdi ki, qayını Çapar heç nədən keçən deyil. Ona görə ehtiyatını əldən buraxmırdı, özünü fağır aparır, danışığına, sözünə-söhbətinə fikir verirdi. Ancaq qayınından ağzıburuq gəzirdi. Gediş-gəlişləri kəsilmişdi. Həmişə bacısı uşaqları tez-tez onlara gələrdi. Daha o da yox idi. Elə bil bir-birlərini heç tanımırdılar. Bir gün anası Çapara dedi:

– Ay oğul, bu qızı görmürəm, mənə dəyməmiş durmazdı.

Çapar bilsə də, anası kimi deyir, yenə xəbər aldı:

– Qız kimdir?

– Bacını deyirəm, Güləsəri.

– Mən nə bilim?

– Sən də görmürsənmi?

– Yox.
– Özüm gedib bir xəbər bilim.
Çapar etiraz elədi:
– Sən niyə gedirsən?! O gəlib səni yoxlasın. Uzaq deyil ki?! Beşcə addımdır.
Çapar belə deyəndə anası ayaq saxladı. Gecdən gec dedi:
– Eləsə, sən yoxla bajını, dərdin alım... Ərinin də xasiyyəti birtəhərdir, tünd adamdır. Bajının xətrinə sən də onlarla bir az yumşaq dolan.
– Mən ona yaxşılıq eləmək istəyirəm, ana. Amma o başa düşmür.
– Necə, ay oğul?
– Görmürsənmi, mal-qoyununu gizlədib. Hamı bilir ki, azdan-çoxdan dövləti var. Sonra ondan haqq-hesab çəkəndə nə cavab verəcək?!
Qoca arvad bir qədər susub dedi:
– Bəs yekə kişi bunu özü bilmirmi?
Çapar çiynini atdı:
– Nə bilim?.. Bilsə də, eləmək istəmir. Görünür, var şirin şeydir.
– Eh! Qandalıbəyin mal-qoyununu dünya tutmurdu. İndi hanı?
– Onu göyün Çalvadaroğluna de. – Çapar rişxəndlə gülümsədi.
Bu yerdə Güləsər təsadüfən söhbətin üstünə gəlib çıxdı. O, ətli-canlı, xanım-xatın arvad idi. Ayaqlarının üstünə düşən büzməli donu, gen-bol tikilmiş yaxası qırçınlı koftası boy-buxununu bir az da iri göstərirdi. Həmişə də başına ipək şərf örtər, onu heç vaxt bağlamazdı. Elə-beləcə atar, çiyinləri, yaxası, yaraşıqlı boyun-boğazı bütüncə şərfin qızılı saçaqları ilə haşiyələnirdi.
– Xoş gəlmisən, ay bajı! – Çapar sevincək onun qabağına getdi. – Çoxdandı görmürdüm, xeyir olsun, nə yaxşı bizi yada salmısan, yoxsa yol azmısan?
Sən demə, Güləsərin dərdi varmış. Balaca bir şeyə bənd imiş. Qardaşına cavab vermək əvəzinə üzünü yana çevirdi, şərfinin ucunu gözünə apardı. Qardaşı hiss etdi ki, nəsə var.
– Nə olub, bajı?
– Nə olacaq! – Güləsər ağzının qıfılını açdı. – Mənim günüm qapıda itin günüdən pisdir. Heç nədən evdə hər gün davadır. Adam nə qədər döyülüb-söyülər? Daha dözə bilmirəm. Sənə görə kişi məni yaman incidir. – Çapar başa düşdü ki, bacısıgildə vəziyyət necədir. Güləsərə az-çox bələd idi. Bilirdi ki, hər xırda-para şeyi söz eləyən deyil. İndi gör nə yerə çatıb ki, Güləsər şikayətlənir. Ancaq qardaş nə etsin, ona nə cavab versin, bacısının dərdinə necə əlac qılsın, vəziyyətini necə yüngülləşdirsin? Başqa şey soruşdu:
– Uşaqlar necədi, bajı?
– Sağ ol, a dayısı, əllərini öpürlər.
– Məktəbə gedirlərmi?
– Gedirlər.

– Bax elə et ki, məktəbdən bir gün qalmasınlar. Oxumaqları necədir?

Çapar elə həvəslə, elə maraqla söhbət etdi ki, Güləsər dərdini unudub ona sarı çevrildi. Uşaqlarının hərəkətlərindən, oxumaqlarından razı halda danışdı.

– Yaxşıdır. Məktəbdən gələndə dil-dil ötürlər. Elə bil sərçə başı yeyiblər.

Çaparın da çöhrəsi gülüşlə doldu.

– Ay Çapar qağa, Çapar qağa! – deyə bir dəstə uşaq onların həyətinə yüyürdü. Uşaqların hərəkətlərindən, təntik danışıqlarından məlum idi ki, nəsə təcili xəbər var, fövqəladə hadisə baş verib. Çapar təlaşla:

– Nə olub? – dedi.

– Çapar qağa! – az qala uşaqların ürəyi çıxacaqdı. Danışa bilmirdilər. – Biz məktəbin həyətində oynayırdıq. Bir də gördük...

Çaparın marağı daha da artdı. Xəbəri tez eşitmək istədi.

– Nə gördünüz?

– Gördük məsciddən bir adam çıxıb sinə-sinə yolun altına keçdi. Ordan da dərəaşağı qaçdı. Amma tanıya bilmədik. Bura adamı deyildi.

Çapar əlini üzünə apardı, fikirli-fikirli çənəsini ovuşdurdu. Uşaqların şübhəsi hər halda əbəs deyildi.

– Əşi, hər kim idi, çıxdı cəhənnəm oldu getdi, – deyə ana-bacısı onu sakitləşdirmək istədi. Çapar isə bərk narahatlıqla düşünürdü ki, bu kim olar? Durub məscidin yanına gəldi. Bir kənarda dayanıb gizlin-gizlin yan-yörəyə boylandı. Bir kəs yox idi. İrəli gedib məscidə daxil oldu. Uşaqlar da istədilər onun ardınca gedələr. Amma cəsarət etmədilər. Qorxdular böyüklər danlaya ki, sizin burada nə işiniz var. Eşikdə dayanıb intizarla Çaparı gözlədilər. Bir də gördülər öz tüfəngindən başqa əlində bir tüfəng də Çapar eşiyə çıxdı. Molla Bidad da onun ardınca çıxaraq deyirdi:

– Başın haqqı, ay Çapar, xəbərim yoxdur. Kimsə gəlib palazın altına qoyub gedib, mən neynim?!

– Sən buranı çoxdan bandit yuvasına çevirmisən. Müəllimə də tüfəngi buradan atırmışlar, – deyə Çapar çox sərt danışdı.

Bir neçə gün keçmiş məscidin qabağına gətirib bir araba taxta-şalban tökdülər. Şaqqıltıya Molla Bidad hövlnak eşiyə çıxdı. Talıb kişi ilə Çaparı görcək dalağı sancdı. Bildi ki, iş boş-boşuna deyil. Daha onlardan bir söz xəbər almayıb üzünü arabaçıya tutdu:

– Bu nədir?

Cavabını Çapar verdi:

– Taxta-şalbandır, allah göndərib, molla əmi.

Molla Bidad daxilən əsəbiləşib beyninin qanı kəlləçarxa çıxsa da, zahirən özünü sakit tutmağa, təmkinli olmağa çalışdı. Təsbeh çevirə-çevirə:

– Allahdan qorx, oğlum, – dedi. – Onda işin olmasın.

Çapar əllərini açıb uca səslə dedi:

– Nə qəbahət iş görürəm ki, qorxam? Olan sözü deyirəm ki, bu taxta-şalbanı allah göndərib.

Bu dəfə molladan səs çıxmadı. Elə bil kişinin nitqini bağlamış, ixtiyarını əlindən almışdılar. Çapar əlini onun qabağında oynatdı:

– İnanmırsan, molla əmi?

Molla Bidadın indi də səsi çıxmadı.

– Göndərib ki, biz buranı bax, bu məscidə bitişik otağı dükan eləyək. Deyir camaat yazıqdır, min cür dərdi-azarı var. Bir çıraq nöyüt də tapmaq olmur. Camaatın əyin-başı da yoxdur. Pal-paltar da gətirərik, öz dükanımız olar.

Molla Bidad Çaparın tutarlı sözləri, məntiqi danışığının qarşısında özünü itirmişdi. Bir söz deyə bilmirdi. Gecdən gec pörtmüş halda bircə bunu deyə bildi:

– Küfür danışma. Allah evində alqı-satqı olmaz.

– Səhvin var, molla əmi. Əvvəla biz allah evinə dəymirik. Bayaq dedim ki, yalnız ona bitişik olan bu otağı götürürük. İkincisi də bu, dövlət dükanı olacaq. Hər kəsin puluna minnət. Əksinə, allah özü də razı qalacaq ki, bəndələri üçün bir gün ağlanır. Uşaqlarımız şərqi oxuya-oxuya konfet alacaqlar dükandan. Ağızları şirin dadıyacaq. Buna allah özü də şad olar.

Molla Bidad birdən dəli tək əllərini qaldırıb qışqırdı:

– Ay camaat! Ay camaat! O bir olan allahın evini qoruyun. Qoruyun bu kafirlərdən. Qoymayın allahın evini onlar əlimizdən alsınlar. Allah razı qalar sizdən. Xatadan-bəladan qoruyar sizi. Axirət dünyasında məkanınız behişt olar.

Qara-qışqırığa o qapıda, bu qapıda adamlar göründü. Molla Bidad hələ də səsinə güc verirdi. Özünü yeyib-yırtırdı. Boğazının damarları şişib-qalxırdı. Buna baxmayaraq, bir adam yaxın gəlmədi.

Səhəri gün həmin yeri boşaltdılar. Sonra əhəng tapıb içərisini ağartdılar. Səliqəli piştaxta düzəltdilər. Sonra gedib rayon mərkəzindən bir araba ayın-oyun gətirdilər. İlk gündən dükana gedib-gələnin ayağı kəsilmirdi. Kimi parça, kimi sabun, kimi qənd-çay alırdı. Azdan-çoxdan qırıq-sökük tapılırdı. Bir neçə gün sonra isə gedib bir yekə dəmir çəllək neft gətirdilər. Dığırlayıb arabadan birtəhər yerə saldılar. Hamı neft alıb aparırdı. O axşam, demək olardı ki, hər evdən işıq gəlirdi. Həmişə çox tezdən yatardılar. Bu gün isə söz-söhbət kəsilmirdi. Hamı dükandan danışıb, deyirdi:

– Dükan açanların ömrü uzun olsun. Həmişə işıqlıqda olsunlar. Gözümüz işıq gördü.

Amma bundan bir neçə gün sonra hələ axşamdan kənddə hay-haray qopdu ki, dükan yandı.

Eşidən, görən hamı yüyürdü. Həqiqətən, dükan yanırdı. Alov göyə dirək olmuşdu. Çathaçat elə yanırdı ki, deyirdin daşına da neft töküblər. Dükanın qapı-

pəncərəsindən dartılıb uzanan alovun işığından həmişə zil-qaranlıq olan yan-yörə indi süd kimi idi. Kimi səhəngini gətirib alovun üstünə boşaldır, kimi torpaq atır, hərə bir şey edirdi. Adamların belə fədakarlıqla işləməsinə baxmayaraq, yanğını keçirmək mümkün olmadı. Səhər, işıq gözünə baxanda gördülər ki, dükanda ələ gələn heç nə qalmayıb, az qala mismarınadək yanıb kül olub.

– Lənətə gəlmişlər, bizi niyə mağmın qoydunuz, – deyə başı çalmalı, ağızları yaşmaqlı arvadlar baxıb dönə-dönə qarğış yağdırdılar.

Talıb kişi ilə Çapar isə dodaqlarını çeynəyirdilər.

Bir azdan molla Bidadı tüfəngin qabağına salıb Şura idarəsinə gətirdilər. Əli-ayağı əsir, gözlərini döyürdü. Talıb kişi onu oturdub dedi:

– Ağlın nə kəsir bu işdən, molla Bidad?

– Ağlımın baltası yox, dəhrəsi yox, nə kəsəcək?! Allahın işidir.

Biri bir sözü düz danışmayanda, doğru deməyəndə Çapar götürə bilmirdi. İndi də dayana bilməyib böyürdən ijməli-ijməli dedi:

– Düzdür. Allahın işi olacaq. Çünki camaatın birinci «düşməni» allah özüdür.

Molla Bidadın gözlərindən elə bil cin çıxdı.

– Əstafürullah de.

– Niyə?

– Çünki allah adildi, allah rəhmdildir. Odur bəni-aləmi dərgahında saxlayan.

Çapar acıqla əlini ona uzatdı, az qaldı barmaqlarını kişinin gözünə soxsun.

– Ay kişi, indicə demədinmi ki, dükanın yandırılması allahın işidir?

Molla Bidadı elə bil divara qısnadılar. Özünü tamam itirdi, əvvəlcə dili topuq çaldı, sonra birtəhər özünü ələ alıb dedi:

– Düz mültəfit olmamısan. Mən dedim ki, bu işi allah bilər.

Çaparın başına elə bil qapaz vurdular. Əsəbi-əsəbi:

– Bura bax, – dedi, – pis-pis işləri görüb, niyə allahın üstünə atırsan? Özün də mollasan, ayıb deyilmi?

Molla Bidad üzünü Talıb kişiyə tutdu:

– Bu nə danışır, Talıb kişi?!

Talıb kişi nə onun üzünə baxmaq istədi, nə də sözünə qulaq asmaq. Molla Bidad isə az-çox ona ümidli idi. Çapardan ağlı bir şey kəsmirdi.

– Dinim haqqı, imanım haqqı, Talıb kişi, heç şeydən xəbərim yoxdu. Bu xatalı işlərdən mən uzağam.

Məktəbdə də söhbət bu haqda gedirdi. Müəllim dərs keçmək istəyirdi, uşaqlarsa dil boğaza qoymur, dükanın yanmasından danışırdılar.

– Dərsimi oxuyurdum, birdən haray qopdu.

– Soyunub yerimə girmişdim ki, qışqırdılar.

– Booy, elə yanırdı ki, alovu adamın üzünü yandırırdı.

– Dükanı yandıran adamı görsəydim bilirsiniz nə edərdim? Odlayardım onu.

– Başına daş salardım, canı çıxardı.

– Ağacla təpəsinə, gözünə o qədər budayardım ki, leş olardı.

Gücləri çatdı-çatmadı uşaqlar elə danışırdılar ki, Abdulla müəllimin onlardan xoşu gəldi. Uşaqların mərd, mübariz olmalarından ürəyi dağa döndü. Yeni quruluşun nailiyyətlərini qorumaq əzmində olmalarından şad oldu. Abdulla müəllimin şagirdlərindən o qədər xoşu gəldi ki, imkanı olsa hamısını qolları arasına alar, qucaqlayıb bağrına basardı. Dükanın yanmasından dilxor olmuş, qanı qaralmış müəllimin indi üzü-gözü gülürdü. Orada, dükanda kənd, ümumi camaat nə isə qırıq-sökük itirmişdisə, burada, məktəbdə Abdulla müəllim tapmışdı. Əsas bu idi. Adamlar idi.

Abdulla müəllim dərs keçməzdən əvvəl uşaqlara bu barədə danışmağı lazım bildi. Qoy onlar xeyirlərini-şərlərini başa düşsünlər, yaxşını pisdən ayıra bilsinlər.

– Uşaqlar, görürsünüzmü, – dedi, – düşmənlərimiz hər bir pis əmələ əl atırlar. Onlar elə alçaq işlər, pis hərəkətlər edirlər ki, bizə mane olsunlar.

Bu ara bayırda tüfəng atıldı. Uşaqların diqqəti müəllimdən yayındı, tez yerlərindən durub eşiyə qaçdılar. Abdulla müəllim də onların ardınca dabanbasaraq eşiyə çıxdı.

Gördülər Şura idarəsinin qabağında qalmaqal qopub. Çığırtı-bağırtı kəndi başına götürüb. Yüyürdülər. Gələndə gördülər molla Bidadın oğlu Müsəllim tüfəngi üzünə qaldırıb:

– Buraxın mənim atamı! Hamınızı qıraram! – deyir.

Abdulla müəllim heç bilmir iş nə yerdədir. Nə olub. Qalmaqal nəyin üstə düşüb. Buna baxmayaraq, özünü tez qabağa verdi.

– Bir dayan görək, – deyə Müsəllimə yaxınlaşdı.

Müsəllimin gözünü qan örtmüşdü. Dalı-dalı gedib tüfəngin lüləsini müəllimə tuşladı.

– Yaxın gəlmə, vurajam!

– Dəli olma, məni niyə vurursan?!

Hamı quruyub qalmışdı. Vurdu, vurdu, nə demək olar. Çapar özünü qəfildən Şura idarəsindən eşiyə necə tulladısa havada qızıl quş tək süzüb Müsəllimi bükələklədi. Tüfəng qarışıq onu altına aldı. Necə oldusa tüfəng açıldı. Hamı diksinib geri tullandı. Yaxşı ki, bir adama xəsarət toxunmadı. Onadək ordan-burdan cavanlar tökülüşdülər. Müsəllimi tezcə danaboynu elədilər, əllərini arxasında bağladılar. Atasını buraxıb özünü damladılar. Fikir belə idi ki, səhəri gün rayon mərkəzinə aparsınlar.

Şər vaxtı molla Bidadın həyətindən səsi gəlirdi.

– Bisimillahi rəhmani rəhim. Qulfu vallahi əhəd, allahu hüssəməd. Ləm gəlid, vələm yüləd, vələm yəkun, ləhu küffən əhəd.

Müsəllim isə otun üstə yıxılıb acığından heyvan tək o yan-bu yana ağnayır, qollarını dartıb açmaq istəyirdi. Gücü çatmadığını görüb hirslənir, başını dirəyə döyürdü.

Səhər gördülər Müsəllim nə gəzir? Lələ köçüb yurdu qalıb. Biləyinə bağladıqları ipi açıb qapının ağzına tullayıblar. Keşikçi Xallı da kalafada zarıyır. Başından ağacla necə vurmuşdularsa, kişi bildirmi ölübsən, bu ilmi. Başı yarılmış, qan axıb saçlarının arasından qulaqlarının dibində laxtalanmışdı, amma ölməmişdi. Nəfəsi üstündə idi. Tez kişini kilimin arasına qoyub evə gətirdilər. Əsgi yandırıb yarasına basdılar. Arvadı «Booy! Booy! Evim yıxıldı, balalarım yetim qaldı!» – deyə ikiəlli dizlərinə vurur, uşaqları burunlarını çəkib ağlaşırdılar.

Hamı məəttəl qalmışdı. Kimin işi idi? Molla Bidadın oğlu Müsəllimə belə təcili kömək edən, gəlib onun əlini-qolunu açıb özünü də götürüb gedən kim idi?

Axşam Talıb kişi, Abdulla müəllim, Çapar Şura idarəsində o barədə söhbət edirdilər. Talıb kişinin stolu pəncərə tərəfdə idi. Bir ucu pəncərənin çərçivəsinə toxunurdu. Qapı stolun qabağında idi. Açıb içəri daxil olan Talıb kişinin qabağında dayanmalı olurdu. Üzbəüz divar isə bir azca gendə idi. Ora uzunsov oturacaqlar qoymuşdular. Gələnlər sıra ilə onlarda otururdular.

Talıb kişi stolunu otaqda başqa yerə qoya bilərdi. Bir az yuxarı başa, küncə çəkə bilərdi. İlk əvvəl stolu elə yuxarıda idi. Amma hiss eləmişdi ki, oradan eşiyi-bacanı görməyib bərk darıxır. Ona görə stolunu sürüyüb pəncərənin qabağına gətirmişdi. Burada oturanda özünü eşikdə hiss eləyirdi. Gələnə-gedənə baxırdı. Kim hayana gedir, kim hayandan gəlir. Camaatın müəyyən dərdini-azarını buradan görmək, öyrənmək olurdu.

İndi də öz yerində, pəncərənin qabağında oturmuşdu. Abdulla müəllimlə Çapar onunla üzbəüz əyləşmişdilər. Abdulla müəllim ayağını ayağının üstündən aşırıb əllərini dizlərinin üstündə çarpazlamışdı. Fikirli idi. Çapar dodağını çeynəyə-çeynəyə öz-özlüyündə nəyi isə götür-qoy edirdi.

– Əşi, bu da lap canı çıxa-çıxa yanır, – deyə Talıb kişi əlini uzadıb stolunun üstündəki lampanın fitilini burub qaldırdı. O da azca işıltı ilə yansa da, tezcə zəifləyib öləziyirdi. Lampanın nefti az idi. Şüşənin ucu sınıqdı. Kağız yapışdırmışdılar. His eləyirdi.

– Ayə, kibritim yoxdur. Bu da, demək olmaz, sönər, qoyun bir papiros yandırım, – deyə Talıb kişi əlini cibinə salıb tənbəki qutusunu çıxartdı. Açıb qəzet kağızından bir papiros eşdi. Ağzına alıb lampadan yandırdı. Dərin qullab vurub nəsə demək istəyirdi ki, Abdulla müəllim onu qabaqladı.

– Bir-iki məsələ var ki, onlar haqqında da düşünməliyik, Talıb kişi.

– Nə məsələdir?

– Biri odur ki, məktəb üçün qışa odun tədarük etmək lazımdır. Sonra elə olmasın ki, camaatın uşağını sətəlcəm eləyək.

– Odun asan işdir. – Çapar yerindən dikəlib dilləndi. – O məsələ cavanların boynuna.

Abdulla müəllimin üzü güldü. Bilirdi ki, bu cavan oğlan dediyini eləyəndir.

– Sağ ol, Çapar. Məktəbə elə can yandırırsan ki, uşaqların səndən ötrü əli uzalıdır. Xətrini çox istəyirlər.

Çaparın işə belə yaramasından xoşlanan Talıb kişi şən əhvalla o biri məsələni xəbər aldı.

– Hə, özgə hansı işi görmək lazımdır?

– Kəndimizdə məktəbdən kənar çox uşaq qalıb. Məsələ burasındadır ki, nə müəllimimiz var, nə də sinif otağımız. Necə olacaq, bilmirəm.

Çapar tez dilləndi:

– Müəllim işi çətindir, yoxsa sinif otağına nə var.

– Sən sinif otağı tap, müəllim mənim boynuma, – deyə Abdulla müəllim xüsusi bir işgüzarlıqla, sabaha inam hissi ilə danışdı.

Talıb kişi də, Çapar da təəccüb qaldı: haradadır müəllim? Amma hiss olunurdu ki, o, ürəyində kimisə tutub, haradasa müəllim yeri eləyib. Yəqin ki, başqa yerdəndir. Yoxsa onların kəndində müəllimliyə layiq ikinci bir adam yox idi.

– Məlahət xanımı deyirəm. Qandalıbəyin arvadını! – Abdulla müəllim, nəhayət, öz namizədini göstərdi. – Məktəb bitirib. Savadlı adamdır. Razılaşdıra bilsək, çox yaxşı olar. Bu həm onun özünə xeyirdir, həm də bizə, camaata.

Bu belə dedikdə Çapar başını bulayırdı. Abdulla müəllim sözünü qurtaranda fikrini qəti dedi:

– Olmaz! Çünki bəy arvadıdır. Bizim sinfi düşmənimizdir. Uşaqlarımızı ona tapşıra bilmərik, sonra üstümüzə qaldırar.

Güman etmək olardı ki, Talıb kişi də onun sözünü deyəcək. Ancaq başqa söz dedi:

– Ayə, a Çapar, – dedi, – sən də elə söz danışırsan ki, bişmiş toyuğun gülməyi gəlir. Uşaqların topu yox, tüfəngi yox, üstümüzə qalxıb nə qayıracaqlar?!

– Uşaqların beyinlərini zəhərləyə bilər. Beyinin tüfəngi daha dəhşətli olur, Talıb kişi.

Talıb kişi çiynini atıb daha danışmadı, gecdən gec otağı xəbər aldı.

– Bəs sinif otağını hardan tapırdın?

Belə şeylərdə isə Çapar cəsarətli idi. Yox yerdən nəsə bir şey tapırdı.

– Qandalıbəyin evinə nə olub? Biz bircə otağını tutmuşuq. Alt gözü başdan-başa boşdur, bir sinif də aça bilərik.

Şura sədri müəllimə baxdı:

– Yaxşı, müəllim işi hələlik qalsın. Bəs bu necə olar?

Çaparın bayaqkı sözünə dilxor olmuş Abdulla müəllim tez cavab vermədi. Fikirləşməli oldu. Çapar isə onlara baxıb qımışdı, acıqları tutsa da, dedi:

– Suyu yaman üfürə-üfürə içirsiniz.

Talıb kişi köməkçisinin xətrini çox istəyirdi. Onun mərd, qoçaq, mübariz olmasından xoşu gəlirdi, hər bir işdə onu müdafiə etməyə çalışırdı. Amma bu sözündən xoşu gəlmədi. Atmaca ilə cavab verdi:

– Hə, nə qayıraq? Deyirlər suda zəli var.

– Hm. Xırıldamaqdan qorxursunuz.

– Bəs nə bilmisən?! – Talıb kişi sərt danışdı. – Qan tökmüşük, qurbanlar vermişik, dövlət qurmuşuq, indi onu gərək ağılnan, başnan idarə eləyəsən. Babam mənə kor dedi, gələnə-gedənə vur dedi, olmaz! Öz aramızdır, Çapar, sən bəzən cavanlığına salıb səhv eləyirsən.

– Xeyr. Mənim inqilab yolum həmişə düz olub. Səhvim varsa göstərin.

– Molla Bidada qarşı kobud hərəkət etdik. Tüfəngin qabağına salıb gətirdik.

– O sözü sən niyə deyirsən, Talıb dayı? Qoy camaat desin. Görürsənmi dükanı yandıran adamları indi də söyürlər.

– Hər halda bizim hərəkətimizdən narazı qalanlar da olub. Kənddə söz-söhbət gəzir. Hələ şüur o dərəcədə deyil.

– Hər deyilənə qulaq assan onda gərək yaşamayasan. Bir də camaat görmürmü ki, məscid qaçaq-quldur yuvasına çevrilib. Bunu məktəb uşaqları da bilir. Dükanı orada açdıq ki, göz qabağında olsun.

– Dediklərinin hamısı düzdür, ay qadan alım. – Talıb kişi həlimləşib quzuya döndü ki, cavan köməkçisini başa sala bilsin. – Amma gərək hər şeyi ölçüb-biçəsən. Elə etməliyik ki, səhvimiz olmasın.

Bu da əlini döşünün üstünə qoydu.

– Başa düşürəm, Talıb dayı. Amma burası da var ki, bişim-bişimlə hərəkət etmək olmaz. Bunu sənə demək artıqdır, inqilab ciddilik, qəti tədbir tökməyi, əncam çəkməyi, düşməni hülqumundan üzməyi tələb edir. – Çapar cümləsinin axırını elə bir şəkildə dedi ki, elə bil kiminsə boğazından tutub boğurdu, yumruqlarını sıxmışdı. – Yoxsa Nikolay padşah indi də taxtında oturmuşdu. Biz də haradasa küllənirdik.

– Bu dediklərinlə mən də şərikəm. – Talıb kişi indi də yumşaq danışdı. – Amma çalışmalıyıq ki, hər şey yaxşılıqla olsun. Çox sərtlik eləmək yaxşı deyil. Sonra...

– Sonra nə olasıdır?

– Camaatı özümüzdən qaçırdarıq. Elə eliyək ki, arada inciklik olmasın. Adamları başa salmaq lazımdır.

Abdulla müəllim sədrin fikrinə tərəfdar çıxdı:

– Düzdür, – dedi. – Biz camaat arasında təbliğat işini gücləndirməliyik. Başa salmalıyıq.

– Qanmayanı isə gərək qandırasan!

Talıb kişidə elə bil fil hövsələsi var idi. Təmkinlə dedi:

– Hər halda bir az yumşaq olmaq lazımdır. Çapar, çox hədə-qorxu gəlmək, qorxutmaq yaxşı deyil.

– Qılıqla dolanaq, hə?

– Qılıqla niyə?

– Sözünüzdən elə çıxır. Amma budur deyirəm, qılıq inqilabın evini yıxır.

Çapar sözünü qurtarmamış eşikdə tüfəng açıldı. Pəncərənin şüşələri çilik-çilik olub töküldü. Çapar bu ara anlaya bilmədi ki, bu nədir, nə olan şeydir? Belə baxanda gördülər Talıb kişi qolunu tutub, qan da fışqırıb çıxır. Bu nə olan şeydir? Çapar karıxmış dilləndi:

– Talıb dayı, sənə nə oldu?

– Görmürsənmi, kişini vurdular?! – Abdulla müəllim təlaşla özünü sədrin üstə atdı. Çapar key tək olmuşdu. Ağlı özündə deyildi. Sonradan-sonraya vəziyyətdən, Abdulla müəllimin sözündən nə hadisə baş verdiyini bilib hirsləndi. Bilmədi nə etsin. Çünki eşik zil-qaranlıq idi, heç nə görmək mümkün deyildi. İçəridə isə Talıb kişinin qanı gedirdi. Stolun altı, üstü qızıl al-qana bələnmişdi. Çapar dayana bilmədi, tüfəngi üzünə qaldırıb pəncərədən eşiyi qara düzənə güllələdi. Şaraq! Şaraq! Şaraq!

Abdulla müəllim köynəyini cırıb Talıb kişinin qolunu sarıyırdı ki, qanı saxlasın. Amma əli-ayağı güməşmişdi. Hiss olunurdu ki, belə şeylər görməyib. Nəhayət, kişinin qolunu birtəhər sarıyıb onu pəncərənin qabağından daldaya çəkdi, bir də atəş açacaqlarından ehtiyat etmişdi. Çapar zəncir çeynəyirdi, hirsi bağırsağını kəsirdi. Qəfəsə salınmış pələng tək çırpınırdı. Namərd gülləsinin haradan atıldığını müəyyən etmək çox çətindi. Yandığından acıqla dedi:

– Haqq olur sənə, Talıb dayı!

Sədrin yarası təzə idi. İsti-isti hələ o qədər incitmirdi. Həm də Talıb kişi zıqqıldayan adam deyildi. Dar ayaqda da özünü itirməməyə çalışırdı. Çaparın sözünə gülümsədi:

– Niyə elə deyirsən?

Çapar daha da hirsləndi:

– Sənə hələ bu da azdır!

– Niyə axı!

– Ona görə ki, ürəyiyumşaqlıq eliyirsən. Belə eləməsələr, ağlın başına gəlməz!

Talıb kişi qaşlarını çatıb fikrə getdi.

## İKİNCİ HİSSƏ

Ümumi yolun üstündəki dikdə qocalı-cavanlı bir dəstə adam var idi. O yandan-bu yandan arxayın-arxayın söhbət edirdilər. Elə bir tələsik işləri daha yox idi. Adamların qarışqa tək get-gəl günləri arxada qalmışdı. Üzü daha qışa idi. Camaat azuqəsini hələ yaydan görmüşdü. Kim nə bacarmışdı eləmişdi. İndi hərənin evində bir neçə gözəmə taxıl vardı. Çoxu da aparıb üyüdüb gətirmişdi ki, sabah dəyirman məsələsi əngəl olmasın. Mal-qara üçün də tədarük görmüşdülər. Hərənin qapısında bir-iki taya ot vardı. Yelquz əsəndə külək otu atmasın deyə tayaların üstə, yanlarına uzuna ağaclar qoymuşdular. Çox adam odun tədarükünü də görüb qurtarmışdı. Evlərinin böyür-başına bir-birinin üstə səliqə ilə yığmışdılar. Bir əldən də gətirirdilər. Hələ yazın burnu dəlinəndən günlərlə tökdükləri gərməni yayın qızmar havalarında kəsib yaxşıca qurutmuş, həyətlərində taya tək düzəltmişdilər. Odunları azlıq eləyəndə ondan da yandırırdılar. Eşikdə-bacada yanacaq kimi bu da onların karına gəlirdi. Gərmədən bir də toylarda lopa qaldıranda istifadə edirdilər. Üstünə nöyüt töküb uzun bir ağacın ucuna keçirir, sonra da yandırıb məşəl tək başları üstə qaldırırdılar. Gərmənin dörd böyrünə nazik çubuqların ucuna alma sancırdılar. Kim onları vurub salsa, nəməri alırdı. Toyun bu hissəsi təntənəli, şən olurdu. Qaranlıq gecədə lopa adamların başı üstə yan-yana gedəndə elə bil bütün kənd işıqlanır, adamların şən səs-küyü həyət-bacaları başına götürürdü. Təzə ev tikdirənlər də var idi.Qazmalardan çıxıb daş evlərə köçürdülər, həyət-bacalarını səliqəyə salırdılar. Çölün işi qurtarandan bəri camaat ev-eşiyi ilə məşğul olmağa başlamışdı. Dam-daşının uçuq-söküyünü düzəldən kim, təzəsini tikdirən kim. Demək olar ki, camaat bu işləri də görüb qurtarmışdı. Amma payız girəndə başlanan toylar hələ də davam edirdi. Qızlar, gəlinlər, oğlanlar, hətta yaşlı adamların özləri də o qədər oynayırdılar ki, çalğıçılar yorulub əldən düşürdülər. Buna baxmayaraq, onlar acığa düşüb, inad edib başlarını silkələyə-silkələyə çalır, ara vermirdilər. «Qoy nə qədər istəyirlər oynasınlar», – deyirdilər. Toy olan günlərdə gündüzlər dirədöymə də oynayırdılar. Cıdıra çıxırdılar. Atdanıb təpiyilə döşünün ortasından vuraraq ayağının altından qayış, çatı götürən cəld, çevik oğlanlara, boğazları kəlağayılı atlara baxmaq üçün qızlar, gəlinlər, uşaqlar damlara çıxır, maraqla tamaşa edirdilər. Xüsusilə məktəb uşaqları dəstə ilə gələr, dəstə ilə gedər, məktəbdə öyrəndikləri nizam-intizam qaydalarını belə yerlərdə də nümayiş etdirərdilər. Ümumi camaat, əksər valideynlər onlara şən, ümidli nəzərlərlə baxar, uşaqların oxumaları ilə fəxr edərdilər. Bu səbəbdən oxumaq istəyənlərin sayı get-gedə artırdı. Təkcə uşaqlar deyil, böyük, yaşlı qızlar, oğlanlar da oxumaq istədiklərini bildirirdilər. Qara Qəmbərin bir qızı vardı, ərlik-boyluq bir qız idi. Doğrudur, nəyə görəsə deyirdilər guya dəlidir, başı çatmır. Amma çox mehriban qız idi. Böyük-kiçik, kim olur-olsun, adamı görəndə özünü öldürürdü. Şirin dillə kef-hal soruşur, sonra

gözəl-gözəl arzularını bildirirdi. Elə dillər tökürdü ki, bilmirdin necə təşəkkür edəsən.

– Sağ ol, ay Tamam, qardaşın sağ olsun.

– Sən də sağ ol, ölüm.

Həmin bu qız, deyirlər, bir səhər uşaqlara qoşulub gülə-gülə məktəbə gedirmiş ki, bəs mən də oxumaq istəyirəm. Uşaqlar gülüşüblər, o da acıqla deyib:

– Bıy! Nəyə gülürsünüz?! Siz oxuyanda yaxşıdır, mən oxuyanda pis?!

– A Tamam bajı, sən axı yekəsən?

– Nə olar?! Mən də oxumaq istəyirəm.

– O qız düz deyir, – Çapar indi bu barədə söhbət edəndə adamlara qulaq asıb öz fikrini bildirdi. – Oxumaq heç vaxt gec deyil.

Qocaların dodağı qaçdı. Biri dedi:

– Ayə, qırxında öyrənən gorunda çalar deyərlər.

– Boş sözdür. Hökumətimizin məqsədi budur ki, hamı savadlı olsun. Oxumaq, yazmaq bilsin. – Çapar qocaya etiraz etdi.

Bəlkə də, bunların söhbəti, mübahisələri qızışacaqdı, bir də gördülər yuxarı tərəfdən kəndə sarı yolu tozlandıra-tozlandıra bir fayton gəlir. Hamı fikirləşdi ki, bu nə faytondur? İçindəki kimdir? Haradan gəlir? Ona görə maraqlandılar ki, bu yerlərdə faytondan istifadə edən olmazdı. Kəndin özündə belə nəqliyyat növü yox idi. Minik üçün dədə-babadan araba-ulaqdan, at-eşşəkdən istifadə etmişdilər. Faytondan qabaqlar bu həndəvərdə yalnız Qandalıbəy istifadə edərdi. O da şəhərdən gələndə. Bəzən buradan qatar ayağına, bəyin qabağına at aparardılar. Bəzən də gəldiyini xəbər verməz, vağzaldan fayton tutub özü gələrdi. Bu cür gəliş dəbdəbəli, təntənəli olardı. O həyətdən, bu həyətdən çıxıb uşaqlar qabağına yüyürərdilər.

– Bəy gəldi! Bəy gəldi!

Evinin xidmətçiləri əl-ayağa düşər, ora-bura qaçar, səliqə-sahman yaratmağa çalışardılar ki, bəyin müəyyən bir şeyə acığı tutmasın.

İndi faytonu görəndə hamı fikirləşdi ki, bu gələn kimdir, a başına dönüm? «Görünür, dövlət adamıdır. Ya rayon mərkəzindən gəlir, ya da Bakıdan». Ağıllarına başqa şey gəlmədi.

Çapar da bu fikirdə olub qonağı qarşılamağa hazırlaşdı. Köynəyinin ətəyini aşağı dartdı, qayışını düzəltdi. Bir sözlə, özünü səliqəyə saldı ki, gələn yoldaş deməsin ki, töküntülü oğlandır. Yan-yörəsindəki adamlara diqqət yetirdi ki, görsün onlar necədirlər? Düzü, heç biri xoşuna gəlmədi. Zalım uşaqlarının üz-gözlərindən, əyin-başlarından pintilik yağırdı. Çapar fikirləşdi ki, indi gələn adamın yanında bunlara görə pərt olacaq, xəcalət çəkəcək. O qədər acığı tutdu ki, az qaldı böyük-kiçik fərq qoymayıb hamını danlayıb-dansasın ki, əşşi, belə də dərd olar? Niyə özünüzə fikir vermirsiniz? Niyə sizi ətalət basıb? Niyə əl-üzünüzü

təmiz yumursunuz? Allahın suyu ki boldur. Belə-belə yüz cür söz demək istədi. Qorxdu incisinlər. Arada nəsə pərtlik olsun. Ona görə də özünü saxladı. Amma bütün bunları onların nəzərinə mütləq çatdıracağını qərara aldı. Həm də onadək fayton gəlib çatdı. Gördülər nə? Bir cavan qız. Elə qəşəng qızdır ki, Çapar ömründə elə gözəl qız görməyib. Özü də adamlardan çəkinməyi, pəsinməyi yoxdur, düz adamın gözünün içinə baxır. Bu kimdir, nəçidir, kimə gəlib? Bilən olmadı. Həm də onadək fayton onların yanından ötüb-keçdi. Gedib Qandalıbəyin qapısında dayandı. Hamı nəsə birtəhər olmuşdu. Belə ki, qabaqlar da bu qapıya fayton gələrdi. Hərlənib fırlanıb budur, indi də gəldi. Hamı çox maraqla baxırdı ki, qız əlində çamadan, həm də bir az xanımlara məxsus bir əda ilə faytondan düşdü. Bunu pəncərədən görən Məlahət xanım tez eşiyə çıxıb yüyürdü. Taxta pilləkənləri tıppatıp tez-tez enib qonağını həyətdə qarşıladı. Qollarını boynuna dolayıb qızı bağrına basdı. Hamı bildi ki, kimsə yaxın adamdır.

Elə o axşam söylədilər ki, Qandalıbəyin baldızı gəlib. Hamı məəttəl qalmışdı ki, bəs bu qız tək-tənha şəhərdən bura necə gəlib? Yolda-izdə qorxmayıbmı? Necə ürək eləyib təkcə bir faytonçunun yanına minib özünü çöl-biyabanlığa atıb. Deməyibmi yolda qabağımı kəsərlər, pis adamlara rast ollam. Fikirləşdikcə bu hamıya təəccüblü gəlirdi. Düzü, qıraqdan-qırağa bu qız Çapara da maraqlı görünmüşdü. Axşam anası ilə evdə oturub əlini üzünə dayayaraq stolun qırağına dirsəklənəndə Çapar elə bu barədə fikirləşirdi, anası yerdə palaz üstə oturub ip əyirirdi. Lampanı stolun qırağına sarı qoymuşdular ki, ona işıq düşsün, işləyə bilsin. Nəhayət, Çapar qızdan söz saldı.

– Ay ana, deyirlər, Qandalıbəyin baldızı gəlib, eləmi?

– Hə-ə, dərdin alım. Ölmüş elə göyçəkdir ki, bir baxan bir də baxmaq istəyir.

Qızın haqqında anasının xoş söz deməsi, onu tərifləməsi nəyə görəsə Çaparın ürəyinə yağ tək yayıldı, xoşuna gəldi. Bəlkə, ona görə ki, həqiqətən, göyçək qız idi. Gözləri, qaşları can alırdı. Qızın gözəlliyi qarşısında çapar indi də hayıl-mayıl olub qəribə bir vəziyyətdə xəyala getmişdi. Amma bu hissləri gizlədərək anasına tamam başqa söz dedi:

– Nə bilirsən ki, o elə-belə qızdır? Bəlkə də, kişidir.

Arvad heyrətlə əlini üzünə çəkdi:

– Allah, mənə ölüm ver, dəli-dəli bu gədə nə danışır?

– Düz deyirəm daa? Bəlkə, oğlandır, qız paltarına girib. Gəlib ki, bizim əleyhimizə iş aparsın, camaatın ağzını əysin.

Arvad oğlunun sözünə qurudu.

– Atam-anam, elə şey olarmı?

Çapar çiynini atdı.

– Niyə olmur?

– Yaxşı sən də! Gumacar-gumacar danışma! – Arvad oğluna acıqlanan kimi oldu.

Çapar danışmadı. Anası o qədər sadəlövh, ürəyi açıq qadın idi ki, nə desən inanırdı. Amma buna inanmadı. Qandalıbəydən, onun ailəsindən o qədər xoşu gəlməsə də, inanmadı. Oğlu maraqla soruşdu:

– Ay ana, harda gördün ki, o qızı?

– Bayaq bajıngildən gəlirdim, qurban olum, o da həyətdə durmuşdu.

– «Xoşgəldin» elədinmi?

– Hə-ə. Qucaqlayıb üzündən öpdüm.

Çapar qəsdən dedi:

– Niyə öpdün? Onlar ki, bizim düşmənimizdir?!

– Ay oğul! – Anası sozalandı. – İşi kəcinə çəkməyin nə mənası var?! Fikir elədim ki, qaranı qaraya yaxmayaq, elə edək arada mehribançılıq olsun.

– Eh! Sən də qoy görək, ay arvad! Durub indi onlara yaltaqlanmayacağıq ki! – Çapar əlini yellədi. Sonra soruşdu, – nəyə gəlib o qız?

– Deyirlər bajısını köçürüb aparmağa gəlib.

– Nə? – Yanpörtü oturmuş Çapar əlini üzündən çəkib tamam ona sarı çevrildi. Bu heç onun ağlına gəlməmişdi.

– Bəs bajısı necə? Köçmək istəyir?

– Yox.

– Niyə?

– Deyir ərimin öldüsündən-qaldısından bir xəbər tutmamış heç yana gedən deyiləm.

– Bəs o nə deyir?

– O da deyir köçürəcəyəm. Ölmüş elə inad qızdır ki!

Səhəri gün həmin qızı Çapar Talıb kişinin yanında idarədə gördü. Məəttəl qaldı ki, bu qızın burada nə işi var? Niyə gəlib? Öz-özlüyündə bu barədə götür-qoy elədi, ağlına bir şey gəlmədi. Marağı da artdı. Yaxşı düşməsə də, qapının ardında dayanıb qulaq verdi ki, görsün nə danışırlar. Eşitdi ki, Talıb kişi adəti üzrə həlim bir ifadə ilə deyir:

– Təvəqqe edirəm, bizim vəziyyəti də başa düşəsiniz, özgə əlacımız yoxdur. Məktəb üçün xüsusi bina tikdirəcəyik. Hələlik Qandalıbəyin bir otağını müvəqqəti məktəb eləmişik. Belə ha getməyəcək. Sonra öz məktəbimiz olacaq.

Eşikdə Çapar yanıb-töküldü ki, Talıb kişi niyə belə yumşaq danışır. Nə olub bəyəm? İndi onlar bu gəlmə qıza da hesabat verməlidirlər?! Eşitdi qız dilləndi:

– Mən o barədə bir söz demirəm, heç ixtiyarım da yoxdur. Yalnız xahişim budur ki, şeyləri vağzala aparmaqda bizə kömək edəsiniz. Bilirsiniz ki, bunun üçün kömək lazımdır. Bir-iki araba olmalıdır. Mən yanınıza ona görə gəlmişəm.

Çapar bunu eşidəndə fikirləşdi ki, anasının dedikləri düz imiş. Marağı bir az da artdığından dayana bilməyib içəri girdi. Talıb kişi qıza deyirdi:

– Axı niyə gedir Məlahət xanım? Düzü, mən buna heç qol qoymaq istəmirəm. Sizin hesabınızdan çoxdan çıxıb. İndi belə getməyi bir az yaxşı düşmür.

Belə çıxır ki, biz onu yola aparmırıq. Amma inanın ki, indiyədək Məlahət xanıma güldən artıq söz deyilməyib.

Çapar başa düşə bilmirdi ki, Talıb kişi onlarla niyə oynayır, niyə qoymur cəhənnəm olub getsinlər. Camaat da ardınca bir daş atar. Amma nə köməkdir?! Qoy canları çıxsın, şeylərini bellərinə alıb özləri aparsınlar. Hə-ə. Öyrəniblər dolmaya, o da bir gün olmaya.

– Demək, kömək etmək istəmirsiniz? – deyə qız xəfifcə köks ötürüb durdu. – Bağışlayın. Əziyyət verdim.

Sən demə, xahişə bu qız bacısından icazəsiz gəlibmiş. Məqsədi bu imiş ki, hər bir şeyi hazır edib bacısını köçürtsün. Buna görə bacısı ona acıqlanıb.

– Bura sənin üçün şəhər deyil. Kənd yeridir. Dünən gəlmisən, amma gör hara gedib çıxmısan. Yaxşı deyil ki, özbaşına iş görürsən. bir də yadında saxla, mən heç yerə gedən deyiləm, burdan mənim meyitim çıxacaq.

Bu da hirslənib yekə qalmaqal qaldırıb.

– Bilmirəm sən bura nə ağılla gəlib çıxmısan? Bu vəhşilərin içərisində necə yaşayacaqsan. Ölsəm də, qalsam da səni aparacağam. Bircə gün səni burda qoymaram. Ürəyim partlayar.

Qız belə deyib hönkürüb ağlayır.

Bunu eşidəndə Çapar fikirləşdi ki, bu qız kəndin adamları haqqında niyə belə deyir? Bunlar hansı vəhşiliyi ediblər? Çox düşündü, amma qızın sözündən bir şey qana bilmədi. İstədi «əşi, sözdür ağzından çıxıb», – deyə üstündən keçsin; mümkün edə bilmədi. Durduqca, fikirləşdikcə oğlana yer eləyirdi. «O qız bizi nə hesab eləyir? Bəyəm biz ayı-canavarıq?» Çaparı od götürür, qıza olan marağı artırdı. «Nəhayət, görüb soruşmalıyam ki, niyə belə demisən?» Oğlan öz-özlüyündə qərar qəbul etdi. Ancaq qaldı necə görsün? Qandalıbəyin evinə getmək yaxşı düşməzdi. Deməzdilərmi ki, oğlana nə oldu ki, birdən-birə bunlara yol açdı? Deməzdilərmi ki, yad bir qızda nə işin var?! Hər nə təhər bundan sonra Şura idarəsinə, başqa yerə gedib-gələndə yolunu Qandalıbəyin evinin yanından saldı. Dedi, bəlkə, təsadüfən ona rast ola. Belə fürsət əlinə düşsə, Çapar mütləq qızın qabağını kəsib sözünü deyəcəkdi. Məlahət xanımgil isə elə bil köçmüşdülər. Eşiyə-bacaya çıxmırdılar. Arabir çıxırdılarsa, onda da Çaparın rastına düşmürdü. Bunun dərdindən nəsə bir şey bəhanə edib evin böyründə ayaq saxlayır, ləngiyir, qızın görünməsini gözləyirdi. Bu məqamlarda qonşu otaqda dərs deyən Abdulla müəllimin səsi gəlirdi. «A-na. A-ta. At.» O orda beləcə danışdıqca bu burda Qandalıbəyin baldızını gözləyə-gözləyə xoşlanıb gülümsəyirdi. Abdulla müəllimin uşaqlara dərs keçməsi ona maraqlı gəlirdi. Az qalırdı gedib lap sinifdə otursun. Bir yana tələssə də, əlində vacib işi olsa da, həmişə dayanıb heç olmasa bir az qulaq asırdı. Bir dəfə təzəcə ayaq saxlamışdı ki, gördü bir uşaq qabağına beş-altı toğlu-moğlu salıb çölə gedir. Qabağını kəsdi.

– Hara gedirsən?
Köynəyinin yaxası gəmirçək bağlamış uşaq suçlu-suçlu mızıldandı:
– Çölə.
– Bəs sən oxumursan?
Uşaq yerə baxdı.
– Məktəbə niyə getməmisən?
– Dədəm qoymadı.
– Niyə?
– Dedi apar bunları otar.
Çapar çomağını alıb kənara tolazladı, uşağın qolundan tutub məktəbə gətirdi. Eyvana çıxanda bəyin ailəsi yaşayan otağa tərəf baxsa da, bir kəsi görmədi. Pəncərələrindən ağ tül pərdə sallanırdı. Keçib sinif otağının qapısını tıqqıldatdı. Abdulla müəllimin səsi eşidildi.
– Buyurun.
Çapar qapını açdı.
– Bağışlayın, maneçilik elədim.
– Eybi yoxdur.
– Xahiş edirəm bu uşağa icazə verin, gecikib.
– Hə. Hə. Gəlsin. – Müəllim Çapardan razı-razı başını tərpətdi.
Hələ eyvandan aşağı düşməmiş Çapar indicə məktəbə gətirdiyi uşağın atasının yoğun səsini eşitdi.
– A başınıza dönüm, qoymurlar dərdimizdə, azarımızda olaq. İndi də bunlar ağalıq eləmək istəyirlər.
Çapar sakitcə aşağı düşdü, onun ucadan danışmasına baxmayaraq, bu astadan dedi:
– Mən ağalıq eləmirəm, Vəli kişi.
Vəli kişi bədəncə nəhəng adam idi. Papağı züllə olduğundan o lap uzun görünürdü. Bir sözü də elə ucadan deyirdi ki, elə bilirdin hamı kardır. İndi səsini daha da hündürdən çıxartdı.
– Onda nə ixtiyarla mənim uşağımı...
– Uşaq oxumalıdır, Vəli kişi.
– Onu özüm bilərəm.
– Xeyr! Uşaq oxumalıdır! Vəssalam! Hökumət belə tələb edir! – Çaparın kəskin, qısa və aydın sözləri kişini çaşdırdı. Ona görə dili topuq çala-çala dedi:
– Bbbəsəs bu üzülmüşləri kim otaracaq?
– Bilmirəm.
– Vay sənin! – Kişi əlini şappıltı ilə yamaqlı şalvarının dizinə vurdu. – Qoymurlar ki, özümüz özümüzün qibləmizi bilək. Dərdimizdə-azarımızda olaq. Heyvanımızı saxlayaq.

– A kişi, uşaqların dərsinə mane olursan, gəl heyvanının ardınca get! – Çapar məcbur olub səsini bir qədər ucaltdı. Bu ara ona elə bil dedilər ki, başını qaldır yuxarı bax. Baxanda gördü Qandalıbəyin baldızı eyvanda dayanıb. Yəqin, onların səsinə eşiyə çıxıb ki, görsün bunlar nəyin üstündə belə höcətləşirlər. Nələri ortaq düşüb? Biri-birilərinin qanlarını niyə qaraldırlar? Olmazmı alçaqdan danışalar, biri-birilərini başa düşələr? «Olmur, a şəhərli qız, olmur. Gərək yüz dəfə, min dəfə deyəsən ki, bəlkə, qanalar. Eşidirsənmi «ayı qanar, ayrım qanmaz» deyərlər», – deyə Çapar az qaldı qızın bu kəndin adamlarından elədiyi giley-güzarı təsdiq eləsin, desin sən düz deyirsən. Fikirləşdi ki, belə yaxşı düşməz, ayağı yer alar. Həm də onu başqa fikirlə görmək istəyirdi. Ondan soruşmaq istəyirdi ki, nə haqla bizim barəmizdə elə söz demisən. Amma basaratı bağlanmışdı. Dili-ağzı söz tutmurdu, eyvana baxa-baxa quruyub qalmışdı. Bu o qız idi. İlk dəfə faytonda gördüyü qız. Sonra da Talıb kişinin yanında. Onda elə bil qıza yaxşı baxmamış, xüsusi diqqət yetirməmişdi. İndi deyirdin çöldə bitən qırmızı güldü, gəlib bu eyvanda gözəl qız şəklində boylanır baxır. Duruşu, baxışı oğlanın elə xoşuna gəldi ki, güldən ağır söz demək istəmədi. Əksinə, istədi nəsə xoş bir söz desin. Qəlb  sındırmağa nə var, çətini könül almaqdır. Həm də bununla sübut eləyirdi ki, onlara vəhşi deməkdə qız səhv edir. Xülasə necə oldusa gülümsəyə-gülümsəyə:

– Xanım qız, – dedi, – kəndimiz xoşunuza gəlirmi?

Qız cavab vermədi, guya heç eşitmədi. Oğlan isə onu dindirməyə çalışırdı.

– Siz də axı gərək belə qayda olmasın. Quş quşluğuynan biri səsini çıxaranda o biri yandan səslənir, amma siz... Mənim fikrimcə, adamlar daha həssas olmalıdırlar.

Şəhərli qız söz altda qalmağı sevməzdi. Elə dil tökə bilərdi ki, Çaparın dəymişi dura-dura kalı tökülərdi. Amma özünü ələ almağı bacardı, təmkinli durdu. Birinci ona görə ki, məğrur qız idi. Qorxurdu ki, bunlarla xoş, şirin rəftarını ayrı cür yozarlar. Deyərlər ki, özü qəsdən belə eləyir ki, onlara dəyib-dolaşan olmasın, burdan sağ-salamat çıxıb getmələrinə kömək etsinlər. Bu cür fikirdə olduğu üçün hamıya acıqla, təkəbbürlə baxırdı. Duruşundan, baxışlarından güman edilirdi ki, oğlana, ümumiyyətlə, cavab verməyəcək, onunla kəlmə kəsməyəcək. Deyəsən, qərarı qəti idi. Amma necə oldusa oğlana baxıb fikrini dəyişdi. Daha doğrusu, oğlanda olan dəyişikliyi, qızla söhbət etmək istəməsində xoş niyyətini duyub dəyişdi. Həm də Çaparı artıq uzaqdan-uzağa tanıyırdı. Yenə də oğlanla ünsiyyət bağlamaq fikrində olmadı. Çevrildi ki getsin, Çapar arxadan dedi:

– Qonaqsınız, xətrinizə dəymək istəmirəm. Amma belə yaxşı deyil.

Qız dayandı, danışmağa məcbur oldu:

– Nə yaxşı deyil?

– Bizim haqqımızda nahaq sözlər danışmısınız, qulağıma çatıb.

Qız ötkəmliklə dedi:
– Çatıb çatsın. Nə demişəm?
– Yadınızda deyil?
Qız dodaqlarını büzüb başını silkələdi.
– Yox.
– Demisiniz ki, guya biz vəhşiyik. Və biz vəhşilərin içərisində baş çıxarmaq çətindir. Soruşmaq ayıb olmasın, bəlkə, deyəsiniz, biz hansı vəhşiliyi eləmişik?
Qız indi bildi ki, oğlan haradan vurur. Bildi ki, bacısı ilə olan söz-söhbəti eşidiblər. Pis vəziyyətdə qaldı. Bilmədi nə desin. Desinmi ki, haqqına deyirəm, sizin barənizdə mən elə indi də həmin fikirdəyəm. Yoxsa? Fikirləşib axır-axırda əlacı bir ona qaldı ki, heç nə deməyib çıxıb getsin. O cür eləyirdi ki, oğlan yenə dilləndi:
– Bircə şeyə yanıram.
Qız qıyqacı, maraqla ona baxdı.
– Nəyə?
– Qorxuram tezcə çıxıb gedəsiniz, bizim haqqımızda da elə o fikirdə qalasınız.
Qız bir qədər ayaq saxladı, yenə istədi nəsə desin, amma danışmadı, çevrilib getdi.
Axşam Çapar şən halda anasına:
– Ay ana, tərifədiyin qızı gördüm – dedi.
– Qandalıbəyin baldızınımı?
– Hə.
– Görürsənmi nə gözəl qızdır, – ana yenə ağızdolusu danışdı. – Deyirsən su sonasıdır. Yörlü-yöndəmli. Bu mahalda mənciyəz eləsini görməmişəm. Ocaq daşının da yaraşığı gərək. Bax, bir eləcə gəlinimiz ola.
– Olsun da, – Çapar daha utanmağı buraxdı. – Oğlun var, qız da öz əl-ayağı ilə gəlib çıxıb.
Arvadın dodaqları qaçdı.
– Bizim yemimiz deyil, oğul. Hər kəs gərək öz tayını tapsın.
– Bizə nə olub ki?! Korumuz yox, keçəlimiz yox.
– Söhbət korluqda, keçəllikdə deyil. Qandalıbəy hara, biz hara.
Çapar gülümsədi.
– Sən yenə köhnə havaya oynayırsan, ana. İndi zamanə dəyişib.
– Adamlar ki dəyişməyib, dərdin alım.
– Adamlar da dəyişib, ana. İndi hər şey dəyişib.
Qandalıbəyin baldızı məsələsini Çapar gerçəkdənmi deyirdi? Yoxsa elə-belə zarafat edirdi? Bu, hələ doğru-dürüst oğlanın özünə də aydın deyildi. Ancaq onu bilirdi ki, indi onların buradan köçüb getmələrini istəmir. Niyə? O ki bunların

düşməni idi. Harada söhbətləri düşsə onları pisləyirdi. Hər yerdə əleyhlərinə danışırdı. Onların sinfi düşmən olduqlarını dönə-dönə deyir, adamların yadına salırdı, kölgələrini qılınclayırdı. Buna görə də rədd olub getmələrini istəyirdi. Qandalıbəyin ailəsi elə bil bunların yoluna dığırlanıb düşmüş daş idi. Bunun da çarəsi yalnız o idi ki, götür bu daşı, dərə aşağı dığırla. İndi isə... Açıq-aşkarca Çaparın fikri dəyişmişdi. Bu işin axırı necə olacaqdı, bilmirdi. Amma onu bilirdi ki, fikri-xəyalı tez-tez qaçıb onların yanına gedib, Qandalıbəyin baldızı barədə düşünürdü. Bəzən də məktəbi bəhanə edib o səmtdə, o həndəvərdə hərlənir, uzaqdan da olsa qızı görmək istəyir, axşam olub şər qarışana kimi oralarda olur. Nəhayət, fikirli-fikirli evə gələndə anası sozalana-sozalana deyirdi:

– Boy, dərdin alım, nə gec gəldin?

– İşim vardı, ana.

– Vaxtında gəl. Görürsən zəmanə qarışıqdır. Sən gələnə kimi ürəyimi yeyirəm, qorxuram.

– Sözündən belə çıxır ki, mən də qorxmalıyam. Axı deyirlər qorxanın oğlu olmur.

– Olar, başına dönüm. Sənin kimi oğulun elə gözəl-göyçək oğlu-qızı olacaq ki, hərəsi bir tamaşa.

Belə sözlər deyəndə Çaparın kefi durulur, rəngi-rufu açılır, xəyalına istər-istəməz Qandalıbəyin baldızı gəlirdi. Açıq-aşkarca qız xoşuna gəlmişdi. Hələlik halına-xasiyyətinə bələd olmasa da, nəyə görəsə Çapara elə gəlirdi ki, bu qızın özü kimi rəftarı da gözəldir. Səmimi qıza oxşayırdı. Bir az dilli-dilavər, mübariz olması da oğlanın ürəyincə idi. Amma... Amması bu idi ki, bir məsələ onu xeyli çətinə salmışdı. O da Qandalıbəyin baldızı olması məsələsi idi. Bax, bu necə olardı? Özü onlarla mübarizə apardığı, elə adamlara zidd getdiyi halda necə qohum ola bilərdi? Ona nə deyərdilər? Deməzdilərmi ki, Çapar inqilabı satdı? Deməzdilərmi ki, Çapar ağ bayraq qaldırıb təslim oldu? Niyə demirlər? Yəqin, deyərdilər. Yox, yox! Onda Çapar kəndin içinə çıxammaz, başını qaldırıb camaatın üzünə baxa bilməzdi. Bu cür fikirlər ilə Çapar, nəhayət, belə qərara gəldi ki, bu qızın sevdasını başından çıxartsın. Hətta son vaxtlar onlara qarşı nə qədər xoş, mülayim münasibət bəsləməsinə də təəssüfləndi. Yenə sərt, ciddi olmağı qərarlaşdırdı. Amma uşaqların necə oxuması ilə maraqlandığı üçün məktəbin əyər-əskiyi ilə məşğul olduğu üçün yenə onlara tərəf gəlib-gedirdi. Burası vardı ki, daha əvvəlki tək gözlərini zilləyib eyvanda, həyət-bacada həmin qızı axtarmır, onunla maraqlanmır, haqqında düşünmürdü. Özünü elə tuturdu ki, guya heç elə qız görməyib. Öz işləri ilə məşğul olmağa başlamışdı. O qədər dərd-azar vardı ki, hamısı tökülüb qalırdı. Məktəbin avadanlığı dağıldıqdan sonra uşaqların oxumaq işi yenə çətinləşmişdi. Abdulla müəllim deyirdi ki, uşaqlar yenə çox sıx otururlar, yazı yazanda qollarına, dirsəklərinə toxunub bir-birlərinə mane olur-

dular. Bundan ötrü yenə rayon mərkəzinə getmək lazımdı. Yenə xahiş etmək lazımdı. Onlar da deyəcəklər ki, verilən şeyi adam saxlayar, yoxsa aparıb itirib-batırıb, iki gündən bir üstümüzə gələcəksiniz ki, haqları var. Çapar bu barədə fikirləşə-fikirləşə gedirdi ki, birdən evlərinin böyründə Məlahət xanım qəfildən qabağına çıxdı. Həmişə yanından kif-kirmişcə gedərdi. Bu dəfə necə oldu, heç özü də bilmədi, salam verdi. O da başını tərpədib salamını aldı. Qabaqlar onu dindirmək belə istəməyən Çapar indi kef-hal sordu. Sonra ötüb-keçdilər. Çapar təzədən fikirləşməyə başladı ki, bu necə oldu? Nə əcəb onu dindirdi, ona xoş üz göstərdi. Çünki həmişə əleyhinə getmişdi. Müəllim işləməsinə etiraz etmişdi. Demişdi: sinfi düşməndir, uşaqlarımızın başını zəhərləyər. Bəs bu nə idi? Bunun hansı düzgün idi? Hansı inqilabın xeyrinə idi? Bunun hansına görə Çaparı qınayardılar? Bunun hansının üstündə onu günahlandırardılar? Yox! Yox! Bəyəm onu tanımırlarmı?! Bilmirlərmi ki, Çaparda öldü var, döndü yoxdur. Bilmirlərmi ki, Çapar canından keçər, amma inadından, məsləkindən, əqidəsindən keçməz.

Küllükdə iki-üç uşaq oynayırdı. Güləşib bir-birlərini aymalayıb alır, toz qaldırırdılar. Özləri də toz-torpağa bələm-bələm olmuşdular. Üz-gözləri, ağız-burunları bomboz idi. Çapar onları görüb qışqırdı.

– Oynamağa başınıza yer qəhətdir? Cəhənnəm olun ordan!

Çapar belə fikirləşdi ki, daha bunların nə işi var? Peşələri elə bu cür küllükdə eşələnmək deyilmi?! Məktəbləri yox, oxumaqları yox, özgə nə edəsi idilər. Neçə vaxtdan bəri vuruşub-əlləşib cəmi-cümlətanı bir sinif təşkil edə bilmişdilər. Amma kənddə məktəbə gedəcək uşaq çox idi. Həyətlərə papaq atsan, beş-onu birdən çıxardı. Fikirləşib başa düşdü ki, uşaqlara xüsusi qayğı göstərmək, əl-ayaqlarını kəndin zibilliklərindən, küllüklərindən çəkmək lazımdır. Bütün bunları fikrində götür-qoy edən Çapar Abdulla müəllimin bir çox məsələlərdə haqlı olduğunu dərk etdi. Başa düşdü ki, Məlahət xanım barədə düz deyirmiş. Məlahət xanım kimi savadlı adama onların ehtiyacı çoxdur. Bu yerdə ondan istifadə etmək vacib işdir. Çapar, nəhayət, Abdulla müəllim deyənə gəldi. Bunun camaat üçün xeyirli olacağını tam yəqin etdi. Elə həmin gün Talıb kişini görüb dedi:

– Mən də o gün Abdulla müəllimin əleyhinə getdim, amma səhv eləmişəm.

– Nə barədə?

– Məlahət xanım barədə. Demirdimi ki, o, müəllim işləsin, mən də...

– Hə. Sən etiraz elədin.

– Düzdür, etiraz elədim. Amma indi baxıb görürəm ki, müəllimsiz də keçinmək olmaz. Oxumaq istəyən uşağımız çoxdur. Məncə, Abdulla müəllimlə razılaşmalıyıq.

Talıb kişi ciddiləşdi.

– Axı Məlahət xanım bəy arvadıdır, uşaqların beynini zəhərləyər?!

Çapar gülümsədi. Taıb kişi uğunub getdi. Gülə-gülə:

– Ayə, – dedi, – bir vaxtlar məni günahlandırırdın ki, bunlarla qılıqlı danışıram, sinfi düşmən olduqlarını unuduram. İndi nə oldu?

Çaparın deməyə sözü yox idi. Elə bir bunu dedi:

– Hər şeyi birdən-birə müəyyən etmək olmur.

Bu da düz söz idi. Talıb kişi etiraz eləmədi. Bu barədə ciddi götür-qoy etdikdən sonra dedi:

– Əlbəttə, pis adamların bizim cərgədə yeri yoxdur. Amma eli on əlli tutmalıyıq, camaatı yaşatmalıyıq. Yoxsa xalqsız nəyə lazımıq?! Heç nəyə!

Söz xoşuna gəldiyi üçün Çapar başını tərpədirdi. Talıb kişi yenə dedi:

– Qaldı Məlahət xanımın məsələsi. Onun müəllim işləməsinə o vaxt da narazı olmamışdım. İndi də etiraz eləmirəm. Özü ilə danışaq, görək nə deyir? Razıdırmı?

Bu söhbətdən bir-iki gün sonra Çapar atlanıb Qandalıbəyin imarətinin qabağına gələndə yenə iki su arasında qalan kimi olmuşdu. Bilmirdi düz hərəkət eləyir, yoxsa əyri. Amma iş-işdən keçmişdi. Söz danışıqdan keçər. Qaçmaq mümkün deyildi. Səsini çıxartdı.

– Məlahət bajı!

Səsi elə bil dəmirə dəyib cingildədi. At altında oynadı. Amma eşiyə çıxan olmadı. Çapar bir də səsləndi.

– Ay Məlahət bajı!

Səsi bu dəfə də bərk cingildədi. Ona elə gəldi ki, Qandalıbəyin imarətinin pəncərələri də silkələndi. Bu ara qapı açıldı. Qandalıbəyin arvadı yox, baldızı göründü. Bir söz deməmişdən qız cavab verdi:

– Bəli.

Oğlanın xoşuna gəldi. Kefi durulub şən əhvalla:

– Bəlin şirin, xanım qız, – dedi. – Məlahət bajı lazımdır.

Qız dabanı üstə geri döndü, Məlahət eyvana çıxdı.

– Sənədlərinizi aparmağa gəlmişəm, Məlahət bajı, rayonda baxıb təsdiq etməlidirlər.

– Elə bu gün?

– Gecikdirməyin nə mənası var? Nə qədər tez olsa, bir o qədər yaxşıdır.

At bir yerdə durmur, ayağının birini qaldırıb, digərini salır, başını oynadır, fınxırır, ağzında yüyənin dəmirini şaqqıldadırdı. Əlində yüyəni boş tutmuş Çapara bu ara elə gəlirdi ki, onlar işlərini də beləcə boş tuturlar. Ancaq bu ara Məlahət xanım əlində kağız pilləkənlə aşağı düşürdü. Çapar atı irəli sürüb sənədləri aldı. O, rayon mərkəzinə yola düşəndən bir an sonra Talıb kişi ilə Məlahət xanım qapı-qapı düşüb məktəbə uşaq yığırdılar. Talıb kişi bir-bir deyir, əlində kağız-qələm tutmuş Məlahət xanım yazır, gizlincə onlara göz qoyub xosunlaşan Çalvadaroğlu ilə molla Bidadın isə dişi bağırsağını kəsirdi. Çalvadaroğlu yana-yana dedi:

– Yaxşı deyiblər ki, atla arvada etibar yoxdur. Bəri gəl, evimizə gedək, heç olmasa gözümüz görüb könlümüz bulanmasın.

Çalvadaroğlu evə gələndə gördü ki, kiçik oğlu anasının ətəyindən dartışdırıb zıqqıldayır. Onsuz da əsəb içindəydi. Bu da ona bir bəhanə oldu.

– Sənin qarnına niyə azar dolub?

Uşaq cavab vermədi. Guya onu eşitmədi, ya da ondan bir kar aşmayacağını bilib cavab vermədi. Yenə zıqqıldamağında davam etdi. Oğlunun belə eləməyi Çalvadaroğlunu bir az da əsəbiləşdirdi, dayana bilməyib tərs-tərs arvadına baxdı.

– Bu nə istəyir, aaz?

Güləsər ərinin əhvalının qarışıq olduğunu görürdü və onun belə kefsiz vaxtlarında evdə həmişə nəsə bir dava, qalmaqal saldığını, hətta ata-ana söyüşünə çıxdığını bilirdi. Ona görə xoşluqla cavab verdi ki, söz-söhbət olmaya. Qonum-qonşudan da eyib idi.

– Əşi, heç nə. Postal-ayaqqabı istəyir.

– Ayağında postalına nə olub?!

– Təzəsini istəyir.

Arvadının həlim danışığı onu bir az sakitləşdirdiyi üçün işin qılığına getdi.

– Yaxşı. Şəhərə gedəndə allam.

– Mən də elə deyirəm. Deyirəm indi çıx get məktəbinə, dədən də sonra şəhərə gedəndə sənə postal alıb gətirər.

Məktəb sözü elə bil daş olub Çalvadaroğlunun başına düşdü. Uşaq ləj-ləj silkələndi.

– Mən nə bilim şəhərə nə vaxt gedəcək. Hamı təzə postal geyəcək, mən köhnəsini?

Çalvadaroğlu bildi ki, burada nəsə var. Qalın qaşlarını çatıb yenə arvadına baxdı.

– Bu nə deyir, aaz?

– Əşşi, heç nə. Dünən dayısı bunların məktəbinə gəlib. Uşaqların adlarını yazıb götürüb ki, sizə pulsuz ayaqqabı verəcəyik, gedib gətirəjəm. Bunun adını yazmayıb ki, sən kasıb balası döysən. Mən də deyirəm, neynək, a bala, özgəsi ha demir, öz dayın deyir.

Çalvadaroğlunun nəfəsi çatmayan tək oldu. Sinəsini dərindən dartıb:

– Görürsən?! – dedi. Burun pərələri şişib qalxdı. – Bu da özümünkü. Hər addımda badalaq gəlir.

Qayını Çapardan qeybət qırmağa Çalvadaroğlu bir bəhanə axtarırdı. Yerli-yersiz pisləyirdi. Evdə arvad-uşağı onun üstə qaldırmağa cəhd edirdi. Bu da Güləsərin xoşuna gəlmir, hər necə olsa qardaşının namını vermirdi.

– Sən də yaxşı. Qardaşım heç vaxt nahaq iş tutmaz, həmişə sözün düzünü deyər.

Çalvadaroğlu bağırdı:
– Kim onu vəkil eləyib?! Burnunu hər yerə soxur.
Bunu deməyini görmüşdü, «postal» davası eləyən oğlu bu yandan dilləndi.
– Hə-ə. Sən də aparıb heyvanlarımızı çöldə gizlətmisən.
Çalvadaroğlunun qanı qurudu. Bəlkə də, həyatda hər şeyi gözləyirdi. Amma bunu gözləmirdi. Belindən gələn halalca övladının üzünə ağ olmasını gözləmirdi. Özü də bilmədən şilləsi açıldı. Körpə onun zərbəsinə tablaya bilərdi?! Yıxılıb yerdə ölü qaldı. Bunu görən ana dəli olmadımı?!
– Booy! Booy! Evim yıxıldı! Ocağım söndü! – Özünü balasının üstünə saldı. Başına-gözünə döyə-döyə, saçlarını yola-yola qışqıranda, əllərini şappaşap dizlərinə çırpanda Çalvadaroğlu də təntiyib qalmışdı. Bilmirdi uşağı yerdən götürüb ona nəsə bir kömək eləsin, yoxsa qonum-qonşu eşitməsin deyə arvadın səsini kəssin.
– Aaz! Aaz! – eləyə-eləyə qalmışdı ki, səsə qonşulardan arvad-uşaq töküldü. Az qalmışdı ki, uşağın üstündə ağlaşma qursunlar, gədə özünə gəlib gözlərini açdı. Hamının ürəyi yerinə gəldi: «Allah, sənə şükür! Allah, sənə şükür».
Bir azdan Talıb kişi onlara gəldi. Ovqatı təlx idi. Hiss olunurdu ki, nəyə görəsə bərk hirslənib. Məəttəl qaldılar ki, bu kişi nəyə gəlib. Nəhayət, qaşqabaqlı dilləndi:
– Uşağı niyə vurubsan, Çalvadaroğlu?
– Uşağı?
– Hə-ə.
Əslində, uşağı vurmağına Çalvadaroğlu bərk peşmanlamışdı. Buna görə əzab çəkirdi. Hələ yaxşı qurtardı. Xata çıxa bilərdi. Di gəl ondan sonra bu dərdə döz. Bununla bərabər Talıb kişinin belə danışması Çalvadaroğluna yer elədi. Gör heç sözdür?! Vurmuşam, öz uşağımı vurmuşam, sənə nə var?! Ancaq bilmədi bu fikri necə çatdırsın, nə tərzdə desin.
– Talıb kişi, nə vaxt sənin uşağını vursam, deyərsən, indi çıx get qapına.
– Səhvsən, Çalvadaroğlu. Bilməlisən ki, uşaq təkcə sənin deyil.
Cin vurdu çıxdı Çalvadaroğlunun başına. İstədi Talıb kişini söyüb ber-biabır eləsin ki, «hökumət mənimlə bərabər uşaq əkib, uşaq saxlayıb? İndi gəlib yiyə çıxır?» Sonra vəziyyətin o qədər yaxşı olmadığını fikirləşib səsini çıxartmadı.
Çalvadaroğlu Talıb kişiyə qanlı-qanlı baxdı.
– Bə kimindir, ə?
– Hökumətin.
– Kimin?
– Dedim, hökumətin.
Çalvadaroğlu gözlərini döyə-döyə, içindən qırıla-qırıla qaldı. Nə edə bilərdi? Keçmiş zaman olsa idi, həddi nə idi onunla belə danışırdı. Hələ üstəlik xəbərdarlıq da etdi.

– Çalvadaroğlu, güman eləyirəm ki, söhbətimiz hədər yerə olmadı. – Talıb kişi daha bu barədə söhbəti kəsib qayıtdı.

Onun ardınca kinli-kinli baxan Çalvadaroğlunun dişi bağırsağını kəsirdi. Bilmirdi nə etsin. Axırı gücü özünə çatdı.

– Mən gərək bundan sonra ləçək bağlayam, – deyə dəli tək əlini atıb başından papağı götürdü və yerə çırpdı.

Bu ara damın ağzında yatmış boz köpək birdən səsə necə sıçrayıb xoflu-xoflu qalxdısa atdanıb papağı qapdı və havada pəncələri arasına alıb didik-didik elədi.

Çalvadaroğlu dəli olmadımı. Yerdən bir zola götürüb düşdü itin canına. Bir vurdu, iki vurdu... it ulayıb dartınır, göyə tullanır, az qalırdı zəncirini qırsın. Sonra necə hirsləndisə atdanıb ağacı ağzına aldı, iri balta dişlərilə ordan-burdan gəmirdi və pəncələrilə vurub ağacı sahibinin əlindən yerə saldı.

Çəpərin ardında gülüşmə qopdu. Çalvadaroğu səsə dönüb baxanda gördü bir dəstə uşaq. Papaqlı-papaqlı, elə bilirdin çəpərin ardından qara-qara göbələklər qalxıb. Hamısının da dişləri ağarır. Sən demə, bu uşaqlar bayaqdan ona baxırlarmış. Çalvadaroğlu elə bil ağlını itirmişdi. Yekə kişi ola-ola uşaq-uşaq:

– A sizin ananızı ağladım, mənə gülürsünüz? – deyə iti buraxıb balacaların üstə cumdu. Uşaqlar dönüb götürüldülər. Bu da ardlarınca qaçsa da, tuta bilmədi. Dayanıb dodaqaltı mırıldana-mırıldana qayıtdı. Gülünc günlərə qaldığına, uşaq-muşağın yanında biabır olduğuna utanıb eşikdə durmadı, içəri evə keçdi.

Çalvadaroğlu fikirləşib bunların hamısının günahını məktəbdə gördü. «Bütün işləri məktəb korladı. Camaatın gözünü məktəb açdı, adamlara ağılı məktəb verdi. İndi hər yerdə məktəbdən danışırlar, oxumaqdan danışırlar. Bir yekə dəmiri asıblar ordan. Danqhadanq çalınanda səsi kəndi başına götürür, adamı dəng eləyir».

Abdulla müəllimdən olsa hamını oxudardı. Uşaq, böyük, cavan, qoca deməz hamını bir yerə yığar, dərs keçərdi. Bir sözlə, camaata savad öyrədərdi. İndiki dövrdə bu, çox lazımdı, vacib iş idi. Xalqı maarifləndirmədən onu irəli aparmaq, mədəni, ağıllı cəmiyyət qurmaq, inqilabın vəzifələrini yerinə yetirmək olmazdı. Yoxsa cəhalət, nadanlıq, başadüşməzlik insanları məhv edirdi. Belə düşünən Abdulla müəllim necə oldusa molla Bidadın oğlu Müsəllimi xatırladı. Bu məsələ şəxsən özünə aid olmasa da, eyni dərəcədə onu narahat edir, fikirləşdirirdi.

– Talıb kişi, düzü, o, pis uşaq deyildi. Molla Bidadın oğlunu deyirəm. Kimsə onu qaçırdıb özünə yoldaş elədi. Düşdü çöllərə. Qorxuram axırı pis ola. Bilmirəm necə edək?

Əslində, bu barədə Talıb kişi özü də narahat olurdu. Həm qonşu, həm də kəndin ağsaqqalı kimi molla Bidadın oğlu Müsəllimdən nigaran idi. Heç nədən özünü oda saldı, dəli tək hoppanıb düşdü ortalığa, axmaq hərəkətlər elədi, sonra

da... Bunların hamısı düz idi, yaxşı. İndi nə etmək olardı? Talıb kişi əlini dodağının üstə qoyaraq bir şey fikirləşənədək Abdulla müəllim dedi:

– Məndən olsa atası ilə danışardıq.

– Danışaq nə deyək?

– Deyərik ki, yazıqdır, uşağı məhv eləmə. Necə ki, əlindən xata çıxmayıb, elə bir ağır cinayəti olmayıb, başına çarə qıl, sonra gec olar.

Ağıllı təklif idi. Sədrin ağlına batdı. Fikirləşdi ki, həqiqətən, Müsəllim pis oğlan deyil. Cavandı, beyni qandı. İş elə gətirdi ki, atasının qalmaqalına düşdü. İndi çöllərdə qalıb, pis adamlara qoşulub. Bu işin də axırı yoxdur. Su sənəyi suda sınar, deyərlər.

Talıb kişi gördü müəllim düz deyir. Razılaşdı. Amma molla Bidada deyəndə ki, oğlun qaçaq-quldurlara qoşulub, daş atıb başını altına tutdu:

– Nə danışırsınız, a kişilər, mənim oğlum hara, qaçaqlıq hara?!

Əlbəttə, molla Bidadın yalan söylədiyini bunlar bilirdilər. Çünki bunların da adamları vardı. Onlar Müsəllim haqqında müəyyən məlumatlar əldə etmişdilər. Ancaq istəmirdilər açıb-ağartsınlar. İstəyirdilər molla Bidad özü doğru-düzgün yola gəlsin. Talıb kişi soruşdu:

– Oğlun hardadır?

Molla Bidad çiynini atdı.

Talıb kişi özünü saxlaya bilmədi:

– Özün də mollasan, sözün düzünü demirsən!

Molla Bidad çümrüklü gözlərini döydü.

– Əgər yalan deyirəmsə...

– Oğlunu görən olub, a kişi. Yalan yerə and içmə.

Molla Bidadın boğazı qurudu.

– Harada?

– Bunu məndən soruşursan? Oğluyun harada olduğunu özün daha yaxşı bilirsən, – Talıb kişi tam yəqinliklə danışdı.

Molla Bidad isə bilə-bilə hər vəclə etiraz etmək istəyirdi ki, sabah müəyyən bir işdə buna kir yaxmasınlar. Deməsinlər ki, oğlun qaçaq olub. Ona görə qəti şəkildə başını buladı.

Talıb kişi əlini üzünə çəkdi. Başa saldı ki, yaşlı kişiyəm, saqqalımın bu ağ vaxtında yalan danışmaram.

Molla Bidad isə bu ara ona baxmaq əvəzinə baxışlarını aşağı saldı. Abdulla müəllim yumşaqlıqla dedi:

– Düzü, biz sənə görə narahat oluruq. Oğluna qıymırıq. Qorxuruq uşaq tamam korlana. Deyirik vaxtında üzə çıxardasan.

Molla Bidad iki suyun arasında qalmışdı. Həm bunlar deyənə yıxıla bilmirdi, həm də o biri tərəfdən beli bərk deyildi. Hər iki tərəf onun üçün təhlükəli idi. Ona görə əsəbiləşdi. Ürəyi partlaya-partlaya dedi:

– Mənim evimi siz yıxdınız. Allah da, bəndə də bilir ki, siz yıxdınız. Heç nədən tutub dustaq elədiniz, o da qorxub qaçdı.

Bunlar imkan verirdilər ki, molla Bidad ürəyini boşalda, bəlkə, sakitləşib ağıla-başa gələ. Talıb kişi dedi:

– Sən hələ sevin ki, bir cinayət eləməmiş gədəni götürdülər. Adam öldürsə nə qayırardın?

Molla Bidad yenə öz beynindəkini çağırırdı:

– Sibirə sürülməkdən qorxub çöllərə düşdü.

– Kim sürürdü onu Sibirə?

– Siz! – Molla Bidad Talıb kişinin gözlərinin içinə baxdı.

Bu da heç kirpiklərini də qırpmadı.

– Nəyin üstündə?

– Həncəri nəyin üstündə?

– Soruşuram da: nəyin üstündə?

Molla Bidad bilmədi nə cavab versin. Talıb kişi özü danışdı.

– Adam öldürmüşdü, yoxsa yol kəsmişdi?! Nəyə görə Sibirə sürürdük? Nahaqdan adama cəza verməzlər, molla Bidad. Xahiş edirəm, bunu yadında saxla.

Bunlar gedəndən sonra arvadı tez əri molla Bidadın yanına gəldi.

– Onlar nəyə gəlmişdilər?

Müsəllimin anasının gecəsi-gündüzü yox idi. Gözünün yaşını axıtmaqdan əriyib çöpə dönmüşdü. Dindirib-söylətmək mümkün deyildi. Xırda bir şeydən əsəbiləşirdi. Aydındı ki, oğlunun kürlüyünü edirdi. Ərinə qarşı həmişə mehriban olan arvad indi baş yoldaşına bəzən elə kinli-kinli baxırdı ki, deyirdin indi onu çığnayacaq. Bunu molla Bidad görür, arvadının ona qarşı olan acığını, qəzəbini hiss edir, amma aralarında dava-dalaş olacağından ehtiyat edib hər vasitə ilə bundan uzaqlaşırdı. İndi də arvada məsələni mülayimliklə və olan şeyi deməyi öz-özünə məsləhət bildi:

– Uşaqdan ötrü gəlmişdilər.

– Nə deyirlər?

– Deyirlər uşağı üzə çıxarmaq lazımdır.

Elə bil arvadın üzünə gün doğdu. Sevinib qırışıqları açıldı. Amma gördü əri somulub durur. Soruşdu.

– Bəs sən nə dedin?

Molla Bidad əlacsız-əlacsız çiyinlərini atdı:

– Nə deyim?

– Deyəydin allah sizdən razı olsun. Dil-ağız eləyəydin.

– Allah nəyə görə razı olsun?

– Ona görə ki, kömək edirlər, uşağımız üzə çıxır.

– Sonrasını fikirləşmisənmi?! Bilmirsənmi, bunların ipinin üstünə odun yığmaq olmaz?! Bəlkə, al dilnən üzə çıxardıb, sonra tutacaqlar?!

Arvad dilini pıçıldatdı:

– Yox, ay kişi, – dedi. – Onlar elə adam deyillər. İkisi də təmiz nəsildəndir. İndiyədək hələ heç birindən bir müxənnətlik görən olmayıb.

Arvadının onları belə tərifləməsi molla Bidadın yaman acığına gəldi.

– Əşi, mumla, – dedi. – Camaatı dinnən-məssəbdən çıxardıb evini yıxıblar, sən də deyirsən ki, müxənnətlik eləməyiblər.

Molla Bidad fikirləşə-fikirləşə qalmışdı. Oğlu Müsəllim bunların əlindən başını götürüb qaçanda sevinmişdi. İndi görürdü ki, daha da pis olub. Özü-özünü əngələ salıb. Nə vaxtadək o, ev-eşikdən didərgin gəzəcək? Nə vaxtadək ata-ana üzü görməyəcək, isti yorğan-döşəkdə yatmayacaq? Əgər kənardan bir dələduzun felinə düşüb bir zibil qarışdırsa, işləri lap əngəl olacaq. Bütün bunlar molla Bidadın ağlına gələndə kişi az qaldı dəli olsun. Tez durub evdən çıxdı, özünü başılovlu Çalvadaroğlunun üstünə saldı. Təntik bir halda:

– Ayə, mən nə qayırım? – dedi. – Başıma haranın daşını salım?

Belə hallarda Çalvadaroğlu özünü həmişə təmkinli tutar, bu yolla qarşısındakı adamın qorxuluğunu, təlaşlığını götürər, bununla da öz gücünü, qüvvətini nümayiş etdirərdi.

– Nədi, nə olub?

– Ağlın nə kəsir, gəlsənə bu uşağı üzə çıxardım?

Çalvadaroğlunun qulağının dibində elə bil top atdılar. Diksindi. Amma bunu büruzə vermədi. Əvvəlki təmkinini saxlamağa çalışdısa da, bir qədər sərt ifadə ilə dedi:

– Nə?

– Dedim Müsəllimi üzə çıxartmaq istəyirəm. Görürəm ki, axırı yoxdur. Nə vaxtacan çölləmə olacaq?! Allaha şükür ki, bizim üstümüzdə arada-bərədə ölən-itən də olmadı.

Çalvadaroğlu fikirləşdi ki, bu nə sayıqlayır?! Başına at təpib nədir? Heç elə şey olar?! Sirrini bilən, lap iç bağırsağına qədər bələd olan bir adamı gətir, özün öz əlinlə təhvil ver düşmənə. Sabah da bu açsın sandığı, töksün pambığı. Sonra silistlər başlasın. Kələfin ucu açıla-açıla gedib dərinlərə çıxsın. Yoox! Çalvadaroğlu gördü ki, fikirləşdikcə qaramaya batır, düşünmədi. Daxilən sarsıntılı olsa da, özünü sakit apardı.

– Ağlını başına top elə, molla Bidad.

Talıb kişi ilə Abdulla müəllimin sözləri beyninə daha çox batırdı.

– Başqa çarəm yoxdur, Çalvadaroğlu.

Bayaqdan Çalvadaroğlu elə bilirdi ki, molla Bidad elə-belə deyir. Ondan nəsə bir məsləhət almaq istəyir. Amma onun çox qəti şəkildə danışmasından xoşu gəlmədi. Gördü bu xına o xınadan deyil. İstədi molla Bidada ağır-artıq desin, onu acılasın. Qorxdu münasibətlərini lap korlaya, onu qaçırda. İçindən qırıla-qırıla qaldı.

– Görürəm səni öyrədiblər, molla Bidad. Amma budu deyirəm, ağlın olsun, sonra təpənə döyərsən. Onu bil ki, hökumət səni heç vaxt bağışlamaz.

Molla Bidad boz-boz Çalvadaroğlunun üzünə baxdı:

– Niyə? Niyə? Neyləmişəm hökumətə?

– Neyləmisən?

– Hə.

– Əvvəla on görə bağışlamaz ki, bu hökumətin birinci düşməni sənsən. Eşitdin?

Molla Bidad cavab vermədi, boğazı qurudu.

– Çünki bu hökumətlə mollanın sözü düz gəlmir. Sən deyirsən allah var, o deyir yoxdur.

– Əstafürullah! – molla Bidadın rəngi ağardı.

– Camaat arasında da hökuməti həmişə pisləmisən. Məktəbin əleyhinə çıxan birinci sən olmusan.

– Yaxşı, a Çalvadaroğlu, yaxşı! – Molla Bidad onu danışmağa qoymadı. Bilirdi ki, bu saat camaat üçün məktəbdən əziz, qiymətli heç bir şey yoxdur. Eşitsələr, bilsələr ki, molla Bidad məktəb əleyhinə çıxıb onu daşqalaq eləyərlər.

Çalvadaroğlu danışmadı. Amma sakitləşmədi. Molla Bidaddan ürəyi sancmışdı. Fikirləşdi ki, ya bunun başı xarab olub, ya da öyrədib yoldan çıxarıblar. İkisindən biri idi. Hər iki halda bu, Çalvadaroğlunu çox narahat edirdi. Yenə molla Bidada ağır-artıq söz deməyi, aranı tamam pozmağı lazım bilmədi. Hələlik gözləməyi qərara aldı. Amma bundan sonra molla Bidadı izləməyə, ona göz olmağa başladı. Gördü yoox! Dostunun bir ayağı Şura idarəsindədir. Tez-tez ora gedir. Bundan narahat oldu, qorxuya düşdü. Bir dəfə daha dözə bilməyib məscidə getdi. Başını aşağı əyib tağlı qapıdan içəri girəndə molla Bidad diz üstə çöküb, əllərini göyə tutaraq allaha dua edirdi. Gözlədi qurtarsın. Molla Bidad quranı öpüb gözünün üstə qoyanda bu dilləndi:

– A molla Bidad!

Molla Bidat onu səsindən tanıdı və bir az dilxor oldu. Əlində quran ayağa durub ona sarı çevrildi. Çalvadaroğlu dedi:

– Səndən bir şey qanmaq olmur. Burda allahnan danışırsan, çöldə allahsızlarla. Səni yoldan çıxardıblar, molla Bidad. Öyrətməyə baxırsan.

– Ağıllı məsləhətə baxmaq lazımdır.

– Bax, sənə bir də deyirəm. Ağlını başına top elə.

– Eləmişəm. Baxıb görmüşəm ki, sən mənim evimi yıxmısan. Ocağımı söndürmüsən.

– Kim, ayə?

– Sən?

– Əlindəki quran sənə qənim olar!

– Olsun! Olsun! Əgər düz demirəmsə olsun. Burdan məktəbə, uşaqlara tüfəng atan da sən oldun! Dükana od vurub, yandıran da...

Çalvadaroğlu qorxdu bu sözləri eşidən olar, odur ki, dözəmmədi, əlini uzadıb kişinin xirtdəyindən yapışdı. İri pəncəli əllərilə necə sıxdısa molla Bidadın gözləri bərələ qaldı. Çalvadaroğlu isə vəhşiləşmişdi. Gözünə heç nə görünmürdü, özünə arxa saydığı molla Bidadın səsini birdəfəlik kəsmək istəyirdi. Sonra kimsə elə bil ona dedi. Qayıbdanmı dedilər, yoxsa özünün içindənmi səs gəldi. Hər nə təhər eşitdi. «Ayə, nə qayırırsan?!»

Bu da əlini buraxdı. Molla Bidadın dizlərini elə bil çapmışdılar, yerə düşdü. Çalvadaroğlu qorxdu, tez aşağı əyilib kişinin çiynini, başını silkələdi.

– Ayə! Molla Bidad!

Molla Bidad nə gəzirdi. Başı çiyni üstə durmurdu. Çalvadaroğlu yenə onu təlaşla səslədi:

– Molla Bidad! Molla Bidad!

Gördü molla Bidaddan səs çıxmadı. Çalvadaroğlu daha da narahat oldu. Məcbur olub kişini o üz-bu üz şapalaqladı ki, bəlkə... Gördü ki yox, kişi tərpənib eləmir. Çalvadaroğlunun qanı qurudu, ayaq üstəcə öldü. Təzədən peşmanladı ki, bu nə iş idi, etdi. Bu necə axmaq hərəkət idi, o elədi. Çünki Bidadı öldürmək fikri yox idi. Bu heç onun ağlına da gəlməmişdi. Sadəcə olaraq gözünü qorxuzmaq istəyirdi. Qorxuzmaq istəyirdi ki, onun dediyilə durub-otursun, iradəsinə tabe olsun. Vəssalam. Özgə bir məqsədi yox idi. Bəs bu necə oldu ki, əlindən belə bir xata çıxdı. Özünü də yazıq elədi, bunu da. Bu işin axırı necə olacaqdı? Çalvadaroğlunun narahatçılığı daha da artdı.

– Ayə! Ayə! – Molla Bidadı bir də şapalaqladı: bəlkə, nəfəsi gizlənmiş ola. Gördü kişi çoxdan keçinib. Çalvadaroğlunu dəhşət bürüdü, dəli-dəli gözü-başı oynadı, meyitə baxa-baxa məscidin qapısına sarı getdi. Sonra nə fikirləşdi, nə fikirləşmədisə təzədən geri qayıtdı, yalquzaq tək yan-yörəyə boylana-boylana künc-bucağı gəzdi. Qapının ardından bir ip tapıb gətirdi, bir gözü, bir qulağı eşikdə ola-ola ipi molla Bidadın boğazına keçirdi və onu sürüyüb-dartıb qapının ardından asdı. Molla Bidadın ayaqları havadan sallana qalanda bu tez gizlincə eşiyə çıxdı, ordan oğrunca aralandı. Bir azdan molla Bidadın arvadı məscidin qabağında dizlərinə döyüb qulun təki kişnəyir, camaatı haraya çağırırdı:

– Ay camaat, evim yıxıldı, çırağım keçdi. Ay camaat, uşaqlarım çöldə qaldı. Hü... hü... hü... – Sonra da oğlu Müsəllimi harayladı. – A Müsəllim! Anan daşlara dönsün! Harada qalıbsan, atan ölüb, gəl!

* * *

Molla Bidadın həyətində camaat kör-kötüyün, daş-torpağın üstə oturub fikrə gedəndə hamı ürəyində fikirləşdi ki, harda var, harda yox indicə Müsəllim əlində

tüfəng böyürdən çıxacaq və dəliqanlılığına salıb aləmi bir-birinə qatacaq. Qoymayacaq ki, meyiti yerdən götürsünlər. Amma Talıb kişi müəyyən adamlara çox ciddi şəkildə tapşırmışdı ki, işdir-şayət elə şey olsa, elə etmək lazımdır ki, Müsəllim əlini tərpədə bilməsin. Talıb kişi bu sarıdan ehtiyat eləyirdi, amma bir başqa qəmbərqulu çıxdı. Belə ki, bir qoca kişi çəliyinin ucunu yerə döyə-döyə elliyə dedi:

– Bundan sonra murdar olacağıq. Murdar olacağıq. Öləndə üstümüzdə quran oxuyan olmayacaq.

Papaqlı-papaqlı qoca kişilər orda-burda hoqquldaşdılar.

– Allah, sən saxla! Allah, sən saxla!

Talıb kişi dayanammadı. Dalğanı yatırmaq üçün ciddi şəkildə dedi:

– A kişilər, ağsaqqal adamlarsınız, ayıb deyilmi?! Qoysanız ölümüzü basdıraq. Ondan sonra kimin qarnında nə var açıb töksün.

Elə bil alovun üstə su carladılar.

– Qaldı murdar olmaq məsələsi, – Talıb kişi üzünü çəliyinin ucunu yerə döyəcləyən qocaya tutdu, – ona da imkan verməərik. Hər şey insanın öz əlində deyilmi?! Bax, mən bu kəndin camaatının bir üzvü kimi, yerli hökumət kimi mollalığı həvalə edirəm sənə, Hacı kişi.

– Olsun! Olsun! – Ordan-burdan səslər eşidildi. Hacı kişi çəliyini tez qaldırdı:

– Mənciyəz yox. Mənciyəz yox.

Talıb kişi dedi:

– Niyə, a kişi? Sən bu buyruqdan niyə boyun qaçırdırsan?

– Buyruq allahınkıdır.

– Camaatın buyruğu allahın buyruğudur, – Talıb kişi onun ağzını dağa dirədi.

Hacı kişi söz deyə bilmədi.

Molla Bidadı təzəcə kəfənə tutdular ki, kəndin qulağında beş-altı atlı göründü. O dəqiqə xısın-pısın başlandı ki, qaçaqlardır, Müsəllim gəldi. İndi görün neçəsinin anası ağlar qalacaq. Çalvadaroğlunun da gözü oyur-oyur oynayırdı ki, atışma qopacaq, ara qarışacaq, məssəb itəcək. Talıb kişi isə sakitcə yerində oturmuşdu. Atlılar gəlhagəl düz hüzr yerinə çıxdılar. Gördülər qaçaqlar deyillər, rayon mərkəzindən gəliblər. Heç kəsin xəbəri yoxdur ki, Talıb kişi dünəndən zəng edib hadisəni xəbər vermiş, ekspert həkim istəmişdi. Bunları görəndə Çalvadaroğlunun qanı qurudu, bağır-öfkəsini yedi, kürkünə birə doldu. Dedi məsələnin üstü açılacaq, bunu da tutub asacaqlar, kəsəcəklər, güllələyəcəklər. «Allah evini dümdüz eləmiş qanını üstümə tökdü», – deyə ürəyində molla Bidadı söydü. Kişinin ximirçəkli boğazını kobud, iri barmaqları arasında hiss edib təzədən dəhşətə gəldi. Ölüb-dirildi, dirilib-öldü, uçum-uçum uçundu. Ancaq öz-özünə dedi ki, artıq iş-işdən keçib, daha ağciyər olmağın mənası yoxdur, vəziyyətdən çıxmaq lazımdır. Nəzərlərini dolandırıb qohumu Hümbəti axtarırdı. Çünki dünəndə ondan ürəyi sancırdı. Belə ki, dünən axşam ölü yerindən evinə gələndə

bu vaxtadək ona allah kimi baxan, qabağında cınqırını çəkməyən Hümbət harda var, harda yox qaranlıqda cin tək qabağına çıxıb:

– Hi... hi... – eləyib gülmüşdü.

Çalvadaroğlu yekə kişi ola-ola düzü eymənmişdi. Alaqaranlıqda görsə də ki, qabağında dayanan Hümbətdir, amma ona elə gəlmişdi ki, Əzrayıldır, gəlib onun canını alsın. Kişi o dünyalıq olmuşdu. Haçandan-haçana Hümbət adam kimi danışmışdı.

– Niyə yeyin-yeyin gedirsən?

Bu da ağzında tüpürcəyini udub demişdi:

– Yorulmuşam. Gedim bir az dincəlim. Sabah da bu kişini...

Hümbət yenə «hi... hi... hi...» eləmişdi və sonra yenə adam kimi danışmışdı.

– Şura hökuməti deyirlər dovşanı araba ilə tutur, hi... hi... hi...

Hümbət indi də Çalvadaroğlunun nəzərində adamlıqdan çıxıb Əzrayıl olmuşdu. Əzrayılmı, goreşənmi nəsə başqa dona, başqa cildə girib qıllı-mıllı əcaib bir şeyə çevrilirdi. Çalvadaroğlu durub-durub birdən boğuq səslə:

– A kafir! – demişdi.

Onun bu hərəkətinə az qalmışdı Hümbət şaqqanaq çəksin, ancaq yenə «hi... hi... hi...» eləmişdi və sonra yenə adam kimi danışmışdı.

– Ayə, düzü, mən başa düşmürəm dovşanı araba ilə necə tuturlar.

Hümbət ayağını Çalvadaroğlunun hülqumunun üstünə qoymuşdu. Ümumiyyətlə, son vaxtlar ondan heç almırdı. Eşiyə-bacaya çıxanda özünün yekəxana aparırdı. Burnunu dik tuturdu.

Çalvadaroğlunun beyni qıjıldamışdı, bir istəmişdi hədərən-pədərən danışan bu adamı dizinin altına alıb nəfəsini kəsə, Bidadın ardınca göndərə. «Şura hökuməti dovşanı araba ilə tutur» – sözü onu bayaqdan tutmuşdu. Bununla Hümbət nə demək istəyirdi? Elə, beləmi deyirdi? Yoxsa... hər nə təhər Çalvadaroğlu bu dəfə əstağfürullah eləmişdi. Qorxu-hürkü əhdini qırmışdı, elə bil onu heyvan tək cidarlamışdılar. Məcbur olub, qılığa keçmişdi.

– A qohum, bəri gəl, evimizə gedək, – demişdi. – Bizim hökumətlə nə işimiz var. Qurban olum hökumətə. Hər kəsin heçi ayrı, köçü ayrı, kimin kimdə nə işi var, qurd quzu ilə dolanır.

Həmişə ləvərə-ləvərə danışan, acığı tutanda qamçının altına salan, adamın təpəsinə-gözünə döyən Çalvadaroğlunun indi sözündə də, hərəkətlərində də bürüşüb kiçildiyindən, tısbağa kimi əlini-ayağını çanağına yığdığından Hümbət ləzzət almışdı:

– Bə nə?! Bə nə? – demişdi. – Hökumətlə hökumətlik etmək olmaz. Özü də buna Şura hökuməti deyərlər. Ağlın Nikolay hökumətinə getməsin.

Çalvadaroğluna elə gəlmişdi ki, həqiqətən, onu qara basır. Belə düşünmüşdü ki, həqiqətən, bu, Hümbət deyil. Axı o bu dilləri haradan öyrənmişdi? Necə

öyrənmişdi? Məəttəl qalmalı idi. Bəlkə, onu xüsusi olaraq öyrədiblər. Bu ağlına gələndə tez dillənmişdi:

– Nikolay kaş çoxdan gorbagor olaydı, – demişdi, qoy bu yan-yörədə adam varsa eşitsin ki, Çalvadaroğlu Nikolayı pisləyir, Şura hökumətini tərifləyir.

Sonra da ondan ayrılıb yenə yeyin-yeyin evinə gəlmişdi. Elə bil Hümbət arxadan onu tututb deyəcəkdi:

– Hara qaçırsan? Onsuz da Şura hökuməti dovşanı araba ilə tutur.

Dünəndən bəri bu söhbət yadından çıxmırdı.

Molla Bidadın cənazəsini götürüb qəbiristanlığa aparanda balaca-balaca uşaqlar yolun üstə məktəb-məktəb oynayırdılar. Biri qabağa çıxıb müəllim olmuşdu, qalanları şagird olub yan-yana oturmuşdular. Şagirdlər əllərini qaldırıb təzə-təzə qanadlanan qaz balaları kimi çığırışırdılar:

– Müəllim, mən deyim. Müəllim, mən deyim.

«Müəllimləri» isə deyirdi:

– Elə yox. Elə yox. Hamı bir yerdə danışmaq olmaz.

Talıb kişi Abdulla müəllimə baxıb gülümsədi. Demək istədi ki, sənin «oyununu» çıxardırlar. Demək istədi ki, əsas bunlardır.

Bu səhnədən o qədər sevinmişdi ki, ölü Talıb kişinin yadından tamam çıxmışdı. Qəbiristanlıqda da bir tərəfə çəkilib gələcək haqqında xoş, işıqlı düşüncələrə dalmışdı ki, Çapar ona mane oldu:

– Talıb kişi.

Talıb kişi qulağını ona yaxın tutdu. Çapar pıçıltı ilə dedi:

– Bunlar haradan bildilər ki, bu kişi özü-özünü asmayıb, öldürüb asıblar?

– Deyirlər boğazında barmaq yeri var.

– Ağlın nə kəsir, kim öldürmüş olar?

Talıb kişi əvvəlcə çiyinlərini çəkdi. Sonra yenə pıçıltı ilə dedi:

– Kim öldürəcək?! Öz yoldaşları.

Çapar buna o qədər təəccüb etdi ki, az qaldı səsini hündürdən çıxartsın. Sonra təəccübünü gizlədə bildi.

– Öz yoldaşları niyə öldürsün axı?

– Görünür, nəsə olub. Bizi də pis vəziyyətə salıblar.

– Nə barədə?

– Nə təhər olsa bizə gümanı qaçan var. Oğluna da çatdıracaqlar ki, onlar elədi.

Ağlına batdığı üçün Çapar başını tərpətdi. Sonra dedi:

– Görəsən, öz yoldaşlarından bu işi kim eləmiş olar?

Talıb kişi bir az duruxdu.

– Düzü, günah yumaq çətindir. Amma biz bu işi belə qoymamalıyıq. Cinayətkarı mütləq tapmalıyıq. Yoxsa camaat bizə pis baxa bilər. Arada get-gedə

inamsızlıq yaranır. İndi ölü sahiblərinin dillənməməyinə baxma. Hər halda bizi görməyə gözləri yoxdur. Biz sübut etməliyik ki, burda başqa əl var.

Molla Bidadı basdırıb evə qayıdanda Çapar Qandalıbəyin həyətinin qabağından keçərkən təsadüfən onun baldızına rast gəldi. Daha doğrusu, həyətdə, çəpərin ardında dayanmışdı. Deyirdilər bu qız bu gün-sabah qayıtmalıdır. Ancaq hələlik, görünür, bacısından tam arxayın olmamış getmək istəmirdi. Xülasə, Çapar qızın burada olmasına sevinib, xoşluqla dedi:

– Görürsünüz də, xanım qız, bizim kənddə necə işlər olur, əslində, elə siz düz deyirmişsiniz.

– Hə. Hə. Çox pis işlər görürlər, – qız başını yırğaladı.

– Zərər yoxdur. Sonra hər şey yaxşı olacaq. – Oğlan özünü sındırmadı, nikbin tutdu.

Bu, qızın da xoşuna gəldi;

– Əlbəttə. Yaxşı olar.

Qanı nə qədər qara olsa da, Çapar qızla danışmağa bir fürsət axtarırdı. Amma kənd yeri idi, elə imkanlar olmurdu. İndi əlinə yaxşı girəvə düşmüşdü. Ona olan meylini «balabanla da» olsa çatdırmalı idi. Qoy qız bilsin, xəbərdar olsun. O da işini bilər. Bəlkə... Başqa yerdə bir istədiyi adam var. Xülasə, qıza bir qırmaq atmağı qərara aldı. Üzrxahlıq hissilə dedi:

– Vallah, başımız elə qarışıb ki, qonaq-qaradan da xəbərimiz olmur. Gərək bağışlayasınız.

– Yox. Nə danışırsınız? Siz mənim üçün nə etməlisiniz ki?!

– Qonağa hörmət hamının borcudur. Xüsusilə sizin kimi qıza. – Çapar özü də məəttəl qaldı ki, bu dilləri necə tökdü. – Yəqin, bizim bu qalmaqallı kənddə darıxırsınız. Bilirəm, heç yana getmirsiniz. Amma nahaq yerə. Bir yerdə oturmaqdan nə çıxar?!

Oğlan gördü qız dillənmir, bu, yenə üyüdüb tökdü:

– Heç olmasa bulaq üstə gedin. Qızlarla söhbət eləyin. Bax, sabahdan gəlin, bu vədələr bulaq başı yaxşı olur.

Qız dinib bir kəlmə söz demədi. Bilmək olmadı ki, bu nə deməkdir? Razılıq əlamətidir, yoxsa? Hər nə təhər oğlan sabah həmin vədələrdə bulağa getdi. Dedi, bəlkə... Kənardan baxan söz-zov eləməsin deyə atını yedəyinə almışdı. Guya sulamağa aparıb. At, həqiqətən, susuz imiş. Doyunca içib ağız-burnundan su damcılaya-damcılaya novdan geri duranda Çapar çəkib saxladı, fit çaldı ki, at bir də su içsin. Ancaq kəhər suya gözünün qulağı ilə də baxmadı. Onda bu neyləsin? Kənardan baxan deməzmi bu adam boş-bekar orda niyə durub? Nə üçün çıxıb getmir? Elə bil kənd yığışıb ona baxırdı. Halbuki heç kəs yox idi. Buna baxmayaraq, əli yüyəndə aşağı əyilib o biri əlilə atın belinə su tökməyə başladı. Guya çimizdirir. Kəhər qulaqlarını qırpıb bədənini əsdirir, soyuq sudan

xoşlanmadığını bildirirdi. Bir də gördü bir qoca kişi meşəyə gedən yoldan bar-bar bağırır:

– Ayə! Ayə!

Çapar bildi ki, onunladır, əlini qaldırdı.

– Nədir?

– Ayə, ilin nə vaxtıdır ki, at çimizdirirsən? Atı yayda çimizdirirlər. İndi soyuqladarsan, heyvan yazıqdır.

– Əşi, elə-belə çimizdirirəm, – Çapar əlini sudan çəkdi. Sonra yenə nəsə bəhanə eləyib gözlədi. Ancaq qız yox idi.

O biri gün isə düz Qandalıbəyin həyətinə gəldi. Qız samovarı qaynatmaq üçün yerdən qıxmıq yığırdı. Əlləri yerdə qalmışdı. Ordan-burdan kör-kötük tapıb, baltanı götürüb Çapar onlar üçün o qədər odun çappalayıb, o qədər qıxmıq düzəldib tökdü ki, lap iki-üç həftə onlar üçün bəs idi.

Ancaq Çaparın şəhərli qızla maraqlanmasından anası qorxuya düşmüşdü. Dözə bilməyib açıldı:

– Sən gəl ağrımaz başımızı ağrıtma, ay oğul.

– Nə olub, ana?

– O qızdan əl çək. Amandı, o qızdan əl çək. Qorxuram, dərdin alım. İndi elə vaxtdır ki, dostla düşməni ayırmaq olmur. Bu gün üzərinə baxıb irişir, sabah bıçaq götürüb üstünə gəlir. Ona görə də tanımadığın, bilmədiyin ata minmə, başına dönüm.

Çapar əvvəlcə bu qərara gəldi desin, ay ana, sən nə danışırsan, nə qızdır, belə şey yoxdur. Amma olan şeyi danmaq adəti deyildi. Özü də bu məsələni danışmaq onun üçün özünü danmaq kimi bir şey idi. Bir də niyə dansın axı?! Çapar əgər o qıza təmiz niyyətlə, ürəklə yanaşırdısa niyə dansın? Yox! Oğlan bu fikirdən qəti vaz keçdi. Əksinə, ürəyinə gəldi ki, indi anasının ayaqlarına düşsün, qucaqlayıb «ay ana, gəl o qızı mənə al», – desin. Onadək Pəri arvad dilləndi:

– Elə qızlar var ki, su sonası kimi, bu heç onların əlinə su tökməyə yaramaz.

Bu yerdə Çapar dayanammadı.

– İnsafın olsun, ana.

Pəri arvad özü də bildi ki, düz demir. Həqiqətən, insafsız danışmağına daxilən pis oldu. Bu qızı birinci elə özü tərifləmişdi. Qaldırıb qoymuşdu dağın başına.

Çapar da açığını dedi:

– Gözüm o qızı tutub, ana. Lap çirkin də olsa, gəlsə allam.

Pəri arvad oğlunun qərarının qəti olduğunu görüb danışmadı. Qaratikan kolu kimi arada bitmək istəmədi. Ümumiyyətlə, o özü belə şeyləri başa düşən arvad idi.

Qızı Güləsər sarıdan da ürəyi sınıq idi. Qorxdu ki, buna mane ola, sonra da nəsə, haradasa yaxşı olmaya, bu, pis vəziyyətdə qala. Ona görə övladın öz səsini eşitməyi lazım bildi.

– Özün bilirsən, oğlum, mənim də arzum budur ki, xoşbəxt olasan.
– Sağ ol, ana. – Çaparın üzü gülürdü.
– Amma bir xahişim var. Dərdin alım. Bax, o qızı genə istə, sözüm yoxdur. Ancaq o tərəfə çox hərlənmə. Bilirsən, kişisiz evdir, qorxuram söz-zad çıxardalar. Qandalıbəyin də qulağına çatar, yaxşı olmaz.
– Görmürmü ki, mən nə edirəm?! Bir də əlindən gələni iki qaba çəksin.
– Elə demə, oğul, əppək yiyənin acizi olmaz. Ehtiyatlı oğulun anası ağlamaz, – deyə Pəri arvad ona ağıllı oturub-durmağı da məsləhət bildi.
Çapar:
– Yaxşı, ay ana, – dedi. – Sən narahat olma.

## ÜÇÜNCÜ HİSSƏ

Mədət özünü dayısıgilə saldı. Qaça-qaça gəldiyindən uşağın ürəyi ağzından çıxırdı. Təlaşlı, həyəcanlı olduğundan pörtüb qıpqırmızı qızarmışdı.
– Ay dayı!
Çapar bildi ki, nəsə var, tez sıçrayıb taxtın üstündən qalxdı.
– Nədir? Nə olub?
– İndicə məktəbin qabağında idim, gördüm siz tərəfdə, çəpərinizin ardında bir tüfəngli adam var. Məni görəndə aşağı sindi. Müsəllimə oxşayırdı.
– Bəs necə oldu?
– Saymazyana bəri hərlənəndə gördüm yoxdur. Amma o idi.
– Elə şey olmaz. – Çapar inanmadı. Günün günortaçağı bu «gədə» ürək eləyib kəndə girib? Demirmi görən olar? Demirmi ələ keçər?! Bu lap şir ürəyi yeyib! Çapar tüfəngini götürüb eşiyə çıxmaq istəyəndə Mədət nə fikir elədi, nə fikir eləmədisə onun qabağını kəsdi.
– Getmə, ay dayı, getmə.
Çapar bilirdi ki, bu «gədə», həqiqətən, kəndə gəlibsə və onların evlərinin həndəvərində hərlənirsə, demək, ona gəlib. Daha burda başqa şey ola bilməzdi. Onunla olmayan haqq-hesabı çürütməyə gəlib. Bunu bildiyinə baxmayaraq:
– Niyə? – dedi.
Sakitləşmək əvəzinə uşağın həyəcanı artırdı.
– Getmə! Səni vurarlar.
Vəziyyətin gərgin, təhlükəli olmasına baxmayaraq, Çaparı maraq bürümüşdü ki, Müsəllim, doğrudanmı, belə cəsarət eləyib. İndi allah da gəlsə, Çaparı evdə saxlaya bilməzdi. Sonra şəvədə eləyib gülsünlər ki, Çapar Müsəllimdən qaçıb gizlənib, evdən eşiyə çıxmayıb. Odur ki, tez tüfəngi götürüb çıxdı.
– Sən mənimlə gəlmə. Çıx evinizə get! – Çapar həyətdə Mədətə təpindi.
Uşaq ona fikir vermədi:

– Bax, orda idi, – deyə əlini dayısıgilin evinin aşağı hissəsini nişan verdi. Çapargilin evi ucqar deyildi. Demək olar ki, kəndin ortasında yerləşirdi. Yan-yörədə evlər idi. Bir az o yana isə yeznəsi Çalvadaroğlunun həyəti idi. Bunları bir-birindən çalın-çarpaz çəkilmiş hündür qaratikan çəpərləri ayırırdı. Həyətlərin arasında bir-iki xırda dərə-təpə var idi.

– Sən mənimlə gəlmə dedim! – Çapar uşağı özündən araladı və onun göstərdiyi səmtə sarı getdi. Ora-bura baxdı. Dam-daşın yan-yörəsinə hərləndi, qonum-qonşunun həyətlərinə boylandı. Müsəllim nə gəzirdi. Nəhayət, ondan əl çəkməyib dabanbasaraq böyür-başında hərlənən Mədətə:

– Olma gözün alacalanıb? – dedi.

– Yox, dayı, canım üçün yox. Mən uşaq ha deyiləm.

Çapar gülümsədi. Bacısı oğlu uşaq ola-ola deyirdi ki, mən uşaq deyiləm.

– Bə uşaq deyilsən nəsən?

– Yekəyəm.

Mədət elə şəstlə və ürəklə dedi ki, Çaparın da xoşuna gəldi.

– Ay maşallah!

– Ay dayı! – Mədət bu ara vahimə ilə necə çığırdısa Çapar təhlükənin arxadan olduğunu hiss edib yana sərpildi. Bu halətdə tüfəng açıldı və Çapara elə gəldi ki, bir böyründən zərblə geri itələdilər. İsti-isti sən deyən ağrı hiss eləmədi. Amma tüfəng əlindən yerə düşmüşdü, əyilib cəld götürdü.

– Di sən geni burdan! – Mədətin üstə qışqırıb sinə-sinə çəpərin ardına sarı qaçdı, amma bir az getməmiş gördü ki, qan aparır, qolu boşalır, dayandı.

Onadək tüfəngin səsinə haray düşdü.

– Çaparı vurublar, – deyə kənd tökülüb gəldi. Tezcə onu evə gətirdilər. Bütüncə qanın içində idi. Bax, saymazlığın axırı belə olur. Anası ona nə qədər dedisə qulaq asmadı, bu qulağından alıb, o qulağından verdi. İndi... Belində səhəng sudan gələn Pəri arvad həyətində yığnağı görüb özündən getdi. Camaat bilmədi ona yüyürsün, yoxsa buna.

Çaparı, həqiqətən, Müsəllim vurmuşdu. Bandit yoldaşları onu kəndin ayağında gözləyirdilər. Tapşırıq belə idi ki, necə olur-olsun o gədəni vur, gəl. Müsəllim də bu tapşırığı çoxdan gözləyirdi. Kənddən çuğullamışdılar ki, bəs atanı filankəs öldürüb. Bu da dəli tək tüfəngini götürüb gəlmək istəmişdi ki, camaatın içindəcə Çaparı ortasından odduyacam. Qoymamışdılar ki, hələ dayan, qoy bir tədbir tökək. Bu da papağını başından götürüb yerə vurmuş və hönkürüb ağlamışdı.

İndi Çaparı vurandan sonra Müsəllim qaçıb aradan çıxmağa üz qoydu. Bilirdi ki, ələ keçsə, camaat onun tükünü didəcək. Amma hay-haray qopanda təntidi, gördü ordan-burdan adamlar yüyürüşüb gəlir, bilmədi nə etsin. Başqa çıxış yolu tapmadı, bir göz qırpımında çəpəri yarıb Çalvadaroğlunun həyətinə düşdü. Qorxdu orda da görən olsun, başqa çıxış yolu olmadığından qaçıb bacadan dama

düşdü, küncdə dirəyin ardında axura girdi. Hələlik gözdən-nəzərdən uzaqlaşmış olsa da, yenə əli ürəyinin üstə qalmışdı. Görən olubsa indicə töküləcəklər. Tüfəngi doldurub əlində hazır saxlamışdı. Daha qan gözünü örtmüşdü. Fikri belə idi ki, kim gəlsə vursun. Bir qulağı da eşikdə idi. Aradan bir xeyli keçdi, gördü damın həndəvərində sakitlikdir, bir az toxdadı. İstədi çıxıb əkilsin, ürək eləmədi, onu görən ola biləcəyindən ehtiyatlandı. Bə nə etsin? Bir yerdə duruş gətirə bilmirdi. Axşamın düşməsini gözlədi. Çalvadaroğlunu da görsə lap yaxşı olar, onu da aradan çıxardar. Bu ümid onu bir az canlandırdı. Həmin qərarla axurda tərpənmədən qaldı. O qalmaq, bu qalmaq bir də eşitdi mal-qoyun səsi gəlir. Başa düşdü ki, naxır örüşdən qayıdıb, axşamdır. Bir az da gözlədi ki, tamam axşam olsun, qaranlıq qarışsın, bu da onda bacadan birtəhər çıxıb əkilər.

Amma malı-qoyunu içəri, dama salan yox idi. Hamısı eşikdə böyrüşə-böyrüşə qalmışdı. Çardağın altında Çalvadaroğlunun itinin boğuq zingiltisi eşidilir, it hərdən ağzını göyə tutub canavar kimi ulayırdı. Bunun da qorxusu vardı. Belə ki, Çalvadaroğlu iti açıb buraxsa, bu da onu görə bilməsə buradan necə çıxacaqdı? Çalvadaroğlunun iti göydə gedən quşu saldırırdı. Onun qorxusundan gecə vaxtı bu həndəvərə hərlənən olmurdu. Müsəllim Çalvadaroğlunun itinə yaxşı bələd idi. Bu da onu bir yandan qorxuzmağa başladı.

Aradan bir qədər də vaxt keçdi. Nəhayət, kiminsə ayağının tappıltısı eşidildi və gəlib damın qapısını açdı. Müsəllim gördü ki, Çalvadaroğludur, bu səsini çıxarana kimi o geri qayıtdı. Müsəllim də hündürdən dillənə bilmədi ki, demək olmaz, oğul-uşağından kişinin yanında bir kəs olar. O da bunu görər. Bunun qorxusundan bir şey eləyə bilmədi. Heyvanlar bir-bir dama dolmağa başladı. Axırda da atı-eşşəyi girdi. Müsəllim gözlədi ki, bəlkə, Çalvadaroğlu özü də içəri gəldi, görsün heyvanı damda necə yerləşib, ancaq o, qapını möhkəmcə çəkib rəzəsini saldı.

– Ayə! – deyə Müsəllim səsini necə çıxartdısa da, o eşitməyib getdi.

Heyvanlar da hiss eləyirdilər ki, içəridə adam var. Ona görə axura yaxın gəlməyib bir küncə yığılır, basabas salır, buynuzlaşırdılar. Atın-eşşəyin təpiyi göydə fırıldayırdı. Arada nə oldusa eşşək anqıra-anqıra qaldı. Heyvanlar belə elədikcə Müsəllim həyəcan keçirir, elə bilirdi ki, bunların səs-küyünə bu saat aləm bura töküləcək.

Müsəllim darıxdı, artıq dözə bilmədi, daha durub vaxtkən aradan çıxmağı qərarlaşdırdı. İtin səsi gəlmirdi. Bəlkə, gec olsa da, yal töküblər, başı ona qarışıb. Əlverişli şərait yarandığını düşünüb yerindən qımıldandı. Təzəcə axurdan sürüşüb çıxırdı ki, eşikdən səs gəldi. Kim idilərsə damın ağzına yaxın danışırdılar. Eşidib səsindən tanıdı ki, Hümbətdir. Deyirdi:

– Çalvadaroğlu, mənim danam sənin heyvanına qarışıb. Uşaqlar səninkilərlə dama girdiyini görüblər.

– Eləsə damda olar, – Çalvadaroğlu cavab verdi. – Sənin danan mənim nəyimə lazımdır? Sabah apararsan.

– Yox. Yox. Kasıbın malı göz qabağında gərək. – Hümbət razılaşmadı.

– Ayə, indi bu darmacalda nə qayırım? Görürsən başımıza nə iş gəlib?! – Çalvadaroğlu bu sözü xeyli ucadan dedi.

İçəridə Müsəllim başa düşdü ki, Çalvadaroğlu bunu el üzünə deyir. Əslində, qayını olsa da, Çaparın vurulması ürəyindəndir. Belə şeyi o, çoxdan istəyirdi. Əlindən yanıqlı idi. Bunu Hümbət özü də bilirdi.

– Əşi, bir munutluq işdir. Bir çıraq gətir, heyvanımı çıxardım aparım, – deyə Hümbət iki ayağını bir başmağa dirədi.

Müsəllim şübhələnib az qaldı ödünü qussun. Bəlkə, Hümbətin bu dana əhvalatı bəhanədir? Bəlkə, onun bura girməsini görüb? İndi qurğu qurub ki, bunu tutsunlar. Bir az da çox ehtiyatlanıb təzədən axura sivişdi və qərara aldı ki, əgər işdir, bir şey olsa, tüfənglə yox, elə əliləcə onun boğazını cücə kimi boğub tullasın. Sonra da buradan çıxıb teylənsin. Canını qorumaq üçün Müsəllim hər cür cinayət etməyə hazır vəziyyətdə idi. Baxan olsa görərdi ki, onun qan çökmüş gözləri canavar kimi necə alışıb-yanır. Heyvanlar təzəcə sakitləşmişdilər. Qapı açılanda yenə tərpənməyə başladılar. Amma indi də o olan tərəfə gəlmədilər, başqa yanda kotdaşdılar. Yalnız hansınınsa yaxınlıqda tırıltısını eşitdi və isti nəfəsini duydu. Həm də bu ara damın qapısı ağzında gördü Çalvadaroğlu əlində çıraq tutub. O da yaman his eləyirdi. Və bu işıltıda iki baş, iki ağız-burun biri-birinə çox yaxın dayanmışdı. Dəri papaqları və çiyinləri bir-birinə dəyirdi. Doğrudur, Çalvadaroğlu Hümbətə görə çox nəhəng adam idi. Amma indi qatdanmışdı ki, həm başı damın alçaq tavanına dəyməsin, həm də elə bil özünü Hümbətə yaxın tutmaq, onunla mehriban olmaq hissi var idi. Danışığından da bu hiss olundu.

– Allah sənə insaf versin, a Hümbət. Sabahın işıq gözünü əlimizdən alanmı vardı, indi dananı heyvanın içində tap görüm necə tapırsan. Nə biləsən hansı küncə-bucağa girib.

Künc-bucaq deyəndə axura yapışıqlı qalmış Müsəllimin həyəcanı daha da artdı. Ürəyində Çalvadaroğlunu söydü. «Dəli köpəkoğlu nə danışdığıdır?! Yekə dana iynə-sap ha deyil küncə-bucağa düşə».

Hümbət isə yanakı ona baxıb başına hava gəlmiş kimi «hi... hi... hi...» elədi.

– Elə söz danışırsan ki! – dedi. – Şura hökuməti dovşanı araba ilə tutur, indi mən o boyda dananı bu boyda damda tapa bilməyəjəm?

Müsəllim ürək-göbəyini tamam yedi. Ona elə gəldi ki, Hümbət özü qəsdən belə sözlər danışır. Bilir ki, o, buradadır, yəqin, yan-yörəyə də silahlı adamlar qoyublar. Bəlkə, rayon mərkəzinə, «otryad»lara telefon eləyiblər. Müsəllim heç vaxt bu fağır, yazıq Hümbətdən belə qorxmamışdı. Ondan belə pəsinməmişdi. İndi kürkünə birə dolmuşdu. Görəsən, o, başa düşmüşdümü ki, insanın gücü-qüvvəsi heç də onun dəli-dəli hərəkətlərində, qolu zorluğunda deyildir. Əsl güc, qüvvə adamın ağlında, düzlüyündə, insanlara səmimi, mehriban münasibətindədir,

onun adamlığındadır. Bu dəqiqə onun heç ağlı da fərli-başlı işləmirdi. O, qoyun damına düşmüş yalquzaq vəziyyətində idi. Buradan çıxıb qaçmağa cəhd edirdi. Canının harayına qalmışdı. Bununla bərabər Müsəllim Hümbətin hərəkətindən, dediyi sözdən Çalvadaroğlunun da tutulduğunu hiss elədi. Hiss elədi ki Hümbətin sözü onun xoşuna gəlmədi. Amma cavab vermədi.

Hümbət sözü uzatdı:

– Düz demirəm, Çalvadaroğlu?

Çalvadaroğlu onun dediyini guya unutmuşdu:

– Nəyi?

– Dovşanı araba ilə tutmağı.

Çalvadaroğlu çırağı bir az aşağı, üzü bərabərində tutmuşdu ki, alovu damın belinə dəyməsin. Çünki bütüncə şax-şəvər idi. Üstündən də kövşən basmışdı. Alışsa, söndürmək çətin olardı. Bunu həmişə uşaqlara da tapşırırdı ki, dam-daşa girib-çıxanda ehtiyatlı olsunlar. İndi Hümbət onun «əlifini» necə yanıltdısa unudub çırağı yuxarı, başı üstə qaldırdı. Tavandan sallanan qurum, çör-çöp çırtlayanda təzədən çırağı aşağı tutdu və zəhmli baxışlarla Hümbəti süzdü. Onun fikrini, məqsədini birdəfəlik bilmək istədi. Bu ona nə verib ala bilmirdi? Onunla qəsdi-qərəzliyi nə idi? Ona nə üçün yağı kəsilmişdi? Niyə onun üçün Əzrayıla, goreşənə dönmüşdü? Qaldı nə etsin. Çalvadaroğluna məlum idi ki, indi qabağında dayanmış bu adam onun zibillərinin hamısını bilir. Hamısından xəbərdardır. Buna görə fikirləşdi ki, yenə onunla qılıqlı danışsın, bəlkə, bir dil tapa bildi. Amma başa düşdü ki, bundan bir şey çıxmayacaq. Ona görə hədə-qorxu gəlməyi qərarlaşdırdı.

– Ayə, a Hümbət, daha mən canıma yetmişəm, budur, sənə deyirəm, burda ikimizdən başqa heç kəs yoxdur, axırı sən mənim əlimdə öləjəksən.

Hümbət rişxəndlə «hm» elədi:

– Ağlın molla Bidada getməsin...

Çalvadaroğlu dəli olmadımı?! Bir əlində çıraq tutmuşdu. O biri əlinin pəncəsini kişinin ağzına basdı. Hümbət geri gedib ayağı yalağa düşdü, az qaldı arxası üstə yıxılsın, səntirləyib dayandı. Amma Çalvadaroğluna gücü çatmayacağından qorxub daha səsini çıxartmadı. Heyvandan danasını seçib qabağına qatdı. Damdan çıxanda Çalvadaroğlu da onunla dabanbasaraq gedərək:

– Əlində dəlilin yox, sübutun yox, dilini qarnına qoy ha! – deyə ona ciddi xəbərdarlıq etdi.

Axura girib səsini çıxara bilməyən Müsəllim isə həyatda nə qədər böyük səhv etdiyini indi başa düşüb yanırdı. İki əlli başını tutub dişlərini qıcamışdı. Az qalırdı özünü damın daş-divarına çırpsın.

Həyatda xoşagəlməz hadisələrin də bəzən sevinci olur. Görürsən ki bu və ya digər bir işin daha ağır, pis nəticəsi ola bilərdi, amma yüngül keçib, sevinirsən. İndi də hamı ona sevinirdi ki, Çapar yaxşı qurtarıb. Belə ki, ağır yaralanmamışdı.

Elə bir qorxulu şey yox idi. Güllə qoluna dəymişdi. Əzələni dağıdıb keçmişdi. Sümüyə elə bir ziyanı olmamışdı. Qərəz ki, yara yüngül idi. Hamı deyirdi ki, allahın yazığı gəldi, cavandır, qıymadı. Pəri arvadın çörəyi ovsanata keçdi.

– Aaz, a başınıza dönüm, ay ayağınız altında ölüm, kimə nə eləmişik ki, mənə belə divan tuturlar? – deyə Pəri arvad oğlunun qanlı köynəyinə, sarıqlı qoluna baxıb sakit ola bilmir, gözlərindən sel tək yaş axıdırdı. Bəs necə?! Ana ürəyi idi. Tablamırdı. Pəri arvad Çaparın ayağına heç bir xırda tikanın da batmasına qıymırdı. O ki qaldı güllə ilə vuralar. Buna görə göyüm-göyüm göynəyirdi.

Arvadlar onu toxtatmağa çalışırdılar.

– Sən də yaxşı. Oğulun başı qalda gərək. Bunda nə var, tezcə sağalacaq. Sən qurban kəs, yoxsam...

– Aaz, qırsınlar, mal-qoyunumun hamısını gətirib qırsınlar, aaz, bu canım da ona sadağa olsun, – Pəri arvad hər balaca sözdən də oyum-oyum oyulurdu. Amma başqa heç bir söz demirdi. Heç kəsə qarğamırdı. Heç kəsin adını dilinə dolamırdı. Ümumiyyətlə, o barədə camaat da söhbət eləmirdi. Çünki məlum məsələ idi. Hamı bilirdi ki, Çaparın qəsdinə kim durub. Ona tüfəngi kim atıb. Nə üçün atıb. Bunu gözü ilə görən də olmuşdu. Bacısı oğlu Mədət olmasa idi, Çapar, bəlkə də, indi həyatda yox idi. Çünki Müsəllimi saymırdı, ondan ehtiyat eləmirdi. Daha demirdi ki, əppək yeyənin fağırı olmaz.

Bütün məktəb uşağı da Çapargildə idi. Yaman pis olmuşdular. Qəmginləşmişdilər. Bu hadisə onlara o qədər pis təsir etmişdi ki, bir yerdə qərar tuta bilmirdilər. Hamı Çaparı görmək istəyirdi. Gah pəncərənin ağzına toplaşır, gah eyvanda dayanır, gah da içəri doluşub taxta uzanmış Çapara baxırdılar. Onu sarıqlı görüb qəzəblərindən bilmirdilər nə etsinlər. Dişləri bağırsaqlarını kəsirdi. Çapar hərdən ağrıdan üz-gözünü turşudub bekaraca da olsa ufuldananda bunlar da burda ağrıyırdılar. Elə bil uşaqları da yaralamışdılar. Təəssüflənirdilər ki, hadisə yerində niyə olmayıblar. Qarğa-quzğun kimi gədənin üstə tökülərdilər. Onu daşa basardılar. Əllərinə keçəni onun başına yağdırardılar. Mədətdən tez-tez xəbər alırdılar:

– Bəs hayana qaçdı?

Qorxudan Mədətin də dodağı iki yarılmışdı. Bənizi kül rənginə dönmüşdü.

– Çəpərin ardında idi. Sonra görmədim.

Uşaqlar dönüb qaranlıqda çəpərə sarı boylanır, kol-kos, dam-daş hamısı bandit cildində bunların gözünə görünür, eymənib üşürgələnirdilər. Yenə də evlərinə getmək istəmirdilər. Eşikdə, içəridə dayanmaqla elə bil Çapara ürək-dirək verirdilər, ağrısını yüngülləşdirirdilər. Qoysalar gedib lap yanında dayanardılar, qulluğunda durardılar. Çapar onlar üçün o qədər iş görmüşdü ki, indi əvəzini qaytarardılar. Uşaq olanda nə olar?! Kimin necə adam olduğunu, bəlkə də, onlar böyüklərdən də yaxşı bilirlər. Yaxşı ilə pisi daha düzgün qiymətləndirirlər. İndi

qapının ağzından əl çəkməyib Çapara görə narahat olan bu uşaqlar da yanıb-tökülürdülər ki, niyə belə oldu. Çapara necə kömək etsinlər. Onun üçün nə iş görsünlər? Onları bir işə buyuran da yox idi ki, bununla təskinlik tapsınlar. Əksinə, kişilərdən kimsə onlara acıqlandı.

– Ə, burda nəyə durursunuz?! Ələ-ayağa dolaşırsınız.

Bunlar cavab vermədilər. Guya mane olurdular. Ələ-ayağa dolaşırdılar. Qapının ağzından kənara çəkildilər. Sən demə, bunu içəridə Çapar eşidibmiş. Səsi gəldi.

– Uşaqlardımı?

– Hə-ə, – cavab verdilər.

– Eşikdə niyə dururlar?! Deyin bəri evə gəlsinlər.

O saatca adamlar aralandılar. Təzədən o-bu dilləndi:

– Buyurun, a bala, buyurun.

Uşaqlar biri-birləri ilə baxışdılar. Sanki çox vacib, məsul adamlar idilər. Hardansa böyük yerdən gəlmişdilər. Əvvəlcə sıxılıb-utanıb içəri keçmək istəmədilər. Sonra necə oldusa evə daşdanıb boy-boya verərək Çaparın qabağında dayandılar. Müəllimləri də burda idilər. Abdulla müəllimə yaxın oturmuş Məlahət xanım əlini qoynuna qoyub çox qəmgin-qəmgin fikrə getmişdi. Deyilənə görə, Çapara ilk köməyə çatan, pencəyini, köynəyini soyundurub, cırıb əynindən çıxaran, evindən tez-tələsik bint-dərman gətizdirib yarasını sarıyan o olmuşdur.

– Allah onun canına sağlıq versin, – deyə bayaqdan hamı onun haqqında xoş sözlər deyirdi.

Çapar içəri, onun yanına gələn uşaqlara baxdı. Bu, Alıdı, bu, Vəlidi, bu, Sarıdı, bu, Qaradı, bu, Xanpəridi, o biri Güləsərdi, bu biri Omardı, Osmandı. İndi gördü ki, kəndin bütün uşağı burdadır. Hamısı ağnayıb gəlib. Böyükdən çox uşaq var. Buna çox şad oldu. Dedi «qoy mənə görə bunlar qəm yeməsinlər, kefləri pozulmasın. Üzlərində həmişə şənlik olsun». Qolunda möhkəm ağrı olsa da, özünü şən, gümrah tutub gülümsədi. Uşaqların da dodaqları qaçdı. Valideynlərdən kimsə qürurlu-qürurlu:

– Bunlar yaman ağıllı uşaqlardır, ay Çapar, – dedi. – Özləri də heç nədən qorxan deyillər.

Çapar şən-şən başını tərpətdi:

– Bilirəm.

Çaparın yanından çıxanda hər biri bir aslana dönmüşdü. Onlara elə gəlirdi ki, top da atsalar cərgələrini dağıda bilməzlər.

Çalvadaroğlu ilə Hümbət gedəndən sonra Müsəllim yerində qurcuxdu. Ona elə gəldi ki, artıq dəli olub. Axı bu necə məsələ idi? Atası ilə Çalvadaroğlunun arasında nə əhvalat olmuşdu? Doğrudanmı, atasının qatili Çalvadaroğlu idi? Axı onlar yaxın idilər. Biri-birilərinin evinə gəlib-gedirdilər. Məsləhətləşirdilər. Onun

özünü də arxadan Xallı kişinin başına bir çomaq endirib damdan çıxardan Çalvadaroğlu olmuşdu. Dar ayaqda onların köməyinə gəlmişdi. Bəs sonra necə olub ki, araları dəyib? Müsəllim fikirləşdi, baş aça bilmədi. Hümbətə nə düşmüşdü, yalan deyir. Bir də Çalvadaroğlunun sözündən aydın oldu ki, onun atasını o öldürüb. Müsəllim təzədən peşmanladı ki, gərək elə buradaca tüfəngi qaldırıb çırağın işığında Çalvadaroğlunun başını göyə sovuraydı, atasının qanını alaydı. Ancaq bunu niyə etmədi, özü də bilmədi. Bəs indi nə etsin? Bandit yoldaşları onu gözləyirdilər. Bu da tapşırığı yerinə yetirmişdi. Müsəllimə elə gəldi ki, indi arvadlar Çaparın üstə tökülüşüb ağlaşırlar. Və qulağına bayaqdan qəribə səslər gəlirdi. Bu səs bir yandan, həyəcanları o biri yandan hamısı bir-birinə qarışmışdı. Dam-daş onu get-gedə daha çox sıxırdı.

Heyvanlar isə damın ora-burasına dağılışıb, artıq yatışmışdılar. Bəziləri kövşək çalır, fısıldaşır, dincəlirdilər. Hərdən nə üçünsə eşşək ayaqlarını yerə döyür, at fınxırırdı. Müsəllim qaranlıqda bunları görmür, ancaq səslərindən, nəfəslərindən müəyyən edirdi. Müsəllim az qalırdı durub hayıfını bunlardan alsın, hərəsinin qarnına bir bıçaq soxub, bağırsaqlarını yerə töksün.

«Zərər yoxdur, öyrənərəm, sonra Çalvadaroğlunun da anasını ağlar qoymaq mənə borc olsun», – deyə Müsəllim ürəyində düşünüb yavaşca axurdan sürüşüb düşdü. Heyvanları hürküdüb səs-küy salmamaq üçün ehtiyatla bacaya səmt getdi. Bilirdi ki, damın qapısı arxadan bağlıdır. Həm də qapıdan çıxmaq mümkün deyildi. İt o tərəfdə idi. Yəqin, zənciri damın qapısına çatırdı. Ümid yalnız bacadan çıxmağa qalmışdı. Gedib altda dayandı. Bayaq qaçıb qorxulu-qorxulu necə buradan içəri düşmüşdüsə fərqinə varmamışdı. İndi gördü xeyli hündürdədir. Heç belə asanlıqla çıxılan deyildir. Malın altını kürüyüb buradan peyin atırlar. Yadına düşdü ki, bu işin üstündə atası həmişə onu danlayırdı. Çünki bacarmırdı. Daha doğrusu, səliqəsiz iş görürdü. Elə atırdı ki, bacanın yan-yörəsinə dəyib geri tökülürdü, yan-yörəni mur-murdar eləyirdi. Təzədən yığışdırıb bir də atanadək vaxt keçirdi. Beş-on dəqiqəlik iş uzanıb yarım saata, bir saata başa gəlirdi. Bu da atasını əsəbiləşdirirdi. Neçə dəfə kürəyi əlindən alıb:

– Ə, fərsiz! – demişdi. – Elə bil kəndçi oğlu deyilsən. Belə atsana.

Molla Bidad malın peyinini bu dar bacadan elə sərrast atırdı ki, heç yerə dəymədən düz eşiyə düşürdü.

İndi Müsəllimi bax, eləcə götürüb bacadan eşiyə atmaq lazım idi. Bunu da özündən başqa kim edəcəkdi?! Əlini atıb üsulluca ordan-burdan yapışdı, ancaq mümkün olmadı. Damın belindən, pərdilərin, şax-şəvərin arasından quru torpaq ələnib üz-gözünə, boyun-boğazına töküldü.

– Tfu! Tfu! – eləyib gözlərini ovuşdura-ovuşdura durdu. Həm də tüfəngi ona mane olurdu. Qayışı çiynindən sürüşüb qolunun üstə düşmüş, qıçlarına dolaşmışdı.

Başqa əlac yox idi. Müsəllim bir də cəhd elədi. Qaranlıqda əlini atıb yuxarıdan haradansa tutdu. Dartınıb ayağına da bacanın aşağı hissəsində yer elədi. Aha. Deyəsən, bir şey çıxırdı. O biri əlilə də yapışdı. Özünü yığışdırıb, toplayıb bir az da dartındı, ayaqlarını çəkdi. Belə-belə bacanın ağzına çıxdı. Ağzına, burnuna mal peyini dəyə-dəyə, bulaşa-bulaşa başını birtəhər bacadan çölə çıxartmışdı ki, damın qabağında yatmış it duyuq düşdü. Sən demə, bu andır açıq imiş. Kürsəkdə boğulmuş kimi zingildəyib o yandan bəri necə cumdusa Müsəllim gördü başını ağzına salacaq, əlini-ayağını buraxıb tappıltı ilə təzədən dama düşdü. İt az qaldı onun ardınca özünü dama soxsun. Ancaq girmədi, hürə-hürə damın belində dövrə vurmağa başladı.

İçəridə isə heyvanların arasına yenidən çaxnaşma düşmüşdü. Yatışmış heyvanlar hürküb qalxmış, o yana-bu yana kotdaşaraq biri-birlərini buynuzlayırdılar. Eşşəyin təpiyi yenə göydə oynayırdı. Soncuxlayıb tappatap ona-buna ilişdirirdi, at fınxırıb o biri heyvanlara xəbərdarlıq edirdi ki, mənə yaxın gəlməyin, çeçiyə qalxaram boynunuzu-başınızı gəmirrəm.

Müsəllim məcbur olub gözlədi ki, heyvanlar sakitləşsinlər. Görsün it məsələsi necə olur? Çalvadaroğlu əgər bu yerdə eşiyə-bacaya çıxsa, o dəqiqə şəklənərdi. Qurd adam idi. Bilərdi ki, damda heyvanlar niyə çaxnaşır, it niyə belə özünü yeyib yırtır. Yəqin, evdə yoxdur, yoxsa... Çalvadaroğlu istəməzdi ki, yekə naxırdan, var-dövlətindən qalan bu beş-altı dana-duna da əlindən çıxsın. Yəqin, evdə yoxdur, qayınanasıgilə gedib. Çaparın harayına qalıb. Qohum qohumun ətini yesə də, sümüyünü çölə tullamaz, deyərlər.

O gözləmək, bu gözləmək aradan xeyli vaxt keçdi. Müsəllim gördü gözünə çimir gedir. Amma gözləri açıq idi, baxırdı. Bununla bərabər, həm də yatırdı. Həm də yuxu görürdü. Ya da onu qara basırdı. Hər nə təhər evlərində idi. Ata-anası da sağ-salamatca qabağında dayanmışdılar. Gördü atası dedi:

– Ay oğul, ölüm haqdır, mən də qocalmışam, bir gün köçümü çəkib gedəcəm, gəl sənə bu quranı öyrədim. Elə olsun ki, sən də bir çörək sahibi olasan.

Bu da qayıdıb ona dedi:

– Niyə ölürsən?!

Elə bil öz səsinə oyandı. Harda, nə vəziyyətdə olduğunu təzədən dərk eləyib özünü yığışdırdı. Amma atası ilə aralarında, həqiqətən, belə söhbət olmuşdu. Onda Müsəllimin beyni qan idi. Elə bilirdi ki, həmişə beləcə olacaq, həyatda ayrılıq olduğunu bilməzdi. İndi gör... Atası isə onu ağıla-başa qoymaq istəmişdi.

– Bura bax, ay oğul, əvvəlcə hərfləri öyrədərəm. Sonra...

Müsəllim ona cümləsini tamamlamağa imkan verməmişdi.

– Hərf nədir?

– Hərf də, hərfdir. Bax, əlif, bey, tey, sey.

Müsəllim hırıldayıb özündən getmişdi. Atası tərs-tərs onu süzmüşdü.

– Qurandan söhbət gedən yerdə gülməzlər, oğlum. Ondan qorxmaq lazımdır.
Bu da zarafata salmışdı.
– Qorxan gözə çöp düşər, ay dədə.
O da acıqlanmışdı.
– Dəli-dəli danışma. Quran adama qənim olar.

Atası ona bircə quranı demişdi. Müsəllim indi hər şeydən qorxurdu. Adamlardan qorxurdu. Heyvanlardan qorxurdu. Atdan qorxurdu. İtdən qorxurdu. Qorxmadığı bir şey yox idi. Canlı-cansız həyatda nə vardısa hər şey ona qənim kəsilmişdi, hər şey onun qəsdinə durmuşdu.

Müsəllim durdu ki, bəlkə, bu darlıqdan qurtara bildi. Yenicə dəbərmişdi ki, damın belindən yenə itin səsi gəldi. Köpəkoğlunun iti elə bil dil bilirdi. Səsindən məlum olurdu ki, dal ayaqları üstə oturub ulayır. Sahibinə xəbər verir ki, damda adam var. Adətən, canavar-zad olanda itlər belə ulaşırlar. İndi də... Müsəllim yerindəcə donub qaldı. Bu ara ağlına gəldi ki, nə vaxtadək bu itin nazınnan oynayacaq. Bir güllədir, itin canı, çax kəlləsinə, qoy çıxsın getsin işinə. Sən də qaç, aradan çıx. Üstünə gələn olsa da, qara düzənə gülləni yağdır, allah ya sənə verər, ya onlara. Bunu Müsəllim, bəlkə də, eləyərdi. Çünki canı boğazına yığılmışdı. Daha dözə bilmirdi. Amma burası vardı ki, it imkan vermirdi ki, eşiyə, dünyanın üzünə çıxasan. Ay görəsən, ulduz görəsən. Görəsən nə var, nə yox? İt onu bacanın ağzındaca qamarlayacaqdı. Ona görə belə eləmək mümkün deyildi. Qapı da ki, ardından bağlanmışdı. Necə açasan? Bəlkə, cəftəsindən çıxarda bildi. Müsəllim astaraq qapıya tərəf gəldi. Elə usduflu tərpənirdi ki, ata, eşşəyə toxunmasın. Birtəhər qapıya yaxınlaşdı. Nə qədər qurtdaladısa mümkün olmadı. İt də indi hərlənib qapının ağzında hürürdü.

«Bıy sənin it saxlayan atana lənət»! – deyə Müsəllim ürəyində Çalvadaroğlunu söydü, nə söydü. Arvad-uşağı, ölüsü-dirisi qalmadı, hamısını yağladı. Söyüşün biri bir qəpiyə çıxmışdı. Müsəllimin ağzına nə gəlirdi deyirdi. Həmişə yaxın, dost bildiyi, əmi, dayı dediyi bir adam indi onun nəzərində ən qatı, ən azğın düşmən idi. Beləcə vurnuxa-vurnuxa Müsəllim səhərəcən damda qaldı. Gecə-gündüz yol getsə, dağa-daşa dırmaşsa, bundan min dəfə yaxşı idi. Ancaq burada bütün gecəni dəbdələmişdi. O dirəyə, bu dirəyə, o mala, bu mala dəyə-dəyə həlak olmuşdu. Bütün bu cəhdlərin boş olduğunu, hədər yerə özünü əziyyətə saldığını görən Müsəllim, nəhayət, bir yerdə daş tək düşüb qalmış, «nə olar, olar» – demişdi. Burada səhərə yaxın gözünə yuxu getmişdi. Həm yorulub əldən düşdüyünə, həm də heyvanların isti, xoş nəfəsinə elə yatmışdı ki, ağzı açıla qalmışdı. Bu anlar onun dünyada heç nədən xəbəri yox idi. Dünya var, adamlar var, mal var, heyvan var. Heç nədən xəbəri yox idi. Qucağına alıb lüləsini çiyninə söykədiyi tüfəngindən də xəbəri yox idi. Neçə vaxt idi ki, o bu tüfəngə yoldaş olmuşdu. Çaparı da bu tüfənglə vurmuşdu. Onu meşədə ayıya, canavara atmamışdı, amma gətirib kənddə

Çapara atmışdı. Atmışdı ki, ölsün. Yuxusuna da gəlib ölü girdi. Kimsə ölüb. Atası idi bilmədi, Çapar idi bilmədi. Hər kimdisə elə ağlayır, elə ağlayırdı ki, gözünün on yerindən tökürdü. Anası da onun ağlamasına qıymayıb yalvarırdı.

«Ədə, dərdin alım, ağlama. Ədə, qurban olum, ağlama».

O belə dedikcə bu daha da kövrəlib bərk ağlayır, hönkürürdü. Birdən hönkürtüsünə dəli tək oyandı. Gözləri yaşlı idi. Yuxusunda, həqiqətən, ağlamışdı.

Eşikdə ağarışdanan səmanın bəyaz işığı bacadan süzülüb dama düşür, orda-burda mallar görünürdü. Müsəllimin həyəcanı daha da artdı. Bax, indi onun üçün ən çətin vaxt gəlib çatmışdı. Bu ilin payızının havaları xoş keçdiyinə mal hələ çölə gedib-gəlirdi. İndi gəlib damın qapısını açıb, heyvanları eşiyə çıxaranda mütləq onu görəcəklər. Bununla da Müsəllim ələ keçəcək. Bundan sonra onun halı-günü necə olacaqdı, bilmirdi. Həm də içərisində Çalvadaroğluna qarşı yenilməz bir acıq hissi var idi. Bu acıq hissi bircə gecənin içində əmələ gəlmiş, yumrulanıb ürəyinin başında qara çaylaq daşı kimi dayanmışdı. Müsəllim öz dərdini çəkə-çəkə, öz başının hayına qala-qala açıq-aşkar dərk edirdi ki, bu daşı götürüb atmasa dincəlməyəcək. Ürəyi yerinə gəlməyəcək. Bu da elə-belə adi daş deyildi. Bu qeyri-adi daş tez-tez ürəyinin başında oyur-oyur oynayır, sinəsini deşib, yarıb eşiyə çıxır, güllə olub tüfəngin qoynuna girirdi. İntiqam alovundan doğan bu acıq gülləsi sıxılıb, yığılıb aradan çıxmağa can atırdı.

Bu ara eşikdən mal-heyvan səsi gəldi. Müsəllim bildi ki, camaat mal-qarasını çıxardıb naxıra qatır. Bildi ki, indi Çalvadaroğlu gəlib heyvanını damdan çıxardacaq. Tez o, damın ardında dirəyə söykəndi. Hələ nə edəcəyini özü də yaxşı bilmirdi. Fikirdən, qorxudan başı şişmişdi. Dünəndən bəri bütün canını çulğalamış qorxu hissi onda bəzən daha güclü olur, ürəyi döyünür, baldırları əsirdi. Bir azdan yenə damın bacası tərəfdən itin səsi eşidildi.

– Ə, bu quduz dəymiş niyə belə eləyir? – Çalvadaroğlu idi. Acıqlandı. – Ay it, yerinə!

İt bir-iki ağız hürüb səsini kəsdi. Ara verməsindən Müsəllim başa düşdü ki, Çalvadaroğlu iti bağladı. Sonra da gəlib damın qapısını açdı. Ancaq özü içəri girmədi. Qapını geri itələyib yenə eşiyə çıxdı, heyvanlar da ardınca daşdandılar.

İndi qapı bütüncə açıq idi və çardaqdan içəri çəpəki işıq düşürdü. Amma bu işıq gəlib damın ardına qədər çatmırdı. Müsəllim yenə də qaranlıqda qalmışdı. Və qaranlıqdan eşiyə baxırdı. Ot-ələf tayasından başqa heç nə görmürdü. Bir səs-ün də eşidilmirdi. Çapargilin evi damın qapısı səmtdə idi. Ağlaşma yox idi.

«Yəqin, axşamdan ağlayıb-ağlayıb yorulublar. Bir azdan başlayacaqlar». – Müsəllim ürəyində öz-özü ilə danışıb qeyri-iradi olaraq dərindən nəfəs alıb köks ötürdü.

Bir azdan isə məktəbin zəngi çalınmağa başladı. Bu səsi Müsəllim gözləmirdi. Heç ağlına da gəlmirdi. O, çoxdan idi ki, bu səsi belə yaxından, aydın

eşitmirdi. İndi ona qulaq asıb-asıb birdən-birə sanki ayrı bir dünyaya düşdü. Dərsə gedən uşaqları gözünün qabağına gətirdi. Qəmsiz, qüssəsiz uşaqlar. Bəzi adamlar da qəribə olurlar. Azadlıqlarının, xoş günlərinin qədrini öz ağıllarının ucundan dara düşəndə bilirlər. İndi Müsəllim də yanıb-tökülür, uşaqlara həsəd aparırdı.

Bütün gecəni, demək olar ki, Çaparın yanında adam olmuşdu. Çalvadaroğlu hələ axşamdan gətirib özünün bir heyvanını kəsmişdi.

– Əşi, bu darmacalda nəyə lazımdır, sabah işıq gözünə kəsərsən, – deyə obu etiraz etmişdisə, Çalvadaroğlu qulaq asmamışdı.

– O ki bu xatadan süyüşdü, salamatlıq oldu, ona lap beş heyvan da qurban kəssəm azdır, – deyə Çalvadaroğlu çəkib heyvanı boğazlamışdı. Tezcə soyub, doğrayıb, bir qazan bozartma bişirmişdi. Özü də hərəyə bir yekə qab ət çəkib «yeyin» demişdi. Çalvadaroğlunun qarnının azarını bilən bilir, bilməyən isə tərifləyirdi.

– Sağ ol, a Çalvadaroğlu, sağ ol, sən ki belə qohum-qardaş canlısan, halal olsun.

Abdulla müəllimlə Məlahət xanım səhər tezdən durub hələ dərsə girməmişdən qabaq Çapara dəyməyə gələndə gördülər Çalvadaroğlu yenə burdadır. Çaparın ayağının altında taxtın ucunda qayınanası Pəri arvadın yanında oturub sükuta gedib. Abdulla müəllim o qədər təmiz, o qədər ürəyi açıq, saf adam idi ki, kim nə desə, necə hərəkət eləsə o cür də inanırdı. İndi Çalvadaroğlunu belə yuxusuz, yorğun, qayğılı görəndə ona yazığı gəldi.

– A kişi, – dedi. – Canını çöldənmi tapıbsan. Gedib yatıb dincəlsənə? Sən elə dünəndən ayaq üstəsən.

– Bə nə qayırım? – Çaparı göstərmişdi. – Canımın canı çıxsın, gərək dözəm.

Bir az qabaq oyanmış Çapar təkid elədi:

– Əşi, məndə heç nə yoxdur. Narahat olma. Çıx işiyin ardınca get.

Çapar, həqiqətən, yaxşı idi. Yarası ağrıtsa da, incitsə də, qorxulu heç bir şey yox idi.

Çalvadaroğlu durub getməyə hazırlaşarkən haradan yadına düşdüsə Şura sədrini xəbər aldı.

– Bəs Talıb kişi hanı?

– Talıb kişi gedib.

– Hara?

– Gecə ardınca otryadlar gəlmişdi, onlarla getdi. Görünür, nəsə var.

Çalvadaroğlu ayaq üstəcə qurudu. Görəsən, bu nə məsələdir?

Müsəllim yaxşı başa düşürdü ki, gündüz nə təhər olsa uşaqdan-böyükdən dama girən olacaq. Başqa iş olmasa da, malın altının peyinini kürüyüb atmalıdırlar. Ona görə vaxtkən buradan çıxmaq lazım idi.

Həyət-bacada səs-səmir yox idi. Müsəllim asta addımlarla qapının ağzına gəldi. Oradan bəri, çardağın altına çıxdı. Bir az aralıda yolun içində çantalı-çantalı məktəb uşaqları oynayırdılar. Müsəllim tez dalı-dalı geri gedib özünü

gizlətdi. Bəlkə də, böyük adamlar olsa idi, belə qorxmazdı, amma uşaqlardan möhkəmcə qorxdu. Bildi ki, görsələr dil boğaza qoyan deyillər. Qaz tək çığırışa-çığırışa üstünə töküləcəklər. Hay-haray salacaqlar. Necə şeydisə, məktəbdə bunlara nə öyrətmişdilərsə qorxu-hürkü bilmirlər. Düz adamın üstünə gəlirlər. Gözlərinə güllə də tutsan gəlirlər. Özlərinin də gözlərindən heç nə yayınmır. Elə bil ley gözləri var. Qabaqlar heç belə deyildilər. Böyüklərin işinə qarışmazdılar. Hayana qovsan mal tək o yana gedərdilər. Ağızları nə idi böyüyün qabağından dillənələr. Təpələrinə vur, əllərindən əppəklərini al. Əvvəlki vaxtlar olsa idi, Müsəllim onların ciyərlərini çıxardardı. Amma indi qorxurdu. Ona görə gedib gizləndi ki, uşaqlar görməsinlər. Bu ara yenə məktəbin zəngi çalınmağa başladı. Bu üçüncü dəfə idi ki, çalınırdı. Sən demə, oyuna başları qarışıb məktəbi yaddan çıxarıblar. İndi eşidəndə götürüldülər. Dovşan tək elə qaçırdılar ki, deyirdin orda alma-armud paylayacaqlar. Dədələri onları çağırsa, heç belə qaçmazdılar. Müsəllim qapının ağzında dirəyə söykənib pəncələri üstə qalxaraq başını azca irəli uzatmışdı. Bunların hamısını görürdü. Uşaqlar siniflərə doluşanda fürsətdən istifadə etmək üçün tez irəli çıxdı, çardağın altından yan-yörəyə boylandı. Həyətdə heç kəs yox idi. Ev elə bil köçmüşdü. İtin də səsi çıxmırdı. Xəlvətlik idi. Yəqin, Çapargildədirlər. Baxdı. Amma onların da həyət-bacasında bir adam görmədi.

«Yəqin, adamlar içəri otağa yığışıblar» – deyə düşündü. O, Çaparı öldürməsinə şübhə etmirdi. Belə düşünürdü ki, daha Çapar yoxdur. Bir də gördü çardağın altında açıq-aşkardaca xəyala dalıb. Fikrə gedib. Çapar haqda düşünür. Çapar ondan bir-iki yaş böyük olsa da, hər halda yoldaş idilər. Bu dolaylarda o qədər dana-buzov otarmışdılar ki! Yazın-payızın soyuq havalarında dərələrdə qaramıx kolunun çıl-çırpısından, xırdaca kör-kötüyündən ocaq qalayıb əllərini birgə oda tutub qızdırmışdılar. Nəsə danışıb, zarafat edib gülüşmüşdülər. Yadına gəldi ki, balaca, on-on iki yaşlarında olanda tez-tez güləşirdilər. Çapar yıxardı. Bir dəfə bunun qolu altında qalıb bərk ağrımışdı. Bu qolunu tutub ağrıdan dişlərini qıcaşdıranda o da ofum-ofum ofuldayıb peşmançılıqdan bilməmişdi nə eləsin.

– Hə, yaxşı. İndi də gəl sən yıx. Qoy indi də mənim qolum altımda qalıb ağrısın, – demişdi. O buna qıymamışdı, ancaq indi bu ona qıydı. Bunu xatırlayıb Müsəllim pis oldu. Daha o barədə düşünməməyə çalışdı. Bilirdi ki, aradan çıxmasa işi şuluqdur. Bax, elə buradaca başqaları bir yana qalsın, yalnız Çaparın bacısı birdən onun üstə çıxsa dünyanı başına uçurmazdımı. Bir ağac götürüb beynini-başını əzməzdimi. Yabanı götürüb qarnına soxmazdımı. Onu dişi ilə, dırnağı ilə dağıtmazdımı. Deməzdimi:

– Ədə, ədə, a yaramaz, mənim qardaşımı niyə öldürmüsən? Necə qıydın onun cavan canına?!

Onda bu nə deyərdi? Nə cavab verərdi? Bu töhməti götürməkdən ölüm yaxşı deyildimi? Bəs Çalvadaroğlu? Müsəllim hiss elədi ki, onun ürəyinin başındakı

o acıq daşı yenə tərpəşdi, sinəsini yarıb çıxdı və güllə olub tüfəngin lüləsinə sıxıldı. Bundan o özü də sıxıldı. Bilmədi nə etsin? Beyni daha da dumanlandı, qəti bir qərara gələ bilmədi. Bununla bərabər elə bil onun qulağının dibində kimsə daima qışqırırdı.

– Ayə, qaç! Ayə, a bədbəxt oğlu, qaç, canını qurtar.

Bu da qışqırığa qulaq asıb, nəhayət, tərpəndi. Qaçıb özünü çəpərin ardına salmaq istəyirdi ki, sudan səhəngli-səhəngli bir dəstə arvadın gəldiyini gördü. Qorxub o saatca qayıtdı. Xatalı tək arvadlar gəlib düz onun bərabəri qənşərdə dayanıb söhbətlərinə davam etdilər. Naxırçı mınqıdı Mansırın arvadı hövüllü-hövüllü deyirdi.

– Onu görüm yarımasın! Bıy onun ciyəri yansın.

Kim haqda deyirdi? Nə səbəbə belə deyirdi? Bu, Müsəllimə aydın deyildi. Eşitsə də, sözlər ona bir qədər gec çatırdı. Nəsə elə bil ağlı başında deyildi. Arvadlar isə:

– Hə-ə, a bajı, hə-ə! – deyə başlarını tərpədirdilər.

Müsəllim belə fikirləşdi ki, indi keçib-gedərlər. Amma ağızları söhbətə necə ilişmişdisə, deyəsən, heç getmək fikirləri yox idi. Bir əldən üyüdüb tökürdülər. Yorulmaq bilmirdilər. Çənələri daima tərpənirdi. Müsəllim məəttəl qaldı ki, bəs bunların bellərini səhəng qırmırmı? Bəs bunların evlərində oğul-uşaqları yoxdumu? Dərdləri-azarları tükənibmi? Hər nə təhər arvadların ağzı yaman qızışmışdı. Deyəsən, onlar bu gün axşamadək burada söhbət edəcəkdilər. Əslində, onlar Müsəllim olan tərəfə baxmırdılar. Müsəllim çıxıb getsə, bəlkə də, onu görməyəcəkdilər. Ancaq o buna ürək eləmirdi. Uşaqdan-böyüyə kənddə hamıdan qorxurdu.

Beləliklə, Müsəllim gündüz də damdan çıxa bilmədi. Bəs nə etsin, başına nə çarə qılsın? Çox götür-qoydan sonra belə fikirləşdi ki, axşam şər qarışanda çıxsın. Çünki bu vaxtlar kənddə, adətən, qələbəlik olur. Biri mal-qarasının qabağına çıxır. Digəri sürüdən qoyun-quzusunu seçir. Xülasə hamının başı müəyyən bir şeyə qarışır. Qərarlaşdırdı ki, bu vaxt necə olur-olsun buradan çıxıb əkilsin. Özü də bərk acmışdı. Dünən səhər yediyinin üstündə idi. Ürəyi çəkilirdi.

İndi kənddə hamı Çapardan danışırdı. Müsəllim onu axtarırmış, qarşısına məqsəd qoyubmuş ki, mütləq vursun. Mədət onu görüb Çapara necə xəbərə qaçıb. Deyib ki, eşiyə çıxma, içəridə gizlən. Bu da qorxan oğlandımı?! Tüfəngi götürüb eşiyə yüyürüb. O da müxənnətlik eləyib gizlindən atıb. Çapar yenə əl çəkməzmiş, Mədət əlinə-ayağına dolaşıb qoymayıb. Xülasə birinin də üstünə beşini qoyub danışırdılar. Ağızdan-ağıza keçdikcə hərə bir az artırırdı.

Çapar haqqında söhbətlərə indi, bəlkə də, hamıdan çox Qandalıbəyin baldızı şəhərli qız Çimnaz maraqla qulaq asırdı. Və bu oğlan onun gözündə indi dəyişilib ayrı cür olmuş, qorxmaz, qoçaq, xüsusi bir şəxsiyyətə çevrilmişdi. Və istəyirdi

ki, onu görsün. Neçə dəfə istəmişdi ki, Çapara dəyməyə o da getsin. Düzdür, onun vurulması xəbərini təzə eşidəndə qaçıb getmiş, ancaq içəri keçməmişdi. İndi də getməyə utanırdı. Bilmirdi necə desin ki, bəs, ay bacı, mən də getmək istəyirəm. Gözləyirdi ki, bəlkə, bacısı özü deyə. O da demirdi. Bu yaralı oğlanı görmək məsələsi mümkün olmasa da, qız onun təhlükədən sağ-salamat qurtarmasına sevinirdi. Əlbəttə, onların aralarında elə bir yaxınlıq olmasa da, hər halda, biri-birilərini tanıyırdılar. Çapar get-gedə qıza pis təsir bağışlamırdı. Əksinə, görürdü ki, yaxşı oğlandır, səmimidir, mehribandır. Hər şeydən qabaq onun işgüzarlığını, hələ çox gənc olsa da, kəndin bütün işlərinə əl yetirməsini, hamı üçün nəsə faydalı bir iş görmək istəməsini qız get-gedə başa düşür və onları qiymətləndirirdi. Ona görə də oğlanın başına bu hadisə gələndə qız çox pis olmuş, həyəcan keçirmişdi. Sanki onun özünə güllə atmışdılar. Onu yaralamışdılar. Təzə eşidəndə, kəndə hay-haray düşüb, adamlar ordan-burdan çıxıb çığırışa-çığırışa Çapargilin həyətinə tökülüşəndə qızı çox dəhşətli bir əsmə tutmuşdu. Ağacda yarpaq əsən tək əsmişdi. Hələ bu vaxtadək bu qız heç zaman belə əsməmişdi. Gülləni Çapara atmışdılar, ancaq bu qız qorxmuşdu. Əsə-əsə də Çapargilin talvarının yanında qalmışdı. Nə dizləri tutmuş, nə ayaqları yerimişdi. Elə bilmişdi ki, oğlan ölüb. Sonra eşidəndə ki, ölməyib bir az özünə gəlmişdi.

Abdulla müəllim ondan da betər hala düşmüşdü. Hadisə olan zaman o evində idi. Həyətdə əlləri qoynunda dayanıb uşaqlar barəsində düşünürdü. Düşünürdü ki, bu az vaxtda uşaqlar nə qədər şey öyrəniblər. Xeyli irəliləyiblər. Daha əzəlki uşaqlar deyillər. Müəyyən şeylərdən baş çıxarda bilirlər. Hətta onu da fikirləşirdi ki, bir az yaşlı adamlar üçün də savad kursları açmaq lazımdır. Elə olsun ki, hamı heç olmasa yazmağı, oxumağı bilsin. Nə vaxtadək qol çəkmək əvəzinə barmaqlarını basacaqlar kağıza?! O gün görmüşdü ki, muzdur Hümbət məktəbin həyətində oynaşan uşaqlara yaxınlaşıb onlarla söhbət edir. Bu da bir az aralıda dayanıb onlara fikir vermişdi.

– Ayə, ay uşaqlar, demək, siz yazmaq bilirsiniz?

– Hə-ə. – Uşaqlar yan-yörədən cavab vermişdilər.

Muzdur Hümbət dilini nırçıldatmışdı. Uşaqlar tez onun dövrəsinə toplaşmışdılar.

– İnanmırsan, Hümbət dayı?

– Hələ bir söz yazın, baxım görüm necə yazırsınız?

– Necə yazaq?! Heç bir şeyimiz yoxdur, – deyə uşaqlar naçar-naçar əllərini açmış, yanlarında kağız-qələm olmadığını bildirmişdilər. Sonra biri haradan yadına düşmüşdüsə demişdi:

– İstəyirsən yerdə yazaq?

– Yazın. – Muzdur Hümbət razılaşdı.

Uşaqlar tez aşağı doluşmuşdular. Hərə bir yerdən soruşmuşdu:

– Nə yazaq?
– Nə istəyirsiniz yazın.
– Adını yazaq?
– Mənimmi?
– Hə-ə.

Yerdə barmaqlarının ucu ilə cızıb hərə bir «Hümbət» sözü yazmışdı. Sonra da höccələyə-höccələyə oxuyurdular.

– H...ü...m...bə...t!

Bu da torpağın üstündə yazılmış adına elə baxırdı ki, deyirdin çeşidini çıxardacaq.

Xülasə, Abdulla müəllim uşaqların oxumaları, get-gedə fəallaşmaları barədə düşünürdü ki, birdən tüfəng atıldı. Qanı qurudu, heykəl tək donub qaldı. Bildi ki, bu elə-belə atılan güllə deyil. Bildi ki, dostlarından kiminsə başında qaranlıq var. Onu da bildi ki, bu xata Talıb kişidən, Çapardan uzaq deyil. Elə düşündüyü kimi də oldu. Abdulla müəllim dəli olmuşdu. Bilmirdi nə etsin. Acığından səhər dərsdə şagirdlərə tez-tez mahnı oxutdururdu ki, düşmən adamlar eşidib korlansınlar.

* * *

Çıxıb getmək üçün axşamın şər vaxtını gözləyən Müsəllim içəri damda uşaqların mahnı səsini eşidib onu başqa cür anladı. Elə bildi ki, bu, mahnı yox, ağlaşma səsidir. Çaparı ağlayırlar. Elə ağlayırlar ki, adamın ətindən sümüyü aralanır. Tövlənin bacasından, qapının qıraq-bucağından güclə gəlib qarmaqarışıq halda çıxan mahnı səsi ona nədənsə bu şəkildə çatırdı. Kar könlündəkini anlayan kimi o da yalnız bu barədə düşündüyündən belə olurdu. Hətta kimlərin nə vəziyyətdə, necə ağladığını öz aləmində gözləri qabağına gətirdi.

Bax, o ortada meyitin başı yanında oturmuş ağbəniz, arıq arvad Çaparın anası Pəri arvaddır. Gör, ikicə günün içində nə günə düşüb. Heç tanımaq olmur. O qədər ağlayıb ki, gözündən daha yaş çıxmır, səsi də batıb. Cüy-cüy cüyüldəyir. Hərdən hüznlü-hüznlü özünü yırğalayır. Deyəsən, heyi qalmayıb. Bütüncə taqətdən düşüb. Bacısı Güləsər də özündə deyil. Yanıb-yanıb tökülür. Dəli tək hərdən:

– Ay qardaş! Ay qardaş! – deyə elə qışqırıb göynəyir ki, arvadlar zuy-zuya gedirlər. Eşikdə kör-kötüyün üstündə oturub fikrə getmiş kişilər də az qalır dəsmal götürüb ağlasınlar.

Belə fikirləşən Müsəllim qəribə vəziyyətə düşdü. Yadına gəldi ki, onlara gedərdi, onlardan gələrdi. Çaparın anası onun qabağına o qədər çay-çörək qoyub ki! Bu da oturub yeyib, onlarla danışıb-gülüb. Müsəllim darıxdı. Bayaqdan qəm dəryasına batmışdı. Başı sallanıb qıçları arasına düşmüşdü. Başı ona heç vaxt bu qədər ağır gəlməmişdi. Onurğa sümüyünü də elə bil çapmışdılar. Belini düzəldə bilmirdi. Daha heç ağlına gəlmirdi ki, onu tutarlar, öldürərlər. Bəlkə, bu dəqiqələrdə

o bunun üçün daha sərfəli idi. Tüfəngin qabağına salıb aparar, sonra da bir divara dirəyib güllələyərlər. Birdəfəlik qaraltısı kəsilər. Öz fikirlərindən Müsəllim diksindi. Necə diksindisə başını dəli tək silkələyib gözünün qabağındakı qara-quranı dağıtdı, yenə sıçrayıb qalxdı, yenə canavara dönüb tövlənin qaranlıq künc-bucağında çarx döymək istədi. Amma bayaqdan ayaq üstə idi. Bərk yorulmuşdu. Ona görə də hədər yerə qüvvəsini itirmək fikrindən daşındı. Təzədən axurda oturub belini arxaya apardı, başını dirəyə söykədi. Və gözlərini yumdu. Amma yenə görürdü. Hər şeyi görürdü. Bütün kəndi görürdü. Bax bu, Çalvadaroğlunun həyəti idi. Cinahındakı muzdur Hümbətin daxması idi. Ondan o yana bir başqasının evi idi. Ondan o yana da bir başqasının. Bunların evi isə kəndin qırağında idi. Atası molla Bidad nədənsə, ucdan tikdirmişdi. Məscid kəndin ortasında idi, amma evləri qıraqda. Müsəllim anasını xatırladı. Dedi, görəsən, nə qayırır? Yəqin, ondan nigarandır. Yəqin, gecə-gündüz ondan ötrü ağlayır. Balaca olanda deyərdi: «Getmə gözümdən, gedərəm özümdən». Bax, neçə gün idi ki, gözündən getmişdi, amma anası özündən getməmişdi. Atası ölmüşdü, anası isə hələ sağ idi. Hər halda bir şey olsa eşidərdi. Atasının ölümünü o saatca çatdırmışdılar. Çalvadaroğlu bir sicilləmə şey çatdırmışdı. Beləcə oldu, eləcə oldu. Bu da hirsindən hönkürüb ağlamışdı. Sonra tüfəngini götürüb tərpənəndə qolundan tutub saxlamışdılar.

– Dayan.

– Niyə?

– Dayan görək nə tədbir tökürük.

– Nə tədbir tökəcəksiniz?! Gedirəm onun anasını ağlatmağa.

Axırı yenə o deyənə gəlmişdilər. Çünki Müsəllim özünü yeyib-yırtırdı ki, özüm, yoxsa dəli ollam, ürəyim soyumaz.

Özü də gəlib belə oldu. Elə bir tələyə düşdü ki, çıxa bilmir. Dünən qaçaqlar Müsəllimi xeyli gözləmişdilər. Nəhayət, gəlmədiyini görcək bərk qorxuya düşmüşdülər. Biri ordan, biri burdan hoqquldamışdı.

– Ayə, axırı bu gədənin zibilinə düşəcəyik.

– Bəri gəlin gedək.

– Qulağımızı yapırdıb otururuq, bir də gördün qomaraxladılar.

Nəhayət, biri-birilərinə baxıb durmuşdular. Asta qaçanı allah saxlasın.

İndi Müsəllimin onlardan xəbəri yox idi. Amma dünəndən bəri fikirləşirdi ki, görəsən, nə edirlər? Hər halda onun burada ilişib qaldığını bilirlər. Bəs nə tədbir tökürlər? Bunu bilmirdi. Ancaq bu ona aydın idi ki, onun ələ keçməsini istəməzlər. Çünki belə şeydən qorxurdular. Qorxurdular ki, arada satqınlıq olar, yerlərini, kimlərlə əlaqə saxladıqlarını deyərlər.

İndi onlar haqqında düşünüb vahimələndi. Elə bil dama doluşub tüfənglərini qaldırdılar ki, köpəkoğlu, tülkü tək bura nəyə giribsən? Demirsənmi məni gözləyirlər? Müsəllim tikan-tikan olub purtardı.

– Atam təzə ölüb, ağzınızı təmiz saxlayın.

Bu hardan ağlına gəldi? Niyə belə düşündü? Onlar buna qarşı belə qəddar olardılarmı? Bəs görmürlərmi ki, dara düşüb. Bura, tövləyə özbaşına girməyib. Vəziyyətini nəzərə almazdılarmı? Hər nə təhər gözü onlardan necə qorxmuşdusa belə şeylər ağlına gəldi və özünə elə bil bu yekə dünyada asudə yer tapa bilmədi. Hər yerdən əlinin üzüldüyünü hiss etdi.

Əvvəllər, uşaq olanda, lap elə bu yaxınlaradək bir yana gedib evə gec qayıdanda anası onu danlayıb-dansayırdı:

– Hardasan, ay oğul? Demirsənmi geri yanımız var?! Bir adam əl-ayaq verməzmi?! Maldır-qoyundur, birinin baldırı qırılır, biri çöldə qalır. Anrı gedəni adam bəri qaytarmazmı?

Atasının da belə sözləri vardı. O, əməlli-başlı dalaşardı. Görərdin səsini ucaldır:

– Nə vaxtadək mən vuruşub-əlləşəcəm. Bir ayağım burda, bir ayağım məsciddə. Bilmirəm hansının ardınca yüyürəm. Səninsə evdən-eşikdən xəbərin yoxdur.

Doğrudur, Müsəllim qabaqlarından dillənməzdi. Amma belə şeylərdən xoşu gəlməzdi. Əryən oğlan idi, bu gərək at belində gəzə idi, toylara-nişanlara gedə idi. Yağ yeyib yaxada gəzə idi. Bunlar isə onu mal-qoyun otarmağa, tövlə kürüməyə çağırırdılar. Oğlan arzu elədi ki, o günlər ola idi, bu gedəydi, anası da danlayaydı ki, hardaydın. İndiki ağlı olsa idi, acığı tutmazdı, gülərdi. O günlərin qədrini Müsəllim indi bilirdi. Bəs nə etsin? Az qala bu boyda dünyaya sığmayan oğlan indi qaçıb mal tövləsinin küncünə sivişib ki, deyirdin heç o Müsəllim deyil. Müsəllim özü öz halına ürəyində acıdı. Bax, anası indi ona deyəydi ki, haradaydın? O saatca qışqırardı:

– Cəhənnəmdə!

– Sənin cəhənnəmdə nə işin vardı?

– Bilmirəm, get atamdan soruş. Onun üstündə oldu. Soruş gör onun Talıb kişilə, Çaparla nəyi ortaq düşmüşdü? Dükanı kim yandırmışdı? Qərəz ki, atamın üstündə oldu. Ondan soruş.

Müsəllim burasını da başa düşürdü ki, soruş deməklə yazıq arvad necə soruşsun. Onun atası ölüb axı. Ölülərdən heç nə soruşmurlar. Bilirlər ki, cavab verən deyillər. Bunların hamısını onun özündən soruşacaqlar. Nə üçün dəlilik eləmisən? Nə üçün qaçıb qaçaqlara qoşulmusan? Çaparı nə üçün öldürmüsən? İndi gəl cavab vermə görüm necə cavab vermirsən. Müsəllimin ağlı təzədən başına gəlirdi. Amma gəlməklə nə olsun?! Aləmi biri-birinə qarışdırandan heç yerdə bir işıq ucu görmür, həyatının ciddi təhlükə qarşısında qaldığını get-gedə daha çox hiss edib dəhşətə gəlirdi. Və o buradan çıxıb qaçmağı axşamın şər vaxtına qərarlaşdırmış olsa da, indi bu qorxu, dəhşət hissindən hövllənib ayağa

qalxdı, bilmədi nə etsin? Qabaqkı vaxtlar olsa idi, əlini belinə qoyub çıxar, fit çala-çala ağlı kəsdiyi yerə çıxıb gedərdi. Amma indi onu edə bilmirdi. Elə bil heç o bura adamı deyildi. Nəsə başqa bir əcaib canlı idi. Hiss elədi ki, heç özü də başını qaldırıb bir adamın üzünə baxa bilməzdi. Başını yerə dikərdi. Üzünü-gözünü hamıdan gizlədərdi. Və ona elə gəldi ki, hamıdan çox nədənsə Abdulla müəllimdən utanardı. Onun üzünə qəti baxa bilməzdi. Hamının üzünə baxmağa cəsarət eləsə də, müəllimin üzünə şax baxmağa utanardı. O özü məktəbə getməsə də, Abdulla müəllimin dərs dediyini, uşaqları oxutduğunu görmüşdü. Görmüşdü ki, biri bir səhv iş görəndə, şalaqqılıq eləyəndə «ağıllı ol, ay uşaq, ağıllı ol», – deyir.

Başa düşə bilmədi ki, bunlar bu darmacalda haradan ağlına gəldi. Adamın özündən asılı deyil ki! Bir də görürsən ağlına elə şeylər gəlir ki, ömründə ona əhəmiyyət verməmisən. Təzədən deyirsən ki, bıy hə-ə. Hətta indi Müsəllimin o da ağlına gəldi ki, bax, o da uşaq olsa, məktəbə getsə, Abdulla müəllim bu nəsiyyətlərini ona da deyərdi. Hə-hə. Mütləq deyərdi. Abdulla müəllim elə adamdır. İstəyir ki, hamı ağıllı olsun. Deyirdilər qaçaqların onu da öldürmək fikirləri vardı. Deyirdilər ki, camaatın ağzını əyən birinci odur. Onun məktəb açmasından, uşaqları oxutmasından çox narazı qalmışdılar. Burada, kənddə danqhadanq məktəbin zəngi çalınanda onlar orada meşədə dəli olurdular.

– Zərər yoxdur, hələlik çalıynan, səni o dünyaya göndərmək bizə borc olsun, – deyə çaxmaqları çəkib tüfənglərini şaqqıldadırdılar.

Onda Müsəllimin sümüyü şırtdayırdı. Elə bilirdi ki, bunlar bir gecə hücum edib kəndi alacaqlar. Bu da çəkib Çaparı dizinin altına salacaq «Canın budurmu?! – deyəcək. – İndi burada dur». Çapar necə eləmişdisə bu da elə eləmək istəyirdi. Hayıfını almaq istəyirdi. Atasının ölümünü eşitcək isə qan gözünü tutdu. İndi də elə bil görmürdü. Başında yüz cür fikir-xəyal elə bil hayana baxırdısa Çalvadaroğlu onun gözünün qabağına gəlir, ürəyinin başındakı açıq gülləsi təpilib çıxmağa can atırdı.

O içəridə bu vəziyyətdə olanda anası eşikdə başı alovlu Talıb kişini axtarırdı. Arvad dəli olmuşdu. Hamı deyirdi ki, bəs Çapara tüfəngi onun oğlu atıb. İndi onu tutub güllələyəcəklər. Lap yerin deşiyində də olsa tapıb, çıxardıb güllələyəcəklər. Bu da ağlaya-ağlaya ondan-bundan soruşurdu.

– Aaz, qurbanınız olum, Talıb kişini görmədinizmi? Aaz, ağrınızı alım, Talıb kişini görmədinizmi?

Məqsədi bu idi ki, onun əlinə-ayağına düşsün. Desin yazığam, mənə kömək elə, bəlkə, heç təqsiri yoxdur, bəlkə, öyrədiblər, cavandır, beyni qandır.

Hələ dünən axşam qaçıb özünü Çaparın üstünə də salmışdı. Onun çiynini-qolunu sarıqlı görüb «Allah, mənə ölüm ver! Allah, mənə ölüm ver» – deyə üzünü-gözünü cıraraq ağlamışdı. Sonra da oğluna qarğamışdı. «Bıy onu görüm yarımasın! Bıy onu görüm vurğun vursun». Çaparın salamat qalmasına, bəlkə

də, hamıdan çox o sevinmişdi ki, oğlunun işi bir qədər yüngül olar. Əlbəttə, hazırda onun əsas dərdi-azarı oğlu idi. Bu hadisə əri molla Bidadın ölümünü tamam yaddan çıxartmışdı. Arvadın daha o barədə fikirləşmək imkanı yox idi. Lap doğru-dürüst bilsə də ki, əri molla Bidadı, həqiqətən, bunlar öldürüblər, bəlkə də, oğlunun xətrinə səsini çıxartmayaydı.

Bunlar da dəqiq bilsələr ki, xətər kimdən toxunub yenə molla Bidadın arvadının üzünə ağır-artıq bir kəlmə söz demədilər. Hamı kimi onun da üzünə xoş baxdılar. Fikirləşdilər ki, bu nə etsin? Oğlunu öyrətmədi ha. Bilirdilər ki, elə arvad deyil. Hər hansı bir işin doğru-dürüst əsdahına yetməmiş, əməlli-başlı öyrənməmiş nə ağzından bir söz qaçırdan deyil, nə də bir iş eliyən.

Çaparın özü də onlara kin bəsləmirdi. Xüsusilə molla Bidadın ölümü onu çox mütəəssirləndirmişdi. Bu məsələ hələ də bir sirr olaraq qalırdı. Kim öldürüb? Yəqin bilirdilər ki, molla Bidad özü-özünü öldürməyib. Onu öldürüb, sonra asıblar. Ancaq bu cinayəti kim eləmişdi? Bilən yox idi.

İndi bu əhvalat olanda, əlbəttə, Çapar əsəbiləşmişdi. Yarası ağrıdıqca Müsəllimə qəzəbi-kini artır və onu ürəyində yanıyırdı. «Zərər yoxdur, əlimə keçərsən, – deyirdi. – Sənin ayağını ağzına vermək mənə borc olsun. Elə eləyərəm ki, gəmirə-gəmirə gedərsən». Deməyinə deyirdi. Ancaq eləyəcəyini haradan bilmək olardı. Yəqin ki, əlinə girəvə düşsə eliyərdi. Amma bununla bərabər onu da başa düşürdü ki, Müsəllim, ümumiyyətlə, pis oğlan deyil, onunku nəsə gətirmədi, haradasa pis təsir altına düşdü, öyrətməyə baxdı. Nəticədə də belə oldu. Abdulla müəllim vaxtında haraylamışdı ki, o oğlanı üzə çıxarmaq, pis adamlardan uzaqlaşdırmaq lazımdır. Bu barədə atasına demişdilər. Təəssüf ki, mümkün eləyə bilmədilər. İndi də... Müsəllim işini bir az da çətinə saldı. Bir böyüyü olmadı ki, «gədəni» başa sala, xeyrini-şərini anlada. O da elə bilirdi ki, nə eləsə keçər. Daha demirdi ki, dünya hərki-hərkilik deyil. Adamdan ayın neçəsini xəbər alırlar. Pis işin olanda elə eləyirlər ki, yolun üstü ilə gələndə altı ilə qayıtmalı olursan.

Hələ şər vaxtına çox qalırdı. Əslində, Müsəllim vaxtı-vədəni itirmişdi. Daha doğrusu, bunu dəqiq təyin eləmək imkanı yox idi. Təxmini bilirdi. Bilirdi ki, gün günorta olar. Və bu vaxt ona ağır gəlirdi. Hər an elə bir ilə dönmüşdü. Sanki vaxtın dalından daş asmışdılar. Buna görə Müsəllim çox həyəcanlanır, ələ keçəcəyindən qorxub tezliklə buradan çıxmaq ümidilə gah bacadan, gah da qapıdan eşiyə boylanırdı. Ağlına cürbəcür fikirlər gəlsə də, haradasa səhvlərini başa düşüb peşmançılıq keçirsə də, Çalvadaroğluna qarşı kini-qəzəbi get-gedə artsa da, birinci növbədə öz canı hayına qalır, buradan çıxıb qaçmağı barədə düşünürdü. Qaçmaq! Qaçmaq! Çünki elə bir cinayət eləmişdi ki, onun burada yeri yox idi. Bunu o yaxşı başa düşürdü. Hələ hökumətdən qabaq camaat onu daşqalaq eliyərdi. Qoymazdılar heç nəfəsini dərə.

Bu halətdə eşikdə damın qapısı ağzından səs gəldi. Deyəsən, uşaq səsi idi. Hər ehtimala qarşı Müsəllim təzədən qaçıb axura, dirəyin ardına girdi. Bu da

ağlına gəldi ki, bəlkə, onun burada olduğunu bilirlər. Özləri nəsə hiylə işlədirlər, əzab verirlər.

Müsəllim yerini dirəyin ardında möhkəmlədib gözünü tövlənin girəcəyinə zillədi. Tüfəngi də hazır tutmuşdu. Yaxşı deyirlər ki, xain xoflu olar. Qapı açılanda Müsəllim tüfəngi azca qaldırdı, sonra gördü uşaqlardı, aşağı saldı. Biri qonşu Cıpbılının oğlu idi, digəri Çalvadaroğlunun. Birinin əlində çalğı vardı, digərinin əlində bel. Başa düşdü ki, burada başqa şey yoxdur, sadəcə olaraq tövləni təmizləməyə gəliblər. Yəqin, qonşunun oğlu kömək etməyə gəlib. Əvvəlcə elə bildi ki, uşaqlar gizlənpaç oynayırlar. Burada damda gizlənməyə gəliblər. Çünki balaca olanda bunlar da oynayırdılar. Bax, bir qaçmaları, bir axtarışları vardı ki, gəl görəsən. Səs-küyləri hər yeri götürərdi. Kəndin ayağında olanda qəhqəhələri kəndin başından eşidilərdi.

Bir dəfə yenə gizlənpaç oynayırdılar. Bu da qaçıb belə bir damda gizlənmişdi. Bu gümanda idi ki, burda onu heç kəs tapa bilməz. Bəlkə də, qorxusundan bura heç girən olmadı. Tövlə elə zinrik qaranlıq idi ki, Müsəllim özünü dərin bir quyuya düşmüş kimi hiss edirdi. Bu ara yanında xışıltı eşitdi. Hiss etdi ki, kimsə ayağının ucunda səssizcə ona yaxınlaşır. Oğlan dinmədi. O da gəlib onun böyrünə sivişib qaldı. Oğlan başa düşdü ki, kimsə yoldaşlarındandır.

Səsini çıxartdı.

– Kimsən?

– Mənəm. – Qonşuları Usufun qızı Məleykə idi.

– Aaz, səndəmi burda gizləndin?

– Hə-ə.

– Niyə?

– Damınızı yemiyəcəyəm ha. Nə olar gizlənəndə?!

Qız elə dedi ki, bu daha səsini çıxartmadı. Çiyin-çiyinə bir yerə sivişib qaldılar. Tapılacaqlarından qorxub az qaldılar biri-birilərinin qoyun-qoltuğuna girsinlər. Necə oldusa oğlan çevrilib qızın qulağına dedi.

– Bizi tapa bilməyəcəklər.

– Hə-ə. – Qız kirimişcə dillənib başını tərpətdi.

Oğlan tapşırdı:

– Səsini çıxartma ha.

– Yaxşı.

Müsəllim bunu daima nədənsə xoş təəssüratla xatırlayırdı. Qızın pıçıltılı səsi, xoş nəfəsi, mehribanlığı onun yadında qalmışdı. İndi də bu uşaqları görəndə yadına düşdü və Məleykə haqqında düşündü. Çoxdan idi ki, onu da görmürdü.

Onadək uşaqlar tövləni kürüyə-kürüyə, çalğılıya-çalğılıya qapının ağzından bacanın altınadək gəldilər.

Bacadan tövləyə gur işıq seli düşürdü. Uşaqlar da bu işıq selinin altında dayanmışdılar. Və günəşin qızılı şüalarına bürünmüşdülər. Əyin-başları elə bil

günəşin parçasından biçilmişdi. Amma Müsəllimi təəccübləndirən bu olmadı. Ona təəccübləndi ki, bu uşaqlar elə bil onun görmədiyi bu az vaxtda, günlərdə çox sürətlə böyüyüblər. Bax, Mədətin başı az qalırdı bacaya dəysin. Onamı belə gəldi. Yoxsa uşaqlar, həqiqətən, böyümüşdülər. Yoxsa camaat daha evə-eşiyə sığmır, uzanıb-uzanıb allaha pay aparmaq istəyirdi.

Müsəllim maraqla onlara baxırdı ki, Çalvadaroğlunun gədəsi Mədət Cıpbılının oğlu Qaraya dedi.

– Dərsini oxuyubsanmı?

– Hə-ə.

– Mən də oxumuşam.

– Mən lap əzbər bilirəm.

– Ayə, biz indi elə həmişə oxuyacağıq?

– Hə-ə. Bax, bu il də oxuyacağıq, gələn il də oxuyacağıq, o biri gələn ili də.

– Booy, ayə? – deyə Qara buna heyrət elədi. – Nə qədər oxuyacağıq?

Mədət ağızdolusu, həvəslə dedi:

– Hə-ə. Abdulla müəllim deyir hələ çox oxuyacaqsınız. Deyir insan həmişə oxumalıdır ki, zehni korlaşmasın. Bilsin ki, dünyada nə var, nə yox.

– Dünyada?

– Hə-ə.

– Dünyada nə var ki?

Mədət qısaca cavab verdi:

– Hər şey.

– Hər şey nə?

– Dağlar var. Çaylar var. Adamlar var.

– Bəs Moskva?! Moskva?!

– Hə-ə. Moskva var.

Gizlində durub onlara diqqətlə qulaq asan Müsəllim ona məəttəl qaldı ki, bu uşaqlar beş-on evi olan ucqar bir kənddə olub gör haradan danışırlar. Gör əllərini hara atırlar. Moskva heç bunun yadına düşmürdü. Amma bu uşaqların yadına düşürdü. Müsəllim ürəyində onlara acıqlandı: «Ə, az çərənləyin. Rədd olun burdan».

Onlar isə heç yana tələsmirdilər. Çalvadaroğlunun gədəsi bir az fikirləşib dedi:

– Sən oxuyub nə olacaqsan?

– Mənmi?

– Hə-ə.

– Müəllim olacam, – deyə Mədət güldü.

Bunun da dişləri ağardı.

– Hi...hi...hi...

Əslində, Müsəllimin də gülməyi gəlmişdi. Amma gülmək yeri deyildi. Yoxsa Müsəllim o qədər gülərdi ki, lap qarnının əti ağrıyardı. Beləsinə gülərlər daa.

Əşi, bu gədə dünənədək heç müəllim sözünün nə olduğunu bilmirdi. Evdə bişməmişdi, qonşudan gəlməmişdi. Oxumaq heç yadına da düşmürdü. İndi bir bunun iştahasına bax. Müəllim olmaq istəyir.

İndi də Mədət xəbər aldı:

– Bəs oxuyub sən nə olacaqsan?

– Mənmi?

– Hə-ə.

– Aeroplan sürən olacam.

– Aeroplan?

– Hə-ə.

Müsəllim gözlədi ki, indi də Mədət ona güləcək. Deyəcək, ə, sən hara, aeroplan hara?! Yerdə gəzə bilmirsən, göyə necə çıxacaqsan?! Ancaq gülmədi. Görünür, o buna şübhə eləmirdi. İnanırdı ki, bu oğlan yekələnəndə mütləq aeroplan sürən olacaq. Qəribə idi. Elə bil Müsəllimin gördüyü uşaqlar deyildilər. Tamam dəyişilmişdilər. Müəllim, aeroplan sürən olmaq bunların ağlına haradan gəlmişdi? Bunları onlara kim öyrətmişdi. Onlara nə olmuşdu ki, yerlə-göylə əlləşirdilər? Dədələrini tanımırdılarmı? Yoxsa bunların da başları bədənlərinə ağırlıq eləyir? Bir dəfə qaçaqlardan biri onun yanında demişdi: «Hamısını o dünyaya göndərmək lazımdır. Qoy gedib orda məktəb açsınlar».

Amma bunlar burda açmışdılar. Və uşaqları oxudurdular. Hamı oxumağın ardınca qaçırdı. Abdulla müəllim dönə-dönə camaata deyirdi ki, ən böyük var-dövlət oxumaqdır. Dünyada oxumaqdan gözəl iş yoxdur. Adam oxuyanda, – deyirdi, – dünya işıqlı olur.

Müsəllim ömründə belə şeylər barəsində fikirləşməmişdi. İndi fikirləşir və fikirləşdikcə dünya, həqiqətən, işıqlaşır və o bu qara damın altında da uşaqları daha aydın görürdü. Bax, bunun biri Çalvadaroğlunun gədəsi, o biri Cıpbılının oğlu idi. Çalvadaroğlunun «gədəsi», deyəsən, özünə görə deyildi. Yaman çatdamış uşaq idi. Mədət olmasa idi, o, indi bəlkə də, burada deyildi. Dünən axı ona mane oldu. Bəlkə də, aradan çıxa bilməməsinə bais həmin bu Mədət idi.

Bu yadına düşəndə Müsəllimi elə bil içəridən burdular. «Ağzının üstündə nə şillə yeri var?!» Daha heç üzlərinə baxmaq istəmədi ki, rədd olub getsinlər, xatalarını bundan uzaq eləsinlər. Amma bunların, deyəsən, heç damdan çıxmaq fikirləri yox idi. Uşaq ki, uşaq! Haradan yadına düşdüsə Çalvadaroğlunun gədəsi Cıpbılının oğluna dedi:

– Gəl oynayaq.

– Nə oynayaq?

– Sən Müsəllim ol, mən dayım Çapar. Sən məni vur, yaxşımı?

Qara da tez başını buladı.

– Yox! Sən Müsəllim ol, mən Çapar.

O dedi. Bu dedi, o dedi. Heç biri Müsəllim olmaq istəmirdi.

Müsəllimi dəhşət bürümüşdü. Gör nə günə qalmışdı ki, bu uşaqlar da onu bəyənmirdilər. Müsəllim olmaq istəmirdilər. Halbuki o özü haqqında çox böyük fikirdə idi. Elə bilirdi ki, kənddə var-yox bircə odur. Elə bilirdi ki, hamı onun qoçaqlığından, igid oğlan olmasından danışır. Sən demə... Bu ona o qədər pis təsir elədi ki, yerində rahat dayana bilməyib qurcuxdu. Uşaqlar şaqqıltı eşidib diqqət kəsildilər.

– Nə idi o?

– Nə bilim.

– Cin olacaq.

– Nə?

– Cin.

– Gəl qaçaq.

– Niyə qaçırıq? Gəl hələ görək nədir?

Uşaqlar ayaqlarının ucunda tövlənin küncünə sarı getdilər. Müsəllim üzünü divara çevirib az qalırdı ki, özünü tövlənin hisli-paslı ağac-uğacının arasına soxsun. Elə eləsin ki, uşaqlar onu görməsinlər, tanımasınlar.

Uşaqlarsa yaman şübhələnmişdilər. Ona görə gözlərini dörd eləmişdilər. Orada, həqiqətən, adam olduğunu görcək dəli olmadılarmı? Yerlərində quruyub qaldılar. Qorxularından cınqırlarını da çıxarmadılar. Birdən geri dönüb qorxulu-qorxulu necə qaçdılarsa bir də gördülər eşikdədirlər. Həyətdən yola çıxanda təsadüfən Abdulla müəllimə rast oldular. Özlərini təntimiş onun üstünə saldılar.

– Müəllim! Ay müəllim!

Abdulla müəllim gördü ki, uşaqlar özlərində deyillər. Bu da o saat bildi ki, nəsə var. Tez soruşdu:

– Nə olub sizə?

– Müəllim, bizim damda qaçaq var. Bəlkə, Müsəllimdir? – Bu, Mədətin ağlına hardan gəldi? Müsəllimin ola biləcəyini bu uşaq haradan fikirləşdi?!

Qaçaq sözünü eşidən Abdulla müəllim bir qədər özünü itirdi. Əgər uşaqlar dediyi düzdürsə, demək, o gədə yenə buralardadır. Yenə nəsə xata çıxartmaq istəyir.

Uşaqlar dil boğaza qoymurdular.

– Müəllim, damda oynayırdıq, bir də gördük odur ey... bax, elə indicə gördük.

Abdulla müəllim bilirdi ki, uşaqlar yalan danışmazlar. Görünür, Müsəllim dünən təntiyib aradan çıxa bilməyib, ona görə özünü dama-daşa salıb. Bəlkə də, başqa cür olub. Hər nə təhər, indi nə etsin? Fikirləşdi ki, əgər hay-küy salsalar, camaat töküləcək, ara qarışacaq. Bu, Müsəllimin özünə də pis təsir edər, əsəblərinə toxunar, onu daha da acıqlandırar və nəhayət, əlindən xata çıxa bilər. Ona görə ehtiyatlı tərpəndi. Barmağını dodağının üstünə qoyaraq:

– Ssss, – eliyərək uşaqlara sakit dayanmağı başa saldı.

Müəllimlərinin sözü onlar üçün qanun idi. Səslərini içlərinə saldılar. Abdulla müəllim isə necə hərəkət edəcəyini tez öz-özlüyündə qərarlaşdırıb üzünü Mədətə tutdu.

– İtiniz bağlıdırmı?

Oğlan «hə» dedi.

Uşaqlar müəllimin nə etmək istədiyini başa düşüb çox narahat oldular. Çapardan başları çəkmişdi. Gözləri qorxmuşdu. Hərəsi bir tərəfdən müəllimin qolundan yapışdı.

– Müəllim, hara gedirsiniz?! Qoymarıq!

Uşaqların belə eləməsi Abdulla müəllimin xoşuna gəldi. Heç iki-üç ay deyildi ki, dərs deyirdi. Heç iki-üç ay deyildi ki, uşaqlarla oturub dururdu. Elə bil öz doğma övladları idi. Bunlar da onun həyatı üçün narahat idilər. Əslində, molla Bidadın oğlundan hər nə desən gözləmək olardı. İndi, yəqin ki, daha da azğınlayıb. Ağılsızdan nə qədər gen gəzsən yaxşıdır. Buna baxmayaraq:

– Dayanın, uşaqlar, dayanın. Qorxmayın. Heç nə olmaz. Biz pis iş görmürük ki, bizə də pislik etsinlər, – deyə uşaqların qolundan tutub özündən geri elədi. Həm də bu sözləri içəridəkinə eşitdirirdi ki, ağlını başına yığsın, müxənnətlik eləməsin. Eləcə də başını aşağı əyib tövləyə girdi. Ancaq burada heç kəs yox idi. Ora-bura nə qədər baxdısa bir kəsi görə bilmədi. Uşaqlar da məəttəl qalmışdılar. Bu necə şey idi? Bəs o küncdə, dirəyin ardında tərpəşən nə idi?

– Ay uşaqlar, yəqin, gözünüz alacalanıb, – deyə Abdulla müəllim, nəhayət, güldü. Uşaqlar da elə bu fikirdə oldular ki, gözləri alacalanıb.

Arada belə xoşagəlməz hadisələr onların başını qarışdırsa da, Abdulla müəllim işindən qalmır, məktəbə, uşaqların oxumasına canını qoyurdu. Əmin idi ki, vəziyyət get-gedə yaxşı olacaq. Ona görə işində rahatlıq nə olduğunu bilmirdi. Sinifdə bir dediyindən dönüb bir də deyir, izah eləyir, uşaqları başa salmayınca, onları dərindən öyrətməyincə rahat olmur, canı dinclik tapmırdı. Sevinirdi ki, uşaqlar hərfləri pis öyrənməyiblər, yazmağı, oxumağı az-çox bilirlər.

– Afərin! Afərin! – deyə hər birini tərifləyir, oxumağa, elm öyrənməyə həvəsləndirir, onlara qol-qanad verirdi. Zəif oxuyan uşaqlarla ayrıca məşğul olur, bəzən dərsdən sonra da qalıb birinə yazı yazdırır, digərinə kitab oxutdururdu. Korazehin uşaqlar onu çox incidirdi.

O gün bir qıza elə-belə bir cümlə yazdırmışdı: «Əhməd kişi bir at aldı».

– Yazdınmı?

– Hə-ə.

– Həə yox. Bəli.

– Bəli.

– İndi oxu görüm.
– Ə..H.M...ə..ə..d. Nəhayət, höccələyə-höccələyə birtəhər oxumuşdu.
– Ay sağ ol. İndi cümləni bütöv de.
Qız müəllimin üzünə baxa-baxa qalmışdı.
– Ay qız, indicə oxudun ki, Əhməd kişi bir at aldı.
– Əhməd kişi bir at aldı.
İndi ondan bəri həmin qıza hansı kitabı, hansı dəftəri verirdisə elə bunu deyirdi: «Əhməd kişi bir at aldı». Qız adəti üzrə hərf-hərf başqa şey oxuyurdu. Ancaq «Nə oldu?» – deyə sual edəndə bunu deyirdi. Bir belə, üç belə. Abdulla müəllim yanıb-tökülürdü.
– Ay bala, ay qız, kor tutduğundan buraxmayan kimi sən də elə bir cümlədən yapışmısan. Əşi, Əhməd kişi atını alıb qurtardı. Əl çək bu kişidən. İndi oxu görək nə yazılıb.
– Əhməəəd.
– Oof! – eləyib Abdulla müəllim hirslənmişdi.
Dərslər qurtaranda müəllim elə bir kökdə idi ki, lap əldən düşmüşdü. Çox danışmaqdan, əsəbdən boğazı qovuşmuşdu. Öskürürdü. Talıb kişiyə rast oldu. Talıb kişi ona nəzər salıb dedi:
– Abdulla müəllim, özünü çox öldürmə.
Müəllim yorğun olmasına baxmayaraq, şən-şən gülümsəmişdi.
– Özünü öldürməsən, başqasını dirildə bilməzsən, Talıb kişi.
Abdulla müəllim uşaqlara elə belə şeir də əzbərlətmişdi. Sətir-sətir o qədər demişdi ki, uşaqların yadında qalmışdı. Hərdən əllərini Abdulla müəllim kimi göyə qaldırıb avazla deyirdilər:

*Bir zaman havada qanad saxlayın,*
*Sözüm vardır mənim sizə, durnalar.*
*Qatarlaşıb nə diyardan gəlirsiz,*
*Bir xəbər versəniz bizə, durnalar.*

Bunu eşidən Abdulla müəllim uşaq tək sevinirdi. Yadında olan, qabağına çıxan adama, «Bax, bax, görürsənmi, – deyirdi. – Uşaqlar Vaqifin şeirini əzbərdən deyirlər. Çox hafizəlidirlər. Hələ yazmağı, oxumağı yaxşı bilməsələr də, deyiləni tezcə yadda saxlaya bilirlər. Heç bilirsən bunlardan necə gözəl adamlar olacaq?!»
Abdulla müəllimin sinfində, həqiqətən, yaxşı uşaqlar vardı. Onlar da bəhsə düşmüşdülər. Biri-birilərilə mübahisə edir, biri-birlərinin səhvlərini düzəldirdilər. O gün bir oğlanla bir qız az qalmışdı ki, dalaşsınlar. Belə ki, qız oğlanın dəftərinə baxıb lağ eləmişdi.
– Booy! Nə pis xəttin var, bütüncə cızma-qaradır, lap ilan-qurbağaya oxşayır.
Oğlan ona qıcanmışdı.

– Eyy! Dilini farağat saxla. Bilirsən sənə nə edərəm?!

– Pah! Düz söz deyirəm, acığı tutur. Görmürsən a-nı necə yazmısan? Heç bilmirsən a-dır, yoxsa... Heç bı-nı da düz yazmırsan.

Oğlan dözə bilməmiş, əlini atıb qızın saçından dartmışdı, qız qışqıranda bu, tez əlini çəkmişdi. Bu da qıza heç kar eləməmişdi. Çünki dərsdə necə olmuşdusa oğlan qolunun yanı ilə burnunu silmişdi. Bunu görən qız alçaqdan hırtıldamışdı. Səsi çıxmasa da, çiyinləri qalxa-qalxa gülmüşdü. Oğlan hiss eləmişdi ki, bu ona aiddir. Demişdi:

– Nəyə gülürsən?

– Məktəbli də burnunu qolu ilə silər?

Qızın sözündən oğlan lap partlamağa gəlmişdi. Amma əlini-qolunu tərpədə bilməmişdi. Qalmışdı içərisindən qırıla-qırıla. Çünki dərs idi. Qıza bir şey eləyə bilməzdi. Abdulla müəllim görər, onu tənbeh edərdi. Belə şeylərə, yəni şagirdlərin hərəkətlərinə, oturub-durmalarına, yoldaşları ilə rəftarlarına çox fikir verirdi. «Şura məktəblisi nizam-intizamlı olmalıdır» – deyirdi. Bunu həmin oğlan özü də yaxşı başa düşürdü. Çalışırdı ki, Abdulla müəllimin dediyi, istədiyi kimi olsun. Ancaq bu qız ona sataşıb hövsələdən çıxardırdı.

Səhəri gün Abdulla müəllim oğlanın dəftərinə baxıb məəttəl qalmışdı. Görmüşdü ki, qızın tənqidinin oğlana təsiri olub.

– Ay sağ ol. Afərin. Xəttini düzəltmisən, – deyə oğlanı tərifləmişdi. Buna bütün uşaqlar sevinmişdilər. Uşaqlar da, böyüklər də elə əhvali-ruhiyyə yaratmışdılar ki, biri bir balaca hərf də öyrənəndə, bir söz də yazanda hamı sevinirdi. Öz adlarını yazmaqdan xüsusilə xoşlanırdılar. Elə bil özlərini görür, tanıyırdılar. Uşaqlarının oxumasından, elm, savad almağa həvəsli olmalarından valideynlər sevinirdilər. Onlar söhbət düşəndə dolanışıqlarından, gələcəklərindən çox nikbinliklə danışır və özləri öz söhbətlərindən şənlənirdilər. Əhvalları elə yaxşı olurdu ki, üz-gözlərindən sevinc yağırdı. Bəzən süfrələrində yeməyə elə bir şey olmasa da, qarınları sözdən-söhbətdəncə doyurdu. Elə bilirdin dünyanın yağını-balını, ən ləziz xörəklərini bunlar yeyiblər. Çünki sabahkı günlərinə ümidli idilər. Bilirdilər ki, sabah bundan yaxşı olacaq, həyatları get-gedə yaxşılaşacaq.

Müsəllim axurun altından sürüşüb çıxanda özünü-sözünü bilmirdi. O boyda oğlan balaca bir yerə necə yerləşib yapışmışdısa onu görmədiklərinə özü də məəttəl qalmışdı. Görsələr necə olacaqdı, allah bilirdi. İndi ki, görmədilər, demək, o tez bir vaxtda başına bir çarə qılmalıdır. Tezliklə buradan əkilməlidir. Başqa əlacı yox idi. Yenə axşamı gözləməli oldu. Çünki işıq gözünə buradan çıxıb əkilmək heç cür mümkün deyildi. Ona görə də təzədən axura girib bayaq gizləndiyi vaxta nisbətən bir az rahatlıqla oturdu. Özünü toxtaq tutub dincəlmək istədi. Amma hiss elədi ki, yenə elə bil tikan üstə oturub. Heç cür rahatlıq tapa bilmirdi. Aclıq, susuzluq da ki, onu əldən salmışdı. Bir günün içindəcə qarnı

belinə yapışmışdı. Elə olmuşdu ki, deyirdin çubuqdu. Əlbəttə, zarafat deyildi; fikri, qayğısı, həyəcanları bir yana, aclığı-susuzluğu o biri yana. Hər nə təhər dözürdü. Vaxt da elə gec gəlirdi ki, deyirdin ayağından daş asıblar, irəli getməyə qoymur. Yanında bir qulaq yoldaşı olsaydı, yenə hə. Heç olmasa dərdləşərdi, nəsə bir plan tökərdi. Bir az ürəkli olardı. Başa düşdü ki, tək olanda adam özünü itirir, axşamını, sabahını bilmir. Amma aradan xeyli vaxt keçib bacadan eşiyə baxanda gördü hava yavaş-yavaş qaralır. Günmü batmışdı, yoxsa hava dəyişib göyün üzünü buludmu almışdı. Hər necə isə qaralan təki idi. Və bu da qaranlıq istəyirdi. Sıpıxıb buradan bir təhər qaçsın. Elə vəziyyətə gəlmişdi ki, heç geri yanına da baxmazdı. Asta qaçanı allah saxlasın. Bir az asudəliyə çıxardı. Bir də gördü bacadan narın-narın yağış tökülür. Kirimişcə gedib altında durdu və ağzını göyə tutdu. Bəs nə etsin? Ciyəri yanırdı. Əslində, ona elə gəlirdi ki, bütüncə alov içindədir. Alışıb çataçat yanır. Belə vəziyyətdə göyün baca boyda hissəsi görünən yerindən bekaraca səpələyən yağış bunun yanğısına nə edə bilərdi? Heç nə. Ancaq üzündə-gözündə, dodaqlarında yağışın sərinliyini duyub bir azca avazıyan tək oldu. Eşiyin həsrəti onu indi daha çox göynətdi. Bax, bu yerdə ona kömək lazım idi. Eşikdə iti bağlasın, sonra da buradan çıxardıb xəlvətcə yola salsın. Ona özgə heç nə lazım deyildi. Sonra özü-özünə gün ağlaya bilərdi.

## DÖRDÜNCÜ HİSSƏ

Qaçaqlar meşəli dağlara çəkilib, əldən-ayaqdan uzaq bir yerdə məskən salmışdılar. Əsas olacaqları yer dağın döşündə yan-yörəsi qalın kolkosluq olan böyük bir mağara idi. İçərisinə girəndə elə bilirdin ki, nəhəng bir tövlədir. Qışda havaların şaxtalı vaxtlarında atlarını da içəri çəkirdilər. İri ağaclar kəsib darvaza dəstiri ağzına qapı da düzəltmişdilər. Bu da onların küləkdən, qar sovruğundan qorunmaqlarına kömək edirdi. Özləri üçün müəyyən şərait yaratmışdılar. Həm də buralar adam ayağı dəyməyən, get-gəli olmayan bir yer idi. Bəzən canavar, çaqqal ulaşan, ayı donqultusundan qulaq tutulan bu həndəvərdə neçə vaxt idi ki, bunlar da peyda olmuşdular. Kəndlərə yaxın meşələrin ətəklərindən dırmaşıb buralara çıxandan özlərini tam təhlükəsiz hiss edirdilər. Kənddən-kəsəkdən, ordan-burdan çalıb-çapıb gətirir, burada vəhşi tək yaşayırdılar. Camaatda mal-qoyun qalmamışdı. Gündə birini kəsib yeyirdilər. Ancaq kənddə-kəsəkdə baş verən hadisələr, yeniliklər onları dilxor eləmişdi. Eşidib dəli olurdular. Evinin məktəb edilməsindən, arvadının məktəbə müəllim düzəlməsindən xəbər tutan Qandalıbəy tamam əsəbi vəziyyətə düşmüşdü. Baldızından da yalan-gerçək nəsə qandırmışdılar. Bilmirdi hansının fikrini eləsin. Bir dərdə də düşmüşdü. Axşamlar gözünü yumcaq yuxusunda görürdü ki, balaca-balaca uşaqlara qoşulub mahnı oxuyur. «Quşlar-quşlar» mahnısını.

*Quşlar, quşlar, a quşlar*
*Qaranquşlar, a quşlar.*

Bu necə yuxu idi, başa düşə bilmirdi? O boyda kişi ağzını quş balası tək açıb-yumur, elə hey quşlar deyirdi. Ayıq olanda, kefinin kök vaxtlarında o, mahnı da oxumuş, fıştırıq da çalmışdı, amma heç vaxt quşlar oxumamışdı. Özü də dərd burasında idi ki, burnu fırtıqlı balaca-balaca uşaqlara qoşulub oxuyurdu. Camaat da kənardan baxıb gülürdü. Əslində, belə şey yox idi. Bunu o, yuxusunda görürdü. Ancaq dəxli yox idi, Qandalıbəy bunu özünə dərd eləmişdi. Açıb-ağarda da bilmirdi ki, yoldaşları ona gülərlər.

Bir gecə yuxusunda nə görmüşdüsə vahiməli səslə «əəəə» eləyib qurcuxub, çapalayıb qalxmışdı. Bütün yoldaşları da hoppanmışdı. Elə bilmişdilər kişini ya vururlar, ya da tutub boğurlar. Qərəz ağıllarına belə şey gəlmişdi. Tez hərə bir tərəfdən əl uzatmışdı.

– A bəy! A bəy! Nə oldu! Özünü ələ al.

Qandalıbəy ayılıb xəcalətindən tərə batıb çıxmışdı. Bilməmişdi dərdini necə açsın. Ürəyi partlamağa gəlirdi. Necə desin ki, ayə, a başınıza dönüm, mən yuxu yatmıram, sabahadək mahnı oxuyuram.

– Quşlar, quşlar, a quşlar, qaranquşlar, a quşlar, – deməkdən çənəmin çüyü çıxıb. İndicə də yuxuda oxumaq istəmirdim, uşaqlar üstümə tökülüb qıdıqlayırdılar ki, oxu. Axırı dözə bilməyib kişi belə bir dərdə düşdüyünü danışmışdı. Gülüşmüşdülər ki, bekara yuxudur. Evini məktəb eləyiblər, ondandır. Gəlib yuxuna girib. Özü də bilirdi ki, bundandır, ancaq əhəmiyyət verməyə bilmirdi, gecə-gündüz hey bu barədə düşünürdü. Vaxtında buna yoldaşları çox demişdilər ki, icazə ver, qoy gedək evini məktəb eləyənlərin hamısının meyitini qoyaq, ancaq bu razılıq verməmişdi.

– Yox, lazım deyil, – demişdi. Fikirləşmişdi ki, bu, işi daha da çətinləşdirər, əlbəttə, özünün dərdini çəkmirdi. Əsas ailəsidir. Arvadının onlara qoşulub müəllim işləməsindən incimiş olsa da, yenə onlar barəsində düşünməli olurdu. Necə eləsin? Çox fikirləşirdisə bir yana çıxarda bilmirdi. Qaçaq yoldaşları ordan-burdan dillənirdilər:

– Nə fikir edirsən, bəy, onsuz da yüz fikir bir borcu ödəmir.

Qandalıbəy yoldaşlarının ağzının havasını bilirdi. Onların çoxu qan-qan deyirdi. Ancaq Qandalıbəy bu barədə nə qədər fikirləşirdisə, nə qədər götür-qoy edirdisə, onlar deyən kimi mümkün olmurdu. Bu yandan da ailəsi barəsində eşitdiklərini unuda bilmirdi. Başını qaldırıb yoldaşlarının üzünə baxmağa xəcalət çəkirdi. Buna görə ölüb yerə keçirdi. Yaxşı deyiblər ki, ağıla gələn başa gələr. Baş götürüb evindən çıxanda Qandalıbəyin yalnız bir qorxusu vardı. O da ailəsi sarıdan. Geri yanında arvad-uşağına güldən ağır söz deyilməsin. Onlara bir kir yaxılmasın. Əsas ölüb itdiyi bu idi. Bu da, əlbəttə, bunların özlərindən asılı idi.

Ağır oturub batman gəlsinlər, çətinliyə, hər məhrumiyyətə dözsünlər, amma adlarını təmiz saxlasınlar. Bəli, əsas bu idi. Bu olmayandan sonra Qandalıbəy üçün yaşamağın mənası və əhəmiyyəti itirdi. Ona görə də baldızı haqqında cürbəcür şeylər gəlib ona çatanda kişini elə bil ildırım vurmuşdu. İri-miri olan adam bürüşüb bir qırıq olmuş, az qalmışdı yerə yapışsın. Ondan bəri Qandalıbəy dəli tək idi.

– Bu itin balası, bu qancığın doğduğu nə boğazdanası, nə gözündən güllələnəsidir! – deyə qəzəbli-qəzəbli düşünür, ata-ana qoymayıb hamısını söyürdü. Halbuki Qandalıbəy onların xətrini çox istəyirdi. Tez-tez şəhərə gedib yoxlayırdı. Məlahət xanımın atası Qasım kişi inşaatçı-mühəndis idi. Camaat ona «podratçı» deyirdi. Şəhərdə müəyyən bir bina götürüb, bir ilə, iki ilə tikib təhvil verirdi. Onun tikdiyi binaları şəhərdə barmaqla göstərirdilər. Çox yaraşıqlı binalar idi. Özü də gözü açıq, qabağı görən, maarifpərvər adam idi. Bir oğlu, iki qızı vardı. Hamısını da oxutmuşdu. Qandalıbəylə onların qohumluğu yox idi. Qız verib sonradan qohumlaşmışdılar. Bu da təsadüfi olmuşdu. Belə ki, o vaxtlar Qandalıbəy tez-tez şəhərə gəlib-gedirdi. Nə olacaqdı? Yaxşı pulu vardı. Ayda bir-iki dəfə gəlib dostu-tanışı ilə yeyib-içib, kef eləyib qayıdırdı. Məlahət xanımı da o vaxtlar görüb sevmişdi. Qızdan «hə» cavabı alandan sonra da yekə dəfə-daraqla elçi göndərmiş, fısqırıqla toy eləmişdi. Qızı aparandan sonra da şəhərə gəlib-gedir, təzə qohumlarını yoxlayırdı. Qayınatası yaxşı adam idi. Söhbətləri tuturdu. Gözəl xasiyyətli qayınanasının bişi-düşüsünə də söz ola bilməzdi. Hamısı da Qandalıbəyin başına pərvanə kimi dolanırdı. Ancaq bir şey vardı ki, qayını möhkəm içkiyə qurşanmışdı. Onunla nə qədər mübarizə aparırdılarsa, mümkün olmurdu. Qayını acığa düşüb daha da çox içirdi.

– Bu dərd məni öldürəcək, – Qasım kişi oğlunun sərxoşluq etməsindən çox fikir edirdi.

Həqiqətən, Qasım kişi çox yaşamadı. Günlərin birində ürəyini tutub öldü. Bir il sonra arvadı dünyadan köçdü. Hörmət elədiyi, xətirlərini çox istədiyi bu əziz adamların həyatdan getməsinə Qandalıbəy çox pis olmuşdu. Onların xatirəsini həmişə əziz tuturdu. Müəyyən mərasimlərdə, bayramlarda kənddən gəlib şəhərdə onların qəbri üstünə gedirdi. İndi isə iş nə yerə çatmışdı ki, bu adamları söyürdü. Hətta get-gedə acığa düşüb baldızı haqqında qəti tədbir görmək qərarına gəlirdi. Bu, əlbəttə, onun üçün asan deyildi. Çünki Qandalıbəy qabaqlar baldızının da xətrini çox istəyirdi. Həmişə şəhərə gedəndə onu yanına alıb dükan-bazara gedər, ürəyi istədiyi paltarı ona alardı. O da yeznəsi Qandalıbəyi çox istəyirdi. Dilindən adı əskik olmurdu. Bir Qandalıbəy deyəndə biri də yanından çıxırdı. Yer üzündə gəzən elə bil yalnız o idi. Qandalıbəyi də yandıran bu idi ki, bəs necə olub ki, o bunları tanımayıb. Bəzən elə fikirləşirdi ki, odsuz-ocaqsız yanıb, başından tüstü çıxırdı. Elə bilirdi ki, elə arvadı da onun tayıdır.

Hamısı bir bezin qırağıdır. Ona bir də ağır gələn dünənədək uşaq hesab elədiyi, orda-burda rastlaşanda buyurub saydırdığı Çaparın hərəkətləri idi. Yanıb-tökülürdü ki, gör kim kimə sataşır? Gör iş nə yerə çatıb ki, bu yaxın vaxtlaradək əyninə paltar, qarnına çörək tapmayan adam əlini hara uzadır. Gör necə qudurub ki, özünü bunlara tay tutur. Qandalıbəy ağlına sığışdıra bilmirdi ki, bu necə belə olub? Bəs onu, Çapardı, nədi, o gədəni bunun vahiməsi basmayıbmı? Bəs deməyibmi ki, gəlib məni doğram-doğram eləyərlər, hər tikəm qulağım boyda olar. Necə ola bilər ki, bu onun ağlına gəlməsin? Qorxusu-hürküsü olmasın? Yoxsa elə bilir ki, Qandalıbəy ölüb. Yoxsa elə bilir ki, Qandalıbəy daha yoxdur? Özü öz fikrindən üşürgələnib, qorxuya düşüb ayağa qalxdı. Mənasız, məqsədsiz o yana-bu yana getdi. Özü-özünə sübut eləmək, özü-özünü tanıtdırmaq istədi ki, o, var, o, sağdır. Amma duruşu, yerişi özünə çox qəribə gəldi. Çünki həmişəki kimi olmadı. Həmişə yeriyəndə ayağının altında yer tərpənirdi. Tutulmağından, sürgün edilməyindən qorxub gecənin birində kənddən yoxa çıxmış olsa da, bu hissi həmişə özündə saxlayırdı. Amma bu dəfə... Bəlkə də, ömründə birinci dəfə olaraq o bunu dərk etdi. Dərk etdi ki, ayağının altında yer-zad tərpənmir. Amma yerin üstündə özü tərpənir. Tərpənir deyəndə ki, ayaqları əsir, başı hərlənir, əlini atıb tutmağa bir söykənəcək axtarır, tapa bilmir.

– Bu gədənin başına nə iş gəldi? Harada it-bat oldu, – deyə Qandalıbəy indi də Müsəllimi xatırladı. Əslində, o yadından heç çıxmırdı. Elə hey başında dolandırırdı. Bu işlə əlaqədar gedən adamların onsuz qayıtdıqlarını görəndə bunun ürəyi sancmışdı. Bilmişdi ki, burada nəsə var, bu gədə boş-boşuna ləngimir.

– Sizə dedim belə olmaz! Sizə dedim uşaq-uşaq iş tutmayın! Sizə dedim bu gədəni fırıtdayıb ortalığa salmayın! – deyə Qandalıbəy hündürdən söyləndi.

– Biz nə qayıra bilərdik?! Özü getdi. Atasının qanını almağa, – deyə qaçaqlar ordan-burdan hoqquldaşdılar. Bu daha dinmədi. Çünki bu məsələnin üstə bunların arasında yekə mübahisə olmuşdu. Qandalıbəy deyirdi ki, dayanın bir görək nə edirik? Müsəllim isə hirsindən başını daşa-qayaya döyürdü ki, mən atamın qanını tezcə almasam çatdıyaram. Qaçaqların əksəriyyəti onun sözünü deyirdi. Xüsusilə quşbaş Alı. «Quşbaş» onun ləqəbi idi. Bir qədər qarayanız, uzunburun, caydaq və gözləri də azacıq çəp olan bu adam heç bir şey haqqında əməlli-başlı fikirləşməz, ağlına gələni eləyərdi. Ona görə də ona quşbaş deyirdilər. Ondan olsa hər dərədə bir adam öldürərdi. Belə şeylərdə qanıb-qandırmırdı. Başında həmişə külək əsirdi. «Hər dərədə bir mal öldürməsən, çovdar olmazsan», – deyirdi. Qandalıbəy isə ipindən həmişə dartırdı. Əl-qol atmağa ona imkan vermirdi. Müsəllim–Çapar məsələsində isə quşbaş Alı onu yenmişdi. Axırı da belə olmuşdu. Ümumiyyətlə, Müsəllim gəlib onlara qoşulandan Qandalıbəyin günü gün deyildi. Çünki bir aləm xəbərlə gəlmişdi. Beləcə oldu. Eləcə oldu. Olan-olmaz o qədər sözlər danışmışdı ki, Qandalıbəy az qalmışdı

durub özünü güllə ilə vursun. Əslində, onda təqsir yox idi. Hamısını Çalvadaroğlu eləmişdi. Bu sadəcə olaraq Çalvadaroğlunun tapşırığını yerinə yetirmişdi. O, nə demişdisə Müsəllim də gətirib bircə-bircə Qandalıbəyin ovcuna qoymuşdu. Birinci demişdi ki, baldızın Omar kişinin oğlu Çaparla ələmeşkardır. İkinci demişdi ki, arvadın da ev-eşiyi döndərib karvansaraya. Çalvadaroğlu dönə-dönə tapşırmışdı ki, bax, bu iki şeyi Qandalıbəyə hökmən çatdırarsan. Deyərsən ki, Hasan əmim deyir ki, ölmək ölməkdir, daha xırıldamaq nəyə gərəkdir? Bu da elə birinci günü hamının yanındaca bunları Qandalıbəyə demişdi. Qandalıbəy də xəcalətindən ölüb yerə keçmiş, başını qaldırıb yoldaşlarının üzünə baxa bilməmişdi. Pis iş adamın dilini həmişə qısa eləyir. Qandalıbəy də bunların hamısını həqiqət bilib xəcalətini çəkmişdi. Yoldaşları görmüşdülər ki, başçıları Qandalıbəyin halı hal deyil. Fikir eləməsin, bunları ürəyinə salmasın deyə tez ordan-burdan dillənib onun yolunda ölümə hazır olduqlarını bildirmişdilər.

– A bəy, sən gəl razı ol, sonrası ilə işin olmasın. Onların analarını ağlatmasan, ağılları başına gəlməz.

Qandalıbəy yoldaşlarının ağızlarının havasını yaxşı bilirdi. Evinin məktəb olması ilə, arvadının müəllim işləməsi ilə əlaqədar onların arasında belə çox söz-söhbət olmuşdu. Onu qəti tədbir görməyə, bəzi adamları ciddi cəzalandırmağa təhrik etmişdilər. Amma Qandalıbəy etiraz eləmiş, qəti şəkildə «yox» demişdi. Bu dəfə isə dinməmişdi. Bir azdan ən çox qızdığı, etibar elədiyi quşbaş Alını xəlvətə çəkib demişdi:

– Başa düşürəm, a Alı, namusu itə atıblar, it yeməyib. Ancaq istəmirdim qana batam. Uzun saçlının ahı pis olar, uşağımın qabağına gələr.

Quşbaş Alı Qandalıbəyin ağzının havasından nə demək istədiyini o dəqiqə almışdı. Sümüyü şırtdamışdı. Ancaq gözləmişdi ki, görsün bəy özü nə deyir.

– Tapşırığım budur ki, bir özün gedib yoxlayasan. Görəsən bu deyilənlər düzdürmü. Sonra... Əgər gördün ki, daha bunun o yanı, bu yanı yoxdur, qoy ayıblarını qara yer örtsün.

– Baş üstə, bəy. Mən istəmərəm el içində papağın aşağı olsun.

Qandalıbəy sözü daha uzatmamışdı, can-ciyəri olan quşbaş Alı patrondaşı belinə bağlayıb, tüfənginin çaxmağını çəkib, lüləyə bir güllə basıb, çiynindən asıb, üstündən də yapıncısını çiyninə salıb yola düşəndə bu da yapıncı çiynində dolaylanıb olduqları mağaranın üst tərəfinə çıxmışdı. Bura açıqlıq idi. Aydın havalarda buradan gözlərini zilləyib üzü aşağı baxanda uzaq olsa da, lap aşağılarda yal-yamacı bürümüş meşələrin ətəklərində olan kənd-kəsək görünür, əkin-biçin sahələri belə seçilirdi. Lakin o gün hava tutqun idi. Dərələrə qatı çən-çörmə dolmuş, aranla dağların arasına sədd çəkmişdi. Qandalıbəy də baxıb bir şey görə bilmədiyindən qəlbi daha da sıxılmışdı. Bu gün kənddə baş verəcək hadisəni gözünün qabağına gətirib ürpəşmişdi. Az qalmışdı qışqırıb Alını geri

çağırsın. Namusa boğulub səsini içində boğmuşdu. Düşünmüşdü ki, daha gecdir. Alı bir himə bənddir. Atını səyirdib çoxdan aşağılara enib.

O gün Qandalıbəyə bir il kimi gəlmişdi. Həmişə günün çıxması ilə yaxması bir olardı. İndi elə bil havanın tutqun yerinə düşüb, çən-çərməyə, payızın boz, ürəksıxan buludlarına ilişib hərəkətdən qalmışdı. Həm vəziyyətin gərginliyi, həm də havanın belə cansıxıcı olması bir-birinə qarışıb Qandalıbəyə çox pis təsir eləmişdi. Kişi elə bil tor-top olmuşdu. Əlini-ayağını tərpədə bilmirdi. Mağaraya ölü bir sükut çökmüşdü. Amma kişinin qulaqlarına haradansa səs gəlirdi. Bu, adi gurultu idimi? Yoxsa o, həqiqətən, səs eşidirdi. Bəzən qulaqlarının dibindəcə elə bil tüfəng atırdılar. Elə şaqqıldayırdı ki, az qalırdı beyni partlasın. Sonra da bu şaqqıltı ağlaşmaya çevrilir və onun qulaqlarında hüznlü bir səs yaradırdı. Bu ağlaşanlar onun arvadı idi, qızı idi, qonum-qonşusu idi, tanıdığı, bildiyi adamlar idi. Ağlaşırdılar, saçlarını yolurdular, üz-gözlərini cırırdılar, səslərdən dəhşətə gəlib yer tapa bilməmişdi. Ona elə gəlmişdi ki, hər harda gizlənir gizlənsin, görəcəklər. Havalanıb göyə də çıxsa, bir həşərata çevrilib çör-çöpün arasına, yaxud torpağı didib-eşələyib yerə də girsə görəcəklər. Çünki törətdiyi bədbəxt hadisə göz qabağında idi. Ona görə bunu lənətləyəcəklər, cəmdəyinə tüpürəcəklər. İndi elə bil el yığışıb, həqiqətən, Qandalıbəyin cəmdəyinə tüpürürdü. Və bu tüpürcəklərin altında itib-batırdı. Onu daşqalaq eləsələr, bundan yaxşı idi. Sən demə, tüpürcək, elin dəhşəti, dinazı daşdan da ağır imiş. Və bir də bu tüpürcəyin daşqalaqdan bir fərqi vardı ki, o, adamı tez öldürmürdü. İncitməyi, əzabı, ağrısı ondan da pis idi. Amma tez öldürmürdü. Əzab verə-verə, bıçaq tək adamın ürəyini ova-ova öldürürdü. Qandalıbəy, həqiqətən, ömründə belə ağrı görməmiş, əzab çəkməmişdi. Daha dözə bilmirdi, cəhd etmişdi ki, bu əzabı yaxın qoymasın, özündən uzaq eləsin. Əvvəlcə yerində silkələnən tək olmuşdu. Bəlkə də, bu ona görə idi ki, tüpürcəklərin altından çıxsın. Amma öz-özünə demişdi: «Namusu itə atıblar, it yeməyib». Guya belə deyəndə yüngülləşirdi. Belə ki, bununla o özünə, hərəkətlərinə, tutduğu işə bəraət qazandırmaq istəmişdi. Elə güman eləmişdi ki, bir az yüngülləşər, onu sıxıb sıxaclayıb ayaqları altında əzən bu əzab-əziyyətdən bir az xilas olar. Ancaq mümkün olmamışdı. Qandalıbəyin ürəyinin başından elə bil daş asılmışdı.

Onun belə sıxıntılı, qayğılı, dərdli vaxtlarında meşənin aşağı dərinliklərindən nəsə çox müdhiş bir nərilti gəlmişdi. Əlbəttə, bu, heyvan səsi idi. Ancaq hansı heyvan olduğunu Qandalıbəy müəyyənləşdirə bilməmişdi. Bəlkə də, maral nəriltisi idi. Çünki bu meşələrdə maral olduğunu Qandalıbəy bilirdi. Bəlkə də, başqa bir heyvan idi. Hər nəydisə Qandalıbəyin fikri ora qaçmışdı.

– Görəsən, onun dərdi nədir? – Öz-özünə fikirləşmişdi. Və səs gələn tərəfə diqqət kəsilmişdi. Gözləmişdi ki, yenə səsi çıxacaq, amma çıxmamışdı. Ya canında nə ah-naləsi vardısa birdəfəlik çıxardıb atdı, yüngülləşdi, ya da yaşamaq

üçün axırıncı gücüydü, nəfəsi kəsildi. Qandalıbəy elə vəziyyətdə idi ki, çölün heyvanına belə həsəd aparmışdı. Az qalmışdı heyvan tək o da nərildəsin, böyürsün, canavar olub ulasın, illaha ki, bu əzabdan qurtarsın.

– Köpəkoğlu məni yaman fırıtdadı, ağlımı oğurlatdım, onun sazına oynadım, – deyə Qandalıbəy ürəyində quşbaş Alını söymüş və baldızına, Çapara qarşı müxənnətliyin xəcalətindən ölüb yerə keçmişdi, belə qərar çıxarmaqda çox səhv etdiyini fikirləşmişdi.

Ancaq iş-işdən keçmişdi. Bunu o, çox böyük təəssüf hissilə düşünmüş və özünü bu ara tək, kimsəsiz hiss eləmişdi. O heç bir vaxt bu cür əhvalda olmamışdı. Doğrudur, xeyli vaxt idi ki, evindən-eşiyindən çıxmışdı, ailəsindən ayrı düşmüşdü. Çölün, meşənin ayısı, canavarı tək insanların gözünə görünməkdən qorxaraq dalda-bucaqda gizlin hərlənsə də, o heç bir vaxt ailəsindən, arvad-uşağından bu qədər uzaq, bu qədər kənar olmamışdı. O heç bir vaxt bu qədər ümidsiz, bu qədər ürəksiz olmamışdı. İndi onun əli hər yerdən kəsilmişdi. Tutduğu işin ağırlığını, fəlakətli olduğunu düşündükcə, dərk etdikcə Qandalıbəy özünü müdhiş bir boşluqda hiss etmiş və ona elə gəlmişdi ki, hələ ayaq üstə olsa da, əslində, o heç nə olub, quru bir kötüyə çevrilib, balaca tərpətməyə bənddir, o dəqiqə böyrü üstə yıxılacaq. Pis iş adamı necə də gücsüz eləyirmiş.

Bu, beləcə burada, dağın başında qurcuxa-qurcuxa qarnına azar dolmuş vəhşi heyvan tək fikirdən açılıb-büküləndə Alı kəndin qənşərindəki meşənin ətəyində bir qaratikan kolunun ardına sinib payızın boz-bulanlıq havasında orda-burda tüstülənən qara daxmalara sarı baxmışdı. Lap acıxıb kəndə yaxın gəlmiş boz ayın yalquzağı kimi baxmışdı. Kənardan baxıb görən olsa, şöngüyüb yerə domuşmasından və gizlin-gizlin boz-boz baxmasından, həqiqətən, elə bilərdi ki, bu da ikiayaqlı canavardır və indicə ağzını göyə tutub ulum-ulum ulayacaq. Əslində, Alı tək deyildi. Bir-iki yoldaşı da vardı. Ancaq onlar bir az geridə, meşənin qaranlığında qalmışdılar. Belə məsləhətləşmişdilər ki, onlar onu orada gözləsinlər. Kəndə bu təkcə getsin. Çox olsalar, şübhələnə bilərdilər. Həm də Alı bu kənddən deyildi. Onu burada çətin tanıyardılar. Nəsə uzaq tanış-biliş rast gəlsə də, qaçaqçılıq həyatı, çöllük onu necə dəyişmişdisə tanılası nişanəsi qalmamışdı. Üz-gözünü tük basmışdı. Cavan adam olsa da, saqqal saxlamışdı. Əsəbilikdən ağzı əyilmişdi. Xülasə tanılası elə bir əlaməti qalmamışdı.

– Əşi, haradan biləcəklər ki, mən kiməm. Bir allah bəndəsiyəm, yolumnan çıxıb gedirəm. Kimin ağlına nə gələcək, – deyə quşbaş Alı, nəhayət, atını kəndə sürdü, yolunu elə ilk əvvəldən bəyin imarətinin qabağından saldı. Evin böyründən keçəndə gördü doqqaz qapısının ağzında xüsusi geyimi-kecimi olan bir qız dayanıb. Deyəsən, əlində balaca cürdək sudan gəlirdi. Quşbaş Alı heç bu səliqə-sahmanda, bu cür yaraşıqlı qiyafədə qız görməmişdi. Ucaboy, incəbel bir qız idi. Baxışlarından adamın canına od düşürdü. Quşbaş Alı ağzını açıb elə baxırdı

ki, deyirdin dəymiş armuda ayı baxır. Bu qızın Qandalıbəyin baldızı olacağını güman eləsə də, quşbaş Alı dəqiqləşdirmək, dürüst öyrənmək istədi. Dedi:

– Sən kimsən, aaz?

Sözün bu cür kobutaraq deyilişi qızın xoşuna gəlmədi. Ona görə köntöy cavab verdi:

– Adam.

Qızın onunla belə acıqla danışması quşbaş Alının xoşuna gəldi. Bunu naz-qəmzə hesab elədi. Odur ki, bığaltı qımışdı.

– Adam olduğunu görürəm. Deyirəm yəni kimlərdənsən?

– Tanımazsınız!

– Aaz, olma Qandalıbəyin baldızısan?

– Hə. – Qız başını tərpətdi.

– Hm. – Quşbaş Alı onu daha diqqətlə süzdü. Allah onu nə rastına salmışdı?! Döşünün ortasında nə güllə yeri var idi?! Elə bu saatca yapıncının ətəyini geri elə, götür tüfəngi bu qızı odla, qoy qaraltısı birdəfəlik kəsilsin. Amma... Qıza baxıb-baxıb birdən:

– Bərəkallah! – dedi.

– Nəyə bərəkallah?

– Səni doğan anaya. Gecə üzüyün işığına yol getmək olar. Gündüz də gərək başını məmələriyin üstə qoyub yatasan.

Qız bu sözlərə hirslənib bilmədi nə etsin. Daha ağır-artıq söz deməkdən də çəkinib cəld geri döndü, bu hədərən-pədərən danışan atlıdan aralandı. Quşbaş Alı onun ardınca müştəri gözü ilə baxıb:

– Nə yapıncının arasına bükülüb qaçırılmalı qızdır?! – dedi və atını tərpətdi. Geri qayıdanda quşbaş Alı bütün yol boyu öz sözünü təkrar edirdi. «Nə yapıncıya bükülüb qaçırılmalı qızdır?!»

Düşərgəyə çatanda bir istədi Qandalıbəyin əlinə-ayağına düşüb yalvarsın ki, qəbulumdur, a bəy. Necə olur-olsun, adı kimlə çəkilib-çəkilsin, qəbulumdur, baldızını ver mənə. Amma cəsarət eləməmişdi. Qorxmuşdu acığı tuta. Sonra görmüşdü qızı unuda bilmir, suluburun Qəmbərə açılmışdı. Söyləmişdi ki, hal-həkət belə, o qız yaman xoşuna gəlib, əgər Qandalıbəy razı olsa idi, mən özümə baş yoldaşı eləyərdim. Gecənin birində ailələrimizi də götürüb gedərdik başqa torpağa. Mən təşkil eləyərəm, o mənim boynuma. Suluburun Qəmbər də bunu Qandalıbəyə çatdırmışdı.

Özgənin sözünü özgəyə deməyə nə var. Amma suluburun Qəmbər bunu bir az ehtiyatla, yavaşaraq demişdi. Elə-belə, nəsə sözarası demişdi. Qandalıbəy də ilk əvvəl onu yaxşı başa düşməmişdi. Sözləri aydın eşitsə də, ağlına batmadığı üçün inanmamışdı. Nə bilsin?! Bu, heç yatanda yuxusuna da gəlməmişdi. Hamı başı hayına qalmışdı. Bu darmacalda, çox ağır, təhlükəli olan bir şəraitdə

evlənmək, ailə qurmaq kimin ağlına gəlirdi? Bir də quşbaş Alının ailəsinə, arvad-uşağına nə gəlmişdi?! Bu niyə onların dərdini çəkmirdi?! Necə oldu ki, birdən-birə gözü buna düşdü?!

Qandalıbəy ədəb-ərkan gözləyən adam idi. Hər şeyin yerini biləndi. Artıq söz-söhbətdən, lüzumsuz hərəkətdən acığı gələrdi. İndi evdən-eşikdən uzaqda, çöllədə quşbaş Alının onun baldızına elçi düşməsi açıqca xətrinə dəydi. Qandalıbəy fikirləşdi ki, quşbaş Alı onu qaraçı yerinə qoyur. Onu daha bəy gözündə görmür, neçə barmaq aşağı salır. Həm də qabağında şərtlər qoyur. Yəqin, fikirləşir ki, canının dərdindən razılaşacaq. Xülasə bu məsələ Qandalıbəyə yaman yer elədi. O elə əzəldən belə şeydən qorxurdu. Qorxurdu heç nədən aralarına ziddiyyət düşə, xain öküzlər kimi biri belə çəkə, biri elə çəkə, biri-birilərinə düşmən kəsilələr, it unu tək dağılıb itələr, təklənələr, belə olandan sonra axırlarıdır ki, axırlarıdır. Ona görə hər bir işin, söz-söhbətin qılımına gedərdi, adamları yola verərdi. Elə eləyərdi ki, bir adamın xətrinə dəyməsin, amma quşbaş Alı işləri korladı. Qandalıbəy nədən ehtiyat edirdisə o da başına gəldi. İndi nə cavab versin? Quşbaş Alı ona «beş-on adamla addı-minnətdi elçi göndərmişdi». Qohum olmaq istəyirdi. Bu da beş kişilə onu qəbul etmişdi. Gərək «hə», «yox» cavabı deyəydi. Qandalıbəy hirsli-hirsli belə rişxəndlə fikirləşir, bu quşbaş Alının uşaq-uşaq iş tutmağına odlanırdı. Az qalırdı bu saat mağaradan daş dəymiş ayı tək donquldanıb çıxsın və onun qabırğasını oddasın. Yenə birtəhər hövsələsini basıb bir az sakitliklə:

– Desin görək özgə nə şərti var, – deyə nədən acığı gəldiyini bildirmişdi. – Mən burda arvad çovdarıyam nədir?! Deynən başından böyük qələt eləyib, bir də eləməsin! Haramzadə! Yaxşı deyiblər ki, əslində olan dırnağında göstərər. Ciləyinizə lənət!

– Yaxşı, a bəy, əsəbiləşmə, mən onu qandıraram, – deyib suluburun Qəmbər Qandalıbəyi sakitləşdirmişdi. Və əslində, o da onu haqlı hesab eləmişdi. Əvvəla belə söhbətin yeri deyildi. İkinci bir tərəfdən o da Qandalıbəy kimi düşünmüşdü. Ailə ilə başqa ölkəyə getmək çox çətin idi. Yolda-rizdə nə olardı, nə olmazdı?! Qaş düzəltdiyi yerdə vurub gözünü tökərdi. Həm də arvadı çətin buna razı olardı. Hər nə təhər Qandalıbəyin quşbaş Alıdan möhkəm acığı gəldi, onun tənbehini suluburun Qəmbərə tapşırdı. Qəmbər də ona dedi. Amma elə yumşaq dedi ki, arada inciklik olmasın. Xəbəri yoxdu ki, quşbaş Alı gizlindən onlara qulaq asıb hamısını öz qulaqları ilə eşitmişdi. Ondan bəri üzə salmasa da, quşbaş Alı içərisində Qandalıbəydən buruq gəzirdi.

Kənddə ölüb-itən yoxdur. Bunu gedib çöldə sığırçıdan-buzovçudan al dilnən öyrənmişdilər. Çaparın yüngül yaralandığını da öyrənmişdilər. Müsəllimin isə başı ötmürdü. Harada itib-batdığı məlum deyildi. Qandalıbəy çox fikirləşdi ki, bir tədbir töksün. Yenə gözləməkdən başqa ağlına bir şey gəlmədi.

Gündüzdən o qədər aranı dağa, dağı arana daşımışdı ki, gecəni də çox pis yatdı. Yenə yuxusunda gördü ki, evindədir, kəndin ayaqyalın, baldırıaçıq uşaqlarına qarışıb yenə «quşlar-quşlar» oxuyur.

*Quşlar, quşlar, a quşlar,*
*Qaranquşlar, a quşlar*

Camaat da ona baxıb gülür. Bu da dəli olur ki, onlar nəyə gülürlər? Yuxuda ürəyi partlamağa gəlirdi. İstəyirdi camaatın üstünə çığırıb-bağırsın. Amma çığıra bilmirdi. Səsi tıxanıb boğazında qalırdı. «Quşlar, quşlar» oxuya bilirdi, amma çığıra bilmirdi. Elə-bil «quşlar, quşlar» oxumaq olardı, amma çığırmaq yox. Başladı hirsindən yuxuda zarımağa. İniltisinə quşbaş Alı oyanıb ondan acığı gəlsə də:

– A bəy! A bəy! – deyə bunu durquzdu.

Bu da hövlnak qalxıb «hə! hə!» elədi.

– A kişi, niyə zarıyırsan? Olmaya bir yerin ağrıyır?

Qandalıbəy özünə gəlib dərdini yenə etiraf elədi.

– A Alı, – dedi. – Ayə, yuxuda mənə yenə «quşlar, quşlar» oxutdular.

Gecənin gırd yarısında qaranlıq mağarada quşbaş Alı, nəhayət, özünü saxlaya bilməyib başladı «hi-hi-hi» gülməyə. O birilər də xortdaşıb – qalxıb yarıyuxulu, yarıoyaq soruşdular ki, ə, nə var, nə olub, nəyə gülürsən? Bunun isə cavab verməyə halı yox idi. Uğunub getmişdi. Gülüb-gülüb Qandalıbəyi dəli eləmişdi. Qandalıbəy onun gülməyindən bir anlığa təhərlənib elə bildi ki, quşbaş Alı adam yox, yarasadır. Qanadlarını çırpa-çırpa onun dövrəsində fırlanır. Bu da boş havanı döyəcləyərək əlini ora-bura atıb onu tutmaq, yaxud da bu yarasanı qolundan-qıçından vurub yerə salmaq istəyirsə, bir şey çıxmır. Boşca havanı cırmaqlıyır. Boş-boşuna əlləşmək adamı nə yaman yorurmuş. Qandalıbəyin ürəyi sıxıldı ki, quşbaş Alı, nəhayət, gülməyini kəsib:

– Ayə, a bəy! – dedi. – Gec döymü? Deyirlər axı qocalığında öyrənən gorunda çalar. Bu yaşda quşlar-quşlar oxumaqdan nə çıxar?

Qandalıbəy ağlını başına cəm eləyib bütüncə biabır olduğunu çox təəssüflə düşündü. İndiyə kimi ölümü hər şeydən pis sayırdı. İndi gördü ki, yox, elə deyilmiş. Ölüm bir yaxşı şey imiş. Ölümə nə varmış. Belə ki, dəli olub gülünc vəziyyətlərə düşməkdən bir dəfəlik ölmək daha yaxşı deyildimi?!

Gülüb-gülüb yuxusu daha da qaçmış quşbaş Alı yalandan canıyanarlıq elədi. Əlini atıb fəhmlə kişinin biləyindən tutdu, canının hərarətini bilmək istədi.

– Ayə! Ayə! – dedi. – Qızdırman varmış. Gör bir, mafrax adamsan, a bəy. Çöl işi sənə əl vermir. Çünki bərkə-boşa düşməyibsən. Günün şəhərlərdə, qumarxanalarda keçib. Məlahət xanıma urcah olandan sonra da işdən-gücdən tamam soyudun. Əlini heç nəyə vurmurdun. Bəs bilmirdinmi... Uzan. Uzan. –

Quşbaş Alı belə deyə-deyə kişinin böyür-başını basdırdı, yapıncını sinəsindən boğazına çəkdi. – Tərləsən, açılarsan.

Axşamdan bir qazan qovurmaları qalmışdı. Səhər qızdırıb yedilər. Fısıldaşa-fısıldaşa elə yeyirdilər ki, deyirdin aclıqdan çıxıblar. Qandalıbəy isə dilinə qaynanmış sudan başqa heç nə vurmadı.

– A bəy, bəs sən?.. – Quşbaş Alı onun yeməməyinə görə narahat oldu.

– Siz çörəyinizi yeyin. Mənim hələ iştəham yoxdur. Ürəyim istəyəndə yeyəcəm, – deyə Qandalıbəy onun qolundan tutdu. Və gecə onun necə «hi-hi» eləyib gülməyini yada saldı. Qandalıbəy möhkəm pərt olmuşdu. Çünki ondan qabaq da yuxuda camaat ona gülmüşdü. Bir vaxt ona, buna o gülərdi. İndi ona gülürlər. Bəlkə, hələ söyürlər də. Qandalıbəy son vaxtlar belə-belə şeylər fikirləşir, ürəyinə hətta olmayan şeylər də salırdı. Kişi get-gedə ağlını itirirdi. Düşdüyü vəziyyətdən çıxmaq, nəsə bir tədbir tökmək, plan cızmaq, hərəkət eləmək lazım gələndə də acizlik göstərirdi. Qaçaq yoldaşları get-gedə bundan narazı qalırdılar. Qandalıbəy özü hiss eləyirdi ki, daha ona soyuq münasibət bəsləyirlər. Qabaqlar nə tapşırığı olsa ağzından söz çıxmamış o dəqiqə yerinə yetirərdilər. Çünki onu başbilən, qoçaq, tədbirli bir adam hesab edirdilər. Belə gümanda idilər ki, o bunlara nəsə bir gün ağlayacaqdır. Onun köməkliyilə bunlar nəsə bir iş görəcək və vəziyyətləri yaxşılaşacaqdır. Son hadisələrdən isə belə nəticə çıxartdılar ki, Qandalıbəy heç bir şey eliyən deyildir. Ona görə də onlar özləri başlarına bir çarə qılmalıdırlar. Ona olan münasibətin dəyişdiyini Qandalıbəy özü də hiss eləmişdi. Əslində, onlarda da təqsir yox idi. Çünki vəziyyətdən çıxmaq lazım idi. Amma heç bir çıxış yolu yox idi. Müsəllim gəlib çıxsa idi, görərdilər bir o nə deyir? Nə görüb? Ancaq Müsəllimdən o gün də bir xəbər-ətər çıxmadı. Axşama yaxın bir tufan başladı ki, gəl görəsən. Çətin dağ, bəlkə də, ömründə bu cür dəhşətli tufan görməmişdi. Bir şaqqıltı, gurultu vardı ki, deyirdin dünyanın axırıdır. Eşikdə durmaq qəti mümkün deyildi. Ona görə qaçaqlar içəri mağaraya dolmuşdular. Ora-bura uzanıb, domuşub bayıra baxırdılar. Bura hər saatlıqla gələn olmasa da, hər ehtimala qarşı həmişə eşikdə gözətçi qoyardılar. İndi allah ümidinə qalmışdılar. Bu yerdə qəsdlərinə duran olsa, axşamdan mağaranın ağzını kəsər, səhər çıxanda hamısını bircə-bircə dənləyə bilərdi. Bu onların həmişə ağıllarına gəlirdi. Ona görə işlərini möhkəm tuturdular. Bu dəfə isə başqa cür eliyə bilmədilər. Məcbur olub gecəni hamısı mağarada keçirdi.

Səhər durub eşiyə çıxanda gördülər nə? Tufan dağlarda tutar qoymayıb. Yuxarılardan sel gəlib torpağı cırıq-cırıq eləyib. Orda-burda elə xəndəklər, elə şırımlar əmələ gətirib ki, heç at hoppana bilməz. Meşəyə də əməllicə toy tutub. Elə ağaclar anqırdıb ki, heç hörüklü öküz də yerindən tərpədə bilməzdi. Yarpaq da bütüncə yerdədir. Bu yamacdan baxanda o yamacdakı ağacları bircə-bircə

saymaq olar. Baxıb-baxıb qaçaqların canını qara qayğı aldı. Məlumdur ki, meşədə yarpaq töküləndə azan-tazanın, qaçaq-quldurun işi şuluq olur. Bunlar da birdən-birə elə qorxuya düşdülər ki, deyirdin bu saat gəlib onların hamısını qıracaqlar. Həm də Müsəllimin qayıtmamasından çox bərk qorxuya düşmüşdülər. Fikirləşirdilər ki, o, ələ keçib, canını alıb bizim yerimizi öyrənəcəklər. Sonra da otryadlar tökülüb gələcək.

Öz-özlüklərində çox götür-qoydan sonra axırı dilə gəldilər.

– Nə qayıraq, bəy?

Onların nə barədə soruşduqlarını Qandalıbəy bilmirdi. Özü də elə bu barədə düşünürdü. Elə də düşünürdü, belə də düşünürdü. Ancaq nə edəcəklərini müəyyənləşdirməkdə çətinlik çəkirdi. Yerlərini dəyişsələr də, xeyri yox idi. Çünki üzü qışa gedirdi. Bundan sonra bu dağların kəlləsində yaşamaq, gün keçirmək ağlasığan deyildi. Bəs hara getsinlər? Başlarına haranın daşını salsınlar?

Qaçaqlar gördülər başçıları dinmir, biri o yandan dilləndi:

– Hazırlaş, bəy, hazırlaş. Getməliyik.

Qandalıbəy onu səsindən tanısa da, dönüb baxdı. Gördü quşbaş Alıdır, sözünü deyib, cavab gözləyir. Qandalıbəy onun fikrini dəqiq bilmək istədi.

– Hara gedirik?

– Qranisi addamalıyıq, bəy. Başqa əlacımız yoxdur.

Quşbaş Alının belə hökmlü danışması Qandalıbəyin xoşuna gəlmədi. Ancaq məcbur olub yedi. Çünki fikirləşib gördü ki, başqa əlacları, həqiqətən, yoxdur. Quşbaş Alı bundan istifadə edirdi. O, həmişə çalışırdı ki, dəstədə seçilsin. Hamı onun ağzına baxsın. Hamı onun sözü ilə durub-otursun. Əlbəttə, indi belə şeyləri qovlamağın yeri deyildi. Yaxşısı bu idi ki, getmələri, aradan sağ-salamat çıxmaları barəsində fikirləşsinlər. Əlbəttə, atlanıb birbaşa getmək olmazdı. Qarğa bildiyindən duzağa düşən kimi bunlar da haradasa ələ keçə bilərdilər. Ona görə yolu-izi əvvəlcədən yaxşı-yaxşı öyrənməlidirlər. Bütün hər yeri qabaqcadan bələdləməlidirlər. Elə etməlidirlər ki, onları görən-eliyən, bu işdən xəbər tutan olmasın. Arada şuğul-muğul olsa, axırları itdi. Yalnız özlərinkindən bir-iki adamla əlaqə saxlamaq lazım idi ki, bunların sərhədi keçməsinə kömək eləsin. Xülasə yüz ölçüb, bir biçməli idilər. İşlərini elə tutmalı idilər ki, aradan birtəhər sürüşüb çıxsınlar. Ona görə bir az fikirdən, götür-qoydan sonra:

– Mən razı. Hazırlaşın – deyə Qandalıbəy bu işə qol qoydu.

Sonra da baş-başa yığışıb bu qərara gəldilər ki, daha günü-günə satmağın, ləngiməyin mənası yoxdur. Bir də gördün başıyın üstünü kəsdirdilər. Ondan sonra özünü ölmüş bil. Belə-belə şeylər fikirləşib qorxdular. Bu səbəbdən də elə o gün yığışıb axşamüstü yola düşdülər. Tutulacaqlarını gözlərinin qabağına almışdılar. Müsəllimin gedib qayıtmamasından şübhəyə düşüb uçum-uçum

uçunurdular. Amma vaxt keçir, bunlar üçün isə heç bir təhlükə baş vermirdi. Hər yerdə sakitlik hökm sürürdü. Yollarda heç adam yox idi.

Gecədən xeyli keçənədək, demək olar ki, səhərə yaxın yol getdilər. Nəhayət, yorulub dayandılar. Yeyin gəldiklərindən atları bərk tərli idi. Yəhərlərini, yüyənlərini alıb yoldan qıraq bir talaya hörüklədilər. Özləri də yerə döşəndilər. Nə olacaq?! Atdan düşmüş adamlar bir azdan biri orda, biri burda xoruldamağa başladı. Bir də gözlərini açanda gördülər üstlərinə gün düşür.

– Gördüm qorxulu elə bir şey yoxdur. Siz də yatmışdınız, qıyıb qaldırmadım, – deyə bütün gecəni növbətçi qalmış suluburun Qəmbər bunu belə izah elədi.

Bu söz onları bir az da arxayınlaşdırdı. Ancaq quşbaş Alı söyləndi:

– Ayə, dəlisən, ağıllısan nəsən?! – dedi. – Elə bil dağa binə gəlibsən. Demirsənmi otryadlar görüb bizi buradaca sərələ qoyarlar.

Birinin bir nöqsanı, düzgün olmayan bir işi olub eliyəndə, adətən, Qandalıbəy danışardı. Bu dəfə isə o bir söz demədi. Özünü elə tutmuşdu ki, deyirdin gecikmələri, yatıb gün-günortaya qalmaları ürəyindəndir. Həqiqətən, o tələsmirdi. Yəqin bilirdi ki, bu yerlərdən birdəfəlik gedir. Bir də ya qismət görəcək, görməyəcək. Əlbəttə, doğma yerlərdən ayrılmaq çətin işdir. Bunun üçün gərək ürəyinin üstünə daş bağlayasan, gözünü yumub baxmayasan. Əslində, o lap gözünü yumsa da, görməli idi. Çünki buraların hər qarışına bələd idi. Bu yollarla dağa gəlmişdi, arana getmişdi. Xülasə bu yerlərdə o, çox keflər sürmüşdü. Hər dağda-daşda bir xatirəsi vardı.

– Ayə, neynəyək?! Buralarda günü axşam eləyərik. Sonra yenə şər qarışanda yola düşərik. Çox tələsmək yaxşı deyil.

– Bə nə?! Tələsən təndirə düşər, – deyə suluburun Qəmbər də onun sözünü dedi.

Elə də elədilər. O biri səhər açılanda gördülər bir qəza şəhərinin lap burnunun ucuna gəlib çıxıblar. Bura meşə olmasa da, əldən-ayaqdan uzaq, dalda yer idi. Köhnə bir su arxının üstə düşdülər. Yan-yörə elə qalın moruqluq idi ki, içində lap bir ordu gizlətmək olardı.

– Ayə, gəlin bir neçəmiz libasımızı dəyişək şəhərə gedək. Həm görək bir adam görə bilərikmi. Bəlkə, bizə keçməyə bir asan yol göstərdilər, həm də mer-meyvə alıb yeyərik, – deyə indi də Qandalıbəy belə hava çaldı.

Kif-kirimişcə şəhərə gəlib, yazıq-yazıq bazara girib fağır-fağır hərlənəndə Qandalıbəy fikirləşdi ki, gör onun zəmanəsi necə dəyişdi. Vaxt var idi sayılan kişilərdən biri idi. Hara getsə, başında bir dəstə adam olardı. Qabaqcadan xəbər yayardılar ki, bəs filankəs gəlir. Dəfə-daraqnan qabağına çıxardılar, qarşılayardılar. İndi budur, bir saatdır bu bazarda hərlənir, deynən onu heç tanıyan varmı? Salamını alan varmı? Bax, belə dükan-bazar olan yerə gedəndə də evə, arvad-uşağa cürbəcür şeylər alardı. Cibinin ağzını bağlamazdı. Varlığa nə darlıq. İndi də köhnə adəti üzrə bazarı bir o yana ölçdü, bir bu yana ölçdü. Əslində, bir şey

alan deyildi. Elə-belə darıxdığından edirdi. Sonra gördü bazarın qırağında yanaqlarından qan daman qalınbığlı bir kürd heyvan satır. Beş-on heyvan idi. Suvağı-zadı tökülmüş bir divarın arxa hissəsinin qabağına hərləmə beş-on taxta çaldırıb heyvanları ora doldurub. Almaq istəyənlər baxırlar. Nə olacaq? Köhnədən adət eləmiş adam idi. Bu da yaxınlaşıb baxdı. Gördü hamısı iri heyvanlardır. Amma bir qoyunun altında bir əmlik quzu var. Görünür, yayın quzusu idi. Amma çox yeməli quzu idi. Fikirləşdi ki, bu gecə haradasa bir yerdə gecələməlidirlər. Boğaz da heç nəyə baxmır. O dərədə, bu dərədə oğurluq eləməkdənsə elə bucığazı almaq yaxşıdır. Halallıq allaha da xoş gedər.

– Ayə, ay qardaş, – dedi, – bax, o quzunu tək satırsanmı?

– Niyə satmıram? Puluna minnət.

– Neçiyə deyirsən?

– Heyvan nəyə gedir, mən də o qiymətə verirəm. At deyil, dəvə deyil, lap eləcə apar, nə olasıdır?!

Qandalıbəy əlini cibinə saldı. Daha ağalığı, bəyliyi getmiş olsa da, əzəlki hikkəsindən qalmamışdı. Çıxardıb heyvan sahibinə artıqlaması ilə bir neçə tümən pul verdi. Yoldaşlarından birinə:

– Ə, o quzunu götür, – dedi.

Qayğıları, dərd-azarları çox olsa da, bu adamlar yeməklərindən, içməklərindən qalmırdılar. Fikirləri belə idi ki, boğaza kəm baxmaq olmaz. Ona görə harada əllərinə nə keçsə canavar tək parçalayırdılar. İndi buna nə var??! Bir udumluq şey idi. Qanlı-qanlı pörtdədib yeyərdilər. Qaçaqlardan biri ayağını arakəsmənin içərisinə qoydu, əyilib quzunu tutdu. Qucağına alıb gəlmişdi ki, onda gördü ana qoyun taxta hasarın üstündən bəri tullandı, özünü balasının üstünə saldı. Elə vəziyyətdə idi ki, çomaqla lap beli uzunu döşəsən də, burnunu, başını qırsan da, əl çəkən bəla deyildi. Elə bil dil bilirdi, xüsusi təlim görmüşdü. Dal ayaqları üstə qalxıb ayaqlarını quzunu qucağında tutmuş adamın sinəsinə qoydu və lap təzə doğmuş kimi imrənib balasını istədi. Heyvan çox təlaşlı idi, ürəyi ağzından bəri çıxırdı.

– Eyy! Allah üzmüş! – deyə quzunu tutan adam əlinin ardı ilə heyvanın ağzına vurdusa da, əl çəkmədi, burnu ilə, başı ilə zoxmalayıb balasını yerə salmağa cəhd etdi.

Bazar elə qələbəlik, elə haylı-küylü idi ki, it yiyəsini tanımırdı. Hamı alverlə məşğul idi. Camaatın gözünə başqa şey görünmürdü. Ancaq Qandalıbəy heyvanın bu hərəkətinə baxa-baxa yerindəcə quruyub qalmışdı. Heç bilmədilər nə oldu, nə olmadısa Qandalıbəy:

– Ayə! Ayə! – deyə bu şeyə təəccüb, məəttəl qaldığını bildirdi.

Yenə heç kəs bilmədi ki, bu kişi niyə belə elədi? O nə gördü ki, bu hala düşdü. Yoldaşları bərk maraqlandılar. Hətta içərilərində qorxuya düşən də oldu.

Bazardakılardan eşidən, bilən, tanıyan olmasın deyə adını çəkməyib ordan-burdan xısın-xısın soruşdular.

– Xeyir olsun, bəy, nə olub?

– Ayə, bəs özünüz görmürsünüzmü? – deyə Qandalıbəy çox təəccüblü iş olduğunu bildirərək başını buladı. – Bəs görmürsünüzmü, o dilsiz-ağızsız heyvan o taxta arakəsmənin üstündən bəri necə tullandı, özünü balasının üstə necə saldı. Ayə, ayə, biz bu heyvan qədər də yoxuq, ayə.

Qandalıbəyin sözünə indiyədək heç kəs şək gətirməmişdi. Nə demişdisə onlar üçün qanun olmuşdu. Bir sözünə də şübhə ilə baxmamışdılar. İndi isə ürəyində hamı ona güldü ki, bu kişi dəli-dəli nə danışır. Belə darmacalda, onlar üçün çox qorxulu, təhlükəli olan bir vaxtda belə boş-boş sözlər deməyin mənası nə idi. Ona görə bunu ona xatırlatmağı lazım bildilər. Böyür-başından kişini dümsükləyib xısın-xısın dedilər.

– Ləngiyirik, bəy, getmək lazımdır.

Bu isə onları elə bil eşitmədi. Üzünü heyvan sahibinə tutub:

– Ayə, a qardaş, xahiş edirəm heyvanını geri götür, pul da lazım deyil, – deyə quzunu qaçaq yoldaşlarından alıb yerə qoydu və çevrilib cəld addımlarla qabağa düşdü. Hərəsinin əlində bir-iki yer-yemiş şəhərdən saymazyana çıxıb düşdükləri yerə gəldilər. Şər qarışana yaxın yenə atlandılar. Həmişəki kimi Qandalıbəy indi də qabaqda gedirdi. O birilər də tappatap dalcan gəlirdilər. Onlar neçə vaxt idi ki, beləcə belədən-belə, elədən-elə gedirdilər. Bu dəfə isə həmişəlik gedirdilər. Canlarını götürüb qaçırdılar. Bu ara Qandalıbəyi elə bil qara basdı. Belə ki, yan-yörədə heyvan-zad yox idi. Amma haradansa bir qoyun peyda oldu. Yerdənmi çıxdı, göydənmi düşdü bilə bilmədi. Yalnız onu bildi ki, bu heyvan bayaqkı kimi qabaqdan düz bunun üstə tullandı. Bu atın üstə ola-ola ayaqlarını qoşalama onun sinəsinə qoydu. Guya onun quzusunu bu, qucağında tutmuşdu. Bu o qədər təsirli, dəhşətli oldu ki, Qandalıbəy özünü itirdi. Həqiqətdə olan kimi az qaldı:

– Ay allahın heyvanı məndən nə istəyirsən?! Quzun məndə ha deyil, – deyə ayılmaq üçün başını silkələdi, qara-quranı canından qovmaq istədi. Ancaq özünü saxladı. Amma bununla bərabər gördü və bütün varlığı ilə hiss etdi ki, daha mümkün olan şey deyil. Getməyə təhri yoxdur. Bayaq ürəyi getməsə də, ayaqları gedirdi. İndi o da getmirdi. Əli-qolu, başı, ayağı, bir sözlə, heç nəyi getmirdi. Ələlxüsus ürəyi «öldürsəniz də, getməyəcəm» deyirdi. Qandalıbəy atın başını çəkdi. Bir az fikirli-fikirli dayanıb, nəhayət:

– Ayə, – dedi.

Kişinin duruşundan-baxışından heç almadılar.

– Nədir? – dedilər.

Qandalıbəy yorğun-yorğun:

– Ayə, başınıza dönüm, qadanızı alım, – dedi, – deyəsən, daha gedəmməyəcəm. Allah sizə yaxşı yol versin.

O bunun üzünə baxdı, bu onun üzünə baxdı. Hamısı fikirləşdi ki, bu kişinin başına at təpib, nədir?! Bunlar bir söz deyənədək o özü dilləndi.

– Bax, neçə illər bir yerdə çörək kəsmişik. Dost olmuşuq, qardaş olmuşuq. Yaman günümüz də olub, yaxşı günümüz də. Amma aramızda elə bir sən deyən inciklik olmayıb. İndi də gəlin dost, qardaş tək ayrılaq. Yenə deyirəm: sizə allah yaxşı yol versin. Mən də qayıdım geri. Ailəmin yanına. Ölləm, ölləm, qallam, qallam, heç olmasa bir dəfə uşağımı görərəm.

Qandalıbəyin belə halını heç görən olmamışdı. İndi heç tanımaq olmurdu bu odur, yoxsa o deyil. Az qalırdı dilini bir qarış çıxardıb yalvarsın. Adamın yazığı gəlirdi. Həm də onun, həqiqətən, hamının yanında xətri vardı. İndiyədək bir sözü iki olmamışdı. Həmişə nə demişdisə o da elə olmuşdu. İndi də bu köhnə xətir-hörmətin qabağında hamı mumlanıb qaldı. Bir quşbaş Alı istədi araya bir keçi su bulandırması salsın. O da dinmədi ki, rədd olsa yaxşıdır. Həm də qorxdu ki, bu əhvalda o yolda-izdə onlara mane ola. Belə fikirləşdi ki, başı xarab olub, ağlı dəm-dəm gəlir. Qandalıbəy isə gördü ona etiraz eliyən yoxdur, dəmiri isti-isti döymək istədi. Atının başını geri çevirib:

– Özünüz də gəlin məni kəndəcən yola salın. Dünya ölüm-itimdir, demək olmaz, bir də görüşə bilmərik.

Qandalıbəy bir bölük adamın dilini-ağzını elə bil bağlamışdı. Hər birinə ayrı-ayrılıqda sanki ovsun eləmişdi. Yenə heç biri dillənib etiraz etmədi. Əksinə, sözündən çıxmayıb atlarının başını geri çevirdilər. Kənardan baxan olsa, təəccüb qalardı. Fikirləşərdi bunlara nə oldu ki, yollarını dəyişdilər.

Yenə hamıdan qabaqda Qandalıbəy gedirdi. Bayaqkı gedişdən bircə fərq onda idi ki, indi dəstə elə bil iki yerə bölünmüşdü. Belə ki, Qandalıbəy bir xeyli, demək olar ki, dörd-beş addım qabağa çıxmışdı. Tək irəlidə elə bil əsir aparırdılar. Qalanları isə arxadan birgə toparlama gəlirdilər. Qabaqda gedən Qandalıbəyin ürəyi tələsirdi. Arxadan gələnlər isə atlarını elə bil bir az könülsüz sürürdülər. Nəsə onları dala çəkirdi. Qabaqdan elə bil qorxurdular. Amma yenə gəlirdilər. Danışmışdılar, getməli idilər. Geri, ailəsinin üstünə qayıtmaq hissi Qandalıbəyin qəlbində, varlığında elə bir güclü tərzdə baş qaldırmışdısa onun ürəyində başqa nə vardısa, nə olmuşdusa qovub çıxartmışdı. Nə bəylik hikkəsi qalmışdı, nə var-dövlət hərisliyi. Həmişə onun beynində, başında elə bil tıq-tıq tıqqıldayırdı. «Bu da mənim olsun. O da mənim olsun». İndi o tıqqıltı da yox idi. O bu dünyadan nə var, nə dövlət, heç nə istəmirdi. Ona heç nə lazım deyildi. Daha dünyaya, adamlara, həyata qarşı kini-küdurəti də yox idi. Acığı, qəzəbi soyumuşdu. Bunun əvəzində onun qəlbinə, varlığına çox güclü, ümmanların dalğasından da güclü bir hiss axıb gəlmişdi. Bu hiss onu yoldan, səfərdən çəkib saxlamışdı. Bu hiss onu öz doğma yuvasına, ailəsinin, uşağının yanına çəkirdi. Lap o dəm-dəsgahlı, altlı-üstlü imarətini də istəmirdi. Onu bütüncə məktəbə,

cəmi uşaqların ixtiyarına verməyə hazır idi. Özü gedib başqa bir yerdə daxma tikib yaşaya bilərdi. Amma indi istəyirdi ki, harada olur-olsun, amma ailəsinin yanında olsun. Özgə ona heç nə lazım deyildi. Belə fikirləşən Qandalıbəyin əhvalı pis deyildi. Çöllükdə keçirdiyi günlərə nisbətən indi yaxşı idi. Çox yalan-yanlış hərəkətlərdən sonra, nəhayət, düzgün yola gəlmişdi. Qaçaq yoldaşları da deynən bir söz deyirdimi? Elə bil ağızlarına su almışdılar. Bəlkə də, bu ona görə idi ki, indiyədək onun qabağından ağ-qara dillənməmişdilər. Həmişə o deyən olmuşdu. Bir sözünü iki eləməmişdilər. Qabağında at oynatmamışdılar. İndi də elə o hissin, o hökmranlığın təsiri altında idilər. Bəlkə də, Qandalıbəyin, həqiqətən, belə edəcəyinə inanmırdılar. Deyirdilər, bəlkə, onun başqa fikri var. Hər halda gedə-gedə gözləyirdilər görsünlər bu işin axırı necə olacaq. Bax, belə bir vəziyyətdə Qandalıbəy bütün gecəni atı sürdü, yoldaşları da arxasınca. Səhər işıqlaşanda gördülər öz yerlərinə çatıblar. Qandalıbəy çəkib atını saxladı. Fikri bu idi ki, bir az dayansınlar. Yoldaşları ilə görüşüb ayrılsınlar. Bir yerdə nə qədər yaşamışdılar, duz-çörək kəsmişdilər. Biri-birilərinə halallıq versinlər. Elə olmasın ki, arada inciklik yaransın.

Abdulla müəllim hələ dünəndən iş yoldaşı Məlahət xanıma demişdi ki, sabah dərsdən sonra uşaqları yığıb çölə gəzintiyə apararıq. İndi təbiətin dəyişən vaxtıdır. Havalar soyuyur, yarpaqlar tökülür, meşə çılpaqlaşır, həşəratlar torpağın qoynuna girir, quşlar yuvalarını sahmanlayırlar. Qoy uşaqlar bunları öz gözləri ilə görsünlər və bilsinlər ki, həyatda, təbiətdə dəyişilmələr labüddür və onun qarşısını almaq mümkün deyildir. Abdulla müəllim bunu, bəlkə də, dəqiq bu cür deməmişdi. Ancaq mənası belə idi və onun bu təşəbbüsü Məlahət xanımın xoşuna gəlmişdi. Çoxdandı ki, o, bir yana getmirdi. Heç qonşuya da çıxmırdı, həmişə evdəcə olurdu. Bu cür vəziyyətə dözmək çox çətin idi. Məlahət xanımın ürəyi partlamağa gəlirdi. Sonralar ki, evini məktəb elədilər, vəziyyət bir qədər dəyişdi. Əvvəlcə Məlahət xanım bunu heç cür ağlına sığışdıra bilməmiş, hətta qəti etiraz edib razılaşmamışdı. Belə fikir eləmişdi ki, bunun evində əgər məktəb təşkil eləsələr o, ayaq altda itib-batacaq, uşaqların səs-küyündən, qara-qışqırıqlarından qulaqları tutulacaq. Evdə beş dəqiqə oturmaq mümkün olmayacaq. İlk günlər, əlbəttə, Məlahət xanıma çox pis təsir eləyirdi. Uşaqlar belə şey görməmişdilər. Məktəb nə olduğunu bilmirdilər. Görürdün ucadan danışır, qışqırır, biri-birilərilə təpikləşir, xülasə yüz cür oyun açırdılar. Ayaqlarının tappıltısından, həqiqətən, qulaq tutulurdu. Yazıq Abdulla müəllim də bilmirdi nə etsin. Uşaqların arasındaca köykür olmuşdu. O uşağa deyirdi:

– Qışqırma!

Bu uşağa deyirdi:

– Hoppanma!

Bəzən də hamısını bir yerə yığıb, ya sinifdə, ya eşikdə dönə-dönə tapşırardı:

– Uşaqlar, belə olmaz. Belə yaramaz. Ev sahibindən eyibdir. Özünüzü yaxşı aparın, astadan danışın. Elə eləməyin ki, onlar bizdən narazı qalsınlar.

Abdulla müəllim, həqiqətən, Qandalıbəyin ailəsinə hörmət edirdi. Onlara qarşı heç vaxt sərt, kobud olmamışdı. Ümumiyyətlə, onun təbiətində belə şey yox idi. Həm də ona görə ki, bu dərs keçdikləri otaq onların idi. Özləri üçün tikdirmiş olsalar da, bu gün ondan bunlar istifadə edirdilər. Gəmidə oturub gəmiçi ilə dava eləmək yaxşı düşməzdi. Bəlkə də, əslində, bu cür deyildi. Ancaq Abdulla müəllim bu cür yanaşardı. İkinci bir tərəfdən Məlahət xanım bəy arvadı olsa da, savadlı qadın idi. Lazımlı adam idi. İndi belə savadlı qadını çıraqla da axtarıb tapmaq çətin idi. Ona görə belələrini gözümçıxdıya salıb məhv etmək olmazdı. Əksinə elələrinə ehtiyatla yanaşmaq, biliyindən istifadə etmək xeyir verərdi, camaat üçün faydalı olardı. Abdulla müəllimə elə gəlirdi ki, bu məsələdə Məlahət xanımla dil tapmaq olar, camaata müəyyən bir fayda vermək işinə, adamların maariflənməsinə o da qoşular. Amma bilmirdi ona necə yanaşsın, istəyini, arzusunu, fikirlərini ona necə çatdırsın ki, məsələ işin xeyrinə olsun. Axırı aradan nə qədər vaxt keçəndən sonra Talıb kişi ilə, Çaparla razılaşıb buna açılmışdı. Bir qədər ümumi söhbətlər edib demişdi:

– İşləməyiniz məsləhətdir, Məlahət xanım. Deyirəm bir sinif də sizin üçün açaq. Xeyirxah işdir, hökumət də, camaat da sizdən razı qalar.

Abdulla müəllim istəyirdi ki, Məlahət xanım onu düzgün başa düşsün, onun səmimiliyinə, sözlərinin xeyirxahlıq məqsədilə deyildiyinə inansın. Ümumiyyətlə, ona öz yaxın adamı kimi inansın. Əlbəttə, Abdulla müəllim tərəfindən başqa cür ola bilməzdi. İnsanlar arasında biri-birlərinə inam olmasa, həyat onda daha nəyə gərəkdir?! Onda adamlar biri-birlərini canavar təki didərdilər. Bu fikirdə olduğu üçün də Abdulla müəllim adamlara həmişə, hər yerdə xoşniyyətlə yanaşırdı. İndi də Məlahət xanıma kömək olmaq, onu işə-gücə cəlb edib, fikrini-qayğısını bir az dağıtmaq istəyirdi. Abdulla müəllim bu gümanda idi ki, Məlahət xanım savadlı adamdır, hər halda bütün bunları o başa düşər, özü üçün də, camaat üçün də faydalı bir qərar qəbul eliyər.

Amma Abdulla müəllim ona çox ehtiyatla yanaşsa da, sözlərini səmimi deməyə çalışsa da, Məlahət xanım elə əhvalda idi ki, onu ayrı cür yozdu.

– Deyəsən, məni qorxudursunuz.

Abdulla müəllim pis oldu, incik bir tərzdə dedi:

– Mən heç kəsi qorxutmaq fikrində deyiləm, Məlahət xanım. Ancaq belə getsə, özünüzü də, uşağınızı da məhv edə bilərsiniz.

Uşaq söhbəti gələndə Məlahət xanım duruxdu, fikrə getdi və haradasa Abdulla müəllimin onun xeyrinə dediyinə inandı. Amma o, ayrı cür öyrəşmişdi. Həmişə o, başqasına yol göstərmişdi. Adamlar onun dediyi ilə durub-oturmuşdu. İndi Abdulla müəllimin məsləhətinə, sözünə yıxılmağı özünə sığışdıra bilmirdi.

İkinci bir tərəfdən o, indi fikirləşəndə qəribə bir hiss keçirdi. Elə bil o uçan bir quş idi, vurub salmışdılar. İndi isə qanadının ucundan qaldırıb sallanaqlı baxırdılar ki, görsünlər harasından vurublar. Görsünlər sarısalar sağalarmı? Bu hisdən, bu fikirdən Məlahət xanım daha da dilxor oldu, qaş-qabağı tutuldu. Ancaq uşaq söhbəti yadından çıxmırdı. Nəhayət, çox götür-qoydan sonra Məlahət xanım qızı Gülcahanın xətrinə razılıq vermişdi. Beş-on gün keçəndən sonra isə başa düşmüşdü ki, həqiqətən, yaxşı iş görüb. İndi onun həyatı demək olar ki, tamam dəyişilmişdi. Yoxsa ana-bala dörd divar arasında qalmışdılar. Hamıdan təcrid olunmuşdular. İndi isə... hər necə olsa da camaat içərisində idilər. Birinə salam verirdin, birinin salamını alırdın. Onlara camaatın münasibəti də dəyişmişdi. Valideynlər ona hörmətlə yanaşırdılar. Şagirdlər isə müəllimlərini çox sevirdilər. Xırda-para müəyyən bir işdə onun köməyinə gəlməyə, müəllim üçün nəsə bir iş eləməyə cəhd edirdilər. O gün axşamüstü Məlahət xanım baltanı götürüb ocaq üçün bir-iki odun düzəltmək istəmişdi. Qabağında həmişə qulluqçusu, qaravaşı olan Məlahət xanım belə şeyləri harada görmüşdü. Ona görə odun yara bilmirdi. Nə qədər vururdusa, balta elə bil kəsmirdi. Bir də eşitdi kimsə böyründən səslənir.

– Müəllim! Ay müəllim!

Dönəndə gördü şagirdlərindən biri. Oğlan əlini uzatmışdı.

– Müəllim, verin mən yarım.

– Yox. Yox. Ayağına vurarsan. Çox sağ ol.

– Vurmaram, – deyə uşaq əlini uzadıb baltanı almış, müəllimi üçün bir qucaq odun doğramışdı. Uşaq bu işi elə ürəklə, həvəslə etmişdi ki, Məlahət xanım az qalmışdı ürəyini çıxarıb ona versin. Az vaxtda bu adamlar arasında elə səmimi ülfət, məhəbbət yaranmışdı ki, kənardan baxan qibtə eliyərdi.

İndi Abdulla müəllim uşaqları gəzintiyə aparmaq lazım gəldiyini dedikdə Məlahət xanım heç bir şey fikirləşmədən, tərəddüd etmədən razılıq verdi.

– Yaxşı olar, Abdulla müəllim, nə vaxt istəyirsiniz gedək, – deyə Məlahət xanım uşaqların təlim-tərbiyəsi üçün hər bir işə hazır olduğunu bildirmişdi.

Səhəri gün cərgəyə düzülmüş uşaqlar nəğmə oxuya-oxuya meşəyə tərəf yollananda yan-yörədən hamı onlara tamaşa edirdi. Valideynlər ordan-burdan baxıb şən-şən gülümsəyirdilər. Uşaqlarının məktəbə getdiklərinə, oxuduqlarına görə sevinirdilər. Müəllimlərinin də əhvalı yaxşı idi. Məktəb açılanı bu bir neçə ayın ərzində uşaqların tərbiyəsində, dünyagörüşlərinin genişlənməsində nə qədər dəyişiklik olmuşdu. Amma uşaqların yanınca gedə-gedə Məlahət xanım bir az utanıb sıxıldı ki, görəsən, onun bu işinə, bu hərəkətinə kənardan necə baxırlar? Bəlkə, ona bir nöqsan tutan var? Bəlkə, onu düzgün başa düşməyən, qınayan var.

Məlahət xanım kənddə bütün arvadlardan seçilirdi. Geyim-kecimi şəhər dəbində idi. Beldən sıxma, uzun paltar geyərdi. Bu da onu ucaboy göstərərdi,

gözəlliyini daha da artırardı. Ağzına yaşmaq almazdı. Kəndə gələn gündən onun ağzında yaşmaq görməmişdilər. Görmüşdülər ki, üzü-başı açıq kişi kimi gəzir. Kişilərlə üzbəüz durub söhbət eləyir. Onu birinci dəfə belə görəndə arvadlar üzlərini cırmışdılar ki, «Booy! Allah mənə ölüm ver, bu necə adamdır, utanmırmı?!» Sonra öyrəşmişdilər. Görmüşdülər ki, Məlahət xanım heç də onların düşündüyü kimi deyil. Onun bu açıqlığı bunlara da təsir etmişdi. Əvvəllər bu kəndin arvadları çox, lap çox müti idilər. Bir kişi görəndə bilmirdilər hansı küncbucağa girib gizlənsinlər, necə etsinlər ki, kişilər bunları görməsin, hətta öz ərləri ilə danışanda belə başlarını qaldırıb üzünə baxmırdılar. Ərləri öl desə ölürdülər, qal desə qalırdılar. Lap qul vəziyyətində yaşayırdılar. Bir də görürdün heç nəyin üstündəcə arvadları döyürlər, söyürlər, ölüləri, diriləri qalmır, hamısını ortalığa çıxardırlar. Əlbəttə, şəhərdə də arvadların vəziyyəti yaxşı deyildi. Orada da hüquqsuz idilər. Amma daha bu cür deyildilər. Burada kişilər ağ eləyirdilər. Elələri vardı ki, arvadlarını çubuqla döyürdülər. Belə şey görəndə Məlahət xanım yaman hirslənirdi, az qalırdı gedib o arvadı ilə dalaşan kişinin yaxasından tutub loppa ilə üzünə tüpürsün. Amma ərindən o da ehtiyat eləyirdi. Bilirdi ki, Qandalıbəyin xasiyyəti tünddür, ona acığı tuta bilər, aralarında söz-sov olar.

Bir dəfə Məlahət xanım Qandalıbəyə demişdi:

– Öz aramızdır, sizin kişilər ağ eləyirlər.

– Necə?

– Əşşi, belə də ər-arvadlıq olar?!

Qandalıbəy arvadının nə demək istədiyini indi başa düşmüşdü.

– Həə. Bizim kişilər arvada qarşı bir az kürdürlər.

– Nədirlər?

– Kür. Yəni hirslidirlər, acıqlıdırlar.

– Niyə?

– Nə bilim?! – Qandalıbəy çiynini dartmışdı.– Görünür, səbəbsiz deyil.

– Sən də yaxşı, – Məlahət xanım ərinə etiraz eləmişdi. – Nə səbəb olacaq?! Görünür, boş-boş şeylərdir.

Bir dəfə Məlahət xanım eşikdə həyətdə hərlənəndə eşitmişdi qonşuda ər-arvad dalaşır. Kişi deyir:

– A köpək qızı, sudan gələndə başın niyə açıq idi? Ağzından yaşmaq niyə düşmüşdü? Ağlın harda idi? Bəs demirdinmi qıraqdan bir gələn olar?

Yazıq arvad da and içib ağı yalayırdı ki, bəs görünür, bilməmişəm, çitim başımdan sürüşüb boynuma düşüb.

– Bəs çitin sürüşüb düşəndə fikrin harda idi. – Kişi əlində tutduğu çubuğu arvadın gözünün qabağında əsdirmişdi.

Çəpərin arasından baxan Məlahət xanım bilmişdi ki, yazıq arvad döyüləcək. Ürəyi əsməyə başlamışdı. Doqqaza sarı getmişdi. Bir də görmüşdü şappaşap kişi

arvadı döyür. Məlahət xanım biganə qala bilməzdi. Özünü irəli atmışdı. Bir də görmüşdü qonşunun həyətindədir. Arxadan kişini tutub dartmışdı. Kişi əlində çubuq geri dönəndə görmüşdü bu. Quruyub qalmışdı. Elə bilmişdi onu qara basır. Çünki o, Qandalıbəyin arvadını, doğrudur, görmüşdü. Amma heç vaxt belə yaxından görməmişdi. Ağlına da gəlməmişdi ki, görəcək. Kişi elə təntimişdi ki, bilməmişdi nə etsin. İstəmişdi gözlərini yumub baxmasın. Sonra Qandalıbəyə and içib ağı yalasın ki, a bəy, allah haqqı baxmadım, quran haqqı baxmadım, bax, nəyə istəyirsən and içim ki, baxmadım. Doğrudur, gözlərini yumub baxmayanda da onu aydınca görürdüm. Bizim arvadlara heç oxşamırdı. Bizimkilər elə bil yerdən yığılıblar. Bu kişi beləcə cürbəcür fikirlər içində təntiyib qalanda Məlahət xanım hirslə demişdi:

– A kişi, utanmırsan?! Nə istəyirsən bu arvaddan? Saxladığın bu deyilmi?!

O elə demişdi ki, bu ölüb yerə keçmişdi. Xəcalətindən başını gizlətməyə yer axtarmışdı. Bunları xatırlayıb Məlahət xanım öz-özündən razı qaldı ki, bəs o vaxtlar da düzgün hərəkət eləyib. Kiminsə səhvini başa salıb, köməyinə gəlib, düz yola çəkib. İndi də çox nəcib, xeyirxah bir işlə məşğul olur. Buna Qandalıbəy necə baxırdı? Onun bu hərəkətlərini necə qiymətləndirirdi? Məlahət xanıma məlum deyildi. Bunun nigarançılığını çox çəkirdi. Fikirləşirdi ki, bəlkə də, nə vaxtsa peyda olub, qara quş tək başının üstünü kəsəcək: «Belə-filan qızı nə müəllimlikdir edirsən?!» Məlahət xanım buna da razı idi. Onun ən ciddi cəzasına dözərdi. Ancaq özündən bir xəbər biləydi. Əli əlinə çata idi. O zaman onu başa salardı, ona təsir göstərməyə çalışardı. Bax, beləcə əsas intizarı, qayğısı əri sarıdan idi. Gecə-gündüz onun fikrini eləyirdi. Evdə-eşikdə, dolanma qayğıları ilə, iş-peşəsi ilə başını nə qədər qatsa da, ərini unuda bilmirdi. İndi onun üçün lap pis olmuşdu. Kənddən çıxıb çölün, meşənin genişliyinə çıxdıqca xəyalən hər ağacın, kolun ardında bir tüfəngli adam görür, bilmirdi hansının üstünə yüyürsün ki, ərini tapa bilsin.

Gecəni yol gəldiklərindən bərk yorulmuşdular. Qandalıbəy tez görüşüb ayrılmağa tələsmədi. Səhər tezdən nə olmuşdu?! Oturub dincəldilər. Gördülər hamının gözündən yuxu tökülür.

– Yatın, ə, yatın, yoxsa yorğunluğunuz çıxmaz, mənimsə yuxum gəlmir, – deyə Qandalıbəy son ayrılıq saatlarında yoldaşlarının qulluğunda durmaq istədi. Çünki onlar bunun əziyyətini az çəkməmişdilər. Naxoşlayanda, bir yeri ağrıyanda ayağına-başına yüyürmüşdülər. Belini-boynunu ovxalamışdılar. Çayını-çörəyini vermişdilər. Bu da indi əvəzini çıxmaq istəyirdi. Həm də onlar yenə əziyyətdə qalırdılar. Bir azdan atlarının başını geri çevirib yenə gedəcəkdilər. Haradansa bir işıq gələndə, bir şıqqıltı olanda gözləri dörd olur, ürəklərini yeyirlər. Başlarını soxmağa bir yer axtarırlar. Bunları fikirləşib Qandalıbəyin onlara canı yandı. Heç özünə belə canı yanmamışdı. Onlar da belə bir şey axtarırdılar. Başlarını

qoyub yatdılar. O yatmaq, bu yatmaq, oyananda gördülər gün günorta olub. Qandalıbəy ayağa durdu.

– Daha gecdir, mən gedim, – dedi.

Bunlar da kal-kal, gözlərini övkələyə-övkələyə onun üzünə baxdılar. Bir söz demədilər. O isə bunlar oyanana yaxın atını hazırlamışdı. Yüyəni əlində idi. Gördü yoldaşlarının nəsə kefləri yoxdur, buna qarşı etinasızdırlar. Elə bil yatanda yuxu görmüşdülər. Bu da onlara əhəmiyyət vermədi.

– Sağ olun! Salamat qalın! – deyə cilovu geri qatlayıb atın başına keçirdi, ayağını üzəngiyə qoydu, yəhərin qaşından dartıb qalxdı.

Bu yola düzələndə gördü onlar da atlanıb yenə dalınca gəlirlər. Görünür, onu yola bir az qabaqdan salmaq istəyirlər. Qandalıbəy bu ara onlar haqqında xüsusi bir minnətdarlıq hissilə düşündü. Sağ olsunlar. Böyük hörmətdir. Amma əsas fikri qabaqda kənddə idi. Çoxdan idi ki, o bu yolla getmirdi. Çoxdan idi ki, kəndi görmürdü. Evdən çıxalı yalnız bir-ikicə dəfə gecə oğrunca gedib ailəsinə dəymişdi. Hər dəfə də Məlahət xanım ağlayıb özünü öldürmüşdü ki, qayıtma, qal, qorxma sənə heç nə eləməzlər. O isə başını bulamışdı. Yek kəlmə «qalammaram» demişdi. Sonralar isə lap ürəyindən keçsə də, qorxub getməmişdi. İndi atın üstə qalxıb kəndə sarı üz qoyanda ən birinci qızı yadına düşdü. Onu görəcəyinə sevindi. Xəyalında Gülcahan qaça-qaça qabağına gəldi, bu da əyilib «hop» götürdü onu qucağına. Elə bildi yaxasına ağ bir kəpənək qondu. Az qaldı sinəsini yarıb ürəyinə girsin. Bu da «mənim ağıllı qızım» deyə körpəsini ürəyinin başına sıxdı. Bəyliyinin hikkəli, «dara datdıqırx atdı» vaxtlarında uşağı qucağına götürməzdi. Bunu özünə ayıb sayardı. İndi isə az qalırdı yalam-yalam yalasın. Başladı onu söylətməyə. Necə oldusa soruşdu:

– Deyirlər oxuyursan, a qızım?

– Hə-ə.

– Müəllimin kimdir?

– Abdulla müəllim.

– Bəs niyə anan deyil?

– Anam?

– Hə.

– Bıy, onda mən ona nə deyərəm, ana, yoxsa müəllim?

– Kefin nə istəyir de.

– Məktəbdə elə şey olar?

Söhbətlərindən xoşhallanıb bu da güldü, o da güldü. Şaqqanaq çəkib ikisi də güldü. Ata-bala sevinc içində idilər. İkisi də bu ara dünyanın ən xoşbəxt adamları idilər. Bəlkə də, onlar ömürlərində heç vaxt belə şən, xoşbəxt olmamışdılar. Heç Qandalıbəyin qılıncının dalı-qabağının kəsdiyi vaxtlarda da belə xoşbəxt olmamışdılar. Qandalıbəy uzun ayrılıqdan, nisgilli-intizarlı illərdən

sonra, nəhayət, ailəsinin üstə qayıdırdı. Nə vaxtdan bəri idi ki, onların həsrətini çəkirdi. Gecələr tez-tez gəlib yuxusuna girirdilər. Elə gün olmurdu ki, ya yuxuda, ya xəyalən ailəsilə söhbət eləməsin. Axırı onlar üstün gəldi. Qandalıbəy gördü ailəsiz yaşaya bilməyəcək, doğma balasının ayrılığına dözə bilməyəcək, ətəyindən daşı tökdü. Budur... Gəldikləri yol-izdə yan-yörə elə sakit, təhlükəsiz, arxayınçılıq idi ki, bunlar kəndə xeyli yaxın gəldilər. Qabaqda da bir balaca tala vardı. Atları sürüb ora çıxırdılar ki, səs eşidib dayandılar. Xain xoflu olar deyərlər. Az qaldı ki, atların ağzını geri çevirsinlər. Tez tüfənglərini hazır tutdular, qulaqlarını şeşəldib atların yalına əyilərək qabağa baxdılar. Gördülər bir dəstə uşaq talada gülüşüb oynaşırlar. Bir az diqqət yetirəndə gördülər Abdulla müəllimlə Məlahət xanım da burdadırlar. Uşaqların içərisində hərlənib təkdən bir onlara nəsə deyir, öyrədir, başa salırlar. Başları özlərinə, öz söhbətlərinə necə qarışmışdısa bunlardan heç xəbərləri yox idi. Necə olmuşdusa atların ayaq səslərini də eşitməmişdilər. Gəzintiləri necə maraqlı idisə dünya-aləm veclərinə deyildi. Belə bir vəziyyətdə qaçaqlar atlarını təzədən beş-on addım geri sürdülər. Bu təsadüfi qəribə görüşdən Qandalıbəy özünü tamam itirmişdi, bilmirdi nə etsin. Belə bir mənzərəni o, xəyalına da gətirməmişdi. Hər nə təhər Qandalıbəy qeyri-iradi olaraq atdan düşdü, kəhərin cilovunu bir ağaca bənd eləyib təzədən asta addımlarla geri, talaya sarı gəldi. Meşə yolunun alt-üstü ağaclıq idi. O biri qaçaqlar da atdan düşüb ağacların ardına sinə-sinə Qandalıbəyin ardınca gedirdilər. Əslində, niyə belə edirdilər, heç özlərinə də bəlli deyildi. Yaz kəpənəkləri tək talada ora-bura qaçışan, uçuşan uşaqlara qarşı nə etmək istəyirdilər? Yoxsa onların müəllimlərilə qəsd-qərəzlikləri vardı. İndiyədək Abdulla müəllimi çox qaralamışdılar, qəsdinə durmuşdular. «Camaatı dindən, məssəbdən eləyib, kasıb-kusub balalarını yığıb oxudan, özündən gündə yüz cür hoqqa çıxardan» bu adamı ilk günlər lap gözündən güllələməyə hazır idilər. Çünki onun təşkil etdiyi məktəbin zənginin səsi çıxanda bunlar meşədə dəli olurdular. Neçə dəfə dağlardan enib, gəlib yaxından qulaq asmışdılar. Zəng danqhadanq səsləndikcə az qalmışdı ki, qulaqlarını tutub qaçsınlar, xüsusilə Qandalıbəy. Pambıq olsa qulaqlarına tıxayardı. Bu səs onun başına düşürdü. Elə bil beyninin içində çalırdılar. Bir dəfə heç dözə bilməmişdi. Onlar da bilmiş təki qəsdən hey çalırdılar. Qandalıbəy görmüşdü olmur, tez sıçrayıb atın belinə qalxmış, kəhərin ağzını dağlara sarı əldən qoymuşdu. Kənddə zəng danqhadanq çalınmış, bu isə meşədə onu qoyub qaçmışdı. Atı o qədər sürmüşdü ki, zəngin səsi daha orada eşidilməz olmuşdu. Bax, həmin gecə adam göndətdirib məktəb avadanlığını evindən bayıra tökdürmüşdü. Demişdi, bəlkə, ağılları başlarına gələ. Bezikib onun evindən əl çəkələr, ancaq mümkün olmamışdı. Qandalıbəy də bundan çox fikir eləmişdi. Bu məsələnin axırı necə olacaq? Tutaq ki, hələlik bir otaq tutublar. Bunun axı sabahı da var. Bu gün ayaqlarına yer eləyib, sabah bütün

imarəti ələ keçirməzlərmi? Bəs o zaman onun ailəsi çöldə qalmayacaqmı? Gedib kimin qoltuğuna girəcəklər? Yoxsa tövlədə-zadda yaşayacaqlar. Sonra onun evində ikinci bir sinif açılanda Qandalıbəyin Abdulla müəllimə, Talıb kişiyə, onun köməkçisi Çapara kini-küdurəti daha da artmışdı. Yoldaşları bu qəzəb hissini, onun kinini-küdurətini gözlərinin boz-bulanıq ifadəsində çox müdhiş bir şəkildə görmüşdülər. Quşbaş o dəqiqə demişdi:

– Qəm eləmə, bəy. İcazə ver gedim o Abdulla müəllimin də, uşaqların da meyitlərini sərələ qoyub gəlim. Qandalıbəy o qədər hirsli idi ki, az qalmışdı «hə» deyib razılıq versin. Amma özünü saxlayıb dinməmişdi.

Əslində, Qandalıbəylə Abdulla müəllim arasında müəyyən yaxınlıq olmuşdu. Savadlı adam kimi bəy ona həmişə hörmət eləmişdi. Hətta vaxtı ilə onu evinə qonaq da çağırmışdı. Adına heyvan kəsdirmişdi. Süfrəsinin görkəmli yerində əyləşdirmişdi. Qonağı təhsil aldığı şəhərdən, qıraq yerlərdə gördüyü, tanış olduğu adamlardan danışanda o, məmnuniyyətlə qulaq asardı. Bu, camaatın hökumətə qarşı narazılığından, tətillərindən, inqilabi hərəkatdan danışardı. Amma belə şeylər Qandalıbəyin qulağına girməzdi. Gülə-gülə deyərdi:

– Ayə, o boyda Nikolaya nə eləyəcəklər?!

Amma bir dəfə Abdulla müəllimdən möhkəm incimişdi. Belə ki, bir gün Qandalıbəy evinin böyründəki təpənin üstə çıxıb əli belində yan-yörəni seyr edirdi. Abdulla müəllim də atnan haradansa gəlirdi. Qandalıbəyə çatcaq şən əhvalla:

– Muştuluğumu ver, a bəy, – demişdi.

Qandalıbəy də elə bilmişdi ki, xeyir xəbərdir. Xüsusi bir kef-damaqla razılaşmışdı.

– Muştuluğun məndə, de görək nə olub.

Abdulla müəllim ona öz dilində demişdi.

– Nikolayı taxtdan salıblar.

Qandalıbəy elə olmuş, elə olmuşdu ki, hirsindən qapqara qaralmışdı. İstəmişdi ağzına gələni buna deyə, amma özünü birtəhər saxlamışdı. Sakit də ola bilmirdi. Bu yerdə görmüşdü ki, yolnan bir atlı keçir. Tanımasa da, tez əlini qaldırıb:

– A kişi, a kişi, bir atını bəridən sür! – demişdi. Yaxın gələndə soruşmuşdu.
– Haradan gəlirsən, kişi?

– Vağzaldan, bəy.

– Xeyirdirmi?

– Xeyir olmayanda nə var. Bizim orda bir qohum olur, naxoşlamışdı. Ona dəyməyə getmişdim. Şükür, o da yaxşıdır. Bu gün də kefi lap kök idi. Söyünürdü ki, padşahı taxtdan salıblar.

Kişi bunu dediyini görmüşdü. Qandalıbəyin ağzı açılmışdı, nə açılmışdı.

– Ayə, belə-filan oğlu, daha bunun harası xeyir oldu? – Dişinin dibindən çıxanı buna yağdırmışdı. Yüz cür sözün başına çıxmışdı. Elə eləmişdi ki, bütüncə abırdan salmışdı. Abdulla müəllimə deyə bilmədiyini bunun canına döşəmişdi, o fağırca da atın üstündə quruyub qalmışdı ki, görəsən, bunun təqsiri nədir?

Amma indi səsini çıxarda bilmirdi. Arvad-uşağını evindən-eşiyindən belə kənarda görüb nəsə birtəhər olmuşdu. Bayaqdan ürəyi atdanıb evinə gedirdi. Az qalırdı uça-uça getsin. Bəs nə oldu? Niyə belə həvəsdən düşdü? Kim onun qabağına daş dığırladı? Heç kim. Sadəcə olaraq Qandalıbəyə elə gəldi ki, evində daha onu gözləmirlər. Onu daha unudublar. Bəlkə də, ölmüş bilirlər. Çoxdan basdırıblar. Ürəyinə dolan bu şübhələrdən Qandalıbəy elə pis oldu ki, bıçaq vursan qanı çıxmazdı. Belə bilsə idi, heç gəlməzdi. Yanındakı yoldaşlarından da utandı, xəcalət çəkdi. Başını qaldırıb bu işıqlı dünyaya qürurla, şəstlə baxa bilmədi. Gözü kölgəli oldu. Bundan hirslənib dünyanı dağıtmaq, aləmi çaxnaşdırmaq həddinə çatdı.

Başçılarının halının dəyişib o dünyalıq olduğunu, əlinin-ayağının əsəbi-əsəbi titrədiyini yoldaşları aşkarca görürdülər. Adəti üzrə elə hey tüfənginin çaxmağı ilə oynayan, onu tez-tez şıqqıldadan quşbaş Alının donbalan gözləri artıq oyur-oyur oynayırdı. Deyəsən, məqsədinə çatmışdı. Belə ki, indi o, Qandalıbəyin onları tərk edib evinə qayıtmasını istəmirdi. Qorxurdu onsuz keçinə bilməsinlər, başlarını itirsinlər, məhv olsunlar. Qandalıbəy onlara əl-qol açmağa, asıb-kəsməyə imkan verməsə də, hər halda başbilənləri o idi. Həm də buraları tərk etmək istəyirdilər. Orada da baş çıxarmağa bir yol göstərən lazım idi. Dünəndən bunları o öz-özlüyündə götür-qoy edirdi. Amma səsini çıxarmağa qorxurdu, Qandalıbəydən ehtiyat edirdi. İndi vəziyyəti belə görəndə fikirləşdi ki, allahı verdi. Həm də onun fikrincə, Abdulla da çox baş aparırdı. Nəhayət, ondan intiqam almağa yaxşı məqam düşmüşdü. Belə ki, araya qan salsa, Qandalıbəyin dəstədən ayrılıb geri qayıtması imkanı olmayacaqdı. O zaman məcburdur ki, onlarla getsin. Quşbaş Alı tüfəngi üzünə qaldırdı, Abdulla müəllimi nişan aldı. Qandalıbəy isə ona fikir vermirdi, hərəkətindən xəbərsiz idi. Öz aləmində idi. Ürəyində arvadını qınayırdı. Uşaqlara, Abdulla müəllimə qoşulub meşəyə seyrə çıxmağı ona yaraşdırmırdı. Öz aləmində bunu ona nöqsan tuturdu. Qəzəblənirdi. Lap bilsə də, ürəyində onun təmizliyinə tam əmin olsa da ki, burada elə bir qəbahətli şey yoxdur, yenə də yoldaşlarının pis düşünəcəklərini ağlına gətirib sıxılır, sarsılır, ölüb yerə yapışırdı. Bu hiss onda bu dəqiqələr o qədər güclü idi ki, heç qızı da gözünə görünmürdü. Qızından ötrü həmişə ürəyi gedən, onu görməyi arzulayan Qandalıbəy indi üzünə baxmaq istəmirdi.

Quşbaş Alı isə axırda fikrini dəyişdi. Abdulla müəllimi elə birinci güllədə vurmaq fikrindən daşındı, istədi əvvəlcə onunla oynasın. Tətiyi çəkdi. Tüfəng açılanda müəllimin papağı başından yerə düşdü. Necə atmışdısa papağı elə bil

əllə götürüb yerə qoydular. Tüfəngin səsindən hiss olundu ki, yaxından atırlar. Şaqqıltı meşə ilə bir oldu. Ətrafda quş-muş nə vardısa hamısı çığırışıb-pırıldaşıb perik düşdülər. Yəqin, elə bildilər insanlar quş ovuna çıxıblar, onlara atırlar. Daha bilmədilər ki, müəllimə atırlar. Müəllimə bundan da qabaq atmışdılar. Yazı lövhəsi əvəzi işlətdiyi yuxayayanda neçə güllə yeri var idi. Həmin yuxayayan indi də dururdu. Doğrudur, işlətmirdilər. Ancaq dururdu. Müəllim gülə-gülə deyirdi ki, gələcəkdə bu yuxayayanı muzeyə verəcəm. Onda yuxayayana atılan güllələr Abdulla müəllim üçün xəbərdarlıq idi. Ancaq indi xəbərdarlıqdan keçmişdi. Bu xına o xınadan deyildi. Bu dəfəki qovğadan salamat çıxmaq müşkül iş idi. Anası hər gün deyirdi ki, ay oğul, zəmanə xarabdır, özünü gözlə. Müəllim vəziyyətinin bu çox gərgin, dar yerində başa düşdü ki, özünü gözləmək lazımmış. O isə hər şeyi öz ürəyi ilə ölçürdü: el üçün, camaat üçün elədiyi işlərin, çəkdiyi əziyyətlərin hamı tərəfindən qiymətləndiriləcəyini düşünürdü. Daha demirdi ki... Müəllim bu yerdə də özündən çox uşaqların dərdini çəkdi. Onların qeydinə qaldı. Talaya, ağacların arasına gül-çiçək tək dağılmış uşaqlara baxıb gördü ki, həqiqətən, onlar qorxublar. Bət-bənizləri qaçıb. Mat-qutları qurumuş vəziyyətdə bir-birlərinin üzlərinə boylanışırlar. Bunların günahı nə idi? Balaca vaxtlarından gözlərini niyə qorxudurdular? Nə üçün onların ürəyini quş ürəyinə döndəriblər? Niyə qoymurlar qorxusuz-hürküsüz böyüsünlər? Belə cürbəcür fikirlər edə-edə müəllim həm də ikinci gülləni gözləyirdi. Bilirdi ki, qaçmaq mümkün deyil.

Vəziyyət nə qədər ağır, çətin olsa da, Abdulla müəllim düşmən qabağında özünü sındırmadı. Başını dik tutdu. Qorxaqlıq eləməyin mənası yox idi. Ona tüfəng atan bu nadanları başa salmaq mümkün deyildi. Abdulla müəllim özü də inad adam idi. İndiyədək heç kəsin qarşısında əyilməmiş, mənliyini, qürurunu həmişə, ən çətin vaxtlarında da qorumağa çalışmışdı. Belə bir anda da özünü itirmədi. Uşaqların yanında bu ona yaraşmazdı. Sonra söyləyəcəkdilər ki, müəllimimiz qorxdu. Bu özlərinə də pis təsir eləyərdi. Çünki şagirdlərin gözündə müəllimləri allah idi. Elə bilirdilər o, heç çörək də yemir, su da içmir. Xüsusilə Abdulla müəllimə bu cür baxırdılar. Onu qeyri-adi bir şəxsiyyət bilirdilər. Bu şeylər Abdulla müəllimi daha da dəyanətli eləməyə çağırırdı. Əyilib papağını yerdən götürdü. Adicə kepka idi. Güllə günlüyün üstünü yalayıb keçmişdi. Abdulla müəllim baxıb, sonra əlilə səliqəyə salıb başına qoydu. Tüfəng atılan tərəfə baxaraq birdən necə oldusa səsləndi.

– Deyəsən, papağımdan xoşunuz gəlmir?!

Gözlədi ki, qaçaqlar nəsə deyəcəklər. Ancaq cavab verən olmadı. Əslində, Abdulla müəllim bunu o qədər yavaş dedi ki, onlar bunun ağzının qımıldadığını görsələr də, səsini eşitmədilər. Əlbəttə, özünü nə qədər dəyanətli-toxtaq tutsa da, möhkəm qorxmuşdu. Ağappaq ağarmışdı.

– Bir də papaqla ha deyil. İstəyirsən lap başı açıq gəz, amma gərək insan olasan.

Abdulla müəllim sonra fikir elədi ki, nahaq yerə boğazını ağrıdır. Belə sözlər onlara kar eləməz. Onlar analarının döşünü kəsəndirlər. Belə düşünən Abdulla müəllimdə dəhşətli bir ruh düşkünlüyü əmələ gəldi. Belə adamları olan camaat üçün nahaq yerə özünü öldürməsinə təəssüfləndi. Elə bundan ötrümü oxumuşdu? Elə bundan ötrümü min cür əziyyət çəkmişdi, dağa-daşa düşüb təhsil almışdı. Bundan ötrümü arzu eləmişdi ki, imkan olsun, kənddə məktəb açsın, kasıb-kusub balalarını oxutsun, onlara elm-savad öyrətsin. Bu iş üçün qədrini bilməyəcəkdilər. Əməyinə qiymət verməyəcəkdilər, daha niyə edirdi? Nə üçün özünü əziyyətə salırdı? Əlbəttə, belə şeylər ola biləcəyini Abdulla müəllim əvvəlcədən bilməmiş deyildi. Ancaq o, başqa cür də yaşamaq fikrində olmamışdı. Bunu o, hələ atası aparıb qatara mindirib oxumağa yola salanda arzu etmişdi. Atasının səsi indi də qulağında idi.

– Ayə, düş! Ayə, dərdin alım, düş!

O vaxt düşməmişdi. Sonra atası da sevinmişdi ki, nə yaxşı onun sözünə baxıb düşməyib.

İndi də elə bil bax, o cür «qatarda» yellənib gedirdi. Amma düşürürdülər. Zornan düşürürdülər.

Vəziyyətin gərginliyini, bu haqq-hesabların hamısının Abdulla müəllimə aid olduğunu uşaqlar başa düşürdülər. Bilirdilər ki, nə olsa ona olacaq. Müəllimlərinin başında qaranlıq var. Qəsdinə durublar. Ona görə də hər uşaq öz-özlüyündə fikirləşirdi ki, nə eləsin, müəlliminə necə kömək etsin? Məlahət xanımın da qanı qurumuşdu. Fağırca qadın ayaq üstəcə ölmüşdü, müəllim yoldaşına görə ürəyini yeyirdi. Ümumiyyətlə, belə şeylər olanda ərinə görə çox pis olur, həyəcan keçirir, əzab çəkir, xəcalətindən başını qaldırıb adamların üzünə baxa bilmirdi. İndi isə çox qorxulu vəziyyət yaranmışdı. Abdulla müəllimin başı üstünü təhlükə almışdı. Onu vurmaq istəyirdilər. Bəs bu yerdə o nə eləməlidir? Onu orda güllə ilə vurub öldürsünlər, bu da burda dayanıb sakitcə baxsın? Nə fikir elədisə birdən çığırmaq istədi. Səsi çıxmadı. Boğazı qurumuşdu. Hələ qorxdu yeriyə bilməsin. Amma yox. Addımını atdı. Ona baxıb bu ara uşaqlar da hərəkətə gəldi. Onların da donu açıldı. Ancaq nə etmək istəyirdilər? Məqsədləri nə idi? Əvvəlcə bilinmədi. Bəlkə, qaçmaq fikirləri var? Başları salamat olardı. Buna daha çox ağıl kəsirdi. Çünki uşaq idilər. O biri də qadın xeylağı idi. Əllərindən nə gəlirdi. Ancaq... Sən demə, qaçmaq ağıllarına heç gəlməyib. Əksinə, hamı Abdulla müəllimə yaxınlaşdı. Gəlib onu dövrəyə aldılar. Biri bu yanında dayandı, biri o biri yanında dayandı. Biri qoluna girdi. Biri əlindən tutdu. Qabağını da hasar təki kəsdilər. Az qaldılar pəncələri üstə qalxsınlar. Abdulla müəllim isə tən ortada qalmışdı. Bircə başı görünürdü. Onu da qabaqda dayanmış Məlahət xanım kəsirdi. Abdulla

müəllim elə bil bir ağac budağı idi. Uşaqlar arı tək ona hər tərəfdən daraşmışdılar. Elə idi ki, onu bu qarma-qarışıqlıqda vurmaq çətin idi. Hər tərəfdən qoruyurdular. Qabaq-qənşərində iri gövdəli ağacların, kör-kötüyün ardına girib onlara baxan qaçaqlar məəttəl qalmışdılar. Xüsusilə bayaqdan hər şeyə diqqətlə göz qoyan Qandalıbəyin əli-ayağı yerdən-göydən üzülmüşdü. Belə də şey olar? Adamı belə də istəyərlər? Uşaqlar onu necə dövrəyə aldılar? Qızı gəlib onun qabağında necə dayandı? Arvadı necə dayandı. Bunların hamısı o demək idi ki, məni vur, onu vurma. Bunların hamısı o demək idi ki, mənə dəysin, ona dəyməsin. Bunların hamısı onu qoruyub saxlamaq idi. Qandalıbəy baxıb-baxıb indi başa düşdü ki, camaat arasında hörmət, məhəbbət qazanmaq nə deməkdir! Müəllim nə deməkdir. Qandalıbəy bəy olmuşdu, varı, dövləti yerdən-göydən çıxmışdı, amma beləcə haqq-hesab görməmişdi.

Abdulla müəllim də başqa şeydən ehtiyat etdi ki, bu vəziyyətdə atəş açarlar yaxşı olmaz. Ona atılan güllə başqasına dəyər.

– Məlahət xanım, xahiş edirəm, uşaqları da götürüb gedin, onların işi mənnəndir, – dedi və uşaqların arasından çıxmağa cəhd göstərdi.

Ancaq bir şey çıxmadı. Nə Məlahət xanım, nə uşaqlar ondan əl çəkdilər. Arı tək vızıldayıb ona daha da yaxın dayandılar. Quşbaş Alının tüfənginin lüləsi isə daim onu izləyirdi. Qandalıbəy gördü qaçaq yoldaşı əsəbiləşib, onun icazəsi olmadan ata bilər. Əvvəlcədən xəbərdarlıq etməyi lazım bildi:

– A Alı!

– Bəli. – Quşbaş Alı ona baxmadan gözlərini qıya-qıya cavab verdi.

– Atamın goru haqqı doğru sözümdür. Əlini tərpətdin özünü ölmüş bil.

Quşbaş Alının barmağı tətikdə idi. Onu çəkməkdən ötrü yanırdı. Müəllimin başını göyə sovurmaq niyyətində idi. Bunu o, çoxdan fikrinə qoymuşdu. Çünki onun barəsində çox danışırdılar. Müəllim belə gəldi, müəllim elə getdi... Bu fikirdə, qərarda idi ki, onlar üçün həyatda bir çox bədbəxtçiliyin əsas səbəbkarlarından biri odur. Hətta Qandalıbəy belə deyəndən sonra peşman oldu ki, birinci dəfə onu niyə vurmadı. Niyə gözlədi. Haradan onunla oynamaq fıkrinə düşdü? İstəyirdi ki, onu qorxutsun, dəli eləsin, diri-diri ödünü qusdursun, sonra öldürsün. Başa düşə bilmədi ki, bu müəllim nə böyük adam idi ki, Qandalıbəy də axır-axırda fikrini dəyişdi, ona güllə atmağa icazə vermədi. Əşi, gəlib evinin başına çıxıb, arvad-uşağına yol göstərən olub, bu hələ də dözür. Necə adam idi başa düşə bilmirdi. Zalımoğlu elə bil fil qulağında yatmışdı. Kimi gözləyirdi? Bilmirmi ki, qaradan o yana rəng yoxdur. Quşbaş Alı Qandalıbəydən ürəyində narazı qalsa da, amma əmrinə əməl eləməməyi bacarmadı. Məcbur olub barmağını tətikdən götürdü və ağacın ardından durub geri getdi. Bir iş görməyəndən sonra burada durmağın mənası yox idi. Həm də bununla o, Qandalıbəydən narazı qaldığını bildirirdi. Qoy başa düşsün ki, belə olmaz. Çünki bunlar bir şey

eləmədikcə onların ayağı yer alır. Bəs bu kişi fikirləşmirmi ki, sabah onun ailəsini evdən tamam çıxardacaqlar. Hələlik pişim-pişimlə dolanırlar. Ayaqları yer alandan sonra bunların qabağında durmaq olmayacaq.

Qandalıbəyin isə bu yerdə belə fikirləşməyə imkanı yox idi. O, hələ ağlına sığışdıra bilmirdi ki, bax, bu nə mənzərədir? Bu nə olan şeydir? Həyatda nə möcüzə, nə hadisə baş verib ki, onun arvadı, uşağı başqa bir adamla, yad kişi ilə gəzməyə, təbiətin seyrinə çıxıb. Məktəb beləmi olur? Onun varını, dövlətini əlindən almışdılar, dinməmişdi. Evini məktəb eləmişdilər, dinməmişdi. Arvadını öz işlərinə, öz yollarına dəvət etmişdilər, dinməmişdi. Bəs bu nə idi? İndi gendən baxan onlara nə deyir? Arvadının bu hərəkətlərinə görə onun atasının goruna söymürlərmi? Orda-burda pıç-pıç edib, xısın-xısın danışıb onu qınamırlarmı? Kimin gözünü bağlaya bilərsən? Kimin ağzını yumarsan. Kimə deyə bilərsən ki, görmə, eşitmə, danışma? Qabaqkı zaman deyil ki, qılıncını çəkib hamının səsini içinə salasan, heç kəsi nəfəsini çəkməyə, cınqırını çıxartmağa qoymayasan. İndi hərə özünə görə bir kişidir, hərə özünə görə bir adamdır. Heç kəs heç kəsdən asılı deyil. Qandalıbəy zəmanənin dəyişdiyini başa düşürdü. Amma bu dəyişmiş, tamam yenidən qurulmuş zəmanədə özünün necə hərəkət edəcəyini müəyyənləşdirə bilmirdi. Bu səbəbdən də əlini-qolunu yanına salıb sakitcə baxırdı. Bir az bundan qabaq onlar necə də şən, qayğısız idilər. Uşaqlar payızın gözəl çağlarında bir gül-çiçəkli bağda cəh-cəh vurub şən nəğmələr oxuyan quşlara bənzəyirdilər. İndi isə elə bil ley düşmüşdü aralarına. Hamısı toparlaşmışdı bir yerə. Şəkil çəkdirirlərmiş kimi boyun-boyuna verib onlara sarı baxırdılar. Çünki tüfəng bu tərəfdən atılmışdı. Təhlükənin bu yandan olduğunu bilirdilər. İndi yerlərindən qımıldanmağa da ehtiyat edirdilər.

Təsadüf elə gətirmişdi ki, Abdulla müəllimdən də, arvadından da acığını çıxmağa indi Qandalıbəyin imkanı var idi. Bu onun əlində bir içim su kimi asan bir şey idi. Bu dəqiqəcə onları bircə-bircə dənləyə bilərdilər. Hamısını bircə-bircə böyrü üstə yıxa bilərdilər. Abdulla müəllimi də, arvadını da. Hətta hərdən onun qızından da acığı gəlirdi. Ana çıxan ağacı qızı budaq-budaq gəzər deyərlər. Qız da olardı anası. Ondan artıq olmayacaqdı ki! Bax, gözünü yumub qızından da acığını çıxmaq imkanı var idi. O biri uşaqların da meyitini sərərdi. Bu göy talanı bürümüş payızın yaşıl otunu al-qana boyayardı. Olardı quşbaş Alı kimilərinin gözünün işığı. Tərifi «alosmana» çıxardı. Qeyrəti dildə-dodaqda gəzərdi. Amma bu cür şan-şöhrət olacağının müqabilində o boyda kişi olan Qandalıbəy quruyub qalmışdı. Nə sirr, nə hikmət idisə əl-ayağını tərpədə bilmir, eləcə diri gözlü meyit kimi baxırdı. Onu hansı bir fövqəladə qüvvə, hansı bir çox güclü olan hiss isə sehrləmiş, ovsunlamışdı. Əlini-ayağını tərpətməyə qoymurdu. «Bu sənin ailəndir, – deyirdi, – bir yaxşı bax, tamaşa elə». Qandalıbəy, həqiqətən, qızı Gülcahandan gözünü çəkə bilmirdi. Onu görmədiyi bu illərdə

qız xeyli böyümüşdü. Yarlı-yaraşıqlı, qəşəng qız olmuşdu. Ağıllı-kamallı qıza oxşayırdı. Yerişi, duruşu cazibədar, yapışıqlı idi. Qandalıbəy gözünün qabağına gətirirdi ki, qızı körpəliyində də qəşəng idi. Görərdin ağlayıb eləyəndə anası, qulluqçular evdə olmayan vaxtlar bu yüyürüb uşağın nənnisini yellədərdi. Ağlamağa qoymazdı. O da o dəqiqə səsini kəsər, bir cüt moruq dənəsi tək qara gözlərini cibbildədə-cibbildədə şeytan-şeytan gülümsəyərdi. Al-əlvan xalı üstə iməklədiyi, sonralar yeriyib-yüyürdüyü də yadında idi. Əlindən tutub gəzdirərdi. Dağa-bağa aparardı. Bunların hamısı bircə-bircə gəlib xəyalından keçdi. Qandalıbəy həyatda çox keflər çəkmişdi. Bu arada isə onun üçün elə sarsıntılı hadisələr oldu ki, Qandalıbəy nə yeyib-içmişdisə hamısı burnundan gəldi. Hamısı iki çiyninin əti oldu. Onun üçün indiyədək olanların hamısı yalan idi. Hamısı yaddan çıxmışdı. Elə bil heç olmamışdı. Qəribə burası idi ki, bu kişi ağacın, kol-kosun ardına girib gizlindən bunlara baxanda bunlar da ona tərəf baxırdılar. Əslində, onu görmürdülər. Çünki bunlar açıqlıqda, göz qabağında idilər. O isə daldaya girmişdi. Həmişə aşkarda gəzərdi. İndi isə o boyda gövdə bilmirdi özünü harada gizlətsin. Məcbur olub gizlətmişdi. Bunlar elə-belə baxırdılar. Daha doğrusu, qəfil və çox sərrast atılan güllədən necə qorxmuşdularsa qanadlarını aça bilmirdilər. Hələ də o atılan güllənin ikincisini gözləyirdilər. Gözlədikləri üçün də müəllimin yan-yörəsindən dağılışmırdılar. Uşaqlı-böyüklü onu qoruyurdular. Bu hərəkətlərilə açıqca bildirirdilər ki, ondan ötrü ölümə də getməyə hazırdırlar. Qandalıbəyi də təəccübləndirən, onu heyrətə salan, belə dərindən düşündürən məhz bu məsələ idi. Nə hadisə baş vermişdi ki, bu adi adam hamının belə əzizi-gözü olmuşdu? Hamı onun üçün narahat olurdu. Hamının ona canı yanırdı. Doğrudur, qabaqlar da camaat onun xətrini istəyirdi. Amma indi tamam başqa cür idi. Ona hamı hədsiz hörmət və məhəbbət bəsləyirdi. Bax, bunun nə üçün belə olduğunu Qandalıbəy başa düşmək, dərk etmək istəyirdi. Amma nəsə ona mane olurdu, fikirləşməyə qoymurdu. Qoymurdu ki, kişinin ağlı yerinə gələ. Baxa görə həyatda pis hardadır, yaxşı harda? Yaxşı adam kimdir? Pis adam kim? Bütün bunları Qandalıbəy ayırd etmək istəyirdi. Həqiqəti bilmək istəyirdi. Və bu yerdə o öz-özlüyündə ağıllı bir adama, ağıllı bir məsləhətçiyə, dünyanın çəlpəşik işlərindən baş çıxardan bir nəfərə elə ehtiyac duydu, elə ehtiyac duydu ki, bunu yanında, böyür-başında olanların arasında tapmayıb, daha pis oldu, qəlbi sıxıldı. Kişinin, demək olar ki, havası çatmadı. Məcbur olub yerində qurcuxdu, tərpəşdi. Bununla da kifayətlənməyib ayağa durdu, qəddini düzəltdi və indi o, talada yenə üzləri ona sarı dayanmış uşaqlı-böyüklü bir dəstə adamı bayaqkına nisbətən daha aşkar, daha aydın gördü. Bax, biri onun doğmaca balası idi. O biri arvadı idi. Neçə ildən bəri damın altında tək qoyub getdiyi arvadı. Digəri də müəllim idi. Abdulla müəllim. Nə xan idi, nə bəy. Nə şah idi, nə vəzir. Adicə müəllim idi.

Abdulla müəllimsə vəziyyətdən çıxmaq barəsində fikirləşirdi. Gördü uşaqlar ondan əl çəkməyəcəklər, məcbur olub:

– Di yaxşı, gəlin gedək, – dedi və yerindən qımıldadı. Fikri bu idi ki, nə olur olsun, ancaq bunun ucbatından bir başqası ziyan çəkməsin. Çünki bunlar uşaq idilər. Həyatda heç nə görməmişdilər. Bu saat onların deyib-gülən, çalıb-çağıran vaxtları idi. Başlarına bir iş gəlsə arada peşmançılıq olardı. Abdulla müəllim belə şeylərdən ehtiyat eləyirdi. İndi də əli ürəyinin üstə qalmışdı. Ancaq uşaqlar ondan əl çəkmirdilər, onunla bərabər gedirdilər. Əlacları olsa, gücləri çatsa müəllimlərini körpə uşaq təki qoyun-qoltuqlarına qoyub aparardılar. Elə eləyərdilər ki, onu kənardan görən olmasın. Bu formadaca taladan çıxıb kəndə tərəf kol-kosluğun arasına düşdülər. Buradan köhnə araba yolu keçirdi. Bir az getcək tamam açıqlığa çıxırdılar. Azacıq da aralansalar təhlükədən, demək olar ki, sovuşurdular. Arabir çiyinləri üstə qanrılıb geri baxan uşaqlar buna sevinir, addımlarını yeyinlədirdilər ki, qara-qorxudan tez çıxsınlar. Deyəsən, möhkəm qorxmuşdular. Tüfəngin səsi hələ də uşaqların qulağında idi. Müəllimlərinin bəxti gətirmişdi. Yoxsa çoxdan getmişdi. Bunun vahiməsi hələ də canında idi. Ancaq büruzə vermək istəmirdi. Gedə-gedə özünü şən göstərməyə cəhd edirdi. Elə bir şey olmamış kimi əlini atıb yol üstəki qaratikan kolunun dibindən bir ot çəkib qırdı.

– Uşaqlar, bir bunun buğumlarına baxın, – dedi, – görürsünüz, bitki də birbaşa qalxmır. Müəyyən məsafələrdə özünü bağlaya-bağlaya ucalır ki, külək əsəndə qırılmasın.

Abdulla müəllim həm də uşaqların başını qatırdı ki, qara-qorxudan çıxsınlar, fağırcaların bağrı yarılmasın.

Məlahət xanım isə tamam başqa xəyalda idi. Ürəyinə dammışdı ki, əri Qandalıbəy haradasa buralardadır. Özü də lap yaxındadır. Ürəyindən təpirdi ki, onu görsün. Ancaq necə? Bu isə onun üçün çox vacib idi. Üzbəüz görüb sözünü deyərdi. Bəlkə, ağıla-başa qoya bildi. «Nə vaxtadək bu çöllərdə qalacaqsan? Necə ki, əlindən bir xata çıxmayıb, arada ölüm-itim olmayıb, üzə çıx, qorxma. Düşmən gözündə gördüyün bu adamlar sənə kömək edərlər». Məlahət xanım bu haqda çoxdan fikirləşirdi. Ərilə görüşü çoxdan arzu eləyirdi. Hətta bir-iki dəfə qəsdənmişdi ki, gizlincə meşəyə gedib ərini tapsın. Öldüsündən, qaldısından bir xəbər tutsun. Başqa əlac yox idi. Məlahət xanımın qərarı qəti idi. Həm də ərini görə bilsə əl çəkməz, yalvarıb yaxarar, onu, bəlkə, yola gətirə bildi. Bircə övladının canına and verərdi. Başa salardı ki, başqa yol yoxdur, elə eləmə ki, qızın atasız böyüsün, mən də yazığam. Deməyə Məlahət xanım çox sözlər hazırlamışdı. Həyəcandan bədəni titrəyirdi. Hətta razı idi ki, ərini görə bilməsə, heç olmasa onun yoldaşlarından birini görsün. İsmarışını eləyərdi, onu görmək istədiyini bildirərdi. Bu məqsədlə də Məlahət xanım uşaqlardan geri qalıb, təkləndi. Abdulla müəllim də ona fikir vermədi. Məlahət xanıma da bu lazım

idi, tez dönüb geri qayıtdı. Təzədən beş-on addım talaya sarı getmişdi ki, həqiqətən, əri Qandalıbəy qabağına çıxdı. Məlahət xanım bilmədi nə etsin. Özü-özünə məəttəl qalmışdı. Gör ürəyinə necə dammışdı ki, əri buradadır. Necə düz hiss eləmişdi. Sevindi ki, ürəyi düzdür, təmizdir, istədi bunu əri də bilsin və qiymətləndirsin. Əlini döşünün üstə qoyub:

– Boy, ay Qandalıbəy, ürəyimə bax, – dedi. – Gör necə düz hiss eləmişəm.

Məlahət xanım səmimi hərəkətləri, mehriban baxışları ilə ürəyinin düzgünlüyünü, saflığını bildirmək, nəzərə çatdırmaq istəyirdi. Bunu o, qəsdən eləmirdi. Belə eləyəcəyini qabaqcadan heç ağlına gətirməmişdi. Sadəcə olaraq öz-özünə bu cür alınmışdı. Bəlkə də, elə əsas bu idi. Qandalıbəy biləndə, inananda ki, onun həyat yoldaşı dünyada ən düz, ən sədaqətli adamdır, o zaman hər bir şey düzələrdi. Bütün işlər Məlahət xanımın ürəyincə olardı. Burası var ki, arvadının bu hərəkəti Qandalıbəyi əsəbiləşdirə bilərdi. Hər nə təhər Məlahət xanım bu anlar, bu dəqiqələr elə bil ki, özündə deyildi, demək olar ki, uşaq ağlına düşmüşdü. Görüşmək, nəsə ciddi bir vəziyyətdə, ciddi bir şəraitdə söz demək, həyatlarını götür-qoy etmək əvəzinə qaça-qaça gedib kişinin əlindən tutdu və çəkib ürəyinin üstə qoydu.

– Bax, bax, – dedi. – Görürsən necə döyünür?!

Qandalıbəy də birtəhər olmuşdu ki, arvadı niyə belə eləyir? Onun ağlı başındadırmı? Bu hərəkətlərin yeri idimi? Amma həyat yoldaşı onun əlini ovuclarında tutub ürəyinin üstə necə sıxmışdısa Qandalıbəyin ona qarşı kobud olmaq imkanı yox idi. Əksinə canına-ciyərinə od düşmüşdü. Özünü itirən təki olmuşdu. Həm də təhlükəsizliyindən ehtiyat eləyirdi. Çünki kəndə yaxın idi. İzlərinə düşən ola bilərdi. Bir də gördün böyürdən çıxdılar. Həm də arvadının bu cür çılğın hərəkətləri onun ixtiyarını əlindən almışdı. Arvadının əlinin, ovcunun hərarəti, isti, xoş rahiyəli nəfəsi əlini-qolunu boşaltmışdı. Bunu Məlahət xanım hiss elədiyindəndir ki, ərini yola dartdı, onu açıqlığa, aşkara çıxartmağa cəhd etdi. Qandalıbəy də fikirləşdi ki, bu onu hara dartır? Bəs bilmirdi ki, ona olmaz? Onun üzə, camaat içinə çıxmağa imkanı yoxdur. Bu səbəbdən də ayaqlarını sürüdü, getmək istəmədiyini bildirdi. Ərini görə bildiyinə sevinib çiçəyi çırtlayan Məlahət xanımın isə gözünə heç nə görünmürdü. Onun başqa şeylər barəsində fikirləşməyə macalı yox idi. Geciksə, yaxud aradan nəsə bir şey çıxsa, Məlahət xanımın planı pozula bilərdi. Daha onu heç vaxt yerinə yetirə bilməzdi. İndi əsas iş Qandalıbəyi tutduğu səhv yoldan döndərmək idi. Qandalıbəylə haqq-hesabı Məlahət xanım sonra çəkəcəkdi. «Bəs ayıb deyilmi Abdulla müəllim kimi gözəl bir insana tüfəng atırsınız». Başqa sözləri də vardı. Hər halda, indi bu söhbətlərin yeri deyildi, bunun üçün bir az asudə vaxt lazım idi.

– Gedək, gedək, Qandalıbəy! – Məlahət xanım fikrini, rəyini öyrənmədən onu tələsdirdi, kəndə tərəf çəkdi. Elə bil Qandalıbəy uşaq-zad idi, əlindən tutub aparmaq istəyirdi.

– Aaz, dəli olubsan nədir?! Məni hara sürüyürsən, – Qandalıbəy də yarıacıqlı, yarıxoş etiraz elədi.

Bu da qəti fikrini dedi:

– Özün bil, Qandalıbəy, səni heç yana buraxan deyiləm. Aparacam evimizə. Vəssəlam.

Məlahət xanım belə deyib kövrəldi və başladı ağlamağa. Elə ağladı ki, gözünün on yerindən tökürdü. Qandalıbəy baxıb ona qıymadı. Bilmədi necə eləsin. Necə hərəkət eləsin ki, allaha xoş getsin. Özü də əlindən, biləyindən zəli tək yapışmışdı. Məlahət xanımın onu buraxmaq fikri yox idi. Həyat yoldaşı, ömür-gün yoldaşı, başının böyüyü, uşağının atası əlinə güclə düşmüşdü. Onu göydə axtarırdı, yerdə tapmışdı. Daha heç yerə buraxan deyildi. Çünki bu vəziyyətdə yaşamaq olmurdu. Ərinə görə başını qaldırıb camaatın üzünə baxa bilmirdi. Hər yerdə xəcalətli idi. Harada bir pis iş olsa, onun ərindən görürdülər. Oğurluq-doğurluq nə olsa hamısını onun üstə yıxırdılar. Daha bu nə qədər davam eləyəcəkdi? Məlahət xanım belə sıxıntı içərisində yaşamaq istəmirdi. İstəmirdi özünün də, qızının da gözü kölgəli olsun.

– Qurban olum, Qandalıbəy! – Məlahət xanım ərinin qabağında dilini bir qarış çıxartdı. Neçə il idi bir yerdə yaşayırdılar, bir yastığa baş qoyurdular. Aralarında söz-sov da olmuşdu. Amma heç vədə Məlahət xanım ərinə belə yalvarmamışdı. Onun qabağında belə yumşaq, aciz, yazıq görünməmişdi. Az qalırdı ki, kişinin ayaqlarının altına döşənsin. İllah ki, buna qulaq assın, bunun dediyi kimi hərəkət eləsin. Məlahət xanım başa düşürdü. Bilirdi ki, başqa cür mümkün deyildir. Başqa cür təhlükəlidir. Bax, bunu ərinə başa sala bilsə idi, yaxşı olardı. Məlahət xanım buna cəhd etdi. Ağlaya-ağlaya, həm də acıqlı bir tərzdə:

– Başa düş! – dedi. – Sonra gec olar, özünü də məhv edərsən, bizi də.

Bu barədə qabaqlar Qandalıbəy özü də az fikirləşməmişdi. Yüz dəfə götür-qoy eləmişdi. Ancaq qəti bir qərara gələ bilməmişdi. Düzünü desək qorxmuşdu. Qorxmuşdu ki, öz əl-ayağı ilə gedib təslim olsun, onlar da tutub bunu asıbkəssinlər. Dünən bazarda olan əhvalatdan sonra isə fikri qəti dəyişmişdi. Ailəsinə qayıtmağı hər şeydən üstün hesab eləmişdi. Amma indi tərəddüd edirdi. Həyatın, dünyanın, onun gördüyü, tanıdığı, bildiyi adamların dəyişdiyini görüb tərəddüd edirdi. Ona hər bir şey yad görünürdü. Hətta öz arvad-uşağı da elə bil başqalaşmışlar, tamam ayrı dünya, ayrı hava ilə yaşayırdılar. Ona görə də indi getmək istəmirdi. Məlahət xanım isə təkid edirdi. Özünü öldürürdü.

– Amandır, Qandalıbəy, qızına yazığın gəlsin, – deyə Məlahət xanım kişinin əlindən-yaxasından daha bərk yapışaraq onu kəndə sarı dartdı. Gücü çatsa, lap sürüyə-sürüyə aparardı.

– Aaz, bir dayan görək.

– Yox! Yox! Səni heç yana buraxan deyiləm, – deyə Məlahət xanım dəli tək başını silkələdi.

Qandalıbəy məcbur olub addımını atdı. Hiss eləyirdi ki, dildə etiraz edib ayaqlarını sürüsə də, amma getməyə bilmirdi. Arvadı itələyib özündən ayırmağa gücü çatmır, get-gedə onun iradəsinə tabe olurdu.

Bir az aralı arxada kol-kosun qalınlığına girib bu səhnəyə tamaşa edən qaçaqlar isə bu zaman heyrətlə biri-birilərinə baxışdılar. Hamıdan çox quşbaş Alı təlaş keçirirdi. Bayaqdan qarnına azar dolmuşdu. Baxışları soyuq və qəzəbli idi. Acıxıb kəndə yaxın gəlmiş boz ayın yalquzağı kimi baxırdı. Kənardan görüb fikir verən olsa şüngüyüb yerə domuşmasından və gizlin-gizlin, boz-boz baxmasından elə bilərdi ki, həqiqətən, bu da iki ayaqlı canavardır və indicə ağzını göyə tutub ulum-ulum ulayacaqdır. Qarlı qışın şaxtalı gecələrində kəndə beləcə sürü ilə yaxın gəlmiş canavarlar elə dəhşətli ulayırlar ki, adamın ətindən sümüyü aralanır. Amma bu ulamadı, dəli təki başını oynadıb yoldaşlarına:

– Ayə, bu gedir, – dedi.

Dillənib buna bir söz deyən olmadı. Nəsə anlaşılmaz bir vəziyyət yaranmışdı. Bunlar Qandalıbəyinmi dərdini çəkirdilər? Yoxsa özlərinin başsız qaldıqlarını düşünüb pis olmuşdular? Quşbaş Alı isə bunun fərqinə varıb onlara əhəmiyyət vermədi. Təlaşlı-təlaşlı yenə Qandalıbəyin ardınca baxdı. Arvadı Qandalıbəyi dartıb aparırdı. Necə şeydisə o boyda kişi dönüb elə bil balaca uşaq olmuşdu. Elə hesab eləyin ki, yanına düşüb, əlindən tutub kedirdi. Odur eyy, ağacların arasından, meşənin dalda-bucağından açıqlığa çıxır, qabaqda kənd görünür. Quşbaş Alı belə fikirləşdi ki, daha bunlarınkı qurtardı, məhv olub getdilər. Daha bunların işi bitdi. Odur ki, nəsə qəti bir tədbir görmək qərarına gəldi, acıxmış canavar təki köntöyləşib:

– Ayə, evimiz yıxıldı. – dedi.

Bayaqdan qulaqlarına heç nə girmirdi. Bu sözdən bərk narahat oldular. Ordan-burdan hoqquldaşdılar.

– Niyə?

– Həncəri niyə? Gedib satacaq, yerimizi-yurdumuzu öyrənib gəlib bizi qıracaqlar.

Hamı nəsə fikrə getdi. Heç ağıllarına gəlmirdi ki, Qandalıbəy belə şey eliyər. Həqiqətən, Qandalıbəy elə adam deyildi. Dünyasında elə şeyə qol qoymazdı. Quşbaş Alının ağlına bu hardan gəlmişdi? Fikrini bir az izah etməli oldu ki, nədən ehtiyat etdiyini yoldaşları bilsinlər.

– Ayə, başa düşün, mən demirəm ki, bu özü satacaq. Yox. Bax, canını alıb onlar öyrənəcəklər. Heç qoyarlarmı canına yel dəysin. Əllərinə göydən düşmüş olacaq.

– Ayə, hə-ə, – deyə ağıllarına batdığı üçün yerbəyerdən dilləndilər. Birdənbirəcə hamısı təlaşa düşdü, hamısının canını qorxu bürüdü. O dedi:

– Nə qayıraq?

Bu dedi:
– Nə qayıraq?
Daha yoldaş-zad fikirləşən yox idi. Öz canlarının dərdini çəkirdilər. Hansı idisə biri də bu yandan tikanlı-tikanlı dedi:
– Qandalıbəy yaxşı eləmədi. Ölərdik, bir yerdə ölərdik, qalardıq, bir yerdə qalardıq.
– Ayə, özümüz də yol üstəyik, bə nejə eliyək? – deyə yenə bir-birilərinin üzlərinə baxışdılar.
– Nejə?! – Quşbaş Alı duruxdu.
Arxadan kimsə hövsələsiz-hövsələsiz donquldandı.
– Nejə! Nejə! Qurtaraq getsin.
Quşbaş Alıya da elə bu lazım idi. Köhnədən də haqq-hesabları vardı. Beşaçılanı hərləyib üzünə qaldırmağı ilə atmağı bir oldu.
Qandalıbəyin kürəyində elə bil ocaq qaladılar. Qəfil ağrıdan kişinin ağlı təhərlənəndə məsələnin nə yerdə olduğunu başa düşən Məlahət xanım vahimə ilə necə qışqırdısa Abdulla müəllimlə uşaqlar eşidib geri qaçdılar.
Bu hadisə olanda Müsəllim yenə kənddə idi. İmkan tapıb tövlədən çıxa bilməmişdi. Gündüzlər adamlardan qorxurdu. Bilirdi ki, çıxsa mütləq görəcəklər. Gecələr isə it amanını qırmışdı. Günün qulağı yaxcaq Çalvadaroğlu onu zəncirdən açıb buraxırdı. O da tövlənin qabağındaca yalını içib sonra damın dövrəsində çarx döyürdü. Elə bil hiss eləmişdi ki, tövlədə yad adam var. Müsəllim içəridə ola-ola onun eşikdəki hərəkətlərini səsindən müəyyən edə bilirdi. Bir də görürdün tövlənin ardına cumdu, bacanın ağzında hürdü, uladı. Sonra da damın qabağına yüyürdü, boğuq bir səs çıxarıb az qaldı özünü tövləyə soxsun. Beləcə bu it əl çəkmirdi. O belə eləyəndə Müsəllim içəridə titim-titim titrəyirdi. Həm törətdiyi cinayətin ağırlığını indi-indi başa düşüb, dərk edib dərin fikrə gedir, həm də aclıq-susuzluq onu üzüb əldən salırdı. Tanınmaz dərəcədə dəyişilmiş olsa da, amma dözürdü. Qorxu hissi varlığını necə çulğalamışdısa bütün tələbatlarına hakim kəsilmişdi. Heç nə gözünə görünmürdü, heç nə istəmirdi, dayanmışdı. Düşmək fikri yox idi. Bu acıq hissi yenə də onunla qalırdı. Acıq gülləsini ürəyinin başında bəsləyib eləcə də saxlayırdı. Bu barədə onun fikrində heç bir dəyişiklik olmamışdı. Əksinə, möhkəmlənib bir az da qəzəbli olmuşdu. Fikirdən, aclıqdan, yorğunluqdan ürəyi üzülüb hərdən ayağının altına düşürdü. Amma acıq gülləsi ürəyinin başında dayanmışdı. Düşmək fikri yox idi. Bu acıq hissi bəzən o qədər şiddətlənir, o qədər güclənirdi ki, Çalvadaroğlu əlinə düşmədiyindən az qalırdı intiqamını damından-daşından, malından, heyvanından alsın. Hərəsinin qarnına bir bıçaq soxsun, hamısının qarnı-bağırsağını töksün. Bəlkə, ürəyi soyuya, bir az sakit ola. Amma belə şey eləmirdi. Əksinə, neçə gündən bəri bir yerdə qaldıqlarından heyvanlarla bunun arasında nəsə bir

«ünsiyyət» yaranmışdı. Belə ki, birinci-ikinci gecə heyvanlar bunun olduğu tərəfə yaxın gəlmir, başqa küncə-bucağa kotdaşıb yerləri darısqal olduğundan buynuzlaşırdılar. Səhərədək tövlədə nəsə bir narahatlıq olurdu. Qaranlıqda Müsəllimin özü də onlardan ehtiyat edirdi. Bir dəfə az qalmışdı inəklərdən biri vurub onun gözünü çıxartsın. At isə qulağını qırpıb qolunu gəmirmişdi. İndi isə elə deyildi. Heyvanlar ona bir az öyrəşən kimi olmuşdular. Daha ondan çox qaçmırdılar. Gəlib böyür-başındaca uzanıb yatırdılar. Nəfəsləri nəfəsinə dəyirdi. Bu da ona xoş gəlir, mal-heyvanın arasında bir az təskinlik tapıb darıxmırdı. Heyvanlar ona həyan olurdular. Səhər mal damdan çıxanda isə Müsəllimin ürəyinin başı tökülürdü. Həmişə atası, anası onu danlayardı ki, mal-heyvan getdi, amma sən yenə yatırsan. Durub bir çıxsana. O da yerindən durmağa tənbəllik eliyərdi. Başını yorğanın, yastığın altına soxub sözlərini eşitmək istəməzdi. Gün günorta olmamış qalxmazdı. Amma burada nə vaxtsa gecdən-gec gözünə yuxu getsə də, yenə xoruzların ilk banından da tez oyanırdı. Qorxu belə şey idi. İşıqlaşanda mal-heyvan ıqqıldaşa-ıqqıldaşa qalxıb çıxar, bu isə damda qalardı. Adi heyvan qədər imkanı yox idi. Bu bir neçə gün ərzində Müsəllim çox dəhşətli bir vəziyyətə düşmüşdü. Xüsusilə gündüzər tövlədə canavar təki vurnuxurdu ki, indicə içəri gələn olub onu görəcəkdir. Ondan sonra vay halına. Bir də mal örüşdən qayıdıb dama girəndə bir az özünə gəlirdi.

Qandalıbəy vurulan günün axşamı camaat onun qapısına tökülüşüb kişinin dəfninə hazırlıq görüləndə heç bir şeydən xəbəri olmadan Müsəllim birdən-birə özündə dəhşətli bir aclıq hiss edib bilmədi nə qayırsın. Bağırsaqları doğranırdı. Ürəyi çəkilirdi. Daha dayana bilmirdi. Bütün gücü-qüvvəsi getmişdi. Birdən haradan ağlına gəldisə qaranlıqda dəbdəliyə-dəbdəliyə axtarıb Çalvadaroğlunun inəklərindən birini tapdı və buzov təki altına düşüb zoxmalaya-zoxmalaya əmmək istədi. İnək durardımı?! Təpiklədi, o yana qaçdı, bu yana qaçdı. Bu da əl çəkmirdi. Əli inəyin yelnində, ağzı əmcəyində yerdə sürünürdü. Tövlədə o biri heyvanlar də hürküşüb, qaçışıb küncə-bucağa sıxılmışdılar. Nəhayət, ağzı inəyin əmcəyindən çıxıb tövlənin ortasında sərələ qaldı. Sürünüb yerindən zorla qalxa bildi. Gəlib təzədən axura girdi. Deyəsən, inək ağzına-burnuna təpik ilişdirmişdi. Ağlı, bədəni keyləşdiyindən heç onu da hiss eləmirdi. Axurda oturub dililə dodaqlarını yalayırdı. Kənardan baxıb görmək mümkün olsa idi, adam olduğuna, bəlkə də, inanmazdı. Dilini çıxarıb ağzını yalamasından vəhşiyə oxşayırdı.

Abdulla müəllimin isə salamat qurtarmasına hamı sevinirdi. Camaat ondan ötrü özünü öldürürdü. «Bundan sonra hayana getsən, yığışıb biz də səninlə gedəcəyik», – deyə çoxları onun böyür-başında hərlənirdi. Çiyni aşırmalı sarınmış Çapar da evdə durmayıb gəlmişdi. Qandalıbəyin dəfnində o da iştirak edirdi. Özü də boş dayanmamışdı. Müəyyən işlərin təşkilində o da nəsə bir iş

görürdü. Qəribə idi. Qandalıbəy necə ki, dağda-daşda tüfəng oynadıb, qaçaqlıq eləyirdi, hamı ona ölmüş tək baxırdı. «Onunku daha qurtarıb!» – deyirdilər. Sağ ola-ola onu çıxdaş hesab edirdilər... Elə ki, evinə, ailəsinin içinə qayıdarkən bu vəziyyətdə öldü, camaatın gözündə kişi elə bil təzədən dirildi. Hamı ona hörmətlə yanaşmağa başladı.

Qandalıbəyi yenicə dəfn edib qayıtmışdılar ki, Talıb kişini idarəyə çağırdılar. Dedilər zəng vurublar, onu istəyirlər. Talıb kişi də yüyürdü. Bir az keçəndən sonra bir də gördülər gülə-gülə gəlir. Kişinin əhvalının yaxşılaşdığını görüb birinci Çapar soruşdu:

– Xeyir olsun, Talıb dayı.

Talıb kişi güləndə, gülümsəyəndə yanaqları batan tək olardı. Uzun günlüklü papağının altda geniş alnı öz-özündən elə bil işıqlanırdı. İndi də yanaqlarının batığı dərinləşdi və kişidə şad xəbər olduğu aşkarca hiss olundu.

– Qaçaqları tutublar, – dedi.

Camaatın içində nəsə xüsusi bir canlanma əmələ gəldi. Hərə bir yerdən soruşdu.

– Necə? Nə vaxt? Harada?

Camaatın marağını görən Talıb kişi xəbəri yerli-yataqlı çatdırmağa çalışdı.

– Bu səhər Dardaşda qabaqlarını kəsiblər. Elə imkanları olub ki, hamısını qırsınlar. Amma qırmayıblar. Tüfənglərini tökdürüb qabaqlarına qatıblar. Amma deyəsən, Quşbaş Alı yenə aradan çıxıb.

– Əşi, bir nəfər nə edəsidir? Axırda o da ələ keçəcək, – deyə hərə bir tərəfdən sevindiyini bildirdi. Camaatın üzü gülürdü. Sən deyən qaçaqlar elə bir təhlükə olmasalar da, hər halda, yenə narahatçılıq doğururdular. Çalvadaroğlu isə ayaq üstəcə quruyub qalmışdı. Kişinin elə bil nəfəsi çatmırdı. Qandalıbəyin ölümü bir yandan onu bərk silkələmişdi. Bu heç olmasa ölü idi, danışmırdı. Qarnındakını da qarnında aparmışdı. Amma bu tutulanlar, ələ keçənlər... Bax, paxırlar açılacaq. Bax indi kimin nə yola qulluq etdiyi aydın olacaq. Beləcə fikirləşdikcə elə hesab edin ki, yüz arşınlıq dərin bir quyunun dibinə düşürdü. Gördü fikirdən ayaq üstə dayana bilmir, oturmağa yer axtardı. Ancaq bu da ona kömək eləməyəcəkdi. Çünki üzü-başı pörtüb yanırdı. İçəridən sanki şişib üfürlənib alışırdı. Belə getsə qorxduğunu hiss elətdirəcəkdi, camaatın arasından çıxdı. Bilmədi hara getsin? Evinə gəldi. Qapısı alçaq idi. Başını əyib içəri girəndə gördü oğlu Mədət nəsə deyir. Çalvadaroğlu fikir verdi.

*Qalx, ey lənətlə damğalanan*
*Aclar və qullar dünyası!*
*Qəzəblə coşur damarda qan.*
*İstər azadlıq davası*

*Zülmün dünyasın təməlindən*
*Yıxaraq verib əl-ələ*
*Yeni dünya qurub biz həm.*
*Alaraq hökmü tez ələ.*

Uşaq səsini kəsəndə Çalvadaroğlu key-key:

– Ayə, nə deyirsən? – dedi.

Oğlu belə hesab elədi ki, o, yaxşı iş görür. Bu onun atasını da sevindirəcək. Ona görə şəstlə, fəxrlə cavab verdi.

– Əzbər deyirəm, dədə.

– Nə?

– Əzbər.

– Əzbər nədir?

– Bunu daa. Qalx, ey lənətlə damğalanan.

– Kim öyrədib, ayə, onu?

– Müəllimimiz. Abdulla müəllim.

– Necə öyrədib?

– Necə nədir? Sinifdə deyib-deyib, axırda yadımızda qalıb.

Çalvadaroğlu içəridən yanırdı. Bir istədi öz belindən gələn bu uşağı da söysün, onun müəllimini də söysün. Heç birinin ağzı-üzü qalmasın, hamısını söysün. Uşaq isə öz aləmində idi. Elə bilirdi ki, bütün bunları öyrəndiyindən atası da sevinir. Odur ki, yenə şad bir halda səsləndi.

– Dədə!

– Hə.

– Bir də bilirsən, nə öyrənmişəm?

Ağzı bununla danışsa da, Çalvadaroğlunun fikri başqa yerdə idi. Qarnına yekə azar dolmuşdu. Onun dərdini çəkirdi. Düşünürdü ki, bu işlərin axırı hara çıxacaq? Onun halı-günü necə olacaq? Buna baxmayaraq, öz başını qatmaq xatirinə oğluna cavab verdi.

– Nə öyrənmisən?

– Yer kürə şəklindədir, dədə.

– Nə şəklində?

– Kürə. – Mədət əlilə də göstərdi. – Bax, qarpız şəklində.

Evdə arvad-uşaq nə bilirdi ki, Çalvadaroğlu nə çəkir. O, indi elə halda idi ki, elə bil dünya uçub bu altda qalmışdı. Oğlu belə deyəndə fikirləşdi ki, kaş belə olaydı. Bu Talıb kişi, bu Abdulla müəllim, bu Çapar, bu o biri, bu biri hamısı, hamısı sürüşüb «qarpızın» üstündən kəlləmayallaq aşaydılar, bəlkə, Çalvadaroğlunun canı dinclik tapa idi. Xülasə aləm bir-birinə qarışa idi ki, bunun zir-zibilləri ört-basdır olaydı. Mədət isə belə düşündü ki, atası Yerin kürə şəklində olduğuna inanmır, ona görə fikrə gedib. Bu onu inandırmağa çalışdı.

– Hə. Hə. Yer kürə şəklindədir. Müəllimimiz deyir.

Oğlu ilə danışanda Çalvadaroğlunun dərdi bir az azalan tək olurdu.

– Bəs onda niyə yıxılmırıq?

– Niyə yıxılmırıq? – Sualı təkrar edib uşaq fikrə getdi.

Evdə nəsə iş görən anası o yandan dilləndi:

– Yəqin, laaap yekə qarpız kimidir, ona görə yıxılmırıq.

Arvadının söhbətə qarışması onu əsəbiləşdirdi.

– Hə-ə. Anan biləndir. Onlar nəsillikcə ağıllıdırlar. – Çalvadaroğlu dayana bilməyib, lağ elədi. Başqa vaxt olsa, bəlkə də, heç nədən durub əngəzdəyərdi. Allahın-bəndənin acığını bundan alardı. Ancaq indi o yeri deyildi. Çalvadaroğlunun quyruğu qapı arasında qalmışdı. Nə qədər dartırdısa çıxarda bilmirdi. Dərdini açıb-ağarda da bilmirdi. İşi yaman şuluq idi. Haradan yadına düşdüsə dedi:

– Ayə, dam-daşı kürüyəniniz olubmu?

Arvadı da, oğlu Mədət də birdən dilləndi:

– Yox.

– Yoğnux! – Çalvadaroğlu ikisini də sancdı. Və durub eşiyə çıxdı ki, gedib damı kürüsün, sonra da görsün başına nə iş gəlir?

Çalvadaroğlunun xəbəri yoxdu ki, «dostu» Müsəllim burdadır, acıq gülləsi də ürəyinin başında, axura girib onu gözləyir. Müsəllim bu bir neçə gündə, bəlkə də, fürsət tapıb buradan əkilə bilərdi. Doğrudur, bu, çox çətin idi. Bir neçə dəfə cəhd eləmişdisə alınmamışdı. Tutulacağından, ələ düşəcəyindən qorxub damda qalmışdı. Burası da vardı ki, atasının intiqamını alıb sonra getmək istəyirdi. Qorxurdu ki, sonra gec ola, atasının qanı bata. Bu barədə o qədər fikirləşirdi ki, gecələr gözünə balaca çimir gedəndə də yuxusunda atasını görürdü. Bir-iki dəfə görmüşdü ki, qapıda atası dayanıb, bu ona nəsə deyir, o isə cavab vermir.

– Dədə!

– ...

– Sənnənəm, ay dədə.

– ...

– Nə olub sənə, dədə. Mənnən niyə danışmırsan? – deyə Müsəllim az qalır dəli olsun.

Tövlənin qapısı açıq idi. Eşikdən içəri enli bir işıq zolağı düşürdü. Amma bu işıq zolağı gəlib tövlənin axırına çıxmır, qapıya yaxın bir yerdə qırılıb qalırdı. Müsəllim isə damın ardında bir küncə girib qaranlıqda əlində tüfəng axurda kifkirmişcə oturmuşdu. Çalvadaroğlu qəfildən əlində bel içəri girəndə bu diksinən tək oldu, bərk həyəcanlandı. Nəhayət, onun gözlədiyi an, məqam gəlib çatmışdı. Amma hələlik əl-ayaq tərpətmədi, Çalvadaroğlunun bir az da yaxın gəlməsini gözlədi. Müsəllim nəfəsini də çəkməyə ehtiyat eləyirdi ki, birdən Çalvadaroğlu

duyuq düşüb qaçar. Onda bunun özünün də işi fırıq olar. O, həqiqətən, irəli gəlmədi, qapının ağzındaca dayanıb durdu. Elə bürüşmüşdü ki, deyirdin heç o Çalvadaroğlu deyil. Çiyinləri düşmüşdü. Beli bükülən tək olmuşdu. Çox fikirli-fikirli tövlənin boş axurlarına boylanırdı. Onun dərdindən Müsəllimin xəbəri yox idi. Belə yozdu ki, əlindən çıxmış var-dövlətinin dərdini çəkir. Qabaqlar Çalvadaroğlu bu tövləyə azı iyirmi-otuz sağılan inək salardı. Əlindən alınacağından qorxub onları beşbir, üçbir dəyər-dəyməzinə satmışdı. İndi beş-onca heyvanı qalmışdı. Bu haqq-hesabı Müsəllim yaxşı bilirdi. Onlara gələndə bu barədə atası ilə həmişə məsləhətləşər, tədbir tökərdilər. Ucundan-qulağından bu da eşidərdi. O vaxtlar Çalvadaroğlu onlara çox yaxın idi. Müsəllimin ondan xoşu gəlirdi. Gətirib həmişə qabağına çay qoyardı. Bir işə-gücə buyuranda gedərdi. İndi isə görməyə gözü yox idi. Acıq gülləsini ürəyinin başında onun üçün saxlamışdı ki, Çalvadaroğlu malın peyinini orda-burda irəli ata-ata qabağa gəldi. Müsəllim daha gözləmədi, əlində tüfəng şeytan tək Çalvadaroğlunun qabağına tullandı. Və:

– Tərpənmə! – dedi.

Çalvadaroğlunun qanı qurudu. Başa düşə bilmədi ki, bu nə əhvalatdır. Bu gədə hardan peyda oldu? Qapıdanmı girdi? Bacadanmı düşdü? Necə gəlib bura çıxıb? Burada nə iti azıb? Əslində, işıqdan gəlib birdən-birə qaranlığa düşdüyünə gözü də yaxşı görmürdü. Hələ hər yeri yaxşı seçə bilmirdi. Dirək tək gözünün qabağındaca dayanmasına baxmayaraq, dedi, bəlkə, gözünə belə görünür, onu qara basır. Bəlkə, qulağı da səsə düşüb. Çünki özündə deyildi. Qaçaqların tutulması onu bərk qorxuya salmışdı. Qorxurdu ki, bunu satsınlar. «Bizimlə belə əlaqə saxladı. Bizə belə çörək verdi. Bizə belə xəbərlər gətirdi». Onda bunun halı-günü necə olacaqdı. Bu da bu yandan çıxdı. Belə bir vəziyyətdə gözü tövlənin alaqaranlığına öyrəşəndə gördü Müsəllim, həqiqətən, qabağında dayanıb. Tüfəng də əlində. Az qalıb ki, Çalvadaroğlu o dünyalıq olsun. Bic adam idi. O dəqiqə işini qandı. Bildi ki, bu elə-belə deyil, Müsəllim atasının məsələsindən xəbərdardır. Hümbət ağlına gəldi. Dovşanı araba ilə tutan Hümbət. Amma başa düşə bilmədi ki, bu necə olub? Hər nə təhər Çalvadaroğlu vəziyyətdən çıxmağa bir şey axtardı. Özü qəsdənmi, yoxsa elə-belə qorxub təntidiyindənmi:

– Ayə, a Müsəllim, – dedi. – Mən elə sənin dərdini çəkirdim, nə yaxşı olub ki, özünü gətirib bura salıbsan. Bu köpəkuşağı atanın evini yıxdı, indi də səni axtarırlar.

Çalvadaroğlunun fikri bu idi ki, birtəhər onu aldatsın. Sonra onun işini bitirə bilərdi. Müsəllim isə acıqla cavab verdi:

– Mənim atamın evini sən yıxmısan!

– Məən?

– Hə-ə. Sən!

– Ayə, dəlisən, ağıllısan, nəsən? Heç fikirləşirsənmi nə deyirsən? Mən axı sənin atanı niyə öldürəm?

– Bilmirəm. – Müsəllim kövrəlmiş səslə danışdı. Çiyinlərini dartdı. – Ancaq sən öldürmüsən. Mən də səni öldürəjəm.

– Öldürməyinə sözüm yoxdur, öldür, – deyə Çalvadaroğlu yağlı dilini işə saldı. – Canım da sənə qurbandır. Ancaq ona yanıram ki, dostunu, düşmənini tanımırsan.

Müsəllim bu tənbehi yaxın qoymadı:

– Hümbətin burda dediklərini özüm eşitmişəm.

Çalvadaroğlu başa düşdü ki, bu soyuq ona haradan dəyib. Demək, bu o vaxtdan burda imiş. Oğlanı azdırmağa çalışdı.

– Ayə, yəqin, Çaparı vurub bura girmisən.

Çalvadaroğlu elə qayğı hissilə dedi ki, bu da sanki dəyişilən tək oldu.

– Hə-ə.

– Vay! Vay! Bir gör sən sənin allahın. Ayə, bəs ac-susuz ölmürsənmi?! – Çalvadaroğlu canıyanarlıqla ona tərəf getdi.

Müsəllim çığırdı:

– Gəlmə yaxın! Vurajam.

Çalvadaroğlu dayandı. Hümbət məsələsini aydınlaşdırdı.

– Sən axı işin içini bilmirsən. Onu öyrədiblər. Kişini özləri öldürüblər, indi kiminsə üstünə qoymaq istəyirlər. Mən də deyirəm qoya bilməzsiniz, çünki əlinizdə dəliliniz yox, sübutunuz yox. Olmayan şeyi necə qoya bilərlər? Çalvadaroğlunun dedikləri Müsəllimin ağlına batdı da, batmadı da. Amma yenə bayaqkı sözünü dedi:

– Öldürəjəm.

Çalvadaroğlu gördü heç cür bu gədəni ələ ala bilmir. Ayaq üstəcə ölmüşdü. Rəngi kağız tək ağarmışdı. Başqa hiyləyə əl atdı. Dedi, bəlkə, bu cür təsir eliyə. Əl-qolunu sakitcə yanına salıb.

– Neynək, öldür! – dedi. – Bu da mənim yaxşılığımın əvəzi.

Müsəllimin acıq gülləsi ürəyinin başından sürüşüb tüfənginin lüləsi ağzındaca sıxılıb qalmışdı. Elə bir balaca tərpətməyə bənddi ki, Müsəllim fikrini dəyişdi. Fikirləşdi ki, bəlkə, düz deyir? Bəlkə, doğrudan, öyrətmədir? Bəlkə, bu yolla bunların axırına çıxmaq istəyirlər. Axı bu Çalvadaroğlu özgəsi deyildi. Onlara ən yaxın adam bu kişi idi. Onun özünün əlini-qolunu bağlayıb yatab göndərmirdilərmi?! Kim qurtardı?! Çalvadaroğlu gecəynən onu kənddən çıxardıb, aparıb qaçaqların yanına qoymadımı?! Kim bunu eləyərdi? Heç kim. Çalvadaroğlu dostluq, yoldaşlıq, qonşuluq xatirinə elədi. Bəs bu boyda yaxşılığı itirmək olarmı?! Camaat adamın cəmdəyinə tüpürməzmi?! Onun yaxşılığı bunun burnundan gəlməzmi?! Müsəllim fikirləşdi ki, gör o, nə qədər səhv eləyib, işin

içini dərindən düşünməyib, yalan sözə gedib. İndi də belə düşünüb Müsəllim hərəkəti üçün xəcalət çəkdi, utandığından kişinin üzünə baxa bilmədi. Birdən:

–Bağışla, ay Hasan əmi, sən allah, bağışla, – tüfəngi aşağı salıb kişinin qabağında dizi üstə çökdü. Bir böyük kimi onun qarşısında bu formada günahını yumaq istədi. Günahkar idi. O boyda kişinin üzünə ağ olmuşdu. – Qələt eləmişəm. Bilməmişəm. Səhv eləmişəm. Öldür məni, amma bağışla.

Hə-əə. Çalvadaroğlu fikirləşdi ki, kəməndi daha bunun xirtdəyinə keçdi. İndi leş tək hayana istəsə sürüyər. Bidadın dəlisinin ipi bunun əlindədir.

– Zərər yoxdur, a bala, zərər yoxdur, olan şeydir, adam cavanlığında səhv eliyər. – Çalvadaroğlu toxtaq, təmkinli halda qabağa getdi, əlini onun çiyninə qoydu. Əslində, o hələ də özünə gəlməmişdi. Çünki gədənin gözünü qan örtmüşdü. Beyninin qurdu qımıldamışdı. Vurdu, vurdu, neynəmək olardı. İndi bir az özünə gəlib oğlanın başını  yenə yastığa qoydu.

– Dur, ayə, dur, sənin kimi oğlana dizi üstə durmaq yaraşmaz.

Müsəllim əlində tüfəngi yerə qoyub ayağa durdu. Tüfəng bu dəqiqələr onun üçün bir parça qırıq ağac tək bir şey idi. Elə-belə əlində tutmuşdu. İstifadə eləmirdi. Bayaq onu görəndə bağır-övkəsini yemiş olsa da, indi ona Çalvadaroğlu da əhəmiyyət vermirdi. Oğlanın tamam ürəyinə girib şübhələrini dağıtmaq üçün ona yalandan qayğı göstərdi.

– Ayə, indi mən sənə necə kömək eləyim, burdan necə qurtarım? Arvad-uşaq görər, evin yıxılar, – deyə kişi bir anlığa fikrə getdi. Sonra əlini yellədi. – Qoy hələlik gedib sənə yemək gətirim. Görürəm acsan, ordun-ordundan keçib. Sonra bir şey eliyərik. Qorxma.

Çalvadaroğlunun getdiyi ilə qayıtmağı bir oldu. Arvadı evdə yox idi, harasa getmişdi. Oğlu Mədət evdə idi. Oturub dərsini oxuyurdu. Ona fikir vermirdi. Ona görə dinməzcə bir çörək götürdü, arasına xeyli yağ-pendir qoyub böyründə tutdu, uşaq görməsin deyə yanı-yanı gedərək evdən çıxdı.

Müsəllim az qalırdı çörəyi gözünə təpsin. Zarafat deyildi, neçə günün acı idi. Çörəyi yağ-pendir qarışıq elə yekə dişləyirdi ki, ağzında güclə hərləyirdi. Ordları şişib qalxmışdı. Tüfəngini də qucağında tutmuşdu, acıq gülləsi də içində. Ancaq o dönüb yağlı, şirin tikə olmuşdu.

– Ayə, bu andırı bu yana qoy, çörəyini rahat ye, sənə mane olur, – deyə Çalvadaroğlu əlini uzadıb tüfəngi aldı və lazımsız bir şey kimi kənara, axurun içinə qoydu. Müsəllim başını qaldırıb onun üzünə baxsa da, etiraz eləmədi, yenə yeməyində davam etdi.

Çalvadaroğlu Müsəllimin başının üstə ayaq üstəcə dayanmışdı. Fikirləşdi ki, indi bunun başını bişirib ağzını tərs salsa da, amma axırı yox idi. Sonralar bu gədə onun atasının qatilinin bu olduğunu haradansa dəqiq eşidib-bilib onunla qanlıbıçaq olacaq. Ondan sonra gəl bu dəlinin qabağında dur, görüm necə du-

rursan. Çalvadaroğlu fikirləşdi ki, necə eləsin, bu təhlükəni yolundan necə götürsün. Bu saatca onu birtəhər eləməyə imkanı var idi. Səs-məs olmasın deyə heç tüfəng də lazım deyildi. Beli götürüb onun başını əzə bilərdi. Yaxud əyilib xirtdəyindən tutar, boğub ora tullayardı. Bu ağlına gələndə elə bildi molla Bidadın ximirçəkli boğazından elə indi tutub. Eymənib əti irpə getdi. Həm də sonra bunun meyitini neyləsin. Qorxub hələlik gözləməli oldu. Müsəllim isə çörəyi hələkə-hələkə yeyib yenə başını qaldırdı:

– Hasan əmi, bir dolça su gətir nə olar.

– Yaxşı. İndi gətirərəm, – deyə Çalvadaroğlu dabanı üstə geri döndü.

Uşaq olmasına baxmayaraq, Mədət atasının hərəkətlərindən heç almadı. Gördü kişi evdə-eşikdə birtəhər hərlənir. Gözü nəsə o yanda-bu yanda qalıb. Bir yerdə qərar tuta bilmir. Gah içəri girir, gah eşiyə çıxır. Bir ayağı da damdadır. Bayaqdan neçə dəfə gedib-gəlib. Evdən çörək götürüb, arasına yağ-pendir qoyub gizlincə eşiyə çıxdığını da görmüşdü. Əgər acımışdısa, bu niyə oturub evində yemədi? Bəyəm çörəyi onun əlindən alan var? Bəs bunu kimin üçün apardı? Bunu aparıb kimə verdi? Hələ sonra gəlib evdən bir dolça su da götürdü. Bu kişi bunu kimin üçün daşıyırdı? Bu işi niyə gizlincə görürdü. Arada bir-iki dəfə Mədət də eşiyə çıxdı ki, bəlkə, yoldan ötən-keçən var, acdır, atası onu yedizdirir. Amma heç kəs yox idi. Uşaq buna görə narahat olsa da, atasının hərəkətlərilə maraqlansa da, soruşmağa cəsarət eləmədi. Çünki xasiyyətini bilirdi. Bir də gördün acığı tutdu, ağzının üstünə bir şapalaq çəkdi ki, uşaqsan get uşaq yerində otur, böyük işinə qarışma. Bu sözün qabağında nə deyə bilərdi? Heç nə. Ona görə səsini çıxarmırdı. Ancaq altdan-altdan atasının hərəkətlərinə göz qoyur, xırda bir şeyi də nəzərindən qaçırmırdı. Ürəyinə dammışdı ki, burda nəsə var, boş-boşuna deyil. Ümumiyyətlə, Mədət atasından çoxdan şübhələnirdi. Doğrudur, gözü ilə bir şey görməmişdi. Bu barədə dəqiq heç bir şey deyə bilməzdi. Ancaq hiss edirdi ki, atası kənddə məktəb açılmasından, uşaqların oxumasından, indi nəyə görəsə canfəşanlıq eləsə də, onun dayısı Çapardan narazıdır. Bütün bunlar ona aydın idi.

Dərsini oxuyub qurtarmış, müəlliminin tapşırıqlarını yerinə yetirmiş Mədət məşğul olmağa bir iş axtardı. Hələ balaca olsa da, boş-bekar dayanmaqdan xoşu gəlmirdi. Axtarıb mütləq özünə bir iş tapırdı.

– Dədə!

– Hə.

– Damı təmizləməmisənsə gedib təmizləyim.

– Yox. Yox. Təmizləmişəm. Hələ peyini də atmışam. Çalvadaroğlu tez dillənib, əlilə «yox!» işarəsi verdi. Onun bu hərəkəti Mədətin şübhəsini bir az da artırdı. Niyə o belə elədi? Nə üçün çox təlaşlı, həyəcanlı dilləndi. Elə elədi ki, guya Mədət əlində bel bu saatca damı kürüməyə gedir. Qabağına durdu ki, olmaz.

Mədət çox ələm-ayaq, diribaş, gözüaçıq uşaq idi. Hər şeyə diqqət yetirən idi. Xüsusilə dayısına edilən qəsddən sonra bir az da ayıq-sayıq olmuşdu. Məktəbdə Abdulla müəllim onu sinfin başçısı seçmişdi. Öhdəsinə düşən işi, vəzifəsini ona aydınlaşdırmışdı. Sinifdə, demək olar ki, hər şeyə o, cavabdeh idi. Tənəffüslərdə şagirdlərin səs salmalarına, nadinclik etmələrinə, dalaşmalarına imkan vermirdi. Hamını düzgün yola çəkir, ədəbli durub-oturmağa, mədəni olmağa məcbur edirdi. Hər gün üçün növbətçi təyin eləmişdi. Lövhə tərtəmiz silinmiş, tabaşir də yerində olardı. Elə ki biri qayda-qanuna tabe olmadı, sinfin qarşısında onun tənbehini verərdi. Bu ictimai iş az vaxtda onu xeyli fəallaşdırmışdı. Həm də belə şeylərə çox həvəsli idi. Oxumağı da yaxşı idi. Deyiləni o dəqiqə götürürdü. Buna görə Abdulla müəllim onu həmişə tərifləyir, şagirdlərə nümunə çəkirdi. O biri şagirdlər də buna baxıb onun kimi olmağa, yaxşı oxumağa səy göstərirdilər.

Atasının hərəkətləri uşağı necə şübhəyə salmışdısa sakit ola bilmirdi. İstədi məsələni anasına açsın, onunla məsləhətləşsin, görsün o nə deyir. Amma qorxdu. Bildi ki, anası bu işə qarışsa, ara yerdə döyüləcək. Mədət həyatda bundan qorxduğu kimi heç nədən qorxmurdu. Atası anasına əl qaldıranda elə bilirdi ki, bunun özünü döyürlər. Anasına dəyən elə bil bunun özünə dəyirdi. Gözlərini yumub baxa bilmirdi. Ürəyi ağrıyırdı. Özünü pis hiss eləyirdi. Çoxu buna görə atasından acığı gəlirdi. Bir dəfə heç nəyin üstündə «Sən atanın veranxanasına nəyə getmişdin?» – deyə əlində çubuq anasının üstə gələndə bu dayana bilməmiş, uşaq olduğu yerdə baltanı götürüb atasının üstə cummuşdu. Elə bağırmışdı ki, səsi evlə bir olmuşdu.

– Döymə anamı! Döymə! – hönkürüb ağlamışdı.

Anası onu arxadan qucaqlayıb yalam-yalam yalamışdı.

– Döymür, dərdin alım, döymür.

Mədət yekə oğlan olsa da, özünü saxlaya bilməyib hıçqıra-hıçqıra xeyli ağlamış, yumruqları ilə gözlərini ovuşduranda barmaqlarını da islatmışdı.

Çalvadaroğlu isə daha bir şey eləməyib, qımışıb dayanmışdı. Düzü, ondan bəri uşağı bir az soyuq dindirirdi. Ürəyində nəsə qalmışdı. Ancaq büruzə vermirdi.

Bu şeylərə görə atasından şübhələndiyini anasına deməkdən vaz keçdi. Hərlənib dayısıgilə gəldi. Dedi, bəlkə, onunla bu barədə söhbət eliyə. Çapar yas yerindən gəlmişdi. Anası Pəri arvadla Qandalıbəygildən danışırdılar. Mədətin nənəsi oğluna:

– Məlahət xanım yaxşı adamdır, dərdin alım, – deyirdi. – İndi evdə başıpapaqlısı yoxdur. Tifağı dağıldı, ona həyan olmaq lazımdır.

Bu məsələləri Mədət bilirdi. Bir vaxtlar nənəsi yaxın qoymurdu. İndi, deyəsən, qoca arvad yavaş-yavaş qılımlanırdı. Çapar anasına baxıb bığaltı qımışır, onun bu işə razılıq vermək fikrində olmasından açılıb şad olurdu. Bu iş, əslində,

Mədətin də ürəyindən idi. Çünki şəhərli qız Çimnazdan xoşu gəlirdi. Birinci dəfə görəndə uşağın ağzı açıla qalmışdı.

– Booy, nə göyçək qızdır! – demişdi.

Bax, dayısı o qızı alsa Mədət elə bilərdi ki, nə bilim nə olub. Sevindiyindən at minib cıdırladardı. Cavanlara qoşulub dirədöymə oynayardı. Uşaq ola-ola meydana çıxıb lap yekə-yekə kişilərlə güləşərdi. Və Mədətə elə gəldi ki, hamısını yıxardı. Əsas o idi ki, bu iş baş tutsun.

Qərəz bu söhbəti eşidib bunların qanını qaraltmaq istəmədi. Onsuz da bu işdən dayısı çox çəkmişdi. Ondan başı indi də ağrıyırdı. Çiyninin sarığını hələ də açmamışdı.

Mədət təzədən geri qayıtmalı oldu. Görsün nə var, nə yox? Bu vaxt Çalvadaroğlu dama girib Müsəllimə demişdi ki, səni elə indi işıq gözünə, günün günorta çağı çıxardacam. Çünki axşamın xeyrindən sabahın şəri yaxşıdır. Gündüz heç kəs heç nə unamaz, amma gecələr ora-buranı pusurlar. Otryadlar gəlib kəndin dövrəsini kəsirlər. Gecə qara, cücə qara, nə biləsən qabağında nə var.

Müsəllim demişdi ki, həncəri, gündüz məni tanıyarlar. O da demişdi ki, elə eləyəcəm tanımasınlar. Sənə yapıncı verəcəm. Başına papaq verəcəm. Gözüyün üstünə basarsan. Camaatın başı qarışıqdır. Görən-bilən olmaz. Görsələr də, tanımazlar. Uzaqdan görən olsa, deyərəm tanış idi, yol keçirdi, aparıb ötürdüm.

Çalvadaroğlu camaatın başının qarışıq olduğunu dilindən qaçırtmasına peşman oldu. Çünki o, qərara almışdı ki, olan hadisələrin heç birini ona açmasın. Bu bilsə ki, Qandalıbəyi öldürüblər, heç kənddən çıxardımı?! Qoy elə Çaparı ölmüş bilsin. Bilsin ki, adam öldürüb, daha ona burada yer yoxdur. Xülasə bunların hamısını Çalvadaroğlu götür-qoy eləmişdi.

İndi bir parça uşaq atasının yenə gah evdə, gah həyətdə vurnuxa-vurnuxa qaldığını görüb tamam fikrə getdi. Məsələnin nə yerdə olduğunu bilmək istədi. Anası qonşudan hələ gəlməmişdi. Elə bir adam da yoxdu ki, məsləhətləşsin. Abdulla müəllim ağlına gəldi. O hamıya yol göstərirdi. Hamının qayğısına qalırdı. Kimin bir dərdi-azarı olanda onun üstünə qaçırdı. Mədət qərara aldı tez qaçıb ona desin. Ancaq həyətdən çıxanda fikrini dəyişdi. Atasından deməyə nəsə utandı. Qayıdıb atasının qabağında şax dayandı.

– Dədə.

Çalvadaroğlu o qədər fikirli idi ki, əvvəlcə onu eşitmədi. Bəlkə də, heç görmürdü. O boyda gövdənin qabağında bu, cırtdan kimi bir şey idi. Haradasa qarşısında itirdi. Uşaq yenə səsini çıxartdı.

– Dədə!

– Hə. – Bu dəfə kişi uşağa cavab verdi. Amma yenə də üzünə baxmadı. Nə fikirləşirdisə yola sarı boylanırdı. Uşaqsa sözünü dedi:

– Bizim damda adam var?

Kişi diksindi. Gözləri bərəlmiş halda oğluna baxdı. Bu, başqa yerlərdən, başqa adamlardan ehtiyat edirdi. Düşmən ocağının qırağında imiş!

– Nə adam? Damda adam nə gəzir?!

– Bəs bayaq çörəyi kimə aparırdın?

Çalvadaroğlu udqundu.

– Nə çörək?

Mədət heç vaxt atası ilə belə, bu şəkildə danışmamışdı. Balaca köksünün altında ürəyi tıp-tıp tıppıldayırdı. Amma düz atasının gözlərinin içinə baxırdı.

– Bayaq apardın ha. Mən də dərsimi oxuyurdum, onda.

Çalvadaroğlu özünü o qədər itirdi ki, bilmədi qarşısındakı öz oğludur, yoxsa başqa bir adam. Bu onun üçün əsl məhkəmə, əsl divan idi. Heç ağlına gəlməzdi ki, bir vaxt gələcək öz doğmaca oğlu onu belə mühakimə edəcək. Əsəbiləşib az qalırdı uşağı çığnasın. Ancaq gördü başqa imkan yoxdur.

– Ayə, yox, a bala, burdan indicə bir yolçu keçirdi, ona verdim, – deyə uşağın başını yozaladı.

Mədət başını buladı.

– Yoox. Mən sənin dalınca çıxıb baxdım. Qapıda heç kəs yox idi. Əlində çörək dama girdin. Sonra da su apardın.

– Ayə, dəlisən, nəsən?! Damda adam nə gəzir. Gedib baxsana. – Çalvadaroğlu elə danışdı ki, bəlkə, oğlunu inandıra.

Mədət təpildi ki, dama getsin, Çalvadaroğlu hirsləndi. Əlini atıb uşağın qulağından tutdu. İri-kobud barmaqları arasında balacanın qulağını necə sıxdı, necə dartdısa Mədət ağrıdan az qaldı çəpiş tək məkkildəyə. Çalvadaroğlu isə daş dəymiş ayı tək qanıb-qandırmırdı. Daha demirdi ki, bu, uşaqdır, körpə səvidir, onunla belə rəftar etmək olmaz. Uşaq pəncələri, lap barmaqları üstə yerdən göyə nə qədər qalxırdısa atası onun qulağını buraxmırdı.

– Ağzımda söz danışıram. Mən boyda kişiyə inanmır. Tfu! Südünə lənət. – Çalvadaroğlu əlini çəkəndə Mədətə elə gəldi ki, qulağı yerindən çıxıb, atasının əlində qalıb. Fağırca uşaq ömründə hələ belə dəhşətli ağrı görməmişdi. Elə hesab edin ki, bir tərəfi yox idi. Beyninin içinə tək ağrı işləyirdi. Uşaq bilmədi neynəsin. Dözsün deyə aşağı domuşdu, yuxarı qalxdı, başını bu yana döndərdi, o yana döndərdi. Dizin-dizin yerdə süründü. Qulağını gah əlilə tutur, gah da başını çiyni üstə əyib qoltuğuna soxurdu. Bir o qalmışdı ki, başını daşa-divara döysün. Bəlkə, bu dözülməz ağrını hiss eləməyə. Amma deynən səsi çıxdımı?! Deynən «ah», «uf» elədimi?! Deynən yoldan ötənə-keçənə bildirdimi?! İki əlli qulağını tutaraq evlərinin böyrünə sarı getdi. Çalvadaroğlu ona fikir vermədi. Qoy cəhənnəm olsun. Uşaqdır, uşaq yerində otursun. Yoxsa tez-tez gəlib əlinə-ayağına dolaşır, işlərinə qarışır. Başından böyük qələt eləyir. Bax, indi ağlı başına

gələr, ata ilə necə rəftar etmək lazım gəldiyini öyrənər, yerini bilər. Belə bir çox acıqlı vaxtında bir-iki ev ondan o yana yaşayan Qaraədə (adı Ədil idi, qara olduğu üçün ona belə deyirdilər) hardan-hara onu səslədi.

– Ayə! Ayə! A Hasan.

Ona cavab verməyə bunun təhəri yox idi. Məcbur olub səsini çıxartdı.

– Heey!

– Ayə, bəlkə, səndə petli ola?

Çalvadaroğlu yaxşı eşitmədi.

– Nə?

– Petli! Petli! Qapını saldırıram. Bir petli əskikdir.

Bu nə hayda idi, o nə hayda. Çalvadaroğlu ürəyində onu söydü. «Sarsaqoğlu sarsaq, məndən petli niyə soruşur». Səsini çıxartdı.

– Yoxumdur! Yoxumdur!

– Sən saxlayıçdı adamsan, dedim, bəlkə, oldu, – deyə Qaraədə ona müraciət etməyinin səbəbini izah elədi. Və yenə də sözü uzatdı. – Təzə qapıdır, köhnə petli vurmaq istəmirəm. Deyirəm qoy hamısı təzə olsun. Allah qoysa qoy uşaqlar böyüsün, onda görəcəksən ki, övlada ev-eşik düzəldəndə adam necə sevinir. Elə bilirsən dünya sənindir.

Çalvadaroğlu bu qayğıdan uzaq idi. Belə şeylər yadına da düşmürdü. Uşaq var, onun böyüməsi var, sabah onun ev-eşik olması var. İndi isə... Qaraədə uşaq deyəndə indicə vəhşi tək rəftar etdiyi, dartıb qulağını bir metr uzatdığı Mədəti yadına düşdü. Gördü nə? Uşaq başını yenə daşa-divara döyür, çəkilib uzanır. Qərəz ki, bir yerdə qərar tuta bilmir, yenə dizin-dizin gəzinir. Keçən dəfəki əhvalatı xatırladı. Onda da uşağı pis vurmuşdu. Az qalmışdı uşaq ölsün. Çalvadaroğlu baxıb Mədətin vəziyyətinin indi də yaxşı olmadığını gördü. Deyəsən, onu o dəfəkindən də pis hala salmışdı. Mədət ayaq üstə dura bilmirdi. Başı bədəninin üstə durmurdu. Gah bu çiyninin, gah o çiyninin üstə düşürdü. Uşaq başı kəsilmiş beçə təki çapalayırdı. Göz görəsi «gədə» ölürdü. Axırı ağrıya dözə bilməyib Mədət yerə yıxıldı. Bayaqdan ona fikir verməyən Çalvadaroğlu dedi daha uşaq əlindən getdi, evi yıxıldı. Əzəldən də başı çəkmişdi. O dəfə Mədəti «allah» özü saxlamışdı. Çalvadaroğlu bir anlığa quruyub qaldı, ayaq üstəcə öldü. Kişi elə bil meyit idi. Sonra yüyürüb özünü oğlunun üstə saldı. Nə qədər zalım olsa da, hər halda, ata ürəyi idi. Əli-ayağı əsə-əsə əyilib oğlunun başını dizləri üstə aldı.

– Mədət! Mədət! – deyə onu çağırdı.

Cavab verməyə Mədətin halı yox idi. Çalvadaroğlunun canını qorxu daha da bürüdü. Az qaldı ürəyi partlasın. Bəs necə?! O boyda oğlan gözünün qabağındaca heç nədən əldən gedirdi. Bu nə müsibət idi?! Uşağın başına bir iş gəlsə, o nə edərdi?! Bu dərdə necə dözərdi?! Bu bir anda o, dünyanın əzabını çəkir və

ürəyini yeyirdi ki, Mədət gözlərini açdı, gördü atası başını qolu üstə alıb, xoşuna gəlmədi. Özünü tarazlayıb:

– Mən sənlə danışmıram. Hamı deyir sən pis adamsan! – dedi və çapalayıb qalxdı, daha heç nəyə əhəmiyyət verməyib, heç nə ilə maraqlanmayıb həyətdən çıxıb getdi.

Qaraədənin evinin qabağı tərəfdə itlər boğuşdu. Özlərini görməsə də, səslərindən hiss elədi ki, bir-birilərinin əl-ayaqlarını yedilər. Boğuşa-boğuşa ora-bura yıxıldılar. Zingildədilər. Arada birini necə boğdular, necə didişdirdilərsə ulaya-ulaya qaldı. Küçük idi. Bu itlərin ona bir maneçilikləri olmasa da, Çalvadaroğlu küçüyün səsindən əsəbiləşib:

– Ə, bu köpək uşağı itlərini niyə açıq qoyurlar?! – deyə öz-özünə söyləndi. Və bu ara Hümbətin əlində çomaq itlərə sarı qaçdığını gördü. O kişi heç buna tərəf gəlməsə də, buna tərəf baxmasa da, Çalvadaroğlu tez üzünü yana çevirdi. «Bu da mənə bir yağı kəsilib!»

Səhər gün var idi. Havanı o qədər qızdırmasa da, hər halda, isti hiss olunurdu. İndisə gün yox idi. Elə bil heç yerli-dibli olmamışdı. Hava bomboz bozarmışdı. Hiss elətdirirdi ki, soyuqlar yaxındadır, bu gün-sabah qış gələcək. Və bu bozarmış səma Çalvadaroğlunun canını bir az da çox sıxır, həyəcanını, narahatçılığını artırırdı.

– Bu uşaq hayana getdi? – deyə Çalvadaroğlu indicə qulağından dartıb ölümcül vəziyyətə saldığı oğlunu xatırladı. Ona görə çox bərk narahat oldu. Ağlına cürbəcür şeylər gəldi. «Bəlkə, gədənin qulağını lap xarab eləmişəm. Allah eləməmiş pərdəsini dağıtmış ollam, uşaq kar olar. Bəlkə, başına-beyninə də bir ziyanı dəyib. Bir də ağlına gəldi ki, bəlkə, dayısına, yaxud Talıb kişiyə, Abdulla müəllimə xəbər verməyə qaçıb. Gəlib bu «gədəni» mənim damımda tutsalar, ondan sonra evim yıxılar. Elə deyəcəklər ki, bu işlərin hamısını təşkil eləyən sənsən». Çalvadaroğlu dəli olmadımı?! Tez götürüldü ki, uşağı tapıb qaytarsın. Qorxu necə dəhşətli şeydisə o boyda kişi kəndin arası ilə uşaq təki qaçırdı. Birinci qayınanasıgilə qaçdı. Çapar evdə yox idi. Pəri arvad asta-asta evdə yır-yığış eləyirdi. Göyü təntimiş soruşdu:

– Bizim gədə buralara gəlmədimi? Mədəti deyirəm.

– Yox. – Pəri arvad başını buladı.

Çalvadaroğlu daha bir söz soruşmayıb dabanı üstə geri çıxdı. İndi lap qorxmuşdu. Çaparın evdə olmaması onu tamam ağürəkli eləmişdi. Yeyin-yeyin Talıb kişinin idarəsinə gəldi. Oğlunu orada da görmədi. Təlaşını, həyəcanını hiss elətdirməmək üçün idarənin qabağında dayanmış adamlara yaxınlaşmayıb kənardan keçdi. Məktəbə sarı hərləndi. Qandalıbəyin həyətində hələ adam çox idi. Bəri çəpərin dibində bir-iki uşaq var idi. Onlardan soruşdu.

– Ay uşaqlar, Mədəti görmədinizmi?

– Görmədik, – deyə onlar da başlarını buladılar.

Çalvadaroğlu ürək-göbəyini yedi. Bu necə iş idi? Bu uşaq necə oldu? Göyəmi çıxdı? Yerəmi girdi? Hayana cəhənnəm oldu? Bunun yenə nə hiyləsi var? Çalvadaroğlu bu vəziyyətdə özünü ora vurdu, bura vurdu. O uşaqdan soruşdu, bu uşaqdan soruşdu. Gördüm deyən olmadı. Kişi ora-bura qaçmaqdan tərə batıb çıxmışdı. Bu, camaatın nəzərindən qaçmadı. O dedi:

– A Çalvadaroğlu, nə olub?

Bu dedi:

– A Çalvadaroğlu, nə olub?

– Əşi, Mədəti axtarıram. Heyvanın qabağına göndərəjəm, axsax toğlu var onu gətirsin, yoxsa çöldə qalar, – deyə Çalvadaroğlu birini elə yozaladı, birini belə yozaladı. Oğlunu isə tapa bilmədi. Bu hayana getmiş olar? Bu harada itib-batmış olar. Qaldı məəttəl. Belə bir halətdə molla Bidadın arvadına rast oldu. Qandalıbəyin evi tərəfdən gəlirdi. Görünür, hüzr yerinə gedibmiş, oradan gəlir. Həmişə görəndə yaxınlaşar, dolanmalarını soruşar, özünü yenə onlara yaxın adam kimi aparırdı. Amma daha əzəlki təki gediş-gəlişləri yox idi. Get-gedə araları sərinləyirdi. Molla Bidadın arvadı da buna o qədər cəhd etmirdi. Nəsə Çalvadaroğlundan ürəyi qırılmışdı. Bəlkə də, qulağına bir söz çatmışdı. Yaxud onun yaxşı adam olmadığını artıq o başa düşmüşdü. Əslində, molla Bidadın arvadı bilirdi ki, onun daha bunlara bir köməyi dəyə bilməz. Ona görə öz dərdini özü çəkirdi. Oğlu Müsəllimin həyatından çox narahat idi. Arvad gecə-gündüz o barədə fikirləşirdi. Qandalıbəyin ölümü, qaçaqların bəzilərinin tutulması arvadı tamam qəm dəryasına batırmışdı. «Bu gədənin halı-günü necə olacaq, bunun axırı nə ilə qurtaracaq?» – deyə hey gözünün yaşını axıdırdı. Əvvəllər nənəm-nehrə olan arvad indi nazilib çöpə dönmüşdü. Yarı canı qalmamışdı. Üzü gülmürdü. Ərinin ölümü bir yandan, oğlunun çöllərə düşməsi o biri yandan arvadı şam tək əritmişdi. Əli heç bir işə yovuşmurdu. Elə görürdün ki, əlləri qoynunda qapısında dayanıb çöllərə baxır. Hətta deyirdilər ki, bir-iki dəfə tək-tənha meşəyə gedib. Gedib oğlunu axtarıb. Görüb tapa bilmir. Başlayıb dəli tək oğlunu çağırmağa. Ay Müsəllim! Ay Müsəllim! Deyirdilər ki, fikirdən arvadın başına hava gəlib. Əri təzə öləndə isə belə söyləyirdilər ki, guya gecə Müsəllim gəlib atasının üstündə şam yandırıb. Bu şamı da guya anası görüb. Çağırıb ki, ədə, ay oğul, evimizə niyə gəlmirsən? O da ordan səslənib ki, atamın qanını almamış gələn deyiləm. Yalan-gerçək belə söyləyirdilər. Arvadın özündən soruşanda isə bir onu deyirdi ki, oğlum əlimdən gedib, evim yıxılıb. Ərini daha dilinə gətirmirdi. Bunun dərdi onun dərdini yaddan çıxartmışdı. Qandalıbəyin də ağlaşmasında gəlib başda oturmuşdu. Dil deyib elə ağlamışdı ki, bütün arvadlar zuy-zuya getmişdilər. Əslində, o, Qandalıbəyi ağlamırdı. Öz gününü, öz düşdüyü vəziyyəti ağlayırdı. Onda kişilər də eşikdə dayanmışdılar. Arvadların səsini

aydınca eşidirdilər. Arada-bərədə Çalvadaroğlu nə qədər söhbət eləsə də, öz başını qatmağa çalışsa da, yenə molla Bidadın arvadının səsi bunun qulaqlarını dəlirdi. Günahını, təqsirini, işlətdiyi cinayəti tez-tez yadına salırdı. Ağzında başqa söz danışsa da, fikri orada olurdu, kişini əsəbiləşdirirdi. İndi rast gələndə isə öz hayında idi. Oğlunu axtarırdı. Daha ondan başqa şey soruşmayıb:

– A Mahnızar, bizim gədəni görmədinmi? – dedi. – Mədəti deyirəm.

Molla Bidadın arvadı fikirli olduğundan onu, həqiqətən, yaxşı eşitmədi. Dayanıb duruxdu. Bu da peşman oldu ki, əşi, bunu nəyə dindirirsən? Qoysana çıxıb gedə. Niyə deyirsən, a qarğa, məndə qoz var. Xülasə Çalvadaroğlu elə qorxub təntimişdi ki, bütüncə özünü itirmişdi. Haçandan-haçana Mahnızar arvad onun nə soruşduğunu anlaşdırıb eləcə başını buladı və yoluna düzəlib getdi. Çalvadaroğlu təzədən onun ardınca baxıb fikrə getdi. Bax, bu onun oğlunun yerini bilirdi. Özü öz ayağı ilə gəlib kəndə çıxmışdı. Onun canı bunun əlində idi. Çalvadaroğlu bunu da atası molla Bidadın ardınca göndərmək istəyirdi. İstəsə də, istəməsə də, belə eləməli idi. Yoxsa bunun paxırları açıla bilərdi. Sabah o bunun canını ala bilərdi. Hətta muzdur Hümbət barəsində də bir şey fikirləşməli idi. O da çox baş aparır. Ağzına yiyəlik eləmir. Kəsik baş danışmaz deyərlər. Oğlu Mədət cin-şeytan tək aradan çıxıb, onun başını bu arada bərk qatmış olsa da, Çalvadaroğlu bu qara fikirlərdən hələ əl götürməmişdi. Hələ öz canı hamınınkından özünə yaxın idi. Ona görə yenə əl-ayağa düşdü ki, oğlunu tez tapa bilsin, onun başını birtəhər yozalasın. Sonra görsün ki, nə edir? Gördü bir-iki ev o yanda uşaqlar dirədöymə oynayırlar. Baxdı, ancaq uşaqlar o yana-bu yana qaçışdığından yaxşı seçib tanıya bilmədi. Məcbur olub yeyin-yeyin ora getdi. Gördü oğlu orda yoxdur. Dedi:

– Ay uşaqlar, bizim Mədəti görmədinizmi?

Dedilər:

– Yox.

Kişi lap dəli olmaq dərəcəsinə gəldi. «Bu necə şeydi, a başına dönüm».

Təzədən evinə qayıtmalı oldu. Çünki yer qalmamışdı baxmamış olsun. Adam qalmamışdı soruşmamış olsun. Tapa bilmədiyindən o boyda kişi uçum-uçum uçunurdu. Belə çox həyəcanlı halda həyətinə yaxınlaşanda gördü oğlu Mədət Abdulla müəllimlə qapının ağzındaca söhbət eləyir. Dedi daha işim bitdi. Mənimki də buracan imiş. Axırda öz övladım özümə düşmən çıxdı, mənciyəzi yazıq elədi. Çalvadaroğlu qəti bu fikirdə oldu ki, oğlu onu satıb, məsələni müəlliminə açıb. Bu da sürüb düz onun qapısına gəlib. Yəqin, Talıb kişiyə də adam göndəriblər. Eşidib onun ardınca da qayını Çapar gələcək. O da harada aş, orada başdır. Qolunu ağzına verdilər, yenə ağlı başına gəlmədi. Çalvadaroğlu bu ara belə düşündü ki, elə hamı o ağıldadır. Hamının başı xarab olub. Hamı bir saza oynayır. Yalnız bu oynaya bilmirdi. Az qaldı ayaqları tutulsun, yeriyə

bilməsin. Ölüm-zülüm ayaqlarını birtəhər sürüyüb qapısına getdi. Gedə-gedə qərara almışdı ki, hər şeyi boynundan atsın, heç nədən xəbərim yoxdur, bilmirəm desin. Daha başqa bir əlac görmədi, yeganə yolu bu idi.

– A Hasan, gəldim ki...

Kar könlündəkini anlayar deyərlər. Bu da elə bildi ki, o məsələni deyəcək. Kişinin başının qapağı elə bil tərpəndi. Onadək Abdulla müəllim sözünü tamamladı.

– Gəldim ki, uşaqların ev şəraitilə tanış olum. Görüm onlar üçün evdə oxumağa az-çox şərait yaradıbsınızmı? Yoxsa elə yazıqlar dizlərinin üstəmi yazıb-oxuyurlar.

O nə fikirləşmişdi, bu nə deyirdi?! Çalvadaroğlu gördü müəllim bura tamam başqa məsələ üçün ayaq basıb. Rəngi-ruhu durulan tək oldu. Fikirdən-həyəcandan əlindən lap xata da çıxa bilərdi. Özünü ələ alıb yalandan gülümsəyərək:

– Şərait deyəndə ki, – dedi, – ev-eşik hamısı uşaqlara qurban döymü?!

– Ona sözüm yox. – Abdulla müəllim onun nə deyəcəyini bilib sözünü kəsdi. – Bir var elə-belə istəyəsən, bir də var onlara qayğı göstərəsən. Oxumaq üçün də uşağın gərək evdə şəraiti olsun. Qabağında stolu, oturmağa stulu.

– Sağlığınıza varımızdır. Onların hamısı varımızdır, – deyə Çalvadaroğlu qayğıkeşliklə cavab verdi.

Abdulla müəllim bir məsələni də onun qulağına çatdırmağı lazım bildi.

– Bir də gərək evdə sakitlik, rahatlıq olsun ki, uşağın oxuduğu yadında qalsın.

Çalvadaroğlu o dəqiqə işini qandı. Bildi ki, Abdulla müəllim sözü hardan vurur. Çünki bu məsələnin üstündə onun Talıb kişilə də sözü olmuşdu. Və bu ona çox ağır gəlmişdi ki, gəlib onun ailə işinə qarışırlar. Belə otur, belə dur deyirlər. Ancaq indi də səsini çıxartmayıb yedi. Daha fikirləşmədi ki, Abdulla müəllim bütün bunları onun xeyrinə deyir. Bu onun borcudur. Bu belə olmalıdır. Burada təhqiredici, heysiyyətə toxunan heç bir şey yoxdur. Əksinə həyətlər arasına bu, çalın-çarpaz çəkilmiş qaratikan çəpərlərinin böyür-başında, qışda ayaqlarını soyuq apara-apara, yaylarda başını gün yandıra-yandıra böyüyən bu balaca insana qayğı idi. Onun gələcəyini düşünmək idi. Onun həyatını işıqlı, mənalı, yaxşı etmək idi. Buna hamı çalışırdı. Əli-ayağı tutan məktəb işinə kömək edirdi. Bu günlərdə gedib qışda qalamağa xeyli quru odun düzəltmişdilər. Deyilənə görə, dörd-beş araba olardı. Sabahda-biri gündə gedib gətirəcəkdilər. Çalvadaroğlu açıqca görürdü ki, bunlar nə lazımdır eləyirlər. Bunların yalan yerə atdanıb-düşmələri özlərinə qalır. Onlar isə get-gedə daha da fəallaşırlar. Hər gün dərsdə də Abdulla müəllim uşaqlara deyir:

– Uşaqlar, yaxşı oxuyun. Çalışın əlaçı olun. Onu bilin ki, hər şey elmə-savada bağlıdır. İnsan elmli-savadlı olanda onun ağlı da düzgün və iti işləyir.

Bu uşaqlar da müəllimlərinin dediyini deyir. Ağzından nə çıxır o dəqiqə götürürlər. Çalvadaroğlu başa düşürdü ki, onun əli hər yerdən çıxıb, təklənib, daha heç bir şey eləmək mümkün deyil. Ona görə məcburiyyət qarşısında qalıb müəllimə xoş üz göstərdi.

– Əşi, burda niyə durmuşuq, bəri gəlin öyə gedək – deyə onu içəri dəvət etdi. Özü də bilirdi ki, getməyəcək. Həm də bununla söhbəti kəsmək istəyirdi.

Abdulla müəllim, həqiqətən:

– Evdə olmuşam, a Hasan, – dedi. – Bircə sizdən xahişim budur ki, uşaqların oxumağına fikir verin.

Abdulla müəllim belə deyib getdi. Ata-oğul qaldılar. Çalvadaroğlu indi necə hərəkət edəcəyini müəyyənləşdirə bilmədi. Öz doğmaca oğlu olan bu bir parça uşaq bayaqdan onu girinc eləmişdi. Qanadını açmağa imkan vermirdi. Ağlına gəldi ki, bəlkə, hal-həkətin hamısını Mədətə danışa, sirrini ona aça. Oğlu deyilmi?! Deyə ki, bax, Müsəllimi gəlib mənim damımda görsələr, ondan sonra atanı ölmüş bil. Heç kəsi inandıra bilməyəcəyəm ki, bəs xəbərim yoxdur, gəlib özü girib. Deyəcəklər ki, yox! Sənin qaçaqlarla əlaqən olub. Ondan sonra məni asıb-kəsəcəklər. Sən istəyirsənmi atan belə vəziyyətə düşsün? Ancaq Çalvadaroğlu qorxdu, uşaqdır, – dedi, – orda-burda söyləyər.

– Ayə, anan hanı?

– Anam?

– Hə?

– Bilmirəm, – deyə Mədət başıaşağı, qaşqabaqlı cavab verdi. Bayaqkı inciklyi hələ də arada saxlayırdı. Bəlkə də, qulağının ağrısı hələ də getməmişdi. Ancaq canına salıb dözürdü. Çalvadaroğlu isə buna daha əhəmiyyət vermirdi. Uşağın qulağına-başına bir şey olacağından çox bərk qorxmuş olsa da, indi onu ayaq üstə görüb o barədə sakitləşmişdi. Əsas o biri tərəfdən nigaran idi. Bir əncam çəkmək istəyirdi.

–Ayə, bəs anan hara getmiş olar? – Onu qapıdan əkmək fikrində oldu.

Uşaq çiyinlərini atıb yenə bayaqkı sözü dedi:

– Bilmirəm.

Bu ara Mədətin yoldaşlarından Kaloğlu Omarın qızı atdana-atdana əlində dəftər onun yanına gəldi. Aha? Çalvadaroğlu öz oğlunu burdan əkmək istəyirdi, şəppə-xeyir bu da gəldi. Dəftəri ona uzadıb dilini yastılaya-yastılaya:

– Ə Mədət, – dedi. – Ala bax, gör dünənki dərsimizi yazmışam?

Cin vurdu Çalvadaroğlunun kəlləsinə çıxdı. Az qaldı qızın qolundan tutub onu başa salsın ki, a bala, bura sənin üçün məktəbdir, nədir? Yoxsa bizim gədə də müəllimdir? Yeri, a bala, yeri çıx get! Apar onu müəlliminə göstər, o bilər.

– Bəri ver, baxım, – deyə oğlu isə qıza mehribanlıq göstərdi. Dəftəri alıb vərəqlədi. Bir yerdə dayanıb sözləri höccələyə-höccələyə lap yavaşdan oxumağa

başladı. Bu ara fikri öz qayğısından yayınan Çalvadaroğlu da maraqlandı. Qız, görəsən, düzmü yazıb? Oğlu onun səhvini tuta biləcəkmi? Bu, Çalvadaroğluna çox maraqlı gəldi. Yəni oğlu bir şey öyrənibmi? Bir şey bilirmi?

Bu yerdə bir uşaq da gəldi. Sonra da biri gəldi. Bax, baş-başa dayanıb Kaloğlu Omarın qızının dəftərinə baxırdılar. Elə baxırdılar ki, deyirdin qızıl tapıblar. Heç buna fikir vermirdilər. Amma nə olsun?! Qapının ağzında idilər. Nə eləsən görərdilər. Özü də elə uşaqlar idi ki, gözdən qıl qırpırdılar. Elə bil bir göz də geri yanlarında idi. Çalvadaroğlu içərisindən öz-özünə əsəbiləşib, axır-axırda dözə bilmədiyindən dilləndi:

– A bala, a bala, burda oynamayın, gedin o yanda oynayın.

Onsuz da uşaqların başı çox qarışmışdı. Hamısının fikri, nəzər-diqqəti qızın dəftərində idi. Yalnız biri arxaya çevrilib ciddi bir tərzdə:

– Biz oynamırıq, – dedi. – Dərsimizi öyrənirik.

Uşağın belə deməsi onu bir az da hövsələdən çıxartdı. İstədi onların qolundan tutub bircə-bircə eşiyə vızıldatsın. – Ayə, köpək uşağı, – desin, – başınıza yer qəhətdir?! Dərsinizi elə gərək mənim qapımda öyrənəsiniz?! Amma bunlara əl vurmaq olardı? O dəqiqə ya müəllim, ya sədr, ya Çapar, axırı ki bir adam yanından çıxır və səni tənbeh edir. Cavab vermək də olmur. İçindən qırıla-qırıla qalırsan. Bu səbəbdən də Çalvadaroğlu əlini-ayağını tərpədə bilmədi, uşaqlara acıqlanmadı. Gözlədi ki, bəlkə, özləri cəhənnəm olub gedələr. Hə-ə. Mədət də onlarla getsə yaxşı olardı. Bir də görürsən lap şər vaxtınadək oynayırlar. Çağıranda da gəlmirlər. Bax, belə bir şey olsa idi, yəni Mədətin başı qarışsa idi, bu da öz işini bilərdi.

– Ay Çalvadaroğlu! – deyə bu ara həyətinin qabağındakı yoldan səs gəldi. Bu, uşaqlara tərəf baxırdı. Tez diksinmiş geri baxdı. Çəpərin ardından Kaloğlunun bircə başı görünürdü. O da elə bilirdin tağı çəpərin üstə dırmaşmış kududur. Siri-sifəti sapsarı, deyirsən dana başıdır.

– Ayə, eşidibsənmi?

Çalvadaroğlunun ürəyi düşdü. Görəsən, indi nə xəbər verəcəklər? Bəlkə, tutulan qaçaqları bura danışdırmağa gətirirlər. Axırı ki, səsini çıxartdı.

– Nəyi?

– Ayə, Həncəri Zülləbaş Mahmudun qızını götürüb qaçıblar. ,

Çalvadaroğlu ürəyində Kaloğlunu söydü. Cəhənnəmə qaçırdıblar, gora qaçırdıblar. Sarsağoğlu sarsaq. Bir də ki, bu, təzə əhvalat deyildi. Qızı üç-dörd gün idi ki, qaçırmışdılar. Dünən Mahmud kişi qapısında dayanıb oğlan tərəfə hamının qulağı eşidə-eşidə söyüş söyür, atıb-tutacağı ilə, asıb-kəsəcəyi ilə hədələyirdi.

– A kişi, bəs deyilmi?! A kişi, utanıb-qızarmırsanmı?! Qızıyın qoşulub qaçdığı bəs deyil, hələ bir özünü də el içərisində biabır eləyirsən?! – deyə, nəhayət, dözə bilməyib arvadı onu camaatın gözü qabağında danlamışdı.

– A köpək qızı! Sənin belini sındırmaq mənə borc olsun! – deyə Mahmud kişi əlini atıb yerdən ağac götürmək istəmişdi. Onadək arvad döyüləcəyindən qorxub qaçmışdı.

Bunların hamısını Çalvadaroğlu bilirdi. İndi fikirləşdi ki, Mahmud kişinin atdanıb-düşməyi özünə qaldı. Belə ki, qızı Güləndamı bir yaxşı oğlan istəyirdi. Qız da gedirdi. Arada əməlli-başlı him-cimləri olmuşdu. Əhdi-peyman bağlamışdılar. Amma atası bu işə razı deyildi. O da ona görə razı deyildi ki, keçmişdə bu iki nəsil arasında nəsə düşmənçilik olub. Torpaq üstündə biri-birilərindən adam öldürüblər. Ona görə də qızın atası deyirdi ki, onu doğram-doğram eləyərəm, ancaq vermərəm. Qız isə deyirdi ki, gedirəm. Oğlan da sözünün üstündə möhkəm durmuşdu. «Öləjəm, – deyirdi, – amma alajam». Həqiqətən də, aldı. Çalvadaroğlu gördü ki, cavanlar dediklərini eləyirlər. Və indi yanında dayanmış öz oğlundan da ağlı bir şey kəsmədi. Bundan da ürəyi sancdı. Bunun da ona qarşı hər cür hərəkət edə biləcəyini düşünüb daha da narahat oldu. Bu yandan da Kaloğlu onu təlaşa saldı.

– Ayə, indi kimdir ata-ana sözünə baxan?! Hərə atını minib köndələn çapır. Baş açmaq olur ki, kim nə yuvanın quşudur?!

Çalvadaroğlu dillənib bir söz demədi. Kaloğlu da hiss elədi ki, bunun kefi yoxdur, çıxıb getdi. O, bir az aralananda Çalvadaroğlu dedi:

– Ay oğul, Abdulla müəllim özü gəlmişdi?

– Hə-ə.

– Sən çağırmamışdın ki?

– Yox.

– Ayə, gəldi nə dedi? – Çalvadaroğlu şübhələnirdi, vəziyyəti dürüst öyrənmək istəyirdi.

– Heç nə.

– Nejə yəni heç nə? Bə niyə gəlmişdi?

– Mənə dedi evdə dərsini oxuyursanmı?

– Sən nə dedin?

– Dedim oxuyuram.

– Elə bu?

– Hə-ə.

Çalvadaroğlu arxayınlaşan tək oldu. Və oğlundan xoşu gəldi! Fikirləşdi ki, ətimi yesə də, sümüyümü çölə tullamaz. Bax, aramızda nə olubsa hamısını içində saxlayıb, bir kəsə açmayıb, məni düşünüb. Az qaldı uşağı qucaqlayıb bağrına bassın, ancaq bu qədər haqq-hesabdan sonra birdən-birə belə eliyə bilmədi. Eləcə peşman-peşman soruşdu:

– Qulağın ağrıyırmı?

Mədət yenə atasının üzünə baxmadan cavab verdi.

– Hə-ə.

– Çoxmu ağrıyır? – deyə Çalvadaroğlu ona yaxın gəlib əlini uşağın qulağına uzatdı ki, bir yoxlasın.

Mədət başını qaçırtdı. Nəsə özü-özünə qısılaraq, sıxılaraq, boynunu bükərək, üz-gözünü turşudaraq əl vurmağa qoymadı.

– Yaxşı, əl vurmuram, qoy eləcə baxım, deyə Çalvadaroğlu aşağı əyildi. Gördü uşağın qulağı, hətta yan-yörəsi də gömgöy kəsilib. Mədət hələ də boynunu bükmüş vəziyyətdə dayanmışdı. Hər saatlıqla özünü sındırmayan Mədət:

– Başım da ağrıyır, – deyə bunu da etiraf etdi.

Nə qədər qəddar adam olsa da, balasına Çalvadaroğlunun canı yandı. Bilmədi ona necə kömək eləsin. Bunu açıb-ağartmağa da ehtiyat elədi. Deməzdilərmi ki, yekə kişi ola-ola niyə bu uşağa qoşulmusan? Nə olub ki, bu körpəni bu günə salmısan? El yığılıb cəmdəyinə tüpürməzmi? Bunları fikirləşib kişi qovruldu. İstədi desin: heç nə olmaz, yekələnəndə yadından çıxar. Ancaq sonra da ayrı cür düşündü: bəlkə, uşağın qulağına bir şey olub, hər halda, göstərmək lazımdır. Kənddə yaşlı bir arvad var idi, ara həkimi idi. Hər şeydən başı çıxırdı.

– Ayə, – dedi. – Sən demə ki, mən eləmişəm. Deynən yıxılmışam. Çünki anan mənlə dalaşar. Qonum-qonşudan da ayıbdır. Öyümüzə dava düşməsin, gəl gedək Zalxa qarının yanına. Bəlkə, o təpitmə-zad elədi.

– Yaxşı.

Çalvadaroğlu oğlunun qolundan tutub başılovlu ara həkiminin evinə qaçdı.

Qızı qaçırdan oğlanın üzə çıxıb Talıb kişinin yanına getdiyini eşidib ordan-burdan tökülüşmüşdülər. Belə şeylərlə kənd adamları çox maraqlanırlar. Qızı hara qaçırdıblar? İndi haradadır? Barışacaqlarmı? Yoxsa?.. Maraqlanıb Çalvadaroğlunun arvadı Güləsər də getmişdi. İçəri girməsə də, eşikdə arvadlarla dayanıb içəridə danışılanların hamısını eşitmişdi. Oğlanın dilinin üstə elə bil dil bitmişdi. Çox ötkəm-ötkəm danışırdı.

– Talıb dayı, siz özünüz bilirsiniz ki, mən o qızı nəyə görə qaçırmışam.

– Nəyə görə?

– Çünki o kişinin yanında qalıb əziyyət çəkirdi, azad nəfəs ala bilmirdi. Evdən eşiyə çıxmağa qoymurdu ki, məni görər.

Talıb kişi sərt-sərt onu süzüb soruşmuşdu.

– Qız hanı?

– Qız?

– Hə-ə.

– Qız burda deyil, qonşu kənddədir.

– Bə onu niyə gətirməmisən?
– Talıb dayı...
– Bəli.
– Gətirrəm. Ancaq sən özün də bilirsən ki, qızın atasının ağzı partovdur. Xahiş edirəm, tapşırın ona, qızla artıq-əskik danışmasın. Budur, deyirəm, əgər qızın xətrinə dəysə...
– Nə qayıracaqsan?
– Mən də...
– Kəs səsini, qurumsaq! Qızını qaçırtdığın bəs deyil, hələ bir iltumatum da verirsən?! O sənin qayınatandır, döysə də, söysə də, gərək dillənməyəsən.
Oğlan səsini içərisinə salıb daha danışmadı. Talıb kişi qızışmışdı.
– Hələ məlum döy qız kimi deyəcək.
– Zornan aparmamışam, Talıb dayı, öz xoşu ilə.
– Bunu gərək qız özü desin. Sənin sözün keçməz.
– Talıb dayı.
– Hə.
– Bir xahişim var. Əgər mümkünsə...
– Nə?
– Qızı ayrılıqda danışdırın. Deyir atamın üzünə çıxmaq istəmirəm.
– Həə. İşlər, deyəsən, yaxşı deyil.
– İnanmırsan? Hər nə təhər qız sözünü heç olmasa anasına desin.
Talıb kişi fikrə gedib başını qaşıdı.
– Dayan görüm, neynirəm.
Oğlan sədrin, nəhayət, yumşaldığını hiss elədi. Hiss elədi ki, Talıb kişi onun tərəfində dayanmaq, ona yan basmaq istəyir. Bundan sevinib dedi:
– Başına dönüm, Talıb dayı! Ağrın alım, Talıb dayı!
Oğlanın durub-durub belə yalvar-yaxar eləməsi, ona dil tökməsi Talıb kişini bir qədər də əsəbiləşdirdi. Qışqırdı:
– Nədir, ə? Nə istəyirsən?
– Bəlkə, qızı heç bura gətirməyək. Utanır, Talıb dayı. Elə şey deyəndə gözünün on yerindən tökür. Nə olar, Talıb dayı. – Oğlan elə ləliyirdi ki, az qalırdı dilini bir qarış çıxartsın, gözünün on yerindən töksün. Buna baxmayaraq, Talıb kişi onu acıladı:
– Bəsdir!
Bu da səsini içərisinə saldı, daha dinmədi. Talıb kişi onu yasalayıb-boralasa da, başa düşürdü ki, oğlanda təqsir yoxdur. Bilirdi ki, qızın atasının çox murdar xasiyyəti var. Ancaq Talıb kişi də işini qayda-qanunla tutmaq fikrində idi. Hər yerdə haqq söz keçməli idi. Hər yerdə ədalət bərqərar olmalı idi. O, sədr olan

gündən buna çalışırdı. Haqqı nahaqqa, nahaqqı haqqa qatıb-qatışdırsa, sonra bunları biri-birindən seçmək olmazdı. Burası vardı ki, adamlar da bunu gözləməli idilər. Qayda-qanuna riayət etməli idilər. Talıb kişi yeri düşəndə şura hökumətinin qanunlarından çox həvəslə danışırdı. Ədalətli qanunlar olmasını deyirdi. Deyirdi hələ indiyədək cümlə-cahanda belə ədalətli qanunlar olmayıb. İndinin özündə də, – deyirdi, – bizim ölkədən savayı bir məmləkətdə belə gözəl, əsl insani qanunlar yoxdur. Bizim qanunlar kimi qanun hanı? – deyirdi. – Bizim qanunlar elə eləyir ki, nahaqdan heç kəs heç kəsi incitməsin, qurd quzu ilə yola getsin. Belə söhbətləri Talıb kişi hamıya eləyirdi. Bu sözləri qızın atası Mahmud da dəfələrlə eşitmişdi. Az-çox bilirdi, baş çıxarırdı. Di gəl, bunu ona indi başa sal. Bu qulağından alıb, o qulağından çıxardacaqdı. Qulaq asmaq istəməyəcəkdi. Qanuna-divana salıb bir şey eliyə bilməsə də, çığır-bağır salacaq, ağzına gələni deyəcək, biabırçılıq olacaqdı. Talıb kişi bütün bunlar haqqında ətraflı düşündü, götür-qoy elədi, hər bir şeyi nəzərə aldı. Sonra oğlana dedi:

– Yaxşı! Sən get, arvadını evinə gətir, mən də bu zırrama qayınatanın yanına gedim. Qılıqlayım görüm yola gətirə bilərəmmi?

– Sağ ol, Talıb dayı. Ömrün uzun olsun.

– Sən də sağ ol!

– Talıb dayı.

– Hə.

– Bax, bir azdan sən özün də bizim evə sarı hərlən. Elə olsun ki, biz qapıya gələndə həyətdə çoxlu adam olsun. Mən də indi gedib toy çalanları tapım.

Oğlanın sözündən Talıb kişi dəli oldu. Bayaq bir az yumşalmışdı. İndi sərt-sərt oğlana baxıb dedi:

– Toy-moy nədir, ə?

– Bə nə qayırım, Talıb dayı?.. Anam deyir gəlini qapıya gətirəndə toy çaldırmasanız ölləm. Məlahət xanımdan da icazə almışıq. Nə qayıraq?! Xeyir-şər qardaşdır.

– Ayə, bəs bu qayınatanı yola gətirməmiş necə olar? Bu da burada çatlayıb ölməzmi?

Oğlan qaşqabaq töküb dodaqaltı mızıldandı:

– Neynim?! Anam da burda ölər axı?! Deyir ömrüm boyu bəyin-xanın xanımlarına qarabaşlıq eləmişəm. Qəlbim açılmayıb, üzüm gülməyib. İndi allaha şükür, xoş günlərə çıxmışıq. Öz əlim, öz başımdır. Niyə toy çaldırıb oynamayım?!

Talıb kişi gördü oğlanın anası düz deyir. Bilmədi neyləsin. Fikirdən kişinin başı şişdi.

– Bilmirəm, neyniyirsiniz eləyin! – deyə əlini yellədi.

Oğlan gördü sədrin saqqızını oğurlayıb, tez sevincək eşiyə çıxdı. Bildi ki, Talıb kişi lazım olan tədbiri görəcək, yəqin ki, qayınatası Mahmud kişini qılıqlayıb yola gətirəcəkdi. Bir də gətirdi, gətirmədi, oğlan istəyirdi anası deyən kimi olsun. Gəlin qapıya dəfə-daraqla gəlsin. Kirimiş gəlməsin. Ona görə qız tərəfdən onu görən olmasın deyə gizlincə özünü Çapargilə saldı. Qəflətən qapını açıb içəri girəndə evdə tək olan Çapar məəttəl qaldı, gözlərinə inanmadı.

– Ayə, bandit, hardasan? – deyə tez durub onu qucaqladı.

Oğlan Çaparın mehribanlığından, onu belə səmimiyyətlə qarşılamasından təsirlənib dedi:

– Mən səndən qorxurdum, qardaş. Bu günlər hey o barədə fikirləşirdim.

– Nə barədə?

– Deyirdim belə iş tutduğuma görə məni töhmətlənləndirəcəksən.

– Töhmətləndirməyinə töhmətləndirəcəm. Çünki komsomolçu belə işlər tutmamalıdır.

– İnan, biri-birimizin əlindən tutub getmişik. Elə despot ataya qız daha dözə bilmirdi.

– Bilirəm, ayə, bilirəm.

– Çapar, qızı hələ evimizə gətirməmişəm. Ləmbəlidədir. Bu gün gətirmək istəyirəm.

– Nə lazımdır eləyək.

– Beş-altı atlı olsaq bəsik. Hər halda yol-izdir. Bu kişi də eşitdiyimə görə yer cırır. Demək olmaz, ehtiyatlı olsam yaxşıdır.

– Düz deyirsən! – Çapar başını tərpətdi və işin təşkili barədə düşündü.

Talıb kişi isə bu ara durub Mahmud kişinin evinə getmişdi. Onu yavaş-yavaş qılıqlayıb suyuldurdu. Deyirdi ki, bir qız bir oğlanındır. İndi sənin danışmağın nahaqdır. Çox nahaqdır, Mahmud.

– Yox daa! Bir az pis oldu.

Talıb kişi əllərini açdı, burada elə bir qəbahət olmadığını bildirdi.

– Əşi! A başına dönüm, nə olub axı? Eldə var, adətdə var.

– Yox daa. Bir az... papağımızı...

– Kiri, sən allah, ətimizi tökmə! – Talıb kişi Mahmudun nə deyəcəyini bilib ona danışmağa, cümləsini tamamlamağa imkan vermədi. – Onu bil ki, hamı səni qınayır.

– Nəyimi qınayacaq?!

Talıb kişi bezib lap sərt danışdı.

– Biabırçılığını! Hamı cəmdəyinə tüpürür ki, evdə uşağını yola aparmadı. Heç olmasa eybinə kor ol!

Talıb kişi elə sərt dedi ki, Mahmud kişi dillənə bilmədi. Deyəsən, səhvini indi başa düşürdü. Səsini kəsib başını aşağı saldı. Bir azdan toyun səsini eşidəndə isə dalağı sancıb dikəldi. Talıb kişi özünü gülməkdən güclə saxlayırdı.

– Əşi, bu andır qapını da düzəltməkdən yorulmuşam, gənə elə aralı qalır, – deyə Mahmud kişi durub qapını təzədən möhkəm-möhkəm örtdü. Elə elədi ki, toyun səsi qulağına gəlməsin. Deyəsən, məsələni başa düşmüşdü.

Kəndin yuxarı başından toyun səsi dambırhadambır gələndə Çalvadaroğlu oğlunun əlindən tutub Zalxa qarının evindən təzə çıxırdı. Zalxa qarı uşağın qulağına diqqətlə baxmış, «Boy, nənən daşlara dönsün, ay bala, nə pis yıxılıbsan?!» – demişdi. Uşaq başını qaçırtsa da, Zalxa qarı onun qulağını ustufluca əlləşdirmişdi, sonra da «Ədə, heç yıxılana oxşamırsan, olma dalaşmısan?» – deyə diqqətlə nəvəsinin üzünə baxmışdı. – «Deyəsən, qulağını sındırıblar. İçəri zor düşməyibsə yaxşıdır».

Çalvadaroğlu bunları eşidirdi, amma fikri başqa yerdə idi. Oğlu ona yaman mane oldu. Yoxsa bu xatanı özündən indi çoxdan uzaq eləmişdi.

Zalxa qarı çox fikirdən, götür-qoydan sonra Mədətin üzünə-qulağına nəsə bir ot suyu çəkmiş və «sabah bir də baxarıq, Allaha təvəkkül» – deyə üzünü göyə tutub əllərini qaldırmışdı.

Çalvadaroğlu isə bir ayağı qaçaraq idi. Qorxurdu təsadüfən onun tövləsinə girən-eliyən olar, Müsəllimi görər. Bayaq müəllim kimi indi də bir ağzıgöyçəyi gələr ki, görüm dana-dunanın şəraiti necədir.

Xülasə Çalvadaroğlunun uşağına başı nə qədər qarışsa da, bu məsələ onun üçün daha əsas idi.

– Yaxşı, ay Zalxa nənəsi, sabah bir də gələrik, – deyə Çalvadaroğlu, nəhayət, qapıya sarı gəlmiş və eşiyə çıxmışdı. Bilmirdi bu gədəni indi necə azdırsın. Başından hayana eləsin. Belə getsə haradasa ilişə bilərdi. Bunu yaxşı başa düşürdü.

Elə oldu ki, toyun səsini eşidəndə Mədət özü atasından aralandı, qabağa düşdü:

– Mən toya gedirəm, – dedi.

Həqiqətən, toyun səsindən oğlanın ürəyi atdanmışdı, sümüyü şırtdayırdı. Başı-qulağı ağrısa da, toyun dımbıltısından şad olmuşdu. Oğlunun getməsi atasının ürəyindən oldu.

– Hə-ə, yeri get, toyda oyna, qulağıyın ağrısı da yadından çıxar, – deyə Çalvadaroğlu onu daha da həvəsə salmaq istədi.

Mədət çəpərin ardında gözdən itəndə bu da tələsdi. Özü də yaxşı vaxt idi. Kəndin mal-qarası artıq örüşdən qayıdırdı. Kəndin yan-yörəsindən, aralarından mal-qoyun səsi gəlirdi. Həmişə belə vaxtlar o, malın qabağına çıxardı. İndi daha o imkanı yox idi. Bir azdan da gecə qara, cücə qara olacaq. Çalvadaroğlu planlarını həyata keçirməyə tələsirdi. Belə şeyi çox ləngitməzlər, sonra xarabı çıxar. Elə vəziyyətə düşər ki, koru körpüdən keçirmək olmaz. Belə əhvalla Çalvadaroğlu evinə tələsirdi ki, Hümbət qabağına çıxdı. O da elə bil bunu

güdürdü. Hayana getsə, hayandan gəlsə qabağına çıxardı. İstər-istəməz bu əsəbiləşirdi. Elə bildi indi də «hi...hi...» eləyib dişlərini ağardacaq, yenə o sözü deyəcək: Şura hökuməti dovşanı araba ilə tutur, a Çalvadaroğlu. Amma bu dəfə demədi, yanından sivişib keçirdi ki, təzədən Çalvadaroğlu şübhəyə düşdü. Fikirləşdi ki, görəsən, nə olub? Bəlkə, təzə bir xəbər var? Bəlkə, elə bir şeydi ki, Çalvadaroğlunun bilməsi vacibdir. Ona görə Çalvadaroğlu araları olmasa da, üzünə salıb onu özü dindirdi:

– Ayə, a Hümbət, allahın salamına nə olub, niyə salam vermirsən?

Hümbət də ayaq saxladı, çiyni üstə dönüb təfərinclə ona baxdı. Ağzını açmasa da, nə demək istədiyi hiss olundu: – Sən salam veriləsi adamsan ki, salam verim. Belə ki, bunların arasında bir az köhnə bir haqq-hesab da olmuşdu. Çalvadaroğlu mal-davarını gizlədəndə bir az qohum bilib buna açılışmış, bu işdə ona kömək eləməsini xahiş eləmişdi.

– A Hümbət, – demişdi. – Elə hesab elə ki, ölmüşəm, götürənim yoxdur.

– Allah eləməsin, a Çalvadaroğlu.

– Hə, hə. Elədir, lap ondan da pisdir.

– Nə olub axı?

– Nə olacaq?! Var-dövlətim əlimdən çıxacaq.

– Nə qayırmaq istəyirsən.

– Sən gəl bir on beş-iyirmi gün mənim heyvanlarımı meşədə, bir gizlin yerdə saxla. Canım üçün tezliklə hamısını satıb-soyub rədd eliyəcəm. Amanın bir günüdür, a Hümbət, mən də adamam. Yaxşılığıyın altından çıxaram. Bir heyvan verrəm, üç-dörd pud da taxıl. İstəyirsən lap üyütdürüm verim.

Hümbət də ürəyiyumşaq adam idi. Görmüşdü bu boyda kişi qabağında durub ləliyir, ağlını oğurlatdırıb, həm də tamahlanıb razılaşmışdı. Gedib meşənin əldən-ayaqdan uzaq bir yerində onun mal-davarını saxlamışdı. Çalvadaroğlu da heyvanlarını üç bir-beş bir gəlib aparıb satmış, axırda da buna heççə bir şey verməmişdi. Bunun üstündə onlar möhkəm ağızlaşmışdılar, dalaşmışdılar. Çalvadaroğlu dumbuzu ilə bunun gözünün üstündən möhkəm vurmuşdu. Bu, daha neyləsin? Kor-peşman qayıdıb evinə gəlmişdi. Qapıdan içəri girəndə arvad-uşağının üzünə elə bil gün doğmuşdu. Arvadı Bəsti iki əlini göyə tutmuş:

– Allah, sənə şükür! Allah, sənə şükür ki, gəlib çıxdın, – demişdi.

Ayaqyalın, baldırları açıq uşaqları isə yüyürüb onun əllərini-ayaqlarını qucaqlamışdılar. Muzdur Hümbət ailəsini çoxdan görmürdü. Xeyli var idi ki, arvad-uşağının üzünə həsrət qalmışdı. Adını qoymuşdu ki, harasa başqa işə gedib. Əslində isə Çalvadaroğlunun malını saxlayırdı. İndi ailəsini görüb kövrəldi, bilmədi nə etsin. Əlində-ovcunda elə bir şey yox idi. Cibində beş-on kol alması, kol armudu var idi, çıxarıb onları vermişdi.

Xoş-beşdən sonra muzdur Hümbət soruşmuşdu:
– Çalvadaroğlu neçə pud un verdi?
Arvad duruxmuşdu.
– Nə un?
Muzdur Hümbətin ürəyi sancmışdı.
– O sizə 4 pud un verməliydi.
Arvad başını bulamışdı.
– Yoox. Un-zad verməyib.
Muzdur Hümbət «nırç» eləyib başını bulamışdı. Arvad əlini qaldırmışdı. Muzdur Hümbət əlini qaşına aparmışdı. Çalvadaroğlunun vurduğu matrax bir dəfə də alnını tutmuşdu. Gömgöy kəsilmişdi. İndi də göynəyirdi. Muzdur Hümbət olan şeyi gizlədib başqa söz demişdi:
– Bilməmişəm. Ağaca dəyib.
– Adam özünə fikir verməzmi? – deyə arvad onun başına ağıl qoymuşdu.
Axşam onlar qaranlıqda bir yorğanın altında yanaşı uzananda Hümbət matraxlanmasını xatırlamışdı. Bu bürüşüb durmuşdu. Çalvadaroğlu isə vururdu. Hümbətə təzədən yer eləmişdi. Özünü çox pis hiss eləmişdi. Suçlu adamlar kimi səsini çıxarmamışdı. Arvad astadan demişdi:
– Niyə danışmırsan?
– Nə sözüm var, nə danışım? – deyə muzdur Hümbət udqunmuşdu.
Arvad qaranlıqda əlini onun üzünə aparmışdı. Barmaqlarını qaşının üstündə gəzdirmişdi. Hümbət arvadının nəvazişindən həmişə xoşhal olardı. Onun bir xoş sözü, hərəkəti kişinin ürəyinə yağ tək yayılırdı. Nə qədər işləmiş, əziyyət çəkmiş olsa da, yorğunluğu bircə anda canından çıxardı. Bu dəfə isə Hümbət özündə deyildi, arvadının ona mehribanlıq göstərməsindən əsəbiləşmişdi. Özünü bu nəvazişə, mehribanlığa layiq bilməmişdi.
Hümbət əvvəllər də döyülüb-söyülmüşdü. Amma ona heç belə yer eləməmişdi. Düşündükcə qanı qaralmış, qəlbi sıxılmışdı. «Zərər yoxdur, bu hayıfı səndə qoymaram», – deyə ürəyində Çalvadaroğlunu asıb-kəsmişdi.
Arvad qaranlıqda onun tüklü çənəsindən tutub silkələmişdi.
– A kişi! A kişi!
– Hə! Hə! – Hümbət yönünü arvadına sarı çevirmişdi.
– Nə danışırsan?
Təzəcə gözlərinə çimir gedən Hümbət yuxulu-yuxulu demişdi:
– Heç nə.
– Bə mənim qulağım səsə düşüb?
– Nə bilim.
– Yox, yox! Dodağıyın altında nəsə bıdıldadın.

Bax, bu dərd muzdur Hümbəti öldürürdü. Axı bir dəfə kəndin qırağında, uzunqulağını örüşə ötürəndə Çalvadaroğlunun qabağını kəsmişdi. Tutqun havalı bir gün idi. Xırda-xırda yağış tökürdü. Çölün kol-kosu, çör-çöpü, otu su içində idi. Hümbətin boyun-boğazı da islanmışdı. Başının papağından da su süzülürdü. Çalvadaroğlu qabağından gələndə bu papağını çıxarıb dizinə vurmuş, suyunu silkib təzədən başına qoymuşdu. Özü də əvvəlki tək qoymamışdı, ardını bir az qaldıran tək eləmişdi. Hümbətin fikri bu idi ki, arada bir keçi bulantısı salsın, Çalvadaroğluna bir-beş çalsın, bununla da intiqamını alsın. Yoxsa Hümbət dincəlmirdi. Matraxlanıb döyülməsi tez-tez yadına düşürdü. Yadına düşəndə də hər dəfə sıxılır, qara bulud, göy şüyüd olub tutulurdu. Mütləq o hayıfı Çalvadaroğlundan çıxmalıydı. Ondan sonra heç o borcunu, xərcini də istəmirdi. Onsuz da Hümbət ömrü boyu işləmiş, Çalvadaroğlu kimilər də yemişdi. Bu da onun ağı-zəhrimarı olsun. Hümbət Çalvadaroğlu ilə dalaşacağını qətiləşdirdikcə ciddiləşirdi. Bu ara, bu anlarda özü də bilirdi ki, daha əvvəlki Hümbət deyil. Bilirdi ki, indi adamlar dəyişib, nəsə başqa cür olublar. İndi bilir, lap ağıllı-başlı dərk edirdi ki, onun özü də dəyişilib. Yaxşı olub, pis olub daha onu özü haqda deyə bilməzdi. Ancaq dəyişilməyinə dəyişilib. Dəyişdiyi üçün də Çalvadaroğlu ilə bu haqq-hesabı çürütmək istəmişdi. Amma görən olacağından qorxub çəkinmişdi. Belə bir adam indi ondan utanmaz-utanmaz hörmət-mərifət gözləyirdi. Onun bu həyasızlığı Hümbəti lap yandırıb-tökdü. Qayıdıb gözünün içinə baxa-baxa əlini ona uzadaraq:

– Dədəmin urfu haqqı, a Çalvadaroğlu, sən bütüncə dəli olubsan! – dedi.

Elə dedi ki, Çalvadaroğlu diksindi. Və ona elə gəldi ki, həqiqətən, dəli olub. Başı yerində deyil, ağlı yerində deyil. Nə isə Hümbəti dindirməyinə çox bərk peşman olan Çalvadaroğlu özünü o yerə qoymadı:

– Ə, dəli özünsən! – deyə boz-boz dayandı, sonra da onu sərt-sərt süzüb yoluna davam etdi. Yəni səninlə mənimki qalsın sonraya.

İndi əsas Müsəllim idi. «İt-qurd» görməmiş onu rədd eləməli idi. Oğlu da əkilib getdi. İndi əl-ayağına dolaşan yox idi. Çalvadaroğlu fikirləşirdi ki, onu aradan götürsə bir az qorxusu azalardı. Yoxsa o bunun qənimi idi. Gec-tez Müsəllim atasının qatilinin həqiqətdə kim olduğunu bilib bununkunu buna verəcəkdi. Bu onun tez-tez ağlına gəlir və hər cür cinayətə hazır olmaq məqamına çatırdı.

Mədət isə toyu, əslində, bəhanə eləmişdi. Çünki o yəqin bilirdi ki, tövlələrində adam var. Bu kim idi? Niyə orada gizlənmişdi? Bunu bilmirdi. Bayaq qonşu həyətdə gizlənib atasının onun ardınca getdiyini görcək qaçmışdı ki, tövləyə baxsın. Abdulla müəllim gəlmişdi. Sonra da atası... Xülasə imkan tapa bilməmişdi. Ancaq bu məsələni elə-belə də buraxmaq fikrində deyildi. O bu cinayətin üstünü açmağa cəhd etməsində həm də atasını pis işlərdən çəkindirmək

qərarında idi. İstəyirdi onun atası da Talıb kişi kimi, Abdulla müəllim kimi, dayısı Çapar kimi olsun. Onun atası da bu adamlar kimi olsun. Qoy camaat onun haqqında yaxşı sözlər desin. Mədət onda atası ilə fəxr eləyərdi. Onu daha çox istəyərdi. Onda atasının bir sözünü iki eləməzdi. Nə işə buyursa gedərdi, üzünə ağ olmazdı. Evdə də, eşikdə də həmişə hörmətini saxlayardı. Mədət atasının çox kinli adam olduğunu da bilirdi. Bilirdi ki, acığı tutanda, bir şeyə qəzəblənəndə gözü ayağının altını seçmir. Buna baxmayaraq, toya getdiyini deyib aralanandan sonra çəpərin ardında gizlincə baxıb atasının Hümbətin yanında ləngidiyini, onunla söhbət etdiyini görcək əlinə yaxşı məqam düşdüyünü fikirləşib götürüldü. Daha gözünə heç nə görünmürdü. Qulağının ağrısını da unutmuşdu. Qaça-qaça gəlib özünü tövləyə saldı. Müsəllim bu zaman neçə gündən bəri ac qalıb, sonra nəsə tapıb yemiş canavar tək axurda şöngüyüb oturaraq hələ də ağzını yalaya-yalaya Çalvadaroğlunu gözləyirdi. Bu, hövlnak içəri girəndə elə bildi ki, Çalvadaroğludur, tullanıb qabağına çıxdı. Baxanda gördü bu. Mədət də özünü itirən tək oldu. Hər halda uşaq idi. Qorxdu, istədi dalı-dalı gedib qaçsın. Yaxud qışqırsın. Amma qorxudanmı, yoxsa əksinə çox ciyərli uşaq olduğundanmı səsi elə bil düyünlənib, yumrulanıb boğazında qaldı. Ayaqlarını da sanki yerə mismarlamışdılar. Nə tərpənə bildi, nə də səsi çıxdı. Uşaq canavar görmüş körpə quzu tək quruyub qalmışdı. Hə-ə. Bu o idi. Dayısına güllə atan həmin Müsəllim idi. Qaçıb banditlərə qoşulandan bəri Mədət bunu bununla iki dəfə görmüşdü. Bir o günləri, bir də indi... Deməк, bu gün günorta tövləni təmizləyəndə də o, burada imiş. Onun gözü alacalanmayıbmış.

Bu bir parça uşağın qabağında Müsəllim də quruyub qalmışdı. Bilmirdi nə etsin, nə desin. Yoxsa o, dayısının qanını almağa gəlmişdi. Yoxsa o onunla düşmənçilik işlətmək istəyirdi. Boş əllə o nə etmək istəyirdi? Bəs fikirləşmirdimi ki, bu boyda əjdaha kimi oğlan onu cücə kimi boğub tullayar. Ancaq Mədət elə kəskin baxırdı ki, deyirdin gözlərindən cin çıxacaq. Müsəllim hətta ehtiyatlanıb özünü yığışdırdı. Onda gördü bu balaca oğlan, həqiqətən, balaca şir balası tək onun üstünə atıldı. Hirsindən düyünlənib dəmirə dönmüş balaca yumruqları ilə onun döşünə-başına vuraraq:

– Çıx get! Çıx get bizim damdan! – deyə hirsindən ağlayaraq bağırdı.

Müsəllim uşağın hərəkətindən də, sözündən də başa düşdü ki, oğlanın onunla başqa qəsd-qərəzliyi yoxdur. Bir az özünə gəlib qılıqla:

– Qaqaş! Qaqaş! Bir dayan görüm, – dedi və uşağın ağzını tutdu ki, bağırmasın.

Mədət isə hirsindən çatlamağa gəlirdi. Ona bu ara necə yenilməz qüvvə gəlmişdisə çapalayıb ağzını onun ovuclarından çıxartdı və boğula-boğula yenə çığırdı.

– Çıx get! Çıx get! Çıx get! Sənə görə bizə söz gələr. Sənə görə atamı tutarlar. Çıx get!

Mədət səsini kəssin deyə Müsəllim məcbur olub:

– Yaxşı! Yaxşı! Gedirəm! – dedi. – Sən bağırma.

Mədət isə səsini kəsmədi.

– Tez ol, çıx get! Sən mənim dayıma güllə atmısan. Bəs demirdinmi dayım birdən ölər?!

– Nə?! – Müsəllim duruxdu. Sinəsindən elə bil bir nida qopdu. – Dayın salamatdır?!

– Hə-ə. – Mədət hirsindən sözlərini ağlaya-ağlaya deyirdi və ona acıq verdiyi hiss olunurdu. – Bax, qaçaqların hamısını tutublar. Qandalıbəyi də öldürüblər. Anan da sənə görə dəli olub, hər gün gedib meşədə səni gəzir. Ay Müsəllim! Tez ol, çıx get! Sənə görə bizə söz gələr, atamı tutarlar. Çıx get!

Bu qaranlıq tövlənin harasındasa elə bil od əmələ gəldi, işıq yandı, işıltı oldu və anasından ötrü Müsəllimin ürəyinin başı göynədi, səsi qulağına gəldi: «A Müsəllim! A Müsəllim!»

Mədət yenə hirslə çığırdı:

– Çıx get deyirəm sənə!

– Gedirəm. Gedirəm, – deyə Müsəllim onu sakitləşdirməyə çalışdı. – İtiniz bağlıdırmı? Məni görərlər axı? Heç olmasa bir dəfə anamı görüm.

– Evin dalından get. İtdən mən ötürrəm, – deyə Mədət qabağına düşdü. Müsəllim də həyəcanlı halda onun ardınca çıxdı.

Mədət Müsəllimi evlərinə ötürüb sevincək toya qaçdı. Uşağın üstündən elə bil yekə dağ götürülmüşdü.

Bunlar getmişdi ki, qabağında heyvanları Çalvadaroğlu gəldi. Yolda onu bir az sığırçı ləngitmişdi. Heyvanlarından biri axsayırdı.

– A kişi, gəl bir bu heyvanın başından tut, görək niyə axsayır, – deyə onu saxlamışdı. Sən demə, dırnağının arasına diş giribmiş. Çıxardıb tulladılar. Qərəz ki, gəlib heyvanla bərabər özünü tövləyə saldı. Eşikdə də əmin-amanlıq idi. Arvad hələ gəlməmişdi. Çalvadaroğlu özünü o küncə saldı.

– A Müsəllim!

Özünü bu küncə saldı.

– A Müsəllim!

Müsəllim nə gəzirdi. Yenə ora baxdı, bura baxdı. Axurları bircə-bircə əlilə yoxladı, küncə-bucağa, dirəklərin ardına göz gəzdirdi. Daha baxmadığı yer qalmadı. Müsəllim yox idi. Kişi dəli olmadımı?! Qəzəbini boğa bilməyib birdən:

– A Müsəllim! – deyə heyvan tək necə böyürdüsə eşikdə it zəncirdə dartınıb ulum-ulum uladı.

Bir neçə gün sonra səhər tezdən rayon mərkəzindən adamlar gəlib Çalvadaroğlu ilə Müsəllimi danışdırmağa aparanda uşaqlar əlində çanta məktəbə ge-

dirdilər. Məktəbin zəngi də danqhadanq çalınırdı. Bütün kəndə yayılıb uşaqlara «dərsə az qalıb, vaxt keçir, tələsin!» xəbərini verirdi. Uşaqlar da tələsirdilər. Çalvadaroğlunun balaları da onların arasında idi. Arabir dönüb atalarına baxa-baxa gedir və qaşlarını çatıb elə bil bütün bu işlərdə kimin haqlı olduğu barədə düşünürdülər. Özgə vaxtlar onlara qəti fikir verməyən Çalvadaroğlu indi doyunca onlara baxmaq istəyir və ürəyində Mədətinə:

– A köpəkoğlu, qoymadın özümüz bildiyimiz kimi yaşayaq, – deyirdi. Sonra da nə fikirləşdi, nə fikirləşmədisə əlilə uşaqları yanına çağırdı. Özü də qayıdıb onlara tərəf getdi. Yolda üzlərindən öpüb həyatında ilk dəfə olaraq məktəb barəsində tapşırdı:

– Oxumağınıza fikir verin, – dedi. – Elə olmasın ki, yalandan gedib-gələsiniz.

Uşaqlar da başlarının hərəkətilə «yaxşı» dedilər. Sonra da Mədət Səmədə, Səməd də Mədətə qoşulub dərsə qaçdılar. Biri-birilə qanlıbıçaq olub yola getməsələr də, gec olsa da, ərinin ağlının başına gəldiyini görən Güləsər də pis oldu, şalının ucunu gözlərinə apardı. Nə qədər əziyyətini görüb, cəfasını çəkmiş olsa da, hər halda, uşaqlarının atası idi. Baş yoldaşı idi.

Məktəbin zəngi hələ də çalınır, uşaqlar da pərvanə kimi onun işığına qaçışırdılar.

Bunları xatırlayanda telefon zəng çaldı. Çapar kişi tez dəstəyi götürüb qulağına tutdu. Ona:

– Bağışlayın, – dedilər, – bayaq xətt xarab oldu, indi danışın Bakı ilə.

Bayaq deyəndə ki, bir saat bundan qabaq olan iş idi. Hər halda, Çapar kişi ona çımxıran qızdan incimişdi. Amma daha o barədə söhbət eləməyin yeri deyildi. Onadək oğlunun səsi gəldi. Bilmiş tək:

– Ay ata, nə təhərsən? Necəsən? Yaxşı ol. Biz tərəfdən nigaran qalma. Özünə bax. Biz sənə görə narahat oluruq – dedi.

Bu sağ olmuş da başlayanda qurtarmaq bilmir. Bir imkan vermir ki, bu da bir söz deyə. Arada daha onu gözləmədi.

– Ayə, anan necədir, anan? – Çapar kişinin arvadı Çimnaz bir az xəstətəhər idi. Özünü həkimə göstərməyə getmişdi.

– Anam lap yaxşıdır.

– Bə nə vaxt gətirirsən?

– Bilirəm onsuz darıxırsan. Bir ikicə-üççə gün döz. Uzaqbaşı bu bazar yanındadır. Özüm gətirib gələcəm.

– Bəs mənim Məlliş balam? – Bu onların kiçik nəvələri idi. Çimnaz bacısının adını nəvəsinə qoymuşdu. Məlahət idi, Məlliş deyirdilər.

– O da yaxşıdır. Hamısının sənə salamları var.

– Salam göndərənlər sağ olsun.

– Ata.

– Hə.

– Bibioğlu haqqında eşitdin?

– Eşitdim, ay oğul, eşitdim. Qəzetdə var idi.

– Görürsən faşistlərə necə qan uddurub?! Qəbrini də tapıblar. Polşada qardaşlıq məzarındadır.

– Mədət bilirsən necə oğul olmuşdu?! Onun tək ciyərli oğlan harada idi?! İndi Müsəllim kişi yolun üstə onun adına bir yaxşı bulaq düzəltdirib.

– Ata! – Bu dəfə Çapar kişinin oğlunun səsi lap ayrı cür çıxdı. Çox şad, çox sevincək. – Xahişiniz də yerinə yetirildi, ata. Məktəbinizə Abdulla müəllimin adı verildi. Talıb kişinin oğlu maarif müdiriniz də burada idi. Qərarı dünən gedib birlikdə aldıq.

Qoca kişi idi. Sevindiyindən kövrəlib telefonda ağlaya-ağlaya qalmışdı. Bu da «Ata! Ata!» – deyə onu çağırırdı...



# TƏRS KÜLƏK

I

Yaşamağa evim yox idi. Kirayə qalmağa bir yer axtarırdım. Qarşıma məqsəd qoymuşdum ki, bu gün necə olursa-olsun gərək tapam. Hər gün axtarmaqdan bezmişdim. Küləksə amanımı qırmışdı. Elə bil qəsdən əsib-coşur, tüğyan edirdi ki, küçədə qalım. Addımımı atmağa imkan vermirdi. Gah qabaq tərəfdən əsir, gah arxadan itələyir, gah da sağa-sola aparırdı. Sərxoş adamlar kimi valaylandırırdı. Mən də inadımdan dönmürdüm. Küçə-küçə, soraqlaşa-soraqlaşa, divarlara vurulmuş elanlara baxa-baxa kirayə ev gəzirdim. Bilmirəm bəxtdən idi, yoxsa nədən, bir şey axtaranda bütün şəhər elə bil quruyurdu. İndi balaca bir otaq elə bil göyə çəkilmişdi. Kimdən soruşurdum «yoxdur» – deyirdi. Amma nədənsə geri dönmək istəmirdim. Ümidlə, xüsusi bir inadkarlıqla həyətlərə girib xəbər alırdım:

– Bağışlayın.

– Buyurun.

– Bəlkə, sizin binada kirayə mənzil verən oldu?

– Bilmirəm, vallah. Məncə, yoxdur.

– Bağışlayın...

Həyətlərin birində qarşıma bir qız çıxdı. Ucaboy, qarabuğdayı qız idi. Mənə heç fikir də vermirdi. Külək onu da birtəhər eləmişdi. Saçlarını dağıdıb pırpızlaşdırmış, boyun-boğazına, üz-gözünə dağıtmışdı. Qıznan elə bil qəsdi-qərəzliyi vardı. O, əlini gah donunun ətəyinə, gah saçlarına aparır, gah da dayanıb küləyin qabağında fırfıra təki fırlanırdı. Hər vasitə ilə çalışırdı ki, külək ona bir şey eliyə bilməsin. Hərəkətlərindən hiss olunurdu ki, çox cəld, çevik qızdır.

Bu dar macalda bir qədər üzlülük etdim, kirayə ev axtardığımı ona dedim. Qız arxaya çevrildi. Darvaza ilə üzbəüz olan bloku göstərdi:

– Bax, o blokda dördüncü mərtəbəyə çıxın. Soldakı mənzilə gedin, – dedi. – Xanım adında bir qoca arvaddır. O sizə kömək edər. – Elə sevindim ki, elə bil axtardığımı tapmışdım. Hələ keçib içəridə də arxayınca oturdum. Amma boş söhbət idi. Hələ arvadın məni evinə buraxıb-buraxmayacağı məlum deyildi. Buna baxmayaraq, qız elə inamla danışdı ki, bilmədim ona necə təşəkkür edəm. Minnətdarlığımı necə bildirəm. Lap ev məsələm düzəlməsə də, qızın belə mədəni cavabından o qədər xoşhal olmuşdum ki, ondan ayrılmaq istəmirdim. Amma burası vardı ki, onu yolundan etmək də olmazdı.

– Çox sağ olun! – Nəhayət, ona təşəkkür etdim.
– Dəyməz!
– Bağışlayın! – Təzədən qızın ardınca səsləndim.
Qız gülümsünmüş geri döndü. O, küçəyə çıxış yolunun lap ağzında idi. Külək buranı tamam sovururdu. Az qalırdı qızı da götürüb darvazanın altından küçəyə tullasın. Qız mənə sarı əyilmiş vəziyyətdə zornan dayanmışdı. Külək qızın ipək paltarını ətinə necə yapışdırmışdısa, onun mütənasib bədəninin gözəlliyi aydınca bilinirdi. Qız onu nə üçün saxladığımı bilmək istədi.
– Buyurun, ay oğlan. Nəsə soruşmaq istədiniz?
– Demək siz o ev yiyəsini şəxsən tanıyırsınız?
– Bəli, yaxınca qonşumuzdur. Bax, bu mənzil bizimdir, o mənzil onun.
– Onda bir yaxşılıq eləsəniz, qəşəng qız?
– Nə yaxşılıq?
– Mənim barəmdə o arvadla, bəlkə, siz danışasınız. Deyin ki, məni tanıyırsınız. Bəlkə, onda razılaşdı.
– Mən axı sizi tanımıram! – qızın dodaqları qaçdı.
Mən də fikirləşdim ki, düz deyir. Amma özümü o yerə qoymadım, söhbətimizin axırını zarafata saldım:
– Qəşəng qız, işin xətri üçün bəzən yalan da... Bir də mən qaçmıram ha, tanıyarsınız...
Qız da bunu ciddi demədiyini bildirdi.
– Vallah, mənim getməyimə qəti ehtiyac yoxdur. Siz özünüz gedin. Başqasını götürməyibsə, onda mütləq qəbul edəcək. Tək arvaddır, istəyir həmişə yanında bir adam olsun. Başqa şeyə görə eləmir. Darıxmasın deyə kirayənişin saxlayır.
– Yaxşı, onda sağ olun, mən özüm tək gedərəm.
Fikirləşdim ki, nə olar o arvad məni evinə buraxa. Bu qıznan da qonşu olam. Onu həmişə görəm. Bu qızla söhbət etməyə imkan yarana. Özüm-özümə də məəttəl qaldım ki, birdən-birə mənə nə oldu? Nə oldu ki, bu qıza belə diqqət yetirdim? Ondan xoşum gəldi. Görünür, babam-nənəm demişkən, artıq vaxt idi. Hələ onların fikrincə, gecikmişdim. Hər dəfə rayona gedəndə nənəm, babam üstümə düşürdülər ki, a bala, evlən. A bala, onu bil ki, tez yeyənnən, tez evlənən uduzmaz. Bizim də arzu-kamımız var. Elə olsun ki, ürəyimizdə qalmasın. Axı biz də bu gün varıq, sabah yoxuq...
Babam, nənəm, həqiqətən, qocalmışdılar. Bunu mən başa düşürdüm. Onu da başa düşürdüm ki, onlar necə ki, sağdılar, bütün işlərini görüb qurtarmaq istəyirlər. Məni də onlar saxlamışdılar. Nəvələri kimi yox, lap öz uşaqları kimi sayırdılar. İstəyirdilər əlimi başıma yığsınlar. Babam bir neçə xırda heyvan saxlayırdı. Həmişə deyirdi ki, sənin toyunda kəsəcəm. Ancaq burası vardı ki, onlar beləcə deyir, deyir, mən isə tərpənmirdim. Axırı nənəm bir dəfə məni möhkəmcə tənqid elədi:

– Ədə, ayağından daş ha asmayıblar, kəndimiz qəşəng-qəşəng qızlarla doludur. Birini çırpışdırıb götürsənə?!

Qocalar bu işə bir qədər asan baxırdılar. Gözün tutdu, qurtardı getdi, götür apar. Ola bilsin, onların vaxtında belə olub. Heç bir çətinlik çəkməyiblər. Fikirləşirdim ki, indi elə deyil. Təkcə qızı gətirməklə iş bitmir. Əvvəla bu işin özü də xeyli çətinləşib. Yəni hər qızı elə-belə gətirə bilməzsən. Nə qədər xərc-xəracat tələb olunur. Tutaq ki, bunu ölüm-zülüm birtəhər elədin, bəs gələndən sonra? Elələri var ki, həmişə nazıynan oynayasan gərək. Gündə bir şey tələb eləyir. Fikirləşirdim ki, bacararammı? Axı mənim heç nəyim yox idi. Tələbə idim... Qurtarandan sonra yenə hə. Bu barədə düşünmək olardı. Onda qızı yanıma da apara bilərdim. Mən deyən ağıllı qız olsa, dolanardıq. Qabaqlar mənim evlənməyim, ailə qurmağım barəsində nənəm, babam söhbət salanda bu cür düşünər, məsələyə belə yanaşardım. Bəlkə, ona görə belə düşünürdüm ki, istədiyim elə bir qız yox idi. Olsa, bəlkə də, vara-yoxa baxmazdım. Nənəmi, babamı özüm məcbur edərdim. İki ayağımı bir başmağa dirəyərdim ki, bilmirəm, toy edin, bu qızı mənə alın. İndi, əlbəttə, belə şeylər barəsində düşünmürdüm. Sadəcə olaraq, qız xoşuma gəlmişdi. Bu mənim özümdən də asılı deyildi. Hər gün küçədə qabağıma neçə-neçə qız çıxırdı. Nədənsə, bu heç o birilərə oxşamırdı. O, harasa çıxıb getdisə də, xəyalı gözümün qabağındaca qaldı. Məndə, nədənsə, bir ruh düşkünlüyü yarandı. Evsizlik bir yandan, havanın pisliyi o biri yandan, bu qızdan da ayrılmağım bir yandan...

Nəsə, ümidlə qızın dediyi mənzili gəlib tapdım. Barmağımı zəngin düyməsinin üstə qoydum. Bir-iki dəfə basdımsa da, səs-səmir gəlmədi. Sonra başa düşdüm ki, işləmir. Məcbur olub barmaqlarımın arxası ilə qapını döydüm. Düzü həyəcan keçirirdim. Burda da düzəlməsə, indi gəl başqa ünvan axtar. Abrım daha töküldü. Dəhlizdən astaca ayaq tappıltısı gəldi, sonra qapını yaşlı bir qadın açdı. Hiss elədim ki, qız deyən arvaddır. Düz gəlmişdim. İşim də düzəlsə, lap əla olacaq. Ev sahibi bu qoca qadının üzünə baxanda mənə elə gəldi ki, onun solğun çöhrəsinə, qırış bürümüş iri geniş alnına hardansa işıq düşüb, arvadın sifətini aydınladıb. İlk dəfə gördüyüm bu qoca qadının səmimi sifətindən özümə qarşı bir yaxınlıq duydum, xoş əhvalla başımı tərpətdim.

– Salam, xalacan!

– Salam oğul! – deyə qapının ağzından kənara dayandı, kimliyimi, nə məqsədlə gəldiyimi soruşmadan, evinə dəvət elədi.

– Buyur içəri, oğlum.

– Sağ olun, işim bir az tələsikdir!

Mən nəsə içəri keçmək istəmədim. Fikir etdim ki, bəlkə, arvadın kirayənişini var. Əgər elədirsə, vaxt itirməyin nə mənası. Ondansa gedib başqa yerlərə dəysəm yaxşıdır. Amma bu bir-iki kəlmə söz olan salam-kalamı bir-birimizə elə bir

incəliklə, istiqanlılıqla demişdik ki, deyirdin çoxdanın tanışlarıyıq. Bu, mənim üçün xoş olsa da və bu arvadın evində qalacağıma ümidim artsa da, yenə sözü uzatmayıb əsas mətləbə keçdim:

– Kirayə ev gəzirəm, xala. Mümkün olsa da sağ olun, olmasa da.

Sözümdən qadının xoşu gəldi deyəsən. Hər halda, o da mənə fikir verməmiş deyildi. Onun mənzilində yaşamaq istəyən necə adamdır, hansı yuvanın quşudur? Hər adamı evə buraxmazlar ki! Öz-özlüyündə nə qərara gəldisə, gülümsünmüş dedi:

– Mən də deyirəm ki, bəs bu cavan oğlan belə tələsik nə üçün gəlib.

– Tələbəyəm, evim yoxdur. Kirayədə yaşamağa məcburam.

Qadın buna görə fikir çəkməməyə işarə etdi:

– Ev nə şeydir? Bax, elə biz hamımız kirayədə yaşamırıqmı? Dünya özü də böyük evdir. Biz də onun kirayənişinləri. Yaxşı, içəri gəl, görüm...

Bir ayağımı qaçaraq qoymuşdum ki... Amma gördüm yox, məni evinə buraxmağa Xanım xalanın fikri var, deyəsən, bir daha küçə-küçə düşüb ev axtarmaq əzabından qurtaracağam. Hələ bu məsələ tamam həll olunmasa da, ilk tanışlığın xoş təəssüratı ev sarıdan nigarançılığıma son qoydu. Gümrah bir əhvalla ayağımı içəri qoydum.

İçəri qapı ilə üzbəüz divardan bir əsgər oğlanın çərçivəyə salınmış böyük şəkli asılmışdı. Formasından lap zabitə oxşayırdı. Başında ulduzlu furaşkası, belində çiyni aşırmalı, enli kəməri vardı. Duruşu, baxışı çox istiqanlı, yapışıqlı idi. Qapıdan içəri girəndə otaqda birinci gözümə dəyən o oldu. Onu da bildim ki, təzə şəkil deyil, köhnədən qalmadır. Təxminən müharibə illərinin şəklidir. Çəkildiyi tarixdən çox illər keçdiyindən şəkil bir qədər xarab olmuş, kağızı da, çərçivəsi də solğunlaşmışdı. Oğlan özü isə elə diribaş, cəld, çevik bir görkəmdə idi ki, deyirdin canlıdır. Mənə elə gəldi ki, şəkil bu dəqiqə tərpənəcək, oğlan hoppanıb çərçivədən bəri düşəcək, mənimlə «xoşgəldin» edəcəkdir. Həm də onu ev sahibinə oxşatdım. Bu şəkildəki gənc dəqiq onun nəyi idi, deyə bilməzdim. Amma bir şey aydın idi: ev sahibinə yaxın adamdır. Çünki bu cavanla ev sahibi qoca olsa da, aralarında ümumi bir bənzəyiş vardı. Suyu çəkirdi.

Özümdən asılı olmayaraq, ilk nəzərdən şəklə diqqət yetirdiyimi, bəlkə, ev sahibi də hiss etdi. Amma o barədə bir söz demədi, başqa şey soruşdu:

– Bəs sənə kim dedi ki, mən evimə adam buraxıram?..

Heç bilmədim o qızı deyim, deməyim. Deyərəm birdən işləri korlayaram. Demək olmaz, arvadın acığı tutar. Bəlkə, araları yoxdur. Hər adam axı yaxşı qonşuluq eləyə bilmir. Bir də görürsən, xırda bir şeyin üstündə incişdilər, küsüşdülər. Bəlkə, onların da münasibətləri belədir. Bir-birlərinin kölgələrini qılınclayırlar. Belə olsa və mən də desəm ki, sizin ünvanı mənə qonşunuzun qızı verib, bələdçiliyi o eləyib, ondan sonra mənlə heç danışmaq istəməz. Bəs nə

deyim? Kimin adını çəkim? Elə-belə özüm gəlib tapmışam desəm də inanmaz. Bir söz deməsəm, ürəyi tıqqıltılı qalar ki, görəsən, onun ünvanını mən hardan öyrənmişəm. Ona görə mehribanlıqla:

– Vallah, – dedim. – Ev gəzə-gəzə gəlirdim, sizin həyətdə soruşdum. Dedilər ki, çıx ordan soruş. Mən də tez gəldim.

Öz ağlımca belə fikirləşdim ki, yaxşı eləyib ad çəkmədim. Guya, qızı nişan versəydim, pis olardı. Amma ürəyimdə tam əmin idim ki, heç nə olmazdı. Hələlik nə qızı, nə də evinə gəldiyim bu arvadı tanımasam da, indi qəti bu fikirdə idim ki, hər ikisi yaxşı adamdır və elə xasiyyəti olan qızdan həyatda heç kəs inciməz. Nə isə, hələlik onu gizli saxladım. Sözümdən-söhbətimdən bu arvada da aydın idi ki, onların bu binasında mən heç kəsi tanımıram. Tanışım olsa idi, əlbəttə, tək gəlməzdim. Bu fikirlərdən birdən-birə elə darıxdım ki, az qaldı deyəm: «Ay xala, sən Allah, ürəyimi çəkmə, tez ol, bir söz de! Düzələsidir qalım, düzəlməyəsidirsə, sən sağ, mən də salamat, çıxıb gedim».

Ürəyimdən keçənləri ev sahibi elə bil hiss elədi.

– Bax, oğul, əgər bu ev xoşuna gəlirsə, mən razı, – qoca qadın heç bir çək-çevir, oyan-buyan eləmədən qapısını açıb otağını, mətbəxini, şəraitini göstərdi.

Mən lap göydə razı idim. Tək adam idi. Əlinə-ayağına dolaşanı da yoxdu. Özü də yaxşı adama oxşayırdı. Nəyimiz artıq düşmüşdü?! Yola gedərdik. Amma arvad mənə elə baxırdı ki, elə bilirdi ki, mən bəyənmirəm. O da elə bil mənə deyirdi: «Varını verən utanmaz, olanım budur». Guya, bu cür ev mənə layiq deyil, xüsusi şəraiti olan mənzil kirayələməliyəm. Daha demirdi ki, mənim üçün bu elə ən əla mənzildir. Çiçəyim çırtladı, sevincimdən bilmədim nə edəm. Dediyim kimi həyət-həyət düşüb ev axtarmaqdan bezmişdim. Mənim də xasiyyətim belə idi ki, artistlik bacarmırdım. Hər bir şeyi necə qəbul edirdimsə, o cür də büruzə verirdim. Ona görə də:

– Xoşuma gəlir, razıyam, qalıram! – Bilmədim ev sahibinə necə təşəkkür edəm.

O axşam Xanım ana səliqəli bir süfrə açdı.

– Yaxın otur, çay içək, – dedi.

Mən artıq gedib şeylərimi gətirib evdə yerbəyer eləmişdim. Qara meşin üzlü köhnə divanın küncündə oturub «Bakı» axşam qəzetinə baxırdım. Çamadanımı dayımgildən götürməyə tələssəm də, dayanıb qəzet almışdım. Kənddən gəlmiş gənc bir neftçi haqqında maraqlı yazı vardı, onu oxuyurdum. Yerim rahat olduğu üçün bayırın haqq-hesabını, eşikdə cövlan edən dəliqanlı küləyi də unutmuşdum. Həqiqətən, toxun acdan xəbəri olmurmuş. Eşikdə lap aləm dağılsın, kimə nə olur-olsun, mən divanın mütəkkəsinə dirsəklənib qəzetimi oxuyurdum. Onu oxuya-oxuya Bakıya birinci dəfə gəldiyimi xatırlayırdım. Özümü lap o vaxt vaqonda olduğum kimi hiss edirdim. Qatar taqqataq gəlirdi. Mənə belə təsir

edirdi ki, dünyada bundan sürətlə gedən qatar yoxdur. Mən də vaqonda sanki qanadlanıb uçurdum. Şəhərə gəlmək çoxdankı arzum idi.

Şəhərdə dayımgil yaşayırdı. Onların olduğu binanın pilləkənlərini birinci dəfə qalxanda həyəcandan ürəyim döyünmüşdü. Çamadanım ağır idi. Babam bir yekə erkək kəsib çamadana zorla yerləşdirmişdi, qolumu üzüb yanıma salırdı.

Dördüncü mərtəbəyə çatıb çamadanı yerə qoymuşdum. Nəfəsimi dərə-dərə qapıya nəzər salmışdım. Dayımın adını lövhəcikdə görəndə qeyri-iradi olaraq dodaqlarım qaçmışdı. Qürrələnmişdim. Dayım mənə əvvəlkindən də əzəmətli görünmüşdü. Məşhur bir şəxsiyyət təsiri bağışlamışdı. Sevincdən ürəyim sinəmə sığmırdı.

O axşam sovqatımdan ləziz xörəklər bişirilib dayımgildə böyük süfrə açılanda, qonaqlar ləzzətlə yeyib-içəndə də, sağlığıma badə qaldırılanda da xoşbəxt idim. Bir uzunboğaz, eynəkli kişi ayağa durub: – Sənin sağlığına, cavan oğlan! – deyəndə özümü itirib başımı aşağı salmışdım.

Təşkil etdiyi məclisin xoş, təmtəraqlı keçməsindən kefi durulmuş dayım böyük stolun o başından səslənmişdi:

– Götür, bacıoğlu!

İstəmişdim deyəm ki, içən deyiləm. Qorxmuşdum ki, yalan dediyimi bilərlər. Bax, onuncu sinfi bitirib kamal attestatı alanda məclis düzəltmişdik. Orada birinci olaraq stəkan-stəkana vurmuşdum. Sonradan babam biləndə ki, içmişəm, dişinin dibindən çıxanı mənə demişdi. İki-üç gün xəcalətimdən babamın üzünə baxa bilməmişdim. And içmişdim ki, bir də dilimə içki vurmayacam. İndi dayımgildə içməyə həm də ona görə tərəddüd edirdim ki, məclisdəki adamlar, dayım, dayıdostum mənim haqqımda pis fikirdə olarlar. Deyərlər ki, dünənin uşağı ola-ola gör necə yekəxanalıq edir. Eynəkli kişi isə belə şeyləri düşünən adam deyildi. Çənədən də saz idi. Mənim barəmdə bir xeyli danışıb, nəhayət, yekunlaşdırmışdı:

– Cavan oğlan, sənə həyatda müvəffəqiyyətlər arzulayırıq. Gəncsən, gələcəyin qabaqdadır, oxuyacaqsan, işləyəcəksən...

Xoş kəlamlar ürəyimə yağ təki yayılmışdı. Şəhərə, dayımın yanına, həqiqətən, elə-belə gəlməmişdim, oxumağa, ali təhsil almağa gəlmişdim. Əgər gündüz qəbul oluna bilməsəm, axşam oxusam, onda mütləq işləməli idim. Belə mənim üçün daha sərfəli idi. Gündüz işləyib axşamlar oxusam, heç kəsin minnətli çörəyini yeməyəcəkdim. İşdən qorxan deyildim. Özü də elə işə durmaq istəyirdim ki, hər adam bacarmasın, əlindən gəlməsin. Mənim işimə hamı heyran qalsın, təəccüb etsin. Adım-sanım çıxsın, səsim-sorağım gedib kəndə çatsın. Haqqımda nənəm-babam, qohum-əqrəbam eşitsin. Uşaqlıqda da bir yerdə duran bəla deyildim. Nənəm demişkən «it əl-ayağı yemiş təki» axşamadək çöldə-yamacda, dağda-daşda gəzirdim. Bağlardan mer-meyvə tingləri gətirib həyətimizdə əkərdik.

Tikan qırıb həyətimizi çəpərləyirdim. Evin odun-ocağı, mal-qoyunu da mənim öhdəmdə olardı. Özümün də yüz cür oyunum vardı. Ağaca çıxmağı, budaqlardan tutub sallanmağı çox sevirdim. Nə qədər şümal gövdəli uca ağac olsaydı, badaqlaya-badaqlaya çıxardım. Payızda qoz ağaclarını meymun təki budaq-budaq gəzərdim. «Tarzan» filmi yeni çıxıb kənddə-kəsəkdə, klublarda göstəriləndə mənim on iki-on üç yaşım olardı. Müəyyən hərəkətlərimlə Tarzanı yamsılayırdım. Qışqırıb ağacların arası ilə qaçar, dağa-daşa dırmaşardım. Uşaqlar ardımca yüyürüşərdilər. Ancaq bu cür xoşuma gəlmirdi. Həqiqi Tarzan olmaq üçün fillər lazım idi. Əlbəttə, bu, çətin iş idi. Bizim meşədə fil nə gəzirdi. Bəs necə olsun? Çox fikirləşib birdən ağlıma nə gəldisə, əlimi-əlimə vurub Tarzan təki qışqırdım. Həmin günün səhəri uşaqlarla kəndin həndəvərindən eşşəkləri yığıb meşəyə gətirdim. Yaxşı qaçanının birini minib sürdüm. Bir xeyli getmiş çiynim üstə qanrılıb geri baxdım. Bir dənə də olsun eşşək ardımca gəlmirdi. Məcbur olub geri qayıtdım. Bu dəfə eşşəkləri qabağıma salıb qovdum. Ancaq bu oyunum da çox çəkmədi. Uzunqulaqlar anqırışıb hərəsi bir yana qaçdı. Öz eşşəyimiz isə həmin gecə meşədə itdi. Səhər leşini tapdıq. Yazıq heyvanı canavar yemişdi. «Qazandıq, a bala. İndi it təki nə qədər istəyirsən ula! – deyə çıxardığım oyunlardan xəbər tutmuş babam acıqlandı. Qulağımdan bir-iki dəfə çəkdi. Bununla da «Tarzan» oyunu çıxarmaqdan əl çəkdim.

Eh! O qədər sərgüzəştlərim var idi ki, danışmaqla qurtarmaz. Ümumiyyətlə, kənddə olanda bir az nadincliyim olub. Evimiz böyük yola yaxın idi. Çox zaman yol kənarında olardım, maşınların arxasınca qaçardım. Bir dəfə maşın gedə-gedə qaçıb kuzovundan sallanmışdım. Düşəndə üzü üstə gəldim. Burnum-başım qanadı. Dizlərim yaralandı. Alnım, çənəm sıyrıldı. Babam-nənəm yenə də məni möhkəm danladılar.

Ümumiyyətlə, hər şeylə maraqlanırdım. Bəzən şofer olmaq istəyirdim. Nə bilim, traktorçu olub yer şumlamaq da ürəyimdən keçirdi. Kefimə yaramayanda da şəhərə gedib dayım kimi böyük olmaq istəyirdim...

– Niyə qız təki başını aşağı dikmisən? Camaatın üzünə baxsana! – dayım bu ara mənə acıqlanmışdı. Tez özümü yığışdırıb düz dayanmışdım. Ancaq xoşuma gəlmişdi ki, məni içməyə məcbur eləmədilər.

Xülasə, şəhərə həvəslə gəlməyimə, dayım evində belə təntənə ilə qarşılanmağıma baxmayaraq, o ili instituta qəbul oluna bilməmişdim. İkinci imtahandan kəsilmişdim. Acıq edib axşam şöbəsinə də işlərimi verməmişdim, kor-peşman kəndə qayıtmışdım.

– Eybi yoxdur, hazırlaşıb gələn il imtahanlardan yaxşı çıxarsan! – deyə babam məni ruhdan düşməyə qoymamışdı.

Elə pərt idim ki, əlimi yelləmişdim:

– İstəmirəm!

Fikir etməyim deyə babam şən-şən gülümsünüb demişdi:

– Dəli bala! Bəs nə istəyirsən?

– Əsgər gedəcəm, baba.

– Ay mənim əsgər balam! – deyə cavabımdan xoşlanmış babam qəddini düzəldib məni qürurlu nəzərlərlə süzmüşdü. – O da borcdur, oğlum. Gərək Vətən qarşısında bu borcunu da ödəyəsən.

Babamın sözü məni bir az da həvəsləndirmişdi. O biri ili əsgər getdim. Birinci aylar darıxırdım. Sonra elə öyrəşdim ki, iki ilin necə gəlib keçdiyini bilmədim. Əsgərlikdən payızda, noyabrın axırlarında qayıtmışdım. Ona görə o ili işimi bir yerə verə bilmədim. Artıq gec idi. Əslində, oxumağa o qədər həvəsim də yox idi. Birinci ilin uğursuzluğu məni bir qədər həvəsdən salmışdı. Bildiklərimin də çoxu yadımdan çıxmışdı. Oturub təzədən ciddi hazırlaşmaq lazım idi. Hər bir fənn üzrə bütün bəhsləri mükəmməl öyrənməli idim. Bunlar məni o qədər də qorxutmurdu. Çətini kitabları əlimə alanacandı. Məsələ burasında idi ki, başqa bir dərd də vardı. Bu da qocaların damın altında tək qalmaları idi. Mən əsgərlikdə olan vaxtları nə qədər əziyyət çəkmişdilər. Odunları-ocaqları vaxtlı-vaxtında olmamışdı. Hiss edirdim ki, qocalar əldən-ayaqdan düşüblər. Onların qayğısını çəkən lazımdır. Kənardan kömək etməkdən bir şey çıxmazdı. Evdə, qocaların yanında kimsə olmalı idi. Dayım da ayda, ildə bir dəfə kəndə gələrdi, ya gəlməzdi. Onun da başı orda qarışmışdı. Bütün bunları nəzərə alıb, instituta o qədər də həvəs göstərmirdim...

Qocaların yanında qalıb bir neçə il kənddəcə işlədim. Sonra gördüm yox, vaxt keçir, mənim taylarımın birinin səsi o institutdan, birinin səsi bu institutdan gəlir. Texnikumda oxuyanları da var idi. Ali təhsil almamaq da yaxşı deyildi.

Qocalardan ayrılmaq mənə çətin olsa da, nəhayət, instituta girməyi qərara aldım. Gəlib imtahan verdim. Politexnik İnstitutunun axşam şöbəsinə daxil oldum...

– Hə, qaldı iş məsələsi. Sənin üçün yüngül-yaraq bir iş düzəldərəm, – dayım, nəhayət, işə qarışdı.

Mən də qürrəli danışdım:

– Yüngül-yaraq nə üçün? Nə iş olsa, işlərəm!

Cavabımdan dayımın xoşu gəldi:

– Tikintidə bacararsanmı?

– Niyə bacarmıram?!

Bir neçə gündən sonra işə çıxanda görmüşdüm tikinti sahəsində, taxta hasarın ardında bir dəli-dolu oğlanla bir qız zarafatlaşır. Bir-birlərinə nə deyirlərsə, ikisinin də dişləri ağarır. Sonra oğlan nə dedisə qız hirsləndi, bir ovuc qum götürüb oğlanın üstünə çırpdı.

– Aaz, nə eyliyirsən?! İndi baş-gözümü necə təmizləyim?

– Mənə nə var?! Necə istəyirsən təmizlə! – qız ondan küsdüyü üçün yönünü çevirdi, üzünə baxmadı.

– Sənə nə deyim! – Oğlan əli başında mızıldana-mızıldana su kranına yaxınlaşdı. Kranı açıb başını altına tutdu, saçlarını bir-iki dəfə yudu. Qurtarcaq qızın yanına gəldi. Əlini uzadıb dedi:

– Darağını ver saçımı darayım.

Qız güldü. Oğlan təəccübləndi:

– Nəyə gülürsən?

Qız qeyzlə əlini ona uzatdı.

– Adə, başından xəbərin var?!

– Nə olub ki, başıma!

– Saçların elə bil Afrikanın cəngəlliyidir. Ona daraq tablayar? «ÇTZ» lazımdı.

Oğlan da qızı töhmətləndirdi:

– Qorxma, sınar, təzəsini alaram.

Qız əda ilə əllərini açıb, azacıq dizlərini bükdü:

– Çox sağ ol. Özün üçün al, – dedi.

– Varımdır. Yadımdan çıxır, götürmürəm. – Oğlan barmaqları ilə qıvrım saçlarını geri daraqladı.

– Dayan... Dayan... Qoy verim! – qız təzədən əlini sumkasına atdı.

– Lazım deyil. İstəmirəm! – Oğlan onun darağını, həqiqətən, xarab edəcəyindən ehtiyatlanıb almadı.

– Onda sağ ol! – Qız əlini qaldırdı.

Oğlan da məftun-məftun onun ardınca baxıb başını tərpətdi.

– Sağ ol!

Oğlanın başı zarafatdan ayılanda yaxınlığında dayanıb ona diqqət etdiyimi gördü. Ümumi görkəmimdən, duruşumdan hiss etdi ki, təzə işə gələnəm. Ürəyinə damdı ki, yoldan gəlmişəm. Yaxınlaşıb tanımaza-bilməzə:

– Salam, eloğlu! – dedi və qolunu gendən hərləyib şappıltı ilə əl verdi. – Sahib!

İlk görüşdən istiqanlılığı xoşuma gəldi. Əlini sıxıb adımı dedim:

– Mahir!

– Bizə işə gəlibsən?

– Bəli!

İlk gündən Sahib mənə yaxınlıq etmişdi. Mən də ona tez isnişdim. Yaxşı oğlan idi. Zarafatcıldı. Cavanlara məsləhət görürdü ki, qızlarla qarğa dilində danışsınlar. «Nəm inəs mərives».

– Bu nə deməkdir?

– Yəni mən səni sevirəm.

– Bunu adam dilində demək olmaz?

– Yox. Adama geridə qalmış kimi baxarlar. Zəhlələri gedər. İndi adamlar başa düşmədikləri şeyləri daha çox sevirlər.

Belə söhbət olanda onun zarafat etdiyi motorçu qız Kəmaləyə baxırdım, bu barədə onun fikrini bilmək istəyirdim. Kəmalə də həmişə onun fikrini təsdiqləyirdi. Bu qızın da söhbətləri xoşuma gəlirdi. Onun dediyinə görə, evləri indi tikinti gedən bu yerə yaxın imiş. Bu yerlərdə tez-tez gizlənpaç oynayarmışlar. Kəmalə neçə dəfə burada lentini itirib. Bir dəfə oğlanlar lenti çərpələngə bağlayırlar. Kəmalə ağlamaq əvəzinə əlini-əlinə vurub gülür. Çərpələng kiçilib, balaca bir nöqtəyə çevrilincə ardınca baxır. Lent isə o gedən olur. Çərpələngin sapı qırılıb ip uşağın əlində qalır. Qızın qara gözləri qırmızı lentini günəşin yanında axtarır, onun hər bir ziyası uşağa bir lent təki görünür. Bu lent onun üçün qəribə, maraqlı bir hekayətə, əfsanəyə çevrilir. Evə gələndə deyir:

– Anacan, lentimi Günəşə verdim.

– Günəş kimdir, qızım?

– Göydəki Günəşə daa.

– Ay şeytan, demək lentini itirmisən?

– Yox, çərpələngə bağlayıb göyə buraxdıq. Sap qırıldı, lentim odur eyy, Günəşin yanına getdi.

– Yamanca qızsan, Kəmalə. Elə uydurursan ki, az qalır adam inansın.

– Nə üçün inanmırsan?! Bax, səhər görəcəyik ki, günəş lentimi saçlarına bağlayıb.

– Bu dilləri hardan öyrənibsən? – Sahib onun danışdıqlarına, hərəkətlərinə məftunluqla baxıb, sonra əlavə edir: – Vallah, səni alanın evi yıxılıb.

– Heç yıxılıb eləməyib. Əksinə, tikilib! – Qız özünü çox qürurlu tutub və şən-şən gülümsəyib Sahibə acıq verirmiş təki dilini çıxardır.

Sahib bir dəfə mənə söyləmişdi ki, guya, bir nəfər trolleybus sürən oğlan da bu qızı istəyirmiş. Ondan ötrü dəli-divanəymiş. Qızın ardınca dəfələrlə buralara gəlib. Kəmalə ilə taxta hasarın ardında görüşdüklərini görüb, söhbətlərini eşidib. Təəccüblü burası idi ki, Sahib bu əhvalatı nə üçünsə həyəcanlı danışır və and içib deyirdi ki, bu gözlərimlə gördüm. «Yox» – cavabı alandan sonra trolleybus sürən oğlanın qıza dediyi sözləri də gizlindən eşidib. «Ay insafsız, bu yollara baxanda məni heç olmasa xatırla. Bil ki, bu yollarda bax, o elektrik xətlərindən qopan qığılcımlar təki sənin dərdindən yanan, əriyən, məhv olan var!» Sahib deyirdi ki, oğlanın axır sözü bu olub, çıxıb gedib. Bu söhbətdən sonra hər dəfə küçəyə sarı baxanda üzünü görmədiyim, ancaq sözlərini eşitdiyim oğlanı xatırlayırdım. Arabir trolleybus xətlərinin üzərində oynaşan qığılcımları görəndə mənə elə gəlirdi ki, haman oğlanın ürəyidir, alışıb yanır...

II

Oğul, qəzetini sonra oxuyarsan, bəri gəl görüm, – deyə ev sahibi məni bir də süfrəyə dəvət elədi.

Divandan qalxdım, stul çəkib stola yaxın əyləşdim. Ev sahibi təmiz, güllü nimçələrdə yağ-pendir qoymuşdu. Bir az da kolbasa doğramışdı. Süfrəyə iki nəfərlik çəngəl-bıçaq, boş nimçələr düzmüşdü.

– Çörək ye, sonra da çay içərsən. Yaxşı çay dəmləmişəm, – deyə qoca qadın stul çəkib özü də oturdu.

İkilikdə iştahayla şam edərkən ev sahibi soruşdu:

– Oğlum, yəqin, tələbəsən, eləmi? Bəs yataqxanada sizə yer vermirlər?

– Mən axşam oxuyuram.

– Eləsə, işləyirsən?

– Bəli... İşləyirəm. İnşaatçıyam.

– Həə... Çox yaxşı, oğlum! – Ev sahibi həm oxumağımı, həm də işləməyimi bəyəndiyini bildirdi. Sonra ailə vəziyyətimlə maraqlandı. Şəhərdə dayım evi olduğunu deməyi lazım bilmədim.

– Atam müharibəyə gedib gəlməyib. Anam da sonra məni qoyub ərə gedib. Körpəlikdən məni nənəmlə babam saxlayıb...

Hiss etdim ki, qoca qadın mənə görə pis oldu. Taleyimin acı qismətlərindən kefsizlədi. Amma bunu hiss etdirməməyə çalışdı. Mənə təskinedici sözlər deməyi lazım bildi. Şən-şən:

– Maşallah, daha böyük oğlansan! – dedi. – Fələyin pisliyi özünə qalır.

Bir söz deməyib başımı tərpətdim və qoca qadının mənim üçün süzdüyü pürrəngi çayı qarşıma çəkdim. Ev sahibinin daha danışmadığını görüb istədim indi mən onunla maraqlanım. «Niyə tək yaşayırsan? Oğuldan-qızdan nəyin var?» Özünün bu barədə bir söz demədiyini görüb yaralarını təzələyəcəyimdən ehtiyat edib susdum.

Kirayə tutduğum evdə elə bir gözədəyən avadanlıq yox idi. Hamısı köhnə-küşkül idi. Yalnız radioqəbuledici cihazdan başqa. Qalanları çoxdan atılası idi. Hündür söykənəcəyi olan stulların rəngi son dərəcə solmuşdu. Bufet, divan nuh əyyamından qalma idilər. Dördkünc yemək stolu, bir dənə dəmir çarpayı və balaca bir taxt var idi. Xırda-mırda başqa şeylər də vardı. Bunlar köhnə, çox işlənmiş olsalar da, otağı doldurmuş və hər bir avadanlıq öz yerində, səliqə-sahmanlı idi.

Elə mənə də beləcə sakit, qulağıdinc yer lazım idi. İstirahət edə bilim. Dərslərimi hazırlamağa imkanım olsun. Biri ala, biri qara dağdan danışmasın. Bunun ucbatından nə dayımgildə qalmış, nə yataqxanaya getmişdim. Bax, beləcə bir yer axtarırdım. Ev sahibinin mülayim xasiyyəti, insanlığı bu evdə mənim həyatımın pis keçməyəcəyindən xəbər verir, qəlbimə xoş bir rahatlıq, asudəlik hissi gətirirdi. Belə bir gözəl insana rast gəldiyimə sevinirdim...

«Adamlar müxtəlif olur. Hərənin bir cür xasiyyəti var», – deyə ev sahibinin hərəkətlərinə, söz-söhbətinə diqqət yetirir, həyatda tanıdığım, rast gəldiyim şəxslər barədə düşünürdüm. Düşünürdüm ki, bu az yaşımda mən də az adam tanımıram. Kəndimizin sakinlərini əcikdən-cücüyədək nə yuvanın quşu olduqlarını bilirəm. Orduda da nə qədər yaxşı yoldaşlarım vardı. Elə burada, şəhərin özündə də çox adama bələd oldum. Birinci elə öz dost-doğmaca dayımı yaxşıca tanıdım. Düzünü deyim ki, o özü barədə çox yüksək fikirdədir. Söhbət düşəndə həyatından qürrəli-qürrəli danışır. Bəlkə, səhv edirəm, mənə elə gəlir? Çünki İldırım dayının yanında mən dünənki, ağzıqatıqlı uşağam. İndiyədək bir çox yerlərdə işləyib, həmişə də özü dediyi kimi, stol dalında oturub, vəzifə sahibi olub. O özü kənddən şəhərə gəlməyini çox qəribə şəkildə təsvir edirdi: «Oturdum-oturdum birdən kəndin meydanı mənə dar gəldi. Odur ki özümü atdım dərə aşağı axıb gələn çaya. Yollarda sular sulara, çaylar çaylara qovuşdu. Mən də içində, axa-axa gəlib dəryaya töküldülər. Dəli dalğalar sahilə hücum çəkib nərildəyəndə mən də silkələnib suların arasından baş qaldırdım. Üzümü sahilə tutdum. Dedim ki, gözünüzü yaxşı açın, baxın! Mən də varam! Dedilər, yaxşı oğlanlara can qurban. Düzü, əvvəllər bir az əziyyətim olsa da, sonra nəhəngləşib azmana, divə çevrildim. Cavan olsam da, stolu telefonlu, qabağı xadiməli kabinetdə hakimi-mütləq oldum. Bir zalım oğlu qabağıma daş dığırlaya bilmədi. Gözünün üstündə qaşın var deməyə cəsarət etmədi!..»

Bir dəfə... Hələ onda mən əsgər getməmişdim. Bakıya birinci gəlişim idi. Dayım öz həyat yolunu beləcə bəzəyə-bəzəyə həvəslə danışır, mən də ağzımı açıb qulaq asırdım. Birdən dayıdostum Xırdaca xanım baş barmağı ilə özünə işarə etdi:

– Blaqadarya mne! – dedi.

– Eh, sən olmasa idin, mən batardım! – deyə dayım da onun sözünü təsdiq elədi.

Belə söhbətlər olanda dayıdostum mütləq buna bənzər sözlər deyərdi. Dayım da inkişafında, vəzifədən-vəzifəyə keçərək yüksəlməsində həyat yoldaşının çox böyük xidməti olduğunu inkar etməzdi. Əksinə, bunu açıq ürəklə, lap hamının qarşısında boynuna almaqdan çəkinməzdi. Və bu etirafda heç bir qəbahət olmadığını bildirərdi. Ancaq mən pis olurdum. Dayım gözümdə bir xal aşağı düşürdü. Bəlkə, ona görə idi ki, dayıdostumun xidmətinin nədən ibarət olduğunu bilmirdim. Bu, mənə aydın deyildi. Dayıdostum dayım üçün nə edib? İnkişafına necə kömək eləyib? Mən eşidən-bilən elə bir şey yox idi. Ancaq onu bilirdim ki, həyatları bir qəpiyə dəyməz. Budur, dayım durub işə getməyə hazırlaşır. Dayıdostum hələ də yatır. Öldürsən, qalxıb ona bir stəkan çay verməz. Əksinə, deyinir ki, səhər-səhər duranda elə tərpən ki, səs-küy salma, qoy rahat yatım. Qabaqlar buna çox təəccüb edərdim. Sonra yavaş-yavaş öyrəşdim. «Bir stəkan çaydır, alıb

adam özü də içə bilər, buna görə başqalarına əziyyət verməyin nə mənası?» – deyə özlüyümdə məsələni əsaslandırıb, dayıdostumun hərəkətinə bir növ haqq qazandırırdım.

Ancaq elə məsələlər vardı ki, heç cür razılaşa bilmirdim. Bir də görürdün dayıdostum balaca boyu ilə dağ boyda ərinə əmr edir:

– Bu gün maşın mənə lazımdır!

– Neynirsən?

– Əcəb adamdır!.. Maşını neyləyərlər?! Bax, başa salıram, əyləşərlər maşına, şoferə deyərlər sür!

– Hara?

Dayıdostum ondan da sərt dillənərdi:

– Ora, bura! Getməyə yer yoxdur?!

– Maşın yoxdur! – Dayım acıq eləyib evdən çıxardı, işə gedərdi.

Ancaq görərdin bir azdan şofer qayıdıb gəldi və dedi:

– Xırdaca xanım, aşağıda sizi gözləyirəm.

Bu da geyinib-kecinib düşərdi... Düzü, dayım arvadını heç belə bilməzdim. Əksinə, dayım kimi onu da hamıdan ağıllı, dərrakəli hesab eləyərdim. Ayda-ildə bir dəfə onlar kəndə gələndə bilməzdim dayıdostum üçün nə edəm. Ona çəmənlərdən gül-çiçək dərib gətirərdim. Quzuqulağı, yemlik toplayardım. Bağa-bağçaya gəzməyə aparardım. Daha onun bu cür hərəkətlərini bilməzdim. Şəhərə gəlib onların evində qaldıqdan sonra dayım arvadının o biri üzünü gördüm. Gördüm ki, Xırdaca xanım deyilən ipli-saplı dəlidir. O gündən də dayıma yazığım gəlməyə başladı. Ona canım yandı. Dayım da gözlərimdə dəyişdi. Əzəlki təki nəhəng, əzəmətli yox, balacalaşdı, kiçildi.

Bəzən elə olurdu ki, heç nəyin üstündəcə az qalırdılar əlbəyaxa savaşsınlar. O deyir, bu deyir, arvad olan kəs dilini kəsmir. Ən xırda məsələdə də istəyirdi ərini üstələsin. Gözləyirdim ki, dayım bu dəqiqə hirslənib durub arvadının üstünə yeriyəcək. Düşünürdüm, görəsən, Xırdaca xanım o zaman nə edər? Yox!.. Yox!.. Ona əl qaldırmaq olar? Dünyanı dağıdar. Bəlkə də, düşündüyündən dayım heç vaxt mübahisələrini bu dərəcəyə gətirib çıxartmaz, durub evdən çıxmaq istəyərdi. Dayıdostum isə Ərəbzəngi təki qabağını kəsərdi.

– Hara gedirsən?

– Cəhənnəmə!

– Mən də səninlə gedirəm.

– Sən Allah, əl çək!

Dayıdostum xəbərdarlıq edərdi:

– Əllə işin olmasın.

Həyatları beləcə qeylü-qalda keçərdi. Döyüşüb-dalaşıb günlərlə küsülü qalardılar. Bir də görərdin ki, barışıblar. Sən demə, dayım arvadı üçün nə isə bir

hədiyyə alıb. İkicə dəqiqə bundan qabaq qaşqabağını tökmüş Xırdaca xanımın ərinə münasibəti o dəqiqə dəyişərdi. Görərdin oyan-buyanına keçir, ona nəvaziş göstərir.

– Nə yeyirsən?

– Nəyin var, gətir.

– Bir azca gözlə, gör sənə nə verəcəm, jiznində dadı damağından getməsin...

Heyif ki, onların bu mehribanlığı da uzun çəkməzdi. Görürdün aralarının dəyməsinə nəsə bəhanə oldu. Hətta ən cüzi bir şeyin üstündə bir-birlərindən incişirdilər. Onların münasibətlərinə qarışmasam da, hər halda, narahat olurdum. Necə olsa, bir damın altında yaşayırdıq. Çox vaxt onlara görə əzab çəkirdim. Bilmirdim nə edim ki, dayım ilə arvadının münasibəti yaxşı olsun, sülh şəraitində dolansınlar.

Bir dəfə zarafata salıb ikisinə də demişdim:

– Eh! Böyük-böyük dövlətlər dil tapıb davasız yola getməyə çalışırlar, amma siz?..

Heç birindən səs çıxmamışdı. Mən də daha danışmamışdım. Hiss etmişdim ki, sözümü saya salan yoxdur. Səbət dibindən gilas tökülür...

İncimirdim, yenə hərdən dayıdostumla danışır-gülür, zarafat edirdim. Məqsədim bu idi ki, yaxşı əhvalda olsunlar... Dayıdostum nə desə, nə əmr etsə, «baş üstə» deyərdim. Hələ bir sözünü iki eləməmişdim.

– Bazara getmək lazımdır.

Zənbili götürüb qaçardım.

– Çörəyimiz yoxdur.

Geyinib düşərdim.

– Mağazaya filan şey gəlib.

Mən gedərdim. Zibil vedrəsini də boşaltmaq adıma yazılmışdı. Belə şeydən də inciyən deyildim. Bundan da çox iş görməyə hazır idim. Kaş dığ-dığ olmasın, söz-sov kəsilsin.

Bir dəfə Xırdaca xanımın qanının qara vaxtında dedim:

– Dayıdostu, bilirsən bir dəfə bizim kənddə nə olub?

Gözlədim ki, o «nə olub?» – deyəcək. Ancaq dillənmədi. Pərtliyimi büruzə verməyib sözümə davam elədim:

– Bir oğlanın toyu imiş. Qonşu uşaq da gəlib məclisə çıxır. Gicgici adamlar uşağa o qədər çaxır içirdirlər ki, fağırca sərxoş olur. Bir də görürlər, uşaq ölür, tez... Belə getsə, bu araq-çaxır camaatı qıracaq.

Xırdaca xanım məni acıladı:

– Sən də az danış. Elə yersiz-yersiz üyüdüb tökürsən.

Söz məni tutdu. Cavabsız qoymaq istəmədim.

– Bəs özünüz?.. Heç nədən hər gün dava edirsiniz ki!

Xırdaca xanımın üzünün ifadəsi turşaldı. Acıqlı nəzərləri üzümə zilləndi. Arada üzül-kəsillik olmasın deyə, sözümün canını izah etməyi lazım bildim.

– Sizə görə deyirəm, dayıdostu. Deyirəm, yəni heç nədən qanınızı qaraltmayasınız.

Xırdaca xanım əlini yellədi:

– Sən də başıma ağıl qoyma! – dedi.

Bu sözdən sonra danışmağı lazım bilmədim. Ümumiyyətlə, Xırdacanın hərəkətlərindən ağlım bir şey kəsmirdi. Bəs dayım?.. Maraqlı idi ki, bütün bu məsələlərə dayım necə baxır? Nə vaxtadək belə gedəcək? Həyatını ağıllı qura bilməzmi? Bunlar məni düşündürür və get-gedə dayıma daha çox fikir verirdim ki, bir şey öyrənim. Hiss edirdim ki, dayım arvadına güzəştə gedir, onun hər sözünü söz eləmir. Çox vaxt ona qoşulmamağa çalışır, nazı ilə oynayır. Ümumiyyətlə, dayım üçün dinclik yox idi. İşdən qayıdan kimi Xırdaca xanım onun üçün bir iş tapırdı. Lap çox işləyib ölü təkin gəlmiş olsa da, kinoya, teatra, konsertlərə sürüyürdü. Qaşını-gözünü süzdürə-süzdürə deyirdi:

– Bilirsən, Bakıya kim gəlib?

– Kim gəlib, Xırda?

– Türk müğənnisi. Deyirlər çox gözəl səsi var, aləmdir.

– İstəyirsən gedək?

Hiss edirdim ki, dayım arvadına bu iltifatı candərdi – Xırdaca xanımın müəyyən bir şeyi bəhanə edib danışmaması üçün edir...

Bunları ona görə danışdım ki, ürəyim bir az boşalsın. Bütün bu söylədiklərim, əlbəttə, öz işləridir. Mən onların həyatına qarışmaq fikrində deyiləm. Fikirləşirdim ki, yaxşı düşməz, özümdən böyükdürlər, bir söz deyərəm inciyərlər, deyərlər bizə ağıl öyrədir. Ancaq üç-dörd gün bundan qabaq qulağıma bir söz gəlib çatdı...

Sahibin kefi yox idi. Bir söz deməsə də, əhvalının qarışıq olduğunu hiss edirdim. Nəhayət, özü açılışdı. Zahirən həyəcanlı, əsəbi görünsə də, sakit-sakit danışmağa çalışaraq yavaşcadan dedi:

– Səni özümə qardaş bilirəm, Mahir. Ona görə də açıq danışıram. Çoxdandı ki, istəyirdim deyəm, amma yenə...

Təşvişə düşüb onu tələsdirdim.

– Nə olub?

Sahib alnını yığıb dedi:

– Bilirsənmi, dayın bizim sahəyə niyə tez-tez gəlir?

Çiyinlərimi atdım, sonra dedim:

– Gələndə nə olar?

– Heç nə. Ancaq...

– Dayım tikintinin rəisidir. Bütün bu obyektlər hamısı ona baxır. Gəlməlidir də...

– Ancaq sənin dayın işə görə gəlmir.
– Bəs nə üçün gəlir? – deyə mən də alnımı yığdım.
– Qıza görə gəlir! – Sahib əlini qaldırıb barmağını məhlul hazırlayan budkaya uzatdı. – İndi bildinmi? Gəlir, özünü göstərir, gedir. Adamı da Mirişdir. Başını küllədiyim prorab. Özünü rəisin yanında yaxşı salmaq üçün hər şey edir. Qılığına girib burda yüz oyundan çıxır... Onun-bunun adına artıq pul yazır. Material satdırır.
– Elə şey olmaz?! – deyə astaca başımı yırğaladım, hətta gülməyim tutdu.
Sahib mənalı-mənalı üzümə baxıb əlini yellədi. Bu hərəkətilə bildirmək istədi ki, fil qulağında yatıbsan, heç nədən xəbərin yoxdur. Bilmirsən ki, bizim inandığımız, ətəklərində az qala namaz qılmaq istədiyimiz bir sıra adamlar nə oyunlardan çıxırlar.
İş yoldaşımın belə qətiliklə danışmasına baxmayaraq, düzü, onun bu dediyi heç ağlıma batmadı. Fikirləşdim ki, bu qız hara, dayım hara? Nə təhər olub ki, o boyda adlı-sanlı, vəzifəli bir şəxs gəlib buna tay olub? Necə olub ki, özünü buna tay-bərabər tutub? Başına özgə, başqa bir mədəni yerdə işləyən qız-qadın qəhətdir? Onu bu pal-palçığın, daş-torpağın içərisinə gətirib çıxaran nə idi? Beləcə çox fikirləşdim, amma inana bilmədim. Mənə elə gəlirdi ki, dostum səhv edir. Dayım gəzmək istəsəydi, hər halda, başqa bir yerdə özünə yaraşan, özünə bərabərini tapa bilərdi. Daha məhlul hazırlayan qıza uymazdı. «Yalan sözdür» – deyə bunun dayıma qarşı ancaq böhtan olduğunu düşündüm. Dayım pislik eləməyən adam olsa da, hər halda, istəməyəni də vardı. Bax, istəmədikləri üçün də ayağının altını eşirlər, yıxmaq istəyirlər. Amma dayıma çətin gücləri çatar. Cavan, enerjili işçidir, işini bilən adamdır.
Bir neçə gün sonra isə Sahib başqa bir mühüm yenilik olduğunu bildirdi. Sən demə, bunu da neçə gündən bəri ürəyində hərləyə-hərləyə qalıbmış. Mənə demək istəmirmiş, axırda Kəmalənin işdə olmadığı bir vaxtda dayana bilməyib onu da dedi:
– Xəbərin var?
– Nədən?
– Qızı aparırlar. Kəmaləni deyirəm. Kontorda işləyəcək.
– Nə işində?
– Nə bilim! Kontorda o qədər iş var ki, birində işləyəcək.
– Dəqiqdir?
– Bilmədiyim sözü ağzıma almaram.
Bu məsələyə görə dayım sarıdan o qədər arxayın idim ki, mən işin başqa tərəfini düşündüm. Düşündüm ki, Kəmalə üçün yaxşı olar. Qız xeylağıdır. Daş-torpağın içərisində palçığa bulana-bulana işləməkdən ora yaxşıdır. Hər halda, bura onun üçün çətindir. Amma birdən ürəyimə nə gəldisə, şübhələndim. Dayım

qızı, bəlkə, onun üçün öz yanına işə götürür ki, daha da yaxın olsunlar. Belə şey olarmı?! Deyəsən, axı Sahib hər şeydən xəbərdardır. O, çox qəti şəkildə deyirdi ki, onların aralarında nəsə var. Bu haqda dərindən düşünüb məsələni dəqiq öyrənmək istəyirdim ki, elə o gün baş verən bir hadisə mənə mane oldu. Belə ki binanın üçüncü mərtəbəsi tikilirdi. Bənnalardan bir cavan oğlan konteyneri özünə tərəf çəkirdi. Necə oldusa ayağı sürüşdü, az qaldı yıxılsın, yenə qoçaq çıxdı. İki əlli konteynerdən sallana qaldı. Hamı yerindəcə donmuşdu. Bilmirdik ona necə kömək edək. Oğlan isə konteynerin trosundan bərk yapışmışdı. Krançı da cəld tərpəndi. Konteyneri tez aşağı saldı. Yerə az qalmış oğlan yellənib yanımızdakı qum təpəsinin üstə tullandı. Sahib yetirib onu qucaqladı.

– Ölmüşdün, ay yazıq. Anan namaz üstə imiş!

Krançı yuxarıdan bağırdı:

– Niyə ehtiyatlı olmursan?! Bizi də xataya salmışdın!

Miriş Alxasov da bərk söyləndi:

– Təhlükəsizlik qaydalarına niyə riayət etmirsən? Elə buna görə səni işdən qovacam!

Bu hədələr, tənbehlər onun qulağına girmirdi. Döysələr də dillənən deyildi. Qəzadan sovuşmuşdu. Xata-bəladan qurtarmışdı. Buna şükür eləyirdi...

İki gün sonra Kəmalə, həqiqətən, işə çıxmadı. Əvəzinə başqası gəlmişdi. Sahib düz deyirmiş. Kəmalə bizi tərk elədi. Qəribə burası idi ki, darıxırdıq. Kəmalə üçün darıxırdıq. Qıza öyrəşmişdik. Yaxşı qız idi: deyirdi, gülürdü, zarafat eləyirdi, kefimizi açırdı. Əynində şalvar, bədənini kip saxlayan qofta budkasına çıxanda qız elə bil nitq söyləməyə qalxırdı. Oradan qımışa-qımışa bəri baxırdı. Əsgər sayağı əlini qaldırırdı. Bəzən də budkasının yanından tutub dururdu. Deyirdin vaqonun ayaqlığında dayanıb əl eləyir. Yuvasının ağzına qonmuş qaranquşa bənzəyirdi. Hər şeyi də başa düşən qızdı. Bax, istəməzdi ki, birinin xətrinə dəysin, birinə bir kobud söz desin. Əksinə, hamıya mehribanlıq edərdi. Bacarsaydı, hamının işinə yaramağa çalışardı. Birinə bir haqsızlıq edildimi, birinci o, etirazını bildirərdi.

İndi Kəmalənin yeri görünürdü.

Üzə salmasa da, Sahib lap bərk dilxor idi. Nəyə görə hamıdan çox o buna kefsizləmişdi? Qızın buradan getməsindən nə üçün belə pərt olmuşdu? Bu mənə bəlli deyildi. Bir sirr idi...

Həmin gün yeməkdən sonra divarın sərin kölgəsinə çəkilib dincələndə o dolu döymüş təki bürüşmüşdü. Elə bil üşüyürdü. Qəsdən ona yaxın oturmuşdum. Sahib:

– Eh, Mahir, ehtiyac yaman şeydir, – dedi. Köksünü ötürdü. Elə bil odlandı, ağzından, nəfəsindən alov qarışıq tüstü çıxdı. – Oxumamısan? «Ehtiyac qul eylər qəhrəmanı da!»

Nə üçün belə dedi, kimə aid idi? Kirpiklərimi çala-çala söhbətin ardını və izahını gözlədim. Sahib sözünə davam etdi:

– Kəmaləni deyirəm. Mən onlara az-çox bələdəm. Anası həmişə nasaz olur. Dolanışıqları sən deyən yaxşı deyil. Bir Kəmalə işləyir. Bu da qız xeylağı, çiçi-miçiyə susayır. Onu bilirəm ki, yazıq qız bədbəxt olacaq...

Yaxşı idi ki, Sahib tanıdığı, bildiyi adamlara görə narahat olurdu, onların qeydinə qalırdı. Bu onda yaxşı cəhət idi. Buna görə Sahibdən xoşum gəlirdi. Amma belə də düşündüm ki, Sahib kiçik bir şeyi çox şişirdir. Bəlkə, ona görə belə düşündüm ki, Sahibin dediklərinə inanmırdım. İnanmırdım ki, belə ola. İnanmadığım üçün də narahat olmurdum. Əgər Sahib danışmasaydı, bunlar, bəlkə də, ağlıma gəlməzdi. İkinci bir tərəfdən Kəmalənin özünə nə olmuşdu? Doğrudur, Kəmalənin hərdən şit zarafatları, düşünülməmiş hərəkətləri olurdu. Amma bu o demək deyildi ki, ağılsız qız idi. Ağlım kəsmirdi ki, Kəmalə onun dediyi kimi hərəkət edə, özünü pis, gülünc vəziyyətə sala. Buna görə Sahibin sözünə əhəmiyyət vermədim.

– Sən də boş-boş şeyləri özünə dərd eləmə! – deyə əlimi yellədim.

Laqeydliyimə Sahibin acığı tutsa da, səsini çıxarmadı. Hiss etdim ki, hirsini içinə saldı, bir günahım olmasa da, mənə acığı tutdu.

– Ay Sahib, nə olub axı?

– Heç! Elə-belə. İş yoldaşımız olduğu üçün...

Bic-bic gülümsədim və barmağımla onu hədələdim:

– Məndən nəsə gizlədirsən?!

Domuşuqlu dayanıb belimi divara söykədim. Sahib dirsəyilə məni itələdi. Əlimi yerə dayaq verib özümü saxladım. Üzümü ona tutdum:

– Bura bax, gəlsənə gedib Kəmaləyə baş çəkək?

– Hələ tezdir. – Sahib etiraz elədi. – Deyər ki, tez dalımca düşüb gəldilər?

– Bəs nə vaxt?

– Bir gün gedərik. – Sahib bu işi hələlik təxirə saldı. Bir gün sonra isə sözləşdik ki, gedib Kəmaləni görək. Hal-əhval tutaq.

– İşdən sonra gedərik, – deyə Sahib vaxtını da müəyyən elədi.

Sabah işdən sonra kontora gələndə burda hələ adam çox idi. Həm idarənin işçiləri burada idilər, həm də ayrı-ayrı sahələrdən gələnlər olmuşdu. Hərənin bir işi vardı. Biz isə Kəmaləni axtarırdıq. O qapını, bu qapını açıb baxırdıq. Heç bilmirdik hansında oturur. Amma mən ayaqlarımı sürüyürdüm. Qorxurdum dayıma rast gələm. Soruşacaq ki, xeyir olsun, niyə gəlibsən? Onda nə deyərəm? Bir də ağlıma gəlmişdi ki, Sahibi bura belə tələşlı çəkib gətirən nə idi? Kəmaləni elə-belə görməkmi? Axı bu qız srağa günədək yanımızda deyildimi? Yoxsa qızın başına ağıl qoymağa gəlmişdik? Kəmalə məgər özü uşaq idi?! Eh! Eh! O ki şeytana papaq tikir. Bizim məsləhətimizə, tövsiyəmizə bu şeytan qızın ehtiyacımı

var? Yoxsa dayım sarıdan narahat idim? Əslində, bu işin də mənə o qədər aidiyyəti yox idi. Çünki dayım, Allaha şükür, uşaq deyildi və o mənim kimilərinin yüzünün başına ağıl qoyardı.

Bu ara otaqların birindən qız qabağımıza çıxdı. Bizi görcək şən-şən gülümsədi. Özü də çox səliqəli geyinmişdi. Saçlarını qəşəngcə darayıb, çiyinlərinə tökmüşdü. Düzü, mənim xoşuma gəldi və ürəyimdə qızın oradan, toz-torpaq, palçıq içərisindən çıxıb bu cür mədəni yerə düşməsinə sevindim.

– Uşaqlar!.. Gəlin! – Kəmalə sevincək səslənib bizi geri otağa çağırdı. Oturduğu yerə aparmaq istədi. Gördük işini qurtarıb gedir, razılaşmadıq. Sahib isə alınmış təki dedi:

– Nə vaxtdan uşaq olmuşuq?!

Qız şaqqanaq çəkdi. Sahib burnunu sallladı. Mən də pərt olmuşdum ki, qız nə üçün belə gülür. Onu çox diqqətlə süzürdüm. Əynində nazik ipək kofta var idi. Yubkası da bədəninə kip idi. Bu cür paltar boyunu uca göstərirdi.

– Yoxsa gülməyim acığınıza gəldi?

Mehribanlığını hiss edib gülümsədik. Qız sumkasını yellədi:

– Yaxşı. Gedək, – dedi.

Bayıra çıxdıq. Qızla etdiyi zarafatlarına yaman darıxmış Sahib mənə göz vurub üzünü qıza çevirdi:

– İcazə verin, qolunuzdan tutum, – dedi.

– Buyurunuz, ikiniz də tutun.

Sahib etiraz etdi.

– Daha ikimiz niyə?

– Çünki ikiniz də yaxşı oğlansınız.

Qızın cavabından şad oldum. Sahib cəsarətli çıxdı, onun qolundan tutdu və çiyni üstə qanrılıb kontora işarə etdi:

– Birdən bizi görsələr?

Kəmalə tez dilləndi:

– Görsünlər də!..

Sahib özünü sadəlövh göstərdi:

– Acığı tutan olar ki, niyə sənin qoluna girmişəm.

– Kimin acığı tutar? – deyə qız şən-şən soruşdu.

Sahib çiyinlərini atdı.

– Bilmirsənsə, nə üçün elə deyirsən?

– Danışmaq olmaz?

– Nə üçün olmur? Danış!

– Yoldaş rəis necədir?

Qız baş barmağını göstərib bir söz demədi.

Sahib, guya, onunla zarafat edirdi.

– Qorxuram sənə gözü düşə.
– Nə olar? Paxıllığın tutur?
Heç nə başa düşmürdüm. Onlar zarafat edirdilər, yoxsa dalaşırdılar? Sahib niyə belə danışırdı? Mən onu da hiss edirdim ki, Sahib bir az əsəbidir. Ürəyində nə vardısa, dilini dinc qoymayıb qızı atmacalayırdı...
O gün evə gələndə dayıdostum qapını bağlayıb harasa gedirdi. Düzü, belə şeylər çox olurdu. Qapının ardında boynumu büküb qaz təki ayağımın birini qoyub, birini qaldırıb dayıdostumun yolunu az gözləməmişdim. Hələ yaxşı ki, bu dəfə pilləkənin başında rastlaşdıq. Yoxsa ayaq üstə durmaqdan dabanlarıma su enəcəkdi.
– Ədə, gəldin?!
– Bəli.
– Al açarı, mən partnixaya gedirəm.
Xırdaca xanımın günləri paltar atelyesində, qadın bərbərxanalarında keçirdi. Təəssüf edirdim ki, dayıdostumun başı özünə elə qarışır ki, ərindən xəbərsiz qalır.
Qapını açıb içəri girdim. Dəhlizdə ayaqqabılarımı çıxarıb otağa keçdim. Sonra mətbəxə getdim. Qazanların qapağını bircə-bircə qaldırıb baxdım. Yeməyə bir şey yox idi. Divanda oturdum. Geri söykənib yenə dayım haqqında düşündüm. Birdən-birə elə narahat oldum ki, az qala ürəyim ağzımdan bəri gələcəkdi. Dayım burada olsaydı, açıq danışar, hərəkətlərini pisləyərdim. Miriş Alxasovla yaxınlığının səbəblərini soruşardım. Fəhlələrin ondan acığı gəldiyini, onu sevmədiklərini gözünün içinə deyərdim. Sonra da ayrı cür fikir elədim. Dayım ilə bu cür danışa bilərəmmi? Bu cür hərəkət etməyə haqqım varmı? Bəyəm vəzifəli bir adam olan, dəfələrlə bərkdən-boşdan çıxmış İldırım Məmmədzadə nə etdiyini özü bilmirmi? Çaşbaş qalmışdım, nə edəcəyimi bilmirdim. Qəribə idi. Keçən illərədək dayımın köhnə-kürüş paltarı ilə böyümüş bir uşaq bu gün ona ağıl öyrətmək fikrinə düşmüşdü. Ona yol göstərmək iddiasında idi. Səhvlərini başa salmaq istəyirdi. Elə bir məqam, vaxt gəlib çatmışdı. Daima dayımın qarşısında dili-ağzı bağlı kimi dayanıb bütün tapşırıqlarını fikirləşmədən, korkorana yerinə yetirən mən, indi bütün bədənimi çulğalayan, qüvvəmi, iradəmi qamarlayıb özünə tabe edən mütilik «çuxasını» yırtıb çıxır, uşaqlıqdan məhəbbətini ürəyimdə gəzdirdiyim bir adamın üzünə ağ olmaq istəyirdim. Cəsarətim çatacaqdımı?..
Ayağa qalxıb, evdən çıxdım. Qapını bağlayıb açarı qonşuya verdim. Həyətə çıxcaq təzəcə qalxmış isti külək üz-gözümə, boyun-boğazıma dəyib elə bil məni qıdıqladı. Hava dəyişib istiləşmişdi. Binanın tinində külək burulub toz-torpaq qaldırdı. Kağız tullantılarını havada cürbəcür vəziyyətdə oynadırdı. Səkinin kənarında dayanıb hara gedəcəyimi düşündüm. Sonra sağa buruldum. Kinoya

getmək istədim. Ümumiyyətlə, kinoya, teatra getməyi sevirdim. Bir dənə təzə film buraxmazdım. Amma bu gün kinoya olan əvvəlki həvəsim yox idi. Həm də kinoya gedib çıxanacan acacağımı fikirləşdim. «Əvvəlcə bir şey yeyim» – deyə, özümü yaxınlıqdakı restorana verdim. Qəşəng bir qızın xidmət etdiyi stolda əyləşdim. Yemək gətizdirdim. Yeməyə başlamışdım ki, dayımı gördüm. Mirişlə bir neçə stol o yanda oturmuşdu. Alxasovu oğrun-oğrun süzdüm. Dayım, adəti üzrə, çiyinləri atıla-atıla gülürdü. Şən idi. Görünür, yoldaşı ona maraqlı şeylər danışırdı. Birdən üzü bəri oturdu. Sonra da stulundan qalxıb mənə sarı gəldi. Belə fikir etdim ki, dayım məni görüb. Düzü, onunla burada görüşməyi arzu etməzdim. Bayaqkı qızğın, ehtiraslı hislərim birdən-birə soyumuşdu. Nə üçün belə oldu? Özüm də başa düşə bilmədim. Dayımın bu ara yanımdan keçdiyini gördüm. Sən demə, məni görməyibmiş. Yəqin, əl-üz yuyulan otağa gedirmiş. Bayaq onunla burada görüşmək istəmədiyim halda, indi özümün burada olmağımı bildirmək istədim. Hətta dayımı stola dəvət eləmək fikrinə düşdüm. Sonra qorxdum bu hərəkətim mənim tərəfimdən dayıma qarşı bir hörmətsizlik kimi qiymətləndirilər. Axı əvvəllər belə yekəxanalıq eləməmişdim. İndi isə... Bu ara mənə elə gəldi ki, daha əvvəlki Mahir deyiləm. Bu son illərdə böyümüş, dəyişmiş, inkişaf etmişəm. Belə olduğu halda, dayımdan nə üçün çəkinirəm? Bu fikirlə mən utancaqlığıma son qoymuş oldum.

– Ey! Ofisiant! Mənim üçün!.. – deyə ucadan elə-belə səsləndim. Guya, nəsə sifariş etmək istəyirdim. Səsimi eşidən dayım ilə Alxasov cəld bəri çevrildilər. Yoldaş rəis özü durub yanıma gəldi. Zorla stoluna apardı. Qolunu boynuma saldı. Dayımın belə hərəkətindən uşaqlıqda xoşlanır, özümü xoşbəxt hiss edərdim. İndi isə... Dayım kefli idi. Yenə də içməyindən qalmırdı. Alxasovdan rumkaları tez-tez doldurmağı tələb edirdi. Alxasovun da elə hey ağzı işləyirdi. Mən isə yeyə bilmir, ağzıma aldığım hər tikə loğalaqlanıb boğazımda qalırdı. Dayım mənə nə qədər yaxınlıq, mehribanlıq göstərsə də, könlüm açılmırdı. Üzüm gülmürdü, dillənib bir söz demirdim.

– Sənə nə olub? – deyə məni özünə tərəf sıxdı.

– Heç! – Yenə susdum.

Məmmədzadə nə isə fikirləşib daha danışmadı. Dayımın pərt olduğunu, mənə möhkəm acığı tutduğunu hiss etdim. Belə eləməyimə peşman olsam da, düzgün hərəkət etdiyimi fikirləşib ürəyimə salmadım. Əksinə, dayımın nöqsanlarını, səhv yol tutduğunu, qarşısında oturub dil-dil ötən bu sümsümburun kişinin onu uçuruma apardığını demək üçün özümdə yenidən cəsarət duydum. Ancaq dayımın susduğunu görüb burada – ictimai yerdə söz-sov eləməyi lazım bilmədim. Sakitcə oturdum. Nəhayət, bir qədər yeyib-içdikdən sonra durduq. Bayıra çıxanda ayaqları sözünə baxmayan Miriş gedə-gedə qolunu rəisinin yanına sürtə-sürtə deyirdi:

– Canın üçün, İldırım, bu Mahir ki var, elə bilirəm doğmaca qardaşımdır, bir qarında yatmışıq.

Acığım tutsa da, susurdum. Qarşımdakı trolleybus dayanacağında Miriş xudahafizləşib ayrıldı. Həyəcan keçirirdim. Dayımla ciddi danışmaq vaxtı gəlib çatmışdı. Başımı yana döndərib üzünə baxdım. Dayımın fikri-xəyalı başqa yerdə idi. Duruşunda, baxışında nə isə laqeydlik var idi. Yoxsa o, restoranda olan söhbəti unutmuşdu? Yoxsa mənim bu cür hərəkətimə, qaşqabaq tökməyimə, onunla acıqlı danışmağıma əhəmiyyət vermirdi? Həyəcanım daha da artdı. Bu ara dayımın səsindən diksindim.

– Nə olub sənə? – üzünü bəri çevirmədən soruşdu.

Bilmədim nə deyim. Əvvəlcə həyəcanımı gizlətməyə çalışdım ki, dayım ilə xoşluqla, mehribanlıqla danışım. Titrək səslə astadan dilləndim:

– Miriş yaxşı adam deyil, dayı! Qorxuram o, səni əngələ sala!

– Mənə ağıl öyrətmə! – deyə dayım qəzəbli bir ifadə ilə dillənib sözümü ağzımda qoydu.

Mən də elə sabahı gün yığışıb dayım evindən çıxdım...



### III

Havada bir gilə meh yox idi. Ağacda yarpaq da tərpənmirdi. Çox durğun, xəfəli havalar başlanmışdı. Təbiət elə bil o dəfəki tufanda nəyi var «xərcləmişdi», sonraya heç nə saxlamamışdı. Xüsusilə günortalar hava elə isti olurdu ki, adamın ayağının altında asfalt əriyirdi. İyul belə olanda hələ gör avqust necə olacaqdı. Qorabişirən qabaqda idi. Ona görə çoxları şəhərdən çıxıb qaçırdı. Bağa gedən bağa gedirdi, dağa gedən dağa. Xanım ana ilə mənim isə heç yana getmək fikrimiz yox idi. Haramız vardı ki, hara gedək?! Şəxsən mənim üçün Xanım ananın evi həm dağ, həm də bağ idi. İstilər düşməyə başlayanda gedib mağazadan bir hava dəyişən aparat alıb gətirmişdim. İçəri otağa, pəncərənin ağzına qoymuşdum. Hərdən onu işlədəndə bütün otağı, hətta mətbəxi də küləkləyirdi. Elə bilirdim yaylaqdayam. Özü də elə yaxşı idi ki, pərlərini gah sağa, gah da sola çevirib hər yerin «xətrini xoş» eləyirdi. Xanım ananın da xoşuna gəlirdi. Çox yaxın dayana bilməsə də, uzaqdan da olsa, onun mehindən sərinləyirdi. Hər dəfə də buna görə mənə təşəkkür eləyirdi.

Bu, kiçik şey olsa da, şad olurdum ki, Xanım ana razı qalıb. Axı o çox xeyirxah insan idi. Sən ona bir çöp qədər nə isə eləsən, o çalışacaqdı ki, əvəzini on dəfə, yüz dəfə artıq çıxsın. Amma hiss edirdim ki, o, çox zəifləyib. İsti olanda tablamır, özünü pis hiss eləyir. Deyəsən, ürəyi xəstə idi. Nə olacaqdı?! Qoca arvad idi, hay-hayı gedib, vay-vayı qalmışdı. Ona görə ev sahibimə çox qayğı göstərirdim. Dükan-bazara həmişə özüm gedirdim. Çoxlu ərzaq alıb evə qoymuşdum

ki, əlini atanda hər bir şeyi hazır görsün, korluq çəkməsin. Qəndini-çayını da bol eləmişdim. Bu az vaxtda bir-birimizə tezcə isnişib ana-bala kimi dolanırdıq...

Amma ürəyimə dammışdı ki, bu arvad xəstələnəcək. Həqiqətən, bir gün işdən evə gələndə onu çox halsız, taxta uzanmış gördüm. Fağır arvadın rəngi kağıztək ağarmışdı. Üzündə bircə damcı qanı yox idi. Qollarını hərəkətsizcə yanlarına uzatmışdı. Elə bilirdin arvad keçinir. Tamam əlimi üzdüm. Dedim, daha qurtardı. Bilmədim nə edim? Qonşuların üstünəmi qaçım? Bəlkə, həkim çağırım? Nəsə bir kömək lazımdır. Hər halda, bir baş bilən adam gəlsə, yaxşı olardı. Məsələ burasında idi ki, kimin üstə qaçım? Heç kəsi tanımırdım. Təkcə mənə bu evi nişan verən qızı tanıyırdım. Ona ərk eliyə bilərdim. Onu da o vaxt gördüyüm idi. Amma qonşu mənzildə yaşadığını bilirdim. Axşamda, sabahda qonşu mənzilə gedib-gələn adamlara çox fikir vermiş, diqqət yetirmişdim. Lakin qız gözümə dəyməmişdi. Mən də bu qənaətə gəlmişdim ki, qız mənə yalan satıb, o buralarda yaşamır. Nə isə bir kəsin üstə qaçacaq fikrindən dönüb ən əvvəl özüm yoxlamaq istədim ki, Xanım anaya nə olub? Yaxın gedib aşağı əyilərək təlaşla səsləndim:

– Xanım ana! – Mən də onu bu cür çağırırdım. İlk dəfə o qız mənə onu necə təqdim etmişdisə, ona elə o cür də müraciət edirdim. Həqiqətən, bütün bina, deyəsən, ona «Xanım ana» deyirdi. Bir-iki dəfə həyətdə onu məndən soruşmuşdular ki, Xanım ana evdədir? Necədir? Nə ilə məşğuldur? Onda bilmişdim ki, Xanım ana elə Xanım anadır. Bu cür də ona yaraşırdı. Adı ilə şəxsiyyəti arasında tam bir uyğunluq var idi. Çox xanım-xatın arvad idi.

Ona görə narahat olduğumu, qorxduğumu hiss edən Xanım ana heysiz olsa da, özünü toplayıb cavab verdi.

– Bir azca nasazlamışam, oğlum, sən mənə fikir vermə, öz işində ol.

Qəribə arvad idi. Bu yerdə də mənim fikrimi çəkir, mənim qayğıma qalırdı.

– Haran ağrıyır? – deyə daha da aşağı əyildim. Xanım ananın qabağında domuşuqlu dayanıb əlini ovcuma aldım. Dərisi yuxalıb qırış-qırış olmuş barmaqları buz təki idi.

– Heç yerim ağrımır. Görünür, elə-belə zəifləmişəm, deyə ev sahibəm məni doğma nəzərlərlə süzdü. Çox halsız olmasına baxmayaraq, üzünün ifadəsi sakit, təmkinli idi. Ağrımasına baxmayaraq, özünü çox təmkinli, dözümlü tutmuşdu. Xasiyyəti belə idi. Xanım ana başqa cür edə bilməzdi. Dünyagörmüş arvad idi. Həyatında nə qədər ağrı, acı olmuşdu. Bilirdi ki, «ah», «uf» eləməyin mənası yoxdur. Kim bu dünyanı tutub durub? Nə qədər yaşasan da – səksən, doxsan, yenə bir gün yoxsan. İnsanın bu müvəqqəti, əmanət ömrü barəsində heç bir fikir onu heç vaxt qorxutmamışdı. Onun ürəkli, dəyanətli bir insan olduğunu mən bilirdim. Bu az vaxtda ona yaxşı bələd olmuşdum. Hər sözündən, söhbətindən bu nəticəyə gəlmişdim ki, Xanım ana ömrü, insan həyatını necə yaşamasında

görür. Bax, o özü tək, yaşlı arvad idi. Ondan, bundan uma bilərdi ki, müəyyən işdə ona kömək olsunlar. Amma birinci növbədə Xanım ana özü adamların köməyinə gəlməyə çalışardı. İndi də özünü elə tuturdu ki, guya, onda elə bir ciddi şey yoxdur. Mən də bundan bir az canlanıb onu inandırmağa çalışdım ki, həqiqətən, elə bu cürdür. Hazırlaşdım deyəm ki, ay Xanım ana, bunların hamısı havasızlıqdandır. İmkanın olsa, həyətə çıxardın, hava vuran kimi o dəqiqə özünə gələrdin. Bu gün havada da bir balaca meh vardı. Amma gördüm arvadın halı yoxdur ki, durub eşiyə çıxsın. Elə vəziyyətdə deyildi. Ayaq üstə dura bilmirdi. Və mənim ona eşiyə çıxmaq təklifim yersiz olardı. Bəs mən onun üçün nə edim? Tez durub pəncərəni geniş açdım ki, içəri hava gəlsin. Sonra da qaçıb çaydanı qazın üstə qoydum. Ona çay vermək istədim. Mənim ona görə narahat olduğumu Xanım ana görür, adəti, xasiyyəti xilafına heç bir şey demirdi. Fikri elə bil başqa yerdə idi. Bu vəziyyətdə onun nə haqda fikirləşdiyini demək çətin idi. Nə biləsən?! Adamın fikri üzündə yazılmır ki, oxuyasan. Amma o, bu ara mənə elə xoş nəzərlə baxırdı ki, hiss elədim mənim haqqımda düşünür. Düşünür ki, qulluğunda durduğum üçün, ona görə narahat olduğum üçün mənə necə təşəkkür etsin, necə minnətdarlığını bildirsin. Mən isə ondan təşəkkür gözləmirdim. Çünki bu, mənim borcum idi. Evində qaldığım az vaxtda biz bir-birimizə doğma ana-bala qədər yaxın olmuşduq...

Xanım ananın hər bir işindən – mənə olan münasibətindən, söz-söhbətindən çox razı idim. Cəhd edirdim, öz növbəmdə mən də ona yaxşı olum ki, məndən razı qalsın. Hətta çalışırdım ki, təkcə evdə yox, həyətdə də elə durum-oturum, elə işlər görüm ki, qonşular da yaxşılığımı danışsınlar. Söz də o dəqiqə gəlib Xanım ananın qulağına çatacaqdı. Söyləyəcəkdilər ki, bəs belə-belə, filankəsin kirayənişini elə yaxşı oğlandır ki, bax, dünən belə elədi, sabah da filan işi görəcək. İnanın, bu fikir özümə görə deyildi. Xanım anaya görə idi. Amma ortalıqda elə bir iş yox idi ki, qollarımı çirməyib girişəydim, mən də bir qulpundan tutaydım. Bina bir, evin damı bir olsa da, hərənin öz işi-gücü vardı. Hər kəs öz dərdində-azarında, kefində idi. Burada neçə ailə, neçə adam vardı. Amma onları ümumi bir şey birləşdirmirdi. Münasibətlərindən, hərəkətlərindən bəzən bu fikrə gəlirdim ki, onlar bir-birlərini, bəlkə də, heç tanımırlar. Tanısalar da, əgər bir-birlərindən işləri keçmirsə, tamam yad kimidirlər. Yalnız uşaqlar əlbir, dilbir idilər. Onları həmişə bir yerdə görürdüm. Yığılıb bir yerdə söhbət edirdilər, gülürdülər, zarafatlaşırdılar, dəstə-dəstə olub oynayırdılar. Mən də işdən sonra, yaxud istirahət günlərində həyətə düşəndə həmişə onlara yaxın skamyada oturar, sözlərinə-söhbətlərinə kənardan-kənara qulaq asardım. Özlərinə, sözlərinə qarışmasam da, mənən onlarla olardım. Görünür, qəlbən hələ onlar tərəfdə idim. Çünki həyətdə yaşlı adamlar da olurdu. Nəyə görəsə mən onlardan hələlik gen gəzirdim. Mənimki uşaqlar idi.

Bir gün gördüm uşaqlar asfaltın üstündə tennis oynayırlar. Təəccüb elədim. Asfaltda da tennis oynayarlar? Əslində, uşaqların özlərinin də xoşuna gəlmirdi. Yanlarından keçəndə ayaq saxlayıb dedim:

– Bu necə tennis oynamaqdır?! Özünüzü biabır eləməyin.

– Bəs necə edək? – Uşaqlar əl saxlayıb əlacsız dilləndilər.

Bunun çox asan bir iş olduğunu bildirdim:

– Necə nə edək?! Tennis stolu düzəldin, – dedim.

– Taxta tapmırıq, yoxsa düzəltməyə nə var?!

Tennis oynamağa uşaqların xüsusi həvəslərini hiss edib dedim:

– Mən sizə kömək edərəm.

Uşaqların dini dirildi. Bilmədilər nə etsinlər.

– Aaa, sən nə yaxşı oğlansan! – deyə hərə bir tərəfdən məni təriflədi.

Ürəklə söz vermişdim. Belə şeylər düzəltməkdən xoşum gəlirdi. Həm də uşaqlıqdan dülgərlikdən az-çox başım çıxırdı. Orta məktəbdə oxuyanda əmək dərsində bizə dülgərlik öyrətmişdilər. Orduda da bir az üstünə qoymuşdum. Sevdiyim bir işlə məşğul olmaq üçün bu da bir bəhanə idi. Tikintidə ordan-burdan bir az taxta tapdım, gətirib uşaqlar üçün həyətdə bir tenis stolu düzəltdim. Uşaqlar bilmirdilər mənə necə təşəkkür etsinlər. Evə gələndə də Xanım ana bu iş üçün məni alqışladı.

– Gör nə yaxşı iş gördün – dedi. – İndi uşaqlar səndən ötrü əldən-ayaqdan gedəcəklər.

– Eh, onlar üçün nə etmişəm ki?! – Deyə mən də gördüyüm işin çox xırda iş olduğunu bildirdim.

– Bax, mənim oğlum da sənin kimi idi, ay bala! – Xanım ana divardakı əsgər oğlanın şəklinə baxa-baxa danışdı. – Çox qayğıkeş idi. Hamının işinə yaramağa çalışırdı. Anası ölsün, ayrı cür balaydı!

Bu həmən mən ilk dəfə bura gələndə gördüyüm, otaqda birinci gözümə sataşan şəkil idi. Elə o vaxt da oxşatmışdım. Sonra ev sahibəm özü dedi ki, oğlumdur. Sən demə, bu arvadın bircə övladı varmış. Həmən bu şəkildəki oğlan. O da müharibəyə gedib gəlməyib. Bax, o zamandan da bu arvad dörd divar arasında yalqız qalıb. Çünki əri də yoxmuş. Hələ davadan qabaq banditizmə qarşı mübarizə illərində həlak olubmuş. Bunları biləndən sonra bu kimsəsiz arvada canım yandı. Necə deyərlər, hərə bir cana borcludur. Onlar ölüb getmişdilər, artıq həyatda yoxdular. Amma onların yoxluq əzabını bu arvad çəkirdi. Xüsusilə oğlundan ötrü indinin özündə də şam təki əriyirdi. Tez-tez ondan söhbət salırdı. Heç bircə an da yadından çıxartmırdı. Oğlum elə getdi, oğlum belə getdi. Elə danışırdı ki, deyirdin bu söhbətlərdə təsvir olunan hadisələrin üstündən bircə gün də keçməyib. Mən də nə deyim?! Kirimişcə ona qulaq asırdım. Hərdən də dönüb şəklə baxırdım. O da iti gözlərini zilləyib şəkildən mənə baxırdı. Ağzımızı

açıb dillənməsək də, səsimizi çıxartmasaq da, lal baxışlarımızla bir-birimizə nəsə deyirdik. Və sonradan qara basırmış təki mənə elə gəldi ki, həqiqətən, mən bu oğlanı tanıyıram. Bir yerdə olmuşuq. Bir yerdə gəzməyə çıxmışıq. Halbuki o, davada vuruşanda mən qundaqda uşaq idim. Bu dünyanın çəlpəşik, dolanbac işlərindən xəbərsiz idim. Ağlıma da gələ bilməzdi ki, sonralar mən həmən bu şəkildəki oğlanın anasının yanında olacam. Onun bir vaxtlar yatdığı çarpayıda yatacam. Onun bir vaxtlar oturduğu stulda oturacam...

Xanım ana bir səhər də mənə söylədi ki, gecə oğlumu yuxuda gördüm. Gördüm gəlib. Diz-dizə oturub çoxluca söhbət elədik. Uşaq heç dəyişilməmişdi. Ev sahibəm elə  həvəslə danışırdı ki, elə bil yuxusu çin olmuş, oğlu, həqiqətən, gəlmişdi.

O, bunu həvəslə, şadlıq içində danışırdı. Mənsə qarşısında sakitcə dayanıb üzünə baxırdım. Bilmirdim qoca qadına nə deyim? «Oğlun gələcək» – deyim? Yoxsa həqiqətimi söyləyim? Yuxudur görmüsən, ancaq oğlun gəlməyəcək. Gör müharibədən nə qədər vaxt keçir. Ancaq dediyim kimi bu söhbətlərimiz elə canlı, elə təsirli olardı ki, mən bəzən hissə qapılıb evdə iki yox, üç adam olduğumuzu zənn edərdim. Xanım ana, mən, bir də şəkildəki oğlan. Şəkil də evin ən görkəmli yerindən asılmışdı. Elə adam olmazdı ki, qapını açıb içəri girəndə birinci o şəkli görməsin. Buna o qədər adət etmiş, o qədər öyrəşmişdim ki, stolun ardında oturub çörək yeyəndə də şəkil tez-tez gözümə sataşırdı.

Bu hal da mənim həyatımı, qoca qadının evində keçirdiyim günləri elə bil mənalandırmışdı. Fikirləşirdim ki, bu az vaxtda necə oldu ki, bu qoca qadın mənə anam qədər, nənəm qədər yaxın oldu. Həqiqətən, mən də bu evə köçəndən sonra bildim ki, dayımgildə necə əziyyət çəkmişəm, müsibətlərə dözmüşəm. İndi ağ günə çıxmışdım. Sərbəst adam idim. İşimi qurtaran kimi ağlım kəsən yerə çıxıb gedirdim. Kim idi mənim qabağıma çəpər çəkən?! Qabaqlarsa işimi qurtarandan sonra heç yerdə ləngiməz, birbaş evə gələrdim: demək olmaz, evdə dayıma, dayıdostuma lazım olaram, bir işə-gücə buyurarlar. Bunun üstündə yoldaşlarım çox vaxt məndən inciyərdilər. Çünki ora-bura getmək lazım gələndə mən kənara çəkilməli olurdum. Başqa cür mümkün deyildi. Biri deyirdi kinoya gedək. Biri deyirdi gəzməyə çıxaq. Hələ isti vaxtlarda elə iş yerindəcə yığışıb çimərliyə gedənlər də olurdu. Bunların hamısına mən qoşulsaydım, evdə yerim soyuq olardı. Dayıdostumun məni yerli-yersiz, ora-bura qovmaqdan, buyurmaqdan xoşu gələrdi. Hərdən fikirləşirdim ki, babam-nənəm mənim bu günümü görsələr, dözməzdilər. Oğlanlarını, gəlinlərini nə qədər istəsələr də, hörmət etsələr də, mənə görə onlar yəqin ki, qaşqabaq sallayardılar. «Bu uşağı sizə nökər-zadmı vermişik?! – deyərdilər. – Öz işinizi özününz görsəniz?!»

Əslində, arada elə bir iş də yox idi. Mənimlə cəmi üççə nəfər idik. Çünki neçə il idi bunlar evlənib ailə qurmuşdular, amma uşaqları olmamışdı. Bunun

tarixçəsini də mən ucundan-qulağından eşitmişdim. Nə vaxtsa dayıdostunun uşağı olurmuş, özü qoymayıb «eyy, uşağı neynirəm?! Hələ subay gəzmək istəyirəm» – deyə gedib saldırıb, nə bilim nə eləyib?! Sonra da bu istəyib, uşaq olmayıb. Bunu kənddə nənəm anama danışanda eşitmişdim. Sonra da nənəmin:

– Ədə, ədə, a İldırım, bə bu işin axırı necə olacaq? Gəlin bizi niyə yazıq elədi? – deyə ağladığını görmüşdüm. Onadək bu məsələyə görə adamların ağladığını düzü görməmişdim. Dayım da dinməmişdi. Nə desin?! Arvadının da vecinə deyildi. Hətta bir dəfə onun rəfiqəsinə: «Ay qız, heyif deyil beləcə azad gəzəsən?! Külü başına qoyaram uşağın əlimə-ayağıma dolaşa!» – dediyini eşitmişdim.

Nə isə... bunlar öz işləridir. Amma dayıdostum mənim vaxtımı çox alırdı. İş, ev, institut, heç bilmirdim hansının ardınca qaçım.

Vəziyyətimi Sahib bilirdi. Ancaq bu mənim şəxsi işim olduğu üçün qarışmırdı. Yalnız hərdən mənə:

– Həə, sənlə kinoya, teatra, nəsə bir yerə gedərdik. Ancaq olmaz, icazə vərəqən yoxdur! – deyə sataşardı.

Bir də əvvəllər elə bilirdim ki, bir gün evə gəlməsəm dayım dəli olar. Dayıdostumun gözünə yuxu getməz, axtarış elan edərlər. Özlərini ora-bura vurarlar, tapmamış sakitləşməzlər. Hamısını öz ürəyim kimi bilirdim. Dayımı, dayıdostumu dünyalarca istədiyimi də bilirsiniz. «Öl» desələr ölərdim. Sən demə onlar belə deyilmişlər. Başa düşdüm ki, mənim evdən getməyim heç kəsi narahat eləməyib. Məndən ötrü heç kəsin əli uzalı deyilmiş. Bəlkə də, deyirlər ki, yaxşı oldu getdi. Çünki narahat olsalar, hər halda, axtarardılar. Maraqlanardılar ki, bu hara getdi, harda itib batdı? Köçdüyüm yeri bilməsələr də, iş yerinə gələrdilər, xəbər tutardılar.

Başımı yırğalayıb ən çox buna təəssüflənirdim. Təəssüflənirdim ki, dayımı onun arvadını indiyə kimi yaxşı tanımamışam. Sən demə, onlar özləri üçün imişlər. «Niyə belə olsun?! Adamlar nə üçün soyuqqanlı olublar? Niyə bir-birlərinə etibarsızlıq edirlər?» Bunları ürəyimdə yana-yana düşünürdüm. Ona görə belə fikir etmirdim ki, dayımgildən çıxmışam, peşman olmuşam. Onlarsız yaşaya bilmirəm. Xeyr. Belə deyildi. Ardımca minnətçi də gəlsə, qayıdan deyildim. Qəlbimdə dərin məhəbbət bəslədiyim, inandığım adamların laqeydliyi, biganəliyi məni yandırırdı. Bunu yaman ürəyimə salmışdım. Fikirli olmağım Sahibin gözündən qaçmadı.

– Nə olub? Niyə qəm dəryasına batmısan?

– Sənə elə gəlir.

– Sözünə inanım, yoxsa gözlərinə?!

– Sözümə, – gülümsündüm. Dostumu inandırmağa çalışdım ki, bir fikrim yoxdur. İşlərim qaydasındadır. Könlümə dəyən olmayıb. Dostum da əlini açıb razılaşdı. Hərəkəti ilə bildirdi ki, kaş sən deyən olsun, mən buna çox şadam.

Sonra peşman oldum, nə üçün düzünü demədim? Niyə demədim ki, dayımgildən çıxmışam? Daha onlarda olmuram. Filan ünvanda ev tutmuşam. Başa düşdüm ki, bir azca da qapalı adamam. Bu da yaxşı deyil. Adamlar bir-birlərinə isnişsələr, həyatda yaşamaq bir o qədər asan olar. Halbuki dostuma danışmağa o qədər sözüm var idi ki. Gülə-gülə, sevinə-sevinə söyləyərdim ki, qardaş, təzə-təzə gün görürəm. Ev sahibəm mənə doğma balası təki baxır. Evinə ayaq qoyan gündən yemək-içməyimi stolun üstə hazır, paltarımı ütülü görürəm.

– Nə zəhmət çəkirsən?! Qoy bir iş də mən görüm. Elə hər şeyi sən... – deyərdim. – Səhər yuxusu şirin olar, bala. – Ev sahibəm qayğıkeşliklə dillənərdi.

Mən çox deyirdim, o az eşidirdi. Hətta bir dəfə sözümdən alınıb qəmli-qəmli demişdi:

– Qadan alım, yoxsa mənim elədiklərimdən xoşun gəlmir?

– Nə danışırsan, ay ana. Heç ananın da əlindən bərəkətli, dadlı-təmli əl olar?!

Sözlərim xoşuna gəldi, çiçəyi çırtladı. Əvvəllər ümumi görkəmindən zəiflik, solğunluq sezilən qoca arvadın rəngi-ruhu get-gedə durulurdu. Axşam-sabah oturub mənimlə bərabər çay-çörək yeyirdi. Səhər-səhər işə gedəndə pilləkənin başından məni yola salırdı. Həmişə deyirdi ki, günorta üçün isti yemək hazırlayım, gəl ye!

– Sağ ol, Xanım ana, çatdıra bilmərəm. Vaxt azlıq eliyər, – deyərdim.

Axşamlar da evə qayıdanda çox vaxt onu həyətdə, blokun ağzında görürdüm.

– Bayaqdan sənin yolunu gözləyirəm, bala.

– Niyə narahat olursan?

– Ürəyim durmur. Düşürəm ki, görüm gəlirsən?

O, belə deyəndə az qalırdım dizi üstə çöküb əlindən-ətəyindən öpüm, ona səcdə eləyim. Sonra söhbət edə-edə evə gəlir, birlikdə şam edirdik. İştahayla yeməyimdən ev sahibimin xoşu gəlirdi. Görürdüm əlini çənəsinə dayayıb ağzıma baxır. Bişirdiyi xörəklər haqqında dilimdən tərifli sözlər eşidəndə gülümsəyirdi. Gümrahlanıb, şənləşirdi. Əvvəllər çox vaxt dörd divar arasında tək-tənha oturduğu halda, indi tez-tez həyət-bacaya çıxır, adamlarla danışır, gülürdü.

Bir axşam şən-şən məndən soruşdu:

– Bəs bir gözaltın yoxdur?

Gülümsəyib başımı aşağı salmışdım.

– Qəşəng, halal süd əmmiş bir qızın qolundan tutub gətirsənə! – deyə məqsədini bildirmişdi.

– Yaxşı! – deyə gülə-gülə mən də başımı tərpətmişdim. Onun da xətri xoş olmuşdu.

Ya bu söhbət beynimdə qalmışdı, ya da onun fikri ilə yatmışdım, həmin gecə qəribə yuxu gördüm. Gördüm ki, toydur. Yaşadığımız bu balaca otaq böyüyüb genişlənib. Qonşuların otaqları da boşaldılıb. Bütün mərtəbə bizim ixtiyarımıza

verilib. Hamı gülür, danışır. Şən qəhqəhələrdən çilçıraqlar titrəşir, işıqlar oynaşır. Musiqi hər yanı bürüyüb. Ev sahibəm qollarını qaldırıb süzür nə süzür. Get-gedə yeyinləyir... Və bu yaşda arvad o qədər oynadı ki, çalğıçılar yoruldu. Çəpik vuranların ovucları ağrıdı. O isə meydandan çıxmaq istəmirdi. Elə bil arvad ömründə bir dəfə də olsun, qollarını qaldırıb oynamamış və bütün həyatı boyu oynamağa həsrət qalmışdı. Ona görə də indi doyunca oynayıb, heyfini çıxmaq istəyir...

* * *

... İndi Xanım ananı bu vəziyyətdə görəndə düzü özümü itirdim. Bilmədim nə edim. Halsız görünüşündən aydın idi ki, Xanım ananın vəziyyəti yaxşı deyil.

– Ay Xanım ana, axı nəyindir?

– Ürəyimdir, ay oğul. – Xanım ana əlini döşünün üstünə qoydu. Ancaq elə bir tərzdə dedi ki, narahat olmayım.

– Xanım ana, bəlkə, həkim lazımdır?

– Həkim?

– Hə!

– Zəhmət olmasa çağır, gəlib baxsın, görək nə deyir. – Xanım ana, həqiqətən, həkim lazım olduğunu bildirdi.

Başa düşdüm ki, Xanım ananın halı pisdir. Yoxsa o, hər kiçik şeyə görə mənə əziyyət vermək istəməzdi. Görünür, ürəyinin ağrısına dözə bilmirdi. Əlbəttə, ürəklə zarafat etmək olmaz. Xəstənin qolunu üsulluca yanına qoyub cəld qalxdım. Tez evdən çıxdım. Qapının ağzında bir an dayandım. Fikirləşdim ki, hardan zəng edim. Küçəyə getmək gec olmazmı? Qonşulardan necə? Hansında telefon var? Kimdən zəng etmək olar?

Birdən yadıma ilk dəfə gördüyüm qız düşdü. Axı özü öz diliylə demişdi ki, Xanım ananın qonşuluğundakı evdə oluram. Bəlkə, onlara müraciət eləyim. Qız xeylağıdır. Həm də gəlib qoca arvada kömək eləyər. Özü də ürəkdən eləyər. Qızla yaxından tanış olmasam da, halına, xasiyyətinə bələdliyim olmasa da, nədənsə belə qənaətə gəlmişdim. O cür məlahətli səsi, zərif görkəmi olan bir qızın xasiyyətcə də gözəl olmasına mənim heç bir şəkk-şübhəm qalmamışdı.

Qapının zəngini çalmışdım ki, qabağıma bir bədrəng kişi çıxdı. Mən qızı gözləyirdim, bu kimdi görəsən? Özümü itirən təki oldum.

– Sizdən zəng etmək istəyirəm! – dedim. Amma hiss elədim ki, bu cür hərəkətimdən kişinin möhkəm acığı tutdu. O, sərt-sərt məni süzüb dinmədən qapını üzümə çırpdı. Yaman pərt oldum. Ancaq daha keçmişdi. Bunu ürəyə salıb əsas işdən soyumağın yeri deyildi. Tərpənib küçəyə qaçmalı oldum. Hələ heç telefon tapıb təcili yardıma zəng etməmiş olsam da, qulaqlarımda onun həyəcan siqnalını eşidirdim. Həqiqətən də, zəng edəndən cəmi on beş dəqiqə keçməmiş təcili yardım maşını həyətdə hazır oldu.

Ev sahibəmin xəstələnməsindən çox pis olmuşdum. Həkim də bunu hiss etmişdi. Oturmaq üçün verdiyim stulu xəstəyə yaxın çəkib soruşdu:

– Ay ana, haranız ağrıyır?

– Nə bilim, qadan alım, deyəsən, ağrı hər yerimdədir, – deyə Xanım ana həkimin yanında çox ıqqıldayıb «ah», «uf» eləməsə də, canında möhkəm ağrı olduğunu da gizlətmədi.

Həkim xəstənin biləyini əlinə alıb nəbzini yoxladı. Sonra fonendoskonu qulaqlarına taxıb ürəyinə, ciyərinə qulaq asdı. Mənim də gözüm həkimin üzündə qalmışdı. Onun nə deyəcəyini gözləyirdim. Həkim bir azca fikirli dayansa da, bir söz demədi. Tibb bacısına tapşırıq verdi ki, xəstəyə iynə vurmaq lazımdır. Bu əməliyyatlardan sonra Xanım ananı xəstəxanaya yazdı. O da etiraz eləmədi. Durmaq istədi ki, xəstəxanaya getmək üçün müəyyən hazırlıq görsün. Həkim icazə vermədi. Xanım ana məcbur olub məni buyurdu. Mən də nə lazımdı hazır elədim.

Beləcə, arvadı xəstəxanaya apardıq. Onu tez palataya götürdülər. Həkim də gəlib baxdı. Mən xeyli onun yanında qaldım, ürək-dirək verirdim. O isə mənim hayıma qalmışdı. Tez-tez tapşırırdı ki, özünə yaxşı bax, yemək-içməyinə fikir ver, ac qalma. Qazdan-zaddan da muğayat ol, birdən unudub açıq qoyarsan...

– Xanım ana, məndən nigaran qalma, özünə fikir ver.

– Di yaxşı, qadan alım, sən get, daha gecdir.

Palatadan çıxanda tamam dilxor oldum. Gördüm xərəkdə gizlincə, tez-tələsik xəstə aparırlar. Üzünə mələfə çəkmişdilər. Həə. Kimdisə onunku qurtarmışdı. Baxa bilmədim. Üzümü çevirib pilləkənə yönəldim...

Xəstəxanadan qayıdanda isə yaman yorulmuşdum. İşdə heç belə yorulmazdım. Halbuki tikintidə işləmək hər oğulun işi deyil. Bütün günü daşla, torpaqla, palçıqla əlləşirsən. Bu günün yorğunluğu isə mənəvi yorğunluq idi. Bəli, Xanım anaya görə elə qorxmuş, elə həyəcan keçirmişdim ki, indi əlimi bir şeyə vurmaq iqtidarında deyildim. Adicə qazı yandırıb özüm üçün bir stəkan çay qaynatmağa heyim qalmamışdı. Qabaqlar olmağa balaca bir künc gəzərdim. Bir çarpayılıq yerə həsrət çəkərdim. İndi böyük bir otaq mənə qalmışdı, amma mən birdən-birə qəfəsdəki quşa dönmüşdüm. Xanım anasız bura elə soyuq, elə cansıxıcı olmuşdu ki, az qalırdım durub qaçam. Ürəyim açılmırdı. Başımı nə qədər qarışdırmaq istədim, bir şey çıxmadı. Xanım ananın yeri ayrı idi. Evdə olanda bir anımız belə söhbətsiz keçmirdi. Bir də xəbər tuturduq ki, gecə yarıdan keçib. Ondan sonra durub yatırdıq. Bəzən yerimizin içində də nəsə danışırdıq. Elə olurdu ki, Xanım ana nəsə deyir, soruşur, mənim də gözümdən yuxu tökülür, güclə «hə», «yox» deyirdim.

Doğrudur, bu dəfə hələ yatmaq vaxtı deyildi. Ancaq ürəyimə dammışdı ki, bundan sonra daha o cür yuxum olmayacaq. Xüsusilə bu gecə yata bilməyə-

cəyəm. Evin Xanım anasız belə dəhşətli sıxıntı içərisində olacağını mən ağlıma sığışdıra bilməzdim.

Xanım anaya görə bərk həyəcan keçirdiyimdən dilim-dodağım qurumuşdu, çay içmək istəyirdim. Ürəyim yanırdı. Durub bir iş görməyə həvəsim olmasa da, yenə birtəhər qalxdım, qazı yandırıb çay qoydum. Güman etmək olardı ki, belə-belə şeylərə başım qarışar, darıxmaram. Mətbəxdən otağa keçəndə gözüm divardakı şəklə sataşdı. Bu, əlbəttə, birinci dəfə deyildi. Mən çox vaxt burdan içəri evə keçəndə bu şəklə baxırdım. Şəkil indi, xüsusilə diqqətimi cəlb etdi. Xanım ananın evdə olmamasından, onun bu dörd divarının başsız qalmasından necə hövülləndim, necə həyəcanlandımsa, şəklə baxıb özümdən asılı olmayaraq:

– Ayə, qardaş! – dedim – anan yamanca xəstələnib.

Əslində, şəkildəki bu oğlan mənə əmi, dayı düşərdi. Dursa, indi mənim boyda uşaqları vardı. Özü də ağ saçlı, qəddi-qamətli kişi olardı. Amma həyatı belə gətirmişdi ki, məndən cavan qalmışdı. Bu yaşda mən ondan böyük idim. Bu səbəbdən də ona «qardaş» deyə müraciət edirdim. O isə dinmirdi. Və mənə elə gəldi ki, bu ara o, üzümə qəmli-qəmli baxıb məndən kömək diləyirdi. Ürəyimdə deyirdim: «Sən fikir çəkmə, anan üçün nə lazımdır mən eliyəcəm...»

## IV

Xəstəxanaya Xanım anaya dəyməyə gedəndə kefim yox idi. Bəlkə də, bu, bir qədər hava ilə əlaqədardı. Səhər-səhər sakit hava olduğu halda, günortadan sonra yenə qəfildən bərk tozanaq qalxmış, aləmi bir-birinə qatmışdı. Başıma-gözümə toz-torpaq dolmuşdu. Bakının da havasından baş açmaq olmur. Gündə neçə dəfə dəyişilir. Hələ bu tozanaq qaldıran külək çox çəksəydi, lap pis olardı. Yaxşı ki, tez yatdı. Tikinti sahəsindən bir azca aralı boş çöllükdən fırlana-fırlana qalxıb gəlib düz bizim yanımıza çıxdı. Burda da özünü ora çırpdı, bura çırpdı, qumu sementə, sementi quma qatıb-qarışdırdı. Sonra da fırlana-fırlana düz Şubanı dağlarına sarı çıxıb getdi. Amma bu çox az çəkən burulğanlı külək havanı necə korladısa, hamı asqırıb-öskürməyə başladı. Düşündüm ki, görünür, təbiətin özünün də mənasız işləri olur. Bəlkə də, mənasız deyildi? Ola bilsin bu cür küləklərin də həyatda öz tapşırıqları, öz vəzifələri var. Mən indi onu başa düşə bilmədim. Xanım ananın da vəziyyətinin yaxşı olmadığını görüb qanım bir az da qaraldı. Arvadın bət-bənizi tamam qaçmışdı. Evdə bundan yaxşı idi. Bəlkə də, xəstəxana şəraiti onu sıxmışdı. Həkimini görüb söhbət elədim.

– Əlimizdən nə gəlir edirik! – dedi və əllərini açdı.

Düzü, həkimin gümana danışması məni açmadı. Bəs bu adam müalicəsinin nəticəsini görmürmü? Verdiyi dərmanların necə təsir etdiyini bilmirmi? Mənim həkimə qarşı belə sərt münasibətim, əlbəttə, Xanım ananı tezcə ayaq üstdə, sağ-

salamat görmək istədiyimdən irəli gəlirdi. Arvad tezcə yaxınlaşıb evinə-eşiyinə qayıtsın. Deyirəm, bu da mənim bəxtimdən idi. Gərək elə bu arvad xəstələnə idi?! Yaxşı deyirlər ki, yetimə ay da qara, gün də qara. Təzəcə ağ günə çıxmışdım ki, gəlib belə oldu.

– Yaxşı, ay Xanım ana, ürəyin nə istəyir? Sabah sənin üçün nə alıb gətirim? – Nəhayət, getmək üçün ayağa durdum.

Xanım ana sozala-sozala dilləndi:

– Heç nə lazım deyil, qadan alım, sağ ol, çox sağ ol. Sən özünə yaxşı bax. Korluq çəkmə.

– Mən sarıdan narahat olma. Sən özünə fikir ver. Allah qoysa sağalıb çıxarsan, hər şey yaxşı olar.

Mən gülümsədim, özümü şən tutdum ki, kefi açılsın. Qayıdanbaş Sahibin yanından gəldim. Yataqxanada məni gözləyirdi. Qəşəngcə yuyunub daranmışdı. Gündüzdən danışmışdıq ki, axşamüstü şəhərə gəzməyə çıxaq. Birinci ev sahibimi xəbər aldı. Dayımgildən çıxdığımı, kirayə ev tutduğumu artıq bilirdi.

– Yaxşı deyil! – Xanım anadan çox nigaran olduğumu bildirdim.

– Qorxma, – dedi. – Ürəyimə damıb, heç nə olmayacaq. Bilirsən, yaxşı adamlar yaşamalıdırlar. Onsuz da onlar azalır. Biz isə indi gedək İçərişəhərə. Padvala. Orda yaxşı yemək verirlər. Gözüyün qabağındaca şiş qoyulur közün üstünə. Özü də təzə ətdən. Daha nə istəyirsən?! Ölmək istəyirsən, get Mazandarana.

Sahib bu sözləri elə bir şirinliklə, şövqlə dedi ki, mən də həvəsə düşdüm. Yaxşı bir yerdə oturmaq, xudmani məclis düzəltmək. Belə işlərdə Sahib çox pərgardı. İki daşın arasında bir şey təşkil eləsin, söhbətcil, məclis əhli yoldaşları bir yerə yığsın. Özü də əliaçıq oğlan idi. Nəyi olsa, dostu ilə, yoldaşı ilə bölüşərdi. Tikəsinin düşməni idi. Çox vaxt o olan yerdə bir kəs əlini cibinə salmağa macal tapmazdı. Hesabı həmişə özü kəsməyə çalışardı. Bir sözlə, xərcləyən oğlan idi. Amma bizim ikimizin cibimiz bir idi. Onda olanda o xərcləyirdi, məndə olanda mən. Düzü, pis də qazanmırdıq. Tikintidə yaxşı çıxırdı. Hətta hərdən nənəmə, babama da pul göndərirdim...

Kababxanada güclə yer tapa bildik. Oturandan sonra öyrəndik ki, pivələri qurtarıb. «Soyuq çaxırımız var» – dedilər. Ürəyimiz pivə istəsə də, qalxmaq istəmədik. Mətbəxdən gələn kabab iyi bizi birtəhər eləmişdi. Bayaqdan yeməyə o qədər həvəsimiz olmasa da, indi iştahaya gəlmişdik. Həm də durmağı özümüzə sığışdırmadıq. Yan-yörədəki adamlar elə bilər pulumuz yoxdur. Kabab, su, limonad, göy-göyərti sifariş etdik.

Bir azdan sifarişimiz dəyirmi stolun üzərinə səliqə ilə düzülmüşdü. Kababımız da gəldi. Bir az yeyib içəndən sonra adama bir siqaret yandırdıq.

– Həəə, belə-belə işlər. – Sahib nəsə fikirli halda alnını yığdı. Hiss elədim ki, yenə Kəmalədən danışmaq istəyir. Dərdini bilirdim. O, bu qız haqda bütün

günü danışsa, yorulmazdı. Özü də onun barəsində hər şeyi öyrənmişdi. Harda olurlar, kimdilər? Bax, atası yoxdur, çoxdan vəfat eləyib. Anası isə xəstədir, çox yaşlı deyil. Naxoşluğuna görə təqaüdə çıxıb. Elə bir qohum-əqrəbası da yoxdur. Qız da onuncunu qurtarıb. İnstituta, texnikuma getməyib. Halbuki yaxşı oxuyub, gedə bilərmiş. Hələ orta məktəbdə oxuyarkən bir dəfə sorğu keçiriblər ki, kim hara gedəcək? Biri deyib tibb institutuna, biri deyib müəllimliyə. Xülasə, hərə bir yer deyib. Bircə Kəmalə deyib ki, işləyəcəm. Özü də elə yerdə işləyəcəm ki, çox maaş alım. Yoldaşlarının hərəsi bir yandan ona söz atır:

– Booy, nə pulgirsən, ay Kəmalə?!

– Pulgir deyiləm, – qız başını bulayır. – Sadəcə olaraq anamın borcunu qaytarmaq istəyirəm. Xəstə ola-ola geyməyib mənə geydirib, yeməyib mənə yedirdib. Müalicəyə getmək lazım imiş, getməyib, bir yol da olsun Bakıdan çıxıb havasını dəyişməyib...

Qız dediyi kimi də eləyir. Axırıncı imtahanı verən günün səhəri iş axtarmağa başlayır. Düzü, işdən çox iş olur. Amma maaşı az. Qız razılaşmır. Nəhayət, axtara-axtara gəlib tikintiyə çıxır. Qızı adicə fəhlə götürürlər. O vaxtlar məhlulqarışdırıcı motorda bir arvad işləyirdi. O, buna hər şeyi öyrədir. Qız burda sonralar yaxşı pul alır. İki yüz-iki yüz əlli manat. Həmkarlar İttifaqından putyovka götürüb anasını sanatoriyaya göndərir. Özünə də pal-paltar alır. Xülasə, qızın işi bir az toz-torpaqlı, pal-palçıqlı olsa da, narazılıq eləmir. Təki anasına bir köməyi dəysin.

Sahibin də Kəmalənin bu cür xasiyyətlərindən xoşu gəlirdi. «Qoçaq qızdır» – deyirdi.

Kəmalə həm də yarlı-yaraşıqlı qız idi. İş paltarını soyunub bayırlığını geyinəndə heç tanımaq olmurdu ki, bayaq motorda işləyən, məhlulqarışdırıcı kovşun dövrəsində vurnuxan bu qızdı?! Kəmalənin mehribançılığına, səmimiyyətinə də söz ola bilməzdi. Bütün fəhlələr onun xətrini yerdən-göyəcən istəyirdilər. Onun sözü yaşından asılı olmayaraq, böyüklü-kiçikli hamı üçün qanun idi. Bir-iki dəfə xəstələnib işə gəlməmişdi. Ertəsi gün bütün işçilər yığışıb Kəmalə-gilə getmişdilər ki, görsünlər necədir? Özləri də, qonşular da məəttəl qalmışdılar ki, xəstə yanına bu qədər adam gələr?! Dükan-bazarı da köçürüb onlara gətirmişdilər. Bax, Kəmalə onlar üçün bu cür əziz idi.

Bunların hamısını mənə Sahib danışmışdı. İndi də istədi qızdan söhbət salsın. Ancaq nə fikirləşdisə, danışmadı. Bir azdan durduq.

Dostumdan ayrılıb yaşadığım binaya çatanda həyətdə bir kəs yox idi. Gündüzlər qazan təki qaynayan böyük həyət səngimiş, asudələşmişdi. Həyətin ortasında dayanıb nəzərlərimi işığı gələn və gəlməyən mənzillərin pəncərələrində, eyvanlarında gəzdirdim. Bu ara dəli təki qəribə fikrə düşdüm: birdən elə qışqırasan ki, binanın adamlarının hamısı bura tökülə, deyəsən: «Nə olub dörd divar arasına giribsiniz? Bəri gəlin, bu açıq havada oturub söhbət eliyək!» Sonra da

ürəyimdə öz-özümə güldüm ki, necə axmaq fikirlərə düşürəm. Camaat yıxılıb yatır, mən isə istirahətlərinə mane olmaq istəyirəm. Yəqin, bu fikirlər ona görəydi ki, tək idim, söhbət eləməyə yoldaş yoxdu. Sahibdən bu tezliklə ayrılmağıma peşman oldum.

Mənzillərdən gələn işıqlar orda-burda sönüb azalırdı. Artıq gec idi. Mən də bloka girəndə ayağımın ucunda yeridim ki, səs eləməyim, heç kəsə mane olmayım. Beləcə sakitcə pilləkənləri çıxa-çıxa yan-yörəmə, daşa-divara da nəzər salırdım. Bu binanı eşik üzündən bu yaxınlarda yaxşıca təmir etmişdilər. İçəri tərəfdən blokun divarlarına da əhəng vurub təzələmiş, pilləkənlərin taxtasına, dəmirinə rəng çəkmişdilər. Amma uşaqlar yenə divarları orda-burda yazıb korlamışdılar.

Öz mərtəbəmizə çataçatda gördüm pilləkənin başında bir adam dayanıb. Başımı qaldırıb baxcaq o dəqiqə tanıdım. Qonşu kişi idi. Xanım ana üçün təcili yardıma zəng etmək istəyəndə məni evinə buraxmayan kişi. İndi gərək mən beləsinə salam verəm, «axşamınız xeyir olsun» deyəm, üzünə xoş baxam. Nədinədi qonşuluqda yaşayırıq. Nədi-nədi məndən böyükdür. Cəhənnəmə qonşu olsun, gora məndən böyükdür. Əgər onun adamlığı yoxdursa, mən nə üçün elə etməliyəm?! Bu riyakarlıq kimə lazım idi?! Özümdən asılı olmayaraq, bu adamı görəndə ona qarşı çox qəzəbli, kinli bir hala düşdüm. Heç üzünə baxmaq istəmədim. O, bunu hiss etdimi, yoxsa etmədimi, demək çətindi.

Ancaq pilləkənin başına, deyəsən, papiros çəkməyə çıxmışdı və dayanıb damağında siqaretini tüstülədirdi. Kök, tosqun adam idi. Boynu bir qədər qısa olduğundan, deyirdin başı elə çiyinləri üstə bitib. Belə bu cür zahiri görünüşü onun mənəvi aləminin, xasiyyətinin kobudluğunu bir qədər də artırırdı. Bu ara ağlıma gəldi ki, bəlkə, heç mən düşündüyüm kimi də deyil. Hamının səhvi ola bilər. Hardasa telefon məsələsindən də keçmək olardı. Çünki telefonun təcili surətdə, tələsik, lap əlimyandıda lazım olduğunu ona deməmişdim. Bu yazıq hardan biləydi ki, mən Xanım ana üçün zəng edirəm, ona həkim çağırıram. Bir azca bundan qabaq bu qonşu kişi barəsində kinli-kinli düşünüb çox əzazil bir vəziyyətə gəlmiş olsam da, indi beləcə ayrı cür fikirləşib yumşalan təki oldum. Pilləkəni qalxıb yanına çatcaq heç bilmədim necə oldusa, kişinin qabağında ayaqlarımı cütləyib ehtiramla:

– Salam! Axşamınız xeyir! – Dedim.

Ola bilsin, ona bu cür hörmət və izzətlə yanaşacağımı gözləmirdi. Çünki öz işini bilməmiş deyildi. Bunu görüb mənim barəmdə, görəsən, nə fikirləşdi? Bəlkə də, mənim hərəkətimi qorxaqlıq kimi qiymətləndirirdi. Bu, öz işi idi...

Başını tərpədib o da mənim salamımı aldı. Amma elə bil bunu candərdi elədi. Dodaqlarını bekaraca tərpədib yenə siqaretini sümürdü. Mən də yana döndüm, əlimi cibimə salıb açarı götürdüm, qapını açmaq istəyirdim ki, arxamdan səsləndi:

– Cavan oğlan!

– Bəli! – deyə ona tərəf çevrildim. Belə fikirləşdim ki, kişi səhvini başa düşüb, nə isə demək istəyir. Ya da Xanım ananı soruşacaq.

– Bacıoğlu, yoxsa yatmaq istəyirsən?

– Necə bəyəm? – Mən də suala sualla cavab verdim.

– Elə-belə. Deyirəm, yəni bundan sonra yayın cırhacır vaxtıdır, istidən yatmaq olmur.

Bu kişinin qarnının azarını yenə başa düşmədim. Nə istəyir məndən? Qanımı qaraltmağa, bəlkə, bir bəhanə gəzir. Belə adamlar olur. Heç nədən görürsən birini qaralayırlar. Əgər elə adamdırsa, mən onun haqqında nə qədər yaxşı fikirləşsəm də, xeyri yoxdur.

– Cavan oğlan, gəlsənə bizə gedək.

Qulaqlarıma inanmadım ki, bu söz bu kişinin ağzından çıxdı. Təəccüblə soruşdum:

– Sizə?

– Bəli, bizə! Bacıoğlu, neçə vaxtdır qonşuyuq, amma bir-birimizi tanımırdıq. Doğrudur, bir az vaxtsızdır, nə eybi var, uşaqlar da evdə yoxdurlar, təkəm, söhbət edərik, heç kəsə mane olmarıq.

Həəə. Qonşu kişi də deyəsən mən günlü imiş, darıxırmış. Görünür, yuxusu qaçıb, çənə yoldaşı axtarırmış. Bu ara mən qəti fikrə gəldim ki, bu adam haqqında yəqin ki, səhv etmişəm. Nə olsun ki, o dəfə evindən zəng etməyə icazə vermədi... Nə isə təklifindən qaça bilmədim, içəri keçdik.

– Buyur, cavan oğlan, buyur, xoş gəlmisən! – qonşu məni qabağa saldı. Əlini çiynimə qoydu. Məni az qala döşü ilə itələyə-itələyə içəri apardı. Elə dəhlizə ayağımı qoycaq ağzım-gözüm əyildi. Bəh! Bəh! Hələ ömrümdə mən belə zəngin ev, belə dəm-dəsgah görməmişdim. Dayımın evi bunun yanında nə idi?! Büllur qablar göz qamaşdırırdı. Divara elə gözəl xalçalar vurulmuşdu ki, adam baxdıqca baxmaq istəyirdi. Yerə də xalı döşənmişdi. Parket döşəmənin özü də naxışlı xalıya bənzəyirdi. Qərəz ki, uzun dəsgah idi. Mən fikirləşdim ki, bu evin sahibi görəsən kimdir ki, belə cah-calalla yaşayır. Görünür, böyük adamdır, çox böyük adamdır. Akademikdir, professordur, nazirdir, başqa bir rəhbər işçidir. Bir sözlə, maaşı çox olan adamdır ki, bunları ala bilib. Yoxsa necə ola bilərdi? Hə... ola bilsin heç akademik də deyil, sənətkardır, bəlkə, kanalizasiya idarəsində işləyir, axşamadək sel-su ilə əlləşir, şəhərin artıq-urtuğunu daşıyır, küçələrdə lüklərə girib, tutulmuş gözləri təmizləyir. Belə çətin, ağır işinə görə də yaxşı maaş alır. Pul olandan sonra nə var, ürəyin nə istəyir al. Xülasə, həyatda hər şey pulla başa gəlir.

Ev sahibi məni geniş, yaraşıqlı otaqda yumşaq kresloda əyləşdirdi, əlini çiynimdən götürmədən dedi:

– Nə içəcəksən?

– Mən içən deyiləm.

Kişi əlini şumalca qırxılmış üzünə çəkib qımışdı:

– Day mənə yox də! – deyib geri döndü, geniş dəhlizdən keçib mətbəxə getdi. Dəhlizin başındakı küncdə «Zil» soyuducu qoyulmuşdu. Kişi soyuducunu açıb ordan nə isə çıxartmağa başladı. Baxmaq yaxşı deyildi. Üzümü ondan çevirdim. Onun təklifini qəbul edib bura gəlməyimə peşman olmuşdum. Özümü sıxıntı içərisində hiss edirdim. Qonşu içki butulkalarını gətirib stolun üstə taqqıltı ilə qoyanda əhvalım daha da pozuldu.

– Vuraq, bacıoğlu. Bu dünya, necə deyərlər, beş gündür, beşi də...

Hm. Bayaqdan evə baxdıqca ağzım açıq qalırdı. Elə bilirdim muzeyə düşmüşəm. Hələ bunun üzdə olanı, gözə görükəni məni belə heyran qoymuşdu, bəs altdakılar, görəsən, necə olardı? Bax, bu cür topdağıtmaz evi olan adamın günlərinin qara keçməsinə inanmaq çətin idi, uşaq ağlı kəsdirirdi...

Ev sahibi mətbəxdən qızardılmış ət, balıq və göyərti gətirdi. Süfrədə səliqə ilə yerbəyer eləyib, əlini dodağının üstə apardı, stola fikir verib, yəqin ki, nəyin çatışmadığını fikirləşdi.

– Hə. Badələri gətirməmişəm. – O, barmağının yanını burnunun ucuna sürtüb yenə getdi. Əlində dodaq yerləri qızıl suyuna çəkilmiş iki kiçicik qədəh, iki böyük bakal qayıtdı. Stolun üstə qoyub əyləşdi, stulunu yaxına sürüşdürdü. Araq şüşəsini götürüb aça-aça dedi:

– Cavan olsan da, mən xidmət etməliyəm. Qonağa hörmət hamının borcudur. Elə deyilmi?!

Çiyinlərimi çəkdim.

– Bir də sənə xidmət etmək olar. Xoşuma gəlirsən. Ağıllı oğlana oxşayırsan. – O, danışa-danışa əvvəlcə mənə, sonra özünə araq süzdü. Pivə butulkalarını açıb bakalları köpüklənə-köpüklənə silələdi.

– Di, götür görək!

Bir vaxt telefon əhvalatına görə xoşum gəlmədiyi, üzünü görəndə zəhləm getdiyi adamla qabaq-qabağa oturub, stəkan-stəkana vururdum. Nə əcəb gəlmişdim onun evinə, özüm də bilmirəm. Məni şeytanmı aldatmışdı? Əslində, məni heç kəs aldatmamışdı. Xasiyyətim belə idi. Böyüyün sözündən çıxmağa öyrəşməmişdim. Başqasının xahişini rədd etməyə üzüm gəlmirdi. İndi də bu boyda kişi dedi dur gedək, necə rədd eləyəydim?

Qonşu badəsini qaldıranda məcbur olub mən də götürdüm. Yaxşı deyildi. Mədəniyyətsizlik olardı. O, məni sayıb çağırmışdı, mən isə özümü layiqli aparmalıydım.

– Vuraq, cavan oğlan! – Qonşu qədəhini irəli tutub mənim badəmə toxundurdu. – Qoy badələrimizin cingiltisi bizim beşgünlük dünyamızın üzünə ağ xallar salsın. Onu zinətləndirsin...

Ev sahibi badəni yuxarı qaldırdı. Bu, içməyə işarə idi. Mən də badəmi qaldırıb ağzıma gətirdim, dilimə vurub yerə qoydum. O, buna fikir verdi, vermədi, deyə bilmərəm. Ancaq bir söz demədi.

– Ye! Ye! – Ev sahibi barmağı ilə stolun üstündəkiləri göstərdi, özü isə qalxdı, gedib radioqəbuledici cihazın düyməsini basdı. Zövqüncə bir hava tutmamış stola qayıtmadı. Bir azdan gah qəsdən oxunan, gah da zilə qalxan İran havası otağa hakim kəsildi. Ev sahibi isə boş badəsini araqla doldururdu. O, bu işini qurtardıqdan sonra stolun söykənəcəyinə yayıldı və mənalı-mənalı məni süzdü.

– Xoşuna gəlirmi?

– Nə?

– Araq, musiqi.

Hər halda, qonaq idim. Ev sahibinin mənə qarşı göstərdiyi iltifatı qiymətləndirməmək yaxşı düşməzdi. Buna görə başımı tərpətdim.

– Eləsə bunu da vuraq, bir az da özümüzə gələk! – deyə kişi içməyi yenə xüsusi bir həvəslə təklif etdi.

Mən isə bunu çox soyuq qarşıladım. Həqiqətən, içən deyildim. Babamın töhməti o vaxtdan yadımda qalmışdı. İçki söhbəti olanda kişinin səsi qulağıma gəlirdi. Ona görə indi də içmədim. Badəni qab-qacağın ardında gizləyən təhər etdim ki, içməyim barəsində söz-söhbət olmasın. Yenə də o, bunu gördü, görmədi, deyə bilmərəm. Bəlkə də, gördü, özü üstünü vurmadı. Yenə stolun üstündəki yeməklərə işarə etdi.

– Adə, ye daa! Əla balıqdır. Hər saatlığa ələ düşən deyil.

Düzünü deyim ki, bu kişinin belə hörmət-izzəti məni çaşdırmışdı. Fikirləşirdim ki, burada nəsə bir şey var. Yoxsa bu cür canfəşanlıq etməzdi, məndən ötrü əldən-ayaqdan getməzdi. Heç adicə telefonla danışmağa qoymamışdı, indi mənim üçün oturmağa stul çəkir, qədəhimə içki süzürdü. Bunu mən öz-özlüyümdə aydınlaşdırmaq istəyirdim ki, Xalıq kişi dilləndi:

– Bacıoğlu, maaşın necədir? – Bir şey çıxırmı? Mən də razı-razı cavab verdim:

– Niyə, sağlığınıza pis deyil. Bəs eləyir. Hələ artıq da qalır. Tək adamam, geninə-boluna xərcləyirəm.

Elə bil ki, bu cür deməyim onu o qədər də açmadı. Dediklərimi kölgədə qoymaq üçün dedi:

– İndi pulu olan da çoxdu, pulunun dəlisi olan da!

Başa düşə bilmədim bu sözləri nə məqsədlə deyirdi? Nəyi nəzərdə tuturdu? Bizim bu görüşümüzə, söz-söhbətimizə pulun nə dəxli vardı? Bəlkə, özünü, var-dövlətini gözə soxmaq, lovğalanmaq istəyirdi. Bəlkə, səxavətli olduğunu nəzərimə çatdırmaq fikrindəydi. Beləsinin çörəyini heç kəsməyəsən! Buna görə bir

az dilxor oldum. O isə bic-bic mənə baxıb gülümsünmüş gözlərini qıydı və çox ehtiyatlı, sakit bir tərzdə:

– Ancaq o pulluların cibini yaxşıca qırxmaq lazımdır. Pulunun dəlisi olanların başını piyləmək isə o qədər də çətin iş deyil! – dedi və başı bərabərində əllərini də qaldırdı. Puldan danışdıqca, pul kəlməsini işlətdikcə kişinin çiçəyi çırtlayırdı. Vəcdə gəlib elə bil toylardakı kimi əllərinə pul alıb oynayırdı. Bir az bundan qabaq çox ağır xasiyyətli, təmkinli görünən bu kişi indi bax, bu kökə düşmüşdü. Bu söhbəti mənimlə nə məqsədlə etdiyi də hələlik məlum deyildi. Bu ara o, nə fikirləşdisə astadan dilləndi:

– Bacıoğlu, sənlə mənim dostluğum tutar. – Görürəm fərasətli oğlana oxşayırsan. Mən də çalışaram ki, sənə kömək olum, sənə nəsə bir xeyrim dəysin.

Yenə fikrə getdim. Axı bunun mənə nə xeyri dəyə bilər? Olmaya bu kişi mənə ayrı nəzərlə baxır. Elə bilir yetimin, acından ölənin biriyəm. Yeməyə-geyməyə ehtiyacım var. İndi mənə bu çörəyi, suyu da o məqsədlə verir?! Düzü bu, mənə çox bərk yer elədi. O dəqiqə dedim:

– O nə sözdür? Düzü başa düşmədim. Axı mənim özümə nə olub ki, siz mənə xeyir verəsiniz.

Hiss etdi ki, alınmışam. Tez bu gərginliyi götürməyə çalışdı.

– Elə yox.

– Bəs nə təhər?

– Təhəri budur ki... – Xalıq kişi sözünün ardını uzatdı. Gördüm fikrini izah etməkdə çətinlik çəkir. Qorxur xətrimə dəyə. Ona görə indi bir qədər ehtiyatla danışırdı. – Yəni elə iş görərik ki, ikimizə də xeyir olar.

Bu dəfə sakitcə soruşdum:

– Necə? O necə işdir?

O da yumşaqlıqla dedi:

– Bax, alıb gətirrəm, verrəm sənə. Sən də aparıb institutda əridərsən. Bilirəm, tələbələr yaxşı geyinib-kecinməyi sevirlər.

Məni elə bil ildırım vurdu. Qulaqlarım nə eşidirdi? Mən onu nə hesab etmişdim, bu kim imiş? O, əlini, qolunu tərpədib, başını oynatsa da, danışmağa cəhd etsə də, mən ona imkan vermədim:

– Yox, vallah, mən elə işləri bacara bilmərəm!

Bunu gülə-gülə desəm də, kişi tutuldu. Hiss elədim ki, sözüm xətrinə dəydi. Pərt halda dilləndi:

– Niyə bacarmırsan, bala? Bacararsan! Dünən kənddən gəlib hazırca evə yiyələnmək istəyən adam hər şeyi bacarar.

– Necə, necə?! – Bərk əsəbiləşdim. Əslində, onun dediklərini yaxşı eşitmişdim. Amma istəyirdim bir də təkrar eləsin. Mənə tam aydın olsun.

– Əsəbiləşmə, bacıoğlu, heç bilirsən, camaat sənin haqqında nə danışır?!

– Nə danışır?
– Deyirlər, çox bic oğlandır.
– Nə mənada?
– Yəni işini bilən oğlandır.
– Xahiş edirəm, sözünüzü açıq deyin.
– Deyirlər, sən gəlib bu arvadın evinə girmisən ki, öləndə evi sənə qalsın. Ona görə canfəşanlıq edirsən. Tez-tez xəstəxanaya yanına gedirsən, qulluğunda durursan.

Mən nələr eşidirdim, ay Allah. Az qaldım qulaqlarımı tutub qaçam. Bu heç mənim ağlıma da gəlməmişdi. Amma görün nələr fikirləşirlər. Deməyə sözüm də yox idi. Başımı qaldırıb bu adamın üzünə baxa bilmirdim. Gördüm dayana bilmirəm, bir azdan:

– Sağ olun! Hörmətiniz artıq olsun, gecəniz xeyrə qalsın, mən gedim! – deyə ayağa qalxdım.
– Xoş getdin! – Xalıq kişi dodaqaltı mızıldandı, heç ayağa da durmadı.

### V

Səhəri gün işin axırına yaxın dayım tikintiyə gəldi. Onu görcək əvvəlcə özümü itirdim. İstədim gizlənəm, gözünə görünməyəm. Evindən çıxandan bəri bir dəfə də olsun bir-birimizi görməmişdik. Qorxdum dayım işçilərin yanında məni pərt eliyə. Artıq-əskik danışa. Əlbəttə, qabağında dillənməzdim. Hər halda, camaat içində mənə eyib olardı. Hərə bir cür düşünərdi. Mən bir yana qalım, dayımın adına da yaxşı deyildi. Bundansa gözünə görünməmək daha yaxşı idi. Ev söhbətlərini işə gətirib çıxaran, xırda bir şeyi də aləmə faş eliyən adamlardan zəhləm gedirdi. Bu məqsədlə dayımın gözündən yayınmağa çalışdım. O, maşından düşüb kontora sarı gələndə mən sement tökülmüş daş budkanın arxasına keçdim. Oradan da gizlincə gedib soyunma otağına girdim. İş qurtarmışdı. Artıq getmək vaxtı idi. Xəstəxanaya tələsirdim. Dünən axşamdan bəri ürəyim partlamağa gəlirdi. Qəti qərara gəlmişdim ki, bu evdən çıxım. Buna görə tələsik paltarımı dəyişdim. Saçımı darayıb eşiyə çıxırdım ki, qapının ağzında dayımın səsini eşitdim.

– Salam!

Başımı qaldıranda onu dayanmış gördüm. Yəqin, mənim bura girdiyimi görübmüş. Onun salamını alıb dayandım. Gözləyirdim ki, dayım məni indi danlayacaq, ağzına gələni deyəcək. Amma üzünə baxanda bu qənaətə gəldim ki, səhv etmişəm. Üz-gözünün ifadəsindən başa düşdüm ki, belə niyyətlə gəlməyib. Bacısı oğlu deyiləmmi?! Gəlib ki, görsün nə təhərəm? Bəlkə, bir ehtiyacım var. O gün gecə mən də gəzə-gəzə gedib onların məhləsinə çıxmışdım. Dayımın

mənzili olan binanın qarşısında ayaq saxlamışdım. İşıqları gəlirdi. Gec olsa da, hələ yatmamışdılar. Bəlkə, qonaqları vardı. Olsa yaxşıdır. Evdə qonaq olanda mehribançılıq yaranır. Axı belə vaxtlarda onların evi dava-dalaşsız olmur. İkisinin sözü bir yerə gəlməzdi. «Əşi, bəsdir!» – deyə dayım hövsələdən çıxıb arvadına hirslənirdisə, Xırdaca xanım dilini dinc saxlamırdı, ərinin başından aşağı min cür söz yağdırırdı. «Səni adam edib ortalığa çıxartdım, indi mənim sözüm sənin üçün bir şey deyil, hə? İndi daha mənə daş-qaş lazım deyil, hə?» Dayım isə belə vaxtlarda susurdu. Sözlərini eşitməyim deyə bəzən evdən çıxıb bir-iki saat fırlanıb qayıdırdım. Çox vaxt dayım əsəbiləşdiyindən çoxlu papiros çəkirdi. Siqareti qurtaranda vaxtlı-vaxtsız məni mağazaya göndərirdi. Bunları gözümün qabağına gətirəndə dayıma canım yanır, ona görə narahat olurdum...

– Nə var, nə yox? – deyə dayım mehribanlıqla soruşdu.

– Sağlığın, dayı.

– Çoxdandır səni görmürəm. Düzü, yaman darıxmışdım.

Ürəyimi gizlətmədim:

– Mən də, dayı.

– Saqqalı ağarmış, bəs niyə gəlmirdin?

Çiyinlərimi atdım.

– Evə gəlmirdin, gəlmirdin, heç olmasa idarəyə dəyəydin.

Hmm. Duruxdum. Deyəsən, dayım məni evindən çıxmaqda təqsirləndirmir. Qırışığım açıldı.

– Gözümə birtəhər dəyirsən? – soruşdu.

– Necə?

– Deyəsən, bir balaca sınıxmısan.

– Nə bilim?!

– Özünə fikir ver. Bir əlin, bir başındır.

Dərdim-sərim çox olsa da, onları dayıma söyləməyi lazım bilmədim.

– Gəlsənə bir yer var, ora dəyək. İşin də axırıdır.

Xəstəxanaya Xanım ananın yanına getməli olsam da, dayımın sözündən çıxa bilmədim.

– Gəl. – Dayım maşına sarı getdi. İkimiz də arxa oturacaqda əyləşdik.

Mənimlə söhbət və görüşlərində çox vaxt qaşqabaqlı, ciddi olan dayım indi mehriban idi. Görəsən... Başa düşürdüm ki, burda nə isə var. Səbəbi məlum deyildi. Maraqlı idi ki, dayım məni maşına mindirib hara aparır? Yoxsa təzədən geri – evinə qaytarır? Yerimdə qurcuxdum. Axı bu necə ola bilərdi? Ora bir də mən nə üzlə qayıdım? Yox! Dayım əgər məni istəyirsə, aparmasın. Özü üçün də yaxşı olmazdı. Mənim onlarda olmağımdan istifadə edib dayıdostum yenə üstünə ayaq alacaqdı. Yox-yox! Bir də qoltuğa girmək istəmirdim. Ordan çıxmağımdan razı idim. Az qalırdım deyəm ki, maşını saxla, düşürəm. Birtəhər özümü ələ aldım

ki, görüm bu səfərin axırı hara çıxır. Etiraz etməyə hər halda, vaxt, yer tapılar. Kim idi məni gücnən tutub saxlayan.

Qıjıltı ilə şəhərin sahil küçəsinə enmiş maşın Azneft meydanından sağa buruldu. Bayıla tərəf yol aldı. Bir azdan dağın döşündəki köhnə tikintilərin birinin qabağında dayanmışdıq.

– Düş, bacıoğlu.

Bayaqkı fikirlərdən azad olub nisbətən sakitləşmişdim. Qapını açıb düşdüm.

Hələ də başa düşmürdüm ki, bura nə üçün gəlmişik. O da bir söz demirdi. Beləcə qabağında dayandığımız binanın bloklarından birinə daxil olduq. Dayım qabaqda, mən də ardınca gedirdik. Bir neçə pilləkən çıxandan sonra dayım dayandı, əlini cibinə salıb açar çıxartdı və soldakı qapını açdı.

– Buyur, bacıoğlu, buyur. – Məni qabağa saldı.

Yenə də ağ, qara dinmirdim ki, bu kimin evidir və bura nəyə gəlmişik.

İçərisində avadanlığı olan iki otaq idi. Çox səliqəli yığılıb-yığışdırılmışdı. Mən yan-yörəyə diqqət yetirəndə dayım:

– Otur, – deyə mənə yer göstərdi. Özü də oturdu, mən də. Dayım indi əsl mətləbə keçdi. – Bu, mənim bir dostumun evidir, – dedi. – Özü də neçə illiyə xaricə işləməyə gedib. Evini mənə verib. Bundan sonra burada yaşayacam.

– Sənin evinə nə olub, dayı? – deyə dayana bilməyib soruşdum.

Güldü və yarızarafat, yarıciddi:

– Daha yoxdur evim. – Evdən çıxıram. Ayrılırıq. Elə bildim dayım mənimlə zarafat eləyir.

– Sən də yaxşı, görək?

– Doğru sözümdür. – Dayım ciddiləşdi. – Bax, hələlik bu evdə qalacam. Səni də gətirdim ki, yerimi-yurdumu biləsən. Hələlik mən də təkəm, vaxtın olanda gələrsən söhbət edərik.

Dayımın gerçəklədiyini görüb heyrət etdim.

– Nə danışırsan, dayı? Yaxşı deyil. Bu sizə yaraşmaz axı?

– Yaraşmaz?! – Dayım qəribə ifadə ilə gülümsədi. Elə bil özü-özünə rişxənd edirdi. – Məsələ burasındadır ki, yaraşmaya-yaraşmaya mən özümə çox şey yaraşdırmışam. Daha dözə bilmirəm. Əlindən başımı götürüb qaçmışam. Bu günlərdə məhkəmə olmalıdır. Yəqin, ordan mənə də ev düşür. Sonra dəyişərəm. Vallah heç onu da istəmirəm, təki məndən əl çəksin.

Hə. İndi tam inandım ki, bu nə məsələ imiş. Amma çaşıb qalmışdım. Bu barədə fikrim necə ola bilərdi? Dayımın öz işi idi. Həyatının, yaşayışının cəmini özü yaxşı bilər. Ancaq bir məsələ haqqında düşünürdüm. Bəs dayımın bu günədək olan həyatı, yaşayışı? Axı niyə belə olsun? Sual-sual ardınca gəlirdi. Beynimə hücum başlanmışdı. Hər sual çəngəl-bıçaq olub boyun-boğazıma soxulur, dayımın əvəzinə əzab çəkirdim. Diqqətim, nəzərlərim dayıma zillənmişdi. Evin-

dən getmiş olsam da, son vaxtlar onu çox az-az xatırlasam da, indi ona ürəyim yanırdı. Bəlkə, dayım həyatını təzədən başlamaq istəyirdi? Bu necə ola bilərdi? Qonum-qonşu, eşidən-bilən nə deyərdi? Kənddə də eşidəndə hamı məəttəl qalacaq. «Elə şey olmaz» – deyə əvvəlcə inanmayacaqlar. Hər ağızdan bir avaz gələcək: «Rəis arvadı niyə buraxıb?» – deyə tikintidə də söz-söhbət gəzəcək. Məndən soruşacaqlar. Nə deyim? Öz-özümə çiyinlərimi atdım. Bununla öz hüququmu bitmiş hesab etdim. Əlbəttə, mənə nə vardı?! Amma dayıdostum üçün hər halda, daha çətin olacaq. Müəyyən hərəkətlərindən, söz-söhbətindən, evdəki dığ-dığdan zəhləm getsə də, bu dəfə dayıdostum haqda ürəyi yumşaqlıqla düşündüm. Bu məsələdə dayım ilə razılığa gəlməyi özlüyümdə heç cür əsaslandıra bilmədim. Yox! Dayım yaxşı iş görmürdü. Səhv yol tutub. Düşündüm ki, onu bu səhv yoldan qaytara bilərəmmi? Mən balaca olanda, dayım kəndə gələndə mənimlə, işim-gücümlə, oxumağımla maraqlanar, öyüd-nəsihət verər, bir səhv işim olanda başıma ağıl qoyardı. İndi, deyəsən, növbə mənə çatmışdı. Mən artıq dünənki uşaq deyildim. Bütün fikirlərimi üzümdən oxuyurmuş kimi dayım dilləndi:

– Yaxşı, bacıoğlu, fikirdən keçib. O barədə qərarım qətidir. Əslində, bu qərarın çıxarılmasında sənin mənə təsirin oldu.

Təəccüblə dayıma baxdım və soruşdum:

– Necə?

– Sən uşaq olduğun halda xoşuna gəlmədi, bizdən, öz doğmaca dayın evindən çıxıb getdin, demədin ki, dayımdan ayıbdır. Əslində, elə olmaq yaxşıdır. Mənsə...

Düzü o, belə deyəndə dayımdan acığım gəldi. Ya səhv, ya doğru hər nə iş görürdü, görürdü daha onu gətirib mənlə niyə bağlayırdı?! Mən istəməzdim ki, hər hansı bir işim, hərəkətim başqasının pis vəziyyətə düşməsinə, bədbəxtliyinə səbəb olsun. Pərt halda ayağa durdum, üzünə bir söz deməsəm də, xəstəxanaya gedəcəyimi bildirdim.

– Maşınla aparımmı? – Dayım tez ayağa durdu.

Razı olmadım.

– Yox-yox. Nəyə lazımdır. Mən hələ bazara, evə gedəcəyəm.

Əslində, evə getməyim yox idi. Bunu elə-belə, bəhanə üçün dedim. Bazara dəyib oradan birbaşa xəstəxanaya getməli idim. Ev barəsində Xanım ana ilə danışmalı idim. Bu fikirlə Azneft meydanına düşüb trolleybusla xəstəxanaya tərəf getmək istəyirdim ki, xatalı təki indi də təsadüfən Xırdaca xanıma rast oldum. İstədim gözündən yayınam, mümkün olmadı. Onun da gözü o dəqiqə məni aldı. Elə uzaqdan-uzağa hiss elədim ki, çox fikirlidir, bir az sınıxan təki olub. Həmişə gözü ayağının altını seçməz, forsundan hər adama endirib salam belə verməz, kəlmə kəsməzdi. Amma elə bic idi ki, lazım olan adamı o dəqiqə

görər, onunla xüsusi bir nəvazişlə görüşər, hal-əhval tutardı. Evə gələndə forslu-forslu ərinə belə sözlər deyərdi:

– Bu gün Zaman Zamanoviçin arvadını gördüm. Bilirsən, nə qədər kökəlib, dərisinə sığmır.

– Necədirlər? Uşaqlarını, ərini soruşdunmu? Bizdən də salam deyərdin.

– Aaa, bəs necə?! Amma yoldaşı burada yoxdur. Zaman Zamanoviç bir aydır ki, Fransaya gedib.

– Nə danışırsan?!

– Bəs necə? Gülrux xanım dedi ki, kişi Fransadan qayıdanda zaqranisaya birgə gedəcəyik. Paraxodla, çerez more.

Dayım heyranlıqla başını buladı:

– Gəzəcəklər?

– Ne prosto gəzəcəklər. A, kef edəcəklər. Bəxtəvərlər!

Söhbətlərinin axırı çox vaxt bu cür sözlərlə qurtarırdı. İşdə, vəzifədə, dolanmaqda özlərindən yuxarı, üstün olan adamlara həmişə həsəd aparırdılar. Aşağı olanlara isə ağız büzərdilər, bəzən heç adam yerinə də qoymazdılar. Hər iki halda dayım arvadının söhbətindən narazı qalsa da, dillənib bir söz deməzdi. Ya durub əlinə qəzetdən, jurnaldan götürər, ya da papiros çəkmək bəhanəsiylə eyvana çıxardı...

– Yaxşı oldu rast gəldin, Mahir! Mən elə səni axtarırdım, – deyə Xırdaca xanım qəhərli-qəhərli sözünə başladı: – Mən sənə nə deyim. Al özün oxu, – deyə Xırdaca xanım burnunu çəkib uşaq təki ağlamsındı. Dayıdostumdan bunu gözləmirdim. Onun nə üçünsə bir gün küçədəcə ağlayacağını ağlıma belə gətirə bilməzdim. Həyəcanlı olsam da, özümü toxdaq tutdum. Dayıdostumun sumkasından çıxardıb mənə uzatdığı kağızı aldım, gözümün qabağına tutdum. Bu, məhkəmədən Xırdaca xanımın adına göndərilmiş çağırış vərəqi idi. Orada İldırım Məmmədzadənin arvadından ayrılmaq istədiyi haqqında məsələ qaldırdığı göstərilirdi.

Çağırış vərəqəsini oxuyanda çox qəribə hala düşdüm. Mənə elə gəldi ki, içəridən üfürülüb şişirəm. Şişib-şişib şar təki partlayacam.

– Bu nə məsələdir, Mahir? Sənin dayın niyə belə elədi?! – Xırdaca xanım yaylığının ucu ilə gözünün yaşını sildi.

Başımı buladım.

– Heç nə başa düşmürəm. Heç nə bilmirəm, dayıdostu! – Dedimsə, ürəyimdə özümü möhkəm danlamağa başladım. Axı nə üçün yalan danışıram? Məsələdən xəbərdar ola-ola nə üçün özümü bilməməzliyə vurub riyakarlıq edirəm?

Xırdaca xanım hədələyici səslə dilləndi:

– Bax, Mahir, sən də o bezin qırağından olsan da, bir xahişim var. Xahişim budur ki, mənim dediklərimi ona çatdırasan. Deynən dayıdostum deyir ki, o, ol-

sun İldırım mən də olum Xırdaca xanım. Görək kim kimə divan tutacaq! Bilsin ki, mən onun yetişmişi dura-dura kalını tökməsəm, bu dünyada bircə gün də yaşamaram.

Dayıdostum elə məkrli, elə kinli-kinli danışdı və elə sərt hərəkət etdi ki, elə bildim dünyada bir-birinə yaxın olan, bir-birilə dostluq işlədən bircə adam belə yoxdur. Əlim-ayağım yerdən-göydən üzüldü. Belə də adamlar olar? Bir şey olan kimi o dəqiqə üzləri dönür, başlayırlar dəfin o biri üzünü döyməyə. Çörəkləri dizlərinin üstündədir. O dəqiqə axır sözlərini əvvəl deyirlər. Bütün bunları götür-qoy edə-edə xəstəxanaya gəldim. Palataya daxil olanda gördüm Xanım ananın yanında adam var. Onu yoluxmağa gəlib. Üzü Xanım anaya tərəf oturduğundan əvvəlcə tanımadım. Bəri dönəndə gördüm odur – ilk dəfə rast gəldiyim və ondan bəri tez-tez xatırladığım, görmək istədiyim qız. Mən də o vaxt qızı Xanım anaya nişan verməmişdim ki, bəlkə, ondan acığı gəlir, arada mənim işim əyilər. Sən demə, bunlar yaxın imiş, bir-birlərinin xətrini istəyirmişlər. Qızı burda, Xanım ananın yanında görcək sevindim. O isə mən gələndə ayağa qalxmışdı. Mən əlimi qaldırıb minnətdarlıq və təşəkkür hissilə:

– Xahiş edirəm, oturun, oturun! – dedim.

Xanım ana da mənim gəlişimdən çarpayıda dikəldi. Yaxınlaşıb tez əlindən tutdum və:

– Xanım ana, narahat olmayın, uzanın, yaxşı uzanın! – dedim.

– Yaxşıdır, heç bir narahatlığı yoxdur. – Xanım ana məhəbbətli, mehriban nəzərlərlə bir mənə, bir də qıza baxdı. O dəqiqə bildim ki, məqsədi nədir? Bizi tanış etmək istəyirdi. Xəbəri yoxdur ki, biz çoxdan tanışıq. O tufanlı, küləkli gün indi də yadımdadır.

Bu xoş görüşdən necə sevinib həyəcanlanmışdıqsa, bir də gördüm hər ikimiz ayaq üstdə qalmışıq. Mən özümə gəlib yenə də təkidlə dilləndim:

– Əyləşin, xahiş edirəm, əyləşin!

Xanım ana hər ikimizi məhəbbətli baxışlarla süzüb:

– Tanış olun, – dedi. – Bir həyətdə, bir binada yaşayırsınız, lap qapıbir qonşusunuz. Elə olmasın ki, bayır-bacada rastlaşanda bir-birinizi tanımayasınız.

– Mahir, – deyə mən əlimi uzadanda qız da əl verib adını dedi:

– Hilalə.

Qızın özü kimi adı da xoşuma gəldi. Xanım ananın mehribanlığından cəsarətlənib dedim:

– Sizinlə tanışlığıma çox şadam!

– Mən də, – Hilalə gülümsədi.

Bir xeyli söhbətdən sonra Xanım ana, nəhayət:

– Di durun gedin, çox oturdunuz, sizin də işiniz-gücünüz var, çox sağ olun, – deyə ikimizə də müraciət etdi.

Düzü birtəhər oldum. Çünki ona deyiləcək sözüm vardı. O gündən bəri bu ev məsələsini ürəyimə salıb özümə yekə dərd eləmişdim. Axı mənə niyə elə nəzərlə baxsınlar ki, guya, mənim Xanım ananın evində gözüm var. Mən axı bu evə belə fikirlə gəlməmişdim. İndi də əlimdən gələni edirdim ki, Xanım ana tezcə sağalıb evinə gəlsin. O ki bunu ayrı cür yozurlar, mən də daha burda qalmaq fikrində deyildim. Ancaq hiss elədim ki, bunu Xanım anaya desəm, ona pis təsir eliyər. Həm də bu qızın yanında açılışmağa utanıb fikrimdən döndüm. Odur ki ikimiz də ona cansağlığı diləyib durduq. Mənim də əlimə belə bir fürsət göydən düşmüşdü. Özümü qıza göstərmək istəyirdim. Küçədə tez əlimi qaldırıb maşın saxladım. Onu evlərinə yaxın küçədə düşürdüm...

## VI

Şənbə günü idi. Payızın gözəl havasında adam evdə oturmaq istəmirdi. Küçəyə çıxdım, bir qədər getmişdim ki, kəndçimiz Çöllüoğlu Bayrama rast gəldim. Havanın xoş olmasına baxmayaraq, kişi əyninə pencək geyinmişdi. Onun da qabağını açıq qoymuşdu. Belinə bağladığı enli qayışın iri toqqası görünürdü. Balacaraq, domuşuqlu kişi idi. Əlləri cibində oyana-buyana boylanırdı ki, mən gördüm və xüsusilə nazik burnu bərabərində qoyduğu bığından bunun bizim kəndçi Çöllüoğlu Bayram olduğunu o dəqiqə tanıdım. Bilirdim bu il onun instituta bir qızı daxil olub. Yəqin, onunla gəlib. Məni görcək kişinin kefi duruldu:

– Ayə, qurban olum! – Allah səni mənə nə yaxşı yetirdi. Neçə gündür buralarda qırışığım açılmır. Qız dərsə gedir, tək darıxıram. Kəndə də qayıtmıram ki, bir neçə gün qızın yanında olum.

– Qız yataqxanada qalır?

– Həə. Yaxındadır. Qəşəngcə binadır. Dörd qız bir otaqda olur.

– Bəs sən harda qalırsan, Bayram dayı?

– Mən də qonaq evi tapmışam. O da yaxındır.

– Boşam, gedək gəzək, – deyə qoluna girdim.

Çöllüoğlu Bayram əlimə elə bil göydən düşmüşdü, onunla danışır, gülür, kəndi-kəsəyi xəbər alırdım.

– Deyirsən, babam, nənəm yaxşıdır, eləmi? – soruşdum.

– Yaxşıdırlar, sənə salamları var.

– Odun-ocaqları boldumu?

– Niyə, sağlığına boldur. Fikirləri tək sənsən. Gözləri yollarda qalıb. Bə nə vaxt gələcəksən? Bilirəm, qayıdanda yanıma gəlib soruşacaqlar. Onda nə deyim?

– De ki, tezliklə gələcək.

– Sən Allah, tez gəl! – Çöllüoğlu onların əvəzinə mənə and verdi.

Həqiqətən, çox istəyirdim kəndə gedim. Nənəmdən-babamdan ötrü burnumun ucu göynəyirdi. Amma hər dəfə başım bir şeyə qarışırdı. Boş, asudə günlərim olmurdu. Xüsusilə dayımgildən çıxandan sonra kəndə getmək fikrim başımdan tamam çıxmışdı. Səbəbi bu idi: necə deyim ki, dayımgildən çıxmışam, daha onlarda olmuram? Bilirdim kəndə getsəm, hamısını açıb-tökəcəm, babamdan-nənəmdən heç nə gizlətməyəcəm. Bu isə onlara böyük dərd olardı. Nəyə lazım idi?! İndi Çöllüoğlu ilə söhbətimdən ürəyim kövrəldi, nənəmi-babamı görmək həvəsinə düşdüm. Yaxın zamanlarda işdən icazə alıb kəndə getməyi qərara aldım. Bir neçə günlüyə gedib onlara dəyib gələrdim. Başımda kəndi dolandırırdım. Kəndçim Bayram kişiyə də yüngül bir hörmət eləmək məqsədilə soruşdum:

– Bayram dayı, Bakıya birinci gəlişindir?

– Yox, dərdin alım. Yayda qız imtahan verəndə də gəlmişdim.

– Demək şəhərə bələdsən?

– Yox, elə hesab elə ki, düz iyirmi gün məni heykəl edib institutun qabağında qoydular. Sonra da bilet alıb qayıtdım. Bax, bu da ikinci gəlişimdir.

Məni qəribə hiss çulğalamışdı. Qonağımı şəhərdə elə gəzdirmək istəyirdim ki, heç olmasa kəndə qayıdanda yadında bir şey qalsın. Siftə onu dəniz kənarına gətirdim. Xeyli gəzdik. Çöllüoğlu tez-tez yan-yörəyə baxsa da, dillənib bir söz demədi. Sonra yorulduğunu bildirdi:

– Dünən də çox gəzmişəm, dərdin alım, ayaqlarım ağrıyır. Bir yer olsaydı oturardıq, – dedi.

– İstəyirsən kinoya gedək?

– Yox, ayə! – Çöllüoğlu etiraz etdi. – Elə yerdə oturaq ki, çörək yeyə bilək. Düzü acmışam. Amma sən canın, elə yerə apar, yeməkləri fərli olsun.

Kababxana çox qələbəlik idi. Bir küncündə yer tapıb əyləşdik. Sifarişi Çöllüoğlu elədi.

Doğmaca kəndçimlə bir stol arxasında oturub çörək yemək ləzzət verirdi. Söhbətimiz balaca məclisimizi şirinləşdirirdi.

– Sovxozmu yaxşıdır, kolxozmu, Bayram dayı? – deyə ona sual verdim.

– Niyə sovxoz da pis deyil, aydan-aya pulun gəlir.

– Deyirsən, yeməkxana da tikiblər, hə?!

– Tikiblər. Amma bir şeyi xoşuma gəlmir.

– Nəyi?

– Qəşəng binadır. Asfalt yolun qırağında bir yaraşıqdır. Di gəl bizim camaat ağ eləyir.

– Nə edirlər?

– Camaat deyəndə ki, bir para adamlar işdən çıxanda evinə, uşaqlarının, ailəsinin yanına gəlmək əvəzinə gedirlər ora. Çıxanda isə adama oxşamırlar. Ciblərinin tutarı da qalmır.

– Bax, bu, yaxşı deyil.

– Bəs necə?! Həm canları gedir, həm də arvad-uşağın boğazı biçilir.

– Sovxozda işlər necə gedir? – Kəndin təsərrüfatı ilə də maraqlandım.

– Niyə, işlərimiz pis getmir. Amma bir az...

Başımı buladım:

– Necə şeydirsə, gərək bir «amma» sözü olsun. Onsuz iş aşmır.

– Təqsir özümüzdədir! Kimi bir vəzifəyə qoyurlar, başlayır közü öz qabağına çəkməyə. Daha demir, məndən başqa da üşüyən var.

Çöllüoğlu elə danışdı ki, yemək-içmək yadımdan çıxdı. Əlimi üzümə dayayıb diqqətlə ona qulaq asırdım.

Beləcə danışa-danışa, gülə-gülə yeyib, içdik. Kababxanadan duranda axşam düşmüşdü...

– Gör nə qədər oturmuşuq, – Çöllüoğlu başını tərpətdi. Mən isə bir az dilxor idim. Hesabı kəsməyə nə qədər cəhd etmişdimsə, Çöllüoğlu buna imkan verməmişdi.

Çöllüoğlu Bayramdan ayrılıb evə tələsdim. İndi könlümdən qonşu qızını görmək keçirdi. Pilləkənin başına çatanda bir az ləngidim, gözüm qapılarında qaldı. Amma heç nə çıxmadı. Məcbur olub qapını açıb içəri girdim. Yatağa girib yuxuya gedincə xəyalımda yüz dəfə onu canlandırdım...

Qonşu qızı bir də azı beş-altı gün sonra gördüm. Bəlkə, bu ona görə idi ki, mən evdə az tapılırdım. Artıq dərslərim də başlamışdı. İş, dərs, xəstəxana, yamanca qaçaqaça düşmüşdüm. Nəhayət, qızı gördüm. Özümü daha o yerə qoymadım, utanmağı, sıxılmağı buraxdım. Əhvalını soruşdum. O da məndən Xanım ananı xəbər aldı. Bir az üzrxahlıqla dedi ki, vallah vaxt tapa bilmirəm ona baş çəkəm.

Bunun eybi yox idi. Amma qızın bikef olduğu gözümdən yayınmadı. Bərk narahat oldum. Görəsən, onun dərdi nə idi? Səbəbini soruşmağa da cəsarət eləmirdim. Nəhayət, özümü toplayıb dedim:

– Nə olub? Niyə belə bikefsiniz?

– Elə bir şey yoxdur. Televizorumuz xarab olub, işləmir. Usta da çağırtdırmışam, gəlib çıxmır.

– Eh! İşləmir, işləmir ondan ötrü qanınızı niyə qaraldırsınız? – deyə buna əhəmiyyət verməməyi məsləhət gördüm. – Mən heç televizora baxmıram, nə olsun?!

Həqiqətən, Xanım ananın televizoru yox idi. Mən istəyirdim alam, hərdən Xanım ana ilə baxardıq. Sonra onun xəstələnməsi başımı qatdı. İndi heç yadıma da düşmürdü.

– Aaa, bilirsiz bu gün necə yaxşı estrada konserti olacaq. Dünyanın ən məşhur müğənniləri iştirak edəcəklər. «Zaman»dan sonra göstərəcəklər. Bilirsiz nə aləm olacaq. Ax, bu ustaların əlindən!

Fikirləşdim ki, qız ki televizordan ötrü belə sozalanır, kömək etməmək insafdan deyil. Qız xeylağı idi. Ürəyi istəyirdi baxsın, tamaşa eləsin. Görünür, həqiqətən, yaxşı konsert olacaqdı. Ola bilsin, onu bir də göstərməsinlər. Bəs mən qıza necə kömək edim? Bir dənə televizoru təmir etdirmək necə çətin şeydi ki, bundan ötrü mən qızın yanında xəcalətli qalım.

– Mən gedim televiziya atelyesinə, ordan bir usta gətirim, gəlib təmir eləsin? – deyə elə pilləkəndəcə geri qayıtmağa hazır olduğumu bildirdim.

– Yox! Yox! – Qız əlini də qaldırdı. Buna qəti etiraz etdi. Onun üçün daha bu dərəcədə zəhmət çəkməyin lazım gəlmədiyini bildirdi. Bir sözlə, xəcalətli qalmaq istəmədi. Mən isə bunu ürəkdən deyirdim. Doğrudur, televizor təmir edən idarənin şəhərdə hansı küçədə olduğunu bilmirdim. Burda da elə bir müşkül iş yox idi. İdarənin ünvanını taksi sürücüləri, hər halda, bilməmiş deyildilər. Gedib ustanı maşınla götürüb gələrdim. Ancaq qız həm əlilə, həm də dililə elə «yox» sözü dedi ki, mən daha o sərhədi keçə bilmədim. Bu, güclə özünü istənilməyən yerə salmaq olardı. Elə şeyləri sevmirdim. Amma televizor söhbəti bununla qurtarmadı.

– Eh! Mən elə bilirdim sizin televizordan başınız çıxır, – deyə qız məni tənqid elədi.

Bir cəhətdən xoşuma gəldi ki, qız mənə belə yüksək fikirlə baxır. O biri cəhətdən pis oldum. Ürəyimdə qıza irad tutdum ki, gör bu da sözdür?! Mən bəyəm televizor ustasıyam. Ancaq qızın yanında özümü sındırmayıb dedim:

– Hər halda, bir balaca başım çıxır, baxmaq lazımdır. Bəlkə, kiçik işi var.

– Nə bilim? – Qız çiyinlərini çəkdi.

– Baxmaq olar?

– Niyə olmur?! – Qız bu axşam televizora baxmağın o qədər həvəsində, marağında idi ki, tezcə razılaşdı.

Qızla söhbətim elə sərbəst alınmışdı ki, heç soruşmadım evinizdə kim var, kim yox? Elə həmişə gəlib-getdiyim bir ev kimi içəri keçdim. Qız tək idi. Valideynləri, görünür, harasa getmişdilər. Bundan ürəklənib özümü bir az da sərbəst tutdum. Qapının kandarında ayaqqabılarımı çıxardırdım ki, qız qolumdan tutdu.

– Çıxartmayın, çıxartmayın!

Qız elə təkid etdi ki, mən də ayaqqabılarımı çıxartmadım, xalça-palazın üstü ilə içəri böyük otağa keçdim.

Bir azdan mən televizorun ora-burasını qurdalayanda qız da yanımda dayanmışdı. Düzü, televizordan başım çıxmırdı. Təvəkkülə gəlmişdim. Ürəyimdə Allaha yalvarırdım ki, indi nə ola televizor gəlib təsadüfən işləyə. Amma xeyri yox idi. Buna tam əmin olandan sonra ağlıma hardan gəldisə:

– Bir dəqiqə məni gözləyin, indi gəlirəm. – Cəld evdən çıxdım. O da bir söz demədi. Elə bildi ki, öz otağıma gedirəm, oradan nəsə alətdən-malətdən bir şey götürəcəm. Ancaq mən tez aşağı düşdüm, bir taksiyə oturdum. Yaxşı ki, orda da

axtardığım adamı tapa bildim. Yalvarıb-yaxarıb, hələ bir cibinə on-on beş manat da pul basıb maşına otuzdurdum. Beləliklə, gedib-gəlməyim heç yarımca saat çəkmədi. Yanımda da usta içəri girəndə qız təəccüb elədi. Nəsə demək istəyirdisə, mən barmağımı dodağımın üstə qoydum – suss elədim. Qız daha səsini çıxarmadı, usta işə başladı. Heç on-on beş dəqiqə çəkmədi ki, televizor işlədi. Qız bir televizora, bir də mənə baxıb gülümsəyirdi.

– Di sağ olun, – deyə mən çıxmaq istəyəndə:

– Nə danışırsınız? Oturun! Xahiş edirəm, oturun! – Qız məni buraxmadı, qolumdan tutub əyləşdirdi.

Məcbur olub yumşaq kresloda əyləşdim. Amma bərk narahat idim. Axı valideynləri gəlib qızla ikimizi belə tək görsəydilər, yaxşı düşməzdi. Bunu hiss eləyən qız: – Anamgil burda yoxdurlar, gediblər. Mən isə tək darıxıram, – şikayətləndi.

İndi başa düşdüm ki, o nə üçün bu qədər sərbəst hərəkət edə bilir.

Valideynləri tərəfdən arxayın olsam da, indi də danışmağa söz tapa bilmirdim. Axı nə deyim, nədən söhbət açım. Qız isə dizlərinə dirsəklənib üzünü ovuclarında tutmuşdu. Sonra fikir içində başını qaldırıb mənə baxdı. Deyəsən, həqiqətən darıxırdı. Nəhayət, özü dilə gəldi, astadan dedi:

– Maraqlı bir şey danışın, qulaq asaq!

– Sizi nə maraqlandırır?

– İşinizdən, gücünüzdən, gördüklərinizdən, eşitdiklərinizdən danışın. – O, mənə bir növ istiqamət verdi.

– İşimdən nə danışım? – gülə-gülə çiyinlərimi atdım. Həqiqətən, nə danışım?! İşdir, işləyirik. Elə bir maraqlı şey olmur ki, danışasan. Daş, qum, sement. Taqqıltı, gurultu. Bir qaçhaqaç, bir qovhaqov var ki, adam az qalır dəli olsun. Yox, belə şey qız üçün maraqsız olar. Bəlkə də, maraqsız olmazdı. Həm də qorxdum çənəmi boş qoyub hətərən-pətərən danışam, onun da məndən zəhləsi gedə.

Bu ara qız nə fikirləşdi, nə fikirləşmədisə dedi:

– Gəlsənə, sizin üçün pianoda bir şey çalım?

– Xahiş edirəm, – tez dilləndim. Canım qurtardı. Yoxsa girinc olmuşdum. Bilmirdim qıza nə danışam! Nə bilim bunu nə maraqlandırır?! Xülasə, qız gedib pianonun qabağında oturdu və qapağını qaldırıb:

– Nə çalım? – O, çiyni üstə qanrılıb mənə baxdı. Elə qaynarlıqla, elə odlu-odlu baxdı ki, bədənimə lərzə düşdü. Özümü itirən təhər oldum.

– Nə istəyirsiniz çalın! Nə çalsanız, mənim üçün xoşdur!

Qız gülümsəyib özü xoşladığı, bəyəndiyi havalardan birini asta-asta çalmağa başladı. Bütün diqqəti barmaqlarında idi. Mənə fikir vermirdi. Amma gözəl çalırdı. Durub arxadan ona yaxınlaşdım. O bunu hiss eləyib akkordu vurub əl saxlayanda dedim:

– Gözəl çalırsınız. Adamı lap valeh edirsiniz!

– Belə də, bacardığım qədər, – deyə pianonun qapağını salıb ayağa durdu. Narahat halda üzünü mənə tutub: – Xahiş edirəm, əyləşin, – dedi və cəld addımlarla otaqdan çıxıb mətbəxə sarı getdi. Heç beş-on dəqiqə keçmədi ki, qız hər iki tərəfdən qulpu olan gümüş məcməyiyə yığılmış qablarda cürbəcür şirniyyat gətirdi. Sonra meyvə gətirdi. İki nimçə, birini özünə, birini də mənə.

– Çay qoymuşam. İndicə qaynayacaq, – dedi. – Meyvə yeyin, yaxşı almadır.

Qızın sərbəst hərəkəti, qonaqpərvərliyi, düzü, məni təəccübləndirdi. Nə əcəb ondan? Nə olsun ki, qonşuluqda yaşayırdıq. Əslində, bir-birimizi yaxşı tanımırıq. Qohum-əqrəba deyilik. Bu şeylər olmaya-olmaya qız nə əcəb mənə belə hörmət edir? Düzü, anışdıra bilmədim. Bir az sonra yaxşı dəmlədiyi çayı ortalığa gətirdi. Ətri otağa yayıldı. Biz üzbəüz oturub çayımızı içir, söhbət eləyirdik. Birdən küçədən adamın əsəblərinə toxunan səs gəldi. Kimsə maşına tormoz verdi. Təkərlər asfaltda elə dəhşətlə sürüşdü ki, eşidənləri vahimə basdı. Qorxulu cəhəti bu oldu ki, tormozdan sonra nəsə bir-birinə dəyib bərk şaqqıldadı. Aydındı ki, maşınlar toqquşdu.

– Qəza oldu! – Hər ikimiz dikəlib bir-birimizin üzünə baxdıq. Sonra da heç nə demədən küçəyə qaçdıq. İkicə dəqiqəyə küçədə böyük qələbəlik yarandı. Həqiqətən, qəza olmuşdu. Ancaq adam əlindən maşın-zad görünmürdü. Dövlət avtomobil müfəttişliyinin işçiləri adamları dağıtmaq istəyirdilər, bir şey çıxmırdı. Mən birinə yaxınlaşıb soruşdum:

– Adamlara bir şey olmayıb ki?

Kişi təəssüflə dedi:

– Deyirlər, bərk əziliblər.

– Necə olub axı?

Gər səsli kişi narazı-narazı fikrini bildirdi:

– Necə olacaq?! Rulun ardına keçəndə gözləri ayaqlarının altını seçmir. Hər ağzından süd iyi gələn uşağa sürücülük vəsiqəsi verəndə nəticəsi də belə olur!

Mən yenə pəncələrim üstə qalxıb hadisə yerinə baxırdım ki, həyəcanlı maşın fiti eşitdim. Təcili yardım maşını idi. Camaat kənara çəkilmirdi ki, maşın hadisə yerinə yaxınlaşsın.

– Geri!.. Geri!.. Kənara dayanın, – milis nəfərləri camaatın dalğasını geri itələyib yol açdılar.

Bir azdan qəzaya uğramış adamları da, maşınları da yedəyə alıb apardılar.

Küçə təzəcə sakitləşmişdi ki, binamızın darvazası qarşısında taksi dayandı. Xalıq kişi və arvadı maşından düşdülər. Bayaqdan mənimlə bir yerdə dayanmış Hilalə isə:

– Ay, bizimkilər gəldilər! – deyə onlara tərəf qaçdı.

Onların məni görüb-görmədiklərindən xəbərim olmadı. Ancaq bir şeyə sevinirdim. Yaxşı ki, evdən tez çıxdıq, gəlib məni evlərində görsə idilər, yaxşı düşməzdi. Qız üçün də pis olardı.

## VII

Səhəri gün xəstəxanaya Xanım anaya baş çəkməyə getmişdim. Demək olar ki, yanına hər gün dəyirdim. İşim olub gedə bilməyəndə nigaran qalırdım. Çünki Xanım ananın vəziyyəti yaxşı deyildi. Amma bu gün bir az yaxşı kimi idi. Mənimlə nə qədər danışıb-güldü, zarafat elədi, yenə dedi ki, bəs sənə nə vaxt toy edəcəyik! Axı qocalıb gedirsən, bir-iki il də keçsə, sənə kim gələr?! O belə sözlər dedikcə mən də şən-şən gülümsəyirdim. Xanım ananın yanından çıxanda mənim də əhvalım yaxşı idi. Yaşadığım binanın yanındakı dayanacaqda avtobusdan düşəndə Hilaləni gördüm. Dondurma satan kişinin yanında dayanıb bir qadınla söhbət edirdi. Düzü, qızı görəndə birtəhər oldum. Hilalə dünəndən bəri elə bil bir az da gözəlləşmişdi. Ürəyimdən başqa arzu keçdi: «Görəsən, bu qız mənimlə kinoya, teatra gedərmi?» – deyə fikirləşirdim. Bu ara qız dönüb mənə tərəf baxdı. Fürsəti fövtə verməyib tez onu başımın hərəkətilə salamladım. Həm də dayanmağımla ona bildirdim ki, səni gözləyirəm. O isə hərdən mənə baxaraq gülümsünə-gülümsünə qəsdən söhbəti uzadırdı. Nəhayət, söhbətlərini bitirib aralananda yaxınlaşdım. Gülə-gülə dedim:

– Səhərədək danışsanız da gözləyəcəkdim!

– Nə əcəb, xeyirdi?

– Mənim üçün xeyirdi, sizi bilmirəm.

– Buyurun, dinləyirəm, – Hilalə bic-bic gülümsədi.

Özümü yığışdırıb birtəhər dilləndim:

– Bu axşam səni gözləyəcəm. Burda, saat səkkizdə.

– Aaa! – Qız barmağını dodağının üstə qoydu. – Məni evdən buraxan kimdi?!

Çətini açılışmaq idi, sonra ərklə, cəsarətlə danışdım:

– Dedim gözləyəcəm!

– Çox vacibdir?

– Bəli!

– Fikirləşərəm, baxaram. – Qız qəti cavab verməsə də, ümid yeri qoydu.

Axşam dediyim vaxtda qızı gözləyəndə dəhşətli həyəcan keçirirdim. Gələcəkmi, gəlməyəcəkmi? Onu bilirdim ki, gəlməsə, möhkəm pərt olacam. Özümü söyəcəm, danlayacam ki, tez-tələsik mənə nə olmuşdu ki, qızla görüş təyin etdim? Xasiyyətim belə idi. Hər şeyi ürəyimə salırdım. Xüsusilə bu məsələdə xırda bir şeydən də dilxor olurdum. Vurulmaq, sevmək, doğrudan da, çətin olurmuş. Adamın rahatlığını pozurmuş. İşdə mənim bir dostum da vardı. Göyçəli Məhəmmədin oğlu Kərəm. Qaraqaş, qaragöz oğlan idi. Onun da dərdi, deyəsən, Novruz dərdi idi. Kimi sevirdi, nə təhər sevirdi, deyə bilmərəm, ancaq səhərdən axşamadək «ölərəm, ölərəm», – deyirdi. Qapı-pəncərəsi qoyulmamış, suvağı çəkilməmiş divarların arasında belə yanıqlı-yanıqlı oxumasından görürdüm ki,

sevir. Səsi gah o mərtəbədən, gah bu mərtəbədən eşidilirdi. İşini görə-görə mahnı da oxuyurdu. Özü də çox qəmli mahnılar. Axırı Sahib dözmədi:

– Əə, bəs döymü? Az qalıb bizi də ağladasan, – deyə ona acıqlandı. – Atan ordan yazır ki, hazırlaş instituta gir, sən də başlamısan «ölərəm, ölərəm!»

Həqiqətən, Kərəmin valideynləri çox istəyirdilər ki, oğulları institutda oxusun. Bu yaxınlarda atasından məktub gəlmişdi. Yazmışdı ki, dərdin alem, bizim fikrimiz bircə sənsən. Özünə yaxşı qulaq as, yeməyinə fikir ver, soyuqdan qorun. Pis uşaqlara qoşulma, ciqan-miqandan həmişə uzaq gəz. Oxumağını olmaya-olmaya yadından çıxardasan. Sonra yazmışdı ki, bizdən yoldaşlarına salam söylə. Hələlik, salamat qal, mənim əziz oğlum... Sən demə, bir məsələni kişi unudubmuş. Atan Göyçəli Məhəmməd yazandan sonra bunu da oğlunun qulağına çatdırmağı vacib bilmişdi. Bə deyirdin institutun hazırlıq kursuna gedəjəm, nooldu? O barədə niyə bir şey yazmırsan? Ay oğul, kim nə deyir desin, ancaq mənim kəm ağlımca əsas beyindir. Beynin olandan sonra hansı qırışmal kəmfirsandlıq eləyib səni kəsər, qiymətini verməz?! Ona görə də başına dönüm, oxumağına fikir ver, kitablarını aç, bir də bax!

Məktubu oğlanın əlindən Sahib alıb ucadan oxumuşdu. Elə bil siyasi dərs idi. Kağızı qaytarandan sonra maraqlanıb soruşmuşdu:

– Hazırlaşa bilirsənmi?

– Oxuyuram.

– Çox oxumalısan. Ciddi hazırlaş, – Sahib qoca adamlar sayağı ona öyüd-nəsihət etmişdi. – Dədən də bunu səndən ötrü deyir. Elə bilirsən oxuyub ona xeyir verəcəksən?! Heç ağlım kəsmir! Elə özümü də deyirəm. İndikilər ata-ana qədri bilən deyillər.

Sahib onu danlayanda Kərəm yaman pərt olmuşdu. Bilməmişdi nə desin, xırısdaşıb qalmışdı. Yəqin, başa düşmüşdü ki, Sahib düz deyir. Sahib də görmüşdü Kərəm dillənmir, yanına gəlmişdi. İnciməməsi üçün bu dəfə yumşaqlıqla demişdi:

– Ay qaqaş, niyə elə qəmli oxuyursan axı?

– Nə olar?

– Necə nə olar? Cavan oğlansan, bir ayrı cür oxusana.

Kərəm sakitcə fikrini izah eləmişdi:

– Eşitməmisən, deyərlər, ağladanın yanında otur, güldürənin yanında oturma.

– Yox, əzizim, mən güldürənin yanında olmaq istəyirəm, – Sahib ona etiraz eləmişdi.

– Yaxşı, sənin xətrin üçün daha qəmli oxumaram.

Sahib də şənliklə onun qolundan tutmuşdu:

– Oxuma, qadası, oxuma.

– Baş üstə!

Kərəm sözünə düz oğlanmış. Sonralar bir də eşidirdin oxuyur. «Bazarda alma, allam sataram». Amma heç yaraşmırdı. Daha doğrusu, onun kimi bir bazburutlu oğlanın bazarda alma alıb, satmasını rəva bilmirdim. Xülasə, oğlanın qəmlimi, qəmsizmi səsi bütün tikintini başına götürərdi. Bir dəfə tikintinin harasındansa səsi gəlirdi. Tənəffüsə çıxmışdıq. Boş idim. Səsini bələdçi tutub getmişdim. Üst mərtəbənin damında onu görüb demişdim:

– Öz aramızdır, deyən vurulubsan?!

Üzümə baxıb gülümsəmişdi. Şairanə dayanıb əlini qaldırmışdı:

– Eşqdir məhvəri uca göylərin,

Eşqsiz, ey dünya, nədir dəyərin?

– Həəə. Düz tapmışam. Kimisə sevirsən?

– Bəs sən necə, qağa, sevirsənmi?

Bilməmişdim necə cavab verəm. O özü danışmışdı:

– Hamı sevir, qağa. Biz də sevirik. Sevə bilməsə idik, bu binanı tikə bilməzdik. Daş daş üstə durmazdı. Hamısı dığırlanıb tökülərdi. Məhəbbət böyük şeydir, qağa!

Məktəb partasından dünən durmuş cavanca oğlanın cavabına, belə böyük sözlər danışmasına məəttəl qalmışdım. Ondan bəri onu harda görəndə yanına gedirdim. Cavan oğlan olan Kərəmin ahıl kişi kimi danışmasından xoşum gəlirdi.

İndi məhəbbətin böyük, kiçik olduğu barədə mən bir söz deyə bilməzdim. Ancaq onu deyə bilərəm ki, gözüm yolda qalmışdı. Gah aşağı baxır, gah yuxarı baxır, hər gələnə diqqət yetirir, adamların arasında görüşə çağırdığım qızı axtarırdım. Elə vəziyyətdə idim ki, gözüm dörd olmuşdu. Bir də gördüm gəlir, çöhrəsində də xoş bir təbəssüm var. Tez qabağına getdim.

– Salam, – deyə qızı qarşıladım.

– Salam, – qız utana-utana mənə baxdı, sonra oğrunca ətrafa nəzər saldı. Hiss etdim ki, onu görəcəklərindən qorxur, sıxıntı, həyəcan keçirir. Çöhrəsi lalə təki qızarmışdı. Hərəkətlərində bir tərəddüd nəzərə çarpırdı. Yerişində, duruşunda da bir ürkəklik var idi. Deyirdin indicə qoyub qaçacaq. Qızın bu cür olmasından mən də çaşıb qalmışdım. Bilmirdim qıza nə deyim, necə hərəkət edim, gərginliyi aradan necə götürüm. Birtəhər özümü ələ alıb, nəhayət, boğazım quruya-quruya dedim:

– Yanıma gələnədək səni tanıya bilmədim.

– Dövlətli olacam, – qız da zarafat elədi.

Donum bir az açıldı. Cəsarətlənib dilimin qıfılını bir az da açdım.

– Daha niyə durmuşuq?! Gedək! – deyə addımımı atdım. Qız yanıma düşüb gedəndə mən də istədim ki, bizi görən olmasın. Şəhərdə olan yerlilərimizdən görən olsa, qorxdum nənəmin, babamın qulağına çata. Bilirdim söylənəcəkdilər ki, səni oxumağamı göndərmişik, yoxsa qıznan gəzməyəmi?!

### VIII

Səhər-səhər işə gələndə gördüm Sahib işçilərimizdən cavan bir oğlanı uşaq təki danlayır. O fağır da dinməyib başını aşağı dikmişdi. Maraqlandım ki, nə eləyib? Sən demə, bizim iş icraçımız Miriş bunu başqa yerə xüsusi evdə işləməyə göndəribmiş. Bu da gedib işləyib. Sahib onu dara çəkirdi, nə çəkirdi. Axırı oğlan dözməyib dedi:

– Əşi, məndən nə istəyirsən? Sənə deyirəm Miriş göndərdi, mən də getdim. Əgər cəsarətin çatır, get onun özündən soruş ki, niyə tikintinin fəhləsini xüsusi evə göndərmisən?

– Soruşaram, hələ o yana da keçərəm. Ancaq indi sən söylə görək necə oldu? – Sahib barmağını havada oynada-oynada danışdı.

– Necə olacaq?! Guya, bilmirsən?! Bir məni göndərib?! Bax, çağırıb dedi, bu maşına iki yüz dənə kərpic yüklə.

– Yüklədin?

– Hə.

– Ay bərəkallah! Sonra?

– Dedi, beş-altı kisə də sement götür.

– Götürdün?

– Hə.

– Sonra?

– Sonra da dedi get, bunları maşından boşaldarsan. Özün də orda işləyərsən.

– Sən də elə elədin?

– Bəli!

Sahib yanıb töküldü, acığından oğlanın ağzını əydi.

– Yüklədim, apardım, işlədim. Boyuna qamış ölçüm sənin!

Bu söhbət hamının yanındaca oldu. Səhəri gün Miriş Sahibdən ağzıburuq gəzirdi. Görünür, söz-söhbəti ona çatdırmışdılar. Amma güman etmirdim ki, buna görə onlar dalaşalar, iş elə gətirə ki, əlbəyaxa olalar. Miriş başladı ki, burda ağızlarına gücü çatmayanlar var, amma onu bilsinlər ki, analarını ağladaram.

Düzü, hamı çox pis oldu. Hərə bir yerdən səsini çıxarmaq istəyəndə Sahib sakit dura bilmədi. Onsuz da iş icraçısının əlindən yığmışdı. Bir balaca sözə-söhbətə bənddi. Elə ona görə də ana sözü gələndə Sahib hamının gözü qabağındaca Mirişin qabağına yeridi. Təbdən çıxmışdı, gözündən od tökülürdü:

– Bura bax! – dedi. – Ağzını Allah yoluna qoyma. Mən heç sən adlı adam tanımıram.

Pis işi Allah kəssin. Adamın dilini gödək eləyir. İş icraçısının da zibili çox idi. Ona görə səsini çıxara bilmirdi. Amma gördü mübahisələrinə hamı qulaq kəsilib. Danışmaya bilmədi. Başqalarının da ağzını yummaq üçün onun qabağından sərt dillənməyə məcbur oldu.

– Məni tanımırsan?! – Əlini döşünə vurub hikkəli-hikkəli oğlanın üstə yeridi. – Sənin böyüyünəm, qadası.

Höcətə düşəndə Sahib çox yaman olurmuş. Dediyinin üstündən qaçan oğlan deyilmiş. Bayaqkı sözlərini indi də onun düz gözünün içinə oxudu.

– Sən addı adam tanımıram. Heç tanımaq da istəmirəm! Bildin?!

Miriş ciddi məsələni zarafata salmaq istədi:

– Adə, mən sənin prorabınam, dayna? Yenə tanımadın?

Sahib də onu lağa qoydu:

– Yox, bir?!

– Bəs necə?! İşə götürəndə tanıyırdın, indi yox? Elə eliyərik bundan sonra yaxşı tanıyarsan!

– Ay-hay! Kimə xox gəlirsən? Hələ get zibillərini arıtla sonra...

Miriş gördü ki, o, çox diliuzunluq eləyir, ağzına gələni deyir. Dözə bilmədi. Hirslə dedi:

– Çox baş aparırsan!

– Bilirsənmi? – Sahib səsini yumşaltdı, mülayim danışdı. – Açığını deyim ki, istəyirəm komissiya gətizdirəm. Yoxlatdıram. Zibillərinin üstünü açdıram. Dözdüyümüz daha bəsdir!

– Bura bax! – deyə Miriş ikiəlli Sahibin yaxasından tutub geri itələdi. Sahib boş durmuşdu, həm də arxasında taxta-tuxta var idi. Ayağı nəyə ilişdisə yıxıldı. Onlara tamaşa edən cavan-cavan oğlanlar ordan-burdan hırtıldaşıb gülüşdülər. Sahib pərt oldu. Sıçrayıb ayağa qalxdı. Əlini atıb iş icraçısının yaxasından qamarladı, birdən necə sırta çəkdisə, Mirişin nəhəng gövdəsi yernən bir oldu. Yerdən toz qalxdı. Miriş tozun içində görünməz oldu. Mənə elə gəldi ki, ora quyu idi, bu da başdı-burunlu ora düşdü. Amma toz yatdı və Mirişin eybəcərləşmiş sifəti təzədən göründü. Ayağa durub üst-başının tozunu çırpdı. Daha dava eləməyə imkanı olmadı. Gözlərini tutub kranın altına qaçdı. Üz-gözünü yuyub, üst-başını çırpıb kontora şikayətə qaçanda hərə bir tərəfdən rəngi avazımış Sahibi dövrəyə aldı.

– Ə, qorxma, – dedilər. – Ölməmişik ha. Hamımız səni müdafiə edəcəyik. Necə olub eləcə də deyəcəyik.

Bu sözləri eşidən Sahibin rəngi-ruhu bir az yerinə gəldi. Mən isə nədənsə dillənib ağ, qara heç nə demirdim. İş qurtarcaq xəstəxanaya Xanım ananın yanına dəymək üçün tələsəndə o mənə: «Dayan, mən də gedirəm» – dedi. Yolda dedi ki, ağlın nə kəsir, bu işin axırı necə olar? Olmaya bunlar məni milisə-zada verələr? Əmək kitabçamı korlayarlar? Mənim də ağlım kəsmirdi ki, belə şey ola. Tikintinin işçiləri ayağa qalxardı. Həm də Miriş istəməzdi ki, zibilləri haqda söhbət gedə. Odur ki laqeydliklə dedim:

– Əşi, mən nə bilim?! Mən balaca adamam, özünüz bilərsiniz!

Eh! Bunu dediyimi gördüm. Sahib üstümə düşdü, nə düşdü:

– Mən balaca adamam. Mən balaca adamam, – deyə ağzımı əydi. – Balacasan ayağına dikdaban gey. Arvadların ayaqqabısı kimi. Bu boyda – əlilə də göstərdi. – Bir bunun dediyi sözə bax?!

Doğrudur, Sahib yaxın yoldaşım idi. Aramızda yüz cür söhbət olurdu. Bu sözləri mənim yeddi qatımdan keçsə də, amma tez sülh yaratmaq istədim. Dedim:

– Ay canım, demişəm, deməmiş olum. Day niyə özündən çıxırsan?

– Yox ey, danışanda fikirləş danış, – deyə o da sakitləşdi.

O axşam futbol var idi. «Neftçi» öz meydançasında Yerevanın «Ararat» komandasını qəbul edirdi. Futbolda həmişə atılıb-düşən, qışqıran, gah hakimləri, gah da oyunçuları səhvlərinə görə tənbeh eləyən Sahib indi ağzına su almışdı. Ağ, qara bir kəlmə danışmırdı. Çəpiş yarpaq yeyən təki yeyin-yeyin tum çırtlayır, üzünün əti hərdən əsəbiliklə dartılırdı. Mən ona görə çox narahat idim. Bir gözüm oyunda, bir gözüm də onun hərəkətlərində idi. Bilirdim ki, bərk dilxordu. İş icraçısı ilə savaşdığına görə fikir eləyir. Baxırdım hamı danışır, gülür, atdanır, düşür, qışqırır. Yalnız Sahib oyuna da, ətrafındakı adamlara da laqeyd-laqeyd baxırdı. Bu ara necə oldusa, bizim futbolçular hesabı açdılar.

– Uraa! – Bütün stadion ayağa qalxıb qışqırdı. Mən də ayaq üstə idim. – Uraa!..

Yana baxanda gördüm Sahib də qalxıb, kefi durulub, hamı kimi əllərini qaldırıb o da qışqırır. – Uraaa!..

Nəhayət, futbolda dayana bilmədi, «Neftçi»nin çox məharətlə vurduğu top onun qəm-qayğısını dağıtdı, kefini açdı. Hətta stadiondan çıxıb adamların bir-birini itələyə-itələyə darvazalardan keçdiyi vaxt da Sahib «Neftçi»nin bugünkü qələbəsindən həvəslə danışır, mübahisələrə qoşulur, hər yerdə fikrini, rəyini yeritməyə cəhd edirdi.

Get-gedə futbol mərasiminin dəm-dəsgahı azalıb, balacalaşır, adamlar yan-yörəmizdən dağılışanda Sahibə dedim:

– Gəl gedək mənim yanımda qal, söhbət edərik, sonra da yıxılıb yatarıq.

– Yox, sağ ol! – Əl verdi və qaçıb trolleybusa mindi.

Gəzə-gəzə piyada gəldim. Yolumu orda-burda bağdan-bağçadan salırdım ki, havamı dəyişim, beynimi çulğalamış cürbəcür qarışıq fikirlər dumanından bir az avazıyım.

Bir bağdan keçəndə özümdən asılı olmayaraq, yavaş getməyə başladım. Bura bir az dalda yer kimi idi. Lampalar söyüd, küknar ağaclarının qalın budaqları arasında elə bil itib-batmışdı. Ona görə də işıqlar orda-burda qırılır, itir, yerə çox solğun işıq saçırdılar. Bu səbəbdən idi ki, ağacların altı alatoran görünürdü. Ara-bir cüt-cüt kölgələr gözə dəyirdi. Belə şeylər şəhər yerində, əlbəttə, adi haldır. Burda elə bir qəbahət iş yoxdur. Daha doğrusu, cavanların bu cür davranışı şəhər

həyatına o qədər güclü tərzdə daxil olub ki, daha buna heç kəs təəccüb etmir. Ancaq bu dəfə məndə ikrah hissi oyatdı. Skamyalarda qucaqlaşan sevgililərə yaman acığım tutdu. Birtəhər oradan uzaqlaşdım.

Səhəri gün də nəsə kefim yox idi. Həyətdə Hilalə qabağıma çıxdı. Salamlaşdıq. İndi də o dilləndi:

– Sizə nə olub? Elə vəziyyətdəsiniz ki, elə bil dünyanın xərcini-borcunu sizdən alırlar. Bəlkə, Xanım anaya görədir, onun vəziyyəti necədir?

Tez özümü yığışdırıb dedim:

– Xanım ana pis deyil!..

– Xahiş edirəm, yanına gedəndə mənə də deyin birlikdə gedək, yaxşı?!

– Baş üstə! – deyə məmnuniyyətlə razılaşdım. Çünki yanına gedib-gələn olanda Xanım ana şad olurdu, ürəyi açılırdı, sevinirdi, özünü qürurlu tuturdu. Elə bil adamlara bildirmək istəyirdi ki, mən tək deyiləm, mənim də adamlarım var, görürsünüzmü, yanıma gəlib-gedirlər. Onun üçün gətirilən mer-meyvədən xəstə yoldaşlarına pay da verirdi.

– İstəyirsiniz sabah saat altıda gedək. Vaxtınız olar?

– Hə, nə olar, ancaq xahiş edirəm unutmayın.

– Belə şeyi unutmaq olar? – deyə gülümsədim.

Danışdığımız kimi səhər binamızın qabağında birləşib Xanım ananı yoluxmağa getdik. Hilalənin əlində dolu zənbil vardı. Görünür, nəsə götürmüşdü. Əlbəttə, xəstə yanına gedirdi. Mən həmişə mer-meyvə aparırdım. Bişmiş hazırlaya bilmirdim. Daha doğrusu, qorxurdum yaxşı hazırlaya bilməyəm, ev sahibəm bəyənməyə. O yaxşı biş-düş bilən arvad idi...

Biz ikimiz də qoşalama palataya girəndə ev sahibəm gülümsədi. Hiss olundu ki, birgə gəlişimizdən məmnun qalıb, xoşhal olub. Deməк, onu unutmamışıq. Onu yada salan, xatırlayanlar var. Adamların xoş münasibəti, qayğıkeşliyi xəstələrə bəzən dava-dərmandan da yaxşı təsir eləyir. Ürəkdən, səmimi deyilən xoş bir söz görürsən xəstəni qaldırıb ayaq üstə qoyur. İndi Xanım ana da, xüsusilə Hilaləni görcək elə canlandı, elə şənləndi ki, dedim daha onda heççə bir şey yoxdur. Elə bu saat evə yazdırmaq olar. Bax, bu qızın ata-anası Xanım ana ilə heç maraqlanmırdılar. Bircə dəfə də olsun gəlib ona dəyməmişdilər. Deyəsən, yaxşı qonşu deyildilər. Amma qızları! O, bir insan kimi onlardan nə qədər yuxarıda dururdu...

Nəhayət, biz Xanım anadan ayrılaraq küçəyə çıxanda mən bir ev sahibi, ailə üzvü kimi bilmədim qıza necə təşəkkür eləyəm.

– Çox sağ olun, Hilalə, yaxşı elədiniz gəldiniz. Qoca arvaddır, ürəyi yaman açıldı.

– Aaa, bunun üçün mənə niyə təşəkkür edirsiniz, bu ki mənim borcumdur. Xanım ananı mən sizdən də qabaq tanıyıram! – deyə Hilalə özünü ev sahibəmə

məndən də yaxın tutdu. Xanım ana eşitsə, ürəyi açılardı, şad olardı. Qıza yaxından bələd olduqca daha çox xoşuma gəlirdi. Oturuşuna, duruşuna, hərəkətlərinə söz ola bilməzdi. Xüsusilə mübariz olması onun ən yaxşı cəhəti idi. Hər şeyin yerini bilirdi. Semaşko xəstəxanasının yanından aşağı Bakıxanov küçəsinə, trolleybus dayanacağına düşəndə dedim:

– Hilalə, bəlkə, kinoya gedək.

– Hara?

Qız elə dilləndi ki, sözümdən qəzəbləndiyini düşündüm. Ya da sadəcə olaraq eşitməmişdi. Mən mülayimliklə bir də təkrar etdim.

– Kinoya.

– Nə gedir? – qız mənə tərəf baxmadan soruşdu. Qırışığım açıldı. Acığı tutmamışdı. Ancaq bilmədim nə cavab verəm. Mən nə bilim nə gedir? Neçə vaxt idi heç kinoya getmirdim. İşə-gücə, xəstəyə başım elə qarışırdı ki, heç axşamımı, sabahımı bilmirdim.

– Deyirlər, yapon filmi gedir. Yaman tərifləyirlər.

Əslində, yapon filmi məsələsi çoxdanın söhbəti idi. Mən indi deyirdim. Kim idi mənim yalanımı tutan. Bəlkə, o tərifli film elə indinin özündə də gedirdi.

– Çəkməli pişiyi deyirsən?! Aaa, mən görmüşəm onu.

– Neynək? Başqasına gedərik.

– Bu gün, sabah gedə bilmərəm, o biri günlərə baxarıq. – Qız bu ara kinoya getmək məsələsini təxirə saldı.

Pərt olmuşdum. Amma özümü o yerə qoymadım. Gülə-gülə dedim:

– Daha birdəfəlik deyin ki, səninlə kinoya getmirəm!

– Yox, yox. Elə niyə?! – Qız sadəlövhcəsinə başını buladı.

– Bəs niyə sabah-sabaha salırsınız?!

– İşim var.

– Siz yaxşı qızsınız, yalan danışmaq sizə qəti yaraşmır.

– İnanmırsınız? – qızın başı mənimlə söhbətə necə qarışmışdısa, heç nəyə fikir vermirdi. Danışa-danışa üzünü yana tutduğundan qabağa qəti baxmırdı. Bizim üzüaşağı getdiyimiz küçəni də artıq iki addımlıqda bir küçə kəsirdi. Gördüm çox sürətlə maşınlar gəlir. Qızın qolundan tutub saxladım. O tezcə dayandı. İkimiz də gözlədik ki, maşınlar gəlib keçsin. Əlim hələ də qızın qolunda idi. Heç əlimi çəkmək fikrim də yox idi. Amma maşın gedəndən sonra əlimi çəkdim. Trolleybusa mindik. Elə basabas idi ki, biz güclə üzbəüz düşdük. Hətta mən özüm çalışdım ki, bir az yanpörtü dayanam, mümkün olmadı. Elə idi ki, lap nəfəs-nəfəsə dayanmışdıq. Göz-gözə baxırdıq. Bəlkə də, bu, qızın ürəyindən deyildi, özünü pis hiss eləyirdi. Mən isə özümü ürəkli apardım. Ağzımı qızın qulağına yaxın tutdum.

– Yadınızda saxlayın, sözümü yerə saldınız.

Qız başını qaçırmadı. Əksinə, qulağını yaxın tutub pıçıldadı:
– Nə söz?
– Mənimlə kinoya getmək istəmirsiniz.
– İnanmırsınız? Sizə dedim ki, evdə işim var, – qız üzrxahlıqla danışdı.
– Nə iş?
Özgə vaxtlar utancaq olduğum halda, indi yaman dil açmışdım. Qız özü də məəttəl qalmışdı ki, mənə nə olub. Və belə ərklə, açıq, səmimi danışdığımdan hiss elədim ki, qız mənə yalan söz deməyəcək. Həqiqətən, vacib işi olub-olmadığı indi bilinəcək. Gözünün içinə elə baxırdım ki, çaşıb qalırdı. Yalan danışmağa cəsarət eləməzdi. Həm də bizim bu münasibətlərimizin yalan sözlər, bəhanələr üzərində qurulmasını, bəlkə də, istəmirdi. Xeyli tərəddüddən sonra dilləndi:
– Bilirsinizmi? Sabah mənim ad günümdür! Rəfiqələrim gələcəklər. Qohumlardan da gələn olacaq. Ona hazırlaşıram. İndi inandınız?
– İnandım. Təbrik edirəm!
Qız utana-utana məni də dəvət elədi.
– İstəyirsiniz siz də gəlin?
– Çox sağ olun, gələrəm, niyə gəlmirəm, – dedim. Ancaq atasından bərk incimişdim. O günkü söhbəti heç xoşuma gəlməmişdi. Qərara gəlmişdim ki, mənə dedikləri elə öz fikridir. Heç ağlım kəsmirdi ki, mənim haqqımda hamı o cür düşünə. Nəsə kişinin özünün burda bir məqsədi var idi. Qanımı qaraltmaq üçün özü qəsdən belə demişdi. İndi elə adamla necə üz-üzə gəlim? Birdən yenə başlayar artıq-əskik danışmağa. Mən də qabağında dillənərəm, yaxşı olmaz, qızla birdəfəlik pozuluşaram. Xeyli götür-qoydan sonra gedib qız üçün hədiyyə də aldım. Bir gözəl buket də bağlatdırdım. Sonra yenə fikrimi dəyişdim. Atası ilə üz-üzə gəlmək istəmədim. Amma otaqda tək-tənha, qovrula-qovrula qaldım. Məni incidən o idi ki, qız başqa fikrə düşə bilərdi, məni mədəniyyətsiz hesab eliyərdi, beş-on manata görə haqqımda pis rəydə olardı.
Axşamdan xeyli keçmiş qapım yavaşca döyüldü. Belə zənn etdim ki, Sahib olacaq, başqa heç kəs ağlıma gəlmədi. Dilxor-dilxor gedib qapını açdım. Və kandardaca quruyub qaldım.
– Hilalə, bu sənsən? – deyə az qaldım qışqıram.
Qız barmaqlarını dodağının üstə qoydu. Yəni astadan danış. Sonra ehmalca ayağını içəri qoydu, arxasından qapını örtüb elə qapıyaca söykəndi. Sevinclə parıldayan nəzərlərini üzümə dikib bir söz demədən dayanmışdı. Çaşıb qalmışdım, nə edəcəyimi kəsdirə bilmirdim.
– Hilalə, buyur, – çaşqınlıqla keçib oturmasını təklif elədim.
Pıçıltı ilə dilləndi:
– Gözləmirdin?
– Yox!

– Bilirəm. Ancaq mən gəldim.
– Fikrim bayaqdan sənin yanında idi.
– Mənim də.
– Doğrudan?
– Hə!
– Bax, görürsən sən demə ürəyimiz birimiş.
– Onlar danışırdı. Mən darıxdım. Səni görmək istədim. Durub çıxdım.
Maraqla soruşdum:
– Bəs indi səni axtarmayacaqlar?
– Axtarsınlar!.. – Qız qarşımda əllərini yanına salıb tərpənmədən dayandı. Kirpiklərini xəfifcə oynadıb göz qapaqlarını örtdü. Bunu elə bir şəkildə, elə zərif hərəkətlə etdi ki, qəlbimdə nəsə dalğalandı və tel-tel oldu. Əlimi-qolumu bağlayıb elə bil yanıma saldı. Özü öz razılığı ilə gəlib bütün varlığını mənə təslim etməyə hazır olan, gözümə son dərəcə zərif görünən bu məxluqa azacıq toxunmağa, əl vurmağa belə ehtiyat edirdim. O, bu dəqiqələrdə danışan, gülən, hərəkət edən adi adamdan çox, nəsə başqa bir varlığa, ən böyük ustalıqla yaradılmış heykələ – gözəllik heykəlinə oxşayırdı...

## IX

Hilalə mənim otağımda heç beşcə dəqiqə qalmamışdı. Gəldiyi ilə getdiyi bir olmuşdu. Amma gedəndən sonra da elə onu xəyalən orda görürdüm. Xanım ananın evində. Qapının ağzında, divara söykənmiş vəziyyətdə. Yəni bu o demək idi ki, indicə gedirəm. Qız elə bil od aparmağa gəlmişdi. Sonradan fikirləşəndə görmüşdüm ki, səhvlərim çox olub. Gərək heç buraxmayaydım. Saxlayaydım evdəcə. Gedib Xanım anaya deyərdim ki, bax, sözünə əməl eləmişəm, gəlinini gətirmişəm, evdədir. Bəlkə, onda arvada nəsə indiyədək görünməmiş, fövqəladə bir qüvvə, bir güc gələcəkdi: «Ay doxdur, xahiş edirəm, məni evə yazın, gedib oğlumun toyunu eləyirəm!» – deyəcəkdi.

Bəli, Xanım ana gəlini kirimişcə gətirməyə qəti razı olmazdı. –Yoox. Toysuz şeymi olar, qadan alım, – deyərdi. – Hər şeyin bir təhri var. Yasda ağlayarlar, toyda oynayarlar...

Bəli, Xanım ana təki mən də toy-şənlik az görmüşəm. Davanın qanlı-qadalı illərindən birtəhər diri çıxmış olsam da, sonralar da bir gün görməmişəm. Anam məni atıb ərə gedəndə körpə uşaq idim. Yaxşı yadımdadır ki, axşamüstü otardığım quzuları qapıya töküb evə gedəndə anamı görmədim. Elə bil nəsə ürəyimə dammışdı. Təlaşla, intizarla üzümü nənəmə tutdum:
– Anam hanı, ənnə?
– Anan qonşuya gedib, ömrüm-günüm.

Nənəm məni çox istəyirdi. Həmişə xoş dindirib danışdırardı. Ancaq qoca arvadın bugünkü danışığından, hərəkətindən almadım. Belə başa düşdüm ki, anam harasa uzağa gedib. Arabir həftə bazarına, dəyirmana gedərdi. O gəlib çıxanadək gözüm yolda qalardı. Gecələr gözümə yuxu getməzdi...

– Hansı qonşuya gedib, qaçıb çağırım?

– Yox. Yox. Özü gələr, – nənəm etiraz elədi, səhəngdən əlindəki qazana su alıb eşiyə çıxdı.

O axşam anamı çox gözlədim, gəlib çıxmadı.

– Gəl, yat, anan, yəqin, haradasa ləngidi, – deyə mənə öz yanında yer düzəltdi. Əlacım nə idi?! Ümidlə yatıb səhər gözlərimi ovxalaya-ovxalaya yenə də anamı soruşdum.

– Anam gəldimi, ənnə?

– Yox, dərdin alım.

– Hara gedib axı?

– Ərə, ömrüm-günüm!

– Bəs məni niyə aparmadı?

– Aparacaq, qurban olum. – Nənəm qəmli-qəmli dilləndi.

Mən elə bil hələ yuxulu idim. Nə danışdığımı özüm də bilmirdim. Sonradan ayıldım.

– Anam hara gedib? – təzədən soruşdum.

Nənəm dediyini gizlətmədi. Yazıq-yazıq dedi:

– Anan ərə gedib, ay bala! Bəs özgə nə edə bilərdi?! Onunku da belə gətirdi. Cavandı axı, yiyəsiz qalmaq pis şeydir.

Qanım qurudu. Bilmədim nə deyəm. Fikirli-fikirli nənəmin üzünə baxa-baxa qaldım. Nənəm bu halımı görüb dilləndi:

– Neynək, dərdin alım, Allah ona yaxşı yol versin. Birindən yarımadı, heç olmasa bundan yarısın, bu sənin də xeyrinədir, anan yazıqdır, – deyə nənəm məni qılıqladı ki, səsimi çıxarmayım.

Uşaq olsam da, acığımdan arvadı ikiəlli necə itələdimsə, ayaqları dolaşıb yıxıldı.

– Bıy, səni yarıma, oğul! – Harası ağrıdısa yandığından mənə qarğadı.

Dolmuşdum. Ağlamamağım mümkün deyildi. Hönkürdüm, gözlərimdən yaş sel təki axdı...

Ərə gedəndən sonra anamı ilk dəfə gördüyüm də qəribə oldu. Onadək heç ağlıma gəlməzdi ki, anam məndən utana, üzümə baxmağa həya eləyə. Anamın gecənin birində bir kişiyə qoşulub getməsindən on beş-iyirmi gün keçmişdi. Şər qarışan vaxt idi. Nə üçünsə otaqdan eyvana çıxanda anamı evimizin böyründə gördüm. Məni görcək o, tez çəpərin dibinə çökdü. Özünü məndən gizlətdi. Çəpə-

rə sarı baxa-baxa eyvanda hələ də quruyub qalmışdım. Elə bil yuxu görürdüm. İndicə anam var idi, bax orada dayanmışdı. Bir göz qırpımında yoxa çıxdı. Bu dəqiqələrdə hər şeyi unutmuşdum. Dünyada yalnız, elə bil ikimiz idik. Bir mən, bir də anam. Ürəyim az qalırdı partlasın. Anamı görmək istəyirdim. Yerimdən necə qopduğumu bilmədim. Qaçıb onun yanına getdim. Anam büzülüb-büzülüb yumaq boyda olmuşdu. Yanına gəldiyimi görcək üzümə baxıb gülümsədi və qolumdan tutub həsrətlə bağrına basdı, üz-gözümdən öpə-öpə:

– Ömrüm-günüm, səndən ötrü lap dəli kimi idim. Hər gün səhər-axşam gəlib burdan sənə tamaşa eləyirəm. Yoxsa bağrım çatlayardı.

Dilim-dodağım əsə-əsə ondan soruşdum:

– Bəs niyə çıxıb getdin, hə?

Anam mənə cavab verməyə çətinlik çəkdi. Ona görə sözü uzatdı:

– Mənmi, dərdin alım?

– Hə, sən.

– Bə nə edəydim? – səsi daha da titrədi.

– Heç nə! Oturardın evimizdə.

– Nə vaxtadək?..

– Həmişə oturardın.

Anam duruxdu. Sonra qırıq-qırıq danışdı:

– Nə bilim, iş idi oldu, də!

– Yox, gedək evimizə, səni evimizə aparacam! – deyə anamın qolundan tutub dartdım.

Anam əlini üzünə çəkdi.

– Allah, mənə ölüm ver!

– Gedək! – Anamın qolundan bir az da bərk dartdım.

Anam tərpənmədi. Bir söz deməsə də hərəkəti, duruşu ilə bildirdi ki, bu, mümkün deyil.

– Mən də səndən küsürəm! – Acıqla anamın əlini buraxdım və evimizə sarı getdim. Anamın məndən əl çəkməyəcəyinə ümidli idim. Güman edirdim ki, o, mənim ardımca gələcək. Ancaq çiynim üstə qanrılanda onun kəlağayısının ucu ilə gözünün yaşını silə-silə geri qayıtdığını gördüm.

Bir dəfə də quzularımızı suya aparırdım. Anam qarşıma çıxdı. Özünü üstümə saldı. Qucaqlayıb öpə-öpə dedi:

– De görüm, mənimlə barışırsanmı, hə, barışırsanmı?

Bu ara qəlbimə elə bil daş bağlanmışdı.

– Yox, barışmıram!

– Axı sənsiz mənim nə günüm, nə saatım?!

Çapalayıb qucağından çıxdım.

– Dedim, barışmıram!

O günlərdə mən artıq meylimi nənəmə salmışdım.

Bir dəfə də uşaqlarla ortalıq yolda oynayırdıq. Anam haradansa gəlib qolumdan tutdu. Məni evinə apardı, iri ağac taxtın üstündə otuzdurdu.

– Boy, ömrüm-günüm, sənə qurban olum, qabağında ölüm! – deyərək yüz cür dil tökə-tökə gətirib mənim üçün süfrə açdı. Çörək qoydu, bir nəlbəki qaymaq, ayrı nəlbəkidə də bal gətirdi. Məni bir də marçıltı ilə həsrət-həsrət öpüb:

– Ye, canım-ciyərim! – dedi.

Özgə vaxtlar olsa idi, bunların hamısını büküb-bükələyib yeyərdim. Heç qoymazdım bir qırığı da yerə düşsün. İndi nədənsə, yeməyə həvəsim yox idi. Çörəkdən-xörəkdən doymayan boğazımı elə bil tikmişdilər. Onu fikirləşirdim ki, anam nə üçün belə edir? Nə üçün elə içəri girən təki mənim üçün belə süfrə açdı? Başa düşürdüm ki, o mənim könlümü alıb barışmaq istəyir. Mən isə onunla yemək xətrinə barışmaq fikrində deyildim.

– Ye qadan alım, hələ sənə qəşəng paltar da alacam, ayağına çarıx da tikdirəcəm! – deyə məni qılıqlayıb şirin vədlər verirdi. Qaşqabağımı daha da töküb mızıldandım:

– Yemirəm...

Anam qolunu boynuma salıb üzümə sarı əyildi.

– Niyə, ömrüm-günüm?

– Evimizdə yemişəm.

– Neynək, burada da ye!

– Yox, istəmirəm!

Anam yüngülcə köksünü ötürdü. Mən onun qırçınlı koftasının altında sinəsinin necə qalxıb-endiyini görürdüm. Başa düşürdüm ki, anam məni itirmək istəmir. Mən də özümü belə bilməzdim. Bu qədər inadcıllıq, tərslik olar?! Əslində, tərslik etməyim özümdən asılı deyildi. Bəzən təklikdə ürəyimdə anamla barışırdım. Nəsə anama bəraət qazandırır, onu qınamırdım. Elə ki rastlaşdıq, üz-üzə gəldik, anamı görməyə gözüm olmurdu. Ondan ötrü ürəyim tel-tel olub titrəsə də, başımı qaldırıb üzünə baxmırdım. Cin atına minirdim.

Nəhayət, bir dəfə evdə tək idim. Babamla nənəm harasa getmişdilər. Mən də eşikdə talvarın altında yaş söyüd çubuğundan fiştirik düzəldirdim. Anamın oğrunca bizə gəldiyini gördüm. Yəqin, evdə tək olduğumu bilib gəlmişdi. Tez üzümü yana çevirdim. Anam yaxınlaşıb arxadan əllərini çiynimə qoydu. Bu dəfə nədənsə dəcəllik, tərslik eləmədim. Həm başa düşürdüm ki, bu məsələdə anama çox əzab verirəm. Həm də nə qədər olsa, yenə ana əli idi. Özümü bir anlığa keçmiş günlərdə olduğu kimi hiss etdim. Nəvazişini, qayğısını duyub təsirləndim. Amma bir an sonra yenə dəli oldum. Sərt bir hərəkətlə geri çevrilib dik nəzərlərlə

anamın üzünə necə baxdımsa, fağırca arvad baxışlarıma tablamadı, mişarlanmış ağac təki dizləri üstə qabağımda çökdü. Yaxamdan iki əlli tutub dəlicəsinə silkələdi:

– Öldür məni! – dedi. – Qoy bu dərddən birdəfəlik qurtarım!

Onda mənim yeddi-səkkiz yaşım olardı. Anamın bu acınacaqlı vəziyyəti məni elə bil uşaqlıqdan çıxartdı, təmkinlə onu süzüb düşündüm. Anam nə deyir? Necə yəni məni öldür? Mən adam öldürənəm?

– Öldür, bala! – anam yenə məni silkələyib ağladı. – Əgər məni bağışlamırsansa, öldür. Qanımı sənə halal edirəm!

Heç vaxt anam mənə bu qədər hüquq verməmişdi. Kiməsə əl qaldıram, kimi isə döyəm, öldürəm. Əksinə, çox olmuşdu ki, o məni vurmuşdu, ağlayanda da öpüb, qucaqlayıb tezcə könlümü alardı.

Anamın göz yaşı axıtmasına dözə bilmədim:

– Yaxşı, bağışlayıram! – deyə üzümü ondan çevirib baxdım və anamın əlindən çıxıb aralandım. Bir dalda yerə çəkilib için-için nə üçün ağladım, bilmirəm...

Dağ köçü qabağı barışığa gəldilər. Çünki anamgil yaylağa gedirdilər. Atalığım fermada işləyirdi. Bir axşam qabaqlarında da iki heyvan həyətimizə üç-dörd kişi, iki-üç də arvad gəldi. Onda çox cavanca olan dayım da Bakıdan gəlmişdi. Babam nə üçünsə eşiyə çıxmadı. Barışığa gələnləri nənəmlə dayım qarşıladı. Bir azdan heyvanın birini böyrü üstə qoyub kəsdilər, dərisini soydular, doğrayıb qazana doldurdular. Bozartma bişirib qonaqlara çəkəndə mən oğrunca evin böyrünə hərləndim. Sonra eşitdim ki, nənəm məni axtarır.

– Aaaz, gədə hanı?

– İndicə burada idi, – dedilər.

– Boy, Allah mənə ölüm ver, uşağcığazım hanı? – deyə nənəm torpaqlı eyvanda qaladıqları ocağın böyründən təlaşla durub məni səslədi:

– Ay Mahir!.. Öölöm, ay Mahir!..

Nənəmin səsi gələndə həyətimizdə az qala dizimdən yuxarı olan pişikotunun, əməköməcinin arasına girib ağlayırdım. Nənəmin səsi məni daha da kövrəldirdi.

Bir neçə gün sonra atalığım atla qapımıza gəldi. Xoşxasiyyət, üzügülər adam idi. Davadan sonra bir neçə il haradasa qalıb, kəndə gec gəlib çıxdığından onun evlənməsi bu vaxta qalmışdı. Əvvəllər onun haqqında bizim evdə heç söhbət olmazdı. İndi yaxın adam kimi atdan düşüb üzünü nənəmə tutdu:

– Uşağı versəydiniz dağa apardıq?! – dedi.

Nənəm əllərini açdı:

– Nə deyirəm, getsin. Dağlarda gəzər, böyrəyi yağlanar.

– Gedək, Mahir kişi, – atalığım əlini mənə uzadıb başıma çəkmək istədi.

Mən tez başımı qaçırtdım...

X

O günlər daha getmişdi. Mən də böyümüşdüm. Yekə kişi olmuşdum. Budur, evlənmək, ailə qurmaq istəyirəm. Qızı bir gün görməyəndə az qalırdım dəli olam. Onu görmək üçün nə oyunlardan çıxmırdım. İstirahət günləri həyətdə, blokun ağzında quruyub qalırdım. Axşam da, sabah da gözüm qapılarında qalırdı. İş yerinə də gedirdim. İşdən çıxarkən onu qarşılayırdım. Hilalə mətbəədə işləyirdi. Yoldaşları da özü kimi cavan qızlar idi. Bir-ikisiylə hələ məni də tanış etmişdi. Onlar da mənə mehribanlıqla, hörmət-izzətlə yanaşmışdılar. Bir az qızın ailəsi tərəfdən nigaran idim. Xəbərləri varmı? Yaxınlıq etdiyimizi bilirlərmi? Fikirləri nədir? Ona görə yeri düşəndə qızın valideynlərinin hərəkətlərinə diqqət yetirir, maraqlanırdım ki, bəlkə, bir şey başa düşdüm. Bir gün işdən gələndə onlardan elə bir şey eşitdim ki, az qaldım qulaqlarımı tutub qaçam. Qızın atasından qabaqlar da xoşum gəlmirdi. İndi ondan lap zəhləm getdi. Eşitdim qızının üstə çığırır:

– Satarsan, hələ canın da çıxar! Yaxşıca geyinmək istəyirsən, amma qazanmaq istəmirsən?! Pulun dibi suda ha deyil, göyərə. Pulun da üstünə gərək pul gəlsin!

– Əl çəkin, məndən. Mən daha bacarmıram. Qapı-qapı, idarə-idarə düşüb nə qədər şey göstərmək olar?! İndi mənə hər yerdə alverçi kimi baxırlar. Bəsdirin, siz Allah! – qız hirsindən ağladı.

Paho! İşin nə yerdə olduğunu bilib barmağımı dişlədim. Halım yaman dəyişdi. Axı bu ailədə mən hər şeyi müqəddəs, gözəl görmək istəyirdim. Təəssüflər olsun ki, xoşuma gəlməyən şeylər eşidirdim. Əlacım olsa idi, qapını açıb ağzımdan çıxanı bu acgöz kişiyə deyərdim. Necə də tamahkar, rəhmsizdir. Qız qabağında ağlayır, onun vecinə də gəlmir. Onun yerinə mən qıza görə pis olmuşdum. Hilaləni ovundurmaq, sakitləşdirmək, bir-iki gülməli söz deyib fikrini dağıtmaq ürəyimdən olardı. Ancaq nə edəsən? Birdən ağlıma haradan gəldisə, əlimi qapının zənginə yetirdim. Qapını Xalıq kişi açdı. Məni görcək kişini elə bil ilan çaldı. Qaşqabağını daha da töküb soruşdu:

– Nə var, nə istəyirsən?

– Qızınızı...

Kişinin gözləri kəlləsinə çıxdı. Nə deyəcəyini kəsdirə bilmədi. Mən ona imkan verməyib əlavə elədim:

– Aşağıda onu rəfiqəsi gözləyir. Yuxarı çıxmadı, məndən xahiş etdi ki, deyim.

– Yaxşı! – Xalıq kişi qapını üzümə çırpdı.

Mən tələsik qaçıb aşağıda qızı gözlədim. Hava tutqun idi. Axşama bir az qalsa da, elə bil qaranlıq düşmüşdü. Ətraf binaların pəncərələrinin bəzisində işıqlar yanmışdı. Birdən ayağının səsini eşitdim. Ürəyim əsdi. Qız isə elə bilirdi ki, hə-

qiqətən, onu çağıran var. Aşağı düşəndə gördü blokun ağzında mən dayanmışam. Özü də xasiyyətimin xilafına olaraq qaşqabaqlı, hələ bir qədər də qəzəbli dayanmışdım. Qızla atasının söhbətindən necə tutulmuşdumsa, hələ də açıla bilmirdim. Qız da elə halda idi ki, onu bu cür acıqlı, qaşqabaqlı qarşılamağımdan alınmadı. Mənə bir qədər ehtiyat hissilə baxırdı. Guya, mənim onun özünü də, ailəsini də düzgün olmayan işləri üçün ittiham etməyə qanuni hüququm çatırdı. Ya da qızın fikri heç məndə deyildi. Özünü aldadıb bura gətirmiş olsam da, sözünü-söhbətini orda – evdə qoymuşdum. Mən bunun fərqinə varmadım. Qızı necə bir sərtliklə qarşılamışdımsa, o cür də dilləndim:

– Səni mən çağırmışam!

– Sən? – deyə qız üzümə təəccüblə diqqət kəsildi. Güman etmək olardı ki, indi qız məni təhqir edib deyəcək ki, sən kimsən, nə karəsən məni çağırırsan? Mənim atamı nə haqla aldadırsan? Kim sənə bu hüququ verib?.. Amma çox fikirli olduğumu görüb danışmadı. Mən isə bu ara qız haqqında fikirləşirdim...

– Yaxşı, çağırmısan, gəlmişəm, sözünü de! – qız əllərini yanına salıb qarşımda farağat vəziyyətdə dayandı.

– Buyur, gedək! – deyə mən ona yol göstərdim. Qız dinməzcə qabağıma düşüb getdi. Biz gəzə-gəzə Dağüstü parka gəlib çıxdıq. Ordan şəhərə tamaşa elədik. Gah Bayıl tərəfə, gah da Əhmədliyə sarı baxdıq. Sonra da parkı gəzdik. Əlbəttə, parkın yaydakı cah-calalı qalmamışdı. Bu gün adi iş günü olduğundan parkda adam seyrək idi. Bir də havalar bir az sərinləmişdi. Parka gələnlərdən bəziləri yüngül də olsa pencək geyinmişdi. Bir az yaşlı qadınlar çiyinlərinə jaket salmışdılar. Böyüklər üçün olan karuseldə beş-altıca oğlan, qız fırlanırdı. Mən də Hilaləyə:

– Bilet alım, biz də fırlanaq? – dedim.

Qız razı olmadı.

– Karuseldən xoşum gəlmir, – dedi. – Hər dəfə eyni dairəni dolanırsan. Və təzə bir şey görmürsən. Bu zaman mənə elə gəlir ki, tilsimli dairəyə düşmüşəm. Belə hallarda adamın beyni də kütləşir.

Karuselə minməsə də, parkda doyunca gəzdi, fikri dağıldı, əsəbiliyi getdi. Mənim də məqsədim bu idi. Evdəki qanqaralığını qız unutsun. Sonra da gətirib evlərinə ötürdüm. Həyətə çatanda ayrıldıq, o getdi, bir azdan da mən getdim.

Beləcə qızla gəzməyə çıxsam da, onu əyləndirib qəm-qayğısını, fikrini dağıtmış olsam da, bir məsələdən çox nigaran idim. Ürəyimə salmışdım ki, görəsən, qızı qəsdən çağırdığımı bildilərmi? Bəlkə, pəncərədən baxıb görüblər. Görüblər ki, başqa adam yoxdur, qızı elə mən çağırmışam! Əgər belədirsə, kişi məni buralardan itkin salmasa yaxşıdır. Amma bir tərəfdən də istərdim ki, onların dava-qalmaqallarını eşitdiyimi və qızı qəsdən çağırdığımı bilsinlər. Heç olmasa eyiblərinə

kor olardılar, xəcalət çəkərdilər. Düşünərdilər ki, biabır olublar, iç üzləri açılıb. Bundan sonra başlarını qaldırıb adamların üzünə baxa bilməyəcəklər. Hələ heç nədən xəbərim olmaya-olmaya özümdən yüz cür şey fikirləşirdim. Təkcə onu dəqiq bilirdim ki, Xalıq kişinin məndən acığı gəlir.

Ertəsi gün həyətdə Xalıq kişiylə rastlaşdım. Həmişə çalışırdım ki, onunla üzbəüz gəlməyim. Ancaq bu dəfə qaça bilmədim. Geri də dönsəm, istiqamətimi də dəyişsəm xeyri yox idi. Məcbur olub getdim. Başımı aşağı salıb yanından keçirdim ki, kişi salam verdi. Düzü, özümü itirən təki oldum. Hətta elə bildim mənə yox, kiməsə başqasına salam verir. Gizlincə yan-yörəyə boylandım ki, görüm kim var. Heç kəs yox idi. Tez:

– Salam, salam, – deyə mən də dönə-dönə başımı tərpədib keçib getdim.

Həmin gündən sonra onunla rastlaşanda çox mehriban salam-sabah eyləyirdik. Əhval tuturduq. Əslində, burda elə bir qeyri-adi şey yox idi. Adi rəftar, mədəniyyət qaydası idi. Salam verib, salam almaq hamının borcudur.

Onlara qarşı belə qanacaqlı, diqqətli olmağımı hamı hiss eləmişdi. O cümlədən qız da. Balaca ha deyildi. Açıqca görürdü ki, bu adamlardan ötrü əldən-ayaqdan gedirəm. Amma qızları ilə yaxınlıq etdiyimi qəti hiss elətdirmirdim. Gizlincə görüşsək də, aşkarda bir-birimizdən uzaq gəzirdik. Elə edirdik ki, bizi birgə görən olmasın, dilə-ağıza düşməyək. Əslində, mən buna çalışırdım. Çünki qapı-qapıya qonşu idik. Deyərlər ki, sırtığın biridir, qızı yoldan çıxardıb. Bax, belə ehtiyatla dolanmağıma baxmayaraq, Hilalə bir dəfə məni evlərinə dəvət elədi. Mən əvvəlcə elə bildim ki, yenə evlərində heç kəs yoxdur, qız təkdir, darıxır, ona görə məni çağırır. Hər ehtimala qarşı soruşdum:

– Kim var evinizdə?

– Anamdır. Özgə heç kim.

Təəccübləndim. Anası evdə ola-ola o, məni evə necə dəvət edir? Birdən anası deməzmi ki, bu oğlanın bizimlə nə əlaqəsi? Bu qonşu oğlan bizə nə tez ayaq açdı? Bunları düşünüb getmək istəmədim:

– Nə var, nəyə gedim, utanıram! – dedim. Fikirləşdim ki, qız məni başa düşər.

– Bax, getməsən küsəcəm, – deyə qız qaşqabağını töküb üzünü yana çevirdi.

Başa düşdüm ki, qız, həqiqətən, təkid edir. Deməli, mənim barəmdə anası ilə söhbəti olub. Görünür, yaxın olduğumuzu qız anasına deyib. Yoxsa qəfildən çağırmazdı. Yenə duruxub qalmışdım. Tərəddüd edirdim. Gedim, getməyim? Qorxdum, getməsəm yaxşı düşməyə, qızın xətrinə dəyə. Anasının da yanında biabır olardı. Məcbur olub razılaşdım...

– Xoş gəlmisiz. Xoş gəlmisiz, – deyə anası məni xüsusi bir qonaqpərvərliklə qarşıladı. Ucaboy, ətli-canlı bir qadın idi. Qara da gözləri vardı. Xasiyyətini deyə bilmərəm, amma görkəmcə əri Xalıq kişi ilə qəti uyğun gəlmirdi. Arvad çox

yaraşıqlı idi. Həm də alicənab, qonaqpərvər adama oxşayırdı. Qızı da, özü də az qalırdılar pərvanə kimi başıma fırlansınlar. Gözəl süfrə açmışdılar. Süfrədə nə desən var idi. Pürrəngi çay, şəkərbura, paxlava, cürbəcür konfetlər. İki daşın arasında nəsə başqa şey də hazırladılar. Amma kimi idi yeyən?! Utandığımdan məni tər basmışdı. Hilalə ilə bir yerdə olmaq mənim üçün nə qədər xoş olsa da, amma evlərində darıxırdım. Birinci dəfə idi ki, qızın anası ilə görüşürdüm. Nədənsə, bərk sıxılırdım. Bir az oturub bir stəkan çay içəndən sonra hazırlaşırdım ki, icazə alıb çıxam, anası gəlib mənimlə üzbəüz oturdu. Başladı məni sorğu-suala çəkməyə. Deməzsənmi hansı institutda oxuyursan, neçənci kursdasan, institutu bitirəndən sonra harda işləyəcəksən? Mən də onun suallarına cavab verə-verə hiss edirdim ki, Hilalənin anası çox bic arvaddır. Hər şeyə fikir verir, hər şeyi ölçüb-biçir. Nə olar?! Qoy ölçüb-biçsin. Kor deyiləm, keçəl deyiləm, əlim sağ, ayağım sağ. İşləyib qazanıram. Heç kəsə də minnətim yoxdur. Amma bir məsələ mənə qaranlıq idi. Görəsən, bu arvad həyatda adamları necə görmək istəyir? Üstünlüyü nəyə verir? İnsanın hansı keyfiyyətlərini daha çox qiymətləndirir?

– Rayonda kiminiz var? – deyə əsas məsələyə keçdi.

– Rayonda babam, nənəm var, – əvvəlcə qocalardan başladım. Heç ağlıma gəlmirdi ki, bu arvad belə anket dolduracaq. Ağzımı açıb anamı da demək istəyirdim ki, arvad məndən qabaq dilləndi:

– Atan harda işləyir?

Elə pis oldum ki, elə indiyədək atasızlığı bu qədər dərindən hiss eləməmişdim.

– Atam yoxdur. Müharibəyə gedib, qayıtmayıb! Yetim böyümüşəm!

Bəlkə də, bu arvad elə belə tanışlıq üçün soruşurdu. Ürəyində heç bir şey yox idi. Amma mənə pis gəlmişdi. Bu fikirdə idim ki, o, mənim özümlə yox, şəxsiyyətimlə yox, ailəmizin imkanları ilə maraqlanır. Mən bunu hardan ürəyimə salmışdım, bilmirəm. Ona görə özüm qəsdən «yetim böyümüşəm» – dedim. Qoy bilsin. Xəbərdar olsun ki, süfrəsinin qırağında kimi otuzdurub? Kimə hörmət edir? Qızı kimlə həyatını bağlamaq istəyir? Xülasə, özümü beləcə təqdim edəndən sonra durub getmək istədim.

– Aaa, hara gedirsiniz, nə olub? – Hilalə getməyimə icazə vermədi. – Bir stəkan da çay için.

– Bir az da şirniyyat yeyərsiniz, sonra gedərsiniz, – deyə anası da belə şərt qoydu.

Gördüm olmur, məcbur qalıb razılaşdım. Hilalə gedib bir stəkan da çay gətirdi. Mən onu heç soyumağa qoymadım. Ağzımı yandıra-yandıra içdim ki, bircə burdan tez çıxım. Mənə elə gəlirdi ki, atası bu dəqiqə qapını açıb içəri girəcək. Onda mən özümü lap pis hiss eləyərdim. İstəmirdim o, məni evində görsün. Nəhayət, çayımı içib ayağa durdum:

– Sağ olun. Çox sağ olun, – deyə əlimi sinəmin üstünə qoyub onlara təşəkkür etdim və qapıya yönəldim. Eşiyə çıxanda gördüm tam su içindəyəm. Elə bil hamamdan çıxmışdım.

Aradan bir-iki gün keçəndən sonra biz yenə görüşməli idik. Qızı bulvardakı Səməd Vurğun adına yay kinoteatrının qabağında gözləyirdim. Qız gələndə heç bilmədim necə oldusa, qarşısına qaçdım. Bu hərəkətimdən qız da xoşlandı. Gülümsəyərək xüsusi bir istiqanlılıqla qoluma girdi. O da heç belə eləməzdi. Mən də onun əlindən, qolundan tutmağa ehtiyat edərdim. Amma indi özü mənə qısılmışdı. Amma üz-gözündən hiss etdim ki, nəsə kefi yoxdur. Qanıqara kimidir. Mənasını soruşmadım. Tez-tələsik özüm barədə bir şey öyrənmək istədim.

– O gün mən gedəndən sonra anan mənim haqqımda nə dedi?

– Heç nə! – qız başını buladı. Amma inanmadım. Ola bilməzdi ki, bir söz deməmiş olsun. Mənim barəmdə rəyini bildirməsin. Qızın belə deməsinə inanmasam da, daha bu barədə sözü uzatmaq da istəmədim. Qız fikirləşər ki, özümdən nigaranam. Nəyinsə fikrini edirəm. O ki bir söz demədi, mən də üstünü vurmadım.

O gün də bir xeyli gəzdik, dolandıq. Əvvəlki görüşlərimizdə qız həmişə evə tələsirdi. Bu dəfə isə heç tələsmirdi. Hətta öz küçəmizə yaxınlaşanda ayağını sürüdü ki, heç evə getmək istəmirəm. Mən də soruşdum:

– Niyə?

Qız çiyinlərini çəkdi ki, bilmirəm. Mən də qımışdım ki, necə yəni bilmirsən? Qızın acığı tutdu. İncik-incik üzümə baxıb:

– Nəyə gülürsən?! – dedi. Və bu ara ikiəlli yaxamdan tutdu. – Apar məni!

Qızın belə hərəkəti mənə lap qəribə gəldi. İndi bir az da çox gülümsədim. Mənə elə gəlirdi ki, bu qız nəsə şıltaqlıq edir. Mən də istədim zarafata salıb deyəm: «Apar deyirsən, aparım!» – ancaq necə oldusa, gülə-gülə sözün düzünü dedim:

– Aaa, dəlisən nəsən? Mən səni belə hazırlıqsız hara aparım? Mənim də bir böyüyüm, kiçiyim var, ya yox? Deməzlərmi, a bala, niyə bizsiz toy elədin? El, camaat adamı lənətləyər. Xanım ana da xəstədir. Bu yerdə mən səni necə aparım?

Bayaqdan qız yaxamdan elə mehribancasına tutmuşdu ki, özümün də xoşum gəlirdi. Bu sözləri eşidəndə:

– Eh! – eləyib ikiəlli məni özündən geri itələdi və çevrilib asfalt səkidə taqqataq sala-sala evlərinə sarı qaçdı. Mən də ardınca baxa-baxa hələ də gülümsəyirdim. Gözləyirdim ki, o aralansın, sonra mən gedim. Qız tinə burulub gözdən itəndən sonra mən fikrə getdim: «Bu nə söz idi? Qız niyə deyirdi ki, məni apar?..»

XI

Əvvəllər işdə Sahiblə tez-tez mübahisələrimiz düşürdü. Çox əsəbiydi. Bunun da səbəbi aydın idi. Mirişlə, dayımla düz gəlmirdi. Gözünün düşmənləri idi. Savaşmaları da bunların arasını tamam vurmuşdu. O məsələ hələlik eləcə həll olunmamış qalırdı. Amma yəqin bilirdim ki, Sahibə nəsə dərs verəcəklər. Elə edəcəklər, başqalarına da görk olsun. Çünki dayım da Mirişə tərəf idi. Dost idilər. Bilirdim ki, Miriş Alxasov da ürəyində kin saxlayandır. Əlinə fürsət düşsə, bu heyifi Sahibdə qoymayacaq, intiqamını alacaq. Belə qayğılarla, fikirlərlə işdən evə gələndə gördüm rayondan teleqram var. Qapının altından içəri atıblar. Yaxşı ki, bu yaxınlara anamgilə məktub yazıb ünvanımı bildirmişdim. Xahiş etmişdim ki, dayımgildən çıxdığımı nənəmə, babama bildirməsinlər. Qoca adamlar idi. Deyəcəkdilər ki, niyə? Yerlərinimi dar eləyirdin?! Qərəz bədbəxtliyi əvvəlcədən hiss etmiş təki teleqramı görcək ətim ürpəndi. Həqiqətən, teleqramı götürüb gözümün qabağına tutanda məni elə bil ildırım vurdu. Babam vəfat etmişdi. Təcili məni çağırırlar. Gör bir nə pis iş oldu. Təcili getməli idim. Bəs burda Xanım ananın halı-günü necə keçəcək? Deməmiş getsəm, lap pis olardı. Öz xəstəliyi bir yana, məndən nigaran qalardı. Bir istədim qonşulara deyəm. Hilalədən xahiş edəm ki, mən gələnədək tez-tez ona dəysin. Sonra da fikirləşdim ki, bəlkə, belə yaxşı deyil. Deyərlər ki, üz verdik, astar da istəyir. Qoy heç bilməsinlər. Ona görə tez gedib Sahibi tapdım. Xanım ananı ona tapşırdım. Həm də dedim işdə bildirsin ki, mən niyə yoxam. Sonra da elə gecə ikən maşın tutub yola düşdüm. Qorxdum ki, qatarla gec ola...

Mən gələn maşının işığı həyətdə düşcək itimiz hürdü. Hələ maşından düşməmiş başımı azca əyib şoferin yanından talvara sarı baxdım. İt bağlı idi. Gecələr həmişə açıq buraxardıq. Yəqin, indi bağlamışdılar ki, gələn-gedənə dəyməsin. Maşından düşənədək it şöngüyüb ağzını göyə tutdu, iki-üç dəfə vahimə ilə uladı. Tüklərim biz-biz oldu. Maşından düşüb itə acıqlandım.

– Alabaş, ay sənə quduz dəysin!

İt daha ulamadı. Görünür, səsimdən tanımışdı. Üzümü şoferə tutdum. – Düşün!.. Gəlin... bir az dincələrsiniz.

– Yox!.. Qayıdacam, yolçu yolda gərək, qardaş. – O, maşını geri döndərəndə mən qapıya sarı getdim. Kimsə, deyəsən, səsə oyanmışdı. Gördüm qapını açıb eşiyə çıxdı. Tanıdım. Nənəm idi. Gözümə həmişəkindən də balaca dəydi. Belini əyri tutub asta-asta eyvandan bəri həyətə çıxdı. Başını dikəldib qabağa baxdı. Astaca qabağına getdim.

– Kimsən? – soruşdu.

– Mənəm, ənnə.

– Ölüm qabağında! – Nənəm kuklalar dəstiri əllərini qəribə şəkildə qaldırıb üstümə gəldi. Qollarını boynuma saldı. Üzümdən öpüb hönkürdü:

– Hü... hü... hü... Baban dünyadan köçdü, dərdin alım!

Nənəmi bağrıma basıb dayanmışdım. İxtiyarsız gözlərimdən yaş axırdı. Ağladığımı hiss edən nənəm əllərini boynumdan götürdü.

– Canın sağ olsun, qadan alım. Qoca kişi idi... dünyanı tutub durmayacaqdı ha?!.. Bə dayın hanı?..

– Bilmirəm...

– Bəs bir yerdə deyildiniz?

– Yox! Mən öz işimdə idim. Teleqramı alcaq yola düşdüm.

– Gərək dayına deyəydin. – Nənəm səhv iş tutduğumu bildirdi. Sonra da dedi ki, eybi yoxdur, o da gələr.

O barədə bir söz demədim. Başqa məsələyə keçdim:

– Babamın ölümü necə oldu axı?

– Naxoş idi.

– Naxoş idi?

– Hə. Yaydan kişinin canı tutmurdu. El üzəri hərlənirdi. Yıxıla-qalxa gəzirdi.

– Gör heç xəbərimiz olubmu?!

– Payızın əvvəlindən yatırdı.

– Bəs xəstə olmağı barədə bizə niyə xəbər vemirdiniz? Bəlkə, həkimlik bir iş var idi.

Nənəm başını çiyinləri arasına çəkib susdu. Sonra:

– Babanın bəxti qara gəlsin, necə ki gəldi! – deyə nənəm qarğadı. Əvvəllər ərinə güldən artıq söz deməzdi. İndi dərddən qoca arvad ağzına gələni deyirdi. Çünki daha onun sözlərinin babam üçün isti-soyuqluğu yox idi. – Naxoşluğunu sizə bildirməyə qoyurdu ki?! Deyirdi, uşaqları işlərindən-güclərindən ayırmayın...

– Kişi öləndə də bizə əziyyət vermək istəməyib.

– Amma srağagün sizi yaman axtardı. Soruşdu ki, gəldilərmi? Mən də dedim «hə!» – Dedi: «Bəs yanıma niyə gəlmirlər?» Dikəlib pəncərədən çölə boylanırdı. Düşüb yeriməyə halı yox idi. Ayaqları şişmişdi. «Gəliblər» – deməyimə peşman olmuşdum. Bu boyda kişiyə mən niyə yalan deyirdim. Üzünə baxa bilmirdim. Sonra qandı ki, aldatmışam. İncimədi.

– Yaxşı edib gəlməyiblər, – dedi. – Bilirsən, arvad, ağlın buralara getməsin, şəhər yerinin işi ağırdır. Hər oğulun ağzı deyil ki, namusla-qeyrətlə baş çıxartsın...

Səhər gözümü açanda pəncərədən baxıb eşikdə çoxlu adam toplaşdığını gördüm. Hələ saata baxmamışdan hiss etdim ki, yatıb yuxuya qalmışam, gec oyanmışam. Çox gec yatdığım üçün, yəqin, qıyıb qaldırmayıblar. Cəld əlimi paltarıma atdım. Gecə soyunanda paltarımı səliqəsiz halda stolun söykənəcəyinə tullamışdım. Səliqə-sahman gözləməyə halım yox idi. Yorğunluqdan, yuxusuzluqdan ölürdüm. Tələm-tələsik soyunub uzanmışdım. İndi isə... Gördüm kimsə paltarımı səliqəyə salıb. Şalvarım ütülənmişdi. Köynəyim səliqə ilə qoyulmuşdu.

Hələ paltarımın üstündə təzə bir yaylıq da var idi. Bildim ki, nənəmin işi deyil. Ürəyindən keçsə də, belə işi bacarmazdı. Anam ağlıma gəldi. Yəqin, onun işidir. Özgə kim belə mənim qeydimə qalacaqdı?!

Tez geyinib eyvana çıxmaq istəyirdim ki, qapı açıldı. Dama-dama paltarda bir qız içəri girdi. Başında qara şal vardı. Çöhrəsi solğun idi. Ayaqqabılarımı da əlində tutmuşdu. Gətirib qarşımda döşəmənin üstə qoyanda tanıdım:

– Salam, Samirə. Deyirəm, bəs mənim paltarımı kim...

Bayaqdan özünü çox sıxıla-sıxıla aparan qız elə bil mənim onu dindirməyimə bənd imiş:

– Ölüm qabağında, ay qardaş! – deyə qız qollarını açıb boynuma sarıldı. Ağlayıb məni də kövrəltdi.

– Yaxşı!..

Qız daha da hıçqırdı.

– Bəsdir.

Mən səsimi çıxartdıqca qız daha bərk ağlayırdı.

– Yekə qızsan, ağlama!

Başını körpə uşaq təki sinəmə söykəmişdi.

– Dedim ağlama! – Onu ehmalca özümdən araladım. Gözlərinin yaşını əlimin yanı ilə silə-silə ona diqqət etdim. Qaş-göz, üzünün cizgiləri bütüncə anam idi. Böyüdükcə, ətə-qana dolduqca tamam anama oxşayırdı. Ona heç vaxt bu qədər diqqət yetirməmişdim. Onu heç vaxt belə istəməmişdim. Uşaqlıq şıltaqlıqlarım, anama verdiyim əzablar, əziyyətlər bir-bir gəlib yadıma düşdü. Səhv, doğru, bilmirəm... özümü günahlandırdım. Gərək ondan üzr istəyəm. Deyəm ki, bacıcan, məni bağışla. Bağışla ki, anamızı incitmişəm, ona olmazın əziyyət vermişəm. Bağışla ki, sənin kimi bir qızın dünyaya gəlməsinə qarşı çıxmışam.

Mehribanlığımdan qız daha da təsirlənmişdi. Çünki heç vaxt o məni belə görməmişdi. Onları görəndə həmişə yan keçirdim. Dindirib danışdırmırdım. Üz vermirdim. İndi isə... Samirə dodaqlarını çeynəyə-çeynəyə özünü toxdaq tutmaq istəyirdi. Amma özünü ələ ala bilmirdi. Nəhayət, qırıq-qırıq danışdı:

– Heç olmasa kağız yazaydın. Babamın vəziyyəti hamımızı çaşdırmışdı. Anam bilmirdi onun dərdini çəksin, yoxsa... Sən sarıdan çox xiffət eləyir.

– Mənə nə olası idi, bacı? – dedim.

– Döşəmə soyuqdur, ayaqqabılarını gey, – Samirə fikrimi dağıtdı.

Mən otaqdan çıxmamışdan qabaq pəncərədən bayıra nəzər yetirdim. Bir az qabağa nisbətən həyətimizdə adam elə bil çoxalmışdı. Qoca kişilər, arvadlar, cavanlar iki-bir, üç-bir dayanıb söhbət edirdilər. Camaat bir əldən də gəlirdi.

– Dayan, qardaş, qalstukun bir az yanadır, – deyə Samirə xüsusi bir istiqanlılıqla, qayğı ilə əlini yaxama uzatdı, qalstkumu düzəltdi. Bayaq boynuma sarıldığından da indi o mənə yaxın, doğma göründü...

Eşiyə çıxıb, həyətdə qocalı-cavanlı adamlarla əl tutub bir-bir görüşəndə fikrim-xəyalım anamın yanında idi. Mən onu görmək istəyirdim...

Günəşin elə bil özü deyildi. Sanki bu dəfə yalandan şəklini göydən asmışdılar. İstisi, hərarəti yox idi. Boz, bulanıq səmanın cənuba sarı axışan buludları arxasında onun yalnız sönük dairəsi görünürdü. Adama belə gəlirdi ki, günəş yanıb-yanıb sönüb. Bir daha tonqal alovunu üfüqdən yandırmayacaq. Hətta günəş bəzən buludların qalın qatı ardında qalıb tamam görünməz olur. Bu dəqiqələrdə kainat adama balacalaşmış kimi görünür və mənim qəlbimin qubarını artırırdı...

Otaqlarımızın birindən isə hərdən arvadların çox kövrək, hüznlü sızıltıları eşidilirdi. Babamın meyidi qoyulmuş otaqda arvad çox idi. Ağlaşırdılar. Mən o ağlayanların içərisində anamın səsini tanıyırdım.

– Sənə qurban olum, ay dədə!.. Nəvən Bakıdan gəlib, ay dədə! Səninlə görüşməyə gəlib, ay dədə!..

Mən eşikdə özümü saxlaya bilmirdim. Gözlərim dolurdu. Dodaqlarım əsirdi. Bilirdim ki, anam məni deyir. Əlimi cibimə salıb yaylığımı çıxartdım, yana dayanıb gözlərimin yaşını gizlincə sildim.

Anamın səsi məni ağlatsa da, qulaq asmaya bilmirdim. Əksinə, o doğma, kövrək, hüznlü səsi dinləməyə özümdə nəsə daxili bir ehtiyac duyurdum. Bu səsi mən uşaqlıqda itirmişdim. Oğurlamışdılarmı? Əlimdən dartıb almışdılarmı? Kim almışdı? Kim belə etmişdi? Bilmirəm. Yalnız indi onu başa düşürdüm ki, həyatda bəzən adamın özündən asılı olmayaraq qəribə işlər olur. Həyatın qəribə oyunlarını indi dərk etdiyim üçün də mən oğurlanmış, əlimdən alınmış doğma səslərim, laylalarım, nəvazişlərimdən keçib anamı bağışlayırdım. Ürəyimdə onunla barışmırdım. Ancaq bir şeydən qorxurdum ki, o məni bağışlamaya, o mənimlə barışmaya... Birdən mənə elə gəldi ki, ağır bir yük altındayam...

Adamların qələbəliyindən bir az kənara çıxdım ki, fikrimi dağıdam. Həqiqətən də, fikrimi tez həyət-bacamız cəlb elədi. Neçə vaxt idi ki, görmürdüm. İndi baxdıqca hər şey mənə təzə, yapışıqlı gəlirdi. Həyətimizin mənzərəsi tamam dəyişmişdi. Kəndimizə su çıxandan sonra babam həyətdə qəşəng bağ salmışdı...

– Qağa, xoş gördük, – bu ara kimsə mənə yanaşdı.

Çevrilib Samirədən iki-üç yaş kiçik olan qardaşım Qalibi gördüm. Maşallah! Böyük oğlan olmuşdu. Hələ balaca olsa da, saçlarını təzə dəbdə uzadıb boynunun ardına tökmüşdü.

– Xoş gördük, – onu çəkib öpdüm. – Necəsən, Qalib?

– Belə, – deyə o, yerə baxa-baxa ayaqqabısının burnu ilə torpaqda çör-çöpü qımıldatdı. Sonra dedi:

– Qağa, anam deyir başına papaq qoysun, soyuq olar.

Dərdim-sərim çox olsa da, onu danışdırmaq üçün dedim:

– Özüyün başın açıqdır, amma mənə deyirsən.
– Mən adət eləmişəm, qağa.
– Yox, yox, sənə də soyuq olar.
Sözümün onun üçün qanun olduğunu bildirmək istəyirmiş kimi dedi:
– İndi gedib geyərəm.
– Anam hardadır?
– İçəridədir, qağa. Ağlaşmada.
– İçəridə? Bayaqdan ordadır?
– Hə. İstəyirsən, gedim çağırım.
– Yox!.. Yox!.. – Qalibin qolundan tutub saxladım. – Sən get yuxarı otaqdan mənim papağımı gətir, mən özüm anamı görərəm...
Bir azdan babamı çiynimizə alıb son mənzilinə aparırdıq. Dayım da gəlmişdi. İkimiz də qabaqda idik. Hərəmiz cənazənin bir tərəfindən tutmuşduq. Yeyin gedirdik. Elə bil babamı çox yaxşı bir yerə aparırdıq. Qorxurduq yerini tutalar.
Bu dar macalda babamla etdiyim bir söhbət yadıma düşdü. Bir ili kiçik çilədə bərk qar yağmışdı. Üst-üstdən də tökürdü. Səhər-səhər durub dam-daşın qarını təmizləyirdiksə, axşama yenə hər yan dümağ olurdu. Qışa sən deyən hazırlığımız yox idi. Malın ələfi azlıq edirdi. Həm də odun-ocaq sarıdan korluğumuz var idi. Bir axşam dedim:
– Gəlin şəhərə – dayımın yanına gedək.
Nənəm sözümün qüvvəti üzünü ərinə tutdu:
– Gedəkmi, ay kişi?
Gəzmək, səfər etmək niyyətimizdən o da şənləndi. Qırmızımtıl yanaqları yumrulanıb qalxdı. Gülümsünüb dedi:
– Siz gedin, mən də buranı dolandırım.
– Yox, eyy, hamımız gedək.
Babam əyilib peçə odun qoya-qoya üzümə baxdı:
– Bəs bura necə olsun, oğul?
O vaxt şəhərin yaşayışından xəbərim olmasa da, az-çox təsəvvürüm var idi. Dayımın yanını təriflədim.
– Ora yaxşıdır, baba. Hər şeyləri evin içindəcədir. Qışda şəhər evləri çox isti olur. İstəyirsən, lap çılpaq yat.
– Yox bir! – babam başını tovladı. Guya, belə şey olmaz.
Hələ uşaq vaxtından bilirdim ki, babam hər bir şeyi müəyyən bir qayda-qanun daxilində görmək istəyən adamdır. Şitlik elədin, çərçivədən çıxdın, o dəqiqə qaşqabağını tökərdi.
– Əşi, sağ olsunlar. Niyə mane olaq! Biz birtəhər dolanarıq, – deyə babam peçin ağzını örtüb belini dikəltdi.

Odunlar kövrəyib-kövrəyib birdən alışdı. Nənəm quru barmaqlarını peçin böyrünə tutdu.

– Qarıları şəhərə qoymurlar, – deyə babam zarafat elədi. Mənə də gizlincə göz vurdu ki, sözünü təsdiq edim. – Elə döymü, ay Mahir?

– Elədir, baba!

Nənəm yerdən oturduğu palazın üstə yana buruldu:

– Neynək?! Qoymurlar getmərəm. Oturaram sənin yanında.

– Sağ ol, vallah. Bizim heç ayrılan vaxtımızdır?!

O yaşda kişi qarısının könlünü ikicə sözlə alardı. Qarının dərhal üzünün qırışıqları açılar, gözləri gülərdi.

– Bə nə?! Bə nə?! – deyərdi. – Bizim ayrılan vaxtımız deyil!

Əlləri-ayaqları sən deyən tutmasa da, soyuqda-qarda müəyyən çətinlikləri olsa da, babamla nənəm bir dəfə oğullarından şikayətlənməmişdilər ki, bizi burda qoyub, şəhərdə gəzirsən. Nə qədər çətinlikləri olsa da, büruzə verməzdilər. Dayım barədə söz düşəndə deyirdilər: «Sağ olsun. Onun sağlığı bizim üçün hər şeydir».

Boz təpənin başında adamlar qəbrin dövrəsinə toplaşanda mən baxa bilmədim. Geridə dayandım. Elə bil çöllükdə bitmiş ağac idim. Quraqlıqda qarsalanıb yanmışdım. Hərə gətirib dibimə bir vedrə su tökürdü...

Havanın boz-bulanıq rəngi daha da qatılaşmışdı. Adam başını qaldırıb yan-yörəyə nəzər salanda qəm-qüssəsi bir az da artırdı. Bu yerlərə payız, deyəsən, bir az tez gəlmişdi. Axşamtərəfinin soyuqtəhər havası yavaş-yavaş özünü hiss elətdirirdi. Qəbiristanlığın yan-yörəsindən hərdən quş civiltisi eşidilirdi.

Camaat dəfndən geri qayıdanda başımı qaldırıb babamın qəbrinə bir də baxdım. Yan-yörəsindən camaat dağılışıb bəri gəlsə də, anamın hələ də atasının qəbrinin ayağında ağır düşüncələr içərisində dayandığını gördüm. Anam elə bil nazik, zərif söyüd çubuğu olub babamın qəbrinin üstə bitmişdi. Külək əssə onu əyib, sındırıb qəbrin üstə atardı. Anamı heç belə cılız, zəif görməmişdim. Tez yaxınlaşdım:

– Bəri gəl, gedək! – qolundan tutdum.

Elə bil nə sözümü eşitdi, nə də qolundan tutduğumu bildi.

Bir də səsimi çıxartdım:

– Gedək, gedək!

O, üzümə baxmadan sözümə əməl elədi. Astaca bəri döndü. Ona təskinlik vermək, dərdini azaltmaq üçün bu ara söz axtarırdım. Bütün fikrimi-diqqətimi bu məqsədə yönəltmişdim.

– Bilirsənmi? – dedim. – Qoca kişi idi. Kaş hamı bir o qədər yaşasın.

Anam islaq yaylığını gözlərinə apardı. Yenə də ayaq saxlayıb dönüb qəbiristanlığa baxdı. Mən onu tələsdirdim:

– Yeyin gedək, ana. Camaat orda gözləyir.

Anam addımlarını bir azca yeyinlətdi...

Babamın hüzrünü başa vurub şəhərə qayıtmağa tələsirdim. Xanım ana üçün nigaran idim. Başa düşürdüm ki, indi o da narahatdır...

## XII

Rayona gedib gəlməyim üççə gün çəkdi. Dördüncü gün səhər tezdən şəhərdə idim. İndi mənim əsas qayğım Xanım ana idi. Əslində, elə ona görə belə tez gəlmişdim. Həm də nənəm özü demişdi ki, çıx get, ay oğul, işində, gücündə ol. Qalıb nə edəcəksən?! Mən də fikirləşmişdim ki, nənəm düz deyir: belə ki həm işdən qalırdım, həm dərs buraxırdım, həm də Xanım anadan nigaran idim. Hələ heç onu nənəmgilə deməmişdim. Fikirləşmişdim ki, nə mənası var, özlərinin dərdi bəs deyil ki, üstəlik mən də onlara bir dərd verim?! Babamın da ölümü mənə get-gedə daha çox yer eləyirdi. Əvvəl-əvvəl onun yoxluğunu mən o qədər də hiss eləməmişdim. Adamların qələbəliyində o da elə bil haradasa camaatın arasında idi. Elə ki babamı dəfn elədik, adamlar dağılışıb getdilər, babamın yeri göründü. Duruşu-oturuşu gəlib gözümün qabağında dayandı, sözü-söhbəti yadıma düşdü. Səsi qulağıma gəldi:

« – Hə danışın görək nə var, nə yox?!

– Sağlığın, baba.

– Sağlıq olsun, ay oğul, iş sağlığın başındadır.

– Çox sağ ol, baba.

Adəti üzrə o, hərdən səsini bir az qaldırardı.

– İşiniz-gücünüz nə təhərdir?»

Babam adamla hərtərəfli maraqlanardı. Hər cüzi şeyə diqqət yetirər, mənasını tapar, məsləhətini verərdi. Şəxsən mən kəndimizə, babamın görüşünə gələndə elə bilirdim hesabat verməyə gəlmişəm. Getməyimə, gəlməyimə, gördüyüm işlərə qiymət almağa gəlmişəm...

...Əlimdəki balaca çamadanı tez içəri atıb evdən çıxdım. Əlbəttə, xəstəxanaya getmək, oradan da işə gəlmək çox vaxt aparar, gec olardı. Birbaş işə getməli idim. Dedim, bəlkə, Hilaləgildən bir xəbər öyrənim, demək olmaz, Xanım anaya dəymiş olarlar. Bu məqsədlə də onların zəngini basdım. Həm də Hilaləni görmək istəyirdim. Neçə gün idi ki, ondan xəbərim yox idi. Qabağıma qızın çıxacağını arzu edirdim ki, qapı açıldı, anası göründü. Təntimiş başımı qaldırıb saldım:

– Sabahınız xeyir, Firəngiz xanım.

– Sabahınız xeyir! – Arvad da nə üçünsə təntimiş cavab verdi. Hiss elədim ki, o, məni görəndə nəsə birtəhər oldu. Ancaq başa düşmədim məni gördüyünə sevindi, yoxsa pismi oldu?

– Firəngiz xanım, mən bir neçə gün idi ki, burda yox idim, rayona getmişdim. Təzə gəlmişəm. Dedim, bəlkə, Xanım anadan xəbəriniz ola?

Arvad çox mülayim şəkildə, həm də üzrxahlıqla:

– Vallah, mən də elə naxoş kimiyəm. Ona görə evdən eşiyə çıxa bilmirəm, düzü xəbərim yoxdur, – deyə cavab verdi.

Daha özgə bir söz demədi. Nə demədi ki, xeyir olsun, rayona niyə getmişdin? Nə demədi ki, qapının ardında niyə durmusan, içəri gəl. Qərəz mənimlə qəti maraqlanmadı. Hərəkətindən, münasibətindən indi bildim ki, burda nəsə var. Amma heç nə ağlıma gəlmədi.

– Bağışlayın, narahat elədim! – deyə dönüb pilləkənlərlə aşağı düşəndə o da qapını örtdü.

İşə gələndə Sahibdən öyrəndim ki, Xanım ana elə elədir. Camaat da tənəffüsdə yığılıb mənə başsağlığı verdi. Sahib də elə hey:

– Ay yazıq kişi, – deyirdi. – Sizi görmədən gedib. Bu da oğul, bu da nəvə. Vallah belə şeyləri fikirləşəndə adam heç oxumaq istəmir. Çünki adam oxuyub buralarda ilişib qalır. Ondan sonra da bilmirsən qocalar harda öldü, harda qaldı.

Bu belə deyəndə mən camaatın üzünə baxa bilmədim, başımı aşağı dikdim. Elə hesab eləyin ki, dayımın da əvəzinə utandım.

İşdən çıxanda birbaş xəstəxanaya getdim. Xanım ananı da neçə gün idi ki, görmürdüm. Gələndə gördüm nə?.. Xanım ananın eləcə qaraltısı qalıb. Bu bir neçə günün içində arvad xeyli düşüb. Məni görəndə bir az canlandı, dikəldi.

– Həmişə toylarda, ay Mahir! – dedi. – Toy necə keçdi, yaxşımı oldu, oynadınmı?

– Həəə, elə-belə keçdi də! – Çox qəribə bir tərzdə cavab verdim. Özümü elə apardım ki, guya, həqiqətən, toya getmişdim. Bunu məndən sonra Sahib uydurmuşdu. Fikirləşib ki, bu yerində ona bəd xəbər verməyin nə mənası var. Yaxşısı budur elə toy deyim ki, ürəyi açılsın. İndi bura, arvadın yanına gələndə Sahib dönə-dönə tapşırmışdı, sən də belə deyərsən. Birdən yalanımı çıxarsan, yaxşı düşməz.

Axırda Xanım ana çox şən halda:

– Hazırlaş ha! – dedi. – İndi də sənə toy eləməliyik.

Xanım ana belə sözlər deyəndə həmişə xoşhal olurdum. Amma bu dəfə birtəhər oldum. Firəngiz xanımın səhərki münasibəti məni nəsə heç açmamışdı. Ürəyimə dammışdı ki, burda nəsə var. Ona görə dilxor idim. Halbuki ürəyimdə Hilaləyə olan məhəbbət o qədər güclənmişdi ki, mənim üçün həyatda elə bil heç bir çətin iş yox idi. Elə bilirdim dünya mənimdi. Daim onun xəyalı ilə yaşayırdım...

Ancaq bu bir neçə günün içində nə olmuşdusa, hiss edirdim ki, daha əzəlki münasibət yoxdur. Gələndən heç qızı görə bilmirdim.

Bir dəfə gördüm, həyətdən pilləkənlə düşür. Tez küçəyə yüyürüb həyətdən bir qədər aralıda onu gözlədim. Bir də gördüm qız gəlir, anası da yanında. Əh-

valım tamam pozuldu. Divarın böyrünə çəkilib gözlərinə görünmədim. Onlar da taksiyə oturub harasa getdilər.

O biri gün də qızı görə bilmədim. Axşamı isə məni toya çağırmışdılar. Toyu olan oğlanla orduda birgə qulluq etmişdik. Taksi-mator parkında işləyirdi. Yaxşı oğlan idi. İki gün qabaq şəhərdə görüşdük. «Paho! Xoş gördük səni. Nə var, nə yox?» – deyə dostum məni çox hərarətlə salamladı, sonra da çıxarıb bir dəvətnamə verdi ki, bax, elə səni görmək istəyirdim. Biri gün toyumdur, xahiş edirəm gələsən, şad ollam.

Mən də daha deyə bilməmişdim ki, bəs babam ölüb, yaslıyam. Belə gözəl işdə qan qaraltmaq nəyə lazım idi?! Ona görə də dostumun dəvətini məmnuniyyətlə qəbul etmişdim, özü də söz vermişdim ki, mütləq gələcəm.

Səliqə ilə geyinib-kecinib küçəyə çıxanda yağış yağırdı. Qaçıb özümü mağazanın qapısı ağzına saldım. Novalçalardan köpüklü su tökülürdü. Payızın yağışı da asfaltda dingildəşirdi. Yuxarıdan elə bil torpağın həsrəti ilə gəlirdilər. Ancaq asfalta dəyib «burun-başlarını» əzirdilər. Yan-yörəyə axıb həsrətində olduqları torpağı axtarırdılar. Maşınlar isə onlara mane olurdular. Qıjıltı ilə gəlib keçdikcə ləpələnib axan suyu yarıb gah bu yana, gah o yana sıçradırdılar.

– Taksi! Taksi! – deyə mağazanın qapısı ağzından səsləndim. Dayandığını görcək tez qaçıb özümü maşına saldım. Gedəcəyim ünvanı sürücüyə dedim. Beş-on dəqiqə çəkmədi ki, üçüncü mikrorayonda «Arzu» şadlıq evinin qabağında oldum.

Toya xeyli adam çağırmışdılar. Arvadlı-kişili təxminən üç yüz nəfər olardı. Deyib-gülən kim, sağlıq deyən, çalıb-çağıran, rəqs edən kim. Mən isə qınıma çəkilib oturmuşdum. Küt-küt hərəkətləri müşahidə edirdim. Axırda bezib toy yiyəsindən üzr istəyib çıxıb getdim...

Səhər qapımın zəngini çalan olmasa idi, yatıb yuxuya qalacaqdım. Zəngin səsinə hövlnak oyandım. Durub tez əynimə bir şey geyinib qapını açdım.

– Sabahın xeyir, bala.

– Sabahınız xeyir! – deyə birinci mərtəbədə yaşayan qadını içəri dəvət elədim. Hələ rayona getməmişdən qabaq yumaq üçün bir-iki paltar vermişdim. Yuyub, səliqə ilə ütüləyib qəzetin arasına qoyub gətirmişdi. Çox cansız, arıq arvad idi. Qəribə də danışığı vardı. Quş təki civildəyirdi. İndi də çox zəif, mızıltılı səslə:

– Paltarını neçə vaxtdır gətirirəm, evdə olmursan, dünən axşam da gətirmişdim, – dedi. – Evdə yox idin.

– Hə! – Dünən axşam toya getmişdim, gec qayıtdım.

Arvadın arıq sifətinə bir şənlik gəldi:

– Həmişə toylarda, oğul! – dedi.

– Çox sağ olun! – deyə ona təşəkkür etdim.

Arvad oğrun-oğrun üzbəüz qapıya baxıb gülümsədi:

– Xoşbəxt olsun, – dedi. – Yaxşı qızdır.
– Kimi deyirsiniz?
– Bu Hilaləgilin mənzili deyil?! Onu deyirəm, dayna. Dünən axşam ona «həri» almağa gəlmişdilər.
– Hilaləyə?!
– Hə də, bizim bu qıza!
Nə deyəcəyimi bilmədim. Yerimdəcə quruyub qaldım. Qulaqlarıma inanmırdım. Bu arvad nə danışırdı? Səhər-səhər bu şəppəxeyir hardan gəlib çıxdı? Əslində, bunda heç bir təqsir yox idi. Gördüyünü, bildiyini, eşitdiyini deyirdi. Dilim tutar-tutmaz soruşdum:
– Veriblər qızı?
– Düzü, orasını bilmirəm. Ancaq deyilənə görə oğlan yaxçı yerdəndir. Varlı-hallıdırlar. Oğlanın özünün deyirlər dörd otağı var. Qızın anası da var sevəndir. Həmişə çalışır ki, var-dövlət olan tərəfə yıxılsın. İndi hesabını özün götür. Bax, bir dəfə Hilalənin anası Firəngiz xanıma dedim ki, qızı nə üçün vermirsən. Gözəl-göyçək qızdır, hər halda, birinə ad olsa yaxşıdır. Dedi:
– Ay Çimnaz, bir fərrisi ortalığa çıxsın ki, verim, yoxsa...
– Nə çoxdur yaxşı oğlanlar, kimi sevir, kimə məhəbbəti var, ver getsin.
– Sən də danışdın daa! İndi məhəbbətin yeri dəyişib. Bilirsənmi, indi məhəbbət daha ürəkdə olmur?!
Matım-qutum qurudu ki, bu arvad nə danışır?
– Bəs harda olur, ay Firəngiz xanım?
Firəngiz xanım qolumdan üsulluca tutub şaqqanaq çəkib güldü və dedi:
– Ay pir olmuşun qızı, indi məhəbbət cibdədir, cibdə. Başa düşdün?
Başımı buladım:
– Elə demə, ay Firəngiz xanım. Qız gərək getdiyi oğlanı heç olmasa bir az sevsin.
O da qayıdıb mənə nə desə yaxşıdır?
– Əgər oğlanın cibi boşdursa, axı onu necə sevsin? Yoxdan Allah da bezardır...
Bəli, bu arvad az vaxt içərisində mənə çox mətləbləri anlatdı. Mən öz hesabımı yaxşıca götürdüm. Axı mənim nəyim var idi? Bir həsir, bir də Məmmədnəsir idim. Bəs bizim münasibətlərimiz? Bəs indiyədək aramızda olan yaxınlıq? Bir-birimizə dediyimiz sözlər? Bütün bunlar nədən ötrü idi? Bəs o mənimlə niyə görüşə çıxırdı? Neçə dəfələrlə bir yerdə olmuşduq. Qız bütün hərəkətlərilə, bütün varlığı ilə məni sevdiyini, məndən ötrü öldüyünü bildirmirdimi? Bəs bunlar nə üçün idi? Nə üçün belə artistlik edirdi? Bütün bunları fikirləşdikcə qanım quruyur, ayağımın altından yer qaçırdı. Düşünürdüm ki, gör necə səhv edib, ona inanmışam!..

Başımda dolaşan bu fikirlərdən, bu sorğu-sual cəngindən tamam özümdən çıxmışdım. Sakit dayanmağa təhrim yox idi. Kimisə sancmağa, kimdənsə intiqam almağa hazır vəziyyətdəydim. Bütün qadınlara, qızlara nifrət edirdim. Qarşımda əllərini dizlərinin üstə qoyub bildiyini, eşitdiyini mənə nəql edən bu qadın da gözümdən düşmüşdü. Heç onu eşitmək istəmirdim. Ürəyimdə Hilalənin qarasınca asıb-kəsirdim. Mənim aləmimdə, mənim fikrimcə, məhəbbətdə etibarsızlıq edənlər, vəfasız çıxanlar, əhd-peymanlarını unudanlar ən ağır cəzaya layiqdirlər!

Bəli, çox pis vəziyyətə düşmüşdüm. İçimdən doğranırdım. Elə bil məni döymüşdülər. Axı necə ola bilərdi ki, sevdiyin qızı əlindən alalar?! Səni heç adam yerinə qoymayalar?! Hər halda, onların bu etibarsızlığını üzlərinə çırpmaq, ürəyimi boşaltmaq istəyirdim. Fikirləşib bu qərara gəldim ki, qızın özünü görüm soruşum, görüm bu nə məsələdir? Amma onlar məndən qaçırdılar. Evlərindən nə vaxt çıxırlar, nə vaxt qayıdırdılar xəbərim olmurdu. Elə bil köçmüşdülər. Beləcə nə özləri görünür, nə də səsləri çıxırdı. Amma bilirdim ki, heç yana getməyiblər, evdədirlər. Axşamlar işıqları yanırdı. Bir-iki dəfə də kişini görmüşdüm. Ancaq onunla işim yox idi. Bəlkə də, bu məsələni o heç bilmirdi. Çünki ailədə əsas sözü qadın deyirdi.

Nəhayət ki, arvad əlimə keçdi. Bazardan gəlirdi. Əlində bir böyük zənbil var idi. Təmkinlə ona yaxınlaşdım. Guya, heç nədən xəbərim yoxdur. Guya, heç bir şey olmamışdı.

– Salam, Firəngiz xanım! Verin zənbilinizi götürüm, – deyə əlimi uzatdım.

Firəngiz xanım isə qəfildən «yaxalandığını» görcək əvvəlcə özünü itirdi. Sonra vəziyyətdən çıxmaq üçün saxta bir gülüşlə mənə mehribanlıq göstərdi və dedi:

– Yox, çox sağ ol, oğlum. Zəhmət çəkmə, özüm aparaaram. Yəqin, harasa tələsirsən? Sən işində ol.

Sözlərindən də hiss olundu ki, məndən gen gəzmək istəyir. Mən isə üzlülük elədim:

– Yox, əşi, nə zəhməti var, özüm də heç yana tələsmirəm, evə gedirəm, – deyə zənbili arvadın əlindən aldım. Yavaş-yavaş yanınca addımladım.

Arvad elə qızarmışdı ki, deyirdin şapalaqlayıblar. Üz-gözündən tər tökülürdü. Bilinirdi ki, sıxıntı keçirir. Bir az dinməz gedəndən sonra sükutu mən pozdum:

– Hilalə necədir, Firəngiz xanım? – Neçə gündü görmürəm, yoxsa bir yana gedib?

Arvad elə bil məni yaxşı eşitmirdi. Halbuki mənim səsim ucadan çıxırdı.

– Hilalə?

– Bəli! – Arvadın üzünə, qıyğacı baxdım. Bilmədim sözümdəki hikkəni, kinayəni duydumu? Deyəsən, duymuşdu. Ona görə də sakit bir tərzdə:

– Həəə, – dedi. – Hilalə yaxşıdır. Onun da boş vaxtı nə gəzir? Bütün günü işdə olur. Evin işi də başdan aşır.

Qızının kefini soruşmaqda mənim nəyə işarə etdiyimi, hər halda, bu arvad bilməmiş deyildi. Bilirdi ki, hansı simə vururam. Bir az da getmişdik ki, qonşu arvad arxadan özünü bizə yetirdi. Nə barədəsə kəsib tökməyə başladı. Özlüyümdə dedim: «Bu mərdiməzar hardan gəlib çıxdı?» Firəngiz də buna bənd imiş, əlimdən zənbili çəkib aldı və dil-ağız elədi:

– Çox sağ ol, oğlum, səni yordum. – Sonra da qonşu arvadla söhbətə girişdi. Yəni ki çıx get, ta lazım deyilsən. Mən də onlarla sağollaşıb aralandım. Birdən ağlıma gəldi ki, qızın özünə zəng edib danışım.

Belə də elədim. Küçədən zəng vurdum. Dəstəyi kişi götürdü. Qalın, xırıltılı səsi var idi. Yəqin ki, atası idi. Təntidim. Bilmədim səsimi çıxardım, yoxsa?.. Əşi, o məni hardan tanıyır? İkidən-birdən telefonda səsimi eşidib?!

– Bağışlayın, Hilaləni xahiş edirəm.

– İndi, – dəstəyi yerə qoydu və bir azdan Hilalənin səsini eşitdim.

– Alo...

Mən birtəhər olmuşdum. Bilmirdim qızla necə danışım. Elə bəri başdan onu acılayımmı? Ağzıma gələni deyimmi? Yoxsa qılıqla danışım? Nəhayət, dilləndim:

– Salam, Hilalə.

Qız səsimi tanımamış deyildi. Ona görə duruxan təki oldu. Bəlkə də, zəng edəcəyimi gözləmirdi. İndi qəfil zəngim onu çaşdırmışdı. Nəhayət, o da səsini çıxartdı.

– Salam.

– Bağışla, Hilalə, zəng edib səni narahat edirəm. Mümkünsə, çıx evin dalına sənə sözüm var. – O cavab verməyib dəstəyi yerinə qoydu... Bir xeyli gözləyəndən sonra gəldi. Onu görən kimi bütün kinim, nifrətim keçib getdi. Mülayimliklə soruşdum:

– Sənə nə olub, Hilalə? Dünənədək bizim aramızdan su keçmirdi, indi məndən qaçırsan?

Qız mənim sözlərimdən öz payını götürdü, gördüm pis oldu, rəng verib, rəng aldı. Çevrilib məhzun-məhzun üzümə baxdı. Nəzərlərində mənalı bir ifadə vardı. Bu ifadə onu deyirdi ki, onu sənsiz də mən bilirəm, daha onu xatırlatmağın mənası nədir?! Əslində də mənim bu cür danışmağıma heç bir lüzum yox idi.

Bu ara qız dilləndi:

– İstəyirsənmi ki, mənim sənin üçün ən yaxşı xatirələrim qalsın?

– Xatirələr nə üçün, Hilalə, mən səni itirmək istəmirəm. Yəqin, başa düşürsən ki, bu mənim üçün çox ağırdır.

Qız bu sözlərdən əsəbiləşdiyini bildirərək başını buladı:

– Gəl o barədə daha danışmayaq. Bilirsənmi, sözü xırdalamaqdan mənim acığım gəlir. Bizim işdə bir kişi var, o, həmişə deyir ki, söz xırdalandıqca onu deyən adam da kiçilir, balacalanır. Mən isə sənin haqqında elə fikirləşmirəm.

Qız baltanı kökdən elə vurmuşdu ki, daha deməyə söz tapmadım. Durub matdım-matdım üzünə baxdım.

– Di sağ olun! – Qız mənimlə xudahafizləşib aralandı.

– Sağ ol! – deyə mən də dalısınca baxa-baxa qaldım. Bax, adamı yarı yolda beləcə qoyarlar. Mən gör kimlərə inanmışam. Sahib elə yerində mənnən göyçəli Məhəmmədin oğlunu hər dəfə tənqid edib deyir:

– Yaxşı oğlansınız, ancaq bir ciddi nöqsanınız var.

Mən dillənməsəm də, göyçəli Məhəmmədin oğlu soruşurdu:

– Nədir nöqsanımız, qağa? Desənə düzəldək, öz əlimizdə deyilmi?

– İnciməyin, bir az belə naivnisiniz.

– O nə olan şeydir, qağa?

– Sadəlövhsünüz, kim nə deyir inanırsınız.

Göyçəli Məhəmmədin oğlu gülə-gülə cavab verirdi:

– İnsana inanarlar, qağa. Bax, mən sənə, ona necə inanmayım?!

Sahib söhbəti hərləyib-fırlayıb istəmədiyi, zəhləsi getdiyi adamların üstünə gətirirdi.

– Daha Miriş kimisinə yox. Çünki o da sənə inanmır. Onun inandığı bircə şeydir.

– O nədir, qağa?

– Pul! Allahı, bəndəsi yalnız puldur.

Göyçəli Məhəmmədin oğlu gülümsəyib əlini yelləyirdi.

– Bekar şeydir, qağa. Pul əl çirkidir. Adam onu heç özünə Allah eliyərmi?!

Mən də elə bilirdim ki, Sahib bir az sol gedir, məsələləri şişirdir. İndi görürdüm ki, həqiqətən, pulu, varı, dövləti, özünə Allah eliyənlər var imiş. Bax, Hilalənin valideynlərinin belə eləyəcəyi yatanda heç yuxuma gəlməzdi, amma başıma gəldi. Dilxorçuluqdan özümə yer tapa bilmirdim. Bilmirəm hardan gəlib mən bura düşdüm? Xanım ana xəstə olmasa idi, bu dəqiqə evdən çıxıb gedərdim. Xüsusilə gecələr əsəbdən yata bilmirdim. Gözlərimi nə qədər yumurdumsa, yenə bir şey çıxmırdı. Oyan-buyana çevrilməkdən bezirdim. Gah da arxası üstə uzanıb əllərimi sakitcə yanıma uzadırdım ki, bəlkə, yatam. Balaca körpəyə dönürdüm. Elə bil qolumu-qıçımı büküb-bələyib nənniyə qoymuşdular. Bu fikirlərdən ürəyim sıxılırdı. Təzədən durmaq istəyirdim. Gündüz olsa, evdə durmazdım. Küçəyə çıxardım. Dərd-qəmimi dağıdardım. Qəribə idi. Mənə elə gəldi ki, otaqda tək deyiləm. Məndən savayı başqa adamlar da var: Firəngiz xanım, Xalıq kişi, Miriş Alxasov, dayım, dayıdostum... Hamısı! Cin, şeytan təkin qaranlıq künclərdən gözlərini bərəldib baxırlar. Mən də onların gözünün qabağında dara çəkilmişəm. Məni yatmağa qoymurdular.

Əhvalımın belə qarışıq vaxtında qulağıma nazik civilti səsi gəldi. Bildim ki, otağın hansı künc-bucağındasa siçan var. İndiyədək bu evdə mən siçan-zad görməmişdim. Bu zibil hardan peyda oldu? Bir onun yeri əskik idi? Cəld durub işığı yandırdım. Amma heç nə gözümə dəymədi. İşığı söndürüb dilxor-dilxor yenə də yerimə uzandım. Özümü qaranlıq bir boşluqda hiss elədim. Bu qaranlıq boşluqda indi mənim aləmimdə ikicə canlı var idi. Biri mən idim, biri də o siçan! Beləcə narahatçılıq içində nə vaxt yatdığımı bilmirəm. Düzü, səhər yerimdən duranda çox da əzgin deyildim. Gecə sanki mənə öyüd-nəsihət etmişdilər. Demişdilər ki, belə şeylərə görə fikir etməyə dəyməz. Həyatdır. Belə hallar olan şeydir. Hilalənin məndən üz döndərməsi nə qədər ağır olsa da yenə nikbin bir əhvalla geyinib tezdən otaqdan çıxdım. Dünən axşam da ağılsız, mənasız fikirlərdən yemək də boğazımdan keçmədi. Özümü yaxınlıqdakı kafelərdən birinə saldım. Toqqanın altını bərkidib işə getdim...

## XIII

Babamın dəfnindən sonra dayımı görməmişdim. Amma eşitmişdim ki, gedib atasının yeddisini verib gəlib. Onu görüb bir söhbət eləmək istəyirdim. Söhbətimin məğzi iş icraçısı Miriş barəsində olacaqdı. Bu Miriş zalımoğlu camaatı lap iyrəndirmişdi. Elə bil tikintiyə it bağlamışdılar. Xüsusilə Sahiblə savaşandan bəri çox vaxt hamını dalayırdı. Yəqin, kütü bir qədər kəsilmişdi. Çünki Sahib onu hamının qarşısında biabır eləmişdi. Pis əməllərini bircəbircə üzünə demişdi. Ondan bəri çox əl-qol aça bilmirdi. Gizlində, orda-burda tülkü təki eşələyib nə tapırdısa o idi. Aşkara daha əvvəlki qələti eləyib material satdıra bilmirdi. Qabaqlar daş, qum, sement nə bilim nə, nə, hamısı ora-bura gedərdi. Miriş də pula pul demirdi. Başa düşmək olmurdu ki, bu necə şeydi?! Adam heç dədəsinin malını elə taraş eləyə bilməzdi. Amma o eləyirdi. İşçilər dilə gəlmişdilər! Lap üzünə də, dalısınca da deyirdilər:

– Əşi, bir əməlisaleh adam tapmadılarmı gətirib bura qoyalar. Görmürlərmi bu dələduzun biridir. Tikintidən də qandığı qrafa yoxdur. Lap olsun. Əgər yırtıcıdırsa, söküb dağıdırsa, onda heç fəhləliyə yaxın qoymaq olmaz, nəinki rəhbər işə.

Nə isə, bu Miriş deyilən tip heç ölkə ucuna qoyulası deyildi. İşdə bir adam tapılmazdı ki, onun haqqında yaxşı fikirdə olsun, ondan xoşu gəlsin. Necə deyərlər, hamı onu dişinə vurub sınamışdı. Zalım oğlu bir adama yaxınlaşanda, ona nəsə xoş bir söz deyəndə orda mütləq bir təmənna olmalı, nəsə bir mənfəət güdülməli idi. Mirişin təbiəti belə yaranmışdı: acgöz, hər şeyə tamah salan, qənimətçi. Bu cür yırtıcı xasiyyətinə görə bəzən adama elə gəlirdi ki, o, elə adam cildində heyvandır. Tuğu-lənət olub keçmişdi bu idarənin xirtdəyinə. Ondan yaxa qurtarmaq müşkül məsələ idi. Nə özü gedirdi, nə də çıxardan var idi. Ardınca danışsaq

da, onun barəsində kəsib-töksək də, üz-üzə gələndə hamımız kirişirdik. Başımızı cəncələ salmaq istəmirdik, artıq söz-söhbətdən qaçırdıq. İçərimizdə yalnız Sahib ürəkli çıxmışdı. O da meydanda tək qalmışdı. Buna baxmayaraq, Sahib Mirişi yenə vecinə almırdı. Başqa nöqsanları olsa da, onun belə mübariz olmasından, vəzifəli adamın qarşısında əyilməməyindən xoşum gəlirdi. İstəyirdim mən də onun kimi olam. Qarşıma bir əngəl, maneə çıxanda, hər hansı bir müvəffəqiyyətsizliyə uğrayanda özümü tez itirməyim, ruhdan düşməyim. Deyəsən, həqiqətən, Sahibin mənə təsiri keçmişdi. Mən də qabaqlar ona hörmətlə salam verər, kef-halını soruşardım. İndi isə onu saya salmırdım. Mənə qarşı nəsə hörmətsizlik etsə, mənə yersiz söz desə idi, cavabını mütləq verərdim. Bir də o mənə nə deyə bilərdi?! İşimə qarşı çox məsuliyyətli idim. Mənim öhdəmə, vəzifəmə nə düşürdüsə, səliqə ilə edirdim. Ona görə də dilim uzun idi. Ümumiyyətlə, Sahiblə mən bir-birimizə söz vemişdik ki, işimizi elə görək, tapşırıqları elə yerinə yetirək ki, iş barəsində bizə bir adam nöqsan tuta bilməsin. Həqiqətən də, sözümüzə əməl edirdik.

Düzünü deyim, qız məsələsi də məni ruhdan salmamışdı. Acıqdanmı, yoxsa elə həqiqətənmi bu qənaətə gəlmişdim ki, Hilalə o qədər də yaxşı adam deyildir. O da, deyəsən, ata-anası xasiyyətdədir, var-dövlət axtarandır, parıltı dalınca qaçandır. Belələrindən mənim əzəldən zəhləm gedirdi. Belələrindən heç vaxt yaxşı qadın, əsl ana ola bilməz! Amma ürəyimdə bir məsələyə sevinirdim ki, elə ziyanlığın yarısından qayıtmışam, bu da böyük işdir. Adam yorğanına görə ayağını uzatmalıdır. Yoxsa bu acgöz adamlarla ayaqlaşmaq çətin olardı.

Özlüyümdə Hilalə ilə həyat qurmaq istəyən varlı-hallı oğlana yazığım gəlirdi. Əslində, oğlan məni əvvəl-əvvəl o qədər də maraqlandırmırdı. Onu heç görmək istəmirdim. Bu fikirdə idim ki, elə o da qız xasiyyətdə olar. Necə deyərlər: taylı, tayını tapar. İkisi də bir bezin qırağıdır. Beləliklə, oğlanı görmək marağım artdı. Baxmaq istəyirdim bu necə oğlandır ki, qız su təki axıb ona sarı getdi? Əslində, bunun səbəbi aydın idi... O oğlanın məhəbbətini deyil, maddi vəziyyətini qiymətləndirmişdi.

Tez-tez çıxıb həyətdə bir guşəyə çəkilib, qəzetdən, kitabdan oxuyardım. Əsas məqsədim isə Hilalə ilə nişanlısını görmək idi. Amma hər dəfə bir xoşagəlməz hadisənin şahidi olurdum, qanım qaralırdı. Bax, bu günü götürək. Bir uşaq həyətdə dığhadığla düzəltdiyi taxta maşını sürürdü. Doğrudur, səsi bir qədər xoşagələn deyildi, adamın əsəblərinə toxunurdu. Amma uşaq ona necə aludə olmuşdusa, gah bu ayağı ilə, gah o biri ayağı ilə itələyir, sürətlə gedəndə iki ayağını da üstə qoyub, fit çalır, sevinirdi. Onun əyləncəsində bir inadcıllıq diqqəti cəlb edirdi. Mən də aludəçiliklə uşağın «dığdığına» tamaşa edirdim ki, blokların birindən əynində zolaqlı pijaması olan dazbaş, eynəkli bir kişi çıxıb hövlnak uşağa sarı yüyürdü. Dazbaş kişinin ona sarı nə məqsədlə qaçdığını başa düşən uşaq əkilmək istədi, lakin gec idi. Dazbaş kişi yüyürüb onu tutdu:

– Bəs deyilmi, ay dələduz! Qoymazsan xarabamızda sakit oturaq? Daha dəng olduq, axı! – deyə uşağın taxta maşınını dartıb əlindən aldı, başının üstə qaldırıb var gücü ilə səkinin daşına çırpdı. Dəmir təkər oxundan çıxıb bir yana dığırlandı, taxta hissəsi də sınıb o biri yana düşdü. Sonra da dazbaş kişi söylənə-söylənə evinə getdi.

Dazbaş kişinin hərəkətindən narazı qalsam da, nə deyə bilərdim?! Hər halda, yaxşı iş görmədi, uşağın xətrinə dəydi. Belə etmək lazım deyildi. Uşağa yaxınlaşdım. Muruzunu tökmüşdü. İri, qara gözləri dolmuşdu. Hirsindən balacanın ətli dodaqları titrəyirdi. Əlimi onun çiyninə qoydum: «Zərər yoxdur, velosiped alıb sürərsən!» – deyə onu sakitləşdirdim. Hətta onu da demək istədim ki, sən o kişidən incimə, yaşlı adamdır, yəqin, əsəbləri yerində deyil. Sonra uşağın qolundan tutub:

– Mən də təkəm, darıxıram, bəri gəl evə gedək, oturub söhbət edərik. Sənə şəkilli kitablar da verərəm, – dedim.

O dərhal başını tərpədib razı oldu. Biz evə gəldik. Uşağın hələ də qanı qara idi, özünə gəlməmişdi. Mənim də məqsədim onu sakitləşdirmək idi. Bunu divanda otuzdurub, özüm mətbəxə gedib çay qoydum. Bu ara qapının zəngi çalındı. Qapını açanda gördüm həyət adamlarındandır. İri cüssəli, kələ-kötür bir kişi idi. Vaxtı ilə pəhləvanlıq edərmiş. Adı-sanı varmış. İndi daha yaşlaşmışdı. Hardasa idman sahəsində işləyirdi. Yəqin, məşqçi idi. Bura köçəndən bir neçə gün sonra görən kimi tanıdım. İndi əlində kağız-qələm görəndə bildim ki, nə üçünsə yenə pul yığırlar. Evlər idarəsi elə pis öyrənmişdi xırda bir şeyi də pulsuz eləmirdi. Həyətə qır basmaq lazımdır – pul. Pilləkəni təmir etmək lazımdı – pul...

– Cavan oğlan, – deyə keçmiş pəhləvan mənə müraciət etdi. – Su üçün həyətdə motor qoydurmaq istəyirik. Bunun üçün bir az pul...

– Nə qədər? – deyə tez əlimi cibimə saldım.

– Hər evə 5 manat.

– Buyurun! – deyə çıxarıb Xanım ananın yerinə verdim.

O da alıb siyahıda qeyd elədi və «sağ olun» deyib getdi.

Bu az vaxtda həyətdə, demək olar ki, hamı məni tanımışdı. Ona görə də Xanım anaya aid nə olsa, mənə deyirdilər. Mən də, demək olar ki, binada yaşayanları az-çox tanımışdım.

O biri blokda ikinci mərtəbədə yaşayan bir qızın deyirdilər saçı özününkü deyil. Guya, keçəl imiş, parik qoydurub. Düzü, bunu ilk dəfə eşidəndə pis olmuşdum. Çünki qəşəng qız idi. Mehribandı. Adamı görəndə hələ uzaqdan gülümsəyir, mehribanlıq göstərirdi. Mənimlə də salamı vardı. Amma nədənsə, onu hər dəfə görəndə qanım qaralırdı. Çox vaxt qızın ümumi çöhrəsinə, qəşəng gözlərinə diqqət yetirmək əvəzinə onun saçlarına baxırdım. Bu da onun

nəzərindən qaçmırdı. Bir gün qızı blokun girəcəyində, bir oğlanla gördüm. Əvvəlcə tanımadım. Acığım tutdu ki, bunlar nə üçün bura giriblər. Söhbət etməyə yer tapmırlarmı? Qızı tanıyandan sonra tez ötüb keçdim. Onlara mane olmaq istəmədim. Sevindim ki, fağırca qızın bəxti açılıb. Nəhayət, onu da sevən tapılıb. Sonralar bir dəfə kinodan gəldiklərini gördüm. Oğlan qızın qoluna girmişdi. Məni də görəndə əvvəlkindən də xoşbəxtliklə gülümsədi, salam verdi. Mən də onu eləcə səmimiyyətlə salamladım. Amma bir dəfə də həmin qonşu qızın bir arvadla necə savaşdığını gördüm. Heyrətimdən donub qaldım. Axı mən onları həmişə yaxşı münasibətdə görürdüm. Hərdən həyətə çıxanda can deyib can eşidərdilər. İndi aralarında nə olmuşdusa, ikisi də eyvandan eyvana əllərini ölçə-ölçə bir-birlərinə nalayiq sözlər deyirdilər. Axırda da qız hirslənib lap özündən çıxdı. Savaşının mənasını dedi:

– Ay ləçər, sən nə üçün mənim adıma söz çıxarıbsan? Nə üçün mənə keçəl adı qoyubsan? Heç utanırsanmı? – deyə ağlamsına-ağlamsına qadından sual eləyirdi. Sonra da başını ona sarı əydi. Hamının gözü qarşısında saçlarını açıb tökdü. – Ay camaat, baxın, yaxşı baxın, görün mən keçələm?!

Qonşu qadın daha deməyə söz tapmayıb evinə keçdi. Qız isə hirsindən ağlayırdı. Məəttəl qalmışdım. Axı qonşu qadına nə düşmüşdü ki, bu gənc, xoş-xasiyyət qıza böhtan atırdı. Yaxşı deyiblər ki, qonşu yaxşı olsa, kor qız ərə gedər. Düzü, qonşu qadından yaman acığım gəldi. Amma ona ürəkdən sevindim ki, qızın keçəl olması yalan imiş. Qızın mənim sevincimdən xəbəri yox idi. Hətta ürəyimdə ona qarşı belə kövrək münasibətə baxmayaraq, o məni bir gün möh-kəmcə tənqid elədi. Fikirli-fikirli pilləkənlə düşürdüm. Qarşıma çıxdı. Yol ver-mək üçün elə təntidim ki, o sola getdi, mən də sola getdim, o sağa, mən də sağa. Məni tər basdı. Qız isə pıqqıldayıb güldü. Pərt oldum. Qız da aşağıdan yuxarı üzümə baxıb dedi:

– Öz aramızdır, birtəhər oğlansan.

Qızın səsinin ahəngindən, sözündəki tikanı duyub sakitcə soruşdum:

– Necə?

– İncimə, – qız tənqidinə təbəssüm qatdı. – Elə bil bu zamanın adamı deyilsən.

Qızın mən haqdakı fikri maraqlı idi. Bəlkə, elə Hilalə məni bu xasiyyətimə görə bəyənmədi. Geri qalmış, küt, mədəniyyətsiz hesab elədi. Hər halda, qızın sözlərində bir həqiqət hiss eləyirdim. Onu axıra kimi dinləmək istədim.

– Bax, sizcə, mən necə olmalıyam? Bir mədəni, qəşəng qız kimi siz məni necə görmək istəyirsiniz?

– Bilirsinizmi? – deyə hələ adını da bilmədiyim qız əllərini yana açdı. Qəribə bir əda ilə: – Belə... müasir.

– Müasir, necə axı?.. Xahiş edirəm izah edin!

Qız balaca, yaraşıqlı ağız-burnunu yığdı. Nə üçünsə fikrini izah etməkdə çətinlik çəkirdi. Köməyinə gəlmək istədim.

– Bəlkə, geyim-kecimim sizə birtəhər görünür?

Qız başını buladı.

– Onda bəs nə? Bilirsiniz ki, işləyirəm, axşamlar təhsilimi davam etdirirəm. Sizcə, bunların müasir gənclərin həyatı ilə əlaqəsi yoxdu?

Qız laqeydcəsinə əlini yellədi:

– İndi hamı işləyir, oxuyur...

– Mən də onlardan biri...

Qız əllərini tərpətdi, nəsə özünü daxilən çətinə salırmış kimi hərəkət etdi:

– Bax, bilirsinizmi?.. Kak-to fikrimi başa salmaqda çətinlik çəkirəm. Hə, bir az xasiyyətiniz birtəhərdir.

– Nə təhərdir?

– Acı!

– İstiot kimi?

Qız şirincə gülümsəyərək başını tərpətdi. Mən onun açıq, mehribanlıq, səmimilik saçan sifətinə baxaraq əlavə etdim. – Siz isə olduqca şirinsiniz!

Qız gözlərini süzdürdü.

– Nədən bilirsiniz? Bəlkə, əksinədir?

– Meyvənin şirinliyi çox vaxt uzaqdan da bəlli olur.

– Bəzən zahiri görünüş aldadıcı olur.

– Baxır kimin zahiri, – deyə mən də gülümsədim.

Qız uşaq təki gözlərini geniş açıb mənə diqqət elədi və şən-şən dedi:

– İlahi, siz güləndə necə qəşəng olursunuz?! Bundan sonra...

– Çalışaram məsləhətinizə əməl eləyəm.

– Çox sağ olun! Yaşayarıq, görərik.

Evə qayıdıb qonşu qızın dediklərini özlüyümdə çox götür-qoy elədim. Bu qərara gəldim ki, adama ərklə irad tutan şəxslər səmimi və sadəqəlblidirlər. Qonşu qızın dedikləri xeyirxahlıqdan irəli gəlirdi. O məni başqa cavanlar kimi görmək istəyirdi. Açıq danışanlardan incimək lazım deyil. Qaç o adamlardan ki, ürəkləri bir söz...

Hilalənin vəfasızlığından nə qədər acığım gəlsə də, ona qarşı nə qədər kinli, qəzəbli olsam da, yenə elə bil qəlbimin harasındasa onun üçün lap kiçik də olsa bir yer saxlamışdım. Bir tərəfdən öz-özlüyümdə qızı asıb kəsir, tənqid edir, sözünə, əhdi-peymanına düz çıxmamaqda təqsirləndirirdim. Digər tərəfdən onu ürəyimdə gəzdirirdim, xəyalən saçlarına sığal çəkir, onu oxşayırdım. Doğru deyiblər ki, yanğı düşən yerdə nişanə qalır. Mənim də qəlbimdə ilk ocaq qalayan

insanın yanıq yeri qalmışdı. Onu heç cür unuda bilmirdim. Onu görmək üçün çox böyük ehtiyac hiss eləyirdim.

Günlərin birində blokumuzun ağzında şıq geyimli bir oğlan gördüm. Oğlan bir az kənarda dayanmış, maşının açarı ilə oynayır, zəncirini gah sağa, gah da sola barmağında fırlayırdı. Altı, üstü qəşəngcə vurulmuş nazik, uzunsov bığları üzünün ümumi ifadəsinə bir incəlik gətirir və onu yaraşıqlı göstərirdi. Ürəyimə damdı ki, odur. Çünki indiyədək bu həyətdə belə bir adam görməmişdim. Həm də düz qız yaşayan blokun ağzında dayanmışdı. Bəzənmiş «Jiquli»sini də düz blokun ağzında saxlamışdı. Görünüşündən ona 25–30 yaş vermək olardı. Nə isə, mən çox gözləməli olmadım. Çıxıb işimin dalısınca getdim. İstəmədim ki, Hilalə çıxıb məni görsün. Heç özüm də onları bir yerdə görmək istəməzdim.

Səhəri gün də bu bəzəkli maşını yenə həmin yerdə gördüm. Bu dəfə özümdən asılı olmayaraq əsəbiləşdim. Az qaldım deyəm, ə, bu soyxanı bir az aralıda saxlasana? Düz blokun ağzına soxmusan! Ancaq özümü birtəhər saxladım. Əslinə baxsan, bunlarla çənə-boğaz olmağa nə halım, nə də hövsələm vardı. Bu gün o qədər işləmişdim ki, ayaq üstə güclə dururdum.

Bu ara ayaq səsləri eşitdim. Bəli, Hilalənin yerişi idi. Harda olsaydı, tanıyardım. Səhv etməmişdim. O idi. Pəncərədən ötəri gördüm. Yerimdəcə quruyub qalmışdım. Maşınlı oğlanı da tamam unutmuşdum. Ona heç əhəmiyyət vermirdim. O, mənim üçün bu ara yox kimi idi. Hətta elə vəziyyətdə idim ki, qız blokdan çıxanda qarşısına qaçıb qoluna girmək istəyirdim. Görəsən, onda necə ola bilərdi, deyə bilmərəm. Qız özünü necə aparardı? Mənə necə baxardı? O zaman bu maşınlı oğlan nə edərdi? Aləm bir-birinə qarışmazdımı? Yox! Yox! Eşidən, bilən hamı məni qınayardı. Xanım anaya da pis təsir eləyərdi. Ona sakitlik lazım idi. Düzü, indi həyatda mənim üçün əsas o idi ki, Xanım ana yaxşılaşıb evinə gəlsin. Ondan sonra mən rahatca başımı götürüb gedə bilərdim. Belə ki əsas qayğım Xanım ana idi. Mən burda, qəribə adamların qonşuluğunda təkcə ona görə qalmışdım. Amma mənasız bir maraq məni yerimdən tərpənməyə qoymurdu. Görmək istəyirdim Hilalə oğlana necə salam verəcək? Maşına necə minəcək? Məni görmək ona necə təsir eləyəcək?

Həqiqətən, blokun ağzında birdən-birə Hilalə görünəndə matım-qutum qurudu. Elə bil o qız deyildi. Əyninə çox gözəl yaraşan mavi rəngli bir paltar geyinmişdi. Sinəsi də bir az açıq idi. Ağ dikdaban çəkmələri onun boyunu xeyli uca göstərirdi. İndiyədək yüz dəfə, min dəfə onu görmüş olsam da, mənə elə gəlirdi ki, bu qızı birinci dəfədir ki, görürəm. O isə nə mənə, nə də yan-yörədə olan başqa adamlara məhəl qoymadı, keçib maşına əyləşdi. Oğlan maşını sürüb getdi. Mən isə dallarınca baxa-baxa qaldım. Bu ara göy guruldadı, elə şaqqıltı, xırıltı qopdu ki, elə bil göydə daş boşaldırdılar. Mənə elə gəldi ki, yağış əvəzinə daş yağacaq...

XIV

Payızın xəzəlli-gözəlli vaxtı idi. Hələ qışa xeyli qalırdı. Lakin bir gecə elə soyuq oldu ki, məni içəridə bütüncə bürüşdürdü. Həmişə nəfəsliyi açıq qoyub yatardım. Üstümə yorğan da salmazdım. Amma gecə gördüm üşüyürəm, durub maykamı geyindim, nəfəsliyi bağlayıb, üstümə yorğan örtdüm. Yorğanı açanda onnan evimizin iyini duydum. Yorğanı nənəm salmışdı. Dediyi sözlər də yadıma düşdü: «Ay Mahir, qurban olum, adama nə olur, soyuqdan olur. Bax, sənə elə isti yorğan verirəm ki, od kimi. Sonra Allah qoysa, evlənəndə də sənə bir bəylik yorğanı düzəldəcəm ki, iki göz istər tamaşa eləsin». Ürəyimdə nənəmə min sağ ol deyib yuxuya getdim...

Ertəsi gün də qalın geyindim. Dünənədək bir köynəkdə gəzirdim. İndi plaş da geyinmişdim. Amma bədənimdə bir üşütmə vardı. Görəsən, mənə nə olmuşdu. Bəlkə, bu soyuqluq mənim əhvalımla əlaqədardır. Onu bilirdim ki, hava çox soyuq olmasa da, mənim bədənim tez-tez üşürgələnərdi. Bəlkə də, mənə soyuq olmuşdu. İsti havanın soyuq dəyməsi daha pis olur. Canımın dərdindən işdə həmişəkindən bir az da artıq, bir az da cəld işləməyə cəhd edirdim ki, bəlkə, tərləyəm, bədənim bir az açıla. Hə, bax, beləcə xəstə-xəstə işləyirdim. Amma neyləyim ki, işdən ayrıla bilmirəm. Mənə belə gəlir ki, tikintidən başqa mən heç yerdə işləyə bilmərəm. Bilmirəm ilk vaxtdan bura düşmüşəm ona görədir, yoxsa elə, həqiqətən, bura yaxşıdır? Hərdən elə olur ki, müəyyən bir iş üçün kontora, yaxud bir başqa idarəyə gedirəm, o saatca başlayıram darıxmağa. Deyirəm, heyif deyilmi bayırda işləmək? Doğrudur, mən axşamadək daşın-torpağın içində oluram. Yorulmaq da öz yerində. Amma bu yorğunluq da adama ləzzət verir. Bir də əlindəki işi başa çatdırdın, qurdun, yaratdın elə bilirsən, dünyalar sənindir. Ucaltdığın binalara uzaqdan heyran-heyran tamaşa edəndə bütün yorğunluq canından çıxır...

Xülasə, bədənimdəki soyuqluğun mənasını bu gün axşamüstü, maşın-maşın ardınca həyətə girəndə hiss elədim. Onlar gəlib bizim blokun qabağında cərgələnəndə nələr çəkdim, bir Allah bilir. O dəqiqə bildim ki, Hilalə üçün gəliblər. Ah, bu məsələlər nə tez həll oldu. Hər bir şeyi nə tez gördülər? Bilsəm də ki, Hilalə üçün gəliblər yenə inanmaq istəmirdim. Həyətdə həmişə mənim paltarımı yuyan arvaddan soruşdum:

– Bu nə toydur? Kimin üçün gəlib?

– Hilalə üçün, qadan alım. Sənə axı demişdim ki, həyətimizin qızlarının bəxti açılıb. Bax, qız üçün paltar gətiriblər. Yəqin, sabahda, biri gündə də aparacaqlar.

Təəccübləndim... Hələ paltar gətirmə mərasimi bu cür dəmdəsgahlı idi. Gör bunun toyu necə olacaqdı?

Boynuma alım ki, həyatımda ilk dəfə idi musiqi səsindən əsəbiləşirdim, zəhləm gedirdi. Halbuki qarazurnanın, nağaranın səsi gələndə irzim-irəngim açılar, sümüyüm oynayardı.

İndi bax, bu kirayə qaldığım evin həyətində isə qarmonun səsindən az qalırdım iki əlli qulaqlarımı tutub qaçam. Başqa çarə yox idi. Dözə bilmirdim. Ya gərək gedib istədiyin, sevdiyin qızın qolundan tutub aparasan, ya da... Necə oldusa xəyalımda qara yalmanlı bir at canlandı. Elə bil burada küçənin qələbəliyindəcə şahə qalxıb qollarını havada oynatdı. Kişnəyib götürüldü. Qaraqaş, qaragöz igid bir oğlan da yəhərin qaşında yapıncıya bükülü bir gözəl qızı götürüb qaçdı. Bunu mənə balaca olanda nənəm danışmışdı. Soruşmuşdum:

– Bəs qız yapıncının arasında darıxmır?

Nənəm başını yelləyirdi.

– Niyə darıxır. Sevgilisinin qucağında yellənə-yellənə gedir.

Nənəm bunu çox həvəslə danışmışdı. Mən də ondan soruşurdum:

– Ənnə, bəs babam səni necə götürüb qaçdı?

– Baban məni qaçırmadı, dərdin alım.

– Özün gəldin?

– Özüm gəlməyimə özüm gəldim. Ancaq arabaya mindirib bax, belə toy çala-çala, başımın üstündən tüfəng ata-ata, Allah-allahnan gətirdilər...

İndi mən qız-zad qaçıran deyildim. Amma əhvalım tamam pozulmuşdu. Tez evə gəldim. Burda, bu dörd divar arasında dursam daha yaxşıdır. Heç olmasa gözüm görüb, könlüm bulanmaz. Amma ürəyim bayırda qalmışdı. Nə olduğunu, nələr baş verdiyini bilirdim... Hər halda, çox həyəcanlı idim, bilmirdim nə edim? Bu yerdə qulağıma səs gəldi, başımı qaldıranda gördüm qapı səssizcə aralanır. İndi belə, səssizcə kim idi gələn? Onda gördüm Hilalə içəridədir. Arxasınca qapını örtüb divara söykənəcəkli dayandı. Bax, o dəfə də belə eləmişdi. Düzü, özümü itirən təki oldum. Yoxsa məni qara basırdı? Bəlkə, yuxu görürdüm? Axı eşikdə dambırhadambır toy çalınırdı, bu gəlin gedirdi, belə bir vaxtda mənim yanımda nə gəzirdi? Niyə? Nə üçün? Bizim aramızda axı heç nə qalmamışdı. Hamısı uçulub dağılmışdı. İtib batmışdı! Mənim yanıma belə pünhan gəlməkdə məqsədi nə idi? Bəlkə, yaxşı iş görmədiyini indi başa düşmüşdü? Bağışlanmasını xahiş edəcəkdi?.. Nə olur-olsun, gəlmişdi, qarşısına çıxmalı idim. Hər halda o, elə-belə gəlməmişdi. Yəqin ki, bir məqsədi vardı. Soyuq qarşılamaq, üzünə baxmamaq yaxşı deyildi. Amma yenə də yerimizdən tərpənmirdik. Mən burda dayanmışdım, qız da qapının ağzında... Bilirdi ki, ondan küsmüşəm. Amma bundan acıq eləyib getmək istəmirdi. Başqa vaxt olsaydı, çoxdan qapını çırpıb çıxmışdı. İndi mən pis oldum. Fikirləşdim ki, bu qızın əzabları, həyəcanları özünə bəsdir. Bəlkə də, bu əzabların əlindən qaçıb bura gəlib. Dərdini mənimlə bölüşmək istəyir. Mən isə onu belə qarşılayıram. Qanını daha da qaraldıram. Özümlə bacara bilmədim, durub yanına gəldim. Qız elə həmən yerdə, həmən formada divara söykənəcəkli dayanmışdı. Əllərini də uşaq təki arxasında saxlamışdı. Özümü ələ alıb dedim:

– Gərək gəlməyəydin, Hilalə!

Qız başını azacıq qaldırdı, saçını üzündən geri elədi.

– Niyə?

Cavabı üçün söz çox idi. Amma istəmədim onları izah eləyəm. Buna vaxt da yox idi. Ona görə susdum. Qız özü dilləndi:

– Bəs məni görmək istəmirdin?

Çox həvəssiz cavab verdim:

– İstəyirdim!

– İstəyirdin, bax, mən də gəlmişəm!

– Kaş gəlməyəydin! Səni görmək arzusunun həsrəti mənim üçün daha xoş olardı.

Qız tutuldu. Qırıq-qırıq danışdı:

– Anam dedi ona getməsən, özümü öldürəcəm!

– Sən də inandın?

– Sən mənim anamı tanımırsan, inan ki, öldürərdi!

Qız elə danışdı ki, mən də ona inandım. Müəyyən mənada qızın hərəkətinə bəraət qazandırdım. Bə neynəsin?! Heç yerdən anasını itirsin? Sonra düşündüm ki, sadəcə olaraq, qızı qorxudublar. Yoxsa kim idi özünü öldürən?! Fikirləşdim ki, bu nə sadəlövh qız imiş. Hər şeyə inanırmış. Bir azca bundan qabaq üzünə baxmaq istəmədiyim halda, indi ona yazığım gəldi. Düşündüm ki, əgər mən onu, həqiqətən, sevirəmsə, onu bağışlamalıyam. Bütün günahlarından keçməliyəm. Köçüb getməyə hazırlaşdığı bir vaxtda onun xətrinə dəyməməliyəm. Xeyir-dua diləməliyəm. Çətin olsa da, mən bunu eləməliyəm. Ancaq onu necə bağışlayım? Bu mənə olduqca çətin idi. Ona görə daş parçasına dönüb qalmışdım. Bəli, müəyyən bir günahdan keçmək, adamı bağışlamağın özü də böyük ürək istəyirdi.

Qızlar daha cəsarətli olurmuş. Mən beləcə donuq, çıxılmaz bir vəziyyətdə quruyub qalanda Hilalə qəfildən özünü üstümə atdı, boynumu qucaqlayıb öpüb qaçmaq istədi, iki əlli qollarından yapışıb buraxmadım. O isə çırpınaraq:

– Burax! Tələsirəm! – dedi.

– İndi gedərsən! – deyə onu bağrıma basıb öpüşlərə qərq elədim. Elə bil kimdənsə acıq çıxırdım. Bu dünyada, yoxsa hamı bir-birinin acığına iş görür? Bu dünyada, yoxsa hamı bir-birinin acığına yaşayır? Mən ki həmişə ədalətdən danışardım. Həmişə tərbiyədən danışardım. Həmişə qayda-qanundan danışardım. İndi bəs bu nə idi? Bu necə hərəkət idi? Axı mənə qarşı ədalətsiz iş görmüşdülər. Birinci onlar müqəssir idi. Onlar mənə bir divan tutmuşdular ki, ömrümdə yadımdan çıxmazdı.

Bu dəli-dolu hərəkətimdən isə qız özünü tamam itirmişdi. Nəhayət, dartınıb qollarım arasından çıxanda gördüm qıpqırmızı qızarıb. O, dərhal çıxıb getmək istəmədi. Yaxasını, saçlarını səliqəyə sala-sala:

– Axırıncı görüşümüzdür, salamat qal! – dedi. – Məni axtararlar, mən gedim!

Nitqim tutulmuşdu. Nə edəcəyimi kəsdirə bilmirdim. Nəhayət, özümü ələ alıb dedim:

– Get, əzizim! Səni həmişə xoşbəxt görmək istəyirəm. Bədbəxtliyin mənim də bədbəxtliyimdir. Taleyimiz beləymiş, nə etmək olar?!

O məndən bu sözləri gözləmirdi. Elə bilirdi ki, onu təhqir eləyib ağzıma gələni deyəcəm. O mənim hərəkətimdən hədsiz dərəcədə sevinib kövrəldi. Deyəsən, xəlvəti gözlərini də sildi və dönüb qapını açdı pəncələri üstündə çıxıb getdi. Sanki qapının ardında divara bitişik, hava rəngində tül pərdə vardı, yel vurub o üzə saldı. Mənə bu ara elə gəldi ki, yuxu görürəm. Guya, bunların hamısı yuxuda baş verir. Qızın mənim yanıma gəlməyi də, getməyi də. Həqiqətən, elə bil çox maraqlı, şirin bir yuxu görmüşdüm...

## XV

Səhəri gün qızı apardılar. Çala-çala, oynaya-oynaya maşına mindirib apardılar. Bu da elə oldu ki, mən işdən qayıdana düşdü. Nə qədər baxmasam da, gördüm, qız adamların əhatəsində ağappaq göyərçinə bənzəyirdi, amma qolundan tutmuşdular, elə bil qorxurdular ki, buraxsalar uçub gedər. Onları görəndə həyat mənə darısqal göründü. Elə bil havasızlıq, çəkisizlik mühitinə düşmüşdüm. Ayağımı hara atırdım, hara gedirdim, heç özüm də bilmirdim. Bu ara yadıma Xanım ana düşdü. Başımı götürüb onun yanına qaçdım. Dünən getməmişdim. Özü təkid etmişdi ki, gəlmə. Onun dərdindən arada bir fasilə verirdim.

Hər gedəndə Xanım ana bütün qonşuları xəbər alırdı. Mənim tanıdıqlarımı, hətta adbaad soruşurdu. Filankəs nə təhərdir? Filankəsi görürsənmi? Bəli, Xanım ana hamı ilə maraqlanırdı. Bir xoş xəbər eşidəndə, həyatdə sağlıq-salamatlıq olanda arvad sevinərdi. Bilirdim indi də soruşacaq. Görəsən, Hilalənin ərə getdiyini deyim, deməyim? Desəm, sevinəcək, yoxsa əhvalı pis olacaq? Bu fikirlərlə xəstəxanaya daxil oldum. Hələ palataya girməmişdən koridorda qabağımı ortayaşlı tibb bacısı kəsib udquna-udquna dedi:

– Xanım ananın yanına gedirsiniz?

– Bəli, – deyə başımla da təsdiq elədim.

– Bilirsinizmi... Xa...nım ana yoxdur daha.

– Nə danışırsız?! – Heyrətlə tibb bacısının üzünə baxdım. O yazıq da qəmli-qəmli dedi:

– Hə. Bir az bundan qabaq...

Elə bil dizlərimi sındırdılar. Özümü güclə palataya çatdırdım. Gəlib Xanım ananın yatdığı çarpayının yanında boş stulda oturdum. Guya, Xanım ana harasa koridora, eşiyə-bacaya çıxmışdı, indi gələcəkdi. Əslində, nə olduğunu, nə baş

verdiyini, mən başa düşürdüm. Başa düşürdüm ki, Xanım ana həyatda artıq yoxdur. Xəstələr də bu lov xəbərin mənə çatdırıldığını bilirdilər. İndi belə susub gözləməkdə məqsədləri o idi ki, mən bir az özümə gəlim. Bununla həm də dərdimə şərik olduqlarını bildirirdilər. Yaxşı. Mən niyə dayanmışdım? Kimi gözləyirdim? İşimdə olmalıydım. Xanım ananın bu dünyada məndən başqa kimi vardı ki?! Nə eləsəm, mən eləməli idim. Ona görə durub həkimin yanına gəlib soruşdum:

– Bağışlayın, mərhumu hardan götürə bilərəm?

– Morqdan! – O da çox qəmli halda cavab verdi.

Daha heç nə soruşmadım. Küçəyə çıxıb tez bir maşına oturdum. Sahibin yanına getdim. Ordan da dayıma xəbər verdim. Təzədən xəstəxanaya qayıtmışdım ki, heç yarımca saat keçməmiş bir neçə nəfərlə dayım da gəlib çıxdı. Düzü, dayımın gəlişi məni yaman qürrələndirdi. Bu çətin ayaqda adamın dadına çatmağın böyük iş olduğunu bütün varlığımla hiss elədim. Yoxsa çaşıb qalmışdım. Bilmirdim hansı işdən yapışım. Başbilənim, yol göstərənim yox idi. Ev sahibəmin kimsəsiz olduğunu dayıma xatırlatmağı lazım bildim.

– Dayı, sənə əziyyət verməzdim. Ancaq mərhumun heç kəsi yoxdur.

– Nə olar, yaxşı iş görürsən, savabdır! – deyə o mənə ürək-dirək verdi. Sonra aram-aram qərarını bildirdi: – Zənnimcə, işi sabaha qoymamalıyıq. – O, növbətçi həkimin otağına keçdi. Orada lazım olan sənədləri düzəltdirdi və harasa zəng çaldı. Az keçmiş bir nəfər gəldi ki, maşın həyətdə hazırdır.

Mərhumu xəstəxanadan götürüb məscidə apardıq. Oradan evinə gətirdik. Sağ olsunlar. Tanış-biliş, qonum-qonşu hamı əl yetirdi. İş yoldaşlarımdan beş-altı adam gəlmişdi. Onlar növbə ilə cənazəyə girdilər. Göyçəli Məhəmmədoğlu da Sahib də, məhlulqarışdırıcı motorda işləyən Zakir də, başqaları da elə bil öz doğma analarını götürürdülər. Onu neçə il yaşadığı mənzilinə gətirdik. Dedik gözü geridə – ev-eşiyində qalmasın. Əslində, Xanım ananın həyatda heç nədə gözü yox idi. Gözü-könlü tox arvaddı. Onun yalnız bir istəyi, bir arzusu vardı, o da yeganə oğlu idi. Müharibədən qayıtmayan oğlu. O hələ də oğlunun yolunu gözləyirdi ki, gələcək. Bu necə inam, bu necə arzu, istək idi, başa düşə bilmirdim. Yəqin, Xanım arvad özü bilərəkdən inamını qırmaq istəmirdi. O da bunula yaşayırdı... Xanım ana geyinib-kecinib həyətə, küçəyə də çıxardı, dəvət olunanda toya, nişana da gedərdi. O yaşda olan adamlar, adətən, tənhalığı, sakit həyatı çox sevirlər. Amma Xanım ana belə deyildi. Qapısını bir adam açanda sevinirdi. Evinə nəsə bir şey soruşmağa, nəsə bir diləyə gəlmiş qonşunu da güclə otuzdurar, qabağına bir stəkan çay qoyardı. Buna baxmayaraq, Xanım ananın evi çox səssiz-küysüz olardı. Onun qapısı az açılıb örtülərdi, zəngi az çalınardı. İndi isə qapı taybatay açılmışdı. Xanım ananın ölümündən xəbər tutan qonşular da töküləb gəlmişdilər. Çox vaxt kimsəsiz olan otaq indi adamla dolmuşdu. Gəlməklərindən razı idim. Az qalırdım onlara bir-bir təşəkkür eliyəm, minnətdarlığımı

bildirəm. Ancaq bircə ona yanırdım ki, sağlığında bunun biri gedib ona dəymədi. Yazıq arvadın da xətri xoş olardı. Bilərdi ki, onu da sayırlar, onu da unutmayıblar. Bunu dilinə gətirib giley-güzar eləməsə də, bilirdim ki, ürəyində inciyir, küsür. İndi gəlmişdilər, indi də onun xəbəri yoxdu. Elə bil hər şey tərsinə düşmüşdü, hər şey baş-ayaq olmuşdu. Amma mən elə istəyirdim ki, Xanım ana onun üçün narahat olan, ayaq üstə qalan, müəyyən bir iş görən bu adamları görsün. Onda incikliyi, umu-küsüsü gedərdi. Amma artıq iş-işdən keçmişdi.

Fikirli-fikirli kənarda dayanmışdım. Birdən dayım qolumdan tutub məni kənara çəkdi. Gizlincə əlini cibinə saldı, pul çıxartdı.

– Ala bu pulu, – dedi. – Qənd, düyü alarsan. Hazırlıq görmək lazımdır. Hər halda, gələn-gedən olacaq.

Elə təntimişdim ki, belə şey yadıma düşmürdü. Yaxşı ki, dayım yadıma saldı. Yas yeri idi. Gələnin qabağına bir stəkan çay qoymaq lazım idi. Buna görə dayıma minnətdar olsam da, pulundan imtina elədim. Tez əlimi qaldırıb:

– Yox, yox! – dedim. – Özümdə pul var.

Dayım təkid etdi:

– Tut görüm.

Yaxamı yenə kənara çəkdim.

– Varımdır axı! Olmasa hə. Arvadın öz pulu da var.

Dayım yaxın gələrək gözlərini ağartdı.

– Dəlilik eləmə, camaatdan eyibdir! – O, əlindəki pulu pencəyimin üst cibinə basdı. Mən də daha uzatmadım. Pulu götürdüm.

Gözümü fırlayanda gördüm Xalıq kişiylə Firəngiz xanım da buradadırlar. Nə vaxt gəlib oturduqlarını görməmişdim. Otaq bircə olduğu üçün arvad, kişi hamı bir yerdə oturmuşdu. Bunları görəndə mən əvvəlcə əsəbiləşdim. Bu, özümdən asılı deyildi. Sonra özümü ələ aldım...

Yas yerinə gələnlər gecə saat on ikiyə yaxın dağılışmağa başladılar. Dayım ayağa qalxanda mən də durdum.

– Dayı, bağışla, sənə əziyyət verdik! – Mən ev sahibi kimi minnətdarlıq etdim və aparıb həyətdən yola saldım. Qayıdanda gördüm ki, qonşular da dağılışıblar.

İndi evdə üçümüz qalmışdıq. Mənlə Sahib, bir də molla. Tək olduğumuz üçün ondan xahiş eləyib saxlamışdıq. O da böyrünü divana verib balaca kitabçadan pıçıltı ilə oxuya-oxuya mürgüləyirdi. Hələ göyçəli Məhəmmədin oğlu da qalmaq istəyirdi, mən qoymadım.

– Get rahat ol, amma səhər tezdən gələrsən. – Ona çox ciddi şəkildə tapşırdım. Səhəri gün, hər halda, işimiz çox olacaqdı. Ən birinci qəbiristanlıqdan yer alınması və qəbrin qazılması qayğısına qalmalı idik. Qalan işlər asan idi. Maşın-zad məsələsini dayım öz boynuna çəkmişdi. Bunlardan əlavə elə bir ağır iş qalmırdı. Çay işinə motorçu Zakir baxacaqdı, xörək-çörək üçün də adam

tapmışdıq. Biri elə mənim paltarımı yuyan o arıq arvad idi. Həm də o, Xanım anaya yaxın adam idi. Xanım ana onun bişi-düşüsünü, təmizkarlığını həmişə tərifləri. İndi elə Xanım ananın ruhu şad olardı ki, ehsanını bu arvad hazırlayır. Bax, beləcə görüləcək işləri, vəzifələri öz aramızda paylaşdırmışdıq. Ümumiyyətlə, işləri hələlik pis təşkil etməmişdik. Amma adamlar ki birdən-birə çəkilib getdilər, otaqda elə dəhşətli bir sükut yarandı ki, qulaqlarım batdı. Mən də özümdən asılı olmayaraq evin bu vəziyyətinə uyğun hərəkət edirdim. Az qalırdım ayaqlarımın ucunda yeriyəm. Bayırda da sakitlik idi. Külək-zad əsmirdi. Elə bil hava da Xanım anaya yas saxlayırdı.

Mən sükutu pozdum:

– Sahib!

– Hə.

– Deyirəm sən yat.

– Yatım?

– Hə!

– Yatmaq olmaz axı.

– Niyə?

– Ölü olan yerdə yatmazlar.

– Necə?

– Necəsi budur ki, yatmazlar. Axı kimsə oyaq qalmalıdır.

– Mən onsuz da yatmıram. Sən yat.

– Mən də istəmirəm yatmaq.

– Dəli olma. Mütləq istirahət lazımdır. Elə olsun ki, sabah ayaq üstə dayana bilək.

– Bəs sən?

– Mənə fikir vermə.

– Mən də yatmayacağam. Yaxşı olar siz yatın dincəlin, – deyə yaşlı molla fağır-fağır dilləndi.

Sonra Sahiblə mən mətbəxə keçib sabahkı işlərimizin planını tutduq.

Sahib qaz pilətəsinin qabağında dayanmışdı. Qazı söndürməmişdi. Havanın xəfə, hələ bir qədər də isti olmasına baxmayaraq, əllərini qazın üstünə tutub alovla oynayırdı. Əllərini alova gah yaxınlaşdırır, od dəycək, isti olcaq tez geri çəkirdi. Qanı qara idi. Bununla başını qatıb qəmini-qayğısını dağıdırdı. Bəlkə də, üşüyürdü, ona görə belə edirdi. Əlilə, ovcu ilə od yığırdı ki, canı bir az qızışsın. Sözsüz, həyatın soyuq üzündən isti üzü daha yaxşı idi. Soyuqla oynamaqdan isti ilə oynamaq sərfəli idi. Nə isə, mane olmadım. Bir azdan o, bu əyləncəsindən bezib əlini qazdan çəkəndə mən dedim:

– Yatmasan da, hər halda, uzanmaq lazımdır.

Bu dəfə etiraz etmədi.

– Özün bil, – deyə çiyinlərini bekarca çəkib razılaşdı.

Xanım ananın mətbəxi geniş idi. Gətirib qazın qabağından yer saldım. Yer saldım deyəndə ki, yorğan-döşək tökmədim. Yalnız taxta döşəmənin üzərinə bir köhnə xalça atdım. Yuxarı başına isə mütəkkə, balış qoydum. Bu da oldu dostum Sahibin yeri. O da buna pis baxmadı. Özünü elə apardı ki, yer elə bu cür olar. Elə geyincəkli uzandı. Çox yorğun görünürdü.

Əslində, mən bütün bu işlərə hamının ən birinci, ümdə borcu kimi baxırdım. Kim olur-olsun, ölünü urvatla son mənzilinə yola salmaq lazımdır. Ondan sonra o biri işlər başlayır. Bunu Sahib də bilirdi. Mən bu işin nə dərəcədə ağır olduğunu, çətinliyini hələ balaca vaxtımda görmüş, hiss eləmişdim. Onda beş-altı yaşım ancaq olardı. Özü də çox çətin vaxtlar idi. Bizim kənddə bir qoca kişi ölmüşdü. Qoca deyəndə ki, çox da əldən-ayaqdan düşməmişdi. İki oğlu müharibəyə gedib-gəlməmişdi. Doğrudur, o zamanlar mən hələ çox şeyi dərk edə bilmirdim. Amma sonralar eşitdim ki, həmin kişinin oğlanlarından qara kağız gəlibmiş. Bunu da kişi bilirmiş. Ancaq nə qarısına, nə gəlinlərinə, nə də hələ təzə-təzə əldə-ayaqda hayına yetən nəvələrinə deyirmiş. Bu dərdi ürəyində təkcə özü çəkirmiş. Danışırmış da, gülürmüş də. Amma tez-tez ağladığını da görən olubmuş. Kişi bir dəfə həyətində mərəyə girib ağlayırmış. Necə hövüllənibmişsə səsi, hıçqırığı eşiyə gəlirmiş. Arvadı eşidib başıalovlu tez mərəyə girir.

– A kişi, a kişi, nə olub sənə, niyə ağlayırsan?

Bu da nə desin! Deyir ki, ay arvad, uşaqlar birdən yadıma düşdü, özümü saxlaya bilmədim.

– Anaları ölsün! Anaları daşa dönsün! – deyə arvad şappıltı ilə dizlərinə döyməyə başlayır və o da ağlayır.

Bir-birlərinə qarışırlar. Axırı kişi görür arvad özünü öldürür, təzədən canının dərdindən toxtayır və deyir:

– Yaxşı, bəsdir, kiri, ay arvad! Uşaqlar eşidərlər, qorxarlar.

Bir də bu kişinin bir xasiyyəti vardı ki, axşamlar içəridə lampa solğun-solğun yanıb, eşik zil qaranlıq olan vədələrdə eşidirdin ki, bayatı çəkir. Səsi bizim aşağı məhəlləyə gələrdi. Bilərdilər ki, Kaloğludur. Elə yanıqlı-yanıqlı oxuyardı ki, mən uşaq ola-ola ətimdən sümüyüm aralanardı. Bir ondan eymənərdim, bir də həmən vədələrdə aşağı məhəllənin uçuq kalafalarına bir quş gəlib elə vahimə ilə səslənərdi ki, yerimə uzanmış olsam da, qalxıb dik oturardım. Axırı o kişi vərəmləyib öldü. Elə yadımdadır ki, babamın əlində nəsə vacib işi vardı, kişinin ölümünü eşidib baltasını bir tərəfə, mişarını o biri tərəfə tulladı və:

– Mən ora gedirəm, – dedi.

Yüyürüb mən də əlindən yapışdım.

– Mən də gedirəm, – dedim.

O vaxtlar məni babama elə bil bitişdirmişdilər. Hara gedirdisə, əlindən, ətəyindən yapışardım. Pis öyrənmişdim. Oturanda otururdum, duranda dururdum.

O da xətrimə dəymirdi. Başımı-gözümü sığalladıqca ona daha bərk bağlanırdım. Ancaq bu dəfə məni özündən kənar elədi.

– Yox! Sən getmə!

– Niyə?

– Elə yerə uşaq getməz.

– Niyə getməz?

– Nə var eyy, orda?! Adam ölüb. Elə bir ürək açılası şey yoxdur ki, sən də gedəsən.

– Adam ölüb? – Elə bil mən bu ölümün nə olduğunu uşaq ağlımla dərk etmək istəyirdim.

– Hə də!

– Necə ölüb?

– Necə nədir?! Əcəli çatıb, o da ölüb.

Babam özü də bilirdi ki, mən onun dediklərini başa düşmürəm. Amma yenə deyirdi. Mən də əl çəkən bəla deyildim. Kişinin əlindən necə yapışmışdımsa, buraxmaq istəmirdim. Babam da məcbur olub məni apardı. O yadımda qalıb ki, ölən kişinin həyətinə çoxlu adam toplaşmışdı. Arvadlar içəridə ağlaşırdılar. Kişilər isə həyətdə kör-kötüyün üstündə oturmuşdular. Söhbət edirdilər. Ölən kişi özü harda idi? Onu görmürdüm. Bir də həyətdə nərdivan fason bir şey var idi. Bir də gördüm adamlar onu çiyinlərinə aldılar və qaçaraq getməyə başladılar. Hara tələsirdilər, bilmirəm. Babam da onlara qarışıb yeyin gedirdi. Mən babamdan ayrı düşmüşdüm. Ağladım ki, səsimi eşidib dayansın. Amma dayanmadı, geri mənə sarı baxmayıb əlini yellədi, çıxıb evə gedim... Qayıdıb gələndə həyətdə özü məni axtarırdı.

– Ayə! Ay Mahir!

Ölən kişinin evinin böyründə güllükdə oturub aşağı dərədə çilingağac oynayan uşaqlara baxırdım. Babamın səsini eşitsəm də, ona tərəf baxmırdım. Küsmüşdüm ondan. Bir də o özü məni gördü.

– Ayə, burdasanmı, qadan alım.

Yanıma gəlib əlini uzadanda mən də qolumu qaldırdım. Sonra o yadımdadır ki, bizə orda yemək verdilər. Nəsə kəsmişdilər. Ət bişirmişdilər. Onu bilirəm ki, babam barmağının ucu ilə tikələri mənim qabağıma itələyirdi. Mən də görməmiş təki elə hövllə yeyirdim ki, tikələrin çoxu boğazımdan diri-diri keçirdi.

Sən demə, mənim də atamdan qara kağız gəlibmiş. Bunu da babam bilirmiş, çoxu ona görə mənim nazımla oynayırmış. Belə körpə vaxtımdan atasız qaldığıma yanıb-yaxılırmış. Mənimsə nədən xəbərim vardı?! Qarnımı doyurandan sonra heç nəyi vecimə almayıb həyət-bacada gəzirdim. Əslində, bizim öz evimiz vardı. Babamgildən bir azca aralı, bir göz otaq idi. Damı da dümdüz torpaq idi. Üstündən kül, gilli torpaq tökmüşdülər ki, yağış olanda dammasın. Qabaq tərə-

findən də iki dənə balaca pəncərəsi vardı. Qapıya bir qədər yaxın, həm də onun bərabərində böyük bir tut ağacı vardı. Yaxşı kölgəsi olsa da, ancaq heç vaxt tut gətirməzdi.

– Ay bala, sənin bəxtindən bu da erkək çıxdı, – deyə neçə dəfə nənəm mənə baxıb qayğılı-qayğılı gümüldənmişdi.

Ancaq biz öz evimizdə qalmırdıq, ana babamgildə olurduq. Atamın kənddə, demək olar ki, heç kəsi yox idi. Atası, anası çoxdan ölübmüş. Bir bacısı olub, o da hələ davadan qabaq harasa uzaq yerə ərə gedib. Ölmüşdü, qalmışdı xəbər yox idi. Atam gedəndən sonra adamı yox idi. Çox uzaq qohumları vardı. Onlar da gəlib-getməzdilər. Hərənin başı öz işinə-gücünə qarışmışdı. Bunların hamısını mən böyüyəndən sonra bildim. Nəsə maraqlandım, qohum-əqrəba axtardım. Onu deyim ki, bir şey çıxmadı.

Düzünü deyim atam o qədər yadıma düşmürdü, çünki görməmişdim. Amma bir az böyüyəndən sonra evimiz heç yadımdan çıxmırdı. Qabaqlar balaca olanda əhəmiyyət verməzdim. Ona heç gözümün qulağı ilə də baxmazdım. Evdə bir evlik qalmamışdı. Ətrafını ot-əncər basmışdı. Divarlarında ot bitmişdi. Suvağı tökülmüşdü. Daşları qaralırdı. Bir az yaxın gedib görmüşdüm ki, çərçivələri də çürüyüb. İsti yay günlərində ora-burası çürüyüb qopmuş pilləkən daşlarının üstündə kərtənkələlər ləhləşirdi. Evimizlə maraqlandığım vaxtlarımda evin kənarına belə yaxın getməyə qorxurdum. O tərəfə hərlənəndə babam-nənəm həmişə deyərdi:

– Ədə, bəridə, bu yanda oyna, ora ilan-çayan yuvasıdır.

Amma bir qış, daha doğrusu, yaz ağzı dayana bilmədim, qara bata-bata gedib qapının ağzına çıxdım. Sağ cinahda hələ eşikdə yuxarıdan buxarıya da qar yağmışdı, qara daşlar qocalmış təki görünürdülər. Bu, məni o qədər də özünə çəkmədi, qıfılı tərpətdim. Çoxdan, lap çoxdan əl dəyilmədiyindən pas kəsmişdi. Heç əl vurmaq mümkün deyildi. Kim bilir açarı harda qalmışdı. İkiəlli qıfıldan tutub dartmağa başladım. Dartadart, bir də gördüm qıfıl açılır. Sən demə, heç kilidləməyiblərmiş. Yəqin, açarı lap əzəldən olmayıbmış... Axı kimin nəyinə lazım idi. İçərisində qızıl da olsa, dəyən olmazdı. Amma eşitmişdim ki, heççə bir şey yoxdur. Bir-iki xalça-palaz varmış, onu da götürüblər.

Mən yavaşca qıfılı rəzədən çıxartdım. Bunu çoxdan eləmək istəyirdim. Hər dəfə evimizin yanından oyana-buyana ötüb keçəndə elə bil daş-divar dil açıb deyirdi ki, bəs sən niyə bura gəlmirsən. Elə bil sən heç bu evin oğlu deyilsən. Bu səs mənə qeyibdənmi gəlirdi? Yoxsa, həqiqətən, mənə belə deyən vardı? Hətta bir dəfə gecə durub yuxulu-yuxulu yorğan-döşəyimi iki qatlayıb qucağıma götürmüşəm. Bilmirəm yuxumu görmüşəm, yoxsa görməmişəm. Amma bu, həqiqətən, belə olub. Qapıdan çıxanda nənəm oyanıb qolumdan yapışıb.

– Ədə, hara gedirsən?

– Hara gedirəm? – Yuxulu olduğumdan hara getdiyim özümə də aydın deyilmiş. Ağlımı birtəhər başıma cəm eləyib deyirəm.

– Yatmağa.

Nənəm dəli olur ki, bu uşaq nə danışdığıdır?!

– Hara?

Ağlı başında olan adamlar kimi bayaq dediyim sözü bir də təkrar edirəm.

– Booy! Qurbanın ollam, ay oğul, bismillah de! Bismillah de! – Nənəm boynumdan qucaqlayıb məni sinəsinə sıxır. Bu yerdə oyanıram, daha bir söz demirəm. Nənəm əlimdən yorğan-döşəyi alıb yerimi təzədən salır, balışımı ordan-burdan vurub yumşaq eləyir ki, rahat yatım, qara-qura məni basmasın. Ancaq xəbəri yoxdu ki, fikrim artıq öz evimizdə idi. Burda yox, orda yatmaq istəyirdim. Öz evimizdə yaşamaq istəyirdim...

İndi öz evimizə gəlmişdim. Qapını içəri itələyib iki tayını da açdım. Çoxdan içərisində adam yaşamayan, kənardan baxanda çox miskin, hələ bir az da qorxulu görünən bu evə birdən-birə daxil olmağa elə bil cəsarət etmədim. Gözlədim bir az işıqlaşsın, gözlərim içəri alışsın. Ancaq otağın kəsif havası məni artıq vurmuşdu. Dəhşət rütubət iyi gəlirdi. Elə bil bura ev yox, su anbarı idi. Suyunu axıtmışdılar, ancaq daşı-divarı bütüncə su idi.

Ayağımı içəri qoydum. Yeri torpaq idi. Bunu bilirdim. Eşitmişdim ki, atam davadan qabaq taxta vurdurmaq istəyirmiş, sonra aləm bir-birinə qarışıb, bu da yarımçıq qalıb. İndi elə bildim ki, ayağım palçığa batacaq, ancaq elə olmadı. Yeri qurutəhər idi. Həm də qapıdan düşən işıqda otaq aydınlaşanda gördüm ki, içəri bomboşdur. Yuxarı başda divara vurulmuş şəkli görcək əvvəlcə gözümə inanmadım. Bəbəklərimi daha geniş açıb baxdım. Daha bunun o yanı, bu yanı yox idi. Divarda, həqiqətən, şəkil vardı. Maraqlandım ki, kimin şəklidir. His-toz basdığından, çoxdan silinmədiyindən şəkil yaxşı görünmürdü. Ona görə bir az da yaxın getdim. Diqqətlə baxanda gördüm atamın böyüdülmüş şəklidir. Onun kiçiyi babamgildə vardı. Əlimi uzadıb çərçivəni bir balaca tərpətmişdim ki, əlimə gəldi. Sən demə, divarda amanat durubmuş. Hələ heç daşın üstündən düşməmiş qolumun yanı ilə şəklin şüşəsini silib baxdım. Burnunun altında qısa bığı olan bir kişi qolunu hündür bir dolabın üstünə qoyub yanpörtü bəri baxırdı. Çox təəccüblü gəldi ki, atam bu şəkildən də düz mənə baxırdı. Başa düşmədim bu necə çəkdirib ki, düz mənə baxır. Məni heç görməyib, məni heç tanımır, amma mənə baxır. Daşın üstdən hoppanıb bir az qapıya tərəf işığa gəlirdim ki, babamın səsini eşitdim. Başımı qaldıranda gördüm babam qapının ağzında dayanıb.

– Onu o vaxt anan götürürdü, mən qoymadım, – deyə qoca başını sinəsinə endirdi.

Başa düşdüm şəkli deyir. Mən də nəyə görəsə, bəlkə də, elə-belə dedim:

– Götürürdü?

– Həəə! – Babam bu dəfə mənimlə elə danışırdı ki, deyirdin mən bığlı-saqqallı kişiyəm. Həm də icazəsiz bura gəldiyimə, qapını açdığıma görə mənə bir söz deməyə ixtiyarı çatmır. Mən də fikirli-fikirli soruşdum:

– Bəs niyə qoymadın götürə?

– Nə bilim, – babam qaşlarını çatıb fikrə getdi. – Dedim öz öyündə olsun, fikirləşdim ki, onda tez qayıdıb gələr.

– Bəs niyə gəlmədi?

– Nə bilim, vallah, bunu demək çətindir. Görünür, hardasa ilişib ləngidi.

Mən indi çaşbaş qalmışdım. Bilmirdim şəkli aparım, aparmayım. Aparmayanda burda qalıb çürüyürdü. Aparanda isə şəkli də evindən çıxdığına görə atam tez qayıdıb gəlməz. Qaytarıb geri, yerinə asmaq istəyirdim ki, babam dilləndi:

– Bir də nə fərqi var, ora, bura, ikisi də onun öyü deyilmi?!

Təzədən dayandım. Çünki şəkli burda qoymaq istəmirdim. Ev elə bir bərbad vəziyyətdə idi ki, adicə bir cansız şəkli də burda saxlamaq insafdan deyildi.

Eşikdə orda-burda qar ərnikləmişdi. Yan-yörədəki yamacların ətəklərində qara torpaq zolaqları görünürdü, təbiət qışdan silkinib çıxmaq üçün günün balaca bir işartısına bənd idi. Üfüqdən bir az çox boylandımı dərələrdə suların şırıltısı artacaq, torpaq orda-burda təpiyib quruyacaqdı. Belə bir vaxtda bu evə də bir əl gəzdirmək lazım idi. Buna çox ciddi ehtiyac olduğunu hiss edirdim.

Düzünü deyim, uşaq olsam da, atamın gəlib-gəlməməsinin nəsə şəkillə əlaqədar olduğu mənim o qədər də ağlıma batmadı. Ancaq bu fikrə gəldim ki, şəkli aparım. Şəkli yox, elə bil atamın özünü aparırdım. Mən sanki onun əlindən tutmuşdum və biz ata-oğul harasa gəzməyə gedirdik. Söhbətlərdən, danışıqlardan o qədər ata həsrəti çəkmişdim ki, indi şəklini belə əlimdən yerə qoymaq istəmirdim. Aparıb göz qabağına vuracam, axşam-sabah görüm. Qar-zad əriyəndən sonra bu evə əl gəzdirərəm, səliqəyə salaram, istəsəm, şəkli onda gətirib yerinə vuraram.

Həəə. Mənim də başım az çəkməyib. Bir parça vaxtımdan çətinlikdə, əzab-əziyyətdə olmuşam...

Sahib palazın üstə sürüşüb bir az yana çəkildi. Mənə işarə etdi ki, gəl sən də yanımda uzan. Ürəyimdə razılaşmadım. Axı yaxşı deyildi. Meyiti orda molla ilə tək qoyub burda necə yatmaq olardı. Fikrimi Sahib başa düşdü.

– Hər halda, sən də bir balaca dincəlməlisən, yoxsa səhərədək stulda oturmaq olmaz.

Düz söz idi. Gedib Sahibin yanında uzandım. İkimiz də dinməzcə gözlərimizi tavana zilləmişdik. Guya, dincəlirdik. Amma dincəlmək nə gəzirdi. Altımızda qalınaraq bir şey olmadığından quru yer yanımızı, kürəyimizi qırırdı. Elə-belə vaxt olsa, bura dünyasında uzanmazdıq.

Elə yorulmuşdum ki, sümüyümün hərəsi bir dil deyirdi. Boşaldıqca, dincəldikcə ağrılarımı hiss edirdim. Qəribə idi. Bu nədən idi? Mən axı həmişə işdə

olan adam idim. Özü də kağız-kuğuzla məşğul olmurdum. Stol dalında oturanlardan deyildim. Mənimki ağır iş idi. Hər gün neçə dənə kubik qaldırırdım. İndiyədək qaldırdığım, götürüb konteynerə atdığım kubikləri üst-üstə bir yerə yığsan bir böyük dağ olardı. Bəs niyə belə dəhşətli yorulmuşdum. Görünür, çoxu fikirlə, əsəblə əlaqədar idi. Əvvəlcə belə düşündüm ki, mən bu gecə dünyasında yata bilmərəm. Gözümə yuxu getməz. Həqiqətən, gözlərim elə bil getdikcə daha bərk açılırdı. Ancaq bir də gördüm gözlərim süzülür, yatmaq istəyirəm. Əlbəttə, bir az mürgüləsəm yaxşı idi. Yorğunluğum bir azca çıxardı. Bu fikirdən daha da yuxum gəldi, kirpiklərim bir-birinə qovuşdu. Bilmirəm yorğunluqdan idimi, yoxsa həqiqətənmi belə şey baş verirdi. Gözlərimi təzəcə yummuşdum ki, gördüm içəri bir bölük əsgər daxil oldu. Cavan-cavan oğlanlar idi. Çox qıvraq geyinmişdilər. Rəsmi yerişlə gəlib iki bölündülər. Bir hissəsi cənazənin bir tərəfində, o biri hissəsi o biri tərəfindən dayandı. Mən də quruyub qalmışdım. Bunlar kim idi. Nə etmək istəyirdilər? Yəqin, fəxri qarovulda dayanırlar. Bu ara həmin əsgərlərdən iki nəfəri o yandan, iki nəfər bu yandan çıxıb irəli gəldilər. Cənazəni götürüb çiyinlərinə qoydular. Rəsmi keçidə oxşar addımlarla qapıdan çıxarırdılar ki, dəli olmadımmı? Bu nə iş idi mənim başıma gəldi? Sabah mən camaatın üzünə necə baxacam? Deməyəcəkdilərmi meyid hanı? Onda mən nə cavab verəcəkdim?

Bu ara:

– Eeyy, bu gecə vaxtı hara aparırsınız? Səhəri əlimizdən alanmı var?! – deyə qışqırıb ayılanda gördüm içəridə molladan və meyitdən başqa heç kəs yoxdur.

Mən qışqırıb yerimdən sıçrayıb duranda Sahib səksənib qalxmışdı. Matdım-matdım üzümə baxırdı.

– Deyəsən, yuxunu qarışdırmısan, ə?

– Hə, gördüm ki, meyiti aparırlar!

– Deyəsən, başın xarab olub. Kimdi, ə, meyiti aparan? Fağırca arvadın kimi var, kim aparsın?!

– Vallah aparırdılar. Onu aparmağa bir bölük əsgər gəlmişdi. Hələ komandirləri, zabitləri də gəlmişdi. Deyəsən, biri də oğlu idi.

– Uzan, yuxu görmüsən.

Bir xeyli dinməz uzandıq. Bu dəfə Sahib dilləndi:

– Dayın yaxşı başlamışdı, sonra yenə korladı.

Təəccüblə başımı silkələdim.

– Nə etdi ki?!

– Özünü camaata göstərirdi.

Bilmədim bu nə deyir? Başımı buladım ki, sözünü açıq söylə.

– Pul verməyini deyirəm də! Əlini cibinə salıb pulu xışma ilə çıxardır. Guya, əliaçıq adamdır.

«Pa atonan! Bu gədə elə bayaqdan bunu fikirləşirmiş? Bunu içinə salıb qarnında fırlaya-fırlaya qalıbmış? Gör bir!» Bilirdim dayımdan acığı gəlir. Birinci Kəmaləyə görə. Sahib, deyəsən, onu istəyirmiş. Hələ də ürəyindən çıxartmayıb. İkincisi Mirişə görə. Bu iş icraçısı da bizim başımıza bir əngəl olmuşdu. Mirişin bütün təqsirlərini o, dayımda görürdü.

– Ondan üz görməsə, – deyirdi, – bu burda o cür oyunlar çıxara bilməz.

Bu məsələdə, əlbəttə, Sahiblə höcət edə bilməzdim. Dilim qısa idi. Mən də çox vaxt dayım barəsində o cür düşünürdüm. Ancaq indi dayımın mənə pul verməsi məsələsində Sahib tamam haqsız idi. Çünki dayım elə adam deyildi. Özünü gözə soxmazdı, yüngüllük eləməzdi. Buna ehtiyac da yox idi. Nə üçün edirdi? Özünü kimə göstərirdi? Boş söz idi. Dayım bunu açıq ürəklə eləmişdi. Xeyri-şəri başa düşən adam idi. Dayım olduğu üçün demirəm. Bunlar, ümumiyyətlə, nəsillikcən elə adamlar idilər. Babam həmişə deyərdi ki, ay oğul, tələf-xərclik yaxşı şey deyil, kişi gərək pulunun başını tuta bilsin, amma yeri gələndə xərcləməyi də bacarsın. El xeyirsiz, şərsiz olmur.

Bütün bunlara əsaslanaraq Sahibə etiraz etdim.

– Düz demirsən!

– Nəyi?

– Dayım barəsində.

– Müdafiə edirsən?

– Yox. Demək istəyirəm dayım elə adam deyil. Pulu ona görə verdi ki, lazımınız olar. Bax, sabah səni göndərəcəm gedib bir kisə düyü, yağ, bir kisə qənd, çay alıb gətirərsən. Lap tezdən. Bilirsən dəə. Mağazalar saat səkkizdən açıqdır.

Elə danışdım ki, daha bu oyan-buyan eləmədi. Xüsusilə bu məsələdə o sözü uzatmazdı. Amma xoşu gəlmədiyi, tez-tez qarasınca danışdığı adamın pulu ilə bazarlıq eləməyi də özünə sığışdırmadı.

– Öz puluma nə olub?! – dedi.

Mən gülümsədim.

– Ayə, ikinizin də pulunuz lazım deyil! Rəhmətliyin özünün puluna nə gəlib. Odur ey, şifonerdə beş yüz manat. Hələ xəstəxanaya gedəndə ora qoymuşdu ki, demək olmaz...

– Bay sənin! – deyə Sahib başını buladı. Özgə bir söz demədi. Eləcə heyrətlə başını yellədi. Yəqin, onu demək istəyirdi ki, insan necə qüdrətlidir ki, hətta ölümü üçün də hazırlıq görür.

Bir azdan təzədən yerimizə uzandıq. Bərk yorulmuşduq. Yatmasaq da istirahət etmək lazım idi. Sabah işimiz olduqca çox olacaqdı. İkimiz də qollarımızı gərib əllərimizi başımızın altına qoymuşduq. Fikrə getmişdik. Mən fikirləşirdim ki, insan öldü, unudulub gedir. Bu gün, sabah Xanım ana da unudulacaq. Oğlu, qızı, nəvə, nəticəsi olanlar unudulurlar, bu hay-hay unudulacaq. Elə yaddan çıxa-

caq ki, guya, heç belə adam olmayıb. Düzü, pis oldum. Bu cür gözəl, qayğıkeş, mehriban, hər şeyin yerini bilən bir insanın unudulacağına qıymadım. Deyirəm, gecələr bəzən adamın ağlına elə şeylər gəlir ki, gündüzlər dünyasında o cür düşünməzsən. Bax, ağlıma gəldi ki, çıxasan lap hündür bir yerə, ordan qışqırıb Xanım ananın vəfat etdiyini hamıya xəbər verəsən. Lap radioda danışılan kimi deyəsən: bu gün uzun sürən ağır xəstəlikdən sonra qəhrəman bir ana... Mən hamını başa salardım ki, Xanım ana, həqiqətən, qəhrəman ana idi. Hər ağrıya, hər çətinliyə dözümlü arvad idi. O, əsl dözümlülük mücəssəməsi idi. Dörd divar arasında, bir damın altında tək-tənha... Bax, bu müharibənin özündən də betər idi. Bu fikirdən bir qədər həyəcanlanıb qeyri-iradi olaraq başımı çöndərib açıq qapıdan cənazə olan otağa baxdım. Bayaq içəri adamla dolu idi. Qələbəliyin, qalmaqalın, səs-küyün içərisində cənazə özü də elə bil diri idi. Bir yerdə qoyulmuş və hərəkətsiz dayanmış olsa da, adamların əhatəsində bəzən ölü təsiri bağışlamırdı. Xanım ananın yoxluğunu düşünmək elə bil hələ tez idi. Çünki o, hələ evində, adamların arasında idi. Düzü srağa gün Xanım ana elə yaxşı görünürdü ki, mən dedim daha kəfəni yırtdı. O gün ölüm ona heç yaraşmırdı. Bir yerindən şikayətlənmirdi. Canı ağrısa gülərdimi, danışardımı? Doğrudan, o gün arvad o qədər şən idi ki, elə bil gülmədiklərinin, danışmadıqlarının əvəzini çıxırdı. Sonra da razı-razı:

– Bıy, səni Allah güldürsün, ay Mahir! – demişdi.

Əslində, mən elə bir gülməli söz danışmamışdım. Eləcə demişdim ki, ay Xanım ana sənin bu həkimin danışanda niyə tez-tez burnunu çəkir.

Mən heç belə bilməzdim ki, insanın varlığı ilə yoxluğu qaşla göz arasında imiş. Bütün bunları mən elə xatırlayırdım ki, Xanım ana elə bil nə vaxtsa uzaq bir keçmişdə yaşamışdı. Halbuki fağırca hələ öz evində idi. Elə bil yıxılıb yatırdı. Səhər durub düşəcəkdi bu evin canına. Sil ki, siləsən. Yu ki, yuyasan. Qab-qacaq, stəkan, nəlbəki, hamısını sürtüb, gümüşə döndərirdi. Döşəməni də gündə neçə dəfə silirdi?! Bir dəqiqə boş dayanmırdı. Nasaz olsa da, nəsə bir iş görür, səliqə-sahman yaradırdı.

Bir dəfə işdən gələndə görmüşdüm stolun üstə bir stul qoyub, onun üstünə dırmaşır. Əlində də uzun ağac var. Süpürgəni də onun ucuna keçirib. Qolundan tutub təəccüblə dilləndim:

– Ay Xanım ana, sən nə edirsən?

– İstəyirəm tavanın qurumunu alam.

Stolun üstündəki stula baxıb başımı bulamışdım:

– Bəs demirsənmi yıxılarsan?

– Niyə yıxılıram?! –mehribanlıqla gülmüşdü. Həmişə qocalıb əldən-ayaqdan düşməsindən gileylənsə də, bu dəfə onu boynuna almaq istəmirdi.

– Hər halda, ora mən çıxmalıyam! – Bu işin mənə aid olduğunu bildirdim və əlindəki süpürgəli ağacı alıb yuxarı özüm dırmaşdım.

Xülasə, ev sahibəm otağını bircə dəqiqə belə yığışdırılmamış, töküntü görəndə dəli olurdu. Tez işə girişərdi ki, evini təmiz saxla, qonaq gələr, paltarını təmiz saxla, ölüm gələr. Budur, onun üçün ölüm gəlmişdi. O, indi burda, öz doğmaca evində bircə gecəlik qonaq idi.

Bayaq Xanım ananı ölüxanadan götürəndə o yaşlı tibb bacısı gəlib gözümün önündə dayandı. Fağır arvad bizə nə qədər kömək eləmişdi. İri, cüssəli olsa da, tərpənişi, hərəkətləri elə cəld, çevik idi ki, deyirdin cavanca gəlindir. Demək olar ki, bütün işi o görmüşdü. Biz yalnız ölünü götürüb tabuta qoymuşduq, çıxarıb maşına qaldırmışdıq. Ordan da birbaşa məscidə aparmış, sonra da evinə gətirmişdik. Deyirəm, bunlar Xanım anaya əyan olsaydı, dili ağzına sığmazdı...

Beləcə cürbəcür fikirlər edə-edə başımı yana döndərəndə Sahibin gözlərinin süzüldüyünü gördüm. Yazıq lap işığın altında mürgüləyirdi. Sakitcə durub mətbəxin işığını söndürdüm. Əlbəttə, bunun Xanım ana üçün fərqi yox idi. Onun cənazəsi qoyulan otağın işığı yanırdı. Bunu Xanım ananın özü görməsə də, bəlkə, ruhu görür. Deyirəm, bu gecə vaxtı adamın fikrinə elə qəribə-qəribə şeylər gəlir ki, az qalırsan özün də inanasan. Fikirləşirdim ki, əgər bu ruh varsa, onda ana-oğul çoxdan görüşüblər, Xanım ana bilsə idi ki, ruh olub oğlu ilə görüşə bilər, çoxdan ölərdi. Heç bircə gün də artıq yaşamazdı. Sağ-salamat adam olub tək yaşamaqdansa, ölüb ruh olmaq, istədiyinə, arzu etdiyinə qovuşmaq daha yaxşı deyilmi?! Bəlkə, elə bayaq Xanım ananı çiyinlərinə alıb aparanlar da ruh idilər, mənim gözümə adam şəklində görünmüşdülər?.. Bir də xəbər tutdum ki, mənim də gözlərim süzülür. Tez başımı silkələyib gözlərimi açdım. Yatmaqdan heç belə qorxmamışdım. Elə bilirdim gözümü yumanda gəlib yenə Xanım ananın meyitini aparacaqlar. Əslində, başa düşürdüm ki, belə şey olan deyil. Sadəcə olaraq məni yorğunluqdanmı, fikirdənmi, ümumi zəiflikdənmi qara-qura basır, mənə belə gəlir. Ancaq neynim ki, belə olmuşdu və mən bunu fikrimdən çıxarda bilmirdim. Xanım ananı torpağa özüm öz əlimlə tapşırmaq istəyirdim...

## XVI

Xanım ananın cənazəsini qaldıranda yoldaşlarımın hamısı əl yetirdi. Fağırca arvad ömrü boyu qorxmuşdu ki, ölər, götürəni olmaz, amma indi onun cənazəsinə yeddi-səkkiz oğul girmişdi. Lap elə bu günlərdə mənə demişdi ki, ay oğul, heç ağlım kəsmir bu qışı görəm. Sonra əlavə etmişdi ki, əslində, qışı görməsəm yaxşıdır. Çünki ölünün yükü ağır olur, qarda-boranda adamların əli-ayağı dona-dona... Yox, yox, yer quru ikən ölsəm yaxşıdır.

– Eh, sən də elə sözlər danışırsan ki, ay Xanım ana! – deyə mən də onun qəmini, qayğısını dağıtmağa çalışmışdım.

– Kim dünyanı tutub durub, ay oğul? – mənalı-mənalı başını tərpədib gülümsəyən təki olmuşdu. Qış gününün solğun işartısına bənzəmişdi təbəssümü.

İndi o söhbətləri xatırlayıb onun bu son səfərindəki işinə bir az da artıq can yandırmağa çalışırdım. Bu gecə yatmamağım bir yana dursun, səhər də obaşdan durmuşdum. Axşamdan qərarlaşdırdığım kimi Xanım ananın dəfni ilə əlaqədar işləri görməyə başlamışdım. Birinci, evdə yenə səliqə-sahman yaratmışdım. Sonra da Sahibə pul verib onu mağazaya göndərmişdim, lazım olan şeylərin siyahısını vermişdim. Paltaryuyan arvad da tezdən gəlmişdi. Xanım ananın cənazəsinə baxıb bir az ağlamış, sonra o da iş görməyə başlamışdı. Mən isə arvadın pasportunu, ölüm kağızını götürüb qəbiristanlıq idarəsinə qaçmışdım. Booy! Ay Allah! Öləndən sonra da çətin imiş. Bir parça yer üçün kağız yazılmalı, neçə adam qol çəkməli imiş?!

Qəbirqazanları da görmüşdüm. Ciblərinə də pul qoymuşdum ki, həm işlərini vaxtında görsünlər, həm də səliqəli etsinlər. Bundan tam arxayın olandan sonra tez geri evə dönmüşdüm. Görüm burda vəziyyət necədir? Gəlib-gedən varmı? Ora-bura təcili gəlib-getmək üçün taksi tutmuşdum. Yoxsa çatdıra bilməzdim.

Qəbiristanlıqdan qayıdanda görmüşdüm ki, doğrudur, hər şey qaydasındadır, nə demişdim, kimə nə tapşırmışdım, eləyirdilər – düyü arıtlayırlar, ət doğrayırlar, çay qaynadırlar, amma beş-altıca adam gəlmişdi. Düzü, bu məni heç açmamışdı. Xanım ana kimi xanım-xatın bir arvada bu heç yaraşmırdı. Amma narahatçılığa dəyməzdi. Xanım ananın bu həyətdə böyük hörməti vardı. Bu binada azı iki yüz, üç yüz adam yaşayırdı. Elə hər evdən bir adam gəlsə, gör nə qədər eləyirdi. Üstəlik iş yerimdən mənim adamlarım da gələcəkdilər. Xanım ananın dəfnini mən təxminən bu cür təsəvvür edirdim. Ancaq gün günortadan keçirdi, hələ də beş-altıca adamdan başqa heç kəs görünmürdü. Fikirləşdim ki, daha gələn olmaz, biabır olluq, bu boyda arvadı aparıb beş-altı adamla dəfn eləmək yaxşı deyildi. Gendən baxan nə deyərdi? Belə ürəyimə yatmırdı. Gözəl bir insanın bu cür miskin, solğun, kasıbyana bir şəkildə son mənzilə yola salınması heç yaxşı deyildi. Doğrudur, bunun Xanım ana üçün bir isti-soyuqluğu yox idi. Dünyadan daha xəbərsiz idi. Gözü görmür, könlü bulanmırdı. Ancaq məsələ onda deyildi. Onun insanlara, dünyaya bəslədiyi böyük məhəbbətin, alicənablığın, xeyirxahlığın qabağında bu çox kiçik idi, cüzi idi. Bu, mənə elə təsir etdi ki, özümə yer tapa bilmədim. Bir də gördüm, bloka çıxıb pilləkənlə aşağı, yuxarı yüyürürəm. O qapının zəngini basıram, bu qapının zəngini basıram. O qapını döyürəm, bu qapını döyürəm. Uşaq, böyük, qoca, kim qabağıma çıxır, deyirəm:

– Xanım ana ölüb. Bə bilmirsinizmi Xanım ana vəfat eləyib? Xanım ana rəhmətə gedib. Xanım ana ömrünü sizə bağışlayıb...

Bu ağır, bəd xəbərin adamlara necə çatdırıldığını nə təhər bilirdimsə, hansı sözlərlə ifadə etmək lazım gəldiyini əvvəllərdən necə eşitmişdimsə, o cür də çat-

dırırdım. Məni yandıran o idi ki, bu köpəkuşağının bəziləri qapılarının dalından qulağını tülkü kimi pusquya verib heç özünü o yerə qoymurdular. Tükləri də qımıldanmırdı. Odur ki geri evə qayıdanda pilləkənləri onları söyə-söyə çıxırdım. Bunlar necə adamlardı?! Daşdılarmı, dəmirdilərmi?! Ürəkləri, qəlbləri yoxdurmu?! Bəs demirlərmi ki, bunların özləri də öləcək? Vay sənin! Bir vəzifəli şəxsin uzaq qohumu olsa idi, milçək kimi gör nə tökülürdülər. Şərəfsizlər!

Evə gələndə Sahib qapının ağzında qabağıma çıxıb:

– Hardaydın? Hara getmişdin?! – deyə soruşdu.

– Hara gedəcəm?! Binanın adamlarına xəbər verməyə getmişdim ki, arvadı götürürük, gəlin.

Sahib mənalı nəzərlərlə məni süzdü.

– Qəribə oğlansan!

– Niyə?

– Bilmirsən buna adam çağırmazlar. Adamlar özləri gələrlər?

– Özümü saxlaya bilmədim. Gəlmirlər neynim?! – deyə hirslə cavab verdim.

O yazıq da dillənmədi. Bu ara gördüm molla mənə yaxınlaşıb soruşdu ki, ay oğul, bu evin eyvanı varmı? Ora hardan çıxmaq olar?

– Eyvanı neynirsən, molla əmi? – deyə təəccüblə xəbər aldım. Yoxsa çıxıb eyvanda oturmaq istəyirdi? Bu kişinin də, deyəsən, kefi gəlmişdi.

– Salavat vermək istəyirəm, oğlum.

– Salavat?

– Hə!

– O nə olan şeydir?

– Omu? Xəbərdarlıqdır. Görürəm adam azdır. Bəlkə, eşitməyiblər, bilmirlər. İndi xəbər vermək istəyirəm ki, məhruməni götürürük, gəlin.

– Bu evin eyvanı yoxdur, – dedim. – Bu ev eyvansız olub. Sahibi dünyaya, bax, bu pəncərədəncə baxıb.

– Hə, mən də elə buradanca salavat verrəm, – deyə molla pəncərəyə yaxınlaşdı. Mətbəxin havası daim dəyişsin deyə onu taybatay açıq qoymuşduq. Ağzını ora tutdu, boğazını arıtlayıb əlini qulağının dibinə apardı və var gücü ilə ucadan səsləndi...

Mən onda fikirləşirdim ki, bax, indi binanın adamları eşidib töküləcəklər. Əllərində necə vacib işləri də olsa, yarımçıq qoyub gələcəklər. Bəs necə? Bu, onların borcu idi. Neçə ilin qonşuları idilər. Xeyli adam yığışdı. Dayım da gəlmişdi. Mərhumun yaxın adamı təki cənazənin ardınca gedirdi. İki-üç adamdan sonra o idi. Adamların ardınca isə iki-üç maşın gəlirdi. Bunları dayım təşkil eləmişdi. Öz maşını da burda idi. Düzü, dayımı heç belə bilməzdim. İnanın, ondan elə razı qalmışdım ki, indiyədək ondan nə giley-güzarım vardısa, hamısını unutmuşdum. Dayım mənim nəzərimdə qalxmışdı, yüksəlmişdi. Hər şeyin yerini

bilən adam imiş. Bax, o ki bu kişiliyi elədi, kimsəsiz bir arvadın dəfnini belə təşkil etdi, ona görə mən onun bütün nöqsanlarından keçirdim...

Qabaqdakı tində bizi yük maşını gözləyirdi. Bunu da dayım təşkil etmişdi. Maşının arxa tərəfini açıb aşağı saldılar. Cənazəni maşına qoyduq. Mən də, Sahib də yuxarı, kuzova çıxdıq. Yəqin, tək olmağımı istəmədi. Həm də bu, mərhuma, onun xatirəsinə hörmət əlaməti idi, hərəmiz cənazənin bir tərəfində dayandıq. Bir əlimizlə də maşının yanlarından tutmuşduq. Üzümüz arxadan gələn maşınlara sarı idi. Yavaş-yavaş şəhərin qələbəliyi arxada qalır, biz gedirdik. Bizim dalımızca gələn maşınlar bir-birinin ardına elə düzülmüşdü ki, asanca sananırdı. Bir maşın, iki maşın, üç maşın, dörd maşın, beş... Mən də bayaqdan təşviş keçirirdim ki, Xanım ananın dəfnini yaxşı təşkil etmədik. Daha bundan artıq nə olası idi?!

Sahib arxadan gələn maşınlara gözaltı nəzər salaraq astadan pıçıldadı:

– Kəmalə də gəlib.

Bu xəbər mənim üçün maraqlı idi.

– Hanı?

Sahib astadan cavab verdi.

– Odur eyy!.. Dayının maşınında.

Ardımızca gələn «Volqa» markalı maşına diqqət etdim. Kəmaləni görcək razılıq hissilə başımı tərpətdim. Çünki indi başqa şeylər haqqında düşünürdüm. Mənim üçün əsas bu idi ki, dəfndə adam olsun, mərhum layiqli basdırılsın. Dünəndən bunun fikrini çəkirdim. «Sağ olsunlar, tanış-biliş, qonum-qonşu gəldi, hamı əl-ayaq verdi» – deyə Xanım ananın dəfninin, ümumiyyətlə, pis təşkil edilmədiyini düşündüm. Rəhmətlik bilsə idi ki, bu cür basdırılacaq, razı qalardı. Deyirdi bilsəm məni yaxşı götürəcəklər, rahat ölləm. Bu söz olanda mən ona heç nə deməmişdim. İndi peşman oldum ki, gərək nisgilli qoymayaydım, bu məsələdən onu tamam arxayın salaydım. Görəsən, yazıq arvad necə öldü, olmaya intizarlı getdi. Hər halda, bu məsələdə o mənə arxayın olmamış deyildi. Həm də geri yanında körpəsi ha qalmırdı. Bir quruca canı idi. Özü də bu yolu getməyə son vaxtlar çox tələsirdi: «Daha mənim yaşamağımdan nə fayda?! – deyirdi. – Ona-buna əziyyət verməkdənsə, getmək daha yaxşıdır!»

Maşın qəbiristanlığa çatıb adamlar tökülüşənədək hələ də xatirələrimdən ayrıla bilmirdim.

Babamdan sonra birinci dəfə idi ki, dəfn mərasimində belə şəxsən iştirak edirdim. Bir də o yadımdadır ki, ikinci sinifdə oxuyanda bir müəllimimiz vəfat etmişdi. O vaxtlar ağlım kəsmirdi. Sonralar, yuxarı siniflərə gələndə eşitdim, inandım ki, yaxşı müəllim olub. Neçə il məktəbdə direktor işləyib. Həmin müəllimi basdırmağa aparanda bütün məktəb uşaqlarını sıraya düzmüşdülər. Camaata qoşulub qəbiristanlığa getdik. Əlimizdə gül-çiçək dəstəsi tutmuşduq. Yadımdadır ki, çiçəkləri qəbrin üstə tökdük, sonra qəmli-qəmli geri qayıtdıq...

İndi mərhumu qəbrə sallayanda bir qədər özümü pis hiss etdim. Böyük torpağın kiçicik bir guşəsində onun üçün ayrılmış yerdə mərhumu rahatlayanda hər bir şey gözlərimə nədənsə çox balaca, xırdalaşmış təkin göründü. Hətta yaxşı tanıdığım, gördüyüm iri cüssəli insan olan Xanım ana da elə bil balacalaşmışdı. Kəfəndə sanki qundaq boyda idi. Bunun üçün də torpağın çox xırdaca bir guşəsinə rahatca sığırdı. Bir də onun bir söhbətini xatırladım. Yazıq arvad keçmiş günlərindən danışanda gəlinliyini tez-tez xatırlayır, oğlunun çağa vaxtlarından söhbət açırdı. Arvad bu barədə danışmağı çox xoşlayırdı. Həvəslə deyirdi ki, oğlum təzəcə olmuşdu, elə ağlağan idi ki, gecəm-gündüzüm yox idi. Özü də, deyəsən, harasısa ağrıyırdı. Gecələr qucağımda mürgüləyə-mürgüləyə layla çalardım. Yuxum gözümdən tökülərdi. Uşağı əmizdirəndə çox vaxtlar döşüm ağzında yatardım. Deyirdilər, demək olmaz, birdən uşaq ağzı üstə dönər, altında qalar, bilməzsən, boğub öldürərsən.

– Boy, özümü öldürrəm! – deyə adicə söhbətdən uçunardım. Dəli təki balamı bağrıma basardım. – İraq olsun, – deyib qulağımdan çəkərdim. Ağlıma gələn, başa gələr, – deyərlər. Hər halda, işimi ehtiyatlı tutardım. Uşağı axşamdan özümdən ayrı beşiyində yatızdırardım. Amma bir azca yatıb qalxardı. Bələyində açılıb-bükülüb, dartınıb yüz oyun çıxarardı. Yastıqdan dikəlib durmağa cəhd edərdi. Bacarmayıb ağlayardı. Bilirdim məni axtarır. Mənimlə yatmağa öyrəşmişdi, iyimi götürmüşdü. Məcbur olub yanıma gətirərdim, o dəqiqə süst düşüb yatardı. Sonralar da məndən ayrı durmazdı. Dükan-bazara gedib gələnəcən ağlamaqdan çatlayardı. Heç kəslə duran uşaq deyildi. Hələ yekələnib böyük uşaq olanda da görürdün yanımdan əl çəkmir. Başını dizimin üstə qoyub söhbət edər, mən də saçlarını sığallayardım.

Xanım ana şirin-şirin, həvəslə söhbət edir və birdən dayanırdı. Elə bil danışmağa, söhbətini davam etdirməyə gücü-qüvvəsi çatmırdı. Nefti qurtarmış lampa təki közərib sönürdü. Yalnız arada çiyinlərini dartıb «ah!» çəkib deyərdi:

– Eh! Bircə saatlıq ayrılığına dözməyən canım, illər həsrəti oldum!..

Budur, nisgilli ana torpağa qarışırdı. Adamlar da elə bil qarışqa yuvasının ağzına toplaşıblar. Özləri də qarışqa təki hərəkətdədirlər. Biri torpaq atır, biri yanları qəbrin üstə kürüyür, biri daş gətirir, bir başqası ayrı iş görürdü. Mən də boş dayanmaq istəmədim. Mənası mənim üçün aydın olmayan adətə görə, işləyən adamlardan birinin qoluna toxundum ki, beli mənə versin, bir az da o dincini alsın. Onun da, deyəsən, ürəyindən idi, o dəqiqə beli yerə tulladı, mən götürdüm.

– Bax, buranın torpağını da irəli at, qoy qəbrin yan-yörəsi səliqəli olsun, – deyə kimsə mənə müraciət etdi və bir-iki addım geri çəkildi ki, işləmək mümkün olsun.

– Yaxşı. – Qəbrin kənarlarından torpağı irəli kürüməyə başladım. Mərhum səliqə sevən adam idi. Bir töküntülü adam görəndə mütləq narazılığını bildirərdi. Dedim qoy qəbri də səliqəli olsun.

Xanım anaya son borcumu verirdim. Halal xoşu olsun... Bir də gördüm Sahib Kəmaləyə yanaşıb köhnə bir qəbir daşının ardında nə barədəsə söhbət edirlər. Oğlan nə deyirdisə, qız gülümsəyirdi. Gizlincə dayıma baxdım. Dayım nəzərlərini yerə zilləmişdi. Guya, onlardan xəbəri yox idi, görmürdü. Əslində isə xəbərsiz deyildi. Kişi qapqara qaralmışdı. Ah, səni Sahib! Axı hər şeyin öz yeri var. Bu yerdə, camaatın qəmli-yaslı vaxtında qızı xəlvətə çəkib söhbət eləmək nə vacib düşüb?!

Bir dəfə işdə tənəffüs vaxtı kontorda Sahiblə şahmat oynayırdım. Mərc gəlmişdik ki, kim uduzsa, kinoya qonaq eləsin.

– Qorxma, udsam da biletləri özüm alacağam, – deyə Sahib zarafat edib möhkəmcə hücuma keçmişdi. Qapının ağzında iş icraçısı Mirişlə nə barədəsə söhbət edən Kəmalə bizə yaxınlaşdı.

– Bəsdir oynadınız! – Qız ərklə əlini atıb fiqurları dağıtdı.

Sahibin elə bil başına bir qapaz vurdular. Dönüb dik nəzərlərlə qızı süzdü. İstədi onu acılasın. Qız, deyəsən, bunu gözləyirdi ki, Sahib ayağa durdu, acığı tutduğunu büruzə verərək bayıra çıxdı.

– Eybi yoxdur, bir azdan hirsi soyuyacaq, – deyə Kəmalə şən-şən keçib Sahibin yerində əyləşdi. – Gəl dama oynayaq.

– Oynayaq.

– Ancaq mən deyən kimi oynayacağıq.

– Necə?

– Bax, bir daş məndə, üç daş səndə, əgər bacarırsansa məni tut.

– Axı elə nə üçün?

– Mən elə istəyirəm. – Qız o cür xoşuna gəldiyini bildirdi.

– İstəyirsən oynayaq.

Bir azdan şahmat taxtasının üstündə onun daşını oyan-buyana qovurdum. Qız da bundan şənlənərək çiçəyi çırtlaya-çırtlaya gülürdü.

Bir dəfə isə günorta yeməyinə hazırlaşırdıq. Konserv, kolbasa alıb gətirmişdik. Göyərtimiz də var idi.

– Gəl, bizimlə nahar edək. – Yemək şeylərini yerdən açdığımız qəzetin üstə düzə-düzə Kəmaləni də dəvət etdik.

– Məmnuniyyətlə! – Qız həvəslə razılaşdı, əlini, üzünü yuyub, saçını, paltarını səliqəyə salandan sonra yeməyini götürüb yanımıza gəldi.

Möhkəm acmış olsaq da, əlimizi yanımıza salıb qızın gəlməsini gözləyirdik. Sahibin acından ürəyi gedirdi. Kəmalə gəlcək Sahib tez yeməyə cumurdu ki, qız onun biləyinə vurdu.

– Dayansana! Nə olub?

– Baş üstə! – Oğlan gülümsəyərək əlini geri çəkdi.

Kəmalə süfrəni təzədən düzəltdi, kolbasanı, çörəyi səliqə ilə doğradı. Badımcan kürüsündən hərəyə bir yaxma çəkdi. Vəzərini, kəvəri də təzədən suyun altına tutdu. Turpun rəngi daha da qızardı, süfrəni yaraşığa saldı. Qız bunları tərtəmiz etdikcə ağzımızı açıb heyran-heyran ona baxırdıq.

– İndi buyura bilərsiniz! – Qız hər bir şeyi səliqə ilə etdikdən sonra oğlanları yeməyə dəvət etdi.

Bundan sonra hər dəfə yemək vaxtı gələndə Sahib mənə deyirdi ki, Kəmaləni çağır. Onsuz iştahası olmurdu.

Bəzən də oğlan nədənsə alınıb qıza qəti məhəl qoymurdu. Ondan nə üçünsə acığı gəldiyini bildirirdi. Bir dəfə bütün işçilər yığışıb sirkə getmişdilər. Məşhur illüzionist Kio qastrol səfərində idi. Bilet tapılmırdı. Bakılılar onu görməyə tələsirdi. Mən isə gedə bilməmişdim. Xırdaca xanım əri ilə harasa gəzməyə getdiyi üçün evdə gözətçi qalmışdım.

Səhəri gün Sahibin qaşqabağı yerlə gedirdi. Qızdan üz döndərmişdi. Bildim ki, onların aralarında nəsə olub. Amma soruşmadım. Sahibin özü söz açdı.

– Bu qızın başı bir az boşdur, – dedi.

Laqeydliklə başımı buladım.

– Nə olub?

– Axşam sirkdə mənim yanımda oturub, amma gözü oyan-buyanda idi.

– Nə olar? – Dostumun həyəcanla dediyi xəbərə qəti əhəmiyyət vermədim.

Sahib yanıb töküldü.

– Eh, sən də! – Əlini yellədi, söhbətinin ardını danışmadı.

Dostumun nədən küsdüyünü zarafatla Kəmalənin qulağına çatdırdım. Qız gülməkdən uğunub getdi. Sonra da nəsə fikirləşib Sahibin yanına gəldi, cibindən yaylığını çıxarıb ona uzatdı.

– Qorxma, həmişəlik vermirəm ki, ayrılıq olar. Götür gözlərimi sarı.

Sahib özünü itirdi, bilmədi nə desin. Çevrilib qızdan uzaqlaşmaqdan başqa bir çarəsi olmadı. O gün oğlanın qırışığı heç açılmadı. Səhvini başa düşüb qızın üzünə baxa bilmirdi. Onunla bir kəlmə danışmırdı. Bütün gücünü işə vermişdi. Hərəkət etdikcə qollarının əzələləri oynayır, tor köynəyinin altından döşləri şişib qalxırdı. Enli ağızlı belini bir dəfə qumun altından salıb qaldıranda az qalırdı kovş yarılansın.

– Afərin!.. Afərin!.. Bax, həmişə beləcə işləsən, planı yerinə yetirərik, – deyə Kəmaləyə göz vurub Sahibi cırnadırdım...

Bu fikir-xəyala başım necə qarışdısa, qazılıb yan-yörəyə tökülmüş torpağın bir yerə səliqə ilə nə vaxt toparlandığını bilmədim. İş qurtaranda tüklü çənəmi ovcumda belin ucuna söykəyib sakitcə qəbrə baxa-baxa qaldım. Torpağı hələ təzə olsa da, Xanım ananın artıq yüz ilin ölüləri sırasına keçdiyini ürək ağrısı ilə düşündüm...

Adamlar qəbiristanlıqdan qayıdanda əsas fikrim bu idi ki, həyətə gedəndə heç kimi buraxmayım, hamını evə aparım, yedizdirib yola salım. Belə etsəm, Xanım ananın ruhu da şad olardı. Özü də hər hazırlığımız var idi.

Belə də elədim. Heç bircə adamı da buraxmadım. Hamıdan yuxarı evə çıxmağı tələb elədim.

– Buyurun, buyurun, – deyə bir-bir adamların qolundan tutub bloka saldım. Çətini bu idi. Dayım bir az nəm-nüm eləyirdi ki, işim var, nə bilim nazirliyə kollegiyaya çağırıblar. Onu da məcbur elədim. Başa saldım ki, əsas bu işdir, qalan şeylərin hamısı yola gedər. Ölüsünə hörmət etməyən, dirisinə haradan hörmət edər?!

Yoldaşlarım da bir yandan əl-ayaq verirdilər. Adamları içəri dəvət edir, otuzdurur, lazım olan hər hansı bir şeyin ardınca o dəqiqə qaçırdılar. Biri çay gətirir, biri xörək paylayır, o biri yığışdırırdı... Beləcə Xanım ananın məclisini yola saldıq...

Hamı dağılışıb evinə gedəndə bu evdə yenə ikimizciyəz qaldıq. Sahiblə mən. Sahibin qulluğundan, gəlib-gedəni yola verməsindən çox-çox razı qalmış olsam da, amma qəbiristanlıqdakı hərəkətindən heç xoşum gəlməmişdi. Mənə elə gəlirdi ki, buna görə dayım da məndən rəncidə idi. Elə ki adamlar dağılışıb getdilər, mən yatmaq üçün yer düzəldə-düzəldə dedim:

– O necə hərəkət idi, elədin, Sahib?

– Nə hərəkət? – deyə Sahib təəccüblə üzümə baxdı.

– Söhbət etməyə yer tapdın? Camaat ölü basdırır, sənsə?..

– Mən yazıq nə etdim?! Yoldaşıq, bir yerdə işləmişik, danışanda nə olar?

– Hər şeyin yeri var. Eyib idi!

– Kimdən eyib idi?

Mən əvvəl istədim deyəm ki, dayımdan eyib idi, məndən eyib idi, amma dilimin ucundan geri qaytardım.

– Kimnən? Camaatdan! Yaxşı, o qıza nə deyirdin ki, o da gülürdü.

– Dedim şöhrətpərəst qızsan!

– Elə dedin?

– Hə.

– Bəs o nə dedi?

– Heç nə. Güldü.

Mən indi başa düşdüm ki, oğlanı dilxor eliyən qızın gülməyi olub.

Yerlərimizi salıb işığı söndürdük. Elə yorulmuşduq ki, daş kimi düşdük...

## XVII

Səhəri gün axşam evdə təkcə oturub dərslərimə baxırdım. Xanım ana ilə əlaqədar xeyli dərs buraxmışdım. Doğrudur, üzrlü idi. Səbəbini dekanlıq bilirdi. Fənn müəllimlərinə də demişdim. Məni yaxşı, dərslərə müntəzəm davam edən tələbə kimi tanıdıqları üçün inanmışdılar. Özləri icazə vermişdilər. İndi çalışırdım aradakı geriliyi götürəm. Yoldaşlarımın dəftərlərini alıb olmadığım, iştirak etmədiyim mühazirələrin hamısını yazmaq fikrim var idi. İki-üç günə qurtarardım. Sonra da əsas o qalırdı ki, öyrənim. Elə bir çətin iş deyildi. Bir-iki gecə otursam kifayət idi. Amma düzünü deyim, tez-tez Hilalə yadıma düşürdü. Ona görə də dərs-zad hamısı beynimə girmirdi. Kitaba-dəftərə elə yalan yerəcə baxıram. Öz aramızdır, o ki mənə bu cür etibarsız çıxmışdı, gərək heç yadıma da salmayaydım. Yanımda adının çəkilməsinə belə icazə verməyəydim. Mən onu bütün adamlardan aşağı tutaydım. Amma əksinə idi. Hilalə qəlbimə elə hakim kəsilmişdi ki, deyirdin aramızda heç bir inciklik olmayıb. Deyirəm, dünyanın çox qəribə işləri var imiş. Kimi ki istəyirsən, kimdən ötrü ki, ölürsən o, sənə heç məhəl də qoymur. Əksinə, kimdən ki zəhlən gedir, kimi ki görməyə gözün yoxdur o, səni həyatda hamıdan çox istəyir. Bu qız da məni bəyənməyib başqasına getmişdi. İndi hardasa öz kefində idi, mən isə burda onun dərdini çəkirdim. Bunu kimə desəm mənə gülərdi... Belə bir əhvali-ruhiyyədə olduğum vaxtda qapı açıldı, əlində çamadan olan bir kişi içəri girdi. Bu qayışlı çamadan gözümə necə qeyri-adi göründüsə, əvvəlcə kişini tanımadım. Dedim, bəlkə, Xanım ananın hardasa qohumu, tanışı tapılıb, eşidib ki, arvad ölüb, gəlib. Belə şeylər, əlbəttə, olur. Hər halda, xatirəsini yad etməyin özü də böyük işdir. Amma, nədənsə, mənim nəzərlərim çamadana dikilmişdi. Gözlərim yol çəkirmiş kimi ona baxırdım. Kişiyə fikir vermirdim.

Qayışlı çamadan, dediyim kimi, çox iri idi. Özü də möhkəm çamadana oxşayırdı. Ağzının qıfıllanan, kilidlənən yerindən başqa həm də özündən qayışları vardı. Biri bu yanından, o biri də o biri yanından. Çək bağla. Ondan sonra istəyirsən dağdan dığırla açılmazdı.

Çamadandan diqqətim yayınıb onu əlində tutan adama baxanda gördüm kim? Qonşu. Fikirləşdim ki, xeyir olsun. Bu kişi belə çamadanlı bizə nə əcəb təşrif gətirib? Gedirmi? Gəlirmi? Bu fikirdə oldum ki, yəqin, harasa gedir, görünür, evdə adam yoxdur, yəqin, açarı mənim yanımda qoymaq istəyir. Bu da ola bilərdi ki, hardansa gəlir, evinin qapısı bağlı olduğu üçün bizə dönüb. Nə olar?!

Amma Xalıq kişi içəri girəndən gözümə birtəhər dəymişdi. Nəsə, elə bil özündə deyildi. Rəng-ruhu qaçmışdı. Dedim, bəlkə, çamadanı çox ağırdır, ondandır. Onu götürdüyü üçün belə olub. Mənim fikrim neçə belə yer gəzdi. Xalıq kişi isə məndən nəsə çəkinən kimi dayanmışdı. Hiss olunurdu ki, özünü güclə içəri salıb. Özü də öz xoşu ilə gəlməyib. Məcburiyyət qarşısında qalıb gəlib. Bu

nə məsələ idi? Marağım daha da artdı. Ayağa durdum. Qarşısına getdim. Hiss etdim ki, mənim ona qarşı iltifatlı olmağımdan razı qalıb bir az açılmışdı. O, qapını kip örtüb çamadanı yerə qoydu və uzaq yol gəlib yorulmuş kimi köksünü ötürüb nəfəsini dərdi. Mən çaşıb qalmışdım. Hələ də başa düşmürdüm bu nə işdir? Bu qayışlı çamadan nə məsələdir? Beləcə məni intizarda qoyduğunu o özü də hiss edib, nəhayət, dilləndi:

– Mahir!

– Bəli, qonşu.

– Mən bu gün üstünə qonşu kimi yox, ondan da yaxın bir adam kimi gəlmişəm. Doğrudur, mən səndən çox böyüyəm, amma dostluğumuz, yaxınlığımız tutur. Bir yerdə oturmuşuq, stəkan-stəkana vurmuşuq. Hə, Mahir qədeş, sənə bir xahişə gəlmişəm.

– Buyurun, buyurun! – Mən yapışıqlı danışdım ki, heç nədən çəkinməsin, sözünü desin.

– Qoy bu çamadan sənin yanında qalsın, sonra götürərəm.

Daha bu nə şey idi ki, bunun üçün belə çətinlik çəkirdi. Sözünü birbaşa niyə demirdi. Lap istəyir gətirib yüzünü qoysun. Ağlıma heç nə gəlməzdi.

– Hə, neynək, – yəqin, harasa gedirsiz, evdə də adam yoxdur, siz narahat olmayın, gedin yoldaşınız gəlsə, mən verərəm.

– Yox! Yox! Elə şey eləmə! – Kişi, nədənsə ehtiyat edərək təlaşla əlini qaldırdı. Belə söz deməyimə görə də peşman oldum. Bu kişi nədən qorxurdu? Bildim nəsə var. Bu çamadandan heç almadım. Birdən oğurluq-zad olar. Şübhələndiyimi hiss elədi. Ola bilsin fikirləşdi ki, düzünü deməsə, yaxın qoymayacam. Bu səbəbdən də:

– Əşi, qorxma, elə bir şey deyil, – dedi. – Moskvaya gedəndə arvada, qıza bir-iki şey almışdım, əyinlərinə olmadı, indi, deyəsən, məni satıblar ki, guya, mən alverlə məşğulam. Deyirəm, gəlib evdə tutarlar, onlara başa salmaq çətindir, özləri də naqqa balığı təki ağızlarını ayıracaqlar, adamı çamadanla birgə udarlar. Ondansa, sənə bir görüm-baxım eləyərəm.

– Yox, mənə heç nə lazım deyil! – Tez yaxamı kənara çəkdim. Elə bil bu dəqiqə bu kişi mənə nəsə verirdi, mən də imtina etdim.

– Neynək, lazım deyil, olmasın. Amma sənin yaxşılığın mənə lazımdır. – Xalıq kişi məsələni indi də belə qoydu.

Mən çıxılmaz vəziyyətə düşmüşdüm. Mənim belə işlərdən zəhləm gedərdi. Babam rəhmətlik həmişə deyərdi: «A bala, əlləm-qəlləm işlərdən uzaqda dur!» Bu da gətirib zir-zibilini mənim yaşadığım evə soxuşdururdu. Çox bic adam idi. Xanım ananın evi heç kəsin ağlına gəlməzdi. Beləcə ağlımı oğurlatdım:

– Neynək, qoyun qalsın! – dedim.

– Sağ ol, Mahir, sağ ol! – Çamadanı qapının ardından götürüb içəri qoydu və xudahafizləşib getdi.

Heç ağlıma gəlməzdi ki, Xalıq kişinin mənə işi düşə bilər. Qabaqlar, bəzən o heç mənə salam da vermək istəməzdi. Amma indi, deyəsən, onun quyruğu qapı arasında qalmışdı, boğazı kəndirdə idi. Kişi qorxusundan elə mehriban, elə həlim olmuşdu ki, deyirdin dünyada bundan yaxşı adam yoxdur. Mən də bu «yaxşı adama» əlimdən gələn köməyi etmişdim.

Ancaq hər dəfə məni maraq bürüyürdü ki, bu qayışlı çamadanın içərisində nə var? Nə var ki, onu Xalıq kişi gətirib qorxa-qorxa burda gizlətmişdi? Bu qayışlı çamadanda nə var ki, onu özündən uzaq eləmişdi? Bu «nə varlar» beynimə o dərəcədə girmişdi ki, axşamlar evdə oturub dərslərimi oxuyanda da gözümü ondan çəkə bilmirdim.

Bir neçə gün keçəndən sonra qayışlı çamadan axır ki, mənim gözümdə adiləşdi və Xanım ananın əşyalarından birinə çevrildi. Daha məni o qədər maraqlandırmadı. Hətta bir gün Sahib yanıma gəlmişdi, çamadanı görüb bir az təəccüblə soruşmuşdu:

– Bu nədi belə?

– Əşi, bekara şeydir, – deyə mən də əlimi yellədim. Bilirsiniz ki, mən Sahibdən heç nə gizlətməzdim. Nə olsa ona danışardım. Onun da xasiyyəti belə idi ki, hər hansı bir şeyi öyrənməmiş əl çəkməzdi. Bu dəfə necə oldusa, əhəmiyyət vermədi, mənim «bekara şeydir» deməyimlə kifayətləndi. Heç yiyəsi də maraqlanmırdı. Təəccüb edirdim ki, nə üçün gəlib aparmır. Qayışlı çamadan nə vaxtadək burda qalacaq?!

Bir dəfə işdən gələndə gördüm ki, blokumuzda pilləkənin üstündə üç-dörd adam var. Özü də bizim mərtəbədə. Bunlar kim idilər? Orada niyə dayanmışdılar? Qabaqlar Xanım anaya görə narahat olardım. Deyərdim, yoxsa arvadın başına bir iş gəlib? İndi isə nədən nigaran qalacaqdım?! Heç nədən. Bloka girib yuxarı çıxanda gördüm ikisi milis işçisidir. Xalıq kişidir, bir də arvadı. Bunların duruşundan nəsə heç almadım. Mənə elə gəldi ki, onlar şəxsən məni gözləyirlər. Ağlıma isə elə bir ciddi şey gəlmədi. Çünki mənim nə pis işim vardı ki, qorxam, özümü itirəm. Bir adama sataşmamışdım. Bir kəsin çöpünü tərpətməmişəm. Nədən qorxmalı idim?! Yaxınlaşıb salam verdim.

– Salam, – deyə onlar da salamımı aldılar.

Sonra qapını açıb içəri girmək istərkən milis işçilərindən biri mənə müraciətlə dedi:

– Sizi bir dəqiqə olarmı, cavan oğlan?

Gördüm içəri keçmək istəyirlər. Qapını geniş açıb onları dəvət etdim.

– Buyurun, keçin! – dedim.

– Çox sağ olun. – Onlar da bunu çox mədəni şəkildə qəbul etdilər.

İçəri girəndə oturmaları qayğısına qalaraq stulları ordan-burdan götürüb stola yaxın qoydum.

– Əyləşin.
– Sağ ol! – Hərə altına bir stul çəkdi.

Hələ də ağlıma bir şey gəlmirdi. Amma bu ara birdən fikirləşdim ki, bunların gəlişi, görünür, Xanım ananın mənzililə əlaqədardır. Bəlkə də, mənzili artıq vermişdilər. Bu milis işçilərindən hansınınsa cibində order var. İndi gəlib ki, mənə desin şələ-küləni yığışdır. Nəyim var idi, nə yığışdıram. Dərziyə dedilər köç, iynəsini yaxasına sancdı. Başqa şey ağlıma gəlmədi. O gün də evlər idarəsindən gəlmişdilər. Bir kök arvadla, bir arıq, eynəkli kişi idi. Otağın eninə, uzununa baxmışdılar. Qapı-pəncərəyə diqqət yetirmişdilər. Tavana, döşəməyə, mətbəxə... Nəyə baxırlar baxsınlar, mən onlara qəti fikir verməmişdim. Bu son vaxtlar belə tez-tez gəlib-getmələrinin, Xanım ananın mənzili ilə maraqlanmalarının səbəbi aydın idi. Necə etsinlər ki, burdan qopartsınlar? Bu otağı onlar üçün sərfəli olan adama verə bilsinlər? Bunlar o cür adamlar idi. Ona görə üzlərinə baxmaq istəmirdim. Amma indi bunların oturuşundan-duruşundan hiss etdim ki, gəlişləri evlə əlaqədar deyil. Bəs nə idi? Bax, danışıb eləmirdilər. Oturduqları yerdəcə yan-yörəyə baxır, evdəki əşyalarla, avadanlığa fikir verirdilər. Amma kəlmə də kəsmirdilər. Bu ara Xanım ananın köhnə, lap az qala nuh əyyamından qalmış şifonerinin böyrünə qoyulmuş qayışlı çamadanı gördülər və biri durub ona yaxın getdi. Ayağının burnu ilə onu astaca vurub soruşdu:

– Bu nədir belə?
– Bumu?
– Bəli.
– Çamadandır.
– Kimin çamadanıdır?

Həyatda ən zəhləm gedən şey bu idi, o da başıma gəldi. İndi mən nə cavab verim? Necə deyim mənimdi. Heç bilmirəm çamadanda nə var? Bəlkə, elə içərisində silah gizlədiblər? Bəlkə, başqa bir qadağan olunmuş şey var? Üzüyumşaqlıq edib çox ciddi səhv iş tutduğumu indi başa düşdüm. İndi anladım ki, başısoyuqluq etmək nə deməkdir. Çamadanın mənim olmadığını da demək, bildirmək imkanında olmadım. Bəs onda kimindir? Əsl həqiqəti necə açıb deyim? Mənə satqın təki baxmazlarmı? Deməzlərmi görün necə dəyanətsiz oğlandır, iki dəqiqənin içərisində açdı sandığı, tökdü pambığı. Mənim tərəfimdən bu da yaxşı deyildi. Bu həyətdə, binada məni, hər halda, beş-üç adam tanıyırdı, onların da yanında hörmətdən düşəcəm. Hamı mənə satqın təki baxacaq. Bunu da istəmirdim. Bəs necə olsun? Onu da başa düşürdüm ki, başqa yolu yoxdur. Bunun ikisindən biri olmalıdır. Ya çamadana yiyə durmaq, ya da əhvalatı açıb söyləmək, sahibini göstərmək. Bunun ikisini də edə bilmirdim. Bunun ikisi də mənim üçün eyni cür, eyni dərəcədə ağır idi, təhlükəli idi. Heç nədən işə düşmüşdüm. Heç nədən belə ağır zərbə altında qalmışdım. Beşcə gün ağsaqqalsız,

böyüksüz yaşaya bilmədim. Beşcə gün özümü təkbaşına, sərbəst dolandıra bilmədim. Ağlımın ucundan özümü belə bir xataya saldım. Xanım ana sağ olsa nə vardı? Xalıq kişi onda heç buna cəsarət edib, şeylərini gətirib bura qoymazdı. Bununla bərabər, mən ümidli idim ki, Xalıq kişi, nəhayət, dillənəcək, qayışlı çamadanın onun olduğunu deyəcək. Daha başqa cür ola bilməzdi: hər bir namuslu, qeyrətli adam başqa cür hərəkət etməzdi. Mən axı ona pislik etmək istəməmişdim. Hardasa onun köməyinə gəlmişdim. Onu təhlükədən, qovğadan, xata-baladan qorumuşdum. Bəs onun vicdanı dillənməyəcəkmi? Mən beləcə gah elə, gah belə fikirləşir, qalan adamlar isə susurdular. Onlar nə fikirləşirdilər? Xüsusilə Xalıq kişi nə düşünürdü? Deyə bilmərəm. Amma elə dayanmışdı və qayışlı çamadana elə baxırdı ki, deyirdin birinci dəfədir görür. Bu çamadanın onun olduğunu və özü öz əlilə gətirib bura qoyduğunu boynuna alacaq?

Bu ara Xalıq kişi qayıdıb mənə dedi:

– Bəlkə, bu çamadan Xanım ananındır? O vaxtdan burda qalıb, fikir verməmisən?

O dəqiqə hiss elədim ki, həə! Bu Xalıq kişi, deyəsən, köhnə qurddur. Al dilinnən mənə söz deyirdi. Yəni belə de. Üstündən at. Qoy Xanım ananın üstündə qalsın. O da ölüb getmiş adamdır. Elə bilsinlər alverçilik edirmiş. Nə olasıdır. Ölüləri mühakimə etmirlər. Etsələr də bunun ona bir ziyanı yoxdur. Bu, hardan onun ağlına gəldi. Bunu o, necə tapdı. Bayaqdan mən burda başımı sındırırdım, ancaq belə şey ağlıma gəlməmişdi. Onun isə ağlına gəldi. Başladım ürəyimdə onu söyməyə. Tülkü! Əclaf! Murdar! Pis-pis şeylər, ağlıma nə gəlirdi, deyirdim. Döşəyirdim canına bu itin. Bəs belə də iş olardı? Bəs o cür gözəl, təmiz bir insanın xatirəsinə mən necə ləkə gətirə bilərdim. Səsim tutulmazdımı?! Ağzımda dilim qurumazdımı?! Bu sarsaq oğlu sarsaq məni nə hesab edirdi? Mən bu qədər vicdansızam?! Mən bu qədər alçaq olmuşam? Xülasə, yüz cür söyüşün, tənbehin başına çıxdım. O isə üzümə elə təkidlə baxırdı ki, az qalırdı hamının yanındaca desin ki, de canın qurtarsın.

Milis işçiləri də heç bir söz demədən bayaqdan oturmuşdular. Tam sərbəstlik idi. Heç kəs heç kəsi təntitmirdi. Məcburiyyət yox idi. Otur, fikirləş, nəhayət, qayışlı çamadanın kimin olduğu barəsində bir söz de. Nəhayət, dilimin qıfılını açdım.

– Xanım ananın ömründə belə çamadanı olmayıb.

Cavabımdan Xalıq kişi çılğınlaşdı, özünü saxlaya bilməyib dedi:

– Əşi, sən də qəribə oğlansan! Onun bəyəm bütün şeylərini sən bilirdin?! Çamadan onun deyilsə, bəs onda kimindir? Bir yaxşı-yaxşı fikirləş!

Xalıq kişi bu vasitə ilə qayışlı çamadanı özündən uzaqlaşdırdı. Qorxurdu ona tərəf sürüşdürələr, onun boynuna qoyalar. Bu başdan uzaqlaşdırırdı. Qayışlı çamadan onun ola-ola sahib durmurdu. Arxayın, asudə vaxt olsa, bunun üstündə

özünü öldürərdi, dartıb çamadanı hamının əlindən alardı. Çamadanın ona məxsus olduğunu sübut etmək üçün yüz cür dəlil, şahid gətirərdi. Canını verərdi, amma çamadanı verməzdi. Qayışından, qulpundan ikiəlli elə yapışardı ki, yüz kişi dartsa da, qopara bilməzdi.

– Yaxşı, de görək çamadanda nə var? – Milis işçilərindən biri xəbər aldı.

Mən nə bilim nə var? Bu qırmızı köpəkoğlu ora daş qoyub, dəmir qoyub, nə qoyub? Özü burda ola-ola özündən xəbər almırlar, məndən xəbər alırlar. Durduğum yerdəcə belə zibilə düşmüşdüm. Yuxarı tüpürürdüm bığ, aşağı tüpürürdüm saqqal.

– Bilmirəm! – deyə çiyinlərimi dartdım. İndiyədək heç kəsin qarşısında bu cür aciz, yazıq olmamışdım. Pis işi Allah kəssin, adamın dilini gödək eləyir. Heyif deyil təmizlik...

Milis işçiləri bir-birlərilə baxışdılar. İndi fikirləri nə idi? Nə etmək istəyirdilər? Bu ara biri üzünü mənə tutub:

– Bəlkə, açarını verəsən, açıb görək içində nə var? – deyə əlini mənə uzatdı.

Elə bilirdim ki, mənə inanırlar. İnanırlar ki, çamadan mənim deyil. Bu sözdən isə zəndimdə yanıldığımı başa düşdüm. Doğrudan da, bunlar hardan bilsinlər. Adamların ürəklərinə ha girməyiblər. Həm də adamların alınlarına yazılmayıb ki, bu yaxşı adamdır, yaxud pis. Hamı adamdır. Hamının iki əli, iki ayağı var. Hamının yeməyə ağzı var. Hamının...

– Dedim ki, çamadan mənim deyil! Açarının da harda olduğunu bilmirəm! – İndi bir az ötkəm cavab verdim.

Güman etmək olar ki, səsimin tonu xoşlarına gəlməyəcək. Onlar da mənə acıqlanacaqlar. Ümumiyyətlə, çalışacaqlar ki, boynuma qoysunlar. Qayışlı çamadan birdəfəlik mənim üstümdə qalsın. Bu, onlar üçün də sərfəli idi. Əsas təqsirkarı tapmış olurdular. Bu cür iş hələ bitməmiş, axıra yetməmiş qalırdı. Bunu aşkar etmək isə onların əsas vəzifəsi idi. Ancaq milis işçiləri özlərini çox soyuqqanlı tutmuşdular. Guya, bu onları o qədər də maraqlandırmırdı. Guya, əsas iş qayışlı çamadanın tutulması idi. Sahibinin aşkar edilməsi o qədər də vacib deyildi.

Bununla bərabər, başa düşürdüm ki, bütün bunlar boş-boşuna deyil. Milis işçiləri bura elə-belə gəlməyiblər. Bəlkə də, kimin nə yuvanın quşu olduğunu da bilirlər. O cümlədən, Xalıq kişinin yaxşı tanıyırlar. Ancaq iş elə gətirib ki, gəlib mənə ilişiblər. Mən bunları çaşdırmışam. Bəlkə də, elə bilirlər mən də bu işə qulluq edirəm. Xalıq kişinin də bir tayı mənəm. İşin əsl həqiqətdə nə yerdə olduğunu mən açıb deməliyəm, sözün düzünü mən söyləməliyəm. Onsuz da bundan yığmışdım. Bəlkə də, ailənin pula, vara-dövlətə dəhşətli dərəcədə həris olmasına əsas bais elə bu kişinin özü idi. Bu onları pul düşkünü eləmişdi. Bu alçaq kişinin verdiyi tərbiyənin nəticəsi idi ki, qızı məhəbbətini vara-dövlətə satdı. Bütün bunlara görə mən səsimi çıxartmaq istəyirdim. Məsələnin nə yerdə olduğunu açıb

deyə bilərdim. Biri inanmasa da, o biri inanardı. Mənim necə adam olduğumu qonşular da bilməmiş deyillər. Hər halda, məni müdafiə eliyən tapılardı. Bəlkə, elə orqan işçiləri də mənə inanacaqdılar. Çünki onlar da çox çalışırdılar ki, məndən bir söz qopartsınlar. Di gəl ağzımın qıfılını açmırdım. Atanın acığına bunu eləmək istəsəm də, qızı gəlib qabağımı kəsirdi.

– Eləsə, gedək idarəyə. Orda rəisin yanında ayırd edərik! – Milis işçiləri ayağa durdular və mənə də qalxmağa işarə etdilər.

O dəqiqə durdum. Özümü qonşuların, milis işçilərinin yanında şax tutmuşdum. Ancaq ilk əvvəl vecimə almasam da, get-gedə qorxuya düşürdüm. Bu işin axırı necə olacaqdı? Nə ilə qurtaracaqdı? Deyəsən, xətir əlindən xəstə düşürdüm. Ancaq nə etmək olardı? İş-işdən keçmişdi. Ha gözləyirdim ki, Xalıq kişinin vicdanı tərpənəcək, malına yiyə duracaq, mənim də canım qurtaracaq. Xalıq kişi isə ağzına su almışdı. Yerində qurcuxmasından hiss edirdim ki, tikan üstə oturub. Əlacı olsa durmaz, başını götürüb əlli-ayaqlı burdan itərdi. Yəni elə-belə, qaçıb getmək istəmirdi. Onda milis işçilərini şübhəyə sala bilərdi. Bu çamadan, zibil onun ola-ola sudan yaman quru çıxmışdı. Ona mən nə deyə bilərdim? Əlində tutulmamışdı, evində görən olmamışdı. Əsas hədəfdə mən idim. Çamadanı mənim yaşadığım evdə aşkar etmişdilər. Bu cür haqq-hesabdan sonra yaxanı nə qədər kənara çəksən də xeyri yox idi.

Milis idarəsində iş bir qədər böyüdü. Daha doğrusu, orada məsələni konkret qoydular. Çamadan haradan tapılıb? Filan mənzildən. Həmin mənzildə kim yaşayır? Cavab verdilər ki, bu oğlan...

– İndi açın çamadanı, görək içərisində nə var? – rəis elə oradaca əmr etdi.

Bayaq açar axtarırdılar. İndi isə elə şey lazım gəlmədi. Oranın işçilərindən bir nəfər gəldi, əlində balaca açara oxşar məftil parçası tutmuşdu, onunla nə etdi, nə etmədisə ikicə dəqiqənin içində çamadanın kilidlənən yerlərinin qapaqları şıqqıltı ilə yuxarı qalxdı. Təxmini bilsəm də, çamadanda nə ola bilər, yenə maraqlandım. Xalıq kişi buna nə qoyub ki, ondan imtina edir, ona yiyə çıxmır, çamadan mənim üstümdə qalır. İndi həyatım müəyyən mənada bu çamadandan çıxacaq şeylərdən asılı idi. Allah eliyə bir şey çıxmaya. Canım bunların əlindən qurtara. Yoxsa zalım uşaqları elə baxırlar ki, elə bil dədələrini, babalarını mən öldürmüşəm.

Ümumi vəziyyətin soyuqluğu məni bu ara üşütdü. Və birdən-birəcə ruhdan düşdüm, çamadana baxmaq istəmədim. Bəyəm nə olası idi onun içində? Yəqin ki, az tapılan, xarici mal idi.

– Yaxşı, cavan oğlan, siz ki xaricdə olmamısınız, başqa şeylər bir yana qalsın, bəs bu çeklər nədir? – deyə milis rəisinin səsi məni diksindirdi. Az qaldım qışqıram ki, çek nədir? Ancaq özümü saxladım. Ona baxmaq əvəzinə Xalıq kişiyə baxdım. Başa saldım ki, cavab ver, bu hamısı sənin zibilindir. Məni yandı-

ran o oldu ki, Xalıq kişi heç vecinə almırdı. Guya, ona heç bir şeyin aidiyyəti yoxdur. O, bu rolu gözümün qabağındaca elə oynayırdı ki, handa bir artist bu cür oynaya bilməzdi. Özünü tamam kənarda tutmuşdu. Hiss edirdim ki, buna görə də, hətta məni günahlandırmaq iddiası da var. Əlim-ayağım yerdən-göydən üzülmüşdü. Belə də həyasızlıq olar?!

– Hə, nə deyirsiniz? – rəis mənə müraciətlə səsini ucaltdı.

Çiyinlərimi atdım. Nə var nə deyəm?!

Elə oradaca yazdılar, pozdular, akt bağladılar. Hələ Xalıq kişiyə qol da çəkdirdilər. Onu nə üçün yanlarınca sürüyürdülər, başa düşmürdüm. Mən tərəfə o, heç baxmırdı. Elə bil mənlə heç bir əlaqəsi yox idi.

– Aparın! – rəis üzümə baxmadan əmr etdi.

Aydındı ki, məni hara aparırdılar. Elə yerə aparırdılar ki, ağlım başıma gəlsin, bir də belə sarsaq iş görməyim. Əlacım nə idi?! Qabaqlarına düşüb getdim.

Bəli, məni beləcə həbs etdilər. Bir günahım olmaya-olmaya mən qalmışdım burda, bütün günahlar onda ola-ola o orda – azadlıqda kef eləyirdi. Yenə, yəqin, öz işində idi. Doğrudur, əlindən nə qədər pul çıxmışdı, ziyana düşmüşdü, amma yaxşı qurtardı. Yoxsa neçə il işi vardı. Gözləri cipbildiyə-cipbildiyə burda o oturacaqdı. Ancaq mən oturdum. Heç maraqlanan da yox idi. Mən dələduza oxşayırammı? Mən zəhmətsiz gəlir ardınca qaçarammı? Mən hansı şəraitlə böyümüşəm? Kimdən tərbiyə almışam? Bax, bunları da öyrənməli idilər. Məncə, orqan işçiləri adamla hərtərəfli tanış olmalıdırlar.

O yadıma düşdü ki, kənddə bir yay gedib çöldən üç yekə şələ süpürgə yığıb gətirmişdim. Babamla qom-qom bölüb süpürgə düzəltmişdik. Otuz süpürgə çıxmışdı. Beş-altısını evdə işlətməyə saxlamışdıq. Qalanını aparıb bazarda birini bir manatdan satmışdım. Otuz manat pul çıxartmışdım. Ondan özümə on iki manata ipək üst köynəyi, ev üçün də bir-iki şey almışdım. Bazarda bir kişi yaxınlaşıb onda mənə demişdi ki, satdığın süpürgədən nə qədər olsa alaram. Lap min dənə alaram. Gözüm kəlləmə çıxmışdı. Gör nə qədər pul eləyir. Qayıdanda babama dedim:

– Qırışmal köpəkoğlu qazanc etmək istəyir! – deyə babam başını yırğalamışdı. – Səndən əlli qəpiyə, bir manata alıb aparıb şəhərdə manat yarıma, iki manata satacaq.

– Bizə nə var? Neçəyə istəyir, satsın.

– Ondan gələn qazanca nə deyim?! Barmağını yaralayar, – deyə babam etinasızlıqla əlini yelləmiş, təklifimlə razılaşmamışdı. Süpürgə otunu yığarkən barmağımın qabığı, həqiqətən, soyulmuşdu. Xülasə, babamın belə şeylə qəti arası yox idi. Mən də, necə deyərlər, ondan dərs almışdım...

Belə zənn edirdim ki, mənim tutulduğumu eşitcək bizim binada yaşayanların çoxusu tökülüb gələcək. Məni müdafiəyə qalxacaq. Onlar yaxşı bilirdilər ki,

mən axmaq-axmaq işlərlə məşğul olmaram. Ona görə də gözləyirdim ki, gələcəklər. Ancaq bir gün keçdi, iki gün keçdi, üç gün keçdi, gəlib eliyən olmadı. Tamam ruhdan düşdüm. Kimin nəyinə lazım idi?! Hərənin başı öz işinə qarışıb. Adamların belə laqeyd, soyuqqanlı olması, biganəlikləri məni hədsiz mütəəssir etdi. Çox pis oldum. Bəs mənim yoldaşlarım harda qaldı? Bəs bunlar mənimlə maraqlanmadılarmı? Demədilərmi bu adam işə niyə gəlmir? Bəlkə, xəstələnib? Bəlkə, vəziyyəti yaxşı deyil? Bəlkə, bir şeyə ehtiyacı var? Özgə vaxtlar Sahibin ağzına çullu dovşan sığmır. Ona nə oldu? Heç olmasa bir dəfə gəlib məni yoxlayaydı? O da xəbər tutmadımı ki, başıma belə-belə iş gəlib? Bəlkə də, eşidiblər ki, belə olub, ona görə məndən üz döndəriblər. Məni yoldaşlıqdan çıxardıblar. Heç o adda adam tanımırıq, deyiblər.

Bəs dayım? O da məni bacıoğluluqdan çıxartdı? Axı qohum-qohumun ətini yesə də, sümüyünü çölə tullamaz. Yox! Eşitsə, necə olsa maraqlanardı. Gəlib yanıma mütləq dəyərdi, işdən halı olardı. Axırı bu fikrə gəldim ki, işdə eşitməyiblər. Eşitsələr, Sahib də dayım da durmazdı. Hələ, bəlkə, Kəmalə də gələrdi. İndi gəlib buraları bir-birinə qatmışdı. Lap milis işçilərinin özlərini borclu çıxartmışdı.

Əlimi beləcə qonşulardan da, yoldaşlarımdan da üzmüşdüm ki, gəlib məni çağırdılar. Sənlə görüşmək istəyənlər var, – dedilər. Düzü, daha həvəsdən düşmüşdüm, istəmirdim. Bununla bərabər, məni maraq bürüdü ki, görəsən, gələnlər kimdir? İstər-istəməz durub getdim. Görüş otağında dayımla Mirişi, bir də Sahibi görcək özümdən asılı olmayaraq qaşqabağım töküldü. Belə gec gəldiklərindən narazı qaldığımı bildirdim. Ancaq hər halda, gəlmişdilər. Görünür, əvvəlcə Sahib xəbər tutub, o da dayıma deyib. Onların bir-birlərilə araları olmasa da, mənim başıma gələn hadisə bu adamları birləşdirib. Məni öz şəxsi hesablarından, hislərindən, qərəzlərindn üstün tutublar. Ancaq mən bunların qabağına nə üzlə çıxırdım, bilmirəm.

– Ə, Mahir, bu nə olan işdir? – deyə dayım o dəqiqə məni qaraladı. Bu bir-iki kəlmə mənə çox şey dedi. Yəni ki, niyə belə iş tutmusan? Səndən heç gözləməzdim. Pul lazımın idi, mənə deyəydin. Amma bizi biabır etməyəydin. Şübhəsiz, məsələnin nə yerdə olduğundan xəbərdar idilər. Məəttəl qalmışdım ki, nə deyəm? Heç nə! Məsələnin nə yerdə olduğunu başdan-binədən deməmişdim, indi dayıma deməyin mənası nə idi?! Təzədən buna kim inanardı? Deməzlərmi işi əvvəlindən niyə deməmisən? Niyə susmusan? Həm də nəsə özümə sığışdırmadım. Xalıq kişini ələ verməklə istəmədim, aramız dəymiş olsa da, hər halda, bu ailəni mən tanıyırdım. Evində olmuşdum, çörəyini kəsmişdim, beləcə onlara yaxınlıq etmişdim. Hər şeydən qabaq, arada Hilalə var idi. Vaxtı ilə bu qızla aramızdan su keçmirdi. İndi eşitsə ki, mən bu cür hərəkət etmişəm, onun atasını «satmışam», o zaman mənim haqqımda nə fikirdə olardı. Mənə nifrət et-

məzdimi?! Ən birincisi vaxtı ilə mənimlə yaxınlıq etdiyinə təəssüflənməzdimi?! Yox! Yox! Bircə bunu istəmirdim. Ona görə bir kəlmə söz demədim. Belə çıxırdı ki, bu, həqiqətən, mənim işimdir. Dillənmədiyimi görüb dayımla Sahibin gözləri kəllələrinə çıxmışdı. Bəlkə də, fikirləşirdilər ki, necə olub ki, məni tanımayıblar.

Məni bir az tənbeh edib, düşdüyüm vəziyyətə bir az da acıyandan sonra Mirişlə dayım bir-birlərinə baxışdılar. Və bu baxışmanın başqa mənası yox idi. Bir o idi ki, bu yetimi burdan necə qurtaraq? Heç necə! Tərtib olunmuş sənədləri təzədən məhv etmək, heç nə olmamış kimi məni təmizə çıxarmaq müşkül iş idi. Bunu mən bilirdim. Ancaq bunlar fikirləşirdilər ki, nə etsinlər.

– Rəis burda yoxdur, yoxsa danışardıq, – deyə dayım fikir-qayğı içində əlilə çənəsini ovuşdururdu.

Miriş də bu yandan dilləndi:

– Əşi, nə olasıdır, düzəldərik, bir adam var, bu axşam görərəm, məncə, yaxşı olar.

Miriş çox asan, yüngül bir iş kimi danışdı. Həqiqətən də, onun dairəsi çox geniş idi. Bu boyda şəhərdə, bəlkə də, tanımadığı adam yox idi. Tikintiyə, onun yanına o qədər adam gəlib-getmişdi ki! Hamısını gözümlə görmüşdüm. Ona bizim tikintinin daşı, qumu, sementi, taxta-şalbanı idi tablayırdı, yoxsa dəryanın suyu olsa belə tükənərdi. Birinə ev tikdirirdi, digərinə bağ düzəldirdi. Adam da çox idi, iş də. Ona görə inandım ki, bu məni xilas edə bilər. Əlindən gələrdi. Onun üçün bəlkə də, bir içim su kimi bir şey idi. Amma istəməzdim o mənə kömək eləsin. Özümü pis hiss eliyərdim. Onun köməkdarlığına, himayəsinə sığınıb azadlıqda gəzməkdənsə, burada oturmaq min dəfə yaxşı idi. Yox. Elə bir adamın minnətini götürmək istəmirdim. Ona görə də etiraz etdim.

– Lazım deyil. Xahiş edirəm mənə görə narahat olmayın.

Dayım təəccüblə üzümə baxdı. Bu necə danışıqdı? Sən nəyə arxayınsan. Qoysana Allah bəndəsi bir iş görə?

Mən isə sözümün üstündə durdum.

– Sizdən artıq dərəcədə xahiş edirəm, mənim işimə qarışmayın.

Mənə elə gəldi ki, dayımın gözləri böyüdü. Ya mənim ağlımın yerində olmasına şübhə elədi, ya da fikirləşdi ki, bəlkə, qulaqları yaxşı eşitmir.

– Doğru sözündümü?

– Lap doğrudan doğrudu!

Dayımın qaşları çatıldı. Üzümə baxıb-baxıb, bir qədər götür-qoydan sonra dedi:

– Yaxşı, mən kəndə gedirəm bu axşam. Babanın qırxına, qayıdıb gəlləm danışarıq! – Sağollaşıb getdi.

Həəə. Gör başım necə qarışıb ki, babamın qırxı da gəlib çatıb. Heyhat. Çox pis oldu. Axı mən də getməli idim babamın qırxına. Axırıncı borc idi. Bu məsələ məni kövrəltdiyindən təzədən dayıma yaxın getdim:

– Dayı, bunu sənə demək artıqdır, görürsən ki, mənim getmək imkanım yoxdur, ancaq bir xahişim var.

– Buyur.

– Xahiş edirəm mənim bu işimi heç kəsə demə. Nə nənəmə, nə anama. Heç kəsə. Eləcə de: işi çox idi, özüm qoymadım gəlməyə. Sizə inanarlar. Yaxşımı, dayı?

– Yaxşı, – dayım başını tərpətdi.

Dayımgil yanımdan çıxandan sonra elə dolmuşdum ki, hirsimdən az qalırdım ağlayam. Mənə ən çox yer eliyən babamın qırxına getməməyim idi. Hər halda, yaxşı olmadı. Camaatdan da eyib idi. Deyəcəkdilər ki, görürsünüz, yekəbaşlıq eləyib gəlmədi. Amma rəhmətlik o kişi onun üçün çox zəhmət çəkmişdi. Özü yeməyib ona yedizdirmişdi, nə çətinliklə, nə müsibətlə ərsəyə çatdırmışdı. Yazıq nə biləydi ki, axırda belə vəfasız çıxacaq, çörəyi dizinin üstə olacaq.

Üç-dörd gün sonra dayım yenə yanıma gəldi. Miriş də yanında idi. Özü də əhvalı xüsusilə yaxşı idi. Üzümə baxıb irişirdi. Ya mənim bu vəziyyətimə gülürdü, ya da şad xəbərlə gəlmişdi. Onu əvvəlcədən hiss elətdirirdi. O, dayımdan qabağa düşərək:

– Ə, necəsən bacıoğlu? – dedi.

– Sağ ol, yaxşıyam, – deyə mən də özümü sındırmadım və dayıma sarı çevrildim. Rayondan qayıtdığını bilirdim. Dünən də Sahib yanıma gəlmişdi. Özünün dediyinə görə, çox çətinliklə görüş almışdı. Dayımın gəldiyini o mənə demişdi. Buna baxmayaraq, yenə soruşdum:

– Dayı, nə vaxt qayıtmısan?

– Dünən səhər.

– Necə keçdi? – Babamın qırxını soruşdum.

– Yaxşı! Gələn çox idi.

Belə olacağını bilirdim. Bizim kəndin camaatı xeyrə-şərə çox yaxşıdır. Bircəciyi kənarda qalmaz. Əcikdən-cücüyə elə tökülərdilər ki, hərə bir işin qulpundan yapışar, elə edərdilər ki, bəzən heç ev yiyəsinin xəbəri olmadan hər şeyi özləri təşkil edərdilər. Hamını ədəb-ərkanla qarşılayar və qayda-qanunla da yola salardılar.

– Nənəmgil nə təhərdirlər?

– Yaxşıdırlar. Hamısı yaxşıdır. Qaldı sənin məsələn. Sağ olsun Miriş, düzəldib. Mən gələnəcən danışıb düzəldib. – Xeyir xəbər üçün dayımın da dodaqları qaçdı.

Ancaq mən istəyirdim ki, kim düzəldir düzəltsin, yalnız Miriş düzəltməsin. Bu Allah bəndəsi şəxsən mənə heç nə eləməmişdi. Ancaq xoşum gəlmirdi. Bəzən elə olurdu ki, iti görüm, qurdu görüm, bircə onu görməyim, – deyirdim. Miriş bu dərəcədə mənim gözümdə aşağı adam idi.

– Hə, bacıoğlu, sözünü dəyişməli olacaqsan.

– Sözümü?

– Hə daa, verdiyin ifadəni dəyişəcəksən.

Ağlıma batmadı. Ancaq yenə də soruşdum:

– Dəyişib nə deməliyəm?

– Mərhum ev sahibinin üstə atmalısan. Deməlisən ki, bu şeylə o, məşğul olurdu. Başqa əlacı yoxdur.

Hmm. Gör məni nəyə təhrik edirlər. Xalıq kişi də belə demişdi. Bir «məktəb»dən dərs alıblar. İt itin dilini bilər, deyərlər. Görünür, bu işin başqa düzəlmə yolu yoxdur. Yaxşısı budur ki, bunu da mənə təklif edirlər. Amma fikirləşib gördüm ki, bunu heç cür edə bilməyəcəm. Biləm ki, məni boğazımdan asacaqlar, yenə Xanım ananın adını dilimə gətirə bilmərəm. Belədə gərək mən ömrü boyu əzab çəkəm. Xanım ananın verdiyi çörək burnumdan gələr. Ondansa elə düzünü deyərdim. Onu deməyən adam bu cür etibarsızlıq, alçaqlıq edərmi? Qəti şəkildə, bir az da əsəbi halda başımı buladım.

– Yox, dayı, yox! Mən sözümü dəyişə bilmərəm.

– Niyə? Orda nə var ki, dəyişmirsən? Desən, onu mühakimə edəcəklər?

– Məsələ onda deyil, dayı.

– Bəs nədədir?

– Mən onun xatirəsinə necə ləkə gətirə billəm? Bilirsən o, necə arvad idi?!

– Olsun daa. Sən onu tutdurmursan ha!

– Yox eyy, dayı, mən onun ruhuna nə cavab verrəm?!

– Sən bu boş sözləri hardan öyrənmisən?

– Boş niyə olur?

– Səncə, doludur?! Dolu bax, budur ki, Miriş bir əncam çəkib. Yoxsa sənə iş düşür, əlli-ayaqlı gedirsən.

– Ölünün dalınca danışmaq özü də ölmək kimi bir şeydir, dayı!

Dayım üzümə baxıb-baxıb çiyinlərini çəkdi. Bu o demək idi ki, bu necə adamdır, xeyrini-şərini də başa düşmür?

Onlar məndən çox böyük təəssüf hissilə ayrıldılar. Hətta dayım mənə acıq da elədi:

– Özün bil, – dedi, – mənim sənə yazığım gəldi, elədim, indi ki, istəmirsən sənə yaxşı, mənə daha yaxşı!

Mən elə bilirdim ki, dayım başa düşən adamdır. İndi gördüm ki, yox! Bəs bu adam bilmirmi ki, mənə yaxşı deyil. Bir adamı ki, tutub basalar, onun üçün necə yaxşı olar?! Ancaq çarə yoxdur. Mən Xanım ananın adını heç cür çəkə bilmərəm. Bu cəhətdən, əlbəttə, mən özümdən razı idim. Ancaq o biri cəhətdən işi şuluqlamışdım. Əsas oxumağımın dərdini çəkirdim. Qorxurdum institut əldən gedə. Mən elə onun ucbatından çöllərə düşmüşdüm. Yoxsa nə çoxdu kənddə iş.

Qollarımı çırmalayıb orda işləyərdim. Orda mənim üçün daha asan olardı. Bəli, instituta, ali təhsil almağa görə belə əziyyətlərə düşürdüm. O da gəlib belə oldu. Özüm-özümü əngələ saldım. Təmizə çıxa bilməsəm, xəbər tutsalar, əmr verib o dəqiqə institutdan xaric edəcəklər. Bununla da hər şey alt-üst olub gedəcək. İnstituta girmək asan iş deyil! Mənim gələcək inkişafım, həyatda müəyyən mövqe tutmağım ali təhsil almağımla çox bağlıdır. Özgə heç bir şeyə heyifsilənmirdim. Qəlbən hələ bir az da rahat idim. Çünki oğurluq etməmişdim, pis bir iş görməmişdim. Elə xəcalətli işim yox idi ki, camaatın üzünə baxa bilməyəm. Bunu başqaları bilməsə də, mən özüm bilirdim. Çox axmaq bir söz olan «alverçi» gəlməsi mənim üstümdə qalsa da, ürəyimdə gülürdüm ki, əcəb «alverçi» tapıblar. Əgər oğru-əyrilərlə, zəhmətsiz gəlirlə yaşayanlarla bu cür mübarizə edilirsə, onda vay halımıza. Kim bilir, bəlkə, elə məni tutanlar da əyri adamlardır. Kim bilir, bəlkə, indi tez-tez yanına çağırtdırıb məni danışdıran müstəntiqin özü də düz əməlli adam deyil. Ağlıma gəlirdi, amma inana bilmirdim. Xalıq kişi barəsində düşünəndə isə ayağımın altından yer qaçırdı. Əvvəl-əvvəl bu kişi məni o qədər də təəccübləndirmirdi. Amma sonra tam əmin oldum ki, bu çox dəhşət adamdır. Beləsi öz canı üçün yüzünü bada verər. Necə ki məni belə elədi. Görəsən o, indi evində necə rahat oturub? Bəs mən yadına düşürəmmi? Görəsən, gecələr onun gözünə necə yuxu gedir? Düzü, mən heç cür inana bilmirdim ki, o, məni tamam unutmuş ola. Hardasa mən onun yadına düşməyəm. Bu, əlbəttə, mümkün deyildi. Ancaq bilmirdim mənim haqqımda nə fikirləşir? Məsələ elə-belə qalacaqmı? Yoxsa bu kişi bir qeyrətə gələcək. Döşünü qabağa verəcək. Deyəcək ki, onun heç bir təqsiri yoxdur, mənəm günahkar. Qayışlı çamadandan onun qəti xəbəri yoxdur...

Ancaq neçə gün keçdi. Xalıq kişi isə görünmədi. Guya, nə belə hadisə olmuşdu, nə də ki o, məni tanıyırdı. Bəs ailəsi buna necə baxırdı? Arvadı, hər halda, məsələni bilməmiş olmazdı. Planı, bəlkə də, birgə fikirləşiblər. Hilalə necə? Görəsən, əhvalatı eşidibmi? Məsələnin nə yerdə olduğunu bilirmi? Əgər bilirsə, valideynlərinin bu hərəkətinə, onların mənə qarşı çox ədalətsiz bir iş gördüklərinə necə baxır? Düzü, bu sual məni xeyli düşündürdü. Nəhayət, ondan da ağlım bir şey kəsmədi. Ortalıqda nahaqdan özümü bəlaya saldım. Necə deyərlər, centlmenlik elədim. Daha demədim ki, indi ayrı zəmanədir, kimdir buna qiymət verən.

Məhkəməni gözləyirdim. Yaxşı bilirdim ki, mənə iş kəsiləcək. Əlvida azadlıq! Çünki iş mənim üstümdə qalmışdı. Doğrudur, dayım vəkil tutmuşdu, o, məni müdafiə etməyə çalışacaqdı. Məni də öyrətmişdilər ki, belə de, elə de. Qərəz indi nə deyəcəyimi də bilmirdim. Hamısı yadımdan çıxmışdı. Onu bilirdim ki, bu çirkin işi Xanım ananın adından, onun xatirəsindən uzaq tutmağa çalışacam. Hətta elə edəcəm ki, onun adı qəti çəkilməsin.

Məhkəməyə kimlər gəlmişdi, zalda kimlər oturmuşdular? Bundan xəbərim yoxdu. Ancaq belə ötəri baxmışdım ki, zal doludur. Gördüm dayım da burdadır, Miriş də, Sahib də, göyçəli Məhəmmədin oğlu da onun yanında oturub. Hamısı da mənə baxır. İş yoldaşlarımdan yenə olmamış deyildi. Mənim işimlə maraqlanıb gəlmişdilər. Yəqin, təəccüb edirlər ki, bu necə olan haqq-hesabdır? Axı onlar məni belə tanımırdılar. İndi, görəsən, inanırlarmı ki, mən, həqiqətən, yaxşı adam deyiləm. Bəlkə də, belə olmağıma inansalar, gəlməzdilər. İnanmadıqları üçün gəliblər. Yəqin, danışacaqlar, mənim barəmdə öz fikirlərini deyəcəklər. Onları görəndə məni nədənsə hamıdan çox göyçəli Məhəmmədin oğlu maraqlandırırdı. Daha doğrusu, atasının ona yazdığı məktublar yadıma düşürdü. Fağır kişi oğlunun instituta girməsi məsələsindən çox nigaran idi. Onun əsas qayğısı, dərdi, azarı bircə bu idi. Məktubunda yazıb dönə-dönə tapşırırdı ki, oğul, imtahanlara indidən hazırlaş, hamısını əzbərlə, elə elə ki, heç bircə şey də qalmasın. Sən bilәndən sonra axı kim səni kəsər?..

Məni ayağa durquzub dindirəndə tez ev sahibinin üstə gəldilər.

– Vətəndaş Mahir, demək, siz yaşadığınız evdə kirənişin qalırsınız?

– Bəli.

– Kimin evində?

– Bir qadının.

– Qadının adı? Suala bütöv, ətraflı cavab verin.

– Xanım ana.

– Demək, Xanım?

– Bəli, Xanım ana. – Səsimdəki acıq hiss olunmamış deyildi.

– Vətəndaş Mahir, siz Xanım ananı yaxşımı tanıyırdız?

– Bəli!

– Necə adam idi?

– Yaxşı!

– Bəlkə?

– Bilirsinizmi, – əsəbiləşdim, – gəlin o arvadla işiniz olmasın. Ölənin dalınca danışmazlar.

Xülasə, duruşumdan, baxışımdan, səsimin ahəngindən hiss etdilər ki, bu başqa cür mümkün deyil. Mən bu ara dayımla Mirişə fikir verdim. Onlar bu cür danışmışdılar. Bu qurğunu onlar qurmuşdular. Lazım olan adamları görüb belə razılaşmışdılar. İndi birdən-birə qaşqabaqlarını tökmələrindən, ağız-burunlarını büzmələrindən hiss etdim ki, məndən narazı qaldılar. Bu fikirdə oldular ki, başım çatmır, xeyrimi bilmirəm, işıq gələn yerə papağımı tıxayıram.

Mənim belə kəskin etirazımdan sonra hakim də dəyişildi. Mənə qarşı, deyəsən, bir az sərtləşdi. Hə, neynək. Belə şeynən qorxan deyildim. Onsuz da mənə

olan olmuşdu. Bir il əskik, bir il artıq o qədər də fərqi yox idi. Əsas bu boyda biabırçılığı götürmək idi. O da mənim üstümdə qalmışdı.

Bu ara gördüm ki, Xalıq kişi lap qabaqda birinci cərgədə oturub. Bəlkə də, o, şahid kimi iştirak edirdi. Öz zibili ilə məni günahlandıracaqdı. Baxıb-baxıb ürəyimdə onu söydüm.

Hər halda, rahat deyildi. Canında qorxu var idi. Amma hər vasitə ilə çalışırdı ki, özünü soyuqqanlı tutsun, təlaşını büruzə verməsin.

Axı necə ola bilərdi ki, burda bu adamı bir tanıyan olmasın, onun pis-pis əməllərini, işlərini bilməsin? Bəlkə də, tanıyırdılar, bilirdilər, amma səslərini çıxarmırdılar. Yəqin, bu da hardasa onların karına gəlirdi, işlərinə yarayırdı. Onlara nəsə görüm-baxım eləyirdi. Bu cür adamlara haradasa daha çox hörmət edirlər...

Belə fikirləşəndə çox pis oldum, bütün qəlbimi qəribə bir ruh düşkünlüyü çulğaladı. Heç kəsə, heç nəyə etibarım qalmadı. Doğrudanmı dünya, adamlar bu dərəcədə xarab olublar. Nənəm birində bir nöqsan, nəsə düzgün olmayan bir iş görəndə həmişə: «Ay oğul, dünyanın bici çıxıb! – deyərdi. Ay Allah, niyə durmusan, daş yağdırsana!» Ədalətsiz işlərə qarşı etirazını bu cür bildirər, sözlə üsyan qaldırardı. Bax, indi böyürdən çıxaydı, özü də işin nə yerdə olduğunu biləydi, onda görərdin nə oyun açırdı, deyərdi: «Ədə, a qurumsaq, acdıqda, qıtdıqda səndən ötrü uşaq saxlamışam ki, üstünə şər atıb, evini yıxasan?! Bəs sənin insafın, mürvətin yoxdur?! Heç bilirsən o kimin oğludur?! Onun atası sənin kimi alçaqların  yolunda can qoyub, qan töküb!..»

Salonda elə sakitlik idi ki, elə bil burda heç adam yox idi. Çoxu da mənə baxırdı. Gözlərini mənə zilləmişdilər.

Məhkəmənin işinin belə gərgin, intizarlı getdiyi bir vaxtda salonda keçid qapılarından biri cırıldayıb açıldı. Hamı dönüb o tərəfə baxdı. Çox qəşəng geyinmiş sarı saçlı bir qız idi. Adamların dönüb ona baxmasından o da özünü itirən təki oldu, utandı, tez keçib boş yerlərdən birində oturdu. Qabaq cərgələrdəki adamların kürəyi arxasında özünü gizlətməyə çalışdı ki, nəzər-diqqətdən yayınsın. Sifəti mənə tanış gəldi. Amma kim olduğunu araşdıra bilmədim. Elə bu zaman:

– Müttəhim Mahir, siz bilirsinizmi nədə təqsirləndirilirsiniz? – deyə bu ara məhkəmənin sədri mənə müraciətlə səsini qaldırdı. İttihamnaməm mənə bəlli olsa da, sədr bunu bir daha deməyi, elan etməyi lazım bildi. Elə bil başa salırdı ki, bax, yaxşı-yaxşı fikirləş.

Mən isə işi tərsinə çəkdim:

– Xeyr! – dedim.

– Necə bilmirsiniz?! Bəs qayışlı çamadan?..

Məhkəmənin öz qayda-qanunu var. Nə soruşsalar cavab verməlisən, özü də həqiqəti deməlisən. Mənsə susurdum. Bilmirdim nə cavab verəm. Başımı sinəmə salıb heykəl kimi dayanmışdım. Birdən:

– Olarmı? – deyə məhkəmə salonuna indicə daxil olub arxa cərgədə oturmuş sarı saçlı qız ayağa qalxaraq əlini irəli uzatdı.

Mən səsindən qızı o dəqiqə tanıdım. Bu, Hilalə idi. Bayaq elə bil yaxşı baxmamışdım. Məni dərin maraq bürüdü ki, bu qız niyə gəlib və o indi əlini uzadıb nəyəsə icazə istəməkdə məqsədi nədir? Bu ara salondakı adamlar da dönüb ona baxırdılar. Xalıq kişinin də oturduğu yerdəcə boğazı uzana qalmışdı. O, qızına nəsə təlaşla baxırdı. Elə bil nədənsə şübhələnmişdi. Ürəyinə nəsə dammışdı. Axırı dayana bilməyib ayağa qalxdı və adamların başı üstündən boylandı.

Qız isə hələ də əlini irəli uzadıb icazə istəyirdi. Məhkəmənin sədri dedi:

– Sizin sözününz var?

– Bəli!

– Buyurun!

Qız cərgənin arasından çıxıb qəti addımlarla qabağa gələndə hamını intizarlı bir maraq bürümüşdü ki, o, nə deyəcək? Amma atası Xalıq kişinin sifəti avazıyıb ölü sifətinə dönmüşdü. İmkanı olsa, qabağa durub qızı geri qaytarardı. Qolundan tutub ağzına bir şapalaq çəkərdi, ağzının, burnunun qanını bir-birinə qatardı. İndi isə hiss eləmişdi ki, bunların heç birini eləməyə imkanı yoxdur. Ona görə çox gərgin vəziyyətdə xırısdaşıb qalmışdı. Camaatın içində səsini çıxarda bilmirdi.

Qız adamların qabağına çıxar-çıxmaz məhkəmənin sədri soruşdu:

– Adınız, familiyanız?

Qız adını, atasının adını deyəndən sonra dərhal əlavə elədi:

– O çamadan bu oğlanın deyil. Bizimdir! – dedi. – Bunu atam Xalıq kişi də təsdiq edər.

Salonda qəribə bir dalğa gəzdi. İşin birdən-birə beləcə dəyişilməsinə hamı məəttəl qalmışdı. Mən heç gözləmirdim. Qız həyəcanlı olduğu üçün qıpqırmızı qızarmışdı. Əlbəttə, bu onun üçün çox çətin idi. Atasının əksinə gedirdi. Onu dolaşdırırdı, paxırlarını açırdı. Övladın belə hərəkət eləməsi, həqiqətən, çətin idi. Ancaq qız, görünür, məcbur olmuşdu. Çox düşünüb daşındıqdan sonra, nəhayət, bu qərara gəlmişdi. Hiss olunurdu ki, ata-bala arasında dəhşətli bir ayrılıq, ziddiyyət yaranmışdı.

Xalıq kişi, həqiqətən, özünü saxlaya bilmədi. Çox əsəbi bir vəziyyətdə:

– Yalan deyir! – dedi. – O heç özü bilmir nə danışır!

Qız çevrilib atasına baxdı.

– Ata!

– Əşşi, nə ata-ata salmısan?! – Xalıq kişi əlini tərpədərək onun üzünə çımxırdı.

– Mən sənə kömək etmək istədim, ata!

– Hə! Köməyini görürəm! Başımı yarıb qoynuma qoz doldurursan!

– Mən sənin vicdanını xilas etmək istədim.

– Hm. Vicdanımı xilas etmək istədin. Qəribə məntiqdir. Özümü tutdurur, amma vicdanımı xilas edir.

– Vicdan təmiz olanda quyunun dibində də yaşamaq olar, ata.

Onlar belə sərt danışacaqlarını, etirazlarını bir-birlərinə belə açıq deyəcəklərini, bəlkə də, heç ağıllarına gətirməmişdilər. Ancaq vəziyyət, şərait hər kəsin öz daxili inamından irəli gələn hikkə o cür yarandı ki, ata-bala olsalar da, fikir mövqelərini aşkarca deməli oldular. Səhvmi elədilər, doğrumu elədilər, demək çətindir, ancaq bu cür oldu. Məhkəmənin işçiləri də onlara mane olmadılar. Əksinə, imkan verdilər ki, hər kəs öz ürəyindəkini bildirsin. Hətta bunlar o qədər qızışmışdılar, hissə o qədər qapılmışdılar ki, sözlərinə, mübahisələrinə kənardan müdaxilə edən olsa belə, hesab edin ki, eşitməzdilər. Aşkarca hiss olunurdu ki, qız atasının mənə qarşı bu cür ədalətsiz, vicdansız hərəkət etməsindən çox dəhşətli dərəcədə əsəbiləşib. Bunu heç cür yeyə bilməyib, nə o boyda kişi olan atasına, nə də özünə sığışdırmayıb, ümumiyyətlə, ailələrinə yaraşdırmayıb. Görüb ki, heç cür susmaq mümkün deyil. Axırda qaçıb özünü bura çatdırmışdı.

Hilalənin çıxışı məni xilas edirdi. Amma mən qıza görə, ata-bala arasında belə bir vəziyyət yaranmasına görə mütəəssir olmuşdum. Çətin ki atası onu bağışlayardı. Heç ağlım kəsmirdi. Xalıq kişi genişqəlbli adam deyildi. Lakin başa düşsə, bilsə də ki, qızı düz deyir, onun ürəyi düzəlməzdi.

Qızın isə bu cür çıxışı camaata çox yaxşı təsir bağışlamışdı. Hamı nəfəsini içinə çəkib ona diqqətlə qulaq asırdı. Buna, hətta məhkəmənin işçiləri də təəccüb qalmışdılar. Düz danışdığına da inanırdılar. Üzlərinin ifadəsindən bilinirdi. Bununla bərabər, mənim belə-belə işlərdən uzaq olduğumu, bəlkə, bunlar özləri də yəqin etmişdilər. Ancaq məsələ burasında idi ki, çamadan mənim yaşadığım evdən tapılmışdı. Kələfin ucu mənim əlimə-ayağıma dolaşmışdı. Mən də ki bunun necə olduğunu gizlədirdim. İstintaq gedən zaman üstümə çox düşmüşdülər ki, düzünü deyim. Bəlkə də, məsələnin əsl həqiqətdə harda olduğunu bilirdilər. Ancaq mənim dilimdən eşitmək istəyirdilər ki, sübuta yetirsinlər. Mən isə... O barədə bir kəlmə də söz deməmişdim. Danışıqlarımda, verdiyim izahatlarda həmişə Xalıq kişidən uzaq getmişdim. Qonşu olsa da, guya, elə bir adamı yaxşı tanımırdım. Qızını da belə xoşagəlməz hərəkətə, demək, mən vadar etmişdim. Elə hesab edin ki, mən onu hazırlamışdım. Susmağımın, işin nə yerdə olduğunu açıb deməməyimin ucbatından o məsələyə qarışmalı olmuşdu. Qızı ata tənbehindən, ata lənətlərindən xilas etmək üçün mən nə edə bilərdim?! Mən başa düşürdüm ki, bu ona necə ağır zərbədir. Bu saat onun paxırının, əyri işlərinin

üstünün açılmasından çox qızının bu cür, hamının gözü qabağındaca onun üzünə ağ olması yandırır. Düşməni onun öz evindəcə, ocağının qırağında imiş...

Xalıq kişi başını aşağı salıb fikrə getmişdi. Bəlkə də, düşünürdü ki, niyə belə oldu? Niyə bu qız mənim əleyhimə getdi? Bunların səhvləri harda oldu? Günah onda idi, yoxsa məndə? Ata üçün, bu həqiqətən, çox ağır zərbə idi. Elə bil beyni silkələnmişdi. Ona görə səhvin kimdə olduğunu ayırd edə bilmədi. Yalnız onu bilirdi ki, çox pis vəziyyətdə qalıb. Onu elə bil vəhşi heyvan kimi dağdan-daşdan qovub-uçurub, nəhayət, gətirib burada – bu bir bölük adamın qabağında daşa-divara qısnamışdılar. Daha qaçmağa, buradan çıxmağa yeri yox idi. Bu deyilənləri rədd etmək, üstündən atmaq üçün danışmağa dili gəlmirdi. Fikirləşdikcə Xalıq kişinin köpü yatır, üfürülmüş şar kimi kiçilirdi, qırışıb içinə yığılırdı.

Qız bayaqdan sözünü deyib qurtarmışdı. Gözləyirdi ki, bəlkə, ondan bir söz soruşdular. Hazır idi cavab verməyə. Məhkəmənin sədri isə üzünü Xalıq kişiyə tutdu.

– Bəlkə, sizin bir sözünüz var?

Xalıq kişi çaşmış halda əlini döşünün üstə qoydu.

– Mənim?

– Bəli.

– Yox, yoxdur! – Xalıq kişi başını buladı...



## XVIII

Bu hadisədən sonra işə çıxanda birinci Sahibi görmək istədim. Düzdür, iş yoldaşlarımın hamısı mənim üçün əziz idi. Onların hər birini görmək mənim üçün olduqca xoş idi. İş yoldaşlarımdan ötrü hədsiz darıxmışdım. Sahibdən ötrü isə burnumun ucu göynəyirdi. Onun yeri ayrı idi. Bu bir neçə vaxtın ayrılığından mənə bəlli olmuşdu ki, Sahibi daha çox istəyirəm.

Hamı ilə görüşdüm, hal-əhval tutdum, danışdıq, güldük. Amma gözüm elə oyan-buyana baxırdı. Sahibi axtarırdım. Dözə bilməyib göyçəli Məhəmmədin oğlundan soruşdum:

– Ə, Sahib hanı? Axı o, işə gecikən oğlan deyil?

– Sahibmi, qağa?.. – Göyçəli Məhəmmədin oğlu sualıma nə üçünsə birbaşa cavab vermədi. Ondan ürəyim sancdı. Amma o gün məhkəmədən sonra Sahiblə görüşmüşdük, di gəl, yaxşı söhbət edə bilməmişdik. Dayım məni maşına basıb düz birbaş «İnturist»ə aparmışdı. Orada mənim şərəfimə qonaqlıq vermişdi. Məclisdə Miriş də iştirak etmişdi.

– Gəl, Sahib, gəl! – deyə onu da dəvət etmişdimsə, Sahib «sağ ol, sağ ol!» – deyib aralanmışdı. Fikirləşmişdim ki, yəqin, Mirişə görə belə edir. Əslində, bilirdim ki, Sahibin dayımla da arası yoxdur.

– Hanı, ə, Sahib? – deyə göyçəli Məhəmmədin oğlundan bir də soruşdum.

– Sahib burda işləmir, qağa! – göyçəli Məhəmmədin oğlu, nəhayət, cavab verdi.

Fikirləşdim ki, bu oğlan dəli-dəli nə danışır. Necə yəni Sahib burda işləmir? Bəs harda işləyir?

– Sahibi burdan çıxartdılar, qağa. İndi hardasa özgə yerdə işləyir. Özü də elə birdəfəlik gedən oldu, dönüb bir geri yanına baxmadı ki, xəbər alaq hara gedirsən? O gün sənin yanında gördüm. Onda da soruşdum, demədi. Hə... Çıxardanda da adını demoqoq qoydular. Guya, camaatın işinə mane olur...

Daha bu boyda yalan olmazdı. Elə dilxor oldum ki, əhvalım bütüncə pozuldu. Ancaq bu xəbər məni heç də təəccübləndirmədi. Belə olacağını bilirdim. Mirişlə o cür davasından sonra onun burda qalması çətin idi. Hələ yaxşı idi, Miriş bir yerə şikayət etmədi. Sahib üçün yaxşı olmazdı. Əslində, Miriş öz qorxusundan səsini çıxartmamışdı. Ehtiyat etmişdi ki, bu da hardasa ağzına gələni deyə bilər. Birinə inanmasalar da, birinə inanarlar. Axırı hayıfını o da bu cür çıxmışdı. Başından rədd eləmişdi. Dərə xəlvət, tülkü bəy. Hələ Miriş biclikdə mən adam görməmişdim. İşini altdan-altdan görərdi. Yuxarı vəzifələrdə olan adamlarla elə danışar, onların qılığına elə girərdi ki, deyərdin dünyada bundan işgüzar və bundan düz adam yoxdur. Dayıma da nə deyim?! Kim nə deyir inanırdı. Təqsirin böyüyü elə onda idi.

Bütün bunlarla yanaşı, mən bu qənaətə gəldim ki, Sahib özü gedib. Bunlarla üz-üzə gəlmək, icəşmək istəməyib. O da yəqin ki, mənim xətrimə. Sadəcə olaraq məndən keçməyib. Qabaqlar da dayım haqqında o, bir söz deyəndə, müəyyən bir düzgün olmayan iş barəsində onu tənqid edəndə görürdü ki, mən qaşqabağımı sallayıram. O dəqiqə səsini kəsirdi. İndi də qorxub ki, ondan inciyəm, hər necə olsa da, dayımdır. Ona görə də kirimişcə çıxıb gedib.

Onu da bilirdim ki, Sahibin Kəmalədən xoşu gəlir. Bəlkə də, ürəyində sevirdi. Amma tərəddüd edirdi. Nəyə görəsə, qıza ürəyini açıb, məsələni birdəfəlik həll eləmirdi.

Bir dəfə qızın barəsində mənə üstüörtülü danışdı.

– Yaxşı qızdır, amma...

– Amma nə?

– Bir az üz-gözünə çox yaxır, görmürsən özünü nə şəklinə salır?

– Nə olsun?! İndiki qızların hansı eləmir? Səliqə-sahmanına fikir verəndir. Nəyi pisdir?

– Səliqə ayrı, mən deyən ayrı, – deyə yenə öz fikrinin üstə dayandı.

Qərəz bu belə tərəddüd eliyən zamanlarda dayım böyürdən çıxıb qızı alıcı quş kimi götürdü. Sahib yana-yana qaldı. Bu dərdi üzə salmasa da, hiss edirdim ki, içəridə yanır. Onsuz da dayımla arası yox idi. Buna görə də ondan tamam

zəhləsi getmişdi. Mirişi də heç görməyə gözü yox idi. Amma mənə görə kirimişcə çıxıb getməyi üstün tutub. Yoxsa onu burdan tərpətmək olmazdı...

– Əşi, neyniyək, iş işdir, burda olmasın, orda olsun. Sahib üçün nə fərqi var? – deyə əlimi yellədim.

– Məsələ elə deyil, qağa. Adamı o yandırır ki, bir para adamlar necə istəyirlər, elə də hərəkət edirlər. Elə bil onlar üçün qanun-zad yoxdur.

Kərəmin bu sözlərini eşidəndə mən Sahibdən çox bunun haqqında düşündüm. Onun dəyanətli oğlan olması barədə yanılmadığıma sevinc hissi keçirdim. Çünki mən bu oğlanı tərifləyəndə dostum Sahib başını bulayıb deyərdi:

– Çatışmayan cəhətləri çoxdur.

– Məsələn?..

– Hamını bir gözdə görür. Hamıya da inanır!..

– Bunun nəyi pisdir?

– Bu prinsipsizlikdir! – İkicə kəlməni Sahib elə tərzdə demişdi ki, müxtəsər cümləsinin axırına səsinin ahəngilə odun parçasına oxşar yekə bir nida işarəsi qoymuşdu.

Mən də etiraz etmişdim.

– Məhəbbətli adam, insanı sevən adam heç vaxt prinsipsiz ola bilməz, qardaş!

İndi aşkarca görürdüm ki, yoldaşlarımızın işdən qanunsuz çıxarılması Kərəmə pis təsir edib. Ona görə də idarə rəhbərlərinin bu qərarı ilə razılaşmaq istəmirdi.

Dostuma olan haqsızlıq vaxt ötdükcə mənə daha çox yer eləyirdi. İşin axırını gözləyə bilmədim. Tənəffüsdə maşın tutub idarəyə qaçdım. Qəzəbimdən sinəm qabarıb qalxır, dayımla edəcəyim söhbətin odlu-alovlu sözləri beynimdə elə bil qılınc-qalxan götürüb hazır vəziyyət alırdılar. Hələ idarəyə çatmamışdan qapılar bir-bir açılır, mən qızmış pələng təki içəri cumuram. Zərblə itələyib taybatay açıram. Hər biri bir batman yağ-balla yeyilməz sözlərimi dayıma yağdırıram...

Rəisin otağının qapısına nə vaxt yaxınlaşdığımı bilmədim. Əlimi uzadıb icazəsiz-filansız cəftəni dartışdıranda dəhlizdə çıqqa-çıqla makinada yazan qızın səsini eşitdim:

– Ay oğlan, ay oğlan, rəis yoxdur!

Tərs-tərs yanakı baxdım. Hikkəylə soruşdum:

– Hara gedib? Nə vaxt gələcək?

– Bir ay olmayacaq. Bu gündən məzuniyyətə çıxıb.

– Hm! – Dayımın ədalətsizliyi, biganəliyi, laqeydliyi, onun-bunun sözü ilə oturub-durması məni daha da yandırdı...

Müəyyən məsələyə müdaxilə etdikcə, bu və ya digər işə qarışdıqca, nəticədə özüm-özümdən narazı qalırdım. Hərəkətimin ümumi işə, məsələlərin düzgün həllinə köməyi, səmərəsi olmadığını düşünüb narazı qalırdım.

«Vaxtında onunla əməlli danışsaydım, ona deyəcəyim sözlər indi ürəyimdə qövr eləməzdi!» – deyə dostuma edilmiş haqsızlıqdan qızışırdım. Amma bir az keçmiş sakitləşdim. Yadıma gəldi ki, balaca olanda yay aylarında kəndimizin qabağındakı dərədən axan xırdaca suyun qarşısını kəsərdik. Azacıq su idi. Ayağımızın üstünə də çıxmırdı. Biz isə çoxlu su istəyirdik. Gur axsın, çoxlu axsın, ləpələri yan-yörəni bassın. Buna görə də qabağını kəsdiyimiz gölməçədə su yığılıb qalxdıqca sevinirdik. Sonra suyun qabağına yığdığımız çimi-daşı necə götürürdüksə, «dəryaçamız» üzü aşağı baş götürürdü. Bir anlığa iti axıb, yan-yörəni basırdısa, tezcə də azalıb balacalaşırdı. Mən də elə bil daxilimdə acıq-qəzəb gölməçəsi düzəldib suyunu birdən buraxdım. O da azca axıb quruyurdu. Heç qabağındakı çör-çöpü də yuyub apara bilmədi. Dayım da, Miriş də bizim bu zəif yerimizi bildikləri üçün ədalətsiz iş görə bilirdilər. Bilirdilər ki, bir atım barıtımız var. Orda-burda, dalda-bucaqda danışsaq da, ümumi bir yerə çıxanda susacağıq. Belə düşündükcə kimsə elə bil başımdan basıb yerə sıxırdı. Mən də əsəbdən, qəzəbdən yay təki dartılmışdım. Adamlardan yaman incimişdim. Xüsusilə, Xalıq kişidən ağzım yanmışdı. Ondan çox çəkmişdim. Heç nədən başım ağrımışdı. Ona görə ilk gündən çalışdım ki, həyətdə heç kəslə əlaqə saxlamayım. Heç kəslə ünsiyyətdə olmayım. İndi mənimki iş idi, bir də ev. Əvvəllər çıxıb həyətdə gəzərdim, oturardım, bəzən blokun ağzında dayanıb gəlib-gedənə tamaşa edərdim. İndi onların heç biri yox idi. Evdən çıxanda işə gedərdim, işdən gələndə isə saatlarla oturub dərslərimə baxardım. Çox dərs buraxmışdım. Az qalmışdılar ki, məni institutdan çıxartsınlar. Ərizə yazıb rektorun yanına getdim. Başıma gələn hadisələrin hamısını danışdım. Ondan sonra məni institutda saxladılar. Ancaq yoxlamalar, imtahanlar qabağımda dağ təki dayanmışdı. Ona görə gecə-gündüz çalışırdım ki, bunların öhdəsindən birtəhər gələ bilim... Ancaq bir dəfə həyətdə Hilaləni görüb dayandım. Görüşməsəm necə olardı? Hər halda, yaxşı düşməzdi. Mənə o boyda yaxşılıq etmişdi. Mənə görə atası ilə düşmən olmuşdu. Ancaq bu ara nə fikirləşdimsə, üzümü ondan çevirdim, özümü görməməzliyə vurdum. Bir daha bu qızla ünsiyyətdə olmağı lazım bilmədim. Çünki bizimki düz gətirməmişdi, münasibətlərimiz tutmamışdı. İndi köhnə yaranı təzələməyin mənası yox idi.

Bir şeyə də təəccüb qalmışdım ki, anası onu nə əcəb qəbul edib? Nə əcəb üzünə baxıb? Nə əcəb geri qaytarmayıb? O, bunun ərini əlindən almışdı, onu cinayət məsuliyyətinə cəlb etmişdi. Nə olsun ki, övladıdır?! Hərənin həyatda öz marağı, iddiası, mövqeyi var. Bu maraqlar toqquşanda hər kəs özününkünü müdafiə edir. Hər kəsin öz köynəyi özünə daha yaxındır. Bəs necə olmuşdu ki, Firəngiz xanım qızını bağışlamışdı? Görünür, Firəngiz xanım başqa cür bacarmamışdı. Həyat yoldaşının məsuliyyətə cəlb olunması onun üçün ağır olsa da, yeganə övladı olan qızından da keçə bilməmişdi...

Hilaləni isə bundan sonra küçədə, həyətdə tez-tez görürdüm. O, aylayıb, illəyib burda qalmışdı. Bəs bu qızın evi, eşiyi yoxdumu? Bəs bu qızın ailəsi yoxdumu? Qonaq da olar bir gün, iki gün, bunun, deyəsən, heç getmək fikri yox idi. Həm də mən istəyirdim ki, çıxıb getsin. Mənə, düzü, pis təsir edirdi. Elə bil sərbəstliyimi əlimdən almışdı. Hər dəfə evdən çıxanda, yaxud evə gələndə çalışırdım ki, onu görməyim.

Bir dəfə paltarımı yuyan arvad həyətdə qabağıma çıxıb dedi:

– Bilirsən, nə olub?

– Nə olub, Məsmə xala?

– Bəs Xalıq kişinin qızı çıxıb gəlib atasının evinə.

Elə bildim ki, bu arvad Xalıq kişiyə acığından belə danışır. Çünki mənim başıma gətirdiyi əhvalatdan hamı xəbərdar idi. Mənə görə həyət adamlarının çoxusunun ondan acığı gəlirdi. Mən də hər dəfə onlardan söhbət düşəndə çox vaxt zarafata salıb üstündən keçirdim. Həm də onun bir sözündən xoşum gəlirdi. O sözü hərdənbir mən də işlədirdim.

– Nöşün, Məsmə xala?

– Nöşün ki, boşanıb. Bax, dünən şeş, bu gün beş.

– Boşanıb?

– Hə, boşanıb!

– Niyə Məsmə xala?

– Sənin üstündə olub.

– Mənim?

– Hə. Əri deyib ki, sənə nə düşmüşdü, onu müdafiə elədin?!

– O nə deyib?

– Nə desin?! Deyib ki, mənim vicdanım götürmədi. İstəmədim ki, bizə görə kimsə əzab çəksin.

– Bəs o nə deyib? – Tələsirdim. İşin məğzini tez bilmək istəyirdim.

– O da deyib ki, atasının üzünə ağ olan qız, sabah mənim də üzümə ağ ola bilər.

– Hmm! – Vəziyyətin gərginləşdiyini görüb başımı buladım.

– Qız da elə bil özünü təzəlikcən açıb. Bilirsən nə deyib oğlana?

– Nə deyib?

– Deyib ki, bəs nə bilmisən?! Əgər sən də ədalətsiz iş görsən, əlbəttə, üzünə ağ ollam. – Bax, beləcə pozuluşublar. O deyib boşayıram səni, bu da çıxıb gəlib. Deyirlər, bu gün, sabah şeylərini də gətirəcək.

Mənə elə gəldi ki, yekə-yekə adamlar balaca-balaca uşaqlar kimi palçığı əllərilə yoğurub-yoğurub evcik-evcik oynayırlar. İstəyəndə qurub düzəldirlər, istəməyəndə isə təpiklə vurub uçururlar. Hilalənin də həyatı beləcə olmuşdu: dünən Allah-allahnan gəlin getmişdi, bu gün təhqir olunmuş vəziyyətdə evdən

qovulmuşdu. Nədir, nədir, düz söz danışıb, olan şeyi deyib. Haqq-ədaləti gözləyib. Həqiqəti müdafiə edib. Daha nəzərə almayıb ki, həqiqəti deyənin papağı deşik olur. Əlbəttə, onlar necə adamlardı, – öz işləridir, ancaq bütün bu işlərə mənim bir qarışacağım olmaya-olmaya adımın çəkilməsindən çox narazı qalmışdım. Qaldı qızın məni müdafiə etməsi məsələsi – bu da onun öz işi idi. Mən onu görməmişdim. Mən onu öyrətməmişdim. Onun öz ağlı, huşu yoxdurmu?! Qız haqqında mənim fikrim tamam dəyişilmişdi. Düzü, bu hərəkətləri ondan gözləmirdim. Ərinin sualına verdiyi cavabından da xoşum gəlmişdi. Öz fikrində, əqidəsində, inamında möhkəm dayandığını bildirib, ümumiyyətlə, həyatda belə lazım gəldiyini deyib. Heç inanmaq olmurdu ki, bu qız pul düşkünü, mal-dövlət hərisinin – Xalıq kişinin qızıdır, ya da Firəngiz xanımın. Onlara oxşasa idi, qulaqlarına pambıq tıxayıb vicdanının səsini eşitməsəydi, indi mən burda deyildim. Nə isə... burda başıma çox işlər gəldi. Daha burda qalmağın mənası yox idi. Getmək lazım idi. Bunu çoxdan qərara almışdım. Bilirdim ki, gec-tez məni bu evdən çıxaracaqlar. Ev növbəsinə dayanmamışdım. Xanım anadan sonra bu evdə qalmağa özümün də həvəsim yox idi. Onun da qırxı artıq çıxmışdı. Mən hələ milis idarəsində olanda çıxmışdı. Evin açarını Sahibə verib ondan xahiş etmişdim ki, həmin gün evdə olsun, bəlkə, gələn-gedən oldu. Sonra da qəbirüstə getsin. Necə demişdim, o da elə eləmişdi. Sən demə, iş yoldaşlarımdan göyçəli Məhəmmədin oğlu da, motorçu Zakir də gəlibmiş. Qonşulardan da bir-iki qoca arvad ordaymış. Sahib də ədəb-ərkanla maşın tutub, onları qəbirüstə aparıb, orada arvada yasin oxutdurub. Bunu ki, mənə danışdılar, elə bil qırx arşın quyunun dibindən çıxdım. Sevincdən gözlərim yaşardı. İşdə Zakirə, göyçəli Məhəmmədin oğluna buna görə təşəkkürümü bildirdim. Məsmə arvadı görüb ona dil-ağız etdim. Bu, mənim üçün çox vacib idi. İşi yarımçıq qoymaq yaxşı düşməzdi. Xanım ana unudulası arvad deyildi. Məsələ burasında idi ki, Xanım ananınkı həyatda gətirməmişdi. Geri yanında, yurdunda bir oğlu, qızı qalmamışdı ki, onun xatirəsi üçün lazım olan hər şeyi etsin. Mənə gələndə isə... belə hesab edirdim ki, mən Xanım anaya qarşı pis olmamışam. Bacardığımdan, əlimdən gələndən eləyib o gözəl insanın borcundan çıxmışam. Əsas budur ki, mən heç zaman Xanım ananı unutmamışam, hətta işimin dolaşığa düşdüyü ən çətin vaxtlarımda belə onu xatırlamışam, anamdan, nənəmdən çox onu yada salmışam.

Hilalədən qaçmağım isə ona görə deyildi ki, qızı görmək istəmirəm, ondan zəhləm gedir. Xeyr, sadəcə olaraq lazım deyildi. Bundan sonra bizim görüşməyimizin heç bir mənası yox idi. Bu səbəbə ondan qaçırdım. Buna baxmayaraq, bir dəfə blokun ağzında təsadüfən rastlaşdıq. Qaçmaq daha mümkün deyildi. Hava isə bu gün elə küləkli idi ki, uğultusundan qulaq tutulurdu. Bax, beləcə külək burulğanının ağzında dayanıb salamlaşdıq.

– Salam!

– Salam!

– Necəsən, Hilalə?

– Sağ ol, yaxşıyam. Sən necəsən?

– Mən də yaxşıyam, – başımın hərəkətilə qıza təşəkkür etdim. Qızla daha başqa söhbət etmək istəmədim.

Məhkəmədən sonra biz birinci dəfə idi ki, görüşürdük. Qız atasına qarşı, bəlkə də, yaxşı iş görməmişdi, düzgün mövqe tutmamışdı, amma mənə yaxşılıq etmişdi, dar ayaqda mənim köməyimə gəlmiş, dadıma çatmışdı. Ona görə olmazdı ki, ona təşəkkür etməyəm. Qız fikirləşər ki, mədəniyyətim çatmır, adamlarla adicə rəftar formasını bilmirəm.

– Hilalə?

– Bəli.

– Sən niyə belə etdin? Mən istəməzdim ki, atanla sənin aranda belə ziddiyyət yaranaydı.

Bu barədə danışmağı, söhbət salmağı qız, deyəsən, istəmirdi. Mən hiss etdim ki, bu mövzuya toxunmağımı qız gözləmirmiş. Həqiqətən, lazım deyilmiş. İndi qız, yaxşı, nə desin? Arada atası olmayıb başqa bir yad adam olsa idi, hə. Onda qız xüsusi bir həvəslə, yaxşı iş gördüyünü bir daha təsdiqə çalışaraq deyərdi ki, yaxşı eləmişəm, əlimin içindən gəlib. Ancaq susdu, bilmədi nə desin.

Bu ara külək daha da bərk əsdi. Hətta, deyəsən, binanın damının dəmirlərini belə şaqqıldatdı. Yuxarıdan nəsə səs gəldi. Həyətdəki ağacların budaqları, şaxşəvəri isə gah sağa, gah sola əyilib bir-birinə qarışdı və yarpaqlar çay axır kimi səs çıxartdı. Belə olan vəziyyətdə blokun qabağında, küləyin burulub divara dırmaşdığı bir yerdə dayanmaq işi lap çətinləşdi. Qız əlilə donunun ətəklərini tutaraq özünü içəri saldı, istər-istəməz mən də ora keçdim.

Bura bir az dalda idi. Sakit, rahat iki kəlmə söz danışmaq olardı. Qız əllərinin saçlarına çəkərək:

– Sən bizi bağışla, Mahir! – dedi.

Mən bu ara özüm barədə qəti düşünmürdüm. Başımda bunların ailəsində baş vermiş hadisələr dolanırdı. Ona görə başa düşmədim ki, bu üzrxahlıq nə üçündür?

– Nəyə görə?

– Hər halda, bizə görə sən narahat oldun.

– Eybi yoxdur. Nə olsun ki?!

– Mən inan, dəli olmaq dərəcəsinə gəlmişdim. Həyatda gözükölgəli, başıaşağı, xəcalətli yaşamaq çətindir. Ondansa hər kəs öz cəzasını çəksə yaxşıdır. – Qız belə deyib gülümsədi. Atasına qarşı bu cür hərəkət etdiyinə qəti peşman olmadığını bildirdi. Əksinə, özünü elə göstərdi ki, yaxşı eləyib və buna görə qəti təəssüflənmir.

Mən bu sözlərə bu ara o qədər də əhəmiyyət vermədim. Hər necə olub, keçmiş işlərdi. Və bu işlərlə nəsə öyünməyə, fəxr etməyə, yaxud günahın, həqiqətin kimin tərəfində olub-olmadığını müəyyənləşdirməyə dəyməzdi. İnsanlar o vaxt tam ağıllı, müdrik olurlar ki, aralarında, münasibətlərində xoşagəlməz heç bir şey olmasın. Bundan başqa, mən bu ara özümü nəsə birtəhər hiss elədim. Belə ki eşikdən, adamların nəzər-diqqətindən, qaçıb bura, daş-divarın küncünə girməyimiz xoşuma gəlmədi. Görüb eliyən olsa nə deyərdi? Xəlvətə çəkilməyimizə necə baxardılar? Bunu qız nə üçün nəzərə almırdı? Axı hərəkətlərində, münasibətlərində belə şeyləri gözləmək, ağıllı oturub-durmaq məndən çox ona lazım idi. O, daha əzəlki Hilalə deyildi. Ərilə söz-sovları olmuş olsa da, hətta ayrılmaq təhlükəsi qarşısında dayansalar da, yenə onlar hələ tamam ayrı-ayrı deyildilər. Bu gün savaşmışdılarsa, sabah barışa bilərdilər. Ona görə də mən bir ayağımı qaçaraq qoymuşdum. Qıznan candərdi söhbət eləyirdim. Sonra fikirləşdim ki, belə yaxşı deyil. Bu, qızı təhqir etmək deməkdir. Burda nə var axı? Mən də ağ eləmişdim, bəzi məsələlərdə sol gedirdim. Bu qorxaqlıq, vasvasılıq, özünün və başqalarının hərəkətlərinə qulp qoymaq, hər şeyin içindən nəsə bir qəmbərqulu çıxartmaq idi. İndi də başladım özümü beləcə danlamağa. İndi bəzi şeyləri nəzərə alıb, götür-qoy edib qızdan uzaq gəzmək istəsəm də, amma bacarmadım, blokda dayanıb qızla şirin-şirin danışmalı oldum.

Ərə gedəndən sonra bu qızı heç belə yaxından görməmişdim. İndi lap üzbəüz idik. Və mən onun qaşını, gözünü, üzünü, boyun-boğazını yaxından aydınca görürdüm. Danışanda, gülümsəyəndə dişləri sədəf kimi ağarırdı. Qız son dərəcə cazibədar, füsunkar olmuşdu. Mən nə qədər narahat olsam da, Hilalə əsla tələsmirdi.

– Xanım ananın da ölümünü eşitdim, yaman pis oldum. Yaxşı arvad idi, – Hilalə söhbəti dəyişdi. – Bilirsən, mən gec eşitdim. Ölən günü eşitsəm gələrdim, hökmən gələrdim. Nə isə, Allah rəhmət eləsin.

– Sağ ol Hilalə! – Xanım ananın xatirəsinin yad etdiyi üçün qıza təşəkkür etdim.

Küləyin getdikcə şiddətlənməsini qız qəti vecinə almırdı. Üst-başımız toz-torpağa bulansa da, getmək istəmirdi. Hiss olunurdu ki, məni görməyinə şaddır. Mən də elə-belə onun üzünə baxıb süni də olsa, gülümsünürdüm. Öz-özlüyümdə bir şeyə də tamam məəttəl qalmışdım ki, bu qız heç həyatı pozulan, ailə qurmağı çox uğursuz olan adama oxşamırdı. Söhbət, əlbəttə, günahın kimdə olduğunda deyildi. Ya qızda, ya oğlanda, fərqi yoxdu. Məsələ burasında idi ki, yeni qurulan gənc bir ailə dağılmışdı. Bəs bu necə şeydi ki, bu uğursuzluq, bəxti gətirməməzlik qıza qəti təsir eləməmişdi? İndiki halda qızın başına ağıl qoymağa, bir söz deməyə mənim ixtiyarım çatmırdı. Bu, onun öz işi idi. Necə durar, necə oturar, özü bilərdi. Mən belə şeylərə qarışa bilməzdim. Onların ümumi vəziyyətlə,

xüsusilə Xalıq kişi ilə, onun vəziyyəti barəsində səhih məlumatım yox idi. İndi soruşmağın yeri idi. Odur ki dedim:

– Hilalə, atanın işi nə yerdədir?

– Atamın işi belədir ki, onu buraxacaqlar. Hə, adam tapmışıq, nazirlikdə işləyir. O danışıb. Ümumiyyətlə, düzələcək, təmizə çıxardıb buraxacaqlar.

Bunların işlərinin düzəlməsindən mən də sevinib şən halda:

– Doğrudan! Nə yaxşı? – dedim.

Qız əminliklə başını qaldırıb saldı:

– Həə! – Həm də bu işin ört-basdır edildiyinə təəccüb, heyrət etdiyimi üzümdən oxuyub gülümsədi və barmaqlarının uclarını bir-birinə sürtdü. – Əşi, hər şey bunun başında deyilmi?! Atam özü deyirdi ki, pulun sağaltmadığı yaranı heç bir dava-dərman sağaltmaz.

Mən buna xeyli vaxt inana bilmədim. Belə bir əyri işin altından o, necə çıxa bilərdi? Mən elə bilirdim ki, Xalıq kişi gurultu ilə getdi. Özüm də tez-tez deyirdim ki, bəs bilmirdimi əyri işin axırı mütləq cəzadır, həbsxanadır. Sən demə, həyatda elə adamlar var ki, əyri işi də düz kimi qələmə verməyi bacarırlar. Vay bunu bacarmayanların halına!..

Bundan bir neçə gün sonra Xalıq kişini, həqiqətən, küçədə görəndə gözüm kəlləmə çıxdı. Həə... Doğrudan da, pulun hökmünü gördüm. Qız xeylağı ola-ola, Hilalə məndən ağıllı imiş. O, düz deyirmiş ki, hər şey pulun başındadır. Amma az qalmışdı Xalıq kişini tanımayam. Həmişə həyətdə, küçədə çox bazburutlu hərlənən, adamdan salamı güclə alan bu adam indi kiçilib bir qırıq olmuşdu. Bu bir neçə gündə necə arıqlamış, candan necə düşmüşdüsə, bir dəri, bir sümük qalmışdı. İri gövdəli, kök adamın da arıqlaması nə pis olurmuş. Kişi tamam eybəcər hala düşmüşdü. Onu belə görəndə, düzü, məni gülmək tutdu. Doğrudur, başqasının bədbəxtliyinə gülmək yaxşı deyil. Amma özümü saxlaya bilmədim:

– Həəə, – dedim. – Dostumu qaz təki yolub buraxıblar.

Doğrudur, Xalıq kişi çox oyan-buyan eləsə də, axırda quyruğunu ələ verməli oldu. Yenə də yaxşı qurtardı. Mənə qarşı çox ədalətsiz olsa da, mənə pisliyi keçsə də, yenə bunların hamısından keçib məhkəmədən sağ-salamat qurtarmasına sevindim. Az qaldım ki, yaxınlaşıb kişini təbrik eliyəm, ona gözaydınlığı verəm. Ancaq aramızda olan haqq-hesablar məni tutub saxladı. Həm də onun ümumi görkəmindən aşkarca görünən nəsə bir acıq hissi var idi. Kimnənsə ədavət saxlayırdı. Kimdənsə intiqam almaq hissi ilə yaşayırdı. Ona görə uzaq keçdim. Əlbəttə, belə adamlardan nə qədər gen gəzsən, bir o qədər başın salamatlıq olar.

Bundan sonra mən, ümumiyyətlə, bu adamları birdəfəlik unutmağa, onlar haqqında fikirləşməməyə çalışdım. Çünki mənə mane olurdular. Adam kimi yaşamağa qoymurdular. Dayım evində Xırdaca xanım öz axmaq xasiyyətilə, şıltaq hərəkətilə canımı boğazıma yığmışdısa, burda da bunlar mənə qənim

kəsilmişdilər. Hilalə nə qədər mehriban, səmimi qız olsa da, atası ilə anası bir o qədər qəliz adamlar idi. Onların işindən, əməlindən heç kəs baş aça bilmirdi. İndi Xalıq kişinin əzəlki halı qalmamış olsa da, yenə mənim gözüm ondan su içmirdi. Əlac bir ona qalırdı ki, birdəfəlik gözlərinə görünməyim. Odur ki səhər eşiyə çıxanda qapını ardımca bağlayıb özümü tez pilləkən aşağı verirdim. Evə gələndə isə oğrunca həyətdən keçib özümü otağa salırdım. İçəridə də asta, sakit hərlənirdim ki, evdə olmağımı bilməsinlər. Ondan sonra oturub dərslərimi oxuyurdum. Artıq bütün mühazirələri yazıb qurtarmışdım, bir çox bəhsləri öyrənmişdim. Zaçotlarımı da vermişdim. Bütün bunlar məni xeyli ruhlandırmışdı.

Burası vardı ki, mən bunlardan nə qədər qaçırdımsa, onlara bir o qədər çox rast gəlirdim. Mənim də başqa əlacım olmurdu. Özümü görməməzliyə vururdum. Başımı aşağı salıb gedirdim. Onlar da məni yoldan saxlamağa, danışdırmağa ürək eləmirdilər. Qorxurdular cavab verməyəm, onlarla danışmayam. Hər halda, öz qəbahətlərini, günahlarını başa düşməmiş deyildilər. Ona görə də nə Xalıq kişi, nə də Firəngiz xanım üzümə baxmağa cəsarət etmirdilər.

Bir dəfə mağazada Hilaləni gördüm. Nəsə alırdı. Elə oldu ki, mağazadan bir yerdə çıxdıq. Qız gözümə çox fikirli dəyirdi, solğun görünürdü. Mən maraqlandım:

– Hilalə, birtəhərsən? – soruşdum.

– Necə?

– Görürəm nəsə... – Qıza ürəyim yandığı üçün soruşurdum. Bəlkə, elə bir şey var ki, kömək edə bilərəm. Niyə axı maraqlanmayım?! İnsan insana nə gündə gərəkdir?! Doğrudan da, düzgün tuta bilmişəm, sərraf gözü ilə baxmışam. Qız tamam dolubmuş. O dəqiqə açıldı.

– Bilirsənmi? – dedi. – Atamın məni görməyə gözü yoxdu. Deyir belə iti görüm, qurdu görüm, amma o qızı görməyim. Ona görə məcburam ki, evdə onun gözünə görünməyəm. Evdə də nə qədər gizlənmək olar. O otaqdan, bu otağa, bu otaqdan o otağa. Elə olub ki, mən bir saat, iki saat vanna otağında qalmışam.

– O sənin evdə olduğunu bilmir?

– Yox! Elə bilir ordayam. Oradan çıxmağımdan xəbəri yoxdur. Anama deyib ki, bax, mənə dəyməyə gəlməsin. Əsəbdən partlaram. Mənim daha o adda qızım yoxdur!

Qız belə deyəndə mən fikrə getdim. Gör iş hara gəlib çıxıb ki, ata, bala bir-birinə düşmən kəsilib, sifətlərini belə görmək istəmirlər. Mən isə fikirləşdim ki, madam ki o, mənə ürəyini açdı, evin söhbətini elədi, demək kənar adam hesab eləmir, ondan söz soruşmaq olardı.

– Bəs, Hilalə, bu işin axırı necə olacaq?

– Necə olacaq?! Evdən çıxmalıyam, vəssalam!

– Hilalə, mən üzr istəyirəm, əlbəttə, sizin daxili işlərinizə qarışmaq fikrində deyiləm, elə-belə soruşmaq istəyirəm.

– Buyur, buyur! – Qız məni ürəkləndirdi.

– Hara getmək istəyirsən? Yəqin ki, geri ora qayıdarsan, eləmi?

– Yoox! Nə danışırsan?! – Qız başını silkələyərək üz-gözünü turşutdu. Belə şeyin ömründə olmayacağını bildirdi.

Münasibətlərimizin bu cür mürəkkəb, ziddiyyətli olmasına baxmayaraq, indi yaxın bir adam kimi qızın qayğısına qalmalı oldum. Doğrudan da, bu qız hara getsin? Gedib başqa yerdə necə qalsın. Görən, bilən deməzmi bu qızı niyə qovublar? Bu nə günah işlədib ki, bu nə təqsirin sahibidir ki, belə bir vəziyyətə düşüb. Qeyri-iradi olaraq əlim cibimə getdi. Xanım ananın açarını çıxardıb qıza uzatdım. Fikirləşdim ki, bu ev onun üçün münasibdir. Başqa yerdə qalmaqdan burda qalmaq yaxşıdır. Nə qədər yaxın rəfiqə olur-olsun, yenə də bunu nəsə söz eliyə bilərdi. Sonralar bunu başına qaxardı. Xanım ananın mənzili isə onun üçün sərfəli idi. Həmin mərtəbədə vur-tut ikicə mənzil idi. Biri onlar idi, o biri də Xanım ananın evi. Üçüncü ailə yox idi ki, deyəsən, söz eliyərlər. Orda elə yaşamaq olardı ki, heç görən olmasın. Bu da orda qalardı üç gün, beş gün. Daha aylayıb illəməyəcəydi ha.

Qız mənim bu hərəkətimi xoş təbəssümlə qarşılayıb:

– Yox, Mahir, çox sağ ol! – deyə təklifimdən imtina etdi. Nəsə bunun mümkün olmadığını bildirdi. Belə başa düşdüm ki, qız mənə görə belə edir. Amma nahaq yerə. Mənə nə var?! Dəvəsi ölmüş ərəb idim. Harda olsa yatardım. Ona görə tez dilləndim.

– Sən mənə görə narahat olma, mən gedib yataqxanada, uşaqların yanında da qala bilərəm.

– Yoox, ona görə yox! – Qız, ümumiyyətlə, mənim qaldığım evdən imtina etdiyini bildirdi. Sözü bir yana qalsın, ağız-burnunu büzməsindən, səsinin ahəngindən də hiss elətdirdi ki, mənim evimdə qalmaz. Gözəl mənzillərdə, yumşaq, ipək yorğan-döşəkdə, nə bilim ərəb mebelinin çarpayısında yatmış təzə gəlin mənim köhnə şəltəmin arasına girərmi?! Əlbəttə, girməz.

Əslində, mən də girməməsini istəyirdim. Sadəcə olaraq söz sözü gətirmişdi. Atasının gözünə görünməmək üçün evdən çıxmaq məcburiyyətində olduğunu deyəndə mən də belə təklif etmişdim. Varını verən utanmaz. O isə qalmır qalmasın. Qəti bu qənaətə gəldim ki, bu ailəyə urcah olan xeyir tapmaz... Bunların axırı necə olacaqdı? Allah bilirdi...

Özümə söz verdim ki, bu şeydə bir az dəyanətli olum. Bilirdim ki, xəmirim sıyıqdır, bir balaca üzümə irişib-qırışdılarmı yumşalacam. Elə damarımın boşluğundan, üzümün yumşaqlığından başıma o işlər gəlmədimi?! Bir aydan çox heç yerə «yatdım»...

Həqiqətən də, bundan sonra başımı sallayıb yenə öz işimlə məşğul oldum. Yenə vaxtlı-vaxtında işə gedir, ordan gələndə də kitab-dəftərimi götürüb instituta

qaçırdım. Mənim üçün indi elə bil onlar yox idi. Başım-qulağım əməllicə dincəlmişdi. Amma qızı hərdən görürdüm. Məəttəl qalmışdım ki, o niyə burdadır? Bəs qız deyirdi gedəcəm. Nə bilim bu evdən çıxacam. Bəs nə oldu? Mən də onların fikrini çəkib ürəyimi yemişdim, qanımı qaraltmışdım. Qız isə öz kefində idi. Evə gəlir, evdən gedir, eyvana çıxır, həyətdə, pilləkəndə dayanıb onunla-bununla söhbət edir, lap əvvəlki günlərdən də sərbəst hərlənirdi. Kiminsə görəcəyindən çəkinənə, ehtiyat edənə oxşamırdı. Bu hərəkətlərdən başa düşdüm ki, daha o təhlükə sovuşub. Yəqin, barışıblar. Əlbəttə, hər nə olmuşdusa, qurtarıb getmişdi. Ata-bala ömürlük küsülü qalmazdılar ha? Xalıq kişi özü uşaq deyildi ki! Fikirləşib görərdi ki, qızı hardasa haqlıdır, bağışlayardı. Düzgünlük tərəfdarı olduğuna, həqiqəti müdafiə etdiyinə görə də onun xırda-xuruş səhvlərindən də keçərdi. Atalar da yaxşı deyib, kiçikdən xəta, böyükdən əta.

Bir dəfə həyətə təcili yardım maşını gəlmişdi. Görünür, binadan kimsə xəstələnmişdi. Düzü, Xalıq kişi yadıma düşdü. Bəlkə, onun üçün çağırıblar. Çünki o gün onu çox pis halda gördüm. Bəti-bənizi tamam kül rəngində idi. Bir azdan ağ xalatlı iki nəfərin onlardan çıxdığını görəndə zənnimdə yanılmadığımı düşündüm. Bu kişiyə nə olmuşdu. Elə o gün qızı Hilaləyə rast oldum. Ayaq saxlayıb soruşdum:

– Hilalə, sizə təcili yardım gəlmişdi? Kimdir xəstə.

– Atamdı.

– Niyə xəstələnib? Nəyidir?

– Ürəyi.

– Ürəyi?

– Hə.

– Ürəyi niyə ağrıyır ki?

– Nə bilim, – çiyinlərini çəkdi. Mən də elə söz soruşuram ki?! Niyə ağrıyır? Qız nə bilsin niyə ağrıyır. Bunu həkimlər bilərlər.

Bundan sonra Xalıq kişi üçün təcili yardım tez-tez gəlməyə başladı. Hətta bir gündə iki dəfə gəldiyi də olurdu. Görünür, yazığın ürəyinin sancısı tez-tez tutur və həmin hallar çox olurdu. Sözsüz, ailənin qayğısı artmışdı. Firəngiz xanım, qızı Hilalə tez-tez aptekə qaçırdı. Xalıq kişinin halı necə dəyişilmişdisə, heç düzələnə oxşamırdı. Əgər bilirdisə, sözsüz qızını boşamaları da ataya, yəqin, bir dərd olmuşdu. O, bunu da ürəyinə salmamış deyildi.

Bir dəfə axşamüstü evdə təkcə oturmuşdum. Çertyoj işim vardı. Onu çəkəcəkdim. Hələlik bir stəkan çay içib istirahət edirdim. Bir də qapının zəngi çalındı. Tez durub qapını açdım və Hilaləni gördüm. Mən əvvəlcə onu içəri dəvət etmək istədim. Sonra fikrimdən çəkindim, gözlədim ki, qız danışsın, görüm nəyə gəlib.

– Mahir, atam səni görmək istəyir. Xahiş edirəm, bir dəqiqəliyə bizə gəl.

Bu təklif mənə çox qəribə göründü. Mən hara, o hara? Görəsən, məni neyləyir bu kişi? Deyəsən, məni məhv etməmiş əl çəkən deyildi. Ağlıma bu cür pis-pis şeylər gəldi. İlan vuran – deyərlər ala çatıdan qorxar. O, mənim gözümü yaman qorxutmuşdu. Bununla bərabər, getməyə də bilməzdim. Əvvəla, xəstə idi. Sözünü yerə salmaq olmazdı. Ona pis təsir edərdi. Sonra da üstümə qızı gəlmişdi, Hilalə! Lap bilsəm ki, məni orada öldürəcəklər, yenə də getməli idim. Başqa yolu yox idi. Odur ki qızdan heç nə soruşmadım. Yalnız bu sözü dedim:

– Yaxşı, indi gəlirəm! – Qızı yola salıb geri otağa qayıtdım. Tezcə əynimdəki köhnə-köşkül paltarları çıxartdım, kostyum geyindim. Qalstuku bağladım. Ayaqqabımı dəyişdim. Qonşu da olsa, başqa yerə gedirdim. Evində qonaq-qarası ola bilərdi. Ona görə də ortalığa səliqəli çıxmalı idim.

Mən belə geyim-kecimlə onlara gələndə gördüm bunlar o əhvalda deyillər. Hamısının ürəyindən qara qanlar axır. Sən demə, Xalıq kişi çox bərk xəstə imiş. Çarpayıya dümdüz uzanmışdı. Heç canlı adama oxşamırdı. Elə bilirdin ölü idi. Canlı adamdan onda qəti əsər-əlamət görünmürdü. Qaldım çıxılmaz vəziyyətdə. Adətən, xəstə yanına gələn şəxs nəsə xoş bir söz deyir, naxoşa ürək-dirək verir, lap yarım saatdan, bir saatdan sonra canı çıxsa da, «səndə nə var ki?!» – deyirlər. Amma mən ağzımı açmağa ehtiyat etdim. «Ölüb eliyər, – dedim. – Köpəkoğlu üstümdə qalar, deyərlər ki, nəsə deyib əsəbiləşdirmisən. Onsuz da adım vayqanlıdır».

Deyəsən, sıxıntı içərisində olduğumu hiss elədi. Əlini qaldırıb stolu göstərdi, oturmağıma işarə etdi.

Bu ara Firəngiz xanım da burda idi, qızları Hilalə də. Amma bircəciyi ağzını açıb bir söz demirdi. İkisi də bizim görüşümüzün necə gedəcəyi marağında idi. Bəlkə də, Xalıq kişinin məni nə üçün çağırdığını bilmirdilər. O ki mənə oturmaq işarəsi verdi, gördüm bunlar açıldılar. Açıldılar ki, nəsə xoş söhbət gözlənilir. Mən bu ara aşkarca hiss elədim ki, onlar bizim münasibətlərimizin yaxşılaşması arzusundadırlar. Hər halda, bunlar mənə pislik etmişdilər, yanımda xəcalətli idilər. İndi də çox cəhd edirdilər ki, arada olan gərginliyi götürsünlər. Əlbəttə, bunun özü də bir iş idi. Demək səhvlərini başa düşüblər. Yaxşı iş görmədiklərindən peşman olublar. Bəlkə də, belə deyildi. Ancaq mənə bu cür gəldi. Və stulu üsdufluca çəkib xəstəyə yaxın oturanda Xalıq kişi:

– Bağışla, oğlum! – Dedi. – Mən gec də olsa, səhvlərimi başa düşdüm. Həqiqətən, ağıl yaşda yox, başda imiş. Xahiş edirəm, bağışla. – Belə deyəndə kişiyə elə bil güc gəldi. Əlini atıb dizimin üstünə qoyduğum əlimdən tutdu, sıxdı, sığalladı...

Mən başa düşdüm, gördüm ki, kişi yaman həyəcanlanıb. Bilmirdi necə üzrxahlıq eləsin. İmkanı olsa, əllərimdən öpərdi. Düzü, onun belə vəziyyətə düşməsindən mən də pis oldum. Hər halda, məndən yaşlı idi. Mən onun oğlu yerində idim. O isə mənim yanımda, ailəsinin qarşısında elə bir ədalətsiz iş görmüşdü

ki, bunu özünə heç cür bağışlaya bilmirdi. Vicdanı qarşısında o qədər günahkar idi ki, başını dik tuta bilmirdi. Başladım onu sakit etməyə. Barmaqlarımı ovcundan çıxardıb onun əlindən-biləyindən tutdum.

– Eybi yoxdur, Xalıq əmi, eybi yoxdur! Mən də sizin oğlunuz. Təki canınız sağ olsun. – Belə həyəcanlanmaq sözsüz onun üçün təhlükəli idi. Onu sakitləşdirməyə çalışdım. Xalıq kişi mənlə görüşüb bu sözləri deməyi lazım bilmişdi. Görünür, bu onun üçün vacib imiş. Həyatda elə şeylər var ki, cansağlığından da vacibdir.

Mənim xoş rəftarım kişini daha da kövrəltdi. Bəlkə də, elə bilirdi ki, mən onu bağışlamayacam. Mən də ona qarşı amansız olacam. Qəddar, kobud hərəkətlərimlə qanını daha da qaraldacam, dərdinin üstə dərd qoyacam. Mənim yerimə başqası olsa, bəlkə də, başqa cür hərəkət edərdi. Mən isə o dəqiqə yumşaldım. Bunu görən Xalıq kişi bir az riqqətə gəldi, açıq ürəklə hər şeyi boynuna almağa çalışdı ki, mən görüm ki, onun vəziyyəti də yaxşı deyil.

– Nəyim vardı, hamısı əlimdən çıxdı. Məni lüt qoydular. – Bu ara o, dəli təki barmağını ağzına soxdu, sorub çıxartdı. – Bax, qaldım beləcə.

– Əşi, təki canınız sağ olsun. Əsas cansağlığıdır, onları siz qazanmamışdınız?.. Yenə də...

– O olmayanda da sağlıq olmur də! – deyə kişi sözlə pula işarə etdi və bayaqkından bir az da çox kövrəldi. Bu sözləri, deyəsən, arvadının xoşuna gəlmədi.

– Yaxşı, nə olub sənə, lap uşaq olmusan?! – Firəngiz xanım irəli dayanıb kişinin üstə əyilən təki oldu. O biri əlini əlinə aldı. Mən arvadı başa düşürdüm. Əri idi. Canı yanırdı. Amma düzünü deyim, özüm də ona mehribanlıq etsəm də, ağlım ondan bir şey kəsmədi. Bilmədim həqiqətənmi dəyişilib? Yoxsa xəstə olduğu üçünmü belə sümüyü kövrəlib? Birincisinə inanmaq çətin idi. Çünki tez bir zamanda necə ola bilərdi ki, bunun təbiəti, xarakteri tamam dəyişə?..

Səhəri gün işdən gələndə bizim blokun qabağına mafə qoyulduğunu görcək o dəqiqə bildim ki, bu xata kimin başındadır. Bildim ki, Xalıq kişi daha yoxdur. «Ay bədbəxt oğlu!» – ürəyimdə onu qınadım. Doğrudan da, adamın düşməni birinci elə özüdür. İnsanın başına nə gəlirsə, özündən gəlir. Yoxsa adamlar yüz il yaşayarlar.

Ölməyinə hamı öləcək. Bütün canlılar elə yarandıqları vaxtdaca ölürlər. Bu, ölümün labüdlüyünü göstərən sözdür. Bunu həyatın dialektikası da inkar etmir. Amma öləndən sonra insanın yerinin görünməməsi ölümün özündən də betərdir. Mənə belə gəlir ki, Xalıq kişinin yeri heç yerdə görünmürdü...

Mən indi başqa adamın fikrini edirdim – Hilalənin. Ona çox zülm etdilər. Həm valideynləri, həm də getdiyi şəxs bu cavan yaşında onun həyatını korladı. Xalıq kişinin dəfnində mən onun həyat yoldaşını çox axtardım, amma görmədim. Sonrakı günlər də, cümə axşamlarında da gəlməmişdi. Hilalə üçün belə ağır

gündə ona laqeydlik göstərmək? İndi gərək o, qızın yanından əl çəkməyəydi. Demək, onu boşamaq fikri qətidir. Yəqin, birdəfəlik üzül-kəsil eləyib... Axı qızın nə günahı var idi? Nədir, nədir düz söz danışıb, ədalətin tərəfində dayanıb. Ona görə də belə ağır cəzaya çatıb... Gör heç sözdür?! Adamlarda insaf, vicdan deyilən şey qalmayıb! Qəribə idi ki, qızın heç vecinə deyildi. Elə bil o, elə əvvəlki qız idi. Həyatında heç bir dəyişiklik olmayıb. Qızın gələcək həyatı, taleyi barədə çox narahatlıqla və həyəcanla düşünürdüm. Xalıq kişinin qohum-əqrəbaları çox idi. Gəlirdilər, gedirdilər. Yas ilə əlaqədar nə lazım oldu tapıb gətirirdilər. Mən hər yerə gendən-genə hərlənirdim. Təkdənbir həyətdə, küçədə, pilləkəndə təsadüfən ya qızın anası ilə, ya özü ilə rastlaşanda salam verib keçirdim. Axşamlar da qız, deyəsən, evdən eşiyə çıxmırdı. Nə səsini eşidirdim, nə də özünü görürdüm...

Bir dəfə axşam küçədə onun ərinə rast gəldim. Mənim yaşadığım binaya yaxın trolleybus dayanacağından bir azca aralıda dayanmışdı. Görən təki o dəqiqə tanıdım. Əynində qara dəri pencək var idi. Başı açıq idi. Pencəyin altda köynəyinin yaxası da açıq idi. Düzü mən onu görəndə qıza görə sevindim. Fikirləşdim ki, yəqin, düşünüb-daşınıb, nəhayət, səhv etdiyini başa düşüb. İndi gəlib ki, qızı görsün və aparsın. Qanuni arvadı idi. Kim nə deyə bilərdi?! Daha ona sarı çox baxmadım. Mənim onunla çox maraqlanmağımdan şübhəyə düşə bilərdi. Necə olsa, əsgim tüstülü idi. Bu, məhkəmədə qızın nə üçün məni müdafiə etdiyini söz eləmişdi. Bütün bunları nəzərə alaraq üzümü çevirib yoluma davam etdim.

Həyətə girmək üçün biz ümumi darvazanın altından getməli olurduq. Binanın blokları içəri tərəfdən idi. Qədim bina olduğu üçün darvazası da qədimi formadaydı. Həm tağlı idi, həm də tunel kimi bir qədər uzun idi. Ümumiyyətlə, bu darvazada nəsə bir möhkəmlik var idi. Pis cəhəti yalnız bu idi ki, altında işığı, demək olar ki, heç vaxt olmazdı. Bilmirəm bunun lampasını çıxardırdılar, yoxsa daş atıb sındırırdılar. Qərəz burda işıq olmazdı, küçədən düşən işıqla hərəkət edərdik. O da zəif olduğu üçün darvazanın altı ala-qaranlıq olardı. İndi də elə bu cür idi.

Darvazanın ağzından keçirdim ki, arxadan səs gəldi: «Dayan!» – dedilər. Doğrudur, adımı çəkmədilər, amma yəqin elədim ki, bu söz mənə aiddir. Dayandım və dönüb baxdım. Gördüm arxamca gələn Hilalənin əridi. Düşündüm ki, yəqin, qızı görməyə gəlib, ancaq evə getməyə utanır. Mənə çağırtdırmaq istəyir. Nə olar?! Bu işi mən yerinə yetirərdim. Ona görə də dayanıb oğlanın gəlməsini gözlədim. O yaxınlaşdı. Gözlərindən cin çıxırdı. Bu, heç adamı xeyirliyə çağırtdırana oxşamırdı. Mən özümü yığışdırmamış çənəmə bir yumruq ilişdi. Özümü tarazlayana kimi ikinci zərbə endi. Oğlanın yumruğu mənim üzümü dodağım qarışıq tutdu. Üçüncü dəfə isə lap ağlım başımdan sıçradı. Çox güclü zərbələr idi. Düzdür, savaşdığım hallar olmuşdu. Mən də döymüşdüm, məni də döymüşdülər. Amma heç kəs məni bu cür vurmamışdı. Özümü ayaq üstə güclə saxlaya

bilmişdim. Az qalmışdım yıxılam. Dalı-dalı çəkilib bir balaca özümə gələndən sonra əlimi dodağıma apardım, barmaqlarıma baxanda gördün qandır. Bu ara o mənə yaxınlaşıb hikkə ilə soruşdu:

– Bəsindir? Yoxsa bir-iki dənə yenə çəkim?

İçərimdən kəsilə-kəsilə dilləndim:

– Nə istəyirsən mənnən?

– Bax, elə bu axşam pəsə-püsəni yığışdırıb, çıxarsan bu binadan. Burda gözləyirəm, tez get gəl.

Məsələnin nə yerdə olduğunu başa düşdüm:

– Yaxşı! – dedim.

Mənim belə fağır-fağır dillənməyimdən, təkliflə tez razılaşmağımdan ayağı bir az da yer aldı. Bununla bərabər, mənim tərəfimdən ona heç bir müqavimət göstərilməyəcəyini güman edib tam arxayınlaşdı. Yaxın dayanıb əlilə məni itələyərək uşaq təki qabağına saldı.

– Yeri daa!

Üstümə xoruzlanıb məni şil-küt eliyən bu «gədəyə» baxanda necə oldusa, qonşumuz Sarı kişinin oğlu Musa gəlib yadıma düşdü. O, çox cığal, dalaşqan oğlan idi. Yetənə-yetir, yetməyənə bir daş atırdı. Həqiqətən də, güclü oğlan idi. Kim qabağına çıxsa, dığırlayırdı. Kefinə yaramayan, xoşuna gəlməyən uşağın qabağını kəsər, aşının suyunu verərdi. Mənə isə hələlik dolaşmamışdı. Amma ürəyimə dammışdı ki, bir gün hardasa əlbəyaxa olacağıq. Əslində, belə olmasını istəyirdim. Musanın köpünü yatırmaq ürəyimdən keçirdi. Amma ehtiyat eliyirdim. Qorxurdum yıxılam. Ondan sonra Musanın qabağında durmaq olmazdı, hirsimdən çatlayardım.

Bir dəfə uzunqulaqla meşəyə çır-çırpı gətirməyə gedirdim. Tək idim. Əlimdə kəndir, balaca balta var idi. Səhərə çətin dərslərim olduğu üçün gedə-gedə dodaqaltı dərsimi təkrarlayırdım. Bu ara kol-kosluqdan yolun içinə köynəyini başına geymiş alt paltarı ağara-ağara bir şey tullandı. Uzunqulaq hürkdü. Dönüb anqıra-anqıra geri qaçdı. Yüyürüb güc-bəla ilə qaytardım. Geri gələndə gördüm Musa yolun ortasında oturub dişlərini ağardır. Üz-gözümü turşutdum.

– Yekə oğlansan!

– Hə? Qorxdun?!

– Niyə qorxuram?

– Qorxmadın?

– Yox!

– Buna bax, qorxmur?! – Musa yaxın gəldi, hədələyici nəzərlərlə məni süzdü.

Qolumun yanı ilə onu kənara itələdim:

– Rədd ol başımdan! – dedim.

Musa dalaşqan beçə təki dikəldi. Dayana bilmədim, tərs damarım bədənimdə necə oynadısa, baltanı-kəndiri əlimdən yerə atıb, iki əlli gədənin çiyinlərindən yapışdım. Musa ortamdan girib, belimi sıxmağa cəhd etdi. Əgər belə edə bilsə idi, kürəyim mütləq yerdə olacaqdı. Odur ki buna imkan vermədim. Acıqlı-acıqlı onu necə sırta çəkdimsə, Musa yerə sərildi. Yıxıldığından pərt oldu və buna görə durub mənimlə savaşsa da, hətta bir neçə gün küsülü gəzsə də, sonralar yaxın dost olduq. Lap sonralar da aramızda bir haqq-hesab oldu.

Artıq böyümüşdük, yekə oğlanlar idik. Necə olsa qızlardan gözaltı eləməmiş deyildik. Kənddə xoşum gələn qız var idi. Klubda yaxşı kino olanda hamıdan qabaq gedib, o qız üçün yer tutardım. Qız gələnədək gözüm giriş qapısında qalardı. Göyçək qapıda görünüb ayağını içəri qoycaq, bir bölük adamın içərisindəcə ayağa durub yerimi ona verərdim. Qız da mehribanlıqla təşəkkür edib əyləşərdi. Elə bu olardı. Ağzımı açmaz, bir kəlmə söz deməzdim. Bir də eşitdim ki, qız nişanlanıb. Bakıda Xarici Dillər İnstitutunda oxuyan Musa gəlib qızı ad eləyib.

Həmin oğlanın Göyçəklə nişanlandığını eşidəndə, məəttəl qalmışdım. Bu necə oldu axı? Necə oldu əlim qızdan çıxdı. Bu cür olacağını ağlıma gətirməmişdim. Amma kimsə əlaltdan iş görüb, cəld tərpənib, bic olub. O vaxt özümü danlamışdım ki, məhəbbətimi qıza niyə bildirmədim? Onu görəndə nə üçün qaçdım, qızdan niyə uzaq gəzdim ki, Musa gizlincə torunu atıb, tutdu?!.

Məni indi yandıran bu idi ki, bu qədər ağır işdə işləmişəm, tonlarla daş-qum, palçıq qaldırmışam, qollarım möhkəmlənib, musqullarım şişib dəmirə dönüb, amma buna cavab verə bilmədim, qabağında aciz qalıb, cücəyə döndüm. Bəs sabah camaatın içərisinə necə çıxacaqdım. Əvəzini verməyib getsəm, ürəyim partlayardı, ölərdim. Bu mənə necə yer elədisə, qəfildən dönüb oğlanın qarnına elə bir təpik vurdum ki, bir də gördüm oğlan asfalta sərilib.

– Öl köpəkoğlu! – Üstəlik də söydüm və yerdə də bir təpik vurub qalxmasını gözləməyib aralandım. Blokun ağzına gələndə geri boylandım, gördüm durub divara söykənib, hələ özünə gəlməmişdi. Hirsimdən ürəyim döyünürdü. Cavabını vermiş olsam da, acığım hələ də soyumamışdı. Üst-başımı düzəldib dördüncü mərtəbəyə qalxdım. Hilaləgilin qapısı ağzında dayandım. Mənə elə gəlirdi ki, o oğlan hələ də ardımca baxır. Mən də acıqcan əlimi qaldırıb barmağımı qonşu evin zənginin düyməsi üstə qoyub basdım. İndi elə bir şey edəcəm ki, ömürlük onun yadında qalsın. Bilsin ki, qabağındakı da oğuldur.

Qapını açan Hilalə idi. O məni görəndə təəccüb qaldı ki, nəyə gəlmişəm. Doğrudan da, qonşuluqda yaşasaq da, ikidən, birdən mən onlara gedən deyildim. Yaxşı da ki, blok bir az qaranlıqtəhər idi.

– Axşamın xeyir, Hilalə.

– Axaşmın xeyir! – deyə qapını daha geniş açdı. – Buyur, Mahir, buyur içəri.

– Yox, sağ ol, gedəcəm.

– Bəs xeyir olsun?
– Hilalə.
– Bəli.
– Sən mənə görə çox əzablara düçar oldun. Həyatın dağıldı.
– Bu sözlər nəyə lazımdır, Mahir? Sənin axı bir günahın olmayıb!
– Gəldim deyəm ki, mən səni çox istəyirəm. Əgər...

Bu sözləri deyəndə elə bildim canımdan tikan çıxdı. Bir az yüngülləşən təki oldum. Oğlanın acığına elə vəziyyətdə idim ki, qız razılıq versə, bu dəqiqə aparardım. Heç dabanı üstə dönüb evə qayıtmağına imkan verməzdim. Onun heççə bir şeyi mənə lazım deyildi. Əynindəki xalat bəs idi. İstəyir ayağındakı çəkələkləri də çıxartsın. Qollarımın üstə alıb aparardım. Bax, onda o oğlanın ağlı başına gələrdi. Onda bilərdi ki, ədalətsiz işin axırı necə olur. Oğlan məni necə yandırmış, hərəkəti mənə necə yer eləmişdisə, başqa cür düşünə bilmirdi.

– Nə olub sənə, Mahir? – Qız hərəkətimdən şübhələndi, elə bildi içibeləmişəm.
– Heç nə!
– Yaxşı, onda get, başqa vaxt danışarıq! – Qız məni xoşluqla yola saldı.

Evə gəlib yerimi açıb uzanandan sonra da xeyli vaxt yata bilməyib bu məsələni öz-özlüyümdə götür-qoy elədim. Artıq mənə hər şey aydın idi. O oğlan məndən şübhələnirmiş. Arvadının məhkəmədə məni müdafiə etməsinə ayrı məna verirmiş. Ailəsində baş vermiş ziddiyyətlərin, qayınatasının ölümünün səbəblərini məndə görürmüş. Halbuki məndə heç bir təqsir yox idi.

Dodağımın şişi məni daha çox incidirdi. Dilimlə hərdən yalayıb ağrısını azaltmaq istəyirdimsə, mümkün olmurdu.

Yuxuda da gözlərim Hilaləni axtarırdı. Qəribə idi, o qızın üstündə məni döyürdülər, söyürdülər, yenə ürəyim ondan dönmürdü. Deyəsən, o oğlanın acığına Hilalənin eşqinə yenidən düşürdüm. Məhəbbət bulağının vaxtı ilə dumduru göz yaşıdək qaynadığı bir yerdən, deyəsən, bir də qaynamağa, şövqlə üzə çıxmağa başlamışdı. Hə, hə. Elə bu cür idi. Oğlan mənə hədə-qorxu gəlmişdi ki, qızdan uzaq gəzim, bu həyəti, burdakı adamları birdəfəlik unudum, ancaq əksinə olmuşdu. Onun yumruğu mənə ilişəndə qız gəlib elə bil ürəyimə girmişdi. İndi çıxmaq fikri qəti yox idi. Qəlbimdə, əzəldən onsuz da vardı, ancaq könlümün hansı küncbucağındasa yatıb qalmışdı. Bir damla, bir ovuc axmaz kimi göllənmişdi. Bu dumduru sevgi bulağı idi, amma üstünü mamır örtmüşdü. Bəlkə də, bu bulaq mamırın altı ilə axıb harasa gedirdi, amma səsi eşidilmirdi. Amma indi onu tərpətmişdilər, yerindən oynatmışdılar. Hiss edirdim ki, indi axır, şırıltısı qulağıma gəlirdi. Və bu həzin şırıltı məni qarşısıalınmaz hislə Hilaləyə sarı çəkir, onun xəyalını daima gözüm önündə canlandırıb saxlayırdı. Bu dəli sevda axarını daha

heç cür saxlamaq, cilovlayıb bəndə-bərəyə salmaq mümkün deyildi. Yerindən dəbərib-qabarıb elə çalxalanmışdı ki, daşıb tökülməməsi mümkün deyildi...

Çox fikir eləmişəm, axırı yuxu məni aparıb. Səhər gözümü açanda axşamkı əhvalat o dəqiqə yadıma düşdü. Keçmişlərdən, olanlardan ən təzəsi, ən vacibi o idi. Ona görə beynimdə birinci sıraya keçmişdi. Qalanların hamısını hansı küncə-bucağasa sıxışdırmışdı. Hələ yerimin içində tez əlimi dodağıma apardım. Görüm işə gedə bilərəmmi. Əslində, təkcə dodağımı yox, lap başımı da partlatsalar da, işə gedəcəkdim. Çünki işdə adam yox idi. Bir-ikisi məzuniyyətə çıxmışdı. Xəstə olanı da vardı. Mən də getməsəm lap ağ olardı. İş axsayardı. Hələ dünən bir-birimizə dönə-dönə tapşırmışdıq ki, işdən qalmayaq. Elə işləyək ki, planı yerinə yetirək. Yoxsa mükafatımızı kəsərlər. Xülasə, işdən qalmaq məsələsi mümkün olan şey deyildi. Ağız-burnumun şişi gedən kimi idi. Ona görə tez durub özümə güzgüdə də baxdım. Babat olduğumu görüb tez əl-üzümü ehmallıca yuyub geyindim. Bəzən evdə səhər-səhər özümə çay da qoyardım. Soyuducuda pendirim, yağım da var idi. Bir stəkan şirin çay eləyib, yeyib gedərdim. Bu dəfə isə yemək yadıma düşmürdü. Başqa qayğım var idi. İstəmirdim məni bu vəziyyətdə görsünlər. Canımın dərdindən gizlincə qapıdan çıxıb pilləkən aşağı güllə təki necə getdiyimi bilmirəm. Səhər tezdən olduğu üçün həyətdə də heç kəs yox idi. Küçəyə çıxanda trolleybus, avtobus gözləməyə də hövsələm olmadı. Tez bir taksi tutub iş yerinə gəldim. Burda da üzümü, gözümü nə qədər gizlətdimsə, yoldaşlarım qazdan ayıq idi. O, ordan dedi:

– Dodağına nə olub?

Bu, burdan dedi:

– Dodağına nə olub?

Yoldaşlarım nə qədər təkid etdilərsə, mən də düzünü demədim. Əvvəla, düzünü desəm nə olası idi?! Onu bunlar tutub döyən deyildilər ha? Bunu heç mən özüm də istəməzdim. İkinci bir tərəfdən danışanda gərək nə olub, necə olub hamısını danışasan. Altına, üstünə keçməyəsən. Onda da döyüldüyümə inanacaqdılar, döydüyümə yox. Mən də acıqcan düzünü demədim, «yıxılmışam» – dedim. Sözümün üstündə elə möhkəm dayandım ki, bunlar da inanan kimi oldular. Başqa əlac yox idi...

İndi də qızı görmək istəyirdim. Qoy o, qəlbimdən axan sevda bulağının səsini eşitsin. Bilsin ki, mən yenə həmin adamam, həmin oğlanam. Bu beynimdən qəti çıxmırdı. İşləyə-işləyə hey bu barədə düşünürdüm. Gəldiyim fikrin, qərarın nə dərəcədə düzgün olub-olmadığını götür-qoy eləyirdim. Əslində, bu ürəyimin hökmü idi. Çoxdan, lap çoxdan ürəyimdə özünə yer eləmiş köhnə məhəbbətin təzə hökmü idi.

Axşam işdən çıxanda həyətdə məni görən olmasın deyə orda-burda ləngiyib evə lap yatana yaxın gələcəyimi qərarlaşdırdım. Yalnız orası pis oldu ki, tək

oldum, yoldaşlarımın hərəsinin bir işi olduğundan bulvarı oyan-buyana tək ölçdüm. Sonra da axşam yeməyinə getdim.

Restoran adamla dolu idi. Qapının ağzında dayanıb yan-yörəyə boylandımsa, gözümə boş yer dəymədi. Bir az da restoranın qələbəliyi məni tutmuşdu. Musiqi, camaatın hay-küyü. Zal da çilçıraqlar altında yanırdı. Küçəyə baxan hündür, böyük pəncərələrdən ağappaq tül pərdələr asmışdılar. Siqaret tüstüsü burulub-dolanıb havada bir-birinə qarışmış, pəncərələrə sarı əyilib tüllərin sallandığı karnizlər bərabərində duman təki dayanmışdı. Buna baxmayaraq, restoran adama xoş gəlirdi. Yeməklərin ətri, zalın istiliyi şəxsən məndə restoranda oturmaq həvəsini artırdı. Ancaq boş yerin olmamasından dilxor oldum. «Bəlkə, bir duran oldu» – deyə düşündüm. Qapının ağzında dayanıb gözləmək yaxşı düşməsə də, bir azca ayaq saxladım. Yerindən tərpənən adam görmədim. Adamlar elə rahat oturmuşdular ki, onların səhərədək yerlərindən qalxacaqlarına güman yox idi.

Elə bu zaman əynində qara kostyum, ağ köynək olan və qara qalstuk bağlamış bir nəfər mənə yaxınlaşdı:

– Cavan oğlan, o başda yer var, keçin əyləşin, – dedi.

– Çox sağ olun. – Restoranın işçisinə təşəkkür edib deyilən tərəfə getdim. Bir stol arxasında üç adam əyləşmişdi. Dördüncü yer boş idi.

– İcazə verin, sizinlə əyləşim, – əlimi boş stula yetirdim.

– Buyurun. Əyləşin, – dedilər.

Mən oturub sifariş vermək üçün xörəkpaylayanı gözləyəndə restoranın estrada orkestri gurladı. Bir qədər çalandan sonra ortalığa, əlində mikrofon olan kök bir oğlan çıxdı... Oturanlar öz aralarında deyindilər:

– Zalım oğlu elə bil Həştərxan pişiyidir.

– İşi-gücü nədir, peşəsi yeyib yatmaqdır.

– Bu boyda oğlana yaraşarmı ki, gəlib burda oxusun?

– Eşitməmisən, milçək qana yığışar.

– Bəyəm bunlar da yeyirlər?

– Bal tutan barmaq yalar.

– Bunlar axı bal tutan deyillər?

– Nə fərqi var?! Yenə necə olsa, buranın işçiləridirlər.

– Gərək elə bal tutsunlar. Züy tutana da bal düşür.

– Restorandır, hər halda ucundan-qulağından bunlar da dadırlar.

Müğənni oğlan əlində mikrafon oxuya-oxuya üzünü zalın o tərəf, bu tərəfinə tutanda bunlar səslərini kəsdilər. İçərilərində o birilərinə nisbətən yaşlı görünən qarabığ bir kişi var idi. O, bir siqaret yandırıb damağına qoydu, stulunu azca yanakı döndərib qıyqacı oturdu, nəzərlərini musiqiçilərə dikdi. Hərəkətindən hiss olundu ki, restorana yalnız qarnı xatirinə gəlməyib. Yeyib-içmək onun üçün, bəlkə də, ikinci dərəcəli məsələ idi. Fikirləşdim ki, o, restorana əylənməyə, istirahə-

tə, süfrə arxasında adamlara baxmağa, onların ağıllı, şən hərəkətindən xoşlanmağa gəlib. Müğənni oğlan səsini çıxaranda o, daha da diqqət kəsildi.

Xörəkpaylayana təzə sifariş etmişdim ki:

– Qardaşoğlu, bizə qonaq ol! – deyə bığlı kişi butulkanı götürüb mənim qədəhimə içki süzməyə başladı.

– Sağ olun. Siz için. Mənim üçün indi...

– Neynək?! Gələr, o da lazımımız olar, – dedi. Bığlarını dodaqlarının yanından oraq şəklində aşağı əymiş bu adam sözümə baxmadı, mənim üçün də araq süzdü, qabağımda təmiz nimçə, çəngəl-bıçaq olduğunu görüb ümumi yemək götürməyi təklif etdi.

Təkcə yemək-içməyim indi mənim üçün nə qədər xoş olsa da, birinci dəfə gördüyüm, oraqbığ adamın təklifindən boyun qaçıra bilmədim. Özümdən böyük idi. Mənə hörmət eləyirdi. Təklifindən boyun qaçırmaq mədəniyyətsizlik olardı. Bir-iki tikə kabab götürdüm.

– Götürün görək! – Oraqbığ adam sağ-solunda oturmuş yoldaşlarına və mənə müraciət etdi.

Qədəhimizi əlimizə alcaq o dedi:

– Sənin sağlığına, qardaşoğlu. Necə ki bir stol arxasında oturmuşuq, birgə də yeyib-içməliyik. Vallah, şəxsən mənim də təkcə boğazımdan heç nə getmir. Sənin sağlığına.

– Hamımızın sağlığına! – deyə mən də oraqbığ adamın göstərdiyi bu iltifatdan son dərəcə məmnun qalaraq içmək istəyəndə o sözünə davam elədi:

– İçək!.. Canımız sağ olsun. Həmişə belə kefdə-damaqda olaq. Pul bizi yox, biz pulu qazanırıq. Elə edək ki, həmişə biz pulu qazanaq.

– Sağ ol! Sağ ol! – deyə yoldaşları onu bu sözləri üçün təriflədilər.

O danışdıqca mən də başımı tərpədirdim. Həqiqətən, pis söz demirdi. Ağıllı danışırdı.

– Yaxşı, atın getsin, – nəhayət, o, əsas məsələyə keçməyin mümkün olduğunu bildirdi.

Hamımız içdik. Oraqbığ gah göyərtidən, gah kababdan alıb yeyə-yeyə soruşurdu:

– Yəqin, oxuyursan, tələbəsən, qardaşoğlu?

– Həm oxuyuram, həm də işləyirəm.

– Lap yaxşı! – kişi yeyə-yeyə başını tərpətdi.

Mən də başımın hərəkətilə ona təşəkkürümü bildirdim.

– Harada işləyirsən?

– Tikintidə.

– Biz həmkarıq ki? Hansı tikintidə işləyirsən?

– SU – 90-da deyəndə oraqbığ geri durub təzədən diqqətlə məni süzdü.

– Pah! Mən orda işləmişəm. Çoxdan işləmişəm. Öz aramızdır, orda bir sarsağ rəisiniz var. İpini verib dələduzların əlinə... Onun özünə də, işinə də tüpürdüm, çıxdım. Adam adam yanında işləyər, yoxsa ki...

Kişi elə bil əlini hülqumuma salmışdı. Ağzıma aldığım tikə boğazımı cıra-cıra getdi. Gözümü yumub udqundum, tikəni güclə ötürdüm. Çünki bu sözləri elə bil mənə deyirdilər, bu söylənilənlərin hamısı mənə aid idi. Sanki mən yazığı söyürdülər. Bu yoldaş lap ağ elədi. Xataya düşdük bir stol, bir süfrə arxasında oturduq. Nə vermişdisə, burnumuzdan gətirdi. Çünki hər sözü bir ox olub düz ürəyimin başına sancılırdı.

«Eşidirsənmi, ay dayı? – hirsimdən az qaldım qışqıram. – Gözlərinizi yumub nə istəyirsiniz edirsiniz, elə bilirsiniz hamı da gözünü yumub, heç kəs sizə baxmır. Lap baxsalar da, görsələr də buna əhəmiyyət vermirsiniz. Hər şeyə tüpürüb işinizi görürsünüz. Daha demirsiniz sizin cəmdəyinizə də tüpürən var. Özü də bir dəfə yox, iki dəfə yox... min dəfə, milyon dəfə... Bax, bax, nə olaydı bu «tfuları» özünüz eşidəydiniz. Özünüz öz gözlərinizlə görəydiniz. Bəlkə, onda sizə dərs olaydı».

Daxilimdə gedən bu təlatümdən, ağlı dumanlanmış oraqbığ adamın nə xəbəri vardı? Bilmirdi ki, onun sözləri xəncər olub ürəyimin başına sancılır. Bilmirdi ki, dayıma görə ölüb yerə girirəm.

«Tüpürüb ona, çıxıb başqa yerə getdim» – sözlərini tez-tez təkrar edirdi. Birdən beynim qıjıldadı, dəliliyim tutdu. Hirslə əlimi stolun üstə vurub, «bəsdir!» – deyə qışqırmaq istədim. Amma özümü güclə saxladım. Etiraz əlaməti olaraq yalnız cəld stolun ardından durdum. Oraqbığ kişinin alnına elə bil at təpiklədi. Məni diqqətlə süzüb təəccübləndi ki, niyə belə etdim? Onun sözlərinə mənim bu cür çox hirsli etiraz əlamətimə səbəb nə oldu? Nə fikirdə olub-olmadığını deyə bilmərəm. Onun qaşları çatılmış olanda mən ayağa qalxdım, cibimdən bir onluq çıxarıb stolun üstə atdım və kəskin hərəkətlə çevrilib giriş qapısına sarı yönəldim.

İctimai bir yerdən, adamların arasından heç belə əzgin ayrılmamışdım. Onsuz da mənim əhvalım son vaxtlar tez-tez pərişan olurdu. Bəzi-bəzi adamların düzgün olmayan hərəkətlərini görəndə, hətta özümdən də zəhləm gedirdi. Elə bilirdim onların tayıyam. Bicliklər mən də bilirəm. Qəti qərara gəlirdim ki, öz xeyrim, öz nəfsim üçün qeyri-qanuni işləri mən də görərəm, adamlara pislik edərəm. Ağlımın, düşüncələrimin belə anlarında gözümün qabağına elə bil bir qara pərdə çəkirdilər. Adamlar da bu qara pərdənin ardında-qabağında atlanıb düşürdülər. Özümü də bu aləmin içərisində hiss edirdim. Elə fəndlər-biclikləri işlədirdim ki, heç kəsin ağlına gəlmirdi. Elə bilirdim dayımın əllərini kəsib qoynuma qoymuşam. Hirsimdən öz-özümə: «O nə töküb sən yığışdırmısan, əclaf!» – deyirdim. Özüm-özümü beləcə mühakimə etdikcə həyat nəzərlərimdə mənim

bildiyim, gördüyüm tanıdığımdan da qat-qat çətinləşir, mürəkkəbləşir, heç kəsə etibarım, inamım qalmır, bunlar adamların çox mahir bir ustalıqla toxuduqları biclik torunda itib batırdılar.

Başımı qaldıranda gördüm dayımın təzə evinə gəlmişəm. Nə oldu? Dayımın kölgəsini qılınclayırdım. Özlüyümdə onun qarasına söyüb-söylənirdim. Özümə söz vermişdim ki, dayımla bir işim olmayacaq. Birdəfəlik onunla əlaqəni kəsəcəm. Yenə sözümü pozmalı oldum. Ona acığım-qəzəbim nə qədər çox olsa da, yenə görmək fikrinə düşdüm. Məqsədim deyilənləri yerli-yataqlı öyrənmək idi. Həm də dayımdan çoxluca yığmışdım.

Zənglərini nə qədər çaldımsa, cavab verən olmadı. Qonşunu narahat etməli oldum. Pırpız saçlı bir qadın qarşıma çıxdı:

– Kimi istəyirsiniz? – soruşdu.

– Bağışlayın. Sizi narahat etdim. Bu evin adamları?..

– Bakıda deyillər. Moskvadadırlar. – Qadın gülümsəyib mənimlə maraqlandı. – Siz onların nəyisiniz?

– Dayım evidir.

– Çox yaxşı. Bu gün onlardan teleqram almışıq. Sabah gəlirlər. Maşın istəyiblər. Gedəndə biz xahiş etmişdik ki, gəlməyinizi bildirin, həvəsiniz varsa, sabah 8 üçün gəlin. Bizim maşınla qabaqlarına gedin.

Boyun qaçıra bilmədim...

Binəyə yola düşəndə radio ilə konsert verilirdi. «Belə ola həmişə!.. Belə ola həmişə... oyyy!.. Belə ola həmişə!» Maşında oturub sakitcə düşünürdüm. Ürəyindən olmaya-olmaya kimisə yola sal, qarşıla. Üzünə bax, dişlərini ağart, ona məhəbbətini, dərin hörmətini bildir, ikiüzlülük, riyakarlıq elə!..

Təyyarə meydanına heç bilmədim necə çatdıq. Maşını qarşıdakı meydançada saxlamışdıq. Maşın sahibi ilə əvvəl aerovağzalın birinci mərtəbəsində gəzişdik, sonra bufetə getdik. Bir az yemək götürdük, bir də bir-iki dənə limonad, əslində, heç ac deyildik, elə-belə vaxt keçirirdik. Həqiqətən də, belə oldu. Başımız burada söhbətə necə qarışdısa, sonra saata baxdım ki, vaxt çatıb. Dayımgilin gəlməyinə az qalıb. Bir azdan aşağı düşdük. Bayıra çıxdıq. Yaxınlıqda təyyarədən adamlar düşürdülər. Dayımgilin reysi idi. Əl-qolumu bağlamışdılar. Həvəssiz idim. Dayımı görməyə tələsmirdim. Gəldi, gəlmədi mənim üçün fərqi yox idi...

Adamlar dəstə ilə bizə yaxınlaşdılar. Dayımı gördüm. Kəmalə də yanında idi. Az qalmışdı onları tanımayam. Dayım qısa dəri palto geyinmişdi. Boynu, yaxası ağappaq idi. Başına bahalı papaq qoymuşdu.

Kəmalənin isə əynində qəşəng dublyonka var idi. Başına qara rəngli, yumşaq tüklü şal örtmüşdü. Elə bil ay parçası idi. İkisi də yaraşıqlı, səliqəli idi. İşləri də özləri kimi beləcə səliqəli, yerində olsa idi nə vardı?! Ancaq... Təəssüf etdim ki, dayımın işi bu vəziyyətdə deyildi. İşləri başlı-başına buraxmışdı...

Gəlib yanımdan keçəndə məcbur olub dilləndim:
– Hamı yoldan sağlıqla, dayı!
Səsimə bəri döndü. Məni görcək:
– Bıy, xoş gördük. – Əlini uzadıb mənimlə görüşdü. Əli əlimdə Kəmaləyə tərəf döndü. – Bir gör bizi qarşılamağa kim gəlib?!
Kəmalə mənə sarı çevrildi. Özünü bir qədər itirdi. Çaşıb qaldı. Hiss etdim ki, utandı. Elə bil əzəlki deyib-gülən, zarafatlaşan Kəmalə deyildi. Doğrudur, qızın belə şeyləri var idi. Amma, ümumiyyətlə, götürəndə abırlı-həyalı, tərbiyəli qız idi. Başqa cür olsa, mən özüm dayıma deyərdim ki, qulağıma pis-pis şeylər dəyir, olmaya-olmaya elə iş görəsən. Qızın tərbiyəsində bir nöqsan, qüsur olmadığı üçün də dillənməmişdim. Adama böhtan atmaq yaxşı deyildi.
Mən Kəmaləni bu sıxıntıdan qurtarmağa çalışdım. Başımın hərəkətilə onu salamladım. O da gülümsünmüş başını tərpətdi. Açıqca hiss olundu ki, mənim ona qarşı bu xoş münasibətimdən sevindi, açıldı. Əlbəttə, mən özgə adam deyildim, bu ailənin bir üzvü də mən idim. Yəqin, qız fikirləşirmiş ki, mən onların bu ailə qurma məsələlərinə necə baxacam, fikrim, rəyim necə olacaq? Gördü ki, pis münasibətdə deyiləm, rəngi-ruhu açıldı. Şənlənən təki oldu. Məni bu cür saymağından, rəyimlə, fikrimlə hesablaşmağından mən də qızdan razı qaldım. Əlində böyük bir bağlama tutmuşdu, niyə görəsə onu baqaja verməmişdilər, əlimi yetirib onu aldım. Tez aparıb maşına qoydum, qayıdıb baqaj kağızlarını da götürdüm. Baqaj şöbəsinə getdim ki, çamadanlarını da alım. Artıq dayım arvadı idi. Ta nə deyə bilərəm. İndi mənim vəzifəm ona hörmət eləməkdir. Ona ədəb-ərkanla yanaşmaqdır. Nə olsun ki, vaxtı ilə bir yerdə işləmişdik, iş yoldaşı olmuşuq. Kəmalə ilə, bəlkə də, yaşıd idik, bəlkə də, məndən kiçik idi. Bunun dəxli yox idi. Dayım arvadı kimi mən ancaq onun əmrlərini yerinə yetirə bilərdim. Daha bunların bu izdivacına artıq mənim irad tutmağım, nəsə narazılığımı bildirməyim gec idi. Məsələ həll olub qurtarmışdı. Yəqin ki, onun üçün belə sərfəli idi. İnsan dünyaya göz açdığı gündən xoşbəxtliyini, səadətini axtara-axtara gəzir. Bəlkə, onun xoşbəxtliyi elə bu qızda imiş. Görünür, qız da xoşbəxtliyini onunla tapmışdı. Qaldı Xırdaca xanım. Bəlkə, o da dayımdan haqq-nahaq çəkib altına yığdığı var-dövlətlə, daş-qaşla, ziynətlə xoşbəxt olacaqdı, qoy olsun. Xırdaca xanıma da bunlar lazım idi. Sonradan o məni görüb ağlayıb-sıtqımağı da yalan idi. İndi bax, o saray təki otaqlarda, daş-qaş içərisində parıldaya-parıldaya, yana-yana kefini sürürdü. O da bu cür xoşbəxtlik axtarırdı, tapmışdı.
Qəribə idi. Əslində, bu adamların ikisi də mənə yaxın idi. Aydındı ki, biri doğmaca dayım idi. O biri isə bir vaxtlar iş yoldaşım olmuşdu. İndi gəlinimiz idi. İkisilə də aram açıq idi. Aramızda heç vaxt rəsmiyyətlik olmamışdı. İndi isə biz bir-birimizə bir az da artıq yaxın olmalı idik. Mən isə onlardan qaçırdım. Bilmirəm nəyə görə? Utanırdımmı? Yoxsa başqa bir səbəb vardı? İnsanda elə

hallar olur ki, bəzən özü-özünü belə başa düşə bilmir. Mən də onlardan hal-əhval tutmaq əvəzinə kənara çəkilmişdim. Yaxşı ki, baqajı gətirdilər, başım işə qarışdı. Tez çamadanları tapıb maşına gətirdim. Onlar maşına minəndə gördüm bir avtobus yola düşür. Çamadanları tez maşına qoyub yüyürdüm, hoppanıb minəndə dayım ardımca qışqırdı:

– Mahir! Mahir!

Dönüb geri də baxmadım. Daha bu yerdə mən ona nə deyəsi idim. Hər halda, bu da bir etiraz idi. Bu da bu cür dayıma qarşı çıxmaq idi. Amma sonradan ağlıma gəldi ki, bunu Kəmalə öz üstünə götürə bilər. Elə bilər ona görə belə edirəm. Bundan xeyli pis oldum...

Bir neçə gün sonra dayımın məzuniyyəti qurtarıb işə çıxan günü mən də idarədə idim. Qəti qərara gəlmişdim ki, işləri barəsində ona sözümü deyəm. Həm də iş üslubunun düzgün olmadığını, idarəyə rəhbərlik edə bilmədiyini bildirəm. Məndən inciyir, qoy incisin. Mən onun xeyrini deyirəm, başa düşmür, düşməsin. Çünki başqa əlac yox idi. Belə getsə, dayım çox pis vəziyyətə düşə bilərdi. Hərənin ağzından bir avaz gəlirdi. İşdə nizam-intizam yox idi. Hər şeyi də birinci növbədə özləri pozurdular. Bunu da sıravi işçilər görür, danışır, tez-tez narazılıqlarını bildirirdilər. Mən də bunları eşitməkdən təngə gəlmişdim. Hansı birinə qulaq asmayasan, hansını eşitməyəsən? Özü də hamısını düz deyirdilər. Həqiqəti deyirdilər. Mirişin özbaşınalığı camaatı təngə gətirmişdi. Sahib kimi yaxşı bir işçinin getməsi adamlara xüsusilə pis təsir etmişdi. Ancaq bütün bunları ona necə deyəcəm, sözümü, etirazımı nə təhər ifadə edəcəm, bilmirdim. Bərk həyəcan keçirirdim. Sözlərimin ona bir təsiri olacaqmı?! Bunu əvvəlcədən nə bilmək olardı. Nə olar, olar yanına girdim. Nəsə kağız-kuğuza baxırdı. Məni görcək:

– Əə, sənsənmi?! Gəl! – dedi.

Gedib ona yaxın stolda oturdum.

– Hə, danış görək nə var, nə yox?

İkimiz idik, kabinetdə. Ağzı mənlə danışırdı, amma gözü stolun üstündəki kağızlara baxırdı. Bu, xoşuma gəlmirdi. Elə bilirdim sözüm ona çatmayacaq. Mən ötkəm dilləndim:

– Dayı, gərək elə sən bu idarədə rəhbər olasan?! Olmazmı ki, ərizəni yazıb çıxasan?.. Bilirsən, dayı, bu boyda idarəni vermisən axmaq-uxmaq adamların əlinə. Onlar da dağıtmağa çalışırlar. Axı elə gərək rəhbər işçi olasan?! Ol sıravi işçi. O daha yaxşıdır. Vallah, o hamısından yaxşıdır. Qulağın da dinc olar!

Dayım dinməzcə üzümə çox maraqla baxırdı. O boyda kişi qabağımdaca quruyub qalmışdı. Yəqin, fikirləşirdi ki, bu mənəm, yoxsa mən deyiləm. Əgər mən idimsə, onda niyə belə danışırdım? Yox mən deyildimsə, onda bəs kim idim? Dinmirdi. Amma başa düşürdüm ki, içəridən qaynamağa başlayıb. İndicə qaynar su poqquldayıb, daşıb-töküləcək, mənim də, özünün də əlini-ayağını yandıracaq.

Çünki belə sözləri ona heç kəs deməmişdi. Amma mən dedim. İşə laqeyd yanaşmasını, məsuliyyətsizliyini, zəifliyini, xülasə nə nöqsanı vardısa, hamısını başından yağdırmışdım. Belə işləmək olmaz demişdim. Onun əlinin altının işçisi ola-ola böyük bir idarənin rəhbərinə yol göstərmişdim. Bəlkə də o, fikirləşirdi ki, ya mən xəstələnmişəm, qızdırmam var, ya da kimsə öyrədib. Ağlına cürbəcür şeylər gələ bilərdi. Mən isə hamısını şüurlu etmişdim. Orda-burda dayım barəsində gedən söz-söhbətdən o qədər yığmışdım ki, daha özümü saxlaya bilməmişdim. Əlbəttə, dayımı istəməsəydim, bu söz-söhbətə, deyilənlərə əhəmiyyət verməzdim. Bu qulağımdan alıb, o qulağımdan verərdim. Məsələ burasında idi ki, mən dayım haqqında həmişə yaxşı söz eşitmək, onu yaxşı görmək istəyirdim. Dayımın xəbəri yox idi ki, onun bəzi-bəzi işləri barədə söhbət gedəndə mən başımı aşağı dikirdim. Xəcalət çəkirdim. Ona görə də dayana bilməyib, nəhayət, açılışmışdım. Mən elə əvvəlcədən bilirdim ki, dayım məndən inciyəcək. Yalnız bir şeyə görə deyirdim ki, bəlkə, bunu nəzərə alıb inciməyə. O da mənim ona qohumluğum idi. Hər halda, başa düşər ki, mən bunun pisliyini istəmərəm, yaxşılığına çalışaram. Ona görə mən ağzımı açıb tənqid etcək özündən çıxmaz, oturub yaxşı-yaxşı fikirləşər ki, mən nə üçün belə deyirəm. Niyə ona qarşı belə qəddaram. Yəqin, bir şey var ki, belə olmuşam. Əmin idim ki, dayım əgər kəmhövsələlik eləməyib dediklərimə təmkinlə qulaq assa, beyninə batar və özü üçün nəticə çıxardar...

O, hələ də əli çənəsində mat-məəttəl üzümə baxa-baxa susurdu. Yəqin, təsəvvürünə gətirə bilmirdi ki, mən onunla bu tonda danışaram. Başına ağıl qoyaram. Birdən gözləri hədəqəsindən çıxdı:

– Dur, rədd ol! Gözüm səni görməsin! – deyə üstümə bağırdı.

Bəli, ümidim boşa çıxdı. Dayım məni başa düşmədi. Xeyri-şəri anlamaq hamıya lazımdır. İstər cavan olsun, istər yaşlı. Dayımın da həyatda xeyli təcrübəsi vardı. O gərək başa düşəydi. Təəssüf ki, başa düşmədi. Mənim başqa əlacım qalmadı. Hər ehtimala qarşı hazırlıqlı getmişdim. O dəqiqə cibimdən ərizəni çıxardıb stolun üstə qoydum və təkidlə dedim:

– Siz ki məni başa düşmək istəmədiniz, onda xahiş edirəm ki, qol çəkin. Daha sizinlə işləyə bilmərəm!

– Buyur! – dayım ərizəmin üstə nəsə tələm-tələsik yazıb qol çəkdi və üstümə atdı. O isə yellənib yerə düşdü, stolun altına sürüşdü. Başqa adam olsa, əlbəttə, onun bu hərəkətinə, kobudluğuna dözməzdim. Amma dinməzcə əyilib kağızı götürdüm və qapıya yönəldim.

Milyon yarım əhalisi olan bu nəhəng şəhərdə mənə yaxın olan bir adam vardı, onu da itirdim. Çətin barışa bilərdik. İşləri bütüncə korladım. Dəhşətli dərəcədə həyəcanlı olsam da, hərəkətimdən razı qalmışdım. Çünki sözümü deyə bilmişdim. Yoxsa bir yumru çaylaq daşı təki ilişib ürəyimin başında qalmışdı.

Əl vuranda ağrıdırdı, göynədirdi. Nəhayət, götürüb atdım, bununla da dayıma olan acıq hissimi, narazılığımı bildirdim. Amma insafnan desək, özü pis inşaatçı deyil. Bilirdim ki, institutu da əla qiymətlərlə bitirib. Neçə ildi ki, işləyirdi. Ancaq neyləyim ki, ətrafında olan bəzi adamlar onu korlamışdılar. Miriş kimiləri qılığına girib bəzi əyri işlərlə məşğul olurdular. Mən də çalışdım ki, dayımı ayıq salam, başa düşmədi. Yəqin, mənə uşaq kimi baxdı... Neynək, qoy nə hesab eləyir eləsin, yəqin, bir zaman ayılıb məni düzgün başa düşər...

## XIX

Dayımla dalaşmağım, işdən çıxmaq üçün ərizə yazmağım xırda şeylər deyildi. Bunlar hamısı birbaşa mənim həyatıma aid olan xoşagəlməz hadisələrdi. Əlbəttə, heç kəs istəməzdi ki, belə olsun. Amma adamın özündən asılı olmayaraq bəzən həyatda elə əhvalatlar baş verir ki, istər-istəməz onlara qarışmalı olursan, bu və ya digər məsələyə öz münasibətini bildirirsən. Ancaq onu deyim ki, başım nə qədər qarışsa da, Hilalə və onunla əlaqədar əhvalatlar başımdan getmirdi. Demək olar ki, Hilalə həmişə mənim yadımda olurdu. Gecələr yuxuma da girirdi. Bir dəfə gördüm qızla gəzməyə çıxmışam. Bir-birimizin əlindən tutub harasa qaçırıq. Burası var ki, nə qədər qaçırıqsa, şəhərdən çıxa bilmirik. Uca-uca binalar da, asfalt yollar da, adamlar da, maşınlar da elə bil qaçırdılar. Amma onlar da şəhərdən çıxa bilmirlər. Bu, necə yuxu idi, bilmirəm. Oyanıb yozmaq üçün nə qədər baş sındırmaq istəmişdimsə, bir şey çıxmamışdı. Xülasə, bu qərara gəlmişdim ki, dünyada heç nədən qaçmaq mümkün deyil, heç adamın özü-özündən də qaçmağı mümkün deyil...

Bir gecə də qızın atasını yuxuda gördüm. Gördüm toydur. Sındır ha sındır elə oynayır, elə oynayır ki, aləm başına toplaşıb. Sonra görürəm ki, Hilaləni gəlin aparırlar, mənim də dişim bağırsağımı kəsir. Səhər oyananda fikirləşdim ki, bu kişi hardan gəlib mənim yuxuma girdi?

Bir sözlə, bu ailə gecə də, gündüz də mənim qəlbimdən çıxmırdı. O gün darvaza altındakı əhvalatdan sonra gəlib isti-isti Hilaləyə dediyim sözləri də yadıma saldım. Nə demişdim, nöqtəsinə, vergülünədək hamısını təkrar elədim. Ondan bəri qızın gözünə görünməməyimin səbəbi isə aydın idi. Üz-gözüm bir az qaydasına düşsün, dodağımın şişi keçsin. Mən bunu açıb-ağartmaq istəmirdim. Biz dalaşmışıq, bunun qıza nə dəxli var. Üz-gözüm düzələnnən sonra isə başım dayıma qarışdı. İndi bundan da azad olmuşdum. Hilaləni görmək istəyirdim. And içmişdim ki, Hilalə küçədə, lap o oğlanın yanında da rast gəlsə, sözümü deyəcəyəm. Qoy oğlanın da qulağı eşitsin. Əlindən gələni də beş qaba çəksin. O ki elə etdi, mən də belə edəcəyəm. Qoy yanıb-yaxılsın. Özüm də əmin idim ki, qız mənim tərəfimdə olacaq. Axı əzəldən biz bir-birimizi sevmişdik. Ayrılma-

ğımıza isə səbəb çox idi. Əsas təqsirkar elə mən özüm idim. Qızı apara bilərdim. Hilalə razı olsa da mənləngitdim, hər dəfə dilimi sürüdüm. O qız da bu fikrə gəldi ki, mən onunla evlənmək istəmirəm. Yoxsa qız ömründə məndən dönməzdi. Digər tərəfdən də anası onun evini yıxdı. Həyatını anasının sözü ilə, təhriki ilə qurdu, o da beləcə tezcə uçdu, dağıldı. İndi isə sözsüz ana da, qız da ağıllanıb. Ana daha onun həyatına bu cür qarışmaz, heç qız özü də buna o dərəcədə imkan verməz. Öz taleyini özü həll eliyər. Başına gələn başmaqçı olar deyərlər. Elə iş görməz ki, sonra bir də peşmançılığını çəksin.

Sən demə, bu ərəfədə Hilalə də mənim haqqımda fikirləşirmiş. Təsadüfən küçədə rast olanda özü mənə yaxınlaşdı. Hiss etdim ki, nəsə sözü var. Həqiqətən, var idi. Salamlaşandan sonra:

– Mahir, xahiş edirəm düzünü de, o nə məsələ idi?

– Hansı məsələ? – deyə mən də maraqla ondan soruşdum.

– O ki gəlib mənə qapının ağzında söz dedin hə? Nə olmuşdu sənə? Bəs eyib deyildimi? Qonum-qonşudan birdən eşidən olaydı?

O dəqiqə bildim ki, qız mənim sözümü ciddi qəbul eləməyib. Çox güman ki, məni sərxoş hesab edib. Çox pis oldum. Hilalə niyə məni bu cür adam hesab edir? Nə vaxt mən içib özümü itirmişəm, sözümü bilməmişəm, pis, nalayiq hərəkətlər etmişəm? Mənim qanıqara duruxduğumu görən qız dedi:

– Yadından çıxıb hə? – Və bu ara acıq eləyib aralanmaq istəyirdi ki, əlimi atıb qolundan tutdum:

– Xeyr! – Yadımdan çıxmayıb. İstəyirsən nə demişəm təkrar edim.

Qız zəndlə üzümə baxdı. Və sözümün doğru olub-olmadığını dəqiq bilmək istədi. Adamlar yalanı bəzən elə deyirlər ki, lap doğru kimi çıxır. Mən isə yalanı doğru yerinə satanlardan deyildim. Bunu gərək qız biləydi. Özü də bir başqasına yalan deməyə dilim az-çox gələ bilsə də, Hilaləyə qarşı ömrümdə əyri ola bilməzdim. Bu qızda elə bir mərdlik görmüşdüm ki, hamda bir kişi onun həddinə çata bilməzdi. O, çoxlarının eləmədiyi bir işi eləmişdi. Halbuki o, mənim barəmdə susa bilərdi. Özünü elə göstərərdi ki, guya, heç tanımır. Bununla da öz ailəsi dağılmazdı. Atası elə vəziyyətə düşməzdi. Artıq həyəcanlar keçirməzdilər. Həyatları rəvan keçərdi. Ancaq qız belə eləməmişdi. Buna vicdanı yol verməmişdi. Öz rahat, yaxşı yaşayışlarını özgəsinin bədbəxtliyi üzərində qurmağın əleyhinə çıxmışdı.

Məncə, Hilalə sözümün yalan olmadığına inandı. Ancaq fikirləşdi ki, birdənbirə mənə nə olub ki, belə qızışmışam. Tez-tələsik bu məsələnin üstə, düşmüşəm. İki daşın arasında həll eləmək istəyirəm. Bax, buna səbəb nə idi? Ona aydın deyildi. Odur ki qız bir qədər tərəddüd içərisində qalmışdı. Mən bu şübhələri dağıtmağa, açıq danışmağa cəhd etdim:

– İndi mən sənin qəti fikrini öyrənmək istəyirəm.

– Nə barədə?

– Necə yəni nə barədə?! Deyirəm yəni həyatını necə qurmaq fikrindəsən?

– Həyatı insanlar özləri qurmurlar ki, – qız şən-şən danışdı. – Kimin taleyi necə gətirir. Adam var bəxtli olur, adam var bəxtsiz.

Hiss etdim ki, qız ruhdan düşüb, həyatdan küsüb, taleyinin qismətindən narazı qalıb. Belə olmaq, əlbəttə, yaxşı deyildi. İstədim ona mənəvi dayaq olam. Deyəm, bu nədir dəli-dəli danışırsan, ağlını başına yığ, nə olub sənə, cavansan, indidən ruh düşkünlüyünə qapılıbsan. Bilmirəm alındı, yoxsa alınmadı, ancaq belə dedim:

– Əlbəttə, səhvsiz insan olmaz. Ancaq səhvlərdən nəticə çıxartmaq lazımdır.

O ötkəm halda həm cavab, həm də sual verdi:

– Hə, nəticə çıxartdım, bəs sonra?

– Sonra ağlın və ürəyin səsinə qulaq asmaq lazımdır!

– Eh! Daha onlar da susublar. Səslərini çıxartmırlar. – Qız hər şeydən əlini üzdüyünü bildirdi.

– Niyə susurlar?

– Bilmirəm! – Qız xəfifcə çiyinlərini çəkdi.

Axırı bu qərara gəldim ki, açıq danışmalıyam. Məsələni konkret qoymalıyam. Özüm də çox bərk həyəcanlanmışdım. Bu qız daha mənim üçün əzəlki Hilalə deyildi. Əvvəllər ona adi bir qız kimi baxırdım. Düzünü deyim, hətta ondan acığım gələn vaxtlar da olmuşdu. Ad günündə qonaqlarını evdə qoyub gizlincə mənim yanıma gələndə onun, hətta ağlına da şübhə ilə baxmışdım. Sonralar da elə hallar olmuşdu ki, qızdan ağlım bir şey kəsməmişdi. Xüsusilə ərə gedən günü mənim yanıma gəlməsi, xudahafizləşməsi məndə ona qarşı gizli bir ikrah hissi oyatmışdı. Bütün bunlarla yanaşı, ondan acığım gəldiyi, nifrət etdiyim qədər də ona məhəbbət bəsləmişdim. Bu qıza qarşı ürəyimdə həmişə iki hiss olmuşdu. Nifrət və məhəbbət hissi. Bunların arasında həmişə mübarizə getmişdi. Bəzən bu üstələmişdi, bəzən də o. Hərəsinin də ağzından bir avaz gəlmişdi. Biri pisləmişdi, biri tərifləmişdi. Biri ona sarı dartmışdı, digəri ondan uzaqlaşdırmışdı. Nəhayət, bu qız başqasına ərə gedəndə bizim birdəfəlik ayrılmağımıza mən həm sevinmiş, həm də hədsiz kədərlənmişdim. Qızdan əlim üzüldüyünü düşünüb qovrulmuşdum. Ondan ötrü onun özünə də, valideynlərinə də, özümə də lənətlər yağdırmışdım...

Sonralar isə işin belə olacağını mən heç xəyalıma gətirə bilməzdim. Tamahının ucundan Xalıq kişi ən əvvəl heç bir təqsirim olmaya-olmaya məni işə saldı, sonra özünü məhv etdi. O «gədə» də məni bu yandan gic elədi. Onun mənə qarşı hərəkətindən, o qədər yanıb töküldüm ki, bilmirdim heç nə edəm. Özümdən asılı olmayaraq and içmişdim ki, Hilalə mənim olmalıdır. Əvvəllər kəndi-kəsəyi,

qohum-əqrəbanı düşünürdüm ki, özbaşına evləndiyim üçün məni qınayarlar. İndi isə belə şeyləri nəzərə alan deyildim.

– Hilalə?

– Bəli, – qız gedə-gedə dönüb mənə baxdı.

Bəlkə də, elə bildi ki, o gün, həqiqətən, sərxoş olduğumu, ağlım başımda olmadığını deyəcəm, beləliklə, səhvimi, nalayiq hərəkət etdiyimi boynuma alacam. Onda da təqsir yox idi. Kim olsa, yəqin, elə o cür düşünərdi. Haradan ağlına gələ bilərdi ki, oğlanla aramızda dava-dalaş olub? Bu barədə danışan yox idi. Yaxşı ki, görən olmayıb. Yoxsa gedib qızın da qulağına çatardı. Onda yaxşı olmazdı. Hilaləyə pis təsir bağışlayardı.

– Hilalə! – Qızın adını bir də tutdum. – Mən yenə həmin adamam – Hilalə. Güman etmə ki, dəyişilmişəm.

– Yox, gecdir! – Qız üzümə baxa-baxa yenə başını buladı. – Vaxtında bu işi həll eləmək lazım idi, Mahir. Yadındamı, sənə öz dilimlə də dedim ki, apar məni. Hətta toy günü də gizlincə gəldim yanına. Qoçaq oğlan idin, götürüb aparaydın də!

Sən demə, qızın ürəyi dolu imiş. Bu barədə danışmaq üçün, ürəyini boşaltmaq üçün bir bəhanə axtarırmış.

– Doğrudur, sən məni istəyirdin, – deyə qız sözünə davam elədi. – Amma nədənsə qorxub tərpənmirdin, qəti hərəkət etməyə cəsarətin çatmırdı. Ona görə də mən... Eh, Mahir! Sən məni heç vaxt başa düşməmisən. Sən mənim ürəyimi sındırmısan, – deyə qız bu ara kövrəldi və mən onun gözlərinin yaşla dolduğunu gördüm. – Yox, Mahir! Daha gecdir. Bu barədə bizim aramızda bir də söhbət olmasın! – Qız məsələni qəti şəkildə qoydu və «sağ ol» – deyib, hətta mənim cavabımı gözləməyib aralandı.

Mən qızın ardınca baxa-baxa yerimdəcə quruyub qalmışdım. Hilalədən rədd cavabı aldığım üçün qəzəbimi, hikkəmi heç bilmirdim kimin üstünə töküm. Fikirləşdim ki, daha bundan sonra mən onların qonşuluğunda dura bilmərəm. Lap küçədə də qalmalı olsam, bu evdən mütləq çıxmalı idim. Nəhayət, o oğlanın da tapşırığını, tələbini yerinə yetirmək qərarına gəlmişdim. Bunun daha o yanı, bu yanı yox idi. Qoy nə fikirləşir, fikirləşsin. Qoy desin məndən qorxub-çəkindi. Təki Hilalənin xoşbəxtliyinə, səadətinə mane olmayım. Onsuz da məndən çox çəkib. Günah özlərində olsa da, mənə görə həyatı pozulub, atasını itirib. Yox! Yox! Mən ona mane olmaq istəmirdim. Şəhərdən tamam çıxmağa belə razı idim, ancaq Hilalə xoşbəxt olsun. İndi mənim üçün bu əsas qayğı idi. Əlimdə hazırda ondan vacib, mühüm iş yox idi. Ona görə də elə həmin gündən başladım kirayə ev axtarmağa. Elə pis olmuşdum ki, az qalırdım başımı götürüb tamam gedəm. Bu institut zəhrimar olmasa idi, mən heç burda bircə gün də qalmazdım. Başa düşürdüm ki, Xanım ananın yerini verən olmayacaq. Onun kimi mehriban, qayğıkeş, əsl insan olan ev sahibəsi tapa bilməyəcəm.

Bu fikirlər içində boğularkən hardansa Sahib gəlib yadıma düşdü. Birbaş onun yanına getdim. Xoş, beş, on beş. Neçə gün idi ki, görüşmürdük. İndi az qaldıq bir-birimizi duz kimi yalayaq. Sonra hal-əhval tutduq. Gördüm ki, kefi kökdür. Deyirdi, gülürdü. Təkcə bircə şeydən qorxurdum ki, Sahib yenə dayımdan, Kəmalədən söhbət sala. Başlaya yenə də köntöy-köntöy, tənəli-tənəli danışa. Məncə, belə söhbətlər daha lazım deyildi. O məsələ artıq həll olunmuşdu. Yəqin ki, dayımla Kəmalənin evlənməsini də Sahib eşitməmiş deyildi. Sahib də, həqiqətən, kişi oğlu kimi bircə dəfə də olsun onların adlarını dilinə gətirmədi. Xeyli söhbətdən sonra mən dedim ki, kirayə ev axtarıram. O da qayıdıb dedi ki, kirayə evi neynirsən, bəri gəl mənim yanımdaca yataqxanada olaq. Bir otaqda qardaş kimi dolanarıq. Vallah, yataqxanadan yaxşı yer yoxdur.

– Baş üstə, – deyə gülə-gülə mən də o dəqiqə razılaşdım. – Səhər köçürəm.

– Köç! – Qollarını açıb o da məni qucaqladı. – Köç, qardaş, bu həm sənin üçün, həm də mənim üçün sərfəli olar.

Səhər evdə şeylərimi yığışdıranda öz-özümə deyirdim ki, görəsən, bu evlər idarəsinin müdiri harada ölüb qalıb? Heç gəlib soruşmurlar ki, evi nə vaxt boşaldırsan. Nəhayət, özüm onların yanına getməyə hazırlaşırdım ki, bu ara qapını döydülər. Elə bildim evlər idarəsindən gələn var. O siçana oxşar iri qulaqları olan evlər idarəsinin rəisini görmək mənə xoş olmasa da, sevindim ki, yaxşı oldu, qapının açarını elə burdaca təhvil verərəm. Daha bir də ora getmərəm. Qapı onsuz da açıq idi. Ona görə uzaqdan səsləndim:

– Buyurun, gəlin!

Səsimi çıxartdığımı gördüm. Qapını elə bil külək açdı, o yandan bəri uşaqlar içəri doluşanda özüm də məəttəl qaldım. Xeyir olsun, gör nə qədər uşaq gəlib? Bunların bax, bu cür dəstə ilə gəlməsi, əlbəttə, məqsədsiz deyildi. Başa düşürdüm ki, mənlə nəsə vacib işləri var ki, birbaşa evə gəliblər. Görünür, işləri düşüb, yenə həyətdə nəsə düzəltmək lazımdır. Düşündüm ki, hələ xahişlərini dinləməmişdən qabaq düzəltdiyimiz tennis stolu barəsində uşaqlara bir-iki söz deyim, hərəkətlərinə irad tutum: «Taxta tapdıq, düzəltdik, bir az oynayıb doyandan sonra həvəsdən düşdünüz, stola fikir vermədiniz, qırılıb dağıldı. Axı adam zəhmətə qatlaşmağı bacardığı kimi hər şeyin qədrini də bilməlidir». Ancaq məsələ burasında idi ki, mən artıq gedirdim, bu mənzildən köçürdüm, budur bax, şeylərimi də qablaşdırmışam. Uşaqlar üçün nəsə müəyyən bir işdə lazım olacağıma indi, bu dəqiqə imkan yox idi. Bilmədim bunu necə deyim. Ondan sonra üstümə düşüb soruşacaqlar, niyə gedirsən? Hara gedirsən? Bunlar artıq şeylər olardı. Ona görə bu barədə bir söz demədim. Görüm axı bu uşaqlar nəyə gəliblər. Onları həmişəki kimi gülərüz, mehriban qəbul etməyə çalışdım.

– Yaxın gəlin, bəyəndiyiniz yerdən əyləşin. – Oturmaq üçün stulları və taxta kuşetkanı göstərdim.

– Sağ olun, oturmuruq. Biz bir iş üçün gəlmişik, – deyə xorla danışdılar.
– Bilirəm. Başa düşürəm. Ancaq əyləşin, sonra nəyə gəldiyinizi deyin.
Uşaqlar təklifimi yerə salmadılar. Hərəsi bir yerdə əyləşdi. Onların ədəb-ərkanla oturduqlarını görcək mən də oturdum. Bu uşaqları yaxşı tanıyırdım. Bura köçən gündən onlarla dostlaşmışdım. Məndən qabaq onlar Xanım anaya müəyyən köməklik eləyərmişlər. Biri çörəyini alarmış, o biri dava-dərman üçün aptekə qaçarmış. Belə-belə Xanım ana ilə uşaqlar arasında möhkəm dostluq yaranıbmış. Xanım ana onlar barəsində mənə o qədər şeylər danışmışdı ki, qayğıkeş, mehriban, işgüzar olmaqları mənim də xoşuma gəlmişdi. Hətta mən Xanım ananın evində olanda da uşaqlar bəzən gəlirdilər ki, bəlkə, bir şey lazımdır, suyunuz gəlirmi, işığınız yanırmı, evlər idarəsilə bir işiniz yoxdur ki?! Axı belə uşaqlardan kim inciyərdi?! Mən də gülə-gülə uşaqlara deyirdim ki, daha Xanım anadan arxayın ola bilərsiniz, nə lazımdır mən eliyəcəm. Onlar da mənə razılıq edirdilər. Ümumiyyətlə, çox istiqanlı, səmimi, zarafatcıl uşaqlardı. Onlar gələndə Xanım ana da, mən də sevinirdik. Adam bu uşaqları həmişə belə görmək istəyirdi. Qayğıkeşlik də, mehribanlıq da, doğru-düzgünlük də elə uşaqlıqdan görüb-götürülməlidir. Mən fərəhlə onların üzünə baxıb soruşdum.
– Hə, uşaqlar, söyləyin görək nəyə gəlibsiniz? Xahişiniz nədir?
– Sizə bir işimiz düşüb. Xahiş edirik, kömək edəsiniz.
– Buyurun! – dedim.
– Bizim məktəbdə «Döyüş şöhrəti» muzeyi var! – Nəhayət, uşaqlardan biri əsl mətləbə keçdi. – Biz muzeyimizə müharibədə həlak olan əsgərlər haqqında sənəd toplayırıq. Xanım ananın oğlunun da şəklini aparmaq istəyirik. – Deyə həyətdə futbol oynayanda həmişə qapıçı dayanan və cərimə zərbələrini ən çətin vəziyyətdə belə tutan oğlan əsl mətləbə keçdi.
Bilmədim uşaqlara nə cavab verim. Araya sükut çökdü. Bu məsələ heç ağlıma gəlməmişdi. Bir şeyi aydınlaşdırmağa çalışdım. Bu işi etməyə ixtiyarım, səlahiyyətim çatırdımı? Deyə bilmədim. Əlbəttə, bu elə bir çətin iş deyildi. Uşaqların xahişini asanca yerinə yetirə bilərdim. Kim mənə nə deyəcəkdi?! Amma məsələ burasında idi ki, Xanım ananın burada, bu dörd divar arasında yerləşən balaca «dünyasına» əl vurmalı idim. Üstündə əsə-əsə qoruyub saxladığı şeyləri yerindən tərpətməli idim. Xanım ananın səliqə-sahmanını pozmalı, uçurmalı idim. Bu, əlbəttə, gec-tez olacaqdı. Amma mən etmək istəmirdim.
– Düzü, bilmirəm necə edim? – deyə çiyinlərimi çəkdim.
Uşaqlar yer-yerdən dilləndilər:
– Arxayın olun, bizim muzeydə heç bir şey itmir. Biz bütün sənədləri şüşə altda saxlayırıq. Heç əl də vurmaq olmaz. Yalnız dayanıb tamaşa etmək mümkündür.
Uşaqların sözünə qəti şəkk-şübhə etməsəm də, yenə bir qərar qəbul edə bilmirdim. Axı bu şəkli divardan mən asmamışam ki, indi də çıxaram?!

– Bilirsiniz, biz çalışırıq ki, heç nə itməsin, heç kəs unudulmasın, – uşaqlardan biri araya çökən sükutu pozdu.

Bu söz fikrimi tamam dəyişdi. Düşündüm ki, uşaqlar çox yaxşı iş görürlər. Təşəbbüsləri təqdirəlayiqdir. Bura sən deyən gəlib-gedən də yoxdur. Şəklə fikir verən, onunla maraqlanan kimdir? Yəqin, aralıqda qalıb itib-batacaq. Onnansa aparıb muzeydən assalar çox yaxşı olar. Hamı görər, hamı tanıyar. Hamı bilər ki, Xanım ananın igid oğlu olub. Vətəni, xalqı sevməkdə uşaqlar ondan nümunə götürərlər...

– Siz deyən olsun, ay uşaqlar. Qayğınız üçün çox sağ olun! – Durub divardan çərçivəyə salınmış şəkli düşürdüm. Sonra şifonerdən köhnə bir qovluq açıb götürdüm. Qovluğun qıraqları didilib tökülmüşdü. Rəngi bomboz idi. Diqqətlə baxanda müəyyən etmək mümkün idi ki, qovluq vaxtı ilə tünd göy rəngdə olub. İndi yarpaq təki saralıb solmuşdu. İçərisindəki məktublar da elə o kökdə idi. Qovluğu açıb üçkünc məktubları bir-bir uşaqlara göstərdim. Hər birinin yazılma tarixini onlara izah elədim. Sonra yenə hər birini üsulluca üst-üstə qoyub qovluğu bağladım. Təntənəli bir şəkildə onu uşaqlara təqdim etdim. Muzey üçün özgə nə verə bilərəm. Yan-yörəyə boylandım. Köhnə-köşkül dəmir çarpayı, kuşetka, balaca gözü şüşə olan şifoner. Başqa bir şey gözümə dəymədi. Mənim fikrimcə, bunların hamısı muzeylik idi. Hələ məndən olsa idi, bu evin özünü muzey edərdim. Qapısına bu sözləri yazardım: «Yeganə övladını Vətən yolunda qurban vermiş, oğul dağının qasırğalı alovunda zaman-zaman qovrulmuş Xanım ana bu mənzildə yaşayıb!»

İstədikləri şəkli və qiymətli sənədləri əldə etmiş uşaqlar sevinirdilər. Sonra öz aralarında nəsə pıçıldaşdılar. Görünür, yenə sözləri vardı. Ancaq deməyə utanırdılar. Özüm sual etdim:

– İndi nə ilə maraqlanırsınız?! Bəlkə, başqa bir xahişiniz var?

Yenə uşaqlar xorla səsləndilər:

– Xanım ananın şəklini də istəyirik.

Əslində, Xanım ana bunların nənələri düşürdü. Amma hamı kimi onlar da Xanım anaya Xanım ana deyirdilər. Görünür, balacalar da bu cür deməyi daha münasib bilmişdilər. Sözsüz, bunu müzakirəyə qoymamışdılar, yəqin, öz-özlüyündə belə alınmışdı. Xanım ana elə hamının – böyüyün də, kiçiyin də Xanım anası olmuşdu.

Xülasə, uşaqların Xanım ananın şəklini də istəmələrinə ürəkdən şad oldum. Həm uşaqların həssaslığından, yaxşı işlərlə məşğul olmalarından ürəyim açıldı. Həm də Xanım anaya görə sevindim ki, o da unudulmayıb, onun da qədri-qiyməti var.

– Heç bilmirəm Xanım ananın şəklini tapacammı? – tez təzədən ayağa durdum, bu işi yerinə yetirməyə məmnuniyyətlə razılaşdığımı bildirdim.

Gedib ora-buranı töküşdürdüm. Mən bilən Xanım ananın şəkilləri vardı. Hətta birini bu yaxın illərdə çəkdirmişdi. Özü də xoşuma gələn şəkil idi. Şəklə baxanda hiss olunurdu ki, bu arvad kirpiklərilə od götürüb. Ağ saçların arasında onun qırış basmış çöhrəsi son dərəcə solğun və zəif görünürdü. Axtarıb onu tapdım.

– Alın, bu da Xanım ananın şəkli, – deyə onu uşaqlara verdim.

Uşaqlar mənə öz razılıqlarını bildirib xorla «sağ olun!» – dedilər. Onları pilləkənin başına qədər ötürdüm. Onların bu hərəkətlərindən yaman məmnun olmuşdum, kövrəlmişdim. Pəncərənin qabağında dayanıb onları fərəhlə, məhəbbətlə süzmüşdüm. Ürəyim xeyli sakit olmuşdu. İndi mənə elə gəlirdi ki, ana-oğul ikisi də sağdır. Uşaqların əllərindən tutub gəzməyə gedirlər, camaat arasına çıxırlar. Uşaqlar bunları deyil, bunlar uşaqları aparırlar. Hamısı da Xanım ananın əlindən tutub. Xoş bir əhvali-ruhiyyə ilə çamadanımı götürüb qapıya yönəldim...

Bayırda bir soyuq vardı ki, adamın iliyinə işləyirdi. Artıq qışın ikinci ayı gedirdi. Dekabrda nə qədər əsib çoşmuşdusa, amma qar yağmamışdı. İndi isə eşikdə qar havası vardı. Vaxtdır, artıq yağmalı idi... Yağsa, təbiət özü də sakitləşərdi...

Mən, demək olar ki, bir yayı, bir də payızı burda olmuşdum. Hələ heç iki ay qışı demirəm. Ancaq indi pilləkənləri enə-enə mənə elə gəldi ki, bura dünən gəlmişəm. Əslində, çox vaxt deyildi. Amma bu az vaxtda burda nə qədər hadisə baş vermiş, nə qədər adamla qarşı-qarşıya gəlmişdim. Yaddançıxmaz əhvalatlarla üzləşmişdim. Bəli, bu müddətdə mənə çox mətləblər aydın olmuşdu...

Blokdan təzəcə çıxmışdım ki, başıma hardansa su damcıladı. Külək vurub boyun-boğazıma tökdü. Əvvəlcə elə bildim ki, yağışdır. Amma yox, belə havada qar yağardı, yağış yox. Bəs bu nə su idi. Elə bil ardımca su atmışdılar. Başımı qaldırıb yuxarı baxdım, amma nə qədər boylandımsa, su atan adamı görə bilmədim...

* * *

Bundan təxminən iki ay sonra eşitdim ki, dayımı işdən götürüblər. Daha doğrusu, vəzifəsini aşağı salıblar. Hansı tikinti sahəsinəsə iş icraçısı göndəriblər. «Lap yaxşı eləyiblər. Hələ o da azdır!» – deyə mən hamının yanındaca öz fikrimi bildirdim.

Sonra öyrəndim ki, Mirişin işi də yaşdır. Material satdığı yerdə əlində tutublar. Yəqin ki, əlli-ayaqlı gedəcək. Yaxşı deyiblər ki, su səhəngi suda sınar.

Mən dayım barəsində fikirləşirdim ki, görəsən, vəzifədən getməsi ona necə təsir edib? O vaxt onun yanından dalaşıb çıxdığım idi. Ondan bəri görməmişdim. Axır ki, dura bilmədim. Bir axşam onlara getdim. Bilmirdim dayım üzümə

baxacaqmı? Məni dindirəcəkmi? Yoxsa qapısında da mənə «rədd ol!» deyəcək? Nigarançılıqla əlimi zəngə yetirdim. Tıppatıp kimsə arxadan qapıya yaxınlaşdı. Qapı açılanda gördüm Kəmalə. Gözlərimə inanmadım. Utana-utana: «Salam!» desəm də, ürəyimdə ona uşaq təki «bıy, səni öləsən!» – dedim. Kəmalənin qarnı burnuna dəyirdi. Hamilə idi. Əyninə enli, uzun paltar geyinmişdi. Qız məni gördüyünə çox şad oldu. O qədər sevindi ki, məni qapının ağzında qoyub:

– İldırım! İldırım! Gör kim gəlib?! – deyə içəri xəbərə qaçdı.

Dayımla elə dəhlizdə qucaqlaşdıq. O, mənim gəldiyimə şad olmuşdu. Mən isə hər şeydən qabaq, onun uşağı olacağına sevinirdim. Qalanı boş şeylər idi. Dayım da incikliyini hiss etdirmədi. Mənimlə mehriban görüşdü. Yəqin, yazıq nənəm də oğlunun bu gün, sabah uşağı olacağına sevinirdi. Neçə vaxt idi ki, nəvə həsrətindəydi. Onu da bilirdim ki, qızı olsa öz adını, oğlan olsa babamın adını qoyacaqdı. Bircə ona təəssüf etdim ki, kişi görmədi. Görsəydi, yüz il yaşayardı. Nahaq yerə deməyiblər ki, dövlətdə dəvə, övladda da nəvə.

Üçümüz də stolun ardında oturub çay içə-içə şirin söhbət edirdik. Bakının tərs küləyi pəncərəni döyəclədikcə boylanıb küçəyə baxırdıq. Hava gah bozarır, gah qızarırdı. Bozaranda qışdan olurdu, qızaranda yazdan. Elə insan həyatı da belədir. Çətinliyi də olur, asanı da. Başqa cür həyat yoxdur. Yəqin ki, hamar olsa, maraqsız olardı...



# İNSAN YAŞAYIR

Üzü qışa olduğundan havalar get-gedə soyumağa başlamışdı. Gün-gündən soyuq gəlirdi. Axşamtərəfləri sazaqlı külək əsir, adamlarla bərabər malı-heyvanı belə üşüdürdü. Yarpaqları tökülmüş ağacların çılpaq budaqlarına, şax-şəvəlinə əl vuranda adamın bədəni gizildəyir, yerdən bir çöp də götürməyə həvəs olmurdu. Buna baxmayaraq, öz mal-qoyunlarını otaran uşaqlar ordan-burdan çır-çırpı yığıb ocaq qalayır, qızışırdılar. Bunun da bəzən xeyrindən çox ziyanı olurdu. Yaxın durub əlini-ayağını oda verəndə yaxşı olur, bir az qırağa duranda isə bayaqkından da bərk üşüyürdülər.

Belə havalarda çöldə heyvan otarmaq, bəlkə də, hamıdan çox Vahidə çətin idi. Əynində elə bir isti paltar yox idi. Doğrudur, köynəyinin altından müəyyən köhnə-küşkül şeylər geyinirdi. Amma üstdən paltosu, yaxud sırıqlısı yox idi ki, onu saxlasın. Ona dəyən soyuq paltosuna, sırıqlısına dəysin. Bu da içərisində buğlana-buğlana kef eləsin. Elə olsa nə vardı, qar da yağsa, vecinə almazdı. Qoyardı heyvanları şər qarışanadək otlasın. Amma indi məcbur olurdu ki, günün qulağı yaxan kimi heyvanlarını qabağına qatsın; hava sazaqlı olanda isə heyvanlarını qova-qova gətirirdi ki, özü də onların ardınca qaçsın, bəlkə, canı bir az qızışa. Düzdür, belə də heyvanlara yazığı gəlirdi. Çünki toxqarına heyvanı qovmaq yaxşı deyildi. Qaçanda qarınları loq-loq loqquldayırdı. Deyirdin indicə partlayacaqlar. Bir neçə də quzusu vardı. Artıq toğlu olmuşdular. Elə ki qaç-qov düşdü quyruqları şap-şap şappıldaşırdı. Bundan xoşu gəlib daha da bərk qovurdu. Amma bir dəfə naxırını necə bərk qovmuşdusa, buynuzu qırıq dana necə qaçmışdısa, heyvan xəndəkdən aşıb yıxılmış, boynu altında qalmışdı. Vahidin ürəyi düşmüşdü. Qorxmuşdu ki, danaya bir şey ola, ya da qolu-qıçı sına. Yaxşı deyildi. Qonşudan eyib idi. Deyərdi ki, ayda-ildə bir dəfə bizim dana onların heyvanına qarışıb, onda da belə. Yaxşı ki, danaya bir şey olmamışdı. Durub yenə qaçanda Vahidin ürəyi yerinə gəlmiş, təzədən bu da heyvanların dalınca qaçmışdı ki, qızışsın, üşüməsin.

Bir dəfə günün yaxmağına hələ çox qalırdı. Bərk sazaq başlamışdı. Hələ bir-iki gün bundan qabaq deyirdilər ki, qarrıyacaq. Vahid əsim-əsim əsir, gah əllərini ciblərinə qoyur, qollarını döşünə sıxır, qovşurulur, gah da bədənini açıb gəzinir, amma bir xeyri olmurdu. Möhkəmcə üşüyürdü. Çənəsi-çənəsinə dəyib ağzı söz tutmurdu. Belə getsə Vahid heyvanlarını evə ertə aparmalı olacaqdı. Özü də yola yaxın şiş təpənin döşündə idi. Heyvanlarını bir az aşağı tökdü ki, həm yuxarıların yeli onu tutmasın, həm də getmək istəyəndə sürüsünü tezcə yola çıxarsın.

Bir ara gördü ki, yolnan bir əsgər gedir. Oğlanın üşüməyi elə bil yadından çıxdı. Bütün nəzər-diqqəti ona cəlb olundu. Fikirləşdi ki, görəsən kimdir. Təzəmi gəlir, bəlkə, onların kəndindəndir. Qaçıb adamlarını muştuluqlaya, nəmər ala. Onun üçün, əlbəttə, hadisənin özü maraqlı idi, nəmər məsələsi ikinci, üçüncü dərəcəli idi. Əsas bu idi ki, filankəs davadan gəlib. Özü də birinci dəfə Vahid görüb. O muştuluqlayıb. Ağlına gəldi ki, bəlkə, elə öz atasıdır. Ürəyi döyündü. Təpənin döşündən elə baxırdı ki, deyirdin alıcı quşdur. Bəlkə, dayılarıdır? Axı onlar da davada idilər. Müharibə başlanandan getmişdilər. Bu yaxınlaradək məktubları gəlirdi. Bir-iki ay olardı ki, kəsilmişdi. Buna görə bunlar çox fikir edirdilər. Bəlkə də, bu kişi onlardan bir xəbər gətirib. Bir anın içində Vahid yüz cür fikir elədi. Və maraqlanıb kol-kosun, qaratikanlığın arası ilə aşağı yola, kişinin qabağına qaçdı. Çatanda gördü onların kəndindən deyil, tamam başqa adamdır. Bunun dəxli yox idi. Davadan əsgər qayıtması o qədər fərəhli, sevincli idi ki, Vahid sevinməyə bilmədi. Özündən asılı olmayaraq qımışa-qımışa kişinin üzünə baxdı. Onların kəndindən də qayıdan olmuşdu. Hamısını da, beləcə, gülə-gülə qarşılamışdılar. Biri istiqanlılıqla əl tutmuş, o biri qucaqlayıb öpmüş, uşaqlar da yığınağın arasından başlarını uzadıb davadan gələnlərə heyran-heyran tamaşa etmişdilər. Hətta yaralanıb qayıdanlardan bəziləri üçün faşistlərlə igidliklə vuruşduğuna, orden və medallar aldığına görə xüsusi mitinqlər də təşkil etmişdilər.

Bu əsgər ayağından yaralı idi. Yeriyəndə qıçını çəkirdi. Ortaboylu idi. Əynində qəşəng bir şineli, başında qabağı ulduzlu papağı vardı. Şinelinin ortasından da belini enli əsgər qayışı ilə boğmuşdu. Bu onu çox qıvraq, yüngülyaraq göstərirdi. Özü də üzügülər adam idi. Belə ki Vahidə baxdıqca dodaqları qaçır, gözləri işıqlanırdı. Heç demək olmazdı ki, bunlar tanış deyillər. Bir-birlərini birinci dəfədir ki, görürlər. Xeyr. Hamı deyərdi ki, bunlar ya ata-oğuldurlar, ya da yaxınca qohum. Başqa cür düşünmək çətin idi. Çünki hər ikisinin üzündə-gözündə, ümumi duruşlarında, baxışlarında sonsuz məhəbbət, istək, yapışıqlıq hiss olunurdu. Deyirdin uşaq bu dəqiqə bu əsgər kişinin qucağına atılacaq, o da bunu bağrına basacaqdır. İkisi də bu əhvalda dinməz-sözləməz dayanmışdı ki, Vahid birdən şən-şən dilləndi.

– Əmi.

– Hə.

– Sən davadan gəlirsən?

– Hə.

– Yaralısan?

– Hə.

– Bəs niyə belə?

– Necə niyə belə?

– Xəbər verəydin qabağına at gətirəydilər.

– Zərər yoxdur. Bir də əziyyət vermək istəmədim. Nə olacaq?! Az qalıb, gedib çıxacam.

– Hansı kənddənsən, əmi?

– Qorquddanam.

– Həə – belə eləməklə oğlan həmin kəndin çox da uzaq olmadığını bildirirdi. Buna baxmayaraq, Vahid kişi-kişi təklif etdi: – Əmi, gedək bir az bizdə qal, dincəl, sonra at taparıq gedərsən.

– Sağ ol, bala. Sağ ol. – Əsgər oğlanın iltifatından razı qalıb ona təşəkkür etdi. Sonra qayğılı-qayğılı dedi. – Deyəsən, sənə soyuqdur, üşüyürsən?

Canında soyuqluq vardı. Amma əsgəri görəndən bunu yadından çıxartmışdı. İndi yadına salıb təzədən üşüdü. «Uuuvv» – eləyib gülə-gülə qovşuruldu. Fağırca uşaq həqiqətən gömgöy kəsilmişdi. Üzünün sarımtıl tükləri biz-biz dururdu. Əsgər uşağın əyninin çox nazik olmasından narahat oldu. Özünün həm əyni qalın idi, həm də bayaqdan yol gəlirdi, istiləşmişdi. Uşağa soyuq olduğunu hiss etcək isə elə bil özü üşüdü. Ürəyi yana-yana:

– Bəs niyə qalın bir şey geyməmisən? – dedi. – Axı hava soyuqdur, naxoşlaya bilərsən.

Oğlanın, bəlkə də, ağlına gəlmirdi ki, ona belə söz deyərlər. Çünki həyatda elə əyər-əskik var idi ki, üst-baş bəzən heç yada düşmürdü. Xüsusilə yemək məsələsi ondan betər idi. İndi kişi belə qayğı ilə danışanda o, çiyinlərini atdı.

– Nə bilim?! Geyməmişəm. – dedi. Daha doğrusu, özünü o yerə qoymadı. Guya, varı idi, özü geyməmişdi. Əslində, nə var idi, nə geysin? Təkcə onun yox, ümumiyyətlə, camaatın əynindəki paltar elə tökülmüşdü ki, arvadlar köhnə-kürüşə yamaq vurmaqdan təngə gəlmişdilr. Bu kişi isə bəxtəvərlikdən danışırdı. Elə bilirdi ki, arxada qalanların işi asandır. Ona görə «soyuqdur, üşüyərsən, əynini qalın elə» deyirdi. Guya, havanın soyuq olmasını bu bilmirdi. Daha demirdi ki, bilir, amma yoxudur, nə geyinsin.

Kişi uşağa yenə nəsə demək istəyirdi, birdən həmən bu şeyləri düşünüb danışmadı. Hətta hədər yerə uşağın başına ağıl qoymasına pis oldu, diqqətsizlik etdiyinə görə xəcalət çəkdi. Bax, bu ona bənzədi ki, yeməyə heç bir şeyi olmayan adama niyə yemirsən, deyirsən. Aclığını bir daha onun yadına salırsan. Bu da elə. Paltarı olsaydı, çölə çılpaq gələrdimi? İndi əgər sən onu isindirə bilməyəcəkdinsə, bəs onda soyuğu yadına salıb fağırca uşağı niyə daha da üşüdürdün? Aclığını, çılpaqlığını xatırladıb onu niyə utandırırdın?!

Əsgər uşaqla elədiyi bir-ikicə kəlməlik söhbəti özünə yekə dərd elədi. Vəziyyətdən çıxmağa çalışdı, amma... aciz qaldı. Neçə vaxt idi ki, ailəsi ondan nigaran idi. Özünün də uşaqlardan ötrü burnunun ucu göynəyirdi. Amma evi, ailəsi üçün burnunun ucu göynəsə də yerindən tərpənə bilmədi. Dönüb üşüyə-

üşüyə ona baxan uşağı süzdü və bu ara qeyri-iradi əlini şinelinin üstündən bağladığı toqqasına apardı.

Vahid gördü ki, kişi gözünün qabağındaca şinelini soyunur. Əvvəlcə bir şey başa düşmədi. Tamam soyunub şineli ona uzadanda isə başa düşdü ki, məsələ nə yerdədir.

– Al, geyin əyninə.

– Yox, yox, əmi! – Vahid dalı-dalı getdi.

– Qorxma. Böyük olsa da, zərər yoxdur, bürünərsən. Üstündən də bu kəmərlə bərk-bərk sıxarsan. Həm bir az yığcam tutar, həm də canını isti saxlayar.

– Çox sağ ol, əmi, çox sağ ol, – deyə Vahid yenə dalı-dalı getdi. Elə pis olmuşdu ki, guya, bu kişinin qabağına elə bunun üçün yüyürmüşdü. Bunu istəməyə gəlmişdi.

Kişi ərklə sərtləndi:

– Dayan bir görək!

Oğlan məcbur olub dayandı. Əsgər gileyləndi:

– Yekə kişisən! Adam böyüyün sözünə qulaq asar. Sənsə böyük-kiçik bilmirsən.

– Niyə bilmirəm, əmi?!

– Bilsən belə eləməzsən.

– Əmi, vallah lazım deyil, çox sağ ol! – Vahid çox acizanə şəkildə kişiyə yalvardı ki, bu fikrindən əl çəksin, şinel barəsində onu çətinə salmasın.

– Qulaq as, gör nə deyirəm: yarım saatdan, bir saatdan sonra evə çatacam, bunu da çıxardıb atacam. Mənim paltom var. Davadan qabaq almışam. Təzəcə paltodur. Arzu eləmişdim ki, qayıdıb onu geyim.

Vahid bir az suyuldu. Amma şineli yenə də götürmədi. Kişinin əli uzalı qalmışdı. Oğlan pis vəziyyətə düşmüşdü. Sıxılırdı. Şineli nə götürə bilirdi, nə də kişinin qəlbini qırmaq istəyirdi. Qalmışdı iki suyun arasında. Götürsün – necə götürsün, götürməsin – necə götürməsin? Belə bilsəydi, yaxın gəlməzdi.

– Bax, budur, deyirəm, əgər bu dəqiqə şineli götürüb çiyninə atmasan, nə bilim, geyinməsən, ondan sonra nə sən, nə mən. – Əsgər elə danışdı ki, guya, bunlar çox yaxındırlar. Bir-birlərindən inciyə bilərlər. Yaxud kişi bu məsələyə görə onunla dalaşa da bilər. – Eşitdin?

Vahid eşitməyinə eşidirdi. Amma şineli ala bilmirdi. Əsgər isə sözü və baxışları ilə onu tam üstələmişdi. Bundan istifadə edərək bir-iki addım irəli gəlib şineli oğlanın qucağına qoydu. Uşağın onun əmrinə artıq tabe olduğunu görüb çox yaxşı bir iş görən adamlar kimi təntənə ilə gülümsədi və oğlanı təriflədi:

– Bax, buna nə demişəm?! Bax, indi yaxşı oğlansan. Şinelin böyük olmasına da fikir vermə. Çox uzun olsa, anana deyərsən, ətəyini qatlayar. Qolları da uzun

olsa kəsə bilərsiniz. Amma qorxuram kəsəndə yaxşı tikə bilməyəsiniz. Elə qollarını da qatlamaq olar. Əsas budur ki, səni soyuqdan saxlasın.

Belə deyə-deyə, gülə-gülə kişi şinelini bağışladığı oğlanın yanından ötüb yola düzəldi. Vahid isə mat-məəttəl qalaraq yerindəcə qurumuşdu.

* * *

– Şinel! Şinel! – Vahid durduğu yerdəcə birdən əlini qaldırıb sevincək səsləndi. Bəlkə, həndəvərdə adam var, qoy gəlib görsün ki, ona necə şey bağışlayıblar. – Şinel! Şinel!

Eh! Özgə vaxtlar yan-yörə adamla dolu olur. Çölə gedən, çöldən gələn. Biri heyvan otarır, o biri həyətini çəpərləmək üçün tikan qırır, digəri odun gətirir. İndi deynən bir adam vardımı? Dana, buzov, toğlu-moğlu otaran yoldaşları, taytuşları, görünür, heyvanlarını bu gün örüşə başqa səmtə aparıblar.

– Şinel! Şinel! – Vahid lap bərk qışqırdı ki, uşaqlar harda olsalar eşidib gəlsinlər. Gəlib şinelinə baxsınlar. Görəndə məəttəl qalacaqlar. İnanmayacaqlar ki, bunu ona bağışlayıblar. Ola bilsin, ağıllarına başqa şey gəlsin. Tutaq ki, maşından düşüb. Belə şeylər olurdu. Gəlib-keçən maşınlardan taxta-tuxta düşürdü. Görürdün sürücünün xəbəri olmur. O qədər olmuşdu ki, uşaqlar barmaqlarını ağızlarına salıb fışqırıqlamışdılar, ancaq sürücü eşitməmiş, maşını «mələdib» getmişdi. İndi bu şineli də o cür fikirləşən olsa, Vahid and içib ağı yalasa da inanan olmayacaqdı.

Qışqırmaqdan Vahidin boğazı ağrıdı, amma səs verən olmadı. Məcbur olub heç kəs görmədən, heç kəs ona baxmadan şineli geyindi. Heç olmasa görsün əyninə necə olur? Yaraşırmı? Qollarını keçirəndə gördü nə? İçində bütüncə itib-batır. Ətəyi də ayaqlarının altına düşür. Amma elə isti idi ki, od kimi. Elə bil şinelin içərisində ocaq qalamışdılar. Əsas da bu idi. Kişi də bunun üçün vermişdi ki, ona isti olsun, üşüməsin.

Vahid şinelə bürünüb, ətəyini də əlləri ilə yuxarı tutub kol-kosluğun arasında hərlənməyə başladı. Bu zaman onun dana-buzovu, toğluları Vahidi başqa qiyafədə görüb tanımadılar, hürküb biri elə qaçdı, biri belə qaçdı. Həmişə böyür-başındaca hərlənən çəpişi hoppanıb daşlığa dırmaşdı. Uzaqdan ona baxıb məkgildədi.

Vahid də şitənib gah o heyvanın dalınca qaçdı, gah bu heyvanın. Xeyli onlarla beləcə oynadı. Axırı yorulub əldən düşəndə dayandı, təzədən o yanına, bu yanına baxdı, görsün şineli necədir? Xoşu gəldi. Boyunluğunun yanlarına balaca yarpaq boyda qırmızı parça da tikilmişdi. Bunların üstündə də üçbucaq şəklində nişan vardı. Yəqin ki, rütbəni göstərirdi. Ya serjant idi, ya leytenant, ya da... Bunu Vahid dəqiq müəyyən edə bilmədi. Ancaq onu bildi ki, şinelin sahibi elə-belə adam deyil. Görünür, əsgərlərin böyüklərindən olub, koman-

dirlik edib. Bu yaxınlarda onların kəndindən də bir kişi gəlmişdi, deyirdi ki, əsgərlikdə serjant olmuşam. Bu şinelin sahibi isə, bəlkə, serjantdan da böyük olmuşdu. Onun fikrincə, bu soyuqda, qiyamətdə əynindən paltarını çıxarıb başqasına verən adam dünyada elə ən böyük adam idi. Şinelinə də şinel çatmazdı. Vahid kəndlərində hələ indiyədək belə şinel görməmişdi. Doğrudur, əsgərlikdən gələn çox omuşdu. Amma heç birinin əynində beləsini görməmişdi, hamının ağzı açıq qalacaq. Əvvəlcə onu tanımayacaqlar. Elə biləcəklər həqiqi əsgərdir, davadan gəlir. Arvadlar, uşaqlar qabağına yüyürəcəklər ki, görsünlər kimdir? Bir də görəcəklər bu. Ürəklərinə gələn adamın olmadığını görüb pis olacaqlar. Bu səhnəni gözünün qabağına gətirib Vahid özü də pis oldu. Balaca olduğuna, əsgərlikdən gəlmədiyinə təəssüfləndi. Odur ki şineli hələlik geyinmədi, günün qulağı yaxcaq heyvanlarının kol-kosluğun arasından çıxarıb aşağı yola tökdü. Qoltuğunda şinel kəndlərinə sarı gələ-gələ bu gün rast olduğu adam haqqında düşündü: görəsən o, hardadır? Kəndlərinə çatıbmı? Yolda üşüyüb eləmədi ki? Narahat oldu ki, birdən yağıb eləyər, islanar. Bu fikirdən Vahid elə sıxıldı ki, indi göydən yerə qarmı, yağışmı – bircə damcı da düşsə, elə hesab eləyin ki, malını-heyvanını ortalıqdaca başlı-başına buraxıb onun dalınca qaçardı ki, islanmasın. Ömründə birinci dəfə gördüyü, hələ heç adını da bilmədiyi o adam uşağın körpə qəlbinə necə xoş təsir etmişdisə, onun üçün hər bir şey eləməyə hazır idi.

Bu əhvalat bütün kəndə yayıldı. Demək olar ki, eşitməyən olmadı. Əcikdəncücüyə hamı danışırdı ki, belə-belə... Bir kişi davadan qayıdıb kəndləri Qorquda gedirmiş. Yolda Zərri arvadın nəvəsi Vahidə rast olur, görür uşağa soyuqdur, əynindən çıxarıb şinelini ona verir. Hətta burasını da deyirdilər ki, Vahid almırmış ki, özün geyərsən. Deyib ki, yox! Sən körpəsən, xəstələnib eliyərsən. Vahidin də burası xoşuna gəlirdi ki, düz danışırdılar. Yaxşı ki, demirdilər bəs Vahid şineli ləliyib alıb. Yox, düzciyəzini danışırdılar. Bəlkə də, kənardan görən olub. Bir də Vahidi tanımırdılarmı?! Bilmirdilərmi ki, elə uşaq deyil?!

Bu şinel söhbəti hər yerdə gəzirdi.

– Bax, görün dünyada necə adamlar var, – deyirdilər, – əynindən çıxarıb paltarını verir. Eləsinin suru həmişə yeriyər. Sağ olsun, min yaşasın onu.

Hətta gəlib şinelə evdə də baxırdılar. Onu Vahidgil divardan asmışdılar. Divar da divar abrında idimi?! Əhəngi çıxırdı. Şinel təmiz qalsın deyə divara xəmirlə qəzet yapışdırmışdılar. Yuxarısına da iri mismar çalıb şineli asmışdılar. Bunun özü elə bir yaraşıq idi. Əslində, onların evində ondan təzə, ondan qiymətli paltar yox idi. Nə var hamısı köhnə-küşkül idi. Nənəsinin önlüyünə kimi yamalıqlı idi. Şinel isə evi elə bir abıra mindirdi. Bir yad adam gəlsə, elə bilərdi ki, evdə yekə kişi var. Halbuki evin kişisi balaca bir oğlan idi. O da şineli geyinməkdən çox saxlamaq həvəsində idi. Köhnəlməsin, təzə qalsın. Gəlib baxan

adamlar da tərifləyirdilər. «Əla şineldir», – deyirdilər. Biri deyirdi ki, komsostavski şineldir. Yəqin, belə şinelləri komandirlər geyirlər. Görmürsüz necə şax durur?! Düymələri də elə bil qızıldandır. Bir başqası da deyirdi ki, bu şinel adi parçadan tikilməyib. Xalis ingilis trikosudur. Başqa birisi da ona etiraz edib deyirdi ki, xeyr, qara bastonlar olur ha, bu onun sarı rənglisindəndir. Lap bu yaxınlardaca qolundan yaralı gəlmiş tarix müəllimi isə onlara əlini yelləyirdi:

– Ayə, ağlınız olsun, nə triko, nə baston. Bu xalis öz parçamızdan tikilib. Çünki bizim parçalarımız adnandır. Onu da bilin ki, heç bir əsgər, heç bir komandir xarici maldan tikilmiş paltar geyməz. Əsgərin altda köynəyinə, maykasına kimi özümüzünkü olmalıdır.

Həqiqətən də, bu adicə şinel idi. Əsgər şineli. Özü də xarici parçadan tikilməmişdi. Yerli parça idi. Görünür, yaxşı usta əlindən çıxmışdı. Səliqə ilə tikilmişdi. Bax, çiyinləri bir az enli idi. Beli isə dar. Aşağısı da enli gəlirdi. Belində öz parçasından bir qarış uzunluğunda, bəlkə də, bir az artıq, kəməri vardı. Uclarına da qızıl düymələr tikmişdilər. Onlar da elə qəşəng idilər ki, par-par parıldaşırdılar. Hətta belə gözəl şineli geyinməmək mümkün deyildi. Həm də onu geyinmək üçün bağışlamışdılar. Qorqudlu əsgər dönə-dönə tapşırmışdı ki, böyük olmasına baxma, geyin, lap bürün, yapıncı kimi başına çək, xülasə, qoy sənə soyuq olmasın. Vahidin isə fikri onu təmiz saxlamaq idi. Çölə-bayıra geyinib çirkləndirmək istəmirdi. Doğrudur, evdə bir-iki dəfə geyinmişdi. Nənəsinin, anasının, bacılarının qabağında əsl əsgərlər, komandirlər kimi xüsusi bir qıvraqlıqla hərlənmişdi, amma tezcə də əynindən çıxarıb yerindən asmışdı. Hələ üstündən qəzetə də bükmüşdü ki, toz-moz qonmasın. Geyinməməyi bir yana qalsın, şinelin üstündə Vahid beləcə əsirdi. Barmağını yellədə-yellədə bacılarına dönə-dönə tapşırmışdı ki, bax, ha, birdən bilməzsiniz əlinizi çirkli-çirkli mənim şinelimə vurarsınız, ondan sonra vay halınıza!

– Ənnə, bu sənə də aiddir. – Dönüb Vahid nənəsinə də xəbərdarlıq etmişdi.

O da tezcə yaxasını qırağa çəkmişdi.

– Yox, yox, dərdin alem, sənin şinelində mənim nə işim var.

Bundan bir-iki gün sonra Vahidgildə bir şadlıq vardı ki, gəl görəsən. Bacıları az qalırdı ki, oynasınlar. Anasının üzü gülürdü. Nənəsi elə bil cavanlaşmışdı.

– Ədə, oxuyun, qulaq asım, – deyə kağızı dönüb-dönüb öpür və təkrar-təkrar oxutdururdu.

Belə ki Vahidin atasından məktub gəlmişdi. Çoxdan idi ki, ondan xəbər-ətər yox idi. Məktublarının arası kəsilmişdi. Fağırcaların qulağı səsdə idi. Gözləri yolda qalmışdı. Az qalırdılar göydə uçan quşlardan da xəbər alsınlar, «ay uçan durna, sən bizim atamızı gördünmü? Ay göyərçin, sən insan kimi dil bilirsən. Məktub da daşıyırsan. Bəs bizim atamızdan bir şey bilmirsənmi?»

Axırı ki, məktub gəldi.

– Məktub! Məktub! – deyə poçtalyon içəri girəndə hamının üzünə elə bil gün doğmuşdu. Həmişə belini tutub güclə qımıldayan, bəzən iş görə-görə ıqqır-ıqqır ıqqıldayan nənəsi bu dəfə elə sıçrayıb yerindən qalxmışdı ki, elə bil cavan qız idi. Gətirib poçtalyona bir qət təzə kəlağayı vermişdi. O da götürmürdü ki, lazım deyil.

– Apar, apar, arvadına ver, başına örtsün, – Zərri arvad təkid etmiş, kəlağayını güclə poçtalyonun çantasına basmışdı. Məktub oxunanda isə:

– Can! Can! – deyə əlini sinəsinə vurub ağlamışdı. Sən demə Vahidin atası yaralanıbmış. Qospitalda yatırmış. Ondan qabaq cəbhədə olduğundan məktub yazmağa vaxtı olmayıb. İndi yazırdı ki, yaxşıyam, məndən nigaran qalmayın. Qabırğamın altında da bir çovutma güllə qalmışdı, onu da həkimlər çıxartdılar.

Ailə başçısının odun-alovun içərisindən beləcə sağ-salamat çıxmasından sevinib, gülüb-danışırdılar ki, kolxozun hesabdarı Əsəd onlara gəldi. Əsəd cavan oğlan idi. Gah deyirdilər əsgərlik yaşı çatıb, gah da deyirdilər hələ çatmayıb. Guya, beş-altı ayı qalıb. Xülasə, hələ əsgərliyə getməmişdi. Kolxozda hesabdarlıq edirdi. Birinin əmək gününü hesablayır, o birinin «avans»ını yazırdı. Kəndin adamlarının gəliri, çıxarı, yəni dolanışıq Əsəddən asılı idi. Bu səbəbdən də hamı ona ehtiyatla, hörmətlə yanaşır, xətri xoş olsun deyə ona xoş sözlərlə müraciət edirdilər. Ay qağa, beləcə oldu, ay qağa, eləcə oldu. Bunlara gələndə də ən əvvəl nənə ayağa qalxdı.

– Qabağında ölləm, ay Əsəd, nə yaxşı gəlmisən? – dedi. Həqiqətən də, gələn deyildi. İndi nə əcəb gəlmişdi, bilinmirdi.

– Eşitdim ki, kişidən məktub gəlib. Gözünüz aydın olsun.

– Aydınlıq içərisində olasan, ay oğul. – Zərri arvad dil-ağız elədi. Qızlar da gətirib stolun üstdə süfrə saldılar. Sonra isə tədarük görməyə başladılar. Görünür, onun üçün xüsusi yemək hazırlamaq istəyirdilər. Bunu hiss eləyən Əsəd əlini qaldırıb qoymadı.

– Heç nə lazım deyil, indi gedəjəm.

– Niyə? Niyə? Otur, Allah verəndən bişirək, – nənə təkid etdi.

– Sağ olun, – Əsəd yaxın qoymadı. Bir az o yandan, bu yandan söhbət etdikdən sonra divardan asılmış şinelə baxaraq dedi:

– Onu niyə saxlayırsınız? Satsanız gedər.

Qaldılar nə desinlər. Şineli satmaq fikirləri yox idi. Ağıllarına da gəlməmişdi. Bəxşiş idi. Bəxşişi isə satmazlar. Nə məqsədlə verilib onun üçün istifadə edərlər. Yaxud yadigar kimi saxlayarlar. Ona görə dillənib bir söz demədilər. Belə şeyi gərək adam özü başa düşsün, hədər yerə ağız açmasın.

Əsəd ayağa qalxdı, gəlib şinelin qabağında dayandı. Əvvəllər görmüş olsa da, şinelə bir də baxdı, sonra da əlilə parçasını yoxladı, xalisliyini bilmək istədi. Hiss olundu ki, xoşuna gəldi, lap ürəyi getdi. Əsl sahibinə üz tutdu.

– Gəl sən bunu mənə ver, – dedi. – Onsuz da sənə yekədir. Mayasına pul ha verməmisən. Mənsə sənə... – Əsəd Allahın bici idi. Sözünün ardını daha Vahidə yox, evin sahiblərinə demək üçün üzünü onlara çevirdi. – Bir-iki put arpadan, buğdadan verrəm. Hər halda, əsas qarındır. Qarın tox olsa, lap çılpaq da gəzmək olar. Ya da istəyirsiniz bir yaxşı qoyun verim. Boğazdır. Bu gün-sabah doğacaq. Ardı quzulu qoyun. Daha nə istəyirsiniz.

Vahid elə bildi ki, Əsəd bu dəqiqə əlini atıb divardan şineli götürəcək, əyninə geyinib gedəcək. Həyəcan keçirdi. Vermək istəmirdi şineli. Özü geyinə bilmirdimi? Ona görə dedi:

– Yoox, özüm geyəjəm.

– Özün? – Əsəd rişxəndlə gülümsədi. Demək istəyirdi ki, sənə böyükdür, bir də komsostavski şinel sənin harana yaraşır?!

Nənə də razı olmadı:

– Əyni yuxadır, ay Əsəd, – dedi. – Kimdisə, o axırı xeyir tapşırıb ki, yekə olsa da gey, qoy sənə soyuq olmasın.

Əsəd hiss elədi ki, sözü yerə düşdü. Ağlına gəlməzdi ki, sözündən çıxılar, bir şeyi ondan müzayiqə eliyələr. Belə ki kəndin adamlarının ona tez-tez işi düşürdü. O cümlədən bunların. O zaman bu da onlar üçün eləməzdi. Kəndir nə qədər uzun olsa da, gəlib doğanaqdan keçirdi. Əsəd «zərər yoxdur» – deyə özünü o yerə qoymadı, başqa söhbətə keçdi. Guya, şinel söhbəti o qədər də vacib deyilmiş. Elə-belə deyirmiş. Bir azdan da «sağ olun» – deyib getdi.

Evdə qəti qərara gəldilər ki, Vahid şineli geyinsin, çölə-bayıra gedəndə soyuqdan dişi-dişinə dəyməsin. Bu məqsədlə də Vahidin anası götürüb şinelin ətəyini bir xeyli geri qatladı. Qollarını da o forma eləyib tikdi. Sonra oğluna geyindirdilər. Gördülər indi babat durur. Hələ kəməri belindən boğub sıxma bağlayanda bir azda yaxşı oldu. Bax, Vahid şineli beləcə geyə bilərdi. İndi ona isti olacaqdı. Sabah qar yağıb şaxtalar olanda evin odun-ocaq işinə, demək olar ki, əsasən, Vahid baxacaqdı. Malları gündə bir dəfə çaya sulamağa Vahid aparacaqdı. Heyvanların yemlənməsi işi də onun öhdəsinə düşürdü. Bütün bu işlərə, əlbəttə, hamı əl yetirirdi. Anası da, nənəsi də, bacıları da. Təkin işi deyildi. Amma hər necə olsa da, evin başıpapaqlısı o idi. Kişi əvəzi o idi. Bu səbəbdən də Vahid çalışırdı ki, evdə, həyət-bacada kişiyə aid olan işlərin hamısını özü görsün. Bir az da həvəslənmişdi. Şineli əyninə geyəndə özünü əsl kişi hiss edirdi. Nənəsinə, anasına, bacılarına da elə gəlirdi ki, Vahid, həqiqətən, yekə kişi olmuşdur. Bunun üçün onlar şineli bağışlayan adama borclu idilər. Evdə ondan tez-tez söhbət gedirdi. Əslində, Vahiddən başqa onu heç kəs görməmişdi. Nə cür adamdır? Görməmişdilər və təbiidir ki, bilmirdilər. Ancaq onlara elə gəlirdi ki, bu dünyada ən gözəl, ən yaxşı, yaraşıqlı adam varsa, o da o kişidir. Düşünürdülər ki, yer üzündə onun kimi xeyirxah ikinci adam yoxdur. O ki əy-

nindən paltarını çıxarıb tanımadığı bir uşağa verib, onda görün ki, bunun necə ürəyi var? Yəqin o, bir aca, ehtiyacı olana öz çörək payını da çıxarıb verib. Özü yeməyib, özgəsini yedizdirib. Özü geyməyib, özgəsini geyindirib. Bax, beləcə qorqudlu kişini nəinki onların evində, ümumiyyətlə, bütün kənddə əfsanələşdirib ilahiləşdirir, onu xeyirxahlıq, yaxşılıq mücəssəməsinə çevirirdilər. Əgər işdir, o adam bu kəndə gəlsəydi, Allah bilirdi nə olardı?! Hamı onu qarşılamağa çıxardı. Bütün kənd qulluğunda durardı. Hamı ona hörmətlə, məhəbbətlə yanaşardı. Bu dərəcədə o adamın kənddə hörməti qalxmışdı. Vahidin ürəyində, qəlbində isə onun xüsusi yeri vardı. Hər dəfə onun barəsində söhbət olanda, yaxud Vahid şineli əyninə geyəndə qorqudlu əsgərin xəyalı gəlib onun gözlərinin qarşısında canlanır, duruşu, danışığı, baxışları yadına düşürdü.

Doğrudur, şinel qət təzə deyildi, geyilmişdi. Amma kənddə adamların geyindiyi paltarla müqayisədə təzədən də təzə idi. Bundan başqa, Vahid ona adi bir paltar kimi baxmırdı. Əvvəla bu, forma idi, əsgər forması. Vahid geyib eşiyə çıxanda istər-istəməz özünü yığışdırırdı. Ola bilməzdi ki, əsgər şineli geyəsən, özün isə belini bükə-bükə, yaxud ayaqlarını sürüyə-sürüyə yeriyəsən. Əlbəttə, olmaz. Heyvanlarını qabağına qatıb otarmağa aparan Vahid şineldə, həqiqətən, özünü elə şax tuturdu ki, deyirdin əsl əsgərdir. Kənardan baxıb tanımayan, bilməyən olsa elə bu cür düşünərdi. Nəvəsinin belə geyimindən həm də özünü çox qıvraq, yığcam tutmasından xoşlanan Zərri qarı da onun böyrüncə getməkdən xoşlanardı. Elə bil camaata bildirmək istəyirdi ki, görün mənim necə nəvəm var. Arvadlar da Vahidi şineldə görüb gülümsəyir, ona xoş sözlər deyirdilər.

– Mübarəkdir, dərdin alım, sağlığına qismət olsun.

Vahid utandığından bilmirdi nə desin. Onun əvəzinə nənəsi cavab verirdi.

– Sağ ol, a xalası, sağ ol. Yaxşı günün olsun.

Bir başqa arvad da başqa cür dil tökürdü:

– Sağlıqla, oğlum, sağlıqla.

– Sağ ol, a büvüsü, sağ ol, – deyə nənəsi ona da təşəkkür edirdi.

Elə deyildi ki, Vahid şinelinə mübarək deyən arvadların bu xoş münasibətinə tamam laqeyd qala. Bunu nə iləsə büruzə verməyə. Xeyr. O cür yaxşı düşməzdi. Vahid arvadların sözlərindən şənlənir, xəfifcə gülümsəyir, başının hərəkəti ilə onlara minnətdarlığını bildirirdi.

– Vahid! Vahid! Qurban olum sənə, bizim bu heyvanları da apar, – deyə arvadlar ona tapşırıqlar da verirdilər.

– Hə-ə, neynək, bəri elə, – deyə Vahid tezcə razılaşır, qonum-qonşunun da heyvanını aparıb otarırdı. Söhbət bunda idi ki, Vahid indi hər bir tapşırığı yerinə yetirməyə hazır idi. Bəs necə, adam adama nə gündə gərəkdir?! Qorqudlu kişi ki tanımaya-tanımaya əynindən şinelini çıxarıb ona vermişdi, bu da onun kimi xeyirxah, alicənab, hər bir işdə mərd olmalı idi. Vahid onsuz da yaxşı oğlan idi.

Amma indi tamamilə ayrı cür olmuşdu. Əynindəki şinelə uyğun hərəkətlər etmək istəyirdi. Deməsinlər ki, şinelinə bax, hərəkətlərinə bax, heç uyğun gəlmir.

Məktəbə isə geymirdi. Uşaqlar soruşurdular ki, niyə geymirsən? O da deyirdi ki, utanıram. «Paltardır da, nədən utanırsan?» – deyə uşaqlar təkid edirdilər ki, gey. Əlbəttə, Vahid başa düşürdü ki, bu, həqiqətən, geyim şeyidir, paltardır. Ancaq burası vardı ki, bu onun üçün adi paltar deyildi. Bu əsgərlərə aid geyim idi. Müəllimlər də deyirdilər ki, sənin zəif oxumağa ixtiyarın yoxdur. Elə bir bəxşişi olan şagird gərək yaxşı oxusun. Hər bir işdə qabaqda getsin, bir sözlə, qoçaq olsun. Vahid də bir söz deməyib şən-şən gülümsəyirdi. Ürəyində isə fikirləşirdi ki, həqiqətən, bu cür olmalıdır. Və bütün hərəkətləri ilə, davranışı ilə buna uyğun olmağa cəhd edirdi. Qabaqlar axşam olcaq malı-qoyunu tövlədə yerləşdirəndən və olanlarından bir şey yeyib tezcə yatardılar. Bu da səbəbsiz deyildi. Həm gündüzdən o işin, bu işin ardınca gedib, o yana qaçıb, bu yana qaçıb möhkəmcə yorulmuş olurdular. Həm də bir az işığa qənaət edirdilər. Axşamdan lampalarına bir azca işıltı salıb tezcə də söndürürdülər. Çünki neft az tapılırdı. Lampa şüşəsinin də üstündə əsirdilər. Hətta bəzən piltə də tapmırdılar. Bunun dərdindən lampanı az yandırırdılar. Demək olar ki, bütün kənd axşamdan yatırdı. Amma müəllimlərinin bu sözündən sonra Vahid başladı gec yatmağa. Hamı yerinə girib yatanda bu, piltəsini azacıq qaldırdığı lampanın işığında kitabının üstə döşənirdi. Oxu ki, oxuyasan.

– Ədə, nöyüt qurtardı, piltə də tapılmır, gəl yıxıl yat, – deməkdən nənəsinin çənəsi ağrıyırdı. Ancaq bu oxuyurdu. Gündüzlər malı-heyvanı otarmağa gedəndə də kitablarını özü ilə götürürdü. Orda bir kol-kosun böyrünə, qayaların küncbucağına, xəndəklərin içinə girib qısılıb dərslərini oxuyurdu. Əvvəl-əvvəl yerdə oturmurdu ki, şineli çirk olar, pal-palçığa bulanar. Şinelin ətəklərini dartıb domuşuqlu durardı. Elə edərdi ki, şinelinin bir yeri də torpağa dəyməzdi. Ancaq gördü belə dura bilmir, domuşuqlu dayanmaqdan qıçları ağrıyır, istər-istəməz bu cür dayanmağı tərgitməli oldu. Yoldaşlarından da kimsə ona dedi:

– Ayə, şinelə nə olacaq?! Onnan o qədər səngərdə yatıblar ki, görürsənmi heç kirrənməyib.

Bundan sonra Vahid yerdən oturub belini də bir ağaca, kötüyə, qayaya söykəyib ayaqlarını da qarnına yığırdı. Kitabını da açıb dizinin üstə qoyurdu. Belə arxayınca dərsini oxuyurdu. Soyuqdan isə qəti xəbəri olmurdu. Şinel od təki idi. Onu isti saxlayırdı. Əsən yellər həmişə onun canında olardı. Soyuq iliyinə işləyərdi. Axşamtərəfinin sazağı dəyib çənəsi şaqqıldayırdı. İndi isə belə şeyləri vecinə almırdı. Qabaqlar heyvanları onun qiyafəsinə öyrəşmədiyindən koluncosun ardından birdən çıxanda dana-buzov hürkərdi. İndi bu qiyafəyə heyvanları da öyrəşmişdi. Qolu-boynu ona yekə gəlib, cildini, görünüşünü tamam dəyişmiş olsa da, indi elə bil heyvanlar da bilirdilər ki, bunun içindəki Vahiddir.

Qabaqlar olan Vahid. Qaçmırdılar. Yan-yörəsindəcə otlayırdılar. Əlinə öyrəşdirdiyi quzusu  tütüləyəndə yenə gəlirdi. Elə bilirdi bir şey verəcək. Daha bilmirdi ki, puçur vaxtı deyil. Qovun-qarpız da qurtarıb. Bu yay üzü payıza heyvanlarına ətli-ətli nə qədər qarpız qabığı yedizdirmişdi. İndi isə belə şeylər yox idi. Verməyə bir şey olmadığından Vahid quzunu qucağına alar, şinelinin arasına basar, qoyun-qoltuğunun isti olmasından elə bil bu balaca heyvan da xoşlanıb çapalayıb-eləməz, sakit durardı.

Bir dəfə bunun üstündə uşaqlar onu tənqid etdilər.

– Bunu nə tez-tez qucağına alırsan. Heyvanın yunu kirli olar, şinel hayıfdı.

Vahidin ağlına batmışdı. Bundan sonra belə şey eləmirdi. Əksinə, yaxın gələndə burnuna vurub kənar eləyirdi.

– Allah üzmüş! Gedib o yanda otlasana!

Bunun əvəzinə onun şinelinə uşaqlar dadandılar. Elə ki hava çox bərk soyuq oldu, çöldə uşaqlar gəlib onun  şinelinin arasına girirdilər. Vahid də bir söz demirdi. Bir-birinin qoynuna girəndə şinelin arasına azı üç uşaq sığırdı. Bu uşaqlar bir kənddə doğulmuşdular. Bir kənddə böyümüşdülər. Bir yerdə məktəbə gedirdilər. Bir yerdə oynayırdılar, bir yerdə  çölə mal otarmağa gedirdilər. Amma heç vaxt bir-birlərinə bax, bu şinelin altında olduğu kimi yaxın olmamışdılar. Yalnız ona görə yox ki, onların nəfəsləri biri-birlərinə dəyir, canları az qala bir-birlərinə bitişirdi. Həm də ona görə ki, şinelin altında onlar özlərini yaxşı hiss edirdilər. Onlara elə gəlirdi ki, artıq özlərini yaxşı hiss edirdilər. Onlara elə gəlirdi ki, artıq böyüyüblər, kişi həddinə dolublar. Özü də çox qüvvətli olublar. Elə qüvvətli olublar ki, onlara hər adamın gücü çatmaz. Yağış-qar yağanda da uşaqlar şinelin altına girirdilər. Vahid heç nə demirdi. Anaş toyuğun vəziyyətinə düşmüşdü. O biri uşaqlar da elə bil onun cücələri idi. Göyün üzündə ley görünəndə cücələr qaçıb analarının altına necə girirdilərsə, uşaqlar da eləcə onun şinelinin arasına  doluşurdular.

Bir dəfə sulu qar yağa-yağa çöldən qayıdanda Vahid gördü ki, belə yerimək olmur. Şineli çıxarıb başına saldı. O biri uşaqlar da çətir təki bunun altı ilə yeriməyə başladılar. Kəndin arasında Əsədə rast oldular. Əsəd baxıb-baxıb başını buladı. Sonra acıqla dedi:

– Şineli niyə korlayırsınız? – Sonra nə fikirləşdi, nə fikirləşmədisə elə sulu qar yağa-yağa əynindəki pambıq sırıqlını çıxarıb Vahidə uzatdı.– Ala bunu gey! Şinellə dəyişdirirəm. Özü də bu sənə yaxşı olar. Gödəkcə əvəzidir.

Vahid heç fikirləşmədən başını buladı. Başlarını çıxarıb cücə kimi şinelin altından boylanışan uşaqlar da xorla:

– Hamımız sənin sırıqlının altına sığışmarıq, – deyə cavab verdilər.

Dostlarının belə deməyi Vahidin ürəyincə oldu. Birinci  ona görə ki, o gündən Vahidin Əsəddən acığı gəlmişdi. İkinci bir cəhətdən Əsədin sırıqlısının altına, həqiqətən, sığmazdılar.

Çöldən evə gələndə Vahid şinelini soyunub divara vurduğu mismardan səliqə ilə asar və diqqətlə baxıb üstündəki çör-çöpü barmaqlarının ucunda götürüb atar, ora-burasını isə çırpardı ki, tozu-mozu getsin. Eşitmişdi ki, paltarı gərək təzəliyində saxlayasan, xarab edib köhnəltdikdən sonra isə bir şey çıxmaz. Əlacı olsa heç geyinməzdi, saxlayıb özü böyüyüb yekə kişi olanda geyinərdi. Onda da o-bu gəlir ki, sat mənə. Eh, bu uşaqlar da ona bir yandan qəmiş olublar. Amma onlar qaçıb bunun şinelinin altına doluşanda nədənsə özünü yaxşı hiss eləyir, qeyri-iradi olaraq gülümsəyirdi. Bu da heç. Uşaqlar şineli yemirlər ha. Bircə bu qar, yağış işləri korlayırdı. Elə ki su dəydi, şinelin ətəyi əsgi təki olurdu. Həm bürüşürdü, həm də elə bil rəngini dəyişirdi. Onda Vahid yaman pis olurdu. Elə bilirdi ki, şinel daha köhnəldi, rəngi solub getdi. Əhvalı bütüncə pozulurdu. Ancaq nə etmək olardı. Axşamdan eləcə qalırdı, amma səhər duranda görürdü ki, quruyub yenə öz rəngini alıb. Qolları da, çiyinləri də qaydasına düşüb. Bir dənə də olsun əzik-üzük yeri yoxdur. Geyinəndə yenə şax durur. Elə bil təzəcə tikilib, yaxud mağazadan indicə alınıb. O zaman Vahidin rəngi-ruhu özünə gəlirdi, gülümsəyirdi. Əgər belə olmasa, oğlanın ürəyi partlayardı.

Yəqin ki, şinel bəxşiş, qiymətli bir yadigar olduğu üçün o, üstündə belə əsirdi. Həm də tikilişi, forması xoşuna gəlirdi. Vahid şineli geyinəndə elə bilirdi ki, balaca komandirdir. Güzgüdə özünə baxmaqdan xoşu gəlirdi. Bir qırıq güzgüləri vardı. Stolun üstünə qoyar, arxasını da divara söykəyərdilər. Evdə adam olmayanda Vahid güzgünü gah elə qoyub baxır, gah belə qoyub baxırdı. Hər baxdıqca da xoşu gəlir, əlini alnının üstə qaldırıb, güzgüdə öz-özünü əsgərsayağı salamlayır və bundan sonra şinelini daha təmiz saxlamağa çalışırdı. Oturanda-duranda ona diqqət yetirirdi.

Bir şey var ki, gərək heç bir şeyin üstündə əsməyəsən, əsəndə bəzən daha da pis olur. Yaxşı deyirlər ki, qorxan gözə çöp düşər. Belə ki bir dəfə yenə soyuqlu gün idi. Uşaqlar çıl-çırpı yığıb ocaq qalamışdılar. Yaxın durub qızınırdılar. Kimi ayaq üstə idi, kimi oturmuşdu. Vahid də domuşuqlu dayanıb əllərini ocağa tutmuşdu. Şineldə olduğu üçün o, hamıdan yekə görünürdü. Həm də şinel böyük olduğu üçün əyilmiş vəziyyətdə dayananda boynu-boğazı yumrulanıb qalxır, ətəkləri də yerə dəyirdi. Vahid şinelin böyür-başını nə qədər yığırdısa, mümkün olmurdu.

İndi isə fikri şineldə deyildi. Uşaqların söhbətində idi. Danışırdılar ki, bu gecə kəndə canavar gəlibmiş. Özü də biri yox, beş-altısı. Deyirlər görən olub. Gözləri elə işıldayırmış ki, elə bir fanar yanırmış.

Canavar sözü gələndə Vahid dikəlib kol-kosluğun arasına doluşub otlayan heyvanlarına baxdı görsün burdadırlarmı? Nənəsi demişkən, ağzı yanmışlar bəzən xəlvəti günün günorta çağı da hücum edirlər. Gördü sakitlikdir, yenə aşağı domuşdu. Bu ara uşaqlardan kimsə qışqırdı:

– Şinel yandı.

Vahid o dəqiqə bildi ki, xata kimin başındadır. Burada şineli olan ikinci uşaq yox idi. Qorxulu-qorxulu yerindən dik atıldı. Amma bilmədi ki, harası yanır. Təntik əlini üst-başına gəzdirərək ora-burasını yoxladı. Bir də gördü şinelin ətəyi tüstülənir. Dəli olmadımı?! Əlini-ovcunu yardırdısa da basıb söndürdü. Haçandan-haçana əlini çəkəndə gördü şinelin ətəyində bir deşik açılıb. Köz hardansa düşüb necə yandırmışdısa, elə bil güllə yeri idi. Bu tərəfdən dəyib o tərəfindən çıxmışdı.

* * *

Bu ona yekə dərd olmuşdu. Evdə də açıb-ağarda bilmirdi ki, şineli yandırmışam. Hələ şineli istəyən adamlar eşitsələr, lap pis olardı. Hamı onu qınayardı ki, gül kimi şeyi korladın, beşcə gün adam kimi geyinə bilmədin. Əlbəttə, nə desələr haqlı idilər. Lap bir söz deyən olmasa da özü-öz diqqətsizliyi, səhlənkarlığı təqsirindən keçə bilmirdi. Ürəyində özünü tənbeh edirdi. Axırı bir gün dözə bilməyib məktəbdə parta yoldaşı Qərənfilə müəllim eşitməsin deyə astadan dedi:

– Şinelimi yandırmışam.

– Hi! – Qız heyrətlə içini çəkdi. Guya, nə bilim, nə olmuşdu. Elə bil, iraq olsun, canlı adam yanmışdı. Halbuki adicə şinel idi. – Necə yandırmısan? Harasını yandırmısan?

Oğlanın fikri özündə deyildi. Şineli barəsində düşünürdü.

– Burasını yandırmışam, – deyə əlilə partanın altda qızın donunun ətəyini göstərdi.

Qərənfil onun əlini geri elədi. Bu da hərəkətindən utandı. Dil də yox idi ki, desin vallah fikrim özümdə deyil. Qız isə münasibətini dəyişmədi, yenə bayaqkı marağı ilə soruşdu:

– Çox yandırmısan?

– Yox. – Oğlan başını buladı. – Bir barmaq keçəcək qədər.

Qız bu ara əlini yellədi və pıçıltı ilə dedi:

– Eh! Mən də elə bilirəm çox yandırmısan. Zərər yoxdur, gətirərsən mən düzəldərəm.

Oğlan bir az özünə gəldi.

– Doğrudan?

– Hə. Görərsən. Heç bilinməyəcək.

Qəribə idi. Vahidin evdə Qərənfil boyda bacıları vardı. Evdə dərdini onlara demirdi, gəlib məktəbdə Qərənfilə deyirdi. Bu necə şey idi başa düşə bilmədi. Ancaq dərsdən sonra şinelini geyinib onlara getdi. Yaxşı ki, bunlarda da heç kəs yox idi. Yoxsa deyərdilər ki, niyə evdə bacılarını qoyub bura, Qərənfilin yanına gəlibsən.

Qərənfil isə tez sap götürdü və işə başladı.

Qız şineli qucağına alıb dizinin üstə tutmuşdu. Onun od düşən yerinə nəzər salaraq yan-yörəsini sığallayır, düzəldir və sapla necə çitəyəcəyini, daha doğrusu, hörəcəyini, toxuyacağını müəyyən edirdi. Əslində, bu, elə bir şey deyildi. Yəni elə beləcə də qala bilərdi. Kim idi əyilib aşağı şinelin ətəyinə baxan. Sən deyən əhəmiyyəti yox idi. Amma burası var idi ki, madam düzəldib, onda istəyirdi əlinin işi gözəl olsun. Ona nöqsan tutan olmasın. Deməsinlər ki, necə bacarıqsız qız imiş. Beləcə hər şeyi müəyyən edib, ölçüb-biçib Qərənfil Vahidin şinelinin od düşən yerini sapla toxumağa başladı. Taxtın üstündə elə oturmuş, şineli dizinin üstə elə tutmuşdu ki, deyərdin əkə-bükə arvaddır. Bu ara necə oldusa iynə qızın əlinə batdı. Görünür, bərk ağrıtdığı üçündür ki, tez əlini çəkdi və:

– Of! Of! – eliyərək ağzına saldı və bununla barmağının ağrısını azaltmağa səy göstərdi.

Qızın barmağına iynə batmasından Vahid də pis oldu. Elə bil onun barmağına batmışdı. Odur ki qız barmağını ağzından çıxaranda oğlan qeyri-iradi olaraq Qərənfilin əlini ovcuna aldı və canı yana-yana:

– Çox incitdi? – dedi. Aydındı ki, bu onun işinin üstündə olmuşdu. Onun şineli olmasaydı, iynə də qızın barmağına batmazdı. Vahid həm buna görə pis olmuş, həm də bir dost, tanış-biliş kimi ürəyi ağrımışdı ki, qızın barmağına iynə batıb... Qərənfil isə:

– Yox, ağrımadı, – deyə əlini oğlanın ovcundan çəkdi.

Oğlan heç nə demədi və bayaqkı qayda üzrə qızın böyründəcə taxtda oturmağında davam etdi. Amma indi ona elə gəlirdi ki, qızın əli hələ də ovcundadır. Niyə belə oldu özü də bilmədi. O, qızın əlinin bu dərəcədə təsirli, sehrli olduğunu bilməzdi. Bax, onlar o qədər bir yerdə oturmuşdular ki, lap saysız-hesabsız. Axşamadək sinifdə qapazlaşırdılar. Bu onu vururdu, o bunu vururdu. Bu onun qolundan tuturdu, o bunun qolundan tuturdu. Bəzən bir-birlərini itələyirdilər. Bunlardan başqa, onlar bir yerdə, bir parta arxasında orturundular. Əlləri əllərinə, qolları qollarına toxunurdu. Ancaq heç bir vaxt bu qızın əlinin təması bu dərəcədə təsirli olmamışdı. Bəlkə, bu ona görə idi ki, onlar tək idilər. Dörd divar arasında onlardan başqa heç kəs yox idi. Az qala ikisinin də ürəklərinin tappıltısı eşidilsin. Bir azdan qız işini qurtarıb sapı dişi ilə qırdı. İynəni koftasının qırçınına sancıb şineli oğlana uzatdı.

– Al geyin.

– Sağ ol, – Vahid şineli alıb geyindi və ətəyinə baxdı. Gördü çox qəşəng düzəldib. Deşilmiş yeri heç bilinmirdi. Oğlan Qərənfildən o qədər razı qalmışdı ki, bilmirdi necə təşəkkür etsin.

Evə gələndə soruşdular ki, hardaydın? Vahid yüz cür söz deyə bilərdi. Acığına gəldi ki, ayağını bir qırnax o yana qoyan kimi başlayırlar danışmağa. Əsəbiləşib:

– Əşi, nəyinizə lazımdır? – deyə acıqla cavab verdi.

Anası da, nənəsi də üstünə düşdülər ki, necə nəyinizə lazımdır?! Heyvanlarımız çöldə qalıb, sənsə buralarda veyillənirsən. Demirsənmi itib eliyər. Di gəl ondan sonra dolan görüm necə dolanırsan.

Söhbət dolanmağın üstünə gələndə bu bir parça uşağın da qəlbini qara qayğı aldı. Dolanmanın dərdini böyük yaşlı adamlarla bərabər, o zaman uşaqlar da çəkirdilər. Doğrudur, yoldaşlarına tapşırmışdı ki, onun da heyvanlarına göz-qulaq olsunlar. Bununla bərabər, yenə da narahat oldu.

– İndi gedirəm!

– Tez ol, get!

Vahid gördü ki, bunlar özləri də harasa getməyə hazırlaşırlar. Xəbər aldı.

– Qasım baban ağırdır, ay bala, ona dəyməyə gedirik, – deyə nənəsi qayğılı-qayğılı yırğalandı.

Vahid bir şey başa düşə bilmədi.

– Ağırdır daa, ağırdır, – nənə nəvəsinin başa düşməməzliyinə əsəbi cavab verdi, – deyirlər kişi can üstədir, ölür.

– Ölür?

– Hə-ə,

Vahid fikrə getdi. Qasım kişinin xəstə olduğunu bilirdi. Kişi hələ yaydan yıxılmışdı. O vaxtdan bəri yatırdı. Adamlar gedib tez-tez ona dəyirdilər. Amma söyləyirdilər ki, guya, Qasım kişi deyir oğlanlarım gəlməmiş ölən deyiləm. Bəs bu xəbər nə idi? O boyda kişi ağzında söz danışmışdı, indi necə ölürdü? Bəs oğlanlarının davadan qayıtmalarını gözləmirdimi? Elə fikirləşə-fikirləşə heyvanlarının dalınca yollandı. İtib-eləyər xataya düşərlər. Ondan sonra anasının, nənəsinin əlindən qurtara bilməzdi.

Qarabulağın üstündən keçəndə suyun başı arvadlarla dolu idi. Səhənglərini bir-birinin ardına düzüb növbə ilə doldururdular. Ağızları söhbətə necə ilişmişdisə tələsənə oxşamırdılar. Təzə-köhnə xəbərlərin hamısı burdan çıxırdı. Kimdən kağız gəlib, kimdən gəlməyib, kim nə yazır. Əlbəttə, əsas söhbətlər, xəbərlər dava barəsində, əsgərlər barəsində olardı. Bəzi arvadlar qurra-qurra elə danışırdılar ki, elə bil davadan gəliblər, hər şeyi öz gözlərilə görüblər. Vahid də onların yanından keçəndə bir az addımını yavaşıtdı ki, bəlkə, bir xəbər eşitdi. Gedib çöldə uşaqlara danışardı. Yaxud evə gələndə nənəsinə, anasına söyləyərdi. Dava ilə, dünyanın işi ilə hamı maraqlanırdı. Bu dəfə isə, deyəsən, davadan danışmırdılar. Kimdənsə qeybət edirdilər. Biri deyirdi:

– Aaz, o niyə arvad olarmış. O ki axşamını, sabahını bilmir. O ki dolanmasının dalınca getmir. Ona görə də uşaqları sözünə baxmır.

Vahid başa düşə bilmədi söhbət kimin haqqında gedir. Əslində, bu onu maraqlandırmadı. Ötüb-gedirdi ki, arvadlar bunu gördülər, biri əlini ona yellədi:

– Ədə, ədə, dayan bir, şinelinə baxmaq istəyirəm.

Vahid fikirləşdi ki, görəsən, bu arvad onun şinelinin ətəyinə niyə baxır? Nə olub onun şinelinə? Sonra belə ağıl elədi ki, bəlkə, parçası ilə maraqlanır. Bəlkə də, necə tikilməsinə fikir vermək istəyir.

Vahid yaxın gəlib şinelin ətəyini qaldırdı.

O arvad da astar üzünə çevirib baxdı. Gördü azı iki qarış qatdanıb. Arvadın üzü işıqlandı.

– Booy, dərdin alım, – dedi, – gör nə qədər artıqdır, neynirsən onu. Qoy kəsim, sənə də yaxşı olar.

Vahid üçün bu şinel o qədər əziz idi ki, kəsmək sözü heç xoşuna gəlmədi. Elə bil bu canlı bir varlıq idi. Qayçı-bıçaq dəysə, inciyə bilərdi. Yaxud şinel, sadəcə olaraq, xarab olardı.

– Yox, – deyə Vahid başını buladı və arvaddan geri durdu.

Əli sulu-sulu şinelin ətəyindən arvad necə yapışmışdısa buraxmaq fikri yox idi. Əli şineldə, gözü isə Vahiddə idi.

– Bə qaranlıqdamı qalaq, dərdim alım.

Vahid başa düşə bilmirdi ki, bu arvad ondan nə istəyir? Şinellə onun qaranlıqda qalmasının nə əlaqəsi var? Axırı özü başa saldı:

– Bilirsən, ay Vahid – dedi. – Lampamızın piltəsi qurtarıb, şinelin parçasından da piltə eləmək olar. Elə yanır ki, lap əsl piltədən də yaxşı. Bu artıq şeydir, nəyinə lazımdır, qoy kəsim, bir azca götürüm.

Vahid əvvəlcə belə hesab eləyirdi ki, bu arvad onunla zarafat eləyir. Şinelli olduğuna sataşır. Sonra gördü yox, gerçəkləyir. Etiraz etdi:

– Yox! Şinelim xarab olar, – deyə yoluna düzəldi.

Axşam evə gələndə gördü anasıgil xəstəyə dəyib qayıdıblar. Amma nə məsələdirsə, çıxılmaz vəziyyətə düşüblər. Bu ona deyir: aaz, neynəyək? O buna deyir: aaz, neynəyək? Axırı Vahid dözə bilməyib xəbər aldı. Nənəsi başladı ki, ay oğul, Qasım babanın vəziyyəti ağırdır. Üzü bəri döy, o yanadır. Bu gün-sabahlığı qalıb. Di gəl bu bədbəxt uşağının evdə işıqları da yoxdur ki, gecələr kişiyə baxalar. Deyirəm, bəlkə, kişi öldü. Bunun çənəsini bağlamaq lazım döymü?!

– Adam öləndə çənəsini bağlayırlar?

– Deyirsən çənəsi sallana qalsın? Yox, ay oğul, yox. Hər şeyin öz qaydası var. Onda adam pis görünər, eybəcər olar. Bax budur deyirəm, ölüb-eləsəm, mənim də çənəmi bağlayın. Yaxşımı?

Vahid bilmədi nə desin. Yaxşımı desin, yoxsa desin, ölüb-eləmə, bağlamayacam. Qoca arvad idi, onu da ürəyinə salırdı. Vahidə çox qəribə gələn bu cəhət idi ki, nənəsi öləndən sonra da gözəllik, səliqə-sahman axtarırdı. Ümumiyyətlə, bu arvad həyatda hər şeyin yaraşıqlı, qəşəng, təmiz olmasından xoşlanırdı. Çalışırdı ki, evdə də, eşikdə də hər şey yerli-yerində olsun, gözə yaxşı

görünsün. Həftədə bir dəfə adınaları olardı. Qoca qarı olsa da özü öz əli ilə su qızdırar, hamını bircə-bircə çimizdirər, paltarlarını dəyişər, təmizlik işi aparardı. Qabağına qoyub qız nəvələrinin saçlarını darayar, hörük düzəldər, hər birinə «bax, necə gözəlsən» – deyərdi. Evin qab-qacağını, digər avadanlığını da təmiz saxlayardı. Bulağa gedəndə bir qabı dönüb-dönüb qumla sürtər, suyun altına tutub yaxalayardı. Xülasə, belə şeylərdə bir qədər vasvası idi.

– Eyy, sən də lap ağ elədin. İçinə qurd ha düşməyib. Bəs deyilmi! – deyə bunu ona bəzən nöqsan da tuturdular. Amma xeyri yox idi. Vahidin nənəsi öz bildiyi kimi edərdi. Yaşlı arvadlar deyirdilər, guya, onun anası da elə bu cür həddən ziyadə təmizkarlığı sevən arvad olub. Bunun da xeyrindən başqa nə ziyanı vardır. Bu da belə adam idi, bir də onun bu xasiyyətini çoxları qiymətləndirirdi. Çoxları onun bu fikrinə şərik çıxırdılar ki, ocaq daşının da yaraşığı gərəkdir. Nə olsun ki, sacın, qazanın altına qoyulur, his-pas basır. Ocaq daşının özünün yeliyi qəşəng olanda ocaq da qəşəng görünür, üstündəki sac da, qazan da yaraşığa minir. Hətta bişən xörək, çörək də dadlı-ləzzətli olur. Vahidin nənəsi belə bir fikirdə olan arvad idi. Vahid də indi ürəyində onunla razılaşıb əsas məsələyə keçdi:

– Deyirsiniz onların işıqları yoxdur, indi nə etmək istəyirsiniz?

Nənəsindən qabaq anası dilləndi:

– Məndən olsa bizim lampanın piltəsini çıxarıb onlara verrik. Biz necə olsa yola gedərik.

Bu söhbət olanda Vahid bir istədi ki, bəs belə-belə... Bayaq bulaqda bir arvad mənim şinelimin ətəyindən kəsib götürmək istəyirdi. Deyirdi şinelin malından piltə düzəltmək olar, lap əsl piltədən də yaxşı yanır. Ancaq demədi. Qorxdu ki, necə deyərlər, «oğru yadına daş sala». Bunlar da deyərlər hə-ə. Ara yerdəcə şinelini kəsələr, doğram-doğram eləyib zayını çıxaralar. Əlbəttə, Vahid başa düşürdü ki, söhbət şinelin ətəyindən gedir, onun artıq hissəsini kəsməyi təklif edilir. Amma oğlana elə gəlirdi ki, hər-harası olur-olsun, ona qayçı vurdularmı korlanacaq. Daha əzəlki şinel olmayacaq. Odur ki qəti səsini çıxarmadı. Bundan sonra harda yığnaq arvad gördü, Vahid qaçırdı. Harda qabağından arvad gəldi Vahid tez yolunu dəyişirdi. Elə bilirdi ki, yenə deyəcəklər gətir şinelini kəsək. Elə bilirdi ki, verməsə, razı olmasa, bu işi zorla edəcəklər. Tutub şineli əynindən çıxaracaqlar. Yaxud yıxıb biri əlindən tutacaq, o biri ayağından yapışacaq, digəri də qayçını şinelinin böyüründən saplayacaq. Belə fikir elədikcə, belə düşündükcə Vahid bir arvad görəndə ilim-ilim itirdi. Bəzən heç arxasına da baxmırdı. Qaçıb-qaçıb, uzaqlaşıb o çəpərin, bu çəpərin, o damın, bu damın, çöldə o kolun, bu kolun ardından boylanırdı.

İllaha bu barədə ona bir söz deməsinlər. Bax, başqa nə deyirlər desinlər, yalnız şineli barədə bir söz deməsinlər. Vahid hər xahişə əməl edərdi. Hər bir buyruğa gedərdi. Bircə onun şinelində işləri olmasın. Vahid adamlar üçün lap

belində daş daşımağa razı olardı, bircə onun şinelinə əl vurmasınlar. Bax, arvadlar nə deyirlər, Vahid eləsin, amma şineli dillərinə dolamasınlar. Təkcə ona görə yox ki, bu şinel onu soyuqdan saxlayırdı, onu üşüməyə qoymurdu. Ümumiyyətlə, bu adi geyim şeyi beş-on günün içərisində onun üçün müqəddəs bir varlığa çevrilmişdi. Hətta elə bilirdi ki, şineli yaxşı saxlamasa, onu çirk eləsə bunu ona bağışlayan adam inciyə bilər. Nə vaxtsa təsadüfən ona rast olsa, şineli yaxşı saxlamadığına görə o utanar, xəcalət çəkər.

Bu səbəbdən də Vahid adamlarla çox ünsiyyətdə, təmasda olmaq istəmirdi ki, birdən şinel barədə xahiş eləyərlər. Bunun azarından o, hətta istəyərdi ki, geyinməsin. Əl vurulmadan divardan asılı vəziyyətdəcə saxlasın. Yaxud səliqə ilə büküb bir sandığa qoysun. Onda həm təzə qalardı, həm də arvadlar onu narahat etməzdilər. Amma məsələ burasındaydı ki, hər səhər Vahid yerindən durub müəyyən bir iş üçün eşiyə çıxmalı olanda nənəsi bir yandan, anası o biri yandan tez səslənərdilər.

– Ədə, şinelini gey, hava soyuqdur!

Hava soyuq olmasına, həqiqətən, soyuq idi. Xüsusilə səhər-axşam bəzən adamı kəsirdi. Amma nə olsun?! Əvvəllər xoruz yox idi, səhər açılmırdımı?! Bu fikirlə də Vahid arada şinelini bir-iki gün geyinmədi. Həmin günlər soyuqdan bütüncə ölmüşdü. Yenə əvvəlki kimi oğlanın dişləri-dişlərinə dəymişdi. Ağacda yarpaq əsən təki əsmişdi. Şineli geyinməməyinə yaman peşman olmuşdu. Odur ki o bir gün anasının, nənəsinin bir söz deyəcəyini gözləməyib şinelini ədəb-ərkanla götürüb geyinmişdi. Canı o dəqiqə də qızmışdı. Deynən o gün heç üşümüşdümü?! Qəti üşüməmişdi. Bilmək olmurdu, bu şinelin içərisində gözə görünməz ocaq qalayırdılar, yoxsa şinel özündən istilik-hərarət verirdi? Bəlkə, bu elə yerdən, lap soyuq havadan da özünə istilik yığır, bunun üçün də onun qoynu-qoltuğu belə hərarətli olurdu. Belə olmasa, əsgərlər səngərlərdə dayanamı bilərdilər?! Hamısını don vurardı, soyuq apardı. Amma elə ki, bu, əyinlərində oldu, şaxta nə qədər şiddət eləsə də, bir şey çıxmaz. Vahid belə isti geyim şeyi ömründə görməmişdi. İndi fikirləşirdi ki, elə isti olduğu üçündür ki, ondan piltə də düzəltmək olur. Heç soyuq şey də yanarmı?! Canında, təbiətində soyuqluq olan hər şey yanıb qaranlığı işıqlı edə bilərmi?! Axı gərək yanmağı bacarasan ki, başqasını da qızdıra biləsən. Axı gərək alovun, şölən ola ki, işığın da ola. O qədər belə fikirlər etdi ki, Vahid axırda şinelə tamam başqa gözlə baxmağa başladı. Onu hər dəfə əyninə geyinəndə elə bilirdi ki, nəsə işıqlı bir şeyə bürünüb. Ona elə gəlirdi ki, gecə lap qaranlıqda gedəndə də əynindəki şinel işıqlı olduğu üçün onu görürlər. Görürlər ki, bax, budur, Vahid gedir. Bundan qoltuğunun altı şişirdi, özünü bu qədər təkəbbürlü, hikkəli hiss eləyirdi.

Ancaq günlərin bir günü Vahid ağır xəstə yatan Qasım kişinin evinin yanından keçəndə nədənsə birdən-birə tutuldu və o, indi tamam ayrı cür fikir

elədi. Fikir elədi ki, o, yəni qorqudlu əsgər bu boyda şineli əynindən çıxarıb ona qıydı, amma bu, bundan bir piltəlik şeyi camaata qıymadı. Bu fikir onun hardan gəlib beyninə düşdü bilmədi. Özü də elə oldu ki, düşdü və heç cür geri çıxmaq istəmədi. Əksinə, başladı orda bunu incitməyə, hə-ə. Şinelə bu, təkcə yiyə çıxdı. Onun istisini də, işığını da, hamısını qamarlayıb özünə götürdü, amma istəmədi ki, onun bir cıqqılı şöləsi də başqasının olsun. Bunu ona deyən yox idi, bunu onun üzünə çəkən yox idi. Bu barədə heç kəs bir söz demirdi. Amma bu öz yanından nəsə birtəhər olmuşdu. Heç yaxşı iş görmədiyini düşünüb xəcalət çəkir, öz-özündən elə bil utanırdı. Bir də gördü büsbütüncə tərə batıb çıxıb. Həmişə şinelin istisi ona xoş gələrdi. İçərisində xumarlanıb buğlanardı. Bu dəfə də isti idi. Amma bu isti, o istidən deyildi. Bu isti adamı üşüdən isti idi. Vahid bu boyda şinelin içərisində tərləyə-tərləyə az qalırdı dişi-dişinə dəyib titrəsin. Belə bir əhvalda fikirləşib bu qərara gəldi ki, daha başqa yolu yoxdur. Bir bu qalır ki, bu işi təzədən eləsin. Odur ki geri, evə qayıtdı. İndi də havaların elə vaxtı idi ki, hamı evdəcə idi. Soyuqdan kim idi eşiyə çıxan. Nənəsi də, anası da, bacıları da evdə oturmuşdular. Nənəsi peçin böyründə yun didirdi. Anası corab toxuyurdu. Qabaqlar bir-iki dəfə atası üçün posılka göndərmişdilər. İsti köynək, yun corab, əlcək... o da yazmışdı ki, aldım, sağ olun. İndi də toxuyub hazır qoyurdular ki, lazım olsa, yenə göndərsinlər. Bacıları da nəyləsə məşğul idilər. Evdəkilərin hamısının başı beləcə qarışıq olmasına baxmayaraq, Vahid gördü ki, bu işi bunların yanında eləyə bilməyəcək. Şinelinin ətəyini kəsdiyini görsələr, bilsələr, ola bilsin qoymayalar ki, heyifdir. Yəqin bilirdi ki, nənəsi etiraz edəcək. Çünki hər gün tapşırırdı ki, şinelini ağıllı gey, üst-başını palçıq eləmə, gün bugünlük ha deyil, sabah da var. Nənəsi hər şeyə daimi, ömürlük baxırdı. Fikirləşirdi ki, bunu səliqə ilə geyinsə, lap böyüyüb yekə kişi olanda da istifadə eləyə bilər. Bunu nəzərə alan Vahid axtarıb gizlicə qayçılarını tapdı və eşiyə çıxıb gizlincə dama çıxdı.

Onların evlərinin taxtapuşuna kirəmit döşənmişdi. Atası onu müharibədən qabaq düzəltdirmişdi. Özü də çox həvəslə düzəltdirmişdi. Damın hər ağacı, taxtası vurulduqca, hər kirəmiti qoyulduqca atası oğlu Vahidə baxıb xüsusi şənliklə, qürur hissilə soruşardı:

– Hə, qadasın alım, necədir, xoşuna gəlirmi?

– Gəlir. – Bu da ustaların yanında utanaraq başını tərpədərdi.

– Hə-ə, lap yaxşı, – atası daha da qürrələnər və oğluna deyərdə, – hələ harasıdır. Bax, evimizin bu yanından sənə təzə altdı-üstdü otaqlar tikdirəjəm. Elə otaqlar ki, Sadıq bəyin imarətindən də yaxşı olsun.

Sadıq bəy inqilabdan qabağın adamı olub. Bu kənd, bu torpaqlar ona baxıb. Aydındı ki, hamıdan yaxşı yaşayıb. Hamı qara damlarda olub. Bel ağacından, dirəklərindən qurum sallanıb. Sadıq bəyin isə daş imarəti olub ki, adam baxanda

heyrətdən ağzı-gözü əyilib. Ona görə də sonralar tikilən ən yaxşı evi onun imarəti ilə müqayisə edirdilər.

– Hə-ə, sənə toy da eləyəjəm. Bax, canın üçün, bir toy eliyəcəyəm ki, küllü-aləm tamaşasına dursun. Sənə bir qəşəng qız da alajam ki, aya desin, sən çıxma, mən çıxım, günə desin, sən çıxma, mən çıxım. – Vahidin atası toydan-nişandan, xülasə, belə-belə şeylərdən ona danışmağı çox sevirdi. Müəyyən şeylər barəsində özü çox fikir eləsə də, istəyirdi övladları danışsın, gülsün, kirimiş durmasınlar, fikir eləməsinlər. Ona görə də həmişə şən şeylərdən danışardı. Müharibədən isə qəti danışmazdı. Onda Vahid müharibənin nə olduğunu bilmirdi. Özü də yekə oğlan idi. Çox toylar görmüşdü. Necə çalırdılar, necə oynayırdılar, necə at çapırdılar. Lopanı necə qaldırırlar. Gəlini necə gətirirlər. Bəyin dövrəsində cavan-cavan oğlanlar necə fırlanırlar. Bax, necə görmüşdüsə, atası deyəndə öz toyunu da xəyalında belə canlandırırdı.

Vahid dama başqa məqsədlə çıxmış olsa da, bir də gördü bunları xatırlayıb əlində qayçı fikrə gedib. Atası ona toy eləyir. Pis olsa da, oğlan xəyaldan ayrılıb işini görmək istədi. Şinelin ətəyini qayçının ağzına keçirdi. Əvvəlcə bir az aşağıdan tutdu, sonra bir az yuxarı qaldırdı. Bilmədi nə qədər götürsün. Qayçını belə aşağı, yuxarı qaçırtmaqda, bəlkə də, şineli kəsməyə əli gəlmirdi. Tərəddüd eləyirdi. Nəhayət, bir yerdən qayçını sıxdı. Özgə vaxtlar bu qayçı adamdan ağız istəyirdi. Arasına kağız qoyanda bəzən iki qatlanırdı. İndi Vahid qayçını necə düz tutmuşdusa, bu qaranlıqda şineli kəsəndə özü də məəttəl qaldı.

* * *

Bu dəfə geyinəndə şinel Vahidə bir qədər yüngül gəldi. Yox, bu ona görə idi ki, azacıq da olsa şinelin ətəyindən kəsilmişdi. Ya da camaat üçün, piltəyə ehtiyacı olan adamlar üçün yaxşı bir iş gördüyünü düşünüb mənən yüngülləşmişdi. İndi onları verməyə tələsirdi. Birinci Qasım kişinin evinə getməli idi. Bəlkə də, şinelin kəsiyinin hamısını onlara verdi. Qoy piltə sarıdan korluq çəkməsinlər. Bilirdi ki, onlar çox yandırmalı olurlar. Lampaları, bəlkə də, səhərədək yanmalı idi. Eşitdiyinə görə Qasım kişi çox bərk xəstə idi. Deyirdilər, sağalıb ayağa durmasına güman çox azdır. Halbuki bu yaxınlaradək o ayaq üstə idi. Yenə də kolxozun dərə bağına baxırdı. Uşaqların könlünə meyvə yemək düşəndə həmişə gedib çəpərin qırağından çağırardılar.

– Ay Qasım baba! Qasım baba, hey!

Bağ böyük, Qasım kişi isə tək can idi. Hansı ağacın ardına girib səsini çıxarmasa, onun harada olduğunu bilən olmazdı. Buna baxmayaraq, o dəqiqə uşaqlara hay verərdi:

– Nədir, ay uşaqlar?

– Ay Qasım baba, qoy gələk tut yeyək.

– Gəlin, a bala, gəlin! – Qasım kişi o dəqiqə razılaşardı.

Bəzən, hətta bağın yanından keçən uşaqları özü çağırardı, almaya, armuda, şaftalıya qonaq edərdi. Meyvə bol olan illər, hətta çantalarına doldurub yola salardı. Ona görə bütün uşaqlar Qasım kişinin xətrini çox istəyirdilər. Onun nə buyruğu olsa, həvəslə gedərdilər. İndi də damdan düşüb yeltələmə onlara gedəndə Vahid elə bilirdi ki, əlində yanan lampa tutub, içəri girəndə Qasım kişinin gözü işıqlanacaq.

Həyətdən çıxıb evin ardına hərlənəndə qabaqda Qasım kişinin yastı-yapalaq daxması göründü. Daxma deyəndə, yan-yana ikigöz otaq idi. Qabaq tərəfə çox xırda pəncərələri açılırdı. Bu pəncərələr, həqiqətən, o qədər xırda idilər ki, güclə görünürdülər. Bir də hər otağın öz qapısı var idi. Otağın birində özləri olurdu. Ər-arvad. O birində isə oğlunun ailəsi. Gəlini, bir də qız nəvələri. Bunun da oğlu davada idi. Evdə işləyən bir gəlin idi: həm qocalara baxırdı, həm də uşaqlarına. Qasım kişinin bir də qızları vardı. Onları da çoxdan köçürmüşdü. Qonşu kənddə idilər. Qızlar hərdən gəlib onları yoxlayırdılar.

Vahid onların həyətinə çataçatda evin gəlini harasa gedirdi. Buna fikir vermədi. Eh! Camaatın o qədər dərdi-azarı vardı ki, bu saat heç kəs gözünə görünmürdü. Nə isə, Vahid qapını açıb içəri girəndə Lala arvad ərinin balışını düzəldirdi. Eşik işıq olsa da, içəri qaranlıqtəhər idi. İnildəyib qoca palıd ağacı təki böyük taxta çarpayının üstə yıxılmış Qasım kişini Vahid əvvəlcə görə bilmədi. Haçandan-haçana gözləri içəriyə öyrəşdi. Kişinin üz-gözünü də dümağ tük basmışdı.

– Nə yaxşı gəlibsən, ay oğul? – Lala arvad öz işində ola-ola Vahiddən xəbər aldı.

Vahid bir söz deyənədək taxtın üstündən xəstənin iniltili səsi gəldi:

– Gələn kimdir?

– Vahid.

– Kim?

– Vahid deyirəm! Vahid!

Kişi eşitdimi, eşitmədimi, yaxud tanıdımı, tanımadımı, əvvəlcə müəyyənləşdirmək olmadı. Gecdən-gec dedi:

– Aaz, davadanmı gəlib?

Hm. Uşaq olsa da Vahid başa düşdü ki, Qasım kişi çıldıradır. Bu hara, dava hara? Bilmirmi ki, uşaqları davaya aparmırlar. Onun yaşı hələ düşmür. Görünür, beynində bircə o fikir idi. Bu boyda dünyadan doxsan illik ömürdən axır-axırda yadında yalnız dava qalmışdı. Özü burda əlləşirdi, ölümlə dava eləyirdi, oğlu orda vuruşurdu. Faşistlərlə dava eləyirdi. İkisi də davada idi. İkisi də ölümlə mübarizə aparırdı. O, buna güc gəlirdi, bu ona güc gəlirdi. O buna badalaq vururdu, bu ona. Vahid Qasım kişinin vəziyyəti barəsində çox eşitmişdi. Hamı

deyirdi ki, kişi ölür. Amma tərpənişindən, baxışından Qasım kişi pis deyildi. Diri idi. Ancaq bircə sözlərindən almadı. Vahid fikirləşdi ki, bəlkə, adamlar elə bu cür ölürlər. Belə ki əvvəlcə ağılları ölür, sonra özləri. Bu cür fikir etdisə də doğru-dürüst bir qənaətə gələ bilmədi. Bəlkə, – dedi, – başqa cür də ölüm var. Belə ki əvvəlcə adamın özü ölür, sonra ağlı. Hansının yaxşı olduğunu Vahid başa düşə bilmədi. Yalnız onu bildi ki, hər iki halda Qasım kişinin halı xarabdır, vəziyyəti pisdir. Bu yerdə ona, ümumiyyətlə, bu ailəyə kömək hissi onda çoxaldı. Qayğılı-qayğılı səsini çıxartdı:

– Lala nənə.

– Hə.

– Piltə tapdınızmı?

– Yox, dərdin alım, hardan? – Daha soruşmadı ki, bizim piltəmizin olmamasını sən hardan bilirsən? Elə vaxt idi ki, böyük-kiçik hamı eyni qayğı ilə yaşayırdı və hamı bir-birinin dərdindən, azarından halı idi. Odur ki arvad buna təəccüb etmədi. Vahid isə bu qoca arvadın qarşısında şəstlə dayanıb:

– Mən sizə piltəlik gətirmişəm, – deyəndə təəccüb etdi.

Əvvəla ona təəccüb etdi ki, bu uşaq piltəni hardan alıbdır. Lala arvad özü nə qədər axtarmışdısa, tapa bilməmişdi. Qonşulardan hansısa gətirib öz yarımçığını vermişdi. Hələlik onunla yola gedirdi. Evində xəstəsi olsa da bir yandıranda, bir də yandırmırdı. İkinci bir tərəfdən, bu uşağın belə mehriban, qayğıkeş, canıyanan olmasına təəccüb etdi. Çünki hər halda, uşaq idi. Belə şeylər böyüklərin işi idi. Onların piltəsinin olmaması onun hardan yadına düşmüşdü. Qərəz, Vahid şinelinin ətəyindən kəsdiyi parça qırığını cibindən çıxarıb ona uzatdı:

– Al, Lala nənə, bundan deyirlər yaxşı piltə olur.

Lala arvad heyrətlə soruşdu:

– Hardan almısan?

– Şinelimin ətəyindən kəsmişəm.

– Şinelinin ətəyindən?

– Hə.

– Boyy! Ədə, sən neynəmisən?! – Lala arvad əlini qaldırıb üzünü cıran təki etdi. Yəni şineli niyə korlamısan? Əyninin paltarını niyə cırmısan?

Vahidin isə gözünə heç nə görünmürdü. O, bu dəqiqə şineli bütüncə onlara verməyə hazır idi. Təki bunların vəziyyəti yaxşılaşsın. Qasım kişi sağalıb ayaq üstə dursun. Yaz ağzından başlayaraq bağa getsin, ağaclarına qulluq etsin. Əslində, ondan da çox Vahidin arvada yazığı gəlirdi. Uşaq olsa da o, həyatda çox şey bilirdi. Bilirdi ki, xəstənin özündən çox xəstəyə baxanın vəziyyəti ağır olur. Yazıq Lala arvad bilmirdi gedəninin dərdini çəksin, yoxsa qalanlarının. Özü də yaşlı arvad idi. Bu saat onun özünə qulluq lazım idi. Xanım təki otursun bir yerdə, gəlini, qızı ona qulluq etsin. Oğlu nazı ilə oynasın. Nəvələri dörd

böyründə fırlansınlar. Heç bir şeydən korluq çəkməsin. Ancaq iş elə gətirmişdi ki, Lala arvad dinclik nə olduğunu bilmirdi. Olmazın əziyyətlər çəkirdi. Bunlar hələ azmış kimi Lala arvad indi də bunun şinelinin dərdini çəkirdi.

– Əşi, onsuz da uzundur, ayağımın altına düşür, hələ yenə kəsəcəm, – deyə Vahid Lala arvada buna görə narahat olmamağı bildirdi. – Sən lampanı bəri gətir, ona uyğun kəsib salaq, görək yanırmı?

Ondan sonra arvadın qırışığı bir az açıldı. Həm də artıq şinelin ətəyini kəsmişdi. Təzədən ucuna calamaq da olmazdı. Odur ki lampanı gətirdi, piltə keçirilən hissəsini burub çıxartdı. Sonra da ölçüb-biçib lampaya uyğun piltə düzəldib saldılar. Aşağı, yuxarı burdular ki, görsünlər necə işləyir. Gördülər lap əntiqədir. Doğrudur, Vahid onu yandırmağa tələsirdi. Lala arvad isə bir az gözləmək lazım gəldiyini bildirdi.

– Qoy nöyütü canına çəksin sonra...

Bir azdan lampa işıq gülütəki açılıb yananda Lala arvad bilmirdi onun üçün nə etsin.

– Səni həmişə işıqlıqda olasan, ay oğul! – deyə küncdəki sandığına sarı gedib ona alma-armuddan, qozdan-fındıqdan nəsə vermək istəyəndə Vahid qapıya yönəlib sevincək eşiyə qaçdı. Arxadan Lala arvad nə qədər:

– Ədə, dayan! – dedisə Vahid «Sağ ol! Sağ ol!» eləyib getdi. Elə bil indiyədək heç bu cür yaxşı iş görməmişdi və heç bir işi, heç bir hərəkəti ona bu qədər ləzzət verməmişdi. Bunun təsirindən idi ki, atdana-atdana gedir, şinelinin ətəyi də havada bunun əhvalına uyğun təntənəli bir şəkildə yellənirdi.

* * *

O gecə Vahid yuxusunda gördü ki, Qasım kişi ölüb. Çənəsini bağlayıblar. Əvvəlcə elə bildi ki, bağlamayıblar, saqqalıdır. Amma diqqətlə baxanda gördü ki, yox. Ağ bezdir. Burası var ki, kişi nəsə danışmaq istəyir, amma çənəsini necə dartıb bağlayıblarsa, ağzını tərpədə bilmir. Uşaq olduğu yerdə Vahid də yaşlı adamların qabağında özünü yeyib-yırtır ki, kişinin ağzını açın sözünü desin. Onlar da buna acıqlanırlar ki, səvək-səvək danışma. Xülasə, Vahid yuxusunu qarışdırmışdı. Səhər ayılanda ona elə gəldi ki, Qasım kişi, həqiqətən, ölüb. Amma gördü ki, heççə bir şey yoxdur. Elə bir şey olsa, anası-nənəsi evdə durardılarmı?! İndi çoxdan yığışıb ağlaşmaya getmişdilər. Başa düşdü ki, yuxusu sadəcə olaraq nənəsinin o günkü söhbəti ilə əlaqədardır. Qaldı piltə məsələsi. Vahid ona görə verməmişdi ki, Qasım kişi ölsün, lampanın işığında onun çənəsini bağlaya bilsinlər. Ona görə vermişdi ki, gecəmi, gündüzmü kişiyə qulluq etsinlər. Həqiqətən, Lala arvad onun nənəsini görüb dil-ağız eləmişdi:

– Bıy, onu görüm axırı xeyir olsun, ona gələn mənə gəlsin. Ona bax, bu canım qurban olsun.

Vahidin nənəsi əvvəlcə başa düşməmişdi. Bilməmişdi ki, arvad nəyə görə belə deyir. Sonra Lala arvad söyləmişdi ki, bəs belə-belə...

– Hə-ə, nə olar, aaz. Adam-adama nə gündə gərəkdir. – Vahidin nənəsi bu işi təqdir etmişdi. Evə gələndə isə söylənmişdi ki, dəlisən, nəsən, əyniyin paltarını niyə mal-pay eləyirsən. Əyilib şinelin ətəyinə baxaraq yüz dəfə narazılıqla başını bulamışdı. Az qalmışdı ağac alıb uşağı döysün, mənşər ayağına çəksin. Vahid bilirdi ki, nənəsi belə eliyəcək. Bir söz deyə bilmirdi. Nənəsinin xasiyyətini bilirdi. Bilirdi ki, onu heç cür başa sala bilməyəcək ki, başqa cür eləyə bilmədim. Qaranlıqda qalmışdılar. Məndən olsa şinelimi piltə-piltə doğrayıb bütün kəndə paylayaram, qoymaram adamlar qaranlıqda qalsınlar. Bununla bərabər şinelindən də həddsiz xoşu gəlirdi. İndi qorxurdu ki, bəlkə, şinelini, həqiqətən, xarab etmişdir. Ətəyini kəsib yaraşıqdan salmışdır. Nənəsinin söylənməsi onda bu hissi daha da artırırdı. Əynindəki şinelinə gah sağdan, gah soldan nəzər salıb, korlanıb-korlanmadığını müəyyənləşdirirdi. O da gözünə gah yaxşı, gah da pis görünürdü. Bilmək olmurdu ki, ətəyindən kəsilməsi ona xələl gətirib, yoxsa gətirməyib. Amma bir məsələ vardı. O da bundan ibarət idi ki, indi onun şinelindən çox özündən danışırdılar. Qabaqlar şinelini tərifləyirdilər: ay bastondur, ay kavırkotdur. Hətta son vaxtlar deyirdilər ki, bu cür malı olan şinelləri də hər komandir geyinə bilmir. Belə xalis parçalardan ancaq generallar, marşallar üçün tikirlər. İndi isə onun şinelini yox, özünü tərifləyirdilər. Maşallah, Omarın gədəsi çox yaxşı oğlan imiş. Tikəsinin düşmənidir. Hələ belə üzüyola, canıyanan uşaq olmayıb. Aaz, kim eləyər eyy, əyninin paltarını çıxarıb yandırıb ki, Qasım kişinin gözü işıq görsün. Vahidə də bu ləzzət verirdi. Şinelin təriflənməsindən çox özünün təriflənməsindən xoşu gəlirdi. Bilirdi ki, şinelin yaxşı olması, xalisliyi şinelə aiddir. Onun parçasına aiddir. Onu biçən, tikən ustaya aiddir. Onu bəxşiş verən qorqudlu əsgərə aiddir. Vahidə yox , bir başqasına da versə, bu xalislik o zaman da onda olacaqdı. Burada Vahidlik bir şey yox idi. Vahid, necə deyərlər, hazırın naziri olmuşdu. Amma Vahidin özünün təriflənməsi bunun özündən gəlirdi. Bunun adamlara münasibətindən gəlirdi, əməllərindən gəlirdi. Bunun yaxşı olmasından, qayğıkeşliyindən, fədakarlığından gəlirdi. Birinə bir kömək lazım gəlsə, Vahid o dəqiqə sevinir, fərəhlənir və adamlar üçün daha başqa işlər görməyə can atırdı. Birinin bir heyvanı çöldə qalsa, onu qabağına salıb gətirirdi. O günləri çöldə heyvanlarını otaranda eşitmişdi ki, meşənin ətəyindən bir arvad onu çağırır.

– A Vahid! A Vahid! Ölööm, bir bura gəl.

Bu da ərinməyib getmişdi. Gedib görmüşdü ki, arvad özünə yekə bir odun şələsi düzəldib. İndi nə qədər çalışırsa, belinə götürə bilmir.

– Ədə, ədə, dərdin alım, bir mənə kömək elə, bunu belimə alım, – deyə arvad onu nə üçün çağırdığını bildirmişdi. Hələ əlinə bir uzun zula da alıb ar-

dınca sürüyürdü. Arvada Vahidin yazığı gəlmişdi. Şələsini qaldırmağa kömək etdikdən sonra:

– A xala, bunu da mən gətirrəm, sən yeri get, – deyə əlindən almışdı. Axşam çöldən qayıdanda onu da gətirib yoldan keçəndə qapısına tullamışdı.

Bu, çox böyük olmasa da, hər halda, diqqət idi. Ondan bəri arvadın dili ağzına sığmırdı. Hər yerdə tərifləyirdi ki, yaxşı oğlandır. Vahidin tərifi «al-osmana» çıxmışdı. Bu cür olmaq, əslində, oğlanın özünün də xoşuna gəlirdi. Ona görə də kim nə xahiş etsə, yerinə yetirməyə çalışırdı. Nə qulluğa göndərsələr, gedirdi. Yalnız bir şey xoşuna gəlmədi ki, üzüyola, əliaçıq olmasından istifadə edib şineli barəsində bir az ağ elədilər. Bir dəfə məktəbdə qadın müəllimələrindən biri buna dedi:

– Vahid, mənim də lampamın piltəsi qurtarıb, şinelindən kəsib bir az da mənə versənə? Qaranlıqda uşaqlar xörəklərini yeyə bilmirlər. Dünən balacam isti suyu ayağına töküb. Hələ Allahın yazığı gəlib ki, qaynar qazana düşməyib.

Vahid qaldı belə. Düşündü ki, ağ eləyirlər. Gül kimi şinelini korlayırlar. Bununla bərabər, müəllimin vəziyyətini də düşündü. Bir bölük uşaqla qaranlıqda qalmışdı. Südəcər-südəcər çoxlu uşağı vardı. İndi budur, evində işığı da yoxdur. Vahid belə şeyləri başa düşən oğlan idi. Laqeyd qala bilmədi, razılaşdı. Müəllim də üzlü arvad idi. Böyük tənəffüsdə Vahidi evə göndərib şineli gətizdirdi və məktəbdəcə boş sinfə salıb şinelin ətəyindən iki barmaq enində hərləmə kəsdi. Sən demə özü ilə qayçı da götürübmüş. Sonra da tapşırdı ki, evdə demə ha.

Evdə bilməsələr yaxşı idi. Deyinə bilərdilər. Deyərdilər ki, bu nə hərəkətdir edirsən. Hələ ola bilsin gəlib müəllimlə da dalaşsınlar. Nənəsi də azacıq aşın duzu deyildi. Birinci dəfə məsələni ona görə çox uzatmamışdı ki, Qasım kişi xəstə idi. Şinelə heyifi gəlsə də, o, hardasa, nəvəsinin də hərəkətinə haqq qazandırmamış deyildi. Xəstə adama kömək etmək hamının borcudur. Ancaq bu dəfə ola bilsin onun «günahından» keçməsin. Müəllimin abrını ətəyinə büksün. Yekə biabırçılıq olardı. Bu, Vahidin özü üçün də pis idi. Deyərdilər ki, burda şinelinin kəsilməsinə razılıq verir, orda xəbərçilik edir. Odur ki bu məsələni bir kəsə açmaq fikrində olmadı. Evlərinə gələndə də şinelini əynindən hələ heç içəri girməmiş çıxardı ki, diqqət cəlb eləməsin, şinelin ətəyinə fikir verən olmasın. İçəri gircək isə tez divardan asdı ki, fikirləri tamam başqa yerdə olsun. Gecə isə yuxusunda gördü ki, kəndin düz ortasında dik bir yerdə dayanıb. Guya, əynindəki şinel də lampadır. Bundan hər yer elə olub ki, gündüz kimi. Səhər duranda Vahid dayana bilməyib yuxusunu söylədi.

– Allah xeyirə döndərsin, dərdin alım, yaxşı yuxudur. Tezliklə bax, dava qurtaracaq, kənd işıqlı günlərə çıxacaq, – deyə yuxusunu hamıdan qabaq nənəsi yozdu. Daha bilmədi ki, nəvəsi şinelin ətəyini yenə kəsib. Bu yuxu da onun təsirindən idi. Əyninin paltarından o qədər ona-buna piltəlik vermişdi ki, özü də mənən lampaya çevrilmişdi.

Şineli geyinəndən bəri özü də elə bil yekələnmiş, böyük kişi olmuşdu. Bir dəfə yançağı ağrıyırdı. Bilmədi nədəndir? Dana-buzovun ardınca qaçdığına görəmi? Çöllərdə kol-kosun üstündən hoppandığına görəmi? Yoldaşları ilə zarafatlaşanda güləşdiklərinə, süpürləşdiklərinə görəmi? Səbəb çox tapmaq olardı. Bütün uşaqlar kimi, Vahid də bir yerdə duran bəla deyildi. Səhərdən axşamadək yüz yerə gedirdi, yüz iş görürdü. İndi yadına sala bilmirdi ki, ona nə olub, yançağı nədən ağrıyır? İncidən yerini əli ilə göstərib nənəsindən soruşdu:

– Allah haqqı boyun uzanır, – nənəsi sevincək cavab verdi. – Orda özgə heç nə ola bilməz, boyun uzanır.

Vahid özündə xoş bir hiss duydu: boyu uzanırdı. O böyüyürdü. Böyüyüb yekə kişi olanda necə görünəcəyini təsəvvür edə bilmədi. Heç bu barədə düşünmədi də. Sadəcə olaraq böyüməyi, yekələnməyi xoşuna gəldi. Hətta fikirləşdi ki, bilsəydi belə sürətlə boyu uzanacaq şinelinin ətəyinin kəsilməsinə razı olmazdı. Gözləyərdi, böyüyəndən sonra geyinərdi.

Ancaq artıq gec idi. Hər hansı toxunma bir əşyanın ki, ipi qaçdı, ondan sonra görürsən sökülə-sökülə gedir. Hətta bəzən gözləməklə də başa gəlmir. Doğrudur, bu toxunma şey deyildi. Ancaq daha əvvəlki ölçü-biçisi pozulmuşdu.

Vəziyyət elə gətirdi ki, bir gün də onların özünə piltə lazım oldu. Onda artıq dekabr ayı idi. Bir neçə gün idi ki, yerə bərk qar düşmüşdü. Yarıb yerimək olmurdu. Necə deyərlər, eşik qar, içəri dar idi. Evdə işığın olmaması da bir yandan işləri korlayırdı.

– Qaranlıqda qaldıq. Bu piltə də ki, heç yerdə tapılmır. – Anası qayğılı-qayğılı başını tərpətdi.

Vahid bilirdi ki, evin qarqaşası çoxdur. Və bu qarqaşanın da çoxu anasının üstə düşür. Bircə piltə dərdi əskik idi. Yazıq hansı birinin fikrini eləsin? Heç olmasa bu barədə düşünməsin, narahat olmasın. Vahid qayçını götürüb divardan asılı olan şinelinə yaxınlaşanda anası onun nə etmək istədiyini başa düşdü.

– Ədə, kəsmə! Lazım deyil, – tez durub qayçını əlindən almaq istədisə də çatmadı. Onadək Vahid bir az kəsə bildi.

– Eyy! Dəli! Sənə demədimmi kəsmə! – Anası çox mütəəssir halda geri durdu.

Özlərinəmi, başqasınamı piltə lazım oldu Vahid beləcə şinelin ətəyindən kəsib verirdi. Bu, daha qanun halına düşmüşdü. Vahidin şineli get-gedə gödəlirdi. Qabaqlar elə idi ki, hələ qatlanandan sonra düz ayağının üstə düşürdü. Yel-quz əsəndə ayağını-baldırını qəti görmürdü. Amma indi altdan külək necə sovururdusa soyuq bütün canına yayılırdı. Bir dəfə baldırları elə üşüdü ki, Vahid yüyürüb özünü güclə içəri saldı. Peçə yaxın dayanıb dizlərini oda verdi. Ayaqlarına soyuq olduğu üçün oğlan gömgöy kəsilmişdi. Nənəsi onun qaçmış bət-bənizinə baxıb canı yandı, əlacsızlıqdan onun özünü danladı:

– Haqq olur sənə!

Vahid hələ də üşürgələnərək soruşdu:

– Niyə?

– Niyə nədir?! – Nənəsi daha da acıqlandı. Şineli niyə o kökə salırdın ki, indi də üşüyürsən. Hələ sənə bu da azdır.

Vahid nəsə demək istədi. Amma bilmədi nə desin. Bəlkə də, həyatında birinci dəfə olaraq indi hiss elədi ki, elə şeylər, insanın elə hərəkətləri olur ki, onun haqqında heç nə deyə bilmirsən. Bax, nəsə eləyirsən, hər hansı bir işi görürsən, lazım olan addımı atırsan, amma bunu nə üçün elədiyini, bu addımı nə üçün atdığını deyə bilmirsən. Bəlkə də, bunu deməyi, izah etməyi artıq hesab edirsən. İçəridən, qəlbdən gəlir, ürəkdən təpir eləyirsən, sözə gələndə isə bunu deməyi artıq bilirsən. Bunu hər halda, nənə bilməmiş deyildi. Yaşlı adam idi. Həyatda çox şey görmüşdü. Çox şeydən xəbərdar idi. Vahid buna əmin idi ki, nənəsi dildə onunla belə acıqlı danışır, ürəkdə isə hərəkətlərini bəyənir, ona afərin deyir.

Kəndin hesabdarı Əsəd isə şineli belə gödəlmiş görüb cin atına minmədimi? Baxıb-baxıb birdən:

– Tfu! – elədi, – yaxşı deyirlər ki, zər qədrini zərgər bilər. Əyə, bunu niyə bu kökə salmısınız?

Vahid bunun üçün məsələni izah eləməyi lazım bildi. Çünki bu, ola bilsin bilmirdi. Ola bilsin belə şeylərdən xəbəri yox idi. Vahidə elə gəlirdi ki, o belə şeylərdən həqiqətən xəbərsizdir.

– Kəsib piltə düzəltmişik.

– Nə eləyibsiniz? – Əsəd üz-gözünü turşudub özünü elə apardı ki, guya, eşitmədi. Vahid cavabını bir də təkrar elədi:

– Deyirəm kəsib piltə düzəltmişik.

– Piltə düzəldibsiniz?

– Həə.

– Hm. – Əsəd rişxəndlə fınxırdı. – Düz sözündürmü?

Vahid məsələni bir az ətraflı dedi ki, o, həqiqətən, inansın.

– Özümüzə də lazım oldu. Qonşular da qaranlıqda qalmışdılar. Dedilər şinelin malından piltə olur, mən də kəsdim.

Əsəd necə dilxor olmuşdusa bıçaq vursan, qanı çıxmazdı. Aydındı ki, onun bu şineldə gözü vardı. Bu komsostavski şineli geyinib kəndin arasında fırlanmaq istəyirdi. Bunun üçün ardı quzulu qoyun təklif eləmişdi. Demişdi, ya da istəyirsən bir neçə pud taxıl götür. Belə şeylərə onun gücü çatırdı. Bunlarsa onunla razılaşmamışdılar.

– Ə, siz nə xeyrinizi bilməz adamlarsınız. – Əsəd şinelin bu kökə salınmasından yana-yana danışdı. – Gör bir necə korlayıblar. Tfu!

– Əşi. Belə daha yaxşıdır. – Vahid bunu vecinə almayıb onun əleyhinə getdi. Bilirdi ki, o düzgün iş görüb. Bunun komsostavski geyinib dambat-dambat gəzməsindənsə, camaatın işığının yanması yaxşıdır.

Vahidin belə deməsi, özünü şax, vüqarlı tutması da Əsədi yandırdı.

– Ay papağın hərmədə qalsın, belə oğul, – əl atıb oğlanın uzungünlüklü papağını acıqlı bir hərəkətlə gözünün üstə basdı.

Vahid də balaca deyildi. Artıq böyük oğlan idi. Elə pərt oldu ki, bütün kənd başına fırlandı. Hirsindən dişi bağırsağını kəsdi. Bilmədi nə etsin. Acığından papağını da düzəltməyib eləcə dayanmışdı. Elə bil fikirləşirdi ki, papağımı düzəldənnən sonra nə edəcəyəm. Bunu qərarlaşdırdımı, qərarlaşdırmadımı demək çətindi. Ancaq papağını gözünün üstündən qaldıranda gördü onu təhqir eləyən Əsəd odur ey, çıxıb üzü o yana gedir. Qorxdu aradan çıxa, bu da qala içindən qırıla-qırıla. Tez aşağı əyildi, yerdən torpaq, xırda daş qarışıq qar götürdü. Ovuclarında hirsli-hirsli sıxıb yumurlayıb, sonra da qolaylayıb necə atdısa tarappıltı ilə Əsədin geri yanından düz təpəsinə ilişdi. Sən demə yan-yörədən uşaq-böyük baxanlar var imiş. Buna necə şaqqıldayıb gülürdülərsə, Əsəd hikkəli-hikkəli geri döndü:

– Sən məni vurursan?! – yerindən tərpəndi.

Vahidə çata bilərdi?! Quş kimi səkib çəpərlərin arasında gözdən itdi.

* * *

Vahid sonradan peşman oldu ki, gərək qaçmayaydım. Nə edəcəkdi mənə?! Özündən iki-üç yaş böyük olsa da, Vahidə elə gəlirdi ki, Əsədin ona gücü çata bilməz. Yox. Ən pisi – döyülsə də, gərək qaçmayaydı. Səhv etmiş olsa da, artıq iş-işdən keçmişdi. Bununla bərabər, acığını çıxdığına ürəyi bir az yerinə gəlmişdi. Torpaq qarışıq çox möhkəm qar yumrusunun arxadan onun təpəsinə necə dəydiyi indi də gözünün qabağında idi. Hətta dəyərkən çıxartdığı səs də qulağında idi. Və belə eləməyinə peşman deyildi. Əksinə, özü-özündən razı qalmışdı. Həm də şad idi ki, nə yaxşı düz təpəsinə dəydi. Kürəyinə və yaxud başqa yerinə dəysə, ona belə ləzzət verməzdi.

O isə bunu yanıyırdı «heç eybi yoxdur», – deyirdi, – onunla mənimki qalsın sonraya. Əlbət əlimə keçər, onda görər onun başına nə oyun açıram, ona nə toy tuturam. Gərək elə eləyəm ki, adı yadından çıxa. Heç bilməyə adamdır, yoxsa nə canlı-cinlidir?! Təpiyimin altına salıb ona ömür-billah bir dərs verim ki, heç evlərinə gedib çıxa bilməsin. Qulağından tutub daşa-ağaca elə mıxlayam ki, tövbələtmə olsun. Bütün kənd tökülə yenə bağışlamaram. Ağzının-burnunun qanını bir-birinə qatmasam ürəyim yerinə gəlməz. Xülasə, Əsəd Vahidin ardınca çox alıb-verirdi. Belə asacam, belə kəsəcəm. Belə vuracam, belə... O qədər söz deyirdi ki, düşünürdün Vahidin qanı getdi. Bunun da hamısını Vahidə

xəbər verirdilər. Vahid də onun qabağından qaçmasına peşman olsa da, bu ona bir qədər ağır gəlsə də, yenə də Əsəddən ehtiyat etməmiş deyildi.

Evdən çıxıb bir yana gedəndə Əsəd təhlükəsi həmişə yadında olurdu. Fikrindən çıxmırdı. Qorxurdu ki, qəfildən qabağına çıxa, hardasa rastlaşalar. Onda necə olacaqdı bilmirdi?

Bu fikir qalan bütün fikirlərin hamısını Vahidin başından qovub çıxartmışdı. Özündən başqa heç kəsin dərdini çəkmir, heç kəsin haqqında düşünmürdü. Halbuki bütün günü atası barəsində düşünərdi. Uşaq olsa da, müharibəyə gedən bütün adamların dərdini çəkərdi. İndi haradadırlar? Nə edirlər? Atam qospitaldan çıxdımı? Yarası nə təhərdir? Niyə məktub yazmır? Bu cür qayğılar çox idi. Camaatın dərdi-səri başından aşırdı. Fikirləşəndə az qalırdı dəli olsun. İndi isə elə bil hamısı yaddan çıxmışdı. Bu boyda dünyada elə bil ikicə adam qalmışdı. Biri o özü idi, o biri də Əsəd. Hazırda Əsəd onun üçün aydan, canavardan da betər olmuşdu. Atası Qara Omar cəbhədə düşməndən, bəlkə də, o qədər qorxmurdu, nəinki bu Əsəddən. Hətta gəlib yuxusuna da girirdi. Ancaq bir dəfə gördü Əsəd bunu qovmaq əvəzinə, bu onu qovur. Əlində də uzun bir ip var. Guya, onu kəmənd atıb tutmaq istəyir. Bir atdı, iki atdı, üç atdı... Hər dəfə ip boşa çıxırdı. Nəhayət, ip Əsədin xirtdəyinə keçdi.

– Hə-ə! Canın budurmu?! – Sevincək ipi dartıb Əsədi xırıldaya-xırıldaya özünə çəkdi. Yaxına gələndə isə gördü Əsəd deyil, gözünə belə görünüb. Səhər isə yuxusunu evdə bir adama söyləyə bilmədi ki, yozalar, görsün bu nə olan şeydir? Qorxdu bunun özünə gülələr ki, adam kimi yuxu görsənə, dəli-dəli nə danışırsan? Həqiqətən, qəribə yuxu idi. Əvvəllər gördüyü yuxulara bənzəmirdi, heç olmasa özü yozsun. Bilirdi ki, su aydınlıqdır. Su görəndə nənəsi deyərdi ki, dava qurtaracaq, gedənlər gələcək, axırımız aydınlıq olacaq. Xalça-palaz isə yol idi. Belə şeylər görəndə deyərdilər ki, gedənlər gələcək. Qan da deyərdilər ki, qovuşuqdur. Onu da davaya gedənlərlə əlaqələndirirdilər ki, gedənlər gələcək, həsrətlilər qovuşacaq. Amma bu ip nə idi? Əsədi bu cür tutmaq nə idi? Başa düşə bilmədi. Çox fikirdən, götür-qoydan sonra nəhayət, bu qərara gəldi ki, sadəcə olaraq sarsaq yuxudur, unutmağa çalışdı.

Vahid Əsədlə olan haqq-hesabını unudub tamam başqa qayğılarla yaşayırdı ki, bir də şəppəxeyir böyürdən çıxdı.Cəllad kimi başının üstünü kəsdirdi. Onda Vahid kolxozun xırmanından saman gətirməyə getmişdi. Bu il kolxozun samanı bol idi. Neçə ilanyalı qoymuşdular. Hələ keçən ildən də qalmışdı. Xarab olurdu. Ona görə də icazə vermişdilər ki, kim nə qədər istiyir daşısın. Doğrudur, mal-qara tövlə şəraitinə təzə keçmişdi. Heyvana ot-ələf verməyə bu günlərdəncə başlamışdılar. Ancaq adamlar ehtiyatlarını bəri başdan görürdülər. Həyətlərinə yığdıqlarını xərcləmək əvəzinə arada gedib nisbətən uzaqdan gətirirdilər ki, yaxındakı sonraya qalsın. Bəlkə, sonralar qar daha çox yağacaq, yarıb yerimək

mümkün olmayacaq. Ancaq indi yer qar olsa da, hava xoş idi. Qar yağandan bəri şaxta elə bil sınmışdı. Odur ki Vahid şinelini geyinməmişdi. Həm də saman dolu kisəni çiyninə alacaqdı, şinelnən birgə ağır olardı. Qərəz ki, Vahid xoş ətri olan arpa samanından basıb kisəni doldurdu, sonra çəkib ağzını bağladı. Başı işə qarışmış olsa da, ancaq fikri bu ara başqa yerdə idi. «Hələbdə qatır satırdı». Qonşuları Qərənfil qızın yanında idi. Axşam onlara getmək istəyirdi. Şinelini dizlərinin üstə alıb tikməsi o gündən Vahidin yadında qalmışdı. Hər dəfə qızı bu şəkildə xatırlayırdı və bu qızın onun şinelini dizləri üstə tikməsindən xoşu gəlirdi. Xüsusilə tikişin necə düşməsini yoxlamaq üçün hərdən şinelin ətəyini dizinin üstə sığallamasından ürəyi gedirdi. Qərənfil də elə bil o Qərənfil deyildi. O da böyüyüb yekə qız olmuşdu. Duruşu, baxışı hamısı qadına oxşayırdı. Özünü çox ağır tutmuşdu.

Vahid döyüləcəyini artıq gözünün altına almışdı. Əsəd əlindən yanıqlı idi. Çoxdan idi ki, zəncir çeynəyirdi. Nəhayət, budur, xəlvət bir yerdə əlinə düşüb. Vahid bağırsa da, səsini eşidən olmaz. Heç belə dara düşməmişdi. Bilmirdi nə etsin. Başqa bir yer olsa, bəlkə də, vəziyyətdən çıxa bilərdi. İndi isə elə yerdə yaxalanmışdı ki, çıxış yolu görmürdü. Arxası dağ təki saman tayası idi. Altını ovub-ovub elə bil lağım atmışdılar. Tayanın yuxarı hissəsi papağın günlüyü təki qalırdı. Heyvanlarına saman aparan adamların əlləri yuxarı hissəyə çatmadığından taya bu şəklə düşmüşdü. Qabaq hissəni Əsəd kəsmişdi. Əvvəla Vahidin qaçmaq fikri yox idi. İkinci bir tərəfdən qaçmaq istəsə belə, imkan yox idi.

Vahid gözləyirdi ki, Əsəd bu dəqiqə nərə çəkib onun üstünə gələcək. Nə yemisən, turşulu. Pişiyini ağaca dırmaşdıracaq. Bunun daha o yanı, bu yanı olmazdı. Əsəd isə, onun heç gözləmədiyi halda, birdən-birə hırıldadı. Bu, Vahidə pis təsir elədi. Qəzəblənsə, nərə çəksə, bundan yaxşı olardı. Görünür, onu heç saymır. Hə... O vaxt qabağından qaçmışdı, özünü qorxaq tanıtmışdı, harda sayacaqdı?! Vahid bunun xəcalətini indi də çəkirdi. Yatanda da yadına düşəndə tərə batıb çıxır, yuxusu qaçırdı. Hələ də başını qaldırıb bu hadisəni görən, bilən adamların üzünə düz-əməlli baxa bilmirdi. Əslində, Əsədin də üzünə baxa bilmirdi ki, qabağından qaçıb. O isə hırıldayırdı. Dodaqları az qala qulaqlarının dibinədək uzanmışdı. Vahid bir ara çaşbaş qaldı. Fikirləşdi ki, bu nə deməkdir? Bəlkə, Əsədin ona qarşı acığı soyuyub? Bəlkə, kini-qəzəbi ürəyindən çıxıb. Bəlkə, onunla düşmənçilik işlətmək istəmir? Barışıq elan edir? Bunun hansı idi? Qabağında durub arsız-arsız dişlərini ağardan düşmən Əsəd idi, yoxsa dost Əsəd? Vahid bu fikir içində mat-məəttəl qalmışdı.

– Hə-ə! Yaxşı əlimə keçmisən! – Münasibətini, hansı mövqedə dayandığını, nəhayət, Əsəd özü bildirdi.

Vahid işini bildi. Hər cür hücum ehtimalına qarşı hazır idi. Qəfildən Əsəd üstünə gələndə başqa əlacı olmadı. Saman dolu çuvalını götürüb bunun üstə

tulladı. O da Əsədi heç tutmadı, ayaqlarının üstə düşüb geri tayanın dibinə dığırlandı.

– Bay, ayə, məni vurub yıxmışdın! – Əsəd güldü və buna əhəmiyyət vermədən keçib çuvalın üstə oturdu, qıçını da qıçının üstə aşırdı.

Vahid gördü ki, Əsəd onu ələ salır. Kəlləsinə dəyən qar yumrusu onu o vaxt camaat içində necə pərt eləmişdisə, yekə oğlan ola-ola Əsəd uşağa qoşulub onunla düşmənçilik işlədirdi. Amma indi özünü elə tutmuşdu ki, guya, onunla işi yoxdur. Vahid isə Əsədin bicliyini bilirdi. Bilirdi ki, o, üstündə oturduğu saman çuvalına arxayındır. Bilir ki, Vahid bunu burda qoyub getməz. Hə-ə. Canı onun əlindədir. Vahid, həqiqətən, çuvalını burda qoyub getmək fikrində deyildi. Əvvəla onu nə günlə doldurmuşdu. Əllərini saman aparmışdı, dırnağının altına tikan batmışdı. Çıxartmışdısa da yeri indi də incidirdi. İkinci bir tərəfdən evdə soruşsalar ki, gətirdiyin saman hanı? Onda nə desin. Necə desin ki, orda qoyub gəldim. Deməzlərmi niyə? Necə desin ki, Əsəd əlimdən aldı, ondan qorxdum. Yoox! Bu, Vahid üçün eyib olardı. Dost-tanış yanında utanardı. Yoldaşları ona gülərdilər. Qərənfilin də üzünə çıxa bilməzdi. Ümumiyyətlə, Vahidin hər xırda-para şeyə görə ıqqıldaya-ıqqıldaya, ağlaya-ağlaya valideynin üstünə gedən uşaqlardan zəhləsi gedirdi. Həmişə elələrini qınayırdı ki, kişi olun, cavab verə bilirsiniz, cavab verin, verə bilmirsinizsə, eybinizə kor olun.

Həyatda təsadüfi hadisələr çox olur. Amma bəzən elə yerinə düşür ki, deyirsən elə bunu kimsə bilə-bilə qəsdən eləyib. İndi bunların da aralarının belə gərgin, ziddiyyətli vaxtında saman tayasının «günlüyü» birdən şırp qırılıb Əsədin üstünə düşdü. Onun da nədən xəbəri vardı? Bu, yəqin ki, ağlına da gəlmirdi. Qıçını-qıçının üstündən arxayınca aşırıb hökümlü duruşu, oturuşu ilə Vahidə meydan oxuyurdu. Belə bir vəziyyətdə qəfildən uçqun olanda Əsədin qaçmağa qəti imkanı olmadı, lay-lay saman necə töküldüsə altda qaldı.

Vahid dəli olmadımı?! Əvvəlcə çaşıb qaldı. Bilmədi nə etsin. Belə şeyi gözləmirdi axı. Canını bunun əlindən qurtarmaq istəyirdi, gəlib belə oldu. Onu kiminsə qənimi tutdu. Vahidinsə indi ona canı yanırdı. Əsədə olan kini, qəzəbi bir andaca ürəyindən çıxmışdı. Hər şeyi unutmuşdu. Tez irəli atıldı, ikiəlli samanı eşib aralamağa, onu dağıtmağa cəhd etdi. Bu ara belini də donqarlandırıb balaca bir yumağa dönmüşdü. Tərpənişi, hərəkətləri elə cəld, elə iti idi ki, deyirdin canavardır. Saman laylarını gah sağa, gah sola elə dağıdır, elə yığanlayıb tökürdü ki, bunu adi adam, özü də uşaq hərəkətinə qəti oxşatmaq olmazdı. Vəziyyətin təhlükəli olması, qorxu hissi bu oğlana necə güclü təsir etmişdisə, onu adi halından çıxartmış, canavara döndərmişdi. Bu belə elədikcə Əsəd özü də saman-sumanın altında çapalayır, üstündən onları töküb çıxmağa cəhd edirdi. Nəhayət, o dikəlib qalxanda çox bərk qorxmuş Vahidin ürəyi yerinə gəldi və əllərini bir-birinə çırpa-çırpa dalı-dalı getdi. Bu bir anda elə bil o, dünyanın işini

görmüşdü. Bu dərəcədə yorulmuşdu, əldən düşmüşdü. Buna baxmayaraq, fikri-nəzəri yenə Əsəddə idi. Onu isə bu ara tanımaq mümkün deyildi. Elə bil başqa canlı-cinli idi. Qəbirdən xortdamışdı. Ağız-burun, qaş-göz, boyun-boğaz – heç nə görünmürdü. Hamısı bütüncə saman, çör-çöp, toz idi. Adam baxanda heyrət eləyirdi. Deyəsən, qorxduğundan bir az da özünü itirən təki olmuşdu. Qımıldadıqca təngildəyirdi. Görünür, ağlı qorxudan təhərlənmişdi. Bəs necə? Zarafat deyildi. Durduğun yerdəcə heç nədən işə düş. Hələ yaxşı ki, saman tayasının ucunun az hissəsi qırılıb düşdü. Bütün düşsə idi, altından çıxmaq olmazdı. Əsəd yüz özünü öldürsə də, yüz çapalasa da, çıxa bilməzdi. Elə oradaca canı çıxardı. Yaxşı qurtardı. Hələ çox cavan idi. Nə görmüşdü?! Yaxşı, gözəl vaxtlar, hadisələr hələ qabaqda idi. Qoy dava qurtarsın, gör necə toylar-şanlar olacaqdı. Xülasə, Əsəd birtəhər özünü ələ aldı və başladı üst-başının samanını çırpmağa. Pambıq sırıqlısının yaxalığından, boynundan xırda-xırda saman çöpləri canına – boğazına, döşünə-başına necə doluşmuşdusa, oğlan əl vurmağa belə ehtiyat edir, elə astagəl tərpənirdi ki, deyirdin əli-ayağı yoxdur. Vahid başa düşürdü ki, saman, qıl-qılçıq onu incidir. Oğlan ona görə belə tərpənir. Papağı da başından düşmüşdü. Saçları samandan sapsarı idi. Bütün bunlar – Əsədin ümumi görkəmi və astagəl tərpənişi birdən-birə Vahidin gülməyinə səbəb oldu. Oğlan nə qədər çalışdısa, gülməsin, mümkün olmadı. Bu gülüş onun daxilindən – ürəyindənmi, qəlbindənmi necə güclü bir həvəslə, hərəkətlə gəlirdisə, heç cür saxlaya bilmədi. Doğmaqda olan günəşin şüası kimi üzündən, gözündən, dodaqlarının arasından başlanıb çıxdığı üçündür ki, Vahid pıqqıldadı.

Dillənməyə, acığını büruzə verməyə Əsədə də elə bil belə bir bəhanə lazım idi.

– Nəyə gülürsən?! – Pal-paltarını, ağız-burnunun tozunu təmizləməkdənsə, yerindən tərpənib bunun ardınca düşdü. O qaçdı, bu qovdu. Əsəd əlinin ucu ilə də olsa orda-burda yaxınlaşıb Vahidin kürəyinə, başına bir-iki şapalaq da vurdu. Ancaq Vahid vecinə almırdı, buna əhəmiyyət vermirdi. Əsədin başına gələn hadisənin belə salamatlıqla qurtarmasına, bir az da onun belə gülünc vəziyyətə düşməsindən Vahid hələ də uğunub getmişdi. Axırı Əsəd yorulub dayandı.

– Zərər yoxdur, səndən xəbər alaram!

* * *

Evə gələndə gördü nənəsi, anası hazırlaşıb harasa gedirlər. Özləri də qara paltar geyiniblər, başlarına da qara kəlağayı örtüblər, üstündən qara çalma bağlayıblar, nəsə kefsizdirlər.

– Nə olub, ənnə?

– Qasım kişi ölüb, ay oğul.

– Ölüb?! – Vahidin gözləri bərələ qaldı.

– Hə-ə, ora gedirik.

Vahid yaman pis olmuşdu. Kişi gözünün qabağındaca idi. O gün bunu tanımamışdı. Demişdi ki, davadanmı gəlib? Fağırca kişi elə davanın fikrini eləyə-eləyə getdi. Vahid fikirləşdi ki, nə yaxşı onlara piltəlik verib. Yoxsa kişi işıq görməyib ölərdi. İndi o da bunun peşmançılığını çəkərdi. Ürəyinə salardı ki, yaxşı iş görmədim. Uşaq olmasına baxmayaraq, belə şeylərdə Vahid həssas idi. Bir adamın xətrini qırmaq istəməzdi.

Nəsə, bu ölüm hadisəsi onun ürəyini qabaqlar olduğundan da bir az artıq yumşaltmışdı. Hətta şinelini Əsədə verməməyinə peşman olmuşdu. İndi istəsə, verərdi. «Sağlığına qismət olsun, geyin», – deyərdi. Nəinki ondan, ümumiyyətlə, heç kəsdən heç nəyini müzayiqə etməzdi. Çıxarıb əynindən köynəyini də verərdi. Çorablarını da verərdi. Ehtiyacı olan adamdan heç nəyini əsirgəməzdi. Tikəsini bölüşərdi. Lazım gəlsə, özü yeməyib özgəsinə yedizdirərdi. Bu cür hislər keçirəndə Vahid həmişə qorqudlu əsgəri xatırlayırdı. O bunun üçün hər şeydə gözəl nümunəyə çevrilmişdi. Vahid bu kişinin haqqında o qədər düşünmüşdü ki, ona ən yaxın adamlardan da yaxın, doğmalardan da doğma olmuşdu. Elə gün olmurdu ki, o kişi haqqında bunların evində danışılmasın, xatırlanmasın. «Axırı xeyir şineli sənə verməsə, bu qış nə edərdin?!» – deyə nənəsi ona həmişə alqış eləyirdi. Özləri öz aləmlərində o kişini ilahiləşdirib qoymuşdular dağın başına. Elə bil o kişi nə çörək yeyir, nə su içir, nə yuxu yatır, eləcə baxır. Yan-yörəsinə, cəmi insanlara... görsün kimin nəyi əskikdir, nəyi çatışmır? Ondan sonra birinə paltar verir, birinə çörək verir, birinə su verir. Vahid bir dəfə yuxusunda, hətta görmüşdü ki, ona qəşəng papaq da verir. Əsgər papağı. Qabağı ulduzlu. Səhər duracaq yuxusunu söyləmişdi. Nənəsi demişdi ki, yaxşı yuxudur, ay oğul, papaq ucalıqdır. Baş ucalığı. Ümumiyyətlə, həmin kişi Vahidin xəyalında, düşüncəsində onu həyatda gördüyündən də bir az artıq səmimi, mehriban, qayğıkeş canlanır, bütün hərəkətilə, ağlı ilə, adamlara münasibətilə, gördüyü işlərlə seçilir, fərqlənirdi. Vahid uşaq olsa da, bunu qiymətləndirə bilirdi. Onun üçün hər bir şey eliyərdi. Nə tapşırıq versə, yerinə yetirərdi. Mümkün olmayan şeyi də çalışırdı mümkün eləsin. Desə idi gecə yatma, keşiyimi çək, yatmazdı. Desə idi belində daş daşı, daşıyardı. Desə idi ki, yayın cırhacırında mənə qar tap, tapardı. Onun fikrincə, yenə də bu kişinin yaxşılığının əvəzini çıxa bilməzdi. Onun üçün nə eləsə az olardı. O, elə bir adam idi ki, canlara dəyərdi. Əvəzi yox idi. Ona görə də haqqında tez-tez danışırdılar. Arvad, uşaq, qoca-qoltaq – hamı onunla maraqlanırdı. Hamı görmək istəyirdi. Vahidi evdə qınayırdı ki, bəs adını niyə öyrənməmisən? Kimlərdəndir? İşi-peşəsi nədir? Bunları öyrənmiş olsa nə vardı?! Gedib görmək olardı. Bunlar da nəsə bir şeylə onun yaxşılığının altından çıxardılar. Borclu qalmazdılar. Həm də elə

bir xeyirxah, qayğıkeş adamla dost olmaq, arada bir gediş-gəliş yaratmaq xoş olardı. Vahid bu barədə neçə dəfə nənəsinə demişdi:

– Qoy atam gəlsin, deyəcəm gedək onu axtarıb tapaq.

Belə nikbin söhbətlər nənəsinin xoşuna gəlirdi:

– Allah ağzından eşitsin, ay oğul.

– Qonaq da çağırarıq, ənnə.

– Niyə çağırmırıq?! Heyvan kəsərik. Yuxa yayıb tökərəm. Canın üçün, onun gəlişinə toy da çaldırram.

Nənəsinin arzularına havadar çıxmasından Vahid şənlənərdi, bu qonaqlığı, məclisi bir az da təmtəraqlı etmək üçün başqa şeylər də təklif edərdi:

– Aşıq da çağırarıq, ənnə.

– Çağırarıq, dərdin alem.

– Atamın dostu aşığı.

– Hə-ə. – Nəvə nə deyirdisə, nənə razılaşırdı.

Həqiqətən, yuxarı dağ kəndlərində onların bir aşıq dostları vardı. Davadan qabaq hərdən gəlib-gedərdi. Daha doğrusu, yuxarı, aşağı burdan ötəndə onlara dəyməmiş olmurdu. Bir dəfə sazlı-sözlü qonaq yenə gəlmişdi. Yeyib-içib bir az dincələndən sonra atası demişdi:

– Bir az çalıb oxusana, kefimiz açıla.

O, sazı köynəyindən çıxarıb dınqıldatmağı ilə qonum-qonşunun tökülməsi bir olmuşdu. Sonra da camaatın ağzı açılmışdı. Elə olmuşdu ki, ev ağzınacan adamla dolmuşdu. Uşaqlar sərçə təki pəncərələrin qabağına yapışmışdılar. Saza-söhbətə elə diqqətlə qulaq asırdılar ki, deyirdin mərəkəyə dür tökülür.

Bax, davadan qabaq Vahid belə şeylər görmüşdü. Toylarda, nişanlarda camaatın çalıb-çağırdığını, oynadığını görmüşdü. Daha başqa şey görməmişdi. Ölən, itən, ağlayan görməmişdi.

... İndi Qasım kişinin evindən ağlaşma səsi gəlirdi.

Səhəri gün Qasım kişinin dəfninə Vahid də getdi. Nənəsi demişdi ki, gələrsən. Uşaq, böyük hamı gəlsin ki, – demişdi, – kişini basdırmağa adam olsun. O zaman ən qorxulu şeylərdən biri bu idi ki, öləsən, yerdən götürənin olmaya. Çünki hamı davada idi. Geridə arvad-uşaq qalmışdı. Bir də qoca-qoltaq idi.

Doğrudan da, Qasım kişinin həyətində elə sən deyən yığnaq yox idi. Arvad-uşaq, bir də beş-onca qoca kişi idi. Bunlar da elə idilər ki, çəliklə zorla yeriyirdilər. Bir irəli gedəndə, bir də geri gedirdi. Demək, Vahidin gəlməsi mütləq lazım idi. Yəqin ki, meyiti qaldıranda kömək etmək, əl yetirmək lazım gələcək. Burası vardı ki, Vahid hələ uzaqdan gördü ki, «dostu» Əsəd burdadır. Əlləri sırıqlısının cibində dambat-dambat dayanıb. Vahid onu görəndə yavaşıdı, istədi getməsin, yarı yoldan qayıtsın. Bəs nənəsinə sonra nə deyəcəkdi? Həm də yaxşı deyildi. Hərə bir şeyə görə getməsə, necə olardı? Qasım kişini kim dəfn elə-

yərdi? Belə fikirləşən Vahid heç nəyə fikir vermədi, əsl kişi təki camaatın yanına getdi. Gözləmək olardı ki, Əsəd indi düşəcək Vahidin üstünə. Əlindən yanıqlı idi. Dünən hayıfını almaq istəmişdi, mümkün olmamışdı. Üstəlik pis vəziyyətdə qalıb pərt olmuşdu. Rəqibini üstünə güldürmüşdü. Bu ona elə yer eləmişdi ki, Əsəd indi də özünə gələ bilmirdi. Az qalırdı Vahidi tutub boğazını cücə boğazı təki üzsün. Ancaq görünür, fikirləşdi ki, bura yeri deyil, hamı onu qınayar. Deyirlər ki, yekə kişi ola-ola uşağa qoşulub. Həm də məsələni açıb ağartmaq istəmədiyi üçün hələlik səsini çıxartmadı. Özünü elə apardı ki, guya, arada-bərədə heç nə olmayıb. Vahid də sakitləşdi. Sonra da başı kişinin dəfninə qarışıb onu tamam unutdu. Qəbiristanlıqdan qayıdanda isə necə oldusa hamıdan dala qalıb yanaşı oldular. Bunu Vahid istəməsə də qaça bilmədi. Gedə-gedə qabağa baxsa da, Əsəd kirimişcə dedi:

– Yadında saxla, bu hayıfı səndə qoyan deyiləm. Qartopunun içinə daş qoyacaq, sonra yumrulayıb bərkidəcəm. Sonra da təpənə ilişdirəcəm. Elə eləyəcəm təpən qozdansın, beynin laxlasın.

Sözündən, yanıqlı danışmasından Vahid belə başa düşdü ki, o vaxt Əsədin başı qozdanıbmış. Ona görə açıqca qan-qan deyir. Vahidi bağışlamaq, günahından keçmək fikri yox idi. Gördüyü, tutduğu işin, cinayətin ağırlığını Vahid elə bil bütün ağırlığı ilə indi başa düşdü və pis oldu. Onun üçün vəziyyət bir az da çətinləşdi, gərginləşdi. Görünür, o zəhrimarın içərisində, həqiqətən, daş var imiş! O qədər acıqlı olub ki, yerdən nə götürdüyünü də bilməyib. Kim bilir, bəlkə də, elə bütüncə daş imiş. Qara qəmbər imiş. Hələ yaxşı ki, başını yarmayıb. Yarsa, Vahidin işi şuluq olardı. Dartıb ağzını cırardı. Dünən Əsəd onu yaman girəvəyə salmışdı, saman uçmasa, aşının suyunu verəcəkdi. Bu, gözünün qabağına gələndə Vahidi yenə gülmək tutdu, amma dodaqlarını büzüb özünü birtəhər saxladı. İstəmədi işi gəcinə çəksin. Başa düşürdü ki, bu ona xeyir verməz. Ümumiyyətlə, Vahid Əsədlə münasibətini, korlamasına çox peşman olmuşdu. Uşaq olsa da o, hər şeyi başa düşürdü. Başa düşürdü ki, müəyyən mənada ondan asılıdırlar. Onların bir çox işləri ondan keçir. Bax, əmək günləri ona baxır. İstəyərdi yazardı, istəməzdi yazmazdı. Vahid hardan biləcəkdi?! Kolxozdan azdan-çoxdan bir şey alanda kağızını o yazardı. Belə fikirləşən Vahid Əsəddən bir az ehtiyatlanıb yumşaqlıqla dedi:

– Mən qarın arasına daş qoymamışdım. Yəni qəsdən qoymamışdım. Bəlkə, təsadüfən düşüb.

– Qoymamışdın?! – Əsəd onun ağzını əyirmiş kimi danışdı. Vahidi tərs-tərs süzdü. Yəni yalan deyirsən, gözüyün içinəcən yalan deyirsən.

Vahid danışmadı. Əsədin sakitləşməsini gözlədi. Əsas qərarı bu idi ki, barışsınlar. Ona nəsə pislik edə biləcəyindən möhkəmcə qorxuya düşmüşdü. Bir şey axtarırdı ki, Əsədlə dil tapsın, onu qılıqlasın, aralarını düzəltsin. Hə. Nələri

ortaq düşmüşdü. Ondan sonra hər kəs öz işi ilə məşğul olardı. Bu öz işində olardı, o da öz işində. Heçləri ayrı, köçləri ayrı. Bu hissin, fikrin təsirindən idi ki, Vahid bir ara dedi:

– İndi verirəm şineli.

– Nə?! – Əsəd qıyqacı yenə onu süzdü. – İndi neynirəm onu?! Köhnəldib mitilini çıxardıbsan, gödəldib zibilini.

Vahid etiraz etdi:

– Köhnə niyə olur, təptəzədir.

Bu da rişxəndlə dilləndi:

– Bə təzədirmi?! – Bununla bərabər, Əsəd istədi ki, elə Vahid deyən olsun. O, sözünü təsdiq eləsin. Şinel, həqiqətən, təzə qalmış olsun. Köhnə görkəmini, qiymətini, şöhrətini özündə saxlamış olsun. Kaş elə olsun. Şinel üstündə elədikləri mübahisədə bu məğlub olsa da olar, amma şinel elə həmişəki şinel olsun. Bütün bunlardan açıqca hiss olundu ki, Əsəd yenə komsostavski şineli geyinmək həvəsindən qalmayıb. Onda yenə gözü var. Yeganə sevimli paltarının əlindən çıxmaq təhlükəsi olsa da, məcburiyyət qarşısında qalmış Vahid şineli yenə təriflədi:

– Elə bilirsən heç geyilməyib. – Vahid canının dərdindən birinin də üstünə beşini qoyurdu.

Əsəd dilini nırçıldatdı. Amma üzünə xoş bir ifadə gəlmişdi. Vahid Əsədi şirnikdirmək üçün dedi:

– Gödək gəlməz, sənə yaxşı olar.

– Ə-ə, – Əsəd tamam suyuldu. – Onda evə gedəndə gətirərsən geyib baxaram.

Söz vermişdi, aparmalı idi. Başqa çarəsi yox idi. Evdə də demədi ki, birdən razı olmazlar, biabır olar. Əsədlə araları tamam dəyər. Qaş düzəltdiyi yerdə vurub gözünü tökər. İkinci bir tərəfdən şineli elə-belə peşkeş vermirdi. Əli aşağı olan adam olsa, verərdi. Əvəzində heç bir çürük qoz da almazdı. Amma bundan nə alsa, halal idi. Çünki Əsədgilin dolanışığı yaxşı idi. Evlərindən tez-tez firni çörəyinin ətri gələrdi. Bunlar isə ili-isti ilə güclə dolanırdılar. Unları da, deyəsən, qurtarmaq üzrə idi. Nənəsi, anası azuqə məsələsində çox götür-qoy eləyəndilər. Əsas qayğıları bu olardı ki, köhnə taxılı elə işlətsinlər ki, təzə taxıla çatdıra bilsinlər. Bunlar uc-uca gəlməsə, işlər şuluq olardı. Ac qalardılar. Heç olmasa yaz gəlib pencər çıxsaydı, birtəhər dolanardılar. Ümumiyyətlə, dolanma çətin idi. Vahid şinelini Əsədə həm də bu səbəbə verirdi. Bir bunun yaxşı geyməsilə iş aşmırdı. Nənəsi, anası, bacıları ac olsa, Vahid bir şinel yox, üst-üstdən ikisini də geyinsə, canı qızmazdı. Bütün bunları nəzərə alan Vahid istədi komsostavski şineli səliqə ilə qatlayıb qolunun üstə alsın və onu aparıb Əsədə versin.

Vahid onlara gələndə Əsədin gözləri pişik gözü tək işıldayırdı. Axırı ki, istədiyini əldə eləmişdi. Axırı ki, Vahidin əlindən dartıb şineli almışdı. Vahid

uşaqlığıynan onun hərəkətinə təəccüb eləyirdi. Camaat nə hayda idi, o nə hayda?! Hamı aclığında, çılpaqlığında idi. Hamı müharibəyə gedənlərinin dərdini çəkirdi. Hamı dava haqqında düşünürdü: bircə tez qurtarsın, biz qələbə çalaq, faşistlərin kökünü kəsək. Hamı bu cür böyük qayğılarla yaşayırdı. Hamı ümumi işə kömək etməyə çalışırdı. Geyim-kecim, yaraşıq gəzən yox idi. Köhnədən-küşküldən hərə bir şey geyinirdi, əsas bu idi ki, soyuq olmasın. Üşüməsinlər. Xəstələnib ailədə kiməsə aval olmağı heç kəs istəmirdi. Hətta yaşlı adamlar da ayaqlarını yerə möhkəm basırdılar ki, yıxılmasınlar, bu qoca vaxtlarında da işə-gücə yarasınlar. Bunun azarından bəziləri, hətta xəstələnəndə də yatmır, canlarını dişlərinə tutub birtəhər dözürdülər. Bu fikirdə idilər ki, yatsalar, daha pis olar, ağırlaşarlar. Qasım kişiyə dəyməyə gedəndə həmişə deyərdilər ki, dur ayağa, naxoşluq səni üstələyincə sən onu üstələ. Gözünü qorxut ki, sənə yaxın gəlməsin.

Əsədin isə başı hələ havalı idi.

Əsəd şineli əvvəlcə özündən bir azca uzaqda, gözü bərabərində tutub bir o yanına, bir bu yanına baxdı, təzəliyinə-köhnəliyinə diqqət yetirdi. Gördü, həqiqətən, pis deyil, onun dediyi qədər də xarab olmayıb. Yaxşı şey belədir. Nə qədər işlənsə də, yenə xalisliyini saxlayır. Əsəd şineli geyinəndən sonra da hər yerinə fikir verdi. Yaxasına, ətəyinə, çiyinlərinə... Qızılı düymələri yerində idi. Əsədin könlünü açdı. Odur ki əynində şinel xüsusi bir sevinc, fərəh hissi ilə diqqət yetirə-yetirə otağın ortasında hərlənirdi. Heç davadan gəlib əynində qanuni bu cür paltar olanlar belə eləmirdilər. Özlərini belə dartmırdılar. Bu isə dava bir yana qalsın, heç əsgərliyin üzünü görməmişdi. Bəlkə, elə buna görə də Əsəd əyninə komsostavski şinel geysə də, Vahidə heç maraqlı gəlmirdi. Əksinə, çox maraqsız görünürdü. Hətta Vahid bir də hiss elədi ki, o, qabağındaca əynində komsostavski şinel olan Əsəd fır-fır fırlanır, bu isə ona baxsa da, qorqudlu əsgəri görür. Bunun əvəzində o, bunun gözünün qabağında canlanır. Buna Vahid o qədər şad oldu ki, həqiqət olsa, sözsüz, daha çox sevinərdi. Belə bir vaxtda, Vahidin fikrinin başqa yerə qaçdığı bir zamanda Əsəd ondan soruşdu:

– Yaxşıdırmı, ə? Mənə necə durur?

– Yaxşı. – Vahid fikri başqa yerdə ola-ola başını tərpətdi.

Bu ara qapı açıldı, qonşuları tat Ələkbərin qızı Südabə onlara gəldi. Bunlar anaları tərəfdən qohum düşürdülər. Anaları ya əmiqızı idilər, ya da... Nəsə qohumluqları çatırdı. Həm qonşu olduqlarına, həm də qohumluqlarına görə axşamadək bir-birlərinin evində idilər. Ələk aparırdılar, sac gətirirdilər. Bir yerdə kirkirə çəkirdilər. Beləcə çox yaxın idilər. Bu cür yaxın olduqlarına, tez-tez bir-birlərini görmələrinə baxmayaraq, Əsəd tat Ələkbərin qızı Südabəni görəndə əynində komsostavski şinel qızın qabağına getdi:

– Nə təhərdir, a Südüş?

Südabə içəri girəndə onu elə bil görməmişdi. Amma ola bilməz ki, o boyda adamı gözüyün qabağındaca görməyəsən. Yəqin, sadəcə olaraq geyiminə diqqət yetirməmişdi. İndi oğlan öz dili ilə deyəndə istər-istəməz baxdı. Komsostavski şinel geyməsindən qürrələnib açılan Əsəd isə bu gümanda idi ki, qız onun əzəmətli, möhtəşəm görkəmindən hayıl-mayıl olub qalacaq, şinelin ona son dərəcə yaraşmasını deyəcəkdi. O isə soyuqqanlılıqla:

– Bilirsənmi, elə paltar var ki, onu hər adam geyə bilməz, – dedi.

Südabənin sözü əvvəlcə ona çatmadı. Hikkə ilə soruşdu:

– Niyə?

– Başa düşmədin? – qız oğlanı diqqətlə süzərək başını buladı.

– Yox. Xahiş edirəm izah elə.

– Ona görə ki, o adi paltar deyil. Formadır. Ən əvvəl o paltarı geyinmək hüququ qazanmalısan. Sonra... ona görə də bunu gedib orda geyinmək lazımdır. Bura gələndə də camaatın qabağına çıxmağa üzün olsun.

Əsəd elə bilirdi ki, qız onu komsostavski şineldə bazburutlu görüb ağlı başından çıxacaq, onun yar-yaraşığına vurulacaq. Ürəyində and içib deyəcək ki, ölsəm, yerin payıyam, qalsam, bunun. Bu isə gör nə danışırdı. Əsədin buna acığı tutdu və hirsindən özünü saxlaya bilməyib:

– Sən nə qanırsan? – Etinasız şəkildə qıza əlini yellədi.

– Təkcə sən qanırsan. – Qız da cavabını verib getdi.

Ondan sonra Əsəd bir oyun çıxartdı ki, Vahid bütüncə məəttəl qalmışdı. Şineli soyunurdu, geyinirdi, soyunurdu, geyinirdi. Bir dəfəmi, iki dəfəmi, üç dəfəmi. Gah orasına baxırdı, gah burasına baxırdı. Axırda soyunub Vahidin üstə tulladı.

– İstəmirəm, apar get, – dedi.

Vahid isə bayaqdan öz aləmində şinelin əvəzində bir-iki pud taxılı belinə alıb evlərinə aparırdı. Aparıb evin ortasında belindən yerə düşürmüşdü. Təntənə ilə deyirdi:

– İstəyirsiniz yarma çəkin, xaşıl bişirin, istəyirsiniz aparıb dəyirmanda üyüdüm, çörək bişirək.

Evdəkilər məəttəl qalmışdılar ki, bu nə taxıldır? Vahid bunu hardan alıb. Bu ara nənəsinin nəzərləri onun əyninə dikilmişdi və təkidlə soruşurdu:

– Ədə, şinelin hanı?

– Şineli neynirsən? – Bu da gülə-gülə cavab verirdi. – Özün demirdinmi, ki əsas qarındır, qarın tox olanda adam üşüməz. Mən də elə elədim ki, heç birimiz üşüməyək. Həqiqətən də, bu, Vahidin xoşuna gəlirdi. Ona görə də Əsəd şineli onun üstə atanda çox pis oldu.

– Niyə istəmirsən? Verirəm geyin daa? – dedi.

Əsəd əlini yellədi:

– Ey, mən ona görə geyirdim, o da belə deyəndən sonra nəyimə lazımdır.

* * *

Vahid ilk əvvəl Südabəni qınadı, onun hərəkətlərini, sözünə sərhəd qoymamağını günahlandırdı. Bu barədə fikirləşib-fikirləşib sonra da bu qənaətə gəldi ki, günah elə Əsədin özündədir. Niyə? Ona görə ki, qız o sözü, bəlkə də, pisliklə demirdi. O cür başa düşdüyündən deyirdi, Əsədin xeyrinə deyirdi, ona yaxşı münasibət bəslədiyindən deyirdi ki, əsgərliyə getməyə-getməyə, davada olmaya-olmaya komsostavski şinel geyib camaat arasına çıxıb özünü biabır eləməsin. Uşaq-muşağı özünə güldürməsin. Kəndin rəhbər işçilərindən olsa da onu elə lağa qoyarlar ki, bilməz başını harada gizlətsin. Hə-ə. Əsəd üçün eyib idi, çox eyib idi. Südabə onu yaxşı başa saldı, ancaq Əsəd başa düşmədi, əksinə, «sən nə qanırsan» – deyib onu təhqir etdi. Bu sözdən sonra qız onu bağışlayarmı? Çətin. Bu məsələ Vahid üçün sınmış şüşənin sonradan bir-birinə bitişdirilməsi kimi çətin oldu. Çarə yalnız bir ona qalırdı ki, Əsəd qızın ayağına getsin, səhvini boynuna alsın, ondan üzr istəsin. Bunu da gərək oğlan özü eləyəydi. Səhvini anlayıb eləyəydi. Amma o bildiyini atasına verən deyildi. Şineldən də necə əl çəkdi, Vahid başa düşə bilmədi. Bir də fikirləşdi ki, yaxşı ki, belə oldu. Daha bundan sonra arxayınca şinelini geyinə bilərdi. Vahid duruxdu. Bəlkə, bu şineli geyinmək ona da olmaz. Bəlkə, onun üçün də yaxşı deyil. Bəlkə, buna görə onu da qınayırlar. Deyirlər ki, əsgər deyil, amma əsgər şineli geyinir. Hələ bir camaat arasına da çıxır. Bunu ürəyinə elə saldı ki, demək olar, pencər təki sıxıldı. Sonra da fikirləşdi ki, axı mənim nə təqsirim var. Şineli oğurlamamışam, yaxud satın almamışam. Neynim ki, mənə bağışlayıblar. Özü də gör kim bağışlayıb. Davadan gələn bir əsgər. Deyib: «Geyin, sənə soyuq olmasın, sənə dəyən soyuq qoy buna dəysin». Bəs o bilmirdimi ki, bunu o geyinə bilər, yoxsa bilməz. Ola bilməzdi bilməsin. Hə-ə. Demək uşaqlar geyinə bilərlər. Həqiqətən də, Vahid ayrı, Əsəd ayrı. Əsəd ondan böyükdür. Əsgərliyə gedən vaxtıdır. Demək o, əsgər gedə bilər. Bu formanı da o, orda geyinməlidir. Bu barədə beləcə ciddi bir şəkildə düşünüb yenə öz üstünə gəlirdi ki, o hələ uşaq hesabındadır. Əsgərlik yaşı çatmayıb. Ona görə də bu şineli geyinmək üçün eyib deyil. Bununla bərabər, Südabənin Əsədə dediyi sözdən, tənbehdən ürəyinə xal düşüb geyinmirdi. Uşaqlar tez-tez soruşurdular:

– Ə, şinelini niyə geymirsən?

Pis havalarda da Vahid çiynini atıb deyirdi:

– Mənə soyuq deyil.

Bir dəfə uşaqlardan kimsə dedi:

– Mən bilirəm niyə geymir.

– Niyə geymir?

– Saxlayıb ki, əsgərliyə gedəndə geysin.

Düzü belə şey ağlına gəlməmişdi. Amma əsgər getmək söhbətindən xoşlandı. Bax, bu əsgər gedirdi. Aparıb hamılıqla yola salırdılar. Nənəsi ağlayırdı,

anası ağlayırdı, bacıları ağlayırdı. Bu isə, əksinə, dişlərini ağardır və onlara acıqlanırdı ki, niyə ağlayırsınız? Axırı ki, xəyalən görüşüb yola düşürdü. Bir də qayıdan başını xəyalında canlandırırdı. Budur gəlir. Yolda da özü kimisinin birinə rast olur. Bu da o dəqiqə şinelini çıxardıb ona verir:

– Apar, gey, – deyir. – Qoy sənə dəyən soyuq ona dəysin.

* * *

Qabaqlar sayğacının səsi az qala kəndin o başından eşidilirdi. Vahid kolxoz idarəsinə gedib bir az kənardan fikir vermiş və görmüşdü ki, Əsəd sayğacı daha əvvəlki təki şaqqıldatmır. Həvəssiz, kirimiş çəkir. Yəni səsi çıxmasın, eşidilməsin, onun burda olduğunu bilməsinlər. Açıqca hiss olunurdu ki, Əsəd adamlardan qaçır. Səbəbi Vahid üçün o qədər də aydın deyildi.

Bir dəfə o, kolxoz idarəsinin qabağında meydanda dayanıb pəncərədən içəri – Əsədin işləməsinə baxırdı. Bu ara Əsəd çevriləndə bunu gördü və ona əl elədi:

– Bura gəl! Bura gəl! – dedi.

Vahid içəri gircək soruşdu:

– Sayğacda çəkə bilirsən?

– Yox. – Vahid başını buladı. Sayğacı harda görmüşdü. Evdə bişməmişdi, qonşudan gəlməmişdi. Dana-buzov otarmaqdan Vahidin başı açılırdı ki.

– Gəl səni öyrədim, – Əsəd ona təklif etdi. – Asan işdir.

– Nəyimə lazımdır? – Vahid yaxasını kənara çəkdi. Elə bil Vahidini adına yalnız heyvan otarmaq yazılmışdı.

– Dünyanın işini nə bilmək olar. Birdən lazımın oldu. – O da gümana danışdı. Sonra da elə-belə sözünə əlavə etdi. – Mən gedəndə yerimə sən işlərsən.

– Sən hara gedirsən? – Vahid xəbər aldı.

– Mənmi?

– Hə-ə.

Duruşundan hiss olundu ki, Əsəd demək də istəyir, deməmək də. Axırı ürəyi durmadı:

– Gedəcəm, Vahid, gedəcəm, – dedi. – Özü də birbaşa davaya gedəcəm. Burda qalsam, öllləm.

Vahidgilin inəklərindən biri yelinləmişdi. Bu gün-sabah doğacağına evdə hamı sevinirdi. Ağartısız dolanmaq mümkün deyildi. Qatıq-süd olanda uşağın ağzı yığılırdı. Çox şey onunla başa gəlirdi. Bu gün-sabah yaz gəlib pencər bitəndə onu qovurmaq üçün yağ lazım idi, sarımsaq döymək üçün qatıq gərəkdi. Heç nə olmayanda belə ağartı ilə yola gedirdilər. Elə hesab eləyin ki, camaatı saxlayan, qapılara düşməyə qoymayan mal-qoyun idi. Ona görə üstlərində əsirdilər. Doğana yaxın az qalırdılar tövlədə yatsınlar. Vahidin nənəsi də tövlədən

əl çəkmirdi. Tez-tez gəlib baxırdı ki, bilmək olmaz, buzov tərs gələr, xəzinədə boğular. Belə şeyləri Vahidin nənəsi yaxşı bilirdi. Bir axşam Zərri arvad əlində çıraq tövləyə getdi, ancaq geri qayıtmadı. Gözlədilər. Aradan təxminən bir saatdan çox vaxt keçirdi. Arvad gəlib çıxmadı. Əslində, evdəkilər onun özünə görə daha çox narahat olurdular. Yaşlı arvad idi. Eşikdə-bacada büdrəyib yıxıla bilərdi, dura bilməyib yerindəcə donardı, yaxud tövlədə mal-heyvan vurardı. Hətta bilmək olmaz, oğruya-əyriyə də rast ola bilərdi. Qəfildən üstlərinə çıxsa, arvadı vurub öldürə bilərdilər. Oğruda-əyridə əzəldən insaf olmayıb. Vicdanlarını itirdiklərinə görə onun-bunun malına-heyvanına göz dikirlər. Belə-belə şeylər ağıllarına gəldiyi üçün yerlərində tıncıxdılar. Axırı anası durub:

– Ədə, dur bir gedək görək nənən necə oldu? – dedi.

Gələndə gördülər çırağı yanına qoyub yerdəncə oturub. Tövlədə bir az bəri genişliyə bağlanmış inəyə baxır. İnək də narahat halda irəli, geri gedir. Vahid ona fikir verməyib anasından qabaq dilləndi:

– Ənnə, burda niyə oturmusan? Niyə evə gəlmirsən?

– Siz niyə gəldiniz?! İnək doğacaq, mən onu gözləyirəm.

– Doğacaq? – Vahid yenə anasından qabaq dilləndi və inəyə baxdı.

Zərri arvad qayğılı nəzərlərini heyvandan çəkməyərək:

– Həə, görmürsənmi, – dedi, – quluncunu qırıb.

O gecə inəkləri, həqiqətən, doğdu. Vahid də həmin gün məktəbdən başqa bir yana getmədi. Dam-daşla, inəklə-buzovla, ot-ələflə məşğul oldu. Tövləni yarım saatdan bir təmizləyirdi ki, heyvanların altı quru olsun. Xüsusilə təzə doğmuş inəyin. Vahid uşaq olsa da, başa düşürdü ki, onun qulluğunda gərək durasan. Boğazına baxasan ki, ağartısı olsun. Yoxsa heç buzovunu doyuzdura bilməz. Gətirib inəyin axuruna təzə yay otu doldururdu. Bunun hesabına o biri mallar da kef çəkirdilər. Vahid elə etməzdi ki, birinə versin, o birinə yox. Burası vardı ki, bununkunu bir az artıq eləyirdi. Heyvanlar fısıldaya-fısıldaya otdan yeyib quyruqlarını buladıqca bu da tövlədən heç eşiyə çıxmaq istəmir, onlara tamaşa etməkdən, ora-bura tökülən cəngə-cəngə otu götürüb təzədən heyvanların qabağına atmaqdan ləzzət alırdı ki, bulağa su gətirməyə getmiş anası gəldi ki, bəs bilməzsinizmi Əsədi əsgər aparırlar.

– Doğrudan?! – Vahid özünü saxlaya bilməyib qəribə bir heyrət və təəccüblə, həm də sevinclə soruşdu.

Xəbəri oğlunun həyəcanla qarşılamasına anası elə bir məna verə bilməzdi. Çünki məsələdən halı deyildi. Onların nə söhbəti olmuşdu? Vahidin bu işə nə dəxli vardı? Tamam xəbərsiz idi. Odur ki başının hərəkəti ilə Əsədin əsgər getməsini soyuqqanlılıqla təsdiq etdi.

Tövlədən çıxmayan, körpə buzovdan ayrılmaq istəməyən Vahid bir azdan hər şeyi nənəsinin ümidinə qoyub götürüldü. Əsədgilə gəldi. Qapıdan içəri

gircək gördü otaq adamla doludur. Arvad, uşaq, qoca-qoltaq... Taxtda oturmağa da yer yox idi. Qonum-qonşu hamı gəlmişdi. Vahid evi belə qələbəlik görəndə bildi ki, Əsədin əsgər getməsi düzdür, bildi ki, bu yığnaq boş-boşuna deyil.

Əsəd Vahidin qapının ağzında dayandığını görüb gülümsəyərək əlini qaldırdı və:

– Bura gəl, – deyə yaxın dostu, yoldaşı kimi yanına çağırdı.

Vahid bilmədi necə getsin. Bir az xəcalətlənirdi. Düşünürdü ki, onun əsgərliyə getməsinə o bais oldu. Belə ki onun şineli olmasaydı, məsələ belə şəkil almazdı. Vahid bir yandan sevinirdi ki, Əsəd qızın sözünü götürmədi, dil altda qalmadı, qoçaq, qorxmaz olduğunu sübut elədi. O biri yandan pis olurdu ki, hər halda, çətin səfərdi, davaya gedir, güllənin qabağına.

Əsəd isə vecinə almırdı. Belə olduğuna sevindiyi üçündür ki, Vahidin üzünə baxıb şən-şən qımışırdı. Hətta Vahid yanına gedəndə Əsəd onu yekə-yekə kişilərin içərisində lap yaxın otuzdurub, qolunu da çiynindən aşırdı, xətrini çox istədiyini bildirdi. Canıyananlıqla, qayğıkeşliklə dedi:

– Belə sənə soyuq olar, şinelini niyə geyməmisən?

– Eşitdim səni əsgər aparırlar. Şinel yadıma düşmədi.

Vahidin belə deməyi Əsədin xoşuna gəldi. Özündən razı-razı:

– Hə-ə. Gedirəm, qaqaş, – dedi.

Əsəd Vahidə heç vaxt qaqaş deməmişdi. İndi necə oldusa dedi. Sözü ilə bərabər, özünü də elə tutdu ki, elə bil tay-tuşdular. Halbuki aralarında yaş fərqi var idi.

Vahid maraqlandı:

– Necə oldu ki, səni aparmağa razı oldular? Axı sənin kağızın vardı.

– Eh! – Əsəd lazımsız bir şey kimi ağzını burdu, – gözlərinin qabağında cırıb tulladım. Dedim sağlamam, vəssalam, şüdtamam! – Sonra şən halda fikrə getdi. Bəlkə də, bu ara özünü əsgərlikdə, əsgər paltarında təsəvvür etdi. Ayağında əsgər çəkməsi, başında əsgər papağı, əynində də şinel. Görək Südabənin ondan sonra sözü nə olacaq. Birdən ağlına haradan düşdüsə:

– Vahid! – dedi.

– Nədir?

– Gəlsənə sənin şinelini dərziyə verək. Qoy əyninə binəm düzəltsin. Onsuz da mənim getməyim hələ üç-dörd gün çəkəcək.

Əsədin təklifi Vahidin ürəyindən oldu. Doğrudur, o, şineli az geyinməmişdi. İndinin özündə də geyirdi. Ancaq çox vaxt əlacsızlıqdan geyinirdi. Çünki əyninə böyük idi. Vahid onun içində tökülüb itirdi. Qolu-başı iri olduğundan özünü həmişə nəsə dağınıq, boş hiss eləyirdi. Amma onu əyninə binəm düzəltsələr, qiyamət olardı. Odur ki Vahid tez razılaşdı.

– Verək.

Səhəri gün tezdən Əsəd bir at altında, bir at da yedəyində qapıda görünəndə Vahid məəttəl qaldı. Sən demə yalan demirmiş, həqiqi sözü imiş, gəlmişdi ki, rayon mərkəzinə getsinlər. Nə üçün getdikləri də məlum idi.

– Ayə, şineli gey, yoxsa atın üstündə donarsan.

Həqiqətən, sazaq idi. Heç eşiyə çıxılası hava deyildi. Köhnədən yağmış qarın ərintisi həyətin ora-burasında, yolların çala-çuxurunda şüşə təki donub cür-bəcür formalarda parıldayırdı. Həm də Əsədin əmrinə tabe olmamaq mümkün deyildi. Xətrinə dəyə bilərdi. Deyərdi ki, mən buna görə əlləşirəm, bu da...

Məsələdən Vahidin anası, nənəsi də xəbərdar idi. Əvvəlcə razı olmamışdılar ki, şineli söküb birdən xarab eləyərlər. Həm də yadigardır. Əl vurmaq yaxşı deyil. Sonra isə fikirlərini dəyişmişdilər ki, yadigar olanda nə olar, əyninə binəm olsa, yaxşı geyər. Odur ki indi eşiyə çıxıb Əsədə dil-ağız elədilər:

– Öləm qabağında, ay Əsəd, niyə belə zəhmət çəkirsən. Saxlayardı yekələnəndə geyərdi.

– Eh! Bu yekələnənə kimi o köhnələr, – deyə Əsəd əlini yellədi. – Bir də dünya beləmi gedəcək? Dava qurtarandan sonra o qədər paltar olacaq ki, camaat bilməyəcək hansını geysin.

– Sağ ol, ay oğul, sağ ol. Allah ağzından eşitsin. – Vahidin nənəsi bu xoş sözlər üçün Əsədə təşəkkür etdi. İndi hamı sözlə də olsa bir ürək-dirəyə möhtac idi. Yoxsa adamın qəlbi qubarlanırdı. Müharibənin həyatı belə çətinə salması qocaları xüsusilə sarsıtmışdı. Onlar bəzən dünyanın düzələcəyinə inanmaq istəmirdilər.

Əsəd Vahidi tələsdirdi:

– Bir az cəld ol. Tez gedək ki, başqa işlərimiz də var. Poçtalyon Sayad da nasazdır, yalvardı ki, poçtu da gətirin.

Belə deyəndə Vahid daha da həvəsə düşdü. Poçtalyonun işindən xoşu gəlirdi. Ona elə gəlirdi ki, dünyada bir yaxşı sənət varsa, o da poçtalyonluqdur. Elə gün olmurdu ki, adamlar poçtalyonun yolunu gözləməsinlər. Uzaqdan görəndə qabağına qaçırdılar. Poçtalyon Sayad axsaq bir kişi idi. Anadangəlmə qıçını çəkirdi. Mayıf Sayad deyirdilər. Mayıf sözü Vahidgilin kəndinin adamlarının dilində əlil mənasında işlədilirdi. Amma həmin poçtalyonun axsaq olmasına baxmayaraq, ayaqdan yüngül adam idi. Hər gün gedib rayon mərkəzindən poçtu götürür, ordan pay-piyadaca 5–6 kilometrlik yolu geri qayıdardı. Yola təsadüfən arabadan-maşından düşsə, minər, düşməsə, bir qıçının üstü qıyıllaya-qıyıllaya, əyilə-əyilə gələrdi. Davadan, gedənlərdən ya qəzetdə, ya da məktublarda bir xoş xəbər oldumu, bu Sayad olardı düz-əməllicə adam. Yəni elə bil qollarına qanad taxıb elə iti gedərdi ki, ağsaqlığı da bilinməzdi. Üzü-gözü də gülərdi. Və bu gülüş içərisində dişləri elə ağarar, elə ağarardı ki, deyərdin təbaşirlə ağardıbsan. Amma elə ki xoşagəlməz nəsə bir hadisə olub, bir pis

xəbər var, onda özü büruzə verməməyə çalışsa belə bacarmaz, qaşqabağı yer süpürərdi. Hər hansı bir adamdan xəbər-xətər olmayanda, məktub gəlməyəndə bu, məktub gözləyənlərdən də pis olardı. Bilməzdi qabağına qaçan, ondan məktub istəyən adama nə desin, ona necə təskinlik versin, nigarançılığını, intizarını necə azaltsın, necə dağıtsın. Hər gün Vahidgilin qabağına çıxanda da eləcə kefsiz olur, uşağın üzünə baxa bilmirdi. Nə etsin? Məktub oldu, bu gətirmədimi?!

Vahid şinelinin əyninə düzəlməsindən çox, poçtu gətirəcəklərinə sevindi. Bəlkə, elə atasından, dayılarından məktub oldu. Şineli geyinib qollarını, boynunu geri çirmələdi, gəlib atı aldı. Minmək üçün eyvanın qabağına, örüyün dibinə çəkdi və yüyənini geri qatladı. Qoşalama kənddən çıxıb rayon mərkəzinə yol alanda hardan yadına düşdüsə, Vahid dedi:

– Əsgərlikdə şəkil çəkdirib göndərərsən.

– Yaxşı.

– Şineldə çəkdir.

– Yaxşı.

– Mən də onu burda hamıya göstərəcəm.

Əsəd o dəqiqə bildi ki, Vahid hamı deyəndə kimi deyir. Razılaşdı.

– Göstər.

Hiss olundu ki, Vahidin bu söhbəti Əsədin ürəyincə oldu. Bəlkə də, belə bir şeyi ağlından keçirirdi, amma deyə bilmirdi. Yaxşı oldu ki, Vahid açdı. Çünki o, Əsədin Südabədən xoşu gəldiyini hiss eləmişdi. Qızın bircə sözünə görə də könüllü əsgər gedirdi. Hərbi komissarlıqda ayağını dirəmişdi ki, məni aparın. İndi Vahid ona «şəklini hamıya göstərəcəm» deyəndə Əsəd başa düşdü ki, qızı nəzərdə tutur.

Aralarında başqa şey barədə söhbət olmadı. Buna imkan da yox idi. Əsəd tələsirdi. Qayıdıb bu gün kolxozun hesabdarlığını Qədir kişiyə təhvil verməli idi. O, davadan qabaq briqadir işləmişdi. Haqq-hesab işindən az-çox başı çıxırdı. Həm də başqa yerlərdə işləməyə bunun imkanı yox idi. Evi aşağı dərə məhəlləsində idi. Yer qar olanda evdən bayıra çıxmırdı. Amma bu son vaxtlar qar əriyəndən hərdənbir qoltuq ağacları ilə orda-burda görünürdü. Burası da vardı ki, oturaq iş idi. Gəlib çax-çuxunu eliyərdi. Xülasə, Əsəd kəndə tez qayıtmalı idi. Bu təhvil-təslim işini də görüb qurtarsın ki, bəlkə, o biri gün getdilər.

Bunlar rayon mərkəzinə çatanda idarələr, müəssisələr açılmışdı, iş başlanmışdı, amma paltar tikilən yer bağlı idi. Ağzından bir yekə qıfıl asılmışdı.

– Pa-hoo! – Əsəd dilxor olduğunu bildirdi. Amma sonra yaxınlaşıb kimdənsə soruşdu: – Ay xala, deməzsənmi bura nə vaxt açılacaq?

– Paltar tikdirən varmı ki, açılsın, ay oğul. – Arvad bikef cavab verdi. – Hamı libasdan düşdü. Hamı əynini-başını satıb qarnına verdi. Qaldı dərzilər... Onlar da gediblər davaya, başına dönüm. İndi kim bilir nə vaxt açılacaq.

Arvad elə bədbinliklə danışdı ki, Əsəd pis oldu. Ömründə bir dəfə Vahid üçün bir iş görmək istəyirdi, o da  baş tutmadı. Ancaq onun kefini pozmamaq üçün özünü şən tutdu.

– Zərər yoxdur, qaqaş, – dedi, – bunu belə gey, özüm davadan qayıdanda sənin əyninə binəm şinel gətirim ki, aləm tamaşasına dursun.

Vahid bir söz deməyib qımışdı.

* * *

Elə pis hava idi ki, adamın zəhləsi gedirdi. Nə yağırdı başa düşmək olmurdu. Nə qar kimi qar idi, nə də dolu kimi dolu. Elə bil göydən şəkər tozu tökülürdü. Xırda-xırda donmuş qar dənələri yerə düşdükcə səs çıxarır, ümumi xışhıltı-şırıltı əmələ gətirirdi. Həm də havada dəhşətli bir tutqunluq var idi. Bir az uzağı görmək mümkün deyildi. Qışın bozumtul pərdəsi kəndi hər tərəfdən kəsib onu elə bil səbətə salmışdı. Vahidin həmişə getdiyi, buzov otardığı dolaylar, dərələr, təpələr, kol-koslu, meşəli yamaclar, kövşənliklər, hamısı bu səbətdən kənarda qalmışdı. İndi  onlar nə görkəmdə idilər bilinmirdi. Tutqun, qarlı hava elə bil özü qəsdən bu kəndi ətraf aləmdən təcrid eləmişdi. Nəsə bir qəsdi-qərəzi var kimi onu ayrı salmışdı, təkləmişdi. Hər yerdən əlaqəsini kəsmişdi. Ancaq bu boş şey idi. İndiyədək bu tərəflərdə necə dəhşətli əyam olmuşdusa, təbiət qarla, yağışla əsib-çırpıb necə şiddət etmişdisə, yenə də bu kəndin adamlarını mağmın qoya bilməmişdi. Necə qoçaq adamlardısa öz əsas işlərindən heç vaxt qalmamışdılar. Bir əllərini  od, o biri əllərini su eləyib işlərini görmüşdülər. Elə olmuşdu ki, neçə gün qar burub tökmüş, orda-burda tar bağlamış, yenə bu kənddən bir yana gedən getmiş, gələn gəlmişdi. Göydən yerə quş yumurtasından da iri dolu tökmüş, yenə malını, heyvanını çöldə qoyub evinə qaçan olmamışdı. Leysan gəlib göydən yerə carrananda dam-daşa axmasın, həyət-bacanı basmasın deyə arvad-kişi bütün elliklə əllərində bel selin qabağına çıxmış, nə zəhmətlə, zillətlə qayırdıqları, qurduqları balaca bir it damının, toyuq hininin də uçulub dağılmasına yol verməməyə çalışmışdılar. Təbiətlə adamların arasında elə bil acıq, ziddiyyət var idi. O zor elədikcə bu da acığa düşür, təbiətin bütün hücumlarına qarşı sinə gərirdi. Şaxta adamı kəsirdi. Hamıya isti bucaq xoş gəlirdi.Tərslikdən Əsədin əsgərliyə getməsi gəlib belə bir qarlı-çovğunlu günə düşmüşdü. Buna baxmayaraq, onu yola salmağa xeyli adam gəlmişdi. Əsədin özü kənddə evdən eşiyə çıxanda adamların qabağına duraraq əllərini qaldırmış, yəni «dayanın» demişdi. Sonra da:

– A başınıza dönüm, ay sizə qurban olum, – deyərək yağlı dil tökmüşdü ki, bəlkə, geri qayıdalar. – Belə havada hara gedirsiniz?! Getməyin qayıtmağı da var axı. Nə fərqi var, ora olmasın, bura olsun. Gəlin görüşək ayrılaq. – Əsəd birinə əl vermiş, birini qucaqlayıb öpmüş, digərini bağrına basmışdı. Hamı ilə

beləcə görüşüb qurtarandan sonra dönüb getmiş, geri boylananda görmüşdü yenə dalınca gəlirlər. Görmüşdü başqa cür mümkün deyil.

– Bay sənin! – Məcbur olub əylənmişdi.

Vağzalda da adam əlindən tərpənmək olmurdu. İynə atsan, yerə düşməzdi. Bütün gedənləri bura yığmışdılar. Üstlərilə adam da gedirdi. Əsəd ordan hələ rayon mərkəzində icazə alıb evlərinə gəlmiş, ordan da bura qaçmışdı. İndi bütün gedənlər üç-bir, beş-bir baş-başa yığışıb söhbət edir, başlarından aşağı tökülən narın qara qəti məhəl qoymurdular. Ağlayan kim, əllərini qoynuna qoyub qəmli-qəmli dayanan kim, şən zarafatlar edib baş qatan, adamların qəm-qayğısını dağıtmaq istəyən kim. Amma bu axırıncının da xeyri yox idi. Ümumi götürdükdə hamının qəlbindən qara qanlar axırdı. Danışıb-gülən adamlar da el üzəri edirdilər. Gedənlərin, qalanların ürəklərini qana döndərməmək üçün edirdilər. Gedən üçün də, qalan üçün də çətin idi. Çünki ayrılıq idi. Ayrılıq heç vaxt yaxşı olmur. Nigarançılıq, intizarlı qalmaq adamı sarsıdır. Əsədin anası Gülüzar arvad sozalana-sozalana, kövrələ-kövrələ oğluna tapşırırdı:

– Sana qurban olum, ay Əsəd, tez-tez məktub yaz. Gözümüzü yollarda qoyma. Əsas yerinə çatan kimi bir parça kağızdı, yaz tulla.

– Yaxşı. Yazacam. Yaxşı. – Əsəd söz verir, onu bir qolu ilə çiynindən qucaqlayıb özünə sıxır, beləliklə, anasını soyuqdan qorumağa, sakitləşdirməyə çalışırdı.

– Özünü də soyuqdan qoru. Əynini həmişə qalın elə.

– Yaxşı.

– Nə də lazım olsa, yaz, göndərək.

O birilər də yəqin ki, bu cür sözlər deyirdilər. Tapşırırdılar ki, tez-tez məktub yazsınlar, məktubun arasını kəsməsinlər. Ən əsası da bu idi ki, özlərinə yaxşı baxsınlar. Bunu dönə-dönə deyirdilər ki, qulaqlarında sırğa eləsinlər. Gedənlərin əksəriyyəti də cavanlar idi. Hiss olunurdu ki, çoxu on səkkizə təzə keçib. Çünki yaşı düşən adamları çoxdan aparmışdılar. İndi yerdən qalxdıqca, böyüyüb əsgərlik yaşına çatanda götürüb aparırdılar. Belə getsə, adam qalmazdı. Belə getsə, kənd-kəsək bütüncə boşalardı. Qalardı bircə arvadlar, qızlar. Hayana baxardın zənən xeylağı görərdin. Evdə də, eşikdə də, çöldə də... Görəsən, onda necə olardı? Bu barədə düşünəndə arvadların özləri dəhşətə gəlirdilər. Lap yayın cırhacırı olsa da bu fikirdən üşürgələnib «Allah, sən bizi o günə qoyma» deyə özləri özlərini qucaqlayıb bürüşərdilər. Bu müharibə çovğunu necə fəlakətdirsə, necə hiddətlə əsib çırpırdısa, hər kəndə, hər evə süpürgə çəkməmiş əl çəkmirdi. Hər yerin nizamını pozmaq, viran qoymaq istəyirdi. Onun dəhşətini uşaqlar da başa düşürdülər. Uşaqlar da hər əziyyətə qatlaşır, hər çətinliyə sinə gərir və elə böyük işlər görürdülər ki, bəlkə, bu fəlakətin qarşısını ala bildilər. Bəlkə, çərxi dönmüş bu dünyanı düzəldə bildilər.

Əsədi əsgərliyə yola salmağa Vahid də getmişdi. Yanından əl çəkmirdi. Qabaqlar heç ağlına gəlməzdi ki, onlar belə dostlaşa bilərlər. Həqiqətən, elə idilər ki, aralarından su keçmirdi. Görünür, nəyə görəsə bir-birlərindən xoşu gəlmişdi. Heyif ki, ayrılırdılar. İndicə qatarın Əsədi alıb aparacağını fikirləşdikcə Vahid pis olur, kefsizləyirdi. Əsəd özü də içəridən bunu çəkirdi. Amma üzə salmamağa çalışır, qəsdən danışır, gülür, məzəli söhbətlərilə, şən hərəkətlərilə adamların kefini açırdı. Arada dönüb Vahidə dedi:

– Sən heç danışmırsan, qaqaş.

– Nə danışım? – Vahid çiyinlərini atdı.

– Necə nə danışım?! O yandan-bu yandan.

– O yandan-bu yandan nə danışım? – Vahid o yanda, bu yanda bir şey olmadığını bildirdi.

Həqiqətən, bu ara Vahidin ürəyi tamam boşalmış kimi idi. O, sağa, sola, aşağı, yuxarı uzanıb gedən, soyuq qarlı havada gah bozaran, gah da buz təki işıldayan relslərə baxaraq fikirləşirdi ki, bunlar haracan belə uzanıb gedirlər? Bunlar harda qurtarırlar? Bəlkə də, o, bununla dostu Əsədin haracan gedəcəyini bilmək istəyirdi. Əlbəttə, başa düşürdü ki, yaxına da apara bilərlər, uzağa da. Amma birdən ağlına gəldi ki, bu yol elə, bəlkə də, düz dava olan yerə gedir. Onda aparıb adamları birbaşa ora tökəcəklər? Düşən kimi əlinə tüfəng alıb girəcəklər səngərə? Ondan sonra başlayacaq atışma? Partapart. Partapart. Şıqqıltıdan, gurultudan qulaq tutulurdu. Biri orda ölürdü, biri burda ölürdü. Qan su yerinə axırdı.

Vahidə elə gəldi ki, Əsədi elə birbaşa davaya aparacaqlar. Deyəcəklər, könüllü gəlmisən, indi vuruş. Özü-öz yanından Vahid elə narahat oldu ki, az qaldı bütün camaatın içərisində xəbər alsın ki, tüfəng ata bilirsənmi? Nişan ala bilirsənmi? Görməmiş olsa da, Vahid bilirdi ki, müharibədə ancaq belə-belə şeylər lazım olur. At, vur, öldür. Daha orda başqa şey lazım gəlmirdi. Ora daha qurmaq, tikmək, düzəltmək yeri deyildi. Yalnız öldürmək tələb olunurdu. Görəsən, Əsəd belə şeydə nə təhər idi? Vahid özü indiyədək bir dəfə də olsun tüfəng atmamışdı. Taxta tüfəngi olmuşdu, amma həqiqi tüfəngi olmamışdı. Atdığı daş olmuşdu, ağac olmuşdu. Quşa atmışdı. Dana-buzova atmışdı. Quzuya-çəpişə atmışdı. Onu da elə-belə atmışdı. Amma öldürmək üçün adama atmamışdı. Orda isə atırlar, bir-birlərini öldürürlər, güllə ilə öldürürlər, bomba ilə öldürürlər. Yerdə adamlar çalxalanırdı. Göydən od ələnirdi. Vahid uşaq idi, belə şeylər görməmişdi. Davadan gələnlər isə bundan da betərini söyləyirdilər. Vahid indi bütün bunları gözünün qabağına gətirir, eşitdiklərini xəyalında canlandırır, bu dava deyilən şeyin nə olduğunu, adamların bir-birini nə üçün öldürdüyünü, sanki, başa düşmək istəyirdi. Belə fikirləşdikcə Vahid də bürüşür, bürüşür, ilbiz təki yığılır, şinelin arasında bir qırıq olurdu. Hə. Bu gün şinelini geyinmişdi.

Geyinməmək mümkün deyildi. Soyuqdan donub ölərdi. Amma geyindiyinə yaman peşman olmuşdu. Çünki yanından ötüb-keçən ona diqqət yetirməmiş olmurdu. Görürdülər ki, bir parça uşaq ola-ola böyük adamın şinelini geyinib. Hətta ona baxıb gülümsəyənləri də olurdu. Ona görə Vahid özünü özününkülərin arasında gizlədir, elə yerdə dururdu ki, onu görməsinlər. Əsədi də yola salmağa az adam gəlməmişdi. Öz ailə üzvlərindən, qohum-əqrəbadan əl-ayağı tutan gəlmişdi. Vahid bu stansiyada çox olmuşdu. Müharibədən qabaq da olmuşdu. Bir yaz tətilində məktəblilər yığışıb ekskursiyaya getmişdilər. İlk dəfə Vahid şəhəri onda görmüşdü. Onda sirkə getmişdilər, zooparka getmişdilər. Şəhər yaman xoşuna gəlmişdi. Sonra həyat birdən-birə elə dəyişilmişdi, elə pisləşmişdi ki, indi o xoş günlər, gəzintilər ona yuxu təki gəlirdi. Elə bil heç olmamışdı. Sonra isə bu stansiyada davaya adam yola salmağa gəlmişdi. Atasını, dayısını, o birini, bu birini yola salmağa gəlmişdi. Vahid bu stansiyada bir vay-şivənlər görmüşdü ki. Xüsusilə qatar yola düşüb stansiyadan aralanan zaman arvadlar hönkürüşəndə, qatarın dalınca qaçışanda neçələrinin ürəyi gedir, taqətdən düşüb yerlərində qalır, kiminsə qoltuğunda güclə yeriyirdilər. Atası əsgər gedəndə Vahid də ağlamışdı. Özünü nə qədər möhkəm tutmağa çalışmışdısa, mümkün olmamışdı. Atası başını bulayaraq:

– Pa-ho – deyə bunu ona nöqsan tutmuşdu. – Gözləməzdim, oğul bala, səndən heç gözləməzdim. Bəs kişi də ağlayarmı?!

Atası belə dedikcə o daha kövrəlmişdi. Üzünü yana çevirib yumruğunun yanı ilə gah bu gözünü, gah da o biri gözünü sıxcalamışdı. Atası onun çiyinlərindən qucaqlayıb özünə sıxmış, əlini boyun-başında, kürəyində gəzdirmişdi:

– Yaxşı, oğul bala, yaxşı. Mən bu evi sənə tapşırıb gedirəm, sənsə özünü bəbə kimi aparırsan. Yaxşı deyil axı.

Camaatın başı gedəninə, qalanına necə qarışmışdısa, qatar birdən fit verib böyürdən çıxanda hamının ürəyi düşdü. O, onnan qucaqlaşıb öpüşdü, bu onnan qucaqlaşdı öpüşdü. Əsəd Vahidi qucaqlayıb öpəndə isə pıçıltı ilə qulağına dedi:

– Şəkil mütləq göndərəjəm. Göstərməmiş olma.

Vahid o dəqiqə bildi ki, kimi deyir. Ümumi vəziyyətdən təsirlənib qanı qaralmış olsa da, bu sözdən qımışaraq başını tərpətdi:

– Baş üstə.

* * *

Bir dəfə kolxoz idarəsinin qabağında Əsədi yadına salıb fikrə getmişdi. Fikirləşirdi ki, bundan nə vaxt məktub alacam. Açanda görsün şəkil də var? Görsün əsgər paltarı ona necə yaraşır? Bu yerdə pərdənin açıq pəncərəsindən kimsə onu çağırdı:

– Vahid!

Vahid başını qaldıranda gördü kolxoz sədridir.

– Ə, bura gəl! – dedi.

Bu da getdi.

Sədr hürdür-mündür adam deyildi. Bir qədər tosqun, dolusifət bir kişi idi. Bitimindən yanlara qaçan qalın bığı da onu bir az şişman göstərirdi. Bığının forması ilə elə bil deyərdi: «Burda mənəm, Bağdadda kor xəlifə». Bunda bir hikkə var, bir hikkə vardı ki, forsundan yer cırılardı. Camaat qabağına çıxanda, yaxud elə idarənin özündə də rəhbər işçilərə məxsus bir əda ilə danışardı. Əlini belə vaxtlarda çox zaman irəli uzanmış şəkildə tutardı. Yəni yol göstərirdi. Bu yolla gedin. Onun əsl adı Xındı idi. Amma cavanlığından, bəlkə də, lap uşaqlıqdan ləqəb də qoymuşdular. Dəmbərçək Xındı. Özünü dartdığına, lovğa olduğuna görə ona belə ləqəb vermişdilər. Üzünə deməsələr də, elə-belə, dalda-bucaqda indi də deyirdilər. «Ayə, bu dəmbərçək Xındı camaatın başına yenə nə oyun açır? Amma üzünə söz demək, cavab qaytarmaq qəti şəkildə olmazdı. Çünki kişinin «vesi» var idi. Sözü keçirdi. O zamanın şanlı-şöhrətli sədri idi. Onun qabağına heç daş dığırlamaq olardı?! Adamı istəsə əlli-ayaqlı itirərdi. Qabaqcıl sədr olmasından, əzazilliyindən o qədər eşitmişdilər ki, görəndə bir az sısqa təhərliyinə baxıb deyirdilər:

– Budumu, ayə, sizin sədr?

– Hə-ə.

– Nə məzəli kişidir, ə, bu.

– Hmm. Sən eləliyinə baxma, bir elə də yerin altındadır.

– Yox, əşi?

– Hə-ə. Yaman çatdamış şeydir.

Həqiqətən də, elə idi. Dəmbərçək Xındı bəzən adamın gözünə elə yekə, elə nəhəng görünürdü ki, elə bil yerin altındakı hissəsi içəridən qalxıb böyüyür, hamıdan uzun olurdu. Özü də hələlik davaya getməmişdi. Gah deyirdilər yaşı keçib. Gah da deyirdilər ki, ona müvəqqəti saxlanma kağızı veriblər. Guya, o getsə, təsərrüfata rəhbərlik eləyən olmaz, kolxoz dağılar. Bunu dəqiq bilən yox idi. Ancaq fakt bu idi ki, getməmişdi. Hələlik qalırdı. Burası da vardı ki, getməməyinə baxmayaraq, deyirdilər ki, guya, Xındı kişinin davada xüsusi tankı var. Yəni o tankın pulunu bu verib, onun hesabına düzəldiblər. Bundan söhbət düşəndə uşaqlar bir-birlərinə deyirdilər:

– Ayə, görəsən orda Xındı kişinin tankını kim sürür?

Bir az fikirləşib uşaqlar çiyinlərini çəkirdilər ki, kim nə bilsin, əlbət, biri sürür.

Hər nə təhər, bax, elə bir böyük adam bu gün onu yanına çağırmışdı. Bu gedib onun qabağında kif-kirmiş dayananda o dedi:

– Bilirsənmi səni niyə çağırmışam? Çağırmışam ki, səni bir yaxşı işə qoyam.

– İşə?

– Hə-ə.
– Nə işinə?
– Fermaya.

Ferma deyəndə Vahid fikrə getdi. Bu kişi nə danışdığıdır?! Beş-üç dana-buzov otaran adam fermada o boyda təsərrüfatı idarəmi edə bilər. Bu, nə qoyun otara bilər, nə mal. Hamısı çöldə itib-batar. Biri çöldə qalar, birini canavar apa-rar. O, belə fikrə getdiyi yerdə sədr dedi:

– Səni ora qeydiyyatçı göndərirəm. Qaytanlı haqq-hesab dəftərin olacaq. Yazacaqsan nə qədər mal var, nə qədər qoyun var. Öləníni yazacaqsan, qalanını yazacaqsan. Bir də inəklərin südünü yazacaqsan. Gündəlik hər inək nə qədər süd verir. Alagöz inək bu qədər, qaragöz inək də bu qədər. Bundan pendir nə qədər oldu, yağ nə qədər oldu. Bildinmi?

Vahid quruyub qalmışdı. Bu, heç onun ağlına gəlməmişdi. Amma belə bir məsul işin ona tapşırılmasına ürəkdən şad olmuşdu. Bir az nəsə tutulub «hə», «yox»unu deyə bilmirdi. Sədr danışdı:

– Get evdə də nənənə, anana de. Amma mən məsləhət bilirəm. Həm də gedib dağda bir az gəzərsən.

– Yaxşı, gedim məsləhətləşim.

Eşiyə çıxanda birdən ağlına gəldi ki, bu, demək dağa gedəcək, arana gələ-cək. Dağın yolu da Qorqud kəndindən keçir. Davadan qabaqkı illərdə dağa gedəndə görmüşdü. İndi oralardan keçəndə ola bilsin şinel bağışlayan adamı görsün. Ola bilər. Vahid çox eşitmişdi: deyərlər ki, dağ dağa rast gəlməsə də, insan insana rast gələr. Dünyanın işini nə bilmək olar?! Bir də gördün ya dağ köçü, ya da aran köçü gözləmədiyin yerdə qabağına çıxdı. Arada-bərədə hələ heç nə yox idi. Vahid bu görüşə indidən sevinirdi. İndidən o eşqə düşmüşdü. Belə görüşəcəklər, belə danışacaqlar. Vahid sevincək evlərinə gəlib məsələni açdı. Razılıq verdilər ki, daha yekə oğlansan, nə olar, get işlə. Həm də Vahidin özünə görə yaxşı olardı. Neçə il idi aranda qalırdı. Dağ üzü görmürdü. Biçində, ot yığımında, xırmanda taxıl döyümündə qoyun-qoltuğuna qılçıq, pıtırqan dola-dola işləməkdən ağzı açıq qalırdı. İstidən bağrı bişirdi. Heç olmasa bu il gedib dağlarda gəzərdi. Böyrəyi bir az yağlanardı. Rəngi-ruhu durulub yanaqları qı-zarardı. Belə düşündükcə Vahidin fermaya işləməyə getməyə həvəsi daha da artırdı. Gəlib kolxoz sədrinə razı olduğunu bildirəndən sonra da oğlanın uçmağa qanadı yox idi. Bu gün, sabah məktəbdə dərslər qurtarcaq o, fermaya getməli idi. Belə razılaşmışdılar. Vahid yaylağa öz heyvanlarını və nənəsini də aparmaq istəyirdi. Buna icazə verərdilər. Amma nənəsi nəm-nüm eləyirdi. Gah dağda ona çətin olacağını söyləyirdi. Gah da həvəsi olmadığını bildirirdi ki, atan qızıl güllənin qabağında olsun, mən necə gedib o dağlarda gəzim?!

– Sən get, dərdin ürəyimə, – deyirdi, – mən də Allah qoysa gedənlər qayıdıb gələndən sonra gedərəm.

Vahid fermaya işləməyə getməyə hazırlaşırdı ki, ortaya başqa bir şey çıxdı. Dedilər, guya, rayondan əmr gəlib ki, məktəbdən bir neçə uşaq gətirsinlər. Biri dedi ki, guya, düşərgə açıblar, bu yay orda dincələcəklər. Biri də dedi ki, ə, nə düşərgəbazlıqdır, uşaqları hərbi toplanışa çağırırlar. Hər nə təhər, guya, gedəcək uşaqların adlarını da deyiblər. Filankəs, filankəs, biri də bu idi. Qara Omar oğlu Vahid. Bunu eşidəndə Vahid özü də təəccüb qaldı. Bu nə demək idi? Nə dincəlmək? Nə hərbi toplanış? İndiyədək belə şeylər yox idi.

– Ədə, ədə, ömrüm-günüm, olma səni də davaya aparırlar? – nənəsi ağlamsınmış üstünə gəldi.

Bu da altdan-altdan nənəsinə baxıb qımışdı. O, ürəyini yeyirdi ki, nəvəmi də aparırlar, bunun isə elə bil kefi gəlmişdi. Həqiqətən, Vahid vecinə də almırdı. Əksinə, çağırmaqları xoşuna gəlmişdi. Dincəlmək məsələsi ağlına batmırdı. Amma hərbi toplanış sözü nəsə bir az ayrı cür səslənirdi. Vahid daha fermaya getməli olmadı, indi də belə hazırlaşdı. Demişdilər ki, bir-iki dəst alt paltarı götürsünlər. Pencək götürsünlər. Üzlərini silməyə məhraba götürsünlər. Başlarında papaqları olsun. Belə-belə şeylər. Geyindiklərini geyinsinlər, geyinmədiklərini bir çantaya qoyub bellərinə alsınlar. Qalan şeyləri demişdilər özümüz verəcəyik. Yatmağa postel, atmağa tüfəng. Əsgərə özgə nə lazım idi?! Vahid bir istədi şinelini də götürsün. Orada görsünlər ki, bu, elə əsl əsgərdir, yalnız tüfəngi çatışmır. Ancaq utandı. Belə şey götürməyi deməmişdilər. Yayın günündə bu artıq olardı. Elə öz paltarınıca geyindi. Qolturmancı olan çantasını belinə alıb yola düşəndə gördü filankəs də gəlib, filankəs də gəlib, filankəs də. Onu yola salmağa elə çox arvad gəlib ki, Vahid utandı. Bilmədi necə görüşsün? Yola düşəndə bunlara nə desin? «Salamat qalın» desin. Yoxsa eləcə «sağ olun» desin. Əslində, bu elə çox da uzağa getmirdi. Deyirdilər ki, onlara hərbi təlimi elə rayonun özündə keçəcəklər. Bu, guya, bir növ hazırlıq təlimi idi. Belə söyləyirdilər ki, hər ehtimala qarşı bir az iri yaşlı uşaqları da hazırlayırlar ki, demək olmaz, müharibə uzana bilər. O zaman, əlbəttə, ehtiyat qüvvə lazım gələcək. Bunun qayğısına indidən qalmaq lazım idi. Əlbəttə, bütün bu işlərin, tədbirlərin nə üçün lazım olduğunu, ümumi vəziyyətin gərginliyini, şəraiti yaşlı adamlar başa düşürdülər. Bunu bütün dərinliyilə bilməsələr də, hər halda, uşaqlar da işlərin hələlik heç də yaxşı olmadığından xəbərdar idilər. Buna baxmayaraq, belə-belə şeylərdən elə bil xoşları gəlirdi. Vahid də onu yola salmağa gəlmiş arvadlara baxıb birtəhər olmuşdu. Elə bil, həqiqətən, əsgər gedirdi. Arvadların arasında Qərənfili də görəndə özünü itirdi. Onunla görüşmək, ayrılmaq oğlana çətin gəldi. Heç kəs olmasa idi, yenə hə. Bu qədər adamın gözü baxa-baxa bu ona necə əl uzatsın. Necə desin ki, salamat qal, mən getdim. Arvadların ağlına heç nə gəlmirdi. Amma oğlan öz yanından xoflanırdı. Elə bilirdi ki, bu qızdan onun xoşu gəldiyindən hamı xəbərdardır. Yaxud indi başa düşəcəklər ki, bunların

arasında nəsə var. Əslində, elə bir şey yox idi. Vahid isə o qədər utancaq və hər şeyi ürəyinə salan idi ki, xırdaca bir şeyi də şişirdib özünə yekə dərd eləyirdi.

Arvadlar gördülər Vahid utanır. «Bıy, dərdin alım, gedirsənmi?» – deyə özləri yaxın gəldilər, oğlanı qucaqlayıb bir-bir öpdülər.

– Bıy, aaz, a günü ağ olmuş, niyə gendə durmusan, yaxın gəlsənə, qonşunuz döymü? Özünüz də bir məktəbdə oxuyursunuz, – deyə arvadlar oğlanla görüşməyə qızı da təhrik etdilər.

Necə oldusa, bu cəsarət ona haradan gəldisə Vahid özü qızın qabağına getdi və:

– Salamat qal, – deyə əlini uzatdı.

Qız şirincə gülümsədi, o da əlini uzatdı.

– Yaxşı yol.

– Sağ ol! – Vahid qızın əlini xüsusi bir istiqanlılıqla sıxdı və bu qızın onun şinelini dizinin üstə alıb ətəyini qatlayıb tikdiyini xatırladı. Bu qız axşamadək onun gözünün qabağında idi. Məktəbdə də, həyətdə də belədən belə, elədən elə gedirdi. Amma o səhnə həmişəlik yadında qalmışdı. Qız şinelin ətəyini çoxdan tikmiş olsa da, onu həmişə xatırlayırdı. İndi də qızla xudahafizləşə-xudahafizləşə yenə o səhnə gözünün qabağına gəldi. Elə bil o vaxtdan bunun yol hazırlığını görmüşdü. Guya, pal-paltarına, üst-başına əl gəzdirmişdi ki, sonra əyər-əskiyi olmasın.

Vahid ən axırda son dəfə hamıya əl qaldırdı ki, yola salınma mərasimi bununla qurtarsın. Bu da işində olsun. Anası, nənəsi onu elə burdan, həyətdəncə yola salmaq fikrində idilər. Daha onunla rayon mərkəzinə getmək fikrində deyildilər. Hər halda, bilirdilər ki, onun getməyi elə-belədir. Həqiqi getmək deyil. Bilirdilər ki, aparıb bir az hardasa yaxın bir yerdə oynadacaqlar, onlara təlim keçəcəklər, sonra da buraxacaqlar evlərinə. Daha bu getməyin elə bir qorxusu, hürküsü yox idi. Bir o idi ki, hələ ana uşaqları idi. Hələ sən deyən bərkə-boşa düşməmişdilər. Qıraq yer görməmişdilər. Harasa gedib eləyəndə də bir-iki gün çəkmişdi. Amma indi deyirdilər ki, bir aya yaxın bunları saxlayacaqlar. Əlac nə idi?!

– Neyniyək? Canları sağ olsun, qoy getsinlər. – Yazıq arvadlar, nəhayət, hökumətin bu tədbiri ilə də razılaşmışdılar. Bunlar əlacsızlıqdan razılaşmışdılarsa, əksinə, uşaqların hamısı buna sevinirdi. Çünki bu, onlar üçün səfər idi. Gedib, hər halda, yerlər, adamlar görəcəklər. Həm də müəyyən şeylər öyrənəcəklər.

Bu ara bir də gördülər poçtalyon Sayad taytıya-taytıya onlara sarı gəlir. Özü də elə gəlir ki, elə bil bunlardan nəsə alıb tələsik qayıdacaq. Yaxınlaşanda gülə-gülə:

– A Vahid, sənə məktub var, Əsəddən gəlib, – dedi və əlini çantasına saldı.

Vahid sevincək özünü irəli atdı. Gör nə yaxşı oldu ki, getməmiş məktub aldı. Yoxsa yaxşı olmayacaqdı. Bəlkə, elə gizlin bir söz yazıb. Vahid zərfi tez alıb açdı. İçindən şəkil çıxdı. Əsədin şəkli. Özü də şineldə, ayaq üstə çəkdirmişdi. Burada elə qeyri-adi bir şey olmasa da, Vahid baxanda güldü. Nəyə gülürdü heç özü də bilmədi. Yəqin, ona gülürdü ki, bu yaxın vaxtlaradək adi paltarda olan Əsəd dəyişilib ayrı cür olmuşdu. Pambıq sırıqlı onu necə də pis göstərirmiş. Bədəninin yar-yaraşığını gizlədib eybəcər hala salırmış. Qarnını yekə tuturmuş. İndi isə Əsəd tamam ayrı cür olmuşdu. Şinel boyunu uca göstərirdi. Heç demək olmazdı ki, bu haman o Əsəddir. Yaxşı deyirlər ki, gözəllik ondur, doqquzu dondur. Şinel, həqiqətən, ona yaraşırdı. Elə bil əyninə biçilmişdi. Çiyinləri, yaxası, hər şeyi yerli-yerində idi. Toqqa ilə şinelin üstündən necə boğmuşdusa, deyərdin üzük keçər. Qız belinə oxşayırdı. Hə-ə. Bax, buna nə demişəm. Bax, bu, onun qanuni şineli idi. Bu, burda söhbəti gedən haman şinel idi. Əsədin geyinmək eşqində olan şinel. Vahid Əsədin şəklinə baxıb-baxıb, nəhayət, fikirləşdi ki, Südabənin indi sözü nə olacaq? İndi nə eyib tapacaq? İndi nə deyəcək? Vahid şəkli mütləq ona göstərməyi qərara aldı. Əsəd özü qəsdən göndərmişdi ki, Vahid də aparıb ona göstərsin. Qoy o, bilsin ki, Əsəd papaq altda qalan oğul deyil. Heç kəsin yanında gözü kölgəli olmaq fikri yoxdur. Nəyə desən Əsədin gücü çatar. Vahid dostu Əsədin şəklinə baxa-baxa belə fikirləşəndə arvadlar ordan-burdan əllərini uzadıb:

– Ədə, ver biz də baxaq, – deyirdilər.

Vahid özü doyunca baxandan sonra şəkli verdi.

– Hə-ə, alın, baxın.

Sonra da tezcə geri aldı, şəkli köynəyinin yaxa cibinə qoyub onlardan aralandı. Özünü elə göstərdi ki, daha çıxıb gedir. Amma yol üstü olsa da, həm də bərk tələssə də Vahid gizlincə qaçıb özünü Südabəgilə saldı. Yaxşı ki, qız evdə idi. Həm də tək idi. Vahidin isə məsələni uzatmağa heç cür imkanı yox idi. Onu məktəbin qabağında gözləyirdilər. Şəkli cibindən üsulluca çıxartdı və irişə-irişə qıza tərəf uzatdı.

– Ala bax, Əsədin şəklidir.

– Əsədin?! – Qız təəccüb etdi və şəkli alıb baxdı. Sonra nə qədər çalışdısa, axıradək özünü ciddi saxlaya bilmədi, şəklə baxa-baxa gülümsədi. O da bildi ki, Əsəd bunu qəsdən çəkdirib göndərib. Bilib ki, necə olsa qız görəcək.

– Mən getdim! Tələsirəm. – Vahid bu ara özü qəsdən şəkli qızda qoyub evdən çıxdı.

Südabə isə başını qaldırıb el üzəri onun ardınca:

– Ədə, əylən, şəkli də al, – deyə səsləndisə, Vahid dayanmadı, tappatap qaçdı.

* * *

Birinci gün Vahidgili hamama apardılar. Sıra ilə aparıb, sıra ilə də gətirdilər. Yalnız Vahid yox – kəndlərdən olan uşaqların heç biri indiyədək bu cür çimməmişdi. Ümumiyyətlə, hamam görməmişdilər. Heç vaxt hamamda çimməmişdilər. Anaları, nənələri bir qazan su qızdırıb yazda-yayda elə evin böyründəcə çardağın altda çimizdirmişdilər. Çimmək deyəndə də uşaqların başına ağrı uyurdu.

– Ədə, həftən keçib, bəri gəl çim! – Arvadlar acıqlanardılar. Yarızor, yarıxoş gətirib soyunduranda uşaqlar elə bürüşər, elə domuşuqlu durardılar ki, inanmazdın bunlar dərə çayında çimib, sonra da kərtənkələ təki daşlara uzanan dəcəllərdir. İndi isə əmr idi. Hamı çimməli, paltarını dəyişməli idi.

Soyunub ətcəbala bir-birinin ardınca hamamın çimilən yerinə girəndə əvvəlcə çaşıb qaldılar. Gördülər burda başqaları da var. Bunların yanında necə çiməsən? Utandıqlarından dal-dalı gedib az qaldı ki, geri çıxsınlar.

– Gedin, a bala, gedin çimin, – arxadan hamamçı kişinin amiranə səsi gəldi.

Məcbur olub təzədən irəli getməli oldular.

Tası doldurub isti suyu başlarından aşağı tökdükcə xoşlarına gəlirdi. Hələ arada buranın ictimai yer olduğunu yadlarından çıxarıb oynaqlaşdılar da. Bir-birlərinin üstünə soyuq su da tökdülər.

– Uşaqlar, sakit, yıxılarsınız, – yaşlı adamlardan kimsə səsini çıxardanda özlərini yığışdırdılar.

Hamamdan çıxıb qalacaqları yerə gələndə uşaqlar özlərini tam yaxşı hiss edirdilər. Nənəsi deyərdi ki, çiməndə adam yüngülləşir. O, həqiqətən, yüngülləşmişdi. Bircə bu arxadan gələn oğlan işləri korlayırdı. Belə ki sırada addımını düz atmayıb onun dabanını tez-tez basdalayırdı. Vahid çiyni üstə dönüb baxır, səsini çıxarmasa da, gözlərini ağardır, amma xeyri olmurdu. Üzünü qabağa döndərəndə yenə bunun dabanı gedirdi. Bir belə, beş belə, axırı dözə bilməyib geri dönüb ona acıqlandı:

– Ayə, korsanmı?!

– Səssiz! Səssiz! Sırada danışmaq olmaz. – O dəqiqə onları çimizdirməkdən gətirən adamın səsi eşidildi. Onun da qulağı elə bil darı dəlirdi. Bu da məcbur olub səsini içinə saldı. Amma ürəyində dabanını basdalayan oğlanı yanıdı: «Zərər yoxdur, dalda da əlimə düşərsən, səndən xəbər alaram».

Onların düşərgələri çox mənzərəli bir yerdə idi. Baxdıqca adamın xoşu gəlirdi. Rayon mərkəzindən bir azca aralı gözəl şam ağaclarının arasında qırmızı kirəmitli bir bina idi. Dağ döşündə tikildiyindən ikimərtəbəliyə oxşayırdı. Əslində, birmərtəbəli idi. Alt mərtəbə alçaq zirzəmi əvəzi idi. Ora odun yığmaq, müəyyən meyvə-tərəvəz qoymaq olardı. Dörd-beş otaqdan ibarət olan bu balaca imarət deyilənə görə keçmişdə bir bəyin olub. Hardasa onun başqa yerdə evi varmış. Amma yay vaxtı ailəsilə gəlib burda qalarmış. Havasını dəyişib, istira-

hət edib gedirmiş. Amma imarətinə baxanı varmış. Bütün il boyu ona nəzarət edirlərmiş. Ona görə də bina hələ də yaxşı qalırdı. İnqilaba qədər üstündən, divarından bir daş da düşməyibmiş. Sonra binanı meşə idarəsinə verirlər. O zaman binanı bir azca korlayırlar. Amma indi də pis deyildi. Bu il isə uşaqların ixtiyarına verilmişdi. Amma, deyəsən, uşaqları qayda-qanunla qəbul etməyə tam hazır deyildilər. Bunların yaşayış otaqlarını verməmiş, yerlərini, yurdlarını göstərməmiş hamama göndərmişdilər. «Gedin, çimin, gəlin, ona kimi hər şey hazır olacaq». Həqiqətən, bərk iş gedirdi. Ordan-burdan taqqıltı səsi gəlirdi. Biri mişar götürüb taxta kəsir, o biri çəkiclə işləyir, digəri qapı-pəncərələri yoxlayırdılar. İçəri dəmir çarpayılar, yorğan-döşək daşıyanlar da vardı. Uşaqları da belə tələsik hamama göndərməkdə məqsəd həm də vaxt tapıb kəm-kəsir işləri düzəltmək idi. Xülasə, bunlar qayıdıb gələndə hələ uzaqdan gördülər darvazanın qabağına iri hərflərlə nəsə yazıb vurublar. Yaxınlaşanda gördülər «Pioner düşərgəsi» yazılıb. «Bə deyirdilər hərbi təlim keçəcəklər» – deyə ürəyində düşünən Vahidin gözləri bərələ qaldı. Əgər cərgədə olmasaydı, yerindəcə quruyub qalardı. Qorxdu dabanını yenə tapdalayalar. Onun dərdindən qabağına baxıb addımladı.

* * *

Uşağın biri belə qaçır, biri elə qaçır, heç kəs bir yerdə dayanmaq istəmirdi. Hiss olunurdu ki, hamı sevinir, hamı qanadlanıb uçurdu. Bu fağırcaları da qınamaq olmazdı. Dava başlayanı belə şey görməmişdilər. İstirahətin nə olduğunu bilmirdilər. Məktəb vaxtı dərsdən çıxanda işə qaçmışdılar, işdən çıxanda dərsə. Xüsusi iş, ümumi iş hamısı bir-birinə qarışmışdı. Yəni evdə öz təsərrüfatlarında da çalışmış, kolxozun işinə də yüyürmüşdülər. Demək olar ki, boş vaxtları olmamışdı. Ayaqları altlarına yığışmamışdı. İndi düşərgə rəisi uşaqları bir yerə yığıb onlara müraciətlə deyəndə ki, düşərgəni ona görə təşkil etmişik ki, əsgər ailələrinin balaları növbə ilə gəlib dincəlsinlər Vahid təəccüb qalmışdı. Bu nə istirahət, nə dincəlmək?! Kənddə işləri tökülüb qalmışdı, bunlar burda necə dincələ bilərdilər?! Bəs bunlar hərbi təlim keçəcəkdilər? Bəs bunlara tüfəng atmaq öyrədəcəkdilər. Bəs bunlara əsgərliyi öyrədəcəkdilər. İndi isə aydın olur ki, onların hamısı yalan imiş, bura elə-belə, yeyib-yatmağa gəliblər. Vahid yeyib-yatmağa heç vaxt öyrəşməmişdi. Ona görə də bunu ağlına sığışdıra bilmirdi. Necə ola bilərdi ki, hamı orda işləsin, biri heyvan dalınca qaçsın, o biri ot çalsın, taya qursun, oraq çəksin, bu isə burda ayağını uzadıb yatsın. Belə fikirlər edən Vahid elə birinci gündən darıxmağa başlamışdı. Kənd-kəsək, iş yadından çıxmırdı. Fermaya işə çağırıldığını da xatırlayanda peşmançılıqdan dəli olurdu. «Nahaq yerəcə ora getmədim. İndi atın belində gəzirdim. Çobanlarla oturub-dururdum. Qoyun-quzunun mələşməsindən ləzzət alırdım». Dağ köçü, aran köçü, mal-davarı haylayıb aparmaq, irəli gedib dağılıb-itəninin qabağını qay-

tarmaq, dalda qalanının ardınca qaçmaq, tapıb gətirmək nə qədər fərəhli, ürəkaçan idi. Onun əvəzində burda bir yerdə o qədər otur ki, altından qara su çıxsın. Dama oyna, şaşki oyna, daha sabahın fikrini eləmə. Vahidə elə gəldi ki, camaatın bu vaxtında, ölkənin, dövlətin bu ağır vəziyyətində, belə bir şəraitdə uşaqlar üçün «yeyib-yatmaq yeri» təşkil etmək lazım deyildi. Ondan olsa düşərgəni bu saat dağıdıb hamıya «çıxın evinizə gedin, özünüzə iş-peşə tapın» – deyərdi.

Belə-belə fikir-xəyal edə-edə Vahid bir neçə gün burda birtəhər keçirdi. Düzü, yaman darıxırdı. Ürəyinə yatan elə bir iş də yox idi ki, başını qarışdıra. Əsas işləri, demək olar ki, yemək idi. Səhər, günorta, axşam. Hər üçündə də əməlli-başlı yedizdirirdilər. Hər günorta duru xörəkləri olurdu. Onun dalınca da başqa cür yemək verirdilər. Ətnən olurdu. Onun dalınca da bir stəkan kisel. Bu üçüncünün adını əvvəl-əvvəl çox uşaq bilmirdi. Sonradan öyrəndilər ki, kiseldir. Özü də xoşlarına gəlirdi. Hələ günorta yeməkdən sonra da bir saat yatırdılar. Yerlərindən duranda isə ya bir yerə yığışıb ordan-burdan söhbət edirdilər, ya da təbiəti seyr etməyə çıxırdılar. Özgə bir şey yox idi. Vahidin ürəyi partlamağa gəlirdi. Həmişə burdan vurub ordan çıxan, ağlı kəsən işin ardınca gedən oğlanı indi elə bil qəfəsə salmışdılar. Axırı bir gün dözə bilməyib düşərgənin rəisinin yanına getdi, narazı halda, yerə baxa-baxa:

– Mən getmək istəyirəm, – dedi.

Düşərgənin rəisi dazbaş kişi idi. Bir qulağının üstündən, o biri qulağının üstünə seyrək sarımtıl saçlar zolağı uzanmışdı. O da, deyəsən, nəyinsə fikrini edirdi. Əlindəki kağıza baxa-baxa çənəsini ovuşdurdu. Gecdən-gec soruşdu:

– Hara gedirsən?

– Evimizə.

Rəis elə bil onu yaxşı eşitmədi:

– Hara?

– Evimizə.

– Niyə, a bala?

– Elə. Evimizi istəyirəm. Özü də mən pioner deyiləm. Məni səhv gətiriblər. Daha yekəlmişəm.

– Hi... hi... hi... – Rəis güldü. – A bala, səni kimdir buraxan, gedəsən? Kişi mənim gönümü alar. Bilirsən, bu düşərgə şəxsən birinci katibin təşəbbüsü ilə yaradılıb. Deyib cəbhədə indi işimiz yaxşıdır, qoy burda da əsgər ailələrinin uşaqları bir az dincəlsinlər. Onlara qayğı göstərilsin. Sizi də bizə voenkom verib. Göstəriş də belə olub ki, davanın ilk günündən cəbhəyə gedənin, ailəsi böyük olanın, evində qoca adam olanın uşağı olsun. İndi mən səni necə buraxa billəm, ağlını başına top elə, oğul, get uşaqlarla oyna. Evinizdə nə var, nəyə gedirsən? Qaldı sənin pioner olmamağın... Onun zərəri yoxdur.

Vahid rəisin yanından çıxıb həyətdə gəzinə-gəzinə indicə ona deyilən sözləri öz-özlüyündə götür-qoy etməyə başladı. Çox fikirdən sonra başqa çarə görmədi. Çünki xoşluqla olmurdu. Düşərgənin rəisinin sözündən belə başa düşmüşdü ki, icazə ilə çıxıb getmək müşkül işdir, qadağası bərkdir. Bir o qalırdı ki, qaçsın. Çantasını da götürüb qaçsın. Ancaq necə qaçsın ki, görən-bilən olmasın? Vahid öz-özlüyündə ölçüb-biçdi və bu qərara gəldi ki, ən çətini buradan çıxanacandır. Görsələr, əlbəttə, qaytaracaqlar. Ona görə işini elə tutmaq istəyirdi ki, pis vəziyyətdə qalmasın. Düşərgənin ərazisindən çıxıb bir az aralansa, işçilərin gözündən yayına bilsə, ondan sonra ardınca atlı da salsan çata bilməz. Yolla getməzdi. Çöl-biyabanlıqla, dərə-təpə aşa-aşa elə gedərdi ki, onu görən olmazdı. Belə şeydə özünə güvənirdi, tamam arxayın idi ki, yaxasını ələ verməz. Ancaq burdan çıxmaq çətin idi. Uşaqların üstə möhkəm nəzarət qoymuşdular. Onlara neçə göz baxırdı. Hara getdilər? Hardan gəldilər? Burası da pis idi ki, hara getsələr kollektiv gedirdilər, tək buraxmırdılar ki, sən də işini biləsən. Qaldı gecə?.. Eşiyə çıx, özünü ver qaranlığın qoynuna, kim hardan görəcək. Amma gecə getmək ona çətin olardı. Əvvəla kəndləri o qədər də yaxın deyildi. Bundan başqa, gecə azana-tazana rast ola bilərdi. Qaçaq-quçaq var idi. Bundan başqa aza da bilərdi. Gedib kol-kosluğa, qalınlığa düşərdi. Çöllərdə canavar, çaqqal-çuqqal da çoxalmışdı. Vahid belə şeyləri də nəzərə aldı. Yenə də bu qərara gəldi ki, birtəhər eləyib buradan gündüz əkilsin. Axşamın xeyrindən səhərin şəri yaxşıdır, deyərlər.

Burası yaxşı idi ki, çantalarını alıb başqa yerə qoymamışdılar. Nəyləri vardı, özlərində idi. Hələ gələndə düşərgənin rəisi uşaqlara:

– Otaq sarıdan bir az üzümüz qaradır, – demişdi. – Şeylərinizi alıb başqa bir yerə qoya bilməyəcəyik. Açığı, saxlanma yerimiz yoxdur. Ona görə qoyun çantalarınız da özünüzdə qalsın. Çarpayılarınızın yanına qoyun, kimdir onları qurdalayan.

Bu məsələ Vahidin qaçmaq işini bir qədər asanlaşdırırdı. Odur ki çantasını götürüb bir-iki dəfə cəhd etdi ki, qaçsın – birində düşərgənin rəisi dazbaş kişi şəppəxeyir şırp içəri girdi. Vahid çantasını cəld əlindən yerə saldı və gizlincə ayağı ilə çarpayının altına itələdi. Rəis, deyəsən, görmədi. Fikri başqa yerdə idi. Nəsə təcili işi vardı.

– Vahid, deyəsən, növbətçisən, ancaq sən mənə lazımsan.

Vahid iki çarpayının arasında quruyub qalmışdı. Deyə bilmirdi ki, növbətçi deyiləm, növbətçini aldadıb başqa yerə göndərmişəm, mən... oğlan özünü tamam itirmişdi. Nəhayət, özünü ələ alıb bir-iki addım qabağa getdi.

– Vahid, başına dönüm, kömək elə, bu uşaqların içərisində ən böyüyü sənsən, mənim də, deyəsən, gücüm sənə çatır.

– Nə lazımdır? Buyurun, müəllim, buyurun.

– Gəl gedək ayaqyolunun taxtalarını bir az bərkidək, böyründə yırtıq-deşiyi var, balaca uşaqlar yıxıla bilərlər.

– Gedək, – deyə Vahid tez rəisin yanına düşdü.

Başqa bir dəfə də Vahid çantasını götürüb yenə əkilmək istəyirdi ki, gördü düşərgənin işçilərindən olan bir arvadın balaca qızı ağlaya-ağlaya pilləkənlə yuxarı otağa qalxır. Anası onun harasa iş dalınca getmişdi. Uşağı buna tapşırmışdı. Onda Vahid qapının ağzınacan gəlmişdi. Həyətdə də bir az qələbəlik idi. Meydanda yarış keçirilirdi. Uşaqlar iki böyük dəstəyə bölünmüşdü. Başları qarışmışdı. Elə bu vaxtda aradan çıxmaq mümkün idi. Gözünün suyunu sıxa-sıxa bunun üstünə gələn qız ona mane oldu. Anasının tapşırığından başqa, onda da bir şey olanda bunun üstünə qaçırdı. Balaca uşaq idi, birdəfəlik meyilini buna salmışdı. Vahid dilxor olsa da, maraqlandı:

– Aaz, niyə ağlayırsan?

– Hü... hü... bax, o oğlan saçımdan dartdı. İndi elə ağrıyır ki, – deyə əlini qaldırıb həyətdəki uşaqlara sarı uzatdı.

– Yaxşı. Sən yeri get, mən onu döyəjəm.

– Döy! – bu da razılığını verib təzədən geri qayıtdı.

Bu ara əl eləyib Vahidin özünü də çağırdılar. Nə etsin?! Qayıdıb çantasını yerinə qoydu və həyətə düşdü, görsün nə istəyirlər.

O biri gün Vahid məcburiyyət qarşısında qalıb dərdini düşərgədə olan öz kəndçi uşaqlarının birinə açdı.

– Gəlsənə qaçaq? – dedi.

– Qaçaq? – o biri uşaq təəccüb etdi.

– Hə-ə.

– Qaçmaq olmaz axı.

– Niyə olmur?! İşdən ha qaçmırıq, dincəlməkdən qaçırıq.

– Nə olsun?!

– Necə nə olsun?!

– İstirahət də hökumət işidir daa.

– Pah! Dincəlmək niyə iş olurmuş?

– Bəs iş döy, hökumət niyə düzəldib?!

Vahid gördü bunu yola gətirə bilmir.

– Ayə, zarafat edirəm, – deyə gülümsədi. – Hara qaçıram?! Burdan yaxşı yer tapajam?! Gündə adama üç dəfə yemək verirlər. – Özü qəsdən belə dedi ki, oğlan ağzından qaçırmasın. Bilib üstünə elə nəzarət qoyarlar ki, qanadını açmağa imkanı olmaz. Bununla bərabər, təəssüf elədi ki, razılaşmadı, yoxsa bir-birlərinə həyan olardılar. Nə etmək ki, kəndçisinin saqqızını oğurlaya bilmədi. Yenə öz üstünə qayıtdı. Bu işi təkbaşına etməyi qəti surətdə qərarlaşdırdı. Elə səhəri günü birdən ağlına bir fikir gəldi. Bunların yataq otağının pəncərələri

vardı. Ancaq onları bağlamışdılar. Vahid maraqlanıb qurtdaladı, dartacaq taxta qapaqlar açıldı. Pəncərələri də çəkdi. Gördü onlar da açıldılar. Oradan aşağı boylandı. Gicitkənlər boy verib necə qalxmışdısa, az qalırdı ikinci mərtəbəyə çatsınlar. Oradan o yana isə boş çöllük idi. Düşərgənin sahəsinə dəxli yox idi. İmarətin dövrəsinə çəkilmiş taxta hasar hər iki tərəfdən evin divarlarının tinində qurtarırdı. Deməк buradan qaçmaq mümkün idi. Gicitkənliyin içinə tullansan, bir ordu adam da gəlsə, tapa bilməzdi. Bir də bura heç kəsin ağlına gəlməzdi. Qıraqdan baxanda adamı vahimə basırdı.

Uşaqlar yeməyə oturanda bu tərpəndi, gözdən yayınıb oğrunca yataq otağına gəldi, tez çantasını götürüb pəncərəni səssizcə açdı, gözünü yumub özünü oradan tulladı. Xeyli hündür idi. Qıçı sına bilərdi. Yıxılıb böyrü-başı ağrıyardı. Xoşbəxtlikdən elə bir şey olmadı. Amma gicitkənlik onu bir hala saldı, bir hala saldı ki, elə bil odun-alovun içinə düşdü. Üzü, başı, gözü, əlləri, ayaqları od tutub yanmağa başladı. Əvvəlcə özünü itirdi. Gicitkənliyin arasında elə beləcə tərpənmədən dayandı. Sonra elə bil ayıldı, başladı gicitkən dalamış əllərilə qabağına ot-ələf, nə gəldi, aralaya-aralaya uzaqlaşmağa. Bir də başını qaldıranda gördü gicitkənlikdən çıxıb. O yana boylandı, bu yana boylandı: adam yox idi. Başladı qaçmağa. Beş-on dəqiqə keçmədi ki, şəhərə çatdı, kəndlərinə gedən yola çıxdı. Elə bir uzaq yol gəlməsə də, vəziyyətin gərginliyindən yorulan təki olmuşdu. Büruzə verməməyə çalışsa da, həyəcanlı idi, tövşüyürdü. Bir az dayanıb toxdadı. Sonra yenə yolu əlinə aldı. Yeyin-yeyin gedir, hərdən də dönüb arxaya baxırdı ki, görsün dalınca gələn varmı? Nəsə balaca bir təhlükə hiss eləsə, yolun altına, üstünə qaçıb özünü kol-kosun arasına verəcəkdi, ancaq bir də düşərgəyə qayıtmayacaqdı. Çörəyini-suyunu versələr də, ora nəsə xoşuna gəlmir, evlərinin hər bir şeyini ordan üstün tuturdu. Bəs nə?! Gəldiyi iki-üç gün yox idi ki, evlərindən ötrü burnunun ucu göynəyirdi. Yatanda yuxusunda görürdü. Görürdü heyvanlarını naxıra qatır, axşamlar qabağına çıxır. Buzovlarını otarmağa aparır. Evlərində iş-güc çox idi. Ot biçmək, odun-ocaq qayğısına qalmaq, qapı-bacaya göz olmaq, hər şeyi səliqə-sahmanla saxlamaq onu yormuş, bezdirmiş olsa da, indi məmnuniyyətlə bu işlərlə məşğul olardı. Ot biçərdi, odun doğrayardı, hər cür əziyyətə qatlaşardı, ancaq bilərdi ki, nəsə bir iş görür, heyvanlarını saxlayır. Bəlkə, biri çöldə qalır, biri itir, kim onu tapıb gətirəcək? Kim onun dərdini çəkəcək? Belə fikirləşən Vahid get-gedə yeyinləyir. Bu ara arxadan tappıltı eşitdi. Gedə-gedə çiyni üstə qanrılıb arxaya baxanda gördü bir yük maşını gəlir.

– Bəlkə, bizim kəndə gedir, – deyə sevincək öz-özünə danışdı. – Saxlaya minəm. Nə yaxşı olar. Yarım saata, bir saata evimizdə ollam.

Burası vardı ki, sürücü saxlayardımı maşınını? Buna əmin olmadı. Ağlına sığışdıra bilmədi ki, ondan – yəni bir cavan uşaqdan ötrü o boyda maşını saxlayan

ola. Bir şeydən də ehtiyat etdi ki, bu maşının, bəlkə, onların düşərgəsi ilə nəsə bir əlaqəsi var. Dünən deyirdilər ki, odun üçün harasa maşın göndərmək lazımdır. Çox odun işlənir, bu bizə heç beş gün çatmaz. Bunu başına ağ papaq qoymuş və əyninə ağ xalat geyinmiş aşbaz düşərgənin rəisinə deyəndə Vahid özü eşitmişdi.

O da:

– Yaxşı. Yaxşı. Odun barəsində narahat olma. Danışaram gətizdirərlər, – deyə buna görə narahat olmamağı bildirmişdi.

Vahid qorxub tez yolun üstünə qaçdı, bir kolun ardına sinib gizləndi. Gəlib maşın yanından keçəndə gördü sürücü təkdir, kabinkada özgə adam yoxdur, kuzov da boşcadır. Vahid kolun dalından durub tez əlini qaldırdı. Ancaq artıq gec idi. Sürücü görmədi. Vahid təzədən kor-peşman yola düşdü. Bir az getmişdi ki, arxadan bir yük maşını yenə gəldi, yolun bu hissəsi də yoxuş idi. Maşın da boşca idi. «Bəlkə, heç saxlamadı» – deyə Vahid bu dəfə əlini qaldırmadı, maşın gəlib yanından keçəndə ardınca yüyürdü, yetirib mindi. Hələ çantası ona mane olurdu. Buna baxmayaraq, elə bir çeviklıklə, cəld hərəkətlə kuzova qalxdı ki, özünün də xoşuna gəldi. Kuzovun arxa hissəsində bir küncdə qısılıb elə dayandı ki, sürücü arxa pəncərədən onu görməsin. Görsə, dalaşa bilərdi: niyə icazəsiz minmisən? Bu da nə desin?! Xəcalətli iş baş aşağı eləyən olur. Buna görə Vahid kuzova elə yapışıqlı dayanmışdı ki, deyirdin onu ora mismarlayıblar. Amma bura çox narahat idi. Kələ-kötür yolda maşının təkəri birdən yalağa düşəndə bunun içi-içcalatı tökülürdü, kürəyini, başını taxta, dəmir qırırdı. Oturduğu yerdə də nəsə vardı, o da bir yandan incidirdi. Onun dərdindən Vahid özünü sanki havada saxlamışdı.

Maşın diki çıxıb o yan üzü enişə sallananda birdən dayandı. Vahidin ürəyi düşdü. Fikirləşdi ki, nə oldu buna? İşdir sürücü kabinkasından çıxıb kuzova boylansa, mütləq onu görəcək. Həqiqətən də, eləcə oldu. Sürücü tormozu çəkib qapını açdı, kabinkadan çıxıb ayaqlıqdan boğazını uzadıb kuzova baxdı.

– Ə, – dedi, – düş ordan.

Sən demə onu bayaq maşına minəndə görübmüş.

Vahid küncə yapışıqlı quruyub qalmışdı ki, indi icazəsiz mindiyinə görə nə cavab versin. Onadək sürücü dilləndi.

– A bala, hər şeyin təhəri var, maşına minmək istəyirsən əlini qaldır, mən də saxlayım, ədəb-ərkanla otur. Yoxsa oğru pişik təki dırmaşıb çıxırsan. Demirsənmi yıxıllam, maşının altında qallam. Özünü də yazıq eləyərsən, məni də.

Düz sözə nə deyəsən?! Cavab verməyə təhri yox idi. Boğazı quruyub qalmışdı. sürücü hiss elədi ki, bu oğlan xəcalətlənir, çox sıxılmasına qıymadı:

– Di yaxşı, düş aşağı, – dedi, – gəl mənim yanımda otur! Tez ol, tələsirəm.

Vahid sürücünün əlində vacib işi olduğunu düşünüb durdu, gəlib kabinkada oturdu.

– Üzünə-gözünə nə olub?

Yola-mola başı elə qarışmışdı ki, Vahidin hər şey yadından çıxmışdı. Bu ara xatırladı ki, gicitkən onu əməllicə dalayıb. Yəqin, onu deyir.

– Yıxılmışam, gicitkən dalayıb. – Vahid əlini üzünə çəkdi. Ovcunun, barmaqlarının təmasından hiss etdi ki, üzü kodur-kodurdur. Əllərinin üstü də şişmişdi, incidirdi.

Sürücü onu danladı:

– Gicitkənliyə niyə girirsən ki, bu kökə düşürsən?!

Vahid bir söz deməyib çiyinlərini atdı. Necə desin ki, düşərgədən qaçırdım, başqa əlacım yox idi.

Yaxşı ki, sürücü çox danışdırmadı.

Kəndlərinə çatanda Vahid dönüb qıyqacı sürücüyə baxdı. Bununla yadına salmaq istədi ki, burda düşməliyəm.

– Bilirəm. – Balaca bir hərəkətdən onu başa düşən sürücü gözlərini yoldan çəkmədən başını silkələdi və bir azdan kənd dükanının tinində maşını saxladı. Yola bələd olan adam idi. Bilirdi ki, bu kənddən oyan-buyana gedib-gələn olanda maşından əsasən burda düşürlər. Sərnişinin təşəkkürünü gözləməmiş özü ona sarı döndü və:

– Sağ ol, oğlum, – dedi, – ancaq bundan sonra maşının dalınca yüyürüb minmə, Allah eləməmiş, nə olar, nə olmaz. Əlini qaldır, qoy saxlasınlar, sonra min.

– Yaxşı, – Vahid utana-utana cavab verdi və «sağ olun» – deyib düşdü.

Vahid evə gələndə bir sevindilər, bir sevindilər ki, oğlan özü də məəttəl qaldı.

– Bıy, ömrüm-günüm, gəldinmi? – nənəsi bir yandan cumdu, anası o yandan. Bacıları da pencər təmizləyirdilər, sıçrayıb qalxdılar. Elə bil qəfildən göyərçin dəstəsinin üstə çıxmışdı. Qucaqlaşma, görüşmə, öpüşmə. Sanki aylar-illər həsrətlisi idilər. Halbuki Vahid gedəli beş-altı gün idi. Bu beş-altı gündə Vahidin bunlardan, bunların Vahiddən ötrü burnunun ucu göynəmişdi. Ona görə heç maraqlanan yox idi ki, niyə belə tez gəldin? Hamı sevinirdi ki, yaxşı eləyib gəlib.

* * *

Düşərgədə yeməkdən sonra uşaqlar otaqlarına gəlib bir saat yatmağa hazırlaşanda məlum oldu ki, Vahid yoxdur. Xəbər dəstə rəhbərinə çatdı. Sonra da rəisə xəbər verdilər. Uşaqlı-böyüklü otaqlara bir-bir baxdılar. Həyətdə axtarış apardılar. Orda Vahid, burda Vahid? Vahid nə gəzirdi. O boyda oğlan yağlı kökə olub itmişdi. Rəis ayaq üstəcə ölmüşdü. Tez-tez alnını ovuşdururdu. Yəqin, hirsindən başı ağrıyırdı. Qorxurdu ki, oğlan tapılmaya, başına nəsə bir xata gələ. Xatalı təki rəisin ağlına bu ara elə hey pis-pis şeylər gəlirdi.

– Ə qadanız alım, gedin, bir görün çantası yerindədirmi?

Tez cumuldular. İki dəqiqə keçmədi, gəldilər ki, yoxdur.

– Hə-ə. Demək gedib, – rəis Vahidi daha burada axtarmağın mənasız olduğunu bildirdi və göstəriş verdi ki, sürücüyə deyin maşını tez işə salsın. Bir «dranqalet» maşınları vardı. İşə salan kimi yazıqların qolları qırılardı. Ancaq çarə nə idi. Rəisin ürəyi partlamağa gəlirdi.

Kəndə çatıb xəbər ala-ala maşını Vahidgilin qapısına sürdürəndə gözü ayda-quşda qalmışdı ki, bəlkə, oğlanı tez görə, ürəyi yerinə gələ. Vahid isə bu ara üzünə-gözünə, boyun-boğazına, əllərinin üstünə qatıq çəkmiş, gülməli bir şəklə düşmüşdü. Başı elə bil özününkü deyildi, əhəngdən, qardan düzəldib qoymuşdular. Uzaqdan düşərgənin rəisi onu tanımasa da bu, onu tanıdı. Pahoo! Pis yerdə axşamladı. Ağlına gətirməmişdi ki, o boyda kişi işini-gücünü buraxıb onun ardınca düşüb bura gələr. Elə bilirdi ki, çıxıb gəldi, qurtardı. Sən demə elə deyilmiş. Cavabdehlik var imiş. Vahid bilmədi nə etsin? Maşın həyətə gələndə bu, dalı-dalı getdi. Geri yanında isə sən demə kötük varmış. İlişəndə arxası üstə gəldi. Yıxılmağına əhəmiyyət verməyib durub qaçdı.

Qapıya maşın gəldiyini görcək evdəkilər ailəlikcə eşiyə yüyürdülər. Rəis də artıq maşından düşmüşdü.

– Ay ana, bu Vahidgilinmi evidir?

– Bəli, dərdin alem.

– Vahid evdədirmi?

– Bəli.

– Hanı bəs?

Vahid samanlığın ardında gizlənmişdi, sözlərin hamısını eşidirdi. Başa düşürdü ki, aparmağa gəliblər. Qollarını qanırıb maşına basacaqlar. Yaxa ələ verməmək imkanı var idi. Qaça bilərdi. Ora-bura sinə-sinə qaçıb özünü meşəyə verərdi. Görən olmazdı. Bəs nənəsi? Anası? Bacıları? Onun üstündə bu yazıqları incitməzdilərmi? O, üzə çıxmasa, birdən nənəsini tutub aparardılar! Hayıflarını ondan alardılar. Nənəsini, anasını incidərdilər. Sorğu-suala çəkərdilər. Belə eləsələr Vahid dəli olardı. Odur ki nənəsi yan-yörəyə boylanıb nəvəsinin harada olduğunu bilmək istəyəndə Vahid samanlığın ardından çıxdı, qabağa gəldi, nə cəzanız var mənə verin, nənəmdə, anamda işiniz olmasın.

Rəislə sürücü ona elə heyrətlə baxırdılar ki, deyirdin adam görməyiblər. Gəlib onların qabağında şəstlə dayananda bunlar başlarını bulaya-bulaya dedilər:

– Adə, adə, bu nə kökdür düşmüsən?

– Arı dişləyib, gicitkən dalayıb, – Vahid cavab verdi. Həqiqətən, gicitkənliyə tullananda çoxlu arı vızıltısı eşitmişdi. Görünür, orda pətəkləri varmış. Vız-vız vızıldaşırdılar. Onlar sancmışdılar. Tutulub ələ keçəcəyi qorxusu Vahidi elə çaşdırmışdı ki, arı-marı gözünə görünməmişdi. İndi bir az asudəliyə çıxıb arxayın-

laşdığından üz-gözünün acışdığını hiss edirdi. Ona görə də «can-can, nənənciyəz kor olardı, səni belə görməyəydi» deyə nənəsi gətirib onun üzünə-gözünə, əlinə-qoluna qatıq çəkmişdi.

Rəis gözünü ondan çəkməyib tez-tez başını bulayırdı:

– Adə, qarnınmı ağrıyırdı orda. Arxayınca yeyib-yatsaydın?!

Anası kişi yanında utanıb yamşanmışdı. Nənəsi dilləndi:

– Neynək, ay oğul, uşaqdır, yəqin, öydən ötrü qəribsəyib. Təqsirindən keç.

– Aparmalıyam, – kişi təzədən əsəbiləşdi. Başladı barmaqlarının ucu ilə alnını ovmağa. Görünür, başı hələ ağrıyırdı. Eh, düşərgədə uşaqlar bu yazığın başına yüz cür oyun açırlar. Biri bu yanda ağlayır, o biri o yanda. Biri yatır, o biri durur, biri gəzmək istəyir, digəri başqa bir şıltaqlıq edir. Qarınlarının azarını bilmək olmur. Bu da başına belə oyun açmışdı. Hələ yaxşı ki, gəlib tezcə tapdı. Yoxsa kişinin başına hava gələr, dəli olub dərələrə düşərdi.

Rəis aparacağını dilində desə də ürəyində razı deyildi. Fikirləşirdi ki, kənd uşağıdır, elə ümumi yerdə yaşamağa hələ öyrəşməyib, birdən-birə «əhliləşmək» çətindir. Bu da belə xasiyyətli oğlandır. İndi zornan da olsa, onu maşına basıb aparmaq, iradəsini qırmaq, uşağın gözünü birdəfəlik qorxuzmaq onu açmırdı. Dedi:

– Ora ki getmək istəmirsən, onda gəl kənd Sovetinə gedək, de ki, özün öz xoşuna orda durmaq istəmirsən. Heç kəs sənə güldən ağır söz deməyib. Bu barədə dilindən kağız ver ki, mənə də söz gəlməsin.

– Gedək, – Vahid kişi təki yanına düşdü.

Nənə mehribançılıqla, qonaqpərvərliklə:

– Ay oğul, oturun, qonağımız olun, yoldan gəlibsiniz, – deyə üz vurdusa da, rəis razı olmadı, tələsdiyini bildirib sağollaşdı.

* * *

Hələ üzünə qatıq çəkiləndə Vahid nənəsini boş saxlamayıb kənddə hamını bir-bir xəbər almışdı. Elə bil bir il idi getmişdi. Kim gəlib? Kim gedib? Kimdən kağız gəlib? O gedəli elə bir dəyişiklik olmamışdı. Bir onu dedilər ki, qonşuları Mənsur kişinin uzunqulağını canavar yeyib.

– Elə şey olmaz, – Vahid bu xəbəri də həyəcanla qarşılayıb inanmaq istəmədi.

Nənəsi başını tərpətdi və bu itkinin Mənsurun ailəsi üçün ağır olduğunu bildirdi.

– Fağırcaların əli-ayağı yerdə qaldı, dərdin alem, odun-ocaqlarıdır, dəyirmandır, hansı birini deyim, hamısı uzunqulaqla aşır.

Vahid heyifsiləndi. Yaxşı uzunqulaq idi. Bir dəfə də onlar alıb dəyirmana getmişdilər. Bir yekə xurcundan əlavə belinə bir dolu kisə də qoymuşdular.

Mansurun boz uzunqulağı bu boyda yükün altında heç bircə dəfə də dayanmamışdı.

– Harda yeyib? – Vahid maraqlandı. Onların da heyvanları var. Vahid öyrənməli idi ki, təhlükə hansı tərəfdədir. Nə vaxt olub, necə olub?

– Ədə, burdaca, evlərinin böyrü Qaracanın dərəcəsində. Şər vaxtı deyirlər. Hələ heyvanın anqırtısını da eşidiblər.

– Bay sənin! – Vahid kişi-kişi əlini əlinə vurdu. Düşərgə əhvalatından sonra elə bil bir az da kişiləşmişdi. Gələn günündən qapıya, bacaya, evə, eşiyə, mal-heyvana fikir verməyə başlamışdı. Bunun özü elə böyük təsərrüfat idi. Nənəsinin sözü olmasın, bu təsərrüfatı idarə etmək üçün bığıburma kişi lazım idi. O da bu idi. Bığı hələ olmasa da, kişi idi. Nənəsi həmişə nağıl-zad danışanda deyərdi ki, guya, canavar bir dam dolusu qızdan qorxmur, amma qamçı boyda oğlandan qorxur.

Vahid qapı-bacaya bir az əl gəzdirib, səliqə-sahman yaradıb kolxoza işə getməyə hazırlaşırdı ki, Xındı kişi yenə adam göndərib yanına çağıtdırdı.

– Ora göndərməyə başqa elə bir səriştəli adam tapa bilmirəm. Sən yaxşısan. Haqq-hesabdan da deyirlər başın çıxır. Gəl sən get ora. İstəyirsən nənəni də apar, o da sağıcı olar. Heyvanlarınızı da aparın. Bir-iki günə köç yola düşməlidir. Daha ləngiyə bilmərik. Bu il onsuz da dağa gecikmişik.

Sədr onu sayırdı ki, belə danışırdı. Bu xoşuna gəldi. Söz verən təhər oldu. Bununla bərabər nənəsi, anası ilə məsləhətləşəcəyini bildirdi. Gəlib bunu deyəndə nənə etiraz etdi:

– Yox, ay bala, biz ananı burda tək qoyub gedə bilmərik, gendən baxan nə deyər?!

– Onda anam da getsin. – Vahid təklif etdi. Nə ürəyindən olardı! Bütün ailəlikcə yığışıb dağa aparardı. Yayın istisini görməzdilər. Atası da davada eşidəndə ki, oğlu belə eləyib, razı qalıb onunla öyünərdi. Nənəsi bu işə də qol qoymadı.

– Bəs buramız necə olsun?! Qapı-bacamızın qarovulçuluğunu kim eləyər? Həm də gedib sünbüldən-zaddan yığmaq lazımdır. Qışın tədarükünü indidən görmək lazımdır. Yoxsa dolana bilmərik. Aranda tutdan olluq, dağda qurutdan.

Vahid qaldı belə. Xındı kişiyə «getmirəm» deməyə də üzü gəlmirdi. Söz vermişdi. «Dağdan ağır» kişini oynatmaq yaxşı deyildi. Axırı belə qərara gəldilər. Daha doğrusu, nənə məsləhət bildi.

– Hə, neyniyək, sən get dağa, qazancın qazanc, özün də havanı dəyişərsən. Nənən kor olsun. Neçə ildir yaylaq üzü görmürsən. Biz də aran tədarükümüzü görrük.

Səhəri günü tezdən Vahid fermaya getdi. Yaylağa çıxmağa möhkəm hazırlıq gedirdi. Arabaların üstündə dəyələr qurulur, bar-barxana qabqarılırdı. Bir

yerə dəyib xarab olmasın deyə süd maşınını allah-allahnan qaldırıb qoyur, keçələri qatlayırdılar. İşi görən əsasən də arvadlar idi.

– Bıy! Xoş gəlmisən, dərdin alem, – deyə onu da mehribançılıqla qarşıladılar. Eşidiblər ki, süd yazanları bu oğlandır.

– Sağ olun, – Vahid də qolunu çirməyib bir yandan işə girişdi.

Köç vaxtı Vahid atnan evə gəlib yığ-yığış eləyəndə nənəsi dedi:

– Ədə, şinelini də götür.

Vahid əlini yellədi.

– Yay günü şineli neynirəm?! – Köçdən xoşu gəldiyi üçün ürəyi atdanmışdı. Başı havalı idi. Müəyyən bir iş ardınca oyan-buyana gedəndə atı çox vaxt yəhərsiz minirdi. At da ayrı cür at idi. Yorğa vurub dörd əl-ayağının üstə torağay quşu təki çəkəndə küləkdən bunun köynəyi torbalanıb qalxır, ruhunu oxşayırdı. İlin-ayın bu xoş vaxtlarında nənəsi də ona şinel geyindirirdi. Ağlı özünə gedib. Göyün üzünə bulud gələndə arvadlar az qalıb cecimə bürünsün. Cır-cındırdan əyninə yüz cür şey soxur, şalı şal üstündən bağlayır.

Nənə təkid etdi:

– Sənə deyirəm götür şineli. Dağ yeri soyuq olur. Bir də görürsən elə əsib çırpır ki, qış günündən də betər. Dağda heç bilirsən o sənə necə gərək olacaq?

Nənə çox dedi, Vahid az eşitdi. Sonra anası dedi:

– Booy, ay bala, yağışda-yağmurda heç olmasa çiyninə salarsan.

– Dedim lazım deyil! – Vahid inad edib onların üstünə bağırdı. Sonra da canının dərdindən etiraz etmədi. – Yaxşı, bəri ver. – Şineli aldı.

Hələ yaylağa çatmamış yoldaca Vahid başa düşdü ki, şineli ona götüzdürməkdə nənəsi ağıllı iş görüb. Böyüyün sözünə baxmayan böyürə-böyürə qalar. Şineli götürməmiş olsa gecələr donardı.

* * *

Köç Qorqudlu kəndindən keçəndə Vahidin gözü orda-burda qalmışdı. Şinelini ona bağışlayan adamı axtarırdı. Özü demişdi ki, bu kənddənəm. Görəsən evləri hardadır? Bəlkə də, bu yola yaxın evlərdən biridir. Görüşsələr yaxşı olardı. Odur ki Vahidin gözü dörd olmuşdu. Dünyanın işini nə bilmək olar. Bir də gördün təsadüfən qabağına çıxdı. Vahid o dəqiqə atdan tullanıb yerə düşərdi, qabağına gedib əlini uzadardı.

Qabaqda da yolun üstə novlu bir bulaq vardı. Bir qız da səhəngini novun ağzına tutub su doldururdu. Atı ora sürdü. Bu son vaxtlar oyan-buyana gedib-gəldiyindən oğlan xeyli üzdüləşmişdi.

– Ay qız, bağışla, səndən bir adam soruşum.

– Soruş. – Səhəngini novun ağzından çəkmədən yanakı ona baxdı.

– Sizin kəndə əsgərlikdən şinelsiz bir adam gəlib. Onu tanımırsanmı?

– Bıy! Mən gələnlərin əyninəmi baxıram? – Qız da oğlanın sualına təəccüblə cavab verdi.

Oğlan özünü o yerə qoymadı.

– Bə nəyə baxırsan?

– Həncəri, özünə. Əslikar özüdür. Əynində nə olur-olsun, onun nə mənası var?

Oğlan gördü qız düz deyir. Amma bilmədi onu necə başa salsın ki, mən belə bir adamı axtarıram. Oğlan çaşıb qalmışdı ki, qız səhənginin dolduğunu görüb onu novun altından götürdü, çiyninə alaraq gülümsünmüş yola düzəldi. Yəqin, fikirləşdi ki, bu oğlanın başı xarab olub.

Bayaqdan Vahid yüyəni darta tutmuşdu. Qoymurdu ki, at ağzını suya uzada. Ya fikri özündə deyildi, ya da qızın yanında atın özünü boşaldıb sakit dayanmasını istəmirdi. Yəqin, belə xoşuna gəlirdi. At dəli-dəli başını oynadır, yüyənin ağızlığını şaqqıldadır, hərdən də boynunu suya uzadırdı. Görürdü ki, olmur, ayağı ilə bulağın təknəsindən süzülüb gələn və axarının yan-yörəsində əmələ gətirən balaca gölməçə suyu şappıldadırdı.

Qızla söhbət alınmadı. Yüyəni boşaltdı. At su içməyə başlayanda fikirləşdi ki, axtardığı adamı belə tapa bilməyəcək. Ya gərək təsadüfən rastına çıxa, ya da asudə bir vaxtda ya kolxoz idarəsinə, ya da Sovet idarəsinə getsin və söyləsin ki, belə bir adamın evi hardadır? Onda bilərlər. Bilərlər ki, bu, kim ola bilər? Kim belə şey eləyə bilər? Bə nə?! Camaatın bilmədiyi iş yoxdur. Camaat kimin hansı yuvanın quşu olduğunu yaxşı bilir.

Köçdən də geri qalmaq olmazdı. Camaatın həyət-bacasında az çox dirliyi vardı. Mal-qoyun ağzını uzadıb yoluşdururdu. Evlər qurtarcaq isə taxıl sahələri, biçənəklər uzanırdı. Dağətəyi kəndlərdə kartof əkirdilər. Xülasə, ziyan verə bilərdilər. Vahid belə şeylərə də əl yetirirdi. Atı sürüb gah qabağa gedir, gah da dalda qalır, hər bir işə əl yetirirdi. Dar macal idi. Bunun üçün də ləngiyə bilmədi, at ağzını sudan çəkəndə yüyəni tərpətdi.

Axşamadək xeyli yol gəldilər. Əyri yolun astanasına çatanda öküzlər zığ durmuşdular. Daha çəkmirdilər. Ölə-ölə gedirdilər. Yolda bir-iki dəfə də qaraman öküz yatmışdı. Beli uzunu çubuqla nə qədər döşəmişdilərsə, durmamışdı. Məcbur olub arabalardan xeyli aralanıb qabaqda gedən sürünün çobanı Həmzə kişini çağırmışdılar. Gəlib bir-iki çubuq da o çəkmişdi. Öküz elə bil ölmüşdü. Bu zaman Həmzə kişi möhkəm hirslənmişdi.

– Aax! Canavar olub səni nə yeyərəm! – Hardan ağlına gəlmişdisə, öküzün quyruğunu qatlayıb ağzına soxmuş və onu necə dişləmişdisə heyvan hop qalxmışdı. – Hə. İndi sürün.

Yol adamları da yormuşdu. Yıxılmağa hərə bir yer axtarırdı. Həm də gündüz bərk isti olmuşdu. Günortaçağı gün necə şaxımışdısa, mal-heyvan da tən-

timişdi. İtlərin dilləri eşikdə qalmışdı. Günün belə bərk yandırıb yaxmasından demişdilər ki, ola bilsin axşam yağış yağsın. Deyilən kimi də oldu. Günün qulağı yaxar-yaxmaz dağların başından bir quyruqlu bulud necə oynayıb qalxdısa, göylərin dərinliyində nə əməl açdısa, şimşək oynadı, gurultu, şaqqıldtı qopdu. Üfüq başdan-başa cuna rənginə bulandı. Dağlara yağırdı. Çox çəkmədi yağışın soyuq nəfəsi aşağılara da gəlib çatdı. Gündüzün xəfəli bürküsündən, istisindən sonra bir sərin, xoş meh gəldi ki, adamların canında nə var idi çıxartdı. Dalınca da yağış gəldi nə gəldi. Başlamağı ilə yeri-göyü su ağzına götürdü. Yaxşı ki, arabaları açıb təkərlərin ardına daşdan, kötükdən bir şey qoymuşdular. Yoxsa xoşagəlməz hadisələr ola bilərdi. Sel torpağı yuyub aparar, araba qaça bilərdi. Köçdə başbilən adamlar vardı. İşlərini ehtiyatlı tutmuşdular. İslanmamaq üçün hamı da arabalara doluşmuşdu. Hətta arabaların üstündə qurulmuş dəyələrin ağzına da cecimdən, kilimdən palaz tutmuşdular ki, yağış içəri vurmasın. Hərdən içəridən palazı yana qatlayıb azacıq açaraq baxırdılar ki, görsünlər vəziyyət necədir? Yağışın kəsmək fikri yox idi. Havanın belə bir çətin vaxtında eşikdən, selin-suyun içindən səs gəldi:

– A Xacca! A Xacca!

«Xacca» deməyindən və səsinin gərliyindən bildilər ki, fermanın baş çobanı Oruc kişidir. Arvadının adı, əslində, Xədicə idi. Ancaq onlar tərəfin adamları Xədicə adını qısa şəkildə «Xacca» çağırırdılar.

Ərinin səsini qulağı alan Xədicə arvad o dəqiqə dilləndi:

– Höyy! Nədir?

– Aaz, əynimdəki sırıqlı bütüncə sudur. Bunda qalsam, sətəlcəm ollam. Cırıq yapıncı var haa! Gör onu tapa bilərsənmi?

– Booy, a kişi, indi mən onu hardan tapım, kim bilir hansı barxananın altında qalıb. Bir də o geyiləsi ha deyil. Özün demədinmi ki, bunu altımıza salarıq.

Eşidib Vahid də narahat oldu. Belə əyamda yağış altında qalmaq zülm idi. O qədər oğru, əyri var idi ki, çalıb-çapmağa bir məqam axtarırdılar. Bir-ikisi o yana dursun, sürünü bölüb aparardılar. Beşini bir yerə satardılar. Beşini başqa yerə addadardılar. Beşini kəsib yeyərdilər. Belə-belə xırıd eləyib qurtarardılar. Belə şeylər azmı olmuşdu. Gözü ilə görməsə də, Vahid bu cür hadisələr çox eşitmişdi. Oruc kişi də elə adam idi ki, necə əzab-əziyyətli iş olsa dözər, amma cavabdeh olduğu vəzifəyə, işə vicdanla yanaşardı. İndi də yağış altında ölər, amma heyvanı Allah ümidinə qoymazdı.

Vahid şinelini götürüb özünü qapının ağzına atdı, heç bilmədi təntik necə səsləndi:

– Ay Oruc dayı!

– Höyy! – Oruc kişi bayaqdan başqa arabanı səsləyirdi, indi dönüb yönünü başqasına çevirdi.

– Ala. Ala. Sırıqlını çıxart, bu şineli gey! – Vahid az qalırdı şineli aparıb özü kişinin çiyninə atsın.

Səhər-səhər Oruc kişi şineli yiyəsinə qaytaranda bilmirdi necə dil-ağız eləsin.

– Sağ ol, a bala, sağ ol, ömrün uzun olsun. Vallah şinelin olmasaydı, mən çətin sabaha salamat çıxardım.

* * *

Yolda havanın yağışlı-yağmurlu olmasına baxmayaraq, dağlar onları xoş qarşıladı. Suqarışandan qalxıb boğazdakı yurda çatanda bir gün çıxmışdı ki, deyirdin dəyə-məyə qurmaq lazım deyil. Adamlar əyinlərindən pencəklərini də çıxartmışdılar, arandakı kimi bircə köynəkdə gəzirdilər. Amma aydın idi ki, hava məsələsində dağlara etibar etmək olmazdı. Ona görə arabalardan barxananı düşürüb dəyələri qurmağa başlamışdılar. Çalışırdılar ki, tez qurtarsınlar. Şeylərini içəri daşısınlar. Vahid də hər bir işə əl yetirirdi. Vəzifəli olsa da, hər halda, uşaq idi. Yaşlı adamlar onu müəyyən işə buyururdular – necə getməyəsən? Vəzifəsinə görə də işin bir ucundan o tutmalı idi. Təsərrüfatın qayğısını çəkənlərdən biri də o olmalı idi. Müdir aranda qalmışdı. Köç yola düşhadüşdə Xındı kişi onu saxlamışdı ki, ot tədarükünü gör, sonra get. Bu da nə desin məcbur olub qalmışdı. Ancaq çobanlardan, sığırçı, buzovçudan savayı Vahidə də dönə-dönə tapşırmışdı ki, mal-qoyuna fikir verin, elə eləyin ölən-itən olmasın. Nəzəriniz həmişə heyvanın üstündə olsun. Məhsul da ki, öz yerində. Yağı yağ, pendiri pendir. Daha elə olmasın ki, arana qayıdanda əlimiz ətəyimizdən uzun gəlsin.

Bu sözlər Vahidin məsuliyyətini bir az da artırmışdı. Onu bir az da cavabdeh eləmişdi. Elə bilirdi fermada nə olsa, hamını buraxıb onun yaxasından yapışacaqlar. Onları nə maraqlandırsa, nə sualları olsa, ondan soruşacaqlar. Filan şey niyə belə oldu? Fıstəkan şey niyə elə oldu? Ona görə Vahid işini elə tutmalı idi ki, hər şey qaydasında olsun. Elə deyildi ki, Vahid qorxaq idi. Xeyir. Başqa şeydən qorxurdu. Qorxurdu ki, bir şey ola, buna söz gələ. Deyələr ki, uşaqdır, o bacaran iş deyil. Vahid, əsasən, bu sözün deyiləcəyindən ehtiyat edirdi. Ona görə də hər işin ardınca yüyürürdü. Yolda araba da sürmüş, mal-qoyun dalınca da getmiş, hələ gecələr çobanlara baş da çəkmişdi. İndi isə gah çubuq verir, gah dəyənin üstünə palaz atır, gah da içəri sel-su axmasın deyə yanlardan qarım qazırdı. Beləcə hər bir işi görüb qurtardılar. Arvad-uşaq dəyələrinin altına yığışdılar. müdirin ailəsi də dağa gəlmişdi. Arvadı, üç də uşağı idi. Qızları bir az iri idi. Oğlanları hələ körpə idilər. Vahid də onlarla qalırdı. Aranda elə razılaşmışdılar. Vahidin anası da, nənəsi də Səlmi arvadın yanına gedib dönə-dönə yalvar-yaxar eləmişdilər ki, sən Allah gədiyə yaxşı bax.

– Bıy, aaz, o da mənim balam, niyə baxmıram, – deyə bunları tam arxayın salmışdı.

Həqiqətən də, ilk gündən Səlmi arvadın üç uşağı elə bil bir yana idi, bu bir yana.

– Ədə, acmadınmı? Ədə, ürəyin çəkilmədimi? Ədə, bir bucğazı ye, – Səlmi arvad vaxtlı-vaxtında onun çörəyini-suyunu verməyə çalışır, öz uşaqlarından qəti ayırmırdı. Bu da tezcə onlara isnişmişdi. Elə bilirdi ki, elə öz ailələridir. Uşaqlar da bundan ötrü özlərini öldürürdülər. İşində isə Vahid qəti çətinlik çəkmirdi. İkicə günə hər şeyə öyrəşmişdi. Nə lazım idi hamısını səliqə ilə yazırdı. Hansı sağıcı hansı inəkdən nə qədər süd sağıb. Litrlik qabla ölçüb iri bibonlara tökürdülər. İnəklər gündə iki dəfə sağılırdı. Bir gün xeyli qalxandan sonra. Alaqaranlıqda örüşə getmiş naxır bu zamanlar sağına qayıdırdı. Bir də axşamlar. Qoyun isə gündə bir dəfə sağılırdı, südünü inək südünə qatmırdılar. Qatıq çalıb üzlü-üzlü pendir mayalayırdılar. Deyirdilər bunların hamısını cəbhəyə göndərəcəklər. Əsgərlər gərək yaxşı yesinlər ki, vuruşa bilsinlər. Ona görə də yaylaqda malın-qoyunun südü get-gedə artdıqca işçilər də sevinirdilər. Beləcə hər şey qaydasında gedirdi. İş-güc barəsində Vahidin heç bir narahatçılığı yox idi. Yaylaq həyatı xoşuna gəlirdi. Sürünü bərəyə vurub, sağıb qurtarandan sonra uşaqlar, böyüklər əllərini qaldırıb: «Gəl, heyy! Gəl, heyy!» – deyə quzu sürüsünü çağırırdılar. Bir təpənin, bir aşırımın o üzündə quzuların qabağında dayanıb onları geri küşkürən quzuçu səsi eşidib kənara dururdu. Quzular da beləcə bir işarəyə bənd idilər. Həm də bu ara qoyunlar mələşib balalarını çağırırdılar. Qulaqları alan quzular durardımı? Dağın o üzündən çıxıb mələşə-mələşə selləmə necə tökülürdülərsə, adam baxanda xoşu gəlirdi. Qoyunlar da onların qabağına gedirdilər. Beşcə dəqiqə keçməmiş qoyun-quzu bir-birinə qarışır, ana balanı, bala ananı axtarıb tapır, hamısının ürəyi yerinə gəlirdi. Vahidin bu səhnədən xoşu gəlirdi. Səhərdən axşamadək beləcə qoyun-quzu əmişdirsə, yorulmazdı. Yaylağın gecələri də maraqlı olurdu. Mal-qaranın arxacı binəyə yaxın idi. Nəyələrin böyründəcə, böyük bir yastana idi. İribuynuzlu heyvanlar orda yatışırdılar. Binənin o biri böyrü isə danalar, buzovlar üçün idi. Xülasə, mal-qara, dana-buzov göz qabağında idi. Onların qorxusu yox idi. Bir balaca şıqqıltı olanda itlər o dəqiqə səslərini çıxardırdılar. Qoyunun arxacı isə bir qədər yuxarıda idi. Binə aşağı çay qırağına düşmüşdü. Sudan bir az aralı idi. Dəyələri elə qurmuşdular ki, işdir, sel-su gəlsə, onlara ziyan verməsin. Qoyunu, quzunu isə yuxarıda saxlayırdılar. Bu da ona görə idi ki, xırda heyvanın örüşü yuxarılar idi. Yala-yamaca, dağların mələsəkli döşlərinə, zirvələrinə qalxan heyvana bir az aşağılara enmək çətin idi. Bir bölük sürünü tox qarına iqqır-hıqqır aşağı endirmək insafdan deyildi. Bu səbəbə görə sürünü sağın vaxtı da aşağı tökmürdülər. Yuxarıda sağıb südünü bidonlarda atnan, ulaqnan aşağı binəyə endirirdilər. Bu iş o qədər də çətinlik törətmirdi. Qoyunun arxacı çox da uzaq deyildi. Hərdən çobanların səsi gəlirdi. Həndəvərdə qurd-quş olub itlər hürüşəndə baş çoban Oruc kişinin səsi dağları başına götürürdü:

– Boğar, bas! Dəmbər, tut! – İtlərə qıs vurur, dil boğaza qoymurdu.

Gecələrin bu cür maraqlı, cəlbedici narahatçılığından sonra gündüz heyvan sağına gələndə, bəlkə də, hamıdan birinci Vahid yaxınlaşıb baş çobandan soruşardı:

– A Oruc dayı.

– Hə.

– Gecə nə hay-haray idi? Nə olmuşdu? İtlər də yaman hürüşürdü.

O da bundan maraqla soruşardı:

– Ayə, yatmamışdınmı?

– Yoox.

– Ay sənin! Kaş sənin yerinə olaydım. Axşamdan başımı qoyub yatardım. – Bununla Oruc kişi həm özünün yuxudan ötrü öldüyünü deyər, həm də onun gözündə hələ çox balaca olan bu uşağa qıymadığını bildirərdi. İstəmirdi indidən hər şeyin intizarında olsun. Təsərrüfat dərdi çəksin. Nəsə, qıymırdı.

– Doğrudan, nə olmuşdu? Canavarmı gəlmişdi?

– Hə-ə.

Vahidin marağı daha da artırdı:

– Gördünmü, necə canavar idi?

– İkiayaqlı canavar idi. – Baş çoban Vahidə baxıb gülümsəyirdi.

Vahid o dəqiqə bilsə də ki, adamı deyir, yenə uşaq sadəlövhlüyü ilə etiraz edərdi:

– İkiayaqlı da canavar olarmı?

– Niyə olmur, ay oğul, olar. Elə ən pisi ikiayaqlı canavardır da! Dördayaqlı canavarın öhdəsindən gəlməyə nə var?!. İtlər qoparaqlarını götürəndə ilimayaqlı itirlər. Amma ikiayaqlı canavar iti də aldada bilir.

– Necə aldadır, Oruc dayı?

– Nə bilim?! Min cür hiyləsi var. Ya qabağına ət tullayır, ya bacarmayanda vurub öldürür.

Ondan sonra Vahid axşamlar yerinə girib yatmaq istəyəndə fikri bir az da artıq qoyunun-quzunun yanında olardı. Yağış-yağmur olmayanda dəyənin ağzının palazını da salmaz, açıq qoyardılar ki, təmiz hava gəlsin. Yaxından axan dağ çayının qıjıltısını eşidə-eşidə buradan Vahid gözünü zilləyib qaranlığa o qədər baxardı ki, arada gözü alacalanardı. Qaranlıqda çoxlu canavar görərdi. İkiayaqlı, dördayaqlı. Hamısı bir-birinə qarışıb ulum-ulum ulaşardılar. Vahidin xəyalında elə bir dəhşətli səhnə yaranardı ki, dəyənin içində, yorğanın altında ola-ola özü də elə bil qorxardı. Yuxusu ərşə çəkilərdi. Haçandan-haçana bilməzdi gözünə nə vaxt yuxu getdi.

Vahid yaylağın bu cür şeylərinə – gecələr itlərin hürməsinə, bəzən özlərini yeyib-yırtmalarına, çobanların hay-harayına yavaş-yavaş öyrəşdi. Bütün bunlar adi hala çevrildi. O da bu şeylərə əhəmiyyət verməməyə başladı. Böyük yaşlı

adamın, ya bir kişinin, ya da bir qadının görəcəyi bir işi, vəzifəni yerinə yetirsə də, yenə nə təhər olsa, uşaq idi. Görürdün boş vaxtlarında uşaqları başına yığıb dağların döşlərinə çıxır, yuxarılardan «Hellənqara» buraxır, çəmənlərdən gül-çiçək yığır, asırğallıqda, əvəlikliyi, dəvədabanı bitkilərinin arasında gizlənqaç oynayırdı. «Hellənqara» çox maraqlı olurdu. Uşaqlar dağların döşlərindəki təpələrə çıxıb, hardansa bir daş, yaxud yumru bir çim axtarıb tapır və zirvədən dığırlayırdılar. Çimlər çox getmirdi. Ora-bura dəyib tezcə parçalanır, torpağa tökülüb beş-on addımlıqdaca qalırdı. Amma daş bir bura dəyəndə, bir də qalxıb ora, on beş metr aralıya dəyir, get-gedə də sürətini artırırdı. Uşaqlar da ardınca baxıb «Hellənqara! – deyirdilər – düz dərənin dibinəcən». Ancaq bir gün bunu görən arvadlar belə eləməyi, bu cür oyun çıxarmağı onlara qəti qadağan etdilər:

– Demirsinizmi aşağıda adam olar, heyvan olar, Allah göstərməmiş, gələr dəyər, onda nə cavab verərsiniz?! – dedilər.

Doğrudan da, bu, çox dəhşətli, təhlükəli oyun idi. Birinə dəysə, o dünyalıq eləyərdi. Vahid balaca deyildi. Bunun xeyir verməyəcəyini görüb odu-budu, əl çəkdi, başqa bir əyləncəyə meyil etdi. O da qabaqlarındanca axan çayın məcrasını dəyişmək idi. Dedilər ki, bu çayda yaxşı balıq olur. Onu da çayın məcrasını dəyişməklə tutmaq olar. Çaylaq da böyük idi, enli idi. Məcrasını dəyişmək mümkün idi. Çaylağa baxanda hiss olunurdu ki, çay özü daşıb eliyəndə təbii olaraq məcrasını dəyişir. İki-üç yatağı var idi. Birindən axanda o biri boş qalırdı. Yaxud azacıq axırdı. Bir gün Vahid uşaqları başına yığıb bir yerdən çayın məcrasını başqa yerə açdı, suyu köhnə yatağa axıtdı. Elə elədi ki, suyu lap sıxvardı. Ancaq əllərini o daşın, bu daşın altına soxmaqdan təngə gəldi. Deynən, heç olmasa, bircə balıq çıxdımı. Tək bircə dəfə əlinə yumşaq bir şey dəydi. Sevindi. Çıxardanda gördü o da qurbağadır. Ondan sonra balaca-balaca uşaqlar bunun üstünə düşdülər ki, əlinə ziyil çıxacaq. Guya, kimin əli qurbağaya dəysə, əlinə ziyil çıxır. Vahid bunu ürəyinə salıb hər gün əlinə baxırdı. Qorxurdu ki, düz ola. Ziyildən xoşu gəlmirdi. Səlmi arvad isə onun qurbağadan iyrəndiyinəmi, yaxud, ümumiyyətlə, çoxdan – yəni dağa gələndən çimmədiyindənmi bir yekə qazan su qızdırıb və əlinə də bir yekə dolça götürüb Vahidi çağırdı:

– Ədə, gəl soyun, səni çimizdirim.

Vahid quruyub qaldı. Bu arvad nə danışırdı? İndi o necə soyunub onun qabağında domuşsun ki, çimizdir. Son illər, o, hətta öz anasından, nənəsindən utanırdı. Heç bilmirdi necə dayansın ki, Allaha xoş getsin. Bükülüb aşağı necə domuşurdusa, qəddini açmırdı. Su tökməyə bacılarını yaxın qoymurdu. O ki qaldı Səlmi arvad. Dünyasında belə şey olmazdı.

– Ədə, suyun soyuyur, gəl, – Səlmi arvad isə öz uşağı kimi ona əmr eləyirdi. Özünü o yerə qoymurdu. Guya, burda elə bir şey yoxdur. Elə eləyirdi ki, gəlib çimsin. Qəti fikrini biləndə isə məcbur olub başqa təklif etdi.

– Onda gəl özün çim. Uşaqlar başından su töksünlər. Heç olmasa bədənini sürt. Yoxsa çimməmək olmaz axı. Qayıdanda anana nə cavab verrəm. Deməzmi arvad döysənmi?!

Vahid gördü Səlmi xalası əl çəkməyəcək, buna razılaşdı. Bir azdan qalın qalxmış dağ otlarının arasında elə domuşmuşdu ki, heç görünmürdü. Uşaqları da yaxın qoymamışdı. Özü töküb özü çimirdi.

Pismi, yaxşımı çimib qurtarandan sonra üzdə bir söz deməsə də, Vahid Səlmi arvadın onun üçün su qızdırmasından ürəyində çox razı qalmışdı. Bədəni xeyli yumşalmışdı. Yüngülləşib, quşa dönmüşdü. Yəqin ki, gündüz çimib bədəni yumşaldığından, özünü yaxşı hiss elədiyindən axşam da tez yatdı. Sakit bir gecə idi. Mal-qoyun, it-pişik hamısı yatmışdı. Dərədən axan çayın da xoş, adamın ruhunu oxşayan qıjıltısı dağlara-daşlara layla çalırdı.

Gecənin gird yarısı olardı ki, binədə nəsə çaxnaşma düşdü. Hamı çığırışıb qalxdı.

– Nə olub? Nə olub? – deyə Vahid də şalvarını qıçlarına çəkib, özünü dəyədən eşiyə atdı.

Oruc kişinin həyəcanlı səsi gəlirdi:

– Ayə! Ayə! Tez özünüzü yetirin! Ye-ti-rin!

Bunu tam aydın eşidəndən sonra arvadlar ağlaşdılar.

İlyas adında bir kişi də var idi. Naxıra gedirdi. Qoçaq adam idi. İşi bir az o cəhət korlayırdı ki, ağır eşidirdi. Kar İlyas deyirdilər. Bu da qalxmışdı. Yəqin, arvad-uşağından kimsə zoxmalayıb qaldırmışdı. İndi vəziyyəti ona birtəhər başa saldılar ki, çobanlara nəsə olub. İlyas kişi o dəqiqə tərpəndi. Buzovları otaran mınqıdı Kəliş də onun ardınca. Bunun da adı Kələntər idi, Kəliş deyirdilər. Mınqıdı ləqəbini isə burnunda danışdığına görə qoymuşdular. Bunlar tərpənəndə Vahid də şığıdı.

– Vahid, bu ay qaranlıq gecədə sən hara gedirsən?! – deyə Səlmi arvad əlini ataraq onu tutub saxlamaq istədisə, artıq gec idi.

Dərə çayını şığıyıb keçdilər. Qoyunun arxacı güney tərəfdə idi. Bu da ona görə idi ki, güneyin otu seyrək olsa da, yağlı idi. Çayın bu tayı quzeyə nisbətən ayağı quru idi. Heyvan pala-palçığa, selə-suya çox düşmürdü. Çobanlar yun haqq-hesabının da dərdini çəkirdilər. Sabah qırxın başlananda əllərinə bir şey gəlsin. Hamısı çaqqalax-çuqqalax olsa nə qırxardılar. Deməzdilərmi hanı qoyunun yunu? Özü də indi bu, ən vacib, ən lazımlı işlərdən, məsələlərdən biri idi. Davada vuruşan, Vətəni qoruyan əsgərlərə isti paltar lazım idi. Yun olmayanda isti paltarı hardan almaq olardı. Bütün bunları nəzərə alaraq qoyunun arxacını güneydə salmışdılar. Qılınc yuxarı bir xeyli gedəndən sonra arxası çatılırdı. Vahidin qorxusu da indi yalnız onda idi ki, bu yoxuşda qabaqda gedən adamlardan geri qalmasın, hadisə yerinə onlarla birgə çatsın. Ona görə bütün

gücünü, qüvvəsini səfərbərliyə almışdı. Belini əyib, onlarla dabanbasaraq necə gedirdisə, bu qayda ilə arxaca çatdılar. Ancaq nə sürü yerində idi, nə çobanlardan bir səs-soraq vardı. Lələ köçüb yurdu qalmışdı.

– Hanı, ə, bunlar? – kar İlyas üzünü nigarançılıqla mınqıdı Kəlişə tutdu. Soruşsa da cavab gözləmədi. Təlaşla qaranlıqda yan-yörəyə boylandı. Ayın, suyun işığına ala-dəmgül nəsə seçmək olurdu. Bu ara Oruc kişinin arxacın sağ cinahındakı dərədən boğula-boğula səsi gəldi. O qədər bağırmışdı ki, səsi batmışdı. Güclə çıxırdı:

– Ayə! Ay uşaqlar! Bur-da-yam.

– Budu, burdadır, – Kəliş kar İlyasa işarə verib özü qabağa düşdü.

Çatanda gördülər nə? Dərənin o üz-bu üzündə qoyunlar bölük-bölük ağarışırdı. Sən demə sürü ağnayıb gedirmiş. Qabağını güclə saxlayıblar. Çoban Vəli də inildəyib burdan ora yıxılıb, zar-zar zarıyır. Ümumi vəziyyətdən məsələnin nə yerdə olduğunu başa düşsələr də, Oruc kişi dedi:

– Heyvanı bölüb aparırdılar. Zornan saldırmışıq. Kişini də çomağnan vurub yıxdılar. – Oruc kişinin özünü də vurmuşdular. Ayaq üstə güclə dururdu. Az qalırdı səndirləyib yıxılsın.

Vahidin qanı qurumuşdu. Gözlərinə inana bilmirdi. Elə bilirdi adamı orda – faşistlərlə vuruşmada öldürürlər. Orda adamı vurub yıxırlar. Orda adamın meyitini yerdə qoyurlar. Bəs bu nə idi? Burda da fişistlər var idi? Burda da dava edirdilər? Burda da, burda da, deyə-deyə Vahid tirtap yerə yıxılmış, inil-inil inildəyən Vəli kişiyə baxır, amma heç nə başa düşmürdü.

– Di durmayın! Kişini tez binəyə çatdırmaq lazımdır. Görsünlər necə vurublar. Bəlkə, doktorluq işi var.

Vəziyyətin gərginliyindən kar İlyas da elə bil yaxşı eşitməyə başladı. Üzünü Kəlişə tutub tədbir tökdü:

– Sən burda qal, kişi təkdi. Ordan nigaran qalma, heyvanına özüm baxaram.

– Yaxşı! – razılaşdı. Bu, o qədər də üzüyola oğlan deyildi. Amma bu yerdə ölümə də göndərsələr, getməli idi. Vəli kişini tez binəyə aparmaq lazım idi. Burda qalsa, ölə bilərdi. Nə biləsən necə vurublar? Nə təhər vurublar? Oruc kişi onun başını nə iləsə sarımışdı. Görünür, başını yarıblar. Yoxsa Vəli kişi hər xırda-para şeynən yıxılan deyildi. Müxənnət köpək uşağı heç nədən kişini hayıf eləyibələr. Binəyə tez çatdıra bilsələr kişiyə baxardılar. Dərdini bilərdilər... Külfəti də aşağı binədə idi.

– Nejə aparajaqsan? – Oruc kişi İlyasın gözünün qabağında əlini oynadıb hündürdən danışdı.

İlyas dalını çevirib belini donqarlandırdı.

– Kişini qaldırın belimə qoyun. – Elə də etdilər. Özü də iri-miri adam idi. Az qalırdı kar İlyasın beli sınsın. Buna baxmayaraq, canını dişinə tutdu. Qolla-

rını qanırıb kişinin qıçlarına keçirdi və belində uşaq tutan təki yola düşdü. Burda ayağı sürüşdü. Orda qıçları dolaşdı, ancaq kar İlyas bircə yerdə də olsun dayanmadı, yaralını binəyə çatdırdı. Vəli kişinin arvadı iki əlli dizlərinə döydü, üzünü cırdı, saçlarını yoldu. İlyas ona acıqlandı.

– Əşi, bir dayan görək, qaraçılıq eləmə, ölməyib ha, üzünü-gözünü cırırsan?

Bu o demək idi ki, ağlamağın xeyri yoxdu. Kişiyə kömək etmək lazımdır. Vəli kişinin arvadı bunu başa düşüb səsini kəsdi. Kişini tez dəyəsinə apardılar.

* * *

Səhər gözünü açanda Vahid birinci Vəli kişini xəbər aldı, – canı üstündədir, – dedilər – nəfəsi gedib-gəlir. Vahid sözdə də, deyən adamın özündə də nikbinlik hiss elədi, bir az özünə gəldi. Vəli kişiyə görə çox nigaran qalmışdı. Fikirdən səhərə yaxın yuxuya getmişdi: yuxuda da dava-qalmaqal görmüşdü. Kim kimnənsə dalaşır, kim kimisə asıb-kəsir. Belə-belə qara-qura şeylər görmüşdü. Adamlar da dana-buzov təki böyələklənib oyan-buyana qaçırdılar. Bunun da dalınca bir yekə, qara, heybətli şey düşüb. Əlində də dəyənəyi var. İstəyir bunu vursun. Bunların hamısı gecənin o dəhşətli narahatlığından idi. Bu hadisə, bəlkə də, gündüz, işıq gözünə baş versə idi, ona bu cür ağır təsir etməzdi. Amma gecə vaxtı, özü də yuxulu-yuxulu, Vahid necə olsa, qorxmuşdu, vahimələnmişdi. Fağırca Vəli kişini də az qalmışdı o dünyalıq etsinlər. Başından çomaqla necə vurmuşdularsa, təpəsi cırılmışdı. Hamı çiynini çəkirdi ki, necə olub? Yaxşı ki, ölməyib, sağ qalıb. Bəs belə də iş olarmı?! Bunun oğlanları gedib davada faşistləri öldürürlər, bunu isə burda öldürürlər. Bəs bunu Allah götürərdimi?

Vahid fikirləşirdi ki, bu kişini vuranlar necə adamlardırlar? Nə canlı-cinlidirlər? Bəs bunların insafları-mürvətləri yoxdurmu? Beş-üç heyvandan ötrü o boyda kişini vurub öldürməyin nə mənası vardı. Ancaq maneçilik törədəcəyindən, mane olacağından qorxub Vəli kişinin dəyəsinə girmirdi. Ora uşaqları qoymurdular. Bəlkə də, buna bir söz deməzdilər. Vahid isə özü gendən hərlənirdi. Amma günortadan sonra onun dəyəsində adamlar seyrəlişəndən sonra özünü saxlaya bilmədi. Yavaşaraq yaxınlaşıb başını astaraq qapıdan içəri saldı. Gördü kişi dəyənin düz ortasında arxası üstə uzanıb. Başının altına da bir yekə yastıq qoyublar. Gözləri də yumuludur. Vahid bilə bilmədi o, gözünü aça bilmir, yoxsa yatıb? Bu da cınqırını çıxarda bilmədi. Arvadı da ayağının altında döşəyin qulağında çöməlib oturub. Səsini çıxarmasa da, kişinin üzünə baxa-baxa yumub-tökür. Bu da gecədən bəri bu qaydada idi. Gözünün yaşı idi, burnunun suyu. Bu ara arxasında Vahidin nəfəsini duyub arvad geri çevrildi və onu görcək bikef-bikef:

– Gəl içəri, dərdin alem, – dedi. – Məktub yaza bilirsənmi?

Nə məktub idi? Bu dar macalda məktub yazmaq onun hardan yadına düşmüşdü? Vahidin ağlına gəldi ki, Salatın arvad, yəqin, hökumətə şikayət etmək istəyir: bu işi belə qoymasınlar, gəlib yoxlasınlar, görsünlər onun ərini bu qoca vaxtında nə hala salıblar. Çox güman ki, Salatın arvad bunu deyirdi. Sadəcə olaraq şikayət ərizəsilə məktubu qarışdırırdı. Bunun eybi yox idi. Vahid başını tərpətdi ki, yaza bilirəm.

– Eləcə, dərdin alem, elə bax, günü bu gün uşaqlara məktub yaz, mənim dilimdən. Yaz ki, ay oğul, siz orda dava eləyirsiniz, bu hökumətin, bu camaatın yolunda qan tökürsünüz, burda da dədənizi öldürürlər. Elə vurublar ki, beyninin qatığı yerə tökülüb. Heç olmasa bircəciyiniz gəlin kişinin hayıfını alın.

Arvad bu sözləri dedikcə hövüllənirdi. Yandığından belə danışırdı. Arvada elə bil od qoyurdular. Tüstüsü təpəsindən çıxırdı. Vahid istədi onu desin ki, lazım deyil, oğullarına bildirmə, onlar elə yerdədirlər ki, fikirlərini yayındırmaq olmaz. Düşmənlər bundan istifadə edib vurarlar. Ancaq demədi. Fikirləşdi ki, arvad acıqlıdır. Hayıfını almağa bir şey axtarır, heç olmasa oğlanlarının gəlib atalarını belə eliyən dələduzlara divan tutacaqlarını fikirləşib sakit olar. Odur ki:

– Yaxşı, – dedi, – yazaram. – Hara yazım? Bilirsənmi yerlərini?

– Kağızları məndə var, – arvad əlini qoynuna salıb əsgər məktubu çıxartdı və Vahidə verdi. – Yazarsan. Arana gedən olanda verərsən, qoy göndərsin ordan.

– Aaz, – bu ara Vəli kişi iniltili səs çıxartdı.

– Hə-ə. – Salatın arvad tez qıvraq gəlin cəldliyilə ona sarı dikəldi. Görsün nə deyir? Nə istəyir?

– Nədi, aaz. – Bunlar heç vaxt bir-birlərinin adlarını deməzdilər. Bir-birlərinə həmişə «aaz» deyərdilər. Ümumiyyətlə, o kənddə köhnə arvadlar, kişilər üçün bir-birlərini adla çağırmaq eyib sayılardı. Vəli kişi də huşu-başı olmayan, ağlının təhərlənən vaxtında da öz köhnə müraciət formasını unutmayıb, yadında saxlayıb. Belə deyəndə, uşaq olsa da, Vahid başa düşdü ki, onda elə bir qorxulu şey yoxdur. Nə deyəcəyini gözlədi. Salatın arvad da bürüşüyünü açıb bir az dimriklənmişdi. Gözləyirdi ki, əri nə buyuracaq. Amma yalnız «aaz» deməyi oldu, sonra ondan səs çıxmadı. Onun belə eləməyindən ikisi də narahat oldu. İkisi də həyəcan keçirdi. Bu kişi ağlı başında olan adam idi. Sözünün təhər-töhürünü bilən adam idi. Yəqin ki, indi də elə-belə «aaz» eləmədi. Ancaq nə etmək olardı ki, sözünün ardını gətirmədi. Məcbur olub bunlar da vəziyyətlə razılaşdılar. Arvad yenə başladı içərisindən od tutub yanmağa, hövüllənməyə. Elə bir hala gəldi ki, danışmaya bilmədi.

– Bə bunu Allah götürərmi?! Bə bunu bəndə götürərmi?! Elə iyid oğlanların ola-ola, özünü vurub böyrü üstə qoyalar.

Vəli kişinin, həqiqətən, üç oğlu var idi. Üçü də davada idi. Üçündən də məktub gəlirdi ki, qəm eləməyin. Hitlerin canını almağa az qalıb.

İndi analarını da yandıran, göynədən bu idi ki, oğlanları gedib bunların qəniminin qabağını kəsir, bunlar da burda belə alçaq əməllərlə məşğul olurlar.

– Ay oğul! A Vahid! – Bu ara Vəli kişi açıqca onun adını çəkdi. Hövlnak kişiyə baxanda gördülər, nəinki danışır, hətta gözlərini də açıb. Görünür, bunların səsini eşidirmiş:

– Yazma, a bala, – dedi, – uşaqlara elə şey yazma. Mənə nə olasıdır? Bir az keçər, durram.

Əslində, Vəli kişinin danışması görünməmiş şey deyildi. Dili, ağzı olan adam danışar. Hələ istəsə mahnı da çağırardı. Amma bu vəziyyətdə, beyninin-başının çox ağır bir zərbə aldığı bir vaxtda özünü zora salıb bu sözləri deməyi, həqiqətən, görünməmiş şey idi. Görün nə qədər zor adamdır bu. Həm də burası da heyrətedici idi ki, özünün belə dəhşətli, ağır vaxtında da yenə onların, cəbhədəkilərin dərdini çəkirdi. Onların qayğısına qalırdı. Əsas onları hesab edirdi. Özünü nəzərə almırdı. Özünün bu halı ilə onların qanını qaraltmaq istəmirdi. Vahid həm də tam əmin oldu ki, belə güclü bir adama heç nə olmaz. Onu hər saatlıqla yıxmaq olmaz. Bu gün qoyun sağını baş çoban söylədi ki, Vəli kişi olmasa sürünü yarılayıb aparırlarmış. Hətta buna xəbərdarlıq edib deyiblər ki, yaxın gəlmə, vurruq. Bu yenə baxmayıb.

– Ayə, köpək uşağı! Necə yəni yaxın gəlməyin? Bəs siz bizi nə hesab eləyirsiniz?! – Əlində çomaq cumur. Yetirən kimi kişini ağacla vururlar.

Necə eləyiblərsə, itləri də aldadıb başqa səmtə çəkiblərmiş. İtlər o yanda hürəndə burda bu hadisə olur. Oruc kişi hiss eləyir ki, yoldaşını vurdular, ondan sonra məcbur olub qara-düzənə tüfəng atır. Amma dəyib-dəymədiyindən xəbəri olmur. Səhər o həndəvəri özü ələk-vələk eləyir ki, bəlkə, ağır yaralanan var, buralarda qalıb. Ölüdür ölüsünə rast gələrdi, diridir dirisinə. Amma bütün hər yerə baxmışdı, bir şey görə bilməmişdi. Qana-mana da rast gəlməmişdi. Xülasə, gecəki qovğa hələlik Vəli kişinin başının yarılması ilə nəticələnmişdi. Deyəsən, oğrular beş-on da heyvan aparmışdılar. Çünki Oruc kişi gözlərini sürüdə dolandırmış, zənnincə, bəzi heyvanlar gözünə dəymirdi. Amma itkini doğru-dürüst bilməyə macal yox idi. Adam, həm də arxayın vaxt istəyirdi ki, sürünü dar bir yerə vurub bir-bir saysınlar. Bu, əməliyyat hələlik qalırdı. Hamının başı Vəli kişiyə qarışmışdı. O, yaxşı olsun, hər şey düzələrdi. Bu barədə oğullarına da bir şey yazmaq lazım deyildi. Vahid də fikirləşib məsləhət bilmədi. Odur ki dedi:

– Yaxşı, Vəli dayı, arxayın ol, yazmaram.

* * *

Üçüncü gün Vəli kişi gözlərini tamam açdı. Doğrudur, o, gözünü birinci gün də açmışdı. Amma onda tezcə də yummuşdu. Görünür, yumanda ona yaxşı olurdu. Bəlkə, onda başının loqqultusunu bərk hiss eləmirdi. Amma ikinci,

üçüncü günləri gözlərini uzun müddət açıq saxlaya bilirdi. Bundan sevinən Salatın arvad da ərini yeməyə tutmuşdu. Qatıqdan, qaymaqdan, süddən, ilidən-istidən əlinə nə keçirdi peydar ona yedizdirməyə çalışırdı.

– Ye, ye, – deyirdi, – yeməsən irəli gəlməzsən. Bəs nahaq demirlər ki, yemək adamı yekə eləməz, amma yekə eləyər. – Salatın arvad elə sözlər deyir, elə hərəkət edirdi ki, elə bil qabağındakı uşaq idi. Bu yekə «uşaq» da elə arxası üstəcə çənəsi şaqqıldaya-şaqqıldaya verilən şeylərin hamısını qarnına ötürürdü.

Ərinə bu cür qulluq etməklə bərabər arvad başqa bir məsələnin də qeydinə qalırdı. Doğrudur, bu barədə ərinə bir söz demirdi, qorxurdu o da ürəyinə salıb halı xarablaşa. Qaş düzəltdiyi yerdə vurub gözünü tökə. Amma Vahidə tez-tez deyirdi ki, ay oğul, sən bilərsən bu aparılan heyvanların haqq-hesabı nə olacaq? Olmaya bizim belimizdən çıxarlar? Elə olsa bütüncə yazıq olluq, heç dolana bilmərik. Biz bir bölükük, ay oğul. Bax, gəlinlər aranda qalıb işləyirlər. Anaları balacaları da qoymadılar ki, qalıb sünbül yığsınlar. Vəli dayın da gecə-gündüz heyvanın dalındadır. Küllü-külfətli hamımız işləyirik, yenə də nə qarnımızda var, nə əynimizdə. Bu heyvanları da bizə cərimə eləsələr onda qanımız gedər. Beş-altı xırda heyvanımız var, gərək bunları da onların yerinə verək.

Vahid belə şeylərin necə olacağını bilməzdi. Oğurlanan heyvanların üstündən keçəcəkdilərmi? Kolxozunmu ayağında qalacaq? Yoxsa çobanlar ödəyəcəkdilər? Canları çıxıb heyvanı yaxşı qoruyaydılar. Öləydilər, amma verməyəydilər. Məsələni belə də qoymaq olardı. Vahid bu barədə hələ bir söz deyə bilməzdi. Buna görə də susmuşdu. Bu da öz-özünə fikirləşirdi ki, doğrudan da, görəsən məsələni necə həll eləyəcəklər? Vahid düşündü ki, bu iş ondan asılı olsa bağışlayardı. Vəli kişidən heç nə tutmazdı. Onun ailəsinin, balaca-balaca nəvələrinin boğazını biçməzdi. Heyif ki, ondan asılı deyildi. O, ayrı, kolxoz ayrı. O, ayrı cür düşünür, kolxoz ayrı cür. Onun ayrı cür ürəyi var, kolxozun ayrı cür. Hə-ə. Bunu niyə nəzərə almırdı?! Bütün bu hadisələrin içərisində, həyatın çoxlu dərdi-azarı arasında Vahidin uşaq, kövrək qəlbi o qədər nazilmişdi ki, hamıya canı yanırdı. Hamının qeydinə qalırdı. Gözünün qabağındaca görürdü ki, Vəli kişinin arvadı bir şeyin fikrindən qurtarıb, başqa bir azarın, qayğının cənginə düşür. Dünən ərindən başqa gözünə heç nə görünmürdü. Onun dərdini çəkirdi. İndi onun vəziyyəti yaxşılaşdı, bu isə başqa bir azara düşdü. Oğurlanın heyvanların məsələsini ürəyinə salmışdı. Sabah da başqa bir dərd çıxacaqdı. Davaya getmiş əsgər oğlanlarının fikrini həmişə eləyirdi. Bax, beləcə dərd, azar, fikir, qayğı çözələnə-çözələnə gedirdi. Bu nə vaxt qurtaracaqdı? Bu dərd-azardan onlar nə vaxt azad olacaqdılar? Nə vaxt asudə nəfəs alacaqdılar? Nə vaxt həyatda heç bir şeyin dərdini çəkməyəcəkdilər? Adamların həyatının yaxşılaşacağına, düzələcəyinə ümid qalmamışdı. Xüsusilə çörəyin bollaşacağına, «lap nə qədər istəyirsən ye» olacağına uşaqlar qəti inanmırdılar. Eh! İnsanların

qayğısı bir idimi, iki idimi?! Beş idimi?! Başdan aşırdı. İş o yerə çatmışdı ki, uşaqlar da dərd çəkirdilər. Müəyyən bir məsələ barəsində düşünüb dərin fikrə-xəyalə gedəndə Vahid özündən asılı olmayaraq, bir də görürdün əllərini qoynuna qoyur. Nə vərdişsə də, öyrəşmişdi, adət eləmişdi. Bu hərəkətindən özünün heç xəbəri olmurdu. O dəqiqə Səlmi arvad, yaxud başqa bir yaşlı adam bunu ona xatırladırdı:

– Əlini elə qoyma, dərdin alem, yaxşı döy.

Vahid əllərini tez salırdı. Bunu heç özü də eləmək istəmirdi. Səbəbini öyrənmişdi. Bədbinlik bədbinlik gətirər demişdilər. Gərək gülərüz, nikbin olasan ki, işlərin axırı da yaxşı ola. Ümumiyyətlə, bütün yaşlı adamlar uşaqların qəmli dayanmasına qıymırdılar. Həmişə çalışırdılar ki, onları çox fikir etməyə qoymasınlar. Qəm-qayğılarını dağıtsınlar. Onların kəndində Mələk adında bir arvad var idi, yaman da baməzə, ürəyiaçıq arvad idi. Arvad, kişi bilməzdi, hamının yanında özünü çox sərbəst aparardı. Dilinə gələni atardı, ağlına gələn hərəkəti eləyərdi. Əlbəttə, heç bir vaxt ədəb-ərkan çərçivəsindən çıxmazdı. Özünə də dəli Mələk deyirdilər. Bir gün görür ki, kolxoz idarəsinin böyründə beş-on uşaq qəmli-qəmli dayanıb. Elədirlər ki, bət-bənizləri də yoxdur. Eləcə ayaq üstəcə bulanırlar. Baxır arvad, ürəyindən qara qanlar axır. Nə etsin? Cibindən qənfeti yox çıxarıb versin. Uşağı da belə şeylərlə sevindirərlər. Ağızlarını şirin eləyərlər. Qalır belə... Ancaq düşünür ki, şirin çörəyi yoxdur-yoxdur, şirin dilinə, ürəkaçan hərəkətinə nə olub?!

– Ay uşaqlar, niyə belə durubsunuz? Niyə danışıb-gülmürsünüz? Niyə çalıb-oynamırsınız?

Uşaqların qırışıqları yenə açılmır. Boş yerə necə gülsünlər?! Toy yox, nişan yox, necə oynasınlar?! Arvad görür olmur.

– Onda əl çalın, mən oynayajam, – deyir.

Belə deyəndə uşaqların dodaqları qaçır, başlayırlar əl çalmağa. Bu da dəli-dəli düşür ortalığa, yekə arvad ola-ola dililə «Ninnini! Ninnini!» deyə-deyə oynayır. O qədər oynayır ki, uşaqların kefi açılır.

– Yaxşı, indi özünüz çalıb-oynayın, mənim işim var, gedim. – Uşaqlardan aralanır.

Deyirdilər bunun üstündə evdə əri, uşaqları, onu qınayıblar ki, ayıb döyülmü səndən ötrü, o nə oyundur çıxartmısan?! Saçın-birçəyin ağarıb, amma yenə... Bu da deyirdilər gülə-gülə deyib ki, uşaqlar özləri elə oynadılar ki, mənim də ürəyim açıldı.

Dəli Mələyin yaşadığı aşağı məhəllədə onun dəstiri Güləsər adında bir arvad da var idi. Əri əsgər getmişdi. Üç uşağnan qalmışdı damın altında. O da hamı kimi bir tapanda bir də tapmırdı. Uşaqlarını ölüm-zülüm dolandırırdı. Evdə heç bir şey olmayıb, uşaqlar ağlaşanda arvad dözə bilmirdi. Deyirdilər əhvalının

belə bir pərişan vaxtında uşaqları ağlaşa-ağlaşa evdə qoyub eşiyə çıxıb. Görüb burda da səsləri qulağına gəlir. Onların səsləri burda da onun canına-ciyərinə od salıb. Başını götürüb gedir. Harası var, hara getsin. Ərinin qohumlarından birinin evinə gəlir. İçəri girəndə görür Vahidin tayı olan İsmayıl adında bir oğlan saz çalır. Özü də elə eydirir ki, adamın canına yağ təki yayılır.

– Dərdin alem, ay İsmeyil, çalıynan, oynuyajam, – deyə Güləsər arvad qollarını qaldırıb süzür. Oynaya-oynaya baxanda görür uşaqları da ardına düşüb bura gəliblər. Bayaq evdə zuy-zuya getdikləri halda, indi analarının oynamasına baxıb irişirdilər. Elə bil bayaq gözlərinin yaşını axıdan uşaqlar deyildilər.

Bu oynamaq da elə bil yemək idi. Bunnan da qarını doyurdu. Bunnan da adam tox olurdu. Bunnan da adamın əhvalı yaxşılaşırdı. Nahaq yerə deməyiblər ki, acnan-gic güləyən olar. Adamlar da müharibənin doğurduğu o ağır dərdi-azarı, onun dəhşətli çətinliklərini çəkə bilməyəndə özlərini beləcə «arsızlığa» qoyurdular. Oynayırdılar da, gülürdülər də. Bəs nə etsinlər?! Əlacları nə idi?!

Vahid də indi bu Salatın arvadın dərdini çəkirdi. Necə eləsin ki, onun əhvalını bir az yaxşılaşdırsın. Onu fikir etməyə qoymasın. İşində-gücündə olsun. Ərinə baxsın. Yoxsa, özü demişkən, Vəli kişi irəli gələrdimi? Sağalardımı?

Bir gün qoyun sağınından gələndə Vahid öz yanından elə-belə dedi:

– Əşi, heyvan-zad apara bilməyiblər. Hamısı yerindədir. Sanılı qoz kimi.

– Hi! – eləyərək Salatın arvad bu xəbərdən içini çəkdi. Yəni, sən Allah, sən tanrı, doğrumu deyirsən?

Vahid başını tərpətdi.

– Boy! Nə yaxşı oldu! – Salatın arvad sevinmiş dönüb dəyəsinə girdi. Vahid bildi ki, onun dediyini ərinə xəbərə getdi. Həqiqətən, arvad ərinə nə dedi, nə demədisə, çıxıb üzünü Vahidə tutdu. – Öləm qabağında, Vəli dayın səni çağırır.

Vahid çaşıb qaldı. Əşi, söz idi, dilindən çıxartmışdı. Bu arvad da o dəqiqə gedib xəbər verdi. Nə olmuşdu?! Amanı qırılmışdımı?! İndi Vəli kişiyə nə desin? Desinmi ki, özüm zarafat edirdim? Onda deməzmi ki, ayə, qırışmal, bir parça uşaq ola-ola bu boyda arvadnan sənin nə zarafatın?! Ona nə desin?

– Bu saat. İndi gəlləm, – Vahid bir az ləngidi. Ləngiməkdə də məqsədi fikirləşib bir ağıllı qərara gəlmək idi. Yaxşı deyiblər ki, bir dəli quyuya bir daş atdı, yüz ağıllı yığılıb onu çıxarda bilmədi.

Salatın arvad dəyəsinin qabağında dayanıb onu gözləyirdi. Belinə bağladığı önlüyün də neçə yerdə yamağı vardı. Yazıq arvadın bir metr sətindən, bezdən parçası yox idi ki, özünə önlük tikə. Doğrudan da, cındırından cin ürkən bu arvaddan o qoyunları çıxmaq heç insafdan deyildi. Sonrası necə olacaqdı bilən yox idi. Axırı Vahid getdi.

– Nə var, nə yox, Vəli dayı, nə təhərsən? – İçəri gircək dil tökdü. Hal-əhval sordu. Özünü də şən tutmuşdu ki, onun da kefi açılsın. Yəni bütün işlər düzdür,

qaydasındadır. Heç bir əyər-əskiklik yoxdur. Nigaran qalmağa dəyməz. Qarşısına belə bir məqsəd qoyduğu üçün Vahid Vəli kişinin nə deyəcəyini də gözləmədən özü dedi: – Oruc dayım da sənə salam-dua söylədi. Dedi heç nədən nigaran qalmasın. İşlər yaxşıdır. Dedi özüm də yenə gəlib ona dəyəjəm. Tapşırığı bu oldu ki, fikir eləməsin. Yaxşı qurtardı deyir. Qaldı heyvan... deyəsən, heç apara bilməyiblər. Bir də, Vəli dayı, o barədə fikir eləmə. İşdir, heyvandan da bir-ikisi çatmasa, yəqin ki, kolxozun ayağına yazarlar. Səndən ha çıxmayacaqlar?!

– Ay sənin qıldığın qaçsın, – Vəli kişi güldü.

Vahid bilmədi bu kişi nəyə güldü. Amma xoşuna gəldi ki, güldü. Yəni Vəli kişiyə daha ölüm yoxdur. Kəfəni cırdı. İki-üç gün qabaq onun diriləcəyinə ümid az idi. Çoxları elə bilirdi ki, o yaradan sağala bilməz, öləcək. Amma möhkəm adam imiş. Bu yaşda bu zərbəyə tabladı, daha ona ölüm yoxdur. Vahid hər dəfə onu yaxşılaşmış, üzü bəri görəndə bu cür düşünür və sağalmasına şad olurdu.

Vəli kişi, nəhayət, gülməyinin, belə deməyinin mənasını ona çatdırmağa çalışdı.

– Səni ona görə çağırtmamışam. Eləcə sənlə söhbət eləmək istəyirəm.

– Eləyək, – Vahid həvəslə razılaşdı. Xoşuna gəldi ki, Vəli kişi onunla söhbət eləyir. Son vaxtlar yaşlı adamlarla oturub-durmasına şad olurdu. Daha ona uşaq kimi baxmırlar. Bir çox şeylərlə onunla məsləhətləşirdilər. Filan şey necə olsun? Bu işi nə təhər yoluna qoyaq? Sağıcılar, çobanlar yazı-pozu işində ona tez-tez müraciət edirdilər. Vahid artıq rəsmi adam olmuşdu.

– Aranda olanda davadan azdan-çoxdan xəbər tuturduq, – Vəli kişi söhbətə başladı. – İndi bura, yaylağa gələndən heç nədən xəbərimiz yoxdur. Bilmirik bizimkilər nə qayırdı? Deyirəm, bəlkə, bir şey eşitmiş olasan?

Vahidin xoşuna gələrdi ki, bu məsələ barəsində indi Vəli kişiyə ətaflı məlumat versin. Desin ki, vəziyyət bu cürdür, bizimkilər belə vuruşurlar, elə vuruşurlar. Ancaq məsələ burasında idi ki, dağa gələndən onun özü də heç bir şey bilmirdi. Qəzet almırdılar, jurnal almırdılar, arandan da gələn-gedən yox idi, haradan biləcəkdilər. Həm də burda dava-qalmaqala başları elə qarışmışdı ki, heç maraqlanmamışdılar. Bilsə idi ki, Vəli kişi bu barədə soruşacaq, gedib heç olmasa qonşu binələrdən xəbər alardı. Bəlkə, onlara arandan gələn-gedən var. Amma eləməmişdi. Bu, onun səhvi idi. Vahid düşündü ki, bu yerdə Vəli kişini intizarlı qoymaq yaxşı deyildir. Buna görə də:

– Yaxşıdır, Vəli dayı, yaxşıdır, bizimkilər irəliləyirlər, – dedi.

Vəli kişi inandımı, inanmadımı, demək çətin idi. Bir söz demədən qollarını yorğanın üstə çıxartdı. Yatdığı beş-altı gün idi, əlləri ağarmış və elə bil bir qədər inceləşmişdi.

Vahid Vəli kişinin yanından çıxanda hava dəyişmişdi. Dağların da bu xasiyyətindən heç keçməyəsən. Durduğu yerdəcə bir də görürsən qaş-qabağını

salladı. Di gəl tapıynan buna nə oldu? Kim xətrinə dəydi? Nədən alındı? Belə ki bunların düşdüyü dərənin boğazından sallanıb üzüaşağı çən gəlirdi. Bu çən hardan peyda olmuşdu? Sallanıb niyə gəlirdi? Bu, əlbəttə, təbiətin işi idi. Adamların işisə burda bu idi ki, belə havalarda mal-heyvana daha bərk göz-qulaq olsunlar. İtkiyə yol verməsinlər. Çənli-dumanlı günlərdə heyvan saxlamaq çox çətin idi. Bəzən beş-on metr uzağı görmək olmurdu. Onda da oğrunun-əyrinin, canavarın allahı verirdi, görürdün böyründən saplandı. İndi də heç xoşa gələn çənə oxşamırdı. Dərənin boğazından burula-burula qaynayıb qalxır, dərələrə dolur, yamaclara qalxır, dağı-daşı bürüyürdü.

Üst tərəf döşdən bu ara İlyas kişinin səsi gəldi:

– Ayə! Ayə! Ayə!

Bu da «Heyy» – deyə səsləndi. Ancaq hay verməklə, nə olsun, istəyirsən yüz bağır, onsuz da eşitməyəcəkdi. Yaxşı ki, bunu özü nəzərə aldığından sözünü dedi.

– Ayə, hava qarışdı, mən burdan tərpənə bilmirəm. Buzovlar çay qırağı dərədədir. Onların dalınca gedin.

Müraciət ümumi olsa da, əslində, bu sözlər Vahidə deyilirdi. İlyas kişi Vahidi çağırırdı. Adı çəkildi, çəkilmədi fərqi yox idi. Çünki indi burda başıpapaqlı bircə o idi. Qalanı hamısı arvad-uşaq idi. Odur ki tez tərpəndi getsin. Çən gəlib hər yeri bürüyəndə çətin olacaqdı. Çöldə heyvan qala bilərdi. Ancaq dayandı. Deyəsən, hava da çisəkləməyə başlamışdı. Heyvanı dərələrdən yığışdırıb gətirənədək islana bilərdi. Aranda nənəsi elə bunun davasını eləməmişdimi?! Bunun qorxusundan gedib şinelini götürdü. Çiyninə saldı. Dağa gələndən birinci dəfə idi ki şineldən istifadə edirdi. Özü də elə yaxşı isti idi ki, çiyninə salcaq hərarətini hiss elədi, şən halda fit çala-çala heyvanların ardınca getdi.

* * *

Adı qeydiyyatçı olsa da, Vahid fermada beləcə hər işin ardınca gedirdi. Dananın dalınca da yüyürürdü. Buzovları da bəri qaytarırdı. Qoyun-quzunun otarılmasına da kömək edirdi. Maşında süd də çəkirdi. Bir sözlə, elə iş-güc olmurdu ki, əl yetirməsin. Buna görə də hamı onun xətrini istəyirdi. Bütün sağıcılar, çobanlar ondan ötrü əlləri uzalı idilər. Söhbəti düşəndə hamı tərifləyirdi. Deyirdilər ki, yaxşı oğlandır, üzü yoladır, böyük-kiçik yeri biləndir. Həm də, maşallah, qoçaqdır. Şinelini çiyninə salıb yalda-yamacda, arxacda hərlənəndə elə bilirsən əkə-bükə kişidir. Arvadlar deyirdilər ki, Vahid olmasa neyniyərik! Hamı çəkilib malının, qoyununun dalınca gedəndə bizə o, həyan olur. Ömrü uzun olsun, atası əsgərlikdən gəlsin. Belə sözlər eşidəndə o da utanıb bir söz demir, əlini açırdı ki, mən neynəmişəm, amma görəndə ki, bunun elədiklərinə, hərəkətlərinə qiymət verirlər, onun qədrini bilirlər, bir az da həvəsli olurdu,

bir az da qoçaq olmağa çalışırdı. Öz işini də səliqəli tuturdu. Hər inəkdən nə qədər süd olur? Pendir nə qədər olur? Bunlar hamısı çəkilir, ölçülür, hesablanır və xüsusi dəftərlərə yazılırdı. Vahid işini elə qurmuşdu ki, sabah ona nöqsan tuta bilməsinlər, işi düzgün olsun. Uşaq olsa da o, həyatda nəyin, hansı cəhətlərin üstünlük təşkil etdiyini bilirdi. Bilirdi ki, yaxşı işləsən, ağıllı olsan hamı sənə hörmətlə yanaşar. Onun adamlara qarşı diqqətli, xoşxasiyyət olmasından Vəli kişi də çox məmnun qalmışdı. Vahid, demək olar ki, hər gün ona dəyirdi. Yanında oturub söhbət edir, bir şey lazım olanda verir, bacardığından onun üçün eləyir və bildiyindən, gördüyündən söhbətlər edirdi. Bax, belə-belə kişini sağaldıb ayaq üstə qoydu.

– İndi get yaşa, daha səndə heççə bir şey yoxdur. – Vahid şirin dilinə salıb onu bir az da həvəsləndirmiş, ruhlandırmışdı. Bundan Vəli kişi o qədər xoşhal olmuşdu ki, söhbətin səhəri günü işə çıxmışdı. Daha «hələm ağrıyıram» – deyib bəhanə gətirməmişdi. Təxminən on beş, iyirmi gün bundan qabaq gecə vaxtı İlyas kişinin belində ölü gələn Vəli kişinin indi sapasağ, ayaqlarını o daşa-bu daşa qoyaraq çayı keçib dik yuxarı qoyunun arxacına tələsdiyini görənlər qımışıb sevinirdilər. Bununla da Vahid bir az asudəliyə çıxmışdı. Bu çatan kimi Kəlişi geri göndərəcəkdi. Qoy gəlib öz heyvanına yiyə dursun. Bu ərəfədə danadan, buzovdan yaxşı ki, bir heyvan itirmədilər. Peşmançılıq olardı. Bir-iki gün keçəndən sonra da müdir Alı kişi gəldi. Sən demə çobanların başına gələn müsibəti ikicə gün bundan qabaq eşidiblər.

Alı kişinin gəlişinə, bəlkə də, hamıdan çox Vahid sevinirdi. Dağın da dağ azarı var. Hər halda, Vahid üçün çətin idi. Fermada bütün hər şeyə o cavabdeh olmasa da, bütün işlər üçün narahat olurdu. Hər bir şeyin fikrini eləyirdi. İndi onun burda olmadığı vaxtlarda nə olubsa, hamısı barədə Vahid Alı kişiyə danışmaq istəyirdi. Beləcə oldu, eləcə oldu. Bu, bir növ hesabat olardı. Yazı-pozularını göstərmək istəyirdi. O isə hey arvadı ilə danışırdı. Dönüb-dönüb soruşurdu.

– Nə var, nə yox, aaz?

– Sağlığın.

– Uşaqlar səni incitmir ki?

– Yox, əşi.

Vahidə elə gəlirdi ki, əri gələndən Səlmi arvad nəsə ayrı cür olub. Tapa bilmirdi ki, necə olub? Ancaq diqqətlə baxanda birdən-birə ona elə gəlmişdi ki, Səlmi arvad, deyəsən, gözəlləşib. Ərinin gəldiyindən sevinib yanaqlarımı qızarmışdı? Yoxsa bir azca bundan qabaq su qızdırıb iki daşın arasında başını yuduğuna görəmi belə göyçək görünürdü? Özü də deyirdilər ki, dağın suyu adamı yaman gözəlləşdirir. Elə eləyir ki, adam mərmərə dönür. Səlmi arvadın da rəngi-ruhu elə açılmışdı ki, üzü, boynu-buxağı mərmərdən də ötə idi. Çiçəyi

çırtdamışdı. Gözlərinin, çöhrəsinin cazibədarlığı artmışdı. Bu gözəlləşməyə səbəb nə idi? Vahid deyə bilməzdi. Amma onu deyə bilər ki, Səlmi ərindən ötrü əməllicə darıxmışdı. Xüsusilə bu son günlər səhər-axşam Vahidə deyirdi ki, görəsən bu kişi niyə gəlmədi? Harda qaldı? Hətta bir-iki dəfə uşaqlarına demişdi ki, gözüm yol çəkir, atanız gələcək.

– Nə vaxt gələcək? – Uşaqların da hərəsi bir yandan soruşmuşdu.

– Gələcək. Bu gündə, sabahda gələcək. – Səlmi arvad ürəyinə dammış kimi uşaqlarına tam yəqinliklə cavab vermişdi.

Vahid fikirləşmişdi ki, burdan-buraca ərindən ötrü darıxan arvad, bəs o, davada olanda necə dözürmüş? Alı kişi yaralanıb keçən il gəlmişdi. Səlmi arvad gör onda nə qədər sevinib. Yəqin, onda bundan da gözəl olub. Bundan da çox qəşəngləşib. Vahid indi Səlmi arvada baxıb elə istədi ki, onun da atası gəlsin, anası da sevinib gözəlləşsin, Səlmi arvad kimi göyçək olsun. Onda bu da sevinərdi. Onda bu da ürəkdən şad olardı.

– Kənddə nə var, nə yox, Alı dayı? Bizimkilər nə təhərdir? – Vahid bir-iki dəfə xəbər almışdı, təzə bir xəbər öyrənmək istəmişdi.

– Sağlığın. Yaxşıdırlar. – Alı kişi ümumi cavab vermişdi.

Bu da fikirləşmişdi ki, yəqin, elə bir şey yoxdur. Hər şey köhnəki kimidir. Ancaq gecə necə olmuşdusa, Vahid oyanmışdı və yan-yana olan dəyədən Alı kişilə Səlmi arvadın yerlərinin içində pıçıldaşdığını eşitmişdi.

– Aaz.

– Hə.

– Bilirsənmi kənddə bir pis şey olub?

– Nə olub?

– Arvadlar gecə xırmandan gəlirlərmiş. Taxıl döyümündən.

– Hə-ə.

– Birdən sədr qabaqlarına çıxır. Deyir taxıl oğurlayıbsınız.

Arvadlar əllərinin boşca olduğunu göstərir və and içib ağı yalayıblar ki, bircə dən də götürməmişik. Deyir, yox! Özüm öz əlimlə yoxluyajam.

– Boy. Üzüm ayağının altına, necə yoxluyajaqsan?

– Nejə nədir? Əlimi salıb qoynunuza, qoltuğunuza, baldırlarınıza, hər yerinizə baxajam.

– Sən nə danışırsan?!

– Nə danışıram?!

– Bizi biabır eləmə.

– Elə şey yoxdur. Dedim yoxluyajam.

– Vallah bir dən də götürməmişik. Uşaqlarımızın canı üçün götürməmişik. Nəyə deyirsən and içək, götürməmişik.

– And-aman bilmirəm. Dedim yoxluyajam. Vəssalam.

– Bəs onu allah götürərmi? Heç olmasa bir arvad gətir o yoxlasın.

– Dedim özüm yoxluyajam! – Sədr acıqlanıb irəli yeriyir. Qabaqda da bizim Vahidin anası Əsli imiş. Fağırca geri gedir ki, ondan uzaq olsun. Bu da qanıb-qandırmır, əlini atır ki, gəlinin qoyun-qoltuğunu yoxlasın. Bu ilmi ölübsən, bildirmi. Ürəyi gedib yıxılır. Toyuq təki partdamaya düşür.

– Booy! Ədə, ədə, sən nə oyun açdın?! – deyə arvadlar sədri tənbeh edib tez gəlinin qolundan, başından tutdular. Biri yelləyir. Biri şapalaqlayıb adıynan çağırır. – Ay Əsli! Əsli! Nə oldu, aaz, a?!

Əsli nə gəzir?! Cavab vermir. Arvadlar daha əl-ataşa düşürlər.

– Aaz, bu yazıq öldü ki...

Ger qaçıb xırmandan su gətirirlər. Üzünə, gözünə su vururlar. Haçandan-haçana özünə gəlib. Başlayır ağlamağa. Arvadlardan bir parası deyir ki, aaz niyə ağlayırsan, ağlama. Bir parası da deyir ki, qoy ağlasın, ürəyini boşaldıb yüngülləşsin. Bu, indi kənddə yenə söz-söhbətə səbəb olub, hərə bir zurna çalır.

Alı kişi sözünü qurtarmışdı ki, Səlmi arvad başladı sədri söyməyə. Köpəkoğlu! Eşşəkoğlu! Dünya dərəbəylikdir? Özünü tək görüb. Camaat elə bil namusunu çölə tullayıb. Əslinin yerinə mən olsam daşı-kəsəyi başına yağdırardım. Meyitini qoyardım orda.

Alçaqdan, pıçıltı ilə deyilsə də, Vahid bu sözlərin hamısını eşitdi və ona elə gəldi ki, yuxu görür. Əslində, belə əhvalat olmayıb, bunu yuxusunda görür. Belə şeylər olur axı. Bəzən adamın yuxusuna elə şeylər gəlir ki, ömründə belə əhvalat ola bilməz. Əlbəttə, yuxu heç. Əsas odur ki, ürək bulanan, adamın qəlbini qıran pis-pis şeylər həyatda heç kəsin başına gəlməsin. Vahid, bəlkə, yuxudan hələ tamam oyanmamışdı. Hələ yarıyuxulu idi. Xeyr. Vahid, bəlkə, bunu ona görə bilə-bilə yaxın qoymaq istəmədi ki, dəli olardı, ürəyi partdıyardı. Həqiqətən, belə bir dəhşətli vəziyyətə, dərəcəyə gəldiyi üçündür ki, bir də gördü səsi çıxmasın deyə özü-özünün ağzına nəsə basıb. Elə basıb ki, az qalır nəfəsi kəsilsin. Ağzına basdığı da şinelinin ətəyi idi. Onu dəyədə özü yatdığı tərəfdə başının üstündən çubuqdan asmışdı. Kefinin saz vaxtlarında ətəyindən tutub fikrə gedər, gah atasını xatırlayar, gah da Əsəd haqqında düşünərdi. Şinelin də özünə məxsus xüsusi ətri var idi. O biri paltarların ətrinə heç oxşamırdı. Nə təhər ətir idisə, Vahidin xoşuna gəlirdi. Burnuna tutub iyləyirdi. Axtarıb-axtarıb bu ətirləri tapırdı. Ona bir az elə bil tənbəki ətri çökmüşdü. Bir az da barıt ətri verirdi, şəhər ətri də. Vaqon ətri kimi bir şey idi. Yəqin ki, bu şinelə onların hamısının ətri çökmüşdü. Şineli geyəndə bütün bu ətirlərin hamısına elə bil bələnir və özü-özünə yaşlı adam kimi görünürdü. İndi isə daha o əhvalda deyildi. Şinelin ətəyini ağzına basıb necə qəzəblə dayanmışdısa başqa şey haqqında fikirləşə bilmirdi. Gözünün yuxusu da çəkilmişdi. Necə oldusa səhərə yaxın yuxu apardı. Bir də oyananda gün günorta olmuşdu. Fermanın məhsulunu hazırlayan Xatın arvad:

– Neynim?! Pendiri-zadı qoymağa yerim yoxdur, – deyirdi. – Həm də belə çox saxlamaq olmaz. Gərək duzlansın, boçkalara qoyulsun. Bizim də buna imkanımız yoxdur.

* * *

Hazır məhsulu mütləq arana aparmaq lazım idi. Bu şəraitdə saxlasalar, tərk olub gedərdi. Yağ, pendir qaxsıyardı. Sonra ələ gəlməzdi. Alı kişi çənəsini ovuşdura-ovuşdura bu barədə fikirləşirdi ki, Vahid öz namizədliyini irəli sürdü.

– Mən aparram.

Onun belə deməyi kişiyə gülməli gəldi. Təəccübünü gizlədə bilmədi:

– Sən?

– Hə.

– Hm. – Alı kişi fikirləşdi ki, cavanki cavan. Elə bilir asan işdir. Yolda əlindən alarlar, qalarsan belə. Bu təkliflə razılaşmaq istəmədi. Başqa bir yol tapmağa çalışdı. Çobanlardan birini göndərsin? Heyvan yiyəsiz qalırdı.

Vahidin isə doğru sözü idi. Özünə güvənirdi. Elə eliyərdi ki, arabanı sağ-salamat aparıb kəndə çıxarardı. Həm də evlərindən ötrü darıxmışdı. Anasını, nənəsini ürəyi istəyirdi. Bacılarını görmək onun üçün xoş olardı. Gəldiyi bir ay ancaq olardı, amma elə bilirdi ki, bir ildir burdadır. Fikirləşirdi ki, bu az vaxta o, ayrılığa dözə bilmir, ürəyi partdamağa gəlir. Bəs bu əsgər gedənlər necə dözürlər? Atası üçüncü ildir evdən çıxıb, arada bir dəfə də olsun evə gəlməyb. Bu, belə darıxanda, gör o, necə xiffət eləyir.

Alı kişi isə müəyyən bir qərara gələ bilmirdi. Arana kim getsin. Çox düşündükdən, götür-qoydan sonra axırı Vahidin üstünə gəldi. Çünki o, özü heç cür gedə bilməzdi. Birinci sürünü saymaq lazım idi. Görsünlər qalan nə qədərdir, itən nə qədərdir? İkinci, oğruların izinə düşmək lazım idi. Belə qoymaq olmazdı. Dalınca düşməsən ayaqları yer ala bilərdi. Gəlib yenə ziyan verərdilər. Üçüncüsü də bu idi ki, arada heyvana duz da vermək lazım idi. Qırxına da az qalırdı. Belə-belə işlər çox idi. Ona görə də özünün arana qayıtması mümkün olan iş deyildi.

– Bəs yoldaş kimi götürürsən?

– Uşaqlardan biri, Kamaldan, Mahaldan hansı olur-olsun.

Alı kişi böyük oğlunu məsləhət gördü:

– Mahal çox balacadır, amma Kamalla gedə bilərsən, sənə köməyi dəyər, həyan olar.

İki gündən sonra arabanı yüklədilər. Neçə baş pendir düzəltmişdilərsə, hamısını qoydular. Altdan iriyarpaqlı dağ otu tökmüşdülər. Ətrindən adam bihuş olurdu. Üstündən pendir başlarını düzdülər. Arabanın qabaq hissəsinə də iki bidon yağ qoymuşdular. Bunları arabanın alt ağacına, çağlarına bağlamışdılar

ki, tərpənməsin, enişdə, yoxuşda aşağı, yuxarı qaçmasın. Üstünü də yenə dağotları ilə örtmüşdülər. Böyür-başına da yenə pendir qoymuşdular.

– Hər yerdə kənd içindən, camaat içindən keçəcəksiniz, bir şey olsa deyin, kömək edərlər. – Alı kişi onlara ürək-dirək verdi.

Vahid əlində uzun bir qamçı tutub dayanmışdı. Bu, fermanın buzovçusu Kəlişin qamçısı idi. Elə uzun qamçı idi ki, fırlayıb şartdatmaq istəyəndə uc hissəsi havada şimşəktək oynayırdı. Bu qamçı hörüklü araba üçün idi. Arabanın qolu üstə dayanıb havada bulayanda ucu az qala hörük öküzlərinə çatırdı. Kəliş isə elə-belə buzovlarını qorxuzmaq üçün götürürdü. Körpə heyvanları vurmağa onun əli gəlməzdi. Elə-belə başı üstə şartdadıb səs eləyəndə o dəqiqə buzovların qulaqları şəklənirdi. Uzağa gedən də geri qayıdırdı. Əslində, bu cür qamçı indi Vahidə lazım deyildi. Çünki arabası hörüklü deyildi. Bir boyun öküz bəs eləyirdi. Yükü elə ağır deyildi ki, hörük də qoşasan. Amma qamçını elə- belə əldə tutmağın özü nəyə desən dəyərdi.

– Hə, yaxşı yol sizə, – Alı kişi bir də dillənəndə uşaqlar hoppanıb arabaya mindilər. Arana getdiyindən sevinib Kamalın dişləri ağarırdı. Vahid də özünü şən tutmuşdu. Əslində isə kefi yox idi. Anasına görə o gündən bərk dilxor idi.

* * *

Qorxurdular ki, yolda onlar üçün çətin olsun. Pis adamlara rast gəlsinlər. Apardıqlarını əllərindən alsınlar. Amma heçcə bir şey olmadı. Sağ-salamat gəlib kəndə çıxdılar. Arabanı düz anbarın ağzına sürüb gətirdiklərini çəkib təhvil verdilər. Anbardara qol çəkdirdilər. Hər şey qayda-qanunla oldu. Vahid artıq belə şeyləri bilirdi. Öyrənmişdi. Bilirdi ki, əsas cavabdeh odur. İşini təmiz tuturdu. Bütün bu işləri qurtarandan sonra Vahid arabanı qapılarına sürdü. Ancaq əliboş getdiyinə utanırdı. Hər halda, başqa yerdən gəlirdi. Heç olmasa yeyiləsi dağ bitkilərindən – kığdan, baldırğandan, cəlyərdən dərib bir şey gətirmədi ki, indi çıxarıb versin. Deyərdilər ki, Vahid bizi yada salıb. Xətirləri xoş olardı. Ancaq qanı qara olduğundan yadına heç nə düşməmişdi.

Araba cırıldaya-cırıldaya qapıya gedəndə nənəsi səsə eşiyə çıxdı. Nəvəsini görcək arvadın dini dirildi.

– Booy, bunun arabasına da qurban olum, özünə də. – Yüyürdü. Az qaldı özünü təkərin altına salsın. Qocaldığından təngildəyirdi. Həm də səhərdən-axşamadək həyət-bacada dümələnə-dümələnə iş gördüyündən taqət qalmamışdı.

– Ənnə, bir dayan, yıxılarsan, arabanın altında qalarsan, – Vahid hoppanıb nənəsinin qabağına düşdü.

Nənəsi qollarını açıb onu qucaqladı.

– Atam-anam! Malım-payım. – O üzündən, bu üzündən öpməyə başladı. – Xoş gəlibsən. Sən gələn yollara qurban ollam. Bə kimnən gəlibsən?

– Alı kişinin oğluynan.
– Elə ikinizciyəzmi?
– Hə.
– Booy! Nənən daşlara dönsün. İki uşaq o yolları necə gəlibsiz? Bəs indi o uşaq hanı?
– Evlərinə getdi.
– Hə-ə. Hə-ə. Ola ki, nənəsi burdadır. Dağa getməyib.
– Anam hanı?
– Xırmandadır, ağrın ürəyimə. Fağırcaların günü ha yoxdur. Gecə-gündüz əlləşirlər, bacıların da ordadır.

Vahid daha bir söz demədi, öküzləri açdı. Bərk yorğun olmasına baxmayaraq, oturub dincəlmək istəmədi. Ürəyində nəsə tövr eləyirdi. Anasını görməsə, sakitləşməzdi. Onun başına gələn əhvalat o gecədən bircə an da olsun ağlından çıxmamışdı. Bütün yol boyu o haqda fikirləşmişdi. Kolxoz sədrinin hərəkətini gözünün qabağına gətirdikcə az qalırdı dəli olsun.

– Ənnə, mən indi gəlirəm. Bu saatca gəlirəm. – Gedib anasına dəyməyi qərarlaşdıran Vahid evə gəlməyilə qayıtmağı bir oldu.

Xırmana gələndə işin qızğın yeri idi. Motor səsi aləmi bürümüşdü. Arvad-uşaq hərə bir tərəfdən işə cumulmuşdu. İki-üç adam aşağıdan yuxarı dərz atırdılar. Bir-iki nəfər də yuxarıda, maşının üstündə dayanmışdı. Onlar orda dərzlərin bəndəmini maşına verirdilər. Özü də bu işlər çox sürətlə görülürdü. Yoxsa çatdırmaq olmazdı.

Vahid anasını, bacılarını hələ xeyli uzaqdan görmüşdü. Anası da molotilkada işləyirdi. Elə idi ki, başını qaşımağa vaxt yox idi. Dərzin birini yuxarı atmağı ilə əyilib o birinə yönəlməyi bir olurdu. Çox ağır iş idi. Arada bir balaca dincəlməyə, nəfəs dərməyə imkan yox idi. Vahid gördü ki, anası yaman yorulub, tamam əldən düşüb. Başı-gözü, boynu-boğazı da bütüncə her-heşəndir. Örpəyinin uclarından sünbüllər sallanır. Elədir ki, heç tanılası görkəmi yoxdur. Vahid çox pis oldu və hətta ürəyində öz-özünü qınadı ki, gedib dağlarda gəzir, amma gör anası burda nə haldadır. Cəhənnəm əzabı çəkir. Bu da oğuldur?! Bu da övladdır?! Hələ bir utanmaz-utanmaz ortalığa da çıxır. Hələ bir başını qaldırıb camaatın üzünə də baxır. İndi gör onun haqqında nələr deyirlər. Yəqin, ürəklərində onu qınayırlar. Vahid elə pis oldu ki, yer yarılsa, yerə girərdi. Eyibini qara torpaq örtərdi. O, bura gələndə heç ağlına gətirməmişdiki, belə şeylər düşünə bilər. Bu hissi əvvəlcədən keçirsəydi, bəlkə də, eybinə kor olub bura gəlməzdi. Ancaq artıq xırmanda idi. Camaatın başı işə-gücə bərk qarışdığı vaxtda Vahid özünü yetirdi. O dedi: xoş gəlmisən, bu dedi: xoş gəlmisən.

– Bıy! Dərdin alım, nə vaxt gəlmisən? – Anası da onu görəndə bilmədi nə etsin, ancaq işindən qalmayıb yorğun olmasına baxmayaraq, şən-şən gülümsədi. Həm də oğlunu süzdü. Görsün nə təhərdir. Dağın bir xeyri olubmu? Kökəlibmi?

– İndicə gəlmişəm. – Vahid əlini onun yabasına yetirdi.

– Yox, yox. Üst-başını toz eləmə. Çör-çöp səni yeyər. Gendə dur. – Ana razı olmadı.

– Bəri ver! – Vahid dartıb yabanı onun əlindən aldı. Ürəyi partlamağa gəlirdi. Heç razı olardımı ki, o dura-dura anası işləsin. Başladı yerdən dərz verməyə. Yaxşı deyirlər ki, kənardan baxana döyüş asan gələr. Amma bu, o qədər də asan iş deyildi. Hər dərzi verdikcə adam o dünyanı görüb gəlirdi. Adamın əli-qolu ağrıyırdı. Beli qırılırdı. Vahid qolu çatmayacağından qorxub hər dəfə pəncələri üstə qalxıb boynunu yuxarı uzadırdı. Özünü şax tutmuşdu. Səliqəli işləməyə cəhd edirdi. Yabanın altında büdrəməsin, ayaqları dolaşmasın, dərzi yuxarıda dayanmış adama düz versin. Bilirdi ki, onun da yaxşı işləməsi bundan asılıdır. Bu yaxşı işləsə o da yaxşı işləyər. Bu gərək onu dərzlə təmin etsin ki, o da öz növbəsində maşını təmin etsin. Hamı bir-birindən asılı idi. Hamı bir-birinə bağlı idi. Bütün bunları Vahid yaxşı başa düşür və var qüvvəsi ilə işə can yandırırdı. Bilirdi ki, yan-yörədən onun necə işləməsinə fikir verirlər, diqqət yetirirlər. Elə eləsin ki, ona nöqsan tutmasınlar, lağ eləməsinlər. Deməsinlər ki, əlindən heç nə gəlmir. Yaxud dağçı arançı ilə bacarmır. Bu inadkarlıqla Vahid işləyir, ümumi sürətdən geri qalmamağa cəhd edirdi.

Bir xeyli işlədikdən sonra anası gəlib onu dəyişdi.

– Hələ yox. Sonra. – Anası baxmadı, yabanı əlindən aldı.

– Sən indi bir az dincəl, – dedi, – mən işləyim, sonra gəlib yenə kömək edərsən.

Vahid razılaşdı. Çünki artıq zığ durmuşdu. Molotilkada yarımca saat işləmək onu əməlli-başlı yormuşdu. Tərə batıb çıxmışdı. Köynəyinin altından kürəyinin arası aşağı elə bil su gedirdi. Tövşüyünü də saxlamağa çalışırdısa, yenə hiss olunurdu. Dağlarda soyuq bulaqlardan içə-içə yalda-yamacda gəzməyinin ləzzəti bu bir yarım saat ərzində burnundan gəlmişdi. Ancaq Vahid özünü camaatın qabağında sındırmır, özünü o yerə qoymurdu. Guya, belə şeylər onun vecinə deyil. Guya, yüz belə işləsə də yorulmaz. Bu əhvalla əyilib bayaq anasının əlindən yabanı yerə atdığı qamçını götürdü, maşından bir azca gendə durmaq istəyirdi ki, kolxoz sədri Xındı kişi ilə üzbəüz gəldi.

– Sənin burda nə itin azıb, ə?

Onun buna xoş üz göstərməsinə baxmayaraq, eşitdiyi söhbətdən ürəyi bulanmış Vahid acıqlı cavab verdi.

– Azmasa gəlməzdim.

Sədr bir az sərtdəndi.

– Sənnənəm! Nə var, niyə gəlibsən?

– Yağ-pendir gətirmişəm.

– Hardadır yağ-pendirin?

– Anbara təhvil verdim. – Vahid bunu da izah eləməyi vacib bildi ki, bu barədə söz-söhbət olmasın. Onnan danışanda ürəyi çəkilirdi. Pis olurdu. Başına ağrı vurdu. Onu görməyə gözü yox idi. Bu hamısı anasına görə idi. O ki onu qorxudub, elə eləyib ki, ürəyi getsin, bunun da indi ondan acığı gəlirdi. Ürəyində «iti görüm, qurdu görüm, amma dəmbərçək Xındını görməyim», – deyirdi.

Sədr də ona heç fikir vermədi ki, bu oğlan niyə belə burulub? Nə üçün köntöy-köntöy danışır? Qarnının azarı nədir? Heç bir şey ağlına gəlmədi. Ürəyi bir şeydən sancsa, bəlkə də, ona baş qoşmazdı. Bu hara, o hara? Əksinə, oğlanın hikkəli duruşuna, əlindəki qamçıya baxıb zarafat etdi:

– Nə uzun qamçın var, ə?!

Vahid bu kişiyə qarşı o qədər kinli idi ki, əlində qamçının sapını sıxıb bir az da qaş-qabaq tökdü.

Bu da nə bilsin?! Səsi uculadı:

– Elə bil bizi döyməyə gəlibsən. – Belə deməklə bərabər əlini atıb oğlandan qamçını aldı və başı üstə fırladıb onu Vahidin belinə doladı.

Vahid də bir xırda şeyə bənd idi. Daha da alındı. Bunu bir başqa adam eləsə inciməzdi. Lap vursa da, döysə də, təpəsinə, gözünə budasa da inciməzdi. Amma bu kişinin belə eləməyi möhkəm acığına gəldi, xətrinə dəydi. Bax, bu həmən adam idi. Arvadların qabağını kəsib əlləri onların qoyun-qoltuğuna salmaq istəyən adam. Əllərini arvadların döşündə, başında gəzdirmək istəyən adam. Bunları ağlına salıb Vahidi od götürdü. İçəridən yanmağa başladı. Bu ara beyni necə qıjıldadısa:

– Elə yox, a Xındı dayı! – dedi.

– Bə nejə?

– Bax, belə! – Vahid dartıb qamçını kişinin əlindən aldı, geri çəkilib dəli-dəli qamçını başı üstə necə fırladısa, qolunu bir də gendən bulayanda qamçının ucu ilan təki kişinin ayağına dolaşdı. Çox sərt bir hərəkətlə dartanda dəmbərçək Xındı yernən bir oldu. Arxası üstə necə aşırıldısa, elə bil kişini aşağıdan biçdilər. O, ha eləyib qalxanadək Vahid durardımı?! Aradan çıxıb qaçdı.

* * *

İndi Vahid bir az sakitləşmişdi. Hər halda, dəmbərçək Xındı başa düşərdi ki, o niyə belə elədi. başa düşməsi yaxşı idi, özünə yığılardı. Buna Vahid tam əmin idi. Çünki o boyda gövdə kəllə-mayallaq birdən yerə elə gəlmişdi ki, gurump eləmişdi. Zalım oğlu elə bil amanat imiş. Qamçının dartılması ilə onun yerə gəlməyi bir olmuşdu. Görünür, boş dayanıbmış. Vahid acıqlı-acıqlı qamçını dartmışdı. Bir də balacalıqla, böyüklüklə deyil axı. Görünür, hər bir şey insanın təpəri ilə bağlıdır. Nahaq yerə deməyiblər ki, ürəkdə təpər olanda qılınc taxtadan da olsa kəsər. Amma bunun üstündə nənəsi evdə onu danlamışdı.

– Bıy səni yarıma! – demişdi, – ayıb döymü o boyda kişini yıxmısan, demirsənmi o da tutub sənin qulağını eşşək qulağı tək uzadar?

– Qələt eliyər, – deyə Vahid də cavab vermişdi.

Anası isə heç nə deməmişdi, oğlunun belə eləməyi elə bil ürəyindən idi.

O isə, deyirdilər, Vahidi yaman yanıyır. Deyirdilər ki, deyir zərər yoxdur, görsün mən onun başına nə oyun açıram. Gərək onu zəlil qoyam. Gərək onu qabağımda sürüm-sürüm sürütdürüm.

Vahid səhər obaşdan dağa yola düşməyə hazırlaşırdı ki, axşam gəlib araba-ulağı qapıdan apardılar.

– Daha sən getməyəcəksən, – dedilər, – səni fermadan çıxarıblar.

Dağdan gələndə nənəsi Vahidə fikir vermişdi. Görmüşdü yanaqları allanıb, sevinmişdi. İndi qapıdan araba-ulaq gedəndə qoca arvad yanıb tökülmüşdü.

– Boyy! Sizi yarıyolda qalın, – demişdi. Sonra da hövüllənmişdi ki, gedib onunla dalaşacam, görüm yekə kişi ola-ola utanmırmı uşağa qoşulur.

– Getmə! – Gəlin razılıq verməmişdi.

Pərt olmuş Vahid də əvvəl-əvvəl bunu ürəyinə salsa da, sonra vecinə almadı. O qədər iş-güc, əyər-əskik vardı ki, dağda olanda da elə buranın fikrini eləyirdi. Görəsən, filan iş nə oldu? Filankəsdən məktub gəldimi? Xüsusilə atasından çox nigaran idi. Elə o vaxt məktub gələn idi. Qospitaldan yazmışdı. Yazmışdı ki, tezliklə yenə yazacam. Amma yazmamışdı. O zamandan məktub almırdılar. Bu kişi harda qaldı? Xəbərləri yox idi. Vahid Əsədgilə qaçıb ondan da xəbər tutmuşdu. Sən demə dağda olanda Əsəddən yenə məktub gəlibmiş. Yazıbmış ki, təlim keçirik. Səhərdən-axşamadək ayaq döyürük, tüfəng atırıq, qarnımız üstə sürünürük. Sonra da yazıb ki, məndən nigaran qalmayın, yaxşıyam. Özünüzə baxın. Əsədin anası bunları Vahidə söyləyəndə əlini dizinə vurub:

– Anası ölmüş, – demişdi, – bizim dərdimizi çəkir. Ta demir ki, bizə nə olasıdır?!

Bu belə deyəndə Vahid öz atasını fikirləşmişdi. Fikirləşmişdi ki, yəqin, o da bunların dərdini çəkir. Deyir, görəsən, nə təhərdirlər? Necə dolanırlar? Burdakılar oradakıların fikrini eləyirlər, oradakılar da burdakıların. Heç yer intizarsız deyil. Heç yerdə rahatlıq yoxdur. Bu ağlına gələndə Vahidin qəlbi elə qubarlandı ki, eşidilməsi mümkün olsaydı, bir təpənin başına çıxar, ordan var gücü ilə qışqırardı ki, ay dədə, bizdən nigaran qalma. Vahid onu da fikirləşdi ki, yəqin, belə iş mümkün olsa, o da ordan qışqırardı ki, siz də mənə görə fikir eləməyin! Bu ara Vahid atasını elə həsrətlə andı ki, ondan ötrü ürəyinin başı göynədi. Səsini elə bu dəqiqə eşitmək istədi. O doğma səsi harda eşitsə, yollara tikan da döşəsələr Vahid lap ayaqyalın qaçardı. Vahid hiss etdi ki, həsrətdən ürəyi döyünür, tez özü öz fikrini dağıtdı, sakitləşdi. Çünki onu kefsiz görüb ev-

dəkilər də qəmlənərdilər. Bundan qorxduğu kimi Vahid, bəlkə də, heç nədən qorxmurdu. Bunumu, yaxud bacılarınımı nənəsi bir balaca kefsiz görəndə başlayırdı ovulub tökülməyə.

– Booy! Nənəniz ölsün! – deyirdi. – Sizin nə vaxtınızdır fikir eləməyə. – Sonra başlayırdı ağlamağa. Vahid başa düşürdü ki, o da davaya getmiş oğlunun kürlüyünü eləyir. Bundan da anası pis olurdu. O da bu yandan dərdə-qəmə batırdı. Ona görə Vahid özünü həmişə şən göstərməyə çalışır və çox vaxt yerli-yersiz zarafatlar eləyirdi. Bunun da əsas bircə çarəsi vardı, o da iş idi. Adamın başı qarışırdı. Yoxsa dözmək olmazdı. Adamın ürəyi partlayardı. Yaxşı ki, aradan heç ikicə gün keçməmiş briqadir çağırıb dedi ki, molotilkaya gedəcəksən, karrafda işləyəcəksən. Dağların o gözəl, təmiz havası hara, molotilkada işləmək hara? Saman daşınması xüsusilə zülm idi. Başqa çarə yox idi. Xındı kişi acıq çıxırdı.

* * *

Əsəd gedəli xeyli var idi. Gedəndən beş-altı məktub gəlmiş olardı. Orada boş vaxt nə gəzirdi ki, oturub gündə məktub yazasan. Oranın işi çətin idi. Əsəd özü yazmışdı ki, axşamadək ayaq döyürük, qarnı üstə sürünürük. Bunlar ona görə idi ki, canları möhkəm olsun, yerə elə sinə bilsinlər ki, faşistlər onları görməsinlər, vura bilməsinlər. Bizimkilər beləcə sürünə-sürünə gedib birdən onların başının üstünü alsınlar. Elə etsinlər ki, onların heç qanadlarını açmağa imkanları olmasın. Əsir alıb qabaqlarına qatsınlar. Bunların əllərində tüfəng, onların isə əlləri yuxarı gətirib gəlsinlər.

Vahid müharibə barəsində düşünəndə gözünün qabağında həmişə bu cür səhnələr canlanırdı. Həmişə özününkülər onları üstələyirdi. Həmişə özününkülər onları qovurdu. Həmişə özününkülər onlara qalib gəlirdi. Güclü həmişə özününkülər çıxırdı. Bu, bəlkə, ona görə idi ki, Vahid çox davalı filmlər görmüşdü. Və bu filmlərin hamısında qalib gələn, güclü çıxan özününkülər olmuşdu. Görmüşdü ki, qırmızılar ağları necə qovurlar, pulemyotun qabağına salıb necə qırırlar. Bu müharibədə isə həmən o qırmızıların yerində indiki sovet soldatları idi. Vahidin atası idi. Qərənfilin atası idi. Əsəd idi... Bunlar lap çox idi. Bir balaca kənddən elə ev olmamışdı ki, davaya getməsin. Onlar hamısı birləşib «Urra!» deyə düşmənin üstə hücum çəkəndə faşistlər elə qaçır, elə qaçırdılar ki, Vahid burada özü öz xəyallarından xoşlanıb sevinirdi. Belə hallarda kənardan baxan olsa, onun dişlərinin necə böyük fərəh, qürur hissilə ağardığını görərdi. Özü də bu məqamlarda dəyişilib elə bil ayrı cür olurdu. Rəngi-ruhu durulurdu. Gözləri təbəssüm saçırdı. Qəşəngləşirdi. Özününkülərin mərdlikdə döyüşməsindən, düşmənin üstə od ələmələrindən xoşlanıb, ruhlanır, az qalırdı gedib bu da ərizə versin, desin: mən də könüllü gedirəm. Necə ki Əsəd getdi.

Hə-ə. Onunku ayrı şey idi. O, Südabənin acığına getdi. Onun bircə kəlməsinin acığına getdi. O bircə kəlmə ona necə təsir etmişdisə, oğlan əsgərliyə getmək xəyalına düşmüşdü. Onu yerindən oynatmışdı. Adi, quruca bir sözün bu cür güclü, təsirli olduğunu Vahid bilməzdi. Bəlkə də, başqa beç bir şey onu yerindən tərpədə bilməzdi, amma o bircə kəlmə gör onu haralara aparıb çıxartdı. Onu dəhşətli odun-alovun içinə atdı. Əsəd də söz götürən deyilmiş. İnadını yeritdi. Qıza başa saldı ki, sən mənə elə-belə baxma, mən papaq altda qalan oğlanlardan deyiləm.

Həmən əhvalatdan sonra qızın da oğlandan xoşu gəlmişdi. Bu aşkarca hiss olunurdu. Çünki Südabə oğlanla tez-tez maraqlanırdı. Vahiddən neçə dəfə soruşmuşdu ki, Əsəddən sənə məktub gəlirmi?

– Gəlmir. Elə o dəfə aldığımdır, – Vahid təəssüf hissilə cavab vermişdi. Başa düşmüşdü ki, oğlanın fikrini eləyir. Ondan tez-tez xəbər tutmaq istəyir. Qızın belə olması oğlanın xoşuna gəlmişdi. Adamın ürəyinə beləcə od salarlar. Ağlını başından beləcə çıxardarlar. Hətta xəbər almaq istəmişdi iki, Əsədin şəklini neynədin? Divaramı vurubsan? Yoxsa bir kitabın, dəftərin arasında saxlayırsan? Bəlkə, bir boğcan var, ora qoyubsan? Amma xəbər ala bilməmişdi. Qızı utandıracağından qorxmuşdu. Südabə özünü elə aparırdı ki, guya, şəkil haqq-hesabı olmayıb. Bu ona şəkil verməyib. Bir dəfə də olsun qız bu barədə bir söz deməmişdi. Halbuki o, şəkli qaytarmalı idi. Bəlkə, ona həmişəlik verməmişdilər. Əmanət vermişdilər. Qız isə üzdülüyünə salıb özündə saxlamışdı. Bu da üstünü vurmurdu. Uşaq olsa da, Vahid bilirdi ki, həyatda hər şeyi açıb ağartmaq yaxşı deyil. Elə şeylər olur ki, onu gərək gizlin saxlayasan. Biri elə bu məhəbbət məsələsi. Onun, bəlkə də, əsl gözəlliyi, şirinliyi elə gizlin baş verməsində, gizlin olmasındadır. Ürəkdə saxlanmasındadır. Düzmü, əyrimi, Vahid belə düşünürdü. Və bu sirri bir kəsə açmaq, söyləmək fikrində deyildi. Amma bəzən maraqla fikirləşirdi ki, qız, görəsən, oğlanın şəklini harda gizlədib? Çox götür-qoydan sonra oğlan bu qərara gəldi ki, qız o şəkli medalyona salıb boynuna keçirib. Vahid eşitmişdi ki, nişanlı qızlar belə eləyirlər. Əsəd də Südabənin rəsmi nişanlısı olmasa da gizlincə sevdiyi, istədiyi oğlandır. Ona görə də, o da oğlanın şəklini medalyona salıb boynundan asıb. Bu səbəbdən də Vahid hər dəfə Südabə ilə rastlaşandan qızın boynuna baxardı. Medalyonu görmək istəyirdi. Qıza da Allah insaf versin, yayın isti günündə boyun-boğazını elə örtərdi ki, elə bil soyuq dəyəcəkdi. Kəlağayısının bir ucu da həmişə döşünün ortasında olardı. Necə deyəsən ki, kəlağayını yana elə. Hər nə təhər, Vahid Əsədin şəklinin yerini orda görürdü.

Hətta bu barədə Əsədə məktub da yazmaq istəyirdi. Bilirdi ki, o bundan yaman sevinər, xətri xoş olar. Uçmağa qanadı olmaz. Fikirləşər ki, bilsəydim Südabə mənim şəklimi medalyona salacaq əsgərliyə bir az da tez gələrdim.

Qərəz ki, bundan ruhlanıb kim bilir ordan nə oyun açardı. Təlimdə hamıdan fərqlənərdi, seçilərdi. Hamıdan yaxşı tüfəng atardı. Hamıdan düzgün nişan alardı. Hamıdan ürəkli cəsarətli olardı. Vahid yəqin bilirdi ki, belə olardı. Buna şübhəsi yox idi. Özü Qərənfili görəndə bilmirdi neynəsin. Özü Qərənfildən ötrü canından keçməyə hazır idi. Əsəd də onun kimi. Amma bu ərəfədə Əsəddən məktub gəldi ki, bizi köhnə yerimizdən dəbərdirlər. Harasa aparırlar. Məndən qəti nigaran qalmayın. Sonra bir yerə toxtayanda, başım ayılanda inşallah məktub yazaram. Salamat qalın. Mən getdim. Hamınızı öpürəm. Yadından çıxmış kimi  sonra bir də yazmışdı: çoxlu-çoxlu öpürəm. Vəssalam, şüttamam. Özgə bir şey yazmamışdı. Burda məktubu oxuyub ağlamışdılar ki, gədəni davaya aparırlar. Həqiqətən də, məktubdan belə görünürdü. Özgə hara aparası idilər. Çünki cəbhə bunların təlim keçdiyi yerdən çox uzaq deyildi. Bir az bəridə öyrədib sonra vuruşmağa göndərirdilər. Daha bunun o yanı, bu yanı yox idi. Müharibənin qayğılarına bunlar o qədər yaxın idi ki, onu uşaq da, böyük də, hamı yaxşı bilirdi. Buna baxmayaraq, sonra anası gözlərinin yaşını silib qızlarına acıqlanmışdı ki, bəsdirin, bu nədir zuy-zuya gedibsiniz? Hamının qardaşları necə, sizinki də elə. Ondan sonra kirimişdilər.

Vahid isə Südabə ilə maraqlanırdı. Ona diqqət yetirirdi. Görsün bu xəbər ona necə təsir edib. Əlbəttə, qız üzə salmırdı. Özünü o yerə qoymurdu. Amma hiss olunurdu ki, əli ürəyinin üstə qalıb. Bu nigarançılıq həm qızın oğlana olan məhəbbətindən, ona bəslədiyi sevgi hissindən irəli gəlirdi, həm də çox güman ki, Əsədin həyatının erkən vaxtından belə çətinliyə, təhlükəyə düşməsində onun özünün müəyyən günahı olduğundan qız belə narahat olur, əzab çəkirdi. Bəlkə də, tez-tez özünü danlayırdı, söyürdü: «Kaş dilim-ağzım quruyaydı, o sözü deməyəydim. Mən dili qurumuş o vaxt ağzımı farağat saxlasaydım, indi oğlan buralardaca gəzirdi. İsti yerini  soyuq eləməzdi. Güllə qabağına getməzdi. Başını buralardaca girləyərdi». Südabə oğlanın inadcıl, söz götürməyən olduğunu bilsəydi, bəlkə də, bu sözü deməzdi. Qız indi başa düşürdü ki, o elə-belə, küncdə-bucaqda baş girləyən oğlanlardan deyilmiş. Buna görə də oğlan gedəndən sonra ondan daha çox xoşu gəlmişdi. Oğlanın barəsində o qədər fikirləşmiş, onun xəyalı ilə o qədər yaşamışdı ki, yuxusuna da gəlirdi. Bir gecə görmüşdü ki, Əsəd əsgərlikdən gəlib. Əsgər paltarında həyətlərində durub çəpərlərinin ardından ona baxır. Bu da belində səhəng bulağa su gətirməyə gedir. Bu ara oğlan çəpərin üstündən hoppanıb onun qabağını kəsmişdi.

– Sənnən işim var, Südabə.

– Mənnən?

– Hə-ə.

Bilsə də ki, nə məsələdi və bu ürəyindən olsa da, qız özünü o yerə qoymamışdı.

– Mənnən nə işin ola bilər?! – Qız yanından ötüb-keçmək istəmişdisə, oğlan əlini atıb qızın biləyindən yapışmışdı.

– Amanın qırıldımı, aaz?! Hara tələsirsən! Dayansana!

– Əlini çək! – Qız qaş-qabağını töküb acıqlanmışdı və dartınmışdı ki, oğlanın əlindən çıxıb yoluna davam etsin.

Oğlan qızın biləyini daha da bərk sıxmışdı. Başa salmışdı ki, o yan, bu yan eləmə, buraxan deyiləm. Zornan da olsa qızın iradəsini qırıb özünə tabe etməyə çalışmışdı. Bundan qız acığa düşmüşdü. Amma yenə də xoşluqla demişdi:

– Burax, ayıfdır. Görən olar.

– Buraxmıram. – Oğlan inadını yeridəndə Südabə lap hirslənmişdi. Oğlana gözlərini ağardıb necə dartınmışdısa, Əsəd qorxub əlini qızın biləyindən qaçırtmışdı.

Bu yuxu o qədər canlı, təsirli olmuşdu ki, qız səhər də biləyində ağrı hiss edirdi. Amma ürəyində öz-özünü danlayırdı ki, oğlana niyə elə üz göstərirdi, nə üçün ləjlik eləyirdi. İndi bu yuxuda idi, görən həyatda necə edəcəkdi? Qız tam əmin idi ki, oğlan sağ-salamat qayıdıb gələcək və bir vaxtlar yuxuda gördükləri çin olacaqdır. O zaman Südabə necə hərəkət edəcəkdi Allah bilirdi. Öz-özünə fikirləşirdi ki, elçisi gəlməmiş, dədəm «hə» deməmiş oğlanla bir addım da anrı atmaram. Niyə desinlər ki, xalqın qızı elə bir balaca himə bənd imiş, papaq eləyən kimi uçub gəldi. Xeyr. Nə olub mənə?! Gərək oğlanı lap ləlidəm, ondan sonra... Həm belə fikirləşirdi, həm də oğlandan ötrü ürəyi gedirdi. Əsəd burada olanda qız ondan ötrü heç bu cür canfəşanlıq etməzdi. Ona çox vaxt adi gözlə baxardı. Deyərlər ki, gözdən iraq, könüldən də iraq olar. Amma bu, belə deyildi. Oğlan gözündən uzaqlaşmışdısa, qəlbində daha da yaxınlaşmışdı. Əsəd onun üçün ən əziz adam olmuşdu. O orada bunun haqqında fikirləşirdimi, fikirləşmirdimi qız deyə bilməzdi, ancaq bu burada onu daim xatırlayırdı. Daim yada salırdı. Bir də görürdün əlini çənəsinə dirəyib fikrə gedib. İş-güc yadından çıxıb. Ya ev süpürülməmiş qalıb, ya qab-qacaq yuyulmayıb. Anası təəccüb edib deyirdi:

– Aaz, sənə nə olub? Fikrə gedibsən? Elə bil dəryada gəmin batıb.

Südabə cəld xəyaldan ayrılıb süpürgəyə yönəlirdi, ya da başqa bir işin qulpundan tuturdu. Amma arada görürdün qızı yenə xəyal apardı. Əlində işini yarımçıq qoydu. Bunu ona nə qədər nöqsan tuturdularsa, yenə tərgidə bilmirdi. Daha ana-bacının xəbəri yox idi ki, qızları eşqə düşüb, bir əsgər oğlanı sevir. Bəlkə də, bilsələr onu qınayardılar ki, ay qız, sən nə haydasan, camaat nə hayda. İndi heç sevmək vaxtıdır? Görmürsənmi dava gedir? Camaat başını itirib ayağını axtarır. Sən isə... Bu dəhşəti, həyatın bu çətinliyini Südabə də bilirdi, amma elə bil bu da bunların acığına sevirdi. Dava törədənlərin, araya qırğın salanların, qan tökənlərin acığına sevirdi. Orada – davada nəsə uçulurdu, dağılırdı,

yerlə-yeksan olurdu, amma burada qızın ürəyində, qəlbində qurulurdu, tikilirdi, yaşayırdı.

Evdə tək olanda oğlanın şəklini tez-tez çıxardıb gizlincə baxır və gələcək həyatı, hələ qabaqda olan günləri, onunla birgə yaşayacağını fikirləşib, ağlına gətirib çiçəyi çırtlayırdı. Elə gün olmurdu ki, oğlanın şəklinə baxmasın. Hər dəfə baxanda da şəkildə nəsə təzə bir şey tapırdı. Bir az arxada deyəsən nəsə vardı. Top lüləsi kimi göyə sarı uzanmışdı. Görünür, bu şəkli o, elə eşikdə, qulluq etdiyi yerdəcə çəkdirmişdi. Çünki daş divar da düşmüşdü. Ancaq qız ən çox oğlanın özünə baxırdı. Onu oğlan maraqlandırırdı. Gözünə başqa heç nə görünmürdü. Bir dəfə şəkli əlində tutub baxırdı ki, anası şırp içəri girdi. Qız tez şəkli böyrünə tutdu. Anasından gizlətdi. Ancaq gec idi. Anası onun böyründə nəsə gizlətdiyini görmüşdü. İrəli gəlib maraqlandı.

– O nədir, aaz, əlindəki?..

Qız bilmədi necə cavab versin. Bir söz demədən başını buladı.

– Heç nə!

– Buy. Qızın üzünə bax. Əlində tutub. Özü də deyir heç nə. – Yaxın gedib əlini uzatdı. Alıb baxsın, görsün bu nə olan şeydir?

Qız isə əlini qaçırtdı, tez arxasına apardı. Şəkli ovcunda çox usduflu tutmuşdu. Barmaqlarını sıxa bilmirdi ki, şəkil əzilər. Xarab eləmək istəmirdi şəkli. İstəyirdi həmişə təzə saxlasın. Hər dəfə baxanda elə bilsin indicə çıxardılıb. Anası isə zorlama şəkli əlindən alırdı. Belə şeydə çox əzazil arvad idi. Deyirdi ki, qızını döyməyən, dizini döyər. Şəkil qızın əlindən düşdü. Əyilib götürəndə anası tanıdı. Təəccüblə əlini üzünə çəkdi.

– Buuy, ay qız, xalxın oğlanının şəkli səndə nə gəzir?

Arvad elə dedi ki, Südabə az qaldı etiraz etsin ki, xalxın niyə olur. Bu etiraz hissi onda o qədər güclü oldu ki, qız özü aşkara gördü onu heç kəsə vermək iqtidarında deyil. Dünyanı dağıdar, amma verməz. Belə olmağına, belə idi. Daha bunun o yanı, bu yanı yox idi. Qız qiyabi olaraq oğlanın yaxasından necə yapışmışdısa, buraxmaq fikri qəti yox idi. Halal-hümmət nişanlısı kimi ona yiyələnmişdi. Amma bunu üzə salmamağa, hələlik gizlin saxlamağa çalışdı. Özünü laqeyd tutaraq:

– Omar kişinin oğlu Vahid gətirmişdi, – dedi, – yadından çıxıb bizdə qalıb. İndi aparıb özünə verəjəm.

Bu da ola bilərdi. Ağıla batan söz idi. Burası vardı ki, Südabənin anası qızının şəklə çox diqqətlə, təfərinclə baxmasından heç almamışdı. İstədi desin ki, inanan daşa dönsün. Sonradan düşündü ki, lazım deyil, qızın üzünün suyunu tökməyim. Aramızdakı pərdəni götürərəm, daha da pis olar. Belə fikir eləyən ana sussa da, Südabə yaman qorxuya düşmüşdü. Ürəyini yeyə-yeyə düşünürdü ki, demək olmaz, anası gedib Vahiddən xəbər alar. Soruşar ki, bəs belə-belə,

bu qız düzmü deyir? O da nə deyəsi idi? Şəkli, həqiqətən, Vahid gətirmişdi. Bunu oğlan danmazdı. Amma qorxdu bir az artıq-əskik danışsın. Bu da nəsə söz-söhbətə səbəb olsun. Nə isə, Südabə elə o gün yüyürüb özünü Vahidin üstünə saldı. Özü də heç bilmirdi necə desin. Bu, heç açıb-ağardılası məsələ deyildi. Eşidən-bilən olsa qıza eyib gələrdi. O saat kənddə nağara-zurna çalınacaqdı ki, filankəsin qızı, filankəsin oğluna vurulub. Şəklini qoynunda gəzdirir. Oğlanla məktub işlədir. Halbuki belə şey yox idi. Burası da vardı ki, bəlkə də, oğlan qayıdıb gələndən sonra heç bunu almayacaqdı. Başqa bir qıza eşq elan eləyəcəkdi. Dünyanın işini nə bilmək olardı?! Hər şey ola bilərdi. Ara yerdə qız adına söz gətirə bilərdi. Ondan sonra Südabə dünya üzünə necə çıxa bilərdi?! Ondan sonra Südabə camaatın üzünə necə baxardı? Südabə belə-belə şeyləri də fikirləşdi. Ancaq Vahidə inandığından ona açılışdı.

– Vahid, – dedi, – işdir, anam səndən Əsədin şəkli barəsində bir söz soruşsa, eləcə de ki, şəkil mənimdir. Unudub sizdə qoymuşam. Vəssalam.

Oğlan o dəqiqə bildi ki, vəziyyət nə yerdədir. Əsədin şəkli Südabəgildə ələ keçib. Qızdan şübhələnirlər. Ona görə:

– Baş üstə! – deyə əlini qaldırdı və tapşırığa əməl edəcəyini bildirdi.

Ondan sonra qız sakitləşdi. Anası tərəfdən də bu barədə daha səs-soraq çıxmadı. Qızının adına nahaq söz çıxartmaq istəməmişdi. Vəziyyət belə olanda Südabə arxayınlaşdı. Sonra isə Əsəddən dalbadal məktublar gəldi. Birini evlərinə yazmışdı. Birini də Vahidə. Yazmışdı ki, bu saatcana nemeslərnən vuruşuruq. Səhər-səhər bir təpənin dalından onları zorla vurub çıxartmışıq. Bu, bizim üçün çox vacib bir nöqtə idi. Faşistləri yaman tələfata uğratdıq. Bizdən də tələfat oldu. Amma onların mövqeyini dümdüz eləmişik. Özü də bu məktubu sənə tüfəngimin üstündə yazıram. Arada imkan olanda yenə yazajam. Sağ ol, qaqaş. Məndən də hamıya salam söylə. Hamıya... Vahid o saat qandı ki, bu nöqtələr kimə işarədir. Yəni Südabəyə də salam de. Bəlkə də, ona məktub yazmaqda əsas məqsəd elə bu idi. Vahid də gedib Əsədin ismarıcını yerinə yetirdi. Qız o yana, bu yana baxdı. Qorxdu oğlanın dediyini eşidən olar. Gördü su yolunda bir kəs yoxdur, arxayınlaşdı.

– Salam göndərən də sağ olsun, gətirən də, – qız gülümsədi. Hiss olundu ki, şad oldu. Bəs necə? Bu, o demək idi ki, o odun-alovun içərisində də qız yaddan çıxmayıb. Həmişə onu anır, onun haqqında düşünür. Bu qızın xoşuna gəldi. Könlünü açdı. Amma bir azca sonra narahat oldu. Uşaq-uşaq fikirləşdi ki, görəsən, o, məni necə xatırlayır? O, hardan vaxt tapıb mənim haqqımda fikirləşir. Axı ora çətin yerdir, davadır. Bir azca hardasa fikirli və diqqətsiz olsan, bu sənə baha başa gələr. Uduzarsan. Belə fikirləşib qız çox bərk narahat oldu ki, oğlanın başı mənə qarışa bilər, diqqət yetirməz, vurarlar. Ora qız haqqında fikirləşmək yeri ha deyil. Orada gərək ancaq özün haqqında fikirləşəsən. Özünü

qoruyasan. Salamat qalmağıyın qeydinə qalasan. Başqa fikir eləməyəsən. Əsəd isə... qəribə oğlan idi. Başının çibinini qorumaq əvəzinə qız haqqında düşünürdü, ondan-bundan salam göndərirdi. Bunu ona başa salan gərək idi. Qulağından tutub qandıran gərək idi ki, başqa şeyləri unut, fikrin özündə olsun, elə eləmə ki, pis vəziyyətə düşəsən, düşmən gülləsinin qurbanı olasan. Yəqin, elə bu nigarançılığın, qayğının təsirindən idi ki, soruşmaq istədi: Əsəd özgə nə yazır? Məktubu hardan gəlir? Vəziyyəti necədir? Amma utandı, özgə bir şey soruşmadı.

Bu məktubdan beş-on gün keçmiş xəbər çıxdı ki, Əsədin haqqında qəzetdə yazıblar. Qəzet üçün biri poçtalyonun evinə qaçdı. Biri kluba yüyürdü. Axırı hardansa qəzet tapıb gördülər ki, həqiqətən, yazıblar. Hələ qəzetə şəklini də vurublar. Adını da qoyublar: «Qorxmaz döyüşçü». Yazmışdılar ki, bu igid oğlan elə bir şir ürəyi yeyib. Qorxu-hürkü nə olduğunu bilmir. Nemeslərlə belə vuruşur, elə vuruşur. Bax, elə yazmışdılar ki, deyirdin dünyada bundan qoçaq oğlan yoxdur. Oxuduqca Vahidin dodaqları qaçırdı. Həmin qəzet kənddə əl-əl gəzirdi. Hərə bir yerdən tapmağa çalışırdı. Sonra elə oldu ki, qəzetin o nömrəsindən hamı əldə elədi. Demək olar ki, hər bir evdə var idi. Uclarına xəmir çəkib divara yapışdırmışdılar.

* * *

Avqustun axırlarına yaxın hava sındı. Daha axşamda, sabahda adamlar eşiyə pencəknən çıxırdılar. Arvadlar bellərinə şal bağlayırdılar. Kişilər də çiyinlərinə şineldən, sırıqlıdan bir şey atırdılar. Adamları da qınamaq olmazdı. Can qalmamışdı. Aclıq, ağır iş arvad-uşağı üzmüşdü. Adamın yanından yel də keçəndə üşüdürdü. Hər nə təhər, istilər getmişdi. Günlərin bir günü dağçılar da arana qayıtdı. Köç gəlib kənddə bir xeylicə aralı Keçəltəpə deyilən yerin ardındakı düzən sahənin başına düşmüşdü. Buralar əkin-biçin sahələri idi. Bu il yerlərdə yaxşı taxıl əmələ gəlmişdi. Hamısını biçib döymüş, axırıncı sünbülünə kimi yığışdırmışdılar. İndi baxdıqca gövşənlik idi. Ordan-burdan payız otu qalxmağa başlamışdı. Bir-iki dəfə yağsa, yaxşı ot gələrdi. Sahələr, qaratikanlı dərələr isə yaxşı otlu idi. Yəqin, fikirləşmişdilər ki, mal-qaranı bir müddət buralarda saxlasınlar. Sonra qışa yaxın öz əsas binə yerlərinə gedərdilər. Qərəz, dəyələri görəndə Vahidin ürəyi atdandı. Binədən tüstü qalxır, orda-burda arvad-uşaq hərlənir, it-pişik səsi gəlir, həndəvərdə dana-buzov otlayırdı. Vahidin ürəyi tel-tel olmuşdu. Necə olsa bu həyat onun üçün doğma idi. Fermada bir az da o yaşamışdı. İşçilərinin hamısını tanıyırdı. Onlar da bunun xətrini istəyirdilər. Vahiddən ötrü əlləri uzalı idi. Ona edilən ədalətsizliyə görə isə sədrdən çox narazı qalmışdılar.

– Yekə kişi ola-ola, bir parça uşağa qoşulur, onunla şəxsi-qərəzlik aparır. Ayıb olsun – deyə onu möhkəm qınamışdılar.

Əvvəl-əvvəl pərt olmuş olsa da, indi Vahidin vecinə deyildi. Onsuz da onlar qayıdıb gəlmişdi. Amma dağçıları görmək istəyirdi. Görsün nə təhərdirlər, necədirlər. Həm də orda onun ayın-oyunu qalmışdı. Yorğan-döşəyi, balışı, mütəkkəsi, dəyişəcəkləri. Dağa gedəndə anası onun üçün hər şey qoymuşdu. Döşəyin ən qalınını, yorğanın ən irisini qoymuşdu ki, dağ öyünüdür, uşaq isti yatsın, soyuq olmasın. Hamısını səliqə ilə bir farmaşa qoyub ağzını gözəmişdi. Vahid də dağa çatcaq açıb onu dəyənin bir tərəfinə üst-üstə yığmışdı. Yəqin ki, onun arandan dağa qayıtmayacağını biləndən sonra yorğan-döşəyi təzədən farmaşa qabqarıb saxlamışdılar. İndi gedib gətirmək lazım idi. Öz şeyləridir, niyə orda qalsın. Bundan da ən vacibi onun şineli idi. Komsostavski şineli. O da orda qalmışdı. Arana yağ-pendir gətirəndə şineli özü ilə götürməmişdi. Yolda-irizdə arabadan salıb itirəcəyindən qorxmuşdu. Həm də fikirləşmişdi ki, yolda-izdə niyə xarab eləyim, onsuz da üzü arana gedirəm, isti olacaq. Belə qərara gələndən sonra şineli bayır üzünə səliqə ilə qatlayıb dəyədə çubuqdan qəşəngcə asmışdı. Sözsüz, eləcə də saxlamışdılar. İndi Vahid gedib hər şeydən qabaq şinelini gətirmək istəyirdi. Yorğan-döşək gözünə görünmürdü. Bu şinel çox yaxşı, xeyirxah bir adamın yadigarı idi. Vahid ona biganə qala bilməzdi. Şinel onu keçən qış soyuqdan-şaxtadan qorumuşdu.

Binəyə çatmağa az qalmış Vahid gördü dəyələrin qabağında çoxlu adam var: bağırışa-bağırışa danışırlar. Xüsusilə birinin səsi aləmi başına götürüb. Səsindən o dəqiqə tanıdı ki, Xındı kişidir. Nələr demirdi?!

– Ayə, siz adamsınız?! Ayə, siz ölkə üzünə qoyulasınız?! Haram olsun mənim sizə verdiyim çörək! Burnunuzdan gəlsin!

Adamlara beləcə çımxırır, adamlar isə lal-kar dayanmışdılar. Deynən bircəciyinin cıqqırı çıxırdımı?! Bircəciyi dillənirdimi?! Bu saat o, əlinə ağac alıb onları döysə də, dillənməzdilər. Ümumiyyətlə, bu kənddə elə idi ki, Xındı kişinin qabağında dillənən olmazdı. Bir şeyə acığı tutdumu hamı dağılıb itməyə, ondan uzaq olmağa çalışardı. Bilirdilər ki, xasiyyəti tünddür. Ağzına gələni deyəcək. İndi də ferma işçilərini açıq-açığına şişə çəkirdi. Vahid fikirləşdi ki, görəsən nə olub? Bəlkə, bir hadisə olub? Araba-ulaqla dağdan bura neçə günlük yoldur. Hər şey ola bilər. Bəlkə, mal-qaraya, qoyuna-keçiyə canavar ziyan verib. İndi söylənir ki, harda itib-batmışdınız?

Vəli çoban cəsarətə gəlib səsini çıxartdı:

– A kişi, vallah, billah, – dedi, – nəyə istəyirsən and içək ki, o gecə yatmamışıq. İkimizcə də oyaq idik. Amma o köpək uşağının gözünü qan necə örtmüşdüsə, qanıb-qandırmırdılar. Elə biz oyaq ola-ola da sürünü yarılayıb aparmaq istəyirdilər. Mən yatmış olsaydım, daha vurub başımı niyə yarırdılar?!

Vahidə indi məlum oldu ki, nə məsələdi! Nəyin davasını çəkirlər! Nəyin üstündə bağırışırlar! Başına çomaq dəyən də bu idi. Kəlləsi cırılan da bu idi. Qanı tökülən də bu idi. İndi burda üzü danlaqlı olan da. Bunlar hamısı Vahidin

gözünün qabağındaca olmuşdu. Vəli kişi az qalmışdı ölsün. Onda ölüb qurtarsa idi, üzü də belə danlanmazdı. Yediyi çörək başına qaxılmazdı. Abırdan düşməzdi. Vaxtında üzüsulu ölməyin də bir xeyri varmış. Çobanların yerinə Vahid pis olmuşdu. Çünki onlarda heç bir təqsir yox idi. Qaçaq-quldurun qabağında iki qoca kişi nə edə bilərdi?! Hələ bir az qorxaqlıq eləmiş olsaydılar, sürüyə birdəfəlik dadanardılar. Heyvanın axırına süpürgə çəkməmiş əl çəkməzdilər. Amma o vaxt bunlardan necə qamaşdılarsa, bir də o həndəvərə hərlənmədilər. Xındı kişi isə belə şeyləri nəzərə almırdı, qiymətləndirmirdi. Yenə öz beynindəkini çağırırdı.

– İndi canınızı alıb, özünüzün nə qədər heyvanınız var, hamısını kolxozunkuna qatajam.

– Qat, sədr, qat. Nə istəyirsən elə, – yenə Vəli çoban dilləndi. Bəlkə də, bunu demək istədi ki, nə cəzan var ver, amma üzümüzü danlama. Hiss olunurdu ki, bu adamın çağır-bağırına daha dözə bilmir, başı ağrıyır. Bu baş ağrısı, bəlkə, o vaxtdan, başına çomaq dəyəndən qalmışdı. Sonra da düşünüb-daşınıb dedi:

– Məni bu işdən azad eləyin, canım. Yaşdı adamam, tablamıram.

– Deyirsən elə-belə azad eləyim?

Vəli kişi uşaq ha deyildi. Sədrin ağzının havasını bilirdi. Niyyəti məlum idi.

Sədr əlini havada oynatdı:

– Elə-belə yaxa qurtarmaq yoxdur. Bax, əvvəlcə kolxozunkundan heyvanını seç. Görüm hansılardır. Sonra da cəriməni elə buradaca ödə, sonra da xoş gəldin. Azadsan. Hara istəyirsən get!

Vəli kişinin papağının saçaqları üz-gözünə sallanmışdı. O, bikef-bikef fikirləşib razılaşdı:

– Hə-ə, neynək, – dedi, – qoy sən deyən olsun.

Vəli kişi çomağı əlinə alıb Keçəltəpənin boynuna sarı yatışan sürünün içinə girdi. Orda-burda heyvanlarını küşkürüb, çomağının ucu ilə dürtmələyib qaldırdı. Sonra da bir-birinin yanına yığıb, bir yerə toparlayıb ayırdı. Beş-on heyvan idi. Sədr Xındı irəli çıxdı, ferma müdirini də yanına çağırdı. Bir-bir Vəli kişinin heyvanlarını göstərərək:

– Onu belə elə, onu elə elə, – deyərək düz beş dənə gözədəyən heyvan seçdi. – Bax, bu heyvanları kolxozunkuna qatın.

Sözü əmr formasında ferma müdirinə deyirdi. Amma müdir Alı tərpənmədi. Çünki ədalətsizlik olurdu. Kişinin başını yarıb qoyunları aparmışdılar. Bunu başa salmaq üçün müdir söz axtarırdı ki, sədr hirsləndi, cibindən özü bıçaq çıxartdı. Bir-bir qoyunların qulaqlarını cırıb qanları tökülə-tökülə sürüyə qatdı.

Vəli kişiyə zülm oldu. Bir bölük külfət ona baxırdı. Oğlanları müharibədə idi. Nəvələrini, gəlinlərini o saxlayırdı. Bu heyvanları satıb dərdinə-azarına verərdi. Taxıla dəyişərdi.

Bir azdan Vəli kişi axsaq-uxsaq iki cüt bir tək heyvanını qabağına salıb korpeşman evinə gələndə Vahid də özündən asılı olmayaraq onun yanına düşdü. Məqsədi o idi ki, onun dərdini dağıtsın, fikir eləməyə qoymasın. Amma söz tapa bilmirdi. Nə desin ki, bu yaşlı, sümüyü kövrəlmiş kişinin incik qəlbini ovundura bilsin, sədrin dəyintili sözlərini, çığır-bağırını, ona qarşı yaxşı iş görmədiyini, ədalətsizliyini ürəyinə salmasın. Onadək Vəli kişi özü dilləndi.

– Necəsən, ay Vahid? Nənəngil nə təhərdir?

– Sağ ol, Vəli baba. Yaxşıyam. Nənəmgil də yaxşıdırlar.

Bu da ondan soruşmaq istədi ki, sən necəsən, ay Vəli baba? Amma hiss elədi ki, onun bu sarsıntılı halında belə demək yerinə düşməzdi, əsəblərinə toxunardı. Görmürdümü nə vəziyyətdədir, hələ bir soruşur da. Buna görə də başqa sözlər dedi: mən gələndən sonra dağda havalar necə keçdi? Yağış-zad yağdımı? Heyvandan ölən-itən oldumu? Belə-belə şeylər xəbər aldı. O da dedi: ay oğul, səndən sonra bir dəfə bir yağış yağdı, bir yağış yağdı ki, allah göstərməsin, yer-göy suya döndü. Dərələrdən bir sel gedirdi ki, deyirdin dağ-daş ağız-ağıza gəlib dünyanı su basacaq. Əlimiz ürəyimizin üstündə qalmışdı ki, heyvanı qəhr eyləyəcəyik. Allaha şükür ki, bir şey olmadı, yaxşı qurtardıq. Vəli kişi Vahidi maraqlandıran şeylərə beləcə cavab verirdi, amma hiss olunurdu ki, ağzı danışsa da, fikri başqa yerdədir. Bayaqkı qan-qaraçılıqdan hələ də ayılmayıb, sakitləşməyib, sədrin pis-pis sözlərini bir batman balnan da olsa uda bilmir. Xirtdəyində qalıb durur. Vahid onunla bir az gedib sonra dedi ki, ay Vəli baba, mənim burda, fermada o vaxt ayın-oyunum qalıb, deyirəm gedib heç olmasa şinelimi götürüm.

– Hə-ə, get, get, – Vəli kişi o dəqiqə razılaşdı. Elə bil o da bayaqdan tək qalmaq istəyirdi. Bəlkə, tək olanda bu çölün ortasında dərindən bir «ah» çəkib yüngülləşəcəkdi.

Vahid qayıdıb şinelini götürdü. Yorğan-döşəyini isə xahiş etdi ki, sonra kəndə araba-ulaq gələndə içərisinə atsınlar. Ancaq şineli bir az köhnələn təki olmuşdu. Daha o əzəlki şax duruşu, görünüşü yox idi. Ətəkləri, boynu-boğazı, yaxası bir az əzilmişdi. Görünür bu gələndən sonra o, bu geyinib istifadə eləmişdi. Pis, yağmurlu havalarda çobanlar, yəqin, çiyinlərinə atmışdılar, üşüyəndə geyinmişdilər. Bəlkə, elə geyinəcəkli yatan da olmuşdu. Çox güman ki, gecələr dəyədə yatanda yorğandan əlavə ayaqlarının üstünə də salmışdılar. Bir sözlə, şinel xeyli işlənmişdi. Rəngi də elə bil bir qədər solmuşdu. Bir az boz rəngə çalırdı. Onun belə xarab olmasından Vahid bir az pis oldu. Qanı qaraldı. Qaldı nə desin?! Kimi günahlandırsın?! Kimnən dava eləsin?! Heç kəslə. Yaxşısı bu idi ki, heç səsini də çıxartmasın. Vahid şineli qolunun üstə atıb fikirli-fikirli kəndə döndü.

Evə gələndə şinelini eşikdə eyvan dirəyindən asıb yaxşı-yaxşı bir də baxdı. Gördü ətəyinə yenə od düşüb, dıqqılı bir deşik açılıb. Kimsə ya papiros çəkəndə

bilməyib od salıb, ya da ocağa yaxın oturub odu-ocağı qurdalayırmış. Yaxşı ki, azacıq yanmışdı.

Vahidin nənəsi də onu görüb yaman heyifsilənməyə başladı:

– Bıy! Bunlara nə deyim? Qarğamıram, yazıqdırlar. Ancaq bilmirdilərmi ki, əmanətə xəyanət olmaz. Bə belə də iş olar?!

Qoca arvad elə bir təəssüf hissilə, ürək yanğısı ilə danışdı ki, Vahid ona təskinedici sözlər deməyə məcbur oldu. Yəni buna görə qanını qaraltmasın.

– Zərər yoxdur, ənnə. Nə olasıdır? Budur, bax, heç bilinmir. Kimdir əyilib ora baxan.

– Bilindi, bilinmədi. Adamlıqları yoxdur. – Nənə yenə şineli bu kökə salanları qınadı.

Şinelinə görə Vahid onsuz da dilxor idi. Nənəsinin deyinməsi onu bir az da darıxdırdı.

– Əşi, sən də danışma! İndi aparıb düzəltdirrəm, – deyə şinelini də qoltuğuna vurub otaqdan çıxdı, Qərənfilgilə getdi.

* * *

Müharibə illərində adamların yalnız üst-başı deyil, həyət-bacaları da cındırlamışdı. Evlərdə, həyətlərdə qabaqkı abadlıq yox idi. Çəpərlər sökülmüş, ordan-burdan basıq-basıq olmuş, hər yerdən yol düşmüşdü. Bu həyətdən, o həyətə, o birindən bu birinə. Hamı uzaq yolunu elə bil qısa eləmişdi. Qərənfilgilə də qabaqlar evin ardından dolanıb gedərdilər. İndi isə çəpəri basıb aradan yol eləmişdilər. Bir-birlərindən od gətirməyə də burdan gedirdilər, söhbət eləməyə də, borc çörək almağa da. Bu evdən o evə ağ bir cığır əmələ gəlmişdi. İndi bu cığırla ən çox gedib gələn, bəlkə də, Vahid idi. Onu harda itirsən, Qərənfilgildə tapardın. Vahid boş vaxtının çoxunu onlarda keçirirdi. Müəyyən işlərdə kömək edirdi. Odun-zad yarmaq lazım gələndə o dəqiqə baltaya yönəlirdi.

– Yaxşı eləyirsən, dərdin alım, hamısı qız uşaqlarıdır, kömək eləmək lazımdır. – Anası da, nənəsi də onun bu işini təqdir edirdilər. Kolxoz əməkgününə bir az taxıl bölmüşdü. Bir neçə pud onlara düşmüşdü. O günlər Qərənfilin anası anbardan taxılını alanda bu, tez bir uzunqulaq tapmış, kisəni belinə qoyub qapısına gətirmişdi. Götürüb içəri aparmağa da kömək eləmişdi.

– Sağ ol, ay Vahid, sən nə yaxşı oğlansan, – Qərənfilin anası ona dil-ağız etmişdi.

Həqiqətən, onların ailəlikcə Vahiddən ötrü dilləri ağızlarına sığmırdı. Oğlan onlara gedəndə, qapılarına hərlənəndə üzləri gülürdü. Hiss olunurdu ki, gəlişindən sevinirlər, buna hörmət etməyə çalışırlar. Gedən kim «burda otur, orda otur» başlanırdı. Sonra da danışırdılar, gülürdülər. Dərdlərini, azarlarını bir azca unudurdular. Qayğıları azalırdı. Buna o qədər öyrəşmişdilər ki, Vahid onlara

getməyəndə darıxırdılar. Bir də görürdün küllü-külfətli onlar yığışıb bunlara gəldilər. İsti günlərdə kim idi içəri keçən, evdə oturan. Eşikdəcə yerə palaz salıb oturardılar. Başlayardılar söhbətə. Əsas söhbət davadan, əsgər gedənlərdən olardı. Filankəsdən məktub gəldi. Sağ-salamatdı. Filankəsdən bir xəbərətər yoxdur. Axır bir il olar ki, məktubunun arası kəsilib. Deyirlər axırıncı dəfə filan yerdə görən olub. Koxaların o böyük gədəsi ilə bir yerdə imiş. Sonra necə olubsa bir-birlərini itiriblər. İndi nə məktubu gəlir, nə gördüm deyən var. Anası əlləri qoynunda qalıb. Fikirdən boğazından çörək də getmir. Quruyub ərşinə dönüb. Belə-belə davaya gedənlərin hamısı barəsində müəyyən məlumatlar deyər və ağızları Allahda olardı. «Bircə gedənlərimiz sağ-salamat qayıdıb gəlsinlər, özgə heççə bir şey istəmirik». Ac qalmağa, çılpaq gəzməyə, hər cür əziyyət çəkməyə hazır idilər, bircə dava qurtarsın. Bunun üçün qurban deyir, yetim-yesirə kömək edəcəklərini, əl tutacaqlarını, nəzir verəcəklərini söyləyirdilər. Hətta toy çaldırıb şənlik edəcəklərini də deyəndə uşaqlar bu mərasimin çox qələbəli, təmtəraqlı keçəcəyini xəyallarında canlandırır və qəlbən sevinirdilər. Bu toy-düyünün tez olmasını istəyirdilər. Əl-ələ tutub yallı gedərdilər, kəklik təki süzərdilər.

Davadan qabaq olan toylar Vahidin yaxşı yadında idi. Nağaranın dambıltısı, qara zurnanın səsi bütün kəndi başına götürərdi. Neçə iribuynuzlu mal kəsilər, neçə toğlu-moğlu, qoçlar doğranardı. İri qulplu qazanlar böyür-böyürə düzülüb təzə ət buğlana-buğlara bişəndə adam elə ətrindən doyardı. İştahı olmayan da iştaha gələrdi. Bir tərəfdən dirədöyməyə, digər tərəfdə cıdıra hazırlaşardılar. Atlar tutulub yəhərlənər, yığınağın gurrəyinə çəkiləndə nağaranın gumpultusundan səksənib hürkən atlar oyur-oyur oynayır, başlarını dartıb şahə qalxardılar. İndi elə şeylər nə gəzirdi. Müharibə bunların hamısının axırına bir süpürgə çəkmişdi. Hamının arzusu bu idi ki, dava bircə tez qurtarsın, gedənlər gəlsin. Vahidin nənəsi hər gün yalvarırdı ki, hamı ilə bərabər, onun oğlu da gəlsin. «Daha mənim günüm keçib, – deyirdi, – gedərgiyəm. Bircə arzum budur ki, oğlum məni basdırsın. Onun çiynində gedim. Onda elə bilərəm heç ölməmişəm. İntizarlı getməyəm bu dünyadan.

Vahid atasının davadan qayıtmasını təsəvvürünə gətirəndə az qalırdı qanadlanıb uçsun. Budur, kişi başında pilotka, ayağında çəkmə, belində enli qayış içəri girir. «Bıy, dədəmiz gəldi» deyə o dəqiqə hamı hoppanışıb qalxır, kişinin üstə cumurlar. Biri o yanından, biri bu yanından, marça-marça başlanır. Görüb, eşidib camaat da töküləşəcək. Bütün kənd ağışıb gələcək. Heç oturmağa, durmağa yer olmayacaq. Davadan gələnləri beləcə elliklə qarşılayırdılar. Hətta kiminsə gəldiyindən xəbər tutanda stansiyayadək qabağına gedirlər. At, araba aparırdılar. Bir şeyə mindirib oradan allah-allahnan gətirirdilər. Yalnız Mirzalıların Bəhməni xəbərsiz-ətərsiz gecə gəlib çıxmışdı. O da gecə düşür stansi-

yada. Ürəyi durmur. Nəynənsə elə gecəynən gəlib çıxır kəndə. Camaat şirin yuxuda imiş. Bunun da anası, bacısı yatıbmış. Yaxınlaşıb qapını döyür. Evdəkilər oyanıb qorxuya düşürlər. Anaları axırı səsini çıxardır:

– Kimsən?

Bu da qapının ardından deyir:

– Otkroy dver, ya Baxman.

Ana ürəyi həssas olar. O dəqiqə hiss edir ki, səs onun oğlunundur, amma sözündən bir az şübhəyə düşür. Ona görə də bir az toxdayıb qapını hələ açmır, içəridən deyir:

– Dərdin alem, hər kimsən, görürəm yol adamısan. Amma evdə kişi yoxdur. Biri davadadır, o biri də qoca kişidir, kolxozun öküzlərinə baxır, evdə yoxdur, sən get o qonşu evdə qal, orda kişi var.

Təzədən Bəhmən səsini çıxardıb öz dilində, deyir ki, bəs, ay ana, mənəm, gəlmişəm, aç qapını.

Ondan sonra ana durardımı?!

– Booy, sən gələn yollara qurban olum. – Tez donunu başına keçirib qapıya yönəlir.

Bunu evlərindən kimsə dilindən qaçırmışdı ki, bəs belə-belə olub. O da dilə-ağıza düşmüşdü. Axırı şəbədəyə qoyub gülürdülər. Uşaqlar da evə bir-birilərinin yanına gedəndə içəri girməmişdən qapını döyüb deyirdilər:

– Otkroy dver, ya Baxman.

* * *

Omar kişi davaya necə getmişdisə, zahirən eləcə də gəlib çıxmışdı. Əli-ayağı üstündə salamatca idi. Amma sonra soyunanda gördülər ki, bədəni deşik-deşikdir. Sən demə yanında qumbara partlayıbmış, çarpanaqları canına dolub. Qospitalda ətin arasından, dərinin, qabırğalarının altından çıxartmışdılar. Yerləri bilinirdi. Hətta çökək hissələr də vardı. Elə bil canavar qopartmışdı. Bunları görəndə ətləri irpə getdi. Az qalmışdı gözlərini yumub baxsınlar.

– Booy, anan ölsün, ay bala. – Vahidin nənəsi oğlunu bu kökdə görcək əllərini dizlərinə vurmuşdu, çox pis olmuş, ağlamışdı.

Sən demə bir-iki qəlpə hələ də kişinin bədənində qalıbmış. Nəyə görəsə çıxartmayıblar. Görünür dərinə düşüb, əl vurmağa qorxurlar. Omar kişi özü də dedi ki, bir az özümə gələndən sonra gedəcəm çıxartsınlar. Həqiqətən, kişi çox zəifləmişdi. Arıqlamış və bənizi solğunlaşmışdı. Görünür, yaralananda cərrah bıçağının altında çox qan itirib. Hələ üzdən bəlli olan bunlar idi. İçəridə nələr var idi, məlum deyildi. Ailəsi isə allaha şükür eləyirdi ki, quruca canı gəlib çıxdı. Bucuğaz onlara bəs idi. Yedizdirib-içizdirərlər, boğazına yaxşı baxarlar, irəli gələr. Kaş o biri gedənlər də beləcə gəlib çıxsınlar. Ölüm-itim olmasın.

Əsas məsələ cansağlığı idi. Qalan şeylər düzələrdi. Ona görə onunla görüşə gələn adamlar «şükür, sağ-salamatca gəlib çıxdın» deyirdilər.

– Şükür içində olasınız, – ondan qabaq anası dillənir, hamıya dönə-dönə təşəkkür edir və onların da gedənlərinin gəlməsini arzuladığını bildirirdi.

Vahidin isə əli-ayağı yerdə durmurdu. Sevindiyindən bilmirdi nə etsin. Atasının əyninə-başına baxıb, onu tam əsgər formasında görüb xoşuna gəldiyindən hərdən öz-özünə gülümsəyirdi. Axı onun da şineli vardı. Vahid elə istəyirdi ki, şinelini atasına göstərsin. Onun tarixçəsini danışsın. Desin bunu mənə bir əsgər verib. O da sənin kimi davada yaralanmışdı. Əsas məqsədi o kişini atasına təqdim etmək idi. Qiyabi də olsa onunla atasını tanış etmək idi. Onun xeyirxah işini çatdırmaq idi. Hə. Hələ, bəlkə, atası onu tanıdı. Tanımamış olmaz. Elə əliaçıq, xeyirxah adamı hamı tanıyar. Deyər ki, ortaboy, çatmaqaş, gülərüz adam idi. Həm bu nişanlarından, həm də hərəkətindən, tutduğu işdən ola bilsin atası tanıyar. Deyər ki, hə, bu, filankəs olacaq. Həm də atasının özü də gedişdi-gəlişdi adam idi. Özünün də tez-tez qonaq-qarası olardı. Çox adam çörək yemişdi onun evində. Çoxlarını tanıyırdı. Di gəl o, bunu atasına deyəndə, kişi fikrə gedib çiyinlərini çəkdi.

– Nə bilim kim olar? – dedi. Və hər kimdisə bu da o naməlum adamın xeyirxahlığından, alicənablığından, tanımaya-tanımaya uşağına göstərdiyi qayğıdan çox-çox məmnun qaldı. Hətta bir neçə gün sonra oğlunun əsgər şinelinə baxıb yenə də bu söhbətin üstə qayıtdı:

– Görürsənmi, oğlum, – dedi, – dünyada necə yaxşı adamlar var. Əyninin paltarını çıxarıb sənə verib. Sağ olsun. Hər kimdisə işi həmişə avand olsun.

Bu məsələ onu həddindən artıq məmnun etmişdi. Gələndən ona nə qədər şey danışmışdılar. Amma heç bir söhbət, xəbər bu qədər onun xoşuna gəlməmişdi. Bu, bəlkə də, arxa cəbhədən, kənd-kəsək, iş-güc, adamlar barəsində eşitdiyi ən yaxşı söhbət idi. Ən qiymətli söhbət idi. Omar kişi o adamın hərəkətini çox yüksək qiymətləndirirdi. Dönüb-dönüb «nə yaxşı, nə gözəl adam imiş» – deyirdi. Bunun özünün də xasiyyəti belə idi ki, yaxşı adamdan ötrü hər şey eləyərdi. Var-yoxdan çıxardı. Lazım gəlsə, canını da əsirgəməzdi. Bəlkə də, bir az da bu yaxşı adamın etdiyi alicənab hərəkətin təsirindən idi ki, Omar kişi davadan evinə qayıdandan sonra yaralı olsa da belə istirahət eləmək istəmədi. Həm ona görə ki, bunsuz ailəsi çox əziyyət çəkmişdi. Həm də camaatın, xalqın ümumi işi belə tələb edirdi. Dincəlmək vaxtı deyildi. Buna görə də gəldiyindən heç bir həftə keçməmiş Omar kolxoz sədrinin yanına getdi ki, mənə iş ver, işləyim, boş otura bilmirəm.

Sədr də yalan-doğru əvvəlcə dedi ki, əşi, get dincəl, sən onsuz da çox əziyyətlər çəkmisən. Nə lazımdır biz özümüz edərik.

– Yox, a sədr, arvad-uşaq yazıqdır, mən işləməliyəm, – bu da qəti tələb etdi.

Əslində, kolxozun təsərrüfatında işlərin soyuyan vaxtı idi. Biçilən biçilmiş, döyülən döyülmüşdü. Çöl işi qurtarmışdı. Daha özgə nə var idi ki?! Bir ferma qalırdı, bir də payız şumu edilməli idi. İdarədə elə bir şey yox idi ki, buna təklif eləyəsən. Sədr olanını təklif etdi.

– İndi kotana getməkdən başqa bir şey yoxdur, – dedi. – Bu gün-sabah şuma başlamalıyıq.

Sədr Omar kişini çox çətinə salırdı. Kotan ağır iş idi. Gərək elə tutarlı olasan ki, tablayasan. Mac tutmaq hər adamın ağzı deyildi. Əvvəla dizində, baldırlarında gərək taqət olsun ki, kotanın ardınca gedə biləsən. Qollarında da güc olsun ki, ağırlığını salasan. Yoxsa kotanın xopu göydə oynayar, üzdən gedər. Torpağı yalan yerdən qaralayarsan. Səpdiyin də zay olub gedər. Bir şey hasil eləyə bilməzsən. El-oba yanında üzüqara olarsan. Omar kişinin də ən çox qorxduğu və zəhləsi getdiyi belə şey idi. Ancaq məsələ burasında idi ki, bu işi də bir adam görməli idi, yoxsa yox?!

Omar kişi hər şeyi başa düşən adam idi. Bu işin də vacibliyini, son dərəcə mühüm olduğunu bilirdi. Kimsə macdən yapışmalı idi, yoxsa camaat ac qalardı. Aclıq elə şeydir ki, adamı düşmənə də əl açdırar deyərlər.

– İşə havaxt çıxmaq lazımdır?

– Lap günü sabah. – Sədr bu işi təxirə salmadı. Ona da beləcə üzüyola, başıaşağı, işlək, fədakar adam lazım idi. Bilərdi ki, işi gedir. Bunun da canı arxayın olardı. Papağını yan qoyub öz kefində gəzərdi. Əkinə, səpinə hərdənbir baş çəksə, yetərdi. Özgə nə var idi ki, narahat olasan. Sədr Xındı dünyanın bala dərdini yaxın qoymaq fikrində deyildi. O ki qaldı belə-belə qayğılar.

İşə çıxdığı birinci gün Omar kişi macdan tutub kotanı yerin başından salanda allahına şükür elədi. Çünki bu yaxınlaradək əlində bir qolu boyda bel orda-burda yeri dırtmalayardı. İki daşın arasında balaca bir çuxur qazardı ki, uzananda heç olmasa başını düşmən gülləsindən gizləyə bilsin. Bəzi yerlərdə yer don olur, adamın üzünə qayıdırdı. Məcbur olub qarı-buzu qabağına yığırdı ki, heç olmasa bir balaca daldalanacaq olsun. O da adamın əlini-ayağını dondururdu. O zaman heç ağlına gəlmirdi ki, qayıdıb beləcə yerə kotan salacaq, payız şumu edəcək, taxıl səpəcək. Bunu indi özü öz əlilə eləyir. Amma inana bilmirdi. O vaxtlar ordan qızıl güllənin qabağından sağ-salamat qurtarıb geri qayıtmaq gümanı az idi. Yerdən atırdılar, göydən tökürdülər. Bir tərəfdən tank gəlirdi, o biri tərəfdən motosikletçilər. Yer-yurd hamısı od tutub alışıb-yanırdı. Günahsız insan fəryadı göyə dirək olmuşdu. Omar kişi elə dəhşətlər görmüşdü ki, danışsa, arvad-uşağın bağrı yarılardı. Ona görə çoxunu danışmırdı. Birini deyəndə, birini də demirdi. Amma burdakı işindən deyirdi. Gözünün qabağındaca torpaq böyrü üstə çevrildikcə kişi daha da ruhlanıb, «ha başınıza dönüm, sürün! Öküzləri paylayın!» – deyə hələ çox balaca olan hodaxçıları həvəsləndirirdi. Səsi ilə,

sözü ilə elə bil uşaqlara demək istəyirdi ki, bax, əsl iş budur. Burda hər şeydən ürəyi açılırdı. Gördüyü işdən, təbiətin gözəlliyindən ləzzət alırdı. Orada güllələr qulaqlarının dibində vıy-vıy vızıldayırdı. Biri torpağı orda sovururdu, biri burda sovururdu. Burda isə ətrafda quşlar cəh-cəh vururdular. Orda yurdlarından-yuvalarından perikmişdilər. Burda az qalırdılar gəlib öküzləri buynuzlarına, boyunduruğuna qonsunlar. Müharibənin pisliyini, insanlara gətirdiyi fəlakəti, bədbəxtliyi Omar kişi, bəlkə də, indi dinc əməklə məşğul olduğu, yer əkdiyi bir vaxtda daha dərindən başa düşür və müharibə törədənlərin ağılsız hərəkətlərinə ürəyində təəssüf edirdi. Onların acığına macdan həvəslə, əzmkarlıqla tuturdu. Omar kişi bilirdi ki, allah qoysa yaz gəlib güllər bitəndə sahələr göyərəcək. Göz işlədikcə yamyaşıl olacaqdır. Omar kişinin fikrincə dünyada bundan gözəl, ürəkaçan mənzərə yox idi. Bəlkə, ona görə Omar kişiyə iş çox xoş gəlirdi ki, bu mənzərə çörəklə, elin süfrəsilə əlaqədar idi. Camaatın həyatı ilə, dolanacağı ilə əlaqədar idi. Çöldəki bu mənzərə nə qədər ürəkaçan olurdusa, camaatın süfrəsi də bir o qədər zəngin, bol olurdu. Çörək məsələsini bütün adamlar üçün, ölkə üçün son dərəcə əhəmiyyətli, vacib olduğunu bildiyindəndir ki, Omar kişi sahələrin əkini işinə bütün qüvvəsini sərf edir, necə deyərlər, canını qoyurdu. Gün doğandan gün batanadək. İşini də səliqəli tuturdu. Arada xörək-mərək yer buraxmırdı. Belə ehtiyat etdiyi üçündür ki, gözü daim torpaqda olurdu.

* * *

Məlum olduğu üzrə Omar kişi davadan qayıdanda evinə gecə gəlib çıxmışdı. Həyətini sən deyən görə bilməmişdi. Elə bilmişdi ki, yenə əvvəlki təkidir. Gecə yatıb səhər eşiyə çıxanda görmüşdü nə?.. Nə çəpərdə çəpərlik var, nə həyətdə həyətlik. Elədir ki, dağılıb gedib. Həyətlərindəki ağacların hamısı baxımsızlıqdan tərk olmuşdu. Qol-budaqlarını mal-heyvan yemişdi. At-eşşək boyun-başını ağaclara o qədər sürtmüşdü ki, qabıqları getmişdi. Yerləri işıldayırdı. Ağaclar qurumaq dərəcəsinə gəlmişdi. Dibləri kəsək bağlamışdı. Deyəsən, davaya gedəndən həyətə bel vuran olmamışdı. Omar kişinin gözündən iraq. Davadan qabaq buranı elə bağ eləmək istəyirdi ki, camaat tamaşasına dursun. Di gəl müharibə oldu. Qoymadı camaat evini-eşiyini düzəldə, bağ-bostan becərə. Davadan qabaq kəndə hələ içməli, yaxşı su da gətirmək fikirləri var idi. Gedib yuxarı dağlarda gur su mənbələri müəyyən etmişdilər. Onları birləşdirib gətirəcəkdilər. Lazım olan material da tapmışdılar. Daha doğrusu, yerini eləmişdilər. Elə ki dava gəlib araya düşdü, bu iş də yarımçıq qaldı.

İndi Omarın fikri var idi ki, həyət-bacanı səliqəyə salsın, gözəlləşdirsin. Bunun üçün birinci növbədə çəpər çəkmək lazım idi. Ona görə Omar kotana gedəndə arada fasiləyə çıxan zaman oturmayıb, dincəlməyib ordan-burdan, dərələrin yaxasından xeyli tikan qırdı. Basma-basma oralara tökmüşdü, indi qalırdı

aparmaq. Əlbəttə, bunun üçün araba, ulaq lazım idi. Bir boş araba tapa bilsəydi, kotanın öküzlərinə qoşub tikanını gətirərdi. Tökərdi qapısına. Əlbəttə, sədrə demək lazım idi. Briqadirlərdən birinin üstə kağız alsa, yaxud şifahi dedizdirə bilsə, məsələ həll olunub gedərdi. Nə böyük şey idi?! Onsuz da belə şeydə kömək eləmək borcları idi. Bu məqsədlə kolxoz idarəsinə tərəf hərləndi. Təsərrüfat işlərinin xeyli azaldığı vaxt olsa da, yenə də müəyyən bir iş üçün idarəyə gəlib gedən olurdu. Bu dəfə isə adam deyəsən çox idi. Hələ bəri qapının ağzında da adam var idi. Qoca-qoltaq kişilərin içində qapının ağzına yaxın bir gəlin də dayanmışdı. Ağzına yaşmaq alıb küncə qısılmışdı. Omar kişi onu əvvəlcə tanıya bilmədi. Sonra yanına gedəndə gördü rəhmətlik Qasım kişinin gəlini Xanpəridir. Göyçək gəlin idi. Qız vaxtı istəyəni çox olmuşdu. Ona görə oğlanlar arasında neçə kərə dava düşmüşdü. O deyirdi: mən alacam. Bu deyirdi: mən alacam. Sonra qismət elə gətirdi ki, Qasım kişinin oğlu Əlxan aldı. O da əjdaha təki oğlan idi. Dilli-dişdi. Özü də yaman xətirli oğlan idi. Birinin bir işi oldumu, o dəqiqə yüyürərdi. Görərdin ki, bir işin də qulpundan yapışıb. Nə bilim, birinin odununu yarardı, o birinin otunu biçməyə kömək elərdi, digərinə başqa bir şeydə əl yetirərdi. Özü də yaman at sevən oğlan idi. Bir at saxlayardı ki, belinə qalxanda quş təki uçardı. Xanpərini də elə saxlayardı ki, əlini yalan olmasın, isti-soyuğa vurmağa qoymazdı. Qapı-bacada nazlana-nazlana hərlənər, yalnız hərdənbir səhəngi götürüb bulağa gedərdi. Onda da bütün qızların, gəlinlərin içində seçilər, elə bilərdin ki, su sonasıdır. İndi xarab olmuşdu. Əyni-başı tökülmüş, yanaqları solmuşdu. Elə idi ki, bənizi kül rəngində. Yaman günün ömrü az olar deyərlər. Omar kişini yandıran bu oldu ki, gör necə bir igidin arvadı gəlib kimə möhtac olub. Xahişə kimin yanına gəlib. Halbuki vaxtilə bunu adam yerinə qoyan yox idi. Bilikdə, bacarıqda, qanacaqda bu, ən aşağıda idi. İndi gəlib hamıdan yuxarıda dururdu. O da elə bilirdi ki, elə belə olmalıdır. Bu yerə, vəzifəyə ən birinci o layiqdir. Adamlarla elə danışır, elə rəftar edirdi ki, deyirdin hamı ona borcludur. Hamı onun qulluğunda durmalıdır. Onun bir sözü iki olmamalıdır. Belə hikkəli olmasından adamlar ondan həmişə çəkinirdilər. Acıqlanacağından, hətta döyüb-söyəcəyindən ehtiyat edirdilər. Sözlərini qorxa-qorxa deyirdilər. Xanpəri də nə üçünsə gəlib utana-utana bayaqdan dayanmışdı. Nə o soruşurdu ki, niyə gəlibsən, nə də bu dillənirdi. Ağzına su alıb dururdu. Axırı gəlin gördü uzun çəkir kişilərin söhbəti, bir az irəli gedib utana-utana dedi:

– Araba-ulaq üçün gəlmişəm.

Sədr bu sözü, bəlkə də, hamıdan yaxşı eşitmişdi. Amma özü qəsdən eşitməməzliyə saldı. Söhbəti uzatmaq xatirinə dedi:

– Nə üçün gəlmisən?

– Bəs o gün demədimmi ki, meşədə bir az odun yığdırmışam, qorxuram sonra yağış-yağmur ola, palçıqdan tərpənmək mümkün olmaya. Yer quruykən gətirsəm yaxşıdır.

– Əşi, sən də vaxt tapdın yanıma gəlməyə. – Sədr Xanpərinin xahişinə bir az da laqeydlik göstərdi. – Səhər gələydin, heç olmasa bir az sonra gəlsəydin, başımın açıq vaxtında görərdim hansı briqadirdən boş araba, ulaq tapırdım. Yaxşı, sonra, özgə vaxt gələrsən.

Sədrin hərəkəti Omarın xoşuna gəlmədi. Bu nə demək idi? Niyə bu gəlini get-gələ salırdı? Hə, yoxunu birdəfəlik deyə bilməzdimi? Niyə onu incidirdi? Özünü saxlaya bilməyib ucadan dilləndi.

– A sədr! – dedi. Heç adını da çəkmədi. – Niyə belə eləyirsən? Ayıb döymü?

Xındı adamların başının üstündən onu görməsə də, səsindən tanımamış deyildi. Kim idi bu dillənən? Kim idi ona nöqsan tutan? Belə şeylərə öyrəşməmişdi. Belə şeylər olanda ağzından vurmasa, dəli olardı. Odur ki boğazını uzadıb hikkəli-hikkəli soruşdu:

– Neynirəm, ayə?

– Bu gəlini niyə get-gələ salırsan, biri gün gəl, o biri gün gəl... Bir araba-ulaq nə böyük şeydir ki, onu incidirsən? Əsgər ailəsidir, kömək eləməyə borclusan.

Omarın belə deməyi sədrin acığına gəldi. O nəkarə idi ki, buna yol göstərirdi. Bu gün Xanpəriyə qəhmər çıxırdısa, sabah bütün camaatı onun üstə qaldıra bilərdi. Belə şeyə yol vermək istəmədiyi üçün Xındı hirslə əlini yellədi:

– Əə, sən kimsən! Sən mumla! – dedi.

Haqq söz dediyi üçün Omar belə cavab gözləmirdi. Odur ki özündən çıxıb pərt halda onu, bunu geri eləyib irəli cumuldu:

– Niyə, – dedi, – niyə mən mumlamalıyam?

– Elə!

– Elə niyə axı?

– Ona görə ki, danışmağa ixtiyarın yoxdur. Sənin səsin alınıb.

Omar kişiyə elə bil sillə vurdular. Kişi möhkəm əsəbiləşdi. Cavab verməyə, bunun qabağında nəsə bir söz deməyə çətinlik çəkdi. Elə bil səsini, həqiqətən, almışdılar. Kişi ayaq üstəcə ölmüşdü. Bu nə söz idi o dedi. Keçmiş bir şeyi niyə yadına salırdı? Haq-nahaq vaxtilə olan bir ağrı-acını niyə ona xatırladırdı?

Hələ 30-cu illərdə Omarın atası Alməmməd kişini heç nədəncə tutmuş, özlərinin də səslərini almışdılar. Elə vəziyyətə salmışdılar ki, bunlar cınqırlarını da çıxarda bilməyirdilər. Səs alınmağın nə olduğunu belə başa düşmürdülər. Xüsusilə Omarın anası Zərri tünəkə arvad idi. Belə şeyləri bilmirdi.

– A bala, – demişdi, – bizim indi danışmağa ixtiyarımız yoxdumu ki?

– Harda, ay ana?

– Həncəri, öydə, çöldə, bir başqa yerdə...

– Niyə yoxdu?

– Bəs deyirlər səsimizi alıblar?!

– Yox, ey, danış, budu mənnən, amma səs vermək olmaz.

– Booy, ay bala, mən də gejə yuxumda günümüzə ağlamaq istəyirdim. Amma qorxurdum səsim çıxa, gəlib bizi tutalar, sənin dərdini çəkirdim, ağlaya bilmirdim. Səsim çıxmasın deyə içimdə ağlayırdım. Göz yaşlarım da içimə tökülürdü. Qalmışdı Omar nə desin. Atasının tutulmağı bir yandan, səslərinin alınması da bu yandan. Camaat arasına da çıxa bilmirdilər. Hər yerdə onlar özlərini pis hiss edir, dəhşətli sıxıntı keçirirdilər. Bu hadisədən bir-iki ay sonra da seçkilər keçirilmişdi. Onda bunlar nələr çəkmişdilər Allah bilirdi. Kənddə idarələrin böyür-başını, dalını-qabağını bəzəmişdilər. Divarlara xalça vurmuşdular. Üstlərindən rəhbərlərin şəkillərini asmışdılar. Dövrələrini güllə-çiçəklə bəzəmişdilər. Bir yekə şüar da yazmışdılar: «Bolşeviklərlə bitərəflərin blokuna səs verək». Toy-düdük çalına-çalına camaat gedib səs verirdi. Kənddə yalnız bunlar evdən-eşiyə çıxmırdı. Yalnız balaca Vahid toyun səsinə qaçıb getmiş, onu da qovmuşdular ki, get, a bala, get, sizin səsiniz alınıb.

Bir çox adamlardan Omarın ağzı elə yanmışdı ki, hər şey gözləyirdi, bircə bunu gözləmirdi. Hecə ağlına da gəlmirdi. Yaxşı deyir ki, yıxılana baltalı da, baltasız da. Daha bundan o yana yox idi. Bu Omara olduqca pis təsir eləmişdi. Yanıb-tökülmüşdü. Uşağına bu cür münasibət bəsləməkdənsə, bu cür eləməkdənsə gəlib onun özünü tutsalar, qabaqlarına salıb yatab aparsalar, lap Sibirdən də o yana sürgün eləsələr bundan min dəfə yaxşı olardı. Nəinki uşağın qolundan tutub kənara tullamaq. Axı bu uşağın qəlbinə niyə dəymişdilər? Niyə onun ürəyini sındırmışdılar? Bəs fikirləşmirlərmi bu uşaqdır, həyatda hələ heç bir günahı yoxdur. Onun bir şənliyə, toya, düyünə getməyə ixtiyarı çatmırmı? O oynayıb-gülə bilməzmi? Belə də dərd olarmı? Adamlar niyə belə üzüdönük olublar? Omar beləcə içindən qovrulmuş, dişi-bağırsağını kəsmişdi. Seçki gedən tərəfə hərlənmək, heç gözünün ucu ilə də baxmaq istəməsə də, bu yerdə özünü saxlaya bilməmişdi. Uşağına qarşı belə kobud hərəkət edən kimdisə gedib onun abrını ətəyinə bükmək, bir bölük camaatın içində üzünə tüpürmək məqsədilə:

– Sənə kim dedi çıx get? Kim səni qovdu? – deyə acıqlı-acıqı oğlundan soruşmuşdu.

Atasının üstünə qışqırması uşağı daha da həyəcanlandırmışdı. Hıçqırığı daha da artıb onu boğduğundan cavab verə bilməmişdi.

– Sənnən döyüləmmi?! – Omar uşağın çiynindən tutub silkələmişdi. O nadanın kim olduğunu öyrənmək istəyirdi. Gedib dişinin dibindən çıxanı desin. Utanmırsanmı? Ölmürsənmi? Bəs ayıb deyilmi? Görmürsənmi bu uşaqdır?! Niyə könlünə dəyirsən? İnsafın, mürvətin yoxdurmu onu ağlada-ağlada üstümə göndərmisən? – Dillənsənə? Niyə lal olubsan?

Bu, belə elədikcə uşaq daha da bərk ağlayırdı. Hıçqıra-hıçqıra gözlərini ovuşdururdu. Axırı ata da buna dözə bilməmişdi. Canının yanğısından:

– Əşi, sən də bəsdir. Cəhənnəm ol başımdan, – deyə uşağı itələmişdi.

Balaca dalı-dalı gedib yıxılmışdı. Babası Alməmməd kişinin gözündən iraq, Vahid nəvəsini elə istəyirdi ki, elə bilirdi ki, dünya üzündə gəzən bircə budur. Nənəsi görüb yüyürdü.

– Gəl, qurban olum, gəl, allah bunların ciyərini yandırsın. Heç nə demirəm, bircə o gözəgörünməzə tapşırıram, – deyə uşağı yerdən çəkib qaldırmışdı və bağrına basmışdı, elə ordaca yırğalanıb özü də ağlamışdı.

Anasının gümültüsünü eşidən Omarın bağrı qan olmuşdu.

– Of, – eləyib dərindən ah çəkmişdi. Ahı ilə yeri-göyü elə bil yandırmaq istəmişdi. Amma ailəsindən başqa heç kəsə heç nə olmamışdı. Nə olmuş özünə olmuşdu. Səsi də birdən-birəcə batmışdı. Elə olmuşdu ki, heç danışa bilməmişdi. Səsi elə bil quyunun dibindən gəlirdi. Bir söz deyəndə xırıldayırdı. Anası, arvadı hərəsi bir yandan soruşmuşdu:

– Nə oldu sənə?

Bu da səsini çıxarıb cavab vermək əvəzinə çiyinlərini atırdı. Yəni nə bilim?

– Ədə, olma boğazın gəlib, bəri dur basım.

Anasının belə deməsi onu daha da qıcıqlandırmışdı:

– Lazım döy! – Əlini yelləyib ondan uzaq dayanmışdı.

Aydındı ki, hamısı əsəbdən idi. Atasının tutulması, səslərinin alınması məsələsi onu tamam sarsıtmışdı. Belə ki ailə bütün camaatdan təcrid olunmuşdu. Təklənmişdilər. Bir çox adamlar onlara pis baxırdılar. Hətta salam verməyənlər də var idi. Gör işin harası idi ki, uşağı uşaqlardan ayırmışdılar, bir günah sahibi olsalar onu belə yandırmazdı.

O gecə ilan vuran yatmışdısa, Omar yatmamışdı. Fikirləşmişdi ki, görəsən, səsimə nə oldu, niyə bu belə batdı? Bəs səsim açılmayacaqmı? Mən əvvəlki təki danışa bilməyəcəyəmmi? Bunu o qədər ürəyinə salmışdı ki, dəli olmaq dərəcəsinə gəlmişdi. Bağırmaq istəmişdi ki, görsün səsi çıxırmı? Görsün danışa bilirmi? Amma hamı yatmışdı. Evdə sakitlik idi. Bəs bu bağırsa, özü-özünə danışsa, evdəkilər yuxudan sərsəm qalxıb dəli olmazdılarmı? Evdə aləm bir-birinə qarışmazdımı? Ondansa səsi birdəfəlik batsa da, ömürlük lal-kar olsa da, susmaq yaxşı deyildimi? Başqa çarə yox idi.

Bax, belə bir daxili sarsıntılar, ağır düşüncələr içərisində Omar, nəhayət, yuxuya getmişdi. Azmı yatmışdı, çoxmu yatmışdı bilməmişdi. Yalnız onu bilmişdi ki, gecənin nə vaxtısa anası ona silkələyir.

– Əədə, əədə, Ooomar! – deyir.

– Nədi? Nədi?! – Omar diksinib hövlnak yerindən sıçramışdı. Anası Zərri arvad təmkinli-təmkinli demişdi:

– Əədə, nə olub sana? Niyə çığırırdın:

– Çığırırdım? – Omar yorğun-yorğun xəbər almışdı.

– Hə-ə? – Omar xəcalətlənmişdi. Uşaq ha deyildi. Yekə kişi ola-ola yuxusunda niyə çığırırmış. Nə bilsin? Ancaq, deyəsən, nəsə pis yuxu görürdü. Dalınca

düşmüşdülər. Bu da ha eləyirdi, qaça, qaça bilmirdi. Bəlkə də, heç belə deyildi. Yadında yaxşı qalmamışdı. Bu ara səsinin qaydaya düşdüyünü ağlına salıb:

– Bıy, ana, mən danışa bilirəm. Səsim çıxır. – Omar sevincək səslənmişdi və belə bir sarsıntılı vəziyyətdə buna şükür eləmişdi.

İndi sədr Xındı «sənin səsin alınıb» – deyə ona sataşanda Omar həmən bu hadisələri xatırlayıb pis oldu. Yarasının gözünü elə bil təzədən qopartdılar. Bəs bu divanın ilk günündən gedib canı ilə, qanı ilə Vətəni müdafiə eləmədimi? Bu xalqa, bu torpağa etibarlı, sədaqətli olduğunu sübut eləmədimi? Bunlar kifayət deyildimi? Başqa nə lazım idi? Bu adamlar ondan özgə nə istəyirdilər?

Elə o vaxtdan da atası Alməmməd kişini heç nədən tutduran, ailəsini damın altında gözüyaşlı qoyduran da beləleri deyildimi?! Bax, bu Xındının özü köhnə qurd idi. İşi-peşəsi onun-bunun ayağının altını eşmək idi. Çoxunun evini yıxmışdı. Kənddə irəli çıxa biləcək adamları ləkələmişdi. Bunu hamı bilirdi. Bilməknən nə olsun?! Yuxarılarda bunun sözünü tuturdular. Sözü keçirdi. Buna baxmayaraq, qorxmayıb bir az da irəli durdu və əlini ona uzadıb:

– Ə, sarsaq-sarsaq nə danışırsan, – dedi, – adam danışığını bilər.

– Sarsaq özünsən! Axmaq köpək oğlu! – Sədr tamam həddini aşdı.

Omarın yanında bir qoca kişi vardı. Əlində çəlik əsə-əsə dayanmışdı. Görünür, sədrdən qırıqdan-sökükdən kömək istəməyə gəlmişdi. Omar bu yerdə özünü saxlaya bilmədi, əlini atıb kişinin çəliyini aldı.

– Köpəkoğlusan da, hələ bir az da artıq! – deyə yarıb adamların arasından çəliyi sədrin başına endirmək istədi. Bunu görən adamlar ordan-burdan tez qabağına durdular. Kişinin əlindən-qolundan tutdular.

Sədr də buna şeşələnirdi. O da stolunun üstündən daş yazı qurulayanı götürmüşdü. Omarın kəlləsinə ilişdirmək fikri var idi. Amma araya girmiş adamlar buna imkan vermədilər. Geri eləyib çiynindən basıb sədri yerində otuzdurdular. Omarı da döşündən itələyə-itələyə kabinetdən eşiyə çıxartdılar. Elə hirslənmişdi ki, əli-ayağı əsirdi. Onsuz da davada kontuziya almışdı. Əsəbləri xarab olmuşdu. Sədrin söyüşü isə onun yeddi qatından keçmişdi. Hitlerin mərmilərinin qəlpəsi, gülləsi onu heç belə incitməmişdi. Yanıb-töküldüyündən qayıdıb ona bir-iki söz də dedi:

– Bir bunun qudurmuşduğuna baxın. Mən də gedib bu əclaflardan ötrü qan tökmüşəm. Belə bilsəydim, heç getməzdim.

* * *

İndiyədək elə gün olmamışdı ki, Vahid Əsədi xatırlamasın. Yadına düşəndə deyirdi ki, görəsən, hardadır, nə təhərdir, nə edir. Bir xeyli vaxt idi ki, məktubu gəlmirdi. Görünür, başı bərk qarışıb, macal tapmır ki, bir əl boyda kağız yaza. Qərənfilin atasından da məktub gəlmirdi. Hamının gözü yolda qalmışdı. Onları

qəmli-qüssəli, intizarlı görəndə Vahid fikirləşirdi ki, o əsgər getmiş olsaydı, ömründə belə şey eləməzdi. Başı necə qarışsa da, əlində vacib işi olsa da, yenə vaxt tapıb məktub yazardı. Anasını, bacısını, nənəsini nigaran qoymazdı. Hələ başqalarına da məktub yazardı ki, hərə birini alsın. Hələ Qərənfilə də yazardı. «Şanlı məktub. Ürəyimin ən dərin guşəsində bəslədiyim qızılgül qoxulu salamımı sənə yetirirəm. Mən sağ-salamat varam. Sənə də ulu təbiətdən...» Əslində, bu yazmaq istədiyi sözlərdən özünün də xoşu gəlmədi. Ancaq başqa cür bilmirdi. Başqalarını məktubunda bu cür sözlər oxumuşdu. Bu cür öyrənmişdi. Bir də bunun nə dəxli var idi. Əsas oydu ki, məktub yazsın, camaat intizarda qalmasın. Bax, Vahidin əlacı olsa bunu bütün əsgərlərə başa salardı. Tapşırardı ki, bunu heç vaxt yaddan çıxarmayın. Çünki adamı nigaran qoymaq çox pis şeydir. Arxada sizin yolunuzu gözləyən adamlar da yazıqdırlar. Ürəklərini yeyiblər. Gözləməkdən gözlərinin kökləri saralıb. Əlac bir ona qalırdı ki, o tərəflərə gedən bir maşının, qatarın quyruğuna minib gedəsən. Gedib orda yerindəcə deyəsən. Gərək əsgər gedəsən. Əsəd kimi ərizə verib, iki ayağını bir başmağa dirəyəsən ki, məni könüllü aparın. Onu da apardılar, aparmazdılar allah bilirdi. Könüllü getmək məsələsi Vahidin də ağlına gəlmişdi. Ürəyi atlanmış, belə bir iş eləyə bilsə, bütün kəndə səs sala biləcəyini düşünüb sevinmişdi. Yaşının nəzərə alınacağından və rədd cavabı veriləcəyi fikrindən isə son dərəcə mütəəssir olmuşdu. Onda şineli də gözündən düşmüşdü. Halbuki o, əsgər şinelini geyinə-geyinə özünü elə əsl döyüşçü kimi hiss eləmişdi. Hələ qabaqlar onun bircə şineli var idi. Atası gələndən sonra isə əsgər üçün necə paltar lazım idisə hamısından oldu. Çəkmə, pilotka, şalvar, əsgər köynəyi. Bunları atası gələn günündən çıxardıb, köhnə paltarlarını geyinmişdi. Nəsə xoşu yox idi. Adi paltarını daha çox bəyənirdi. Vahid isə əsgər paltarından ötrü ölürdü. Bir dəfə atasınınkıları bütüncə geyinmişdi. Amma heç ortalığa çıxılası deyildi. İri olduğundan əynindən hamısı tökülüb-itirdi. Onu tutmurdu. Ona görə məcbur olub çıxartmışdı. Ancaq fikri var idi ki, onları balacalandırsın və geyinsin. Anası razı olmamışdı.

– Elə şey eləmə, – demişdi, – əvvəla adam atasının paltarını korlamaz. İkinci bir tərəfdən, sən əsgər deyilsən ki, belə forma geyinəsən. Allah qoysa əsgər olanda geyinərsən. Həm də bir də gördün atana lazım oldu, özü geyindi.

Həqiqətən, bir gün Omar kişini rayon mərkəzinə çağırdılar. Zəng edib kənd sovetinə demişdilər. Kənd Sovet sədri də çağırıb buna dedi:

– Sabah mütləq getməlisən. Filankəsin yanında olmalısan.

Səhər Omar kişi yola hazırlaşanda evdə ona dedilər ki, əsgər paltarını geyin, qoy görsünlər ki, davadan gəlmisən, borcunu vermisən. O da dedi ki, bəyəm bu paltarnandır, bir də adam elədiyini gözə soxmaz. Vətəni qorumaq hamının borcudur. Onun bu cür haqlı sözlər deməyinə baxmayaraq, evdə uşaq, böyük hamı inadını yeritdi. Məcbur olub bu da əsgər paltarını geyindi. Yalnız başında

dəbilqəsi, əlində tüfəngi çatışmırdı. Bunlar da olsa, deyərdin ki, Omar təzədən davaya gedir.

Vahidin isə əli-ayağı yerdə durmurdu. Sevindiyindən bilmirdi nə etsin. Əsgər paltarını geyinib rayon mərkəzinə gedən atası ilə fəxr edirdi. Onun gözündə atası bu saat generaldan da, marşaldan da böyük idi. Hamı onu salamlamalı idi. Hələ bir rayon mərkəzinə çatsın, komissar özü onu qarşılayacaqdı. Bəs necə?! Omar kişi gözlərilə od ayaqlamışdı. Faşistlərlə vuruşa-vuruşa nə qədər kəndin, şəhərin azad edilməsində iştirak etmişdi. Əlində qumbara sürünə-sürünə yaxınlaşıb neçə düşmən tankını sıradan çıxartmışdı. Dəfələrlə kəşfiyyata getmişdi. Həmişə də ağzına yaylıq basıb, əlini dalında bağlayaraq bir faşist gözətçisi gətirib gəlmişdi. Döyüş xidmətləri çox idi. Yəqin, ona təşəkkür edəcəklər. «Rayonumuzun adını ucalara qaldırmısan» – deyəcəklər. Hələ ola bilsin onunla görüş keçirtsinlər, haqqında danışsınlar. Özünə də söz versinlər. O da qabağa çıxıb keçdiyi döyüş yolundan söhbət açacaq. Bunları ağlına gətirdikcə Vahid ipdə-sapda durmur, kəndin arasında kefi kök hərlənir, fit çalır, mahnı oxuyurdu. Yalnız ona təəssüf edirdi ki, gərək atası ilə o da gedəydi. İstəmişdi getsin. Atasından xahiş etmişdi ki, qoy mən də gedim. Ancaq atası razılaşmamışdı.

– Heç bilmirəm məni niyə çağırırlar, sən niyə gedirsən?! – demişdi.

O gün Vahidin gözü rayon yolunda qaldı. Hər gələnə baxırdı ki, görsün atasıdırmı? Görsün atasını o deyən kimimi qarşılayırlar? Hələ ola bilsin onu məktəbə də dəvət ediblər. Pionerlər boynuna qalstuk bağlayıblar. Belə-belə Vahid öz aləmində atasını qaldırırdı göyün neçənci qatına. Ona yuxarıda yer eləyirdi. Burada bu cür təmtəraqla qarşılanmamasının səbəbini isə kəndin böyüklərindən olan kolxoz sədrində görürdü. Paxıl adamdır. İstəyir bu kənddə ondan şöhrətlisi, hörmətlisi olmasın. Həmişə onun sözü danışılsın, yalnız o tərifləsin. Daha demir ki, indi adamların xidməti döyüşdə göstərdiyi şücaətlə ölçülür, necə vuruşması ilə, qələbəyə necə kömək etməsilə qiymətləndirilir.

Axşam gün yaxar-yaxmaz atasının gəldiyini görcək həyətdə odun yaran Vahid dayana bilmədi. Baltanı odunların üstünə atıb qabağına yüyürdü. Tələsirdi ki, öyrənsin, görsün onu necə qarşılayıblar? Görüşdə kəndlərindən bir adam olubmu?

Amma atasının kefi yox idi. Yerə baxa-baxa gəlirdi. Elə bil dünyanın xərcini-borcunu bu kişidən alırlar. Vahid atasının pərişən halından heç almadı. Bildi ki, boş-boşuna deyil, burda nəsə var. Amma ağlına pis şey heç nə gəlmirdi. Nə ola bilərdi axı? Dava başlayandan gedib, bir də üç il keçəndən sonra gəlmişdi. Müharibədə bütün canını qoymuşdu. Vahid atasının kefsizliyini ancaq yorğunluqda, zəiflikdə gördü. Burdan rayon mərkəzinə xeyli yol idi. Maşın-zad da çox zaman olmurdu. Təsadüfən düşməyəndə adamlar pay-piyadaca gedib gəlirdilər. Vahidin ağlına özgə bir şey gəlmədi. Yalnız onun qayğısına qaldı ki, yorğun-

luğu tez çıxsın. Evə gələcək oturmağa stul verdi. Şinelini əlindən alıb asdı. Anası, nənəsi də çay-çörək vermək qayğısına qaldılar. Kişi üçün əlüstü süfrə açdılar. Qəribə burası idi ki, bir adam ürək eləyib soruşmurdu ki, niyə çağırmışdılar. Sənnən nə işləri vardı? Bu soruşmamaq da səbəbsiz deyildi, başları çəkmişdi. Gözləri ilə görmüşdülər. Aydındır ki, davadan qabaq bunları rayona çox aparıb gətirmişdilər. Bu nəslin-kökün bu yaxınlaradək əsas dirəyi olan Omarın atası Alməmməd kişinin üstündə bu ailəni çox incitmişdilər. Omarın bir ayağı rayon mərkəzində qalmışdı. O, idarəyə, bu idarəyə müraciət etməkdən təngə gəlmişdi. Heç yerdən bir dürüst məlumat öyrənə bilməmişdi. Onun xalq düşməninin oğlu kimi hər yerdə üzünə pis baxmışdılar. Bu da oturub-durub demişdi ki, mənim atamı günahsız tutublar. Mənim atam xalq düşməni deyil. Həqiqətən, Alməmməd kişi əsl xalq adamı idi. O necə xalqa düşmən ola bilərdi ki, bu adam heç bir vaxt xeyirdən-şərdən qalmamışdı. Camaatın hər bir işində iştirak etmişdi. Üstünə gələn adamı əliboş, peşman qaytarmamışdı. Hər yerdə, həmişə yıxılana kömək olmağa çalışmışdı. Əliaçıq, mərd, qoçaq olduğuna görə hamı da onun xətrini istəyirdi. Bir sözünü iki eliyən olmamışdı. Uşaqdan-böyüyə hamı bilirdi ki, Alməmməd kişi əyri söz deməz, düz yol göstərər, onun dediyilə gedən xeyir tapar. Kəndin ağsaqqallarından, başbilənlərindən biri kimi Alməmməd kişi camaat üçün çox iş görmüşdü. Kənddə kolxozu təşkil eliyənlərdən biri o olmuşdu. Qaçaq-quldura qarşı mübarizə aparmışdı. Kənddə Sovet hakimiyyətini qoruyub saxlamışdı. Sovet hökumətinin üstündə əsim-əsim əsirdi ki, bu, yaxşı hökumətdir, onun qədrini bilin. Sözü də keçən adam idi. Hamı da onun dediyi ilə durub otururdu. Müharibədən beş-altı il qabaq isə rayonda yaman tuthatut başlandı. Orda onu tutdular, burda bunu tutdular. Gecəynən gəlib götürürdülər. Elə o gedən olurdu. Bir xəbər-ətər də çıxmırdı. Bəzən eləsini aparırdılar ki, adam təəcüb edirdi ki, bu, nə eləmiş olar?!

– Ayə, bu nə haqq-hesabdır, a başınıza dönüm, bu qara yel hardan əsir? – deyə axırı bir dəfə dayana bilməyib Alməmməd kişi camaatın içində bu işə mat qaldığını bildirmişdi. Heç bircə həftə keçməmişdi ki, gəlib bunun özünü də aparmışdılar. Elə o gedən getmişdi. Arvad-uşaq, qohum-əqrəbası ora-bura gedib-gəlmişdilərsə də, bir şey çıxmamışdı.

– Gedin yerinizdə oturun, ağzına gücü çatmayanların dərsini biz vaxtında verməsək, ta onda biz burda niyə oturmuşuq? – deyə bunlara da hədə-qorxu gəlib qovmuşdular.

Onda Vahid altı yaşında yekə oğlan idi. Evdə yaranmış gərginliyi başa düşməmiş deyildi. Doğrudur, babasının tutulmasını ondan gizlədirdilər. Deyirdilər harasa gedib tezliklə gələcək. Əvvəl-əvvəl inanırdı. Sonra evdəkilərin qara bulud, göy şüyüd olub tutulmalarından, bir yerə yığışıb nə barədəsə xısın-xısın danışmalarından şübhəyə düşdü. Nənəsinin ağlamasını da görmüşdü. Göz-

ləri şişib papaq-papaq olmuşdu. Atası da ayaq üstəcə ölmüşdü. Bilmirdi nə etsin. İkiəlli başını tutub fikrə getməkdən, ah çəkməkdən ürəyi partlayırdı. Az qalırdı özünü öldürsün. Xörək-çörək də yada düşmürdü. Alməmməd kişisiz süfrə açmağa həvəs yox idi. Baba isə gəlib çıxmırdı. Onsuz Vahid dəli olmuşdu. Babasından ötrü burnunun ucu göynəyirdi. Bu saat Alməmməd kişi böyürdən çıxsa, Allah bilirdi Vahid neyniyərdi?! Hamı yalan olardı, bu gerçək. Hoppanıb boynundan qucaqlayardı. Qollarını qaldırıb oynayardı.

Ancaq günlər keçir, yaranmış vəziyyətdə heç bir dəyişiklik olmurdu. Bunlar işin düzələcəyinə, hər şeyin yaxşılaşacağına ümid edib, bunun üçün də həyatda yaxşı bildikləri, uca, ali, haqq sandıqları canlı-cansız nə varsa hamısına pənah aparırdılarsa, əksinə, pisləşirdi. Hələ payızdan olub günəşin hərarəti daşdan-torpaqdan adamların canından getməmiş olsa da, onların ailəsində dəhşətli bir soyuqluq hiss edilirdi. Atası da, anası da, nənəsi də, bacıları da, bütün qohum-əqrəbası da, elə o özü də fikirdən elə üşüyürdülər ki, deyirdin qışdı. Bir dəfə belə donuq vəziyyətdə həyətdə fikirli dayanmışdı, bir də gördü kəndin yuxarı başı yoldan, rayon mərkəzi tərəfdən bir kişi gəlir. Heç oyan-buyanı olmazdı. Bütüncə babası idi. Görünüşü, yerişi. Uşağın üzünə elə bil gün doğdu, donu açıldı.

– Ba...bam! Babam gəldi! – Oğlan yerindən götürüldü, nə götürüldü. Elə gedirdi ki, elə bil qollarına küləkdən qanad taxmışdı. Amma qaçıb çatanda gördü o deyil. Uşaq elə pis oldu ki, elə bil qolunu-qanadını sındırdılar. Kor-peşman qayıtdı. Geri, evə gələndə gördü səsinə içəridəkilər də eşiyə çıxıblar. Elə biliblər, həqiqətən, kişi gəlib. Ürəkləri atdanıb. Az qalıb sinələrini yarıb çıxsın. Sonra baxıb görəndə ki, başqa yol adamını uşaq babasına oxşadıb, yaman pis olublar. İndi bilmirdilər özlərini toxtatsınlar, yoxsa aldanışdan sarsılıb çox pis olmuş uşağa təskinlik versinlər.

Nənəsi:

– Baban gələcək, dərdin alem, baban mütləq gələcək, – dediyini görmüşdü ki, uşaq hönkürdü. Sən demə dolubmuş, balaca himə bəndmiş. Nənəsinin donundan tutub onun qıçlarına sığınaraq necə ağlayırdısa, səsi bütün həyəti götürmüşdü. Hamının canına, ciyərinə od salmışdı. O dedi: «Qurban olum, ağlama». Bu dedi: «Gözümün işığı, ağlama». Balaca Vahid kiriyəmi bilirdi. Əksinə, daha bərk ağlayır, gözlərinin on yerindən tökürdü. Axırı yalvar-yaxarla, əlinə-ayağına düşməklə güclə kiritmişdilər. Əlinə qaletdən, konfetdən, almadan, armuddan verib kiritdikdən sonra da uşaq özünü saxlaya bilməyib burnunu çəkir, hıçqırırdı. O, ailədə yaranmış gərgin vəziyyəti dəyişə bilmədiyindən, babasını evə gətirə bilmədiyindən hirslənib ağlamışdı. Bu ağlamaq onun mövcud vəziyyətə qarşı çıxışı, mübarizəsi, etiraz dalğası idi. Bu dalğa onun qəlbində o qədər güclü, o qədər sərt olmuşdu ki, hələ də çırpınır və özünü ürəyinin döyüntüsündə, balaca köksündə qabarıb qalxmasında, hıçqırığında göstərirdi. O,

bu etiraz üsyanına özü də bilmədən, hiss eləmədən çoxdan hazırlaşmışdı. Aşkarda bir hazırlıq görməsə də, daxilən görmüşdü.

Uşağın atası evdə yox idi. Nə isə xoşagəlməz bir hadisə baş verdiyini hiss eləyib maraqlandı:

– Nə olub?

– O yandan bir kişi gəlirmiş, uşaq elə bilib babasıdır. Qabağına yüyürüb, görəndə ki, o döy, pis olub. Biz də deyirik ağlama, baban gələcək, – arvadı olan şeyi söylədi.

Bundan Omar da pis oldu. Nə etsin?! Əlindən nə gəlirdi. Oğluna bir xoş söz demək, onu kiritmək əvəzinə, balta götürüb başladı odunu yarmağa. «Həə, eləyib hər dəfə baltanı endirdikcə ətrafda dağ-daş elə bil lərzəyə düşürdü. Bu da yarılan şey deyildi. Günlərlə, aylarla günün altında qalıb necə qurumuşdusa, bütüncə dəmirə dönmüşdü. Balta üzünə qayıdırdı. Omar da acığa düşmüşdü. Yarmasa əl çəkənə oxşamırdı. Deyəsən, əsas işə gücü çatmadığından, onun üçün, cəmi-ailə üçün, bütün nəsl, əsl-nəcabət üçün əsas lazım olan məsələni həll edə bilmədiyindən bunun üstə düşmüşdü. Həqiqətən, bir az keçməmiş o, düyünlü-müyünlü kötüyü parçalayıb, cırıq-cırıq eləyib atdı. İri odun parçaları qarnı yarılmış balıq təki orda-burda ağarışanda bu, baltanı odunların üstə atdı. Evə çörək yeməyə gəlmişdi. Bildi ki, boğazından getməyəcək, təzədən başını götürüb həyətdən çıxdı. Anası demək istədi ki, a anan ölsün, hara gedirsən, ac döysənmi? Niyə ağzına, bir şey almadın? Amma bildi ki, qayıtmayacaq. Həm də fikirləşdi ki, qoy getsin, bəlkə, bir allah bəndəsi ilə məsləhətləşsin, bir ağıla, qərara gəldilər, əncam çəkdilər. Ora-bura getdilər, təvəqqi elədilər, böyüklərin adına ərizə yazdılar. Bu yazığın günahı nə idi axı? Bu ki Sovet hökuməti deyib dururdu. Bu ki Sovet hökumətinin ətəyindən tutmuşdu?! Bəs hamı görmürdümü, bilmirdimi bu nə təhər adamdı?! Arvad bilirdi ki, oğlu buna çalışır, atasının günahsız tutulduğunu sübut etməyə cəhd edir. Buna inanırdı ki, səhv etdiklərini başa düşəcək, kişini buraxacaqdır. Rayonun mərkəzi də budur, bura döymü?! Çıxıb gələcək. Bunlar belə fikirləşdiyi halda, bir də eşitdilər ki, kişi burda nə gəzir, çoxdan aparıblar. Bunu eşidəndə Alməmməd kişinin arvadının canına elə bil od gəldi. Şalını çiyninə salıb dəli təki yola sarı getdi.

– Ədə, gedək, gedək, – dedi.

Oğlu Omar bildi ki, bu söz ona aiddir. Yerindən tərpənməyib əlacsız-əlacsız əllərini açdı.

– Hara gedək?

– Həncəri hara? Hara aparıblar ora gedək.

– Mən bilirəmmi hara aparıblar. – Omar bir az da ümidsiz halda çiyinlərini dartdı.

– Booy, ay allah, bu nə müsibət idi başımıza gəldi! – Arvad üzünü göyə tutdu. Bütün bu məsələləri heç olmasa onun köməyi ilə başa düşmək, dərk elə-

mək istədi. Çünki bəndələrdən çoxlarına ağız açmışdılar, yalvar-yaxar eləmişdilər, ağlayıb sıtqamışdılar, bir kömək olmamışdı. İndi, bəlkə, o gözəgörünməz başa salaydı ki, bu nə məsələdir? Bu gen dünyada o kişi kimin yerini dar eləyirdi? Kimə mərdimazarlıq etmişdi? Arvad bilirdi ki, ərinin təqsiri yoxdur. Əgər bir günah sahibi olsaydı, belə yanmazdı. Onu belə incitməzdi. Arvad indi ona yanırdı ki, o boyda kişinin izi-tozu da görünmürdü. Hara aparmışdılar, bilinmirdi. Elə bil o adda adam heç olmamışdı. Halbuki Alməmməd o yandan gələndə elə bilirdi ki, bütöv bir dünya gəlir. İndi o boyda kişi bir iynə-sap qədər də yoxdu ki, deyəsən yerə düşüb, ora-bura baxıb tapasan.

– Ay allah, mən neynim? Başıma haranın daşını salım? – arvad yenə çalxandı. Yenə əri Alməmmədsiz özünə bu gen dünyada yer tapa bilmədi. Həyatda təskinedici, onlara kömək olacaq elə bir şey, elə bir qüvvə görmədi, gəlib nəvəsini qucaqladı. – Sənə qurban olum, a Vahid. Ömrüm-günüm, a Vahid – deyib uşağı bağrına basırdı, ərinin iyisini bundan alırdı.

Bir neçə gün keçmiş isə Vahidin nənəsilə, atası harasa getməyə hazırlaşdılar. Vahid başa düşmüşdü ki, bunlar babasının ardınca gedirlər. Yola düşəndə ürəyi durmadı, ağladı ki, mən də gedirəm.

– Sən hara gedirsən?! Rədd ol başımdan! Get yıxılmışın altında otur! – atası ona acıqlandı. O, heç vaxt oğluna belə sərt acıqlanmamışdı. Görün, indi işin harası idi. Atasının işi, ailənin ümumi vəziyyəti necə ağır idisə, ona qarşı belə acıqlı, qəzəbli idilər. Nazıynan oynamaq istəmirdilər. Dediyinə qulaq asan yox idi. İstəyinə əməl eləmirdilər. Uşaq yanıb töküldü, bilmədi onları necə yanısın. Axırı:

– Hə-ə. Qoy babam gəlsin. Gör sizin başınıza nə oyun açır, – deyə onları yanıdı.

Amma Vahidin babası Alməmməd kişi bir də qayıtmadı. Elə o gedən oldu. Balaca Vahid onun yolunu nə qədər gözlədisə, Alməmməd kişi görünmədi. Xalq düşməni adı ilə onu harada itirib batırdılar bilən olmadı. O vaxt atasının nə üçün tutulduğunu heç indi də bilmirdi. Ölmüşdümü, qalmışdımı, indi də bilmirdi. Bu necə iş idi, indi də bilmirdi. O vaxt da bilməmişdi. Bilməmişdi həqiqəti harada axtarsın. Kimə qarşı çıxsın ki, bəlkə, bu mübarizədə ədalət, haqq görünə bilə. Hamısı özününkü idi. Kənddəkilər də özününkülər idi. Rayon mərkəzində olanlar da özününkülər idi. Ordan uzaqda, yuxarıda olanlar da özününkülər idi. Ordan da uzaqda, lap o dibdə olanlar da özününkülər idi. O ən böyük ulu rəhbər də özününkü idi. Di gəl onun atası bu özününkü bildiyi balacalı-böyüklü adamların arasında itib batmışdı. Kənddə çoxları onlardan üz döndərmişdi. Çox vaxt allahın quruca salamını da vermirdilər. Bircə onların kəndində bir lal kişi vardı. Səhər də, axşam da suya-selə, oduna-ocağa gedən zaman onların evinin qabağından keçəndə bunları çox bikef görüb o da qəmlənər, təəssüflə

başını bulaya-bulaya keçərdi. Bir dəfə də ötə bilmədi, bunlara canı o qədər yandı, bu haqsızlıqdan o qədər mütəəssir oldu ki, qapıya gəlib baş barmağı ilə şəhadət barmağını halqavarı şəkildə tutaraq qoşalama gözlərinin üstə qoydu və sonra da əlilə yazı yazmağı göstərdi. Öz dilində Omara belə başa salmışdı.

– Yaz-yaz. Yuxarı, dördgözə yaz. Yəni eynəkli rəhbərə yaz. – Mir Cəfər Bağırovu deyirdi. O da fikirləşib:

– Yaxşı. Baş üstə, – demişdi.

Bir müddətdən sonra gəlib soruşmuşdu ki, nə oldu, yazdınmı?

Bu da onu başa salmışdı ki, yazdım, bir şey çıxmadı.

O da əlini-əlinə vurmuşdu ki, «baaa, baaa» niyə belə oldu. Sonra da ağlına haradan gəlmişdisə, əlini yuxarı, lap yuxarı uzadıb qalınaraq şəkildə bığ yerini göstərmişdi. Yəni:

– Bığlıya, Stalinə yaz.

Bu da yenə fikirləşib ağlına batdığı üçün ümidlə gülümsəyib:

– Yaxşı. Yaxşı, – demişdi.

Bir müddət sonra lal kişi yenə gəlib soruşmuşdu ki, nə oldu, yazdınmı?

O da ümidi hər yerdən kəsilmiş əhvalda başını tərpətmişdi, demişdi ki, yazdım, ona da yazdım, bir şey çıxmadı.

İndi o məşəqqətli günlərdən yeddi-səkkiz il keçməyinə baxmayaraq, elə bil dünən olmuşdu. Elə bil atası Alməmməd kişini gəlib bir axşam evindən dünənciyəz aparmışdılar. Dava başlayanadək özünü də incidirdilər. Tez-tez çağırıb danışdırır, narahat edirdilər. Arada qulağı bir azca dincəlmişdi. Əsgərlikdə ona qaşıyın üstündə qara var deyən olmamışdı. Omar təzə-təzə allaha şükür eləyirdi ki, yenə başladılar. «Ay başınıza dönüm, bunların işləri-gücləri yoxdurmu? Niyə dərdləri ilə, azarları ilə məşğul olmurlar. Öz-özlərindən nə qanırlar? Demirlərmi bu camaat yazıqdır, onun qeydinə qalaq, ona bir gün ağlayaq». Omar belə düşündükcə yanıb-tökülür, hirsindən bəzi-bəzi adamların əlindən zəncir çeynəyirdi.

Əhvalat bu yerdə idi ki, onu indi də həmin idarəyə çağırmışdılar – NKVD-yə. Elə binasını görəndə kişinin başına ağrı uymuşdu. Bilmişdi ki, xeyirliyə deyil. Atasının vaxtından gözü necə qorxmuşdusa, bu idarənin adı çəkiləndə belə əsəbiləşirdi. Ancaq çağırmışdılar, gərək getsin. İdarənin zahiri görkəmində elə bir dəyişiklik olmamışdı. Hə. Hər idarənin özünəməxsus nəsə bir spesifik havası olur. Havası da, deyəsən, o zamankı hava idi. Yavaş-yavaş bələd olub gördü ki, adama yanaşmaqları da, münasibətləri də, dindirib söylətmələri də elə o cürdür. Üstünə qoyublar ki, üstündən almayıblar. O zamankı kimi adama yuxarıdan aşağı baxırlar. Hədə-qorxu gəlirlər. Sözlə deməsələr də hərəkətlərindən, sorğu-suallarından açıqca hiss olunurdu. Bunlardan başqa, Omar kişini yandıran bu idi ki, onu əlüstü satmışdılar. Heç canına yel dəyməyə qoymamışdılar. Birinin də üstünə beşini qoyub demişdilər. Bilməzsənmi sən kolxoz səd-

rilə dalaşanda antisovet sözlər demisən. Yəni Sovet hökumətinin əleyhinə danışmısan.

Omar kişini heyrət götürmüşdü. Üstünə atılan şərdən irzi-irəngi ağarmış vəziyyətdə əlini döşünə vurmuşdu.

– Məən?

– Hə-ə. Sən!

– Hökumətin əleyhinə nə demişəm?

– Demisən ki, belə bilsəydim faşistlərlə vuruşmazdım. Demisən?

Omar kişi duruxmuşdu. Adam gərək sözünün yiyəsi olsun. O, həmişə bu əqidə ilə yaşamışdı. Bu əqidənin sahibi idi. Kişi təki boynuna almışdı.

– Demişəm. Ancaq mən onun acığına demişəm. Demişəm, yəni camaat gedir davada can qoyur, sənsə ədalətsiz işlər görürsən. Demişəm ki, başa düşsün, adam olsun, o da o birilər kimi vicdanlı olsun.

– Kütlə arasında o cür antisovet sözlər danışmaq vicdanlı olmaq deməkdir? Bilirsən buna görə adama neyləyərlər??! – NKVD işçisi bunun üstə bozarmışdı. Deyəsən, heç nədən bunu işə salmışdılar. Heç nədən adını ləkələyirdilər. Üstünə şər atırdılar. Axı bu ədalətsizlik idi. NKVD işçisi başa düşmürdü ki, gedib o davanın çətinliklərini görmüş, vicdanla, namusla vuruşmuş, Vətən qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmiş bir adam özü qəsdən belə sözlər deməz, xain olmaz. İndi bu həqiqəti başa salmaq üçün o nə etməlidir? Nə etməli, necə hərəkət etməlidir ki, buna NKVD işçisi inansın. Şəri, xeyirdən seçsin, ayırsın, ədaləti gözləsin. Bunu özü başa düşməməliydimi?! Belə şərlərdən o bunu qorumalı deyildimi?! Nə olsun ki, gəlib ona bir söz deyiblər? Yalandan-palandan qulağına nəsə çatdırıblar. Bəs o, öyrənməməliydimi?! Kim deyib? Niyə deyib? Hansı şəraitdə deyib?

Omar kişi NKVD işçisinin bulanlıq baxışları altında özünü itirib çaş-baş qalmışdı. Bilmirdi nə desin. Özünü necə müdafiə eləsin. Axırı özün toplayıb bayaqkı fikrini bir də təkrar etməyə məcbur olmuşdu.

– A kişi, vallah, billah, mən bu sözü ona görə demişəm. Pis mənada deməmişəm. Pis məna mənim ağlıma da gəlməyib.

– Danışanda fikirləşmirsən ki, nə deyəcəksən?! – NKVD işçisi bunu lap uşaq yerinə qoymuşdu. Əslində, o, bundan kiçik olardı. Baxmayaraq ki, iri-miri görünürdü. Kələ-kötür bir adam idi. Üzünün əti, dodaqları sallanırdı. Amma yaşca ondan hökmən kiçik idi. Özünü isə yekəxana aparırdı. Hikkəsindən yer cırılırdı. Əynindəki qara dəri gödəkcə, qalifeyi şalvar və üstü, boğazı işım-işım işıldayan uzunboğaz çəkmələr onun vəzifəli şəxs olduğunu, həm də mühüm sahədə fəaliyyət göstərdiyini xatırladır, ondan bir az çəkinmək lazım gəldiyini bildirirdi. Omar kişidə isə bir şey yox idi. Ehtiyat eləyirdi, amma bilmirdi niyə ehtiyat eləyir.

– Sonra da üzünü kütləyə tutub demisən ki, ay camaat, görün biz kimdən ötrü vuruşuruq.

Belə deyəndə Omar kişinin qanı qurumuşdu. Bu daha tamam ağ yalan idi. Hirsindən daha danışmamışdı.

– Yaxşı. Durun gedin! – Sonra onu buraxmışdılar. Amma bu buraxmaq həmişəlik buraxmaqdan deyildi. Nəzarət altına düşdüyünü bilirdi.

Bunların heç birini, ümumiyyətlə, rayona nə üçün, nə məqsədlə çağrıldığını Omar kişi deməmişdi. Fikirləşmişdi ki, evdə yenə köhnə haqq-hesablar, narahatçılıq, nigarançılıq başlanacaq. Hamı ürəyini yeyəcək ki, ay allah, görən nə olacaq? Xüsusilə anası fikirdən dəli olardı. Vaxtilə başı çəkmişdi. Onun necə dərd olduğunu bilirdi. Ərini əlindən almışdılar, indi də oğlunu... Yox. Yazıq arvadın o dəqiqə ürəyi partlayardı. Bütün bunları nəzərə alan Omar məsələni gizlətdi. Əvəzində nə deyim? Hə, dedi ki, bəs hərbi komissarlığa çağırmışdılar. Maraqlanırdılar ki, yaraların incitmir ki? Ona diqqətlə qulaq asan anası soruşmuşdu:

– Sən nə dedin, ay oğul?

– Nə deyəjəm, ana? Dedim sağ olun, heç bir şeyə ehtiyacım yoxdur.

Ana oğlunun cavabından razı qaldığı üçün başını tərpətmişdi.

– Yaxşı demisən, dərdin alem. Sən heç olmasa gəlib çıxmısan, eviyin, uşaqlarıyın içindəsən. Əgər imkanları varsa, qoy o gəlməyənlərin ailəsinə kömək etsinlər.

Vahid də atasının üzünə elə diqqətlə baxırdı ki, deyirdin ağzı ilə quş tutacaq. O, özgə şeylər də gözləyirdi. Xüsusi qarşılanmalar, dəbdəbə, şan-şöhrət. Atasının belə şeylər danışmadığını görən oğlan bu ara əllərini açdı və dedi:

– Elə bu?

– Özgə nə istəyirsən, oğlum?

Özgə nə istədiyini Vahid bilmədi necə desin. Bu anadək ata nəsə xatırladı.

– Bir də maraqlandım ki, mənim ordenim, medallarım gəlib çıxmayıb ki?

Əslində, belə məsələ var idi. Həqiqətən, Omarı bir neçə dəfə döyüşdə fərqləndiyinə görə, faşistlərlə qorxmadan vuruşub igidlik göstərdiyinə görə yüksək mükafata təqdim etmişdilər. Bu, medal idi, nə idi, bilmirdi! Ancaq bu dəqiq idi ki, təqdim ediblər. Nəticəsi isə görünməmişdi. Yəni heç birini almamışdı. Fikirləşirdi ki, bəlkə, yerlərini tez-tez dəyişiblər, ona görə kağızlar hardasa itbat olub. Bəlkə də, döyüşdən göndərilən təqdimatlar gedib heç yerinə çıxmayıb. Bu da ola bilərdi. Ağzında müharibə deyirsən. Bir anın içində min cür dəyişiklik olur. Amma qospitalda demişdilər ki, qorxma, itməz, nə mükafatın varsa, gec-tez gəlib çıxacaq. İndi Omar kişi orden-medal söhbətini ona görə saldı ki, bilir, oğlu Vahid belə şeyləri sevir. Dedi: qoy uşağın ürəyi açılsın, fərəhlənsin, həm də evdəkilərin onun rayon mərkəzinə çağırılmağı barədə başqa fikri olmasın, şübhə yeri qalmasın. Bir də o, NKVD-dən sonra, həqiqətən, hərbi komissarlığa

getmişdi. Həmin məsələ ilə maraqlanmışdı. Bir şey yoxdur demişdilər. Məqsədi də o deyildi ki, döşünə taxsın, ona-buna göstərsin. Xeyr. Yeri gələndə heç olmasa bəzi adamlara göstərərdi ki, bax, mən belə vuruşmuşam.

Omar kişi bir axşam tikanını təpə təki arabaya yığıb gətirməli oldu. Belə ki, öküzlər ölə-ölə çəkirdi. Bu da heyvanları çox zora salmayıb «hiş! Ha başına dönüm, çək!» – deyə öküzlərin böyrüncə asta-asta gəlir və hərdən çubuğunu qaldırıb heyvanlara yalan yerə acıqlanırdı. Yol da bir az dikə idi. Ona görə Omar kişi tələsmirdi. Bu yerdə harda var, harda yox, kolxoz sədri şəppəxeyir atdı qabağından çıxdı. Omarın o dəqiqə dalağı sancdı. Bildi ki, yenə söz-söhbət olacaq. Bu, belə adam idi. Birilə düşnüşdümü, axırına çıxmağa çalışırdı. Omar kişinin isə gözü bir az qorxmuşdu. Şərdən-mərdən kənarda durmaq istəyirdi. Bəlkə də, kolxoz sədri bunu hiss eləmişdi. Ona görə də üstünə ayaq alırdı. Dalaşdıqları gündən danışmasalar da indi sədr hikkəli dedi:

– Bu nədi, ə?

Bu da nə cavab versin? Dedi:

– Tikandır.

Sədr atın üstündən ona hədələyici nəzərlərlə baxırdı. Danışanda bığının altında, dodaqlarının ucunda, onun balta dişləri görünür, əsəbdən uzun burnunun deşikləri körük təki gah yığılır, gah da genəlirdi.

– Tikan olduğunu görürəm. Araba-ulağı kim verib?

– Araba-ulağı? – Sədr, əlbəttə, tikan barəsində bir söz deyə bilməzdi. Çöllər dolu tikan idi. Hələ onun qadağasına gəlib çıxmamışdı. Araba-ulaq məsələsi işləri korlayırdı. – Heç kim verməyib, özüm almışam. – Briqadirin adını çəkmədi. Qorxdu üzünə söz gələr.

Sədr çox hünərli gəlmişdi. Əmr etdi:

– Arabanı boşalt.

Omar qulaqlarına inanmadı. Bu düz sözüydümü? Tikanı arabaya nə əziyyətlə yığmışdılar. İndi hansı ağılla onu boşaldırdı.

– Niyə, a sədr?

– Sana deyirəm boşalt!

– Axı niyə?

– Niyəsini mən bilirəm. O mənim işimdir. Sana borc döyül! – Sədr kindən-küdurətdən qanqal qozası təkin qızarmışdı. Omar da onun sözlərindən möhkəm alınmışdı. Hər biri bir ox olub ürəyinin başına sancılmışdı. Nə oldu? Davaya getmək mənim işim idi. Qızıl güllələrə sinə gərmək mənim işim idi. Başımın üstündən od tökülə-tökülə hücuma keçmək mənim işim idi, yaralanmaq mənim işim idi, ölmək mənim işim idi. Amma adicə iki söz demək, bir məsələyə qarışmaq mənim işim deyildi? Omar kişi belə fikirləşdikcə cinlənir, özündən çıxırdı. Bir istədi yeriyib bir əlilə atın yüyənindən tutsun, o biri əlini də uzadıb bu əclafın yaxasından yapışsın, çəkib yerə salsın. Özündən böyük olsa da, bir-

iki əngəzdəyib buraxsın. Ancaq yenə sorğu-sual səhnəsi gözünün qabağına gəldi. Yenə çağıracaqlar, yenə başlayacaqlar danışdırmağa, yenə köhnə palan içi tökəcəklər. Kimsən? Kimin oğlusan? Atan nəyin üstündə tutulub? Özləri tutublar, özləri də soruşacaqlar. Harda qulluq eləmisən? Hansı cəbhədə vuruşmusan? Bunların hamısı sənədlərində aydınca yazılmış olsa da, bunun özündən soruşacaqlar. Onların işindən Omar yaxşı xəbərdar idi. Başına gələn başmaqçı olar deyərlər. Ona görə soruşacaqlar ki, görsünlər onun ifadəsi ilə sənəddə yazılanlar düz gəlirmi? Görünür, atasına görə indi də ona birtəhər baxırlar. Hardasa inanmırlar. Bir yerdə nəsə bir söz deyəndə, dilindən nəsə qaçıranda, addımını bir balaca düz atmayanda o dəqiqə yaxalayırlar, onu şübhə altına alırlar. Belə şeyi başı çox çəkmişdi. Omarın gəldiyi çox vaxt deyildi, indi də başlamışdılar yenə köhnə havalarını çalmağa. Bütün bunları nəzərə alan Omar başını ağrıtmamaq, uşağının, ailəsinin içində rahat yaşamaq üçün acığını basdı, sədrin tənəsini, onun hikkəsini yedi, yumşaqlıqla dedi:

– Di yaxşı, a kişi, xırdaçılıq eləmə. Atını arabanın qabağından kənara sür, qoy görək, heyvanlar yazıqdır. Özü də pis yerdə saxlamısan. Təkərlərin ardına daş da qoymamışam.

Omarın belə deməyi, həm də təmkinini pozmadan soyuqqanlılıqla danışması onu bir az da qıcıqlandırdı. İdarədə olan o dəfəki söhbətdən – dava-dalaşdan sonra qəti xoşlamadığı bu adama bozardı:

– Sana deyirəm arabanı boşalt!

Omar hardasa ümidli idi ki, onların münaqişələri bu araba-ulaq üstündə çox kəskin şəkil almaz. Xındı  başa düşər ki, onu belə yarı yolda qoysa, el onu qınayar ki, bizim sədr də görməmişlik eləyir. Özü hörmətdən düşər, özünün şəxsiyyətinə xələl gələr.

Düzü Vahid də məəttəl qalmışdı bu işə. Əlbəttə, o, burada kimin haqlı, kimin  haqsız  olduğunu başa düşürdü. Görürdü ki, sədr düzgün eləmir, heç nədən onlara irad tutur, onları incidir. İnsanlıqdan, qonum-qonşuluqdan uzaq ədalətsiz iş görür. Axırı  nə olacaqdı bilinmirdi. Vahid əlində çubuq qıraqda dayanıb elə baxır, bu işin, bu ziddiyyətin nə ilə nəticələnəcəyini elə intizarla gözləyirdi ki, görsün nə olur.

– Ayə, sənnən döyüləmmi, a kişi?! – deyə sədr səsini yenə qaldırdı.

Omar əllərini açıb dedi:

– Mən nə qayırım! Sən bir qırağa dur, mən də arabanı sürüm gedim.

– Ayə, sən nə qanmaz adamsan! – deyə sədr Xındı atın üstündən onu əyri-əyri süzdü.

Omar diksindi. Əlində tutduğu çubuq elə bil onun ovcunun içini daladı. Amma yenə özünü saxladı. Uşağının yanında ona belə ağır söz deyilməsindən, təhqir edilməsindən utansa da, yenə uşaqlarının xətrinə işin mülayim həllinə getdi.

– Yaxşı döy, a sədr, gəl yola gedək.

– Ə, arabanı boşalt deyirəm sana! – Sədr atın üstündən qamçılı əlini ona uzatdı. Gözlərini də bərəltmişdi. Bilmirdi nə etsin. Əlacı olsa, bu dəqiqə atdan düşər, arabanı yanı üstə çevirərdi. Ancaq bilirdi ki, gücü çatmaz. Hıqqanmağı özünə qalar. Yan-yörədə də bir adam yox idi ki, çağırıb əmr etsin ki, belə eləyin. Əlüstə eləyərdilər. Dörd-böyrünə axsaq-uxsaq, kar-kor elə adamlar yığışmışdılar ki, haqqa-nahaqqa baxmazdılar, əmrini yerinə yetirərdilər. Heç canına yel dəyməyə qoymazdılar. Təəssüfləndi ki, indi yoxdurlar. Kim bilir hara gediblər. Onlar da elə pis öyrəniblər ki, axşamadək orda-burda boğaz otarırlar. İndi də kim bilir harada sülənirlər. Omara qarşı nə eləsə özü eləməli idi. Qoy birdəfəlik bilsin ki, o, nə dedi, elə də olmalıdır. Bir də ona nöqsan tutmağa, başına ağıl qoymağa cəsarət eləməsin. Bilsin ki, bu kəndin yiyəsi odur. Bu məqsədlə sədr atdan düşdü. Deyəsən, gerçəkləyirdi. İrəli yeriyib əlini öküzün boğazının altında bağlanmış ipə yetirdi. Omar kişinin isə qanı qurumuşdu. Amma sədrin nə elədiyini, nə məqsəddə olduğunu bilsə və öz gözlərilə görsə də inanmırdı. Elə şey eləməz deyirdi. Onun üçün eyib deyildimi?! Bu cür hərəkəti hər adam özünə sığışdırmazdı. Əgər, həqiqətən, belə eliyəcəkdisə, demək, o, Omarla açıq-açığına düşmənçilik işlədirdi. Onu gözü götürmədiyini, xəbisliyini gizlədə bilməyib büruzə verirdi. Hər addımda, hər işdə ona mane olmaq, ona badalaq gəlmək istəyirdi. Bunları açıqdan-açığa görən və başa düşən Omar sədrin hərəkətlərini izləyirdi. Görsün doğrudanmı o, bunun arabasını burda – yarı yolda qoyacaq? Bir də məsələ onda deyildi ki, bu, tikanını apara bilməyəcək, həyət-bacasını çəpərləməyəcəkdi. Xeyr. Belə şeydən ötrü mağmın qalan adam deyildi. Lap yaba ilə çiynində daşıyardı. Məsələ onda idi ki, camaatdan eyib idi. Söyləyəcəkdilər ki, bəs belə-belə, filankəs filankəsin başına belə bir oyun açıb. Bu, belə fikirləşirdi ki, Xındı öküzün birini həqiqətən açdı. Öküz sıyrılıb boyunduruğun altından çıxdı, boyunduruğun bir tərəfi taraqqıltı ilə yerə düşdü. Ardı enişə olduğundan arabanın bir tərəfi bu ara geri qaçdı, bir tay öküz onu zornan saxladı.

– Ayə, a kişi, sən dəlisən, ağıllısan, nəsən?! Nə iş görürsən?! – deyə arabanın geri qaçıb dönməsindən, uçmasından qorxan Omar kişi tez irəli cumuldu. Öküzün əvəzinə boyunduruqdan özü yapışdı. Ayaqlarını yerə möhkəm dayayaraq boyunduruğu irəli basdı. Ürəyində də söyləndi ki, belə filan oğlu, belə yerdə də araba açarlar?! Dəli köpəkoğlu lap sarsaq imiş. Nə isə, kişi boyunduruqdan yapışıb durmuşdu, arabanı geri qaçmağa qoymurdu. Bəlkə, bu qayda ilə o biri öküzə kömək oldu, arabanı müvəqqəti saxladı. Fikirləşdi ki, bəlkə, bu sarsaq ağıla-başa gəldi, peşman oldu, rədd olub getdi, öküzü gətirib təzədən qoşardılar. Bu belə fikirləşdiyi halda sədr o biri öküzü də açdı. Ondan sonra dolu arabanı ardı enişə saxlamaqmı olardı?! Omar gördü araba gedir, bu da boyunduruğu saldı. Bu ara oğlu yadına düşdü. «Ayə, uşaq allah eləməmiş arabanın

geri yanında, altında olar, araba üstə gedər, evim yıxılar». Bu zalımoğlu sədr onun başını necə qatmışdısa, oğlunun harada olduğunu, dayandığını da unutmuşdu. Dəli təki qışqırdı:

– Va-hid!

– Nədi? Mən burdayam. Yanındayam, – deyə uşaq elə böyründəcə səsini çıxartdı.

– Bıyy səni sağ ol! – Kişiyə elə bil dünyanı bağışladılar. Oğlunu ona elə bil təzədən verdilər. Davada qızıl güllənin altından sağ-salamat çıxanda heç belə sevinməmişdi. Heç nədən adamın başını qatanda, əlifini yanıldanda diqqətsizlikdən, fikirli olmaqdan cürbəcür xoşagəlməz hadisələr də ola bilər. Allah belə şeylərdən saxlasın. İndi Omarın gözünə heç nə görünmürdü. Nə tikan, nə araba, nə qapı-baca. Cəhənnəm olsun hamısı! Uşağı ki, sağ-salamatca yanında idi, o özü ən böyük şey idi. Buna başı necə qarışmışdısa, araba-zad Omarın yadından çıxmışdı. Qəti gözündə deyildi. İstəyir nə olur-olsun. Bir də gördü araba getdi. Omar kişi oğlunu buraxıb arabanın dalınca qaçdısa da çata bilmədi. Omarın yadına düşdü ki, bir dəfə cəbhədə onların bir yük maşınının üstünə faşistlər bomba salıb partlatmışdılar. Elə olmuşdu ki, hər tikəsi bir dərəyə düşmüşdü. Sürücüsü 23–24 yaşlarında sarışın bir oğlan idi. Yolun yan-yörəsinə tökülmüş maşınının qırıq-quruqlarına baxıb faşistləri söyürdü:

«Svoloçi! Neqodyai! Merzavtsı!»

Omar kişi də eləcə yanıb-tökülürdü. Amma burda faşist yox idi, kimi söysün. Buna baxmayaraq, o da söyürdü.

– Satqın! Əclaf! Oğru!

* * *

Yer üzündə kotan kimi adamı bərk yoran, bəlkə də, ikinci bir iş yoxdur. Adamın qolları qırılır. Səhərdən axşamadək yeri o başa, bu başa dolanmaqdan ayaqda tutar qalmır. Kotanın ardınca donqar vəziyyətdə getməkdən adamın beli əyri bitir. Ona görə Omar kişi belini düzəldə bilmirdi. Bu cür ağır işdən sonra da sədr Xındının belə eləməsi ona olduqca pis təsir eləmişdi. Yata bilmirdi. Yerinin içində çevrilə-çevrilə qalmışdı. Dərəyə dığırlanmış tikan arabası gözünün qabağından getmirdi. İndi görən olmamışdısa, nə fərqi var, sabah görəcəklər. Deyəcəklər ki, filankəsin imiş, sədrin acığı tutub belə eləyib. O tikan göz dağı tək o dərənin içində bir müddət qarala-qarala qalacaq. Omar kişi hər dəfə onun yanından gəlib keçəndə xəcalət çəkəcək, adamların yanında utanacaqdı. Fikirləşdikcə Omara ağır gəlir, özünə sığışdıra bilmirdi. Axı bu da özünə görə adam idi. Elə bir qanunsuz iş tutmamışdı. Araba-ulağı briqadirin icazəsilə götürmüşdü. Buna onun haqqı da çatırdı. Bəs sədr Xındı niyə belə elədi? Nə üçün onu oğlunun yanında utandırdı? Omarın ürəyi partlamağa gəlirdi, bilmirdi

necə eləsin ki, canının yanğısı soyusun. Davada faşistlərlə vuruşanda bu, ən müşkül işə nəsə bir çarə tapmış, vəziyyətdən çıxmışdı. Sürünə-sürünə gedib döyüş meydanında yaralı qalmış yoldaşlarını belinə alıb gətirmişdi. Amma burda, bu dinc vaxtda özününkülərinin yanında bu işə bir əncam çəkə bilmirdi. Bəlkə, elə bu saatca yerindən dura, yabanı götürüb gedə, kirşə düzəldib tikanı hissə-hissə gətirə. Səhərədək beş-on ayaq beləcə gedib gəlsə, bəs eləməzmi? Çətin olsa da yəqin ki, daşıyıb qurtarar. Sədrin pisliyi özünə qalardı. Baxıb korranardı. Bu da inadcıl olduğunu, sözünün, işinin dediyinin üstündə möhkəm dayandığını sübut eliyərdi.

O da başa düşərdi ki, belə şeylə ona heç bir şey eliyə bilməz. Qabağına daha daş dığırlamaz. Bilər ki, hər bekarə işlə onu yenmək mümkün deyil. Amma qorxdu gecə vaxtı o cür tikan daşıdığını görən ola, bunu qınayalar ki, a kişi, yazıq döysənmi? Bəs necə eləsin? Dərənin dibinə dığırlanmış tikan arabasının qaraltısını necə kəssin ki, sabah görən olmasın. Bir o bilsin, bir bu. Dünyanın işini nə bilmək olar. Görürsən, şahın da adi bir adama işi düşdü. Onda da bu onu belə yarı yolda qoyar, intiqamını alar. Hə, bəlkə, gedib od vurub yandıra? Tikan yaş olsa da, altından her-heşən qoysa, yanar. Elə yanar ki, səhərə heç bircə çırpısı da qalmaz. Gecə vaxtı kim gətirəcəkdi? Heç kəs. Bunun özü Xındıya bir zərbə olardı. Bilər ki, pisliyi özünə qaldı. Omar kişi bu fikirlə üstündən yorğanı yana qatlayıb durdu. Oyanıb görən, bilən olmasın deyə çox astaca paltarını geyindi. Sonra kəmərini bağlaya-bağlaya eşiyə çıxdı. Qapını ardınca astaraq çəkib getdi. Evin qabağı, böyür-başı açıq olan eyvandan keçib yola sarı dönürdü ki, arxadan səs gəldi.

– Dədə.

– Nədi, ə?

– Hara gedirsən?

– Heç hara, hara gedəjəm?! Elə-belə eşiyə çıxmışdım. Heyvanlarımıza baxmaq istəyirdim, – Omar kişi oğlunun başını yozmağa çalışdı. Sən demə o da yatmayıbmış. Yerinin içində fikrə gedib sədrin onların başına açdığı oyunu düşünürmüş. Omar da çox pis oldu. Bildi ki, oğlu əl çəkməyəcək. Gecə vaxtı uşağın narahat olmasına qıymadığı üçün:

– Get, ayə, a bala, get öyə! Mən də indi gəlirəm, – deyə söz verdi və həqiqətən, qapı-bacada yalandan hərlənib qayıtdı. Çarpayısına uzandı. İndi bayaqkından da pis hala düşmüşdü. Uşağının qabağında da elə bil başıaşağı idi. Sədr onu övladının yanında pərt eləmişdi. Belə vicdansızlıq harda görünüb? Belə də qanunsuzluq olar?! Bu dərdi kimə söyləyəsən? Kimə deyəsən ki, Xındı mənim başıma belə oyun açdı. Əlimə-ayağıma bata-bata nə günlə tikan qırmışdım, məqsədim bu idi ki, gətirib həyəti çəpərləyəm. Yoxsa at-eşşək döyənək eləyib. Nə olsun?! Sədr qoymadı, arabanı yarı yolda saxlatdı, öküzləri də açıb buraxdı.

Bunu bu cür, bu şəkildə kimsəyə deməyə, danışmağa Omar kişi arlanırdı. Bu barədə onun öz fikri, qənaəti var idi. Adama deməzlərmi belə-filan oğlu, ölmüşdünmü? Əlini-ayağını bağlamışdılarmı? Özün də soldat olmusan. Faşistlərlə də elə-beləmi vuruşmusan? Fikirləşdikcə Omar kişiyə təzədən yer eləyirdi. Əfəl olduğunu, cəsarətli, qəti hərəkət etmədiyini, zəiflik göstərdiyini heç cür özünə bağışlaya bilmir, o barədə düşünəndə canından elə bil od qalxırdı. Kaş həyətini səliqə-sahmana salmaq fikrinə düşməyəydi. Qoyaydı elə dağılıb gedəydi, bərbad olaydı, amma başına bu iş gəlməyəydi. Hardan biləydi ki, belə olacaq. Qonum-qonşu da onu bir yandan təntitmişdi.

– Allaha şükür, – deyirdilər, – o odun, o alovun içindən sağ-salamat gəlib çıxmısan ailəyin içinə. Bəs niyə həyət-bacanı səliqəyə salmırsan?! Öyünü şənnəndir, dərdin alem, öyünü şənnəndir.

Əlbəttə, Omar kişi başa düşürdü ki, qocalar pis mənada demirlər. İstədiklərindən deyirlər. Yaxşı niyyətlə deyirlər. Bu da onların sözündən ruhlanmışdı. Həvəsə düşmüşdü. Bilsəydi axırı belə olacaq bu da onlara deyərdi:

– Qoyurlarmı şənnəndirəm. Burda da adamı sərbəst buraxmırlar. Burda da adamın öz ixtiyarı özündə deyil. Ağa deyir: sür dərəyə. Sonra da ürəyində öz-özünə etiraz edirdi. «O haranın ağası oldu?!» Dünənki gədəyə stol veriblər, qudurub. Böyük, kiçik bilmir. Yetənə yetir, yetməyənə də bir daş atır. Mən ona daş atmağını göstərərəm».

Amma iş-işdən keçmişdi. Daldan kişilənməyin xeyri yox idi. Ona görə, necə deyərlər ayıbına kor olub susmaq lazımdı. Orda-burda ağ-qara bir kəlmə söz demək lazım deyildi. Oğlu Vahid də bir qədər qaradinməz olmuşdu. Görünür, o da atası kimi düşünürdü.

Onlar bu məsələni açıb ağartmasalar da səhəri gün bir də eşitdilər ki, kənddə bu barədə, «nağara-zurna» çalınır. Hətta birinin də üstünə beşini qoyub danışırlar. Elə şeylər deyirlər ki, adamın ayağının altından yer qaçır. Guya, sədr o qədər hirslənib, o qədər qəzəblənib ki, axırda ata-bala bunların ikisini də döyüb. Qamçılayıb, bunu ona, onu buna qatıb. Bunlar da onun əlinə, ayağına düşüblər ki, amandır, a sədr, bizi balalarıyın başına çevir, bu dəfə təqsirimizdən keç, sonra günahımız olsa, öldür, qanımız halaldır. Bir də minnət eləyiblər ki, kolxozun araba-ulağından istifadə etdiyimiz üçün bu dəfə bizi məhkəməyə-zada vermə. Söz veririk ki, bir də belə şey eləmərik.

Bu səda qulağına çatanda Omar kişi əvvəlcə güldü. Başını buladı ki, gör nələr uydurublar. Onu lap «qibleyi-aləm» yerinə qoyublar. Bunları da bir qara köpüklük eləyiblər. Omar fikirləşdi ki, bu şayiəni ancaq o özü yaya bilər. Həm ona görə ki, desinlər, zalımoğlu nə qoçaq adamdır, qabağında bir kəs dillənə bilmir. Həm də ona görə ki, bunu Omargil eşidib qamaşsınlar, onun əlindən beləcə sağ-salamat qurtardıqlarına sevinsinlər, allaha şükür eləsinlər. Yoxsa məhkəmə-zad onların canını alardı. Ciyərlərini çıxardardı.

Aydındı ki, sədr bunlara təppəcə gəlir, gözlərini qorxudurdu. Baş qaldırmasınlar. Başqalarını da yerlərindən oynatmasınlar.

O gün axşam Omar kişi işdən gələndə dünən araba uçan yerin altı döşdə bir dəstə uşaq dayanmışdı. Bu da yuxarı yolla asta-asta gedirdi. Uşaqlar onu görmürdülər. Başları özlərinə qarışmışdı. Əllərilə dərəni göstərib bir-birlərinə deyirdilər.

– Gör araba necə dığırlanıb.

– Yaxşı ki, alt tərəfində adam olmayıb.

– Xındı kişinin deyirlər yaman acığı tutubmuş.

– Bə nə?! Ondan icazəsiz iş görmək olar?

– Arabanı ordan necə çıxardacaqlar?

Uşaqlar təzədən diqqətlə baxdılar. Gördülər arabanı ordan çıxartmaq çox müşkül işdir. Hələ bir-iki yerdən də çağı-mağı sınmışdı. Uşaqlardan biri dedi:

– Omar dayım nə qayırsın, qorxusundan birtəhər çıxardacaq.

Başqa bir uşaq da ona etiraz etdi:

– Niyə qorxur?!

– Sən qorxmazdın? – O da bundan sual etdi.

Bu da ürəkli-ürəkli dilini nırçıldatdı. Yəni qorxmaram. O isə buna inanmadığını bildirdi.

– Hə-ə, qorxmazsan. Lap dız-dız eləyərsən. – Hələ sözlə dediyini əlilə də nümayiş etdirdi.

Uşaqlar görməsin deyə yolun altda batmış kol-kosun ardında dayanıb onlara qulaq verən Omar öz-özünə utandı, xəcalət çəkdi.

* * *

Briqadir Əhməd kişi onlara gəlib-gedən adam deyildi. Bir işi, tapşırığı olanda da gəlib evin böyründəncə çağırıb deyər, sonra da çıxıb digər işinin ardınca gedərdi. Amma bu gün gecə düz evə gəldi ki, bu nə işdir tutmusan? Əhvalatdan da evdə hamının xəbəri vardı. Omar özü gəlib söyləmişdi ki, belə elədim.

– Düz eləməmisən. Nahaq iş görmüsən! – Birinci anası onu tənbeh eləmişdi. Belə hərəkəti oğluna yaraşdırmamışdı. Düşünmüşdü ki, acıq eləmək yeri deyil, zəmanə xarabdır indi. Heç nədən bitin quyruğuna birə yazırlar. Tikanı yandırırdın yandırırdın, daha kolxozun arabasında nə işin vardı?! Briqadir də vaxtsız onlara gəlib belə deyəndə arvadın qanı daha da qurudu. Çünki Əhməd kişi sakit, təmkinli adam idi. Hay-küylə, çığır-bağırla, adamları qorxutmaqla arası yox idi. İndi gör işin harası idisə kişi adamların yatmağa hazırlaşdığı bir vaxtda onlara gəlmişdi. Dəhşət həyəcanlanmışdı. Narahat idi.

Məsələ burasında idi ki, kolxoz sədri əhvalatı eşidən kimi özü də başda olmaqla tez komissiya düzəltdirib hadisə yerinə gəlmişdi. Gələndə görmüşdülər

ki, bir araba tikandan heç nə qalmayıb. Yalnız ocağın dairəsi boyu orda-burda qaratikan kösövləri tüstülənirdi. Arabadan isə bircə kösöv də qalmamışdı. Bütüncə yanıb kül olmuşdu. Təkərlərin şinləri isə elə qızarmışdılar ki, deyirdin dərənin dibində qızıl ilanlar yatıb. Bir-iki dənə də yenə dəmir-dümür var idi. Komissiya qayıdıb gəlcək Xındı kişi tez akt bağlatdırmışdı. Məzmunu belə idi ki, xalq düşməninin oğlu filankəs kolxoza ziyan vurmaqla məşğuldur. Belə getsə, o, kolxozu dağıdacaq, yaxşısı budur ki, onun haqqında ciddi tədbir görülsün. Doğrudur, Əhməd kişi akta qol çəkməmişdi. Amma çəkənlər tapılmışdı. İndi bu kişi gəlib onu tənbeh edirdi ki, niyə belə ağılsız iş görüb özünü çətinə salıbsan. Bu da bilmirdi necə desin ki, vallah səhv, doğru, uşaqlara görə elədim. Dedim heç olmasa onlar bizim kimi qorxaq olmasınlar, ürəkli böyüsünlər. Uşaqlar da, bilirsənmi, bizə baxırlar, bizdən nümunə götürürlər. Nə qayıraydım bə? Dedim, bəlkə, onlarda bir təpər oldu. Hər nə təhər, vallah, billah, uşaqlar məni yoldan çıxartdı. Çünki dərənin dibinə dığırlanmış arabaya baxıb elə sözlər deyirdilər ki, özüm-özümdən zəhləm getdi, xəcalət çəkdim. Deyirdilər ki, guya, Xındı kişidən hamı qorxur. Mən də gedib onların gözü qabağındaca od vurub yandırdım. Özüm öz yanımdan, guya, uşaqlara sübut elədim ki, siz düz demirsiniz, mən heç kəsdən qorxmuram. Hə-ə. Bax beləcə oldu. Məsələ burasındadır ki, Omar kişi ürəyində fikirləşib demək istədiyi, hərəkətinə səbəb göstərmək istədiyi şeyləri də deyə bilmirdi. Qorxurdu ki, bu, hamıya gülünc gələ. Deyələr ki, uşaqlara özünü göstərirdin?! Bilirdi ki, hamı elə deyəcək. Heç kəs onu başa düşməyəcək. Əslində, öz hərəkəti bəzən özünə də qəribə gəlirdi. Az qalırdı desin ki, başım xarab olub.

Briqadirin gətirdiyi məlumatdan isə aydın idi ki, Xındı onu dolaşdırmaq istəyir. Hamı fikrə getmişdi ki, nə etsinlər? Başlarına haranın daşını salsınlar. Gözü ilə odlar görmüş Zərri arvad isə heç özündə deyildi. Dərddən, demək olar ki, yerə yapışmışdı. Bu ara oturduğu yerdəcə şalını çiyninə salaraq:

– Gedim görüm neynirəm, əlinə-ayağına düşüm, yalvar-yaxar eləyim, bəlkə, insafa gəlib bağışladı, – deyə ayağa durdu.

Oğlu razılaşmadı. Acıqlı bir tərzdə:

– Otur yerində! – dedi. – Lazım deyil. O kişi döy, namərddir.

– Eyy, a bala, sən də atan kimi başlama, – deyə ana da onunla razılaşmadı. – Atan da həmişə elə deyirdi ki, namərd körpüsündən keçməkdən sellərin aparması yaxşıdır. Sonra gördünmü aqibəti nejə oldu?!

– Sənə dedim otur yerində! – Omar yenə anasına acıqlandı.

Zərri arvad da oğlunun xasiyyətini bilirdi. Gözünə güllə də tutsalar – əyilən deyildi. Məcbur olub təzədən yerində oturdu.

* * *

Münasibətlərinin tamam pisləşdiyini bilsə də, Omar nə edə bilərdi? Heç nə. Qəribə idi ki, bu da ona qarşı bir tədbir görmək, özünü qorumağa hazırlaşmaq əvəzinə oğluna atası Alməmməd kişidən danışırdı. Qabaqlar o qədər danışmazdı, amma indi kişi atasını tez-tez xatırlayırdı.

– A Vahid, qadan alım, – deyirdi, – bilirsənmi sənin baban bu kənddə bir kişi idi. Hamı başına and içirdi.

Vahidin, əlbəttə, babası yadında qalmışdı. Uşağın deyərlər yadından heç nə çıxmaz. Həqiqətən də, belə idi. Babasının oturuşu, duruşu, danışığı indi də onun gözünün qabağında idi. Bir baba kimi Vahid onu həmişə istəmişdi. Amma başına and içilməyini bilmirdi. Kənddə bir kişi olduğunu da bilmirdi. İndi atası deyirdi, bu da eşidirdi.

– Baban düzgünlük tərəfdarı idi, başına dönüm. Sözü üzə deyən adam idi. Öldürsən də yalan danışmazdı. Həmişə haqqın tərəfində dayanardı. Ədaləti müdafiə edərdi. Bax, kolxoz qurulan vaxtları adamlar arasında ziddiyyət çox olurdu. Vara-yoxa baxmayıb kimin nəyi var idi dartıb əlindən alırdılar. Daha buna kim çörək verəcək, bu adam nə ilə dolanacaq baxan yox idi. Bizim bu qonşu çil Qəşəmin də iki inəyi var idi. Biri qısır idi, o biri sağılırdı. Bu da kolxoza yazılanda qısırı vermişdi, sağılanı saxlamışdı. Onun üstə yekə söz-söhbət olmuşdu ki, niyə qısırı verib, sağılanı özünə saxlayıb? Az qalırdılar ki, kişini məhkəməyə versinlər, onu əks-inqilabçı hesab eləsinlər. Axırı baban işə qarışmışdı.

– Ayə, a kişilər, sizin insafınız yoxdurmu?! – demişdi. – Vicdanınız necə yol verir ki, onun körpə balaları bir şəkəşə ağartıya tamarzı qalsın.

Sən demə kişinin belə-belə sözlərini aparıb rayona, əlaqədar yerlərə çatdırıb deyirlərmiş ki, guya, Alməmməd kişinin kənddə özünü başbilən, ağıllı kimi göstərməyinə baxmayın, əslində, o adam kolxoz qurulmasını istəmir, camaatın ağzını əyir, düşmənçilik edir. Bunu eşidən baban yaman əsəbiləşmişdi.«Tfu! Tfu!» eləyə-eləyə dururdu. Onu da deyim ki, nə qədər çətinə düşsə də, yenə özünü sındırmazdı.

Omar özü də bilmirdi ki, Xındı kişilə münaqişə düşüb nəsə düz gəlmədikləri bir vaxtda bu sözləri oğluna niyə deyirdi? Bu danışdıqlarının mənası nə idi? Atasının xasiyyətinin yaxşı cəhətlərini deməkdə, onu tərifləməkdə məqsədi nə idi? Özü də istəyirdi ki, dedikləri oğlunun qulağında qalsın. Bunları heç vaxt yaddan çıxartmasın. Bilsin ki, onun babası mərd, qoçaq adam olub. Heç kəsə baş əyməyib. Hər sözə «bəli, bəli» – deməyib.

– Özü də babana oxşayırsan, dərdin alem. Elə hesab elə ki, yarı almasınız, – deyə Omar əlini oğlunun çiyninə qoydu. Bununla başa salmaq istədi ki, sən də onun kimi ol. Çətin ayaqda özünü itirmə. Heç vaxt qorxaqlıq eləmə. Düz söz danış. Nahaq iş görmə.

Aradan bir az keçəndən sonra Omar təzədən peşman oldu ki, mən bu uşağı niyə qızışdırıram. Sonra nə olar, nə olmaz. Uşaq yazıqdır, qoy başını dolandırsın. Odur ki sonra da başladı dəfin o biri üzünü döyməyə.

– Məsələ burasındadır ki, indi ayrı zamandır. Bacarırsan başını saxla. Yoxsa heç nədən ara yerdəcə gedərsən. Heç izin-tozun da görünməz.

Omar bununla çox güman ki, atası Alməmməd kişinin taleyini deyirdi. Əlliayaqlı necə itirmişdilərsə, onun barəsində heç məlumatları da yox idi. Öldü, qaldısını da bilmirdilər. Soruşmağa, öyrənməyə də ehtiyat edirdilər. Omar əsgərlikdə bir az axtarış aparmışdı, o da bir nəticə verməmişdi. Fikirləşirdi ki, bəlkə, sağdır, oradan cəbhəyə göndəriblər. Davada da rast gəlmədiyindən atasından əlini tamam üzmüşdü. Özünü danladı ki, başlarına belə müsibət işlər gələ-gələ uşağına gör nələr deyir?! Ona gör necə tərbiyə verir! Ona gör nələr öyrədir! Düzlük belə getdi, haqq elə getdi, ədalət belə getdi. Yoox. O, oğlunu əyilməyən, sözün düzünü deyən əsl adam kimi böyütsə, yaxşı olmazdı. Belə adamları sevmirlər. Elələrinin başlarına bir oyun açırlar ki, ataları da yaddan çıxır.

Omarın təzədən ağlı başına gəlmişdi. Uşağın yanında o, nəinki düzlükdən, qorxmaz olmaqdan danışır, hətta özünün də yaşayış, həyat tərzini dəyişib sakit, fağır, başıaşağı hərlənirdi ki, oğlu baxıb ondan nümunə götürsün, özü üçün nəticə çıxarsın. Amma bir dəfə işdə elə hadisə oldu ki, Omar heç cür özünü saxlaya bilmədi. Bunlar onda fasiləyə təzə çıxmışdılar. Olanlarından bir azca naharlanıb dincəlirdilər. Hodaqçı uşaqlar əldən-dildən düşmüşdülər. Quru yerdəcə oturub söhbət edirdilər.

Sədr atın üstündə o yandan bəri çıxıb bunlara sarı gələndə Omar kişi onun ümumi görkəmindən, duruşundan heç almadı. At altında yorğa vurur, bu da özündən çox razı halda, hikkə ilə yəhərin üstə belini, başını bükmədən dayanmışdı. Atın yançağı üstə qamçısını yellədirdi. Bu, onun kefinin kök olmasını bildirirdi. Halbuki ümumi vəziyyət, camaat o kefdə deyildi. Adamların, ailələrin min cür dərdi-azarı vardı. Çoxunun qəlbindən qara qanlar axırdı. Birinin gedənindən məktub gəlmirdi. O birindən isə qara kağız gəlmişdi. Ağlaşmadan adamın əti ürpəşirdi.

Atı düz bunların yanına sürdü.

– Durun, ə! Durun, ə! – Uşaqları qamçılayıb qaldırmaq fikrində olduğunu bildirdi.

Uşaqlar bunu ondan gözləmirdilər. Fağırcalar heç adam kimi qalxmağa da macal tapmadılar. Çünki at az qalırdı ki, bunların üstə çıxsın. Qurbağa formasında dalı-dalı geri sürüşürdülər.

Pahoo! Dəmbərçək Xındı ağ elədi. Gözü, deyəsən, ayağının altını seçmirdi. Havalanmışdı. Səhərdən-axşamadək hodax sürüb yer əkən uşaqları atına ayaqladırdı. Sədrin bu cahil hərəkətindən, onun qədirbilməzliyindən Omar kişi

möhkəm əsəbiləşdi, gördü əli-ayağı əsir. Qaldı nə etsin? Bir dəli şeytan dedi ki, dur ayağa, ver bununkunu buna. Onda özünə gələr. Bilər ki, ədalətsiz iş görmək olmaz. Ancaq uşaqları gəlib durdu gözünün qabağında. O, yetimliyin, atasız yaşamağın necə çətin olduğunu bilirdi. Doğrudur, atası tutulanda o, yekə kişi idi. Amma evdə böyük ayrı şey idi. Nahaq yerə deməyiblər ki, allahsız yerdə otur, amma böyüksüz yerdə oturma. Adam atalı ürəkli olur, elə bilirsən arxan dağa söykənib. Atasız yaşamaq, üstəlik gözü də kölgəli olmaq çox ağır şey idi. Omar bunları görmüş, əzabını çəkmişdi. Ona görə istəmədi ki, onun çəkdiyi əzab-əziyyəti uşaqları çəksinlər. Onun gördüyünü bunlar görsünlər. Anası da qocalmışdı. Başı gora titrəyirdi. Ona bir şey olsa, arvad yaşaya bilməzdi. Arvadı Əsli də hələ cavan idi. Özü də tək canı ilə bu boyda külfəti saxlaya bilməzdi. Ona görə Omar kişi özünü saxladı. Mənəm-mənəmlik eliyən, yetənə yetən, yetməyənə də bir daş atan, min arxın suyunu bulandıran, adam satmaqla məşğul olan bir adamla münaqişəyə girmək istəmədi, ailəsinin xətrinə xata-bəladan uzaq olmağa çalışdı. Eləcə ayağa qalxıb atın qabağına durdu. Hələ bir az da xoşluqla:

– Ayə, a Xındı, bu yazıqlardan nə istəyirsən, qoysana bir az dincələlər? Sahəni dolanmaqdan fağırcaların başı hərlənir, – dedi və əllərini qaldırdı ki, atı saxlasın.

At da göylə əlləşirdi. Başını buraxsan, allah göstərməsin, hamısını xıncmınc eləyərdi. Ancaq Xındı yüyəni dartıb Omara da bir qamçı çəkdi.

Qamçı Omarın başınımı, gözünümü tutdu bilmədi. Ağrıdıb-ağrıtmadığının da fərqinə varmadı. Omar elə ağrılar görmüşdü ki, bu onların yanında heç nə idi. Məsələ, əlbəttə, bunda deyildi. Məsələ bunda idi ki, Xındı ona əl qaldırdı. Yaşının bu vaxtında, uşaqların qarşısında bunu təhqir etdi. Sədr həddini aşmışdı.

Omar həyatda hər şeyi unutdu, arvad uşaq – hamısı yadından çıxdı, gözünə heç nə görünmədi. Bu ziddiyyətin axırının pis olacağını əvvəlcədən başa düşsə də, özünü saxlaya bilmədi. Hirsli-hirsli əlini atıb atın yüyənindən yapışdı və bir əlilə də qamçını dartıb sədrin əlindən aldı. Və başladı onu atın üstündəcə budamağa. Omar kişi sakit adam idi. İlanla da yola gedərdi. İndi necə hirslənmiş, hövsələdən necə çıxmışdısa, elə bil faşist döyürdü. O da atın üstündə heç nə eliyə bilmirdi. Omarın da daha gözü qızmışdı. Qanıb-qandırmır, sədrin başı-gözü, harası gəldi vururdu. Xındı atın üstündə yalandan qaraltı təki dayanıb baş-gözünü qorumağa çalışırdısa da, mümkün eləyə bilmirdi. Qamçı onun boynuna, başına dəyib şappıldadıqca bu, ilan təki qıvrılırdı. Axırı Omar əl saxladı. Qamçının sapını da dizinə vurub iki qırdı.

– Andırını da ala! – deyə sədrin üstə tulladı. Sonra da əllərini bir murdar şeyə vurmuş kimi bir-birinə çırparaq arxaya – uşaqlara tərəf döndü. Geri yanından xəbəri olmasa da, tam əmin idi ki, sədr cəsarət eləyib təzədən üstünə

gələ bilməz. Sonra uşaqlar söylədilər ki, Xındı kəndə yox – rayon mərkəzinə sarı çapıb gedib.

– Qoy hara istəyir getsin! – deyə Omar da əlini yelləmişdi. Elə bil çətini bura qədər idi. İntiqamını alıb, bir az özünə gəlmişdi.

Dəmbərçək Xındı isə, həqiqətən, elə o gün rayona şikayətə qaçmış və döyülməyi barədə həkimdən də kağız almışdı. Səhəri gün isə tezdən rayondan gəlib Omarı apardılar. Anası Zərri arvad ağlayıb-sıtqamışdı, «baisin allah öyünü yıxsın» – demişdi. Milis işçisinin tələsdirməsinə baxmayaraq, Omar ləngiyib:

– Ay ana, narahat olma, o vurub, mən də vurmuşam, daha burda nə olasıdır? Axşama qayıdıb gələrəm, – deyə onu sakitləşdirməyə çalışmış, gözləri dolmuş balalarının üzünə baxa bilməyib çevrilib milisin qabağına düşmüşdü.

* * *

Atası gələndən Vahid müntəzəm olaraq məktəbə gedirdi. Ondan bəri heç bircə gün olmamışdı ki, dərs buraxsın. Qabaqlar isə üç gündən-beş gündən bir gedərdi. İmkan yox idi. Cürbəcür işlər, qayğılar başdan aşırdı. Camaat aclığının, çılpaqlığının dərdini çəkirdi. Hamı çalışırdı ki, birtəhər dolansın. Gecə-gündüz çalışırdılar. Bir parça uşaq ola-ola Vahidin də bir ayağı kolxozun işində olardı, bir ayağı da evin. Bilməzdi hansına yüyürsün. İndi isə atası onu belə şeylərin hamısından azad etmişdi. Demişdi ki, daha öz işində ol, oxumağına fikir ver. Əsas elm, bilik öyrənməkdir. Tapşırmışdı ki, dil öyrənməyə də fikir versin. Yazıq nə qayırsın?! Görmüşdü ki, dil bilməyən adama çox çətin olur. Sağını, solunu ayıra bilmir. İrəli get deyirlər, geri gedir, geri get deyirlər, irəli gedir. Dil bilməyən adamlarda belə-belə anlaşılmazlıq tez-tez olur. Əvvəllər də eşitmişdi: deyirdilər ki, insan neçə dil bilirsə, bir o qədər da adamdır. Bu sözün həqiqət olduğuna əsgərlik həyatında tam əmin olmuşdu. Bilmişdi ki, rəhmətliklər düz deyiblər, özü də o çətin vəziyyətdə, ölüm-dirim mübarizəsi getdiyi bir vaxtda rus dilində azdan-çoxdan bilməyə səy göstərmiş və xeyli söz öyrənmişdi. İndi çulunu sudan çıxarda bilirdi. Deyiləni başa düşür və cavab qaytara bilir, fikrini başa salmağı bacarırdı. Hətta alman dilində da qırıldadırdı.

– Xendi xox! – deməkdən xoşu gəlirdi. Yəni əllər yuxarı. Bu sözü o, çox almana demişdi. Əlində avtomat qəfildən üstlərinə çıxıb əmr etmişdi. – Xendi xox! – Frislərin tərpənməyə imkanları olmamışdı. Yerlərində quruyub qalmışdılar. Bilirdilər ki, bir balaca qımıldasalar, kürəklərinin arası yanacaq. Ona görə yavaşaraq qollarını qaldırmışdılar.

– Brosay orujiye! Brosay orujiye! – Bu sözləri almanca bilmədiyindən rusca deyirdi. Onlar da rus dilini bilirdilər, bilmirdilər, hardan biləsən. Bəlkə də, içərilərində az-çox başa düşəni var idi. Bəlkə də, yox idi. Hər halda, vəziyyətin, işin gedişatında bunun nə demək olduğunu anlayıb silahlarını əllərindən salır-

dılar. Avtomatlar taqqatak yerə töküləndə Omarın xoşunə gəlib bığaltı qımışır və onları yandırmaq üçün kefnən, açıla-açıla ucadan deyərdi:

– Qut! Qut! Qut! – Sonra da Azərbaycan dilində onları söyərdi. – Hə-ə. Köpək uşağı! Adamın anasını belə ağladarlar. – Elə bil öz dilində bu sözü deməsə, gördüyü iş canına yatmazdı.

Dünyanın işinə bir baxın. Bu, orda, ölümün lap ucuz olan yerində, topların-topxanaların meydanında, qırıcı təyyarələrin bir-birini şil-küt elədiyi barıt qoxulu göylərin altında faşistlərin analarını ağlatmışdı. Qayıdıb evlərinə, balalarının içinə gələndən sonra isə bunlar burda bunun anasını ağladırdılar. Həqiqətən, rayon mərkəzindən oğlunun yolunu gözləyən ananın gözləri yaşlı idi. Elə hey yumub-tökür, yaşını sel təki axıdırdı ki, bu uşaq harda qaldı. Bığlı-saqqallı kişi və üç övlad atası olsa da, Omar öz anası üçün hələ də uşaq idi. Hələ də ondan doymamışdı. İndi tez-tez evdə durmayıb eşiyə çıxır, yollara baxırdı ki, görsün oğlu gəlirmi?! Özünə nə qədər toxtaqlıq versə də, ürəyi durmurdu. Axırı gün batıb qaranlıq qovuşanda arvad özünü saxlaya bilmədi, ürəyinə dammış təki ikiəlli dizlərinə vurdu.

– Booy! Öyüm yıxıldı. Omar gəlmədi.

Səhəri dirigözlü açdılar. Ümidlərini itirmək istəmirdilər. Deyirdilər, bəlkə, hardasa gecikib, vaxtsız olduğu üçün bir allah bəndəsinin evində qalıb. Qonaq allah qonağıdır. Bilirdi ki, oğlunun dostu-tanışı çoxdur, yedizdirən-içizdirəndir. Kimin qapısını döysə, lap özünü tanımasalar da, atası Alməmməd kişinin adını çəksə, o dəqiqə qəbul edərdilər. Adına süfrə açardılar. Atasına eliyə bilmədikləri hörməti buna eliyərdilər. Çünki Alməmmədin çoxlarına yaxşılığı keçib. Vaxtında çoxlarına köməklik göstərib. Özü yoxdursa, indi də oğlunun qabağına gələrdi. Yaxşılıq itməz deyərlər. Oğlu barəsində ağlına başqa qorxulu fikirlər gəlsə də, ana, əsasən, bu qənaətin, bu mülahizənin üstündə dayanmışdı. Çünki bu, ona sərfəli idi. Belə olmasını istəyirdi. Ancaq səhər açılıb gün günorta olsa da, Omar yenə gəlib çıxmadı. Ananın daha bütün səbri-qərarı tükəndi, nəvəsi Vahidi də yanına alıb rayon mərkəzinə yola düşdü. Yaxşı ki, kənddən çıxar-çıxmaz arxadan bir yük maşını gəldi. Başqa vaxt maşından zəhləsi gedərdi, minməzdi. Bir-iki dəfə minmişdi, onda da qusmağı gəlmişdi. «Eyy, bu nədir, kül başına qoyaram» – demişdi. Həqiqətən, maşında tablamırdı. Havasınımı, iyisinimi ürəyi götürmürdü. Həm də qorxurdu yıxılsın, nəsə bir şey olsun. Ona görə yolda-zadda rast olanda «Boyy! Maşın gəlir!» – deyə bir az kənara durmaq əvəzinə yıxıla-qalxa qaçıb on-on beş metr də aralı dururdu. Elə bil maşın ayı, canavar idi, hücum edib onu parçalayacaqdı. Həm də maşın gələndə, yanından keçəndə başının çitini çəkib burnunu tutardı ki, andırın iyisi pisdir. Ümumiyyətlə, benzin-nöyüt iyisini xoşlamazdı. İndi isə elə vəziyyətdə idi ki, maşın onu bassa da, yoldan çıxan deyildi. Yun şalla bərk-bərk sarıdığı belini bir az dikəldib

yolun ortasında əlini qaldırdı. «Sən o yana dur! Sən o yana dur!» – deyə nəvəsini isə özündən kənara, yolun qırağına itələmişdi. Ağlına gəlmişdi ki, sürücü birdən maşını saxlamaz, mən cəhənnəmə, heç olmasa «gədəyə» bir şey olmasın. Həqiqətən, elə gərgin vəziyyət idi ki, sürücü də gicin biri olub, bu qoca arvadın axır-axırda yoldan çıxacağına ümidli olub sürsəydi, şübhə yoxdu ki, arvad o dünyalıq olacaqdı. Amma əyləci basıb maşını saxladı. Başını kabinkadan çıxardı:

– Ay nənə, bu nədir? Canından bezmisən?

Arvad da özünü saxlaya bilməyib şikayətləndi:

– Eyy, a bala, bundan ölsəm yaxşıdır.

– Niyə? Niyə? – Sürücü onu yasalamaq istədi ki, həyatda bədbin olmasın, özünü gümrah tutsun, mübariz olsun. Bunun üçün də bir-iki söz tapdı, – görürsən daa, nemeslər də qabağımıza düşüb qaçırlar. Bu gün, sabah dava qurtaracaq, daha niyə yaşamayasan.

Arvad ürəyini açıb deyə bilmədi ki, ay bala, mən bir qovğadan çıxıb başqa bir qovğaya düşmüşəm. Bu elə qovğadır ki, o birinə min şükür. Orda heç olmasa bilirdin ki, hara, niyə gedirsən. Bilirdin ki, niyə ölürsün. Amma bunu mən qana bilmirəm, a başına dönüm? Bilmirəm mənim oğlum nə günahın sahibidirsə, onu incidirlər.

– Yaxşı. Hara gedirsən?

– İrayona, dərdin ürəyimə.

– Di yaxşı, bəri çıx görüm. – Sürücü kabinkanı açıb onu öz yanına dəvət etdi. Oğlana isə yuxarı kuzova çıxmağı əmr etdi. – Ancaq qabaq tərəfdən bərk tut, elə elə yıxılmayasan ha.

Niyə yıxılırdı?! Ona da elə belə bir şey lazım idi. Yoxsa nənəsinin ayağı ilə nə vaxt gedib çıxacaqdı. Ona görə:

– Baş üstə! – deyə nənəsinin ardından itələyib, yuxarıdan da sürücü dartıb onu maşına mindirəndən sonra cəld kuzova dırmaşdı.

Maşın yellənə-yellənə gedirdi. Əgər atasının fikri olmasaydı, ləzzət verərdi. Fağırca uşağın da qanadı açılmırdı. Maşının qabaq tərəfindən ikiəlli bərk-bərk tutub özünü taraz vəziyyətdə saxlamışdı ki, yolun kələ-kötüründə, çala-çuxurunda yıxılıb eləməsin. O, belə bir maşının bu cür sürətlə getdiyini bu yaxınlarda kinoda da görmüşdü. İçi də dolu əsgər idi. Hamısı bir-birindən tutub kuzovda dayanmışdılar. Harasa gedirdilər. Bir də yuxarı göyün üzündə faşist təyyarələri görünmədimi? Aşağı yolda maşının sürücüsü bilmədi nə etsin. Qazı artırıb nə qədər bərk sürdüsə, aradan çıxa bilmədi. Meşənin içərisinə girmək üçün ora yol da yox idi. Elə belə də dönmək olmazdı. Maşın çevrilə bilərdi. Ağac-uğuca, kor-kötüyə vura bilərdilər. Ona görə də tökülüşüb meşəyə doluşdular. Buna güclə macal tapmışdılar ki, ora-bura bomba düşdü. Biri də düz maşının kuzovuna. Maşın necə partladısa, qırıq-qırıq olub göyə qalxdı, yan-yörəyə səpələndi.

Vay, vay! Gör maşın nə oldu?! Hələ yaxşı ki, adamlar düşüb qaça bildilər. Yoxsa biri də sağ qalmazdı. Kinoda öz gözüylə gördüyü bu əhvalatdan Vahid necə təsirlənib, ona necə qəlbən acımışdısa, bütün gecəni də narahat yatmışdı. İndi bu əhvalat yadına düşəndə fikirləşdi ki, birdən burda da faşist təyyarələri peyda olsa, onlar nə edərlər? Gördülər buraları da bombalayırlar, əlbəttə, düşüb qaçardı. Bir az nənəsinin işi çətin olar. Yaşlı arvaddır, tərpənənədək gün axşam olur. Ancaq Vahid onu darda qoymazdı. Lap dalına alıb qaçmalı olsa da, mütləq kolun-kosun arasında gizlədərdi. Elə eliyərdi ki, nənəsinin başından bir tük də əskik olmasın. Özünün də elə ləj, tərs xasiyyəti vardı ki, onların başına bomba tökən təyyələrə bir şey eliyə bilməsə, ürəyi partdıyardı. Nə qayırsın?! Onlar göydə, bu yerdə. Alçaqdan uçanı olsa, yerdən bir daş götürüb heç olmasa qanadının ucuna vurmasa, sakitləşməzdi. Bu da mümkün olmayanda əlac buna qalırdı ki, söyəsən.

Rayon mərkəzinə çatanda Zərri arvadı maşından ölü saldılar. Maşın necə silkələmişdisə, arvad özündə-sözündə deyildi. Ürəyi bulanırdı. Addımını atmayıb yolun qırağındaca çömbəldi ki, bir az özünə gəlsin.

– Dərdin alem, dayan, ürəyim çırpınır, – nəvəsindən onu bir az gözləməsini xahiş etdi.

Bu da nə desin, başa düşən uşaq idi. Yad yerdə, köhnə-küşkül içərisində nənəsinin yolun qırağında yerdən oturmasından utansa da, dözdü. Amma burası vardı ki, gedəcək yerlərini təxmini də olsa bilirdilər. Özü də, əsasən, nənəsi bilirdi. Onun dilindən NKVD sözünü çox eşitmişdi. Bu idarə nənəsinə hələ dava olmamışdan qabaq əri Alməmməd kişinin vaxtından məlum idi. Nənəsi çox deyirdi ki, görüm ciyəri yansın NKVD-nin, kişini əlli-ayaqlı itirdilər. Deyirdi və ağlayırdı. Gözünün yaşı ovcunda idi. Ərinin tutulmasından neçə il keçməsinə baxmayaraq, yadına düşəndə arvadın dodaqları titrəyir, gözləri dolurdu. İndi də gəlib oğlu ilişmişdi. Haçandan-haçana bir az özünə gəlib, arvad axtardığı idarəyə sarı yollananda üzü üstə gedirdi. Belini elə bil qırmışdılar. Həm də o idarədən o qədər ağzı yanmış, məyus qayıtmışdı ki, indi də ümidsiz gedirdi. Nəsə yaxşı qarşılanmayacağını, ona qarşı kobudluq, sərtlik göstərəcəklərini əvvəlcədən elə bil bilirdi. Ürəyinə dammışdı. Elə belə də oldu. «Oğlunuz burdadır, gedin Sizə xəbər verəcəyik», – dedilər. O da əvvəlcə əsib-coşdu, «mənim oğlum bu hökumətin yolunda qan töküb, sizin ixtiyarınız yoxdur onu incitməyə» – deyə bir az hikkəli danışdı. Hay-həşir saldı ki, bəlkə səhv iş tutduqlarını başa düşələr, bir az insafa gələrlər. Bununla bərabər, hiss edirdi ki, vəziyyət yaxşı deyil. Oğlu Omar elə yerə ilişməyib ki, canını qurtara bilsin. Bunlar tutduqlarını buraxan deyillər. Bunlarda insaf-mürvət nə gəzir.

– Çıxın gedin evinizə. Oğlunuz barəsində sizə məlumat veriləcək, – deyə belinə çiyni aşırmalı enli kəmər bağlamış uzunduraz bir kişi onun qolundan

tutdu və koridora çıxartdı. Bir az usduflu hərəkət etsə də, bu adamda yazığı gəlmək, birinin halına acımaq hissi yox idi.

* * *

Vahid bir yoldaşı ilə möhkəmcə dalaşdı. Davadan söhbət düşmüşdü. Əsəddən danışırdılar. Deyirdilər, bəlkə, indi qəhrəman olub. Biri deyirdi Əsəd düşmənin on tankını yandırmış olar. O biri deyirdi on beşini. O biri uşaq da etiraz edirdi ki, daha çox tank xarab etmiş, yəni sıradan çıxartmış olar. Bunları uşaqlar öz yanlarından deyirdilər. Çoxdandı Əsəddən də xəbər-ətər yox idi. Bir yandan da Vahid söhbətə qarışıb dedi ki, ola bilsin Əsəd indi lap böyük komandir olub. Hə-ə. Atam deyir ki, igid adamları komandir qoyurlar. Vuruşmağa da qabaqda gedir. «Vperyod!» – dedimi əsgərlər səngərdən çıxıb yüyürürlər. Vahid bunu demişdi ki, uşaqlardan biri, sadəcə olaraq, bunun sözünü kölgədə qoyub özünü bilici, hər şeydən başı çıxan kimi göstərmək üçün laqeydliklə dedi:

– Ey! Sənin atanı tutublar.

Vahid hər şeyi unudub Əsəd haqqında elə həvəslə danışmışdı ki, dostuna görə ürəyində olan iftixar, qürur hissi daha da artmış, elə bil uçmaq üçün qanadlanmışdı. Bu yerdə ona atasını xatırladanda dilxor oldu. Amma özünü sındırmayıb hikkəli-hikkəli:

– Nə olsun tutublar?

Onun da dilindən çıxmışdı, sözündən qaçammadı. Üstəlik bir söz də dedi:

– Hələ babanı da tutublar.

Vahid bilmədi yerin altındadır, yoxsa üstündə. Özünü saxlaya bilməyib bu oğlanın çənəsinin altından necə qoydusa, oğlanın ağzı geri yanına döndü. Amma özünü tarazladı. O da bunu vurdu. Beləcə, tutaşdılar. O bunu, bu onu. Yoldaşları aralaşdıra bilmədilər. Xoruzbeçə təki alışmışdılar. Üz-gözləri sıyrılmışdı. Evə gələndə anası Vahidi görüb soruşdu:

– Ədə, üzünə nə olub?

– Yıxılmışam. – Əsl həqiqəti gizlətdi. Çünki nəyin üstündə bu kökə düşdüyünü desə bunlara da pis təsir eliyərdi. Ailədə elə əsəbi vəziyyət yaranmışdı ki, hamı kiçik bir şeyə bənd idi. O dəqiqə söylənib ağlayırdılar. Qızlar da onlara qoşulurdu. Canının dərdindən Vahid çox şeyi gizlədirdi.

– Bura gəl. Bura gəl. – Nənə onun üzünün sıyrılmağına əhəmiyyət verməyib Vahidi yanına çağırdı. Taxtın üstünə dırmaşaraq şalını çiyninə salıb bükülüb oturmağından görünürdü ki, arvad başlarına gələn işlər barədə fikrə gedib. Nəsə bir plan cızır, düşünür. Vahid nənəsinin dizinin gözündə oturub maraqlandı.

– Nədir?

– Ömrüm-günüm, sən irayona gedə bilərsənmi?

– Niyə gedə bilmirəm?! Hara istəyirsən gedim.

– Yox eyy, lap o irayonun böyüyünün yanına.
– Raykomunmu?
– Hə-ə.
– Gedərəm.
– Dərdim alem, deyirəm, bəlkə, sən gedəsən, bax o iraykomun yanına. Şikayət eləyəsən ki, mənim atam gedib vuruşub, hökumətimizin yolunda qan töküb, indi onu sədr tutdurub. Bə belə şey olarmı deyəsən? Bə bunu hara yazmaq olar? Deyəsən bunu heç allah götürməz, yoldaş iraykom, siz necə götürürsüz? Deyirəm, bəlkə, uşaq olmağına irəhmi gələ.

Nənəsinin təklifi Vahidin ağlına batdı. Nənəsilə də rayona gedib gəlmişdi. Öyrənmişdi. Onun üçün çətin deyildi. Bəlkə, bundan bir şey çıxdı. Şikayətinə qulaq asan oldu.

Səhər tezdən Vahid rayon mərkəzinə yola düşdü. Qərara almışdı ki, kənd arası yola çıxıb maşına-zada minməsin. Hara getdiyindən, nə üçün getdiyindən qoy xəbər tutan olmasın. Bəzi-bəzi adamlar buna da bir pəlvuranlıq eləyərlər. Elələri var ki, sədrə yaltaqlanmaq üçün dəridən-qabıqdan çıxırlar. Qabağında nökərçilik edirlər. Arvadlar evinin suyunu gətirir, kişilər odununu yarırlar, heyvanlarını saxlayırlar. Hər bir işin qulpundan tuturlar. Bu da onlara kolxozdan görüm-baxım eləyir.

Vahid axtardığı idarəni tapdı. Şəhərin ortasındaca idi. Ağ bina idi. Yan-yörəsi də ağaclıq. Böyür-başına şam ağacları əkmişdilər. Baxımsızlıqdan bəziləri balaca qalmışdı. Camaatın başı qarışıb, ağaclar yada düşmür. Binanın özü isə şəhərdə olan başqa tikililərdən müəyyən dərəcədə seçilirdi. Daş-divarı qaydasında idi. Qapı-pəncərənin qırıq-quruğu yox idi. Pəncərələrə pərdə çəkilmişdi. Çərçivələr rənglənmişdi. Qabaq tərəfi meydança sulanıb süpürülmüşdü. Hər şeydə səliqə-sahman hiss olunurdu. Özü də iki mərtəbə idi. Gəlib-gedəni də çox idi. Kişilər, qadınlar bu həndəvərdə nə barədəsə bir-birilə danışır məsləhətləşirdilər. Vahid isə bunların arasında onun-bunun üzünə boylana-boylana qalmışdı. Kimin yanına, necə gedəcəyini bilmirdi. Bir adam da maraqlanmırdı ki, dərdini deyəydi.

Deyəydi ki, filankəsi görmək istəyirəm. Bir yol göstərərdilər. Belə gəl, belə get. Bu da o cür hərəkət eliyərdi. Əksinə, onu elə bil heç görmürdülər. Aralıqdaca itib-batmışdı. Ya indi o qədər iş-gücləri, dərdləri-azarları vardı ki, başqa şeylərə diqqət yetirməyə vaxtları qalmırdı. Ya da bunu uşaq hesab edirdilər. Elə-belə buralarda avaralandığını, veyilləndiyini düşünüb əhəmiyyət vermirdilər. Axırı Vahid cəsarətlənib giriş qapısına yaxınlaşdı və açıb içəri girdi. Burda da çaşıb qaldı. Bilmədi hayana getsin, hansı qapını döysün? Gördü sağ cinahda bir qapı var. Ən əvvəl onu döydü. Nə qədər taqqıldatdısa, cavab verən olmadı. Daha doğrusu, içəridən səs gəlmədi. Məcbur olub qapını dartdı. Sən

demə burda heç kəs yox imiş. Yan-yana çoxlu stul düzmüşdülər. Yekə klub təki şey idi. Düşündü ki, yəqin, burda kino göstərirlər. «Bəxtəvərlər gündə kinoya baxırlar» – dedi. Onların da klubları var idi. Amma belə qəşəng, səliqəli deyildi. Oturacaqları uzunsov taxtalardan düzəldilmiş əldə qayırma idi. Bəzilərinin ayaqları laxlayırdı. Ordan-burdan o qədər mismar vurmuşdular ki, o da saxlamırdı. Bir dəfə kinonun şirin yerində əyilib necə qırılmışdısa, hamı tappıltı ilə yerə tökülmüşdü. Neçəsinin ayağı əzilmişdi. Beş-onca sınıq-salxaq stul var idisə, onlarda da kəndin rəhbər işçiləri otururdu. Ən yaxşısında Dəmbərçək Xındı əyləşərdi. Əvvəllər stolunu lap qabağa qoydurardı. Sonra camaat oturardı. Hər yerdə olduğu kimi burda da qabaqda olardı. Sonra ona demişdilər ki, kinoda arxada oturmaq yaxşıdır. Qabaqda gözünü xarab eliyərsən. Amma yenə dalda oturmağı özünə sığışdırmayıb tez-tez qabağa keçirdi. Ora buranın yanında heç nə idi.

Vahid qapını açıq çox saxlamadı. Tez örtüb geri çəkildi. Qorxdu buna görə üzünə söz gəlsin. «Elə bilərlər oğruyam». Sonra sol cinaha sarı baxdı. O qapılardan da ağlı bir şey kəsmədi. İkinci mərtəbəyə qalxdı. Bu mərtəbənin baş tərəfindəki koridorda çoxlu adam var idi. Dayanmışdılar. Hamı susub öz-özlüyündə fikrə getmişdi. Bir-birinə bir söz deyəndə də səslərini yavaşdan çıxardır, hündürdən danışmağa nəsə ehtiyat edirdilər. Vahid onsuz da tək idi. Bir kəslə danışmırdı. Amma bu şərait, abı-hava onu daxilən bir az da yığışdırdı. Diqqəti cəlb etməmək üçün kənara, küncə çəkildi. Buradan yan tərəfə böyük pəncərə vardı. Üzünü o tərəfə çevirdi ki, heç nəzərə çarpmasın. Bura ona düşərgədə ikinci mərtəbədən aşağı yerə tullanıb qaçdığını xatırlatdı. İndi də aşağı elə baxdı ki, elə düşərdəkindən hündür göründü. Bəlkə də, bu ona görə idi ki, bunun gicitkənliyi yox idi. Divarın dibi boş olduğundan belə hündür görünürdü. Dəxli yox idi. Vahid qarşısına məqsəd qoysa, bundan da qəlbi yerdən tullana bilərdi. Ancaq bu, onu çox məşğul etmədi. Elə-belə, boş fikir idi, ağlına gəlmişdi. Ona görə də bunu unudub fikirləşdi ki, mən axı iş dalınca gəlmişəm. Nənəm mənə tapşırıq verib. Sözümü deməliyəm. Ona görə utanmağı-sıxılmağı buraxdı. Bir az elə bil fəallaşdı. Pəncərənin ağzından çəkilib adamların yanına gəldi. Birindən soruşdu.

– Xala.

– Hə.

– Birinci raykom burda harda oturur? – Eşitmişdi ki, katiblərin birincisi, ikincisi, üçüncüsü olur. Bəri başdan ən böyüyünü soruşdu.

– Birincinimi istəyirsən, bala?

– Hə.

– Odur ey, yuxarı başda, qabağında çoxlu adam olan kabinet. – Qadın əlilə göstərdi.

– Sağ olun, – oğlan təşəkkür edib göstərilən kabinetin qabağına getdi. Gördü burda iç-içə otaqlar var. Birinin qabağında bir qız oturub. Stolunun üstündə də telefonu. Adamları bir-bir içəri buraxır. Qız bunu görüb maraqlandı.

– Ay oğlan, sən burda nə edirsən?

– Birinci raykomun yanına gedəcəm. – Xahiş-mahiş eləmədi. Qəti şəkildə birincinin yanına mütləq gedəcəyini bildirdi.

Katibə qız duruxdu. Düşündü ki, bu oğlanın katiblə nə işi ola bilər? Sonra nə fikirləşdi, nə fikirləşmədisə.

– Yaxşı. Gözlə, gedərsən, – dedi.

Bir azdan Vahid qapını açıb kabinetə daxil olanda gözlərinə inana bilmədi. Bu, həmən kişi idi. Ona əynindən şinelini çıxarıb bağışlayan kişi. Onu çoxdan axtarırdı, görmək istəyirdi. Dağ-aran qalmamışdı. Adını bilməsə də elə-belə nişanları ilə soraqlamışdı, nənəsi də ondan ötrü əli uzalı idi.

Nəvəsi soyuqlu havalarda, qarda-boranda onun verdiyi şineli geyib canını isti tutanda qoca arvad tanımaza-bilməzə bax, bu adamın ömrünə dua edirdi. Xatadan-bəladan uzaq olmasını istəyirdi. İşinin həmişə düz gətirməsini, salamatlığını arzu edirdi. Nəinki nənəsi, demək olar, bütün kənd onunla maraqlanırdı. Hamı onu görmək istəyirdi ki, bu xeyirxah adam kimdir? Vahid heç güman etməz, ağlına gəlməzdi ki, onunla burda, belə bir böyük, rəsmi, mötəbər yerdə görüşə bilər. İndi onun yanına xahişə, təvəqqəyə getdiyi bu dəqiqələrdə bu adamın həmən o adam olduğuna Vahid həm sevinir, həm də bir qədər təəssüf hissi keçirirdi ki, gərək o olmayaydı. Qorxurdu ki, o vaxt elədiyi yaxşılıqdan utana, sıxıla, sözünü deyə bilməyə. Bu gün isə aydındı ki, çox ciddi bir iş üçün onun üstə gəlmişdi. Bu, onun üçün daha vacib idi. Bu kişi o yaxşılığı, o hərəkəti o vaxt eləməsə də olardı. Vahid ölməyəcəkdi ha. Qışın ayazlı-şaxtalı günlərini birtəhər keçirə bilərdi, amma atasız yaşamaq çətin idi. Çox çətin idi. Ayrıldıqları beş-on gün olmazdı, atasından ötrü burnunun ucu göynəyirdi. Onsuz ev elə bil qurumuş çay yeri idi. Çat-çat olmuş qumsal torpağın aralarında daşlar ağarırdı. Vahid evə baş sala bilmirdi. Amma evdən tamam qaçmaq da mümkün deyildi. Yüz cür dərdi-azarı vardı. Vahid yenə təklənmişdi. İndi bu kişinin yanına gəlmişdi ki, bəlkə, bir köməyi dəydi. O isə bu uşağı tanımamışdı. Bir dəfə ötəri görməklə haradan tanıya bilərdi?! Yadında elə o qalmışdı?! Kiməsə şinel bağışladığı da, bəlkə, yadından çıxmışdı. Gör eyy nə vaxt olub. Üstündən az qala bir il adlamışdı. İşi-gücü də çox olurdu. Başından aşırdı. Böyük rayon idi. Ordudan tərxis olunandan sonra çağırıb bura qoymuşdular ki, idarə elə. Bu da nə qayırsın?! Gecə-gündüz işləyirdi. Yenə iş tükənmirdi. Bu səhər Bakıdan zəng edib abrını almışdılar. İşləmirsən! Yatıbsan. Əməkgününə niyə taxıl bölübsən?! Ehtiyat üçün niyə saxlamamısan?! Bu da deyə bilməmişdi ki, camaat burda köpük qusur, bəs mən nə edim, başıma haranın daşını salım. Bu iradla

da razılaşmaq az-çox olardı. Çünki müharibə idi. Vəziyyət ağırdı. Yerli-dibli heç verməsən də, camaat dillənən deyildi. Ac qalmağa, çılpaq gəzməyə camaat razı idi, illaha ordunu təmin etsinlər. Bunu adamlar yaxşı başa düşürdülər. Hamı axırıncı tikəsini belə verirdi. Ancaq onu incidən, ürəyini ağrıdan başqa şey idi. Telefonda qəzəblə qışqırıb ona demişdi ki, camaatın ipini boş buraxma. Elə olmasın ki, köhnə əks-inqilabi ünsürlər baş qaldırsın. 37-ci ildə ataları, babaları tutulmuş tör-töküntülər bizim qələbə çalmağımıza inamsızlıq hissi yaysınlar. Belələrinə qarşı amansız olmaq lazımdır. O orda ağzını açanda bu, burda o dəqiqə bildi ki, hökmlü adama yenə nəsə çatdırıblar. Ürəyində «ay başına dönüm, – dedi, – burda asqıranda da orda eşidirlər. O dəqiqə çatdırırlar. Nə olur tezcə ovcuna qoyurlar. Bu necə şeydir? Bunların simsiz telefonlarımı var, nədir?! İymi çəkirlər? Bunlar necə adamlardır? Niyə belədirlər? Nə üçün belə satqınlığa öyrəniblər? Allah kəssin elə çörək yeməyi! Haram olsun yedikləri! Budur, onu da beləcə pis vəziyyətdə qoyurlar. İndi bu, nə desin? Təsdiqləsinmi? Onda gərək haqq-nahaq kimisə tutsunlar, damlasınlar, üstünə bir kir yaxıb əlli-ayaqlı elə itirsinlər ki, heç izi-tozu da görünməsin. Hə-ə. Onda yaxşı katib olardı. Ayıqsayıq katiblərdən hesab olunardı. Bəlkə, onda bir az da irəli çəkdilər onu. Lap mərkəzə apardılar. Ancaq o, belə irəli getməyi, bu cür inkişaf edib şana-şöhrətə çatmağı istəmədi». Bayaqdan ayaq üstə durub «Bəli. Bəli,» – desə də danışıq bura çatanda bütün iradəsini, cəsarətinim toplayıb:

– Yoldaş Bağırov, bizim rayonda elələri yoxdur, – demişdi.

Bunun belə deməyi onun xoşuna gəlməmişdi. Qana-xataya düşməmişdimi?! Telefonda əsib-coşub, ağzına gələni buna demişdi:

– Slepoy tı! Slepoy!

– Yol... daş... Bağırov inanın ki...

O daha danışmaq istəməmiş və dəstəyi vurmuşdu.

Bu isə dəstək qulağında bir ara şok vəziyyətinə düşmüşdü. Xətt kəsilmişdi, danışan yox idi, bu isə yalandan qulağında tutmuşdu. Guya, danışır. Yekə kişi ola-ola hakimi mütləqin zəhmindən bu hala düşmüşdü. Nahaq onun dediyinə etiraz elədi. Nahaq baş üstə demədi. Kişini əsəbiləşdirdi. İndi onun qəzəbinə gəlsə, haqq deyilmi?! Hələ onu günahlandırar ki, katibsən, amma partiyanın nizamnaməsini bilmirsən. Sən bilmirsənmi ki, aşağılar yuxarılara tabedirlər. Bu da başlayıb ki, bizdə elələri yoxdur. Niyə yoxdur? O qədər adam var ki!

İndi Vahid onun kabinetinə girəndə o, ölü kimi idi. Canlı meyit təki qalmışdı stolun ardında. Yenə o barədə düşünürdü. İp söhbəti də xoşuna gəlməmişdi. Bilmirdi hansı ipi dartsın? Kim salmışdı ipi camaatın boynuna? Bunu ona necə deyə bilərdi? Onun sözünün qabağından sözmü deyə bilərdi?! Adamın atasını yandırardı. Başında turp əkərdi. Əlli-ayaqlı itirərdi. Elə eliyərdi ki, adamın heç izi-tozu görünməzdi. Bunu bildiyindən katib elə bil kontuziya almışdı. Davada

yanında bomba partlamışdı, ağac-uğac qarışıqlı daşı-torpağı götürüb bunun başına yağdırmışdı, aləm altda qalmışdı, amma özünü belə itirməmişdi, qorxmamışdı. İndi ondan çox-çox betəri idi. Adicə telefon danışığından iki-üç saat keçməsinə baxmayaraq, kişi, özünə gələ bilmirdi. Müəyyən bir iş üçün yanına gələn adamlarla nə danışdığını da bilmirdi. Gözü onlarda olsa da, fikri hələ də onun yanında idi. O dördgözün yanında. Eynək taxdığına görə ona belə də deyirdilər. Bu söz ondan gələn qorxu hissini, əzazilliyini, çox təhlükəli olması fikrini adamlarda bir az da artırırdı. Rəhbərin güclülüyünü göstərirdi. Haqq-nahaq olan bu qansızlıq, cəlladlıq ön plana çəkilirdi. Axır nəticə, fikir bu olurdu ki, onun kəsdiyi başa söz ola bilməz. Respublikada hakimi-mütləq idi.

Katib gecdən-gec olsa da, canından o qorxu hissini çıxardıb, birtəhər özünü ələ aldı. Ağlını başına cəm elədi və elə bil indi əsəbdən-qorxudan gözlərinə çökmüş tor-dumanın arasından stolunun ayağında quruyub qalmış oğlanı gördü. Duruşundan bu uşaq da ondan ehtiyat eləyir. Utanırmı, qorxurmu, nə isə çox bərk sıxıntı içərisindədir. Oğlana ürəyi yandı. Rayonun sahibi kimi yox, bir katib kimi yox, bir döyüşçü kimi, bir əsgər kimi oğlanı bu sıxıntıdan azad eləməyə səy göstərdi ki, sözünü deyə bilsin. Mehribanlıqla soruşdu:

– Oğlum, deyən mənə deməyə sözün var. De görüm nəyə gəlibsən?

Vahid udqundu, boğazı, həqiqətən, qurumuşdu.

– Eşidirəm səni.

– Atamı tutublar mənim.

– Tutublar? – Katib özü də təəccüb etdi.

– Hə-ə. Günahsız tutublar.

– Atanın adı nədir?

– Omar.

– Omar?

– Hə.

– Hansı kənddənsən?

– Qızıldaşdan. – Bu kəndin güneyində sal-sal qəribə daşlar var idi. Gün düşəndə üstünə par-par yanırdılar. Qızıl təki işıldayırdılar. Kəndin adı da o daşlarla əlaqədar idi.

Katib qəbuluna gəlmiş bu uşaqla danışsa da, fikri bir az bundan qabaq Bakıdan zəng etmiş o böyük vəzifəli şəxsin yanında idi. Fikirləşirdi ki, o, niyə belə deyirdi. Doğrudanmı camaatın arasında düşmən adamlar var? Doğrudanmı onlar bu təhlükəni görürlər? Bilməsələr, görməsələr belə ciddi tapşırarlarmı? Əgər, həqiqətən, varsa, onlar görürlərsə, bəs bunlar, buradakılar niyə görmürlər? Onlar orada, uzaqda ola-ola görürlər, amma bunlar burda, camaatnan bir yerdə yaşaya-yaşaya görmürlər. Onu fikir çəkib dərinlərə aparır, ağlında hər şeyi götür-qoy etməyə çalışırdı. Ancaq doğru-dürüst bir nəticə çıxarda bilmirdi.

Məsələ bu yerdə idi ki, onlara da inanırdı, amma bununla bərabər özünə də inanırdı. Onlara inananda tutmalı, asmalı-kəsməli olurdu. Özünə inananda camaata qarşı mehribanlaşmalı, onların qədir-qiymətini bilməli, hər birinə məhəbbətlə, mehribançılıqla yanaşmalı idi. Rayonda, demək olar ki, hamını tanıyırdı. Hamısı da namuslu, zəhmətkeş, fədakar adamlar idi.

Bəs yuxarıdan deyilən adamları o, harda axtarmalı idi? Hardan tapmalı idi? Necə etməli idi ki, onlar deyən kimi olsun? Axı onlar deyən adama bu rast gəlməmişdi. Bəlkə, belə adamların olmadığını onlar özləri də bilirdilər. Hər ehtimala qarşı iş görürdülər. Ona görə də bu cür göstərişlər verirdilər. Adamlara xox gəlirdilər. Daim qorxu altında saxlayırdılar. Budu tutdular, odu tutdular. Canlarında qorxu hissi olduğundan daha başqa fikrə, xəyala düşməzlər. Özgə cür düşünməzlər. Qəribə idi. Bu, onların hardan ağlına gəlmişdi? Onlar nə üçün ehtiyat edirdilər? Özlərinin özlərinə inamları yoxdumu? Bəs necə edəsən ki, inamları ola, camaata şübhə ilə baxmayalar? Düzü belə şeylər barəsində o, heç düşünməmişdi. İndi isə beyninə, fikir-fikir ardınca dolurdu. Düşündü ki, bu şübhəni onlarda, görəsən, camaat yaradıb, yoxsa onlar özləri? Bəlkə, camaat, həqiqətən, elə bir iş görüb, elə bir xeyirsiz addım atıb ki, şübhəsi indi də getmir? Camaat niyə belə eləsin? Bəlkə, camaat öz-özünün düşmənidir?! Yox, əgər belə deyilsə, onlar nə üçün camaata şübhə ilə baxsınlar? Katibin bu işlərdən heç xoşu gəlmədi. Fikirləşdi ki, ağrımayan yerdən nə üçün qan çıxardasan? Nə üçün heç nədən adamların həyatını, yaşayışını, dolanışığını çətinə salasan, camaata əziyyət verəsən. Uşaq olsa da, biri elə bu qabağında oturmuş oğlan. Gəlib səndən pul istəmir, para istəmir. Çörək ver demir, su ver demir. Hə-ə. Bu camaatın böyüyü də, kiçiyi də elə bu cürdür. Elədirlər ki, dövlətin, ümumiyyətin mənafeyini həmişə öz şəxsi mənafelərindən üstün tuturlar. Közü həmişə dövlətin qabağına çəkirlər. Evlərindəkini də gətirib dövlətə verirlər. Bir az bundan qabaq ona kəndlərdən zəng vurmuşdular. Ayrı-ayrı adamlar yenə nə qədər yun corab, isti əlcək və isti köynək toxumuşdular. Cəbhəyə göndərirdilər. Yoxlasan görərsən ki, heç özlərinin ayağında yun corab yoxdur. Əlləri əlcək görmür. Yun köynək bir yana, bəlkə, heç altda maykaları da yoxdur. Lütüryandılar. Bax, bu camaat elə camaatdır. Katib onları belə tanıyırdı. Ona görə də bu cür, düzgün fikirləşməyə çalışır, hər bir şeyi ədalətlə həll etməyə cəhd göstərirdi. Amma hakimi-mütləqin zəngi yadına düşəndə ağlını elə bil itirirdi. Özü də orda, uzaqlarda, neçə yüz kilometr aralıda olsa da, zəhmi burda onu basırdı. Hakim-mütləqin qara qorxusu onu necə çulğalayırdısa, durduğu yerdəcə tərə batıb çıxırdı. Bu şəraitdə onun üçün, əlbəttə, işləmək çətin idi. Amma vicdanı əleyhinə iş görmək, ədalətsizlik etmək fikrində də deyildi. Qalmışdı necə etsin? Necə etsin ki, allaha da xoş getsin?

Vahid isə qəti bu fikirdə idi ki, bu kişi mütləq ona kömək edəcək. Daha bunun o yanı, bu yanı ola bilməzdi. Çünki onu tanıyırdı, ona bələd idi. Bilirdi ki,

yaxşı adamdır, xeyirxahdır, ürəyi yanandır. Bir adam ki, əynindən paltarını çıxarıb başqasına verə, özünün üşüməsinə razı ola, amma özgəsinin yox, daha nə istəyirsən?! Bundan yaxşı adam tapmaq olardı?! Bax, bu əminliklə, yəqinliklə Vahid qəbuluna gəldiyi kişinin nə deyəcəyini, onun dil-cavabını gözləyirdi. Az qalırdı indidən, hələ bu kişinin nə deyəcəyini, nə deməyəcəyini gözləmədən irişsin. Axı özgə nə deyə bilərdi? Heç nə! Götürüb dəstəyi əmr eliyəcəkdi ki, filankəsi buraxın. Vəssalam-şüttamam. Onlar da buraxacaqdılar. Ağızları nədir?! Bu əmr eliyəndən sonra kim onun sözünü çevirə bilər. Heç kəs. Həm də Vahid bilirdi ki, onun atasının heç bir günahı yoxdur.

Katib bayaqdan susmuşdu. Gah stolunun bu gözünü çəkib kağızları qarışdırır, gah da o biri gözünü. Sonra da stolunun üstündəki şeyləri götürüb təzədən yerinə qoymağa başladı. Nə elədiyini, deyəsən, heç özü də bilmirdi, niyə eləyir. Vahidin də üzünə baxmırdı, yekə kişi elə bil ondan utanırdı. Birdən ona baxıb dedi:

– Yaxşı, oğlum, sən get, mən maraqlannam, görüm nə olan şeydir.

Bu da hazırlaşmışdı ki, evə atası ilə qayıdacaq. Təsəvvüründə canlandırırdı ki, qəfildən böyürdən çıxanda evdəkilər necə sevinəcəklər. Necə şad olacaqlar. Elə biləcəklər dünyaya təzədən gəliblər. Bacıları yüyürüb atalarının boynuna sarmaşacaq. Nənəsi necə dil tökəcəkdi. «Sən gələn yollara qurban olum, ay oğul» – deyə əllərini göyə tutub oğlunun bu xatadan da sovuşduğuna allaha şükür eliyəcəkdi. Anası da, bəlkə də, sevindiyindən ağlayacaqdı. Amma indicə eşitdiyi sözlərdən belə başa düşdü ki, bu iş hələlik təxirə salınır. Buna baxmayaraq, yenə ümidini kəsmədi. Qəbulunda olduğu adamın xeyirxahlığına, alicənablığına inandığından ona kömək edəcəyinə əmin oldu.

Qayıdıb evə gələndə Vahid nə var hamısını bircə-bircə söylədi. Bilirdi ki, bu məsələdə üstə qoymağın və yaxud almağın xeyri yoxdur. Söhbət atasından gedirdi. Onun taleyi həll olunurdu. Bu söylədikcə anası, nənəsi, bacıları ağızlarını açıb ona elə baxır, elə qulaq asırdılar ki, deyirdin allahın yanından gəlib. Hələ heç xəbərləri yoxdu ki, ən əsasını nədənsə sonraya saxlayıb. Bayaqdan ürəyini deşib çıxmaq istəyirdi. O barədə düşünəndə hər dəqiqə həyacanlanırdı. Axırı irişə-irişə dedi:

– Bilirsinizmi, o kişi kimdir?

– Hansı kişi?

– Yanına getdiyimi deyirəm dana?

– Kimdir? – Yenə hamı onun ağzına baxdı.

– Şinelini mənə verən kişidir.

– Nə danışırsan?! – Anası bu yandan, nənəsi o yandan dilləndi. Ağızlarını ona lap yaxın tutdular. Vahidin dediyini bir də eşitmək istədilər. Vahid onların sevincini, ümidlərini bir az da artırmaq üçün başını tərpətdi.

– Hə-ə, – dedi, – içəri girən kimi tanıdım. Gördüm həmən kişidir. Oturub stolun dalında.

– O da səni tanıdımı? – hərə bir tərəfdən maraqlandı.

Vahid bir az dilxor oldu. Yalan danışmaq istəmədi. İkinci bir tərəfdən bunları da ruhdan salmaq, ümidlərini qırmaq, sevinclərini əllərindən almaq insafdan deyildi. Odur ki dəqiq cavab vermədi:

– Nə bilim? – Çiyinlərini atdı.

Amma yenə də nəsə bir ümid qığılcımı parlamışdı. Evdə hamı onun işıltısına qızınırdı. Heç ağılları kəsmirdi ki, elə bir xeyirxah ürəyi olan adam ədaləti qoruyab saxlaya bilməsin.

* * *

Üççə gün sonra Vahid yenə birinci katibin qəbuluna getməli oldu. Onlar onsuz da hər gün rayon mərkəzində idilər. Nənəsi, anası ona yalvarır, buna yalvarır, bu işə ədalətlə baxılmasını tələb edirdilər. Bir dəfə də görüş almışdılar. Onda da anası ilə nənəsinə icazə vermişdilər. «Sən uşaqsan, bağda-bağçada gəz – dolan» – deyə bunun qolundan tutub eşiyə çıxartmışdılar. Bu hərəkət onu lap yandırıb tökmüşdü. O da acıqca başı alovlu özünü rayon partiya komitəsinə vermişdi. Qabaq otaqda oturub gözləyirdi. Qıza da demişdi ki, katib özü çağırıb, deyib bu gün yanıma gələrsən. Qız da demişdi ki, gözlə, yanındakılar çıxsın. Amma heç çıxana oxşamırdılar. Bir saata yaxın idi ki, Vahid gözləyirdi. Şineli də əynində idi. Bu gün hava çox soyuq idi. Həm də özü qəsdən geyinmişdi. İstəyirdi özünü katibə tanıtdırsın. Hər halda şinelini tanımamış olmaz. Adam öz paltarını tanımazmı?! Neçə il əynində gəzdirib. Neçə il bu şinel ona xidmət eləyib. Soyuqdan, şaxtadan, yeldən-quzdan qoruyub. Tanımamış olmaz. Bax, Vahid həmən bu əynindəkiləri üstündən lap yüz il keçsə də, tanıyar. O ki qaldı yekə şinel ola. Belə fikirləşirdi ki, tanısa yaxşıdır. Qoy bilsin ki, mən həmən oğlanam. Qoy bilsin ki, biz tanışıq, yaxınıq. Qoy bilsin ki, ailəmizdə hamı onu tanıyır. Nənəm də, anam da, bacılarım da. Qoy bilsin ki, elə gün olmur onun xeyirxahlığı, alicənablığı, bir sözlə, yaxşı adam olması barədə bizdə danışılmasın. Qoy bilsin ki, mən onu göydə axtarırdım, yerdə əlimə düşüb.

Nəhayət, katibin qəbulunda olan adamlar çıxdılar. Bu daxil oldu. Katibə qız nə qədər dedisə şinelini soyunmadı.

– Axı belə yaxşı deyil, eyibdir.

Oğlan yenə sözə qulaq asmadı. Elə bil heç onunla deyildilər. Katibə qız isə fikirləşdi ki, bəlkə, uşağın şalvarı, köynəyi cırıqdır, ona görə soyunmaq istəmir, utanır.

– Di yaxşı, get! – Nəhayət, şinelli keçməyə icazə verdi.

Qapı cırıldayıb yavaşca açılanda katib başını qaldırıb dikəldi. Görsün yanına gələn kimdir? Hansı idarənin rəhbəridir? Torpaq şöbəsinin müdiridirmi? Sosial-təminat idarəsindəndirmi? Bəlkə də, NKVD-nin rəisidir. Başqa idarələrdən

də ola bilərdi. Onlardan bu gün çağırmamış olsa da, gələ bilərdilər. Elə məsələlər olurdu ki, onunla mütləq məsləhətləşməli idilər. Yalnız NKVD-nin rəisi bəzən sözünü yuxarıya deyir, sonra bunu agah eləyirdi. Bu, onun xoşuna gəlməsə də, onu əsəbiləşdirsə də, üzə sala bilmirdi. Bu xətt üzrə buranın özündən də, yuxarıdan da katib özü də ehtiyat edirdi. Beləcə maraqla üzərinə meşin çəkilmiş və çöldən də, bayırdan da yorğan dəstiri sırınmış qəhvəyi qapıya baxırdı ki, oğlanı gördü. Üzdən o dəqiqə tanıdı. Amma əynindəki şineli onu az qala çaşdırmışdı. Buna baxmayaraq, üzdən tanıdı və nə üçünsə birtəhər oldu, qanı qaralıb qaş-qabaqlı dayandı. Fikirləşdi ki, indi bu uşağa nə cavab verəcək? O bunu ədalətli, hökmlü adam bilib üstə gəlmişdi. Bu isə... Doğrudur uşağın atasının işilə məşğul olmuşdu. Sədrlə necə dalaşıblar? Nəyin üstündə olub? Əslində, bir ciddi şey yox idi. Ancaq pis qələmə vermişdilər. İşi pis tərtib etmişdilər. Omar kişinin dediyi sözlərə siyasi rəng vermişdilər. Bütün bunların hamısını sənədləşdirmişdilər. Bu, işləri bir az korlayırdı. Məsələ hələlik həll olunmamış qalırdı. İndi katib ona deyə bilərdi ki, get, oğlum, bu, mənə aid məsələ deyil, inzibati orqanların işidir. Ancaq elə etmədi. O dəfədən də ürəyi qalmışdı. Qanı qara olduğu üçün uşağı soyuq qarşılamışdı. Əksinə, bu dəfə uşağı xoş, mehribançılıqla qarşılamağı qərara aldı. Adama deyərlər ki, verməyə buğda çörəyin yoxdur, buğda dilinə nə olub?!

– Hə, gəl, oğlum, gəl, – deyə katib onu tanıdığını bildirdi və əlilə onu yanına çağırdı. – Gəl otur.

Qabaq-qarşı oturanda katib müəllim olduğu illəri xatırladı. Çoxdan idi ki, o, uşaqla belə üzbəüz oturmamışdı. İndi elə bil müəllim şagird idilər. Dərs keçəcəkdilər. Nə yaxşı olardı. Lap nümunəvi dərs keçərdi. Bilmədiyini başa salardı. Dönüb-dönüb izah eləyərdi. Uşağı tam öyrətməmiş əl çəkməzdi.

Oğlan isə tam əmin idi ki, əynində şineli görən kimi katib onu tanıyacaq. «Ayə, bu sənsən?! Xoş gördük səni. Nə var, nə yox? Ay sənin!» Amma düşündüyü kimi olmadı. Katib şinelə heç fikir vermədi. Qəbuluna geyincəkli gəlməsini də ona irad tutmadı. Kim idi belə şeyə fikir verən. Aclıq, çılpaqlıq. Kimin əlinə nə düşür onu da əyninə keçirirdi. Bu da şineli hardansa tapıb. Lap yaxşı da eləyib. Ona dəyən soyuq qoy şinelə dəysin, üşüməsin. Xəstələnməsin. İşdən-gücdən, məktəbdən geri qalmasın. Katib uşaq mehrli, uşaq məhəbbətli adam idi. Kəndlərə gedəndə, elə rayonun mərkəzində də məktəblərlə, uşaqların təhsili ilə, yaşayışları ilə daim maraqlanır, çoxuşaqlı əsgər ailələrinə imkan daxilində azdan-çoxdan kömək eləyirdi. Bu yay pioner düşərgəsini də necə çətinliklə təşkil elətdirmişdi. Ordan-burdan kəsib, müəyyən vəsait ayırıb düşərgəyə xərclətdirmişdi.

Şinelini tanımasa da, katib, oğlanı tanıdı. Bildi ki, nəyə gəlib. Niyə belə solğundur. Bəti-bənizi niyə qaçıb. Atasız uşaq özgə necə olacaqdı?! Buna görə

ona ürəyi yandı. Pis oldu. Həm də vəziyyət nə yerdə idisə katib ağzını açıb danışmağa, bir söz deməyə də çətinlik çəkirdi. Qalmışdı nə desin?! Uşağın qəlbini sındırmaq istəmirdi. Əksinə, ürəyindən olardı ki, ona pənah gətirən, ondan kömək istəyən, imdad gözləyən bu oğlanı sevindirsin, güldürsün, şənləndirsin. Onda özü də sevinərdi, özü də şad olardı. Elə bilərdi ki, dünyada ən yaxşı işi bu görüb. Elə bilərdi ki, kiminsə qolundan tutub yüz arşınlıq quyunun dibindən çıxardıb. Bax, belə bir ürək sahibi olmasına, bu istəyinə, arzusuna baxmayaraq, nəhayət, naçar-naçar dedi:

– Oğlum, mən sənin atanın işilə maraqlanmışam. Bu işlə əlaqədar adamlar məşğul olurlar.

Hiss olundu ki, katib dilini sürüyür. Konkret bir söz demir. Ya bu işə qarışmaq istəmir, nədənsə ehtiyat eləyir, ya da onun atasının işi elə ağırdır ki, gücü çatmır. Halbuki Vahid ona çox ümidli idi. Tam əmin idi ki, bu kişi onlara kömək eliyəcək. Vəziyyəti belə görəndə çox pis oldu. İnanmağı gəlmirdi ki, belə bir böyük vəzifəsi olan adam bu işə bir əncam çəkməyə. Dilxorçuluqdan bilmədi nə etsin. Havamı birdən-birə istiləşdi, yoxsa otağımı bərk qızdırmışdılar. Tər onu basmışdı. Bilsəydi belə isti olacaq şineli geyinməzdi. İçində bişirdi. Üfüləyə-üfüləyə saxladığı, çirk olacağından, köhnələcəyindən qorxub çox vaxt evdəcə yuxarıdan asılı qoyduğu şinel heç zaman ona bu qədər gərəksiz, lazımsız, artıq bir şey kimi görünməmişdi. Həmişə əyninə gen-bol olan şinel indi, deyəsən, ona dar gəlirdi.

– Hə, oğlum, məşğul olurlar, – deyə katib yenə bayaqkı sözünü təkrar elədi. Başqa söz demədi. Bu o demək idi ki, dur get, başqa cavab olmayacaq. Vahid isə məəttəl qalmışdı ki, içərisində heç bir şey olmayan bir işlə nə məşğul olurlar? Uşaq ola-ola bunu Vahid başa düşürdü, bəs bu boyda vəzifənin sahibi başa düşmürdümü? Vahid bütün bu ədalətsizliyə, qanunsuzluğa, özbaşınalığa qarşı etirazını bildirmək istədi. Ancaq bilmədi necə, nə yolla? Bu ara ağlına gəldi ki, belə bir hissiz, duyğusuz adamın ona heç şineli də lazım deyil. Elə adamın paltarını geyinib isti gəzməkdənsə, soyuqdan ölmək yaxşıdır. Deyəsən, katib onu yaxşı tanımırdı. Xasiyyətinə bələd deyildi. O vaxt xətrindən keçməyib götürmüşdü. Fikirləşmişdi ki, nə olar?! O ki ürəkdən verir, bu da xətri xoş olsun deyə əlini uzatmışdı. İndi isə... O vaxt aldığına peşman olmuşdu. Gərək şineli elə o zaman götürməyəydi. Deyəydi ki, çox sağ olun, lazım deyil. Hardan biləydi ki, belə ürəksiz adamdır. Xeyrə-şərə yarayan deyil. Əksinə, bunu öz aləmlərində şişirdib allahın yanına qaldırmışdılar. Dünyanın ən xeyirxah, ən müqəddəs adamı hesab edirdilər. Tanımaza-bilməzə bütün kənd az qalırdı canına and içsin. Yaxşılıqdan, insanlıqdan söhbət düşəndə birinci ondan danışırdılar, misal çəkirdilər. İndi başa düşürdü ki, səhv ediblər. Əgər o vaxt bu kişinin ürəyini oxuya bilsə idi, tezcə üstünə atardı. İndi də gec deyildi. Vahid heç cür özünü

ələ ala bilmədi. Heç bilmədi qollarını gərib şineli əynindən necə çıxartdı, stolun üstə atıb qapıya yönəldi.

Katib heç nə başa düşə bilmədi. Bilmədi bu nə deməkdir? Bu oğlan əynindən şinelini niyə çıxartdı? Düşündü ki, görünür ağlı çatmır. Hər nə təhər səsləndi.

– Ay oğlan!

Vahid istədi qulaq asmasın. Özünü karlığa qoyub çıxıb getsin. Ancaq fikirləşdi ki, o da bu işi belə qoymaz. Ardınca adam göndərər, tutdurub gətizdirər. Onun üçün eyib olardı. Camaat elə bilərdi ki, oğurluq eləyib. Ona görə dayandı. Hirsindən, hikkəsindən tamam çevrilməsə də, bir azca ona sarı döndü.

– Nədir?

– Necə nədir? Dəlisən-nəsən? Şinelini niyə burda qoyub gedirsən! – Kişi stolunun ardından çıxıb böyürdən qabağa gəldi.

– Şinel mənim döy.

– Bəs kimindir?

– Sizin.

– Mənim? – Kişi uşaq təki əlilə özünü göstərdi.

– Hə-ə.

Katib alnını yığıb fikrə gedəndə Vahid dedi:

– Əsgərlikdən təzə gələndə... yolda...

Eh! İndiyədək o qədər dərdi-azarı, qəmi-qayğısı olmuşdu ki, hamısı yadından çıxıb getmişdi. Kimə nə verib? Kimdən nə alıb. Xüsusilə bu işə gələndən bəri axşamını, sabahını bilmirdi. Bəzən kabinetdə yatmalı olur, gecə-dündüz ev üzü görmürdü. Şinel əhvalatı isə çoxdan olub getmişdi. Şineli yolda üşüyən bir oğlana bağışladığı yadında idi. Amma uşaq yadında qalmamışdı. Odur ki bir şinelə, bir də uşağa baxa-baxa qalmışdı. Görsün hafizəsində o oğlanı canlandırıb bununla tutuşdura, müqayisə edə bilərmi? Gördü bu onun üçün çox çətindir. Həm də bunun nə əhəmiyyəti vardı. Yəqin ki, haman oğlandır. Amma bu ara şinelə diqqətlə baxıb dedi:

– Mənim axı şinelim uzun idi, bu nə qısadır?

Oğlan mısmırıqlı-mısmırıqlı dilləndi:

– Ətəyindən kəsmişəm.

– Hə-ə. – Katib oğlanın sözünü təsdiq əlaməti olaraq başını tərpədə-tərpədə qaşlarını yığdı. – Olar. Olar. Yəqin, çox uzunmuş. – Hələ bir oğlanın boy-buxununa da baxdı. Bəlkə də, təəccüb etdi ki, bu boyda uşaq o uzunluqda, yekəlikdə şineli necə geyinib. Yəqin, ayağının altı ilə sürünürmüş. Əyni isti olsa da, fağırca uşaq, o boyda şineli gəzdirəndə əziyyət çəkirmiş. Bu, belə fikirləşəndə Vahid dedi:

– Təkcə uzunluğuna görə yox.

– Bəs özgə nəyə görə?

– Camaatın lampasının piltəsi yox idi, hamı qaranlıqda qalmışdı. Qırıq-qırıq ətəyindən kəsib ona-buna piltəlik vermişəm. Başqa çarə yox idi. – Vahid bunu hər şeyin qayğısına qalan, əyər-əskiklik dərdi çəkən bir böyük kişi, bir ağsaqqal kimi dedi. Əvvəla onun belə kişi-kişi danışmağı xoşuna gəldi. Fikirləşdi ki, bu cür uşaqlar olmasaydı, dava eləmək bizim üçün çətin olardı. Bax, əyninin paltarını da qızırğalanmayıb. Başladı oğlanı təriflməyə.

– Sən nə yaxşı oğlansan. Sən nə qiyamət oğlansan.

O, belə dedikdə Vahidin acığı tutur, dişi bağırsağını kəsirdi. O nə hayda idi, bu nə hayda. Vahid atasının dərdini çəkirdi, bu da başlayıb sən beləsən, sən eləsən. Bundan bərk acığı tutan Vahid döndü ki, getsin, katib arxadan dilləndi:

– Hara?

– Öyümüzə.

– Bəs şinel?

– İstəmirəm.

– Elə şey olar?

– Niyə olmur? – Vahid getmək üçün qapıya sarı bir addım da atdı.

Katib ərklə səsləndi:

– Dayan! Yekə kişisən.

Vahid katibin məqsədini başa düşmüşdü. Qılıqlayıb şineli qaytarmaq fikri var idi. O isə bu fikirdə deyildi. Bunu onun üzündən oxuduğundan, dəlisov hərəkətlərindən başa düşdüyündəndir ki, katib onu başa salmağa cəhd etdi:

– Bəxşeyişi qaytarmaq yaxşı deyil axı. Sən bunu bilməmiş deyilsən. Eşidən-bilən nə deyər?!

O deyir, bu susurdu. Axırda Vahid bu işə birdəfəlik nöqtə qoymaq fikrinə gəldi:

–Yox! Sağ olun! – Vahid qəti etiraz etdi və əlini qapının cəftəsinə yetirdi. Özünü kabinetdən kənara necə atdısa, heç bircə dəfə də olsun geri yanına baxmadan qaçıb getdi.

* * *

Tutulan yalan olmuşdu. Vahid gerçək. Belə ki NKVD-nin idarəsindən çıxanda görmüşdülər uşaq yoxdur. Tez əl-ayağa düşüb ora, bura baxmışdılar, ancaq tapa bilməmişdilər. Binanın ardına hərlənmişdilər. Burada da yox idi. Sonra qalmışdılar hara baxsınlar? Bir az aralıda böyük bir bağ var idi. Ora-bura uşaq heykəlləri qoymuşdular. Biri əlini qaşının üstə qoyub əsgəri salam verirdi. O biri quçağında baraban çalırdı. Bir də bir şüar yazmışdılar ki, xoşbəxt uşaqlıq üçün Stalin yoldaş sağ olsun! Onu da uca bir yerdən asmışdıldar. İndi də tez ora qaçırdılar ki, bəlkə, ora gedib, heykəllərə tamaşa edir. Vahidi orada da görmə-

yəndə dəli oldular. Bu nə iş idi başlarına gəldi?! Bu oğlan harada itib-batdı? Rayon mərkəzi sən deyən elə böyük, qarışıq yer olmasa da, hər halda, qıraq yer idi. Onların kəndilə müqayisəyə gəlməzdi. Ciqan-miqanı da olmamış deyildi. Kim bilir kim yoldan çıxartdı. Kimin ardına düşüb getdi. Pis adamlara qoşulub oğurluq-zad eliyər... Beləcə, əlləri ürəklərinin üstündə qalmışdı ki, Vahid böyürdən çıxdı. O, bunları təsadüfən görüb tez yanlarına qaçmışdı. Bilmişdi ki, onu axtarırlar. Gördülər əyninin şineli yoxdur.

– Ədə, səni kim soyundurub? – Hərəsi bir yandan soruşdu.

Bu da düzünü demək istəmədi. Qorxdu əllərinin hər yerdən üzüldüyünü, heç yerdən imdad olmadığını görüb dilxor olalar. Bir parça uşaq ola-ola Vahid bütün ailənin dərdini çəkirdi. Özü heç yadına düşmürdü. Necə çətinlik, dərd-azar olsa, birtəhər çəkir, hər ağrıya qatlaşırdı. Bunları nəzərə alıb əsl həqiqəti dilinə dolamaq istəməsə də, bə nə desin? Özündən yalan nə uydursun? Desin məni soyundurub əlimdən alıblar? Deməzdilərmi niyə verirdin? Günün günorta çağı nədən qorxurdun? Yox. Bu onun adına, şəninə xələl gətirərdi. Anasından, nənəsindən hansısa dilindən qaçırtsa, bütün kəndə yayılardı. Yoldaşları ona rişxənd edərdilər. Onda desin satdım. Bəs deməzlərmi pulu hanı? Çıxart görək neçəyə vermisən? Onda nə desin? Öz-özlüyündə o yana çəkdi, bu yana çəkdi, bir şey çıxmadı, axırı rayon mərkəzindən çıxıb kəndlərinə yola düzələndə məcbur olub düzünü dedi:

– Şineli yiyəsinə verdim.

Nənəsi tez təəccüblə dilləndi:

– Niyə, ədə?

– Nə bilim?! Ağlım belə kəsdi, – Vahid dəlisov-dəlisov əlini yellədi. Bu barədə danışmaq istəmədiyi üçün susdu, gedə-gedə dabanı əyilmiş köhnə ayaqqabısının burnu ilə yoldakı daşlardan birini necə vurdusa, dığırlana-dığırlana xeyli getdi və yoldan kənara düşdü. Şineli qaytarmağın yaxşı əlamət olmadığını başa düşdüyündən anası isə dillənib ağ, qara bir kəlmə demirdi. Dilxorçuluğundanmı, darıxdığındanmı, şinel barəsində iş-işdən keçdiyini birdəfəlik bunlara başa salmaq, bir də o haqda danışmaq lazım gəlmədiyini bildirmək istədiyindənmi yenə dedi:

– Getmişdim yanına. Dedim: – Nə oldu atamın işi? O da dedi ki, adamlar məşğul olurlar. Mən də acıq elədim. Çıxardıb əynimdən şineli üstünə tulladım ki, sənin kimi adamın şineli mənə lazım döy.

– Booy, ədə, nə iş tutmusan?! – Nənəsi heyrətdən üzünü cırdı. Bununla da nəvəsinin hərəkətini bəyənmədiyini, qanacaqsızlıq etdiyini bildirdi. Vahiddən anası da narazı qalmışdı. Heç yaxşı eləməyib. Bunlar öz dərdlərini, azarlarını buraxıb onun qeydinə qalırdılar. Belə ki kişiyə pis təsir eləyər, əsəbiləşər. Bu, həm də ona görə idi ki, onlar fikirlərində, xəyallarında onu həmişə yaxşı adam

hesab etmişdilər. Onu təmiz, xeyirxah adam bilmişdilər. İndi birdən-birə onlar ürəklərində, qəlblərində yaranmış bu qənaəti, fikri uçurmaq, dağıtmaq istəmirdilər. Ancaq neynəsinlər ki, Vahid kəmhövsələlik eləmişdi.

* * *

Bu, katibə, həqiqətən, çox pis təsir eləmişdi. Elə bil şineli onun başına vurmuşdular. Elə bil üzünə çırpmışdılar. Pərt olsa da, amma bu cavan oğlanın hərəkəti xoşuna gəlmişdi. Belə ki onun yanına çox adam gəlirdi. Çoxu da kirimiş gedirdilər. Öz səsləri, öz sözləri olmurdu. Nə deyirdin, baş üstə deyirdilər. Nə hava çalırdın, o havaya da oynayırdılar. Amma bu oğlan etirazını bildirə bilmişdi. Bu oğlan ondan narazı qaldığını büruzə vermişdi. Bütün günü bu fikirlərlə işləyib möhkəm yorulsa da, katib evə gələndə də bunu unutmamışdı. Qapıdan içəri girəndə gəlişindən sevinən uşaqlarının üzündəki xoş təbəssümü görüb şad olmaq əvəzinə bir az da dilxor oldu. Atalarını görəndə bütün uşaqlar sevinirlər. Elə etmək olmazmı ki, bütün atalar axşamlar evlərinə, balalarının yanına gəlsinlər?!

Elə yaşamaq, işləmək olmazmı ki, övlad, valideyn ayrılığı, intizarı olmasın?! Bu, uşaqların ürəyini üzməsin. O, artıq bir ilə yaxın idi ki, rayonda birinci katib işləyirdi. Hələ davaya getməmişdən qabaq da belə rəhbər işlərdə çalışmışdı. O zaman da, elə indinin özündə də işdə çox çətinliklərlə üzləşmiş, öz-özlüyündə götür-qoy edib ən nəhayət axırda hərəsinə bir çarə tapmışdı. Amma bu məsələnin qarşısında aciz qalmışdı. Elə-belə dalaşmaq işi olsa, asan idi. Yamanın yaman günündə ikisini də çağırıb barışdırardı. Bununla da məsələ həll olunub gedərdi. Məsələ burasında idi ki, bunu ayrı cür tərtib etmişdilər. İşə ayrı cür rəng vermişdilər. Sədrə deyib ki, mən bilsəydim camaata burda sənin kimi əclaf rəhbərlik edir heç vuruşmazdım. Guya, əks-təbliğat aparır. İşləri bu korlayırdı. İşi dağıtmaq, oğlanın atasını azad eləmək qərarına gələndə o gün Bakıdan zəng edən kişinin qəzəbli səsi o dəqiqə qulaqlarında səslənirdi. «Slepoy tı! Slepoy. Kuda tı smotriş ne znayu». Bax, o dibdən ehtiyat eləyirdi. Haqqında çox eşitmişdi. Xasiyyətini bilirdi. Adamları həmişə qorxu altında saxlamaqdan, ürək-göbəyini yemək dərəcəsinə gətirib çıxartmaqdan xoşu gəlirdi. Rayonlara çıxanda rəhbər işçilər gizlənməyə deşik axtarırdılar. O isə işini elə qurmuşdu ki, işini elə aparırdı ki, o cür pis vəziyyətə düşməsin. Üzünə söz gəlməsin. Hərəkətlərinin, sözünün-söhbətinin yerini bilirdi. Adamlarla xoş rəftar edirdi. Hər saatlıqla adamı danlamazdı, ağır söz deməzdi. Amma işini də tələb eləyən idi, verdiyi tapşırıq yerinə yetirilməsə, cavabdeh olan kəsin tənbehini eləyirdi, cəzasını verirdi. Adamlar da çalışırdılar ki, katibi pis vəziyyətə qoymasınlar. İstəməzdilər ki, iş axsasın. Bax, bu cür müştərək hörmət etmək, mehribançılıq, səmimiyyət və həm də tələbkarlıq şəraitində işləyib yaşayırdılar. Bu iş isə onun qanını çox bərk qaraltmışdı. Şineli heç evə gətirməmişdi.

İş yerində asılqandan asılmışdı.

Hər dəfə kabinetinə girib-çıxanda, paltosunu soyunanda, geyinəndə mütləq şineli görür və istər-istəməz o barədə düşünürdü. Bir neçə gün qabaq Vahid şi-nelini görəndə bunu yadına salar, indi isə bu, onu xatırlayırdı. İlk dəfə şineli əynindən çıxardıb ona verdiyini yadına salırdı. Təəssüf hissilə deyirdi ki, kaş elə o gün olaydı. Bütün bu qayğılardan azad olaydı. Şinel nədir ki, o, əynindən pencəyini, köynəyini, lap altında maykasını da çıxartmağa hazır idi, illaha belə bir çətinlik qarşısında qalmayaydı. Əlində gül təki sənəti var idi. Müəllim idi. Gedib dərsini deyib evinə gələcəkdi. Onun fikrincə, dünyada bundan gözəl iş, peşə yox idi. Müharibədən xeyli qabaq hələ otuzuncu illərdə müəllim işlə-mişdi. O günlərin, o işin qədrini, qiymətini bilirdi. Vəzifə böyüdükcə, yuxarıla-ra qalxdıqca aşağılar ona daha şirin, daha ürəyəyatımlı görünürdü. Baxmayaraq ki, o onda böyük bir rayonun sahibi idi. Rayon miqyasında ondan böyük adam yox idi. Hamı onun ağzına baxırdı. Ona allah təki baxırdılar.

Daha ürəyini açıb deyə bilmirdi ki, əşi, heç də siz deyən, siz düşünən kimi deyil. Elə şeylər var ki, gücüm çatmır, mənim qüvvəm xaricindədir. Məndən də haqq-hesab soruşurlar. Mənim özümə də nəzarət eləyirlər. Bəzən düz olan işi elə əyirlər ki, mən düzəldə bilmirəm. İstəyirsən öl, it, çatla, dağıl, xeyri yox-dur. İndi bütün ümidini ona bağlayan, ondan imdad gözləyib yanına gələn o uşağa kömək edə bilməyib ürəyini yeyirdi. Evdə də, işdə də yadından çıxmırdı. Səhər-səhər yuxudan oyananda da birinci o məsələ yadına düşürdü. Qalırdı nə etsin?

Axırı bir gün dözə bilmədi. Dedi: nə olur, olsun. Oğlanın gətirib üstə tulla-dığı şineli də götürüb, maşına minib dedi filan kəndə sür. Hava da yaman soyuq idi. Artıq dekabr gəlmişdi. Aşağılara hələ yağmamış olsa da, yaxınların sazağı aşağıları da tuturdu. Ora-burası kələ-kötürləyib çala-çuxur əmələ gətirmiş yolla maşın irəlilədikcə soyuq külək kabinkanın yırtıq-deşiyindən güllə təki içəri keçir, fikirdən büzüşmüş katibi üşüdüb bir az da çox yığışdırırdı. Bax, belə bir gündə Qızıldaşa gedirdi, nəyə gedirdi, özü də bilmirdi. Bu kəndə qabaqlar da getmişdi. Təsərrüfata baxmış, əkin-biçinə nəzər yetirmiş, fermanı yoxlamışdı. Belə səfərləri tez-tez olardı. Bir ayağı kəndlərdə idi. Camaatın dolanması ilə də maraqlanırdı. Tamam imkanı olmayan ailələrə kömək edirdi. Bəzən də yal-nız təsərrüfatla maraqlanardı. Fikirləşərdi ki, adamlardan nə xəbər alsın?! Bil-mirmi ki, vəziyyətləri necədir?! Gəlişi də təsərrüfatla əlaqədar olduğu üçün, əsasən, kolxoz sədrilə görüşərdi. Ümumi vəziyyəti belə eləyin, filan şeyi elə eləyin. Heyvanı ac qoymayın, işinizi vaxtında görün. Bir-iki dəfə də Xındının evində çörək yemişdi. Onda da haradansa gəlirdi. Möhkəm də yorulmuşdu. İşlə əlaqədar bir az da burada ləngiyəndə acından lap ürəyi çəkilmişdi. Məcbur olub sədrin dəvətini qəbul etmişdi.

Bu dəfə isə onu görmək fikrində deyildi. Başqa məqsədlə gedirdi. Kəndin girəcəyində Omar kişinin evinin yerini xəbər alıb maşını qapılarına sürdürdü. O vaxtlar belə minik maşını çox az idi. Yalnız rayonun birinci katibində idi. O da balaca maşın idi. Amma o zamanlar bu maşın adamların gözündə elə böyük şey idi ki, görüb eliyəndə mütləq bilirdin ki, içərisində olan böyük adamdır. Vahidgil də pəncərədən həyətlərinə gələn maşını görüb bərk əl-ayağa düşdülər. Qorxdular ki, xeyir olsun, görəsən, nəyə gəlib. Quruyub qalmışdılar. Eşiyə, kişinin qabağına çıxa bilmirdilər. Həm də belə qonaq qarşılamağa öyrəşməmişdilər. Odur ki eşiyə də çıxan olmadı. Aradan azca keçmiş qapı arxadan ehmalca döyüldü. Adətən, kənd yerində qapını taqqıldatmazdılar. Çox halda gələn şırp açıb içəri girərdi. Qapını arxasınca örtəndən sonra ya «xoş gördük» – deyər, ya da salam verərdi. Sonra da bir yerdə oturardı. Qapı döymək-zad yox idi. Bilmirdilər səslərini çıxarıb nə desinlər. Necə söz desinlər ki, bu gələn yüksək qonağa layiq söz olsun. Kobud çıxmasın, onu mədəni qarşılaya bilsinlər. Ailələri haqqında pis fikir yaratmasınlar. Ana, oğul, qızlar, nənə fikirlərində o yana-bu yana nə qədər çəkdilərsə, bir şey çıxmadı. Dilləri qıfıllanmışdı. Qabağa yenə nənə düşdü. Dünya görmüş arvad idi. Qonaq-qara yola salmışdı. İsti-soyuq görmüşdü. Hələ 37-ci ildə ərinin günahsız olduğunu sübut etmək üçün çox idarələrin qapısını açmışdısa da, özünü sındırmamışdı. Hər yerdə özünü kişi kimi aparmışdı. İndi də evin ağbirçəyi kimi gələn olduğunu görüb ayağa durdu və səsini bir azcana ucadan çıxardıb:

– Hə-ə, dərdin alım, gəliynən, – deyib qapının ağzına sarı getdi.

Katib içəri girəndə bunlar hamısı ayaq üstə idi. Belə qarşılanmalara adət etmişdi. Hələ bu nə idi?! Papağının qulağı belə görünəndə adamlar özlərini yığışdırardılar. İclasda, yığıncaqda bir bölük adam ayağa dururdu. Amma bunların ayağa qalxmasını istəmədi. Bunların qarşısında özünü pis hiss elədi. Düşündü ki, bu hörmətə, bu cür ləyaqətlə qarşılanmağa layiq deyildir. Axı o, bu ailə üçün, bu ağbirçək qoca qadın üçün, bu gəlin üçün, başqaları üçün nə etmişdi ki, hələ bir onun üçün ayağa da qalxsınlar. Hələ bir ona baş əysinlər. Bəlkə, elə ayağının altına döşənələr. Xəcalətindən katib bilmədi nə etsin. Ağır sarsıntılar keçirib özünü itirsə də, yenə vəziyyətdən çıxmağa çalışdı.

– Xoş gördük, ay ana! – Əlini evin ağbirçəyinə uzatdı.

Arvadın eyni açıldı. Ürəkləndi. O da onun uzanmış əlinə heç fikir verməyib. «Xoş vaxtın olsun, ay oğul», – deyə iki əlli kişinin yanaqları qarışıq tutub o üzündən, bu üzündən öpdü.

Gəlin oturmaq üçün stul çəkmişdi. Qızlar arxalarını yükə söykəyib dayanmışdılar. Vahid isə qapıya yaxın pəncərə ağzında idi. Məəttəl qalmışdı ki, bu kişi onlara nə əcəb gəlib? Belə şey heç görməmişdi ki, raykom katibi kiminsə evinə gələ. Maşını adi kolxozçunun qapısına sürdürə. Katib də qalmışdı belə.

Adicə bir kolxozçu evinə gəlmiş olsa da, bilmirdi necə oturub dursun. Hələ nə deyəcəyini də bilmirdi. Bundan qabaq əyləşməyi qərara aldı. Görünür, tələsmirdi. Bunlarla bir az söhbət etmək fikrində idi. Həqiqətən, əyləşib ümumi halda dedi:

– Necəsiniz?

– Sağ olun, ömrünüz uzun olsun. – Evin ağbirçəyi yenə qabağa düşdü. Ürəyi çırpınırdı. Bilmirdi dərdini necə açsın, oğlu barəsində xahişini necə desin.

– Dolanmanız nə təhərdir? Bəlkə, bir şeyə ehtiyacınız var? – bu sözü dedisə də ürəyində bir az da peşman oldu. Əslində, çaşıb demişdi. Belə sözlər demək lazım deyildi. Çünki camaatın dolanışığının necə olduğunu özü də yaxşı bilirdi. Bilirdi ki, adamlar gor əzabı çəkirlər. Bir tapanda, bir də tapmırlar. Əyin-başları tökülüb. İndi qayıdıb desələr ki, bax, bu kökdəyik, nə deyə biləcəkdi?! Heç nə. Ona görə tez məsələdən yayınmağa çalışdı. Vahidə baxıb köhnə dost kimi ərklə dedi:

– Səndən küsmüşəm, qaqaş. – Onsuz da bu məsələni hamı bilirdi. Gizlətməyin mənası yox idi.

Vahid bir söz demədi, utanıb başını aşağı saldı. Səhv, doğru kişinin şinelini qaytarmışdı. Bəlkə də, düzgün iş görməmişdi. Bəlkə də, onun bu hərəkəti bəxşişini başına vurmaq kimi bir şey idi. Ancaq Vahid başqa cür bacarmamışdı. Atasının başına açılan bu oyundan elə sarsılmışdı ki, gücü buna çatmış, bunu eləmişdi. Hər halda, etirazını bildirə bilmişdi. Katibin isə bundan pis olub onun ardınca kəndə, onlara gələcəyini ağlına gətirməmişdi. Buna bir tərəfdən ürəyində sevinir, o biri tərəfdən isə utanırdı. Sevinirdi ona görə ki, belə adamları hər saatlıqla görmək olmur. İndi allah bəndəsi özü gəlib çıxmışdı. Hər halda, atası barəsində söhbət olacaqdı. Nənəsi, anası bu barədə bir söz deməmiş olmayacaqdılar. Həqiqətən, nənəsi gördü nəvəsi susur:

– Dərdin alım, ay iraykom, sənə gələn mənə gəlsin, – dedi – bu fağırca uşaq neynəsin? Hiylə qurub atasını tutdurdular. Görürəm birtəhər olub. Atasının fikrini eləyir. – Arvad başladı ağlamağa. Gözünün yaşını on yerindən tökürdü. – Davadan gəldi, allaha şükür elədik. Sonra da belə... – Arvad göz yaşları içərisində əllərini açıb evi-eşiyi, ailə üzvlərini göstərdi, – bəs atasız bunların halı-günü necə olacaq? Mən öləndə kim basdıracaq?

– Yaxşı. Ağlama, ana, – katib ayağa durdu. Hiss olunurdu ki, o da pis olub. Başa düşən adamdır. Yerə baxırdı, xüsusilə uşaqların üzünə baxa bilmirdi.

– Bəs necə ağlamayım, a dərdin alem? – Arvad daha da kövrəldi. Elə oldu ki, dili-dodağı əsdi. Bütün bədəni titrədi. Deyirdin bu saat silkələnib-silkələnib sınacaq, hissə-hissə olub ora-bura diyirlənəcək. Doğrudan da, bu qoca vaxtında ona zülm etmişdilər. O vaxtlar, yeddi-səkkiz il bundan qabaq ərini tutanda heç olmasa bir azca cavan idi. Ürəyinin yağı hələ əriməmişdi. Ona çox çətin olsa da, tablamışdı. Ürəyinin başına daş bağlayıb dözmüşdü. İndi isə dözə bilmirdi.

Gecə-gündüz fikir eləməkdən şam təki əriyib gedirdi. Onsuz da qaraltısı qalmışdı. Bu məsələ isə onun belini qırmışdı.

Bunların hamısını katib başa düşür və ürəkdən onlara acıyırdı. Kənardan baxan olsa, bu müsibətli ailə üzvlərinin arasında çaşbaş qalmış bir adama yazığı gələrdi. Onların yanında özünü elə tutmuşdu ki, deyirdin ailənin bədbəxtliyinə bais odur. Hamısı onun günahıdır. Onun işidir. O, bu ara fikirləşdi, nə qərara gəldisə:

– Yaxşı, darıxmayın, – dedi və üzünü Vahidə tutdu: – Şinel maşındadır. Get gətir, götürməsən inciyərəm.

Katibin sözündən Vahid birdən-birə elə ruhlanmış, elə sevincək olmuşdu ki, gözləri işıldayırdı. Elə bil bayaqdan nefti qurtarmış çıraq idi, öləzəyib sönürdü. İndi nefti necə carladılarsa, canına hopub tezcə işığa gəldi, tezcə şənləndi. Həyəcandan da sinəsi qabarıb qalxırdı. Ürəyi az qalırdı köksünü yarıb eşiyə çıxsın. Bu kişiyə tam inanırdı. İnanırdı ki, belə adamın sözünün altı-üstü olmaz. Demək əlindən gələni eləyəcək. Çalışacaq ki, bunlar üçün yaxşı olsun. Ona görə bu da onun hər bir əmrini, göstərişini, dediyini yerinə yetirməyə hazır idi. Onun üçün belinə daş daşıyardı. Çiynində gərən aparardı. Nə iş desə, nə tapşırığı olsa görərdi. Amma indi qaçıb şineli götürməyə nəsə ürək eləmirdi. Fikirləşirdi ki, buna necə baxarlar. Deməzdilərmi ki, bu necə adamdır, orda geri qaytarır, burda geri götürür. Bax, belə tərəddüd içində qalmışdı ki, nənəsi dedi:

– Ədə, get şinelini götür, a bala.

Vahid də elə bu cür balaca himə bənd idi. Çünki özü də bunu istəyirdi. Ancaq şinelə görə yox, onu heç geyməsə də olardı. Atası yanında olandan sonra şinel onun nəyinə gərək idi. Sadəcə olaraq bu xeyirxah, alicənab kişinin sözündən çıxmaq istəmirdi. Bu söhbətdən sonra aranı düzəltmək üçün bir bəhanə də bəs idi. Nənəsi belə deyəndən sonra götürüldü. Qapıdan güllə təki necə çıxdısa, bir də gördü eyvandan düz maşının yanına tullanıb. Sən demə sürücü də elə bunu gözləyirmiş. Yəqin, kişi özü tapşırıbmış ki, uşağı göndərəcəm, verərsən. Oğlan əlini uzadanda sürücü şineli səliqə ilə bükülmüş vəziyyətdə onun qollarının üstə qoydu. Elə bil sınan şey idi, qorxurdular düşə eliyə. Bu da heç açmadı, şineli eləcə gətirib gələndə, katib artıq qapının ağzına sarı gəlib getmək istəyirdi.

– Dərdin ürəyimə. Ayağının altında ölüm, qal qonağımız ol, allah verəndən bişirrik. – Vahidin nənəsi nə qədər yoncudusa, katib razılaşmadı, təşəkkürünü bildirib əlini qaçaraq qapının cəftəsinə yetirdi.

Eşiyə çıxanda Xındı kişi qapıdan bir az aralı həyətin qırağında dayanmışdı. Birinci katibin bura gəldiyini görmüş və başı alovlu ardınca qaçmışdı. Ancaq yanına gəlməyə ürək eləməmişdi. Ondan çox, Vahidin nənəsindən ehtiyat eləmişdi. Bir də gördün el içində onu rüsvay elədi. Abrını ətəyinə bükdü. Özgə vaxtlar belə şeyləri bu kişi eyninə almazdı. Amma katibin yanında ona ağır-

artıq söz deyilməsini istəmirdi. Ona ölümdən betər olardı. Çünki iç üzü açılardı. Katib deyərdi ki, demək sən belə adammışsan. Hələ belə deməyi cəhənnəmə, bir də gördün büroya qoyub çıxardıb atdı. Ondan sonra bunun halı-günü nə olardı?! Ondan sonra hamı onu şəbədəyə qoyub gülərdi. Xətri-hörməti olmazdı. Bu da başını qaldırıb kənddə dözə bilməzdi. Qərəz ki, sədr ürəyinin içini yeyirdi ki, bu vəziyyətdən üzü sulu çıxsın. Həm bunlar sarıdan dava-qalmaqalsız olsun, həm də katiblə münasibətini saxlaya bilsin. Odur ki katib Vahidgildən çıxıb maşınına sarı gələndə bu da onun qabağına getdi. Hazırlaşmışdı ki, «xoş gəlmisiz» – desin. Ancaq katib buna imkan vermədi. O buna çatanadək bu əlini atıb kabinkanın qapısını açdı və oturub, sürücüyə «getdik» – dedi.

* * *

Maşın yerindən tərpənəndə Xındı kişi ayaq üstəcə ölmüşdü. Beş gün keçmədi ki, Omar kişini buraxdılar. Bir axşam üstü qapını açıb içəri girəndə bütün ailənin üzünə qışın qış günü elə bil gün doğdu. Bir şənlik, bir toy-bayram oldu ki, gəl görəsən. Qızları kişini yalam-yalam yalayırdılar. Boynundan necə sarmaşmışdılarsa, buraxmaq istəmirdilər. Davadan, odun-alovun içərisindən gələndə, bəlkə də, belə eləməmişdilər. Bu da mənasız deyildi. Dava-dava idi. Ora hamı gedirdi. Vətəni düşməndən qorumağa gedirdi. Bu, böyük şan-şərəf sayılırdı. Hamı «əsgər ailəsiyəm» – deyə fəxr edirdi. Amma həbsxananın adı pis idi. Ora düşənlərin ailəsinə pis baxırdılar. Uşaqlar gözükölgəli böyüyürdülər. İndi uşaqlar ona görə hədsiz dərəcədə sevinirdilər ki, belə bir sıxıntıdan, dərddən qurtarıblar. Onlar təmiz adlarının şənliyini edirdilər. Çətinliklə olsa da, haqq işinin, ədalətin qələbə çalmasına sevinirdilər. Daha bundan sonra onların yanında sədrin dili olmayacaq, köpü söndü. Doğrudan da, Xındı kişinin suru düşmüşdü. Deyirdilər katib çağırıb abrını alıb, ağzına gələni deyib. Camaata böhtan atmaqla məşğulsan deyib. Sənin özünü tutmaq lazımdır. Möhkəmcə qorxudub. O da təzədən gedib şikayətini geri alıb, sözünü dəyişməli olub. İşin belə dəyişəcəyini heç gözləmirmiş. Birinci katibin işə qarışacağını, onlara havadar çıxacağını ağlına gətirmirmiş. Nə bilsin?! Rayon mərkəzindən atdanan bunun qapısında düşürdü. Bu da hər birini yedizdirib, içizdirib yola salırdı. Görüm, baxım eləyirdi. Sədr hardan biləydi ki, o boyda vəzifənin sahibi ağzı qatıqlı bir uşaqla oturub durar. Hələ bir ardına düşüb kəndə də gələr. Qoltuğuna alıb sovqat da gətirər. Belə düşündükcə sədr katibin «düşüklüyünə» təəccüb qalıb başını bulayır, «tfu, tfu» eləyib hirsini soyudurdu.

Kəndin camaatının gözündə isə o kişi daha da yüksəlmiş, ucalmışdı. İnsanlığına, ədalətpərəst olmasına vurulmuşdular. Ona allah kimi baxırdılar. Şinel əhvalatı kənddə təzədən şirin-şirin söylənməyə başlanmışdı. Əlbəttə, şinel özözlüyündə o qədər də böyük şey deyildi. At deyildi, dəvə deyildi. Adamlar bir-

birlərinə bundan da qiymətli şeylər bağışlayırlar. Ancaq məsələ onun qiymətində deyildi. Məsələ burasında idi ki, o, özünün üşüməyinə razı olmuşdu, amma tanımadığı bir tifilin soyuqdan əsməsinə qıymamışdı, Bu, at, dəvə bağışlamaqdan da böyük şey idi. Bu o demək idi ki, yeri gəlsə, bu kişi canından da keçərdi. Uşaqdan-böyüyə bütün camaat bunu başa düşür və qiymətləndirirdi. Atasının buraxılması münasibətilə hər dəfə onlara gözaydınlığına gələn olanda mütləq həmin adam barəsində söhbət düşür və hamı ona «sağ olsun, yaxşı adamdır» – deyirdi. Belə bir adamın rayonun böyüyü, rəhbəri olması xəbəri də hamını sevindirirdi ki, görün bizim birinci katibimiz necə gözəl insandır. Onunla, hətta uşaqlar da maraqlanırdılar. Soruşurdular ki, yanına necə getdin, necə gəldin? O sənə nə dedi? Sən ona nə dedin? Yanına gedəndə acığı tutmadı ki?..

– Yox. Tutmadı. – Vahid düzünü deyir, amma uşaqlar bəzən inanmırdılar. İnanmırdılar ki bu hara, o hara? Ancaq onun maşınla bunların qapısına gəldiyini çoxları görmüşdü. Daha buna nə deyirsən?!

Vahid isə əsasən Qərənfillə maraqlanırdı. O nə deyir? Bunun barəsində onun fikri nədir? Qərənfilsə özünü elə tutmuşdu ki, guya, bütün bu işlərin ona dəxli yoxdur. Bir dəfə qız həyətlərində odun yarırdı. Amma yara bilmirdi. Çox çətinlik çəkirdi, baltanı elə qaldırır, elə salırdı ki, deyirdin indicə ayağına vuracaq. Vahid gedib baltanı qızın əlindən aldı. Zarafatla:

– Yara bilmirsən, heç olmasa bizi çağır, – dedi.

Qız da söz altda qalmadı:

– Sən böyük adamlarla oturub-durursan. Bizim kimiləri saya salırsanmı?!

Oğlan qıyqacı ona baxdı ki, niyə elə insafsız danışırsan?! Yenə də başını sallayıb odun yarmağa başladı. Özü də hiss edirdi ki, utanıb sıxılır, heç nədən həyəcan keçirir. Qəribə idi. Cavan uşaq ola-ola gedib rayon partiya komitəsinə çıxmışdı, birinci katibin yanında olmuşdu, atasının tutulduğunu demişdi, özbaşınalığa, haqsızlığa qarşı etirazını bildirmişdi. Hətta ona acıq edib şinelini üstünə tullaya bilmişdi, amma burda qızla iki kəlmə kəsə bilmirdi. Dili təpik-tüpük çalırdı. Boğazı quruyurdu. Özündən asılı deyildi. Elə bilirdi ki, bütün kənd tamaşalarına durub. Hamı qulaq asır ki, görsünlər bunları nə danışırlar? Halbuki heç nə danışmırdılar. Vahid qızdan ayrılandan sonra peşman olurdu ki, niyə elə demədim, niyə belə demədim. Elə-belə vaxtı deməyə o qədər söz tapırdı ki, axşamadək üyütsə də tükənmirdi. Yanına gələndə isə hamısı yadından çıxırdı. Çıxmayanı da deyə bilmirdi. Bunun eybi yox idi. Qərənfil, hər halda, başa düşürdü ki, Vahidin ondan xoşu gəlir. Qızın da ondan xoşu gəlirdi. Xüsusilə bu haqq-hesabdan sonra. Hamı deyirdi ki, əgər Vahid olmasaydı, atası getmişdi. Necə olmuşdusa atası ona demişdi:

– Sən məni xilas etdin, oğlum, amma mən o vaxtı yazıq atama kömək eləyə bilmədim.

Ata bunu elə bir dərin təəssüf hissilə demişdi ki, oğlu da pis olmuşdu. Ona yazığı gəlmişdi. Kişi o günlərin fikrini eləyirdi. Hər kəsin atası özünə şirindir. Bunun da yadına düşmüşdü. Ürəyinin başı göynəyirdi. Vahid babasının tarixini yaxşı bilirdi. Uşaq olsa da onun başına gələn qəziyyələri dönə-dönə eşidib pis olmuşdu. Kişini, demək olar ki, heç nədən tutmuşdular.

– Ay başınıza dönüm, ay qadanız alım, mən hara, o dediyiniz kişinin adı nədir? Hə. Trotski, o hara. Çörək kəsməmişəm, söhbət eləməmişəm. Eləcə demişəm ki, o, nə deyir? Bəlkə, elə ağılabatan bir sözü var. Aha. Buncuğaz.

Bax, belə boş-boş şeylərin üstündə olmuşdu. Kişini tutub basmışdılar dama. Geri yanındakılar da o yana, bu yana nə qədər qaçmışdılar bir şey çıxmamışdı. Əlləri hər yerdən çıxmışdı. Bir imdad verən olmamışdı. Buna görə aradan neçə illər keçməsinə baxmayaraq, atasının məşəqqətli taleyinə indi də yanıb tökülürdü.

Vahid atasının indiki halını, vəziyyətinin ağırlığını başa düşürdü. Bu, onun yerinə olsa, bağrı partdayardı. Ancaq atasının buna bir növ təşəkkür etməsi, oğluna bir xilaskar kimi baxması nahaq yerə idi. Onluq elə bir iş yoxdur. Burada əsas rol rayonun böyüyündədir. Təsadüf elə gətirib ki, qabaqlarına bu cür yaxşı adam çıxıb. Nə eləyib, o eləyib. Ancaq bu fikri atasına deməkdə, izah etməkdə çətinlik çəkmişdi. Onadək ata özü dilləndi:

– Sağ olsun Nuru Qüdrətov yoldaş, – demişdi, – bizə köməyi dəydi. Yaman yaxşı adam imiş.

Vahidin də ağlından o kişi keçirdi. Çox razı qalmışdı ki, atası belə idi. Bu da onun sözünə əlavə etmişdi:

– Ata, görünür, sizin dövrdə yaxşı adamlar olmayıb?

Ata oğlunun sözlərini ağlına vurub razılaşmamışdı:

– Yoox, elə döy, – demişdi, – yaxşı adam həmişə olur. Rast gəlməknəndir. Görünür, qismət belə imiş.

Vahid atasını başa düşürdü. Yəni taleyi belə gətirib. Olacağa çarə yoxdur. Yəni bu qismətin qabağında insan acizdir. Olacaq hər hansı bir işi dəyişib başqa cür, özün istədiyin kimi eləmək mümkün deyil. Ancaq bir şeyi başa düşə bilməmişdi ki, adamlar qismətin hökmü ilə niyə tezcə razılaşırlar? Niyə ona tezcə boyun əyirlər? Niyə ona qarşı çıxmırlar? Bu fikirlərdən Vahid təsirlənib, ruhlanıb elə istəmişdi ki, bu işə də nəsə bir əl yetirsin, mövcud vəziyyəti dəyişsin. Gör onda necə olardı?! Bütün ailə sevinərdi, üzü gülərdi. Heç kəsin bir dərdisəri qalmazdı. Ancaq... Vahid başa düşürdü ki, bu, mümkün deyil. Babasını pis adnan tutublar. Xalq düşməni hesab eləyiblər. Özü də əlli-ayaqlı elə itiriblər ki, heç səsi-sorağı da yoxdur. İndi atasının bu qovğadan qurtarması isə onlar üçün möcüzə idi. Bunun xoşbəxtliyi onun bədbəxtliyini tamam unutdurmuşdu.

Bu ailənin beləcə sevindiyi, şadlandığı günlərdə eşitdilər ki, Nuru Qüdrətovu işdən götürüblər. Omar kişinin ailəsi bundan elə pis oldu ki, elə bil bunların

özlərinə qarşı nəsə ədalətsiz bir iş görmüşdülər. Haqsızlıq etmişdilər. Yanıb tökülürdülər. Heyifsilənirdilər. O cür yaxşı adamı, əlbəttə, unutmaq, ona qarşı laqeyd qalmaq mümkün deyildi. Adamın gözündən gələrdi. Omar kişinin ailəsi əmək itirən deyil. Uşağı da, böyüyü də. Qüdrətovun elədiklərini, ədalətli olduğunu unutmurdu. Yalnız onu başa düşmürdülər, işləyən adam lazım deyilmi? Nə günahın sahibidir ki, işdən götürüblər? Nə qədər baş sındırırdılarsa, bir şey anlaya bilmirdilər. Özgə nə edəsi idilər. Hökumətlə hökumətlik eləmək olmazdı. Görünür burda nəsə var. Ancaq onlara bir şey daha çox təsir edirdi. Belə ki sədr Xındı o kişinin ardınca yaman alıb-verirdi. Deyirdi ki, iş bacaran adam deyildi. Mən bilirdim ki, çox getməz, onu atarlar bayıra. Odur eyy, çala-çala getdi. Eləsinə hələ o da azdı. Hələ onu gərək tutub basaydılar. Siyasi sayıqlığını itirmiş adam idi. Sədr belə dedikcə Omar kişinin ailəsi dəli olurdu. Onları təəəcübləndirən, heyrətləndirən bu idi ki, dünənədək bu adam ona yaltaqlanırdı, qabağında əyilib bükülürdü. Adicə onunla telefonla danışanda ayaq üstə qalxırdı. «Bəli»-«baş üstə»dən başqa söz bilmirdi. Dəstəyi yerinə qoyandan sonra isə başlayırdı katibi təriflməyə. İş bilən adamdır, insanlığına da söz ola bilməz. İndi dəfin o biri üzünü döyürdü. Sədr o dəqiqə çevrilmişdi. Onun bu cür etibarsızlığını, ikiüzlülüyünü görəndə adamın ayağının altından yer qaçırdı. Bu, bəlkə də, hamıdan çox Vahidə təsir edirdi. Dişi bağırsağını kəsirdi. Bilmirdi necə etsin ki, bu kişi ağzını mumlasın, artıq söz deməsin. Xətrinə dəyir.

Neçə dəfə qəsdənmişdi ki, onu yalamalayıb öldürsün. Əlində daş çəpərlərin dibində qalmışdı. Atmağa ehtiyat edirdi. Düz nişan ala bilməsə, başqasına dəyərdi. Çoxu da qoca-qoltaq arvad-uşaq idi. Bir kasıbın, əlsiz-ayaqsızın başını, gözünü yarar, təqsiri olmayana heç nədən xətər yetirərdi. Bəs necə etsin? Bəlkə, gedib evini daşdasın, pəncərələrinin şüşəsini qırıq-qırıq eləsin. Yaxud gizlincə atını tövlədən açıb buraxsın, çöldə qoysun ki, bəlkə, qurda-quşa rast oldu. Vahid fikirləşdikcə ağlına çox şey gəlirdi. Amma eləmirdi. Çünki xoşuna gəlmirdi. Eşşəyə gücü çatmadığından palanı tapdalamaq fikri yox idi. Onun özünə bir xətər yetirmək istəyirdi. Qoy ağrısın. Qoy incisin. Qoy göynəsin, sızıldasın. Vahid qəddar, əzazil oğlan deyildi. Ancaq sədrin alaxeylığı, dalcan danışması ona necə pis təsir etmişdisə, heç cür bağışlaya bilmirdi. Ona mütləq bir şey eləməli idi. Elə köhnədən bunların arası yox idi. Qamçının ucunu ayağına dolayaraq qəfildən dartıb sədri yıxması indi də hamının yadında idi. O vaxt da sədrin qılıncının dalı-qabağı kəsirdi. Hamı ondan asılı vəziyyətdə idi. Adamı ac da qoya bilərdi, susuz da. Amma Vahid heç nəyi nəzərə almamış, camaatın içində onu biabır etmişdi. Bu da çoxlarının ürəyindən olmuşdu. «Haqq eləyir» – demişdilər. Yeri düşəndə Vahid qonum-qonşunun da təsifini çəkirdi. Halbuki Vahid bu yaxınlaradək tək idi, atası davadan hələ gəlməmişdi. İndi isə atası yanında idi, gərək bir az da ürəkli olaydı.

Əksinə, ehtiyat edirdi. Görünür, atasının heç nədən tutulması gözünü qorxutmuşdu. Hələ də özünə gələ bilmirdi. Həm də sədrlə müqayisədə bu çox balaca idi. Onunla haqq-hesab çəkməyə gələndə, bunun qüvvəsi az idi. O, sədr idi. Kəndin böyüyü idi. Hamı qorxurdu. Ona dolaşan, təkərinin qabağına daş dığırlayan hələ anasından olmamışdı. Bəs nə etsin? Bu dərd onu öldürürdü. Xındı kişini görəndə dəli olur, gözünün ikisi də ağrıyırdı. Bir dəli şeytan deyirdi ki, o, erkək atı minib loqqaloq kəndin arasında təşəxor-təşəxor hərlənəndə geyməsini başına çəkib ağ-tuman köynəklə yolun içinə tullansın. Atı sərpilər, gurumbultu ilə yerə gələrdi. Yoxsa bu zalımoğlu yetənə yetir, yetməyənə də bir daş atırdı. Hamının ardınca alıb verirdi. Adamların üzünə qarşı söyür, asıb-kəsəcəyilə, vurub-tutacağı ilə hədələyirdi. Bir sözlə, adamları bihörmət eləyirdi. Rayon işçiləri də bilirdilər. Amma bir söz demirdilər. Gözüyün üstündə qaşın var deyən yox idi. Hər yerdə onun sözü keçirdi.

Uşaq olsa da, bunları görür və heç cür bunu qəbul eliyə bilmirdi. Xüsusilə Nuru Qüdrətovun dalınca danışması, elə bir yaxşı adama layiq olmayan sözlər deməsi Vahidi çox incidirdi. Özündən asılı olmayaraq, tez-tez onun evinə, idarəsinə tərəf hərlənirdi. Baxsın, görsün nə edə bilər? Ondan necə intiqam alar? Bu qədər kinli olduğunu heç özü də bilməzdi. Xındı kişiyə necə nifrət edirdisə, gözünün qabağında onu asıb-kəssələr də, güllələsələr də uf deməzdi.

Axırı bir dəfə kolxoz idarəsinə tərəf gələndə gördü meydanda heç kəs yoxdur. İçəri idarəyə girib-çıxan da gözə dəymirdi. Divar uzunu gedib yaxınlaşanda gizlincə baxıb gördü ki, Xındı kişi otağında təkdir. Telefonla kimləsə danışır. Özü də, deyəsən, yaxşı eşidilmirdi, səsini arabir lap bərkdən çıxardırdı. Tez-tez də «Can! Qadan alım!» – deyirdi. Görünür, kimdisə onu çox istədiyini, ondan ötrü lap ölüb-itdiyini bildirmək, ona yaxınlığını nümayiş etdirmək istəyirdi. Yəqin, prokurorla, məhkəmə işçisilə danışırdı. Başqa vəzifəli şəxslərdən də ola bilərdi. Onun balaca adamlarla işi yox idi. Vəzifələri böyük olan adamlarla oturub-dururdu.

Vahid o yana baxıb, bu yana baxıb, gördü ətrafda heç kəs yoxdur, yavaşaraq gedib eşik tərəfdən qapının rəzəsini keçirdi, deşiyinə də bir ağac saldı. Bunun özü də bir şey idi. O, camaatı incidirdi, bu da bunu bu cür incitsin. Vahid belə eləyib tez oradan qaçdı. Aralanıb bir çəpərin ardından saymazyana boylandı. Guya, heç bir şeydən xəbəri yoxdur. İndi gözləyirdi ki, görsün nə olacaq. Bir də istəyirdi ki, indilərdə idarəyə gələn olmasın. Onda ləzzət verməzdi. Qapını açıb girəcəkdi içəri. Əsas bu idi ki, sədr özü eşiyə çıxmaq istəsin. Görəcək qapı bağlıdı, dəli olacaq. Qışqıracaq, bağıracaq ki, bu qapını kim bağlayıb, tez olun açın. Həqiqətən də, elə oldu. Vahid çəpərin ardından gizlincə boylananda bir də gördü nə?.. Qapı şaq-şaq şaqqıldayır. Xındı kişi onu içəri tərəfdən necə dartır, necə silkələyirsə, qapı az qalır dabanından çıxsın, çərçivəsi köklü-kötəcli

qopsun, divarı uçsun. Gördü belə açılmır, başladı yumruğu ilə döyməyə. Həm də qışqırıb nəsə deyirdi. Bu ara yoldan bir qoca kişi keçirdi. O da xəstələnmişdi nədi, başını-gözünü elə sarımışdı ki, heç tanıya bilmədi kimdir. Bax, o, eşidib tez özünü yetirdi və qapını açdı.

Xındı kişi özünü eşiyə elə atdı ki, elə bil onu içəridə qoyub öldürmək istəyirdilər.

– Qapını kim bağlayıb? – Təqsiri olmaya-olmaya qoca kişinin üstə bağırdı. – Kor ha döysünüz, mən içəridəyəm!

– Ay canım-gözüm, mən nə bilim?! Mənim nə xəbərim var. Aşağı tövlədən gəlirəm, səsi eşidib bəri döndüm, – deyə yazıq kişi bu işdə onun heç bir təqsiri olmadığını bildirdi. Vahid onu səsindən tanıdı ki, kolxozun öküzlərinə baxan Mansur kişidir. Ona görə Vahid pis oldu ki, kişinin üzünü danlatdı. Amma sədrin bu hala düşməsi ona ləzzət vermişdi. Durduğu yerdəcə öz-özünə irişirdi.

– Di yaxşı. Buranın qarovulçusunu tap, deynən gəlib qapını bağlasın! – deyə sədr Mansur kişiyə əmr etdi.

O da neynəsin?! Qoca kişi idi, evinə gedirdi ki, ağzına bir şey alsın, bir az da dincəlsin. Sonra yəqin ki, yenə işə qayıdacaqdı. Məcbur olub sədrin tapşırığının ardınca getdi. Qarovulçunu tapıb gətirəndə şər artıq qarışmışdı. O da yaşlı adam idi. Buna baxmayaraq:

– Ə, sən də harda ölüb-itmisən?! – deyə sədr bunu da acıladı və bu barədə daha söz açmayıb evinə sarı getdi.

Vahid hiss eləmişdi ki, sədr qapı məsələsindən nəsə heç almır. Burda qəsd işi olduğunu başa düşüb, kürkünə birə dolub. Yəqin, gedib evdə də bu barədə fikirləşəcək. Buna kim belə sataşıb? Buna «daş»ı hardan atıblar? Bununla nə demək istəyirlər? Xındı kişinin düşdüyü vəziyyət Vahid üçün o qədər maraqlı oldu ki, o, gedəndə bu da gizlincə ardınca düşdü. Uşaq elə qəribə olmuşdu ki, elə bil qorxusu-hürküsü yox idi. Bilərlər, görərlər, onun üçün yaxşı olmaz. O barədə heç düşünmürdü. Xülasə, Xındı kişi həyətindən qapısını açıb içəri girəndə bu, yan tərəfdəki, pəncərənin ağzında idi. Yanakı dayandığından içərini görmürdü, amma evdəkilərin səsini eşidirdi. Arvadı da lampanı təzə yandırmışdı.

Bunların iti var idi. Amma semqının biri idi, qəti hürən deyildi. Qapıya-bacaya kim gəlir-gəlsin onun üçün fərqi yox idi, kimi gördü, quyruq bulayırdı. Elə deyil ki, ac olsun, yemək üçün belə eləsin. Xeyr. Xasiyyəti belə idi. Bu da bu cür heyvan idi. Bu cəhətdən də Vahidinki gətirmişdi. Yoxsa evə yaxınmı düşmək olardı?! Bir də eşitdi ki, Xındı dayana bilməyib qarnının azarını demək üçün dilləndi:

– Aaz. – Yəqin, arvadına müraciət edirdi.

– Nədi?

– Aaz, başıma, bilirsən nə iş gəlib?

– Xeyir olsun.

– Aaz, görünməmiş bir iş olub.

– Nə iş? Söylə, ürəyimizi çəkmə.

– Aaz, idarəmdə oturub işimi görürdüm, sonra öyə gəlmək istəyəndə gördüm qapı dalından bağlanıb.

– Booy. Kim eləmiş olar? – Arvad da bu işə məəttəl qaldığını bildirdi.

Şübhə yerləri olsa da, Xındı dilinə gətirmədi.

– Nə bilim?!

– Birdən qaçaq olar, – dedi və arvad duruxdu. Bu duruxmanın özündə çox ciddi, təhlükəli qorxu hissi var idi. Çünki Xındı kişi o qədər haqsız, ədalətsiz işlər görmüşdü ki, başının tükü sanı. O zamanlar da orda-burda qaçaq-quçaq vardı. Biri həbsxanadan qaçmışdı. Digəri başqa bir səbəbdən çöllərə düşmüşdü. Bəlkə, elə onlardan hansınasa bunun pisliyi keçmişdi. Yaxud qohum-əqrəbasına bir pisliyi keçmişdi. Xülasə, Xındı kişi soğan yeməmiş olsaydı, içi belə göynəməzdi. İndi arvadı qaçaq sözünü dilinə gətirəndə birtəhər oldu, əti ürpəşdi, elə bildi qaçaq elə buradaca eşikdəcədir.

Vahid də özünə görə deyildi. Əlini uzadıb bu yerdə pəncərənin şüşəsini şaqqıldatdı. İçəridə nə vəziyyətə düşdülər Vahid görə bilmədi. Amma onu gördü ki, lampanın piltəsini dərhal aşağı çəkdilər. Kolxoz iclasında, briqadirlərə müəyyən göstərişlər, tapşırıqlar verəndə camaatı çox zaman heç nədən danlayan, ağzı köpüklənə-köpüklənə danışan Xındı kişinin deynən səsi çıxdımı. Elə bil qurbağa gölünə daş atılmışdı.

Hələlik bu bəs idi. Vahid daha durardımı? Doqqazdan çıxıb qaçdı.

* * *

Kolxoz sədri Xındı kişini qorxudub, ağürəkləmə eləyib qayıdan Vahidə də elə gəldi ki, o, artıq çox böyüyüb, yekə kişi olub. Bu az vaxtda o, harda, necə böyümüşdü? Bu, olan işdimi? Adamın böyüməsi üçün, bəlkə də, illərin gəlib keçməsi heç lazım deyilmiş. İnsan, bəlkə, elə bərkə-boşa düşəndə də böyüyür. Uşaq ola-ola böyük olur. Bəlkə, o, rayon mərkəzinə aparılıb orada dıqqılı-dıqqılı uşaqlarla bir sıraya qoyulanda utandığından böyümüşdü. Bəlkə, o, dıqqılı-dıqqılı uşaqlarla quş balaları kimi ağız-ağıza verib şərqi oxuyanda böyümüşdü. Bəlkə, o, balaca-balaca uşaqlarla birgə qabaqlarına gətirib hazır yemək qoyulanda böyümüşdü. Az qalırdılar yeməkdən sonra ağzını da silsinlər. Bu da onun xoşuna gəlmirdi. Bəlkə də, düşərgədən qaçanda, yaxud dağda Vəli kişinin başını yarılmış görəndə, yaxud Xındı kişinin anasının qabağını kəsib, kişi ola-ola, qoyun-qoltuğunu əlilə yoxlamaq istədiyi xəbərini eşidəndə böyümüşdü. Həqiqətən də, Vahid özünü artıq böyüyüb yekə oğlan olduğunu hiss etdiyindəndir ki, özünü qalmaqallı işlərə salıb, başına cürbəcür qəziyyələr gəlirdi. Bu xoşagəlməz əhvalat da keçən yay düşərgədə olduğu vaxt olmuşdu. Həmin əhvalat

haradansa gəlib indi Xındı kişini, onun ailəsini qorxuzub qaça-qaça evlərinə getdiyi yerdə yadına düşdü. O, bir müddət bunu ürəyində saxlamış, dərdini heç kəsə açmamış, heç kəsə bildirməmişdi. Belə ki düşərgədə soldat kimi səhər də sıraya düzüb mahnı oxutdururdular, axşam da. Oxumaqdan uşaqların boğazları ağrıyırdı. Hətta bir ağacın kölgəsinə yığışıb bir balaca dincəlmək istəyəndə də düşərgənin rəisi şəppəxeyir böyürdən çıxırdı:

– Hə, uşaqlar, niyə ağzınıza su alıbsınız?

– Bə nə qayıraq?! Söhbət edirik.

– Boş söhbətdən bir şey çıxmaz. Mahnı oxuyun. Qoy yoldan ötən də, keçən də eşitsin ki, mahnı oxuyursunuz. Kefiniz kökdür. Lap elə oxuyun ki, iraykomda eşidilsin.

Mahnı oxumaq deyəndə Vahidin başına elə bil daş düşürdü. Elə deyil ki, onun mahnı oxumaqla arası olmasın. Xeyr. Çöldə dana-buzov otaranda bir də eşidirdin boğazında sözləri elə qaynadır ki, bülbül onun yanında yalan olurdu. Özü də, dərdin alem, ağrım alem! – deyə oxuyurdu. Burada isə balaca-balaca uşaqlara qoşulub oxumaqdan xoşu gəlmirdi. Özü də uşaqları bir də görürdün səhnəyə düzürlər, xatalı təki bunu da aparıb düz dəstənin ortasına qoyurdular. Kənardakıların hamısı balaca uşaqlar olurdular, bu isə anaş toyuq təki tək ortada. Bir bölük uşağın içindən seçilirdi. Kənardan baxıb özü-özünü görməsə də, özü bilirdi ki, seçilir. Kor-kor, gör-gör. Kənardan baxmağa ehtiyac qalmırdı. Elə özünün boylanıb yuxarıdan aşağı baxmağı kifayət idi. Çənələrindən tutub başlarını bir-bir qaldırıb baxmasan bilmək olmurdu hansı hansıdır. Bu da cəhənnəmə. Bəlkə də, bu seçilib görünməyə hardasa dözmək olardı. Məsələ burasında idi ki, bunun səsi də seçilirdi. Ağzını açanda hör-hör hörüldəyirdi. Çox gər çıxırdı. Son vaxtlar səsi nəsə yoğunmuşdu. O biri uşaqlar bunun yanında cüy-cüy cüyüldəşirdilər. Səsləri elə zəif çıxırdı ki, elə bil heç əppək yeyib, su içməmişdilər. Bu səsini çıxardanda onlarınkı batırdı. Elə bil heç oxumurdular. Ona görə də Vahid özü öz səsindən utanıb oxumurdu. Fikirləşirdi ki, elə oxumaqdansa oxumamağı yaxşıdır.

Uşaqların hamısı oxuyurdu. Səsləri zəif olsa da, lap cüyüldəsələr də, oxuyurdular. Onları da qınamaq olmazdı. Çünki yemək-içməkləri yaxşı olmadığından, həyatda çox zillətlər çəkdiklərindən zəif düşmüşdülər. Canları yox idi. Elə bil heç oxumurdular. Mahnılarında «Stalin yaşa!» deyirdilər, ona uzun ömür arzulayırdılar.

Vahid isə dəstənin tən ortasında dayanıb oxumurdu. Birdən onun ağzının yumulub açılmadığını görən düşərgənin rəisi dəli olmadımı. Əlini uzadıb:

– Ayə, a bala, niyə oxumursan? – demişdi.

Bu da qalmışdı nə desin. Əzilib-büzülüb çiyinlərini dartmışdı. Rəis üstünə qışqırmışdı:

– Sənlə deyiləm? Demirəmmi oxu?!

Bu isə oxumamışdı. Özü də öz səsindən elə zəhləsi getmişdi ki, ağzını açmağa ehtiyat eləmişdi.

Konsert qurtarandan sonra barmağının işarəsilə rəis oğlanı yanına çağırmışdı. Ona möhkəm acığı tutmuş olsa da, özünü ələ almış və bir az yumşaqlıqla:

– Bu nə hərəkətdir eləyirsən? – demişdi. – Yekə oğlansan, hamı gözəlcə, qəşəngcə oxuyur, sən də oxusana.

Vahid istəmişdi desin elə mən yekə oğlan olduğum üçün oxumuram. Balaca-balaca uşaqlara qoşulub oxumaqdan utanıram. Amma deməmişdi. Fikirləşmişdi ki, bəlkə, belə də keçinmək olar. Uşağın danışmadığını görən rəis isə belə başa düşmüşdü ki, səhvini, yəqin, anlayıb, ona görə xoşluqla öyüd-nəsihət verməklə kifayətlənmişdi:

– Oxu, a bala, oxu. Görürsən hamı oxuyur, sən də oxu. Yaxşı deyil axı. Təsadüfən böyüklərdən biri gəlib çıxdı bura. Göz qoyub gördü ki, hamı oxuyur, sən oxumursan. Deməzmi niyə? Onda nə cavab verərsən. Adamın dərisinə saman təpərlər. Bir də gördün səndən yox, məndən xəbər aldılar. Onda nə cavab verrəm. Xəbər verəcəklər ki, burda, uşaqlar arasında heç bir siyasi-kütləvi iş aparılmır. Halbuki sizə axşamadək şərqi oxutdurmaqdan canım boğazıma yığılıb.

O biri gün yenə hamı bir yerə yığışıb şərqi oxuyanda tərs kimi bu yenə oxumamışdı. Belə ki sağında-solunda iki balaca, çəlimsiz qız var idi. Elə idilər ki, hörümçəkdən can diləyirdilər. Bilmişdi ki, bu ağzını açcaq onların səsi batacaq. İstəməmişdi onların səsi batsın. Qabaqlar fikir verib görmüşdü ki, çəlimsiz uşaqlar oxuya-oxuya bir az özlərinə gəlirlər. Elə bil ətə-qana dolurlar. Kökəlirlər. Yanaqları qırmızılaşır. Öz səsindən xoşu gəlməməsi bir yana qalsın, Vahid həm də o çəlimsiz qızların xatirinə oxumamışdı. Qoy onların səsi eşidilsin. Onun ağzının yumulub açılmadığını görcək isə rəis yenə əvvəlkindən də betər dilxor olmuşdu. Qabaq tərəfdən əlini ona sarı uzadıb:

– Oxu, ayə, oxu, – demişdi, – səsini çıxart. – Oğlanı hərəkətə gətirmək üçün kişi özü də məcbur olub canının dərdindən balaca-balaca uşaqlara qoşulub oxumağa başlamışdı. Ağzını doldurub «Stalin» sözünü elə qalın, elə dolğun şəkildə deyirdi ki, bir Stalin sözü də yanından çıxırdı.

Vahid isə tərsləşmişdi. Yanında oxuyan uşaqların səsinə elə aludəliklə qulaq asır və bundan çox məmnun qalırdı ki, bu ahəngi pozmaq heç düzgün olmazdı. Öz gur səsilə uşaqlara mane olmaq istəmirdi. Özündən asılı olmayaraq Vahid bu dəfə də oxumamışdı. Həmin musiqi nömrəsi qurtarandan sonra rəis balaca-balaca uşaqları az qala ayaqlaya-ayaqlaya:

– Adə, sən mənim canımı boğazıma yığdın! – deyə yetirib oğlanı xırxalamışdı.

Bir qədər böyümüş olsa da, Vahid də, hər halda, uşaq idi. Qorxub gözü kəlləsinə çıxmışdı. Heç ağlına gəlməzdi ki, bu boyda kişi ona qoşula, onunla bu cür düşmənçilik apara. Çünki arada-bərədə də bir şey yox idi. Yox yerdən qan çıxartmağa dəyərdimi?! Düşərgə rəisinin hərəkətindən Vahid çox heyrətlənmişdi. Həm də özünü onun hücumundan qorumaq üçün:

– Niyə? Niyə? Mən neynəmişəm? – deyə oğlan qorxub geri çəkilmişdi və ikiəlli onun biləyindən yapışmışdı. Uşaq qorxmuşdu ki, rəis onu boğar. Çünki gözlərindən cin çıxırdı.

Düşərgə rəisi hərəkətinin səbəbini izah etməyib onu hədələmişdi.

– Adə, atanı yandırarlar sənin.

Vahid də elə təntimişdi ki, sözünü də bilmirdi. Nə danışdığından xəbəri yox idi.

– Atam burda döy, davadadır.

– Nə olsun ki, davadadır. Gedib orda yandırarlar. Səninkini də burda sənə verərlər. Bildin?

Nə idi? Nə olmuşdu? Rəis niyə belə eləyirdi? Düzü Vahid heç bir şey başa düşmürdü. Yalnız bir onu bilirdi ki, rəis ondan mahnı oxumamağına görə narazıdır.

Bu ara rəis yenə acığını cilovlayıb özünü ələ almışdı. «Ah-of!» eləyib köksünü ötürmüşdü. Hiss olunmuşdu ki, bu bekaraca hirslənməyinin üstündə çox bərk yoruldu. Axırı heysiz-heysiz ona demişdi:

– A kişi, sənə demirəmmi, oxu? Ay başına dönüm, sənə yalvarmırammı oxu? Ayə, belə də dərd olar?

– Müəllim, səsim gərdir, ona görə oxumuram, – deyə Vahid, nəhayət, bu dərdin səbəbini demişdi.

Rəis bir az da bərk yorğunluqla demişdi.

– Əşi, hər nə təhər, sənə deyirəm oxu. Nəyinə lazımdır? Özünü tanıyıbsan, səsin də gərrəşib. İndi nə edək deyirsən? Özümüzü xataya salaq?!

Bu cür danlaqdan, bu cür qara-qışqırıqdan sonra heç güman etmək olardımı ki, bu oğlan yenə oxumayacaq. Qətiyyən yox. Yəqin, indi bülbül təki ötəcəkdi. Əlbəttə. Ağzı nə idi?! Onu necə tənbeh etmişdilərsə, ömründə yadından çıxara bilməzdi. Həqiqətən, səhəri gün uşaqlar bir yerə yığışıb şərqi oxuyanda yenə ortaya qoyulmuş Vahidin ağzı bir metr açılırdı. Ala dana? Adamı eləcə öyrədərlər? Adın nədir? Mustafa. Yumşalarsan, yumşalar. Qabaqda dayanıb özü-öz yanından dirijorluq edən rəis qollarını havada oynada-oynada Vahiddən çox razı halda gülümsəyirdi. Amma sonradan gördü ki, bu gədənin ağzı yalandan açılıb yumulur. Səsi heç çıxmır. Yenə dəli olmamışdımı?! Elə bil başına at təpmişdi.

– Bəsdir! Saxlayın! Alınmadı! – deyə əsəbi-əsəbi əllərini yanına salıb mahnını kəsmişdi.

Vahidin o dəqiqə ürəyi sancmışdı. Bilmişdi ki, bu haqq-hesab da ondan uzaq deyil. Bunun da qanı burada qaraldı. Yenə çağırıldığını eşidib suçlu-suçlu getmişdi. Düşünmüşdü ki, rəisin səbir kasası daha daşıb. Onun indi ağz-burnunun qanını bir-birinə qatmasa yaxşıdır. O, isə yenə onu ağılını başına qoymaq istəmişdi.

– Ayə, a bala, yenə nə hoqqadır çıxardırsan?

Təqsiri olduğu üçün Vahid dillənməmişdi.

Bu, rəisin acığını bir az yatırtmışdı.

– Ayə, a bala, deməzlərmi, yaxşı, bu lal döy, kar döy, niyə belə eləyir. Bunun qarnının azarı nədir ki, bir dənə «yaşa» sözünü deyə bilmir. Onda nə cavab verrik, hə?

Vahid kişinin qabağında başını aşağı salıb dayanmışdı. Sözlərini eşidirdi, amma bu onun üçün təzə olmadığından qulaq asmırdı. Və necə tərsləşmişdisə, bir də belə iş tutmayacağına, tutuquşu kimi hamı nə deyir, onu deyib oxuyacağına söz vermir. Axırı müəllim də bezib onu itələmişdi:

– Əşi, əkil başımdan, – demişdi, – oxumursan, cəhənnəmə oxuma.

Bundan sonra isə çox çəkməmişdi ki, Vahid düşərgədən qaçmışdı. Elə həmin gün düşərgənin rəisi onun ardınca kəndə gəlmiş olsa da, üzdə xoş rəftar etsə də, içəridə sevinirdi. Sevinirdi ki, oğlandan vaxtında uzaqlaşdı. Yoxsa buna şətəli dəyərdi.

* * *

Səhəri gün fermadan bir it gətirib Xındı kişinin qapısına bağladılar. Bunu özü gətizdirmişdi. Çünki dünəndən bərk qorxuya düşmüşdü. Qapı əhvalatını hara çəkirdisə, gəlib yenə bir fikrin üstündə dayanırdı. Yəqin, bu, xəbərdarlıqdı. Yəni səni öldürəcəyik, qapın da beləcə bağlı qalacaq. Demək, bu qorxu hissindən kişinin köpü elə sönmüşdü ki, bircə gecənin içində arıqlayıb elə bil çöpə dönmüşdü. Rəngi tamam dəyişmişdi. Fermadan iti gətirtməklə də məqsədi aydın idi. Öz itinə inanmırdı. Gecələr evində onu bu qorumalı idi. İtə, həqiqətən, söz ola bilməzdi. Vahid Boğar adlı bu iti yaxşı tanıyırdı. Pələng təki şey idi. Onun qorxusundan hər saatlıqla qurd-quş sürüyə yaxın düşə bilməzdi. Göydə uçan quşu saldırardı. Deyirdilər, dağda gecə sürüyə basqın edilən zaman o it orada yox imiş. Çobanlardan hansı birisə aşağı binəyə gəlibmiş. Necə olursa, orda da qalır. Yoxsa deyirdilər oğru-moğru qələt eləyib sürüyə yaxın düşə bilməzmiş. Bu itin xasiyyətlərindən də çox danışırdılar. Söyləyirdilər ki, Boğarın əlindən yaxa qurtarmaq mümkün deyil. İstər canavar olsun, istər oğru-moğru, əvvəla, yetirən kimi döşü ilə vurub yıxır. Sonra da didiyini çıxardır. Çox güclü it idi. Pəncələri elə bilirdin pələng pəncəsidir.

Həmin itin fermadan gətirilib sədrin qapısına bağlandığını eşitcək Vahid tərpəndi. Çəpərin ardına gələndə iti gördü. Semqının damının qabağına bunu bağlamışdılar. Bu da heç dama girməmişdi. Eşikdəcə başını qabaq pəncələri üstə qoyub «fikrə getmişdi». Deyəsən, yerindən-yurdundan, çobanlardan, sürüdən, o genişlikdən ayrıldığına çox pis olmuşdu. Həmişə dağda-daşda gəzən Boğar indi bir balaca it damının qabağına yapışıb qalmışdı. Hələlik gördüyü çəpərə alınmış həyət-baca, Xındı kişi, bir də onun arvad-uşağı idi. Xındı kişini əvvəllər də görmüşdü. Fermaya hərdən gəlib gedərdi. Boğar onun kim olduğunu bilmirdi. Çünki həmişə gördüyü adam deyildi. Amma onu bilirdi ki, ona hürmək olmaz. Belə ki onun atının qulağı görüncək çobanlar o dəqiqə «Ay it! Sənə quduz dəysin! Sürkün burdan!» – deyə çomaqlarını qaldırıb bunlara acıqlanar və onun qabağına yüyürərdilər. Biri əlini atın yüyəninə yetirər, o biri də başını tərpədə-tərpədə «xoş gəldin» eləyərdi. Sonra da həmişə dörd-böyründə hərlənərdilər. Onun şərəfinə əmlik quzu kəsib bozartma elədiklərini, kabab çəkdiklərini də görmüşdü. Yemək vaxtı da az qala bütün çobanlar ona qulluq eləyirdilər. Yağlı tikələri bunun qabağına itələyirdilər. İnsanların bir çox işlərindən, bir-birlərinə münasibətlərindən baş çıxartmasa da, Boğarın bu çox hörmət olunan qonaqdan nəsə xoşu gəlmirdi. İndi onu gətirib həmin adamın qapısına bağlamışdılar. Bu it, əlbəttə, öz vəzifəsini başa düşürdü. Yəni onu bura elə-belə gətirməyiblər. Onu bura elə-belə bağlamayıblar. Yalı ona elə-belə vermirlər. Bu it bu adamı qorumalıdır. Elə eləməlidir ki, bu həndəvərə bir quş da səkə bilməsin. Bunun üçün o hürməlidir. Bildirməlidir ki, burdayam, yaxın gəlmə. O, isə nə haqq-hesab idisə, gələndən bir dəfə də ağzını açmamışdı. Boynunda zəncir başını pəncələri üstə qoyub dururdu. Gözlərini də, deyəsən, yummuşdu. Heç nəyə baxmaq istəmirdi. Hiss olunurdu ki, öz yerindən-yurdundan, öz it yoldaşlarından, səhər-səhər çəhlimlənib örüşə yellənən sürüdən, cığırlarında torağaylar uçuşan çöllərdən ayrıldığına xiffət eləyir, onları unuda bilmir. Hələ də öz köhnə həyatı ilə yaşayır. Vahid qalın qaratikan çəpərinin ardından baxıb-baxıb Boğara yaxın gəldi. Onun miskin görkəmindən pis oldu, halına acıdı. Əlacı olsa, ona kömək edərdi, zəncirini açıb buraxardı.

– Boğar, Boğar, – bu ara qeyri-iradi olaraq səsini çıxartdı. Görsün bəri baxırmı? Görsün səsindən onu tanıyarmı? Ancaq Boğar onu eşitmədi. Bu da çox hündürdən çağırmayırdı ki, evin adamları onu eşidərlər. Ondan sonra gəl düş xataya. Xındı kişi bunlarla dava eləməyə onsuz da bir bəhanə axtarırdı. Üstünə lap şər-zad atardı. Deyərdi ki, gəlib qapımdan nəsə götürsün. Oğurluqda təqsirləndirərdi. Beləsindən nə desən gözləmək olardı. Ona görə bir az gendən hərlənirdi. Buna baxmayaraq, Vahid elə o gün azı iki-üç dəfə gəlib itə uzaqdan-uzağa baxdı. Axşamtərəfi gördü ki, bütün həyət boyu o baş-bu başa, yəni evin qapısının ağzından bir də doqqazadək iki dirək arası uzun bir məftil çəkiblər.

Vahid o dəqiqə bidi ki, bu, nə üçündür? Yəni axşamlar itin zəncirini bu məftilə bağlayacaqlar ki, itin hərəkətinə, bütün həyət boyu gedib-gəlməsinə imkanı olsun. O zaman Xındı kişinin özünün, ailə üzvlərinin tam təhlükəsizliyi təmin olunurdu. Bu, burda, eşikdə həyət-bacanı qoruyacaq, o da içəridə kefnən buğlana-buğlana yatacaqdı. Ancaq Boğar başını yerdən qaldırmırdı. Vahidin yenə ağlına gəldi ki, görəsən, Boğar onu tanıyarmı? Amma heç ağlı kəsmədi. Gör nə vaxtdan ayrılıblar. Yəqin ki, tanımaz. Bununla bərabər səsini yenə çıxartdı:

– Boğar! Boğar!

Vahid bu dəfə cəsarət eləyib səsini bir qədər qaldırmışdı. O dəqiqə Boğar başını yerdən qaldırdı. Vahid də burda sevindi, o yana, bu yana baxıb sevincək bir də çağırdı:

– Boğar! Boğar!

Vahidin isə bu ara ağlına bir fikir gəldi. İti açıb buraxsın. Əgər it onu, həqiqətən, tanımış olsa o, bunu mütləq eliyə bilərdi. Gecə qaranlıqda Xındı kişinin həyətinə girər və iti açıb buraxardı. Bu fikir onu beyninə necə girmişdisə, axşam evdə rahat ola bilmir, boğazından çörək də getmirdi. Hətta bunu evdəkilər də hiss elədilər. Nənəsi neçə dəfə dedi ki, a bala, sənə nə olub?

– Heç. Mənə nə olasıdır? Dərsimi oxumağa kitabım yoxdur, onu fikirləşirəm, – deyə Vahid nənəsinin ağzını tərs yozdu.

Nənəsi isə:

– Daha ondan ötrü niyə fikir edirsən. Qərənfilin yoxdurmu, gedib ondan alsana, – dedi, – oxuyub verərsən.

Evdən çıxmağa Vahid onsuz da bir bəhanə axtarırdı. Gedib sədrin evinə tərəf hərlənsin. Bəlkə, Boğara bir kömək eliyə bildi. Ona yaman yazığı gəlirdi. Çölə, genişliyə sərbəst gəzib dolanmağa öyrənmiş heyvan indi qapı dustağı kimi bir şey idi. Onu bu darlıqdan, sıxıntıdan qurtarmaq özü böyük bir savab iş idi. Bu fikirlə evdən çıxıb gedirdi ki, yolda Qərənfilə rast oldu. Balaca qardaşının əlindən tutub hardansa gəlirdi. Onları görcək Vahid tələssə də ayaq saxladı.

– Aaz, hardan gəlirsiz? Gecə vaxtı qorxmursunuzmu? – dedi.

Qız da gülə-gülə cavab verdi ki, niyə qorxuruq?!

– Yox, yox. Gəlin gedək sizi yola salım, – deyə Vahid əl çəkmədi. Qardaşı yanında olsa da, qızla söhbətləşmək üçün bu da bir fürsət idi. Bir də elə istəyirdi ki, bu qızla lap əsl kişilər təki rəftar etsin. Neçə il bundan qabaq kiçik yaşlarından onlar «evcik-evcik» oynayardılar. Biri yalandan evin kişisi olardı, biri arvadı. Arvad evdə qalıb yalandan bişi-düşü ilə, paltar yumaqla məşğul olar, kişi isə çubuq atını minib harasa gedərdi. Qayıdıb gələndə görərdi ki, arvad evi-eşiyi silib süpürüb onun yolunu gözləyir. Bu da «atının» ipini bir ağaca bağlayıb arvadının yanında oturardı. Oyunları beləcə olardı. Belə görmüşdülər, belə də oyun oynayırdılar. Sonrakı böyüdülər, daha o cür oynamağa utandılar. Həm

də müharibə adamların həyat tərzini tamam dəyişdirmişdi. İndi kişilər dükan-bazara, əkin-biçinə yox – müharibəyə gedirdilər. Adamlar əsgər gedəndə arvad-uşağı ilə necə görüşüb ayrıldıqlarını Vahid çox görmüşdü. Bir də görürdün kişi arvadını kənara çəkdi, ona nəsə dedi. Özünü özünəmi tapşırdı, yoxsa «uşaqlar amanatı» dedi. Qərəz, belə səhnələri çox müşahidə eləmişdi. İndi gecə vaxtı bu qızla söhbət edə-edə gedəndə Vahid birdən-birə elə istədi ki, bu dəqiqə, buradaca onu da götürüb əsgər aparalar. Onda onun qıza deməyə nəsə bir sözü olardı. Ya məni gözlə deyərdi. Ya sənə məktub yazacam deyərdi. Deyərdi ki, sən də mənə yaz. Səndən məktub almasam, bağrım çatdıyar, ölləm. Axırı ki, al dilinnən də olsa, onu istədiyini qıza qandıraydı. Başa salardı ki, məsələ bu yerdədir.

Bunları elə ürəkdən, elə qəlbdən düşündü ki, ona elə gəldi, budur, həqiqətən, əsgər gedir. Anası, bacıları, qohum-əqrəba yığılıb onu ötürməyə gəlib. Qatar da dayanıb. Parovoz fıshafıs tüstü buraxır. Bir azdan qışqırıb yola düşəcək. Bacılarının biri bu yanından sallanıb, biri o yanından. Anasının da gözü oğlunun üzündə qalıb. Bir azca kənarda dayanmış Qərənfil də ona baxır, oğlanın davaya getməsindən elə dolub ki, az qalır ağlasın. Oğlan da gözünü ondan çəkə bilmir. Az qalır gedib desin:

– Fikir eləmə, Qərənfil, dava qurtarcan gələcəm. Ancaq gözlə məni. Mütləq gələcəm.

Bu da deyir ki, nə danışırsan, ölsəm yerin payıyam, qalsam sənin. Beləcə o biri cavanlar kimi əhd-peyman bağlayıb Vahid əsgərliyə, davaya yola düşürdü. Dalınca da qız məktub yazırdı. Əsədlə Südabə kimi məktub işlədirdilər. Əslində, Südabə ilə Əsəd əhvalatını birinci bilən Vahid idi. Amma məktub işlətmələrini bilmirdi. Şəkil əhvalatında iştirakı olsa da, məktubdan xəbəri yox idi. Görünür, bunu bunsuz eləmişdilər. Ola bilərdi. Yəqin, o, buna yazıb, sonra da bu, ona. Nə olardı?! Bir qız bir oğlanın idi. Əsəd yaxşı oğlan idi. İndi onun barəsində kənddə tez-tez danışırdılar. Hamı onu tərifləyirdi. Hamı onunla fəxr edirdi. Təbii ki, belə bir şərəfə, belə bir ad-sana çatmağı, dillərdə əzbər olmağı hamı istərdi, arzu edərdi.

Qərənfillə onun günü-saatı həmişə xoş keçirdi. Onu görəndə, beləcə, cürbəcür xəyallara düşür, qəribə-qəribə şeylər düşünürdü. Bunların həyata keçməsi, çin olması müəyyən səbəblər üzündən mümkün olmasa da, oğlana olduqca xoş gəlirdi. Bu səbəbdən də qızdan ayrılmaq onun üçün xoş olmasa da, çox ləngiməyi də lazım bilmədi. Qızgilin evlərinə çatar-çatmaz ayaq saxladı.

– Di burdan özünüz gedin. Mənim bu tərəfdə işim var, – deyə qızın onun gecə vaxtı hara getdiyilə maraqlanıb-maraqlanmayacağını gözləməyib, buna imkan verməyib aralandı. Yenə gəlib Xındı kişinin çəpərinin ardında ayaq saxladı. Hər şeyi ölçüb biçmişdi. İşdir, təsadüfən yoldan ötən-keçən olub onu

görsə, bu həndəvərdə olan yoldaşlarından birinin adını çəkəcəkdi ki, ya onlardan gəlirəm, ya da onlara gedirəm. Qərəz, bir söz tapardı deməyə.

Ancaq qərarında qəti idi. Necə olur-olsun bu gecə iti buraxmalı idi. Bir şeyin qorxusu isə oğlanın canından heç çıxmırdı. İt onu tanıyacaqmı? Tanımasa, işi şuluq olardı. İtin qanının belə bir qara vaxtında onun cənginə düşmək ölümə bərabər bir şey idi. Adamı parçalayardı. Bu qorxu hissi ilə bərabər, Vahid həm də ümidli idi ki, Boğar onu unutmayıb. Gündüz «Boğar! Boğar!» – deyib onu çağıranda qulaqlarını şeşələyib bəri, ona sarı dikəlməsindən də fikrinə, ümidinə bir az yəqinlik hasil eləmişdi. Amma yenə də bilmək olmazdı. Aradan üç-dörd ay vaxt keçmişdi. Bununla bərabər, Vahid riskli oğlan idi, qərarını həyata keçirməyə fürsət axtarırdı. Gördü çox xəlvətlikdir, heç yerdən də gələn-gedən yoxdur. Tərpəndi. Hərlənib doqqazdanca həyətə girdi. Çəpərin qıraq uzunu, bir gözü də evin qapı-pəncərəsində ola-ola it damına sarı getdi. Yaxınlaşcaq dayanıb bircə dəfə çox alçaqdan səsini çıxartdı:

– Boğar!

Qaranlıqda itin canlanıb tərpəşməsindən, boynunu silkələyib şikayətli, dərdli səs çıxarmasından, zəncirin cingiltisindən Vahid hiss elədi ki, Boğar onun səsini eşitdi və tanıdı. Hər ehtimala qarşı Vahid bir də dilləndi:

– Boğar, mənəm. Bax, mənəm.

Bu dəfə it lap özünü öldürdü. Ona sarı dartınıb yazıq, yalvarıcı bir tərzdə, həm də sevincək səs çıxartdı. Vahid daha tam arxayın oldu. Bu, bir neçə addım irəli getcək ayaqlarının altına döşənib, əlinə, qıçlarına dolaşıb bilmirdi nə etsin. Bu isə qaranlıqda fəhmnən zəncirin bağlanan-açılan yerini axtarırdı.

– Boğar, dayan! – İt də qoyurdumu. Bu dar macalda oğlanın əlini-ayağını yalayır, boynuna-başına dırmaşırdı.

Axırı ki, tapdı və itin boynundan zənciri açdı.

– Di gəl bəri, – deyib özü qabağa düşdü.

Ehtiyatlı olmaq lazım idi. Səs salsalar eşidib duyuq düşən olardı. Ondan sonra gəl Xındı kişinin əlindən qurtar görüm necə qurtarırsan. İt də elə bil onu başa düşürdü. Bir-birinə qoşulub səssizcə həyətdən çıxdılar. Kəndin başına gələndə Vahid fermaya gedən yolu göstərərək:

– Bax, Boğar, bu yol, bu da sən, – deyə özü dayandı.

Boğar da dayanmışdı. Elə bil xilaskarı olan bu oğlandan ayrılmaq istəmirdi.

– Di yaxşı, get, – deyə Vahid əlini atıb boynundan tutdu, sıxcalayıb, silkələyib buraxdı.

* * *

Boğar gedə-gedə qeyri-iradi olaraq boynunu tez-tez silkələyirdi. Görsün həqiqətənmi zəncirdən açılıb. Həqiqətənmi o darısqallıqdan canını qurtarıb. Bu

bircə gün ona bir ildən də çox gəlmişdi. Bir gün də qalsa, ürəyi partdayardı. Səhər duranda görərdilər ki, çoxdan ölüb. Ayağından tutub, sürüyüb dərənin birinə tullayardılar. Kim nə biləcəkdi nədən ölüb? Boğar nələr çəkib? Heyvanların iztirabından insanlar çox vaxt xəbərsiz olurlar. Etinasız qalırlar. Sonra da gedib bir başqa it götürərdilər. İşin burasını Boğar bilməsə də, amma ordan azad olduğunu bilib, adam təki sevinirdi. İnsanın keçirə biləcəyi hissi keçirirdi. Fermaya, neçə illərdən bəri üzü-gözü öyrəşdiyi adamlara tez çatmağa tələsirdi. Ona görə hələ bir arada yüyürürdü də. Heç on-on beş dəqiqə çəkmədi ki, gəlib çatdı. Fermada da sakitlik idi. Mal-heyvan, it-pişik hamısı yatışmışdı. Gündüz heyvanın ardınca yeriyib-yortmaqdan yorulub əldən düşmüş çobanlar da şirin yuxuda idilər. Ancaq itlər Boğarın kəlməsini hələ lap uzaqdan hiss edib əvvəlcə orda-burda vıqqıldaşıb hürüşdülər. Sonra isə iyisini alıb girişdilər və qabağına çıxdılar. Elə bil xəbər almaq istəyirdilər ki, hardaydın? Niyə getmişdin? Boğar da onları necə başa saldı, nə dedi allah bilir.

Fermanın baş çobanı Oruc kişi isə səhər Boğarı görüb təəccüb qaldı. Kişi gözlərinə inanmaq istəmədi. Dünən bunu o, öz əlilə aparmışdı. Aparıb düz sədrin evinin qabağına bağlamışdı.

– Qızıla bərabər itdir, – demişdi. – Boğazına yaxşı bax, qoy yeyib sənə öyrəşsin. O ki qapıda oldu, arxayınca başını qoy yat. Heç nə olası döy.

Bəs bu nə idi? Necə olmuşdu ki, it qayıdıb gəlmişdi. Bu məsələ ilə Oruc kişi o qədər maraqlandı ki, dayana bilməyib itin özündən xəbər aldı.

– Boğar, bu nə məsələdir?

Boğar elə bilirsiniz Oruc kişini başa düşmədi? Səsinin ahəngindən, dodaqlarının tərpənişindən o dəqiqə bildi ki, nə deyir? İntaası cavab verməyə dili olmadı. Ömründə birinci dəfə olaraq sahibinin tapşırığını yerinə yetirə bilmədiyinə xəcalət çəkib başını aşağı dikdi. Həqiqətən, hələ indiyədək elə olmamışdı ki, Oruc kişinin, yaxud elə o biri çobanların sözündən çıxsın. Hara ki, qıs vurmuşdular ora da getmişdi. Harda çağırmışdılarsa, ora da gəlmişdi. Ömründə bir tapşırığın, bir əmrin əleyhinə getməmişdi. Amma bu dəfə bacarmamışdı. Boğar xəcalətli-xəcalətli oyana-buyana fırlanıb başını qaldıranda gördü Oruc kişi yenə ona baxır, amma üzündə nəsə bir mülayimlik hiss elədi. O dəqiqə başa düşdü ki, onun qayıdıb gəlməsindən elə bu da şaddır. Həqiqətən, bu məsələ ortaya çıxanda Oruc kişi Boğarı vermək istəməmişdi. Onsuz fermanı təsəvvür eləmək mümkün deyildi. Hamısı ferma müdirindən olmuşdu. O bunu məcbur eləmişdi. Boğarı sədrə o, tərifləmişdi. Xındı kişi də o saat apartdırmışdı.

Elə həmin gün günortadan sonra kənddən hay-haray gəldi ki, əgər it gedib ora çıxıbsa, tezcə gətirib gəlsinlər. Özü də sədr Oruc kişinin qarasınca danışmışdı ki, o necə adamdır, əli-ayağı kütdürmü, nə təhər bağlayıb ki, it açılıb. Bu da neynəsin? Hər bir işdə mənəm-mənəmlik eləyən sədrin qabağında bo-

ğazını tükdən nazik bilib təzədən Boğarın boynuna bir ip salıb kəndə yola düşdü. İti gətirib yenə Xındı kişinin qapısına bağladı. Xındı kişi hələ zənciri də dəyişdirmişdi. Ondan da bir az etibarlı olan təzə zəncir tapdırmışdı. Məqsədi bu idi ki, elə bağlatdırsın ki, açılması bir də mümkün olmasın. Ona görə dönə-dönə tapşırdı:

– Ayə, Oruc, əməlli bağla. Elə elə açılmasın.

Boğarın yenə tutulub gətirilməsindən xəbər tutan Vahid təzədən dəli olmadımı. Dişi bağırsağını kəsdi. Necə olur olsun yenə onu açıb buraxacağını qərarlaşdırdı. Bu da bunlarla öcəşmişdi. Xındı kişi ilə ulduzu heç cür barışmırdı. Onun həyət-bacasına, evinin yoluna-yolanına yaxşı bələd olsa da, yenə hələ gündüzdən o tərəfə hərlənib hər şeyi bir daha bələdlədi, hardan keçib, çıxacağını müəyyənləşdirdi. Bu iş daha ona çətin gəlmirdi. Bilirdi ki, gecələr kəndin arasında sən deyən adam olmur. Qaçaq-quçağın qorxusundan hamı qaranlıq düşən kimi içəri dolurdu. Qapılarını da arxadan möhkəm-möhkəm bağlayırdılar. Xüsusilə ona-buna, elə-obaya bir pisliyi keçmiş, nəsə bir mərdiməzarlıq etmiş adamlar günün qulağı yaxcaq içəri girib eşiyə çıxmırdılar. Heç qapı-pəncərənin ağzına da hərlənmirdilər ki, eşikdən vuran olar. Bunu bildiyindəndir ki, Vahid yenə arxayınca gəlib Xındı kişinin həyətinə girdi və iti açıb buraxdı. Yenə Boğar bir oyun açırdı ki, gəl görəsən. Oğlanın əllərini, boyun-boğazını yalayır, ayaqlarına dolaşır, bilmirdi ondan ötrü nə eləsin. Vahid isə:

– Gedək, Boğar, gedək, – deyə tez onun boynundan tutub çəpərin dibinə sinə-sinə həyətdən çıxdı.

Səhər iti qapısında görməyib Xındı kişinin nə kökə düşəcəyini gözünün qabağına gətirib Vahid qaranlıqda bic-bic gülümsəyirdi.

Həqiqətən, Xındı kişi səhər durub görəndə ki, it yoxdur, qanı qurudu, az qaldı, əsməcə tutsun. Arvad-uşağına sarı dönüb:

– A başınıza dönüm, bu necə işdir, bu necə hərəkətdir? – deyə dəli təki başını tutdu. Sonra da ucadan söydü. – Bunu hansı köpəkoğlu eləyib! Zərər yoxdur, əlimə keçər, görər başına nə oyun açıram. – Sonra da dedilər ki, Xındı kişi qapısına gözətçi də qoyduracaq.

Bunu eşidən Vahid fikrə getdi. İşi çətinləşmişdi. Əgər, doğrudan da, deyilən kimi olsa, onda Vahid heç nə eliyə bilməyəcəkdi. Qapısına gözətçi qoymaq isə onun əlində asanca bir şey idi. Əlinin altında olan adamlardan hansı birinə desə canla-başla gələcəkdi. Çardağın altında, dam-daşın künc-bucağında bürüşüb qalmamaq üçün razılaşan olacaqdı. Aclıq-çılpaqlıq adamları zəlil eləmişdi. Hər halda, yoxlamaq lazım idi. Vahid bu məqsədlə şər vaxtı Xındı kişinin evinə tərəf gedirdi ki, hələ uzaqdan onun həyətində əli tüfəngli adam gördü. Heç bilmədi kimdir? Ancaq onu bildi ki, deyilən düzdür. Getməyin daha mənası yox idi. Dabanı üstə geri döndü. Hirsindən-hikkəsindən düz üç gün o tərəfə hər-

lənmədi ki, gözü görüb könlü bulanmasın. Axırı dördüncü gün dayana bilmədi, bir günorta üstü Xındı kişinin evinə sarı getdi. Bir-iki dəfə Boğarın səsin eşitmişdi. Axşamüstü yal vaxtı elə ulamışdı ki, Vahidin ətindən sümüyü aralanmışdı. Bu səhər də söyləmişdilər ki, Xındı kişinin arvadı narazılıq edib. Deyib ki, bu quduz dəymişin səsi də yasardır, buraxın getsin. Xındı kişi isə deyib ki, hara buraxıram, bir də ulasa başına bir güllə sıxacam getsin. İndi Vahid gedirdi ki, görsün Boğarın vəziyyəti necədir? Dərdi nədir ki, belə ulayır? Yal-zad içmirmi? Doqqazın qabağından keçirdi ki, necə oldusa it bunu gördü. Yatdığı yerdən o yandan buna sarı necə tullandısa, az qaldı zəncirini qırsın. İt havada görünməyilə yerə gəlməyi bir oldu. Qərəz bir oyun açdı, bir oyun açdı ki, Vahid quruyub qalmışdı. Boğar özünü öldürürdü ki, «gəl məni aç, burax». Vahid dayana bilmədi, yan-yörəyə baxıb bir adam olmadığını görcək özünü həyətə atdı. Boğarı açıb yenə boynundan tutaraq həyətdən çıxırdı ki, Xındı kişilə üzbəüz gəldi. Yanında da bir tüfəngli adam. Kəndin fəallarından olan bala Məmməd idi. O da nə mənsəbə qulluq eləyirdi, bilinmirdi. Hələ iyirminci illərdə qaçaqlara qarşı mübarizə aparmışdı. O vaxtkı tüfəngini də ona bağışlamışdılar. Çox vaxt çiynindəcə gəzdirirdi. Rayon milis idarəsinin müvəkkili kimi, guya, kəndin asayişinə baxırdı. Gah yalandan-gerçəkdən oğru-moğru tuturdu. Gah da meşədə qanunsuz ağac kəsən adamın əlindən baltasını alırdı. Camaat onun başqa bir peşəyə qulluq etməsini də bilirdi. NKVD-nin agentidir deyirdilər. Yanında danışmırdılar ki, demək olmaz, dillərindən nəsə söz qaçar. Yəqin, elə gecələr sədrin qapısına keşik çəkən də odur.

Vahid gördü ki, iş şuluqdur, tez iti buraxdı. Boğar da elə bil dil bilirdi. Nəzilib çəpərdən necə tullandısa, düz yola düşdü, üzü fermaya sarı qaçırdı ki, Xındı kişi:

– Ə, bir onu bəri ver mənə! – deyə dartıb tüfəngi aldı. Hələ qaçanın haqq-hesabını çəkmək istəyirdi. Vahid onsuz da hər vaxt yanında idi. Üzünə qaldırıb Boğarı nişan alırdı ki, Vahidə elə bil od qoydular. Boğarın dalınca baxıb indicə onun yumaqlanıb yolda qalacağını, bağırsaqlarının ayaqlarına dolaşacağını gözünün qabağına gətirib qəflətən irəli sıçradı və yerdən bir ovuc torpaq götürüb sədrin üzünə çırpdı.

– Ə, bu köpəkoğlunu tut! – deyə Xındı kişi əlindən tüfəngi salıb gözlərini tutdu:

Nə olacaq?! Buyruq qulu idi. Nə desə eləməli idi. İki nəfər də hardansa peyda oldu. Düşdülər bunun dalınca.

Qəribə idi. Vahid bu çağacan qaçmamışdı. Bayaqkı yerində dayanmışdı. Gözlərini tutan sədrə baxıb elə bil deyirdi: «Haqq eləmişəm! Əlimin içindən gəlib». Sədrin əlaltıları gələndə də əvvəlcə bir istədi qaçmasın, sonra gördü onu tutmağa gələn adamların gözləri işım-işım işıldayır. Tuta bilsələr, onu didməyə

belə hazırdılar. Odur ki qorxub qaçdı. Dünyasında ona çata bilməzdilər. Həm də Vahid həyətlərin arasında sapa-suppa vurduqca onlar təntiyir, bilmirdilər hansı tərəfə qaçsınlar. Beləcə onları xeyli oynatdı, əldən-ayaqdan saldı. Di gəl onlar da əl çəkən bəla deyildilər. Necə olursa-olsun oğlanı tutmaq, əli-qolu bağlı halda sədrin hüzuruna gətirmək istəyirdilər. Elə də etdilər. Çünki Vahid orda-burda sappa vurub qaçırdı ki, necə oldusa ayağı nəyəsə ilişib yıxıldı. İndiyədək daşdan-qayadan, yarğanlardan çox tullanmışdı, yıxılmamışdı, amma burda düz yerdəcə yıxıldı. Yer də yaman daşlıq idi. Vahidi incitdi. Baldırı-başı ağrıyırdı. Buna baxmayaraq, tez durdu ki, qaçsın, gördü sol əli bütüncə qandır. Sən demə yıxılanda daş ovcunu bıçaq təki kəsibmiş. Elə haldadır ki, əti sallanır. Vahidin başı buna qarışdı. Ləngidi. Onadək qolbəylər yetirib onu tutdular.

– Hə-ə, canın budurmu?! İndi sözə baxmamağı səndən xəbər alarıq, – deyə hərəsi bir qolundan yapışdı. Biri də boynunun ardından tutdu. Az qalırdılar uşağı parçalasınlar. Sədrin hüzuruna aparmağa başladılar.

– Yeri! Küçük!

Vahid xırıstaşıb qalmışdı. Məcbur olub addımını atdı. Amma elə idi ki, bıçaq vursan qanı çıxmazdı. Əlinin yaralandığını da unutmuşdu. Nənəsindən eşitdiyi nağıl yadına düşdü. Yoldan keçən kasıb, günahsız bir adamı necə tuturlar. Bunu padşahın hüzuruna aparırlar. Boynunu necə vururlar. Bu özü elə bir vəziyyətə düşmüşdü. Onun da əlini-qolunu gərib sədrin yanına aparırdılar. Daha başqa cür deyildi. Eyni şey idi. Bir təbil-məbil çalınmırdı. Onun da hardansa, keçmişdənmi, yoxsa indinin özündənmi səsi qulağına gəlirdi. Başını aşağı salıb yan-yörəsinə baxmasa da, hətta ona elə gəlirdi keçmişdə, nağılda olan kimi adamlar dəstə-dəstə bura axışırlar. Boynunun vurulmasına tamaşa edəcəklər.

Ancaq istəmirdi ki, onu görsünlər. Hamı onu qınayacaq, deyəcəklər ki, bu nə əfəl oğlan imiş, özünü tutdurdu. Heç olmasa geyindiyin şineldən utanaydın. Sənə yaraşarmı ki, əli-qolu bağlı qabaqda gedəsən. Bir-iki dəfə ürəyindən təpdi ki, qaçsın, ancaq mümkün deyildi. Ondan on əlli yapışmışdılar. Əllərini-ayaqlarını doğrasan da, buraxmazdılar. Bunlar elə qansız idilər ki, bir tula payına bütün kəndi diz üstə çökdürərdilər.

Bu isə sədrin yanında özünü sındırmadı, başını dik tutdu, düz gözünün içinə baxdı. Ölmək ölmək idi, xırıldamaq nəyə lazım idi?! Üz-gözünü sıxcalayıb bəbəklərindən toz-torpağı təmizləmiş olsa da, gözlərini hələ tam aça bilməyən Xındı kişi elə qəzəblənmiş, elə hiddətlənmişdi ki, Vahidi canavar təki parçalamağa hazır idi. Gözlərini bekaraca açıb bunun üzünə baxanda, özü canavara dönmüş olsa da, necə oldusa diksindi, vahimələndi. Qabağında elə bil adi uşaq deyil, qurd balası dayanmışdı. Bu balaca oğlan o boyda kişinin gözlərinin içinə necə zəhmlə baxırdısa, ona elə gəldi ki, bu, yenə nəsə bir oyun açacaq, yenə nəsə bir fənd işlədəcək. Xırmanda qamçını ayaqlarına dolayıb onu çəkib

gurumbultu ilə yıxmasını hələ də unutmamışdı. «Vaxtındaca bunu matrağın altına salıb döysəydim, gədələyib boyu çıxmazdı» – deyə ürəyində təəssüf hissilə düşünüb oğlanın üzünə bir şillə çəkdi. Özü də oğlanın qurd baxışlarından necə qorxmuşdusa:

– Daha buraxın getsin. Bundan sonra ağlı başına gələr, – deyə tezcə də əmr edib onu çox saxlamadı.

* * *

Evə gələndə anası, nənəsi əlinin yaralandığını görüb dəli oldular.

– Ədə, bu harda olub, əlini niyə kəsmisən? – hərəsi bir yandan soruşdu.

Bu da nə desin? Düzünü deyəcəkdi, dava düşəcəkdi. Nənəsi durmazdı. Sürüb gedəcəkdi ki, bəs belə şey olarmı, insafına, mürvətinə nə olub? Aclıqdagiclikdə camaat sənin üçün uşaq saxlayıb?! Niyə qudurmusan?! Nənəsi qorxan arvad deyildi, ağzı qızanda hər şey deyirdi. Vahid isə dava-dalaş olmasını istəmirdi. Başları çəkmişdi. Canının dərdindən yalan satdı ki, yıxılmışam, daş əlimi çapıb. Hələlik məsələni gizlətdi. Sonra eşidəndə də nə olar, olar.

– Sən nə təhər uşaqsan bilmirəm?! Xərdəcəlliyindən əl çəkmirsən! – deyə anası gətirib onun yarasını təmizlədi və sarıdı.

– Can! Can! – deyə nənəsi isə onun yarasına baxa bilməyib əllərini dizlərinə vururdu. Dözə bilmirdi. Həmişə deyirdi ki, uşaqlara gələn ağrı-acı mənə gəlsin.

Vahidin isə əsas qorxusu atasından idi. Əhvalatı eşidib-bilib üstəlik o da deyərdi ki, başqasının işinə niyə qarışırsan ki, özün də bu kökə düşürsən. O isə bir azdan gəlib oğlunun əlinin-qolunun sarıqlı olmasına qəti fikir vermədi. Kişi elə bil özündə deyildi. Onun əhvalatını eşitmişdi, eşitməmişdi, bəlli deyildi, başqa söz dedi:

– Oğlum, dostun deyirlər naxoşlayıb, xəstəxanada yatır.

Vahid o dəqiqə bildi ki, atası kimi deyir. Bu böyük dünyada onun ikicə nəfər yaxın adamı vardısa, biri Qüdrətov idi. Yaxşılığını ömründə unuda bilməzdi. Həyəcanla soruşdu:

– Niyə naxoşlayıb, ata?

– Nə bilim?! Adamdır, naxoşlayıb. – Kişi çiyinlərini çəkdi.

– Ədə, kimdir naxoşlayan? – deyə qoca nənə də bu yandan söhbətə qoşuldu.

– O kişi naxoşlayıb. Bizə gələn kişi, – deyə Omar anasına sarı döndü. – Katibi deyirəm.

Nənə o dəqiqə pis oldu:

– Can, can. Niyə naxoşlayıb? Yastığı yüngül olsun.

Vahid bir az götür-qoy edib dedi:

– Yanına dəymək lazımdır.

– Bə nə! Dəyməsək olarmı?! – Nənə onu müdafiə etdi. Hətta dimriklənib ayağa qalxdı. Elə bil bu dəqiqəcə yola düşürdülər. Həyatda ən zəhləsi getdiyi şey etibarsızlıq idi. Elə insanı unutmaq eyib iş olardı. Hamı onları qınayardı. Deyərdilər ki, nə oldu? ! Bağda ərik qurtardı, salam-məlik də qurtardı? Bir vaxtlar o kişinin yelinə uçurdunuz, adı ilə fəxr edirdiniz, nə tez üzül-kəsillik elədiniz?! Nə desələr haqlı olardılar. Bu etibarsızlığı onlar heç özləri özlərinə bağışlamazdı. Sonra əzab çəkərdilər. Ürəkləri ağrıyardı.

Beləcə məsləhətləşib qərara gəldilər ki, kişinin yanına dəysinlər. Ancaq hələlik Vahid tək getsin. Çünki bunların üstündə o kişinin başı ağrımışdı. Üzünə söz gəlmişdi, vəzifədən götürülmüşdü. Əsgiləri tüstülü idi. Bunu da bir söz eləyə bilərdilər ki, yanına xalq düşməninin oğlu gəlib.

Səhəri gün Vahid nənəsinin, anasının xəstə üçün hazırladığı bağlamanı götürüb gedəndə az qala cəmi ailə onu yola salmağa çıxmışdı. «Dərdin alem, bizdən də salam-dua söylə. – Nənə uzaqdan-uzağa dil-ağız eləyirdi. – Denən nənəm ömrünə dua eləyir. Deyir ona gələn mənə gəlsin. Ona canım qurban olsun».

Əslində, Nuru Qüdrətov onu da unutmamışdı. Onlara görə işdən getməsinə, vəzifədən götürülməsinə, elə bir böyük yeri itirməsinə baxmayaraq, dar ayaqda bu ailəyə dayaq ola bilməsindən çox məmnun qalmışdı. Dostlaşdığı, mehribanlaşdığı oğlan yadına düşəndə xoşluqla gülümsəyir, bununla da hərəkətlərindən razı, məmnun qaldığını bildirirdi. Onun barəsində hələ vəzifədə olan zaman işdə də söyləmişdi. Evdə də ailəsinə danışmışdı. «Gör nə qədər yaxşı oğlandır ki, – demişdi, – əyninin paltarını kəsib parça-parça ona-buna verib ki, çıraqlarına piltə düzəltsinlər, qaranlıqda oturmasınlar. Mən inanıram ki, belə ürəyi olan gənc hər cür fədakarlığa gedə bilər». Özü də onu gözünün qabağına gətirib xəyalında canlandırır, ətəyi kəsilə-kəsilə gödəlib az qala pencək formasına düşmüş şineldə bu oğlanın nəyə oxşadığını düşünüb uğunub gedirdi. Özündən asılı olmayaraq, neçə rəsmi yerdə xatırlayıb gülmüşdü. «Yoldaş Qüdrətov, nəyə gülürsünüz?» – deyə, soruşan olmuşdusa, «Heç», – deyib üstündən keçmişdi. Bununla əlaqədar həm də rayonun ticarət təşkilatlarına zəng edib mağazalarda lampa piltəsinin olub-olmaması ilə maraqlanmışdı. Onsuz da yoxlayıb cavab vermişdilər ki, yoxdur.

– Bəs niyə yoxdur? Hə, soruşuram sizdən!

– Belə xırda şey... Heç kəsin yadına düşməyib, yoldaş Qüdrətov.

– Xırda niyə olur?! Camaatın işığının olub-olmaması xırda şeydir?!

– Onsuz da davadır, yoldaş Qüdrətov, yandırmasalar yaxşıdır. Düşmən bizi görməz, həm də neftə qənaət olunur.

– Əşi, camaatın uşağı, böyüyü var, xəstəsi var, elə şey olarmı heç yandırmasınlar, həm də biznən cəbhənin gör nə qədər arası var.

– Hə-ə, xeyli olar, yoldaş Qüdrətov, – o da kimdisə küt-küt cavab vermişdi.

– Bilmirəm. Bakı ilə danışın. Əgər varsa, piltə alıb gətizdirin. Elə edin ki, camaat təmin olunsun.

– Baş üstə, yoldaş Qüdrətov, – rayon ticarət idarəsinin müdiri tapşırığı mütləq yerinə yetirəcəyini bildirmişdi.

Birinci də dəstəyi yerinə qoymuşdu. Arxayın olmuşdu ki, yerin deşiyindən də olsa tapacaqlar. «Heç olmasa bundan sonra o uşaq əyninin paltarını doğramaz» – deyə yenə onu gözünün qabağına gətirmişdi, «yaxşı oğlandır» – demişdi.

İndi həmin oğlanı xəstəxanada, yatdığı palatanın ağzında görəndə şad oldu, gülümsədi. Gəlişi kişiyə o qədər xoş təsir bağışladı ki, canının ağrısı, acısı elə bil büsbütüncə çıxdı, sağaldı, özünü gümrah hiss elədi. Əlbəttə, xəstə üçün diqqətin özü də böyük şey idi. İş yoldaşlarından o qədər adama yaxşılıq etmişdi ki, indi onlardan bircəciyi gəlmirdi, amma bu uşaq gəlmişdi.

Qüdrətovun şikayəti ürəyindən idi. Sancır, bərk ağrı verirdi. Hamısını bu son iş yerində tapmışdı. Xeyir elədiyi olub, zərər eləmişdi. Çətin yer imiş. Fikirləşirdi ki, əgər mane olmasalar, faydasız şeylərlə baş qarışdırmasalar, işləmək olar. Bunu hələ o, rayona bu vəzifəyə seçilən zaman Bakıya təsdiqə gedəndə, oradakı əlaqədar şəxslərlə görüşündə hiss eləmişdi. Hansı kabinetə girmiş, kimin yanında olmuşdusa hamısı ona «qorxma, kömək eləyərik» – demişdi. Əslində, işləyən adam idi, nədən qorxacaqdı?! Sadəcə olaraq «kömək edərik» sözü ona birtəhər gəlmişdi. Burda kabinetdə oturublar, burdan ora ona nə köməkləri dəyə bilərdi?! Zarafata salıb demək də istəmişdi: «Əşi, mənə əsas camaatın köməyi lazımdır, siz mənim üçün əkən deyilsiniz, biçən deyilsiniz...» Fikirləşmişdi ki, deyirlər, qoy desinlər, daha bunu söz eləməyin mənası nədir?! Əksinə, hamısına xüsusi bir iltifatla, səmimiyyətlə təşəkkür etmişdi: «Sağ olun. Çox sağ olun».

Qayıdıb gələndən sonra isə həmin adamlar tez-tez zəng edib vaxtını alırdılar. Filan şey necə oldu? Bəsməkan iş nə yerdədir? Bəzən zəng-zəng ardınca olurdu. Çoxu da eyni şeyi soruşur, eyni məlumatı istəyirdi. Bir məlumatı çox yerə göndərmək lazım gəlirdi. Hamısını də gərək bitdi-bitdi oxuyasan, qol çəkəsən. Əsas işdən çox belə şeylər vaxtını aparırdı. Kabinetdən eşiyə, adam arasına çıxanda özünə gəlirdi. Bir məktəbin yanından keçəndə isə «müəllimlik hayıf döymü» – deyirdi. Jurnalı götürüb sinfə getməkdən ötrü burnunun ucu göynəyirdi. Tez-tez sinfi, uşaqları gözünün qabağına gətirir, keçdiyi bəhsləri xatırlayırdı. Tarix müəllimi idi. Qədim dövrlərdən söhbət açırdı. İndiki zamanlara da gəlib çıxırdı. Maraqlı idi. Bəlkə də, bunun, bu dərs deməyin, açıqqəlbli, safürəkli uşaqlarla hər gün təmasda olmağın qədrini bilməmişdi. Amma indi bilib, həsrətini çəkirdi. Çünki bu işin ləzzətini görmüşdü. Bilirdi ki, həyatda adicə bir peşəyə sahib olmaqdan, hamı kimi səhər durub işə gedib, işdən gəlməkdən gözəl şey yoxdur.

Atalar yaxşı deyib ki, ayran iç, qulağı dinc. Hətta bəzən elə halları olurdu ki, rəhbər işə usdayan, ondan ötrü ölən adamları öz-özlüyündə söyürdü. Amma daha bunu üzə salmırdı. Kimə danışa bilərdi ki, beləcə oldu, eləcə oldu. Bir də gördün çağırdılar ki, filan yerdə, filankəsə belə demisən. Ondan sonra yüz and iç, ağı yala xeyri yoxdur. Demisən vəssalam! Əşi, vallah, billah mən pis mənada demədim. Dedim, yəni artıq danışıqlar işə mane olur. Bir də görürsən elə sözlər deyirlər ki, adamın qanı qaralır, əhvalı pozulur, onda gördüyün iş də səmərəsiz olur. Xüsusilə birinci katib Bakıya yanına çağıranda, yaxud arada zəng eliyəndə bu daha o günü özündə olmurdu. Azı bir həftə özünə gəlmirdi. Anasından əmdiyi burnundan gəlirdi. Birinci dəfə onun yanına çağırılanda düz üç saat qapısının ağzında gözlətmişdilər. İndicə çağırar, indicə qəbul edər. Bu da ürək-göbəyini yemişdi ki, nə soruşacaq, nə deyəcək? Gözləmə vaxtı uzandıqca bunun da həyəcanları artırdı. Narahat olurdu. Nigarançılıq çəkirdi. Ancaq səsini çıxara bilmirdi. Heç oturduğu yerdən durub var-gəl etmək, ayaqlarının üyüşüyünü açmaq iqtidarı da yox idi. Elə bilirdi ki, tərpənsə, nəsə artıq bir hərəkət eləsə, buranın sakitliyini poza bilər, ümumi işə mane olar. Çünki köməkçiləri də elə hərəkət edir, hərdən yanına elə usduflu, ehtiyatlı girib çıxır, telefona elə sakitliklə cavab verirdilər ki, bu şəraitdə milçək vızıltısı da eşidilərdi. Arada onlardan biri yanından çıxıb bunun qabağından keçəndə kirimişcə demişdi:

– Bir az da gözləyin. Stalin yoldaşla danışır.

Ya yaxşı eşitməmişdi, ya da qulaqlarına inanmamışdı. Yekə kişi olsa da, bu da karıxmış vəziyyətdə astadan uşaq-uşaq soruşmuşdu:

– Kimlə danışır?

– Stalin yoldaşla. – Yenə alçaqdan, ancaq çox aydın şəkildə o, sözünü bir də təkrar etmiş və barmağını dodağının üstə qoymuşdu. Yəni daha danışma.

«Stalin yoldaşla danışır» – deyəndə bu, bərk həyəcanlanmışdı. Bilməmişdi nə etsin, ayağamı dursun? Əlmi çalsın? Adı gələndə, şəkli görünəndə əl çalardılar, ayağa durardılar. İndi bu vəziyyətdə nə edərlər bilməmişdi. Onu bilmişdi ki, nəsə birtəhər olub. Yuxumu görüb? Yoxsa onu qara basır? Çünki hamı kimi o da Stalini heç vaxt adi adamlar sırasında düşünməmiş, onu qeyri-adi təsəvvür etmiş, çox-çox yüksəklərdə, hardasa yuxarılarda ağlına gətirmişdi. Bütün ölkədə uşaqlı-böyüklü hamı kimi o da bunu yuxarı, allahın yanına çıxarıb qoymuşdu. İndi allahın adam kimi danışmasına təəccüb edir, uşaq təki sevinib gülümsəyirdi.

Bunun təsirindən idi ki, qəbul vaxtı çatıb, nəhayət, içəri çağırılanda buna elə gəlmişdi ki, bu da elə bir allahdır. Stalin yoldaş bütün ölkənin, bütün dünyanın allahıdır. O isə buranın, bu respublikanın allahıdır. Ondan bir az balaca allahdır. Böyük allahın müəyyən bir tapşırıqla, müəyyən bir məqsədlə göndərdiyi ilahi qüvvələrdən biridir. Cəbrayıldımı? Əzraildimi? Yoxsa başqa bir qüvvədir. Bunu aydınlaşdırmağa, müəyyənləşdirməyə imkan olmamışdı. Çünki vaxt dar

idi. İçəri girəndə görmüşdü kabinetdə təkdir. Stolun ardında oturub gözündə eynək nəyəsə baxır. Qüdrətov səsini çıxartmağa belə ehtiyat eləmişdi, qorxmuşdu mane olsun. Hətta ağlına gəlmişdi ki, bəlkə, Stalin yoldaş mühüm bir şey tapşırıb, onunla əlaqədar nəsə bir sənədə baxır, o barədə fikirləşir. Özünün bu vəziyyətdə qapının yanında quruyub qalması ona məktəbdə işlədiyi vaxtları xatırlatmışdı. Müəyyən bir iş üçün – ya təbaşir aparmağa, ya jurnalı götürməyə müəllimlər otağına gəlmiş uşaq da bir də görürdün qapının yanındaca quruyub qalıb. Nəsə kitab-dəftərə baxan, yaxud yazı yazan müəllimə heç nə deyə bilmir. Gözləyir ki, müəllim ondan soruşsun ki, niyə gəlibsən? Elələri də olurdu ki, içəri gircək sözünü deyirdi. Utanıb eləmirdi. İşini tez həll eləyib gedirdi. Nuru Qüdrətovun belə cəsarətli uşaqlardan xoşu gəlirdi. «Afərin» deyə onları tərifləyirdi. Təəssüflər olsun ki, belələri az idi. Əksər uşaqlar utancaq idi. Sözlərini deyə bilmirdilər. Nədənsə elə-bil qorxurdular, ehtiyat edirdilər. «Ay allah, bunların halı-günü necə olacaq? Bunlar necə yaşayacaqlar?» – deyə Qüdrətov fikrə gedir, şagirdlərin belə qorxaq, gözükölgəli böyümələrinin səbəbini axtarıb tapmağa çalışırdı. İndi o özü həmin utancaq sözünü deyə bilməyən uşaqlardan pis günə düşmüşdü. Qəbuluna gəldiyi adam isə başını qaldırıb ona baxmırdı. Hər halda, bunun içəri kabinetə daxil olmasından xəbəri vardı. Əvvəla, özü çağırtdırmışdı. Sonra da nə qədər asta, usduflu tərpənsələr də, hər halda, qapının açılıb-örtülməsindən, ay-ayaq səsindən yanına adam gəldiyindən xəbər tutmamış deyildi. Belə eləməkdə, bu vəziyyətdə qapının ağzında onu gözlətməsində məqsədi nə idi? Yenə uşaq-uşaq fikirləşdi ki, bəlkə, elə buraların qaydası belədir, bu cür olmalıdır. Ağlı onun aşağılara, rayon yerlərində olan idarələrə gedib. Nəhayət, qəbuluna gəldiyi adam başını qaldırmışdı və eynəyinin ardından ona baxmışdı. Bu zaman Qüdrətov dillənmişdi:

– Salam, yol...daş...

Familiyasını deyənədək bu, başını qaldırmışdı.

– Salam, – diqqətli nəzərlərini ondan çəkmədən əlilə qabağındakı stulları göstərmişdi. Yəni oturmağa işarə etmişdi.

Qüdrətov usdufca irəli gəlib deyilənə əməl etmişdi, onun nə deyəcəyini gözləmişdi. Əlbəttə, sənədlərilə o, artıq tanış idi. Kimdir? Nəçidir? Haralarda işləyib? Necə ailədən çıxıb? Tutulanı varmı? Xarici ölkələrə qaçanı necə? Bir sözlə, bitdə-bitdə hər şeyi yazmışdı. Şəxsi vərəqəsinin bütün suallarına cavab vermişdi. Qüdrətovun özündə, ailəsində, nəslində, qohum-əqrəbasında elə bir şey yox idi ki, gizlətsin, tərcümeyi-halında yazmasın. Olsa, mütləq yazar, bəri başdan bildirərdi. Çünki qəbuluna gəldiyi adam haqqında çox eşitmişdi. Bilirdi ki, burdan qabaq dövlət təhlükəsizlik orqanında işləyib. Köhnə çekistdir. Deyirdilər nə qədər xalq düşməni tutub. Dəstə ilə gətirib Bakıda hansısa zirzəmiyə doldururmuş. And içib deyirdilər ki, o zirzəmidə adamlara necə işgəncə verir-

lərmişsə, yazıqların bağırtıları küçədə eşidilirmiş. Qərəz, o, necə çekisdirsə, elə beləcə, adamın bu üzündən baxanda o üzünü görür. Adamın ürəyini oxuyur, ağlından keçənləri bilir. Və düşündü ki, indi, yəqin, ona baxıb nə yuvanın quşu olduğunu bildi. Rəyi necə oldu, nə fikrə, qərara gəldi? Bunu o bilə bilməzdi. Ancaq o özünə arxayın idi. Heç bir şeydən çəkəri yox idi. Hələ bir insan övladına pisliyi keçməmişdi. Əlindən yaxşılıq gəlirdi. İmkanı daxilində adamların köməyinə çatmağa cəhd edərdi. Ürəyi də təmiz idi. Di gəl bu yerdə, belə bir dar macalda, həyatının, taleyinin gələcəyi həll olunduğu bir məqamda onun ürəyinə qəribə-qəribə şeylər gəldi. Bu kişi xalq düşmənlərini necə tutur, necə asır, necə kəsir. Bunlar ağlına, xəyalına elə bir dəhşətli şəkildə gəlmişdi ki, elə bil bu asma-kəsmə gözünün qabağında, bu kabinetdəcə gedirdi. Tüfənglərin çaxmaqları şaq-şaq şıqqıldaşır, güllələrin vıyıltısından qulaqları tutulurdu. Bu da əlində tüfəng at oynadırdı. Qüdrətov bunu beynindən çıxartmağa, özündən uzaq eləməyə, o barədə qəti düşünməməyə cəhd etmişdi. Bir anlığa gözünü yumub-açıb özünü təmizləməyə, tamam ayrı şeylər barəsində düşünməyə çalışmışdı. Çünki birdən o, bunun fikirli olduğunu, onun qabağında ola-ola başqa şeylər barədə düşündüyünü hiss eləsə, bilsə, bunun atasını yandırardı. Burdan ölüsünü yola salardı. Cəmi ailəsini, arvad-uşağını, yeddi dolamadan bəri bütün nəslini sürərdi. Yurduna süpürgə çəkdirərdi. Qüdrətov qəribə vəziyyətə düşmüşdü. Belə şeylər fikirləşmək istəmədikcə, əksinə, daha çox fikirləşirdi. Ağlına elə şeylər gəlirdi ki, elə-belə vaxtda, belə rəsmi yerlərdən uzaqda olanda heç qəti o barədə düşünməzdi. Elə bil beyni qəsdən ürəyinin əleyhinə gedirdi. Acığa düşmüşdü. Ağlına yaxşı şeylər salmaq əvəzinə pis şeylər salırdı.

Kabinetin sahibi isə bu ara ayağa durub nəsə çox fikirli halda var-gəl etməyə başladı. Qüdrətov diksinən təki oldu, ürəyini xof aldı. Ona elə gəldi ki, bunun ürəyindən keçənlərdən o, həqiqətən, xəbər tutdu. Bunun nə düşündüyünü üzündən oxudu. İndi gör nə qiyamət qopacaq. Yəqin, zəngi basıb bu dəqiqə onu apartdıracaq. «Ubrat!» Birbaşa zirzəmiyə. Yüz qışqır, səs-zad eşidilən deyil. O vaxtlar xalq düşmənlərinin eşidilməsi də yalan şeymiş. Bağırmalarına bağırmış olarlar, amma səsləri gəlməzmiş. Hələ onlar ürəkli adamlarmış. Heç olmasa səsləri çıxıb. İndikilərdə səs nə gəzir. Özlərindən qabaqkıların taleyindən gözləri qorxub. Görünür, qorxuda-qorxuda adama eləcə birtəhər baş saxlamağı öyrədirlər. Deyirlər ki, əsas budur. Özgə heç bir şey lazım deyil.

Qüdrətov uşaq deyildi. Qırxdan çox yaşı vardı. Bu gün, sabah əllini haqlayırdı. Həyatda çox şeylər görmüşdü. Yaxşı günü də olmuşdu, pis günü də. Amma ömründə belə çətinə düşməmiş, bu cür ağrı sıxıntı keçirməmişdi. İndi kişinin əli-qolu bağlı kimi idi. Məngənə arasına alıb sıxırdılar. Nə yerində qımıldana bilir, nə əlini-qolunu tərpədirdi, quruyub qalmışdı.

Qəbuluna gəldiyi adam bunu hiss etməmiş deyildi. Başqa cür onu təmin etmirdi. Bu cür öyrəşmişdi. Adamlara güclü təsir etməkdən, onları qorxutmaqdan, təhlükə altında saxlamaqdan həzz alırdı. Özündən yuxarıda duran, özündən böyük rəhbər kimi onun da əqidəsi belə formalaşmışdı ki, həyatda hər şey təzyiqlə, zornan, qorxu hissilə olmalıdır. Çalışmışdı ki, qəbuluna adamlar qorxa-qorxa gəlsinlər. Onu görəndə bağır-öfgələrini yesinlər. Dirigözlü o dünyalıq olsunlar. Bu da ancaq asmaqla, kəsməklə vurmaqla, yıxmaqla mümkün idi. Adamlar da xasiyyətini bilirdilər. Onu da bilirdilər ki, yuxarıdan ona elə səlahiyyətlər veriblər ki, istədiyi adamın yurdunda turp əkdirə bilər. Respublikada onun bir sözü iki olmazdı, nə istəsə eliyərdi. Daha bunun sorğu-sualı olmazdı. Yığıncaqlarda, bürolarda birinin üstə qışqırar, birini hədələyər, digərini təhqir edərdi. Qəzəblənəndə gözü ayağının altını seçməzdi. Hətta kabinetində, evində adam döyməyini də deyirdilər. Camaat arasında da bunu düzgün idarə üsulu, yaxşı iş üslubu və onun özünü çox qüvvətli, dəyanətli bir şəxs kimi qələmə vermişdilər. Guya, o, haqq tərəfdarıdır, ədaləti qoruyur, camaatın gününü ağlayır. Belə-belə sözlər deyib, haqqında ağızdolusu danışıb bir para adamlar axır nəticədə bu qənaətə, fikirə gəlirdilər ki, o, olmasa iş getməz, respublika dağılar. Ona görə, – deyirdilər, – bunun Moskvada da böyük hörməti var, Stalin yoldaş xətrini çox istəyir. Deyirdilər ki, yanına birbaşa daxil olur. Başqaları kimi qəbul otağında oturub saatlarnan gözləmir. Yəqin ki, elə bu cür idi. Orada sözü keçdiyinə, dediyi tutulduğuna görə, bu da burada bəzən yetənə yetir, yetməyənə də bir daş atırdı.

Bu gün isə onun yanına söhbətə çağırılmış adamla sərt rəftar etmək fikri yox idi. Fikri olmuşdusa da, bu son anlarda dönmüşdü. Həm də ona görə ki, bir az bundan qabaq Stalin onunla sərt danışmamışdı. Zəng edib neft istehsalı ilə maraqlanmış, hasilatı artırmağı tapşırmış, sonra da kef-hal soruşmuşdu. Bunu o, özü üçün böyük şey hesab eləyirdi. Həm də ona görə ki, onun tərcümeyi-halı ilə diqqətlə tanış olmuş, amma qulp qoymağa, bir az sıxma-boğmaya salmağa bir şey axtarmışdısa da, tapa bilməmişdi. Bir sözlə, Qüdrətov yaxşı vaxtına düşmüşdü. Qəbuluna gəldiyi adama çox baş qoşmaq fikrində deyildi. Bir-iki dənə ümumi göstərişlə kifayətlənmək fikrində idi.

– Partiya işçisi gərək heç vaxt siyasi sayıqlığını itirməsin. – Bu keyfiyyətin əsas olduğunu bildirdi. İşində, fəaliyyətində bunu gözləməyi, heç vaxt unutmamağı məsləhət gördü. Sonra da soruşmadı ki, görsün qəbuluna gələn adam nə deyir?

– Oldu! Yoldaş Bağırov! – Qüdrətov ayağa qalxdı. Kişinin qabağında farağat vəziyyətində dayandı. Əsgərliyin havası hələ də başında idi. Belə eliyəndən sonra peşman oldu ki, bu cür lazım deyildi. Gərək belə eləməyəydim. Bunun o

qədər xəcalətini çəkdi ki, bir də gördü tər basır, ehmalca əlini yanına aparıb cibindən yaylığını çıxartdı və alnına çəkdi.

– Siyasi cəhətdən adam nə qədər ayıq olarsa, işi bir o qədər yaxşı gedər, – qəbuluna gəldiyi adam onu bu cəhətdən əməlli-başlı təlimatlandırmağa çalışdı. – Bax, gərək əsl kommunistlə kommunist olmayanı ayıra biləsən. Dostu düşməndən seçəsən. Yoxsa işləyə bilməzsən.

O dedikcə, danışdıqca bu başını tərpədirdi. Qəbuluna gəldiyi adamla tam razı olduğunu bildirirdi. Onun göstərişlərini heç vaxt unutmayacağını, bu sözləri həmişə əlində rəhbər tutacağını bildirirdi. Həqiqətən də, buradan çıxıb gedəndə onun sözlərini sırğa eləyib qulaqlarından asmışdı. Ağzı nə idi? Atasını yandırardı. Dəymişi dura-dura kalı tökülərdi.

Qayıtmaq üçün hələ gündüzdən bilet almışdı. Mərkəzi Komitədən çıxcaq düz birbaş vağzala gəldi. Bütün gün ayaq üstə olmuşdu. O kabinet sənin, bu kabinet mənim. Birinci də onu çox gec qəbul eləmişdi. Beləliklə, günün nə vaxt axşam olduğunu bilməmişdi. İndi qatara minib taqqa-taq yola düşəndə bir azca dincəlib özünə gəlmək üzrə idi. Qəzetə bükülü bir azca da kolbasa-çörəyi vardı. Yolu üçün Mərkəzi Komitənin bufetindən almışdı. Bu ara vaqonun o başından bir səs gəldi. Kimsə avazla oxuya-oxuya deyirdi:

– Bu gə-lən yar olaydı.

Qüdrətov əlini yeməkdən çəkdi ki, oxuyanı görsün. Fikirləşdi ki, bəxtəvərin kefi gəlib, yarını axtarır. Hər yarağı düzəlib, saqqal darağı qalıb. O da olsa bütün işləri düzələr. Bunun bərabərinə çatanda gördü bir kor kişidir. Əlindən bir oğlan uşağı tutub vaqonlarda gəzdirir. Düşən də, minən də kömək eləyir. Gözləri görmür, nə etsin?! Bəlkə, arvad-uşağı da var. Ona görə əl açıb sədəqə istəyir. Kimin qulpundan nə çıxırsa, verir. Bu da yeməyini götürdü və kor kişinin ovcuna qoydu.

– Sağ olun. Allah sizdən razı olsun. – Kor kişi təşəkkür etdi və əlindən salmasın deyə barmaqlarını yumdu.

– Bu gələn yar olaydı, – kor kişi onun yanından ötdü.

Bu təzəcə aralanmışdı ki, Qüdrətov fikrə getdi: tanımaya-tanımaya ona niyə kömək elədi. Bəlkə, düz-əməlli adam deyil. Axı ona tapşırmışdılar ki, partiya işçisi siyasi sayıqlığını itirməməlidir. Bəlkə, o, heç kor deyil, özünü korluğa qoyub? Belə eləyib ki, ona diqqət yetirən olmasın, əhəmiyyət verməsinlər. Bu da əl altından işini görsün. Sovet hökumətinin əleyhinə işləsin. Bəlkə, Hitlerin adamıdır. Göndərib ki, camaatın ağzını əysin, adamlarda inamsızlıq yaratsın. Qələbəyə inamlarını qırsın. Bəlkə də, ingilis casusudar. Nə olsun ki, müttəfiqdirlər. Burdan kömək eləyə bilər, ordan ayağıyın altını eşər. Dilənməyinə baxma, yeri gələndə elə sözlər deyə bilər ki, camaatın ağzını başqa səmtə döndərər. Qüdrətov özü də məəttəl qaldı ki, bu gic-gic şeylər onun ağlına haradan gəldi,

fikirləşdikcə kor kişinin hərəkətləri şübhəli görünürdü. Orada, o dibdə qulağını necə doldurmuşdularsa, kişi ikicə dəqiqənin içində dəyişilib ayrı cür olmuşdu. Bu ara kor kişi geri qayıtmalı oldu. Yəqin, vaqonun o başı bağlı olub. Hər nə təhər, Qüdrətov özünü saxlaya bilməyib keçi bulantısı saldı.

– A kişi, bəs döymü, indicə belə getmədinmi?!

Kor kişi tutuldu. İndicə ona sədəqə verən adamın acığını hiss eləmişdi. Bilmədi nə etsin. Bu da ona nəsə deyib qanını qaraltmaq istəmədi. Hamını başa düşürdü. Əsəbi olmayan adam yox idi. Elə vaxt idi ki, hamı tikan üstə oturan təki idi. Neçə ildən bəri davam edən müharibə adamları hövsələdən çıxartmışdı. Bunları nəzərə alıb kor kişi kobudluq göstərmədi. Üzrxahlıqla:

– Bağışla, – dedi, – deyəsən, narahat etmişəm.

Qüdrətov onu yenə sancdı:

– Bu cür gəzməkdənsə, işləmək lazımdır.

Kor kişi daha da pis oldu. Bundansa ona bir güllə vursalar, yaxşı idi. Güman etməzdi ki, bir tikə çörəyi başına qaxalar. Bəlkə də, bir başqasından inciməzdi. Deyərdi qanacağı budur, mədəniyyəti çatışmır. Ancaq bu adamdan inciyirdi. Gözləri görməsə də fəhmnən, səsindən hiss eləmişdi ki, elə-belə adam deyil, elmli-savadlı, adam arasına çıxandır. Beləsindən kobudluq gördüyünə inciyirdi. Ona görə xırısdaşıb qalmışdı. Nə çıxıb gedə bilirdi, nə də... Bir-iki təsirli söz deyə bilərdi. Deyərdi ki, yaxşı, mən koram, dünya işığından məhrum olmuşam, bəs sənə nə olub? Sən də görmürsən? Amma özünü saxladı. Yalnız bir söz demədən ona sarı döndü, fəhmnən bir-iki addım qabağa gedib kişinin indicə verdiyi yeməyi düz vaqonun pəncərəyə bitişik balaca stolunun üstə qoydu və çıxıb getdi.

Qüdrətov pis vəziyyətə düşmüşdü. Bilsə idi ki, kor kişi belə eləyəcək, ağzını açmazdı. Təzədən peşman olmuşdusa, bunun da xeyri yox idi. Yüz özünü danlasın ki, niyə şikəst bir adamın xətrinə dəydim, verdiyim bir tikə çörəyi başına vurdum. Elə xəcalət çəkirdi ki, başını qaldırıb vaqonda sərnişinlərin üzünə baxa bilmirdi. Axırı üzünü pəncərəyə sarı çevirdi, qaranlıq olub bir şey görünməsə də, belə etdi ki, bəlkə, fikri dağıla. «Əşi, – dedi, – daha bunu niyə özümə belə dərd eləyirəm, düz deyirəm daa. İndi elə zamandır ki, hamı işləməlidir. Kor da, şil də, hamı, hamı çalışmalıdır. Dava qurtarınca heç kəsə rahatlıq yoxdur. Bunu bəyəm camaat başa düşmür?!» Belə-belə Qüdrətov özlüyündə hərəkətinə bəraət qazandırır, peşmançılığını ürəyindən çıxarırdı.

Ancaq pəncərədən baxmaqdan da bezdi. Çünki eşikdə də bir şey yox idi. Daha doğrusu, heç nə görünmürdü. Qatar elə-bil dibsiz qaranlıq bir boşluğun içərisinə gedirdi. Bundan ürəyi sıxıldı, pis oldu, bayaqkı hərəkətindən nə qədər xəcalətli, başıaşağı olsa da, yenə də birtəhər üzünü adamlara sarı çevirdi. Əslində, vaqon da qaranlıq idi. Yeni minən zaman işıq alababat verilmiş olsa da, indi xeyli zəifləmişdi. Yəqin, ehtiyat edirdilər. Qatar nəzərə çarpmasın. Bir

köhnə cəbhəçi kimi belə şeylərə Qüdrətov yaxşı bələd idi. Müharibə elə ağır, çətin, qorxulu idi ki, adamların təhlükəsizliyini hər yerdə qorumaq lazım idi. Müharibə yalnız cəbhədə, ön xətdə getmirdi. Düşmən bəzən fürsət tapıb ölkənin dərinliklərinə də soxulmağa, maddi ziyan vurmağa, adam tələfatı verməyə, müəyyən bir çaşqınlıq əmələ gətirməyə cəhd edirdi. Ona görə də bu yerlər cəbhədən çox-çox uzaq olsa da, hətta düşmənin daha o imkanları olmayıb öz başı hayına qalsa da, hər ehtimala qarşı, belə ört-basdır eləmələr, pərdələmələr olurdu. Bir də camaat elə əzgin, elə yorğun idi ki, heç kəsin gözünə işıq-mışıq görünmürdü. Elə öyrənilmiş, elə vərdiş edilmişdi ki, bütüncə keçirsələr də etiraz edən olmazdı. Elə beləcə qaranlıqdaca otururdular.

Qüdrətov özü də bu əhvalda idi. İmkan olub gözünü yumub yata bilsə idi, hamısından yaxşı olardı. Bir də gözünü açanda görərdi səhərdir. Yoxsa bütün gecəni o, oyaq qala bilməzdi. Yüz cür fikir eləyib özünü üzərdi. Bu məqsədlə də hələ bir az tez olsa da:

– Məni bağışlayın. Yuxum gəlir, yatmaq istəyirəm, – deyə durub ikinci qata dırmaşdı. Paltarlı-paltarlı quru taxtanın üstünə uzandı. Alt qatda yatmaq mümkün deyildi. Çünki adamlar oturmuşdular. Bu da çıxıb yuxarıda yatdı. Səhər durub qatardan düşməyə hazırlaşanda gördü dünən axşam kor kişiyə verdiyi bir qırık çörəklə kolbasa stolun üstündəcə quruya-quruya qalıb. Vəziyyət, şərait elə gətirmişdi ki, o bir parça çörəyi heç kəs adam kimi yeyə bilməmişdi...

Bunlar onun yadından çıxan deyildi. Hamısı bircə-bircə ağlında idi. Tez-tez xatırlayır, fikrə gedir, hər bir əhvalatı, görüşü təzədən analiz edirdi. Əslində, müharibədə gördükləri bunlardan dəhşətli, çətin idi. Amma nəyə görəsə onlardan çox bunlar haqqında düşünürdü. Bu hadisələr onun üçün nəsə qaranlıq idi. Qeyri-müəyyən idi. Bir çox hərəkətlər, hadisələr aydın deyildi. Dərinə gedəndə kimin nəyə, nə məqsədə qulluq elədiyini ayırd etmək olmurdu. Ona görə də tək qalıb bir söhbət yoldaşı olmayanda bu barədə daha çox düşünür, fikir labirintinin qıraq-bucağında, döngələrində ilişib qalır, bəzən heç gəldiyi yolu da tapa bilmirdi.

– Xoş gəlmisən. Xoş gəlmisən, – deyə kişi yastığına dirsəklənib dikəldi və ən çox ona şad oldu ki, onlardan bir xəbər tutacaq. Görsün nə təhərdirlər? Atası işləyirmi? Daha ona bir söz deyən yoxdur ki?

Vahidin də qırışığı açıldı. Çünki bir az qorxa-qorxa gəlirdi ki, üzünə baxmaya, deyə sizin üstünüzdə mən zibilə düşdüm, başıma olmazın işlər gəldi... Bunu hiss eləməyən Vahid əlindəki sovqatı kişinin çarpayısının böyründəki dolabın üstə qoyub ona sarı döndü. Amma bilmədi nə desin, nə danışsın, ailələrinin ona bəslədiyi minnətdarlıq hissini necə çatdırsın. Səsini çıxarmağa utanırdı. Axırı dilinin qıfılını açdı:

– Nənəm salam-dua deyirdi.

– Salam göndərən sağ olsun, – deyə xəstə gülə-gülə başını tərpətdi. – Onu gətirən də.

Oğlanın onu yoluxmağa gəlməsindən Nuru Qüdrətov, həqiqətən, çox razı qalmışdı. Onun etibarlılığından, sədaqətli olmasından xoşu gəlmişdi. Elə buna görə idi ki, bu da öz növbəsində onu yaxşı, mehribançılıqla qəbul etməyə çalışır, ailələrindən xəbər tutur, valideynlərini soruşurdu. Birinci elə nənəsini xəbər aldı:

– Necədir? Nə təhərdir? – dedi.

– Yaxşıdır. Çox sağ olun.

– Bəs ata, anan, bacıların?

– Hamısı yaxşıdır, – deyə Vahid razı-razı başını tərpətdi. Utandığından, sıxıldığından yekə kişilər dəstiri qurra-qurra danışmağa çox cəhd eləməyə çalışmasa da, bu da onun kefini xəbər aldı. Yaxşı deyildi. Deyərdi ki, o boyda yolu gəlib, amma əhvalından xəbər tutmur.

– Siz necəsiniz?

– Sağ ol. Yaxşıyam, – deyə Nuru Qüdrətov özünü bir az da şən, gümrah göstərdi, şikayətlənməyi lazım bilmədi.

Onlar belə söhbət edirdilər ki, əynində ağ xalat olan bir kişi gəldi.

– Buyurun, həkim buyurun, – deyə Nuru Qüdrətov yerindən qalxan kimi oldu. Yəqin – belə fikirləşdi ki, ona baxmağa gəlir. Ancaq başqa məqsədə gəlmişdi. Yaxınlaşıb astadan:

– NKVD-dən bir nəfər gəlib, Nuru müəllim. Sizlə nə barədəsə danışmaq istəyir. Doğrudur, mən etiraz etdim. Dedim təzyiqi yüksəkdir. İndi onu əsəbiləşdirmək olmaz. Razılaşmadı. Dedi vacib iş var. Mənim kabinetimə getməliyik.

– Yaxşı. İndi gəlirəm, – deyə Nuru Qüdrətov Vahidlə söhbəti kəsməyə məcbur olduğu üçün əlacsız-əlacsız öz gənc dostunun üzünə baxdı və gülümsədi ki, buna görə qanını qaraltmasın. Vəziyyəti belə görən Vahid ayağa durdu.

– Sağ ol, oğlum. Yanıma gəldiyin üçün çox sağ ol, – deyə Nuru Qüdrətov əlini uzadıb Vahidlə xudahafizləşdi. – Evdəkilərə də salam söylə.

– Salam göndərən sağ olsun, – deyə Vahid təşəkkür edib palatadan çıxdı. Koridordan keçəndə qara dərili pencək geyinmiş bir adamın baş həkimin otağının qabağında dayandığını gördü. Hə-əə. NKVD-dən gələn bu adam idi. Bunun qorxusu, hovu o qədər güclü, o qədər şiddətli idi ki, Vahid ona sarı heç yaxşı baxa bilmədi də. Başını aşağı salıb qapıya yönəldi. Elə bil bu saatca onu da tutacaqdılar. Amma yolda Vahid qara dərili pencək geyinmiş adama söyə-söyə gedirdi. Anası, bacısı qalmırdı, hamısını bir-birinə qatırdı. Əslində, Vahid söyüş söyən deyildi. Ancaq elə yanıb tökülmüşdü ki, dişinin dibindən çıxanı deyirdi. Bununla da acığı soyumayıb fikrində, xəyalında bütün bu gördüyü ədalətsizliyə qarşı dura biləcək çox güclü bir qüvvə axtardı. Tanıdığı, bildiyi adamları gözünün qabağına gətirdi. Xəyalən Əsəd gəlib gözünün qabağında dayandı.

Əsgər paltarında, əlində avtomat elə bir ciddi görkəmlə və əzmkarlıqla dayanmışdı ki, Vahid əmin oldu ki, onun bu dünyada gücü çatmadığı bir şey yoxdur. Budur, qara dəridən pencək geyinmiş adama dedi:

– Sən kimsən, adamları incidirsən?! Niyə qoymursan xalq rahat yaşaya. İndi mən səni aparıb dama salacağam, – deyə Əsəd avtomatını ona sarı çevirdi və əmr etdi. – Düş qabağıma!

Qara dəri pencəkli adamın sırtının üstə tapanca vardı. Pencəyinin ətəyi domba dururdu. O, əlini silahına atdı ki, müqavimət göstərsin. Əsədi vursun. Onadək Əsəd qışqırdı:

– Tərpənmə! Vuracam!

Bu, əlini yanına saldı. Qorxub daha qımıldanmadı. Onun nə deyəcəyini gözlədi. Kişi, deyəsən, ürək-göbəyini yemişdi. Rəngi ağappaq kağız təki idi. Əsəd bu dəfə rus dilində əmr etdi:

– Kru-qom!

– Yaxşı. Yaxşı. Qara dərili pencək geyinmiş adam tez əmrə tabe olub döndü. Əsədin avtomatının lüləsi altında bürüşüb, həmişə dik duran çiyinləri sallana-sallana gedəndə Vahidin irzi-irəngi açılıb dodaqları qaçmışdı. Az qalır ki, bir avtomat da bu götürsün. NKVD işçisinin bu hala düşməsi ona ləzzət verirdi.

Belə şən əhvalla Vahid kəndlərinə gəldi. Ancaq öz məhəllələrinə çatanda gördü başlarına qara kəlağayı salmış arvadlar «Booy, booy» eliyərək Əsədgilə qaçırlar. Əsədgildən də ağlaşma səsi gəlir. Vahid yüyürüb bir arvaddan soruşdu:

– Ay xala, nə olub?

– Nə olacaq, ay oğul. Fağırcaların öyü yıxılıb. Əsəddən qara kağız gəlib.

Vahidi elə bil ildırım vurdu. Nə bir söz deyə bildi, nə də yerindən tərpəndi. Quruyub qaldı. Bütün ümidini ona bağlamışdı, ondan imdad gözləyirdi. O da əlindən çıxdı... Bir azdan kövrək uşaq qəlbində ağır bir kədər yükü asta-asta evlərinə gəldi. Hələ heç içəri girməmiş hiss elədi ki, evlərində heç kəs yoxdur. Görünür, nənəsi də, ata-anası da Əsədgilə getmişdi. Ümumiyyətlə, evdə heç kəs yox idi. Bu da içəri girməyib eşikdəcə odunların üstə oturdu. Dostu Əsəd gözünün qabağından getmirdi. Yanıb tökülürdü ki, şineli o vaxt niyə ona vermədim. Bir geyim şeyi nədir ki, ondan əsirgədim. Elə bir oğlana qıymadım. Bə belə də iş olardı? Ələkbərin qızı Südabə də özündən bir hoqqa çıxartdı. İndi gör o, nələr çəkir. Bax, beləcə Vahid od tutub yanır, fikirdən dəli olmaq dərəcəsinə gəlirdi. Bu ara Qərənfil onlara gəldi. Qəmli-qəmli:

– Mən Əsədgildə idim, – dedi. – Anan göndərdi ki, get gör Vahid gəlibmi?

– Hə-ə, gəlmişəm, – deyə Vahid qıza baxmadan könülsüz cavab verdi. Bu saat onun gözünə heç nə görünmürdü.

– Dedi deynən yoldan gəlib, tərləmiş olar, içəridə otursun, özünü soyuğa verməsin.

Qızın sözlərindən o, əsəbiləşib köntöy cavab verdi:

– Soyuq olmaz.

– Necə olmaz?! Qoy gedim şinelini gətirim, çiyninə sal, – deyə qız oğlanın yanından ötüb onlara getdi.

Vahid onun ardınca baxıb acıqla səsləndi:

– Gətirmə! Lazım deyil!

– Necə lazım deyil. Lazımdır. Hava soyuqdur. – Qız sözə baxmadı. Gedib içəridən şineli gətirdi və oğlanın çiyninə saldı.

– Sənə demədimmi lazım deyil? – Əlini atıb şineli çiynində qamarladı, dartıb qabağında iri kötük var idi, şappıltı ilə onun üstə çırpdı. Kötüyün yanında da bir balta var idi. Ağlına haradan gəldisə götürüb başı üstə qaldıranda, qız oğlanın məqsədini başa düşüb:

– Ədə, ədə, nə edirsən?! – dedisə də Vahid qulaq asmadı, bir dəqiqənin içində şineli doğram-doğram elədi.

– Booy, ədə, allah haqqı sən bütüncə dəlisən, – deyə qız oğlanın hərəkətinə təəccüb qalıb barmağını dodağına aparanda Vahid əlini əlinə çırpıb üzünü çevirdi. Dolmuşdu. Həm Əsədə görə, həm də, ümumiyyətlə, belə gənc yaşında çəkdiyi dərdə, iztirablara dözə bilmədiyi üçün ağlamaq istədi. Gözləri yaşarmışdı.

Qərənfil bunu görüb oğlanın başını qatmaq istədi:

– Bəri gəl, bunları yığışdıraq, – dedi, – aparıb öylərə paylayaq. Kimin yoxdur, qoy lampası üçün piltə düzəltsin.

Hirsli olduğundan və kövrəldiyindən danışmasa da, Vahid ürəyində qızın bu təklifini təqdir etdi. Şinel əhvalatı da bununla qurtardı. Ancaq onu əyninə geyinmiş olan adamlar hələ dururdular. Hələ yaşayırdılar. Qabaqda hələ çox işlər dururdu...



# QURUMUŞ BULAĞIN NAĞILI

Deyərlər ki, od düşdüyü yeri yandırır. Əlbəttə, bu, həqiqətdir. Amma bəzən elə hallar da olur ki, yalnız düşdüyü yeri deyil, yan-yörəsini, hələ bir az da uzaq ətraf yerləri də qarsalayıb elə yandırır ki, lap kömürü çıxır. Qonşuluqda balaca bir həyət otağında yaşayan, müharibə qurtarandan heç bir il keçməmiş cəbhədə aldığı kantuziyadan qəfildən ölən Ağarzanın həyat yoldaşı Fatmanın da ərinin dəfnindən az sonra doğuş zamanı uşaq üstə birdən-birə həlak olması Bakıda bütün Çəmbərəkənd məhəlləsinin adamlarını, o cümlədən, Həsənağa kişilə Səltənət arvadı elə yandırdı ki, neçə gün özlərinə gələ bilmədilər. İraq olsun, elə bil bunların evinə yas düşmüşdü. Çox şeyi də bunlar gördülər. Həsənağa kişi qıçını çəkə-çəkə o işin, bu işin ardınca qaçmaqdan tamam əldən düşdü. Amma çətinliklə olsa da, işi bir təhər aşırdılar. Sonra da... yaxşı deyiblər ki, ölənlə kim ölüb?! Qəmlənib-qəmlənib, ağlayıb-ağlayıb, lap yanıb-tökülüb, nəhayət, sakitləşdilər. Həyatdan çox cavan getmiş gəlini aparıb qara torpağa tapşırıb gələndən bir neçə gün sonra Səltənət evdə nəsə bir iş görən zaman Həsənağa kişi protez ayağını çəkə-çəkə qucağında qundaq, budur, içəri girdi. Səltənət arvad onu görcək məəttəl qaldı. O dəqiqə bildi ki, bu, nə məsələdir?

– Vaxsey! Vaxsey! – eləyib əllərini təlaşla dizlərinə vurdu.

Kişi dilxor oldu. Həmişə tək ayağının üstə çox dayanmayıb protez qıçını əl ağacı kimi irəli uzadıb bir yerdə əyləşən Həsənağa kişi bu dəfə elə bil tir olub dikinə döşəməyə mismarlanmışdı. Qucağından uşaq alınmamış oturan deyildi. Qorxurdu əyiləndə uşağı narahat eliyə.

Ərinin bir sözünü heç vaxt iki eləməyən, xüsusilə indi, davadan bu vəziyyətdə qayıdandan sonra onun qulluğunda həmişə hazır olan Səltənət isə özünü itirmişdi, nə edəcəyini müəyyənləşdirə bilmirdi. Çətin məsələ idi. Canlı adam idi. Boynuna çəkdin, gərək saxlayasan. Ancaq Səltənət nə üçün belə tərəddüd etdiyinin, çıxılmaz vəziyyətdə qaldığının səbəbini izah etməli oldu. Yumşaqlıqla:

– Vallah, ay Həsənağa, – dedi, – başımda huşum yox, əmizdirməyə döşüm, mənə elə niyə baxırsan, mən nə edim?! – Bildirdi ki, bu uşağa ana olmağa hazırdır. Amma ona döşü hardan alıb versin?! Körpə uşaq da gərək əmsin, başqa çarəsi yoxdur.

Həsənağa kişi yenə o cür dayanıb, o qaydada baxmağında davam etdi. Bu kişi də qəribə kişi olmuşdu. Alnını yığıb adama elə baxırdı ki, deyirdin nə bilim nə olub. İndi də baxışlarının mənası bu idi ki, götür uşağı qucağımdan, başqa

çarə yoxdur, divarın o üzündə onlar olub, bu üzündə biz. Bilirsən ki, elə adamları olmayıb. Oğlanın bir qoca anası vardı, dava illərində baxanı olmadı, naxoşlayıb öldü. Arvadı da yetim qız idi. Heç kəsi yox idi. Yenicə ağ günə çıxmışdı ki, gəlib belə oldu. İndi onlar yoxdurlar, uşaqları çöldə ha qalmayacaq?!

Bu işin başqa cür həll olunacağına bir gümanı olmasa da, Səltənət yenə ürək eləmirdi. Düşündükcə çətin məsələ idi. Uşaq ağlayıb, çatdayıb, yarılıb məmə istəyəndə bu nə edə bilərdi? Döşü yox idi, çıxardıb versin. Uşağa da süd lazım idi. Qalmışdı naəlac. Davanın o aclıq, qıtlıq, əskiklik vaxtında belə bu cür çətinə düşməmişdi. Hardan ağlına gəldisə, birdən dedi:

– Aparıb verəydin hökumətə, səndən də, məndən də yaxşı saxlayacaqdılar.

Hələ qıçından başqa Həsənağa kişi üstəlik bir az da kontuziya almışdı. Guya, biri bəs eləmirdi, ona ikinci bir zərbə də vurulmuşdu. Ona görə nəsə xətrinə dəyən, xoşuna gəlməyən bir söz, bir şey olanda o dəqiqə əsəbiləşirdi. Doğrudur, dava orda – bir vaxt üstümüzə gələn, bizi məhv eləmək istəyən dövlətin torpaqlarında, sərhədlərində qurtarmışdı, amma burda Həsənağa kişi üçün elə bil davam edirdi. Qonşusu Ağarzanın meyitini çiyninə alıb qıçını çəkə-çəkə aparanda elə bilmişdi ki, yenə davadadır. Nə fərqi vardı. Ağarzaya gülləni orda atmışdılar, burda ölmüşdü. Hələ üstəlik cavanca arvadına da dəydi. Həsənağa yaxşı bilirdi ki, bu da onun dərdindən getdi. Ərinin ölümünə dözməyib bunun da ürəyi partladı. Heç uşaqlarının üzünü görmədilər. Belə də dərd olardımı? Belə də... Bu bədbəxtçiliyin hamısının günahını Həsənağa kişi davada görürdü. Hələ bu şoqərib müharibə çox oyunlardan çıxacaqdı. Bax, bu cür vəziyyətin özü Həsənağa kişini bəzən heç nədən əsəbiləşdirib söylədirdi. Odur ki Səltənət «uşağı aparıb verəydin hökumətə...» – deyəndə kişi dəli olmadımı? Hirsli-hirsli:

– Əşi, mən bilmirəm bu hökumətdən nə istəyirsiniz? – dedi.

Həsənağa kişi elə bir ittihamla səsləndi ki, Səltənət arvad ağzını açmağına peşman oldu. Əslində o, yəni Səltənət dövlətdən heç nə istəməmişdi. Dövlət ondan istəmişdi, amma o, dövlətdən istəməmişdi. Bax, dava təzə başlayanda gəlmişdilər ki, hamı gedib, arxada işləyən yoxdur, bu da gedib işləmişdi. Sonra davanın lap o qızğın vaxtında gəlmişdilər ki, mis şeylər lazımdır, ondan nəsə düzəldəcəklərini söyləmişdilər. Səltənət də evdə nə ki, mis qab-qacaq vardı, hamısını yığışdırıb vermişdi. Sonra da gəlmişdilər ki, cəbhəyə maddi kömək eləmək lazımdır. Bunun özünün, ailəsinin maddi köməyə ehtiyacı olsa da, Səltənət arvad bunu da eləmişdi. Bilirdi ki, Vətən dardadır, onun yolunda lap canını da qurban verməyə hazır idi.

Bunun müqabilində Həsənağa kişi onu günahlandırırdı ki, guya, Səltənət hökumət yanında ağlayıb sıtqıyıb ki, bunu ver, onu ver. Belələrindən Səltənətin zəhləsi gedirdi. Görməyə gözü yox idi. Bunu bilməyən Həsənağa kişi, həqiqətən, xüsusi bir narazılıq hissilə deyirdi:

– Ev lazımdır – hökumət. Eşik lazımdır – hökumət. Uşağım oxumalıdır – hökumət. Özümün filan dərdim var, – hökumət. Xəstələnmişəm – hökumət. Nə bilim nə lazımdır – hökumət. İndi də bu cür bədbəxt hadisə olub – yenə hökumət. Hökumətin də hökumət işi var axı. Qoysanız öz işinnən, dərdinnən-azarınnan məşğul ola.

Heç bir günahı olmaya-olmaya Səltənət arvadı Həsənağa kişi danlayırdı. Axırı dedi-dedi yoruldu. Bunu da başa düşürdü ki, bu arvadı yaman çətinə salıb. Başa düşürdü ki, bu çox müşkül bir işdir. Əlbəttə, bu kişi onu heç belə çıxılmaz vəziyyətə salmamışdı. İndiyədək evin başıpapaqlı başçısı kimi onun elə bir işi, tapşırığı olmamışdı ki, Səltənət arvad onu səliqə ilə dərhal yerinə yetirməmiş olsun. Hətta mümkün olmayan bir şeyi də mümkün eləmişdi. Hər bir işin öhdəsindən gələ bilmişdi. Kişinin qəfildən gələn qonaq-qarasını bəzən yox yerdən elə yola salmışdı ki, kişi özü də məəttəl qalmışdı. Səltənət iş yarıdan arvad idi. Üstünə bir xahişə gələn adamı əliboş, peşman qaytarmazdı. Hamıya əlindən gələn köməyi eliyən idi. Amma indi kişi onu elə bir çətin dağa dirəmişdi ki, bu yaşında, bu sinnində onu heç cür çıxana oxşamırdı. Bir ordunun paltarını gətirib töksə yuyardı. Bir toyluq adamın yeməyini bişirərdi, süfrəsini açardı. Hər bir işdə gecə-gündüz əlləşərdi. Bunların hamısı mümkün olan iş idi. Səltənət arvad bu fikirdə idi ki, insanın əlindən heç nə qaça bilməz. Amma bu işdə çarəsiz qalmışdı. Arvad ha fikirləşirdi bir yana çıxarda bilmirdi. Südəmər uşaq idi. Buna döşü olan ana lazım idi. Əmizdirsin, yatızdırsın. Əsgilərini yusun, altını, üstünü təmizləsin. Səltənət arvad bunların hamısını edə bilərdi. Uşağı lap çiçək təki saxlayardı. Ondan həmişə gül ətri gələrdi. Bəs onu əmizdirmək işi necə olsun. Səltənət arvad döşü haradan alıb ona versin? Bununla bərabər, Səltənət arvad öz-özlüyündə bunu da ağlından keçirdi ki, bütün bu fikirlərlə o, kömək üçün üstünə gətirilmiş bu balaca, hələ dünyadan ağlı bir şey kəsməyən, dilsiz-ağızsız, köməksiz bir varlığı başından eləmək-mi istəyir. Canını arxayınmı gəzir. Özünü çətinə salmamaqmı istəyir. Yaxşı, tutaq ki, o bu cür elədi, bəs bunu Allah götürərmi? Eşidən-bilən, xəbər tutan onu lənətləməzmi? Hamı onu qınamazmı ki, ay insafsız, bəs niyə elə iş görürsən?

Bu fikirlər içərisində Səltənət arvad qeyri-iradi olaraq qollarını qaldırıb əllərinin ikisini də qoşalama irəli uzatdı. Həsənağa kişi uşağı gedib doğum evindən qayda-qanunla, bütün qeydiyyatı ilə götürüb gəlmişdi ki, arvadı elə bu cür eləsin. Səltənət körpəyə ana olsun, o da ata. Nə fərqi var?! Elə bilərlər bu yaşda bir uşaqları da olub. Ümumiyyətlə, həyatda hər cür iş, hadisə ola bilər. Amma burası var ki, belə işi Səltənət arvad çoxdan yadırğamışdı. O hislər elə bil onda ölüb getmişdi. Bəs bu nə təhər ola bilərdi. Bu yerdə uşaq Həsənağa kişinin qucağında, bələyin içində tərpəşdi, qığıldadı. Görünür, bayaqdan yatmışdı, indi oyandı. Bundan Səltənət arvadın ürəyindən nəsə ılıq, xoş bir hiss keçdi. Hə. Bayaqdan uşağın adını tutsalar da, sözünü danışsalar da, əslində, elə bil özü yox idi. Ancaq

nəsə bir qaynarlıqla tərpəşib səsini çıxardanda varlığını elə bil bildirdi, özünü göstərdi ki, mən varam və həmçinin özü də tələb elədi ki, onun qayğısına qalsınlar, yaşamağı barəsində düşünsünlər. Elə bu təsirlərdən idi ki, bayaqdan «vaxsey, vaxsey!» eləyib uşağı yaxın qoymayan Səltənət arvad birdən-birə dəyişilib dindi:

– Can! Can! – deyə uşağı usdufca ərindən alıb elə qucağındaca yırğaladı ki, ağlamasın, kirisin.

Həsənağa kişi də bunu istəmirdimi?! Ölüb-itdiyi bu deyildimi?! Başqa cür də hərəkət edə bilməzdi. Belə bir şeydə laqeyd olmaq, öz rahatlığını güdmək, işə yaramamaq yaxşı deyildi. Çünki indi ortalıqda tək, kimsəsiz qalmış bu uşağın valideynlərinin ən yaxın qonşuları bunlar olmuşdu. Nə olsun ki, indi onlar həyatda yoxdurlar. Daha bir-birlərini görməyəcəklər. Nə rast gələcəklər, nə də bir şeyi üzünə çəkəcəklər. Daha bundan sonra onların heç biri şeyə imkanları yoxdur. Bəs adamın öz vicdanı? Həqiqi düşünəndə onun mühakiməsi başqalarınkından daha dəhşətli olur. Gecəmi, gündüzmü, vaxtlımı-vaxtsızmı bir də görürsən yapışdı adamın yaxasından. Elə şey soruşur ki, ayaqlarının altından yer qaçır. Di gəl bir yerdən tut. Əlini hara atırsan əlində gəlir. Beləcə Həsənağa kişi həyatda görüb-götürmüş adam idi. Həyatda nəyin pis, nəyin yaxşı olduğunu bilirdi. Bir də təbiət bunu elə bil xeyirxahlıq, yaxşılıq üçün yaratmışdı. Ona görə gedib uşağı doğum evindən «özüm saxlayacağam» deyə döşünə döyüb gətirmişdi.

– Bax, elə olmasın ki, məni peşman eliyəsən!

– Boyy, ay Həsənağa, sən də məni qorxuzma, – deyə Səltənətin əti ürpəşdi.

– Yox da, dost var, düşmən var, Allah eləməmiş, uşağın başına bir iş gəlsə, onda gərək başımı qaldırıb camaatın üzünə baxmayam.

Səltənət də elə-belə arvad deyildi. Hər şeyin yerini bilən idi. Bilirdi ki, ərinin də dediyi dedikdi. Bundan başqa, bu Səltənət arvadın özü üçün də böyük şey idi. Əgər həyatdan nakam getmiş qonşunun yadigarını saxlaya bilsə, onu ərsəyə çatdırsa, elə bilərdi ki, dünyada ən böyük bir iş görüb. Əri Həsənağa kişinin də yanında, qonum-qoşunun da yanında başı uca, dili uzun olardı.

Doğum evində yola salmamışdan əvvəl onu necə yaxşıca çimdirib, qurulayıb, bələyib, sonra da başqa bir anaya doyunca əmizdirmişdilərsə, uşaq bütün yol boyu və indi evə gəlib Səltənət anasının qucağına gedənəcən əməllicə yatmışdı. Bayaq arada bəlkə də, bir az tərpəşmiş, çəkilib-uzanmış olsa da, indi tamam ayıldı. Gözlərini xırp açıb, başını oyan-buyana çevirərək başladı ağzı ilə məmə axtarmağa.

– Booy, ay Həsənağa, heyvancığaz döş istəyir, – deyə Səltənət arvad ana-balalığın ilk addımından təntiyib bilmədi nə etsin. Daha əliuşaqlı vaxtları deyildi ki, döşünü çıxarıb versin. Uşaq da əmsin nə qədər istəyir. Özü də döşləri elə südlü olardı ki, axıb köynəyini isladardı. Analarının südü olmadığından neçə uşağı gətirib ona əmizdirmişdilər. Hərdən yadına salanda görürdü ki, neçə uşağın süd anası olub.

İndi özü belə bir ehtiyac qarşısında qalmışdı. Uşaq ağzını oyan-buyana aparıb döş gəzir, tamadıqca daha təlaşla hərəkət edirdi. Səltənət arvadın da ürəyinin başı tökülürdü. Çox pis olurdu. Sonra da uşaq başladı ağlamağa:

– I, ı, ı, ı, ı, – eləyərək Səltənət arvad ayaq üstəcə tərpənib uşağı qucağında yırğaladı. Xeyri olmadı. Görünür, acmışdı. Qarnı doymamış sakit olan deyildi. Bəs necə etsin? Birdən yadına düşdü ki, qonşu həyətdə əliuşaqlı bir gəlin var. Bəlkə, gedib ondan xahiş eləyə, deyə, ay qızım, amanın bir günüdür, kömək elə, savabdır. Bunun daha başqa çarəsi yox idi. Körpə uşaq «var-yox» bilən deyil. Gərək tələbini ödəyəsən, istəyini verəsən. Həsənağa kişinin də matı-qutu qurumuşdu. İndi başa düşürdü ki, arvadı niyə belə tərəddüd eləyirmiş. Niyə əvvəl-əvvəl yaxın qoymurmuş.

– Ay Həsənağa, bir uşağı tut, – deyə bələyi buna verib özü qaçdı.

Yaxşı ki, Səltənət arvad çox ləngimədi, yanında da bir gəlin tezcə qayıdıb gəldi. İçəri gircək gəlinə bir az ərklə, bir az da xoşluqla, qılıqla:

– Qurban olum, a qızım, – dedi, – bax, bu uşağı əmizdir, sənə əziyyət olsa da, gərək eləyəsən, başqa çarəmiz yoxdur.

Gəlin də bir söz deməyib yana çevrildi, əlini qoynuna salıb döşünü çıxardanda Həsənağa kişi bir az özünə gələrək dönüb otaqdan çıxdı, qapını ardınca örtəndə uşaq artıq səsini kəsmişdi, marça-marçla əmirdi.

* * *

Həyatda necə çətin iş olur-olsun adam ürəklə, həvəslə girişəndə düzəlməmiş, yerinə yetməmiş olmur. Görürsən hardansa bir işıq ucu açılır, neçə bir çarə tapılır. Qonşu gəlin də bu yerdə onların yaman karına gəldi, dadına çatdı. Səltənətlə Həsənağa bilmirdilər ona necə təşəkkür etsinlər. Qonşu gəlin hələ axşamdan da bir-iki dəfə gəlib uşağı əmizdirmişdi. Uşaq da, maşallah, sağlam uşaq idi. Əmməklə doymaq bilmirdi. Hər nə təhər, indi yatmışdı. Bunlar da yatmışdılar. Gündüzdən yorğun olduqları üçün ağızları açıla qalmışdı. Hər halda, uşaq onlar üçün müəyyən narahatçılıq gətirmişdi. Bunlar da qoca olmasalar, cavan da deyildilər. Kişinin əlli yaşı vardı. Səltənət də qırxı çoxdan adlamışdı. İki uşaqları vardı. Bir oğlan, bir qız. Böyükləri qız idi. Köçürmüşdülər. Oğlu isə bu ildən dənizçilik məktəbində oxuyurdu. Qərəz ki, körpə uşaq qayğılarından onlar çoxdan qurtarmışdılar. İndi birdən-birə, hazırlıqsız bu işə düşəndə, əlbəttə, bir az təntidilər. Hələ yaxşı ki, qonşuda o gəlin vardı, yoxsa... İşlərinin beləcə düzəldiyindən xeyli şad olmuş Həsənağa kişilə Səltənət arxayınlaşıb şirin yuxuya getmişdilər. Uşaq da yatmışdı. Mavi abajurlu stolüstü lampanı da küncdə yanılı qoymuşdular ki, uşaq gecə oyanıb – eləyəndə gözləri ayaqlarının altını seçsin, evdə tərpənmək mümkün olsun. Həqiqətən, gecənin nə vaxtı isə uşağın səsinə oyandılar. Gördülər oyanıb ağlayır. Özü də acıqlı-acıqlı elə ağlayır ki, deyirsən biri tutub,

biri döyür. Hə-ə. Demək acıb. Yenə döş istəyir. Uşaq var, yox başa düşən deyil. İstədiyini verməsən, tələbini ödəməsən sakitləşməz. Səltənət onun bələyini açdı, təzədən bələdi. Rahatca yerinə qoydu. Amma uşaq səsini kəsmədi, elə bağırırdı ki. Acmışdı, döş istəyirdi. Gecənin gird yarısı nə etsinlər? Əllərindən nə gəlirdi. Həsənağa kişilə Səltənət arvad özlərini beləcə işə salmışdılar. Uşağın səsindən ikisi də dəli olmaq dərəcəsinə gəlmişdi. Nə edirdilərsə, xeyri olmur, uşaq kirimirdi. Səltənət yerinin içindəcə uşağı qucağına alıb, kiritmək üçün «ı, ı, ı, ı» eləyərək fasiləsiz olaraq yırğalayır, bu da onun qabağında bir qıçının üstə tumanpaça var-gəl edirdi. Evdə bir arvad, bir də özü olsa da, Həsənağa kişi ədəb-ərkan gözləyən adam idi. İndi uşaq necə təntitmişdisə, şalvarını geyməyi də unutmuşdu. Protezini çıxartdığından qoltuq ağaclarında hərlənirdi. Əlbəttə, başa düşürdü ki, ailənin belə narahat olmasına əsas səbəbkar o özüdür. Bəs bu uşağı o götürüb gətirəndə bilmirdimi ki, belə olacaq. Bilmirdimi ki, bunun ağzı var, qarnı var, yemək istəyəcək. Suçlu-suçlu dilləndi:

– A Səltənət.

– Hə.

Həsənağa kişi bilmədi sözünü necə desin. Başa düşürdü ki, gecədir, hamı yatıb. Gündüzün qayğılarından, iş-gücündən azad olmuş adamların hamısı indi şirin yuxudadır.

– Gəlini çağıra bilmərikmi?

Bu, Səltənətin də ağlına gəlmişdi. Ancaq heç cür mümkün edə bilmirdi.

– Yox, yox. Olmaz, – dedi, – yaxşı deyil, o da yazıqdır, əliuşaqlıdır. Bu da bir yandan.

– Bəs necə edək? – İndiyədək həyatında Həsənağa kişi özünü, bəlkə də, heç belə aciz, gücsüz hiss eləməmişdi. Müharibənin o çətin, ağır vaxtında belə onun üçün yerinə yetirilməməsi mümkün olmayan bir tapşırıq, iş olmamışdı. Dil istəmişdilər, dil gətirmişdi. Almanların hücumunu dayandırmağı əmr etmişdilər, dayandırmışdı. Cəbhəni yarmağı tapşırmışdılar, yarmışdı. Neçə yerindən yara almışdı, amma eləmişdi. Döyüşdə qıçını qoymuşdu, amma əmri yerinə yetirmişdi. İndi bu bir parça uşağın əlində girinc qalmışdılar. Səltənət üçün belə şeylər o qədər də çətin deyildi. Qadın xeylağı belə şeylərə öyrəncəkli olur. Amma burası var ki, ərinə qıymadı. Fikirləşirdi ki, o, davada azmı əziyyət çəkib?! Azmı çətinlik görüb?! İndi də gecənin bu vaxtında narahat olsun, yuxusuz qalsın. Deyəsən, bu müharibə hələ onları çox incidəcəkdi? Guya, qurtarıb. Bəs bunlar nədir? Birini yetim qoyub Səltənətin qucağına vermişdi. Gözünü yumub, ağzını açıb, narazı-narazı elə bağırırdı ki, deyirdin, dünyanın üzünə baxmaq istəmir, ondan zəhləsi getdiyini bildirir. O biri də qoltuq ağaclarına söykənəcəkli, ayaq üstə güclə dayanıb. Çiyinlər şişib qalxıb, kişinin boynu da gödəlib elə bil içinə girib. Səltənət heç cür kişinin bu görkəminə öyrəşə bilmirdi, qanı qaralırdı.

Həsənağa kişi bu ara dilləndi:
– Səltənət.
– Hə.
– Bəlkə, öz döşünü verəsən.
– Öz döşümü?
– Hə-ə.
– Öz döşümdə nə var, nə verim? – deyə Səltənət əlini qoynuna salıb köynəyini altından döşlərinin ikisini də çıxartdı. Yəni bax, – dedi, – heç nə yoxdur. Bu da boş-boş danışdığına görəmi, yoxsa başqa bir şeyə, utana-utana arvadının döşlərinə nəzər saldı. İkisi də boşca idi, aşağı sallanırdılar. Həsənağa bu sözü hər halda, elə belə, əsasız demədiyini çatdırmaq fikrində idi.
– Deyirəm bəlkə... – sözünü tamamlamadı, ağlına gəldi ki, bəlkə, heç elə şey mümkün deyil.
– Nə bəlkə?
– Deyirəm uşaq əməndə, bəlkə, süd gəldi.
Səltənətin dodaqlarında xoş bir təbəssüm çiçək açdı. Bu təbəssüm onun üzünü elə bil tamam işıqlandırdı. Görünür, ərinin belə deməyi xoşuna gəlmişdi. Yəqin, özünün də ürəyindən olardı ki, indi bu yaşda, artıq böyümüş uşaqlarının balacalıq illərindən çox-çox sonra qırışığı açılsın, çiçəyi çırtlasın, təzədən gəlinlik çağına qayıtsın. Yoxsa elə bunlar müharibədən qabaqkı illərdə qalmışdı?! Daha heç nə olan deyildi. Səltənət sakit-sakit dedi:
– Bir bulaq ki, qurumuş ola, ondan su gələrmi?
– Gələr! Niyə gəlmir? – deyə Həsənağa inamla cavab verdi.
Özü də bu ara fikirləşdi ki, nə yaxşı oldu ki, bu söhbəti başladı. Hər halda, başları qarışırdı. Azacıq da olsa fikir, diqqətləri ağlayan uşaqdan yayınırdı.
Səltənət isə çağanı qucağında dizləri üstə yırğalamağında davam edərək ərinin sözünə təəccüb etdi.
– Necə gəlir, eyyy?
– Bəs eşitməmisən ki, deyərlər su axan yerdən bir də axar. Əsas istəməkdir. Ürəkdən istəyəndə hər şey olar. Bax, elə heç uzağa getməyək, adicə torpağı götürək. Sən elə bilmə ki, torpağın ürəyi yoxdur. Xeyr, var. Onun ürəyi daha həssas, daha incədir. Bax, o, biləndə ki, insanın nəyəsə bir ehtiyacı var, görürsən onu bitirir. Bax, bilir ki, insanın suya da ehtiyacı var, onsuz yaşaya bilməz, odur ki bulağı var, çayı var, dənizi var. İndi... bəlkə... bir də gördün sənin də döşlərindən süd gəldi.
Bunu Həsənağa kişi elə bir inamla, yəqinliklə dedi ki, elə bil Səltənət arvadın boşca aşağı sallanan döşləri doludu, şüşələndi. Və o, qeyri-adi olaraq əlini döşünə apardı, ovcu ilə tutub, yığıb-sıxcalayıb bir az nəsə yumrulaşdırdı. Sonra o biri əlilə uşağı düzəldib körpəni bir az da yuxarı sinəsinə sarı qaldırdı. Və məməsinin giləsini uşağa verdi. Heç gümanı yox idi ki, uşaq onun döşünü tutsun. Yəqin,

süd iyisini almayıb ağzını geri qaçırdacaq. Amma elə olmadı. Canavar təki necə yapışdısa boş-boşuna olsa da, mırçamırçla əmməyə başladı.

Səltənət arvad belə şeyə çoxdan yadırğamışdı. İndi qıdığı gəlsə də, məcbur olub dözdü.

* * *

Uşaq Səltənət arvadın döşlərini yalan yerə sora-sora, nəhayət, yuxuya getdi. Elə oldu ki, Səltənət döşünü uşağın ağzından çəkməyə belə qorxdu. Qorxdu oyana, yenə ağlayıb özünü öldürə. Nə günlə kiritmişdilər. Yalandan başını aldatmışdılar. Səltənət özü də əldən düşmüşdü. Buna baxmayaraq, özü barəsində düşünmürdü. Elə hey uşağın fikrini eləyirdi. Ərinin də gecə vaxtı belə narahat olması onun üçün bir dərd idi. Ancaq nə edə bilərdi?! Günah onun özündə idi. Bilmirdimi ki, südəmər ana uşağını saxlamaq asan iş deyil. Bütün qonşular mətəl qalmışdılar ki, bunu necə saxlayacaqsınız? Belə sözlər eşidəndə xüsusilə Həsənağa kişi dəli olurdu.

– Adə, a kişi, a başınıza dönüm, – deyirdi – bilmirəm mənmi dəli olmuşam, yoxsa bu camaatmı?! Yaxşı sən saxlama, mən saxlamayım, o saxlamasın. Bəs kim saxlasın? Ölsün?

Həsənağa iki müharibənin canlı şahidi, fəal iştirakçısı olmuşdu. Alman və yapon müharibəsinin, qərbdə davanın alovları sönəndən sonra bunu nəyə görəsə xüsusi hal olaraq bu tərəfə, şərqə atmışdılar. Qıçını da orda itirmişdi. Xülasə, hər yerdə əlində tüfəng bu ölümə qarşı çıxmışdı. Burda da qoltuq ağaclarına söykənib ölümə qarşı çıxırdı. Əslində, onu qonşular da başa düşürdülər. Bilirdilər ki, Həsənağa da, Səltənət də çox yaxşı, xeyirxah iş görürlər, hamı onları alqışlayırdı. Hamı onların bu hərəkətini qiymətləndirirdi. Sadəcə olaraq onlara qıymırdılar. Bu işin çox dəhşət dərəcədə çətinliyini başa düşdüklərindən və bəlkə də, südəmər uşağın bu şəraitdə, bu vəziyyətdə yaşaya biləcəyini qeyri-mümkün hesab etdiklərindən belə deyirdilər. Bəzən müəyyən bir işə kömək etmək mümkün olmayanda, əli bir yerə çatmayanda adamlar belə sərt-sərt danışırlar. İşin tərsini deyirlər. Yəni götürmüsən, ancaq nahaq götürmüsən. Yox-yox! Həsənağa başqa cür hərəkət edə bilməzdi. Birincisi, qapıbir qonşu idilər. Bir-birlərinə gediş-gəlişləri vardı. Axşamlar görərdin ki, ya bunlar onlara gedir, ya onlar bunlara gəlirlər. Oturub söhbət edirdilər. Çay-çörək yeyirdilər. Ağarzanın yoldaşı Fatma gətirib bunun qabağına o qədər şey qoymuşdu ki! Çox səliqəli gəlin idi. Dili-ağzı özündə idi. Bu son vaxtlar ondan utandığından bir az kənar hərlənirdi. Onu görəndə yönünü yana çevirirdi. Çünki hamiləliyi çox bilinirdi. Ərinə görə yeməz-içməz olduğundan həm də çox zəifləmişdi. Arvadlar ona görə çox narahat olurdular, bunun uşağı necə olacaq? Həqiqətən də... Fatma beləcə, öz-özünü məhv etdi. Bunları da işə saldı.

Uşaq qucağında, döşü də ağzında Səltənət çarpayıda oturduğu yerdəcə dözə bilməyib yuxuya getdi. Başı yavaş-yavaş ağırlaşıb aşağı gedir, beli əyilir, balaca

ilə lap ağız-ağıza, nəfəs-nəfəsə gələndə birdən oyanan təki olub başını geri çəkir, yuxusu təzədən bir də şirinləşirdi.

Həsənağa kişi baxıb-baxıb qıymadı ona. Belə çətin idi. Hər halda əziyyət çəkirdi. Ona görə əlini uzadıb ehmalca arvadın çiyninə qoydu.

– Səltənət, ay Səltənət.

Bəlkə, qucağında uşaq olmasa idi, Səltənət «hə! hə» eləyib yuxudan hövlnak qalxardı. Amma indi təmkinlə, diksinmədən gözlərini açdı, ərinə baxdı.

– Elə yatma. Bəlkə, uzanasan?

Səltənət tələsmədi, bir az uşağa baxa-baxa dayandı. Balacanın artıq dərin yuxuya getdiyini yəqin etdiyindəndir ki, döşünü uşağın ağzından sakitcə çəkib, köynəyinin içərisinə saldı, sonra da uşağı yanına qoydu. Yaxşı ki, oyanmadı, ikisi də üzbəüz yatdılar. İndi bu da yata bilərdi, Hə?! Ağlına gəldi ki, demək olmaz, Səltənət uşağı basar. Yuxu pis şeydir. Hər şey ola bilər. Həsənağa kişi bunu gözünün qabağına gətirib dəhşətə düşdü. O da elə bil ki, yarıyuxulu idi, ayaq üstə qoltuq ağaclarına söykənəcəkli yatırdı. Bundan gözləri xırp açılıb yuxusu qaçdı. Hə-ə. Belə şey ola bilərdi. Yuxu yarı ölüm kimi bir şeydir. Bu da yaşlı adamdır. Bir də gördün heç xəbəri olmayıb... Fikirləşdikcə Həsənağa kişini dəhşət bürüyürdü. Balacaya qıymadı. Yaranmışdı, dünya üzünə gəlmişdi... İndi lazımdı ki, onu yaşadasan. Təzədən yerində tərpəndi, bir az da yaxın dayanıb onların yanında altına balaca kətil çəkib oturdu. Uşaq belədir. Onlar özlərinkini də belə böyütmüşdülər. Biri sancılanmışdı – bunlar yatmamışdılar. Birinin qulağı ağrımışdı – bunlar yatmamışdılar. Biri qızılca çıxartmışdı – bunların əlləri ürəklərinin üstə qalmışdı. Qərəz, belə-belə uşağın qayğısı çox olur. Yadına düşdü ki, bir ili qızı çox bərk xəstələnmişdi. Poliklinikadan sahə həkimi tez-tez gəlib baxırdı. Axırı dedi, xəstəxanaya aparmaq lazımdır. Səltənət də hazırlaşdı ki, aparsın. Həsənağa kişinin ağlına haradan gəldisə dedi: – Əşi, nə var, nəyə aparırsan, uşaqdır, yaxşılaşar. Bu da onun sözünə baxıb aparmadı. Sonra sahə həkimi gəlib bunu bütüncə biabır elədi.

– Əşi, necə adamsınız?! – dedi. – Mən sizə göndəriş vermədim ki, xəstəxanaya aparmaq lazımdır?! Demədim ki, uşağı ancaq stasionarda müalicə etmək olar. İndi budur, deyirəm, uşağın başına bir iş gəlsə, cavabdeh özünüzsünüz.

Həsənağa kişi gördü ki, həqiqətən, uşaq irəli gəlmir. Yaman peşmanladı. Heç nə?! Başı soyuqluq, fikir verməmək. Həsənağa kişi təzədən peşman olmuşdu. Yaxşı ki, sahə həkimi tez özü zəng edib təcili yardım çağırtdırdı, uşağı aparıb özü öz əlilə xəstəxanaya qoydu, sağalıb gələndən sonra sahə həkiminə bilmirdi necə təşəkkür etsin.

Bunları ağlına sala-sala Həsənağa nəzərlərini uşaqdan, arvadından çəkmirdi. Lazım olsa lap səhərədək yatmamaq fikrində idi. Öz uşağı olsa, bəlkə də, heç bu qədər narahat olmazdı. Bunun üstündə isə dünəndən bəri əsirdi. Elə bil əma-

nət uşaq idi. Elə bil ata-anası bir-iki günlüyə harasa getmişdilər, bunlara vermişdilər ki, saxlasınlar, sabahda, biri gündə gəlib aparacaqlar. Bu da xəcalətli olmasın deyə əlindən gələni edirdi.

Aradan bir xeyli keçmiş necə oldusa, Səltənət oyandı. Otağın küncündə üstü göy abajurlu stolüstü lampa yanırdı. Bu stolüstü lampa ağ mərmərdən idi. İşığın altında da ağ mərmərdən iki dənə göyərçin dayanmışdı. Hələ uçmurdular. Amma bəzən Səltənətə də, Həsənağa kişiyə də elə gəlirdi ki, nə vaxtsa bu daş quşlar da uçacaqlar. Hələ ki uçmamışdılar, bu lampanın işığında oturmuşdular və bəlkə də, həmin bu uşağın böyüməsini, ayaq tutub yeriməsini gözləyirdilər. Elə ki uşaq yekələndi, küçəyə qaçdı, bunlar da canlanıb uçacaqdılar. İndi isə göyərçinlərin bu lampasını ona görə yandırmışdılar ki, gecə qaranlıqda duranda, uşağa baxanda dəbdələməsinlər. Nə etdiklərini görsünlər. İndi Səltənət arvad da gördü ki, əri yatmayıb bunlara keşik çəkir. Buna görə çox narahat oldu. Başını ona sarı çevirib:

– Sən niyə yatmırsan? – dedi.

– Qorxuram uşağı...

– Nədən qorxursan?

– Əşi, qorxuram uşağı basasan.

– Mən uşaq-zad ha deyiləm. Niyə basıram?! Sən uzan yat. Yazıq deyilsənmi?

– Mənə nə olasıdır, – deyə Həsənağa ona görə narahat olmamağı bildirdi.

Səltənət isə onu bu nigarançılıqdan çıxartmaq, onu arxayın salmaq üçün ehmalca tərpənib uşaqdan bir az geri yatdı, qundağı da götürüb özündən aralı qoydu. Göstərdi ki, bax, heç nə olmaz, arxayın ol. Hələ uşağın bələyinin üstündən də bir-iki dəfə vurdu.

– Küşş. Küşş.

Uşaq elə yatmışdı ki, dünyadan xəbəri yox idi. Dünyanın aclığı, susuzluğu da bu ara onun vecinə deyildi. Ona görə də əli-qolu yanında arxayınca yatırdı.

Yalnız bundan sonra Həsənağa da gedib yatdı.

Səhərin yuxusu nə qədər şirin olsa da, uşaq barəsində çox fikir etdiyindən Həsənağa kişi bu az vaxtı da çox narahat yatdı. Balacanın səsi başına düşmüşdü. Yatanda da bu səs onun qulaqlarında idi. Cəbhədə müəyyən çətinliklər olanda Həsənağa həmişə fikirləşərdi ki, müharibə qurtarsın, hər şey qaydasına düşəcək. Hər şey yaxşı olacaq. İndi görürdü ki, hər vaxtın, hər yerin öz qayğıları var. Görürdü ki, yaşamağın özü də bir müharibədir. Gərək mübariz olasan, gərək həyatda mümkün olmayan şeyi mümkün eləyəsən. İndi, budur, gedib uşağı götürüb gətirdi, hamının gözü qabağında dedi: özüm saxlayacam. Əlbəttə, bununla iş bitmir. Gərək sözünə əməl edəsən. Uşağı böyüdəsən, boya-başa çatdırasan. Hamı da deyə: «Bərəkallah!»

Əslində, bu «bərəkallah» ona yox, arvadı Səltənətə düşürdü. Çünki bunluq elə iş yox idi. Əsas ağırlığı o çəkəcəkdi. Elə öz balalarını da o böyütmüşdü.

Bununku gedib çöldə işləyib, qazanıb gətirmək olmuşdu. Hələ davadan qabaq mədəndə işləyirdi. Suraxanı mədənlərində qazmaçı idi. Yaxşı qazanırdı. Hər ayın başında bir ətək pul alırdı. Gətirib verirdi Səltənətə. Daha başqa şeydən xəbəri olmurdu. Ailənin yeməyidir, geyməyidir, özlərinin, uşaqlarının əynidir, başıdır, hamısı Səltənətə baxırdı. Bir şeydən korluq çəkmirdilər. Bir şeyə ehtiyacları yox idi. Elə ki dava başladı, bu getdi, ailənin gəlir yeri kəsildi. Həsənağa dedi:

– Vay! Vay! Bunlar acından ölməyəcəklərmi?

Ancaq sonra məktub almışdı ki, pis dolanmırlar. Belə ki Səltənət işə girib. Evlərinin yanındakı bağçada işləyir. Nə qədər uşağın yeri-yurdu buna baxır. Onların bütün təmizlik işini bu görür. Hələ öz işindən əlavə başqa şeylərə də əl yetirir. Demək olar ki, uşaqlara analıq edir. Bax, belə-belə şeylər yazmışdılar, bu da orda odun-alovun içində ailəsi sarıdan bir az arxayınlaşmışdı.

Ondan sonra Həsənağa kişi ailəsi barədə düşünəndə gözünün qabağına həmişə uşaq bağçası gələrdi. Xəyalında görərdi ki, ya həyətdə, ya bir otaqda uşaqlar oynaşırlar. Qaraqaş, qaragöz uşaqlar. Arvadı da onların yanındadır, gah həyətdə zivəyə mələfə, gah xalat sərir. Bu işi qurtarıb o biri işin ardınca qaçıb, o işi qurtarıb bu biri işdən yapışır. Elə cəld, elə səliqəli tərpənir ki, Həsənağanın da xoşu gəlir, xəyalında gülümsəyirdi. Ümumiyyətlə, Həsənağa kişi harda uşaq görsə, öz uşaqları, həyat yoldaşı, onun iş yeri xəyalına gəlirdi. Arvadının məhz uşaq bağçasında işə düzəlməsindən çox razı idi. Düşündükcə bu işə olduqca yüksək qiymət verirdi. Bu qərara gəlirdi ki, həyatda ondan xeyirxah, ondan mühüm, ondan alicənab iş yoxdur. Bu, bütün iş sahələrində, bütün sənətlərdən üstündür. «Elə yerdə işləmək – hər bir adam üçün böyük şeydir, – deyirdi. – Çünki dünyada uşaq saxlamaqdan, uşaq böyütməkdən şərəfli nə ola bilər?!» Həsənağa kişi müharibədən qabaq, bəlkə də, bu qədər uşaq mehrli, uşaq məhəbbətli deyildi. Amma sonra bir kənddən, bir şəhərdən keçəndə uşaqlara rast gələndə bilmirdi nə etsin. Dayanıb nəsə bir xoş söz deyir, sonra da əsgər çantasını açıb öz payından ya bir parça qənd, ya bir parça çörək verirdi. Görürdü ki, dava uşaqları soldurub. Bənizlərinə baxmaq olmur. Ürəyi ağrıyırdı. Görürdü ki, dava neçə-neçə uşağı yetim qoyub. Geriyə doğru çəkilib tozlu yollardan keçəndə yanaqlarında göz yaşları quruyub. Həsənağa baxa bilmirdi. Müharibəni lənətləyirdi. Bu alovu yandıranı söyürdü. Hitlerin ağzı-gözü qalmırdı – söyürdü. Hitlerin ata-anası qalmırdı – söyürdü. Ölüsü-dirisi qalmırdı – söyürdü. Yeddi dolamadan dolamasını söyürdü. Özü də belə vaxtlarda elə hirslənir, elə zalımlaşırdı ki, gözünə güllə də tutulanda üstünə gedirdi.

Bir dəfə şiddətli vuruşma gedirdi. Onda bizimkilər alman torpağına təzəcə girmişdilər. Faşistlər müqavimət göstərməyə cəhd edirdilər. Çox da böyük olmayan bir şəhər tezliklə faşistlərin əlindən çıxmalı idi. Bax, arxadan toplar vururdu. Göydə təyyarələr vuruşurdu. Tanklar irəliləyirdi. Bunların arxasınca da

piyada qoşun gedirdi. Almanlar da bunları atəşə tutmuşdular. Aləm bir-birinə qarışmışdı. Ölən kim, yaralanan kim. Nəhayət, bizimkilər şəhərə daxil oldular. Vuruşa-vuruşa küçələrlə gedirdilər. Əslində, şəhərdə tutar qalmamışdı. Bir də bu yerdə bir binanın yanından keçəndə bu hay-küyün, bu şaqqıltının, gurultunun içində Həsənağa zəif bir səs eşitdi. Deyəsən, uşaq səsi idi. Həsənağa dayanıb o yana boylandı, bu yana boylandı. Bir şey gəlmədi. Səs sonra bir də gəldi. Həsənağa o dəqiqə yəqin etdi ki, səs onun dayandığı binadan gəldi. Tez özünü binaya saldı. Binada da binalıq qalmamışdı. Qapıları, pəncərələri dağılmış, orda-burda yanıb az qala kömürü çıxmışdı. Həsənağa uçuq-sökük divarların arasında tez özünü ora vurdu, bura vurdu, nəhayət... Uşağı gördü. Gördü beş-altı yaşında, sarışın bir qızdı. Əynində sarafanı vardı. Əlləri gözündə ağlayırdı. Həsənağa daha dayanmadı. Qorxdu bu cəhənnəmin içində fağırca uşağa bir şey ola. Qaçıb uşağı götürdü, cəld bir küncə qısıldı ki, güllə tutmasın.

Uşaq çapalayıb onun qucağından düşmək istədi. Həsənağa bilmədi qızı necə ovundursun. Bilsə də ki, bu qız onun dilini başa düşmür, təntidiyindən azərbaycanca:

– Qorxma, bala, qorxma, – dedi və təkəlli onu qucağına daha bərk sıxdı. Qız göz yaşları içində idi. Və bəlkə də, qəfildən çıxıb onu qucağına alan adamı da yaxşı görmürdü. Həm də dediyi sözlər onun üçün anlaşıqlı deyildi. Odur ki titrəyə-titrəyə dartındı. Həsənağa buraxmadı. Xoş, mehriban bir ifadə ilə yenə:

– Qorxma, a qızım, qorxma, – dedi və əlini ehmalca qızın saçlarına çəkdi, eşitdiyi sözlər ona tanış olmasa da, qız bu əsgər əminin səsindəki nəvazişi, qayğını hiss etdiyindəndir ki, yumşalan təki oldu. Həsənağa bundan ürəklənib balacanı daha da qılıqladı, ona qarşı mehriban olmağa çalışdı.

– Sən yaxşı qızsan. Yaxşı qızsan, – yerində silkələnib onu qucağında oynadan təki etdi. Sonra da başını azacıq aşağı tutub burnunun ucu ilə, üzünün cod tükləri ilə qızın burnunu, üzünü ehmalca qıdıqladı.

Həsənağanın hərəkətləri, səsindəki nəvaziş uşağa tam bəs elədi. Onun dilini, məqsədini yaxşı başa düşdü. Başını onun sinəsinə qoydu. Bundan Həsənağa elə şad oldu ki, elə bildi qucağında öz balasını tutub.

İndi qalırdı onu buradan, bu cəhənnəmin içindən, müharibənin dəhşətli alovları arasından sağ-salamat bir yana çıxarmaq. İndi Həsənağanın bir sovet əsgəri kimi ən başlıca vəzifəsi bu idi. Bunu ona heç kəs əmr eləməmişdi. Bu əmr onun özünün ürəyindən gəlirdi. Burada hər an təhlükəli idi. Ölüm qaşla göz arasında idi. Buna baxmayaraq, o, bu uşağı qoruyub saxlamaq istəyirdi. Həsənağa başqa cür hərəkət edə bilməzdi. Sıralarında tərbiyə aldığı ordunun bir əsgəri kimi bunu özünə borc bilirdi. Odur ki uşağı təhlükəsiz yerə çıxartmaq üçün durduğu yerdən tərpənmək istəyirdi ki, düz bunun qabağından divara bir güllə girdi. Bilmədi hardan atırlar. Ancaq başa düşdü ki, bunu görüblər. Tez geri durdu, özü də yana

çevrilib bədəni ilə qızı qorudu və oradan da cəld bizimkilər olan tərəfə, divarın ardına keçdi. Hə-ə. Az qalmışdı onu vursunlar.

Qucağında tutduğu bu uşaq, bəlkə də, ona güllə atan, onu öldürmək istəyən faşistin balası idi. O, bunu öldürmək istəyirdi, ancaq bu onun uşağını qoruyurdu. Belə bir çətin vaxtda, hər yerdə şiddətli vuruşma getdiyi zamanda bu uşaq gəlib onun rastına çıxmışdı. Hardasa bu yekə kişilə bu balaca uşağın taleyi hərlənib-dolanıb gəlib birləşmişdi. Odlu-alovlu bu boyda uzaq yolu gələ-gələ elə bil bu uşağı burada, bu vurhavurda xilas etməyə tələsmişdi. Həsənağa ehtiyatla divarın dalından çıxdı. Bayaqdan heç belə deyildi. İndi gözü dörd olmuşdu. Qucağındakı uşağa görə çox narahat idi. O da qorxusundanmı, yoxsa belə bir isti, mehriban nəvazişə həsrət qaldığındanmı qol-qıçını yığıb Həsənağanın sinəsinə sığınmışdı. Az qalırdı sinəsini yarıb ürəyinin başına girsin. Bu da elə bil qucağında çox zəif, son dərəcə ufacıq olan bir varlıq tutmuşdu. O, çoxdan idi ki, qucağına uşaq götürmürdü. İndi götürüb uşaq təki sevinirdi. Döyüş isə yan-yörədə hələ də davam edirdi. Həsənağa fikirləşdi ki, atəşin kəsilməsini gözləsə, gec olar. Həm də bir yerdə dayanmaq olmazdı. Uşağı mütləq geri, arxaya ötürmək lazım idi ki, qara-qorxudan tamam uzaq olsun. Bu fikirlə boş otağın içərisindən keçib giriş qapısına sarı yönəldi. Ehtiyat üçün tez-tez yan-yörəyə boylansa da, pilləkənləri asta-asta düşdü ki, qucağında uşaq narahat olmasın. Üçdən ikinci mərtəbəyə enəndə yenə onu hardansa atəşə tutdular. Güllələr orda-burda daşa-divara dəyib yalaxlar əmələ gətirdi. Həsənağa yəqin bildi ki, onu düşmən tərəfdən görüblər. Bir balaca ehtiyatsızlıq eləsə işi şuluq olar. Xatalı təki giriş qapıları da həmin səmtə çıxırdı. Başqa çıxış yolu yox idi. Arxa tərəfə keçib eyvana çıxdı.

Oradan qucağında uşaq yerə tullandı. Düz ayaq üstə düşdü. Bir azdan döyüş qurtarıb əsgərlər bir yerə yığışanda barıt iyisi verən uçuq-sökük daş-divarın arasından Həsənağa çıxıb qucağında uşaq, əlində avtomat budur gəldi. Hamı məəttəl qaldı. Bu uşaq hardan? Doğrudur, əsgərlər bir qədər yorğun, əzgin idilər. Həm də içərilərində yüngül-yaraq da olsa yaralananlar var idi. Daş-divara dəyib qolu-qıçı sıyrılanlar var idi. Bu saat onların gözünə üst-başlarını çırpıb, səliqəyə salıb dincəlməkdən başqa heç nə görünmürdü. Belə ki əsgərlər, adətən, döyüşdən sonra düşünməyə bir yer axtarırlar. Amma Həsənağanın qucağında tutduğu uşağı görcək hamısının eyni açıldı, üzü güldü, tökülüşüb tezcə Həsənağanı dövrəyə aldılar. Hərə bir tərəfdən əlini uşağa uzatdı.

– O, kakaya xoroşaya ona, – deyə ordan-burdan balacanı qıdıqladılar. Bu da şeytan idi. Əzilib-nəzilib, açılıb-bükülüb Həsənağanın sinəsinə daha bərk sığındı.

Həsənağa da, öz növbəsində onu yuxarı tutaraq dabanı üstə fırlana-fırlana:

– Adə, uşağı incitməyin, ha, – dedi.

Güllənin ağzından sağ-salamat çıxartdığına və əsgər yoldaşlarının balacaya göstərdikləri əvəzsiz qayğı və mehribançılıqdan sevinərək bu sözləri öz ana

dilində deyirdi. Guya, yoldaşları onu başa düşürdülər. Onlar da özlərini elə aparırdılar ki, həqiqətən, başa düşürlər. Heç xəbər alan yox idi ki, nə deyirsən? Əslində, vəziyyət elə yaranmışdı ki, burada hamı bir-birini başa düşürdü. Uşaq bunları, bunlar uşağı. Həm də əsgərlər bir-birini.

Həqiqətən, əsgərlər uşağı narahat edə biləcəklərini başa düşüb kənara çəkildilər. Həsənağa qucağında uşaq komandirin qabağına gedib onu necə tapdığı barədə məlumat verdi. O da ona təşəkkür etdi.

Bir azdan gördülər uşaq Həsənağanın qucağında yatıb. Əsgərlər o dəqiqə kirişdilər, alçaqdan danışdılar ki, bəs uşaq narahat olmasın, yaxşı yatsın.

Həsənağa da ayaq üstəcə quruyub qalmışdı. Yerində qımıldamağa, tərpənməyə belə qorxurdu ki, uşaq oyanar, yuxusu başına çıxar.

Ancaq belə də mümkün deyildi. Həsənağa onu ayaq üstə nə qədər qucağında saxlayacaqdı?! Hamı düşünürdü ki, nə etsinlər? Uşağı yatızdırsınlar? Axırı komandirləri dedi:

– Qasan, uşağı apar mənim maşınıma.

Həsənağanın adını ruslar qısaca belə deyirdilər.

– Oldu, yoldaş komandir! – Həsənağa astadan cavab verib əmri bu dəqiqə yerinə yetirəcəyini bildirdi.

Uşağı aparıb maşına qoyub yoldaşlarının yanına gələndə Həsənağa bu balaca insanın taleyi barəsində, onun həyatının bundan sonra necə gedəcəyi, necə gətirəcəyi barədə düşünürdü. Yarım saat, bir saat bundan qabaq onun belə qayğısı yox idi. Amma iş elə gətirmişdi ki, indi bu barədə düşünməyə bilmirdi. Bakıda öz uşaqları haqqında düşünür, onlar üçün narahat olur, burda da bunu fikirləşirdi. Bığlı-saqqallı yekə kişi ola-ola Həsənağa lap uşaqlı ananın gününə düşmüşdü. Yüz cür qayğısı, dərd-azarı olsa da, uşaq yadından çıxmırdı. Bu ara nəsə oldu, nəsə yığışmaq lazım gəldi. Komandir:

– Düzlənin! – əmr etdi.

Camaat bu yana, düzlənməyə qaçanda o təntiyib o yana, uşağın yanına qaçdı. Sonra da başa düşdü ki, səhv edir, təzədən qayıdıb cərgəyə durdu. Bir gözü komandirin maşınında ola-ola qızı fikirləşdi. Əgər bunlar yenidən döyüşə girsələr, yaxud yerlərini dəyişəcək olsalar uşağı nə edəcəklər? Özlərilə aparacaqlar? Yoxsa burada qoyacaqlar? Məsələ burasında idi ki, özlərilə aparmaq olmazdı. Təhlükəli idi. Burada da harada, kimin yanında qoyacaqlar? Uşağın ata-anasını da tapmaq müşkül iş idi. Bu qarma-qarışıqlıqda it yiyəsini tanımırdı.

– Sağa baxıb düzlənin! – komandirin səsi çıxanda Həsənağanın fikri uşaqdan yayındı, boynunu döndərib böyründəki yoldaşının burnu bərabərində baxdı. Odur, eyy, birinci dayanmış hamıdan ucaboylu Kostya düz baxır. Bəzən buna da Kostya deyirdilər. Bu da ona deyirdi ki, biz adaşıq. Əvvəlcə başa sala

bilməmişdi. Daha doğrusu, rusca «adaş» sözünü deyə bilməmişdi. Sonra əlilə bir onun döşünə, bir də öz döşünə vurub:

– İ tı Kostya, i ya Kostya – demişdi.

O da başını tərpədərək gülmüşdü. Əslində, «adaş» yox, qardaşdan da artıq idilər. Döyüş zamanı bir-birlərini çox təhlükədən qurtarmışdılar.

– Farağat! – Həsənağa tezcə boynunu düzəltdi. Hə-ə. İndi uşaq yatan maşını görürdü. Bir qədər aralı olsa da, gözünün qabağında idi. Yaxşı. İndi yenə ara qarışıb çarta-çart başlasa necə olacaqdı. Həsənağa öz dərdini çəkmirdi, onun dərdini çəkirdi.

Komandir əmr verməyə hazırlaşırdı ki, bir zabit maşın dayanan səmtdən qaça-qaça gəlib ona nəsə dedi. Bu da üzünü əsgərlərinə tutub:

– Azad! – əmri verdi. Sonra da «dağılışın!» – dedi.

Həsənağagil belə şeylərə çoxdan öyrəşmişdilər. Bu, onlar üçün adi şey idi. Görürsən hələ heç oturmamış qalxırdılar, belini tamam-kamal düzəltməmiş «otur» deyirlər. Belə elədikcə də canları daha da bərkiyirdi. İndi isə bu «azad komandası» Həsənağanın xoşuna gəldi. Bəlkə də, uşaq üçün bir şey fikirləşdi? Bəlkə, onun təhlükəsizliyini təmin edən bir iş görə bildi.

Həsənağa fikrən bunun qayğısında idi ki, öz familini eşitdi.

– Qocayev!

Adamların arasından səs gələn tərəfə boylananada gördü ki, alay komandiridir. Tez yanına qaçdı. Əlini qaldırıb əmrə görə gəldiyini demək istəyirdi ki, komandir bu dəfə ona bir qədər qeyri-rəsmi müraciət etdi:

– Qocayev, bəlkə, sən... hə. Qorxuram bu vəziyyətdə uşağa çətin ola, onu saxlaya bilməyək. Bəlkə, aparıb yaxınlıqda medsanbata təvhil verəsən. Sonra görərik necə olur. Hər halda, çalışmalıyıq ki, uşağı sağ-salamat özlərinə, ailəsinə qaytara bilək.

– Oldu! – Həsənağanın əli qaşının üstə qalxdı. Və o dabanı üstə geri döndü.

İndiyədək onu çox işə göndərmişdilər. Filan yerə get, filan yerdən gəl. Bunu belə elə, onu elə elə. Xülasə, nə demişdilərsə, Həsənağa da yerinə yetirmişdi. Orduda başqa cür də olmur. Lap ölümə də göndərsələr, getməlisən. Borcundur, eləməlisən. Amma düzü, indiyədək bunun kimi ürəyinə yatan iş olmamışdı. Həsənağanın elə xoşuna gəldi ki, dedi adamı həmişə kaş belə işin ardınca göndərələr. Deyələr get o uşağı saxla. Get bu uşağı oynat. Get o uşaq üçün ev-eşik düzəlt. Dünyada bundan gözəl, bundan yaxşı iş olarmı?!

O vaxtdan bir neçə il keçməsinə baxmayaraq, bu hadisəni Həsənağa kişi indi də tez-tez xatırlayırdı. Həmin döyüş səhnəsini gözünün qabağına gətirir, o qarmaqarışıqlıqda ufacıq bir uşağı xilas etdiyinə görə özündə bir yüngüllük hiss edirdi. Bu əhvalatı o, evdə də danışmışdı. Hər dəfə də həyat yoldaşı, övladları ona çox maraqla qulaq asmış, əhvalat elə indi baş verirmiş kimi uşağın xilasına

sevinmişdilər. Bir dəfə yenə bu barədə söhbət edib, o hadisənin xəyalına dalıb ürəkləri xoş hislər, arzularla çırpına-çırpına bir-birlərinin üzlərinə baxaraq demişdilər:

– Görəsən, o qız indi sağdırmı?

– Nə bilim? – Həsənağa kişi çiyinlərini dartmışdı.

Xasiyyətcə Səltənət həyat eşqli, şən adam idi. Həyatda hər şeyə nikbin baxar, pis şeyləri yaxın qoymamağa çalışardı. Sözündə-söhbətində ölüm-itimi heç vaxt yaxın qoymazdı. İndi də tez dillənmişdi:

– Sağ olar.

Ondan sonra da hər dəfə bu barədə söhbət edərkən ailəliklə xəyala dalıb gözlərinin qabaqlarına gətirərdilər. «Görəsən, – deyirdilər, – rast olsa tanıyarmı?!» Bilsələr də ki, nə Həsənağa kişi, nə də o, Həsənağa kişini tanıya bilməz, yenə də bir əl yeri qoymağa cəhd edərdilər. İndi o həmin qız hardasa uzaq bir yerdə olsa da, Həsənağa kişi elə bilirdi ki, o da bunun doğmaca balasıdır. Necə görmüşdüsə, xatirində eləcə də qalmışdı. Məsum, ufacıq. Görəsən, Həsənağa kişi onun yadında qalıbmı? Hardan qalar?! Amma yox. Uşağın yaddaşı möhkəm olur. Ələlxüsus belə bir hadisə. Yadından çıxmağına çıxmaz, ancaq tanımağı çətin məsələdir.

Bütün bunlar onun hafizəsində, yaddaşında o qədər təzə, o qədər canlı qalmışdı ki, onları tez-tez xatırlamaqdan, evdəmi, eşikdəmi yeri düşəndə söyləməkdən əlavə gecələr yuxusunda da görürdü. Doğrudur, tam o şəkildə, yəni necə olubsa elə görmürdü. Amma o cür, ona uyğun hadisələr görürdü. Yenə əlində avtomat irəli cumurdu. Yenə sürünə-sürünə gedib faşist tankının altına qumbara atırdı. Hansı uşağı isə göydən yağan bombaların altından qaçırıb, hardasa çökək bir yerdə bədəni ilə onun başını-gözünü gizlədirdi. Hansı uşağısa güllənin ağzından xilas edirdi. Yaxud cəbhəni, müharibə vaxtlarını başqa bir şəkildə görürdü. Amma bu uşaq daha o uşaqları yaddan çıxartmışdı. Daha ancaq bunun barəsində düşünürdü. Onun fikrincə, bunun vəziyyəti daha ağır idi. Doğrudur, bu bir parça uşağa nə güllə atan var, nə də tankın altına salıb öldürmək istəyən. Əksinə, neçə adam onun nazı ilə oynayırdı. Amma elə şey istəyirdi ki, bunlarda yox idi. Qonşuya yüyürürdülər. Qonşuya yalvar-yaxar edirdilər.

– Başıva dönüm, qaduy alım, bu uşağı əmizdir, – deyirdilər. Bunun eybi yox idi. Uşaq üçün olardı. Buna görə adamı qınamazdılar. Ancaq çətinliyi burasında idi ki, bu, vaxtlı-vaxtında olmurdu. Yerinə uzanandan sonra bu barədə çox fikirləşdi, ancaq bilmədi bu uşağı necə saxlayacaqlar? Böyük bir qayğı, fikir içində, nəhayət, yuxuya getdi.

Nə qədər yatdı? Bilmədi. Ancaq yuxunun çox şirin bir vaxtında qulağına nəsə səs dəydi. Cəbhədə adət etdiyi kimi tez gözünü açdı. Həmişə sıçrayıb qalxırdı. Amma ayağının biri kəsiləndən bəri daha o cür eləyə bilmirdi. Həyat, vəziyyət özü ona bu vərdişini, adətini unutdurmuşdu. Gördü evdə sakitlikdir. Allaha şükür

ki, uşaq da yatır. Səs həyətdən gəlir. Bir az dinləyib müəyyən etdi ki, həyətdə danışanların biri öz arvadıdır. Səltənət idi. O birini tanıya bilmədi. Eşitdi deyir:

– Əşi, belə şey olarmı? Səhərədək uşağın səsindən gözümüzə yuxu getməyib.

* * *

Bayırdakı sözdən Həsənağa içəridə tutuldu. Özü də bildi ki, kimdir. Düzü, o qədər xoşu gələn adam deyildi. Neçə il idi ki, bir həyətdə yaşayırdılar, amma bir-birlərinə gediş-gəlişləri yox idi. Belə baxanda o qədər də yaşlı adama oxşamırdı. Ancaq yaşını çoxaltmışdımı, yoxsa həqiqətən yaşlı idi, hər nə təhər, müharibəyə getməmişdi. Hardasa buralarda başını girləmişdi. Həsənağa qıçının birini də qoyub davadan gələndə bu top təki bığıburma buralarda əli belində hərlənirdi. Halbuki Həsənağa cəbhədə bundan yaşlısını görmüşdü. Saçı-saqqalı ağarmış olsa da, özü könüllü olaraq gəlmişdi ki, düşmənə qarşı vuruşsun. Bu isə burda başını girləmişdi, indi də gör nə danışır? Uşaq bunu qoymayıb yatmağa.

İndi Həsənağa bir istədi, qoltuq ağacları ilə eşiyə çıxsın. Sonra nə fikirləşdisə, əlini protezinə atdı, götürüb onu geyindi, qayışlarını çəkib bağladı, sonra şalvarını qıçlarına çəkdi. Ümumiyyətlə, tezcə geyinib eşiyə, həyətə çıxdı. O kişinin abırını almaq istəyirdi. Qoy səhvini başa düşsün. Bilsin ki, adam belə iş üçün danışmaz. Belə acıqlı olmasına baxmayaraq, Həsənağa eşiyə çıxanda bu xəbis, eqoist, həmişə öz rahatlığını, öz yaşayışını güdən adama qoşulmağı özünə yaraşdırmadı. İpin ucunu bir az boş tutdu. Elə-belə dedi:

– Adə! Sən uşaq olmamısan?

O başa düşdü ki, bu, elə-belə söz deyil. Yumşaq bir tərzdə deyilsə də, bunun ardında çox sərt bir üz durur. Bildi ki, o üzə baxmaq onun üçün çətin olar. Ona görə bu da yumşaq bir tərzdə cavab verdi:

– Olmuşam.

– Bəs uşaq olanda ağlamamısan?

– Ağlamışam.

– Bu da ağlayır daa. Ağlamağa bunun da ixtiyarı çatır.

Qonşu kişi bir daha fikirləşdi ki, sözü Həsənağa ilə uzatsa, uduzacaq. Bəlkə də, onun üçün lap pis oldu. Ona görə sözünü dəyişdi.

– Əşi, mən uşağa görə deyirəm. Deyirəm, yəni yazıqdır, elə hey ağlayır. Bəlkə, bir şey lazımdır? Davadan-dərmandan. Demək olmaz, bəlkə, bir yeri ağrıyır.

– Sağ ol, heç yeri ağrımır, – deyə Həsənağa arvadına sarı döndü. Bilmək istədi ki, eşiyə niyə çıxıb? Bəlkə, bir şey lazımdır? Şikəst olsa da, evdə-eşikdə çox şeyi o, özü görərdi. Çörək almağa gedərdi. Bazarlıq edərdi. Elə iş olmazdı ki, Həsənağa əl yetirməsin. Müharibə illərində evdə olmadığının əvəzini Həsənağa indi çıxmağa çalışırdı. Bu fikirdə idi ki, dava illərində o, daha çox əziyyət çəkib. Gah işə qaçıb, gah evin əyər-əskiyinə yüyürüb. Evdə kişi əvəzi qalıb. Özü də

kişi kimi qalıb. Həsənağa bunu öz-özlüyündə fikirləşib qiymətləndirir və bu tək ayağı ilə bilmirdi nə etsin ki, əvəzini çıxsın.

– Di yaxşı, niyə burda durmusan, get evə, – deyə o, arvadının belə tezdən narahat olmasına qıymadığını bildirdi.

– Yox-yox, sən evə get, uşaq qalxıb ağlayar, mən gedim gəlini çağırım, gəlib bir azdan əmizdirsin. Fağırca acdır.

Bu, daha arvad işi idi. Ona görə dinməyib geri, evə döndü ki, Səltənət gələnəcən uşağın yanında olsun.

* * *

Həsənağa qıçına görə sənətini dəyişmişdi. Artıq mədəndə işləmirdi. Yaxt klubda gözətçi düzəlmişdi. Çətin iş deyildi. Klubun girəcəyində balaca bir budkası vardı. Gələnə-gedənə fikir verirdi. Bir də oranın avadanlığına, şey-şüylərinə baxırdı. Hamı da orda Həsənağaya hörmət edirdi.

O gələndə cavanlar ayağa qalxırdılar, oturmaq üçün stul təklif edirdilər. Bu da onlara çox mehriban idi. Lazım gələndə müəyyən işlərinə yarayırdı. Yeri gələndə ipi tutub qayıqları körpüyə bağlayırdı. Birinin avar ağaclarını verirdi, digərinə başqa bir işdə kömək edirdi. Xülasə, adı gözətçi olsa da, Həsənağa bir yerdə oturmurdu. Elə onu görürdün ki, körpünün üstə hərlənir, gah uc tərəfə gedib dənizə tamaşa eləyir, gah da ordan bəri sahilə baxırdı. Axşamda, sabahda camaat bulvara gəlirdi. Gəlib oturub dənizin xoş, yüngül havasında dincəlirdilər. Buranın gəzintisi, havası bakılıların, şəhərə gələn qonaqların o qədər xoşuna gəlirdi ki, demək olar, bütün günü bulvarda adam olurdu. Uşaqlar da gəlıların, şəhərə gələn qonaqların o qədər xoşuna gəlirdi ki, şah ilə gətirirdilər. Görürdün ağacların arasında qaçdı-tutdu oynayırlar.

Bəzən bulvarda uşaqlar üçün nəfəsli orkestr də çalırdı. Balacalar əl-ələ tutub rəqs edirdilər. Uşaqlar üçün başqa şənliklər də olurdu. Karuselə də çox vaxt növbə yaranırdı. Həsənağa bütün bunlara iş yerindən elə maraqla, elə məhəbbətlə baxırdı ki, günlərlə tamaşa eləsə də yorulmazdı. Elə bil bütün müharibə boyu yalnız bu mənzərənin, bu aləmin həsrətində olmuşdu. Uşaqların belə şənlənməsini, oynayıb-gülmələrini, xoşbəxt böyümələrini arzulamışdı. Bunun üçün vuruşmuşdu. Bunun üçün hər məhrumiyyətlərə dözmüşdü. Lap o körpə – qundaqda olan uşaqları da görəndə Həsənağa kişinin ürəyi gedirdi. Öz-özünə «bax, bunu çox yaxşı eləyirlər, – deyirdi, – dəniz havası uşaq üçün dərmandır. Onda göy öskürək-zad olmaz». Və indi ürəyində fikirləşir, arzu edirdi ki, qonşusu, dostu, cəbhə yoldaşı Ağarzanın yadigarı qoy bir azca böyüsün. Səltənətnən onu da bura gətirəcək. Neçə ki balacadır qucaqlarında gəzdirərlər, elə ki böyüdü ayağı yer tutdu əlindən tutub gəzdirərlər. Hələ qayığa da mindirərlər. Ata-baba yurdunu göstərərlər ona. Qurudan dənizə baxar, dənizdən quruya. Görər ki, onun torpağı da var, suyu da var. Böyüyər torpağını be-

cərər. Həsənağa bu fikirlə şirin xəyala dalıb uşağı gözünün qabağına gətirdi. Nədənsə çox diribaş, cəld, burdan vurub-ordan çıxan bir uşaq təki xəyalında canlandırdı.

* * *

Hə-ə. Həsənağa elə bilir ki, əsas çətinlik indidir. Daha demir ki, böyüdükcə onun dərdi də böyüyür. Yeriyən-yüyürən uşaq olanda onu heç bir yerdə saxlamaq olmayacaq. Belədən-belə, elədən-elə qaçacaq. Onda gərək bir adam, ya Səltənət, ya da onun özü xüsusi onun üçün ayrıla. Ancaq onunla məşğul ola. Əlbəttə, Həsənağa başa düşürdü ki, uşaq saxlamaq o qədər də asan iş deyil. Xüsusilə şəhər yerində. Maşın-muşun da get-gedə artır. Bir dəfə bu yaxınlarda, klubun qabağında, bulvarda hərlənirdi. Bir də gördü bir uzun donlu, başı kəlağaylı yaşlı arvad ağlaya-ağlaya yan-yörəyə boylanıb:

– Boyy, Allah mənə ölüm ver, bu uşaq hara yoxa çıxdı? – deyir, az qalır dəli olsun.

– Nə olub, ay bacı? Nə olub? – deyə Həsənağa ona yaxınlaşdı.

– Əşi, bax, indicə uşaq orda gözümün qabağındaca oynayırdı, indi yoxdur.

Həsənağa görmüşdü ki, burda elə bir şey yoxdur, hardasa uşaq buralarda olar. Ancaq danışığından, geyimindən görünürdü ki, bu qoca qadın kənd adamıdır. Nədənsə ehtiyat edib çox narahat olur.

– Nigaran qalma, bacı, nigaran qalma, indicə uşaq tapılar, – deyə bu özü də uşağı axtarmağa başladı ki, arvadın ürəyi yerinə gəlsin. Bax, taxta qıçını bulvarda asfalta taqqataq vura-vura belədən-belə getdi, elədən-elə getdi. Amma qadının dediyi nişanda uşağa rast gəlmədi. Bunun da nigarançılığı artdı. Xüsusilə qadına görə narahat olurdu. O, çox təşviş keçirirdi. Uşaq tez tapılsa idi, bu sakitləşərdi. Bu məqsədlə Həsənağa daha da yeyinlədi. Bax, gah ağacların arası ilə gedir, gah küçə tərəfə keçir, gah da sahilin açıqlığına, dəniz tərəfə çıxırdı. Taxta ayağının taqqıltısı da bulvarı bütüncə başına götürmüşdü. Görənlərin diqqətini o dəqiqə cəlb eləyirdi. Bu şikəst adam niyə belə oyan-buyana qaçır? Nə olub görəsən? Nə itirib? Nə axtarır? Bəlkə, bunların da köməyi dəydi.

Bir-iki cavan oğlan yaxınlaşıb soruşdu:

– Ay əmi, nə olub? Nə axtarırsınız?

Gözü o yanda-bu yanda ola-ola Həsənağa cavab verdi:

– Bir yaşlı arvad uşaq itirib. Onu axtarıram. Qəribədir. Bu uşaq hara getmiş olar?!

– Oğlandır, qızdır?

– Oğlan. Beş-altı yaşında oğlandır. Sarıyanız, girdəsifət uşaqdır.

Bu cavanlar da başladılar axtarmağa. Orda uşaq, burda uşaq? Tapılmadı. Həsənağa kor-peşman arvadın yanına gəldi ki, desin, sən narahat olma, uşaq tapılar, mütləq tapılar. Bayaqkı yerə gələndə gördü arvad da yoxdur. Oyan-buyana baxdı, gözünə dəymədi. Bıy! Bu necə şey idi? Bəlkə, arvad evə xəbərə qaçmışdı. Bu yerdə uşaq böyürdən çıxdı. Nənəsini görməyib ağlamağa başladı.

– Hü...hü...hü...hü...hüüüü.
Həsənağa tez ona yaxınlaşdı.
– Adə, böyük oğlansan, nöşün ağlayırsan?
– Nənəm hanı? Hü...üü...üü...
– Adə, o kəlağayılı, uzun tumanlı arvad sənin nənən idi?
– Həəə.
Həsənağa o dəqiqə tam yəqin etdi ki, haman o itən uşaq bax, budur. Daha deyə bilmədi ki, ay saqqalı ağarmış, mən səndən ötrü özümü buralarda həlak elədim. Bulvarın başından düşüb, ayağından çıxdım. Bu tək ayağımla baxmadığım yer qoymadım.
– Bəs sən harda idin?
– Mən odur eyy, orda, – uşaq əlini bulvarın o biri başına sarı uzatdı. Oralarda gətirib maşın-maşın torpaq tökmüşdülər. Bulvarı bir az genişləndirmək istəyirdilər. Bunların da ağlına gəlməmişdi ki, uşaq gedib ora çıxar. Hər nə təhər, uşaq tapılmışdı. Həsənağa nəvazişlə balacanın qolundan tutdu:
– Di yaxşı, ağlama, de görüm, eviniz hardadır? – Həsənağa kişinin belə soruşmaqda məqsədi bu idi ki, uşağı evlərinə aparsın. Əgər yaxındadırsa, tez aparıb qoyub gələrdi. Nənəsi də, evdəkilər də intizardan qurtarardılar.
– Öyümüz şirrərin yanındadır, – deyə uşaq cavab verdi.
– Şirrərin?
– Hə-ə.
– Şirrər nədir?
– Şirrər daa.
Həsənağa fikrə getdi ki, bu nə sözdür, bu nə olan şeydir?
– Adə, bəlkə, şir, deyirsən?
– Hə-ə, – uşaq burnunu çəkə-çəkə başını tərpətdi.
– Hə-ə. Şirlərin. Yaxşı hansı şirlərin? Zooparkdakı şirləri deyirsən?
Uşaq başını buladı.
– Daş şirlərin.
– Hə-ə. – Həsənağa buranın hara olduğunu o dəqiqə bildi. Yaxınlıqda, beş-on addımlıqda idi. Pionerlər parkındakı şir heykəllərini deyirdi. Oradan İçərişəhərə keçməyə yol vardı. Görünür, o həndəvərdə olurdular.
– Ora aparsam, evinizi tapa bilərsənmi? – deyə Həsənağa xəbər aldı.
Uşaq başını qaldırıb saldı.
– Gedək, – deyə Həsənağa kişi təzə dillənmişdi ki, uşağın nənəsinin, yanında da bir cavan kişilə bir gəlinin yüyürmüş gəldiklərini gördü. Qoca arvad evə, həqiqətən, uşağın itdiyini xəbər verməyə qaçıbmış. Başı alovlu elə gəlirdilər ki, deyirdin görəsən nə olub? Uşağı görəndə elə bil üzlərinə gün doğdu. Gəlib uşağı hərəsi bir tərəfdən qucaqladı. Uşağı itirdiyinə rəngi-ruhu ağarmış nənənin dodaqları əsirdi.

– Çox sağ olun! Həmişə var olun, – deyə onlar Həsənağa kişiyə dönə-dönə təşəkkür edib uşağın əlindən tutub getdilər.

Onlar gedəndən sonra Həsənağa öz-özlüyündə uzun müddət fikirləşdi ki, bu valideynlər nələr çəkirlər. Uşaq gözlərindən bir az uzaq olanda dəli olurlar. Onları böyüdüb ərsəyə çatdıranacan ürəklərini yeyirlər. Həyatlarını onların yolunda şam təki əridirlər.

* * *

Həsənağa kişinin iş saatı həmişə tez gəlib keçirdi. Amma bu gün yaxt kluba gəlib-gedəndən saatı xəbər almaqdan yorulmuşdu. Vaxtın ardından elə bil daş asılmışdı. Hamısı ona görə idi ki, Həsənağa kişi evə getməyə tələsirdi. Uşaqdan nigaran idi. Görəsən, qonşu gəlib uşağı əmizdirə bildimi? Demək olmaz, müəyyən iş ardınca başqa yerə gedər. Onda körpənin halı-günü necə olar? Acından ölməzmi?! Belə şey olsa, yazıq Səltənət çox pis hala düşər. Təntiyib qalar. Bilməz ki, nə əncam çəksin. Körpəni qucağına basıb kimin üstünə qaçsın. O yazığın da gücü özünə çatır. Görür uşaq ağlayıb özünü öldürür, döşünü çıxarıb verir. Özgə nə etsin?! Varını verən utanmaz. Onun da olanı budur. Nə etsin ki, döşündə südü yoxdur. O, bunun günahkarı deyil ki?! Hamı şahiddir ki, bu, olanını verir. Amma bunun özü də işdir. Uşağın başını aldadır.

Hə-ə. Qoy balaca da bilsin ki, dünyada belə-belə şeylər olur. İnsan məcbur olanda yalana da əl atır. Amma o böyüyəndə belə-belə işlərlə məşğul olmasın. Yəni adam aldatmasın. Heç kəsi aldatmasın. Baş aldatmaq yaxşı iş deyil. Əslində, Səltənət aldatmırdı. Olanı o idi, onu da verirdi. Həsənağa belə-belə yüz cür fikir elədi, nəhayət, iş saatı qurtaracaq çantasını götürüb tez yola düşdü. Evləri yaxın idi. Dəniz kənarından Çəmbərəkəndə heç iki kilometr olmazdı. Kəsəsinə getsə, beş-on dəqiqəlik yol idi. Amma üzü yuxarı idi. Nə qədər yoxuş çıxmalı olacaqdı. Tək ayaqla bunun üçün bir az çətin idi. Amma ora tramvay gedirdi. Vağzal tərəfdən gedən 11 nömrəli tramvay Azneft meydanından yuxarı qalxır, Bakı Sovetinin qabağından hərlənib Çəmbərəkəndə yol alırdı. Üçüncü dayanacaq onunku idi. Həsənağa qərara aldı ki, tramvayla getsin. Fikirləşdi ki, belə tez olar, beşcə dəqiqəyə evə çatar. Gəlib dayanacaqda gözlədi ki, tramvay gəlsin, minsin. Gözlə ha, gözlə, necə şeydisə tramvaydan əsər-əlamət yox idi. Ya yolda nəsə olmuşdu, ya da xətdə cərəyan kəsilmişdi.

Daha neynəsin. Məcbur olub piyada yola düşdü. Əslində, tramvayda getməkdən də zəhləsi gedirdi. Əvvəla, vaqona bir az çətinliklə qalxırdı. İçəridə də camaatı narahat eləyirdi. Belə ki ayağının birinin taxta olduğunu görüb biri ordan qalxırdı, biri burdan. Bu da bunu istəmirdi, nədənsə xoşu gəlmirdi. Sadəcə olaraq, adamlara əziyyət vermək istəmirdi. Əlbəttə, burda başqa bir şey də var idi. O da bundan ibarət idi ki, adamlar ona bir əlil kimi hörmət edəndə əsəbiləşirdi. Kimsə ona baxıb yer göstərəndə, yaxud hansı növbədəsə onu qabağa salıb

«buyurun keçin» – deyəndə elə bil əlilliyini bunun başına vururdular. Doğrudur, bu da bir söz demirdi, üzdə ona hörmətlə yanaşan adamlara qarşı nəvazişli, iltifatlı olurdu, ancaq içəridə pis olurdu. Ona görə də ictimai yerlərdə adamlardan bir az kənar hərlənirdi. Özünü gözə soxmurdu, bir yerə gedəndə, gələndə nəzərə çarpmamağa cəhd edirdi.

İstəmirdi adamlar ona əlacsız, yazıq kimi baxsınlar. Həyatda ən zəhləsi getdiyi şey bu idi. Doğrudur, iş yerini hələlik dəyişmişdi, yaxt klubda adicə gözətçi işləyirdi. Buna baxmayaraq, o, qarşısına məqsəd qoymuşdu ki, həyatda heç kəsdən geri qalmayacaq, nə işi olsa özü aşıracaqdır, kimdənsə xahiş etməyəcəkdir, «bu işi mənim üçün edin» deməyəcəkdir. Hələ fikri var idi ki, bəlkə, sonralar yenə öz işinə qayıtdı. Bunu, hətta yuxusunda da görürdü. Görürdü mədəndədir, qazma işi aparırlar. Nə bilim, yoldaşlarını görürdü. Görürdü söhbət edirlər. Oyananda fikrə gedib düşünürdü ki, həqiqətən, indi də gedib işləyə bilər. Bircə burası var ki, götürməzlər. Deyəcəklər, bacarmazsan, sənə əziyyət olar. Hər halda, Həsənağa həyatda elə yaşamalı, elə işləməli, elə oturub-durmalı idi ki, gələcəkdə onun haqqında belə sözlər deməsinlər. Heç onun əlil olduğunu bilməsinlər. Protezini də tez-tələsik bu məqsədlə düzəltdirmişdi. Söz vermişdilər ki, gələcəkdə bundan da yaxşısını düzəldərlər.

İndi Azneft meydanından üzüyuxarı, şəhərin Çəmbərəkənd məhəlləsinə gələn Həsənağa bir də gördü evlərinə çatıb. Darvazanın ağzındadır. Orda bir az dayanıb nəfəsini dərdi. Çox sürətlə gəlmişdi. Həm də ona görə dayandı ki, görsün evdən nə səs gəlir? Uşaq ağlayırmı? Gördü sakitlikdir. Həyətdən keçib öz evinə yaxınlaşanda pəncərədən gördü ki, qonşu gəlin bunlardadır. Uşağı əmizdirir.

* * *

Axşamda-sabahda qonşu gəlin gəlib uşağı beləcə əmizdirib gedir, o biri vaxtlar isə məcbur olub Səltənət arvad döşünü verirdi. Bu yalandan olsa da, hər halda, müəyyən qədər uşağın başını ovudurdu. Yoxsa başqa cür mümkün deyildi. Uşaq bunları ağaca dırmaşdırardı. Səsi çıxanda bunlar «əlif»lərini yanılırdılar. Günlərini göy əsgiyə bükmüşdü. Ağzı boş olanda çır-çır çığırır, az qalırdı dünyanı adamların başına uçurtsun. Hə-ə. Bu balaca məxluqun, insan övladının səsində, çığırtısında elə bir hökm vardı. Məsələ burasındadır ki, belə-belə buna Səltənət arvad da adət elədi, öyrəşdi. Hətta balacanın qarnı tox olanda da o uşağı döşünə salıb məmə vermək istəyirdi. Elə bil bu, uşaqdan çox bunun istəyi idi. Bu yaşda balacaya döş verməkdən bunun daha çox xoşu gəlirdi. Gedib mağazadan uşaq üçün balaca-balaca çoxlu paltar almışdı. Köynəyi, papağı, tumuşu, bələk əsgiləri. Hərəsindən neçə dənə idi. Yuyub, ütüləyib üst-üstə yığanda bir yekə dəst olurdu. Bunlar, əlbəttə, xırda, daha doğrusu, mümkün olan işlər idi. Əsas uşağın əmizdirilməsi idi. Səltənət arvad başa düşürdü ki, qonşu gəlin olmasa, o uşağı dünya-

sında saxlaya bilməzdi. Əsas o idi. Ona görə hər dəfə Səltənət gəlinə dil-ağız eləyir, razılığını bildirir, «xoşbəxt ol, ay qızım, – deyirdi, – Allah balanı saxlasın». O da gülümsəyib bir söz demir, uşağı əmizdirib qurtarandan sonra çıxıb gedirdi.

Bir müddət uşağın kefi kök olurdu. Həqiqətən, qarnı ki tox oldu ağlamaq yadına düşmürdü. Həsənağa da gəlib başının üstündə durur, aşağı əyilib dodaqlarını büzərək muçqurur, uşağı nəsə oynatmaq istəyirdi. İnsan ömrünün bu çağlarından Həsənağanın xüsusi olaraq xoşu gəlirdi. Heç nə bilməməzliyindən, fikirsizliyindən, şüursuzluğundan xoşu gəlirdi. Bax, elə bu uşaq. Əsas qarnıdır. Doyuzdur, ondan sonra dünyanı vecinə almayacaq, özü üçün kef eləyəcək. Özgə heç nə başa düşən deyil. Əgər başa düşsə ki, onun atası ölüb, anası ölüb bu balaca məxluq dözməz, ürəyi partlayar.

Başa düşmək sonralar olacaq, xeyli sonralar. Onadək böyüsün ki, taleyin acı-acı qismətlərini, məşəqqətlərini, uğursuzluqlarını, ölüm-itimlərini eşidəndə tablaya bilsin. Hə, hə. İndi çox körpədir. Həsənağa bir dəfə bir az da çox fikrə gedib ömründə, bəlkə də, birinci dəfə olaraq belə dərindən düşündü ki, bax ha, insan böyüyənədək, bərkiyənədək, gör necə çətin, uzun yol keçir. Körpəliyində əl-ayağını düz qoyub bələyirlər, yatızdırırlar, durğuzurlar, əsgilərini dəyişirlər, sonra bir də bələyirlər. Sonra bir də... İnsan həyatında çox adi şey olan bütün bunlar bu dəfə Həsənağaya nədənsə çox çətin, ağır, üzücü gəldi. Doğrudan da, analar nələr çəkirlər. Uşağın hər əzabına qatlaşırlar.

Bax, öz doğma övladı olmasa da, Səltənəti də bu uşağa belə sıx ürəklə bağlayan o analıq hissi idi. Həsənağa qonşu gəlin barəsində də həmişə çox böyük minnətdarlıq hissilə düşünürdü. O, içəridə uşağı əmizdirəndə çox vaxt eşiyə çıxıb qapının ardında fikirləşirdi ki, dünyada nə yaxşı adamlar var. Bu yaxşı adamlar olmasa, görəsən, həyat necə olar? Yəqin ki, pis olar. Heç kəs heç kəsə kömək etməz. Yıxılanın qolundan tutan olmaz. Bir də görərsən ki, hamı yerdədir, hamı uzanıqlı qalıb. Amma yaxşı adam da var, yaxşı olmayan adam da. Həsənağanın ailəsi üçün qonşu gəlin dünyada ən yaxşı insan idi. Ona görə də uşağı əmizdirməyə gələndə bilmirdilər onun üçün nə etsinlər. Biri stul verirdi. Biri kef-hal soruşurdu. Sonra da biri çay gətirirdi. Onun üçün, hətta xörək-çörək də qoyurdular. Ancaq dilini də vurmurdu, ayaq üstən gəlib, ayaq üstə gedirdi. Əslində, oturmağa onun vaxtı da yox idi. Çünki bura gələndə o uşaq ağlayırdı, ora gedəndə bu uşaq. Yazıq gəlin iki uşağın arasında peyk olmuşdu. Özü də bir az cansız idi. Bəti-bənizi çox solğun idi. Bunlar da bu yandan ona əziyyət verirdilər. Ancaq əlac yox idi.

Bir dəfə gəlib uşağı əmizdirib getdi. Ondan qabaq uşaq yaman ağlayırdı. Bu gələndə burnunu, başını gəlinin döşünə sıxıb səsini kəsmişdi. Elə oldu ki, bu gedəndən sonra da başladı nə başladı. Həsənağa özü də evdə idi. Qaldılar təəccüb ki, bu uşağa nə oldu? Bəlkə, bir yeri ağrıyır? Bəlkə, qulağıdır? Bəlkə, qarnıdır?

Sancılanıb. Səltənət uşağın göbəyinin yanlarına bir az nanəcövhər sürtdü. Belini-başını, qulaqlarının yanını övkələdi. Deynən uşağa təsiri oldumu?

– Vaxsey! Heyvancığaza nə oldu? – deyə Səltənət az qalırdı ağlasın.

Həsənağanın da qanı qurumuşdu. Uşaq ağladıqca o yaman pis olurdu.

Axırı Səltənət gördü olmur, yenə qonşu gəlinin üstə qaçdı.

– Qaduy alım, ay gəlin, bu uşaq xəstələnib nədir, elə ağlayır, elə ağlayır ki, gözünün on yerindən tökür. Bilmirəm buna nə olub?

– Uşağa heç nə olmayıb, – deyə gəlin kəsə cavab verdi.

Səltənət təəccüb qaldı. Necə yəni heç nə olmayıb. Gəlin ana olsa da, hələ çox cavan idi. Təcrübəsi azdı. Səltənət isə... İki uşaq saxlayıb böyütmüşdü.

– Bilirsənmi, xalacan, südüm azdır, doymur, ondandır. İki uşağa bəs eləmir. Bu da elə onun kimi tez-tez ağlayır. – Gəlinin, əlbəttə, təqsiri yox idi. Uşağın ağlamasının səbəbini deyib onu intizardan qurtarmalı idi. Yəni o bilməli idi ki, başqa şey deyil. Səltənət isə çox pis oldu. Bu cavan gəlinin qabağında elə utandı, elə qızardı ki, bundan özü düşünən kimi yer yarılıb yerə girsə yaxşı idi. Demək, bunun uşağı onun uşağının payına ortaq çıxıb. Demək, onlar üzlülük eləyiblər, yalnız özlərini düşünüblər, daha məsələnin o tərəfini ağıllarına gətirməyiblər. Səltənət daha bir söz deyə bilmədi, quruyub qaldı. Gəlin də gördü ki, bu çox pis olub:

– Xalacan, əlimdə bir balaca işim var, qoy qurtarım, indi gəlib bir də əmizdirərəm, – dedi və həqiqətən, cəld tərpəndi ki, işini tez qurtarsın.

Səltənət evə qayıdıb məsələni Həsənağaya təzə demişdi ki, gəlin, demək olar ki, onunla dabanbasaraq gəldi. Uşaq elə indi də ağlayırdı. Gəlin:

– Can! Can! – deyə onu öz balası təki qucağına alıb bir az əmizdirməyə başladı ki, bəlkə...

Səltənətlə Həsənağa bir kənarda dayanıb ona yenə elə bir minnətdarlıq, elə bir təşəkkür hissilə baxırdılar ki, bu xeyirxahlığına, bu insanlığına görə indi bunlar ondan canlarını da əsirgəməzdilər. Nə etsinlər?! Əgər bu, mümkün olan şey olsa idi, ona heç əziyyət verməzdilər. Çörək olsa idi, daşdan da olsa çıxardardılar. Su olsa, torpağı qazıb-qazıb su əldə edərdilər. Başqa bir şey olsa yenə hə. Uşağın istədiyi nə çörək, nə də su idi. Nə də elə-belə süd istəyirdi. Ona ana südü lazım idi. Bunun fikrini Həsənağa kişi də ürəyinə salıb bu barədə çox bərk narahat olsa da, bir qadın, bir ana kimi Səltənətin fikri, qayğısı bu barədə, bəlkə də, onunkundan yüzqat ağır idi. Nə etsin? Uşaq gözünün qabağında çır-çır çığırıb döş istəyir, bu isə içindən qırıla-qırıla qalırdı. Döşü var idi, amma döşündə südü yox idi. Barsız, bəhrəsiz torpaq kimi idi. Meyvə gətirməyən ağaca bənzəyirdi. Bunu Səltənət bəzən ürəyinə salıb, bunun fikrini eləyib elə sıxılırdı ki, evdə tək olanda yaxasını, başını açıb özü-özünü yelləməyə məcbur olurdu. Səltənət heç kəsə məlum olmadan qəribə bir hal keçirirdi. Bir var hər hansı bir şeyin olduğuna, yoxluğuna, imkanına, imkansızlığına qayil olub, yəni razılaşıb, onunla hərəkət

eləyəsən, bir də var, olmaya-olmaya, gücün, imkanın çatmaya-çatmaya ürəyindən təpə, ürəyindən qaynaya, ürəyindən daşa, sızıb-sızıb gələ. Bax, Səltənət də bu vəziyyətdə idi. Bu uşaq bura gələndən onun ürəyindən təpirdi ki, onu əmizdirsin. Ona ana olsun. Belə öz südü ilə, öz canı ilə, qanı ilə böyütsün. Bu istək onun qəlbində, onun varlığında çox güclü bir axına, təlatümə çevrilmişdi ki, hər dəfə uşağın dodaqları onun döşlərinə dəyəndə üşürgələnən təki olurdu.

Həyatda bu ən müqəddəs, səlahiyyətli, ən böyük vəzifə, iş idi ki, indi onu qonşu gəlin yerinə yetirirdi. Uşağı o əmizdirib, doyuzdurub xüsusi bir nəvaziş və məhəbbət hissilə yerinə qoyandan sonra Səltənət bilmədi onun üçün nə eləsin. Bu böyük yaxşılığın, fədakarlığın əvəzində bu da ona nəsə eləmək istədi. Lap balaca bir şey eləsə  də, hər halda, xətri xoş olardı. Bilərdi ki, bunlar da adamdırlar, yaxşılıq başa düşəndirlər. Doğrudur, o, bunlar üçün çox böyük iş görmüşdü və görürdü. Onun əvəzini vermək mümkün deyildi. Yenə də olsun. Bu səhər tezdən Həsənağa gedib bazardan çoxlu alma, armud, üzüm almışdı. Hamısı zənbildəcə şüşəbənddə idi. Gəlin gedəndə götürüb ürəklə bunu ona uzatdı.

– Qurban olum sənə, ay qızım, meyvədir, götür, elə sənin üçün almışıq. – Səltənət elə bir qılıqla, yaxınlıqla dedi ki, gəlin etiraz eləməsin, bunların hədiyyəsini, payını götürsün. Əliuşaqlıdır, birinin yerinə ikisini əmizdirir. Allaha, bəndəyə də xoş gedər. Səltənət bu cür düşünmüşdü. Təkid edirdi ki, payını götürsün.

– Yox, yox, Səltənət xala, siz nə danışırsınız, mən sizə pay verməkdən, siz mənim üçün verirsiniz?! Məndən nə qədər böyüksünüz. Biz sizə hörmət etməliyik. Xüsusilə Həsənağa əmiyə. Davada nə qədər əziyyətlər çəkib, – deyə gəlin hədiyyəni yaxın qoymadı, qaçıb getdi.

Sonra bunlar fikirləşdilər ki, aparıb evdə versinlər. Buna da ürək eləmədilər. Qorxdular almasın. Yaxud ürəyincə olmasın, narazı qalsın.

– Eybi yoxdur, əlbət, bu yaxşılığın əvəzini bir şeylə çıxarıq, – deyə Səltənət ərinə buna görə narahat olmamağı bildirdi. Əsas uşaq idi. Ona görə narahat olmaq lazım gəlirdi. Bir-iki ay bu qayda ilə saxlaya bilsəydilər, sonra başqa bir şey də vermək olardı. Beş-altı aydan sonra əlinə gələni ağzına aparacaqdı. Bax, bax, bu bir-ikicə ayı...

* * *

Yaxt  klubun əsas körpüsü azı yüz metrədək dənizin içərisinə gedirdi. Eni də xeyli vardı. Bu da azı beş-altı metr olardı. Dənizin səthindən də təxminən metrəyarım hündürdə dururdu. Yaxt klubun idarəsi də həmin körpünün üstündə yerləşirdi. Girəcəkdən bir az o yana – suya doğru hər birinin beş-on kvadratmetr sahəsi olan yan-yana dörd-beş taxta otaq idi. Arxa tərəfin suya və körpüyə baxan çox kiçik pəncərələri vardı. Burda yaxt klubun rəhbərliyi, məşqçilər olurdular. Bir də həmişə balaca otaqların ucunda bir uzunsov, o birilərinə nisbətən xeyli

böyük olan otaq var idi. Bura soyunma, geyinmə otağı idi. Xoş havalarda hamı eşikdə olardı. Bir də əsas körpüdən yanlara bir neçə qol ayrılırdı. Onlar suyun səthindən azca hündür idilər. Əsas körpüdən bir-iki pillə aşağı düşülürdü. Qolların burnunda, sağ və sol cinahlarında uzunsov bir adamlıq qayıqlar vardı. Həftənin, günün müəyyən vaxtlarınadək bura gələn cavanlar bu qayıqlarda dənizə gəmiçilik, dənizçilik işinə yaxından bələd olurdular. Əlbəttə, bu hər vaxt olmurdu. Elə günlər, vaxtlar olurdu ki, burada gözətçidən başqa heç kəs görünmürdü.

Həsənağa bir adam axtarırdı ki, oturub onunla söhbət eləsin, vaxtı öldürsün. Yoxsa günü axşam etmək olmurdu. Xüsusilə bu uşağı gətirəndən bəri Həsənağa çox fikir edirdi. Evi iş yerindən nə qədər aralı olsa da, bir də görürdün uşağın səsi qulağına gəlir. İnqa... İnqa... Bilirdi ki, döş istəyir. Evdə Səltənət bundan nə çəkirdisə, ürəyini necə yeyirdisə, bir o qədər də Həsənağa qıraqda çəkirdi.

Bax, indi əsas körpünün qurtaracağındakı uzunsov skameykanın üstündə oturub kişi dərin fikrə getmişdi. Elə fikrə getmişdi ki, özündə-sözündə deyildi. Hətta başından gün dəydiyindən də xəbərsiz idi. Yalnız uşağın fikrini edirdi.

Həsənağanın həyatında elə şey olmamışdı ki, camaat qabağında o, nəsə bir iş götürə, amma sonra onu yerinə yetirməyə. Ömründə elə şey ola bilməzdi. Onun fikrincə, dünyada camaat qabağında qızarmaqdan pis şey yox idi. İndi bu uşağı götürüb gətirmişdi, qorxurdu saxlaya bilməyələr, ölüb eliyə. Bu, ağlına gələndə kişi necə sıxıldısa, canına elə bil alov gəldi, birdən-birə alışıb bütün bədənini qarsaladı. Doğrudur, hava da bərk isti idi. Günün qabağına yumurta qoysan bişirərdi. Amma Həsənağa heç belə istiləşməmişdi.

* * *

Uşağın fikri ona, deyəsən, gündən də pis təsir eləmişdi. Hər nə təhər, yanırdı. Yaxında, ayağının altında, burnunun ucunda o boyda dəniz ola-ola yanırdı. Heç insafdan idimi bu boyda dənizin ola-ola bədənin su görməyə, ovuclayıb suyu əlinə-üzünə vurmayasan. Şalvarıyın balaqlarını çırmalayıb suya girməyəsən. Həsənağa daha bərk od tutub, alışıb yanmağa başladı, bir də gördü onu bu kökə salan Hitleri, bütün faşistləri, bütün qaniçənləri söyə-söyə soyunur. Köynəyini çıxartdı, altdan maykasını çıxartdı, əlini kəmərinə apardı, şalvarının düymələrini açdı. Bu kişi nə etmək istəyirdi? Bu kişinin fikri nə idi? Bəs bilmirmi ki, bir qıçı yoxdur?! Bəs bilmirmi ki, üzmək onun işi deyil?! Bir də gördü körpünün üstəcə lütdənib əynində yalnız trusiki qalıb. Protezini də bədənindən ayırıb kənara qoymuşdu. Bu yolla sərinləşmək istəyirdi, yoxsa... Həsənağa tək ayağının üstə qalxaraq domuşuqlu dayandı. Quruya çıxmış dəniz quşu dayandı və həsrət-həsrət suya baxdı. Dəliliyimi tutmuşdu, yoxsa fikirdən elə istiləşmişdi ki, dayanmaq mümkün deyildi, birdən yerində silkələnib, çırpınıb atdı özünü suya. Güman etmək olardı ki, daha batdı. Bir qara daş təkin gumbultu ilə dənizin dibinə getdi. Birdəfəlik canını qurtardı

dünyanın bu qayğılarından. Qoy Ağarzanın yetimçəsi də cəhənnəm olsun. Ölür ölsün. Yaşayıb nə olasıdır?! Ağlı vardı atası Ağarza ölməyəydi. O ölməsə idi, arvadı da yaşardı, uşağı da. Daha bunlar da belə əziyyətə düşməzdilər.

Deyirəm uşaq evdə ac olanda eşikdə valideyn başını itirir. Götürmə uşağın dərdi daha böyük imiş. Allah eləməmiş bir şey olsa, deyəcəkdilər baxmadılar. Bunun fikrindənmi, yaxud canında yanğı çox olduğundanmı Həsənağa əlini-ayağını boş qoyub dənizin dibinə gedirdi. Amma çapaladı, çafçaladı, suyun üzünə çıxdı. Bax, bu suyun üzünə çıxandan sonra nə oyun açmadı. Başladı ikiəlli dənizin üzünə, sinəsinə vurmağa. Elə bil anasına acıq eləmiş uşaq idi, anası qucağına almaq istəyirdi, bu isə ikiəlli onun sinəsinə döyəcləyirdi. Beləcə vurdu, vurdu, o da acıqlanmadı, qəzəblənmədi, qucağından yerə qoymayıb gen sinəsinin üstə saxladı. Nəhayət, barışdılar. Bax, indi Həsənağa qolunu dəniz anasının gah bu boynundan, gah o boynundan uzadır, qucaqlayır, boynuna sarılır, gah o üzündən, gah bu üzündən, gah o çiynindən, gah bu çiynindən öpür, yalam-yalam yalayır, az qalırdı sinəsini yarıb ürəyinin içinə girsin.

* * *

Harda görünmüşdü ki, bir qıçın olmaya, amma üzəsən. Elə üzəsən ki, əli-qolu olandan da yaxşı. İsbat eləyəsən ki, məsələ əli, qolu olmaqda deyil. Əli, qolu, ayaqları yerində olan adamlar var ki, suya heç yaxın gedə bilmirlər. Deməк, məsələ insanın ürəyində, təpərindədir. Həsənağaya indi elə gəlirdi ki, onun əlini-qolunu sarıyıb, lap kötük eləyib dəryaya atsalar da üzər. Lap dəyirmanın boğazından da salsalar, diri çıxar. Çünki o, mümkün olmayan bir şeyi mümkün eləmişdi. Elə isə qəhrəmanlıq da orasındadır. Yoxsa mümkün olan şeyi mümkün eləmək nə çətin şeydi.

Həsənağa bu gün işini növbə yoldaşına çox tez təhvil verib tələsik evə gələndə fikri var idi ki, hamısını Səltənətə danışsın (uşağa görə o, iş yoldaşlarından bir-iki saat tez gəlməsini xahiş etmişdi.) Bax, belə oldu, elə oldu... Desin ki, indiyədək Xəzər mənim üçün elə hesab elə ki, bir quruca şəklə dönmüşdü. Baxırdım, görürdüm, amma düzünü deyim, varlığını sən deyən hiss eləmirdim. Amma bugünkü, o tək ayağımla... Həsənağa özünü xəyalən göy dalğaların arasında gördü və bu, o qədər xoş, nəvazişli, mehriban varlıq idi ki, onun uğrunda öz varlığından bütünlüklə keçməyə bir daha hazır olduğunu  hiss elədi.

Evə gələndə Həsənağa gördü Səltənət uşağı əmizdirir. Yalandan. Vay! Vay! İndi yenə ağlayacaq. O da mırça-mırçla elə sorur ki, deyirsən...

Xülasə, bundan Həsənağanın qanı quruduğunu görcək Səltənət pıçıltı ilə dedi:

– Uşaq göndərmişəm gəlinə, indi gələr. – Sonra da şən-şən ərinə yuxu danışdı. Dedi bu gecə yuxumda görmüşəm ki, bu elə mənim uşağımdır, özüm doğmuşam. Döşlərim də elədir ki, partlamağı gəlir, südüm aşıb-daşır. O da elə əmir, elə əmir ki, mənə ləzzət verir. Səhər də yerimdən duranda gördüm döşlərim ağrıyır.

Həsənağa istədi deyə gic-gic danışma. Amma onun çox şən olduğunu görüb qanını qaraltmadı. Yuxu, əslində, Həsənağanın da xoşuna gəldi.

– Hə-ə, bəs deyirdin qurumuş bulaqdan su gəlməz?

– Gələr ki?

– Niyə gəlmir?

– Nə bilim, ay Həsənağa.

– Bax, mən sənə demişəm, bu təbiət ki var, hamımızın anasıdır. Ana da bilirsən ki, övladından heç nə əsirgəməz. Elə ki hiss elədi övladının suya-selə ehtiyacı var, hardan olsa tapıb verər. Sən elə bilirsən bu axan çaylar, bu axan bulaqlar boş-boşunadır?

Səltənət arvad da qayğılarından macal tapıb fikirləşəndə görürdü ki, həqiqətən, həyatda heç bir şey boş-boşuna deyil. Hər bir şeydə nəsə bir qanunauyğunluq var. Amma bu qanunauyğunluğa arxayın olub uşağı saxlamaq mümkün deyildi. Uşaq acıb döş istəyəndə Səltənət «əlifini» həqiqətən yanılırdı. Qonşu gəlinə də daha üz tutmurdu. Onu da qınamaq olmazdı, iki uşağa çatdıra bilmirdi. Belə fikirləşsə də, Səltənət yenə gəlinə ümidli idi. Gəlib əmizdirəcək.

Uşaq isə öz işində idi. Yalan-doğru sorurdu. Amma hiss olunurdu ki, qarnına bir şey getmir. Çünki Həsənağanın bir gözü onda idi. Sir-sifətinin qaşqabaqlı, hirsli ifadəsindən hiss olunurdu ki, bu əmməkdən o qədər də razı deyil. Həsənağa ümumi vəziyyətdən darıxıb dedi:

– Kimin uşağını göndərmisən?

– Hara?

– Necə hara?! Sənin də yaddaşın xarab olub nədir?! Gəlini çağırmağa.

– Bıyy, hə-ə. Rəcəbin oğlunu.

– Eh! Dədəsindən kim xeyir görüb ki, balasından da sən görəsən.

– Yoox. Nə danışırsan?! Dedi indi gedib çağırram, – deyə Səltənət əminliklə cavab versə də, ürəyində bir az şübhəyə düşdü. «Uşaqdır da... Əgər atasının tərbiyəsini götürübsə, ondan yaralı barmağa ...... olmaz».

Uşaq da bu ara Səltənətin döşünü buraxıb ağlamağa başladı. Görünür, qarnına bir şey getmədiyini, nəhayət, bilmişdi. İndi gəl, bunu sakit elə, görüm necə edirsən. Səltənət o qədər təntidi ki, döşünü paltarının altına qoymağı unutdu. Eləcə açıqca çöldə qaldı. Başqa vaxt olsa idi, yəqin ki, Həsənağa onunla dava eləyərdi. «Ağəz, keflisən?! İçib eləməmisən ki?! Bu necə hərəkətdir? Döşünü-başını niyə açıq qoymusan? Demirsən, birdən qəfil içəri girən olar. Eyibdir» Xülasə, Həsənağa onunkunu ona verərdi. Çünki belə şeylərdə Həsənağa çox həssas, hər cür ədəb-ərkan gözləyən kişi idi. Bu dəfə isə dillənmədi. Bildi ki, o yazıq da başını itirib. Uşaq onu necə təntidibsə, nə etdiyini də bilmir. Ona görə də Səltənətin eşikdə qalmış döşünə baxa-baxa qəribə bir səksəkə içərisində qaldı. Həm də arvadının döşü bu dəfə Həsənağanın gözünə nəsə ayrı cür, lap əliuşaqlı

olan vaxtlarda gördüyü kimi göründü. Bu iki həftəyə yaxın müddətdə Səltənətin döşü dəyişilib ayrı cür olmuşdu. Balaca onu gecə-gündüz sorub elə bil böyütmüşdü. Ucunun giləsi uzanıb, dolub elə şüşələnmişdi ki, deyirdin Səltənət təzədən cavan olub.

Səltənət döşünü paltarının altına təzə salmışdı ki, Rəcəbin oğlu şırp içəri girdi:

– Evdə yoxdur, – dedi, – dedilər uşağı xəstələnib, onu həkimə aparıb.

Hm! Səltənət yaman pis oldu. Bəlkə, elə o uşağın xəstələnməsinin günahı bunlardadır. Onun naxoşluğuna bunlar bais olublar. Yarım saatdan, bir saatdan bir qaçıb çağırırlar ki, uşaq ağlayır, gəl. İki yana baxan çaş olar deyərlər. O da qalıb iki uşağın əlində. Gah onu əmizdirir, gah da bunu. Bir quru canını iki uşağın yolunda həlak eləyib. Nə qayırsın ki, bunlar əjdaha kimi uşaqlardır. Yəqin, doymurlar. Belə getsə, bunun da işi fırıxdır. Səltənət fikrini tamam dəyişdi. Daha ona əziyyət verməyi, uşağına mane olmamağı qərara aldı. Hardan olur-olsun, necə olur-olsun, axtarıb, gəzib uşağa puluynan da olsa, ana südü tapmağı qərarlaşdırdı. Özü də daha bunu ləngitmək olmazdı. Çünki uşaq ac idi, ağlayırdı. Heç beş dəqiqə də dayanmaq olmazdı. Hə-ə. Uşaq yaman şeydir. Uşaq adamı düşmənin də qapısına aparar.

– Sən uşağın yanında ol, çox ağlasa, əmziyini ver sorsun, mən də indi gəlirəm, – deyə Səltənət körpəni ağlaya-ağlaya Həsənağanın yanında qoyub evdən çıxdı. O, bütün gecə-gündüz beləcə uşaqla məşğul idi. Hələ yaxşı ki, bu günlər onun məzuniyyətinə düşmüşdü. Yoxsa tamam axırları itərdi. Həsənağa kişi də uşağı saxlaya bilməyəcəyindən qorxsa da, səsini çıxara bilmədi. Çünki özgə çarə yox idi. Qızı xeyli uzaqda yaşayırdı. Novxanıya köçürmüşdülər. Oğlu da dənizçilik məktəbində idi, keçən həftə gəlmişdi. Uşağı görüb əvvəlcə təəccüb elədi. Sonra məsələni öyrənəndən sonra gülüb bir söz demədi...

Hər nə təhər, körpə uşaqla evdə tək qaldığını görcək Həsənağa arvadının ardınca qışqırdı:

– Sən allah, gecikmə, tez gəl!

Şəhər yeri belədir ki, əsasən, həyətində, yan-yörəsində olan ailələri, adamları tanıyırsan. Bir az o yanda yaşayanları hardan tanıyacaqsan. İnsan da tanıdığı, bildiyi adamlarla münasibətdə olur. Daha yad adamla sənin nə işin?! Qadın xeylağı olsa da, Səltənətin vəziyyəti elə idi ki, belə şeyi qəti nəzərə almadı. Tanıdı, tanımadı qabağına çıxan həyətə girdi, bir arvad görüb soruşdu, əliuşaqlı qadın axtardığını, ona ana südü lazım olduğunu söylədi. Qəribə idi ki, hamilə olan gəlinlərə rast gəlirdi, bugün-sabah uşağa yatacaqdılar. Hamısına «Sağ-salamat» – deyə Səltənət dil-ağız eləyirdi. Amma hazırda əliuşaqlı bir arvad tapmadı ki, bu qayğıdan azad olaydı. Axırı bir arvad zarafata salıb:

– Ay bacı, indi əlişaqlı arvad çətin taparsan. Kişi var idi ki, uşaq da olaydı. Dava təzə qurtarıb, uşaqlar bundan sonra olacaq. Bu gün-sabah hər evdən bir «inqa» səsi gələcək. Sənsə özünü əziyyətə salma, inək südü ver körpəyə. Nə olasıdır?!

– Dedim bu bir-iki ayı ana südü ilə böyüdərəm. Uşaq bir az möhkəm olar. Ona görə tapa bilməsəm, əlbəttə, verəcəm. Di sağ ol, ay bacı.

Səltənət geri qayıdanda yaman tələsirdi. Booy, indi uşaq ağlamaqdan çatlayıb yarıldı. Booy, indi uşağın səsi batdı. Booy, indi uşaqcığaz acından öldü. Öz-özünə belə deyə-deyə Səltənət geri, evinə elə gəlirdi ki, bəlkə də, ömründə heç belə yeyin getməmişdi. Bəlkə də, həyatında birinci dəfə idi ki, evə belə tələsirdi. Ərinə demişdi ki, indi gəlirəm. Halbuki evdən çıxalı xeyli var idi. Bilmirdi ona nə deyəcək? Hələ onunla yola getmək olardı. Yaşlı adam idi, «var, yox», başa düşürdü. Bəs uşaq? O ki başa düşmür. «Var-yox» bilmir. Əsas o idi. Ona nə deyəcəkdi. Heç bilmədi hardan yadına düşdü. Buynuzumda ot gətirmişəm. Döşümdə süd gətirmişəm. Şəngülüm, şüngülüm, məngülüm, aç qapını mən gəlim. Səltənət beləcə evə tələsirdi ki, tanış bir qadına rast gəldi. Sovet küçəsinin cənub başında.

– Bıyy, ağəz, səni xoş gördük, nə var, nə yox, ərin necədir, uşaqlar? – deyə başladı bu belə getdi, o elə getdi, bu elə oldu, o belə oldu. Səltənət bilirdi ki, bu çox danışan qadındır, çənədən boşdur. Amma yaxa da qurtara bilmirdi. Bir ayağını qaçaraq qoyub nə qədər «hə-ə, hı» eyləyib tələsdiyini bildirirdisə, qadın sözünə ara vermirdi. Axırı gördü sözü çox uzadır, dedi:

– Sağ ol, Balacaxanım, tələsirəm, mən getdim, – deyə məcbur olub dilləndi.

– Hara tələsirsən, ağəz, ayda-ildə bir dəfə görüşürük, onda da...

– Uşaq ağlayır, yatızdırıb gəlmişəm, indi oyanmış olar.

– Nə uşaq, ağəz? – deyə Balacaxanım təəccübünü bildirdi. Yəni bu yaşda, o biri uşaqların təvəllüd tarixindən neçə il keçəndən sonra.

Bu ara Səltənətin qaş-qabağı gün təki açılıb xoş bir təbəssümlə gülümsəyirdi:

– Nə bilim, oldu, – dedi.

– Bıyy, əlində-ovcunda qalsın. Lap yaxşı eləmisən. Allaha şükür, ərin gəlib çıxdı. Doğar qarnın var, niyə doğmayasan. Boya-başa çatsın. Xoşbəxt olsun.

– Sağ ol, sağ ol! – deyə Səltənət daha fürsəti fövtə verməyib aralandı. İndi bir az da yeyin getməyə başladı. Hətta daldaya düşəndə yekə arvad ola-ola döşləri atdana-atdana qaçırdı da. Bəs nə etsin. Evdə körpə uşaq qoyub gəlmişdi. İndi yəqin ki, ağlayıb onu gəzirdi. «Şəngülüm, şüngülüm, məngülüm, aç qapını mən gəlim. Buynuzumda ot gətirmişəm, döşümdə süd gətirmişəm». Bu da darmacalda hardan onun beyninə düşmüşdü, bilmirdi. Elə hey ürəyində bir yandan deyirdi ki, buynuzumda ot gətirmişəm, döşümdə süd gətirmişəm. Halbuki...

Nəhayət, yeriyə-yeriyə gəlib özünü həyətə saldı. Ordan da evə. Səltənətin ürəyi çıxırdı. Uşağa görə nigaran qaldığından qaça-qaça gəlmişdi. Sən demə uşaq da qalxıb, həqiqətən, ağlayırmış.

– Can-can! – deyə Səltənət uşağı tez Həsənağa kişidən aldı. Bu ara elə-belə onun döşləri göynədi. Özünü uşaq əmizdirən qadınlar kimi hiss elədi. Yalandan da olsa indi də uşağa döş verəcəkdi. Amma indi bir az da cəld oldu, koftasının

altından döşünü çıxarıb uşağın ağzına saldı. Uşaq da canavar təki yapışıb sormağa başladı.

Bütün bu hərəkətlərə təəccüblə, düşdüyü bu müşkül vəziyyətə acıya-acıya kif-kirimişcə tamaşa edən Həsənağa kişi gözləyirdi ki, uşaq Səltənətin döşünü sorub-sorub ağzına bir şey getmədiyini hiss edib birdən buraxacaq və yenə başlayacaq ağlamağa. Allah göstərməsin, di gəl ondan sonra qabağında dur. Çörək yeyən deyil, Həsənağa kişi çörəyini versin, xörək yeyən deyil, xörəyini versin. Həsənağa kişi onun üçün hər cür əziyyətə qatlaşmağa hazır idi, bircə onun səsi çıxmasın.

Qəribə idi ki, bu ara Həsənağa kişi uşağa görə çox təlaş keçirməsinə, narahat olmasına baxmayaraq, xeyli vaxt keçdi, amma o səsini çıxarmadı. Bu, boynunu uzadıb daha yaxından baxdı ki, görsün nə edir? Gördü dodaqlarını tərpədib sorur. Səltənət də elə sakit, elə təmkinli dayanıb ki, elə bil uşağı, həqiqətən, əmizdirirdi. Başından ağ kəlağayısını da sürüşdürüb döşünün üstə sarı salmışdı. Bayaqdan o, yağmaq üçün göyün dərinliklərində çalxalanan, gah açılıb, gah bükülüb belədən-belə, elədən-elə axıb gedən, nəhayət, susuzluqdan cadar-cadar olmuş torpağın üstə qərar tutub dayanmış və ətəkləri xüsusi bir meyilliklə yerə sallanan bir parça buluda bənzəyirdi. Neçə gündən bəri yerdənmi, göydənmi damcı-damcı özünə yağış toplayıb ağırlaşan və indi elə bu dəqiqə, bu an damcı-damcı süzülüb şırıltı ilə yerə tökülməyə hazır olan bu bulud olmazdı ki, yağmasın. Dünyasında olmazdı. O, olmazdı ki, nəyə isə ehtiyacı ola-ola yalan yerə belə sakitləşsin. Həqiqətən, aradan bir qədər keçəndən sonra, anasının qucağındaca əmib-əmib yuxuya gedən uşağın ağzından ehmalca çəkib döşünü çıxardanda Həsənağa kişi maraqlanıb gördü ki, uşağın dodaqları dəyirmicə süddür. Elə bir qeyri-adi iş baş verməmiş kimi Səltənət heç nə demədi, uşağı usdufca yerinə qoydu ki, yatsın. Həsənağa kişi üçün möcüzə baş vermişdi. Təbiətdə belə şeylərin ola biləcəyini bu özü demiş olsa da, amma bu ona yenə də əsl möcüzə kimi görünürdü. Protez ayağının üstə çox dura bilmədiyindən bütün ağırlığını sağının üstə salaraq Səltənətə baxa-baxa fikirləşirdi ki, ey təbiət, insanı yaşatmaq üçün insan nələrə qadir deyil?!



# ƏSAS ÜRƏKDİR

Səhər obaşdan məftil çəpərin üstündən Mahmud kişinin dirriyinə bir şeşəbuynuz başı uzandı, güclə də olsa ağzını qarğıdalı kollarına yetirdi və dilini dolayıb gömgöy qıçaları acgöz-acgöz yoluşdurdu. Birini, ikisini, üçünü... çəpər uzunu qarğıdalı kollarını beləcə biçə-biçə gedirdi. Səsə eyvanda yatmış Mahmud kişi oyandı. Hövlnak qalxıb baxdı, şeşəbuynuz bir inəyin döşü ilə itələyib çəpəri böyrü üstə döndərdiyini görcək kişi o qədər təntidi ki, şalvarını geyinməyə macal tapmayıb qısa tuman-köynəkdə yüyürdü.

– Ay inək! Ay inək! – Eyvanda taxta pilləkənlə aşağı düşdü. Həyətdə əlinə bir yekə ağac alıb özünü qarğıdalılığa saldı. İnəyi qovmaq istəyirdi ki, ayaqlarına şapşapı geyinmiş bir qadın da o yandan yüyürdü. Mahmud kişi dayandı, özünə baxdı, tuman-köynəkdə olduğunu görcək səsini çıxarmadı, gizlincə tez geri qayıtdı. Şalvarını, köynəyini geyinib təzədən gəldi. Qadın inəyi çəpərdən çıxarmışdı. Mahmud kişi böyrü üstə yıxılmş çəpərə, başları biçilmiş qarğıdalılara, günəbaxanlara baxa-baxa başını bulayıb incik tərzdə dedi:

– Belə olmaz axı, ay Səlmi. Heyvanınıza niyə göz-qulaq olmursunuz?

Qadın xəcalətli-xəcalətli dilləndi:

– Bağışla, Mahmud əmi.

Mahmud kişi heyvanın ardınca acıqlı nəzərlə baxaraq dedi:

– Sizin bu üzülmüş inəyin əlindən mən yuxu da yatmıram.

– Bıy, onu görüm ətlik olsun. Məni də bütüncə bezdirib.

– Elə demə. Uşaqlar ağartısız qalar. Ancaq... – kişi səsini bir qədər ucaltdı. – Bəs hanı oğlun? Maşallah yekə kişidir, belə-belə şeylərə gərək o baxsın axı?!

– İndikiləri bilmirsən, Mahmud əmi? Heç tezdən durarlar? Həm də Bakıya gedəsidir. İmtahanlara hazırlaşır.

– Təkcə oxumaqla deyil, qızım. Əslikar odur ki, adam iş-gücə yarasın. Eybi yoxdur, qoy buranı düzəldim, gələrəm onun yanına. Qulağından dartıb aşının suyunu verərəm.

Çələklərini qapının ardına qoyub Səlmi içəri gəlib oğlunun hələ də yatdığını gördü, yaxınlaşıb onu ehmalca silkələdi.

– Sərxan! Ay Sərxan!

«Hı» eləyib yanı üstə çevrildi, üzü divara yatdı. Anası məcbur olub onun qolundan dartdı.

– Səninlə deyiləm?!

Oğlan qıçlarını altına çəkib silkələndi və yuxulu-yuxulu dedi:

– Qoysana yataq!
Səlmi daha dözməyib oğlu ilə bir qədər sərt danışdı:
– Nə qədər yatmaq olar?! Qonşunun yanında biabır olmuşuq.
Sərxanın gözləri xırp açıldı.
– Nə olub?
– Nə olacaq?! İnəyimiz Mahmud kişinin çəpərinə girib, dirriklərini yurd eləyib. Həyət-bacalarında da tutar qoymayıb üzülmüş.
Sərxan bir söz deməyib kirpiklərini çala-çala qaldı. İş-işdən keçmişdi, daha nə edəsi idi? Sonra?
– Əşi, biz nə edək? İnəyi qəsdən öyrətməmişik ha, – deyə gözlərini yumub təzədən yatmaq istədi.
Oğlunun hərəkəti Səlminin xoşuna gəlmədi.
– Dur! Dur! Qonşuluqda yaxşı deyil. Mahmud kişi bayırda hələ də söylənir. Özü də deyir: – Oğlun hanı ki, mal-qaranın da ardınca sən qaçırsan? Hələ gör sənə neyləyəcək?! Səni yaman yanıyır.
Bayırdan Mahmud kişinin səsi gəldi:
– Ay ev yiyəsi! Ay uşaq!
– Bax özü də gəldi. Dur, üzrxahlıq elə, de ki, Mahmud baba, axırıncı dəfə olsun, bir də üzülmüşü gözdən qoymaram.
Səlmi arvad tez çıxdı.
Sərxan isə quruyub qalmışdı. Sonra nə fikirləşdisə, hoppanıb qalxdı. Əlini çarpayının qulağındakı stulun üstə atmış olduğu «Odra» cins şalvarına uzatdı, tez qıçlarına çəkdi, qısaqol köynəyini geyindi. Mahmud kişi eyvana qalxan pilləkənin ayağında dayanmışdı. Səlmi arvadı görüb dedi:
– Aaz, Sərxan durubmu?
– Hə, a babası, – Səlmi arvad qılıqla danışdı. – Paltarını geyinsin, indi gələr.
Daha böyük oğlandır. Gün günortayacan yatmaq olar?! Bilirsənmi mən özümə görə demirəm. Ona görə deyirəm ki, bir işin qulpundan da o tutsun ki, sənə də asan olsun. Yoxsa... Görürəm, hər işin ardınca özün qaçırsan.
Səlmi arvad Mahmud kişinin sözlərini təsdiq etdi.
– Hə. Hə. İndi gəlsin yanına, tənbehini elə.
– Hələ gör ona nə toy tutacağam?! – Mahmud kişi elə danışdı ki, səsi içəridə eşidilsin. Amma Sərxan bayıra çıxmadı. Mahmud kişinin hövsələsi daraldı.
– Əşi, o eşiyə çıxanacan axşam olar, qoy yenə özüm... – Mahmud kişi ayağını pilləkənə qoydu. Tappatap eyvana qalxanda Sərxan içəridə ayağına geyinməyə bir şey axtarırdı. Bilmirdi ayaqqabılarını harada çıxarıb. Birdən tuflilərini qapının ardında görcək yüyürdü, tələm-tələsik geyindi və yan divarın pəncərəsi ağzına çıxıb arxasında pəncərələri dartıb örtdü. Özünü isə oradan qonşu həyətin bağına tulladı. Sən demə, çəpərin dibi uzunu əkilmiş gilas ağaclarının kölgəsində çoxlu

toyuq-cücə varmış. Qaqqıldaşıb-pırıldaşıb hərəsi bir yerə dağıldı. Səsə bir boz küçük hürə-hürə onun üstə gəldi.

Mahmud kişi eyvanın girəcəyində qırmızı rəng çəkilmiş döşəməyə baxıb dayandı.

– Hələ sən mənim huşuma bax, özüm də ayaqqabılı gəlmişəm. Mahmud kişi əyilib tuflilərini çıxarmaq istədi.

Səlmi tez onun qolundan tutdu.

– Sən Allah çıxartma, ay Mahmud əmi.

– Yox, yox, qızım. Mən sənin səliqə-sahmanını niyə pozum axı! – Mahmud kişi ayaqqabılarını çıxarıb otağa keçdi. – İndi mən sənə günortayacan yatmağı göstərərəm, Sərxan.

Ancaq... kişi özü deyib, özü eşitdi. Otaqda heç kəs yox idi. Səlmi arvad təəccüblə barmağını dodağının üstə qoydu.

– Bıy, başıma xeyir! Bu gedə hara getdi?

Küçüyün səsinə Aynur eşiyə çıxıb həyətə düşdü. Boz tulanın özünü yeyib-yırtdığını görcək ona acıqlandı.

– Allah yandırmış, nəyə hürürsən?

– Ham! Ham! Ham!

Qız tulanın hürdüyü səmtə tərəf getdi. Bağa girəndə Sərxan ağacın ardına sinərək özünü şaxşəvərin arasında gizlətməyə çalışırdı. Xatalıtək qız düz gəlib onun üstə çıxdı. Oğlanı qəribə vəziyyətdə görcək təəccüb etdi. Sonra pıqqıldadı:

– Hi... Hi... Hi...

Sərxan bilmədi nə etsin. Əlini atıb aşağı əyilmiş budaqdan bir qırmızı alma dərdi və dişinə çəkdi. Qız ona baxıb-baxıb dedi:

– Özününkünə qıymırsan? Yoxsa qışa saxlayırsan? Xəsis!

Oğlan yeməyindən qalmadı. Çənəsini oynada-oynada dedi:

– Sizin almanız şirindir, bal kimidir. – O daha da ləzzətlə yedi. Sonra almanın yarısını qıza uzatdı. – Hələ bir dadına bax.

Qız əlini qaldırıb oğlanın biləyinə vurdu, dişlənmiş alma yerə düşdü.

– Buna bax! Məni öz almamıza qonaq edir. Xətrim alma istəsə, elə özüm yeyərəm.

– Ta neynim. Malını yeməyənin malını yeyərlər.

– Elə oldu?

– Hə.

– İndi mən küçüyə qıs vuraram... – Qız geri dönmək istərkən oğlan onun qolundan yapışdı.

– Elə şey eləmə, Aynur. Xahiş edirəm, səs salmayasan, elə edəsən ki, baban görmədən mən buradan çıxıb gedim. Bilirsən də, çox acıqlı kişidir.

– Yox bir! – Qız dartınıb qolunu oğlanın əlindən çıxartdı. Boz tula Sərxanın üstə cumdu. Ağacların arası ilə oğlan necə qaçdı, özü də bilmədi. Qaçıb-qaçıb çəpərdən yola tullandı. Qız da onun ardınca şaqqa çəkib gülürdü.

Sərxan qalmaqaldan uzaqlaşıb asudəliyə çıxanda özünü kəndin görkəmli yerində salınmış balaca bir bağda gördü. Üst-başını düzəldib ağacların arası ilə gedəndə birdən dayandı. Qonşuları Telli nənə səhər-səhər qəhrəman oğlunun abidəsi önündə dayanmışdı. Bu ağsaçlı, qədd-qamətli qoca qadın indi özü də bir heykələ dönmüşdü. Əlini qoynuna qoyub sakit-sakit oğlunun büstünə baxıb, gözünü gözlərindən çəkmirdi.

Sərxan da quruyub qalmışdı. Büstə baxırdı, anaya baxırdı. Birdən oğlan nə fikir etdisə, Telli nənəyə mane olmamaq üçün ayaqlarının ucunda geri qayıtdı, harasa gedib tezcə qayıtdı. Əlində bir dəstə gül tutmuşdu.

Hələ də oğlunun yanındaydı Telli nənə.

Bu da büstün qarşısında qoydu gülünü. Çəkilib dayandı kənarda, Telli nənəsinin yanında.

O da əlini qaldırıb sığalladı Sərxanın telini.

Sərxan büstə baxdı, baxdı... Bir azdan günəş ağacların arxasından yarpaq-yarpaq olub töküldü qəhrəmanın üstə.

Sərxan hələ də baxırdı qəhrəmana, bir də təzəcə doğan günəşə. Nələr xatırlatmadı bu günəş ona. Kəndlərində nə bu bağ oldu, nə də bu abidə. Onun əvəzinə təkcə qırmızı günəş qaldı onun gözündə. İriləndi günəş, böyük günəş. Qızıl şəfəqləri arasında da bir at peyda oldu. Yalını qızıldan, yəhəri qızıldan. Günəş də, at da get-gedə yaxınlaşdı.

Bəs o oğlan kim idi qızıl atın üstə? Qədd-qamətli, gözəl-göyçək bir oğlan.

Necə də oxşayırdı bayaqkı büstə! Elə bil o gətirirdi işığı dünyaya.

Bəri yol üstə də bir gəlin dayanmışdı. Başında ağ kəlağayısı, əynində qırçınlı koftası vardı.

Atlı gəlirdi. Yol üstə dayanmış qadının ürəyi dözmədi. Qabağına getdi atlının.

Oğlan da hoppanıb düşdü atından.

– Ay ana, görürsən gəlirəm, daha niyə zəhmət çəkirsən?

– Ürəyim durmur, atam-anam.

– Eh, sən də! Birdən mən lap uzaq-uzaq yerlərə getdim. Onda neynərsən?

– Dalınca gedərəm, ömrüm-günüm.

Dəhşət idi dava başlananda. Arvad-uşaq bir-birinə qarışmışdı. Telli vaqonun yanınca qaça-qaça qışqırırdı:

– Gedən kimi məktub yaz. Eşidirsənmi?

Vaqonun ayaqlığında dayanmış oğlu da əlini qaldırıb təlaşla ona deyirdi:

– Yaxşı! Qayıt geri!

Az qalırdı Telli də oğlu ilə getsin.

– Yerini bildirməmiş olma, dərdin alım.

Sədi anasına görə heç belə narahat olmamışdı. Yıxılacağından qorxub qəhərlə bağırdı.

– Dedim yaxşı!

Tellinin elə bil dizləri çapıldı. Dayandı. Vaqonlar yanından taqqataq keçirdilər. Sonuncu vaqon da keçdi.

Telli ayrılığa dözməyib ağladı.

Çiyninə bir əl uzandı.

– Sən də yaxşı! Uşağın ardınca ağlama.

Bildi əridi. Kişi yüyəni geri qatladı.

– Xeyli yoldur, gəl min, yorularsan.

– İstəmirəm. Sən min.

– Mən də istəmirəm. – Atakişi də minmədi.

Xırmanda taxıl döyürdülər. İki-üç arvad tayanın üstə çıxıb maşına dərz atırdılar. Elə cəld tərpənirdilər ki, əllərini görmək mümkün deyildi. Bir-iki qadın da bəndəmi açıb taxılı barabanın ağzına verirdi. Üst-başları, boyun-boğazları qılçığın içində idi. Saman tozundan da üz-gözləri dolmuşdu. Bircə gözləri ağarırdı. Telli də onların arasında idi. Aşağıda da kimi maşınının ağzından taxıl daşıyır, kimi də yeri-yurdu dırmıqlayırdı. Molotilkanı işlədən traktorun səsindən də qulaq tutulur, bir şey eşitmək olmurdu.

– Telli bacı, məktuuub!

Tellinin qulağı aldı. Bir an işdən əl saxlayıb aşağı baxdı. Orda-burda əli yabalı, dırmıqlı, vedrəli, çuvallı nə qədər arvad, uşaq, qoca-qoltaq gördü. Əlində məktub tutub ona baxaraq gülümsəyirdi. Telli elə karıxdı ki, əvvəlcə bir şey unamadı. Sonra tayanın üstündən necə sürüşüb düşdüyünü özü də bilmədi. Məktubu alıb sinəsinə sıxdı. Onda Tellinin oğlunun atı çöldə buraxma idi. Xırmandan xeylicə aralı biçilmiş zəmidə otlayırdı. Telli də əlində məktub kövşənliyə sarı qaçmağa başladı. Hamı quruyub qaldı ki, birdən-birə bu arvadın başına havamı gəldi? Niyə belə hərəkət elədi? Molotilka boşca işləyir, kolxozçular isə təəccüblə Telliyə baxırdılar. Biri çənəsini yabasının ucuna söykəyib dayanmışdı. Biri dırmığını sinəsinə sıxıb baxırdı. Biri barmağını dodağının üstə qoymuşdu. Biri ağzını açıb baxırdı. Hamı heyrət içində idi ki, bu arvada nə oldu?

Bir də gördülər Telli düz bir atın yanına qaçır. Atın böyründən qəfildən çıxcaq heyvan hürkdü. Sonra dayanıb arxaya baxdı. Deyəsən, Telli arvadı tanıdı. Qaçmadı. Telli yaxınlaşıb onun boynundan qucaqladı. Öpdü.

– Bax, bax, – dedi. – Sədidən məktub gəlib. Gözün aydın.

At elə bil Tellini başa düşürdü. Sakitcə dayanıb gözlərini qırpırdı.

– İndi Sədinin yanına gedəcəm, ay kəhər. Lap günü sabah yola düşəcəm. Səndən də salam deyərəm. Deyərəm kəhər yolunu gözləyir.

Bomboş çöllük bir yer idi. Bircə uzunsov barakların yanında iki-üç ağac vardı. Onun da ən irisinin bir tərəfi qurumuşdu. Qalan yerlər quru qobuluq idi. Amma hayana baxırdın dəstə-dəstə, bölük-bölük əsgər görünürdü. Şaxımış günün altındaca təlim keçirdilər. Bir tərəfdə tarappa-tarap ayaq döyürdülər. Digər tərəfdə tüfəngləri çiyinlərində farağat vəziyyətdə dayanıb əmr gözləyirdilər. Başqa bir yanda gah dağılışır, gah da qaça-qaça cərgəyə düzülürdülər. Bir! İki! Bir! İki! Bir! İki!.. Boz təpənin döşündə isə çoxlu əsgər vardı. Qarnı üstə sürünə-sürünə gedir, təpəni o yana aşmaq istəyirdilər. Üç-dörd yüksək hərbi rütbəli adam da barakların qabağındakı meydanda nə barədəsə söhbət edirdi. Yanlarında da bir maşın dayanmışdı. O yan-bu yana tez-tez hərbi yük maşınları keçir, tıppıltıdan qulaq tutulurdu. Toz da başa gələsi deyildi. Maşından, adamların ayağının altından toz dumantək qalxır, bürkülü havanı da ağırlaşdırırdı. Orda-burda top lülələri görünürdü.

Telli köhnə, uçuq bir divarın kölgə düşən yerində süfrə açmışdı. Bişirib gətirdiyi ləziz şeylərdən oğluna və onun yoldaşlarına yedizdirir, oğluna baxmaqdan isə doymurdu, tez-tez ərinin qoluna vurub kirimişcə «anası ölmüş sınıxıb» – deyirdi. O da «sınıxmayıb» deyə çiynini çəkir və bölük-bölük əsgərlərə, maşınlara, topa-tüfəngə, adamlara baxıb başını bulayırdı.

Sədi ayağa qalxdı.

– Biz getməliyik.

– Daha vaxtdır, – o biri əsgərlər də qalxdılar. Telli əllərini qoynuna qoyub bikeflədi.

– Fikir eləmə, ay ana, tezliklə dava qurtarar, görüşərik. Əsgərlər ordan-burdan ananı qucaqladılar.

Telli onların hər birini bağrına basıb öpdü. Sonra da oğlunu qucaqladı. Sədi nəsə birtəhər idi. Gülə-gülə anasına baxırdı. Elə bil ona deyiləsi nəsə bir sözü vardı. Demək də istəyirdi, deməmək də. Onun belə qəribə hərəkətinə yoldaşları da baxıb gülümsəyirdilər. Yoldaşlarından biri hamını qucaqlayıb qabağına qatdı.

– Ə, bir az anrı getsəniz. Görürsünüz uşaq utanır. Yəqin, sevgilisinə ismarıcı var.

Telli arvadın gözləri işıqlandı.

– Atam-anam ay Sədi, olmaya gözaltın var? Məndən gizləmə. Salam aparram, sözünü yetirrəm.

– Yox ana, sənsiz mən... – Sədi cibindən beş-altı parça qənd çıxartdı və anasına dedi:

– Bunları öz əlinlə mənim atıma verərsən, ana. Xahiş edirəm.

Telli təəccüblə əlini ağzına apardı.

– Bıy, başıma xeyir, – dedi. – Sən ona qənd yedizdirirmişsən?!

* * *

Qatardan düşüb kəndlərinə gələndə arabadan-maşından bir şey tapmadılar. Söhbət eləyə-eləyə piyada gəldilər. Üst tərəfə doğru xırda kol-kosluq, meşəlik, qaratikanlıq idi. Bunların getdiyi köhnə torpaq yol isə, əsasən, açıq sahələrdən – taxıl yerlərindən, otlaqlardan keçir, gah dərəyə düşür, gah düzənə çıxırdı. Bikef-bikef nə qədər yol gəldilərsə, bir adama rast olmadılar. Tellinin ürəyi elə bil birdən-birə darıxdı. Bir dikdə dayanıb yan-yörəyə nəzər salaraq qayğılı-qayğılı yırğalandı.

– Eh! – dedi. – Həmişə buralara nə qədər gəlib-gedən olardı. İndi gör...

– Orada millətə fikir vermədinmi?! Nə qədər əsgər vardı?!

– Adam ha qalmayıb, əli-ayağı tutanı aparıblar.

– Bə bu işin axırı nə olacaq?!

Qabaq tərəfdəki çökəkdən səs gəldi. Deyəsən, atlı gəlirdi. Telli əlini başına aparıb, saçlarını kəlağayısının altına yığdı, boğazını-başını örtdü. Gördülər ki, gələn öz atlarıdır. Onların qənşərinə çıxanda dayandı. Ceyrantək başını dik tutub, qulağını şəkləyib baxdı. Görünür, dərədən su içib çıxırdı. Dodaqlarının yanından su damcılayırdı. Telli balaca uşaqtək sevincək dilləndi:

– Kəhərim. Ay kəhərim.

At fınxırıb yoldan kənara çıxdı. Kişi onu səslədi.

– Tşü... Tşü...

At başını yuxarı tutub kişnədi. Elə kişnədi ki, səsi dağı-dərəni başına götürdü. Telli göynədi.

– Can! Can! – Və ona yaxın getdi. At qaçmadı. Dayanmışdı. Telli yaxın gedib atın boynunu qucaqladı, öpdü. Donunun cibindən qənd parçalarını çıxarıb ovcunda atın ağzına yaxın tutdu.

– Ye, – dedi, – Sədi göndərib. – Özü də ağladı.

Kəhər qəndləri ağzına alıb xırthaxırt yeyəndə kişi dedi:

– Aaz, bu heyvan nə vaxtadək çöldə buraxma otlayacaq? Qoy aparaq evə.

Telli başını buladı.

– Yox, yox, – dedi, – elə iş eləmə. Özü gələndə tutub minər.

Telli oğlunun yanına gedib-gələndən sonra daha möhkəm işləyirdi. Əlini atıb xırmanda arvadlarla, qoca kişilərlə çuval qaldırır, arabalara yükləyirdi. Hava tutulub, göy guruldayıb yağış gözləniləndə bərk tələşa düşür, həyəcan keçirirdi. Daha cəld tərpənib xırmanda taxıl tayalarının, arabalarda çuvalların üstünü örtür, basdırır, öküzləri gətirir, arabalara qoşur, bəzən də özü sürüb tədarük məntəqəsinə təhvil verirdi.

O ilin payızı Tellini kolxoza sədr seçdilər. Rayon partiya komitəsindən nümayəndə gəlmişdi. Ağsaçlı bir kişi idi. Kolxoz idarəsində üzünü arvadlara, qızlara, uşaqlara, qoca-qoltaqlara tutub dedi:

– Telli haqqında biz də yaxşı fikirdəyik. Yaxşı eləyib onu seçirsiniz. Ümid edirik ki, hamımızın etimadını doğruldacaq.
– Bu işi o bacarar.
– Qoçaq adamdır.
– Telli sədrimiz olsun.
Yer-yerdən belə sözlər eşidildi. Hamı ona tərəfdar olduğunu bildirirdi.
O isə əli çənəsində qabaqda bikef-bikef oturmuşdu. Nəsə götür-qoy edirdi, gözü yol çəkirdi. Hiss olunurdu ki, kefi yoxdur, ürəyindən qara qanlar axır. Hamı onun haqqında sözünü deyib qurtarandan sonra o özü ayağa qalxdı. Əllərini açdı.
– Nə deyirəm, – dedi. – Həmişə belə olur. Sürü geri dönəndə axsaq qabağa düşür.
Səhəri gün Telli kövşənlərə od vururdu. Çırtaçırt yanıb od-alov sönəndən sonra sahələrə kotan saldırdı. Adam çatışmadığından mejin birindən də özü yapışdı. Hodaxçılar da balaca-balaca uşaqlar idi. Şumun kələ-kötüründə baldırları dolaşa-dolaşa güclə yeriyirdilər.
Yaz gələndə zəmilər elə göyərib qalxırdı ki, Telli əlini çəkib deyirdi:
– Ay torpaq, torpaq, sən necə qüdrətli, sən necə mərhəmətlisən! Adam istəyir səni becərsin. Darıxma, ay torpaq, sahiblərin gəlib çıxar, rəngin-ruhun durular, üzün gülər.
Onda da Telli sahədə idi. Kimsə bar-bar bağırmağa başladı.
– Ayə! Ayə! At taxılı yurd elədi. O üzülmüşü zəmidən çıxardın.
Telli başını qaldırıb baxdı. Oğlunun atını gördü. Gördü zəmiyə düşüb. Qoruqçudan qabaq özü yüyürdü. Ağ kəlağayısı yellənə-yellənə yüyürdü. Həm də çoxdan idi ki, oğlunun atını yaxından görmürdü. Çoxdan idi ki, onunla söhbətləşmirdi. Ona sarı qaçırdı ki, həm zəmidən çaxartsın, həm də... At isə onu görəndə xoflanıb qaçdı. Burnuna, ağzına baharın göy otu dəyən kəhər lap balaca uşaqlartək oynaqlaya-oynaqlaya qaçdı.
– Tşü! Tşü! – eləyə-eləyə Telli onun dalınca getdi. Əlini ata sarı uzatmışdı. Barmağını elə tutmuşdu ki, guya, əlində-ovcunda nəsə var, ona verəcək. Gördü at ona heç fikir vermir, qaçır. Telli də bundan pis olub qəmli-qəmli dayandı. Elə istəyirdi ki, əlini onun boyun-boğazına çəksin, sinəsini şappıldatsın.
At xeyli aralanıb üst tərəfə kol-kosluğa çatanda dayandı, sonra boynunu əyib otlamağa başladı. Qoruqçu saqqallı Məhəd də bu ara sədrin yanına gəldi. Əynində köhnə şinel vardı. Ətəklərin qatlayıb belində kəmərin altına salmışdı ki, yeriyəndə ona mane olmasın. Şehli otda yeridiyindən çarıqları tamam islanmışdı. Züllə dəri papağından da alnı görünmürdü. Boğazı elə bilirdin armud saplağıdır. O, salam-kalam eləmədən birbaş mətləbə keçdi.
– A qızım, – dedi, – vallah-billah çöllərdə peyk olmuşam. Amma bu atın öhdəsindən gələ bilmirəm. Burdan vurub, ordan çıxır, ordan vurub burdan çıxır.

– Amandır, Məhəd dayı, qoyma taxıla düşə. Çörək indi bizim həm ruzumuz, həm də top-tüfəngimizdir.

– Orası elədir, amma...

– Qoyla o dağlara, getsin, otlasın.

– A qızım, bəlkə, tutaq? Özün minərsən. Bir az da keçsə, nə tutdurar, nə də belinə əl uzatmaq olar.

– Zərər yoxdur, Mahmud dayı. Sədi at minən oğlandır, bircə günə yumşaldar.

– Nə deyirəm?! – Qoca əlini göyə tutdu, Allah ağzından eşitsin.

Onda Telli arvad kolxoz anbarının qabağındakı meydanda arabaları sazladırdı. Birinin oxu qırıq idi, biri böyrü üstə yıxılıb qalmışdı. Digərinin təkərləri yox idi. Başqa bir arabanın çarxları sınıq-salxaq idi. Buna görə Telli arvad özü araba qayıranların üstə durub lazım olan hər bir şeyi düzəltdirirdi.

– Muştuluq! Muştuluq!

Telli o dəqiqə bildi ki, nəsə şad xəbər var. Səsə tərəf döndü. Gördü poçtalyonun qızı əlində qəzet uça-uça ona sarı gəlir. Onun ardınca da qıçını çəkə-çəkə poçtalyonun özü yürüyür. Onun ardınca da arvadlar, uşaqlar gəlir. Telli də onlara sarı qaçdı. Araba qayıranlar da əllərində alətləri mat-məəttəl onlara baxırdılar.

– Muştuluq!

– Nə olub? Muştuluğun məndə, – deyə Telli hələ uzaqdan xəbər aldı.

Qız əlində qəzet özünü Tellinin qucağına atdı və tövşüyə-tövşüyə dedi:

– Sədi qar...da-şım qəhrəman olub. Budur, qəzetdə şəkli də var.

Şad xəbərdən Telli təntidi, özünü itirdi, vurnuxmuş halda qəzeti o üzünə, bu üzünə çevirdi.

– Hanı, az, hanı?

– Budur, bax! – Qız əlini qəzetdə şəklin üstə qoydu. Telli gördü ki, qürurlu bir oğlan baxır şəkildən. Çiynindən aşırma enli qayışı da var. Yaxası qoşacibli əsgər köynəyi bədənini sıxma və yaraşıqlı tutur. Cibinin üstündə də nişanlar görünür. Az qaldı oğlunu tanımasın. Gözlərindən tanıdı. Başından tez kəlağayısını alıb qızın başına saldı. Bununla da kifayətlənməyib əlini koftasına atdı, çıxarıb onu da vermək istədi. Qız ikiəlli Telli arvadın yaxasından tutub soyunmağa qoymadı.

Bir azdan kənddə toy-bayram idi. Zurna-balaban çalınırdı. Telli oynayır, camaat orda-burda qəzetə baxırdı. O biri gün kənd yığışıb qəhrəmana məktub yazırdı. Qoruqçu Mahmud kişi çənəsini çomağına söykəyərək aramla diktə edir, poçtalyonun qızı da yazırdı.

– Əvvəlcə salam-dua yaz, sonra da yaz ki, hamımız səni təbrik edirik. Bağrımıza basıb öpürük. Sağ ol, ay oğul, sən ki bizim başımızı uca elədin, yaşa! Min yaşa! Elə et ki, bundan sonra da sənin igidliyini eşidək, mərdliyini görək. Deyək ki, ağrısını aldığımız Sədi bizim yerlidir. Canımız-ciyərimizdir. Budur, dilimizin şirin sözü olmusan. Elimizin gözü olmusan. Qoy sənin düşmən tankına bomba atan əllərin

var olsun. Əlin-qolun ağrımasın. Qırın bu faşist köpək uşaqlarını! Kökünü kəsin yer üzündən! Hələlik bu qədər. Xudahafiz, bizim şirin-nər balamız.

Məktubun ağzını bağlayıb poçtalyon Qəmbərə verdilər. Qəmbər də onu çantasına qoyub taytıya-taytıya yola salmağa apardı.

– Gəlin gedək Sədi dayının atını tutaq, çayda çimizdirək, gələndə tumarlı görsün, – deyə uşaqlar da sözləşib çölə üz qoydular. Gedib atı «heyvalı» deyilən dərədə tapdılar. Qabaqlarına salıb çayın qırağına gətirdilər. Uşaqların hərəsi bir tərəfdə dayanıb atın yan-yörəsini möhkəm kəsmişdilər. «Tşü, tşü» – eləyərək yaxınlaşdıqca kəhər narahat olur, oyan-buyana gedir, ələ keçmək istəmirdi. Yalını oynadıb birdən aradan necə çıxdısa, uşaqlar ardınca nə qədər qaçdılarsa, çata bilmədilər.

Axşam isə evdə gəlin-qızlar Sədinin şəklini qəzetdən cırıb divara, görkəmli yerə vuranda gündüz atın dalınca qaçmış uşaqlar gözləri süzülə-süzülə ağızlarını açıb baxır, taxtın üstə oturduqları yerdəcə yatırdılar.

Sahələrdə yaxşı məhsul vardı. Hayana baxırdın zəmilər dəniz kimi dalğalanırdı. Bir gün Telli, camaatı – məmə deyəndən pəpə yeyənədək hamını bir yerə – idarənin qabağına yığdı. Özü də bir az dikdə dayandı ki, hamını görə bilsin. Qoruqçu Məhəd kişi də gəlib yanında dayandı, ikiəlli ovucları ilə çomağının başından tutub saqqallı çənəsini də onun üstə qoydu.

– Bax, – Telli əlini Məhəd kişinin çiyninə qoydu, – bu kişi Allah şahididir ki, bu il çox yaxşı taxıl gəlib. Onu çöllərdən yığıb-yığışdırmaq çox çətindir. Buna görə gərək gecəmiz gündüzümüz olmasın, ay camaat.

Səhəri kənddə bir adam da qalmamışdı. Hamı tarlada idi. Qocalıb əldən düşmüşlər də oraq götürmüşdülər. Onlar biçə-biçə getdikcə ora-bura düşən sünbülləri götürüb qomların üstə atırdılar. Dərzlər üç-bir, beş-bir yığılıb cərgə ilə düzüləndə Tellinin gözləri gülür, sahənin başındakı tək armudun altında ocaq qalatdırıb biçinçilər üçün xörək hazırlatdırırdı. Beş-on gün sonra isə sahələrdə dərz tayaları ucalanda Telli arabaları işə salıb taxılı xırmana daşıtdırmağa başladı. İşin belə bir qızğın çağında rayon mərkəzindən Tellinin ardınca sahəyə maşın göndərdilər ki, səni raykoma çağırırlar. Sürücü yaşlı bir kişi idi.

– İşimin-gücümün bu vaxtında məni neynirlər? – deyə Telli arvad xəbər aldı.

Sürücü çiynini çəkdi ki, bilmirəm. Bu da əlacsız qalıb maşına oturdu.

Axşamüstü camaat işdən yorğun-arğın evinə dönəndə sədri aparan maşın da qayıdıb gəldi. Maşından Telli arvadla bərabər bir qadın, iki kişi düşdü. Qadın Tellinin qolundan tutmuşdu. Hamı o dəqiqə hiss elədi ki, nəsə bir hadisə olub. Açıqca görünürdü Telli özündə deyil, ayaq üstə güclə dayanıb. Üz-gözündən qəm-qüssə yağır. Hamı bir-birinin üzünə baxdı. Hamının ürəyindən qara qanlar axdı. Ordan-burdan Telliyə yaxınlaşdılar. Bir söz soruşmağa heç kəsin ürəyi gəlmirdi. Qapısının ağzına çatcaq Telli özünü saxlaya bilməyib hönkürdü...

Uşaqlar çöldə atı qovurdular. Quş-quşa ovlanan kimi atı da atla tutmaq istəyirdilər. Beş-altı uşağın hərəsi bir at minmişdi. Hərəsi bir yandan atını çapırdı. Orda-burda Sədinin atının qabağını kəsib yönünü kəndə tərəf çevirmək istəyirdilər. Ancaq mümkün olmurdu: kəhər hər dəfə aradan çıxır, qaçıb-uzaqlaşıb yallarda yalını oynadıb, başını uca tutub kişnəyirdi.

Bir uşaq atını yoldaşlarına yaxın sürüb soruşdu:

– Bu atı neyniyəcək Telli xala?

Qaraşın oğlan çiynini atdı. Yanındakı oğlan dedi:

– Yəqin, özü minəcək.

– Daha oğlu... Bəlkə, satdıracaq? – deyə sarıbəniz uşaq da öz fikrini bildirdi.

Qaraşın atını məhmizləyib çubuğunu qaldırdı.

– Eheey, getdiiik!

Onlar güc-bəla ilə kəhəri kəndə gətirib xalxala salanda qaraşın oğlan atdan düşüb bir az axsaya-axsaya adamların yanına gəldi, üzünü başına qara kəlağayı örtmüş sədrə tutdu:

– Gətirdik atı.

Telli xalxala sarı getdi. Məhəd kişi ondan geri qalmadı.

– Nə etmək istəyirsən?

– Heç nə. Atı tutacağam.

– Arvad işi deyil, – Məhəd kişi Tellinin qolundan tutub saxladı. – Tamam vəhşiləşib. Xəsarətlik eləyər.

– Heç nə olmaz, Məhəd dayı. – Telli qayıtmadı, xalxala girdi.

Kəhər səsə xoflanıb başını qaldırdı və fınxırıb xalxalın küncünə sarı getdi, döşünü qaratikan çəpərinə söykədi. Telli isə... Əri gəlib onun qabağını kəsdi.

– Neynirsən?! Mən tutaram.

– Belə dur görüm, – deyə Telli yanıqlı-yanıqlı ərini kənara itələdi, irəli yeridi. At yerində oyur-oyur oynayır, döşünü qaratikan çəpərinə sürtürdü.

– Kəhər! Ay kəhər, – deyə Telli səsini çıxartdı. At dönüb baxdı və sakitləşdi. Telli yaxınlaşıb əlini kəhərin yalına yetirdi, atın boynundan tutub gizlicə ağladı. Gətirib ona yüyən verdilər. Telli yüyəni atın başına salıb bəri gətirdi. Hamı ona baxırdı, nə edəcəyini gözləyirdi. Telli cilovu qaraşın oğlana uzatdı.

– Ala, apar min, – dedi. – Mən indi sizin hansı birinizə baxsam, Sədini görəcəyəm.

Bütün bu eşitdiklərini Sərxan xəyalında canlandırıb başını yavaşca döndərdi, o vaxtdan keçən çox illər ərzində qocalıb tamam dəyişmiş Telli nənəyə baxdı. Baxdı və ona nəsə bir söz demək, onu danışdırmaq, fikir-xəyaldan ayırıb başını qatmaq, könlünü almaq istədi. Bir söz tapa bilmədiyindən qaşlarını çatıb dodaqlarını həyəcan içərisində çeynəməyə başladı.

Anası Səlmi isə çay-çörək hazırlayıb, eşikdə, tut ağacının altında, açıq havada süfrə açmışdı. Oturdular ki, yesinlər, boğazlarından keçmədi. Səlmi ikinci sinifdə oxuyan ortancıl oğluna dedi:

– Natiq, durub bir buralara baxsana, bəlkə, qaqaşını gördün, çağır gəlsin, mən də sizin üçün yaxma çəkim.

– Mən də gedirəm, – deyə Səlminin lap balacası ortancıldan qabaq stuldan sürüşüb düşdü.

Hərəsinin bir velosipedi vardı. Minib yola düşdülər. Ötüşdülər. Balaca da özünə görə deyilmiş. Başını, çiyinlərini oynada-oynada özünə bir həkk gəlirdi ki, geridə qalmasın, qabaqda getsin. Qarşıdakı döngəyə çatcaq Sərxanla Telli nənənin gəldiyini gördülər. Dayanıb onların gəlməsini gözlədilər. Yanlarına çatcaq qardaşların ikisi də birdən dilləndi:

– Haradasan? Anam bayaqdan səni axtarır.

Telli nənə evinə getdi. Sərxanın isə bir gözü Aynurgilin çəpərində idi, gedə-gedə onların həyətinə baxırdı. Aynur eyvanda süfrə çırpırdı. Mahmud kişi də həyətdə, kötüyün üstündə nəsə yonurdu. Başları qarışıq olduğundan Sərxanı görmədilər.

Sərxan öz həyətlərinə daxil olcaq anasının kəskin baxışları ilə qarşılaşdı. Səlmi ona baxıb, baxıb narazılıqla başını buladı.

– Heç səndən gözləməzdim. Ayıb olsun.

Sərxan dinmədi – anası haqlı idi.

– Mahmud baba səni...

Bu dəfə də Sərxan dinmədi. Oğlunun başıaşağılığı, söz güləşdirməməyi Səlminin xoşuna gəldi. – Di yaxşı, gəl, otur, çörəyini ye. Bir də belə səhv eləmə. Adam böyüyün-kiçiyin yerini bilər.

Sərxan əlüzyuyana yaxınlaşıb ovuclarını qoşalaşdırdı. Yuyundu. Əl-üzünü silə-silə stola yaxınlaşanda anası onun üçün çay süzürdü. Stəkanı onun qabağına qoyanda dedi:

– Çörəyini ye sonra otur, imtahanlara hazırlaş.

Bir azdan Sərxan əlində açıq tutduğu kitabı iki qatlayıb stolun üstə atdı və gərnəşərək pəncərənin qabağına getdi. Açıq idi – tül pərdə mehdən azacıq tərpənirdi. O irəli dayanıb eşiyə baxanda Aynuru bağda gördü. Qız qəribə hərəkətlər edirdi. Bəri ağacların arası ilə qaça-qaça gedir, qollarını qaldırıb çəpərdən tullanmaq istəyirdisə, ürəyi gəlmir, yerində qalırdı. Oğlan qızın bu oyununu bir neçə dəfə müşahidə elədi. Bildi ki, Aynur özünü sınayır, görsün o da bunun kimi çəpərdən tullana bilərmi? Sərxanın dodaqları qaçdı, geri durub tez eşiyə çıxdı, bağlarından bir yekə alma dərib yola çıxdı, yuxarıdan Aynurgilin çəpərinin o biri tərəfinə hərləndi. Çəpərə baxanda gözünə inanmadı, bayaq bu hündürlükdə çəpərdən necə tullanmışdı? Bir ara Aynur o yandan qaça-qaça gəldi, qollarını qaldırıb tullanmaq istəyirdi ki, Sərxanı çəpərin ardında görüb dayandı. İndi oğlan pıqqıldadı. Qızın yanaqları allandı. Pərt olub qaşqabaqla Sərxanı süzdü. Oğlanın isə hələ də dişləri ağarır, pıqqıltısı gəlirdi. Necə oldusa qız da axıradək özünü ciddi saxlaya bilməyib gülümsədi. Sərxan bundan cəsarətlənib tez əlini cibinə saldı, almanı çıxarıb çəpərin üstündən qıza uzatdı.

– Hələ dadına bax. Xoşuna gəlsə, qapımızdan lap bir ton verərəm. Bilirsən ki, xəsis deyiləm.

– Lazım deyil. Sən öz inəyinizdən muğayat ol, qoyma bizim çəpərə girsin. Sonra da qaçma. Qorxaq!

Kəndin üst tərəfindən torpaq yolla toz qaldıra-qaldıra qoyun sürüsü keçirdi. Atlı-eşşəkli bir neçə çoban sürünü şıvırtlayıb küşkürüb aparırdılar. Dallarınca da beş-altı it gedirdi. Elə bil hər biri pələng idi. Bir boz küçük də alt tərəfdə idi. Hərdən başını aşağı salıb sürünün yanınca gedir, hərdən də dayanıb yan-yörəyə boylanırdı. Ondan bəridə bir dəstə uşaq oynayırdı.

Sərxan da onlara tərəf gedir, qızın sözü isə tez-tez qulaqlarında səslənirdi. «Qorxaq! Qorxaq!» «Hm» eləyib o da rişxəndlə öz-özünə gülümsəyir, bu sözün ona yaraşmadığını bildirirdi.

Uşaqlar oyan-buyana qaçışanda onda gördü ki, boz küçük hürüb onların üstə cumdu. Uşaqlar qaçışdılar. Amma biri yıxılıb dala qaldı. Çobanlar görüb çağırdılar.

– Ay küçük! Ay küçük! Quduz dəymiş!

Sərxan da burdan yüyürdü. Boz küçük çatıb uşağın üstünə cumhacumda bu özünü yetirdi. Əlində bir şey olmadığından təpiklə küçüyü vurdu.

Çobanlar özlərini yetirəndə gördülər oğlanın şalvarı cırılıb aşağı sallanır. Axşam Səlmi oğluna möhkəm acıqlandı.

– Şalvarını harda belə cırmısan?

Sərxan dinmədi, keçib oturdu və tranzistoru açdı, xırıltılı musiqi eşidildi, səsi durulurdu ki, Səlmi yenə danışdı.

– Belə də şey olar?! Mən bilmirəm bu gədə nə vaxt adam olacaq?!

– Ay Səlmi bacı! – deyə bu ara onları yoldan çağırdılar.

– Hə-ə!

– Aaz, evdəsənmi?

– Bəri gəl, evdəyəm.

Gələn Güllü xala idi, oğlu da yanında, Sərxan altdan-altdan ona baxaraq gülümsəyərək ayağa durdu.

– Buyurun, Güllü xala, əyləşin.

– Sənə qurban olum, ay Sərxan, – deyə Güllü arvad qucaqlayıb onu öpdü. – Ömrüm-günüm sənə sadağa olsun. Sən olmasan buncazı it yeyirmiş. Şalvarını da deyirlər it cırıb.

– Zərər yoxdur, – gülə-gülə Sərxan əlini atıb balacanın saçlarını qarışdırdı.

Məsələni indi başa düşən Səlmi arvad oğlundan xoşu gələrək gülümsədi.

O biri gün Sərxan səhər lap tezdən durub eşiyə qaçdı. İnəkləri bağlanan dirəyi boş gördü. Anası həyəti süpürürdü. Gözlərini ovxalaya-ovxalaya Sərxan dedi:

– Ana, naxır getdimi?

Anası bir anlığa əl saxlayıb belini düzəldərək ona baxdı:
– Bu zamana naxırmı qalar?
Sərxan aşağı düşdü, əlüzyuyana yaxınlaşıb şappaşapla yuyundu. Qurulananda dedi:
– Ana!
– Hə.
– Mən bu gün rayon mərkəzinə getməliyəm. Şəkil çəkdirməliyəm. Hərbi komissarlığa dəyməliyəm. Bir də Telli nənə üçün dərman almalıyam. Dünən özü dedi. O dərmandan sizdə yoxdur.
Səlmi arvad həyəti süpürə-süpürə tapşırdı:
– Oralarda avaralanma. Tez qayıt.
Avtobusa minhamində gördü qaça-qaça Aynur da gəlir. Sərxan avtobusun qapısından tuta-tuta əlini yellədi. O çatanadək yerdə dayanıb gözlədi. Birinci qız mindi, onun ardınca da avtobusa Sərxan qalxdı, orta cərgələrin birində yanaşı oturdular. Avtobus yola düşdü. Aynur nə üçünsə bic-bic gülümsəyirdi. Qıyğacı oğlana baxıb dedi:
– Yəqin, şalvar tikdirməyə gedirsən, hə?
Qızın nəyə işarə etdiyini başa düşüb oğlan da gülümsədi.
– Sən hardan bildin?
– Uşaqlar danışdılar.
– Əlimdə heç nə yox idi. Yoxsa yaxın buraxmazdım.
– Niyə qaçmadın? Sən ki...
– Belə ha... Sən məni lap qorxaq bilirsən.
– Qorxaqsan daa!
Oğlan bir söz deməyib çiyinlərini dartdı. Qız söhbəti dəyişdi.
– Bakıya getməyinə az qalıb?
– Hə.
– Fikrin haradır?
– Fikrim?
– Hə.
– İstəyirəm hərbi məktəbə gedəm.
Qız özünü saxlaya bilməyib elə pıqqıldadı ki, avtobusdakılar dönüb ona baxdılar. Qız utanıb əllərini ağzına tutaraq başını aşağı saldı.
Rayon mərkəzində avtobusdan düşəndə Aynur dedi:
– İncidin?
Oğlan başını buladı. Qız sevincək sumkasını yellədi.
– Afərin. Ağıllı oğlansan. Mən də bayaq düşünürdüm ki, yaxşı olmadı, xətrinə dəydim.
– Eybi yoxdur.
– Daxil ola bilsən, böyük işdir. Mənim hərbi adamlardan xoşum gəlir.

– Doğrudan?

– Hə. Paltarları qəşəng olur. Özləri də elə şəstlə yeriyirlər ki...

Şəkil çəkilən yerin qabağından keçəndə oğlan ayaq saxladı. Mehribanlıqla qıza təklif etdi.

– İstəyirsən şəkil çəkdirək...

Qız sumkasını ikiəlli qabağında sallana tutub dizlərinə toxundura-toxundura yellədi.

– Yoox. Çox sağ ol. Tələsirəm. Babamı görməliyəm. Oğlanın gözləri elə bil bərələ qaldı.

– Baban da buradadır?

– Hə. Məndən qabaq gəlib. Televizor alacaq. Ürəyim durmadı, məndə gəldim ki, köməyim dəyər. Sağ ol. – Qız əlini qaldırdı.

Oğlan başını tərpətdi. Sərxan gur işığın altında oturub şəkil çəkdirəndə də qızın xəyalı onun gözlərinin qarşısında idi. Gah pıqqıldayır, gah da utanıb başını aşağı salırdı. Şəkil çəkən də gəlib onun çənəsindən, başından ehmallıca tutur, bir balaca oyan-buyana eləyib daha yaxşı vəziyyətdə dayanmasını xahiş edirdi.

Mədəni mallar mağazası ilə üzbəüz bir bağ vardı. Orda-burda ağacların kölgəsində rəngbərəng skamyalar düzülmüşdü. Bəzilərində oturmuşdular. Boş olanı da vardı. Birində bir cavan oğlan əyləşmişdi. Qəribə qiyafədə idi. Cins şalvar, yaxası qoşacibli, əynini çox kip tutan köynək. Başında da enli dairəsi olan «Sambrero» həsir papaq. Elə bil bura adamı deyildi. Sərxan da gəlib onun yanında əyləşdi, baldırlarına dirsəklənib başını ovuclarına aldı. Nəzərlərini mağazanın qapısına dikdi. Biri girir, biri çıxır, mağaza öz qaydasında işləyirdi. Bir də Aynurgili gördü. Bir yekə qutunun hərəsi bir yanından yapışıb astaraq eşiyə çıxırdılar. Sərxan yerindən qalxdı ki, qaçıb onlara kömək eləsin. Amma nə fikir etdisə, yerində oturdu. Onlar da qutunu yolun qırağına, səkinin üstə qoydular. Mahmud kişi belini çətinliklə düzəldib yan-yörəyə boylandı. Bir maşın gəlirdi. İrəli durub əlini qaldırdı. Dayanmadı, keçdi. Sonra da bir taksi gəldi. Kişi ona da əl qaldırdı. İçərisində adam olduğu üçü o da saxlamadı. Hər dəfə qoca əlini yelləyib nəvəsi Aynurun üstə boş qayıdırdı, qız da bilmirdi nə etsin.

Sərxan yana çevrilib əlini sambrerolu oğlana uzatdı.

– Gəl tanış olaq, mənim adım Sambrerodur.

Oğlanın dodaqları qaçdı, dümağ dişləri göründü.

– Hə?

– Eeyy, – Sərxan əlini yellədi. – Papağını gördüm çaşdım. Adım Sərxandır.

– Mən də İlqaram. – Oğlan əl verdi.

– Lap yaxşı, lap yaxşı. Səninlə tanış olmağıma çox şadam. Ancaq bircə şey edəcəyəm, xahiş edirəm acığın tutmasın. Yaxşı işə hamı kömək etməlidir.

– Əlbəttə.

– Eləsə dur!

Onlar bağdan çıxıb harasa getdilər.

Aynurgil hələ də mağazanın ağzında qalmışdı. Mahmud kişi əlini o maşına, bu maşına qaldırsa da, bir şey çıxmırdı. Bir də şırp bir taksi dayandı. Mahmud kişi ona sarı yüyürəndə sürücü başını uzadıb açıq pəncərədən soruşdu:

– Baba, hara gedirsən?

– Çinarlıya, başına dönüm.

– Buyurun. Minin.

– Aynur, götür, görək, – deyə Mahmud kişi çevrilib qutuya yönələndə maşından iki cavan oğlan düşdü. Sərxanla İlqar idi.

Amma həsir papaq bu dəfə Sərxanın başında idi. Onlardan qabaq yönəlib hərəsi qutunun bir yanından yapışıb maşına qoydular.

– Ay sizi sağ olun. Ay sizi min yaşayın, – Mahmud kişi cavanların hərəkətindən çox-çox razı qalıb onlara dil-ağız elədi və maşına oturdu.

Maşın yola düşəndən sonra cavanlar güldülər.

Uşaqlar həyətdə buzovlarını tutmaq istəyirdilər. Yavaş-yavaş yaxın gedib əllərini uzadanda qaşqa buradan-ora tullanırdı. Bir belə, iki belə, mümkün olmadı. Axırda buzovu həyətdə oyan-buyana qovmağa başladılar. Necə oldusa buzovun quyruğu Natiqin əlinə keçdi. Buzov daha da götürüldü. Uşaq buraxmadı, amma ayağı nəyəsə ilişib üzü üstə gəldi. Dizini tutub ufuldaya-ufuldaya ayağa qalxanda qardaşı Sərxanın doqqaz qapısının ağzında dayanıb ona baxaraq güldüyünü gördü. Uşaq əsəbiləşib qışqırdı.

– Haradasan?

Sərxan zarafat etmək istədi:

– Papağımın altında.

Natiq onun başına baxaraq yenə acıqla danışdı:

– Papağın varmı altında olasan?! Özün də səhər gedib axşam gəlirsən. Bəs anam sənə nə demişdi?

– Ləngidim, qaqaş. İşim oldu, tez gələ bilmədim.

Balaca qardaşı da bu yandan dilləndi:

– Buzovu tutub bağlaya bilmirik. İndi anası gələndə altına düşüb əməcək. Anam da səni döyəcək hə-ə.

– Anam hanı?

– Xəstəxanada. Bu gün növbətçidir.

Sərxan təşvişlə talvara sarı baxdı.

– Bəs inək hanı?

– Hələ gəlməyib.

– Bu vaxta naxır qalar? Yoxsa üzülmüş yenə Mahmud babanın dirriyinə düşdü?! – Sərxan dabanı üstə geri döndü.

Yola çıxanda gördü Aynur həyət qapılarının ağzında dayanıb. Oğlan başının hərəkətilə onu salamladı. Qız bir əlilə donunun ətəyindən tutub zərif hərəkətlə azca aşağı əyildi.

– Salam... Elə bilirsən səni tanımadım?

Oğlan başını bulayıb özünü başadüşməməzliyə vurdu. Qız əda ilə özünü dartıb başını dik tutaraq dedi:

– Sambrero... Elə də gözünün üstünə basmışdın ki, bircə burnunun ucu görünürdü... Tez-tələsiklə onu haradan tapmışdın?

Sərxan gördü ki, qız onu həqiqətən tanıyıb. Ona görə boynuna aldı:

– Yanımdakı oğlanın idi. Başından alıb başıma qoydum.

Qız gülümsəyərək başını buladı və dedi:

– Amma mən səni heç o cür təsəvvür eləmirdim.

– Necə?

– Bu gün özün demədin ki, hərbi məktəbə getmək istəyirsən?

– Hə. Dedim.

– Bax, mən də gözümün qabağına elə gətirirdim. Başında ulduzlu papaq, əynində... İstəyirsən gözümü yumub səni xəyalımda canlandıram?

Oğlan qorxmuş dilləndi:

– Yox, yox. Lazım deyil.

– Niyə?

– Birdən gözünə pis dəyərəm.

– Dəyməzsən, – deyə qız əlini gözünə apardı.

Arada sakitlik oldu. Gecə cücülərinin səsi eşidildi. Sərxan onun yanına gedib səsini çıxartdı.

– Aynur!

Aynur isə gözüyumulu deyirdi:

– Başında ulduzlu papaq, əynində qəşəng hərbi forma, ayağında uzunboğaz xrom çəkmələr.

– Aynur!

– Hə? – qız əlini yanına saldı.

– Bizim inəyi görməmisən ki?

Qız acıqlı bir görkəm aldı:

– Qəribə oğlansan! Heyvanınızı niyə məndən soruşursan. Naxırçıyam?

– Bağışla. Dedim, bəlkə, təsadüfən...

– Yox. Görməmişəm.

Aşağı yoldan maşın səsi gəldi və çox çəkmədi ki, çəpərin dibi uzunu yola işıq zolağı uzandı. Sərxan qızın qolundan tutdu.

– Bəri dur, maşın...

Yanlarından vıyıltı ilə bir motosiklet keçdi.

– Sizin inək də bizi bura yığıb, – qız əlini yaraşıqlı boğazına apardı.

– Heç məni demirsən. Babanın yanında xəcalətli olmuşuq. Üzünə çıxa bilmirəm.

Sərxangilin həyətindən buzov səsi gəldi.

– Mooo... mooo...

– Bax, buzovu da qapıda mələyə-mələyə qalıb. Anasını istəyir. Bilmirəm bu üzülmüş harda qalıb?

– Bizim tövlədə.

Sərxan qızın üzünə mat-məəttəl baxa-baxa qaldı.

– İnanmırsan?

Sərxan başını buladı. Aynur əlini çəpərin aşağı tərəfinə uzatdı. Yanı üstə düşmüşdü.

– Görürsən?! Dirrikdə yenə tutar qalmayıb. Babam da acıqcan elədi. Elə elədi ki, ağlın başına gələ. Axşam da, sabah da heyvanınıza göz olasan. Bildin?

Sərxan quruyub qalmışdı. Aynur çevrildi ki, getsin, Sərxan qolundan tutdu.

– Bəs indi necə olacaq?

Qız çiyinlərini dartdı.

– Mən nə bilim. Elə iş tutursunuz ki, adam sonra bilmir necə etsin.

– Necə edəcəksən? İnəyimizi tövlədən çıxardın, aparıb gedim. Bir də belə şey olmaz.

– Yaxşı deyirsən. Buna görə babam, bilirsən, necə acıqlıdır?! Neçə alma ağacı calaq eləmişdi. Hamısını sizin inək...

– Sabah anam aşımın suyunu verəcək.

Sərxangilin həyətindən yenə buzov səsi gəldi:

– Mooo... Mooo...

Sərxan narahatlıqla yerində qurcalandı. Dərindən nəfəs alıb köksünü ötürərək dedi:

– Bunun da səsi qulağıma gələndə dəli oluram. Yazıq qaşqa buzov. Anasından ötrü darıxır.

Aynur əlini üzünə apardı, fikirli-fikirli dayanıb sonra dedi:

– Tay neynim. Babam məni döysə də gərək inəyi çıxardam.

– Xahiş edirəm, Aynur.

– Onda gəl bir yerdə gözləyək. Bəlkə, babam tez yatdı. Sonra inəyinizi gizlincə tövlədən çıxardaram.

Doqqaz qapısını sakitcə itələyib açdılar. Qabaqca Aynur, onun ardınca Sərxan həyətə girdi. Ordan isə qarğıdalığa adladılar.

Onlar pəncərədən bağa süzülən işıq selində göründülər. Aynur qarğıdalı kollarının arasından səmaya baxdı.

– Göyə bax, necə gözəldir.

Sərxan da səmaya baxdı.

– Çox gözəldir.

– Ulduzlar da adamlar kimidirlər.
– Necə?
– Onlar da bir-birlərilə qonşuluqda yaşayırlar.
– Adam ulduzların yanına gedə bilər?
– Mən gedəcəm. Stüardessa olacağam. Xoşum gəlir. Evimizdə də bilirlər. Hamı razıdır.
– Mən onda uçduğun təyyarənin ardınca əl edəcəyəm. Bax belə... – Oğlan əlini göyə qaldırıb baxa-baxa hərəkət etdi.
İkisi də susdu. Sərxan qarğıdalı saçaqlarını sığalladı:
– Elə bilirsən ipəkdir.
– Hə, ipəkdən də yaxşıdır... Qarğıdalının saçaqları niyə ipəktək olur, hə?
– Bu da belə bitkidir də! O cür yaranıb. Bitimi belədir. Bax sənin saçların niyə ipək təkidir?! – Sərxan qızın saçlarından tutdu. – Qarğıdalının saçaqlarından da gözəldir.
Aynur qaşqabağını turşudub ona acıqlandı:
– Burax saçımı!
– Saçını belə tutanda ağrıyırmı?
– Sənin saçından tutsam ağrımaz?
– Ağrımaz. Heç bir qram da ağrımaz. Hələ istəyirsən saçımdan tut. – Oğlan başını aşağı əydi.
Aynur oğlanın saçını çəngələdi.
– Ağrıyır?
– Yox.
Qız bir az da bərk dartdı.
– İndi necə? Ağrıyır?
– Yox.
Qız bir az da bərk dartdı.
– Bəs indi necə? Ağrıyır?
– Vay-vay... Ağrıyır.
Aynur təntənə ilə dedi:
– Həə. Gördün!
– Axı sən lap bərk dartdın.
– Bəs necə deyirsən?
– Bax, beləcə. – Oğlan yenidən əlini qızın saçlarına apardı.
Aynur başını silkələdi.
– Olmaz! Olmaz!
Oğlanın əli havada qaldı.
– Niyə?
– Farağat!

Oğlan əlini yanına saldı. Qız ona bir də xəbərdarlıq etdi:
– Yoxsa buzovunuz mələyə-mələyə qalar ha!
– Oldu, yoldaş stüardessa.
Musiqi eşidildi. Uşaqlar diqqət kəsildilər. Aynur xoşluqla oğlana müraciət etdi:
– Bu musiqinin adı nədir?
– Tvist.
Aynur maraqla soruşdu:
– Oynaya bilirsən?
Sərxan başını buladı:
– Yox. Belə havalar sümüyümə düşmür!
– Düşmür?! Eh! Eh! Adını da oğlan qoyub.
– Bir az oy-na-ya bi-li-rəm.
Aynur şən-şən gülümsəyərək dedi:
– Hələ oyna. Xahiş edirəm... Bay! Nə oldu sənə? Sözümü yerə salırsan?
Sərxan tərəddüdlə:
– Bu şah-şəhvərin içərisində necə oynayım? Şamamanın tağını əzərəm axı. Baban məni də tutub dama salar.
– Eybi yoxdur, sən oyna. Mən icazə verirəm. Di yaxşı, oyna. Bax, küsəcəm.
– Xahiş edirsən, oynaram.
Sərxan oynadı. Bir azdan Aynur pıqqıldayıb güldü. Sərxan qollarını yanına salıb incik-incik dedi:
– Xahiş edib oynadırsan, özün də gülürsən! Belə olur?!
Aynur barmağını dodaqlarının üstə qoydu:
– Susss!.. Daha danışma.
– Nə üçün?
Aynur bu dəfə pıçıltı ilə danışdı:
– Birdən səsimizi eşidərlər, yaxşı düşməz. O ki qaldı oynamağına, əla! Lap qəşəng oynayırsan, – qız nəsə öz-özlüyündə fikirləşdi. – Hə, indi gözlərini yum.
Oğlan təəccüblə soruşdu:
– Gözlərimi nə üçün yumum?
– Fokus açacağam. Bildin?
– Yaxşı... yumuram. – Oğlan gözlərini yumdu və şərt kəsdi.
– Bir dəqiqə vaxt verirəm. Sonra gözlərini xəbərdarlıq etmədən açarsan.
Sərxan gözləri yumulu halda dedi:
– Baş üstə.
Gecə cücülərinin nəğməsi ətrafa hakim kəsildi.
Bir azdan oğlan dedi:
– Gözlərimi açıram ha.

Qızın cavab vermədiyini görən oğlan gözlərini açdı. Ətrafına boylandı. Qızı görmədi.

– Bay, hardasan, Aynur, Aynur! Məni aldadıb qaçdın! Aynuuuuur!

Aynurgilin qapısı açıldı. Sərxan cəld aşağı enib gizləndi. Eyvana çıxan Mahmud kişi idi.

– Ayə, ay uşaq!..

Sükut. Baba bir də səsləndi:

– Ay uşaq!

– Bəli, baba! – Aynur işığa çıxdı, eyvana qalxan pilləkənə yaxınlaşdı.

– Haradasan, aaz?

– Buradayam, baba. Bax, budur pilləkənin ayağındayam.

Mahmud kişi eyvandan çıxdı, pilləkənləri asta-asta aşağı endi.

– İndicə səslənən sən idin, qızım?

– Nə səs, baba?

Mahmud kişi dayanıb düşündü. Sonra dedi:

– Yəqin, qulağım səsə düşüb, a qızım. Qocalıq ki gəldi, hər şey ola bilər.

– Yox, baba, niyə qocalırsan? Sənin nə yaşın var? Şirəli babanı gördün, nə qədər yaşadı.

– Mən də möhkəm adamam, qızım. Bu zəhrimar dava məni bir az əydi, yoxsa...

Qız başını buladı:

– Yox, yox, qəti qoca deyilsən, baba.

– İnək sahiblərindən bir xəbər çıxmadımı?

Söhbət mətləb üstə gələndə Aynur özünü bir qədər itirdi.

– Bil-mirəm. Gör-mə-mişəm.

Mahmud kişi narazılıqla başını yellədi.

– Vay!.. Vay!.. Vay!.. Bəs o oğlan nə fikirləşir? Sərxanı deyirəm ey. Böyük oğlandır. Belə şeylərə gərək o fikir versin. Çöldə qalanı evə gətirsin. Avara-avara gəzməkdən nə çıxar? O gədə məktəbdə də elə qayğısızdır?

Aynur söhbəti dəyişmək istədi:

– Baba!..

Mahmud kişi yenə sözünü dedi:

– Düzü, o oğlan gözümə birtəhər dəyib. Əslində, elə sizin hamınızın əlindən yeyib-yatmaqdan başqa bir şey gəlmir.

– Baba!

– Mən başa düşə bilmirəm ki, bir çətinliyə-zada düşsəniz, halınız-gününüz necə olar?

Aynur cəhd etdi ki, söhbəti dəyişsin.

– Baba, baba! Sən heç təyyarəyə minmisən?

Mahmud kişi əlini yellədi.

– Mən nədən danışıram, sən nədən danışırsan. Oturduğum yerdən qalxa bilmirəm. Sən də...

Aynur sevincək dedi:

– Qoy bir stüardessa olum, baba. Səni öz işlədiyim təyyarədə hər yerə aparacağam. Moskva-Bakı-Dehli-Qahirə-Paris.

Mahmud kişi bir qədər acıqla:

– Sən də zarafatı boşla görək.

– Ciddi deyirəm, baba. Axı necə ola bilər ki, belə bir dövrdə, kosmik sürət dövründə yaşayasan, ancaq təyyarəyə minməyəsən. Yox, baba, mən səni mütləq təyyarəyə mindirəcəyəm. Bax, əyləşəcəksən rahatca. İllüminatordan aşağı baxacaqsan, qalaq-qalaq çoxlu ağ buludlar görəcəksən. Bir də təyyarənin ekipajı sizi salamlayacaq. Biz üç saatdan sonra Moskva şəhərində olacağıq. Təyyarəmiz doqquz min metr yüksəklikdə uçacaq. Kəmərləri bağlayın, hələlik papiros çəkməyin. Diqqətinizə görə təşəkkür edirəm. Bu gözəl sözləri mən deyəcəyəm, baba, Sənin nəvən Aynur.

– Maşallah, görürəm dildən hamınız pərgarsınız, qızım. Ancaq işə gələndə qorxuram...

Aynur çiyinlərini atdı:

– Nədən qorxursan, baba?

Mahmud kişi əlini nəvəsinin çiyninə qoydu:

– Bilirsənmi, qızım, insan gərək həmişə işdə-gücdə olsun. İşdən heç vaxt soyumasın. Çünki adam yadırğaya bilər. Bax, elə quşlar var ki, qanadları var, ancaq uçmurlar. Bilirsən, niyə?

Aynur diqqətlə babasının üzünə baxdı:

– Niyə, baba?

– Çünki vaxtı ilə o qədər uçmayıblar ki, axırda yadırğayıblar. İnsan da gərək əməyini heç vaxt yadırğamasın. Yadında saxla ki, adam işdən soyuyanda, əməyini yadırğayanda qanadsız olur.

Aynur şəstlə cavab verdi:

– Mən işdən qorxmuram, baba.

Mahmud kişi təqdiredici bir tərzdə başını tərpətdi:

– Sevin, qızım, sevin. Əmək insanı ucaldır, onu gümrah saxlayır, hər bir iş də əməklə başa gəlir. Bax, zəmanəmiz gözəldir, yaxşıdır. Sizin üçün də nələr tapılmır. Yemək-içməyiniz, geyinməyə paltarınız bol-boldur. Heç bir şeydən kasadlığınız yoxdur. Bircə istəyirəm onu biləsiniz ki, bunlar öz başına əmələ gəlmir. Ancaq öz sözümü deyim, bəzilərinizin laqeydliyini görəndə düzü birtəhər oluram. Deyirəm...

Qarğıdalılıqdan xışıltı gəldi. Mahmud kişi həyətə diqqət kəsilib dedi:

– Bu nə xışıltıdır? Yoxsa bağa yenə...

Aynur təlaşla:

– Küləkdən olacaq, baba. Mən indicə bağda idim.

Mahmud kişi səsə bir az da qulaq verdi, sonra dedi:

– Hə-ə. Deyəsən, sən deyəndir, qızım. Havada balaca meh hiss olunur. Qarğıdalı da elədir ki, yanından ötəndə də...

Aynur babasının qoluna girdi.

– Gedək, baba, gedək. Daha gecdir. Yuxum gəlir.

Onlar içəri gedəndən sonra Sərxan tamam arxayınlaşdı. Səs-küy salmadan tövləyə yaxınlaşdı. Qaranlıqda qapını tapdı. Gördü ağzına qıfıl vurulub. Ancaq aşağı-yuxarı qımıldatdı, qapını yavaşca içəri itələdi. İnəyin səsi gəldi.

– Mooo.

Qapını tez örtdü ki, inəyin səsi eşidilməsin. Bir də qapını açdı və inəyin çıxması üçün kənarda dayandı. Sərxan tez onun buynuzundan tutub doqqaz qapısından çıxartdı. Küçədə çubuğu endirdi.

Şaraq!

– Bu qonşunun çəpərini uçurduğunun əvəzi.

Şaraq!

– Bu da otladığın qarğıdalı kollarının əvəzi!

Şaraq!

– Bu da günəbaxanların əvəzi!

Şaraq!

– Bu da dırnağında apardığın tağların əvəzi!

Şaraq! Şaraq! Şaraq!

Bir də çubuğu qaldıranda kimsə Sərxanın biləyindən yapışdı. Zoğal çubuğu havada donub qaldı.

– Dəli olubsan?

Sərxan çiyni üstə qanrılıb, biləyindən yapışan adamın üzünə baxdı. Bir az aralıdan düşən elektrik dirəyinin alaqaranlıq işığında bu adamın sivri burnu və uzunsov çənəsi, kölgəli və bir qədər qorxunc sifəti göründü. Qıvrım quzu dərisindən olan papağını da gözünün üstə basmışdı. Sərxan dartındı.

– Burax! Sənə nə var?!

– Necə sənə nə var?! – Dəri papaqlı adam Sərxanın əlində çubuq olan qolunu basıb aşağı saldı. – Heyvan yazıq deyilmi? Niyə döyürsən?

– İnək bizimdir, özüm bilərəm.

– Qələt eləmə! Otaran mənəm, sən get südünü iç. – Dəri papaqlı adam Sərxanı itələdi.

Səhər tezdən Mahmud kişi həyətə çıxıb, dirriyə boylandı və gördüklərindən heyrətə gəlib dedi:

– Başıma gələn işə bax!.. Tövlənin qapısını sındırıblar. Qarğıdalının arasında elə bil xırman döyüblər. Yaxşı!.. Əlimə keçərsən.

Aynur eyvana çıxıb onun yanına gəldi və şən əhvalla babasına müraciət etdi:

– Qutentaq, baba.

Mahmud kişi ona üz göstərmədi.

– Sən də yaxşı. Qanımızın qara vaxtında nə qaq-qut salmısan.

Aynur şeytan-şeytan babasına düzəliş verdi:

– Elə yox, baba. Bax, belə qu-ten-taq!..

Mahmud kişi nəvəsinə acıqlandı:

– Bəsdir!

– Niyə acığın tutur, baba?! Sən özün demirdin ki, dil bilmək yaxşı şeydir. Deyirdin neçə dil bilərsənsə, bir o qədər də adamsan!

Mahmud kişi daha da acıqlı cavab verdi:

– Səhv etmişəm, səhv! İndi görürəm ki, heç para adam da deyilsiniz.

Aynur yenə mehribanlıq göstərdi:

– Nə olub, babacan, belə acıqlısan?

– Nə olacaq?! Tövlənin qapısını sındırıblar. Dirrikdə də tutar qalmayıb. Axşam demədimmi ki, qarğıdalılıqda şıqqıltı var. Sən də dedin küləkdir.

Aynur yenə şeytan-şeytan çiynini dartıb babasına dedi:

– Mən... Mən... Hardan biləydim, baba.

– Eybi yoxdur. Heç eybi yoxdur. Gör o gədənin başına nə oyun açacağam.

Səlmi arvad həyətdə oğlunu danlayırdı:

– Belə iş olar, bala?

Sərxan gecdən-gec xəcalətlə cavab verdi:

– Bağışla, ana, bu, mənim səhvimdir.

– Axı tutaq ki, mən bağışladım. Bəs Mahmud kişi? Bəs onun calaq etdiyi almalar? Sən bilirsənmi daha onlardan ağac olmayacaq?!

– Mən neynim axı?! İnəyimiz çox axmaq heyvandır. At təkidir. Necə hündür çəpər olur-olsun üstündən tullanıb keçir.

– Axı mən işə gedəndə tapşırmışdım. Adam tapşırığı belə yerinə yetirər?!

Sərxan hirsləndi:

– Bilmirəm.

– Gərək biləydin. Özün də instituta gedəcəksən. Belə məsuliyyətsizliklə... hara gedəcəksən?

– Mən sən deyən tək də deyiləm, ana.

– Bəs necəsən, hə?! Bəlkə, deyəsən necə olduğunu bilək?!

Oğlan hirslə qollarını açdı.

– Bax, beləyəm.

– Bir bunun dilinə bax. Səhər-səhər Mahmud kişi məni dükanın qabağında görüb əhvalatı deyəndə xəcalətimdən ölüb yerə keçdim. Danışmağa dilim olmadı. Ancaq bu...

– Əşi, o da yekə kişidir, utanmırmı buzovlu inəyi tövləyə salır?

Səlmi arvadın hövsələsi daraldı. Özünü sakit saxlaya bilməyib qışqırdı:

– Nə dedin?! Özündən böyüyə... – Oğluna bir şapalaq çəkdi. – Danışığını bil.

Həyət qapısı açıldı. Telli nənə içəri girdi.

– Aaz, necə qıydın o uşağa vurdun. Sənə nə deyim?!

– Tərbiyəli olsun.

– Nə danışırsan? Qadasın aldığım Sərxantək ağıllı, tərbiyəli oğlan harda var?!

– Eh, nə bilim, ay Telli nənə. Ürəyimizi də çıxarıb bunlara verməyə hazırıq. Ancaq bunlar...

Telli nənə əlini yelləyib ona acıqlandı:

– Yaxşı, yaxşı! Sən də durub-durub əsəbiləşmə. İçəri keç, bir az uzan... İndikilər də lap kəmhövsələ olublar.

Səlmi evinə keçdi. Telli nənə xoşluqla Sərxana müraciət etdi:

– Eybi yoxdur, Sərxan bala, eybi yoxdur. Mən bilirəm, ananın əli yüngül olar, ağrıtmaz.

Sərxan bir qədər pərtliklə:

– Əl-əldir, nə fərqi var, ay nənə?

– Fərqi çoxdur, qadan alım. Analar axı əlləri ilə vurmurlar.

– Bəs nə ilə vururlar?

– Bıy, bu sadə şeyi bilmirsən?Ah, sənə nə deyim?! Bax, onlar uşaqlarını vurmamışdan qabaq ürəklərindən məhəbbətlərini çıxarıb ovuclarına alırlar. Sonra vururlar. O da ağrıtmaz. Çünki orada ananın məhəbbəti var. Eşitdin?

Sərxan fikirli-fikirli başını tərpəndi:

– Eşitdim, nənə.

– Amma yazıqlar, bilirsən, sonra nələr çəkirlər?! Övladlarını bir azca itələdilərmi, vurdularmı o dəqiqə ürəkləri sancar, ağrıyar. Elə inciyirlər ki, bilməzlər nə etsinlər. Bax, indi mən gedim evimizə, süd bişirmişəm, qatıq çalacağam. Sən elə et ki, anan da rahat olsun. Əsəbiləşmək nəyə lazımdır, ay oğul!

Telli nənə dönüb getdi. Sərxan tək qaldı. Əlləri qoynunda həyətdə var-gəl etdi. Arabir dönüb içəri, evə baxırdı. Anasına görə həyəcan keçirdiyi hiss olunurdu. Nəhayət, tab gətirə bilməyib evə gəldi. Səlmi stulda oturub əllərini üzünə dayaq vermişdi.

– Bağışla, anacan. Səni əsəbiləşdirdim, səni incitdim. Bilirəm mənə görə ürəyin ağrıyır. Bağışla, ana.

Səlmi ayağa durub ona tərəf gəldi. Zəif halda dedi:

– Eybi yoxdur, oğlum, eybi yoxdur. Sən də məni bağışla. Heç bilmirəm necə oldu... Kaş səni vurduğum zaman əlim-qolum quruyaydı.

– Elə demə, ana. Mənə görə ürəyin ağrıdı. İncitdim səni. Ona görə əzab çəkirəm. Sakit ola bilmirəm. Səndən bir xahişim var. Məni vur, ana! Bərk vur! Amma ürəyindən məhəbbətini çıxarıb ovcuna alma. Qoy məni incitsin, keçib gedər.

– Oğlum!.. Mənim ağıllı, qoçaq balam. Mən daha sənin gələcəyinə arxayınam. İnanıram ki, yaxşı adam olacaqsan.

– Mən nə etmişəm ki, elə deyirsən, ana?

Səlmi əlini oğlunun başına çəkdi:

– Anasını sevən oğullar elini-obasını, Vətənini də sevərlər, bala. Dağa adam gedir, ismarlamışam, atan gəlsin, görək sənin institut məsələni necə həll edirik.

Bu xəbəri eşidən Sərxan çox pis oldu.

Kərim evinə gələndə balaca oğlanları həyətdə oynayırdılar.

Uşaqlar sevincək qışqırdılar:

– Atam gəldi! Atam gəldi!

Yüyürüb atalarının üstünə tullandılar. Kərim onları qucaqlayıb öpdü, əlini başlarına çəkdi.

– Nə var, nə yox?

– Sağlığın, ata.

– Anan, yəqin, işdədir?

– Hə. Sərxan da harasa gedib.

Bir azdan Səlmi gəlib çıxdı. Xoş-beşdən sonra Kərim fağır-fağır səsini çıxartdı.

– Direktor Bakıya getməyə icazə vermir.

Qanı qaralmış Səlmi cavab vermədi. Əlacsız-əlacsız Kərim yenə dilləndi:

– Bilmirəm, nə edək?

Səlmi diqqətlə ərini süzdü. Kərim onun gözünə çox yorğun, əzgin göründü. Yoldan gəlmişdi. Maşın atıb-tutmuşdu? Buna görə arvad yumşaldı və həlim bir ifadə ilə dedi:

– Bizim o qohum buradadır, bəlkə, onu görəsən?

Kərim başını tərpətdi.

– Qohum kimdir?

Səlmi əllərini qoynuna qoydu.

– Fərrux müəllimi deyirəm. İyirmi gün olar gəlib ailəsilə kənddə dincəlir.

– Baa, – kişi bir az canlandı.

– O, uşağa kömək eləməyə söz versə, yaxşı olar.

Kərim başının hərəkətilə Səlminin fikrini təsdiq edə-edə danışdı:

– Bə nə! Bə nə! Hörmətli adamdır, qol qoysa, sözündən çıxmazlar. Birdənbirə demək yaxşı olmaz, deyirəm gedim qonaq çağırım. Sən də bir şey düzəlt.

Səlmi əllərini açdı:

– Dağdan gəlirsən, öz heyvanlarımızdan birini niyə gətirmirdin, budur, lazım olur.

Kərim bir az fikrə getdi, sonra əlini yellədi.

– Heyvan işi asandır. Kənddə birindən əlborcu taparam, sonra yerinə heyvan verərəm. Nə olasıdır?!

Səlmi arvad evdə yır-yığış eləyirdi. Bunu ora qoyur, onu bura qoyur, səliqə-sahman yaradırdı. Cəhd edirdi ki, hər şeyi yerli-yerində olsun, gözəl görünsün. Tut ağacının altına gətirib su da çilədi, sonra ora-buranı süpürüb toz-torpağı kənara atdı. Bayırdakı stolun üstə süfrə saldı. Həyətdən də bir-iki dənə gül dərib, büllur güldanda stolun üstə qoydu.

Ev-eşik təzəcə səliqəyə düşmüşdü ki, Kərim çiynində yekə bir qoç içəri həyətə gəldi. Kişinin beli donqarlaşmışdı. Üz-gözündən bütüncə tər axırdı. Heyvanı çiynindən birtəhər yerə düşürüb buynuzundan tuta-tuta nəfəsini dərdi, cibindən yaylığını çıxarıb boyun-boğazını sildi. Səlmi gedib evdən bir ip gətirdi. Kərim də alıb qoçu tut ağacına bağladı.

– Kimdən aldın, Kərim?

Qoç əldən saldığı üçün Kərim bir də nəfəsini dərdi.

– Mız-mız Qaradan.

– Neçəyə aldın?

– Özünü görə bilmədim. Götürüb gəldim.

Onların başı söhbətə qarışanda qoç ağzını stolun üstündəki gülə uzadır, süfrəni imsiləyirdi.

– Sənin ağlın azalıb nədir? Xalqın heyvanını icazəsiz...

Kərim bir az acıqlı danışdı:

– O mənim işimdir. Əvəzinə lap iki heyvan verrəm.

Qoçun ağzı gülə çatmadı, ona görə süfrənin ucundan necə dartdısa, güldan böyrü üstə düşdü, suyu dağıldı, özü də yerdə daşa dəyib iki bölündü.

– Bıy! Buna azar dəysin. – Səlmi lap yanıb-töküldü. Güldan qırıntılarını əlinə götürüb yanıqlı-yanıqlı başını buladı. Əldən nə günlə almışdım.

Kərim bıçağın ağzını dığhadığ daşa çəkirdi. Sərxan gəldi. Atasının gəldiyindən şad olduğu üçün irəli cumuldu.

– Ata, xoş gəlmisən.

– Çox sağ ol, oğlum, – Kərim bıçağı itiləməyindən qalmayıb sol əlilə görüşdü.

Sərxan evlərində nəsə dəfə-daraq açıldığını görüb maraqlandı:

– Xeyir olsun, ata?

Kərim bıçağın ağzını əlinin ovuc ətinə çəkərək iti olub-olmadığını yoxlayaraq dedi:

– Xeyirdir, oğlum, xeyirdir. Qonağımız olacaq. Fərrux müəllim.

– Nə münasibətlə?

– Hi... hi... hi... – Kərim dişlərini ağartdı. – Saqqalı ağarmış. Sənə görə daa. Deyirik institutuna kömək eləsin.

Sərxan tutuldu. Bir atasına, bir anasına baxdı. Sonra qoça yönəldi, istədi onu açıb buraxsın. Kərim gəlib qoymadı. Uşaq özünü saxlaya bilməyib atanın üzünə bozardı:

– Yaxşı deyil. Elə şey eləməyin.

Ata oğlunu sakitləşdirmək üçün arxayın-arxayın gülümsündü:

– Niyə yaxşı deyil, bala? Biz nə pis iş tuturuq ki, yaxşı deyil?

Uşağı hirs boğduğundan danışmaqda çətinlik çəkirdi.

– Hamı deyəcək ki, başında bir şey yox idi, tanışlıqla, rüşvətlə keçdi. Yox. İstəmirəm.

– Vecinə alma, indi elə zamandır ki...

– Bax, sizə deyirəm. Əgər elə iş tutsanız, başımı götürüb evdən qaçacağam. Eşitdiniz?

– Sən də qoy görək, – Kərim bıçağı ağzına aldı, qoçun iki ayağından tutub böyrü üstə yıxdı.

Sərxan atasının qolundan yapışdı.

– Ata, xahiş edirəm.

– Ayə, sən də mənim əlimə-ayağıma dolaşma, – deyə Kərim kişi onu itələdi. Bıçağı ağzından alıb heyvanın boğazına aparanda Sərxan hirsləndi ayağını yerə vurub bağırdı:

– Telli nənəm nahaq o atı sənə verib. Heyif o atdan ki, sən minmisən. Sən Sədi dayıma oxşamırsan. Oxşamırsan Sədi dayıma!

Bir kişi ilə bir uşaq həyətdə tennis oynayırdı. Kişi güllü-müllü qoluqısa geyinmişdi. Əynində qısa şalvar vardı. Dizindən çox-çox yuxarı dururdu. Uşaq da elə o cür geyinmişdi. Amma onun köynəyi saya idi. Hər ikisinin başı tennis oyununa elə qarışmışdı ki, həyətlərinə adam gəlməsindən qəti xəbərləri yox idi. Taq-tuq! Taq-tuq! Taq-tuq! Kərim isə doqqazın qapısı ağzında dayanıb bilmirdi nə etsin.

– Bu nədir, a başına dönüm, bu kişi şalvarını niyə geyməyib, – Kərim öz-özünə astadan danışırdı ki, tennis topu onun yanına dığırlandı. Ata-övlad dönüb ona tərəf baxdılar. Kərimi gördülər.

Qısa şalvarlı ev sahibi raketkanı tennis stolunun üstünə qoyub əlini hələ çox aralıdan uzadaraq qabağa gəldi. Kərim cəld qabağa gedib mehribanlıqla görüşdü. Sonra da uşağa sarı döndü.

– Salam, oğlum. – Əlini uzatdı.

– Mən oğlan deyiləm! Qızam.

– Hə-ə, neynək? İndiki zəmanədə qız daha yaxşıdır, – Kərim əyilib uşağın əlini ovuclarına aldı. Üsulluca silkələdi. – Qızın qadasın alım, ata-anaya canı yanan olur. Yoxsa ki oğlan – birini deyəndə yüzünü eşidirsən.

– Buyurun. Buyurun. – Qısa şalvar kişi Kərimi evə dəvət etdi. Kərim yedəyə gəlməyən atlar təki geri durub əllərini qaldırdı.

– Yox. Yox. Fərrux müəllim, bizə gedəcəyik.

Evdə şişlər közü yaxşı düşmüş ocağın üstə düzüləndə Sərxan bayırda bilmirdi nə etsin. Hirsindən baş götürüb evdən çıxmışdı. Telli nənənin oğlu Sədinin büstü olan bağda oturub başını ovucları arasına almışdı. Birdən yaxınlıqda qəhqəhə çəkib güldülər. Oğlan başını qaldırıb baxanda yolda bir dəstə qız gördü. Ona baxıb güldülər. Aynur da onların arasında idi.

Aynur uzaqdan əlini tərpətdi:

– Nə olub?

Oğlan da başını buladı.

– Heç nə.

Qız barmağı ilə onu hədələdi.

– Yalan deyirsən. – Sonra da əlini öz başına aparıb gicgahında fırladı, başa saldı ki, ağlın azalıb.

Bu da gülümsəyərək barmağının hərəkətilə ona dedi ki, səninmi?

O da gülümsəyib əlini buladı və barmağı ilə onu göstərdi. Yəni sənin!

Oğlan məcbur olub çiynini dartdı: yəni nə bilim, bəlkə də, azalıb.

Oğlanın belə tez yumşalmasından xoşlanan Aynur ona əl elədi. O da gəldi. Gülümsəyə-gülümsəyə qızların qarşısında dayandı. Aynur dedi:

– Sabah biz tarlada konsert verəcəyik. Bizimlə gedərsən?

Oğlan kefsiz halda başını buladı.

Saz səsi gəldi. Tellər elə həzin cingildədi ki, qızlar diqqət kəsildilər. Bir xeyli qulaq asdıqdan sonra Aynur Sərxana baxdı, başının hərəkətilə soruşdu ki, bu nədir?

Oğlan etinasız çiyinlərin atdı. Qız gülümsəyərək barmağı ilə hədələdi – yəqin, bilirsən, amma demirsən.

Sərxan ciddi-ciddi yenə başını buladı. Qız yenə gülümsəyərək şən-şən dedi:

– Qorxma. Sizə getmərik.

Oğlan da dilinin qıfılını açdı.

– Nə bilirsən ki, sazı bizdə çalırlar?

Qız inamlı-inamlı danışdı:

– Bilirəm. Mən də səsin hardan gəldiyini təyin etmək qabiliyyəti çox güclüdür. Bildin?!

Oğlan acıqcan dilini nırçıldatdı. Qız barmağını ona uzatdı:

– Gəl mərc gələk.

Oğlan tərpənmədi.
– Hə-ə. Qorxursan?!
Sərxan məcbur olub əlini qaldırdı, barmaq-barmağa tutuşdular.
Qız dedi:
– Nədən?
– Nədən istəyirsən.
– Bir pilitka şokoladdan.
– Yaxşı. – Çəkişdilər.
Qız üzünü rəfiqələrinə tutub dedi:
– A qızlar, siz yavaşca-yavaşca gedin, mən də indi gəlirəm. Gərək bunun yalanını çıxardam.
– Əbəs yerə özünü əziyyətə salma.
– Eybi yoxdur, – deyə qız saz səsi gələn tərəfə qaçdı. Bağlı-bağatlı həyətlərin arası ilə qaçdıqca sazın səsi daha bərk gəlirdi, bu da daha yeyin qaçırdı. Tövşümüş Sərxangilin həyətlərinin yanına çatcaq tələsik doqqazın qapısını açdı, az qaldı özünü içəri salsın. Həyətdə böyük yığnaq görüb dayandı. Gördü ki, burda ayrı cür dəm-dəsgah qurulub. Gördü ki, tut ağacının altında oturub kef edirlər. Fərrux müəllim də lap yuxarı başda oturub. Stolun üstündə də nə desən var. Bir az aralıda da vurhay manqalı yelləyirlər. Aşıq da sazı sinəsinə basıb çalıb-oxuyur.
Sərxanın atası bu ara nəşəli-nəşəli əlində badə ayağa qalxdı. Aşıq təzənəni bir-iki dəfə tellərə çəkib saxlayanda bu sözə başladı.
– Fərrux qağa, sizin qiymətli başınız haqqı, kəndə gəldiyinizi bilməmişəm. Bilsəydim heç durardımmı?!
Yeyə-yeyə, içə-içə onun sözünə qulaq asan adamlar ordan-burdan dilləndilər.
– Yox! Durmazdın!
– Nə danışırsınız ə! Lap uça-uça gələrdim, – Kərim kişi bir az da ucadan danışdı. – Gəlin bu badələri də Fərrux qağamın sağlığına içək. Arzu eliyək ki, bir günümüz də Fərrux qağamsız olmasın.
Hamı ayağa qalxıb badələr cingildəyəndə aşıq da təzənəni tellərə çəkdi.
Aynur doqqaz qapısını buraxıb geri döndü, sözünün doğru çıxdığından sevinərək götürüldü. Həmin yerə gələndə gördü Sərxan yoxdur. Təəccüblə yan-yörəyə boylandı. Oğlanı yenə görmədi. Elə bildi oğlan zarafatcan haradasa buralarda gizlənib. Yavaşca səsləndi:
– Sərxan!
Qız yerindən tərpənmədən dedi:
– Onsuz da tapacam. Yaxşısı budur özün çıx. Eşidirsən?!
Yenə bir səs-soraq olmadı. Qız bir az gözləyib yenə dilləndi:
– Mərci uduzmağından qorxursan, hə! Yaxşı, istəmirəm.

Sərxan yol üstə çıxmışdı. Gəlib-gedən maşınlara əl qaldırırdı. Biri saxlamadı. O biri saxlamadı. Üçüncüsü də saxlamadı. Uğultu ilə elə keçirdilər ki, deyirdin qəsdən belə sürürlər. Amma yolda hərəkət çoxdur. Biri ötüb keçməmiş o birinin işığı görünürdü. Sərxan da canfəşanlıqla özünü qabağa verib əlini qaldırır, necə olur-olsun bir maşın saxlatmağa cəhd edirdi. Nəhayət, göy rəngli, yükünü özü-boşaldan dayandı. Sərxan quştək ayaqlığa qalxdı, başını açıq pəncərəyə əydi.

– Vağzala gedirəm, əmi. Xahiş edirəm...

– Otur, – deyə sürücü qapını bəri itələdi.

Sərxan cəld kabinkaya keçib qapını çəkdi.

Asfalt yolda maşın sürətlə gedir. Sərxanın qulaqlarında saz səsi eşidilir. Həyətlərində qurulmuş məclis gözünün qabağına gəlir, gah da Aynur xəyalında canlanır, onun şıltaq hərəkətlərini xatırlayırdı.

Qatara minəndə də bunlar gözünün qabağında idi.

Məclis qurtarıb qonaqlar gedəndən sonra Səlmi stolun üstünü yığışdıra-yığışdıra nigarançılıqla dedi:

– Uşaq gəlib çıxmadı, Kərim.

Kefi doxsan doqquz olan Kərim özü üçün pəsdən oxuyurdu.

*Sallanıban gələn dilbər,*
*Yaxan düymələ, düymələ.*
*Məni dərdə salan dilbər,*
*Yaxan düymələ, düymələ.*

Səlmi əlindəki nimçələri məcməyiyə qoyub çəngəl-bıçaqları da yanına atdı və ərinə eşitdirmək üçün bir qədər səsini ucaltdı:

– Uşaq gəlməyib deyirəm.

*Kərəm sənə nələr demiş,*
*O dil-dodağnı yemiş.*
*Neylon köynək–bəndi gümüş,*
*Yaxan düymələ, düymələ.*

Səlmini birdən ağlamaq tutdu. Dodaqları əsib gözləri doldu. Kərim bunu görüb başını buladı.

– Nə olub?

– Sərxanı deyirəm. Gecə keçib. Hələ gəlməyib. – Qəhər boğduğundan qadın sözünün ardını gətirə bilmədi, yanağından yaş diyirləndi.

– Narahat olma o barədə! – Kərim şəstlə əlini qaldırdı. Sərxanın yeri hazırdır. Qadasın aldığım daha institutun tələbəsidir. Elə bil ki, daha adı oranın jurnalına yazılıb.

Tezdən qoç sahibi Alı kişi Kərimin qapısını kəsdi. Qoçun qarnını üfürüb ağacdan asmışdılar. Yekəbığ Alının dalağı sancdı ki, bu onun heyvanının qarnı olacaq. Bir də aşağı alt gözün eyvanına baxanda gördü ki, qoçun başı ləyəndəcə durub. Gözləri də açıq, elə bil ona baxır. Alını sanki ilan çaldı. Dəli olub bağırdı:

– Ay Kərim! Kərim heyy!.. Bunlar niyə cavab vermirlər, ə? – Kişinin ürəyi durmadı, bir-iki addım da qabağa durdu. Ağzını açıb yenə «Kərim heyy!» – demək istəyirdi ki, yuxarı taxta məhəccərin arasında su cızqırdı, az qaldı Alının üstə tökülsün. Kişi geri hoppandı.

Alı hirsli-hirsli geri çevrildi. Gördü Kərim, arvadı Səlmi də yanında, dişinin dibindən çıxanı ona dedi:

– A kişi, sənin başına at təpib, yoxsa hava gəlib, yoxsa daha gözün ayağının altını seçmir?! Ferma səni belə qudurdub? Yəqin, orda mal-qaranın axırına daş atmısan, indi də gözünü mənimkilərə dikmisən, icazəsiz mənim heyvanımı niyə gətirib kəsmisən?!

– Qonağım vardı, Alı. Səni də görə bilmədim. Ərk elədim.

Alı söz-zad eşitmirdi.

– Bu, oldu saymamaq. Bu, oldu sataşmaq. Eybi yoxdur, Kərim, bizimki qalsın sonraya. – Alı qapıya yönəldi.

Kərim daha bir söz demədi.

* * *

Qatar Bakıya çathaçatda idi. Qatarın radio qovşağı ilə musiqi verirdilər. Sərxan əli çənəsində eşiyə baxa-baxa «Bakı, sabahın xeyir» mahnısına qulaq asırdı.

Bir tərəfdə xırda-xırda ot tayaları görünürdü. Digər tərəfdə təzəcə biçilmiş qoşmalar düzümü uzanıb gedirdi. Hələ biçilməmiş sahənin yan-yörəsində ot biçən maşınlar dayanmışdı. Üst tərəfdəki gözəl bir talada isə çoxlu adam vardı. Camaat yerdəncə göy otun üstə oturmuşdu. Onlar üçün konsert verməyə gəlmiş orta məktəb şagirdləri milli paltarda əl-ələ tutub yallı gedirdilər. Aynur da onların arasında idi. Aşağı kol-koslu çökəkdən maşın səsi gəldi. Az keçmiş dolama yoldan talaya bir motosiklet çıxdı. Çox narahat görünən Kərim yedəkdə oturmuşdu. Elə bilirdin bürüşük almadır. Maşından düşüb oynayanlara baxa-baxa dayandı. Ona əl elədilər ki, bəri gəl otur. O da başını buladı ki, yox və nəzərlərini qızların arasında Aynura dikdi. Qız ona baxanda işarə ilə bildirdi ki, səninlə bircə dəqiqə işim var. Qatarından elə bil durna ayrıldı. Kərim kişinin yanına gəldi, nə barədəsə danışmağa başladılar. Musiqinin səsindən bir şey eşitmək mümkün deyildi. Kərim kişi nə deyir, nə soruşurdusa, Aynur fikirli-fikirli gah başını bulayır, gah da çiynini atırdı.

Omar yumşaq kresloda qıçını-qıçının üstündən aşıraraq siqareti tüstülədirdi. Əynində cins şalvar vardı. Qurşaqdan yuxarı çılpaq idi. Uzun saçları səliqəsiz halda boynunun ardına tökülürdü. Qalın bığ qoymuşdu. Ucları dodaqlarının yanından aşağı sallanmışdı. Bütün bunlar onu bir az vahiməli göstərirdi. Qarşısında ayaq üstə dayanmış Sərxan xahiş tərzində dedi:

– Getməyəkmi, Omar?

– Hara?

– Sağlamlıq kağızı almağa.

Omar siqaretinin ucunu külqabının içərisində gəzdirib külünü tökdü və qollarını açdı.

– İndicə gəlmisən ki, nə olub sənə?

Sərxan boynunu bükən təki  etdi.

– Hər halda, sənədlərimi tez hazırlasam yaxşıdır.

– Pa atonnan! İnstitut qaçır?! Hara tələsirsən?

– Bə neynim? Mənim indi ondan vacib işim yoxdur.

– Var!

Sərxan Omarın üzünə baxa-baxa qaldı. Omar siqaretini külqabına basıb ayağa qalxdı.

– İndi mən sənə ən vacib işini göstərərəm, onda bilərsən ki, birinci növbədə, hara tələsmək lazımdır.

Omar maşını köhnə «İnturist»in yaxınlığındakı dondurma pavilyonunun yanında saxladı. Düşüb səkiyə çıxdılar. Omar yan-yörəyə boylanıb nəzərlərilə, küçə ilə gəlib keçən adamların arasında kimisə axtardı. Sərxan onunla maraqlanmayıb dedi:

– Burada poliklinika var?

Omarın elə bil ürəyi darıxdı. O, dərindən nəfəs alıb köksünü ötürdü. Bu ara gəlib-keçən adamların arasında kimisə görüb açıldı, gülümsədi. Tez dönüb Sərxana yavaşcadan dedi:

– Gəlirlər. Özünü yaxşı apar. Çuşkalıq eləmə.

Sərxanın ona cavab verməsinə heç vaxtı çatmadı. Bir boyda, bir buxunda, bir geyim-kecimdə, saçları üzlərinin yanından aşağı, döşlərinin üstə tökülən iki ağbəniz qız onlara yaxınlaşırdı. Omar qızların qabağına getdi, hər birilə görüşdü, sonra qollarına girib Sərxanın yanına gətirdi. Qızlara:

– Tanış olun, mənim xalaoğlumdur, – dedi.

– Elmira.

– Sərxan.

– Cəmilə

– Sərxan.

Restoranın orkestri çalır, bir nəfər cavan oğlan xüsusi bir həvəslə oxuyurdu.

*Tut ağacı boyunca*
*Tut yemədim doyunca.*

Bu havaya rəqs edənlər az deyildi. Omarla Elmira da oynayırdılar. Stollar demək olar ki, boşalmışdı. Orda-burda tək-tək adam görünürdü. Sərxanla Cəmilə də yerlərində oturmuşdular. Sərxanın bir gözü oynayanlarda idi. Omarla Elmiraya daha çox baxır, onların hər bir hərəkətini izləyirdi. Qız əlinin birini oğlanın sinəsi üstə qoymuş, ona sarı sıxılmışdı.

*Tut ağacı boyunca*
*Tut yemədim doyunca.*

Gözü oynayanlarda olsa da, Sərxanın bu sözlərdən xəyalına öz tut ağacları gəldi, budaq-budaq, şax-şax canlanır, qardaşlarının, ata-anasının ağacın altına kilim tutub tut çırpdıqlarını xəyalına gətirir, halı bir qədər pərişan olurdu. Bu anlarda Cəmiləni sanki unudur, ondan xəbəri olmurdu. Daha demirdi ki, qız darıxar, gah üzünü ovcunun içərisinə qoyub harasa bir nöqtəyə baxır, gah da bakalı dodaqlarının ucunda tutub qurtum-qurtum limonad içirdi.

Qızları axşam evə yola salandan sonra Omar Sərxana dedi:

– Sən lap ətdi bacısan ki!

Sərxan xalası oğlunun sözündən bir az alındı.

– O nə olan şeydir?

– Ətdi bacı bilmirsən? Yəni əfəl. Öz aramızdır, deyəsən, əlindən-ayağından heç nə gəlmir.

– Nəyi deyirsən?

– Özgə nəyi deyəcəyəm: gül kimi qızla səni tanış etmişəm. Amma fikir verirəm, yaman fəaliyyətsizsən.

– Söhbət elədik. Nə soruşdu cavab verdim. Özgə nə edəsiydim?!

Omar xalaoğlunu diqqətlə süzüb sonra dedi:

– Özün bil. Amma qorxuram qızı əlindən çıxardarsan.

Səhəri gün Omar həyətə düşüb maşınına baxırdı. Sərxan da yanında idi. Dedi:

– Mənim sağlamlıq kağızım necə olsun?

– Mən sənin üçün düzəldərəm, – Omar başını tərpətdi.

– Gedək poliklinikaya mən özüm... alaram...

Omar ayaqqabısının burnu ilə maşınının şininə vurub:

– Pa atonnan sənin! – dedi. – Bu necə adamdır?!

Sərxan gülümsədi:

– Mən istəyirəm öz işimi özüm görəm.

Bir azdan Omar Sərxanı gətirib şəhər poliklinikalarının birinin qabağında saldı.

Omar axşam evə qayıdanda Sərxanı çox dilxor gördü. Maşının açarını stolun üstə atıb:

– Nə olub sənə? – dedi.

– Sağlamlıq kağızını ala bilmədim. Deyirlər, gərək yaşadığın yerdən alasan.

Omar şaqqanaq çəkdi. Sonra rişxəndlə dedi:

– Hə-ə. Bə nə oldu?! Öz işini özün görmək istəyirdin?!

Sərxan dinmədi, qaşlarını çatdı dayandı. Omar əlini şappıltı ilə onun çiyninə vurdu.

– Narahat olma. Mən sənin üçün...

Səhəri gün Omar əlində sağlamlıq kağızı gülə-gülə poliklinikadan çıxanda Sərxanın daha deməyə sözü olmadı. Kağızı alıb «Sağ ol» – deyərək sənədləri qovluğun arasına qoydu. Omar başı ilə ona maşına oturmasına işarə etdi.

Çimərlikdə maşından düşəndə qızlar da yanlarında idi. Maşını adamların qələbəliyindən xeyli aralı saxladı. Dənizdə dalğa vardı. Ləpələr bir-birini aşa-aşa sahilə dəyir, qumsallıqda dağılıb, yayılıb geri qayıdırdı. Sərxan qayalığa tərəf tamaşa elədi. Bir az gəzib-dolandıqdan sonra geri qayıtdı. Omar da, qızlar da artıq soyunmuşdular. Omar ona hələ uzaqdan əl elədi.

– Gəl çıx daa. Əfəl!

Qızlar gülümsədi. O, da heç nə demədi. Yanlarına gələndə:

– Siz gedin çimin, mən də indi soyunub gəlirəm – dedi.

Omar qızların qoluna girdi.

– Getdik!

Onlar dənizdə çiməndə Sərxan sahildə sakitcə dayanmışdı. Sonra gördü yerdə taxta parçası var, maşından bir köhnə qəzet və qovluğunu götürdü, qəzeti taxtanın üstə atdı və əyilib oturdu, dənizdə hay-küylə çimən yoldaşlarına baxdı. Omar yüz cür oyundan çıxırdı. Gah bu qıza, gah o qıza yönəlir, əllərindən tutub suyun dərin yerinə çəkir, qızlar isə qışqırıb ondan qaçır, dartınıb əlindən çıxırdılar. Belə olanda Omar suya cumur, bir azdan qızların yanında baş qaldırır, yenə onlara yönəlirdi. Qızlar da onun üstə su ata-ata qaçırdılar.

Sərxan Omarın belə şitlik etməsindən bezib daha baxmadı, qovluğu açıb sənədlərinə baxdı, sonra da əlini qısaqol köynəyinin yaxa cibinə apardı. Bloknotunu çıxardı. Arasından sağlamlıq kağızını alıb baxdı. Sonra qatlayıb yenə bloknotunun arasına qoydu. Bir də gördü Cəmilə sudan çıxıb qaça-qaça ona tərəf gəlir. Gəlib onun yanında qumun üstə oturdu.

– Burada oturun. – Oğlan qalxmaq istədi.

Qız sulu əllərilə onun biləyindən tutub aşağı basdı. Sora qıçlarını özünə yaxın çəkib əllərilə dizlərini qucaqladı. Dedi:

– Niyə çimmirsən?

Oğlan ona tərəf baxmadan uşaqtək çiynini dartdı. Qız nəvazişlə bir də soruşdu:

– Çimməyəcəksən?

Sərxan gülümsəyib çiynini bir daha dartdı.

– Dənizdən qorxursan?

Oğlan başının hərəkətilə «hə» dedi.

– Qorxma. Mən yanında deyiləmmi?!

Sərxan başını döndərib ona baxdı. Qızın üz-gözünə yapışmış saçlarından su damcılayırdı. Qız oğlanın əlindəki bloknota işarə etdi.

– O nədir?

– Bloknot.

– Nə yazmısan ora?

– Heç. Elə-belə.

– Baxmaq olarmı?

– Niyə olmur?! – Sərxan bloknotu ona uzatdı.

Qız almadı.

– Çox sağ ol. Zarafat edirdim. Başqasının bloknotuna baxmaq yaxşı deyil.

Oğlan bloknotu açdı ki, qız görsün. Telli nənənin oğlunun şəkli göründü. Qız tez şəklə sarı dikəldi.

– O kimdir?

– Bizim yerlidir. Telli nənənin oğlu. Müharibədən qayıtmayıb.

Qız özünü ona yaxın tutub diqqətlə şəklə baxmağa başladı. Qızın çılpaq bədənindən dənizin ətri gəlirdi. Bu, oğlanın xoşuna gəlirdi.

– Oyy, nə qəşəng oğlandır.

– Çox igid olub. Qəhrəmandır. Sovet İttifaqı Qəhrəmanıdır. Kəndimizdə büstü var. Elə bil canlıdır.

Qız şəklə baxa-baxa başını tərpətdi. Sonra çevrilib altdan dik oğlana diqqət etdi.

– Oxşayırsınız.

Bildi ki, qız zarafat edir. Sərxan gülümsədi.

Bir azdan Omarla Elmira da sudan çıxıb qaça-qaça onların yanlarına gəldilər. Elmira Cəmilə ilə Sərxanın baş-başa verib nəyəsə maraqla baxdıqlarını görüb dedi:

– Nəyə baxırsınız?

– Qəhrəmanın şəklinə. – Cəmilə ayağa qalxdı. Sərxan da durdu. Elmira Sərxanın əlində tutduğu şəklə sarı başını uzatdı.

– Oyy, necə qəşəng oğlandır!

Omar təşəxxüslə dayanıb əlini sinəsinə vurdu.

– Canlı qəhrəman mən. Buyurun baxın.

Sərxan onun sözünə güldü.

– Nəyə gülürsən? Düz demirəm?! İndicə sənə sağlamlıq kağızı almadım?! Aldım. Demək qəhrəmanam. Müasir qəhrəman.

Cəmilə ona acıqla əlini yellədi:

– Dayan bir görək!

– Aa, sən də?! – Omar üzünü Cəmiləyə tutdu, – indi səni öpərəm, o da olar bir qəhrəmanlıq. Eşitdin? – Omar qızın üstə sarı yeridi. Cəmilə dalı-dalı getdi. Qaçıb Sərxanın arxasında gizləndi. Omar yönəldi ki, onu tutsun. Qız da yana qaçdı, rəfiqəsi Elmiranın arxasına keçdi. Omar şığıyıb yenə əlini atdı. Az qaldı ki, qızı tuta bilsin. Cəmilə tez özünü Sərxanın arxasına saldı. Omar yenə əl çəkmədi. Qaçıb qızı tutmaq istəyirdi ki, Sərxan ayağını onun qabağına qoydu.

Omar üzü üstə gəldi. Qızlar şaqqanaq çəkib güldülər. Omar pərt olmuşdu. O sürünüb yerdən duranda Sərxan da güldü. Omarın şilləsi açıldı.

Təcili yardım maşını siqnal verib Sərxangilin evinin qabağında dayananda Aynur da, babası Mahmud kişi də qaçıb onlara getdilər. Səlmi xalanın ürəyini tutub çarpayıya uzandığını gördülər. Kərim kişi lap təntimişdi. Balacalar analarına görə qorxub onun-bunun üzünə baxırdılar. İynə vurmaq üçün həkim hazırlıq görməyə başlayanda Mahmud kişi:

– A qızım, a Səlmi, – dedi, – özünü niyə üzürsən?! İndikiləri bilmirsənmi, ağızları hara düşdü, gedirlər. Görünür cibində hələ qəpik-quruşu var. Qoy qurtarsın, vicdanım haqqı, görəcəksən, irişə-irişə böyründən çıxdı. Hamısı belədir. Tayadan yeməyə öyrəniblər. Sən lap «küş» eləyib qovsan da yenə quştək qayıdıb tayanın üstə qonacaqlar.

Sərxan Omara baxırdı. Çox diqqətlə baxırdı. Lap gözünün içinə baxırdı. Sonra isə onun alıb verdiyi sağlamlıq kağızını cibindən çıxarıb iki cırdı və Omarın üzünə çırpdı.

Omar evə gəlib qapını açanda gördü döşəməyə bir parça kağız düşüb. Qaldırıb baxanda gördü teleqramdı. Oxudu: «Sərxan evdən acıq eləyib harasa gedib. Bəlkə, sizə gəlib?! Təcili bir məlumat ver. Bacın Səlmi». Omar daha da hirsləndi. Teleqramı əlində sıxıb bükələkləyib acıqla yerə atdı.

Sərxan ali hərbi məktəbə gəldi. Onu pis qarşılamadılar. Qollarına qırmızı bağlamış növbətçi kursantlardan əvvəlcə biri yanına düşüb onu qəbul komissiyasına apardı. Orada ərizə üçün kağız verdilər. Bu da onu səliqə ilə doldurub işinin üstə tikdi və xüsusi qovluğa qoyub qəbul komissiyasına verdi.

İşlərini tamam qurtarıb qəbul komissiyasından çıxanda koridorda divara vurulmuş böyük sərkərdələrin şəkillərinə baxa-baxa getdi. Həzi Aslanovun da şəkli onların arasında idi.

Bir azdan duşun altında dayanıb ləzzətlə yuyunurdu. Başqa cavanlar da vardı. Gur su çilik-çilik olub onların başından tökülür, üz-gözlərindən, yaraşıqlı çiyinlərindən, sinələrindən axırdı. Uşaqlar da həvəsə gəlib tez-tez sabunlanır, suyun altına girirdilər. Yataqxanada isə Telli nənənin oğlunun şəklini çarpayının yuxarı tərəfinə, başının üstünə vurmuşdu.

Uşaqlar hay-küylə futbol oynayırdılar. Sərxanın balaca qardaşları da orada idilər. Böyüyü qapıçı dayanmışdı. Kiçiyi isə cinah hakimlərindən biri idi. Ağzında fıştırıq çala-çala sağa-sola qaçırdı. Qabağında bir qızılı buzov Telli nənənin gəldiyini görcək ikisi də oyundan çıxıb yüyürdü.

– Nənə, nənə, qoy biz aparaq otaraq. Bax, bizim buzov da bu yandadır.

Telli nənə uşaqların hərəkətindən xoşlanıb razılıqla başını tərpətdi:

– Aparın, mənim qoçaq balalarım, aparın.

Balaca oğlan buzovu qabağına saldı. Böyüyü isə ayaq saxlamışdı.

Birdən dedi:

– Nənə.

– Hə.

– Nənə, oğullar evdən gedəndə anaların ürəyi ağrıyır?

Telli nənə fikrə gedib əlini uşağın başına çəkdi.

– Bə nə, dərdin alım, ağrıyır. Amma Sərxan yaxşı oğlandır. Mən bilirəm, harada olsa, bu gün-sabah yaxşı sədası gələcək. Anan da yaxşı olar, ürəyinin ağrısı keçib gedər. Fikir eləməyin.

Telli nənə qayıdanbaş Sərxangilə getdi. Təzəcə eyvana qalxmışdı ki, Mahmud baba ilə Aynur da gəldi. Aynurun əlində balaca bir küpə var idi.

– Bu nədir, a qızım? – Səlmi xəbər aldı.

Aynurdan qabaq Mahmud baba dilləndi:

– Baldır, a Səlmi. Təzə beçə balıdır. Ürək üçün çox xeyirli şeydir.

– Nə zəhmət çəkdiniz, Mahmud əmi.

– Nə danışırsan, qızım? Arı mənimdirsə, çiçəklər hamınındır. Mənim arı yeşiklərimdə hamının payı var. Sərxandan isə lap arxayın ol. Ondan elə şeylər danışıblar ki, lap xoşuma gəlib. Maşallah, qeyrətli uşaq imiş.

Səlmi əllərini açdı.

Axşamüstü Sərxan əlində kitab məktəbin həyətindəki bağda ağaclar arasında gəzə-gəzə öz-özünə danışırdı. Qoluna qırmızı bağlamış kursant qapısının ağzında onu səslədi:

– Abituriyent Qarayev!

Sərxan səsə tərəf döndü. Növbətçi kursant əlini yellədi. Sərxan tez ora qaçdı. Növbətçi başının hərəkətilə eşiyi göstərdi.

– Səni çağırırlar. Görüşünə qəşəng bir qız gəlib.

Sərxan tələsik eşiyə çıxanda Cəmiləni gördü. Şad olub dodaqları qaçdı.

– Salam – deyə qız əlini uzatdı. Sərxan qızın zərif barmaqlarını ovcunda mehribanlıqla sıxdı.

– Xoş gördük, necəsiniz?

Qız incə bir hərəkətlə başını tərpətdi.

– Yaxşıyam. Çox sağ olun. Siz necəsiniz?

Oğlan xüsusi bir şadyanalıqla özünü qızın qarşısında qıvraq və çevik tutdu.

– Mən də yaxşıyam. Çox sağ olun, mənə kömək etdiniz. Yoxsa sağlamlıq kağızına görə bir də rayona qayıtmalı olacaqdım. Gecikə bilərdim.

– İmtahanlarınız necə gedir?

– Yaxşı. Biri qalıb.

– Elə biri? Qurtarmısınız ki?! Nə almısınız?

– İki dörd, bir beş.

– Oyy, təbrik edirəm, yoldaş zabit.

– Çox sağ olun.

– Paltarınızı nə vaxt dəyişəcəklər?

– Sonuncu imtahandan bir-iki gün sonra.

– Kəndə gedəcəksinizmi?

– Mütləq. Bir-iki günlüyə icazə alacağam. Evdə məndən xəbərsizdilər. Anam indi dəli olub. Mən də istəyirəm ki, özüm öz məsələmi həll eləyib sonra gedim.

Qız xoş bir təbəssümlə dedi:

– Kənddə sizi tanımayacaqlar. Elə biləcəklər general gəlib.

Oğlanın dodaqları qaçdı.

Balacalar bütün güclərini ayaqlarına vermişdilər. Təkərləri elə sürətlə fırladırdılar ki, evə tez çatsınlar. Həyətlərinə azca qalmış ikisi də birdən qışqırdı:

– A-naaa, Sərxan gəldi!

Səlmi həyətdə zivəyə paltar sərirdi. Bu sözü eşitcək dikəldi. Sonra sevincək qapıya yüyürdü. Doqqaz qapısından yola çıxanda balacalarını, bir də onlardan bir az aralıda hərbi paltarlı bir oğlan gördü.

– Hanı, ay oğul, Sərxan? – Səlmi üzünü balacalara tutdu.

Uşaqlar əllərini hərbi paltarlı gəncə uzatdılar.

– Budur eyy!

Səlmi təəccüblə barmağını dodağının üstə qoydu. Sərxanın dodaqları qaçdı. Səlmi oğlunu indi tanıyıb onun qabağına yüyürdü. Ana-oğul qucaqlaşdılar.

Səsə qonşular da eşiyə çıxdılar. Telli nənə də, Mahmud baba da. Telli nənə Sərxanı görcək qaşlarını çatdı, bir xeyli ona baxdı, baxdı, sonra başına hava gəlmiş kimi:

– Bıy! Oğlum gəlib. Oğlum gəlib. – Əllərini qaldırdı, oynaya-oynaya onun qabağına getdi. Qucaqlayıb öpdü: – Bu – mənim oğlumdur. Ay camaat, buna bir yaxşı at gətirin. Belə oğullar gərək at belində gəzsin!

Sərxan onun qucağına sığınıb dayanmışdı. Mahmud kişi irəli gəldi. Əlini uzadıb:

– Xoş gördük, ay oğul, – dedi.

– Xoş gördük, Mahmud baba. – Sərxan qocanın əlindən tutdu.

Mahmud baba onu qürurla süzüb dedi:

– Əslikar ürəkdir, oğul. Ürəkdə təpər olanda qılıncı taxtadan olsa, kəsər.

Aynur həyətlərindən oğrun-oğrun onlara baxıb telini sayırdı...



# MƏHƏBBƏT ÇÖLÜ

## MƏHƏBBƏT ÇÖLÜ

Yan-yörəni basa-basa Kür aşağı çən sallanıb gedir, Muğan düzünü ağ örpəyə bürüyürdü. Çən-dumanın altınca çayın axarı boyu isə otlaya-otlaya qoyun sürüsü yeriyir, orda-burda kürnək bağlayır, gah da bir-birlərindən üzülüb-aralanıb dağılışırdılar. Sürünün qabağı gömgöy göyərib qalxmış payızlıq zəmiyə dirənəndə bayaqdan sahildə çox fikirli dayanıb çaya tamaşa edən Məsim tərpəndi, yapıncısının ətəyi çör-çöpün, alısının şehini tökə-tökə özünü yetirdi, çomağını qaldırıb heyvanın qarşısına keçdi.

– Ay sizi qırılasınız, it unu təki niyə dağılırsınız?! – deyə qoyunları şıvırtılayıb qaytardı, sürünün səmtini başqa yerə çevirdi.

Çayın qırağında xəndək çapılıb, aşağı enmək üçün sarımtıl torpaqdan beş-on pilləkən düzəldilmişdi. Bunun ayağında isə köhnərək balaca bir qayığın burnu lilli torpağa batıb qalmışdı. Qayığı saxlayan torpaq deyildi. Onu bir neçə qat burma yağlı kəndirlə torpaq pilləkənin aşağı qurtaracağında çalınmış dəmir mıxçaya bəndləmişdilər. Suyun ləpəsi hərdən vurduqca qayığın quyruğu aşağı-yuxarı gedir, elə bil tənhalıqdan darıxdığı üçün qımıldanırdı. Qayığın kürəkləri də içəridə idi. Məsimin aləmində qayıq yəhərli-yüyənli at təki hazırca dayanmışdı. Aşağı en, ipini aç, içərisinə tullan, çəplə getsin.

Məsim neçə dəfə idi ki, sürünü otarmağa bura gətirirdi. Hər dəfə sahildə beləcə dayanıb çayın lal-sakit axmasına baxır, Kür çayının zahiri həlimliyi, mülayimliyi ilə bərabər, onun daxili coşqunluğunu, qüdrətini, hələ bir az da təhlükəli olduğunu hiss edirdi. Hərdən qayığa minib o yana-bu yana keçən adamların cəld-çevik hərəkətlərinə baxanda isə onu heyrət götürürdü. Ona elə gəlirdi ki, onlar dünyanın ən qoçaq, ən zirək, ən cəsarətli adamlarıdırlar.

İndi Məsim çayın yatağını o taylı-bu taylı süzüb yan-yörəyə boylandı. Sonra fikirləşib ürəyində nə qərara gəldisə, qollarını qaldırıb yapıncısını çiynindən saldı, çomağını yerə tulladı. Enli soldat qayışının altında köynəyini geri yığaraq, ifçinlədib torpaq pilləkənləri cəsarətlə endi. Bayaq bir az hündürdə, aralıda idisə, indi çox marağında olduğu bu nəhəng çayla üzbəüz dayandı. Sahili ara-sıra döyən ləpələrin şıppıltısını, pıçıltısını aydınca eşitdi. Nəfəsi elə bil nəfəsinə dəydi. Bütün bunlarda özünə qarşı nəsə bir yaxınlıq, doğmalıq duydu. Ona daha da yaxın olmaq arzusunu oğlanın qəlbində şiddətləndirdi.

Ayağının birini götürüb qayığın içərisinə uzatdı. Hələ bir görsün bu necə olan işdir? Görsün qayıqda özünü saxlaya bilirmi? Hələlik özgə bir məqsədi olmadığı üçün qayığın ipini də açmamışdı. Ancaq ayağını toxundurcaq qayıq silkələndi, tezcə geri durdu. Durduğu yerdə ayağının altındakı torpağın da qaçıb, çökəlib batdığını hiss etcək qorxu içində yenə geri çəkildi.

Kimsə arxada pıqqıldadı.

Məsim çiyni üstə qanrılıb, xəndəyin qarşısında dayanaraq kəklik təki qaqqıldayan qızı gördü. Qızardı. Bayaqkı uşaq hərəkətlərinə görə utandı. Qız gülməyini saxlayıb dedi:

– Ay oğlan, siz də o taya keçmək istəyirsiniz?

Məsim bilmədi nə cavab versin. Sonra düzünü deməyi lazım bildi. Qızın yanına qalxıb dedi.

– Yox, elə-belə suya tamaşa edirəm.

– Xoşunuza gəlir?

– Bəs necə?!

– Amma... Deyəsən, qayığa minməkdən qorxursunuz.

Məsim belə şeylərdə səriştəsi olmadığını etiraf etdi.

– Nə edim, gözəl qız? Axı bizim yerlərdə belə şeylər olmur.

Qız təəccübləndi.

– Bəyəm sizin yerdən Kür axmır?

Oğlan təəssüf hissi ilə dedi:

– Yox! Bizim yerlərdən yalnız xırda çaylar axır.

– Doğrudan! Mən də elə bilirəm ki, Kür hər yerdən axır.

– Yox, gözəl qız.

Qız qıyqacı oğlanı süzdü.

– Demək, qayığa oturmaqdan qorxursunuz. Yəqin ki, avar da çəkə bilmirsiniz.

– Necə deyim?! Evimizdə bişməyib, qonşudan gəlməyib.

Qız danışmadı, torpaq pilləkənə sarı getdi. Oğlan qabağını kəsdi.

– Bəs siz necə? Heç dağ yerində olubsunuzmu?

Qız xoşa gələn bir tərzdə başını buladı. Oğlan açılışdı.

– Eh, onda dünyada nə görübsünüz!

Qızın qaşları dartıldı, buğdayı çöhrəsində xoş bir ifadə gəzdi.

– Necə?

Oğlan əlini qaldırıb şeh tutmuş bığlarını sığalladı. Özünü qürurlu tutdu.

– Bilirsinizmi, ay anamın gəlini...

Qız tərs-tərs ona baxdı.

– Deyəsən, üz verdik, astar da istəyirsiniz.

– İnciməyin, bizim yerlərdə gözəl qızlara belə deyirlər. Belə eşidib öyrənmişəm.

– Əcəb söz öyrənmisən.

– Söznən deyil ki... Bir kəlmə idi, dilimdən qaçdı.

Oğlanın səhvini boynuna aldığını görən qız sözü uculamadı.

– Yaxşı, yaxşı! – dedi. – Bir də elə sözü ağzınıza almayın.

– Hə, onu deyirdim. – Oğlan mətləb üstə gəldi. – Bax, bizim yerlərdə hər daşın, hər ağacın altından bir bulaq qaynayıb çıxır. Dərələrlə bir-birinə qovuşub daşlana-daşlana üzüaşağı güllə təkin axıb gəlir. Gəlib, bax bu Kürə qarışır.

Qız şən-şən dedi:

– Demək, bu Kürdə sizin də suyunuz var?

– Bəs necə gözəl qız?! Elə bilirsiniz Kür təkcə sizindir? Yox, Kür hamımızındır. Kür də, dağlar da, düzənlər də hamımızındır.

– Olsun-olsun! – ümumilik fikrindən qızın xoşu gəldi.

Çoban oğlan söhbətini daha da həvəslə davam etdirdi.

– Bizim eldə suların səsindən qulaq tutulur. Qıjhaqıj, gecə-gündüz dağlara layla çalır. Bunları gərək öz gözünlə görəsən, bir başqası söyləməklə...

Bu ara elə bil hava sıxlaşdı, çən burum-burum olub silkələndi. Suyun üzü ləpələndi. Bundan qızın güllü şalının altından pırtlaşıb çıxmış saçları tərpəşdi. Məsimin ağlı elə bil başından çıxdı. Çünki qız bu görkəmdə onun çox xoşuna gəldi. Vurğun baxışlarla onu süzə-süzə nə üçünsə, güllü-çiçəkli dağlar xəyalında canlandı. Başının üstündə sanki göy guruldadı, şimşək oynadı, yağış yağdı, dolu tökdü. Xəyalında bu şeylər, nəzərlərini qızın üzünə dikmişdi. Elə bil qıza demək istəyirdi ki, əgər bizim yerlərə güzar etsəniz sizi quşqonmaz qayaların üstündən bax, bu qollarım üstə göy yaylaqlara çıxardaram. Göylər şaqqıldayıb ildırım çaxsa, sizi odun içərisində sağ-salamat saxlaram. Leysan olsa, sizi bu qara yapıncımın arasına bükərəm. Sizi...

– Ay oğlan, yerinizi nə çox təriflədiniz.

– Deyirəm, bəlkə, yayın cırhacırında bizim sərin yaylaqların mehmanı olasınız.

– Axı mən sizin dağlarda heç kəsi tanımıram.

Oğlan əlini döşünə vurdu.

– Bəs mən?.. – Əlini uzatdı. – Adım Məsimdir, qəşəng qız.

Utana-utana qız da oğlana əl verdi.

– Sarıgül!..

– Nə qəşəng adınız var.

Qız əlini çəkəndən sonra dedi:

– Demək, siz məni qonaq çağırırsınız.

– Əgər ayağınız bizim yerlərə dəysə, sevindiyimdən özümü dağdan-daşdan ataram. İnanın...

– Yox, yox! Onda gəlmərəm, – Sarıgül əlini havada oynatdı və torpaq pilləkənlə aşağı endi, kəndiri açıb qayığa mindi, çəpləyib sahildən aralandı...

O axşam sürünü arxaca tökəndə Məsimin kefi kök idi. Şirindil, gözəl-göyçək bir qızla tanış olmasına çox sevinirdi. Fit çalır, mahnı oxuyur, ürəyində sürünü bir də həmən yerə aparacağını fikirləşirdi. Heyvanın qabağına çıxmış baş çoban Giziroğlu qoyunlara diqqətlə göz gəzdirib nəsə şübhəli bir tərzdə:

– Ayə, a Məsi! – dedi. – Bu gün heyvanı otarmağa hara aparmışdın?

Fikri-xəyalı qızın yanında olan Məsim Giziroğlunun nə məqsədlə soruşduğuna əhəmiyyət vermədi.

– Hə...ə, görürsənmi, nə yaxşı otarmışam. Heyvanın qarnı belinə çıxıb.

Baş çoban ona hirsləndi:

– Yalansa da otardığın qara gəlsin!

Məsim bir şey başa düşməyib Giziroğlunu tənbehlədi.

– Mənə sağ ol deməyin özünə qalsın, heç olmasa...

Giziroğlunun hövsələsi daraldı.

– Əşi, adam axı otardığı heyvana fikir verər, örüşünə baxar, – Giziroğlu əlini uzadıb qoyunun birinin qıçından yapışdı. – Bir baxsana, görürsən heyvan nə kökdədir?! Bütün pıtırqan içindədir.

Giziroğlunu Məsim indi başa düşdü. Ancaq bu işdə onun bir təqsiri olmadığını düşündü.

– Mən neynim?! Çöllərin pıtırqanını təmizləməyəcəyəm ha!..

Məsimin laqeydliyi Giziroğlunun xoşuna gəlmədi. Səsini qaldırdı:

– Kim sənə deyir, çöllərin pıtırqanını təmizlə. Ancaq niyə elə yerdə otarırsan, hə?!

– Eşitdik. Bir dəfə dedin bəsdir.

Giziroğlu tutduğu qoyunun pıtırqanını təmizləyə-təmizləyə danışdı:

– Belə görürəm ki, fərasətin yoxdur, qabırğan qalındır. Bir dəfə deməklə söz sənə kar eləməz. Min dəfə, milyon dəfə demək lazımdır, bəlkə, qulağında qala.

Giziroğlunun səsini kəsmək üçün Məsim qulaqlarını göstərdi.

– Qaldı, qaldı!..

–Hələ bu harasıdır? Sözləri bircə-bircə əridib qulaqlarına tökəcəm. İnsafsız!..

Məsim danışmadı. Çomağını başı üstə qaldırıb heyvanlara acıqlandı. Sürü çınqıl daşı təki üyünüb pəyəyə dolanda Giziroğlunun tutduğu heyvan da dartınıb kişini tövləyə sarı sürüdü...

* * *

Onların binəsi əldən-ayaqdan uzaq bir çölün düzündə idi. Heç yerlə yaxınlığı, əlaqəsi yox idi. Yan-yörə yovşanlıq olan çöldə çobanlar özləri üçün bir balaca

otaq, qoyunları üçün isə iki-üç pəyə tikmişdilər. Gündüzlər düşərgədə həmişə təkcə Giziroğlu qalar, müəyyən təsərrüfat işləri ilə məşğul olar, axşam çöldən gələn çobanlar üçün bişi-düşü hazırlayardı. Bu iş bir dəfəlik onun adına yazılmışdı.

O günün səhəri Giziroğlu tezdən sürünü yellədi. Məsim əl çəkmədi.

– Giziroğlu mən özüm...

– Yox! Qayıt! İndi də geri yanımızı yarıt.

– Niyə qayıdım, Giziroğlu?

– Özüm otaracağam. İnnən belə qoyuna özüm gedəcəyəm.

– Sənin işin deyil. Bütün günü ayaq üstə... Əldən düşərsən.

– Neynim. Çölü yarıtmırsan, qal buranın işini gör. Axsaq qoyunları da unutma ha...

– Axı mən xörək bişirə bilmirəm.

– Bişirərsən.

– Başına dönüm, Giziroğlu.

– Dedim yox!

– Heç olmasa qoy o biri çobanlardan biri qalsın.

– Sən qalacaqsan!

Məsim Giziroğlunun inadcıllığına bələd idi. Meylini işə salmaqdan savayı bir əlac görmədi... Həm də düşündü ki, düşərgədə lazım olan işləri səliqəli görüm, Giziroğlunun tapşırıqlarını yerinə yetirim, bəlkə, sabah qocanın ürəyinə rəhm düşə, məni çölə getməkdən məhrum eləməyə. Bu məqsədlə də qollarını çırmalayıb işə girişdi. Otaqlarını tərtəmiz silib-süpürdü. Çobanların yorğan-döşəyini qəşəngcə düzəltdi. Peçin külünü çıxarıb vedrəyə doldurdu, aparıb eşiyə tökdü, axşamdan bulaşıqlı qalmış qab-qacağı yuyub-silib yerinə qoydu. Çirkli üz dəsmallarını da yuyub günün qabağına sərdi. Sonra pəyələri təmizlədi, xəstə heyvanlara yem-su verdi. Günün dönən vaxtı isə xörək-çörək hazırlamaq qayğısına qaldı.

Axşam çobanlar çöldən gəlib bir yerə yığışanda düşərgədə hər bir şeyi yerli-yerində, səliqəli görüb yoldaşları Məsimin evdarlığına heyran qaldılar.

– Ay sağ ol! – hərə bir yerdən onu tərifləməyə başladı.

Xüsusilə xörəyi elə dadlı bişirmişdi ki, hamı yeyə-yeyə dodaqlarını mırçıldadırdı.

Məsim əlində çömçə qazanın yanında dayanmışdı.

– Komu dobavka?

Nahardan sonra çobanlar yerlərinə uzanıb istirahət edəndə Məsim tranzistorunu alçaqdan qurub musiqiyə qulaq asırdı. Fikri yenə Kür qırağında idi. Bu gümanda idi ki, Giziroğlunun acığı soyuyub: sabahdan sürünü otarmağa aparmağa hər halda ona icazə verər. Buna görə axşamdan hazırlıq gördü. Durub bir

qazan su qızdırdı. Əvvəlcə həmişə cibində gəzdirdiyi dəyirmi güzgüsünü çıxarıb lampaya yaxın bir şeyə dikinə söykəyib üzünü qırxdı. Qurtarcaq isitdiyi suyu götürüb eşiyə çıxdı. Xudu ardınca səsləndi:

– Doğrudan, çimmək istəyirsən?

– Bəs nə?

– Sətəlcəm olarsan.

– Çox danışma, gəl su tök!

Qəribə domuşuqlu yerişi olan Xudu dolça götürüb onun ardınca çıxdı. Yan-yörəsi qamışla tutulmuş quzu küzüsünə oxşayan dalda bir yerə gəldilər. Məsim dəyişəcəklərini qamışın üstə atıb çılpaqlandı.

– Su tok, üşüdüm, – dedi.

Xudu dolçanı qazana saldı, suyu tökəndə Məsim sıçradı.

– Məni bişirdin, ə!

Xudu güldü.

– Hi... Hi... Hi...

Məsim belə çətinliklə çimib, telini axşamdan darayıb səliqəyə salsa da, səhər sürünü örüşə yenə Giziroğlu apardı. Çünki o biri çobanlar da düşərgədə Məsimin qalmasını məsləhət gördülər. Dünən axşam yedikləri xörəyin dadı damaqlarında qalmışdı. Yatacaqlarının səliqəyə düşməsindən də çox xoşları gəlmişdi.

– Eybi yoxdur, bugünkü xörəyiniz də əla olar, – Məsim düzən boyu yellənib gedən sürünün ardınca bikef-bikef baxdı.

Günortaya yaxın Məsim darıxdı. Sarıgül sahilə təxminən bu vədələrdə gəlirdi. «Tezcə gedib dəyib gələrəm», – Məsim dayana bilmədi, tez bir at tutdu, belinə sıçradı. Çapırdıb yarımca saata Kürün haman sahilində oldu.

Hava açıq idi. Çay boyu aşağı, yuxarı göz tutduqca görünürdü. Suyun o tayı çaydan xeyli aralı olan kəndin bəri yanındakı evlər görünür, yarpaqları tökülüb çılpaqlaşmış bağlar gözə dəyirdi. Sahildə heç kəs yox idi. Qayıq isə yerində deyildi. Kəndirin ucu suyun üzündə oynayırdı. Qırmızı ürgə də bir yerdə durmur, sahildə irəli-geri gedib başını silkələyərək fınxırırdı. Məsim isə yan-yörəyə boylanır, Sarıgülü görmək arzusundan quşların pırıltısına da dönüb baxırdı. Bir də gördü çayın ortası ilə su aşağı bir qayıq gəlir. Onun bərabərliyinə azca qalmış qayıq çəpəki ona sarı səmt aldı və gəlib burnu sahilə sancıldı. Əyninə zolaqlı matros köynəyi geymiş, şalvarını dizlərinə qədər çirmələmiş qara nazik bığlı oğlan avarlarını suda saxlayıb üzünü Məsimə tutdu:

– Cavan oğlan, atını bir az kənardan sür.

– Niyə? Nə olub?

– Bəzən torpaq qaçır, iraq olsun, atdı-matdı Kürə qərq olarsan.

Ehtiyatsızlıq etdiyini başa düşən Məsim yüyəni dartdı.

Matros köynəkli oğlan qayıqdan səsləndi:
– Xeyr olsun belə, hara gedirsən?
– Heç yana.
– Bəs bura gəlməkdə məqsədin? Bəlkə, bir köməyim dəydi.
Məsim ürəyini açmağa utandı, yalandan:
– Yox, sağ ol, – dedi. – Heyvan itirmişik, onu axtarıram.
– Hayana gedəcək. Buralarda olar. – Matros köynəkli oğlan avarları işə salıb sahildən aralandı.
Məsim bir az da gözlədi, sonra fermadan nigaran qaldığı üçün məcbur olub atı geri çevirdi. Gələndə gördü xəstə qoyunlardan biri arxacda böyrü üstə yıxılıb. Tez atdan düşdü, yəhərini-yüyənini alıb çölə buraxdı. Qoyunu qaldırıb ayaq üstə qoydu, heyvan yenə titrədib-titrədib dizlərini qatladı, bir azdan isə böyrü üstə yıxılıb ayaqlarını uzatdı. Boğazladı, soydu, qarnını yardı, içini-içalatını çıxarıb çaxçağa çalınmış mıxçaların birindən asdı ki, gəlib heyvanın ciyərinə baxarlar, aktını yazarlar. Əti götürüb içəri aparanda isə qanın iyinə toplaşmış itlərdən biri qəfildən atılıb iç-içalatı necə qapıb apardısa, Məsim heç bir şey edə bilmədi.
Məsim axşama ət bişirmişdi. Bozartmanı buğlana-buğlana qablara çəkib süfrəyə düzəndə kəmərlərinin altı boşalmış çobanlar cumdular. Hərə bir iri sümük götürüb ağzına apardı. Adama bir tikə güclə uddular. Xudu aşıqlını geri qoyub:
– Booy, – elədi. – Bütüncə duz borasıdır.
– Doğrudan, yaman məməköy eləmisən, – tikəsi əlində qalmış Şəmməd də əyri-əyri Məsimi süzdü.
Giziroğlu tikəsini ağzında hərlədə-hərlədə mızıldandı.
– Fərasətini allah alıbmı, a bala? Ətə baxıb duzunu töksənə.
Özünü peşmanlamış kimi göstərən Məsim:
– Mən hardan bilim, – dedi. – İkidən-birdən xörək bişirmişəm?!
Gözünü aşıqlıdan çəkməyən Xudu:
– Buna su yetirmək olmaz, – dedi.
Əlac nə idi? Çobanlar məcbur olub yedilər. Süfrə yığışdırılandan sonra Giziroğlu yerinə uzanıb dedi:
– Üstünüzə sağlıq, yaman xəstələnmişəm.
Məsim tez dilləndi:
– Deyəndə ki, çölə getmək sənin işin deyil, inanmırsan.
– Yox əşi, ondan deyil. Buranın qarğaşası daha çoxdur.
Məsim Giziroğlunun saqqızını oğurlamaq üçün düşərgədə qalmağı ona məsləhət gördü.
– Elə demə. Burada heç olmasa arada özünə bir stəkan çay da qaynadıb içə bilirsən.

Giziroğlu o barədə bir şey deməyib ağzı üstə çevrildi:

– Belimə çıxıb, kürəyimi ayaqla!

– Gözüm üstə. – Məsim uzunboğaz çəkmələrini dartıb ayağından çıxartdı, kişinin belinə çıxdı, ayaqlarını asta-asta qaldırıb salmağa başladı. Pəhləvan təkin ağır gövdəli oğlanın dabanları altında naxoş kündə təki yastılanıb yorğan-döşək qarışıqlı çarpayının arasına cumur, ıqqır-ıqqır ıqqıldayırdı.

O, xırda-mırda ağrıya görə belə eliyən adam deyildi. Görünür, nəsə nasazlığı vardı. Buna görə Məsim sonra onun üçün çay da qaynadıb verdi. Bir-birinin ardınca bir neçə stəkan içizdirdi.

– İndi yaxşı-yaxşı bürün yat, – dedi, – tərləyib yaxşılaşarsan.

Sabahı gün Məsim obaşdan oyanıb sürünü çölə otarmağa aparanda Giziroğlu etiraz etmədi. Ona tapşırdı ki, sürü pıtırqanlığa düşməsin, o elə zəhrimar şeydir ki, həm heyvanı candan salır, həm də ki yununu aparır.

Məsim əlini gözünün üstə qaldırdı.

– Arxayın ol.

Sürü binədən üzülüb yovşan ətri verən çölə dağılanda Məsim elə bil təzə dünyaya düşmüşdü. Çünki oturaq işə öyrəşməmişdi, həmişə çöllərdə olmuşdu. Tütəyinin səsi o dağdan, bu dağdan gəlmişdi. Hər yalda-yamacda ayağının izi vardı. Neçə il idi ki, payızın ortalarından yaz gəlib güllər bitənədək Muğan düzünün mehmanı olur, çöllərini qarış-qarış gəzir, Kürün sakit axarına baxmaqdan xoşlanırdı. Təzə tanış olduğu qıza görə də oğlan qanadlanıb quş təki uçmaq istəyirdi.

Odur ki, sürünü otara-otara dönüb-dolanıb yenə həmin yerə gəldi. Ümidi vardı ki, Sarıgülü görsün, matros oğlana rast oldu. Elə bilirdin kürədə bişib, əti kərpicin rəngindən seçilmirdi. Avar çəkdikcə qollarının, döşünün əzələləri oynayır, dartılıb-yığılırdı.

Yenə qayığını süzdürüb sahilə gəldi, bu dəfə aşağıdan danışmayıb quruya çıxdı. Əynində yalnız ağ, qara zolaq-zolaq qısa tumanı olan bu oğlan Məsimi heç açmadı, belə açıq-saçıqlığından narazı qaldı. Sarıgülün sahildə görünməsi onun ürəyindən olsa da, bu dəfə istəmədi qız buralara gəlsin. «Bəlkə, bu abırsız cəhənnəm olub gedə...» O isə belə şeyə əhəmiyyət vermədən soruşdu:

– Kefin yoxdur, yəqin, itən heyvanlarınızı tapmamısınız?

– Yox, əşi, tapmışıq.

Çılpaq oğlan da elə bil söhbət yoldaşı axtarırdı. Həm də Məsim gözünə nəsə şirin, mehriban dəymişdi, ona qanı qaynamışdı.

– Bağışla, adınız nədir?

– Məsim.

– Mənim adım da Eldənizdir. Gəl tanış olaq, – deyə oğlan əlini uzatdı, Məsimlə əl verib tanış oldu. – Bilsə idim, bu gün bura gələcəksən balıq tutub səni qonaq edərdim.

– Sağ ol. Hörmətin artıq olsun.

– Qoy qonaq edim, təşəkkürünü sonra... Balıq əti də ləzzətli olur.

Özündən xoşu gəlməsə də, Məsim onun işi-gücü ilə maraqlandı:

– Sən nə işə baxırsan?

Eldəniz Məsimin həmişə ehtiyat etdiyi Kürün ayna sinəsini göstərdi və gülümsəyərək dedi:

– Mən də bunun balıqlarını otarıram... Bilirsənmi, adamların hamısı bir cür olmur. Bir də görürsən dələduzun biri acgözlük eləyib suya dinamit atdı. Üç-dörd balığa görə milyon manatlıq ziyan vurdu. Gizlincə suya tor atıb balıq tutanlar da olur. Bizim bu çayda bilirsən necə balıqlar var?! Zalım uşaqları irisinə-xırdasına baxmayıb tez qarınlarını yarıb kürüsünü çıxardırlar, özünü suya tullayırlar.

Söhbətə çox maraqla qulaq asan Məsim başını buladı. Bu ara bir xeyli aralanıb sürünün ardınca getmiş itlər hürüşdü. Əlbəttə, boş-boşuna hürmürdülər. Məsim yola baxanda gördü bir qız gəlir. Hələ uzaqda olsa da, ürəyinə damdı ki, gələn Sarıgül olacaq. Ona görə yapıncısını çiynindən aldı. Eldənizə:

– Çiynini bəri tut, – dedi.

– Yox, əşşi, mənə soyuq deyil.

– Soyuğa görə demirəm. Ayıfdır. Qız xeylağı gəlir. Etiraz etməyə Eldənizin dili olmadı. Məsim yapıncını onun çiyninə atdı. Hələ başından papağı da götürüb onun başına qoydu.

Qız artıq çatmışdı. Həqiqətən də, Sarıgül idi. Salam verib astaca torpaq pilləkənləri endi, həmişəki kimi qayığa minib getdi. O biri sahilə çatcaq atdanıb qayıqdan düşdü və çayın qırağındakı dikə qalxıb o yana aşanda Eldəniz pərt halda yapıncını çiynindən salıb xəndəyin qaşına gəldi, qollarını qaldırıb özünü suya tulladı.

* * *

Nasaz olsa da, o axşam Giziroğlu Məsimdən yenə işgüzarlıqla xəbər aldı:

– Qoyunu pıtırqanlığa salmadın ki?

– Yox!

– Bax, belə. Qoyunun cəhliminə həmişə diqqət elə. Elə eləməyək ki, heyvanın yunu pıtırqanlıqda gedə.

Çöldən gəlmiş Xudu isə belə söhbətlərə əhəmiyyət verməyib əlini-əlinə sürtərək:

– Yaman acmışam, – deyirdi.

Giziroğlu suçlu-suçlu dedi:

– Bu gün sizin yanınızda xəcalətliyəm, bir şey bişirə bilmədim.

Xudu inanmadı, əlini atıb peçin üstündəki qazanın qapağını qaldırdı. Boş görcək qapağı taqqıltı ilə yerinə saldı. Belə hərəkəti üçün Məsim onun boynuna bir qapaz ilişdirdi və tənbehlədi.

– Boyuna boz ip ölçüm. Qarnından ötrü... Boğaz boydan aşağıdır.

Xörək-çörək hazırlayıb yeyənədək xeyli çəkdi. Sonra da hərə bir yerə səvərdi. Hamı yorğun idi, hamının ağzı açıla qalmışdı. Məsim də yerinə uzanırdı ki, bayırda bayquş uladı. Bir də səsini çıxaranda dözmədi, başının üstə divardan asdığı tüfəngi götürdü. Çobanlar ordan-burdan dillləndilər:

– Dəli olubsan? Bayırda göz-gözü görmür, hara atacaqsan?

– Qaradüzənə! Bəlkə, saçmanın biri dəydi. Qərəz, onu bu həndəvərdən itirəcəyəm. – Onun bayıra çıxması ilə atəş açmağı bir oldu. «Şaraq». İtlər hürüşdülər. Yenə tezcə sakitlik oldu. Məsim isə içəri gəlmədi, nəsə bayırda ləngiyirdi.

Xudu eşiyə çıxdı ki, görsün... Arxacda qaranlıqda xırda sədəf boyda bir şey yanıb sönürdü. Papiros çəkirdilər.

– Sənsənmi, Məsi?

– Daha özgə kim olasıdır?

Xudu qaranlıqda siqaretin közərtisinə getdi.

– Ver birini də mən dartım.

– Ala.

– Daha burda niyə çəkirik, bəri gəl içəri gedək.

– Əşi, nə var içəridə?!

– Burada nə var?! Soyuqdur. Yoxsa sən yaylamısan?

– Bilmirəm. Mən üşümürəm. Ancaq yaman darıxıram, Xudu.

– Məni demirsən, Məsi?!

– Sən də darıxırsan?

– Darıxırsan da sözdür?! Yadıma düşəndə... dəli-divanə oluram.

– O kimdir, Xudu?

– Yox, deməərəm. Sən bildin, el bildi.

– Çox sağ ol. Hansı sözünü...

– De sən öl, demərəm.

– Sən öl, demərəm.

– Qoy onda şəklini göstərim.

– Göstər.

– Spiçka yandır, mən...

– Cibimdə fanarıma nə olub?!

– Yaxşı, yandır.

Məsim fanarı yandıranda Xudu köynəyinin döş cibini qurdalayırdı. Üzü açıq mavi rəngli olan balaca bir bloknot çıxardıb səliqə ilə açdı. Fanarın işığında bir qızın şəkli görünürdü. Məsim baxan təki tanıdı.

– Ayə, bu ki Bakiyədir?! Düzü, heç inanmazdım ki, bu sənə ip atdıra.
– Niyə? Mənə nə olub?
– Nə olacaq?! Şəppəlinin birisən.
– Kor kora, lağ eləməsə, bağrı çatlar.
– Kəs səsini! – Məsim dirsəyi ilə ona bir dürtmə ilişdirdi.
– Dayan, ə, şəkli əzərsən.
Fanarı hələ də yanılı saxlayan Məsim dedi:
– Deyəsən, şəklin ardında yazısı da var. Ver görüm nə yazıb?
– Yazıb ki, məni şəklimə baxıb xatırlama, xatırla şəklimə bax.
– Əjdahasan, ayə! Qız lap səndən ötrü ölür.
– Uşaqsan?!
Məsim dərindən köksünü ötürdü. Xudu isə şübhələndi.
– Gözümə birtəhər dəyirsən, Məsi.
– Necə?
– Belə birtəhər.
– Bilirsənmi, mən də sən günlüyəm. Amma mənimki hələlik elə-belədir.
– Kimdir, hardandır?
– Bilmirəm. Kənd-kəsəyini də bilmirəm. Burdaca, Kürün üstündə görmüşəm. Necə şeydirsə, məni kəməndinə salıb.
– Həə, indi məlum oldu ki, niyə sən otaranda qoyunlar bütüncə pıtırqan olur. Gedirəm Giziroğlunun yanına, paxırının üstünü açacağam.

Onlar bir-birinin ardınca yüyürmüş içəri girəndə hamı xorhaxor yatışırdı. Yalnız Giziroğlu oyaq idi. Lampanın solğun işığında üzü qara kölgə qarışıq sarı rəngə çalırdı. Donqar burnunun pərələri genişlənmiş, böyümüş təkin görünürdü. Böyür-başını yorğanla, yapıncı ilə büküb bürmələmiş olsa da, qabarlı, əyri-üyrü barmaqları yorğanın altından çıxaraq açıqda qalmışdı.

– Nə edirsən, belə sənə soyuq olar, – Məsim yorğanı dartıb qocanın ayaqlarını örtdü. Sonra əllərini öz köynəyinin yaxa düymələrinə apardı.

Gecə qəribə yuxu gördü. Gördü sürüsünü otarmağa yenə çay qırağına aparıb. Bu da sahildə oturub tütək çalır, necə oldusa Kür daşdı, sel onu götürüb getdi. Amma heç nə olmadı, sağ-salamatca gedib suyun dibinə çıxdı. Guya bura da elə yerin üstü təkidir. Bir də gördü qarşısında, selin ağzında bir qız dayanıb. Qabaqlar çox sevə-sevə oxuduğu mahnı yadına düşdü. «Arpa çayı aşdı-daşdı, sel Saranı aldı qaçdı». Bəlkə, bu elə o qızdır. Ancaq bunun paltarı balığın dərisi kimi pul-pul olub işıldayırdı. Məsim heyran-heyran ona baxırdı ki, qız dilə gəldi.
– Məni nə üçün dindirmirsən, oğlan?
– Səni?! Dindirmirəm?! Axı... biz tanış deyilik.

– Tanış deyilik?! – Qız təəssüf hissi ilə başını silkələdi, saçları dağılıb suyun gur axarına düşəndə dayanmayıb özü də üzüb getdi. Guya Məsim qızı bundan sonra tanıdı, həyəcanla qışqırdı.

– Sarıgül!..

* * *

Səhər günəş xeyli qalxar-qalxmaz yovşanlı düzdə bir «Villis» göründü, torpaq yolla şütüyüb fermaya sarı gəlirdi. Yaxınlaşcaq itlər ordan-burdan vıqqıldaşıb qalxdı.

– Ay it! Ay it! – Sürünü Kür səmtinə aparan Məsim itlərin qabağına durdu. Maşına yaxın getdi. Şoferin yanında oturmuş meşin gödəkçəli sarıbəniz bir kişi qapını açıb salam verdi. Sonra dedi:

– Ay cavan oğlan, qayda-qanunu niyə pozursunuz ki, biz də məcbur olub üstünüzə gəlirik. Özünüzü də narahat edirsiniz, bizi də.

Məsimin yapıncısının çiyinləri at qulağı şeşəldi. Çiyinlərini ona görə dartdı ki, nə üçün belə bir ittihamnamə verildiyini başa düşmədi.

– Axı mən neyləmişəm?

– Ay insafsız, bəs bu qədər qoyunu gətirib kənd-kəsəyin həndəvərində otaranda bilmirsən ki, yaxşı iş görmürsən. Axı sizin örüşünüz ora deyil. Bax, bu qədər çölü-düzü əlinizdən alan var?!

– «Bu şəppə-xeyir də buradan çıxdı!» – Məsim etiraz edə bilmədi. – Nə deyirəm, narazı qalırsınız, bir də...

– Yox eyy, narazı qalmaq məsələsi deyil. Əgər öz örüşünüz olmasa, hə. İndi ki otarmağa burada yer çoxdur, daha oralara gedib çıxmağın nə mənası var?!

Məsim üçün bu kişinin vurduğu cıdar daha pis oldu. Elə cıdar vurdu ki, Giziroğlunun cıdarı bunun yanında toya getməli idi. Onun qoruq-qaytağında yenə ümid yeri var idi ki, acığı soyuyar, yumşalar. Amma bu kişi cıdarına düyün vurdu. Kəndləri ilə binənin arasına elə bil qaratikandan çəpər çəkdi.

* * *

Sürü yeridikcə qoyunların dırnaqları altından torağaylar pırıldaşıb qalxır, havadaləngər vurub süzür, sonra yenə yerə qonub heyvanın yan-yörəsində səkə-səkə hərlənirdilər. Orda-burda çılpaq ağaclar, qızılı rəngli kol-kosluqlar gözə dəyirdi. Bir az o yana isə hündür qamışlıq idi. Payızın son ayında gömgöy görünən bu mənzərə Məsimin xoşuna gəlir, onu kəkilə oxşadırdı. Yayda qırxında Məsim bir qoyunun quyruğunun üstə kəkil qoymuşdu. Müdir Ələmdar görüb, onu danlamış, «mənim dərimi soyub yun istəyirlər, sən isə yaraşıq axtarırsan», – deyib dərhal qırxdırmışdı.

Fermanın toğlusuna gedən Xudu isə sürüsünü həmin qamışlığın yanında otarırdı. Özü bəri dikdə çomağına qoltuqlanıb dayanmışdı. Çox vaxt domuşuqlu yeriyən, gözə nə isə bürünmüş kimi görünən Xudunun bu dəfə qürurlu duruşundan xoşlanan Məsim ucadan səslənib onunla zarafat etdi.

– Ayə, maşallah. Səndən yaxşı heykəl çıxar. Bax elə beləcə qoyalar, gəlib-gedən tamaşa eliyə.

Xudu özünü o yerə qoymadı.

– Nə bilmək olar, bəlkə, qoydular. Hər qoyundan iki bala alsam...

– Sənin toğluların qoyun olana kimi mən özüm qəhrəman adı alajam, – deyə Məsim onun yanına gəldi və söhbəti yenə ürəyindəki arzu-kamın üstə gətirdi. – Ağlın nə kəsir o qızdan, nişanlısı olsa idi, mənimlə danışardımı, əl verib tanış olardımı?

Xudu çiyinlərini dartdı.

– Nə bilim? Bəlkə, sən özün güclə qır-saqqız olubsan.

– Yox, canım üçün!

Söz-söhbətləri çox vaxt bu haqda olurdu. Məsim Sarıgülü unuda bilmirdi. Fikri-xəyalı Kür sahilində, torpaq pilləkənin qarşısında idi. Hərdən gözünü yumub oranı xəyalında canlandırır, qızı gözünün qabağına gətirir, «məni kəməndinə yamanca salmısan», – deyirdi.

Bir gecə Giziroğlu dümsükləyib onu ayıltdı.

– Ay Məsim!.. Məsim!..

– Hı... Hı...

– Ayə, haran ağrıyır?

– Hııı...

– Olma naxoşlamısan?

– Yoox.

– Bəs niyə sayıqlayırsan? Rahat yatsana.

– Nə deyirdim?

– Qanammadım. Ancaq səsin qulağıma pis dəydi.

– Necə?

– Belə birtəhər... Elə bildim ağlayırsan.

Sükut.

– Gəlsənə gedək pəyələrə baş çəkək?

– Gedək.

Xəstə qoyunlardan biri böyrü üstə yalağa düşmüşdü. Giziroğlu aşağı əyildi:

– Fanarı bəri tut.

Səhər tezdən Məsim ölən qoyunu çaxçaxdan asıb soyanda ferma müdiri Ələmdar qışlağa gəldi. Maşınla qüvvətli yem gətirməyə getmişdi, çoxdan gəl-

məli idi. İndi gəlib çıxdı. Buna görə Məsim onun əlindən yanıqlı idi. Çünki həmişə belə idi, beş günə gedib on beş günə gələrdi, kefindən qalmazdı. Məsim ona çoxdan bildirmək istəyirdi ki, belə işləmək olmaz, heyvana can yandırmaq lazımdır, fermanın əyər-əskiyi ilə ciddi məşğul olmaq lazımdır. Odur ki, qoyunun qarnını yardı, dartıb içalatını qopardı və təzəcə salam-kalam eliyən müdirin qabağına tutdu.

– Bax!..

Müdir diksinmiş başını geri çəkdi.

– Qorxma, Ələmdar, heç nə olası deyil.

Müdir partladı:

– Sənin kimi çoban olanda...

Məsim içalatı buğlanan dərinin üstə tulladı.

– Buyur, bu sən, bu da heyvanın. – Bıçağı sərt bir hərəkətlə qoyunun cəmdəyinə atdı. Bıçaq buda sancılıb qaldı. O qədər hirslənmişdi ki, əllərini qanlı-qanlı yaxasındakı önlüyünün ətəyinə çəkdi.

Ələmdarın dişi bağırsağını kəsirdi, bilmirdi nə etsin. Axşamüstü sürü arxaca töküləndə Məsimə dedi:

– Sürüdə heyvanın varmı?

– Var.

– Seç heyvanını, azadsan!

– Eləmi!

– Elə!

Məsim sürünün içinə girib beş-on baş heyvanını seçdi. Qabağına qatıb yola düşəndə Xudu çomağını Ələmdara uzatdı.

– Ala! – dedi. – Mən də gedirəm, işləmək istəmirəm.

Müdir bozardı.

– Sən hara?

– Düz rayona gedirəm. Hamısını bircə-bircə raykoma danışacağam.

Müdirin boğazında hulqumu qaçdı. Bilmədi nə cavab versin. Giziroğlu Məsimin heyvanının qabağına durub onlara acıqlandı.

– Gedin işinizdə olun. Özünüzü bir-birinizə göstərməkdən əl çəkin.

Bunu çobanlar sonralar öz aralarında deyib gülürdülər.

– Adamın köpünü elə yatızdırarlar, – deyə Xudu qürrəli-qürrəli danışırdı.

Məsim isə deyirdi ki, nahaq yerə məni yoldan elədiniz, qoyaydınız çıxıb gedəydim, onda görəcəkdiniz ardımca gəlib necə yalvaracaq.

Belə deyəndə Xudu ərklə onun papağını geri yandan vurub gözünün üstünə salırdı.

– Papağın mıxda qalsın, belə oğul, həm burda qız sevir, həm də «hə, yox» cavabı almamış gedir.

Giziroğlu söhbəti eşidib maraqlandı:

– Nə qız, ay uşaqlar? Bu çöl-biyabanlıqda qız hardan?

– Heyyy, Giziroğlu! – Xudu əli ilə danışdı. – Bu Məsim ki var, birinci uxajordur.

– O nə olan şeydir, Xudu?

– Bilmirsən?

– Bilsəm soruşmaram ki?!

– Onda daha sən nə bilirsən?

– Hər halda mən də bir şey bilirəm. Sözünün mənasını de.

– Uxajor, necə deyim eyy... hə qızların ardınca düşən oğlana deyirlər.

Giziroğlu çümrüklü gözlərini Məsimin üzünə zillədi:

– Nə eşidirəm, ə?!

– Sən də bu şəppəlinin sözünə inanırsanmı?! – Məsim dostu Xudunun boynunun ardından bir qapaz ilişdirdi.

* * *

Bir gün Məsim Sarıgülgilin kəndinə qənd-çay almağa getmişdi. Dükanda Eldənizə rast oldu.

– Üzünü görək, Məsim. Sən bizim kəndə xoş gəlmisən, – deyə Eldəniz onunla çox mehribancasına görüşdü. Əl çəkməyib onu evlərinə qonaq apardı, yaxın dostu, tanışı kimi Məsimə hörmət elədi. Oturub yaxşı yeyib-içdilər, xeyli söhbət etdilər. Məlum oldu ki, gələn bazar günü Eldənizin toyudur.

– Bə məni toya çağırmırsanmı? – deyə Məsim dostuna ərk etdi.

– Buyurun, hamınız gəlin, gözüm üstə yeriniz var, – deyə Eldəniz də bundan ancaq şad olacağını bildirdi.

Bunu Məsim Giziroğluna deyəndə xeyirdən-şərdən heç vaxt kənarda qalmayan qoca həvəslə razılaşdı.

– Hazırlaşın, gedək, – dedi.

Bazar axşamı atlanıb yola düşdülər. Məsim yəhərin qaşında bir yekə quyruqlu erkək tutmuşdu. Kürün yaxası ilə üçü də qoşalama gedirdi.

Giziroğlu yüyəni dartıb deyirdi:

– Qərib elə gedirik, ay uşaqlar. Özünüzü yaxşı aparın.

Xudu ona cavab verirdi:

– Biz nə edəsiyik ki!..

– Cavansız, birdən nəsə xoşagəlməz bir hərəkətiniz olar.

Xudu Məsimi cinlətmək istəyirdi.

– Uxajorluğu deyirsən?!.

Məsim də Xuduya gözünü ağardır, ancaq əli boş olmadığından ona bir şey edə bilmirdi.

Onları toy evində hörmət-izzətlə qarşıladılar. Həyətdə alaçıqda düzəldilmiş məclisdə vur-çatlasın idi. Üç-dörd cərgə düzülmüş stolların bu başından o başı görünmürdü. Azı üç-dörd yüz adam vardı. Bunlar təzəcə oturub yerlərini rahatlamışdılar ki, masabəyi ayağa qalxdı. Haman kişi idi. Sürünü bu tərəflərdə otarmağa icazə verməyən kişi.

– İçək təzə gələn qonaqların sağlığına!

Giziroğlu yerindən səsləndi:

– Sağ olun. Çox sağ olun, ay camaat! Eliniz-gününüz həmişə belə şadlıqda olsun!

Masabəyi sözünə davam etdi.

– Məclis əhlinə məlum olsun ki, bax, o ortadakı oğlanı mən şəxsən tanıyıram. Qabaqlar sürüsü bütün günü buralarda olardı. Hər yeri basıb otarırdı. Sonra ona necə gözağartması verdimsə, gədə qorxdu, bir də buralara hərlənmədi. Necə deyim, onun belə pələ-pötürlüyünə baxmayın. Yaxşı oğlandır.

Məsim yerində qurcuxdı. Giziroğlu böyründən basdı.

– Dostuyun məclisinə şuluq salma. Yəqin, çox hortdadıb.

Səhərisi Məsim alaqaranlıqda Eldənizgilin kəndinin yanında oldu. Yan-yörə yaxşı göylük idi. Heyvanlar başlarını yerdən qaldırmır, otlaya-otlaya gedirdilər. Məsim isə sürünün ardından dəhmərləyirdi. Hələ axşamdan and içmişdi ki, masabəyinin evi kəndin ortasında olsa, basıb həyətini otardacağam; qoy pələ-pötürlüyümü görsün, görsün ki... Bu məqsədlə də axşam Eldənizdən al dilincə onun evinin yerini öyrənmişdi. «Kəndin aşağı ucundakı ikimərtəbəli daş ev onundur. Eyvanına da göy rəng çəkdirib. Qapısında «Moskviç»i də var. Adı da Ataxandır».

Məsim sürünün qabağına hərlənib bir-bir evlərə-həyətlərə baxdı, masabəyinin həmin nişanlarda evini tapcaq sevindi. Gördü qabağında da bir hektardan da çox yeri var. İçərisində də bağ-bağça... Nar kollarının altında boz yay otu dizə çıxırdı. Soluxmuş, qurumuş çör-çöplü ləklərin qıraq-bucağından təzə göy ot qalxmışdı.

– Nə qoyunun canıdır, – deyə Məsim qabağa gəldi, əlini çəpərə yetirdi, payaları irəli-geri laxladıb məftil çəpəri böyrü istə yıxdı, sürünü şıvırtılayıb həyətə doldurdu.

Qoyunlar elə bil neçə günün acı idilər. Xam ota necə cormalaşdılarsa, Məsimin canından tikan çıxartdılar. Keçilər yarpaqdan ötrü dik qalxıb az qalırdılar ağaca çıxsınlar. Məsim də öz dədə bağı təki əlini atıb bir qırmızı nar qırdı. İki bölüb arxayınca yeməyə başladı. Gözü də evin qapısında idi.

Bir az keçmiş qapı cırıldayıb açıldı. Evin ikinci mərtəbəsinin eyvanına gözlərini ovxalaya-ovxalaya zərif, ucaboy bir qız çıxdı. Çiyninə xalat salmışdı. Qız əllərini aşağı salcaq həyətlərinə dolmuş qoyunları gördü, heyrət etdi.

– Ay aman, çəpərə gör nə qədər qoyun dolub! – Tez yerindən götürüldü. Taxta pilləkənlərlə cəld aşağı düşdü və həyətə yüyürdü. – A qoyun!.. A qoyun!

Məsim nar kolunun ardında gizlənib ona baxırdı. Qızın təlaşlı hərəkətlərinə göz qoyub özündən razı halda gülümsəyirdi.

Qız əyilib yerdən bir çırpı götürdü, qoyunların başına-gözünə vura-vura:

– Bıy, yiyəniz ölsün! – dedi.

Məsim kolun ardından aşkara çıxdı.

– Cavan oğlanam, ay qız, mənə niyə qarğayırsan?

Qız səsə başını qaldırıb qabağa baxdı. Oğlan da, qız da yerlərində donub qaldılar. Məsim gözlərinə inanmırmış təki dilləndi.

– Sarıgül!..

Qız elə bil yuxu görürdü, elə bil özündə deyildi. Birdən ayıldı. Yaxasının başdan-başa açıq olduğunu görcək:

– Ayy! – eləyib ağacların daldasına keçdi, xalatını tələm-tələsik düymələdi.

– Bağışla, Sarıgül, bilməmişəm.

Qız pərtliyindən cavab vermədi. Bilmirdi nə etsin.

Baş aça bilmirdi ki, bu necə olan əhvalatdır. O bu çoban oğlanı az-çox tanıyırdı. Ağıllı, qanacaqlı adam təki tanıyırdı. Bəs o nə üçün belə hərəkət eləyib, nə üçün gətirib həyəti otardır? Başına yer-yurd qəhətdirmi? Qız xalatını düymələyib ağacların ardından çıxdı; onunla tamam yad adam təki danışdı:

– Tez olun, heyvanlarınızı həyətdən çıxarın!

– Niyə acıqlanırsınız, Sarıgül. Dedim bilməmişəm. Bağışlayın.

– Mənim adımı dilinizə almayın.

– Elə deməyin, Sarıgül. Günah atanızdadır...

İşin içini bilməyən Sarıgül heç nə eşitmək istəmirdi. Ona elə gəlirdi bu oğlanın ağlı azalıb, nəsə üzlülük, sırtıqlıq eləyir.

– Tez ol, heyvanını həyətdən çıxart!

Yarpağı gözünə təpən iribuynuzlu təkəni Məsim hərləyib qabağa saldı, onun ardınca isə qoyunları küşkürdü. Sürü bağın otunu yoluşdura-yoluşdura həyətdən çıxırdı ki, qızın atası eyvanda göründü. O da əvvəlcə məsələnin nə yerdə olduğunu aydınlaşdıra bilmədiyi üçün çaşbaş vəziyyətdə baxa-baxa qalmışdı. Bu nə əhvalat idi? Başa düşə bilmirdi. Nəhayət, oğlana tərs-tərs baxıb, nəsə xatırladığı üçündür ki, alnını yığdı və birdən aşağı cumdu. O, evin birinci mərtəbəsinin aşağı pilləkəninə çatcaq Məsim xəbərdarlıq etdi.

– Yaxın gəlməyin! – dedi. – İtlər göydə quşu saldırar. Sonra xataya düşərik.

Məsimin arxayın-arxayın danışması onu hövsələdən çıxartdı.

– Ayə, sən mənin həyətimi otardırsan?

– Axşamkı sözünün dil-cavabıdır.

– Qurumsaq! – Kişi hirslə onun üstə cummaq istədi.

Məsimin yan-yörəsində hərlənən itlər mırıldaşdılar. Kişi qamaşıb geri durdu.

* * *

Məsim sonradan peşman oldu ki, gərək belə eləməyəydim. Hər halda beş adam onu qınayanda, beş adam da bunu qınayacaqdı. Xüsusilə Sarıgül məsələsi onu dilxor eləmişdi. Haradan bilə idi ki, bu onun qızıdır. Haradan bilə idi ki, bu zalım oğlu onun atasıdır? Bunları bilsə idi, əlbəttə, belə iş eləməzdi. O kişi bütün məclisin qarşısında durub Məsimin üzünə qarşı söysə də, dillənməzdi. Sarıgülün xatirinə hər şeydən keçərdi. Məsim belə fikirləşdikcə ruhdan düşür, dəryada gəmisi batmış kimi olurdu.

Axşam çöldən gələndə dayana bilməyib əhvalatı Xuduya danışdı.

– Elə şey olmaz.

– Hə, canın üçün.

– Ay bəxti qara, səni tutduracaqlar, asacaqlar, kəsəcəklər.

– Əşi, elə şey heç.

– Bə nəyin fikrini edirsən.

– Qızın.

– O heç. Ondan daha əlini üz.

– Elə demə, Xudu.

– Bundan sonra hələ bir ümid də edirsən?

– Bilmirəm.

– Niyə bilmirsən?! O qızı daha yadından çıxart.

– Çıxardammaram, Xudu.

– Nə uxajor adamsan, ə!

Məsim Xudunu itələdi.

– Sənin də ağzına bir şey düşüb, elə hey deyirsən.

O axşam Məsim yeməz-içməz oldu. Qızın xatirinə dəydiyini fikirləşib əzab çəkirdi. Bir an da olsun Sarıgül yadından çıxmırdı.

Giziroğlu onun fikirli olduğunu hiss edib xəbər aldı:

– Niyə kefin yoxdur, a bala?

– Elə-belə, yorulmuşam. – Məsim başına gələn hadisəni Giziroğlundan gizlətdi, tranzistoru götürüb yerinə uzandı. Xudu gəlib onun çarpayısının ayaq tərəfində oturdu. Məsim tranzistoru açıb bir şey tutmaq üçün dalğa düyməsini astaca fırlatdı.

* * *

Məsim güman eləmirdi ki, bu məsələ elə-belə keçib gedə. Belə fikirdə idi ki, mütləq bir həngamə olacaq. Yəqin, Sarıgülün atası şikayət edib, bu gündə-

sabahda gəlib onu aparacaqlar, sorğu-suala çəkəcəklər ki, niyə belə eləmisən, kişinin bağ-bağçasına nə üçün ziyan vurmusan? Bu da cəzası var çəkər, cəriməsini verər.

Məsim tələsirdi ki, bircə bu, tez olsun, bəlkə, yüngülləşə, əzabdan canı qurtara. Amma aradan həftədən çox vaxt keçməsinə baxmayaraq, səs-soraq çıxmadı.

Bir gün Məsim elə darıxdı ki, Xuduya dedi:

– İstəyirəm o qızgilə gedəm.

– Nəyə?

– Gedəm deyəm ki, nə cəzam var, verin çəkim, canım bu əzabdan qurtarsın.

Xudu əlini Məsimin alnına qoydu:

– Qızdırman da yoxdur, bəs niyə belə danışırsan?

– Zarafatı boşla, Xudu, bir az ciddi ol!

Xudu onu kinayəli təbəssümlərlə süzüb dedi:

– Qafan boşdur, boş!

– Niyə?

– Ona görə ki, o yana gedən itə deyirsən gəl məni ye.

– Ağıllı danış, Xudu.

– Misal üçün deyirəm.

– Başqa söz başına qəhətdir?

– Bəs sənin ağlın hardadır ki, elə şey eləmək istəyirsən.

– Sən de, necə edim?

– Qulağını yapırt, bir yerdə öl.

– Elə bacarmıram, Xudu. Gedəcəm.

– Səni xata hərləyir, Məsi. Tasalanırsan.

– Nə olar, olar. Gedəcəm.

– Doğru sözündür?

– Bilirsən ki, dediyimi eliyənəm.

– Onda birlikdə gedərik.

– Tək gedəcəm, Xudu!

Səhəri günortaçağı Məsim atın belində həmin tanış həyətə yaxınlaşdı. Darvazanın ardında küçük vıqqıldadı.

Məsim yüyəni dartıb atı saxladı. Bir az gözlədi ki, bəlkə, itin səsinə eşiyə çıxan ola. Qapının açılmadığını görüb səsini çıxartdı.

– Ay ev yiyəsi!.. Ev yiyəsi hey!..

Səsə kimsə qapını hövlnak açdı, eyvana çıxanda Məsim onun Sarıgül olduğunu bildi. Oğlanın həyəcanı daha da artdı. Səbəbi aydın idi. Çünki Məsimin bu işə görə bu qədər narahat olması, çoxu qıza görə idi. Hər şeydən qabaq qızı itirdiyinə peşmanlamışdı. Aralarında yaranmış yaxşı münasibətlərin birdən-birə

belə pisləşməsindən oğlan təlaş keçirirdi. Buna baxmayaraq, Məsim qıza başqa bir söz demək fikrində olmadı, titrək səslə salam verib əsl mətləbə keçdi.

– Mənə dədən lazımdır.

Qız qaşqabaqlı cavab verdi:

– Atam evdə yoxdur.

– Paho!.. Bəs onu necə görə billəm?

– Bilmirəm nə vaxt gələcək.

– Hara gedib?

– Onu da bilmirəm.

Məsim bir qədər fikirləşib sonra dedi:

– Bəs mənim barəmdə o nə fikirləşir?

– Sizin?..

– Hə. Mənim.

Qız çiyinlərini dartdı.

– Bilmirəm. Məncə, heç nə fikirləşmir.

Oğlan təəccüb etdi.

– Elə şey olmaz.

– Niyə olmur.

– Axı mən sizə pislik etmişəm. Bu barədə bir söz olmadımı?

– Oldu.

Oğlan atın yalına sarı əyildi ki, yaxşı eşitsin.

– Dedi, görünür, o gədənin ağlı çatışmır.

Məsimin elə bil başına vurdular. Yanıb-töküldü.

– Dəlinin cəzası yoxdurmu?

– Cəza?

– Hə.

– Nə etsin ki?..

– Tutdursun, basdırsın, nə istəyir etsin.

Qız özünü saymazyana tutdu.

– Yox, əşi, atam sənə baş qoşmaz.

Məsim əsəbi-əsəbi yüyəni dartdı.

– Hər halda atanıza deyin, gözləyəcəyəm. Qoy mənim barəmdə ürəyiyumşaqlıq eləməsin.

– Yaxşı. Sözünüzü atama çatdıraram, – deyə qız dillənəndən sonra Məsim atın başını geri çevirdi, fikri-xəyalı arxada, eyvanda dayanmış qızın yanında olsa da, geri yanına baxmadan atını çapdırıb uzaqlaşdı.

* * *

Qızı bir də yaz ağzı görə bildi. Qarlı-çovğunlu günlər arxada qalıb havalar istiləşəndə qışın ağ köynəyini soyunmuş torpaq qızır, yamaclardan seyrək buxar qalxır, yer-yurd təpiyirdi. Boz yovşanlı düzlərdən yaz otu göyərib qalxır, günə qənşər yerlər hələ ilk bahar günlərindən tünd-yaşıla çalırdı. Kür qırağı tərəflərdə olan ulğunluqların günəşin şəfəqlərinə bürünmüş qızılı çubuqları görünür, hərdən güclü əsən bahar yelindən titrəşirdilər. Fermanın yaxınlığındakı qamışlığın yan-yörəsində də hərdən uzun ayaqlı quşlar gözə dəyir, itin səsinə hürküb qalxır, çaya səmt uçurdular. Çobanlar belə xoş havalarda quzuları küzüdən küşkürüb qaldırır, yala-yamaca sürürdülər. Qışın əziyyətli günlərini nasaz keçirsə də, ilin belə bir xoş fəslində Giziroğlu daha bərk xəstələndi. Bir axşam ağzına heç nə almadı. Məsim qayğı ilə soruşdu:

– Yenə nə oldu, Giziroğlu?

– Canım ağrıyır, oğul.

Məsim kişinin biləyindən tutdu:

– Qızdırman var.

Yerini açıb Giziroğlunu yenə yorğan-döşəyə saldılar. İsti-isti çoxlu çay verdilər. Kürəyini ovdular. Belinə çıxıb ayaqladılar. Buna baxmayaraq, kişinin qızdırması get-gedə daha da qalxdı. Gecə lap odun-közün içində yanırdı.

Ona görə Məsim də yata bilmirdi. Elə bil o özü xəstələnmişdi. Canının yanğısını üstünə tökməyə bir adam axtarırdı. Acıqlı-acıqlı düşünürdü ki, bəziləri elə bilir çobanların dişi-başı ağrımır. Gəlin, görün dağ boyda kişi necə nərildəyib yıxılıb.Yadına saldı ki, ferma həyatının çətinliklərini bir vaxtlar o özü də bilmirdi. Xüsusilə uşaqlığının lap o ağlıkəsməz, səfeh çağlarında fermada işləyən atası hərdən evə gəlib-gedəndə ardınca ağlayıb deyərmiş:

– Mən de dederəm... Mən də dederəm...

– Gələn dəfə səni də aparacağam, qadasın alım.

– Yox, indi dederəm.

– Axı indi olmaz, ay Məsi.

– Yox, indi dederəm. Məəələrin yanına dederəm.

– Orda canavar var, eyy, bax, ayyy...

– Hanı?

– Odur, eyy, orda. Boy!.. Canavar gəldi!

Məsim atasının qucağında balıq təki çapalayıb, o yana-bu yana boylanıb, iti göstərmişdi.

– Ham!.. Ham!.. Yəni canavarı it «ham» eləyər.

Həmişə anası ona uşaqlığından belə şeylər danışanda Məsim balacalığının ağlıkəsməzliyindən xoşlanıb gülərdi. Amma indi... heç dodaqları da qaçmadı.

Gecə xeyli oyaq qalmış Məsim nə vaxt yuxuya getdiyini bilmədi. Səhər də tezdən qaldırdılar ki, dur görək nə edirik. Giziroğlunun vəziyyəti yaxşı deyil.

Birinci sözü bu oldu.

– Həkimə aparaq?

– Hara?

– Necə hara?! Bizim yaxınlığımızdakı kəndə. Xəstəxanası da olmamış deyil.

Şəmməd tələsdirdi.

– Di tez olun, kişinin halı yaxşı deyil.

Xudu minik hazırlamağa qaçdı. Məsim Giziroğlunu qaldırıb geyinməyinə kömək etməyə başladı. Qocanın canında necə üşütmə vardısa, titrədib ayaq üstə dura bilmir, şalvarını qıçına çəkməyi bacarmırdı. Birtəhər o geyinənədək Şəmməd süfrə açdı. Çobanlar yeməyə əyləşəndə Giziroğlu əsə-əsə dedi:

– Ay uuuşaq...lar əlacım yoxdur,  ge...dirəm. Amma sizdən nigaran qalacam.

Xudu əlini-əlinə vurdu.

– Bay sənin! Bir bu kişinin uşaqlığına bax. Bizim nəyimizdən nigaran qalırsan. Qoyunun südündən, bulamasından yeyib kef edəcəyik.

Əlbəttə, fermada kef etmək üçün elə bir haqq-hesab yox idi. Bu sözü Xudu elə-belə deyirdi. Onun üçün deyirdi ki, Giziroğlu arxayın getsin, nigaran qalmasın. Giziroğlu titrədə-titrədə yenə danışdı.

– Dünən gecə yuxumda gööördüm ki, sürünü canavaaar qırıb. Ağzı yanmış yediyini yemiş, qalanınııı da boğub tökmüşdü.

Məsim acığından:

– Hanı?.. Elə bir iş olsaydı, – dedi. – Canımız birdəfəlik qurtarardı.

Çənəsi əsə-əsə Giziroğlu yanpörtü ona baxdı: yəni niyə elə deyirsən.

Məsim dayana bilməyib çox sərt danışdı.

– A kişi, – dedi, – dərdin-azarın tükənibmi?! Naxoşsan, otur naxoş yerində! Daha bu nədir qoyun belə getdi, canavar elə getdi. Canını çöldən ha tapmamısan?!

Məsim axır cümləsini xüsusi bir vurğu ilə dedi. Giziroğlu səsini çıxartmadı. Bəlkə də, fikirləşdi ki, yoldaşları düz deyirlər, onu haqlı tənqid edirlər.

– Di yaxşı, niyə durmusunuz? – deyə Şəmməd əlini süfrəyə uzatdı. – Çörək kəsin.

* * *

Məsim Giziroğlunu xəstəxanaya qoyub geri qayıdanda atını Sarıgülgilin evlərinin yanından sürdü. Düz üç aya yaxın idi ki, o, qızı görmürdü. Amma neçə dəfə yuxusunda görmüşdü. Bir dəfə görmüşdü ki, guya onlara gedib. Atını həyətdə bir ağaca bağlayıb yuxarı mərtəbəyə qalxanda bir arvad onu çox mehribanlıqla qarşıladı. Guya bu arvad Sarıgülün anasıdır.

– Xoş gəlmisən, ay oğul, – deyə Məsimə xoş üz göstərdi, içəri dəvət etdi, onun üçün süfrə açdı. Məsim yaxşıca yeyib-içib gedəndən sonra isə onu Sarıgül yola saldı. Həyət bağından keçəndə Məsim dedi:

– Bura nə əkirsiniz?

– Qovun-qarpız.

– Sizin yerin qovun-qarpızı yaman şirin olur. Görəsən, nədəndir?

– Yəqin, torpağındandır.

– Təbiət adamlarına da təsir edib.

– Necə?

– Deyirəm adamları da şirindir.

– Bizim adamlardan xoşun gəlir?

– Çox.

Qız yerə baxdı, məsum, ismətli görkəmi oğlanın daha da xoşuna gəldi. Dedi:

– Sarıgül, sizə adam göndərmək istəyirəm.

– Nə üçün?

– Adamlarım gəlib deyərlər.

Səhəri Məsim yuxusunu olduğu kimi Xuduya söyləyəndə yoldaşı demişdi:

– Ay fərsiz, onların qovun-qarpızı qışa da qalır, bir-ikisini alıb gətirəydin, kəsib yeyərdik.

Xudunun onu ələ saldığını görən Məsim yuxusunu bir də ona danışmamışdı.

İndi Məsim bunu xatırlaya-xatırlaya qızgilə yaxınlaşdı. Xoşbəxtlikdən Sarıgül həyətdə idi. Ağacların arasını belləyirdi. Təpkeşin üstündən üç-dörd dəfə vurur, sonra bir lapatka ağzı torpağı böyrü üstə çevirib əzirdi. Qızın başı işə elə qarışmışdı ki, yaxınlaşmaqda olan atın ayağının səsindən xəbəri yox idi, Məsim yüyəni dartıb atı saxladı, qıza tamaşa etdi. Yanıb-töküldü ki, qız belə ağır iş görür. Yanıb-töküldü ki, qızı belə işə buyurublar. Yanıb-töküldü ki, bu yerdə lapatkanı qızın əlindən ala bilmir, ona kömək edə bilmir. Onun aləmində bu qız elə-belə yaraşıq üçün idi. Qoyma əlini ağdan-qaraya vursun, barmaqları isti-soyuq görsün. Yalnız yedizdir-içizdir, sonra da yemə, içmə, ona tamaşa elə. Bax, baxışlarından doy. Dindir, dilindən doy.

Məsim qıza qıymadığı üçündür ki, sakitcə atdan düşdü, məftil çəpərin ardı ilə onun bərabərinə gəldi.

– Salam, Sarıgül!

Qız ayağını təpkeşin üstündən götürüb cəld ona sarı döndü. Oğlanın qəfil gəlişindən bir qədər özünü itirsə də, xəfifcə başını tərpətdi.

– Salam.

Oğlan bir söz tapıb deyənədək qız köhnə haqq-hesabı xatırlayaraq dedi:

– Atam evdə yoxdur.

Oğlan təəssüfləndi:

– Paho!.. Kişini indi də görə bilmədim.

Qız çiyinlərini atdı ki, mən neynəyim. Doğrudur, Sarıgül Məsimlə çox rəsmi, bir qədər quru danışır, suallarına yalnız cavab verməklə kifayətlənir, ancaq oğlan nədənsə, bütün bu şeylərin arxasında özünə qarşı qızda bir mehribanlıq, həlimlik, ona qarşı xoş münasibət hiss etdi və bu duyğulardan xumarlanıb özünü dünyanın ən xoşbəxt adamı saydı. Çəpərin ardından ayaq götürmədi.

– Ürəyim yanır, bir stəkan suyunuz olarmı?

Qız tərəddüdlə tərpənsə də, lapatkanı torpağa sancılı qoyub su gətirməyə getdi.

Qız əlində stəkan evdən çıxanda Məsim həyətdə bağı belləyirdi. Qız pilləkənin başında oğlana baxa-baxa quruyub qaldı. Bilmədi ona nə desin. Düzü, qız bunu gözləmirdi. Sonra nə fikirləşdisə özünü təmkinli tutdu, burada elə bir qeyri-adi iş olmadığını bildirən bir hərəkətlə gəlib stəkanı oğlana uzatdı.

– Buyurun...

Məsim alıb suyu başına çəkdi, dibində qalmışını da əkinin üstə atdı, stəkanı sahibinə qaytardı.

– Çox sağ olun.

Qız xoşluqla dedi:

– Siz də sağ olun. Ancaq xahiş edirəm lapatkanı mənə verin, özüm belləyərəm.

Oğlan yarızarafat, yarıciddi belə şeyin heç olmayacağını bildirdi.

– Nə danışırsınız?! Kənardan baxan mənə nə deyər, cavan oğlan dura-dura qız torpaq bellәsin?! Bizlərdə belə şeylər olmaz.

Məsim başını sallayıb işində oldu. Qız da yanında bir az dayanıb getdi. Hara getdi? Niyə getdi, Məsim baş aça bilmədi, işində oldu. Nə qədər işlədiyini bilmədi, bir də gördü ki, həyətdə əkiləcək sahəni bütüncə belləyib. Bir azacıq yer qalmışdı ki, Sarıgülün atası gəlib çıxdı. O, təəccüblə gah həyətin məftil çəpərinə bağlı ata, gah da bağın arasını belləyən oğlana baxır, bunun nə demək olduğunu anlamaq istəyirdi. Həyəcandan Məsimin boğazı qurumuşdu.

Kişi təmkinli addımlarla onun yanına gəldi.

– Yorulmayasan, cavan oğlan.

– Əleykəsalam! – Məsim başını qaldırdı. Qərara almışdı ki, artıq-əskik bir şey danışmasın.

– Kim sənə deyib buranı bellə!

Məsim əl saxladı, cibindən yaylığını çıxarıb alnının tərini sildi. Fikirləşdi ki, vəziyyətdən necə qurtarsın. Onadək Sarıgül eyvanda göründü, atası ilə oğlanın söhbət etdiyini görcək qaçaraq bağa gəldi.

– Ay ata, bu oğlan iş gəzirdi, – dedi. – Məndən xahiş etdi ki, qoy həyətinizi belləyim. Beş manata razılaşdıq.

Məsimin dili açıldı:

– Qərib oğlanam. Pulum-param qurtarıb, nə etmək olar?! Ona görə qapınızda işləməyə məcburam.

Qız paltarının qolundan bükülü bir beşlik çıxarıb oğlana uzatdı.

– Alın əməkhaqqınızı.

* * *

Məsim bilmirdi dərdini kimə söyləsin. Necə ola bilər ki, sevdiyin qızın əlindən lapatkasını alasan, ona kömək eləyəsən, sonra da pulunu qatlayıb cibinə qoyasan. Daha bu nə kömək oldu, necə yaxşılıq oldu? Eh! Belə də iş olar?! Qızla, onun atası ilə münasibətlərini yaxşılaşdırmaq istədiyi halda daha da korlamışdı. Necə deyərlər, qaş düzəltdiyi yerdə vurub gözünü tökmüşdü.

Cibindən pulu çıxarıb Məsim dönə-dönə beşliyə baxır, bunu qızdan götürdüyünə xəcalətlənir, Sarıgülün yanında biabır olduğunu düşünürdü.

Giziroğlunun yanına çobanlar tez-tez gedib-gəlirdilər. Bir gün də müdir Ələmdar getdi. Qayıdanda müdirin qabağında dayanmaq mümkün deyildi, hirsindən yeri-göyü dağıdırdı.

– Bəs belə şey olarmı?! Mən başımı qaldırıb buranın camaatının qabağına çıxa bilmirəm.

– Niyə, nə olub? – deyə axşam-axşam heyvanı pəyələrə doldurub otağa cəm olmuş çobanlar təəccüblə ordan-burdan səsləndilər.

– Bilmirəm. Yoldaşınızdan xəbər alın.

– Kimdən?

– Məsimdən. O bizim hamımızın başını yerə soxub.

Hamının gözü Məsimə zilləndi. Düzü, Məsim bilmədi ki, nə məsələdir, çiyinlərini atdı.

Ələmdar gözünü bərəldərək dedi:

– Xəbərin yoxdur?

– Qarnının azarını de!

– Sən de, qoy camaat eşitsin!

– Nəyi deyim?

– İki yerdən qazanc eləməyini.

Məsim qaşlarını çatdı.

– Nə qazanc?

– Deyirlər özünə təzə iş tapmısan.

Məsimin ürəyi darıxdı.

– Sözünü açıq de.

– Müşəlik eləyirsən.

Ələmdarın qarnının azarını Məsim indi başa düşdü. Ancaq bilmədi ki, bunu haradan eşidib.

– Mənim şəxsi işimdir, Ələmdar. Xahiş edirəm onu bura qatma.

– Camaat burada sənin əvəzində işləyir, sən də gedib onun-bunun qapısını belləyib pul alırsan.

Həmin əhvalatın sədasının bu şəkildə çıxacağını Məsim ağlına da gətirməmişdi. İndi məsələnin nə yerdə olduğunu açıb söyləsinmi? Müdirin onunla çox kobud rəftar etdiyini görən Məsim ona hesabat verməyi özünə sığışdırmadı. Bildi ki, Ələmdar onun söylədiyi məsələyə ürəyində inansa da, yenə öz bildiyini çağıracaq. Onun sözünü yalana çıxarmağa cəhd edəcək. Odur ki, söz güləşdirmədi.

Məsimin dinmədiyini görən Ələmdar belə zənn etdi ki, onun hulqumundan yapışıb. Boğub tamam səsini kəsə bilər, bir də onun yanında dili olmaz.

– O gün nə qədər qazanmısan?

Məsim pulu çıxarıb Ələmdarın üzünə çırpmaq istədi. Yadına düşdü ki, bu gün qızdan aldığı pulu səliqə ilə qatlayıb köynəyinin döş cibinə qoyub. Ona qızın əli dəyib. Sarıgülün xatirinə bunu da eləmədi.

– Məsələ belədir, bu bizi ətraf kəndlərdə biabır eləyib, adımızı batırıb.

Məsim oturduğu yerdə baldırına dirsəklənib başını əlinin içinə qoyub fikirli-fikirli dayanmışdı. Ələmdar qərarını bildirəndə Məsim yanpörtü ona baxıb rişxəndlə güldü.

Ələmdar onu acıladı:

– Gülürsən, amma mən sənin yerində olsam, ölüb yerə girərdim.

– Uculama, Ələmdar.

– Ondansa boğazına torva salıb dilənsən yaxşı idi.

Məsim hirsindən necə sıçrayıb qalxdığını bilmədi. Ələmdar da bu yandan qalxdı. Şəmməd tez araya girdi. Bir onun, bir bunun döşündən geri itələyib:

– Ayə!.. Ayə!.. – dedi. – Adamın biri dəli olanda, o biri ağıllı olar.

Məsim o qədər əsəbiləşmişdi ki, içəridə dayana bilməyib eşiyə çıxdı. Xudu da onun ardınca getdi.

– Sən canın, bu nə əhvalatdır? – deyə onu nə qədər dilə tutdusa, bir şey öyrənə bilmədi.

– Əşi, sən də əl çək! – deyə Məsim qolunun yanı ilə onu geri itələdi. Özü tək-tənha Kür tərəfə getdi. Gəlib çayın bəri qaşında dayandı. Ayın əksi o tay sahilə yaxın suya düşmüşdü. Elə bil Kürün sularında yaxşı-yaxşı çimib-yuyunub indicə qurulanmağa çıxacaqdı. Ancaq Məsimin bu mənzərədən, təbiətin bu gözəl guşəsindən həzz almaq halı yox idi. Öz-özünə:

– Belə də şey olar? – deyirdi. – Bir iş görmə, orda-burda gəz, kefini çək, ayda-ildə bir dəfə gələndə də aləmi biri-birinə qarışdır.

Məsim bir siqaret yandırdı.

* * *

Səhər bir gün çıxmışdı ki, az qalırdı adamı sübhdən yandırsın. Bunların düşərgəsini də elə bil beş-altı islaq əsgi təki günün qabağına sərmişdilər. Ətraf isə boş çöllük idi. Yaxınlıqda elə bir hündür yer, tənə yox idi. Lap uzaqlarda isə sinəsi dağlanmış təki yarıq-yarıq silsilə dağlar gözə dəyirdi. Qışlaqda isti idisə, oralarda hələ qar var idi.

Bütün gecəni çox narahat yatmış Məsim yaxına-uzağa beləcə ötəri nəzər salıb pəyənin qapısını açdı.

Şəmməd onun yanına gəldi.

– Giziroğlunun da başından keçdik.

Məsim bir söz demədi.

– Deyəcəklər ki, xəstələrini yoxlamırlar. Bizim üçün ayıbdır.

Məsim yenə əhəmiyyət vermədi.

– Deyəcəklər adamlıqları yoxdur.

Məsim özünü elə tutdu ki, kardır, eşitmir. Onun özünü belə, bu cür aparması, laqeydliyi, heç bir şeylə maraqlanmaması Şəmmədi hövsələdən çıxartdı.

– Ayə, sənlə deyiləmmi?!

Məsim başına yuxarı qaldırdı.

– Nədir!?

– Səninləyəm axı. Gör sənə nə deyirəm?!

– Eşidirəm, buyur...

– O kişi orada öldü, qaldı, xəbər tutmaq lazım deyilmi?

Yarıcanı Giziroğlunun yanında olsa da, onun nigarançılığını daim çəksə də, Məsim Şəmmədin sözünü yerə salmalı oldu.

– Mənim işim deyil.

Elə deyildi ki, Giziroğlunu yoluxmağa getməyə adam yox idi. Şəmmədin özü də bu dəqiqə durub yola düşə bilərdi. Ancaq o bu iş üçün Məsimə özü qəsdən müraciət edirdi. Ələmdar deyən məsələnin nə dərəcədə düz olub-olmamasını hələlik bilməsə də, bu iş ona qaranlıq olsa da, yenə onun ürəyində Məsimin öz yeri vardı. Ələmdarın nahaqdan söz deyəcəyinə, belə bir şayiəni özündən uydurmağına inanmasa da, Məsimin belə iş tutacağına da gümanı gəlmirdi. Hər nə təhər, məsələ aydınlaşanadək fermada sakitlik olmasını istəyirdi. İstəyirdi ki, Məsim də bu söz-söhbəti ürəyinə salmasın, fikir eləməsin, yoldaşlarından ayrı gəzib dolanmasın. Ona görə də onu işə buyururdu ki, Məsim bir az açılışsın, kefini pozmasın.

Ancaq Məsim tərpənmədi.

– A bala, sən get, kişiyə dəy, – deyə Şəmməd üzünü Xuduya tutdu.

Xudu xəstəxanaya gedib Giziroğluna nə deyib, nə deməmişdisə, bir-iki gün sonra gecə qəribə bir əhvalat oldu. Ələmdarla Şəmməd qışlaqdan daha qalxmaq

lazım gəldiyi barədə danışır, bu işi yaxşı təşkil etmək haqda öz fikirlərini söyləyir, təkliflərini deyirdilər.

– Maşınsız işimiz aşmaz, çünki qoyunun axsaq-uxsağı var, körpə quzularımız da çoxdur. Ona görə maşın mütləq lazımdır, – deyə Şəmməd bu barədə ciddi-ciddi danışırdı.

Xudu tranzistorda konsert axtarırdı. Məsim də yerinə uzanıb əlini başının altına qoyub nəsə fikrə getmişdi. Bu ara bayırda itlər hürüşdü, amma tezcə də səslərini kəsdilər. Onların beləcə tez kirişmələrindən aydın idi ki, elə bir təhlükəli şey yoxdur. Amma birdən qapı cırıldayıb  açıldı, qəribə qiyafəli bir adam içəri girdi. Hamının matı-qutu qurudu ki, bu kimdir, əjdaha təki itlərin arasından necə keçib, belə cəsarətlə onların üstünə gəldi? Gələn adamın əynində uzun boz xalat vardı. Əllərini də xalatın qolları arasına soxmuşdu. Belini əl-üz dəsmalı ilə sıxcalayıb boğmuşdu. Başına isə ağ mələfə dolayıb çiyinləri arasına qısmışdı.

Xudu tranzistoru çarpayının üstə atıb cəld ayağa durdu.

– Giziroğlu!

– Hə...ə, mənəm, ay uşaqlar! – deyə Giziroğlu qapının ağzına yaxın gəldi.

Qoca, həqiqətən, vaxtsız və elə bir libasda gəlmişdi ki, az qalmışdı yoldaşları onu tanımasınlar. Hərə bir yerdən soruşdu:

– Xeyir olsun, a kişi?

– Darıxdım, ona görə də ... – Giziroğlu əyləşdi. – Nə var, nə yox? Necəsiniz?

– Çox sağ ol. Nə olasıdır?! – deyə Şəmməd xəstənin hərəkətinə başını bulaya-bulaya danışdı. – Yaxşı, bəs paltarın hanı, belə üşüməzsənmi?

– Qaçıb gəlmişəm, icazə verən kimdir?!

Nahaq zəhmət çəkib bu boyda yolu... Ancaq daha gəlmişdi. Bir söz demədilər. Məsim başa düşmüşdü ki, ona görə gəlib. Gəlib ki, məsələdən özü halı olsun. Ələmdarla onun arasındakı söz-söhbəti yat-küt eləsin. Yəqin, qoca qorxub ki, birdən qızışarlar, hərəkətlərinin, sözlərinin həddini aşarlar.

Bir az o yandan-bu yandan danışandan sonra Giziroğlu üstüörtülü dedi:

– Ələmdar, indi ki sən özün buradasan daha mən arxayın qayıda bilərəm. Çətinliyimizin çoxu gedib. Bu gün-sabah qışlaqdan qalxırıq, uşaqları yola ver, xətirlərinə dəymə, cavandırlar.

Giziroğlu belə deyəndə Məsim yerində narahatlıqla qurcuxdu. Başa düşdü ki, ona görə belə deyir, müdirdən onu yola verməsini xahiş eləyir. Narazı qaldı, çox narazı qaldı, dillənmək istəyirdi, ancaq qocadan keçmədi.

Elə gecə ikən Giziroğlunu kəndə, xəstəxanaya qoymağa aparanda dayana bilməyib açıldı.

– Mən tapşırıqla yaşamaq istəmirəm, Giziroğlu.

– Sən də cavanlıq eləmə. Dava-dalaşdan heç kəs heç nə qazanmayıb.

– Niyə tapşırırsan axı, mən illacsız-zad deyiləm ki?!

– Ona görə ha tapşırmadım. Ona görə ki, söz-sov nəyə lazımdır?!

– Yox, eyy, o bilməlidir ki, biz də illacsız adam yoxdur. İndi heç balaca bir uşağı danışdırmaq olmur.

– Orası elədir.

– Bir də bilmirmi ki, mənim kimi cavan oğlan üçün indiki zamanda çobanlıq nə böyük işdir?! Çox o yan-bu yan eliyər çomağı özüm üstünə tullayaram.

– Elə də düz deyil, Məsim. İşin böyüyü-kiçiyi olmaz, hamısı lazımdır.

– Əşi, mən onun qarnının azarını bilirəm.

– Nə olan şeydir?

– İstəyir məni pisikdirsin.

– Niyə?

– Nə bilim, adamdır, bəlkə də, ağlına gəlir ki, cavan adamam, birdən yerinə məni... Ona görə uzaqlaşdırmaq istəyir, meydanda tək olsun: guya ondan başqa bu işi heç kəs bacarmaz. Bildinmi?

Giziroğlunun səsi çıxmadı. Yəqin, eşitdiklərini beynində götür-qoy eləyirdi. Bəzi şeylər də ağlına batdığı üçün dillənmirdi. Çünki xəstəxanadan gizlincə qaçıb yoldaşlarına dəyməkdə məqsədi qabaqcadan bu olmuşdu ki, orada yaxşı münasibət yaratsın. Ona görə xoşluqla dedi:

– Səndən xahişim budur ki, ağıllı ol, özündən çıxma, o eşitdiyim əhvalat da mənə yekə dərd olub. Allaha şükür gəlirimiz də yaxşıdır, bir şeydən ehtiyac çəkmirik. Adımız-sanımız var. Bilmirəm necə olub ki, sən?..

Giziroğlunun nə barədə danışdığı Məsimə bəlli idi. Bircə ona yandı ki, hələ indiyədək onu yaxşı tanımayıblar. Kim nə deyir ona inanırlar. Ona nəsə çətin gəldi, elə bil hava çatmırdı.

* * *

Bir həftə sonra ferma qışlaqdan qalxanda Məsim az qalırdı ağlasın. Bar-barxana maşına yüklənəndə ürəyi atdandı. Bilsə də, artıq xəstəxanadan çıxmış Giziroğludan yenə xəbər aldı:

– Hara ilə gedəcəyik?

– Necə hara ilə? Bu yan şoranlıqla.

– O yan uzaq deyilmi?

– Əlac nədir?

– Bu yan kənddən keçək.

– Qoymazlar axı. Yolda heyvanı saxlayarlar.

– Belədə çox uzağa düşürük. Yolda da su yoxdur, o il yadındamı, heyvan susuz qırılırdı.

– Ağ gölə tökərik.
– Şordur, içməyəcək.
– Ölü dərənin suyuna tökərik.
– Deynən heyvanı qırmağa aparıram.
– Niyə, ayə?
– Suyun axarı yoxdur, bütüncə qurddur.
– Bə nə qayıraq, a dərdin alım?
– Mənnən olsa qonşu kəndin yerindən keçərik, həm yaxına düşərik, həm də suyu-seli var.
– Axı qoymazlar, ay Məsim. Müdirin də buna qol qoymadı.
– Bu saat heyvana cavabdeh bizik.
– Orası elədir, ancaq...
– Ancağı-zadı yoxdur, bir az riskli olmaq lazımdır.
– Heyvan bir deyil, beş deyil... Neçə sürüdür. Camaat da əkib-becərib, onu da fikirləşmək lazımdır axı.
– Bu var-dövlət də camaatındır. Sabah heyvan gedib Ölü dərədə döşəndi qaldı, onda necə olsun?!
– Bilmirəm, nə qayırırsınız, qayırın, – deyə Giziroğlu bu məsələni ümumiyyətin üstünə atdı.

Ən axırda o birilər də Məsim deyəni dedi. O birilər də Məsimin təklifinə yatdı. Belə olanda onun narahatlığı, həyəcanı bir az da artdı. Çünki hamı razılıq vermiş olsa da, hər halda bu işin təşəbbüskarı o idi. Məsuliyyətin çoxu onun üstünə düşürdü. Yolda-izdə bir xoşagəlməz hadisə baş versə, Ələmdarın dilinin altından qurtarmaq çətin iş idi. Həm də əsas bu idi ki, onun fikri düzgün idimi? Bəlkə, Məsim özünə görə belə eləmişdi. Bəlkə, Məsim öz istəyindən yoldaşlarını belə bir qərar çıxarmağa məcbur etmişdi. Özünə görə camaatın yolunu dəyişib qələbəliyə, qalmaqala, çətinliyə salmışdı. Özünə görə camaatı asudə, heç kəsin dəyib-dolaşmayacağı bir yoldan eləmişdi. Hər halda məsləhətləşib qurtarmışdılar. Qərar qəti idi. Ona görə də Məsim daha bu barədə düşünməyi buraxdı, köçün planını cızdı.

Gün axşam olan zaman onlar Narlı kəndinin qərbindəki silsilə bələnlərin ardına çatmışdılar. Xudu yüyürüb heyvanın qabağına durmuşdu. Daha kəndə qənşər yerlərə qalxmağa qoymurdu. Hər çobanın yedəyində xurcunlu-yapıncılı bir at otlayırdı.

Məsim də atını aşağı çökəkdə qoyub özü dikə qalxdı. Gizlincə yan-yörəyə nəzər saldı. Qapılarda ağaclar çiçəkləmişdilər. Qışda yan-yörəsi açıq olan çılpaq və bir az kasıb təhər görünən kənd evləri indi ağacların yarpaqlarına, çiçəyinə qərq olmuşdular. Yalnız ağacların seyrək yerlərindən evlərin ağ şirəli divarları və şiferli damları, televizor üçün qoyduqları antenalar görünürdü.

Məsim nəzərlərini orda-burda dolandırıb Sarıgülgilin evlərini tapdı və tamaşa etməyə başladı. Baxdıqca olmuş əhvalatlar yadına düşür, bir-bir xəyalında canlanırdı.

Axşamın sərini düşüb hələ hava bir az soyuq təhər olsa da, bu fikirlərdən Məsimə isti oldu. Bilmədi necə etsin, vəziyyətdən necə çıxsın. Qayıdıb aşağı çökəyə, Giziroğlunun yanına gəldi.

– İndi burada elə bir iş yoxdur. Gəlsəniz mən gedəm kəndə baş çəkəm, görəm nə var, nə yox. Yolu-izi də bələdləyərəm.

Giziroğlu razılaşdı.

– Neynək get, amma ləngimə, tez qayıt.

– İndi gəlirəm, – Məsim atın birini minib tərpəndi. Gedə-gedə qızı xəyalına gətirir, onunla öz aləmində danışırdı.

– Pulunuz o gündən məndə qalıb, vaxt tapıb gələ bilmirdim ki...

– Nə pul?

– O gün vermədinizmi?!.

– Hə...ə. Yadıma düşdü, o ki sizin əməkhaqqınızdır.

– Mən pul üçün işləməmişdim. Qazanmağa qalsa... Elə pul fermada deyilmi?.. İldə filan qədər mükafat alırıq.

– Yox, o pul sizinkidir.

– Məni biabır elməyin, Sarıgül.

– Nə üçün biabır olursunuz?..

– Xahiş edirəm pulunuzu geri götürün...

Məsimin xəyalında pulu bu onun, o bunun üstünə atır, uşaq təki oynayırdılar.

Ancaq Məsim Sarıgülü görə bilmədi. Görə bilmədi ona görə ki, onlar tərəfə hərlənmədi. Qorxdu birdən atası evdə olar, yaxşı düşməz, qızın acığı tutar, özü cəhənnəmə, qıza söz gələr. Yolda-izdə də rast olmadı. Əlacsız qalıb atı Eldənizgilə sürdü. Dostu da evdə yox idi.

– Bakıya müşavirəyə gedib, – dedilər.

– Gələndə məndən salam söyləyin.

– Salam göndərən sağ olsun... Ancaq atdan düşmədin, yaxşı olmadı, heç olmasa bir stəkan çay içərdin.

– Çox sağ ol, ay xala, işim tələsikdir, – deyə Məsim Eldənizin anası ilə xudahafizləşib atın başını geri çevirdi.

Qızı görmədiyinə dilxor olmuşdu. Heç olmasa xudahafizləşərdi. Bəlkə, elə münasib söhbətləri olacaqdı ki, o, qıza ürəyini aça biləcəkdi. Deyə biləcəkdi ki, bax, məsələ belədir, sənsiz mənim gecəm-gündüzüm yoxdur, sənsiz üzüm gülmür, könlüm açılmır. İndi nə deyirsən?

* * *

Axşamdan bir az keçmiş sürünü çəkdilər. Kür üstü ağaclıqlardan quş səsi gəlirdi. Elə bil gecənin qəribəliyindən söz açırdı. Elə bil haradasa bir yolçu olduğunu, qaranlığa düşüb yolu-cığırı itirdiyini xəbər xerir və ona kömək etmək üçün hərdən səsini çıxarırdı.

Yolun qıraqlarını, tarlaların aralıqlarını otara-otara sürünü çəkib gedirdilər. Narlıdan bura azı iyirmi kilometr yol gəlmişdilər.

– Ay uşaqlar, qoyun bu heyvan dincəlsin. Özümüz də batdıq-qırıldıq, – deyə Giziroğlu qabaqdakılara səsləndi.

Bu təklif hamının ürəyindən oldu. Çünki gedə-gedə hamı ayaq üstə yatırdı, ayaqları getsə də, gözləri yumulur, addımlarını hara atdıqlarını bilmirdilər. Ona görə də balaca bir düzəndə sürünün qabağını saxladılar. Qoyun-quzu dizini qatlayıb yatdı. Çobanların da hərəsi bir yerə döşəndi.

Gömgöy soğan təki qalxmış yaz otu yumşaq və ətirli idi. Nəmli torpaqda suya çəkilmiş xalıya bənzəyirdi. Məsim əlinin içini şehli otlara çəkib, bu il baharın yaxşı gəldiyini, otun-ələfin bol olacağını düşündü. Sonra xəyalı hara isə qaçdı, orda-burda dolandı, gəzdi, heç yerdə bənd olmayıb Sarıgülün yanında qərar tutdu. Qız indi şirin yuxudadır, yatır. Məsimin ürəyindən keçirdi ki, elə olaydı ki, o, bax, beləcə yumşaq yaz otunu sığalladığı kimi əlini üsulluca onun saçlarına vuraydı. Dönüb-dönüb... yuxu apardı Məsimi.

Nə vaxtsa itlər bərk hürüşdü. Onda Məsim şirin bir yuxu görürdü. Görürdü ki, quzuları əmişə çağırır.

– Gəl heyy!.. Gəl heyy!..

İtlərin səsinə sıçrayıb yerindən qalxanda Məsim maşın gördü. Bir «Villis» çöllüklə düz onların üstünə gəlirdi.

– Harf!.. Harf!..

İtlər az qalırdı maşının üstə sıçrasınlar. Şofer də, deyəsən, dəlinin biri idi. Maşını itlərin üstə sürürdü. Bir yerdə az qaldı ala qancığı bassın.Yuxudan kal qalxmış Şəmməd çığırdı:

– Ayə, nə edirsən?

Maşın yerində mıxlanıb qaldı. Çobanlar itlərə acıqlandılar. Kabinkadan şoferdən savayı iki adam düşdü. Biri iri bığlı milisioner idi, biri də Sarıgülün atası. Məsimin dalağı sancdı. Bildi ki, bu gəlişdən yaxşı iy gəlmir.

Ataxan kişi ağızucu salam verib dedi:

– Bu necə işdir?

Giziroğlu özünü o yerə qoymadı.

– Nə barədə deyirsiniz?

– Necə nə barədə?! – Kişi acıqlı olduğundan sakit danışa bilmədi. Səsini ucaltdı. – Niyə bura ilə gəlibsiniz?

– Yerlərinizə qəti ziyanımız dəyməyib. Baxın, əgər bir yerdə bir bağ-bağçanıza, dirliyinizə ziyanımız dəyibsə, onda danışmağa haqlısınız.

Ataxan əlini qaldırıb arxada qalan yollara işarə etdi:

– A kişi, sən də danışırsan, bəs bu qədər yeri siz otara-otara gəlməyibsinizmi?! Yoxsa heyvanın başına torva keçirmişdiniz?!

– Onda nə olasıdır ki?! Bizim də başqa əlacımız yox idi. O yandan yolumuz çox uzağa düşürdü. Quzularımız hələ körpədirlər. Həm də bilirsiniz, o yolun suyu-seli yoxdur. Ona görə də...

Ataxan kişi başını silkələdi:

– Elə şey yoxdur, heyvanınızı saxlayacağam!

Məsim Ataxan kişinin belə acıqlı-hikkəli danışmasından ona əyri-əyri baxıb fikirləşirdi. Beləsinin qızını götürüb qaçasan, yana-yana qala. Qoy bu düzün ortasında nə qədər istəyir atdanıb-düşsün. Sən də dağlarda qızla qol-boyun gəz.

Amma nə olardı?! Kişi lap odlanardı. «Mən elə qızı heç görmək istəmirəm. Qoy cəhənnəm olsun, hara gedir, getsin». Məsim də ürəyində deyirdi: «Adın nədir, Daşdəmir, yumşalarsan, yumşalar».

Camaat nə hayda idi, bu nə hayda. Çobanlar bilmirdilər bu cəncəldən necə qurtarsınlar. Bunun isə, necə deyərlər, fikri Hələbdə qatır satırdı.

Məsim bu ara yuxudan ayılmış təkin dedi:

– Saxladınız nə olsun axı?! Məqsədiniz nədir?

Ataxan kişinin zəhmli baxışları ona zilləndi. Məsim elə bildi ki, ona nəsə deyəcək. Ancaq ağzını açmadı. Ya baş qoşmaq istəmədi, ya da indi də fikirləşdi ki, bunun başı çatmır, dəlidir. Məsim istədi ona desin ki, a kişi, sözünü de, mənim başım da çatır, ağlım da yerindədir. Ancaq elə demədi, işin uyarına getdi.

– Olmazmı bizi incitməyəsəniz.

– Ə, özünü ələ salıbsan, yoxsa bizi?! – deyə Ataxan kişi birdən bozardı. – Heyvanın ağzını geri çevirin, hamınızı aparacağam. Akt bağlatdırıb belinizə cərimə kəsdirəcəm.

Bayaq qızını götürüb qaçırdı. İndi Məsim yaman qamaşdı. Çünki Ataxan kişi ona bir gəliş gəlmək istəyirdi ki, adını yadından çıxartsın. Məsim isə belə şey arzulamırdı. Suyu bulandırmağa nə var axı? Onu durultmaq çətindir, xeyli vaxt aparır, həm də gərək su süzən daşın olsun, içərisinə zəy atasan. Onların arasından axan bulanıq suyu isə zəylə də durultmaq çətin idi. Çünki Məsim belə adamların xasiyyətinə bələd idi: ağızlarına ən azı gərək bir erkək tullayasan, bəlkə, səndən əl çəkələr.

Məsim onların qabağına keçdi.

– Heyvanda işiniz olmasın. Yorğundur, yatışacaq.

Onun bu hərəkəti Ataxan kişinin xoşuna gəlmədi. Qeyzlə dedi:

– Yekəxanalıq eləmə, ə!

– Mən heç vaxt yekəxana olmamışam.
– Sənmi?
– Bəli, mən!..
Milisioner Məsimin qolundan yapışdı.
– Neynək?! Heyvan qalsın, sən bizimlə gedək. Nə cəzan var çəkərsən.
Məsim gördü ki, ona hədə-qorxu gəlirlər. Elə bilirlər qabaqlarındakı uşaqdır, ağciyərdir, «üüüü» eləyib ağlayacaq. Daha demirlər ki, Məsimin gözünə güllə də tutsan... Həm də düşündü ki, onlar elə belə əl çəkməyəcəklər, yüz cür təppəcə gələcəklər. Özü cəhənnəmə, yoldaşlarını incidəcəklər. Ona görə Məsim məsələni uzatmaq istəmədi. «Qoy nə cəzaları var mənə versinlər». Üzünü yoldaşlarına tutdu:
– Siz yolunuzdan qalmayın. Mən də gəlib çataram.
Onu sahə müvəkkilinin idarəsinə gətirdilər. Amma Məsimin vecinə deyildi. Onun üçün əsas bu idi ki, sürüləri rahat yerdən aparmışdı. Körpə quzuları susuz çöllərə salıb düzdə qoymamışdı. Ölü dərənin qurdlu sularına salıb heyvanı azar-bezara düçar eləməmişdi. Daha əmin idi ki, sağ-salamat gedib göy yaylaqlara çıxacaq. Vicdanı bu cəhətdən də təmiz idi ki, bunların əkin-səpin yerlərinə ziyan vurmamışdılar. Yüz komissiya gəlsin, Məsimin qorxusu yox idi.
Onlar isə bugünkü işlərindən nəsə narazı kimi içəridə bənd almayıb eşiyə çıxdılar. Eşitdi qapının dalında danışırlar.
– Qarnım əldən getdi, ay qaa.
– Mən də çaysız ölürəm.
– Çaydan nə olsun, ay qaa...
– Bə nə istəyirsən?
– Eh, ay qaa, sən elə həmişə... Qoydun ki, bunu elə yerindəcə danaboynu eliyəydim, onda görərdin, kök bir erkəyi maşının içinə necə tullayırlar.
– Bəri gəl bizə gedək, çay içək, – deyə Ataxan kişi bu dəfə sözünü hündürdən dedi.
Onlar maşını xodlayıb gedəndə Məsim içəridə üst-başını səliqəyə salır, pal-paltarına yapışmış pıtırqanları təmizləyirdi. Bu zəhrimar da!.. Həm də peşman olmuşdu ki, niyə tranzistoru götürmədim, indi qurub konsertə qulaq asardım, darıxmazdım.
Aradan bir saat keçməmişdi ki, eşikdən ayaq səsi gəldi.
– Yəqin, onlardır, qarınlarını doldurub qayıtdılar, – deyə Məsim ayağını ayağının üstündən aşırıb, saymazyana üzünü də çevirdi bir küncə.
Qapı üsulluca dartıldı. Məsim təəccüb qaldı ki, nə əcəb bunlar belə mədəni... Gözlədi ki, onu danaboynu eləmək istəyən bığlı polis gəlib stolunun ardına keçsin. «Erkəyə iştəhası varmış. Gözlə, boğazında qalar...» Ancaq içəri gələn-eliyən yox idi. Bəs qapını?.. Məsim çiyni üstə qanrıldı. Gözlərinə inana bilmədi.

Mehriban çöhrəli bir qız qapının ağzında dayanıb... ona baxaraq gülümsəyirdi. Məsim cəld ayağa qalxdı.

– Sarıgül!..

Qız ayağını içəri qoydu.

– Salam, Məsim!

Oğlan bilmədi nə etsin.

– Salam!.. Salam!.. Düzü, heç gözləmirdim. Əslində, indi də... bəlkə, yuxu görürəm.

– Səhər xeyli var açılıb. İndi yuxu vaxtıdır?!

– Hə, elədir. Sevindiyimdən çaşmışam, qınamayın.

Qız əlində tutduğu balaca kağız sumkanı sahə müvəkkilinin stolunun üstə qoydu.

– Yemək gətirmişəm...

– Çox sağ olun, Sarıgül. Nə zəhmət çəkirsiniz.

– Heç bir zəhməti yoxdur. Sağ olun, – deyə qız açıq qoyduğu qapıya sarı getdi.

Qəribə idi. Bu ara Məsimə elə gəldi ki, həmişə qorxduğu, ehtiyat etdiyi qayığa minib Kürdə üzür. Ətrafda isə Kür üstünün üfüqlərə sarı uzanan pıtırqansız məhəbbət çölləri görünürdü...



# KEÇƏN GÜNÜN ƏZABI

## KEÇƏN GÜNÜN ƏZABI

Qapının zəngi çalındı. Arvad mətbəxdə idi. Nəsə bişirirdi. Məşğul idi. Həm də bədəncə ağır adam idi, çox ora-bura gedib-gələ bilmirdi. Balaca nəvə Gültac isə bayaqdan dərsini hazırlayırdı. Dodaqaltı şeir əzbərləyirdi.

*Pendir ağzında bir qara qarğa...*

Qapının zəngi vurulanda o gedib aça bilərdi. Əmiraslan kişi isə ondan qabaq durdu ki, qız dərsindən qalmasın. Qapını açanda gördü kim? Qonşusu Dadaş. Yenə lülqənbərdir, ayaq üstə dura bilmir. Öz qapısının zəngini basmaqdan, səhvən bunlarınkını çalıb. Qabağında Əmiraslan kişini görcək bir az duruxdu, sonra məsələnin nə yerdə olduğunu anlayıb ağzında dili loğalaqlana-loğalaqlana:

– Bağışla, – deyə üzr istəyib geri durdu.

Bu da nə desin. Belə şeylər çox olurdu. Əmiraslan kişi qapını lap yüz dəfə açardı. Qapı gələn-gedən üzünə açılmaq üçün deyildimi?! Narahatçılıq onun özünə görə idi... Bu Dadaş axı niyə özünü bu günə salıb ki, gah mərtəbələri yanılır, gah qapıları səhv salır. Cavan adamdır. Özünə yazığı gəlmirmi? Həyatını niyə korlayır? Fikirləşmirmi ki, bunun ailəsi var, o da gəzmək, gülmək, əylənmək istəyir. Bunun isə başı içkidən ayılmır. Heç bilmir ailəsi harada qaldı? Hara getdilər, hardan gəldilər? Eh! Bu, çox böyük dərd idi. Çəkənə. O gün görmüşdü ki, Dadaşın arvadının ardınca küçədə bir oğlan düşüb. Geyimli-kecimli bir adam idi. Əynində bir layka pencək var idi ki, bük, ovcunun içinə al. Saçlarını da əntiqə vurdurmuşdu. Qulaqları yarıyadək görünmürdü, saçın altında qalmışdı. Xülasə, qadın haraya gedir, o da böyrüncə düşüb əl çəkmir, ona nəsə deyir, danışdırmaq istəyirdi. Qadın isə qıpqırmızı qızarmışdı. Bilmirdi neyləsin. Axırı yeyin-yeyin gedib özünü bloklarına salmışdı.

Əmiraslan kişinin isə dişi bağırsağını kəsmişdi. Bunun şəxsən ona, ailəsinə bir aidiyyəti olmasa da, eybi ona gəlməsə də, özünü təhqir edilmiş hesab eləyirdi. Qonşusunun təəssübünü çəkirdi. Ürəyi götürmürdü. Hamını öz ailəsi gözündə görürdü. Odur ki gendən-genə olsa da, o oğlana diqqət yetirmiş, «vidini-fasonunu» yadında saxlamış və öz-özlüyündə and içmişdi ki, bir də onu belə hərəkət eliyən görsə, abrını alacaq. Elə eliyəcək ki, ölüb yerə keçsin. Birdəfəlik ona dərs olsun. Bilsin ki, onun da anası, bacısı var. Xülasə, söyüb biabır eləyəcək. «Axmağın biri axmaq!» O da görəcək bu hirslənib, hövsələdən çıxıb, qorxub dillənməyəcək. Ağzı nədir dillənə. Əmiraslan kişi onu bir hala salar ki, bilməz yolun altı

ilə gedir, yoxsa üstü ilə. Yaxasından tutub elə silkələyər ki, dəymişi dura-dura, kalı tökülər. Ağac ağacdır ki, biri düz bitməyib o birinə mane olanda görürsən dartıb düzəldirlər. Yaxud başqa çarə olmayanda qol-budağını, şax-şəvərini budayırlar. Ancaq neçə illərin təcrübəsindən Əmiraslan kişi deyə bilər ki, təbiət bu qayda-qanuna əsasən riayət eləyir. Hər bir bitkinin, hər bir yaşıl kolun, hər bir ağacın yerinə, şəraitinə, iqliminə görə müəyyən bir bitim forması olur. Görürsən biri o birinə mane olacağını əvvəlcədən bilib, hiss eləyib ayrı cür bitir, gövdəsini oyan-buyana əyib qonşu ağaca mane olmamağa çalışır. Dar ayaqda da bir-birlərinə kömək dururlar. Hava pisləşib tufan olanda, qasırğa qopanda, dəli küləklər uğuldayıb yeri-göyü bir-birinə qatmaq istəyəndə, sellər-sular daşanda ağaclar qol-qola, yan-yana dayanıb bir-birlərinə söykək olurlar, zəifin, qocanın kökündən qopub yıxılmasına, əyilib sınmasına imkan vermirlər. Bax, bunu bəzən Əmiraslan kişi cəmiyyətdə, adamların münasibətlərində görməyəndə pis olur, xırda bir şeyi də özünə yekə dərd eləyirdi. Bu məsələ isə ona olduqca pis təsir eləmişdi. O layka pencəkli oğlandan bütüncə zəhləsi getmişdi. Fikirləşirdi ki, bu, harada böyüyüb, necə tərbiyə alıb? Başa salan olmayıbmı ki, adam özünü yaxşı aparar?!

«Əşi, barmağın hamısı bir ha deyil», – Əmiraslan kişi başını bulamışdı. Bütün təqsirləri Dadaşda görmüşdü.

– Adə, Dadaş, heyif deyilsənmi, özünü niyə korlayırsan? Bu zəhrimarı dilinə vurmasan olmaz?! – deyib onun neçə dəfə başına ağıl qoymaq istəmişdisə, sözünün təsiri olmamışdı. Heç nə. Gül təki oğlan özünü yazıq eləmişdi. Araqda, çaxırda nə görmüşdüsə, əl çəkə bilmirdi. Bunun günahı ya özündəydi, ya da pis yoldaşlarının təsiri altına düşmüşdü. Bəlkə də, günah valideynlərində olmuşdu. Uşaq vaxtında pis tərbiyə vermişdilər. Ərkəsöyün böyütmüşdülər. Orta məktəbi hələ təzə qurtarmışdı. Maşın sürürdü. «Jiquli» markalı maşın təzə çıxan vaxtlar idi. Öz küçələrindəcə oyan-buyana güllətəki gedib-gəlirdi. Az qalırdı adam vursun. O-bu dalınca deyinirdi, amma atasının elə bil vecinə deyildi, maşını iti sürən, döngələrdə qəfil hərəkətlə fırladan oğluna fəxrlə baxırdı. Axırda bir gün qəza elədi. Maşına baxanda heç inanmaq olmurdu ki, buradan salamat çıxmaq olar. Maşının ağzı-burnu yumrulanmış, qabaq təkərləri altına girmişdi. Qapıları da əyilib-əzilib sıradan çıxmışdı. Şüşələri çilik-çilik olmuşdu. Xoşbəxtlikdən Dadaşa ağır xəsarət dəyməmişdi. Bekaraca əli-qolu sıyrılmış, qaşının üstü bir balaca çapılmışdı. Amma bu ağır qəzanın qabağında bir şey deyildi. Hamı deyirdi ki, Dadaşın atası Məmmədağanın çörəyi ovsanata keçib. Hətta təəccüb edib deyirdilər ki, görəsən, bu necə əməlisaleh, yaxşı adamdır ki, uşağı bu cür qovğadan salamat çıxıb. Əslində, onun atası xeyrə-şərə o qədər də yarayan adam deyildi. Daha doğrusu, o yerdən ki, onun bir qəpik xeyri olmayacaq, o işə qəti qarışmazdı. Qəpik çıxan yerə isə gedirdi. Həmişə öz mənfəətini güdən adam idi. Deyirdilər

ki, bu kişi oğluna toy-zad eləməz ki, pulum israf olar. Amma bir yaxşı toy elədi. Bütün qonşuları çağırmışdı. Özü toya-nişana gedən olmasa da, hamı bir nəfər kimi onun toyuna gəlmişdi. Süfrəyə o qədər yemək-içmək tökmüşdü ki, stolun üstü cürbəcür nemətlərlə dolu idi. Başqa vaxtlar bir adamı bir stəkan çaya da qonaq eləməyən ata indi oğlunun toy günündə necə səxavətli, necə əliaçıq olmuşdu. Elə bil indiyədək eləmədiklərinin əvəzini çıxırdı. Yaxınlaşıb hər bir qonağı ilə stəkan-stəkana vurur:

– Xahiş edirəm, yaxşı yeyib-için, – deyirdi. – Mənim madar övladım var, özgə kimə toy eləyəcəyəm, bir budur.

– Xoşbəxt olsun!

– Sağ olun! Çox sağ olun! İnanın, özüm o qədər əziyyətlər çəkmişəm ki, oturub danışsam, qəmlənərsiniz. Yetimliklə böyümüşəm. Eh! Yaxşısı budur qanınızı qaraltmayım. Amma istəmirəm oğlum mənim kimi çətinlik görsün. Bax, özüm geymədiklərimi ona geydirirəm. Özüm yemədiklərimi ona yedirdirəm. İstəyirəm onun hər şeyi olsun. Neynim, necə eləyim deməsin. Ürəyi nə istəyir əlini atanda götürsün. İçin, qurbanınız olum, için.

Əmiraslan kişinin də üstünə düşmüşdü ki, iç. Bu da and-aman eləmişdi ki, o heç vaxt pivədən savayı içki içməyib. Ömür billah dilinə vurmayıb. Heç bilmir o araq-çaxırın dadı-tamı nə təhərdir. Demişdi ki, üz vurma, içən deyiləm. Demişdi ki, ümumiyyətlə, mənim içki deyilən şeydən zəhləm gedir. Bir şey ki insanın ağlını başından alsın, onu bambılı eləyib ortalığa salsın, nəyə lazımdır?! Heç nəyə! Onu içənin ağlı yoxdur. Həm canına ziyandır, həm də cibinə.

Adamların yeyib-içib, keflərinin kökəldiyi bir vaxtda kim idi Əmiraslan kişini eşidən. Deyəsən, özü deyib, özü eşidirdi. Toy sahibi Məmmədağa da güman elədi ki, Əmiraslan kişi onun ünvanına, oğluna aid xoş sözlər deyir. Bir qədər içmiş olduğuna, ya belə düşündüyündən, ya da Əmiraslan kişinin sözlərini həqiqətən eşitdiyindən və onun içmədiyinə xoşlandığından:

– Sağ ol, Əmiraslan kişi, sağ ol. Sənin sağlığın olsun, – deyə özü gillətdi və iki sıranın arası ilə oynaya-oynaya çalğıçılara sarı getdi, orada da oynamağında davam etdi. Oynamaq deyəndə ki, o qol açıb süzəmi bilərdi?! Qarnını gəzdirə bilmirdi. Ümumiyyətlə, bədəncə ağır adam idi. Həm də içki nəfəsini kəsmişdi. Tərpənməyə təhəri yox idi. Amma oynayırdı. Aydındı ki, kişinin ürəyi təpirdi. Oğul toyu idi. O oynamayanda bəs kim oynayacaqdı. Çarəsiz qalıb qollarını qaldıraraq yerindən tərpənmədən bir ayağının üstəcə oyan-buyana tullanırdı. Əmiraslan kişi də bir az aralıdan, adamların içindən əli çənəsində ona baxırdı. Fikirləşirdi ki, Məmmədağa düz deyir. O, oğluna hər şey verib. Bax, Dadaşın topdağıtmaz evi var. Dadaşın maşını var. Köhnəsini satıb, təzəsini aldı. Dadaşın qızıl-mızılı var. Dadaşın brilyantı, mirvarisi var. Dadaşın altında pulu da var. Xülasə, altını, üstünü qurdalasan görərsən ki, varıdır. Özünə qismət olsun. Əmiraslan kişi paxıl adam

deyildi. Sadəcə olaraq, Məmmədağa bayaq bunları deyəndə Əmiraslan kişi öz uşaqlarını xatırladı. Fikirləşdi ki, bu deyilən şeylərin heç biri onlarda yoxdur. Nə qızılları var, nə brilyantları var, nə maşınları var, nə də sən deyən pulları. Belə çıxır ki, bu yazıqların heç bir şeyləri yoxdur. Bəs Əmiraslan  kişi onlara nə verib? O orda oynayırdı, bu da burda fikirləşirdi ki, uşaqlara nə vermişəm? Birincini böyütdü, boya-başa çatdırdı, sonra o biriləri də oxutdurub, hərəsini bir sənət sahibi elədi. Sonra da qızını köçürtdü, oğlanlarını evləndirdi. Hər birini ayrıca ev-eşik elədi. Hə-ə. Öz-özünə dedi ki, özgə nə verəcəkdim? Dedim: ağılları, başları olsun, gedib dolansınlar. Hər halda, Əmiraslan kişi başa düşürdü ki, Məmmədağanın oğlu Dadaşın elədiyi kefləri bunun uşaqları eləməyib. Dadaş, necə deyərlər, yağ yeyib yaxada gəzib. Amma bunun övladları bir tapanda bir də tapmayıb. Dolanışıqlarından şikayət etməsələr də, hardasa ehtiyacları da olub. Dadaş isə bir parça vaxtından pulu xəzəl kimi xərcləyib. O restoran, bu restoran, o kababxana, bu kababxana. Belə-belə  yerlərdə Dadaşı yaxşı tanıyıblar. Hansına gedibsə, onu xüsusi kabinədə otuzdurublar. Vaxtlı-vaxtsız Dadaş evə gəlib həyətdə «taksi»dən düşəndə, Əmiraslan kişi çox görmüşdü ki, «uşaq» ayaq üstə dura bilmir. Ona yazığı gəlmişdi. Bir neçə dəfə atasını çəkib:

– Məmmədağa, oğlun, deyəsən, içir, onu yığışdır, sonra gec olar.

O da gülüb başından eləmişdi ki, zərər yoxdur. Qoy ürəyi nə istəyir eləsin.

Əmiraslan kişi dayana bilməmişdi.

– Məmmədağa!

– Bəli, qonşu.

– Atalar deyib ki, əzizim əzizdir, tərbiyəsi ondan da əzizdir.

– Dadaş tərbiyəli gəncdir, qonşu. Dava-dalaş bilən deyil. Qaldı yemək-içməyi, cavan oğlandır, necə deyim ki, olmaz. Deyər atam pullarını mənə qıymır. Bilirsən dəə, anası da yoxdur, ona görə...

Əmiraslan görmüşdü ki, Məmmədağanı başa salmaq çətindir, danışmamışdı. İndi də əyilə-büzülə oynayan Məmmədağaya baxa-baxa Əmiraslan kişi bütün bunları xatırlayır, təzədən onlar barədə dərin-dərin düşünür, elə bil həqiqətən, harada olduğunu axtarıb tapmaq istəyirdi.

Bu arada məclisin aşağı başında nəsə bir çaxnaşma oldu. Camaatın yeyib-içdiyi, deyib-güldüyü bir vaxtda bir cavan oğlan ordan qalxdı, bir cavan burdan. Gözlərindən cin çıxırdı, baxışları qəzəbli idi. Bir-birlərinə işarə verib süfrənin arxasından duraraq eşiyə çıxmalı oldular. Onlara görə bir-iki arvad da çıxıb cavanların ardınca qaçdı. Bütün bunları görən Məmmədağa nə başa düşdü, nə başa düşmədisə oynamağını yarımçıq qoyub eşiyə getdi. Düzü, Əmiraslan kişi də narahat olmuşdu. Qorxurdu qonşusunun toyuna dava salsınlar.

– Əşi, özünüzü apara bilmirsiniz, bunu içməyin, – deyə Əmiraslan kişi ürəyində onları qınadı.

Yaxşı ki, elə bir dava-qalmaqal olmadı. Bir azdan cavanların qoluna girib içəri gətirdilər. Görünür, barışdıra bilmişdilər. Amma Məmmədağanın rəngi-ruhu elə qaçmışdı ki, deyirdin kağızdır. Üzündə bir damla qan qalmamışdı. Bütüncə də tərin içində idi. Alnından, qaşlarından damcı-damcı dalınca tökülürdü. Hiss olunurdu ki, kişi bərk qorxub. Qorxub ki, məclisinə dava düşsün.

«Təqsir özündədi. Niyə bu qədər içki töküb ki, bunlar da şadlıqlarına şitlik eləyirlər» – deyə ürəyində Əmiraslan kişi yenə Məmmədağanı qınadı. Yenə Məmmədağanı günahkar bildi. Bu yerdə bir də gördü Məmmədağa getdi və elə bil dizlərini çapdılar. Əli-qolu boşalıb yıxılırdı ki, bayaqkı cavanlar tez dönüb qollarından yapışdılar. Təcili altına stul qoydular, səslədilər:

– Məmmədağa əmi, Məmmədağa əmi!

Məmmədağa çox istədi ki, danışsın, bacarmadı. Kişinin ağzı, gözü əyilirdi. Bircə dəqiqənin içərisində Məmmədağa çıraq təki söndü. Çox pis iş oldu. Kişinin toyu yasına qarışdı. Daha nə etmək olardı?! Hərə bir söz deyirdi. Biri deyirdi kişi özünü çox yorub, toya görə çox oyan-buyana qaçıb. Üstəlik də bir qədər oynayıb. Bir başqası da deyirdi ki, bunların hamısı havayı şeylərdir. Onun evini əsas içki yıxıb, içki. O yaşda adam hərə, ilə bir əllicə qram vursa, gör nə qədər eləyər. Ona heç dözmək olardı. Daha bir başqası da deyirdi ki, əşi, bütün ömrü boyu yeməyib, birdən yeyəndə bilmirdimi belənçi olacaq.

Atasının ölümündən sonra Dadaş bir az da üstünə qoydu. Əmiraslan kişi onu iki gündən bir sərxoş görürdü. Dostları, yoldaşları ilə tez-tez vururdular. Əmiraslan kişi buna məəttəl qalmışdı. «Bəs bunu işdə necə yola verirlər, – deyə fikirləşir, bir nəticə çıxara bilmirdi. – Yəqin, yazıqları gəlir». Sonra da onun iş yoldaşlarını, çalışdığı idarənin rəhbərlərini qınayırdı. «Bir insanpərvərlik ki, onu aparıb qəlyanaltılara salıb, bu nəyə lazımdır?! Bir insanpərvərlik ki, onu araq-çaxır şüşəsindən ayrılmağa qoymur, bu, nəyə lazımdır?! Bunu yaxşılıq, insanpərvərlik hesab etmək olmaz. Əksinə, bu ən böyük pislikdir. Cinayətdir. Belə müdirlərin gərək özünü mühakimə edəsən. Yaxasından tutub deyəsən ki, bax, gör nə cinayət etmisən. Xətrinə dəyməyə-dəyməyə övladını şikəst eləmisən, hə. Gərək hər hansı bir adamın cəzasını vaxtında verəsən ki, ağlı başına gələ, özünə bir nəticə çıxara».

Eh! Hər nə təhər, Dadaşın axırı itmişdi. Əmiraslan kişi qorxurdu ki, bunun ailəsi də dağılsın. Doğrudur, o gün Dadaşın yoldaşının hərəkətindən, ardınca düşən oğlana üz verməməsindən Əmiraslan kişi çox razı qalmışdı. Ürəyində «bərəkallah» demişdi. Amma yenə də olsun: «Gəlin xeylağı idi, yoldan çıxara bilərdilər. Ya tərifə allanardı: sən belə gözəlsən, sən belə qəşəngsən. Qaşın belə, gözün belə. Bunun da huşu başından çıxardı, ya da ona şirin vədlər verərdilər. Sənin üçün belə eliyəcəm. Sənin üçün elə eliyəcəm. Həyatda o qədər parıltılı, cingiltili, göz qamaşdıran şeylər vardı ki, ilanı yuvasından çıxarırdı. Bu da gördün sıyıldı, axıb getdi. Ondan

sonra öz həyatı da korlana bilərdi». Bax, qonşusu Məmmədağanın yurdunda belə bir çətin vəziyyət yaranmışdı ki, Əmiraslan kişi buna heç cür laqeyd qala bilmirdi. Qorxurdu Məmmədağanın ruhu ondan incisin. Hələ bir-iki dəfə də onu yuxusunda görmüşdü. Görmüşdü ki, elə ağ kəfəndəcə durub bunun yanına gəlib. Özü də elə çovğunlu gündür ki, əsir, titrəyir. Qayıdıb ona deyir: «A qonşu, yaxşı, mən yoxam, bəs sənə nə olub?! Sən ki varsan. Niyə bizim uşağın başına ağıl qoymursan?» Düz sözün qabağında Əmiraslan kişi ömründə dillənməmişdi. İndi də görmüşdü Məmmədağa düz deyir, susmuşdu. Eləcə bir az sonra demişdi ki, Məmmədağa, sənə soyuq olar, get yerində uzan, ya da çiyninə bir şey sal. Bu da sümükləri şıqqıldaya-şıqqıldaya çıxıb getmişdi.

Səhər Əmiraslan kişi oyananda fikrə getmişdi ki, bu necə yuxudur, nə deməkdir? Xeyli düşünəndən sonra bu qərara gəlmişdi ki, oğlunun hərəkətləri kişinin ruhuna əyan olub. Dadaşa da bərk acığı tutmuşdu ki, belə də şey olar, qoymur qəbirdə də kişi rahat ola.

Çox götür-qoydan sonra Əmiraslan kişi bu fikrə, bu qərara gəldi ki, bunun başqa çarəsi yoxdur, bir o qalır ki, onlarla maraqlansın, onlara yaxşılıq etsin, yeri gəldikcə sözlə, söhbətlə hər ikisinə öyüd-nəsihət versin. Çünki ailədə elə bir başbilənləri yoxdur. İkisi də cavandır. Hər halda xoş sözə, ağıllı məsləhətə ehtiyacları var. Yeri gəlsə, oğlana acıqlana da bilərdi. Qız sarıdan bir az çəkinirdi. Halına, xasiyyətinə bir o qədər bələd deyildi. Pis qarşılaya bilərdi: «Sən kimsən mənim başıma ağıl qoyursan!»

İndiki dövrdə bəzi cavanlardan bunu gözləmək olardı. Elələri var ki, böyük-kiçik bilmirlər, özlərini də hamıdan ağıllı sayırlar. İndi nə biləsən ki, bu qız hansındandır? Əmiraslan kişi belə-belə şeyləri fikirləşib bu işdən bir az soyuyan kimi oldu. «Nəyimə lazımdır. Başqasının dərdi-azarı mənəmi qalıb?!»

Bundan iki-üç gün sonra isə mağazada qızla rast olanda dayanammadı. Bir vaxtlar qonşuluqda yaşadıqları, aralarında həmişə quruca olsa da salam-kalam olmuş Məmmədağanın xatirinə qıza yaxınlaşdı.

– Salam, a qızım, – dedi.

Onun da fikri, deyəsən, başqa yerdə idi. Əmiraslan kişi yanında, lap gözünün qabağındaca olsa da, deyəsən, onu görmürdü. Belə şeylər olur, ağıl uzağa baxanda, görünür, göz də uzağa baxır. Ancaq kişinin səsinə dönüb baxdı. Və qonşusunu görcək gülümsəyərək başını tərpətdi.

– Salam.

Gəlin elə mehribanlıqla, iltifatla danışdı ki, Əmiraslan kişi ürəkləndi və bir qonşu kimi xəbər aldı.

– Nə var, nə yox?

– Sağlığınız, əmican.

– Necə dolanırsınız?

– Belə, – qız qeyri-müəyyən cavab verib yenə gülümsədi.

Kişi də nə desin.

– Yaxşı olun, a qızım, yaxşı olun. Bir-birinizi tutun, dost var, düşmən var, elə edin ki, başınız uca olsun.

Qız bu sözlərdən özü üçün bir şey götürdümü, bir şey başa düşdümü, Əmiraslan kişi bir şey anlaya bilmədi. Ancaq o gecə yuxusunda layka pencəkli oğlanı gördü. Gördü bir maşınla həyətə girib. Maşını həyətdə dəli təki oyana-buyana necə sürürsə, hamını təşvişə salır. Hərə öz canının hayına qalır. Ona görə də layka pencəkli oğlanın gözü ayağının altını seçmir. Özünü elə aparır ki, deyirsən, onun ixtiyarı hər şeyə çatır və nə istəsə edə bilər. Asar da, kəsər də. Belə də münasibət olar?! Belə də dərd olar?! Bunu kimə deyəsən, kimə söyləyəsən. Bu axı heç kəsi adam yerinə qoymur. Əmiraslan kişi ürəyini yeyir. Nəhayət, dözməmiş, özünü səkidən maşın yoluna atmışdı. Əlini qaldırmışdı ki, adə, nə edirsən, maşınını saxla. Ay tövbə, layka pencəkliyə təsiri olmamışdı. Düz onun üstə sürmüşdü, heç vecinə də deyildi. Əmiraslan kişi məcbur olub yoldan çıxmışdı. Bircə an da geciksəydi, indi o dünyalıq olmuşdu. Çətin salamat çıxardı. Məcbur olub qışqırmışdı.

– QAİ! QAİ! Milis! Ay milis! – Elə ki o qışqırırdı... səsi də çıxmırdı. Beləcə azara düşmüşdü. Eşidilsin deyə lap ucadan bağırmaq istəyirdi, amma bağıra bilmirdi. Qərəz ki, səsini bir təhər eşitdilər. Çox keçmədi ki, QAİ də gəldi, milis də. Əmiraslanın rəngi-ruhu durulmuşdu. Bax, indi min cür oyun açıb camaatı barmağına dolayan bu oğlanın dərsini verəcəklər. Daha atası yandı. İndi bilər, başa düşər ki, camaatın əsəblərilə oynamaq, camaata sataşmaq nə deməkdir. Başından böyük qələt eləyib. Bundan sonra eləməsin. Əmiraslan kişinin xəyalında onu dartıb sükanın ardından eşiyə çıxardır, maşınını, sürücülük vərəqəsini əlindən alıb, qabaqlarına salıb aparırdılar. Əmiraslan kişi ürəyi yumşaq adam idi. Dara düşənə kömək əlini uzadardı. Amma buna bir qırnıq da olsa ürəyi yanmırdı. «Qoy bu köpək oğlunu bassınlar!», – deyirdi. Di gəl, bir də gördülər QAİ işçisilə milis əllərini qaldırıb layka pencəkli oğlana çest verirlər. Yolun qırağında, əlləri qulaqlarının dibində quruyub qalıblar. Sağa gələndə sağa baxırlar, sola gedəndə sola. Oğlan öz kefindədir. Heç bunları saymır. Daha demir ki, məni cəzalandırarlar. Məni tutarlar. Fələyə kələk gəlir. Maşını qaza basıb fır-fır fırlanır. Araz aşığından, Kür topuğundandır. Bəlkə, o deyil? Bəlkə, başqa adamdır? Əmiraslan kişi maşından qorxsa da, bir az qabağa dayanıb yaxından baxdı. Maşın quyruqlu ulduz təki bir an içində axıb getsə də, sürücünü az-maz, ala-yarımçıq görə bildi. Amma layka pencəkli oğlana oxşamadı. Ona elə gəldi ki, qonşusu, alkaş oğlandır. Bu necə şey idi? QAİ işçisi, milis ona nə əcəb «çest» verirlər? Gül təki oğlan içkiyə qurşanıb özünü korladı. Kimdi onu adam yerinə qoyan. Görəndə ona heç salam vermirlər, «çest» verərlərmi?! Əmiraslan kişi nəsə gözlərinə inanmırdı. Amma həmin oğlan idi. Bunu tam yəqin etdikcə bərk əsəbiləşdi, təzədən qabağa getdi, yolun düz ortasına

çıxdı. Bayaqdan qorxurdu ki, maşın onu vurar, indisə acıqlı olduğundan belə şeyi nəzərə almırdı. Əlini qaldırıb maşını saxlatdı və yana keçib açıq pəncərədən lomba ilə oğlanın üzünə tüpürdü. Hə-ə. İndi bir az ürəyi yerinə gəldi. Heç olmasa fikirləşər ki, bu kişi mənim üzümə niyə tüpürdü. Bəlkə, ayıldı? Bəlkə, qeyrətə gəldi. Bir başqası da buna baxıb özü üçün nəticə çıxardar. Əmiraslan kişi belə fikirləşirdi ki, maşının qapısı astaraq açıldı, sürücü sükanın arxasından bəri sürüşdü. Çıxanda məlum oldu ki, Əmiraslan kişi səhv salıb. Bu heç o adam deyil. Oğlan nə etsə yaxşıdır. Əlini qaldırıb Əmiraslan kişinin yaxasından yapışdı. Başladı silkələməyə. Elə silkələyirdi ki, kişinin çənəsi, dişləri bir-birinə dəyib şaq-şaq şaqqıldayırdı. Az qalırdı boğazı yerindən çıxsın. Zalım oğlu bir az silkələyib buraxmırdı ki, bu da özünə gələ, ağlını tarazlaşdıra, sağını-solunu bilə. Elə bil fasiləsiz zəng vururdu. QAİ işçisilə milis də əlləri qulaqlarının dibində hələ də quruyub qalmışdılar. Ona heç əhəmiyyət vermirdilər, öldü, qaldı. Bunlar üçün heç təfavütü yox idi. Yaxşı ki, bir az insafa gəlib buraxdı. Bir az da artıq eləsə nəfəsi kəsilərdi. Layka pencəkli oğlan bunu bir günə qoymuşdu ki, ayaq üstə güclə dururdu. Hələ bununla da əl çəkmədi. Başının hərəkətilə milisə nə işarə verdisə, o yüyürüb gəldi və Əmiraslan kişini qabağına saldı. Guya, onu tuturlar. Layka pencəkli oğlanın üzünə tüpürdüyünə görə. Doğrudur, Əmiraslan kişi səhv salıb tüpürmüşdü. Elə bilmişdi ki, içkiyə qurşanıb ailəsini yaddan çıxardan oğlandır. Onun üzünə tüpürmüşdü. İndi heç buna görə də peşman deyildi. Fikirləşirdi ki, bu da elə tüpürüləsi sifətdir. Yaxşı eləyib tüpürüb. Elənçi adama hələ o da azdır. Əmiraslan kişi başını dik tutub gedirdi, birdən yadına düşdü ki, cibində bir qəpik pulu yoxdur. Pulsuz onun orda halı-günü necə olar?! Pul elə şeydir ki, hər yerdə lazım olur. Bu fikirlə geri döndü desin ki, bəs evimə, oğluma, qızıma xəbər verin ki, belə, belə... Dilinə gətirə bilmədi ki, bəs desin məni tutublar. Belə şeydən Əmiraslan kişinin zəhləsi gedirdi. Dələduzluq eləyən, heç nədən dava salan, öz nalayiq hərəkətilə ümumi qayda-qanunu pozan adamlara Əmiraslan kişi nifrət edirdi. İndi bu yaşda özü ilişmişdi. Amma onu qabaqlarına salıb aparan adamlar qaş-qabaqlarını elə tökmüşdülər ki, söz demək, bir xahiş eləmək qəti mümkün deyildi. Heç səsini çıxarmağa qoymazdılar. Adamın ağzından vurardılar. Buna baxmayaraq, səsini çıxartdı.

– Bura baxın, – dedi, – məni aparırsınız, aparın, ancaq evimə xəbər verin ki, məni tutubsunuz, qoy dalımca puldan-paradan gətirsinlər.

Gördü bunlardan səs çıxmır. Nə «hə» deyirlər, nə «yox».

– Sizinlə deyiləmmi, – Əmiraslan kişi səsini bir qədər hündürdən çıxartdı. Yenə dillənən olmadı. Kişi təəccüb qaldı ki, niyə belə?.. Gördü, ümumiyyətlə, onun yanında adam-zad yoxdur. Ona elə gəlirmiş ki, adam var. Diqqətlə baxıb gördü həmin adamların yerində ağac var. Bu necə işdir, a başına dönüm? Necə oldu ki, əlləri qulaqlarının dibində olan bu adamlar birdən-birə çevrilib ağac oldular. Ağac da Əmiraslan kişi üçün çox böyük şey idi. Ürəyindən o dəqiqə ona xidmət etmək

fikri keçdi. İndi də hər şeyi unudaraq əlini ora-bura atdı ki, belini götürsün, şlanqı tapsın, birdən oyandı. Gördü ki, nə ağac, nə bel, nə şlanq – heç bir şey yoxdur. Evindəcə, yerində uzanıb. Amma o qədər həyəcanlı, o qədər narahatdır ki, ürəyi döyünür. Bütüncə tərə batıb. Sən demə, əbəs yerə həyəcan keçirirmiş. Sən demə, bütün bunların hamısı yuxuda imiş. Əmiraslan kişi başa düşdü ki, bu, gerçəkdən olmayıb, yalandan olub. Yalandan kişilənib. Layka pencəkli oğlanın üzünə yalandan tüpürüb. Əmiraslan kişi təəssüfləndi ki, bunlar yalandan olub, gerçəkdən tüpürəydi. Onu da gerçəkdən tutaydılar. O da gerçəkdən kişilənəydi. Əfsus ki, bunların hamısı yalandan olub. Amma o layka pencəkli oğlan yuxuda onun yaxasından tutub necə silkələmişdisə, kişi hələ də özünə gələ bilmirdi. Hələ də onun əlini yaxasında hiss eləyirdi. Çənəsi, dişləri şaqqıldaya-şaqqıldaya başı hələ də əsirdi. Deyəsən, beyni tərpənmişdi. Başının içi laxlayıb nəsə ayrı cür olmuşdu. Ağlı başından çıxmışdı. «Haqq olur ona! Soruşan gərək sənin nə işin var? Nə dərdinə-azarına qalıb? İndi belə əzab çəkirsən. Qoy o alkaş oğlan da cəhənnəm olsun, onun arvadı da! Cəhənnəm olsun hamısı! Cəhənnəm olsun! Cəhənnəm olsun!» Bunu ürəyində o qədər dedi ki, səhərə yaxın təzədən yatanda da, duranda da, əl-üzünü yuyub bir stəkan çay içəndə də, eşiyə çıxanda da elə hey «Cəhənnəm olsun!» – deyirdi. Qonum-qonşu, yaxın-uzaq bütün adamlara qarşı onda nəsə bir laqeydlik, biganəlik hissi əmələ gəlirdi.

Əmiraslan kişi çox yuxu görən adam deyildi. Adam var ki, gecə səhərədək cürbəcür, bir-birinə culaqlı, culaqsız yuxular görər. Bəzisi yadında qalar, bəzisi qalmaz. Amma bu yox. Necə olmuşdu o layka pencəklidir, nədir onu görmüşdü, özü də əcaib maşını vardı. Arxa hissəsi elə bil qaranquş quyruğu idi. Düdhədüd həyətdə fırfıra tək fırlanırdı. Yox. Siqnalı bir az alayı cür idi. Elə bil musiqi çalınırdı. Hə-hə. O cür idi.

Hər nə təhər... bu yuxudan Əmiraslan kişinin dalağı sancmışdı. «Bu piyanıska köpək oğlunun ailəsini dağıtmasa yaxşıdır». Darıxıb, hövsələdən çıxıb Dadaşın atası Məmmədağanı söydü. Peşmanlandı. Kişi gedib axirət dünyasındaca yıxılıb yatırdı. Kimə nə maneçiliyi vardı?! Amma bu huşu başında olmayan gədə burda – bu işıqlı dünyada bunu, orda – o qaranlıq dünyada onu narahat eləyirdi. Əmiraslan kişi qəti bu fikirdə idi ki, oğlunun bivecliyi ona əyan olmamış deyildir. Əmək itirmək pis şeydir. Qədirbilməzlik pis şeydir.

Bu fikirlər içərisində Əmiraslan kişi həyətdə hərlənirdi ki, bir də gördü Dadaş da blokdan eşiyə çıxdı. Sən demə, evdə imiş. Hara gedirdi? Vurmağamı gedirdi? Özü kimi yoldaşları vardı, bir də görürdün tapışdılar, görüşdülər, it sürüsü təki «quyruqlarını qısıb» getdilər.

– Bura gəl. Bura gəl. – Əmiraslan kişi əlini yelləyib onu yanına çağırdı.

Əmiraslan kişi onunla əməlli-başlı danışmaq istəyirdi. Ancaq oğlan yanına gələndə bilmədi sözünü necə desin. Necə desin ki, arvadının dalınca bir nəfər

düşmüşdü. Şəhərdə o qədər axmaq-uxmaq var ki, hə, düşmüşdü, düşmüşdü, nə olsun? Kişi çaşıb qaldı. Amma Dadaşı xüsusi olaraq yanına çağırmışdı, gərək bir söz deyəydi.

– Nə qədər vaxtdır kişi rəhmətə gedib?

– Nə qədər?

– Hə.

– Üç-dörd il olar, – Dadaş alnını yığdısa da, yenə dəqiq cavab verə bilmədi.

– Hə-ə. Rəhmətlik yaxşı kişi idi. Heç üstünə gedirsənmi?

Dadaş ya axır sözü yaxşı eşitmədi, ya da başa düşmədi.

– Hara gedirsənmi?

Bu, dediyi yeri barmağı ilə də göstərdi. Çünki qəbiristanlıq onların küçəsinə yaxın idi.

– Oraya, atayın qəbri üstə.

– Atamın qəbri üstə?

– Hə-ə.

Dadaş heç bilmədi nə desin. Çünki yadına gəlmədi ki, heç olmasa bir dəfə gedib kişini ziyarət etmiş olsun. Kişinin ölən günü getməmişdi. Anadan olan günü olmuşdu, getməmişdi. İndi bu deyirdi, yadına düşmüşdü, yoxsa heç yadına da düşmürdü.

Əmiraslan kişi gördü ki, Dadaş bir az etibarsız çıxıb. Yoxsa bir dəstə güllə qəbir üstə gedib kişini yad eləmək nə böyük iş idi. Bu hər bir övladın borcudur. Ölü, diri fərqi yoxdu. Ümumiyyətlə, həyatda valideyni unutmaq yaxşı deyildi. Əmiraslan kişi bunu Dadaşa öyrətmək, həm də belə-belə şeyləri ona vərdiş elətdirmək üçün dedi:

– Gəlsənə gedək kişinin üstə. Allah rəhmət eləsin, yaxşı kişi idi, ruhu şad olar. Həm də bu gün cümə axşamıdır.

Bu da nə desin. Evdən başqa məqsədlə çıxmış olsa da və bəlkə, daha «vacib» yerə tələssə də, razılaşmalı idi.

– Gedək, – deyə kişinin yanına düşdü.

Bir azdan onlar üzü yuxarı küçə ilə gedib qəbiristanlığa çatdılar. Sükutla dayanmış daşlara baxa-baxa gedirdilər. Amma nə o dillənirdi, nə də bu. Qəbiristanlığın zəhmi, kədəri elə bil bunları tutmuşdu. Axırı bir azca arxaya qalmış Əmiraslan kişi dilləndi.

– Hardadır, Dadaş, kişinin qəbri?

– Burda, orda, – deyə-deyə Dadaş bir az da gəzib dolandı. Aydın oldu ki, atasının qəbrinin yerini yanılıb. Harada basdırıldığını unudub. Vay! Vay! Bu da oğul. Bu da övlad. Dünyada heç kəsə etibar yoxdur. Hər şey elə bil vəfasızlıq üzərində qurulub. Bu dərdi kimə deyəsən, kimə söyləyəsən?! Bəs belə də iş

olarmı? Məmmədağa min cür əzab-əziyyətə dözərək elə bundan ötrümü onu böyütmüşdü, ərsiyə çatdırmışdı?!

Əmiraslan kişinin yaxşı yadında idi. Məmmədağa Dadaşı musiqi məktəbinə necə çətinliklə düzəltmişdi. Doğrudur, uşağın özünün buna həvəsi vardı. Atası onun üçün tar almışdı. Görürdün evdə çalır. Səsi küçəyə gəlirdi. Bilsin ki, odur, Məmmədağa iftixarından, qürurundan dayana bilməyib:

– Dadaşdır, – deyirdi, – eşidirsinizmi, pis çalmır. Uşağın musiqiyə çox həvəsi var.

İkinci bir tərəfdən müəllim tutub hazırlaşdırmışdı. Sonra nə qədər xahiş, minnət eləmişdi. Bunun üçün tanış, biliş tapmışdı. Çünki o vaxtlar musiqi məktəbinə düşmək çox çətin idi. Axırı ki, Məmmədağa arzusuna çatmışdı. Bax, kişi elə sevinirdi ki, bilmirdi nə etsin. Varından-yoxundan çıxmağa hazır idi. Dadaş qəbul olunma kağızını alan günü bir qonaqlıq düzəltmişdi ki, gəl görəsən. Əmiraslan kişini də çağırmışdı. Orda məlum olmuşdu ki, Məmmədağanın oğlu Dadaş skripka sinfinə daxil olub. Əmiraslan kişi soruşmuşdu ki, ay Məmmədağa, bəs niyə tara, kamançaya qoymadın, aparıb o nədir, hə, skripkaya qoydun. Bu da çox böyük bir şeynən, təntənə və fəxrlə demişdi ki, Əmiraslan, mənim də fikrim elə idi, ancaq orda komissiya üzvləri məsləhət gördülər ki, uşaq çox talantlıdır, çox yaxşı, qeyri-adi «sluxu» var, ona görə gəlin razılaşın bunu skripkaya qoyaq. Mən də «Nə qayırım? Neynim?» – fikrə gedəndə içərilərində bir uzunsaçlısı vardı, qayıdıb mənə dedi ki, bax, tarçalanımız da var, kamançaçalanımız da. Hələ heç qarmonu demirəm. Amma... skripkaçalanımız azdır. Niyə olmasın. Hə? Niyə? İstedadlı uşaqdır, qoyaq bunu skripkaya, həm də özüm məşğul olacağam. Söz verirəm ki, ondan yaxşı bir skripkaçalan yetişdirəcəm. Gördüm kişi düz deyir, mən də razılaşdım.

Əmiraslan kişi də fəhlə adam idi. Tarı, kamançanı başa düşürdü. Bilirdi nə olan şeylərdi. Onların səsi gələndə kişi getdiyi yerdə dayanırdı, az qalırdı ürəyinin başını tara, kamançaya sürtsün. Amma bu skripkanın nə olduğunu, düzü, o qədər başa düşmürdü. Fikirləşirdi ki, hə daa, nə təfavütü var. Birini dizin üstünə qoyub çalırsan, o birini döşünə basırsan.

İstər evlərinin cinahında, lap beş-on addımlıqda olan orta məktəbdə, istərsə də musiqi məktəbində, sonra da konservatoriyada oxuyanda Dadaş heç bir şeydən korluq çəkməmişdi. Əyni-başı həmişə təzə olmuş, həmişə də dəbnən geyinmişdi. Yeni nə çıxmışdısa, elə hesab eləyin ki, birinci Dadaşın əynində görünmüşdü.

Belə hesab edək ki, bunların hamısı çox yaxşı. Ancaq məsələ bunda deyil. Axı sonra ailə başçısı olmaq, xeyrini-şərini başa düşmək ayrı şeydir. Kişini götürüb aparıb basdırıb qayıdanadək Əmiraslan kişi bu barədə düşünmüşdü. Dadaşın qayğısına qalmışdı. Amma burası vardı ki, qohum-əqrəbası var idi. Kişinin

sağlığında gəlib-gedirdilər. İndi hamısı tökülüşmüşdü. Hərəsi bir işdən yapışmışdı. Arada oğlanın özünə də qayğı göstərirdilər. Dəfndə təzə qohumlar da iştirak edirdilər. Bax, bütün bunları görüb Əmiraslan kişi, nəhayət, rahat oldu, nigarançılığı getdi. Öz-özünə – nə olsun, – dedi, – ata yoxdursa, qohum-əqrəba var. Onlar hər halda Dadaşa həyan olarlar?! Bax, o vaxtlar Əmiraslan kişinin ümid etdiyi, köməklərinə arxayın olduğu adamların indi bircəciyi də yox idi. Kişi təzə ölən vaxtları gəldilər-getdilər, evdə böyük olmadığı üçün biri belə dartdı, biri elə dartdı. Xüsusilə təzə qohumlar nəyə görə isə gecə-gündüz bunun evindən çıxmadılar. Başa düşmək olmurdu ki, niyyətləri nədir. Sonra da oğlanın adamları ilə qızın adamları arasında dava düşdü, narazılıq oldu. Axırı ki, hər iki tərəf milçək şirniyə yığılan kimi gəlhagəl, gethaget qurtarandan sonra elə dağılışdılar ki, bircəciyi də qalmadı. Dadaşın ağlı əzəldən də az idi, indi də bunlarla gecə-gündüz yeyib-içib tamam zay olub getdi. İndi deynən bununla maraqlanan vardımı?! İndi deynən bunun qapısını tanıyan vardımı?! Daha bağda ərik qurtarmış, «salam-məlik» də qurtarmışdı. Dadaşın özünün ağlı da yox idi ki, heç olmasa onların acığına içkinin daşını ata, birdəfəlik bu zəhrimarı dilinə vurmaya. Əmiraslan kişi bax, o vaxt da bunun qeydinə qalmışdı, indi də onun fikrini çəkirdi. Ona heç nə lazım deyildi. Allaha şükür, özünün hər şeyi vardı. Əmiraslan kişi bircə onun ölüsü idi ki, Dadaş adam olsun.

Əmiraslan kişi bu qədər yaşamışdı, amma hələ elə bir iş, elə bir məsələ olmamışdı ki, o, bununla maraqlansın, yaxşı mənada əl qatmaq istəsin, onun düzəlməsinə, qaydasına düşməsinə çalışsın, ancaq bacarmasın. Bax, elə bir vəzifə sahibi olmasa da, nəyə əl qoyurdu düzəlirdi. Ən çətin, ən dolaşıq iş olsa da, bu kişi ki, əl buladı, qurtardı. Bunu ailəsi də bilirdi. Qonum-qonşular da bilirdilər ki, Əmiraslan kişi xeyirxah adamdır, ayağı yüngüldür. Ona görə məhəllədə xeyir iş olanda bir ağsaqqal kimi, Əmiraslan kişi mütləq iştirak edərdi. Görərdin hər bir iş də ev sahibinin də, ümumiyyətin də ürəyincə oldu. Bu barədə söz düşəndə, onun ayağının yüngüllüyünün səbəbini izah eləmək, bilmək istəyən olanda özü gülümsəyərək çox şən əhvalla belə deyərdi: «Burda elə bir şey yoxdur, ay uşaqlar, bircə budur ki, ürəyin təmiz olsun, hər bir şeyə sidqi-ürəknən, təmiz qəlbnən yanaş, onda hər bir iş yaxşı olar». Həm də öz evində də, qonşularda da, ümumi məhəllədə, lap elə bütün şəhərdə işlər düz olanda, adamların işində, hərəkətlərində bir əngəl, bir əyər-əskik olmayanda, Əmiraslan kişi şad olurdu, özünü yaxşı hiss edirdi. Ona görə də hər bir yaxşı işə əl uzadırdı. Bax, küçədə, qarda, yağışda birinin ayağı sürüşüb, ya da burxulub yıxılmaq dərəcəsinə gəldimi, necə olur-olsun özünü birinci bu yetirərdi. Birinə təcili bir şey lazım oldumu, bu yüyürərdi. Hələ elə hal olmamışdı ki, Əmiraslan kişi kiminsə xeyrindən, şərindən kənarda qalsın, orada iştirak eləməsin. Bu, o qədər həssas, diqqətli adam idi ki, yaşının bu ahıl vaxtında da uşağa, böyüyə əlindən gələn hörməti etməyə çalışırdı.

Tramvayda, avtobusda, trolleybusda bir qoca, bir əliuşaqlı mindimi bu daha heç kimi gözləməyib cəld ayağa durardı, hamıdan qabaq birinci bu yer verərdi. Guya, özü hələ cavandır. Hətta bunu ona bir dəfə arvadı irad tutmuşdu.

– A kişi, – demişdi, – sən də qəribə adamsan. Böyründə, başında cavanlar dura-dura sən niyə qalxırsan? Sənin ayaq üstə duran vaxtındır?

– Nə edim?! Özümdən asılı deyil. Uşaqlıqdan buna adət etmişəm. Bir də nə fərqi var?! Biri durmalıdır, mən dururam.

– Yox axı, bu yaşda...

– Ondan heç nə olmaz, ay arvad, – deyə Əmiraslan kişi əlini yellədi. – Bir yerdə oturmaqdan kim xeyir tapıb ki, mən də tapam?! Hərəkət etmək yaxşıdır. Bir də gərək öyrədək də. Cavanlarımız görüb-götürərlər.

Əmiraslan kişi üçün həyatda mümkün olmayan şey yox idi. Onun əqidəsi belə idi ki, el, dil, ağıl olan yerdə hər şey eləmək olardı. O bu üç şeyi ümdə sayırdı. Bunların da əsasında ağıl dururdu. Demək, ağlın varsa, elin yaxşı-yaxşı işlər görəcək, dilin də gözəl sözlər danışacaq. Bax, bu ağılnan, dilin dediyi gözəl sözlərlə Əmiraslan kişi Dadaşı tərbiyə eləmək istəyirdi. Amma onun atasının qəbrinin yerini də unutduğunu görəndə, o, çox pis oldu. Ona elə gəldi ki, bu oğlanda müqəddəs, yaxşı heç bir şey qalmayıb. İçki onun hislərinin hamısını öldürüb, məhv eləyib.

O qədər əsəbiləşdi, Dadaşa o qədər acığı tutdu ki, tüpürüb getmək istədi. Qoy rədd olsun! Bununla bərabər yenə də yazığı gəldi, canı yandı ona. Fikirləşdi ki, Dadaş tamam məhv olmayıb, ona kömək etmək olar. Çünki gördü ki, atasının qəbrini tapmadığından oğlan möhkəm pərt olub. Az qalır özünü qəbir daşlarına çırpsın. Əmiraslan kişi gördü Dadaş əldən düşdü, axırı dedi:

– Adə, yaxşı, özünü yorma, kişini bura basdırmısansa, burda olar. Hara gedəsidir?!

Dadaş xəcalətli-xəcalətli dayandı. Daha nə edəsi idi?

Əmiraslan kişi axşam evdə də o barədə fikirləşdi. Fikirləşdi ki, kişinin qəbrinin yerini kimdən öyrənmək olar? Öyrənə bilsə, Dadaşı aparıb göstərərdi və çox ciddi tapşırardı ki, bax, atanın qəbri budur, yaxşı yadında saxla, o zəhrimarı da içmə, görürsənmi adamı nə günə salır... Ancaq bunu kimə desin? Necə desin ki, oğlu yanılıb. Dadaş üçün eyib olardı. Uşaq utanardı. Bəlkə, özü sabah gedib axtarsın, bəlkə...

Düzü, eşiyə çıxılası hava deyildi. Bakının küləyi adam yıxırdı. Xəzrimi əsirdi, yoxsa gilavarmı, əvvəl-əvvəl müəyyən etmək çətindi. Hər tərəfdən vururdu. Küçələrdəki, həyətlərdəki ağaclar heç bilmirdilər hansı tərəfə yıxılsınlar. Yazıqların başı gah belə əyilirdi, gah elə. Bloklarının ağzında dayanıb həyət-bacaya tamaşa edən Əmiraslan kişi küləyin nəfəsinin soyuqluğundan hiss etdi ki, xəzridir. Bax, bunu yayın cırhacırında, arvad-uşağın xəfədən təntişdiyi vaxtlarda axtarırsan,

gözlə ki gəlib çıxacaq. Bilmirsən harada ilişib qalıb. Amma indi... gör necə də əsir. Ağacların yarpaqları bir-birinə dəyib elə xışıltı qoparır ki, deyirsən şəhərdən çay axır. Saplaqları möhkəm olub budaqlarda hələ qalmaq imkanları olsa da, dəli külək onların qoparaqlarını götürüb zor-xoş xışma-xışma yerə tökür, həyətdə tağalaq təki fırladıb oynadır, sonra da asfaltın üstünə salıb qovurdu. Qəsdi-qərəzi nə idi, başa düşmək olmurdu. Belə çətin havalarda Əmiraslan kişinin ağaclara yazığı gələrdi. Bilirdi ki, bu əsib-çarpmada onlara nəsə bir ziyan dəyəcək: hansı ağacın isə qol-budağını sındıracaq, birini tamam böyrü üstə yıxacaq. Digərinin yarpaqlarını büsbütün töküb keçəl eliyəcək. Xülasə, bu tufan, bu qasırğa ağaclara nəsə bir bədbəxtlik gətirəcək. Əmiraslan kişi həmişə ağacların içində olmuşdu, həmişə onlarla yaşamışdı. Ona görə belə şeylərə qarşı çox həssas, çox diqqətli idi. Bütün həyatı boyu şəhər yaşıllaşdırma idarəsinin adicə fəhləsi olmuş bu kişi Bakıda, bəlkə də, hər ağacın tarixçəsini bilirdi. Hansı park nə vaxt salınıb? Filan küçə nə vaxt yaşıllaşdırılıb? Hansı ağac haradan gətirilib? Filan ağacın neçə yaşı var? Onların çoxunu Əmiraslan kişi özü əkib yetirmişdi. Bapbalaca bir çubuğu yekəldib-yekəldib dörd-beş mərtəbəli bina hündürlükdə eləmişdi. Sözsüz ki, zəhmətsiz başa gəlməmişdi. Hər bir körpə çubuq üçün əziyyət çəkmiş, can qoymuşdu. Bunların əkilməsi, onlara qulluq göstərilməsi, ildən-ilə diblərinin boşaldılması, vaxtlı-vaxtında suvarılması az qayğı deyildi. Yalnız elə otuz-qırx metrlik yoğun, qara rezin şlanqı sürüyərək bu ağacdan o ağaca, o ağacdan bu ağaca aparmaq ən çətin işə bərabər idi. Əmiraslan kişinin qolları qırılırdı. Onu halqavarı düzəldib çiyninə götürürdü. Belə bir ağır şeyi parkın bu başından o başına aparırdı. Ancaq elə ki bir kolun, bir ağacın dibinə su gəlib qurta-qurtla töküldü, onun canından yorğunluq çıxırdı. Yayın quraqlıq vaxtlarında ağaca su verəndə elə bil özü içirdi. Yediyi-içdiyi canına yaxşı sinirdi. Sudan, torpaqdan bir əyər-əskikləri olmayan, korluq çəkməyən ağacların kefi kök olanda, bunun da kefi kök olurdu.

– Hə-ə, bu yayı pis keçirmədik, – deyə təsərrüfat işlərinin yaxşı getməsindən sevinib başlayırdı ağaclarla danışmağa. Sakit havalarda ağaclar elə səssizcə dayanırdılar ki, elə bil daim onlara can yandıran, onlardan ötrü min bir cür əzab-əziyyətə qatlaşan, bu işdə nə qədər çətinlik çəkən bu əməkçi insana diqqət kəsilib qulaq asırdılar. Hər bir sözünü, məsləhətini yadlarında saxlayırdılar. Onun qayğısını, nəvazişini, mehribanlığını hiss edirdilər. Buna Əmiraslan kişi tam inanırdı. O, ağaclara adamı başa düşən, anlayan, son dərəcə həssas olan bir canlı varlıq kimi baxırdı. «Belə olmasaydı, – deyirdi, – ağaclar al qırmızı, sarı meyvələr gətirərmi?! Dibinə, dövrəsinə kölgə salıb insanı günün iti şüalarından qoruyarmı?! Ən isti havalarda adamın canına xoş bir sərinlik gətirərmi?! Havada meh olanda yarpaqları xışıl-xışıl xışıldaşıb insanlar üçün xoş nəğmələr oxuyarmı?! İnsanlara soyuq olanda, qocalar, körpələr şaxtadan üşüyəndə bu ağaclar

odun olub, od olub özünü yandırarmı?!» Əmiraslan kişi bütün bunları ağacların insanlara etdiyi təşəkkürü, minnətdarlığı hesab edirdi. Belə düşünürdü ki, ağaclar heç vaxt əmək itirən olmurlar. Onlar çəkilən zəhmətin, yaxşılığın, xeyirxahlığın əvəzini birə-beş qaytarırdı. İnsanlar qarşısında heç vaxt borclu qalmırlar. Hər yerdə, hər şəkildə gərək olurlar. Cəmi yaşıllığa, bitki aləminə bu nəzərlə baxan Əmiraslan kişi bağda-bağçada işləyəndə kiçicik bir gülün, çiçəyin də ömrünü uzatmaq üçün əlindən gələni edirdi. Ya təzə, ya da köhnədən əkilmiş bir balaca kol, bir ağac rəngindən, ruhundan solğun, nəsə kefsiz göründümü, Əmiraslan kişi o dəqiqə bu barədə bildiyini, təcrübəsini, səriştəsini işə salırdı. Cücü-mücüdən qorumaq üçün gövdəsinə «dava-dərman»mı çəkirdi, gübrəmi verirdi, sumu verirdi. Beləcə hər bir şey edib diriltməmiş əl çəkmirdi. Bundan sonra kişi özünə gəlirdi.

İndi bu gün ürəyinə saldığı bir fikirdən evdə dayana bilməyib küçəyə çıxmış olsa da, havanın pisliyindən az qaldı blokun ağzından geri qayıtsın. Çünki daha keçmiş vaxtları deyildi. Canı cövhərli olub əli-ayağı yaxşı tutanda bundan da dəhşətli tufanlı günlərdə işlədiyi parkda, bağda olar, ağacların arasında hərlənər, hər bir ağaca, kola göz yetirər, əsib-coşan küləyə tablaşmayan biri bir balaca əyildimi, yıxıldımı tez onun köməyinə çatardı. Gətirib ona dayaq qoyardı. İplə, kəndirlə çəkib, onu başqa bir möhkəm ağaca bağlayardı. Elə eliyərdi ki, heç biri tələf olmasın, itib-batmasın. Sonra da çəkilib bağdakı çardağının ağzında oturar, ağaclara baxardı. Görərdi ki, elə hamısı bir-birlərinə ya gövdələrilə, ya da qol-budaqları ilə, ya da elə onun qoyduğu dayaqlarla mətərislənib-söykənib ayaq üstə dayanıblar, yaşayırlar. İnsanların dilsiz-ağızsız hesab elədikləri bu ağaclara baxanda Əmiraslan kişinin ürəyinə gələrdi ki, kaş adamlar da, bax, bu ağaclar təki həmişə bir-birlərinə dayaq olalar, söykək duralar. Onda başları da bu ağaclar kimi el yanında, oba yanında həmişə dik olar. Bu becərdiyi, gördüyü yaşıl aləm onda nə qədər belə təmiz, ülvi fikirlər oyadar, yeri gələndə, bunları parka gəzməyə gələn adamlara da deyərdi. Bir dəfə görmüşdü iki oğlan dalaşır. Tez yüyürüb aralamışdı. Bilməmişdi bu cavanları ağıl-başa necə gətirsin. Araya su səpmək üçün təntik halda:

– Adə, adə, – demişdi, – sizdən ötrü eyib deyilmi?! Bir dönüb yan-yörənizə baxsanız. Görün bu ağaclar heç dalaşırlarmı? Hamısı durub yerində. Sakitcə, rahat. Özünüzü də şüurlu hesab edirsiniz. Bu ağaclar qədər də yoxsunuz.

Əmiraslan kişi elə demişdi ki, cavanlar yan-yörəyə baxa-baxa qalmışdılar. Öz aralarındakı ziddiyyət çevrəsindən çıxıb əlində bel dayanmış bu kişinin dediyi sözlər barədə fikirləşmişdilər. Ağıllarına batmışdı, batmamışdı, demək çətindi. Ancaq daha savaşmamışdılar. Bir də kişinin sözlərindən heç nə anlamamışdılar. Onlara elə gəlmişdi ki, bunun başı çatmır. Amma «dəlidən doğru xəbər» buna deyərlər. Əmiraslan kişi isə belə işlərə əhəmiyyət verən deyildi. Kim nə deyir desin, əsas bu idi ki, pis şeylər olmasın, qan qaralmasın.

Burası vardı ki, Əmiraslan kişi belə havalara öyrəşmişdi və haradasa xoşuna gəlirdi. «Hərəkətdir, tərpənişdir, – deyirdi, – ola bilməz ki, ağaclar bütün ömürləri boyu yerlərindən qımıldanmadan dayansınlar. Onlar da bir oyana-buyana əyilib qalxmalı, bərk-boşa düşməlidirlər ki, ayaq üstə dayana bilsinlər. Hərəkətsizlikdən yoxsa xarab olarlar, çətinliyə dözməzlər». Əmiraslan kişi küləkli havalara bu cür baxır, yeri gələndə, söhbət düşəndə bunun da lazımlılığını, gərəkliliyini söyləyirdi. Bunu həm də insan həyatına tətbiq edir, onun da əyilib qalxmamasının, düz gedib-gəlməsinin əleyhinə çıxırdı. Belələrinə lağla «ver yeyim, ört yatım, gözlə canım çıxmasın», – deyirdi. Bu cür fikirdə, əqidədə olan adam evdə oturardımı. Lap bağlasan da, durmazdı. Odur ki, küləyə, tufana baxmayıb tərpəndi. Külək gah qabaq tərəfdən vurub onu döşündən geri itələyir, gah da arxadan əsib qabağına salaraq çox yüngülcə aparırdı. Əslində, bu, külək üçün yüngül olurdu. Ancaq Əmiraslan kişi üçün çox ağır idi. Az qalırdı ayaqları dolaşıb yıxılsın. Lap bir az da özünə güc versə, onu havaya qaldıra bilərdi. Belə çətinliyə baxmayaraq, bu kişi gəldi çıxdı qəbiristanlığa. Axirət dünyasına. Gördü ümumi giriş qapısına yaxın, küləkdən qəbir daşlarının arasına girib ölülərinə quran oxutdurmaq üçün adam gözləyən əli əsalı bir qoca var. Ən əvvəl ona yaxınlaşıb bir üçlük verdi və xahiş etdi ki, burada yatan adamlar üçün – yəni bütün əhli qəbiristan üçün bir quran oxusun. Hə-ə. Bəlkə, bu, Məmmədağanın ruhuna əyan oldu. Çünki bütün ölülər üçün oxutdurmuş olsa da, hər halda Məmmədağaya da çatardı... Bilərdi ki, xüsusi olaraq ondan ötrü gəlib. Onu yad eləməyə gəlib. Bunu Məmmədağanın özü görməsə də, ruhu görməmiş deyildi. Əmiraslan kişi bu fikirdə idi. Ruh haqqında çox eşitmişdi, nə dərəcədə doğru olub-olmadığını və nə şəkildə olduğunu deyə bilməzdi. Ancaq onu bilirdi ki, gözə görünmürlər. Başdaşları gözə görünür, budur, bax, biri böyük, biri balaca, biri qara, biri ağ, biri mərmər, biri adicə daş, yaxud ağac... hamısı göz qabağındaca dayanıb. Amma ruhlar görünmür.

Molla Əmiraslan kişinin xahişini yerinə yetirib qurtardı.

– Sağ ol, – deyə Əmiraslan kişi də işinin ardınca getdi. Yəni başladı Məmmədağanın qəbrini axtarmağa. O daşın üstünü oxuyurdu. Alı, Vəli, Pirvəli, Habil, Qabil, Məmməd, Qasım, Vaqif. Belə-belə uzanıb gedirdi. Bir idimi, beş idimi, yüz idimi, min idimi... köhnə təzəyə qarışıb, təzə köhnəyə qarışıb. Heç bilmirdi Məmmədağanın qəbrinin üstünü götürüblər, ya yox? Gərək oğlundan soruşaydım. Onda tapmaq bir az asan olardı.

Bir qəbrin üstünü oxuyanda gördü Məmmədağa yazılıb. Kişi sevindi ki, tapdım. Şəklinə diqqətlə baxanda isə gördü o deyil. Ayrı Məmmədağadır. Sonra yenə daşların arası ilə baxa-baxa getdi. Və ara-sıra tanışlara rast oldu. Filankəs bir. Filankəs iki. Kəblə Kazım da burda idi. Məşədi Fatmaya da rast oldu. Qırçı Qulam lap yola yaxın idi. Aləmi qırrıya-qırrıya axırı bura gəlib çıxmışdı. Sonra

bir Məmmədağaya da rast oldu. Bunun şəkli yox idi. Amma atasının adı düz gəlmirdi. Eh! Burda o qədər Məmmədağa var ki, nə biləsən hansının qəbridir. Makedoniyalı İsgəndərin anası kimi indi durub çağırasan: «Ay İsgəndər! Ay İsgəndər». Neçə İsgəndər çıxmışdı arvadın qabağına. Bu da demişdi, mən oğlum İsgəndəri çağırıram.

Əmiraslan kişi də deyərdi: «Ay Məmmədağa! Ay Məmmədağa!»

Görərdin neçə Məmmədağa çıxır yerin altından. O deyir: bəli. Bu deyir: bəli. Bu deyərdi mənə Dadaşın atası Məmmədağa lazımdır. Əmiraslan kişi Məmmədağanı heç belə axtarmamışdı. Onu həyətdə, küçədə rast gələndən-gələnə görmüşdü. Yoxsa xüsusi olaraq onunla oturub-durmamışdı. Bir həyətdə, bir binada yaşasalar da, işləri-gücləri ayrı olmuşdu. Ona görə də bir-birlərinə belə vacib lazım olmamışdılar. Əslində, Məmmədağa onun üçün indi də lazım deyildi. Sağlığında lazım olmamışdı, ölüsü nəyə gərək idi. Bunu o, Dadaşa görə axtarırdı. Başa salmaq istəyirdi ki, başını dumanlandırıb gəzirsən, ancaq onu bil ki, valideyni unutmaq olmaz. O isə tapılmırdı. Axırı ümumi gərginlik kişini darıxdırdı və dözə bilməyib üzünü qəbir daşlarına tutaraq dəli təki: «Hardasan, ay rəhmətlik?» – dedi və cavabında bir səs-ün eşitməyib kor-peşman geri, evinə qayıtdı.

Həyətlərində beş-on ağac var idi. Bəzisini bunlar basdırmışdılar. Bəzisi isə köhnə məhəllənin adamlarından qalmışdı. Təzə əkilənlərə qulluq edirdilər. Diblərini boşaldırdılar, hərdən su verirdilər. Amma köhnələrə fikir verən yox idi. Belə ki onlar köhnə ağaclar idi. Özlərini tutmuşdular. Daha doğrusu, kökləri dərinə işləmişdi. Həqiqətən, sən deyən qorxuları yox idi. Yalnız bir məsələ vardı ki, uşaqlar onlara ziyan vururdular. Bir heyva ağacı vardı, yaz gəlib ağaclar yarpaqlananda, mayın əvvəllərində bu elə ağ-ağ çiçəklər açardı ki, adam baxanda xoşu gələrdi. Həmin ağacın bir budağının üstə çıxıb o qədər yellənmişdilər ki, lap aşağı əyilmişdi. Budaq az qalırdı ki, gövdəsindən ayrılsın. Əmiraslan kişi uşaqları qovmaqdan yorulmuşdu, amma onlar bu işi etməkdən yorulmamışdılar. İndi də həyətinə gələndə gördü yenə heyva ağacının üstündədirlər. Belə ki külək bir az yatmışdı. İçəridə dura bilərdi. Acığının, qəzəbinin bu cür daşdığı, hövsələsinin daraldığı vaxtda gördü qonşusu Həsdi müəllim bir az o yanda gəzişir. Uşaqlar burda ağacı sındırırlar, o isə orda əli belində kefnən gəzir. Bəs belə də iş olar?! Həsdi müəllimlə onlar bir binada yaşayırdılar. Blokdan dik çıxanda Əmiraslan kişi onun mənzilinin qabağından keçirdi. Əmiraslan kişinin evinin qapısı adicə taxta qapı idi. Dövlət nə qoymuşdusa o idi. Vaxtilə Həsdi müəllimin qapısı da elə idi. Amma indi bir dəmir qapı saldırmışdı ki, seyf təki az qala yüz yerdən qıfıllanırdı.

Onlar bura köçən vaxtları bu Həsdi müəllim orta məktəbdə işləyirdi. Kimya müəllimi idi. Sonra necə elədisə texnikuma keçdi. Tibb bacıları hazırlayan texnikumların birində dərs deməyə başladı. Əmiraslan kişi də o vaxtları Həsdi müəl-

limi görüb həm təbrik eləmiş, həm də demişdi ki, ay Həsdi müəllim, dərs dərsdir, nə təfavütü var, daha köhnə iş yerini dəyişməyin mənası nə idi? Ora üzün-gözün öyrəşmişdi, onun üçün deyirəm.

– Baxma, ora böyük məktəbdir, – deyə Həsdi müəllim qonşusunun qarşısında özünü hikkəli tutmuşdu.

– Olar. Olar, – deyə Əmiraslan kişi də sözü daha uzatmamışdı. Sonra görmüşdü ki, Həsdi müəllimin təzə iş yeri, həqiqətən, böyük imiş. Çünki ora necə böyük idisə, Həsdi müəllim özü də get-gedə böyüməyə-şişməyə başladı. Məvacib nə qədər idi bilmirdi, ancaq bax, gündə bir şey alırdı. Bahalı mebel, maşın, cürbəcür əyin-baş. Qabaqlar qıxmıx tapmırdı qartdanmağa. Amma indi gedib fin hamamında çimirdi. Saunadı, nədi, onda çimirdi. Elə-belə hamamda çimməkdən xoşu gəlmirdi. Halbuki bu yaxınlaradək Sovet küçəsindəki hamama gedərdi. Əşi, hansı hamamda çimir, çimsin, Əmiraslan kişinin işi yox idi. Su sudur, nə təfavütü var. Amma gözünün qabağında ağacı sındırırdılar, bu kişi ağzını açıb uşaqlara acıqlanmırdı. Ya görmürdü, ya da... Daha bunu Əmiraslan kişi başqa cür düşünmədi. Fikirləşdi ki, belə də laqeydlik olar? Qonşusu Həsdi müəllim incisə də, Əmiraslan kişi ağzını doldurdu ki, buna görə onu tənbehləsin, gördü Dadaş hardansa gəlir. Yerişindən hiss olunurdu ki, başı yenə dumanlıdır. Bu, Əmiraslan kişiyə o qədər pis təsir etdi ki, hər şey yadından çıxdı. Həsdi müəllim də, uşaqlar da, bu ara eşitdilər ki, nəsə birdən «xırıt» elədi. Əmiraslan kişi səksənmiş çiyni üstə dönəndə gördü ağacın budağı yerdədir. Gövdəsindən necə ayrılıbsa, bütüncə üzü aşağı düşüb. Uşaqlar da onun qorxusundan şax-şəvərin arasından çıxıb qaçışırlar. Əmiraslan kişi istədi: «A köpək uşağı!» – deyə bu balaca vələdaznaların ardınca düşsün. Ancaq nə mənası vardı? İş işdən keçmişdi. Bir də vələdəznalıq eliyən təkcə onlar idimi?! Böyüklərin vələdaznalığı onlarınkından da betər idi. Heç kəsə heç nə edə bilməyəcəyini yəqinləşdirib tamam ruhdan düşdü.

– Adə, bunlar adamı dəli eliyərlər, – deyə fikirdən balacalaşmış, kiçilmiş bir vəziyyətdə çıxıb evinə gəldi. And içmişdi ki, daha bundan sonra heç nə ilə, heç kəslə maraqlanmayacaq. Nəyinə lazımdır?! Allahvara ağacları kökündən çıxartsınlar. Allahvara Məmmədağanın oğlu Dadaş araq-çaxır çəlləyinə düşsün. Allahvara özünü dörd-beş mərtəbədən atsın. Nəyinə lazımdır. Hər kəs öz dərdini çəksə, yaxşı deyilmi?!

Həqiqətən, Əmiraslan kişi hər şeyə tüpürmüşdü. Çünki bacarmırdı. Hamı öz beynindəkini çağırırdı. Ağıllı sözə qulaq asan yox idi ki, deyəsən elə deyil, belədir. Ona görə heç kəslə maraqlanmadı. Təqaüdə çıxmış adam idi. Pulu cibində, ağlı da başında. Evdəcə arxayın oturub olanından yeyib-içir, televizora baxır, kefi istəyəndə də çıxıb həyətdə, küçədə gəzirdi. Daha heç kəsə əhəmiyyət vermirdi. Xüsusilə qonşu evə nəzər salmırdı. Onları görmək istəmirdi. Nə Dadaşı, nə də gəlini. Qoy cəhənnəm olsunlar, görəndə əsəbiləşirdi. Amma burası vardı

ki, qapıbir qonşu idilər. Necə olsa rastlaşacaqdılar. Həqiqətən, bir dəfə kişi yenə havaya çıxırdı. Gördü gəlin geyinib-kecinib harasa gedir. Bax, özünə bir bəzək-düzək verib ki, deyirsən ya toydur, ya teatrdır. Qaş, göz sürməli, kirpiklər nizəli. Yanaqlarına elə bil lalə ləçəyi yapışdırıblar. Xülasə, gəlin özünə əməllicə maya qoymuşdu. Əmiraslan kişi səliqə sevən adam idi. Xüsusilə qadın xeylağının özünə fikir verməsindən, səliqəli olmasından, gözəl görünməsindən xoşu gəlirdi. Ona görə də belə şeylərə pis baxmırdı. Amma bu bir az ağ eləmişdi. Məsələ bunda da deyildi. Əmiraslan kişi sadəcə olaraq, başa düşdü ki, belə arvad saxlamaq olmaz, bu ailənin axırı yoxdur, gec-tez dağılmalıdır. Bəlkə də, artıq gecdir, kimsə bu qızı yoldan çıxardıb. Bəlkə də, o layka pencəkli oğlana söz verib, bu gün-sabah qoşulub ona gedəcək. Çünki başqa cür mümkün deyildi. Dadaşın başı içkidən açılmırdı. Kişi yenə əsəbiləşdi, laqeyd qala bilmədi. Fikirləşdi ki, axı bu mənim qonşumdur, onun eyibi elə mənim eyibimdir.

– Nə öləsi köpəkoğludur, – deyə yandığından yenə onu söydü. Hər dəfə oğluna görə Məmmədağanı söyəndə özü də pis olurdu. Amma ürəyində kişinin ruhundan üzr istəyirdi ki, əşi, bağışla, əsəbiləşirəm, özümü saxlaya bilmirəm. Həm də özü-özünə təskinlik verirdi ki, söydüm-söydüm?! Ölülərə onsuz da heç nə olmur. Nə olur dirilərə olur. Budur, bax, o necə də əsəbiləşib. Dadaşa da bu söyüşdən heç nə olan deyil. Bax, o indi hardasa bu saat yeyib-içir, kef eləyir, dünyanı vecinə qoymur. Bu isə ona görə burada özünü yırtırdı.

«Bu yerdə əlimə keçə, vicdanım haqqı ayağımın altına allam» – belə deməyinə baxmayın Əmiraslan kişi elə eliyən deyildi. Əvvəla, o, başa düşmüşdü ki, buna onun səlahiyyəti çatmır. Nə olsun ki, bir binada, qonşuluqda yaşayırlar. Nə olsun ki, bir-birlərini tanıyırlar. Bu ona ixtiyar verirmi ki, başqasının işinə qarışsın. «Elə oturma, belə otur», – desin. Adamdan soruşmazlarmı ki, sən kimsən? Kim səni vəkil eləyib? Onda nə demək olar. Bunları Əmiraslan kişi yaxşı bilirdi.

Amma yenə də Dadaşa möhkəm acığı tutmuşdu.

Bir də gördü gəlin küçədə maşına minib harasa gedəndən sonra həyətdə dəli təki vurnuxub ondan-bunda soruşur:

– Adə, bu qonşunu görmədinizmi?

O birindən soruşur:

– Adə, bu qonşunu görmədinizmi?

Bilirdi ki, evdə yoxdur. Çünki gəlin qapını bağlayıb getmişdi.

– Kimi axtarırsan? Hansı qonşunu?

O qədər acığı gəlmişdi ki, adını da dilinə gətirmədi.

– Adə, bu mənim alkaş qonşumu axtarıram. Dadaşı.

Hamı təəccüb qaldı ki, bu hara, o hara? Tay-tuş deyillər. Bir-birlərinə gediş-gəlişləri yoxdur. İndiyədək onları heç bir yerdə birgə görən olmayıb. Cavanlardan birinin haradan ağlına gəldisə, qayıdıb nə desə yaxşıdı:

– Əmiraslan əmi, deyəsən, sən də başlamısan?

Əmiraslan kişi arif adam idi. Bildi ki, cavan oğlan haradan vurur, nəyə işarə edir. Bəlkə də, o zarafat edirdi. Hər halda cavan idi, sözünü bilməyib demişdi. Ancaq bunun yamanca acığı tutdu. Gör bir iş hara çatıb ki, bunu ona tay tuturlar. Bunu ona yoldaş eləyirlər. Əmiraslan kişi odlanıb dedi:

– Başlamışam. Niyə başlamışam?! Sizə halal olur, mənə haram?

– Təbrik. Təbrik, – cavanlar əllərini qaldırıb şən-şən səsləndilər.

Əmiraslan kişi gördü ki, onu acıqca doladılar. Daha da pis oldu. Amma üzə vurmamağa çalışdı. Çünki yaşadığı binanın adamlarına az-çox bələd idi. Bunlar da belə bir şey axtarırdılar. Birinin bir zəif damarını tutmağa çalışırdılar. Görsələr ki, Əmiraslan kişini cinlədə bilirlər, ayaqları yer alacaqdı. Hamı yalan olacaqdı, bu gerçək. Həqiqətən də, belə idi. İndi Əmiraslan kişi açılışıb sözün düzünü desəydi ki, bax, mən filankəsi filan məsələyə görə axtarıram, filan şeyin üstündə hirslənmişəm, hamısı ona gülərdi ki, kişinin başı xarab olub. Qocalıb, ağlı azalıb.

– A kişi, – deyərdilər. – Sən kimsən? Başqasının dərdi-azarı sənəmi qalıb? Bir də sən nə geri qalmış adamsan. Səndə hələ də feodalizm qalıqları var.

– Hə, var, – Əmiraslan kişi başını tərpədərək ürəyində acı-acı bu fikri təsdiq etdi. Əslində, bu, etiraz idi. İçəridən çox böyük acıqla, qəzəblə gələn bir etiraz dalğası idi. Yandığından əlacsız qalıb onu təsdiq formasında deyirdi. Axı bir para adamlar belə şeyləri niyə başa düşmürlər. Niyə başa düşmürlər ki, ailənin təmizliyi, adamların əhd-peymana, ilqara düz çıxması çox böyük işdir. Onda cəmiyyət gözəl görünür, saf olur. Əmiraslan kişi belə şeyə çox fikir verən adam idi. O bu hissi cavanlara həmişə təlqin etməyə çalışır, yeri düşəndə belə şeylərdə səhvlərini başa salardı. Həmişə belə olmuşdu. Eyy, lap cavan vaxtlarından cızığından çıxan, sözünü, hərəkətini bilməyən o qədər oğlana, qıza kömək etmişdi ki, indi ağlına salanda görürdü ki, öz əsas vəzifəsindən başqa bir aləm də özgə işlər görüb. Bu, bir yerə yazılmamış olsa da, hər halda bilən vardı ki, Əmiraslan kişi bu cür adam olub. Yıxılanın qolundan tutub, hardasa, kimi isə səhv yoldan döndərib. Bir dəfə gecə parkda qalmışdı. Onda Əmiraslan kişi dağüstü parkda işləyirdi. Gündüzlər su olmurdu. Gecələr isə gəlirdi. Bu da qalmışdı ki, gecə ağaclara bir az su versin. Əlində şlanq belədən-belə, elədən-elə sürüyüb yaxa boyu əkilmiş küknarlara su verirdi. Ağaclar da adamlar kimidir. Susuz qalanda onların da dili-dodağı yanır. Aydındır ki, vaxtlı-vaxtsız su verməsən, quruyub məhv olacaqlar. Ona görə də Əmiraslan kişi canına cəfa basıb bu başdan işini görürdü ki, sabah ayaq üstə ölmüş ağaclara baxıb təəssüflənməsin. Başı bu işə qarışmışdı ki, qulağına nəsə səs gəldi. Ağacların arasından boylananda gördü dörd nəfər qarşıdakı kolluğun arasında dayanıb. İki oğlan, iki qız. Əllərində sumka vardı, ondan nəsə çıxarıb yerə qoydular. Əmiraslan kişi bir az da diqqətlə baxdı. Süfrə açdıqları ona aydın oldu. Araq, çaxır ortaya qoyulanda kişi bu ca-

vanlara baxa-baxa başını buladı. Bildi ki, içki ortaya gəldi, demək, bunlar xoşagəlməz bir iş açacaqlar. Ya aralarında dava düşəcək, ya başqa bir hadisə baş verəcək. Odur ki tərəddüd eləmədi, şlanqı yerə atıb bunların üstə gəldi. Sən demə, bu cavanların başı özlərinə necə qarışıbmışsa, Əmiraslan kişinin burada olmasından heç xəbər tutmayıblar. Bu, çiynində bel qəfildən onların üstə çıxcaq tutuldular, ayaq üstəcə quruyub qaldılar.

– Yığışın! Yığışın! – Əmiraslan onlarla bişim-bişimlə danışmağı lazım bilmədi. Əlini yelləyərək buradan tez sürüşüb getmələrini bildirdi. Onlar əvvəlcə bir söz demədilər. Bir-birinin üzünə baxaraq vəziyyətdən necə çıxacaqları barədə fikirləşdilər. Nəhayət, oğlanlardan biri səsini çıxartdı.

– Nöşün yığışırıq, bəyəm mayovka keçirmək olmaz?!

Deyəsən, bu cavan oğlan bu boyda kişini xamlamaq istəyirdi. Daha demirdi ki, Əmiraslan kişi onlar kimisinin yüzünü suya aparıb susuz gətirər.

– Mayovkanı gündüz keçirərlər, gecə yox.

– Gör heç sözdür?! Biz keçiririk!

– Olmaz!

– Nöşün olmur?

– Olmaz daa, olmaz! – Əmiraslan kişi bir az da sərt danışdı. Bu başdan bildirdi ki, onun dediyi kimi olacaq. Söz güləşdirmək, artıq-əskik danışmaq lazım deyil. Bu ağacları ona görə əkməyib ki, buralarda sərxoşluq eliyələr, sonra da savaşalar, yüz cür hoqqa çıxaralar.

Cavanlar isə onu başa düşmədilər. Odur ki inadlarını yeritdilər.

– Əşi, sən kimsən?! Get işinin dalınca! – deyə indi də o biri oğlan qalın səslə danışıb özünü kobud apardı.

Əmiraslan kişi bildi ki, xoşluqla olmayacaq. Əlini uzadıb qolunun yanı ilə onu geri itələdi.

– Dedim olmaz. Çıxın gedin burdan. Yoxsa milis çağıracağam.

Hm. Bu ara oğlan əlini atıb cibindən bıçaq çıxartdı. Yəqin ki, qorxuzmaq istəyirdi. Əmiraslan kişi belə gözləmirdi. İndi çarəsiz qaldı. Həm də bu cür cavanların xasiyyətinə bələd idi. Öyüd, nəsihət eləsə, xahişə, minnətə keçsə, ayaqları yer alacaqdı. Onda gərək burada durmayaydı. İşini buraxıb çıxıb evinə gedəydi. Belə fikir eliyən Əmiraslan kişi bir az yerinin səmtini dəyişdi. Ayağının birini irəli, birini geri qoyub beli başının üstə qəfildən necə qaldırdısa:

– Adə, köpəkoğlu, – dedi. – Bıçağı at yerə! Yoxsa beynini əzərəm.

Oğlan başının üstündə qılınc təki dayanmış iri ağızlı belə baxıb-baxıb gözü qorxdu. Bıçağı tappıltı ilə yerə saldı. Əmiraslan da beli təzədən çiyninə qoydu. Amma bu bıçağı çıxaran oğlanın hərəkəti ona o qədər iyrənc, o qədər axmaq, o qədər alçaq görünmüşdüsə, kişi bilmirdi neynəsin. Necə eləsin ki, bunu ağılabaşa qoysun. Necə eləsin ki, bir də o belə qələt eləməsin. Başa düşsün ki, bu ona

xeyir verməz, belə işin-əməlin axırı pis qurtarar. Bu məqsədlə beli sol çiyninə keçirdi, saymazyana bir-iki addım irəli gəldi və qolunu boşaldıb sağ əlilə birdən bunun qulağının dibindən necə tutuzdurdusa, oğlanın başı gedib kolluğa girdi. Bax, özünü ağaca, kola çırpa-çırpa necə qaçdısa, daha dönüb arxasına baxmağa da təhəri olmadı. O biri də başını koldan güclə çıxarıb bu birinin ardınca getdi.

– Köpək uşağı! – Əmiraslan kişi ardlarınca söydü.

Qaldı qızlar. Bunlar ayaq üstəcə ölmüşdülər. Bağırları yarılmışdı. Titim-titim titrəşirdilər. Əmiraslan kişinin oğlanlara qarşı sərt, amansız olmasından, onlara divan tutmasından bunların gözü qorxmuşdu. Fikirləşirdilər ki, bu kişi onlara cəzamı verəcək? Söyəcəkmi? Döyəcəkmi? Əmiraslan kişi isə onların üzünə belə baxmaq istəmirdi. Başıboş, yüngül xasiyyətli qızlardan, qadınlardan zəhləsi gedirdi. Düzü, beləəri onun gözünün düşməni idi. İndi kişi qalmışdı nə etsin? Bəs bunlar nə düşünürlər, gecə vaxtı dələduzların yanına düşüb nəyə gəliblər? Bunların qorxuları, hürküləri yoxdurmu? Demirlərmi başımıza pis-pis işlər açarlar? Araq, çaxır düşkünü olan bu oğlanlardan bizə ziyan gələr. Arada-bərədə lap elə bir şey olmasa da, adlarına ləkə düşər. Bəs bunlar sabahları barəsində düşünmürlərmi? Bunların ailəsi, valideyni yoxdurmu? Onlar nə fikirləşirlər? Evdə necə rahat otura bilirlər, yata bilirlər? Narahat olmurlarmı ki, bunlar harada qaldılar? Bunlar evə qayıdanda nə deyəcəklər? Ata-analarının üzünə necə baxacaqlar? Sabah ərlərinə necə etibarlı olacaqlar? Bunlardan olan uşaqlar nə olacaq? Belə-belə Əmiraslan kişi özü-özünə o qədər sual verdi ki, başı bütüncə şişdi. Gördü suallarına cavab tapa bilmir, ağzının acısını indi də bunların üstünə tökdü.

– Siz də qabağıma düşün! İkinizi də milisə aparacağam.

Qızlar başladılar yalvara-yalvara ağlaşmağa.

– Əmican, qurban olaq sənə, əmican, bizi milisə aparma.

Əmiraslan kişi əhəmiyyət vermədi. Düşündü ki, bu ağlamaq, yalvarmaq onların köhnə peşələridir. Göz yaşları ovuclarının içindədir. Bir şey olcaq onu işə salırlar. Belə fikirləşib daha da hirsləndi. Sərt nəzərlərlə qızların üzünə baxa-baxa:

– Utanmazlar! – dedi.

Qızlar ağlaşa-ağlaşa başlarını aşağı saldılar. Qırıq-qırıq sözləri indi də eşidilirdi.

– Aldadıb gətirdilər. Bizdə təqsir yoxdur.

Əmiraslan kişini od götürdü. İstər-istəməz səsini ucaltdı:

– Ağlınız var, gözünüz var, niyə aldanırsınız?! İndi hansı zəmanədir?!

– Əmican, bu dəfə təqsirimizdən keç, nə olar, əmican.

Nə qədər sərt olsa da, Əmiraslan kişi bir o qədər də yumşaq adam idi. Bayaqdan qızların ağlamağına qıymırdı. Hər halda qız uşaqları idi. Bəlkə də, aldadıb gətiriblər. Yağlı dil töküblər, cürbəcür vədlər veriblər. Eşq-məhəbbət elan ediblər.

Bunlar da inanıblar. Belə-belə Əmiraslan kişi fikrini dəyişdi, qızların qayğısına qalmalı oldu. İndi bunlar evlərinə belə vaxtsız necə gedib çıxacaqlar? Bilmək olmaz, küçədə kefli adama rast olarlar. İşini də yarımçıq qoymaq istəmirdi. Ağaclar sudan yaman korluq çəkirdilər. Hələ may ayı olsa da, isti keçən havalarda qızmar günəş bəzi ağacların təzə-tər yarpaqlarını qarsalayıb yandırırdı. İmkan daxilində ağaclara indidən çoxlu su vermək lazım idi. Buna baxmayaraq, Əmiraslan kişi qızları evlərinə özü aparmağı qərarlaşdırdı.

– Harada yaşayırsınız? – dedi.

– Tarqovuda, – deyə qızlar yazıq-yazıq öz ünvanlarının səmtini bildirdilər.

O qədər də uzaq deyildi. Amma hər halda vaxt aparacaqdı. Başqa çarə yox idi.

– Di gəlin gedək, – Əmiraslan kişi başının hərəkəti ilə də «getmək» işarəsi verdi.

Qızlar hərəsi bir tərəfdən dilləndi.

– Əmican, biz özümüz gedərik.

– Yox, yox! – deyə Əmiraslan kişi razılaşmadı. Qızları evlərinə aparmaqda həm də məqsədi bu idi ki, valideynlərini görüb onlarla danışsın. Canım-gözüm, «belə olmaz», – desin.

Əmiraslan kişi işini-gücünü buraxıb qızları evinə gətirib çıxartdı. Sən demə, ikisi də bir binada, bir blokda yaşayırmış. Qızlar onun evədək gəlməsindən yaman nigaran idilər. Əvvəlcə elə bilirdilər ki, bunları həyətdəncə ötürüb geri qayıdacaqdır, sonra gördülər yox... Kişi bloka girib onların ardınca qalxır. Təzədən başladılar ağlaşa-ağlaşa yalvarmağa.

– Əmican, amandır, əmican, daha bir də qələt eləmərik, siz qayıdın.

– Qorxmayın, qorxmayın sizə söz gələn bir söz deməyəcəyəm. Yalnız tapşıracağam ki, uşaqlarınızdan muğayat olun.

Qızların gözü bu kişidən necə qorxmuşdusa, sözü uzatmadılar. Onun iradəsi xilafına bir şey eləsələr, daha pis hala, vəziyyətə düşəcəklərini düşünüb səslərini çıxartmadılar. Oğlanları nə günə saldı, hə. Onlara necə təpindisə, siçan deşiyini satın aldılar. Qaçıb canlarını güclə qurtardılar. Gör bunları nə hala sala bilərdi?! Ona görə dillənə bilmirdilər. Kişinin zəhmi onları basmışdı.

Birinci evin zəngi çalınanda qapını haçandan-haçana bir kişi açdı. Əynində bir tursikdən başqa heç nə yox idi. Döşü-başı tüklü olduğundan deyirdin ayıdır. Özü də qapıdan tutub ayaq üstə güclə dururdu. Gözləri axır, qıçları oyan-buyana əyilir. Sözünə baxmırdı. Əməllicə kefli idi. Ağzında dili dolaşa-dolaşa:

– Sizə kim lazımdır? Kimi istəyirsiniz? – deyə bildi.

Beləsinə nə deyəsən? Bununla nə danışmaq olardı? Ağlı başında olsa, bir-iki söz, məsləhət vermək mümkün idi. İçib özünü elə hala salmışdı ki, Əmiraslan kişi onu heç cür adam gözündə görə bilmədi. Üzünə tüpürmək istədi ki, bəs qızın orda-burda gəzir, özün də içib kef eləyirsən, sən də adını kişi qoymusan. Amma belə eləmədi.

– Tfu! – eləyib yerə tüpürdü. Tək-tənha geri qayıdanda bütün yol boyu bu içkinin hələ çox evlər yıxacağı barədə düşündü.

Əmiraslan kişi həyatda belə-belə çox şeylər görmüşdü. Bəzi-bəzi adamların etibarsızlığına, vəfalarına düz çıxmamalarına, əhd-peymanlarını unutduqlarına bələd idi. Düzü, belə şeylərdən həzər eyləyər, zəhləsi gedərdi. Belə xəbərlər, söhbətlər olanda eşitməməyə çalışar, axmaq-axmaq işlərə görə könlünü bulandırmamaq üçün əhəmiyyət verməzdi. Amma indi yaman darıxdı. Gördü özünə yer tapa bilmir, daş-divarlar onu sıxır, adamlar, maşınlar yan-yörədə qaynaşdıqca dəli həddinə çatırdı. Odur ki bir az kənara çıxmalı oldu. Bəlkə, bir az sakitləşə. Təbiət yenə belə şeylərdə adama kömək olur. Özü də həmişə bir az uzağa gedərdi. Qurd qapısına sarı gedən yolun sol cinahındakı ağacların arasında gəzməkdən xoşu gəlirdi. Bura həm dərəli, təpəli idi, həm də cürbəcür ağaclar əkildiyindən təbii meşə təsiri bağışlayırdı. Ayağını elə hasardan təzəcə içəri qoymuşdu ki, gördü ağacların arasında üç adam dayanıb. Hərəsinin əlində bir stəkan, yerdə bir butulka. Bu adamlardan biri də kim olsa yaxşıdır. Həmin o Məmmədağanın oğlu Dadaş. Təsadüfə bax. Kişi elə oldu, elə oldu ki, rəng verib, rəng aldı. Belə də iş olar?! O bunların dərdindən qaçıb bura gəlmişdi, bunlar da burda. Kişi acıqlı-acıqlı bunların üstə yeridi. Onların da gözü bunda idi. Nə fikirləşdilər, nə fikirləşmədilərsə, ikisi aralandı. Bir qaldı Dadaş.

Dadaş ucaboy, qaraqaş oğlan idi. Amma çiyinləri düşmüşdü. Yan yaxasından da «Prima» siqaretinin havası adamı vururdu. Sir-sifətindən, rənginin tutqunluğundan hiss olunurdu ki, içki bunun canını alıb. Əmiraslan kişi az qaldı onun üzünə tüpürsün. Birtəhər özünü saxlayıb:

– Adə, sənin üçün eyib deyilmi?! – dedi.

– Kimdən eyibdir, kəblə? – deyə bu da etinasız şəkildə əlini yellədi.

Bu yerdə burada bir adam yox idi ki, göstərib deyəsən ondan eyibdir, bundan eyibdir, o birindən eyibdir. Bir az çətin vəziyyət yarandı. Ancaq Əmiraslan kişi sözünü geri götürmədi. Heç uzağa da getmədi. Başının üstə ağac vardı. Hündür, qəşəng ağac idi. Elə gözəl gövdə ilə qalxmışdı ki, adam baxdıqca xoşu gəlirdi. Aşağılarını daramışdılar. Yuxarıda tomağallı çətiri vardı. Bu «kimdən eyibdir?» deyəndə Əmiraslan kişi əlini ona uzatdı.

– Əşi, elə bu ağacdan eyibdir, – dedi.

Dadaş qımışdı. Üzünün əti yığılıb bığlarının ucları dodaqlarının yanından aşağı əyildi. Bu təbəssümü ilə demək istədi ki, ağac adamdır ki, ondan eyib olsun.

Əmiraslan kişinin ağzı açıldı, nə açıldı.

– A kişi, – dedi, – yazıq deyilsənmi, cavan adamsan, özünü niyə korlayırsan? Bu zəhrimar içkidə nə görmüsən? Gözəl-göyçək, covanəzən arvadın var. Onun qeydinə qal. Bu içməyinlə həm onu pis günə qoyursan, həm də özünü.

Əmiraslan kişi bu tənələri onun başından aşağı yağdırdıqca Dadaş əlində dolu stəkan dayanıb qulaq asırdı. Bilmək olmurdu ona necə təsir eləyir.

– Bax, bu ağacların da əməyini vurursan yerə. Onlar havanı təmizləyir ki, adam kimi yaşayasan. Sən isə onun əməyini...

Əmiraslan kişinin tənqidi onun sərxoşluğunu, deyəsən, bir az da artırdı.

– Kəble! – deyə o, ağzı-gözü əyilə-əyilə ona müraciət etdi.

Əmiraslan kişi elə bildi ki, ona təsir eləyib. İndi əlindəki stəkanı tökəcək yerə. Birdəfəlik tövbə eliyəcək. Çünki bu sözlər daşa deyilsə, daş əriyərdi. Sevincək:

– Hə! – dedi.

– Deyirəm içim bunu da bu ağacın sağlığına. Sağ ol, ağac, – stəkanı ağacın gövdəsinə toxundurdu və başına çəkdi.

Daha buna nə demək olardı. Əmiraslan kişinin o qədər acığı tutdu ki, hirsindən güldü.

– Adə, – dedi, – vallah bu ağac səni kimisindən yaxşıdır. Bir fayda verir. Ona görə sağlığına içməyə dəyər, amma sən...

– Hə-ə, mənə nə olub? – deyə Dadaş indicə içdiyi araqdan başı daha da dumanlanaraq lovğa-lovğa özünü dartdı.

Ona deməyə Əmiraslan kişinin sözü çoxdur. Amma gördü ki, boş şeydir, bu içki düşkününü bir kitab sözlə də başa salmaq mümkün deyil. Qısası, oğlanın gözünün içinə:

– Canına azar olub, – dedi və ondan aralandı.

Daha bundan sonra Məmmədağanın ruhunun ruhu da incisə xeyri yox idi. Əmiraslan kişi öz vicdanı qarşısında tərtəmiz idi. Belə ki Dadaşı o mənfur adətindən, vərdişindən ayırmaq üçün əlindən gələni eləmişdi. Əfsuslar olsun ki, Dadaş bilmədi. Nahaq yerə zəhmət çəkdiyi, qanını qaraltmağı özünə qaldı. Dadaşdan kişinin necə zəndeyi-zəhləsi getmişdisə, onu görməmək üçün eşiyə də çıxmırdı. Bu onun üçün, əlbəttə, çətin idi. Çünki havaya çıxmağa, gəzməyə öyrəşmiş adam idi. Xüsusilə bir vaxtlar işlədiyi, hər bir ağacına zəhmət çəkdiyi bağa-bağçaya getməyi, ordan ətraf yerləri seyr etməyi xoşlayırdı. O yerlərdə bir az hündür təpələrin üstə çıxıb Qurd qapısına sarı boylananda ondan o yana olan çılpaq dağlar görünürdü. Bura onun üçün elə bil pəncərə idi. O bu pəncərənin qabağında dayanıb o böyük genişliyə sarı baxmaqdan həmişə xoşlanardı. Bəlkə, ona görə ki, Yaradan onun uzaq məsafəyə baxmağına heç bir şeylə maneçilik törətməz, daş-divar qabağını kəsməzdi. Həm də o yanlarda nəhəng dönüb şəhərə sarı gəldikcə pillə-pillə keçilən, balacalaşan çılpaq Şubanı dağları hər dəfə ona ata-anasının söylədiyi baba və nənəsi haqqında söhbətləri yadına salardı. Nəslin tarixi belə göstərirdi ki, bunların əsli də elə o tərəflərdən idi. Haradasa bir qədər uzaqlarda, o dağların qoynuna sığışmış kəndlərin birindən idi. Sonra azı bir yüz il bundan qabaq bir parça çörəyin ardına düşüb bura gəliblər. Bax, indi Dadaşın

qorxusundan eşiyə çıxmayıb dustaq təki evdə oturanda ürəyi o yüksəklik üçün döyünürdü. Ora getsə, yenə dünyanın genişliyinə baxıb xəyala dalar, keçmişləri xatırlayar, bu günün axmaq, xırda hislərindən uzaqlaşıb fikri-qayğısı azalardı. Gördü yox, dörd divarın arasında çox oturmaq onun işi deyil. Evdə ürəyi sıxılırdı. Hazırlaşıb çıxırdı ki, nəvəsi Gültac qaçaraq evə gəldi.

– Aparırlar, – dedi.

Bu balaca qız çox vaxt hər hansı bir xəbər barədə bir-iki kəlmə deməklə kifayətlənərdi. Məsələni tam deməzdi, yarımçıq deyərdi. Bunu ona həmişə nöqsan tutardılar. Başa salardılar ki, tələsmə, xəbəri tam de. Bu dəfə daha öyüd-nəsihət olmadı. Eləcə babası xəbər aldı.

– Nəyi aparırlar?

– Şeglərini. – Qız cavab verdi.

Bu Gültac da tamam ağ eləmişdi. Xəbəri bütöv çatdırmaması bir yana, sözləri də düzgün demirdi. «Şeyləri» əvəzinə «şegləri» deyirdi. Başa düşmək olmurdu ki, nə dilində danışır. Gördü kişi də, uşaq da məsələni uzadır, Əmiraslan kişinin arvadı dilləndi:

– Əşi, qonşusunu deyir daa. Şaqqıltısını eşitmirsən?! Dadaşın arvadı, uşaq demişkən, şeglərini yığışdırıb gedir.

Hm. Əmiraslan kişi barmağını dişlədi. İndi başa düşdü ki, məsələ nə yerdədir. Bu onun çoxdan ürəyinə dammışdı. Başa düşürdü ki, belə getməz. Amma indi çox pis oldu. O qız niyə belə eləyirdi?! Ailəni niyə dağıdırdı?! Bu elə onun özü üçün də çətin idi.

– Əşi, bu qız dəlidir, nədir?! Niyə elə iş görür, – deyə Əmiraslan kişi qayğılı-qayğılı qaşlarını çatıb bir anlığa fikrə getdi. Yəqin, fikirləşdi ki, nə etsin. Nə qərara gəldisə, tez eşiyə çıxdı. Həqiqətən, yekə bir maşının ardını blokun ağzına verib evi boşaldırdılar. Sarı brezent parçadan paltar geymiş üç kişi ıqqıldaya-ıqqıldaya bufeti-şifoneri maşına qaldıranda o, qapının ağzında dayanmış gəlinə yanaşdı.

– A qızım, belə şey eləmə, ağlın olsun. Ailəni dağıtma, bir az gözlə görək...

– Mən çox gözlədim, o başa düşmədi, – deyə Dadaşın arvadı üzünün yanlarından çiyinlərinə, yaxasına sallanan saçlarını əllərilə geri daraqlayıb gah içəri girdi, gah eşiyə çıxdı. Əmiraslan kişiyə bir imkan vermədi ki, onu yaxşı-yaxşı başa sala. Əmiraslan kişi gördü ona qulaq asan yoxdur, bu işi daha boşdadı. Nə etsin?! Bu işi elə beləcə, altını altında, üstünü də üstündə qoyub çıxıb gəzməyə getdi. Gedə-gedə Məmmədağa barəsində fikirləşib öz-özünə deyirdi. «Bax, o vaxt oynaya-oynaya öldün, oğluyun bu gününü görsəydin, ağlaya-ağlaya ölərdin». Yoldan keçənlər buna fikir verirdilərsə, yəqin edirdilər ki, bu kişiyə baxın, öz-özünə danışır, yəqin, dəli olub. Bəlkə də, onun heç xəbəri yox idi. Bəlkə də, qızı küçədə təsadüfən görmüş və yaxınlaşmışdı. Bəlkə də, o, heç burda deyildi. Haradasa başqa şəhərdə, başqa kənddə idi. Bununla bərabər, Dadaşın

arvadı yığışıb buradan köçəndə Əmiraslan kişi birinci o oğlanı xatırladı. Layka pencəkli oğlanı. Əmiraslan kişiyə belə gəldi ki, bu ayrılmağa bais ən əvvəl haman oğlandır. O bu qızı yoldan çıxartdı. O bunun başını tovladı. Layka pencəkli oğlan olmasaydı, bu qız indi evindəcə arxayınca oturmuşdu. Amma yox, Əmiraslan kişinin fikri əvvəlcə oyana-buyana qaçsa da, bu ailə münasibətinin səbəbini başqa yerlərdə axtarsa da, axır-axırda Dadaşın üstə gəldi. O idi günahkar. Heç kəsdə yox, bütün təqsirlər bunda idi. «Öz-özünə eliyəni Allah da eliyə bilməz». İndi gəlib görəndə ki, arvad evdə yoxdur, dəli olacaq. Nə qədər dəmli, sərxoş olsa da, yenə sarsılacaq, ürəyi ağrıyacaq. Vay! Vay! Həyatı daha da korlandı. Dilxorçuluqdan indi daha çox qurşanacaq içməyə.

Əmiraslan kişi belə fikirləşə-fikirləşə o qədər gəzib dolandı ki, bilmədi nə vaxt axşam oldu, şəhərin işıqları nə vaxt yandı. Axırı gördü daha gecdir, qayıtdı. Yaşadığı binaya çatıb bloka girəndə eşitdi Dadaşın evindən səs gəlir. Musiqi səsi. Qəribə idi. Bu, radio idi? Yoxsa televizor idi? Düz qapının ağzında ayaq saxlayıb diqqət kəsildi. Gördü yox, bu nə radiodur, nə də televizor. Qırıq-qırıq, rabitəsiz çalmağından hiss elədi ki, bu elə Dadaşın özüdür. Elə bil çalmır, hələlik kökləyirdi. Əmiraslan kişi Dadaşa qarşı o qədər hirsli idi ki, dayana bilmədi.

– Boyuna boz ip ölçüm sənin. Hələ bir kefi də gəlib çalır, – dedi və barmağını qapının zənginə apardı.

Məsələ burasında idi ki, Dadaşın skripkasının səsi Əmiraslan kişinin evinə də gəlib çıxırdı. Divarın o üzündə elə bil nəsə xəstə təhər zarıyır və yaxud cüyüldəyirdi. Divarın bu üzündə isə Əmiraslan kişi onu eşidib əsəbiləşirdi. «Əşi, bu zalım uşağı evləri elə tikirlər ki, burada pıçıldayırsan, orada eşidilir, oradakı burda» – deyə hətta deyindi də. Sonra da fikirləşdi ki, indi kəsər, səsini içinə salar. Gözlədi, gözlədi, gördü yox.

– Bu, lap ağ elədi ki, – deyə başladı kişi evdə var-gəl eləməyə. Bu yana gəldi, o yana getdi. O yana getdi, bu yana gəldi.

– Eyy! Sən də bir yerdə otursana! – deyə arvadı da bu yandan onu əsəbiləşdirdi. İstədi desin ki, görmürsən, eyibinə kor olmaqdansa... Fikirləşdi ki, nə lazım. Həm də evdə televizora baxırdılar. Hamının fikri oradaydı. Mane olmaq yaxşı deyildi. Nəsə maraqlı film göstərirdilər. «Həyatımız elə başdan-başa kino deyilmi?!» – Əmiraslan kişi bilmədi nə etsin? Sonra ağlına gəldi ki, əşi bayaqdan bu «uşağı» söyürəm, qınayıram. Belə də yaxşı deyil axı. Hər halda indi onun üçün çox ağırdır. Ailəsi dağılıb. Özü təklənib. Necə olsa dərd çəkməmiş deyil. Nə olar, gedib bir maraqlansam, ürək-dirək versəm.

Sən demə, bu zalımoğlu qapını da açıq qoyubmuş, balaca aralıydı. Buna baxmayaraq, Əmiraslan kişi qapını taqqıldatdı. Amma cavab verən olmadı. Dadaş yenə öz işində idi. Skripkasını «dızıldadırdı». Əmiraslan kişi məcbur olub qapını üsulluca itələdi. Hələ heç içəri daxil olmamışdan gördü Dadaş bəridəki otağın

ortasında dayanıb, skripkasını da çənəsinin altında bərk-bərk tutub, sıxıb. Başını da yanakı aşağı əyib. Öz işindədir. Ay tövbə dünya-aləmdən xəbəri varmı? Qapını kim açdı? İçəri gələn oldumu? Qəti maraqlanmadı. Əmiraslan kişi özü qəsdən içini arıtladı. «Öho! Öho!» Yalnız bu ara səsə Dadaş baxışlarını qaldırdı, qonşusunu görcək başını tərpədən təki oldu. Bu ya içəri dəvət idi, ya da salamlayırdı. Hər nə təhər Əmiraslan kişi gəlmişdi, qapının ağzından geri qayıtmaq yaxşı deyildi. Odur ki içəri keçdi. Qayda belə idi ki, Dadaş çalmağını saxlayacaq, bu kişiyə «xoş gəldin» eliyəcək. Bu da olmadı. Əmiraslan kişi özü də heç o əhvalda deyildi. Ona fikir verməyib, evə göz gəzdirdi. Qız evi, demək olar ki, bütüncə yığışdırb aparmışdı. Heç «Allahın» qabaq stolunu da qoymamışdı. Divarlardan xalçaları da sökmüşdülər. Döşəmədən palazları götürmüşdülər. Xülasə, evdə heççə bir şey qalmamışdı. Bəlkə də, bunu qız eləməmişdi. Qızın adamları eləmişdilər. Qərəz ev elə boşalmış, elə miskin vəziyyətə düşmüşdü ki, adam baxanda ürəyi ağrıyırdı. Dadaşa yalnız skripkası qalmışdı. Çoxdan bəri əlinə götürmədiyi, çalmadığı skripkası. Ayıq vaxtı olurdumu ki, çalaydı. İndi ayılmışdı. Arvad gedəndən, ev boşalandan sonra ayılmışdı. Budur, ayılıb çalırdı. Ancaq Əmiraslan kişi ona qulaq asıb-asıb bir şey başa düşmədi. Ona elə gəldi ki, çaldığını, əslində, Dadaş özü də başa düşmür, nəsə qarışdırır. Düzünü gəzsəniz, Əmiraslan kişi bu musiqi alətini o qədər başa düşmürdü. Amma bir çox hallarda səsi xoşuna gəlirdi. İndi isə belə fikirləşdi ki, bu oğlan çoxdan çalmadığından bildiklərin yadırğayıb. İndi çala-çala yadına salırdı. İtirdiklərini, unutduqlarını beynində bərpa edirdi. Hə. Hə. Onun fikrincə, ancaq bu cür idi.

İstədi desin, yaxşı, sonra çalarsan, bir otur söhbət edək. Əmiraslan kişinin bura gəlməkdə məqsədi bu idi ki, oğlana ürək-dirək versin, desin heç olmasa bundan sonra özünü yaman günlərə qoyma, dost var, düşmən var.

Dadaş isə öz işində idi. Skripkasını əlindən yerə qoymaq fikri yox idi. Buna o qədər aludə olmuşdu ki, evinə gələn adamı da elə bil görmürdü. Görəndə də əyləncəsindən, məşğuliyyətindən ayrıla bilmirdi. Guya, skripkanı əlindən yerə qoysa, çalmasa, nə bilim nə olacaqdı?! Dünya dağılacaqdı məgər?! Dünənədək skripka onun heç gözünə görünmürdü?! İndi isə... Dadaş, deyəsən, Əmiraslan kişinin onlara gəldiyini belə unutmuşdu. Ona qəti əhəmiyyət vermirdi. Əmiraslan kişi bir belə fikir elədi ki, sən də ona əhəmiyyət vermə, dur çıx get evinə, qoy nə olur-olsun. Yenə qonşuluqdan keçmədi, məcbur olub yaxşılıqla özü dilləndi.

– Dadaş, bala, mən gedirəm, ancaq gəlmişdim deyəm ki, dur bizə gedək, demək olmaz, aclığın, susuzluğun olar.

Əvvəlcə Əmiraslan kişiyə elə gəldi ki, Dadaş onu heç eşitmədi. Çünki deyəsən, o, heç özündə deyildi. Bütün fikri, diqqəti çaldığı musiqidə və haradasa başqa yerdə idi. Buna daha şəkk-şübhə ola bilməzdi. Bununla bərabər, Əmiraslan kişinin dəvətini eşitdiyini bildirdi və ona elə çala-çala təşəkkür etdi.

– Sağ olun, Əmiraslan kişi, sağ olun.

– Sağ ol, – deyə Əmiraslan kişi də qapıya yönəldi. Madam ki, o, çalmağından ayrıla bilmirdi, bu daha orada nəyə dururdu.

Bu dünyada Əmiraslan kişi o qədər cürbəcür adamlar görmüş, cürbəcür hadisələrin şahidi olmuşdu ki, indi onu hələm-hələm şeylə təəccübləndirmək, heyrətdə qoymaq mümkün deyildi. Amma buna məəttəl qalmışdı. Dadaşın skripka çalmağına. Dünənə, srağagünədək heç əlinə almırdı. İndi isə səhər çalırdı, axşam çalırdı. Özü də saatlarla çalırdı. Uzun bir ayrılıqdan, fasilədən sonra bu oğlanı skripkaya bağlayan nə idi? Daha dəng eləmişdi camaatı. Amma bununla bərabər, Əmiraslan kişi sevinirdi. Sevinirdi ki, evindədir, içməyib. Başı ayıqdır ki, çalır. İkinci bir tərəfdən ehtiyat edirdi ki, bəlkə, bunun başı xarab olub. Bəlkə, arvadının getməsi onu havalandırıb. Bu, ağlına gələndə kişi az qalırdı gedib ona desin, ay oğul, gedib, gedib, nə olsun?! Ondan ötrü özünü niyə üzürsən. Dünya dolu qız deyilmi. Yox, əgər onsuz yaşaya bilmirsənsə, ünvanlarını ver, gedib qızın evinə, ayaqlarına düşüm, bəlkə, qaytara bildim.

Bunun başqa əlacı yox idi.

Çünki orda skripkanın səsi çıxanda burda – divarın bu üzündə Əmiraslan kişi ölüb ölümdən qayıdırdı.

Məmmədağaya nə vardı?! Ölüb canını qurtarmışdı. Azarını Əmiraslan kişi çəkirdi.

Doğrudur, Məmmədağanın qəbrinin yeri bilinmirdi. Amma nə fərqi vardı. Bundan ona orda isti-soyuq olmurdu. Hər bir şeydə zor burdakının üstünə düşürdü. Bax, Dadaş içkiyə qurşanıb sərxoş-sərxoş orda-burda gəzəndə nəinki Əmiraslan kişi, bütün qonşular pis olurdular. Hamı ona heyifsilənirdi. «Gör necə korlandı». Bununla bərabər, onu ağıla-başa qoymağa çalışmırdılar ki, o bu içkinin daşını atsın. Ancaq düzü, heç bir xeyri olmurdu. Hə, axırı bu Dadaş o dərəcəyə çatdırdı ki, həyat yoldaşı da çıxıb getdi. Əslində, Əmiraslan kişi də, o biri qonşular da o qızı qınamırdılar. Bu zalım oğlu bütün günü sərxoş olurdu. Evdən-eşikdən xəbəri yox idi. Yalan yerdə evdə oturmağın mənası nə idi. Nə qədər dözmək olardı.

Skripkanın səsi bütün mənzili başına götürmüşdü. Eşiyə də gəlirdi. Blokda da səslənirdi. Qonşuların mənzillərində də səslənirdi. Onunla qapı-qapıya qonşu olan Əmiraslan kişinin evində isə lap dəhşət idi. Elə bil onlardaca çalınırdı.

Belə çox çalmasından Əmiraslan kişi yenə bu fikirdə idi ki, Dadaş qabaqlar bildiklərini unudub, yadırğayıb, indi tez-tez çalır ki, yadına düşsün. Çaldıqca xatırlayır, yadına salır, hafizəsində bərpa edir və qabaqkı kimi çalmağa çalışır. Çünki bəzən də elə sürətlə və yanıqlı çalırdı ki, Əmiraslan kişi onun axtardığını, nəhayət, tapdığını düşünüb sevinir və Dadaşın çalmasının axıradək belə rəvan, yanılmadan, çaşmadan getməsini gözləyirdi. Belə alınanda sevinirdi. Alınma-

yanda dilxor olurdu. Görürdü ki, yenə Dadaş haradasa ilişdi, ləngidi, bunu ona, onu buna qatıb-qarışdırıb özünü çaşdırdı.

Əmiraslan kişi qabaqlar elə bilirdi ki, hər hansı bir musiqi alətində çalmaq bilənə o qədər də çətin iş deyil. İndi fikri dəyişmişdi. «Bunun da öz əzabı varmış!»

Bir dəfə isə Dadaş çalıb, çalıb birdən xırp kəsdi. Daha çalmadı. Əmiraslan kişiyə elə gəldi ki, yarımçıq kəsdi. Niyə?

Əli çənəsində fikrə getmişdi ki, bu ara zəngsiz, filansız qapı açıldı və Dadaş hövlnak özünü içəri saldı.

– Tapdım, Əmiraslan əmi, tapdım.

Dadaş ki belə sevincək onun üstünə gəlmişdi, güman etmək olardı ki, bu da onu o cür şadyanalıqla qarşılayacaq.

Ancaq elə olmadı. Bu, sevincək «tapdım» deyəndə o fikirləşdi ki, Dadaş axırda ağlını da itirdi. Əzəldən də bir düz-əməlli ağıla qulluq eləmirdi. İndi tamam azdırdı. Heyif bu oğlandan. Əmiraslan kişi ürəyində elə təəssüfləndi ki, nə qədər çalışsa da, bu oğlana kömək edə bilmədi. Yenə də etika xatirinə xəbər aldı.

– Nədir tapdığın, Dadaş?

– Atamın qəbrini tapmışam, Əmiraslan əmi, vallah tapmışam. Gedək göstərim.

Bay! Bu, Əmiraslan kişinin heç yadına düşmürdü. O gündən unutmuşdu. Yaxşı, bu burda ola-ola orda qəbri necə tapmışdı?

– Gedək, Əmiraslan əmi, gedək, sənə deyirəm tapmışam. İndi özün görəcəksən, – deyə Dadaş kişinin qolundan tutdu, onu uşaq təki tələsdirdi.

Əmiraslan kişi bu oğlanın ağlının azaldığına qəti şəkk-şübhə etməsə də, sözündən çıxa bilmədi. Bunun ona daha pis təsir edəcəyini düşünüb yanınca getdi.

Onların evdən çıxıb qəbiristanlığa gəlmələri heç yarımca saat çəkmədi. Bir də gördülər gəlib çatıblar. Dadaş qabaqda gedirdi, Əmiraslan kişi də ardınca. O dəfə burada beləcə ikilikdə qəbiristanlığı başdan-başa gəzmişdilər, amma kişinin qəbrini tapa bilməmişdilər. Bu dəfə isə Dadaş qəbiristanlığın ümumi orta yolundan dönüb əyri-üyrü balaca cığırla gah sıx, gah bir qədər aralı olan qəbir daşlarının arasından keçə-keçə gəlib bir yerdə dayandı. Baxımsızlıqdan hörgüsü sökülmüş, daşları dağıdılmış və torpağı aşağı hopmuş bir qəbri göstərərək Dadaş dedi:

– Bax, budur atamın qəbri, – və əllərini qoynuna qoyub yazıq-yazıq dayandı.

Əmiraslan kişi yaxın dayanıb diqqətlə baxanda Məmmədağanın dəmir çərçivədə torpağa sancılmış balaca şəklini gördü. Və:

– Hə-ə, – elədi, Məmmədağanın, həqiqətən, burada dəfn edildiyini xatırladı. Dadaşa tərəf döndü. – Nə vaxt gəlib tapdın?

– Gəlməmişdim.

– Bəs necə?..

– Elə neçə gün idi evdə...

Əmiraslan kişi heyrətdən yerindəcə donub qaldı. Gör necə də səhv edib. O elə bilirdi ki, Dadaş çalmağını unudub, havanı yadına salır, onları xatırlayır. Sən demə, elə deyilmiş. Sən demə, skripka çala-çala fikrində atasının qəbrini axtarırmış. Sən demə, skripka çala-çala atası Məmmədağanın cənazəsini təzədən çiyninə alıb dəfn eləməyə aparırmış. Bununla da yerini müəyyən eləyirmiş.

Baxıb gördü Dadaş elə yorulub, elə yorulub ki, elə bil atasını, həqiqətən, bu gün dəfn eləmişdi. Və onun cənazəsinin ağırlığından ağrıyırdı.

Əmiraslan kişinin yazığı gəldi Dadaşa.

– Di yaxşı, oğul, atanın qəbrini tapdın, bu, çox yaxşı oldu, indi gedək, – deyə Əmiraslan kişi əlini atıb qayğı ilə onun qolundan tutdu.

Sən demə, Dadaş balaca bir nəvazişə, qayğılı sözə bənd imiş.

– Əmiraslan əmi, atamın qəbrini tapdım, amma indi görürəm ki, mən həyatda çox şey itirmişəm, – dedi və Əmiraslan kişi gördü ki, o, dodaqlarını çeynəyir. Dolmuşdu. Özünü nə qədər toxtaq tutmağa çalışdısa, mümkün olmadı, ağladı.

Bayaq Əmiraslan kişiyə belə gəlmişdi ki, Dadaşın ağlı azalıb, amma indi gördü ki, əksinə, ağlı başına gəlib. Sevindi...

– Gec deyil, ay oğul, gec deyil, – dedi. – Cavan adamsan, çalışmaq lazımdır ki, ağlını itirməyəsən, ağıl başda olanda hər şey tapmaq olar.

Dadaş bilirdi ki, Əmiraslan kişi nəyə işarə edir. Bunun onsuz da əzabını çəkməyə başlamışdı. Xəcalətlənib bir söz demədi.

O gündən sonra Dadaş işdən boş vaxtlarında evdəcə olub skripkasını çalırdı. Görünür, indi də o biri itirdiklərini tapmaq istəyirdi. Gedəndə, gələndə və yaxud divarın bu üzündə, öz evində olanda onun çaldığı musiqiyə qulaq asan Əmiraslan kişi isə qayğı ilə fikirləşirdi ki, necə eləsin ona itirdiklərini tapmaqda kömək edə bilsin. Əlbəttə, çətin idi. İtirilən hər şeyi tapmaq, geri qaytarmaq mümkün deyildi. Bəlkə də, çox şey mümkün idi. Amma keçən günü, keçən ömrü geri qaytarmaq, onu təzədən yaşamaq heç cür mümkün deyildi. Əsl insan o adamdır ki, hər günü vaxtında ağıllı yaşayır.



# SEVƏN HƏMİŞƏ TAPILAR

## SEVƏN HƏMİŞƏ TAPILAR

Evimizin yanında, yoldan səs gəlirdi. Amma şirin yuxuda olduğum üçün deyilənləri hələlik doğru-dürüst anlaşdıra bilmirdim. Əvvəlcə elə bildim ağaca bir dəstə quş qonub. Ya səhər ertə, ya da şər vaxtları olduğu kimi yarpaqların, şax-şəvərin arasında civildəşirlər. Sonra da aydınlaşdırdım ki, yox, bu, quş səsi deyil, adam səsidir. Özü də kitab oxuyur, ya şeir əzbərləyir, ya da nəsə məruzə fason bir şey eləyir. Sonra bax, bu «atası-anası» hələlik bilinməyən səslərin içərisindən çox yoğun, həm də bir qədər əzəmətli, möhtəşəm və yəqin ki, yuxulu olduğum üçün həm də bir qədər vahiməli görünən bir səs ucaldı.

– Mooo!

Gözüm o dəqiqə açıldı, pəncərəyə baxıb eşiyə diqqət kəsildim. Bayır hələ ala-qaranlıq idi. Səhər tamam açılmamışdı. Amma eşikdən, həqiqətən, səs gəlirdi. Bu nə quş səsi idi, nə şeir deyənin, nə məruzə eliyənin səsi. Danışıqlarından hiss elədim ki, arvad xeylaqlarıdır, öz aralarında bir-birlərinə nəsə deyirlər.

– Aaz, belə də iş olar!

– Olub daa, ay bajı. Görəcəkli günlərimiz varmış.

– Adam heç bilmir başına nə çarə qılsın. Ev-eşiyinin dərdini çəksin, yoxsa çölünün.

– Eh! Biz arvadlar yeddi yerə bölünsək də, yenə işimiz başımızdan aşır.

– Kişilərimizi oxutdurub ali təhsilli eliyəndə, bilmirdikmi gün qalxanacan yatacaqlar. Sonra da durub yekələnə-yekələnə hərəsi bir idarəyə gedəcək.

– Hə, hə, allah haqqı düz deyirsən. Təqsir özümüzdədir, kişiləri pis öyrətmişik.

– Adamın gərək özündə olsun, aaz, öyrətməklə ha deyil.

Belə-belə sözlər eşidib təəccübləndim. Görəsən, nə olub? Nə olub ki, səhər-səhər arvadlar kişilərindən belə qeybət qırırlar? Əlbəttə, başa düşürdüm ki, bu elə-belə söhbət deyil, görünür, nəsə bir iş var. Amma ağlıma heç nə gəlmədi. Daim burada yaşasaydım, onların dərdlərinə-azarlarına yaxından bələd olsaydım, sözsüz, bilərdim. Ancaq mən... buralı olsam da, çoxdandı ki, kənddə yaşamıram. İndi də məzuniyyətə gəlmişdim. Üç gün-beş gün vaxtımı keçirib qayıtmalı idim. Ona görə də arvadların söz-söhbətinə əhəmiyyət vermədim, yorğanı başıma çəkib təzədən yatmağa hazırlaşdım. Bu ara yuxum daha da dağıldı. Gördüm yata bilməyəcəyəm.

– Əşi! Dururam! – Yorğanı üstümdən yana qatlayıb qalxdım. İndi elə tələsirdim ki, deyirdin eşiyə yel əsib, qoz tökülüb. Xülasə, tez geyinib eşiyə çıxdım, evimizin böyrünə hərləndim. Yolun içində, bir də gündüzlər uşaqların futbol oynadığı meydançada bir bölük mal-qaranın topalanıb mələşə-mələşə qaldığını gördüm. Dörd-beş arvad əllərində çubuq heyvanlarının yanını kəsib durmuşdular. Bunlar onların üzlərinə baxırdılar, onlar da bunların. Məsələnin nə yerdə olduğunu təxminən başa düşə bilsəm də, dəqiq öyrənmək istədim. Bir az yaxına gedib ədəb-ərkanla başımı tərpədərək əvvəlcə salam verdim.

– Sabahınız xeyir, – hərəsi bir tərəfdən dilləndi.

– Nə olub? Niyə belə narahatsınız?

Onları narahat edən məsələ ilə maraqlandığımdan hamısı məndən razı qalıb xüsusi bir istiqanlılıqla dilləndilər:

– Başına dolanaq, heyvanı otaran yoxdur.

– Niyə yoxdur?

– Yoxdur daa. – Arvadlar bunun səbəbini bilmədiklərindən əllərini açdılar. – Bax, beləcə çarəsiz qalmışıq. Bilmirik nə edək? Üzülmüşləri də burada qoyub evimizə gedə bilmirik, qorxuruq camaatın dirriyinə girib ziyan versinlər.

– Naxırçınız hanı axı?

– Suluburun Şəmməddir. O da daha otarmır.

– Niyə?

– Niyəsi budur ki, deyir getmirəm.

– Bəlkə, az haqq verirsiniz.

– Bıy! Səni sağ ol. Malın biri üç manatdan azdırmı?

– Yüz malın üç yüz manat eləyir.

– İndi gəl əyri oturaq, düz danışaq, sən heç şəhərdə bu qədər alırsan.

Söhbət gəlib mənim maaşımın üstə çıxdı. Mən də düzünü dedim.

– Yox, əşi, bir o qədər maaşı kimdir mənə verən.

– Bizim naxırçının gəliri yaxşıdır. Məsələ bundadır ki, bəzi adamlar daha qudurublar, naxırçı olmağı özlərinə sığışdırmırlar. Yoxsa...

– Razıyıq, lap beş manatdan otarsın.

– Hə. Hə. İllaha ki, heyvanımız qapıda qalıb mələşməsin. Heyvan olanda nə olar...

Arvadların biri qoyub, o biri danışırdı. Elə bil ürəklərini boşaldır, bir az yüngülləşirdilər. İçərilərində bir cavan gəlin də var idi. Bir az qıraqda utancaq dayanmışdı. Gördüm yanındakı arvadı dümsükləyib deyir:

– Mən gedim, uşaq qalxıb ağlayar, əmizdirib yenə gəlləm.

Naxırçının olmaması onların işini, həqiqətən, çətinləşdirmişdi. Evin-eşiyin qayğısı bir yandan, bu da o biri yandan. Əlbəttə, bir əncam çəkmək lazım idi. Ürəyimdən təpdi ki... ancaq bilmədim nə edim. Deyəsən, özüm-özümü çətinə

salmışdım. Bir vardı ki, heç evdən-eşikdən çıxmayaydım, gözümü yumub yataydım. Kim idi məni itirib-axtaran, heç ağıllarına da gəlməzdim. Bu işə görə məni töhmətləndirən, məndən umu-küsü eliyən də olmazdı. Ancaq, o ki evdən çıxdım, gəlib kişi-kişi maraqlandım, onda gərək bir şey eliyəm. Gücüm bir özümə çatırdı. Həm də hər necə olsa, bir heyvan da bizim idi. Bacım onu axşamdan sağar, sonra da qonşunun həyətinə salardı ki, səhər-səhər naxıra onların heyvanları ilə getsin. Çünki özü günaşırı xəstəxanada növbətçi qalırdı. Mənə də qıymırdı ki, səhərlər yuxuma haram qatam. Bu dəfə isə səs-küyü eşidib oyanmışdım.

– Əşi, nə olasıdır, siz gedin evinizə, mən də mal-qaranı kənddən çıxardıb çölə ötürərəm. Bəlkə, naxırçı da fikrini dəyişib gəldi, – bu işi istər-istəməz boynuma çəkdim.

– Boyy, dərdin alım, elə şeymi olar?! – Arvadların hərəsi bir yandan dilləndi.

Mən də inadımı yeritdim.

– Niyə olmur?!

– Yox. Yox. Sən zəhmət çəkmə, – arvadlar yenə razılaşmadılar. – Biz özümüz...

– Əşi, siz arvad xeylağı nə edə bilərsiniz. – Mən də onlara irad tutdum.

– Bəs sən? Yekə şəhərdə yaşayan adam durub indi mal otaracaqsan? Ayıb deyilmi?

– Eyibi-zadı yoxdur, – onların sözünə baxmadım, mal-qaranı qabağıma qatdım. Dilimdən çıxmışdı, gərək eliyəydim.

Düzü, uşaq vaxtı heyvan otarmağım olmuşdu. İşim-peşəm bu dərələrdə dana-buzov qovlamaq deyildimi?! Amma çoxdan yadırğamışdım. Azı bir on il bundan qabaq orta məktəbi qurtarandan sonra gəlib şəhərə düşən idim. Ondan sonra həyat, yaşayış tərzim, gördüyüm işlər tamam dəyişmişdi. Ona görə indi birdən əlimə bir ağac qırığı götürüb heyvanın ardınca gedəndə özümün özümə gülməyim gəldi. Həm də bir az pərt, sıxılan təki oldum ki, birdən mənim bu hərəkətimə gülərlər. Kənardan mənə fikir verən olsa idi, hər halda bunu hiss edərdi. Mal-qara kəndin dərə məhəlləsilə tökülüb üzü aşağı gedir, mən də ardınca düşmüşdüm. Hərdən də geri qalan, yaxud oyana-buyana qaçmaq istəyən heyvanlara «Ay inək! Ay dana» deyə əlimdəki ağacı qaldırıb acıqlanırdım. Beləcə kəndin ayağındakı axar suyun üstünə endik. Buranın da bir tərəfi güney, bir tərəfi də quzey idi. Heyvanlar sudan adlayıb quzeyin bir az dikə qalxan dolayı cığırlarında cərgələşəndə mane olmadım. Qabaqda meşə idi. Bu fikirdə oldum ki, həm heyvan üçün yaxşı olar, həm də özüm gəzib dolanaram. Gələndən elə hey istəyirəm ki, səhər o başdan durub meşəni seyrə çıxam, amma hər dəfə yuxu bişirib gün-günortaya qalmağım mənə mane olurdu. Nəhayət, bu dəfə, deyəsən, arzuma çatırdım. Doğrudan da, meşənin ətəyinə çatanda gördüm əsl gözəllik buralardadır.

Səhər-səhər təbiət elə gözəl, elə füsunkar idi ki, adam az qalırdı ürəyini sürtsün. Hayana baxırdın yamyaşıl otluq, gül-çiçək idi. Səhərin gözü açılıb hava işıqlandıqca bir-birinə söykənəcəkli dayanıb, bir-birinin məxmər çiyninə baş qoyub yuxulamış, yatışmış otlar, al-əlvan güllər-çiçəklər dikəlib qalxır, təbiət elə bil quşları ilə, böcəkləri ilə, ümumiyyətlə, bütün canlıları ilə birgə öz böyük anaları olan Günəşi qarşılamağa çıxırdı. Təbiətin qoynu elə gözəl, elə sakit, məstedici idi ki, deyirdin elə həmişəlik burda qalasan. Gül olub bu çəməndəcə bitəsən. Palıd ağacı olub bu meşələrdəcə qalasan, təbiətin, gözəlliyin pasibanı kimi bu yerlərə boylanasan. Nəhəng bir qaya kimi dığırlanıb, bax, o dərədən axan çayın içərisinə düşəsən. Sular daşdanıb sinəndən axa. Xülasə, səhər-səhər ürəyimdən qəribə hislər keçdi. Tünd-yaşıl rəngli meşəyə, çölə-çəmənə, yala, yamaca baxıb:

– Nə yaxşı oldu ki, arvadlar səs salıb məni oyatdılar, yoxsa hələ də yatırdım, – deyə öz-özümə danışaraq, səhər tezdən durub çölə gəlməyimə sevindim, hər gülə-çiçəyə, otdan-ota atdanan çəyirtkələrə, orda-burda ötüşən quşlara həvəslə tamaşa edə-edə gəzirdim ki, səs eşitdim.

– Ay dana! Ay dana! Bıy səni allah yandırsın! Hara gedirsən?

Dönüb geri baxanda gördüm bir qız, bir də bir dana aşağı suyun üstündəki bağlara sarı qaçır, qız da onun ardınca. Bəri qaytarmaq istəyir. Görünür, həyətbacada gözdən yayınıb naxırdan qalıbmış. İndi qız gətirir ki, naxıra qatsın.

– Əcəb naxırçı tapıblar məni, – deyə şən-şən özüm haqqında fikirləşdim. – Bu adamlara üz verəndə, astar da istəyirlər.

Belə güman eləyirdim ki, qız danaya çata bilməyəcək. Ancaq kol-kosun arası ilə yeyin qaçıb aşağı tərəfdən dananın qabağına keçdi və yuxarı, naxıra sarı qaytardı.

– Bu kimin qızıdır, görəsən? – deyə mən də kol-kosun ardından boylanaraq onu tanımağa çalışdım. Amma heç kəsə oxşada bilmədim. Elə bil bura qızı deyildi. Haradansa başqa yerdən gəlmişdi. Ucaboy, qədd-qamətli qız idi. Yaxınlaşdı, gördüm bizdən bir-iki həyət aşağı olan Qara Qafarın qızı Sənəmdir. Atası balacaboy, qaraca kişi idi. Ona görə də Qara Qafar deyirdilər. Anası da balaca, cılız, qarayanız bir arvad idi. Deyirlər ki, ərlə-arvadın torpağını bir yerdən götürərlər. Bunlara baxanda bilirdin ki, elə o cürdür, deyilənlər həqiqətdir. Di gəl bu iki «şəppəlidən» bir qız peyda olmuşdur ki, elə bilirdin dünya gözəlidir. Hətta mən deyərdim ki, kino ulduzları bunun heç əlinə su tökməyə yaramazdı. Bəlkə də, mənə elə gəlirdi. Əslində, o cür deyildi. Ancaq insaf da yaxşı şeydi. Birinci bu qızda nə vardısa, hamısı özününkü idi. Üzünə-gözünə heç şey sürtməmişdi. Amma deyirdin yanaqları lalədir. Gözləri də qapqara, hər biri bir üzüm giləsi idi. Boy-buxun da öz yerində. Ümumi görkəmi, çöhrəsi də o qədər cazibədar, mehriban idi ki, adam eləcə ona tamaşa etmək istəyirdi.

Bu qızı mən çoxdan tanıyırdım. Bakıda da neçə dəfə görmüşdüm. Birinci dəfə teatrda görmüşdüm. Əvvəlcə tanımamışdım.

– Bu qəşəng qız kimdir? – demişdim.

Kəndimizdən Bakıda olan uşaqlar gülüşdülər. Hərə bir tərəfdən dillənmişdi.

– Qonşunuzu tanımırsınız?

– Hansı qonşumuz? – Qıza tərəf baxıb fikrə getmişdim. Kənd qonşularımızı, onların uşaqlarını bir-bir gözümün qabağına gətirmişdim. Birdən tanıyıb səslənmişdim. – Bıyy həə! Sənəmdir. Qafar əminin qızı. Xoş gördük səni!

– Xoş gördük! – O da utancaq-utancaq, gülə-gülə balaca əlini ovcumun içinə qoymuşdu.

Mən onu sonralar da görmüşdüm. Hər dəfə də xoşuma gəlmişdi.

İndi gözlədim ki, gəlsin, deyim yaxşı naxırçı tapıbsınız. Nəyiniz var, gətirin otarım. Amma mən bir az bahaçılam ha. Danaları lap baha otarıram. Çünki onlar bir yerdə duran deyillər, boyləklənəndə ilim-ilim itirlər. Ürəyimdən zarafatcan belə-belə sözlər keçdi.

Qızın isə deyəsən, məndən xəbəri yox idi. Dananın daha qaçmayıb sakit-sakit meşə ətəyi kol-kosluğa doluşub otlayan naxıra sarı gəldiyini görüb o da rahatlanmışdı. Hətta arada dayanıb istədi qayıtsın. Gördü dana da dayandı.

– Ay dana! – Əlindəki ağac qırığını heyvanın ardınca atdı.

Dana yerindən tərpəşdi və yolunu yenə aşağı sarı əydirdi.

– Ciyəri yanmış! – Qız məcbur olub təzədən heyvanın ardınca gəldi.

Mən bu ara bir kolluğun ardına girmişdim. Məqsədim bu idi ki, qız məni hələlik görməsin. Elə bil qızın qabağına birdən çıxıb onu qorxutmaq istəyirdim. O isə qorxan qıza oxşamırdı. Lap ağacların, kol-kosluğun sıx yerinə çatıb yan-yörəyə boylandı, naxırçını görməyib əlini qaşının üstə qaldıraraq səsləndi:

– Ay Şəmməd bava. Ay Şəmməd bava.

Gördüm məndən xəbəri yoxdur. Kolun ardından qızın qabağına çıxdım. Elə bil bir azca diksindi. Sonra özünü o yerə qoymadı.

– Siz burada nə edirsiniz?

Gülümsədim.

– Mal otarıram.

Qızı da gülmək tutdu. Dilini-dodağını dişlədi ki, gülməyini görməyim. Mümkün olmadı. Əlini ağzına apardı. Gülməyini yenə gizlədə bilmədi. Gülüş onun ümumi çöhrəsindən daşdanıb tökülürdü. Qara, yapışıqlı, son dərəcə cazibədar olan gözlərindən elə bil gülüş fişəngləri atırdı. Əlini üzünə tutmuşdu. Bərk güldüyündən lalə yanaqları əlinin qıraq-bucağından yumrulanıb qalxır, onu daha da gözəl, şirin göstərirdi. Amma düzünü deyim, mən bir az pərt olmuşdum. Yenə xoşluqla dedim:

– Nəyə gülürsünüz?

Qız bir az da bərkdən pıqqıldadı.

– Gülmək olmaz?

– Yox eyy, olar. Ancaq...

– Keşiş qocalanda donuz otaran kimi siz də...

Qızın sözünə mən özüm də güldüm.

– Keşişi siz harda görübsünüz?

– Sözdür, deyiblər, eşitmişəm.

– Həm də deyirsiniz qocalmışam, hə-ə?!

– Yoox, onu elə-belə dedim. Misal üçün dedim.

– Heç elə şey yoxdur. Söz birincidir. Mən də acıqcan sizin dananızı otarmayacağam.

– Pulnan döymü?

– Ayına lap on manat da versəniz otarmayacağam, – deyə dananın qabağına keçib onu geri qaytarmaq istədim. Qız zarafat etdiyimi başa düşdüyü üçündür ki, vəziyyətini dəyişməyib gülümsəyərək üzümə baxırdı.

– Amma yaman bahaçılsınız ha.

– Kefim belə istəyir. Otarmayacağam.

Mən belə deyəndə o da özünü ciddi tutdu və guya, zarafat etmirmiş kimi dedi:

– Öz başınasınız?!

– Əlbəttə, özbaşınayam! – Mən ona həqiqi naxırçı olmadığımı xatırlatdım. Bilsin ki, özüm öz xoşumla... Çox eliyər, bu dəqiqə bu malı, heyvanı buradaca başlı-başına buraxıb çıxıb gedərəm. Kimdir məndən ayın neçəsini xəbər alan?! Haqlarını ha yeməmişəm.

Qız elə bil düşündüklərimi üzümdən oxudu, dedi:

– Söz verirsiniz. Camaatı arxayın salırsınız, sonra da...

Cümləsini tamamlamasa da, qızın fikri mənə aydın oldu.

Yaxşı deyirlər ki, sözün düzü zarafatda deyilər. Mən də başa düşdüm ki, düz deyir. Çünki hər halda bu işi boynuma çəkmişdim, arvadları arxayın salmışdım ki, siz gedin işinizdə olun. Bəs indi... Necə ola bilərdi ki, vədimi yerinə yetirməyim?! Odur ki indi də irişə-irişə sözümü dəyişdim.

– Heç belə gözəl dananı otarmamaq olar?!

Qızın da nəzərləri danaya çevrildi.

– Nəyi gözəldir bunun?

Bilmədim dananı necə tərifləyim. Onun gözəlliyini necə vəsf edim. Qaşı belə, gözü belə, qıçları belə... Qorxdum qız mənə gülə ki, bu «gədənin» heç ağlı yoxmuş. Odur ki sözümə yiyəlik elədim.

– Qızılı, kök, hələ bax, çolkası da var.

Qız güldü, nə güldü. Həm də gördü mən yavaş-yavaş azdırıram, dedi:

– Mən gedim daha. Sağ olun.

Gördüm qız mütləq gedəcək, ancaq istədim qalsın, fikirləşdim onu necə saxlayım. Uşaq təki:

– Bəs mən? – dedim.

– Siz naxırı otarın.

Bilmirəm necə oldusa dedim:

– Səhərdən axşamadək. Ac-acına.

– Yemək götürməmisiniz? – Buna görə elə bil qız da narahat oldu. Sonra sözünə əlavə etdi. – Eybi yoxdur, bacınıza deyərəm, sizə yemək gətirər.

– Yox. Yox, lazım döy, – əlimi qaldırıb razılaşmadım. – Bu gecə o növbətçi olub. Yazıqdır. Qoyun dincəlsin.

Bacımdan ötrü elə canıyanarlıqla danışdım ki, bəlkə, buna qız özü də təəccüb qaldı. Bəlkə də, ürəyimdən daha nələr keçdiyini hiss elədi. Hər nə təhər:

– Özünüz bilin, – deyə laqeyd, etinasız bir tərzdə çevrilib yoluna düzəldi.

O gedəndən sonra, düzü, darıxmağa başladım. Bilmirəm bu qız səhər-səhər haradan gəlib çıxdı, fikrimi-xəyalımı qarışdırdı. Onun səsi, birdən pıqqıldayıb gülməsi qulaqlarımda qalmışdı. Balaca burnu, cazibədar gözləri, üzünün yaraşıqlı quruluşu xoşuma gəlmişdi. İndi qızın özü getmiş olsa da, xəyalı gözümün qabağında idi. Məni öz füsunkar gözəlliyinə heyran qoymuş təbiət də elə bil onsuz yaraşığını itirirdi. Ancaq əlac nə idi?! Camaatın heyvanını başlı-başına buraxıb qızın ardınca ha getməyəcəkdim?! Bu işi mənə ümid olmuşdular. Ona görə fikrim-xəyalım qızın yanında qalmış olsa da, yan-yörədə hərlənib-fırlanıb camaatın mal-qarasını gözdən qoymurdum. Əslində, heyvanların dağılıb itməsi təhlükəsi, demək olar ki, yox idi. Çünki elə otlu yerə gətirmişdim ki, deyirdin buralar ömründə mal-heyvan üzü görməyib. Təzə-tər, yumşaq, enli yarpaq meşə otları az qala dizə çıxırdı. Heyvanlar dişləriylə yoluşdurub yedikcə xoşuma gəlir, ləzzət alırdım. Birdən bu ara ağlıma gəldi ki, indi Bakıdakı yoldaşlarımdan biri məni görsə, o dəqiqə deyərdi:

– Burda nə edirsən, ay individualist.

Gülümsəyib cavab verərdim:

– Mal otarıram.

– Canım üçün başdan xarabsan.

– Niyə?

– Niyə?

– Sözdür deyirəm də.

– Nə bilim? Bəlkə, elədir, – mən də, nəhayət, onların tənqidi ilə bir növ razılaşar, yəqin ki, gülüb ötüşərdim.

Hə-ə. Bu «individualist» sözü də mənim başıma bir qaxınc olmuşdu. Bir dəfə etiraz eləmişdim ki, niyə mənə elə deyirsiniz?

– Çünki adamlardan qaçırsan.

– Xeyr! Mən adamlardan qaçmıram.

– Qaçırsan!

– Qaçmıram!

– Qaçırsan!

Əsəbiləşdim. Sözlərimi xüsusi bir vurğu ilə hecalara bölə-bölə demişdim?

– Mən a...dam...lar...dan qaç...mı...ram.

İndi fikirləşdim ki, bu adamların sözündə nəsə bir həqiqət var. Axı olmasa deməzlər. Adam çox vaxt özü öz nöqsanını görə bilmir. Kənardan baxan isə o dəqiqə hiss eləyir. Bilir ki, bunun qabında nə var, nə yox. Nəyi çatır, nəyi çatışmır. Ağlıma gəldi ki, görəsən, indicə burada olan qız mənim haqqımda nə fikirdə oldu. Yoxsa o da mənə ayrı nəzərlə baxdı, mənfi fikrə düşdü, ürəyində güldü. Deyirəm bu adamlar da qəribə olublar. Nə eləyirsən ona nəsə bir qulp qoyurlar. Xüsusilə evlənmək məsələsində məni lap bezdiriblər. Bilmirəm bu camaatın işi-gücü qurtarıb nədir? O deyir: «Niyə evlənmirsən?!» Bu deyir: «Niyə evlənmirsən?» Qalırsan nə cavab verəsən. Bir dəfə isə tamam canımı boğazıma yığdılar. Dözə bilməyib acıqla dilləndim:

– Yaxşı eləyirəm!

Acığımın tutmasından yoldaşlarım daha şitənmişdilər.

– Necə yəni yaxşı eləyirəm?!

Mən də lap uşaq ağlına düşmüşdüm.

– Kef mənimdir, belə istəyirəm.

– Ayə, deyirik, yəni ailən olsun. Nə vaxtadək restoranlarda, kafelərdə nahar edəcəksən. Evin bişi-düşüsünün əvəzi var?!

– Nə olar?! Gəlib sizdə yeyərəm. Pulum da cibimdə qalar. – Axırını zarafata çevirmişdim. Kəndə gələndə də bacım başlayırdı.

– Bə kimi gözləyirsən, ay qağa?

– Heç kimi.

– Bıyy. Qağama bax. Bə elə arvadsızmı oturacaqsan? Bir də gördün saçın-saqqalın ağardı.

– Ağarsın daa.

– Elə demə. Hər şeyin öz vaxtı var. Allaha şükür əlin də çörəyə çatıb. Daha nəyin fikrini edirsən?

– Heç nəyin?

– Onda evlən.

– Evlənim?

– Hə.
– Kimi alım?
– Booy! Sana qurban olum, ay qağa. Qız qəhətliyidir?! Papaq eləsən, yüzü tökülər. Amma sənə bir şey deyim.
– Buyur, bacı.
– Böyük yerdən al.
– Böyük yerdən?
– Hə-ə.
– Direktorun qızı var?
– Hansı direktorun?
– Sovxozun direktorunun. Daha neçə direktor olacaq.
– Eh. O heç.
– Niyə?
– Bekara qızdır. Həm, deyəsən, yavadır. Həm də su təkidir. Gah bu yana axır, gah o yana.
– Böyük yerin də qızı xarab çıxdı. Daha onda kimin qızını alım?!
Səlmi ağız dolusu dedi:
– Laap böyük yerin.
Mən də ağzımı doldurdum.
– Laap kiçik yerin qızı olsa necə?
– Yaxşı sən de!
– Nə olub?
– Adam böyük yerdən tutdurar.
– Niyə axı?
– Qorxuram balaca yerlərlə oturub-durasan, adın aşağı düşə.
Bacım belə deyəndə məni gülmək tutmuşdu. Çiyinlərim qalxa-qalxa o qədər gülmüşdüm ki, qarnımın əti ağrımışdı. Bacım da pərt olmuşdu.
– Yaxşı. Yaxşı. Kimi alırsan al. Öz işindir, – demişdi və guya, mənə acıq eləyib durub eşiyə çıxmışdı.
İndi bu qızı görəndən sonra:
– Bax, bacım mənə bunu göstərmir. Başqa qızlara tor atır, – deyə Səlminin ardınca alıb-verirdim ki, bu ara qulağıma haradansa səs gəldi. Deyəsən, məni çağırırdılar.
– Zöhraaab! Zöhraaab!
Səsindən bacım olduğunu tanıdım. Görəsən, mənim burada olmağımı kim ona xəbər verib? Yoxsa Sənəm? Mən axı ona tapşırmışdım. Hər nə təhər. Sevindim ki, nə yaxşı oldu, gələr bu barədə də söhbət eliyərik.
– Heyyy! – deyə səsimi çıxarıb harada olduğumu bildirdim. Bildim ki, bacım səsimi eşidib özünü çala-çuxura sala-sala, şax-şəvərə vura-vura gəlir. Bu dəqiqə

yanımdan çıxacaq. O elə qız idi. Mənə elə gəlir ki, dünyada onun ayağına çatan insan tapılmaz. Nədənsə mənim üçün nələr etməmişdi. Bax, mənim oxuyub ali təhsil almağım, aspiranturanı bitirməyim, müdafiə eləməyim, alim olmağım – hamısı onun hesabına idi. Çünki mənim ondan savayı heç kimim yox idi. Gələndə onun üstə gəlirdim. Gedəndə isə bilmirdim onun fikrini necə dağıdım. Axırı bir dəfə açılışmışdı.

– Dünən gəlib, bu gün gedirsən.

– Dünən?! Bir aydır burdayam, bacı.

– O bir ay mənə bir gündən də az görünür.

– Sən də qəribə qızsan, Səlmi? Deyəsən, hesabı bilmirsən. Sənə hesabdan kim dərs verib?

– Öz aramızdır, alim olub Bakıda işləsən də, bir çox şeyləri bilmirsən?

– Nəyi?

– Nəyi? Bax, onu bilmirsən ki, həyatda elə şeylər var ki, onu nə rəqəmlə göstərə bilərsən, nə də tərəziyə qoyub çəkərsən.

– O nə olan şeydir, bacı? Nə çətin krossvorddur.

– Bax, gördün ki, bilmirsən.

– Bəlkə, tapa biləcəm.

– Yox. Heç ağlım kəsmir.

– Bir balaca boyu var, dam dolusu toyu var.

– Sən zarafata salırsan.

– Canı var, qanı yox, qanı var, canı yox.

– Uşaq ağlın başındadır, Zöhrab.

– Di yaxşı, de görüm nədir?

– Onsuz da başa düşməyəcəksən.

– Yaxşı, bacı.

– Bax, de görüm təkliyin əzabını hansı rəqəmlə göstərə bilərsən, hansı tərəzidə çəkərsən?

– Yoxsa tək darıxırsan, bacı?

– Bəs nə? Allahın bir parça kağızını da yazmırsan.

Düzü, çox pis oldum. Sonra o mənim könlümü almağa, şənləndirməyə çalışmışdı. Mən yola düşən günü isə vağzaladək gəlmişdi. Perronda bir yerdə dayananda özü-özündən narazılıq eləmişdi.

– Eh! Kişini gərək kişi yola salsın, arvad xeylağından nə çıxar?

– Başa düşmədim, Səlmi?

– Deyirəm kişi olsaydım, indi səni restorana çəkərdim, yedizdirib-içizdirib yola salardım. Bu olardı əsl yola salmaq.

Gülməkdən uğunub getmişdim.

– Nəyə gülürsən?

– Öz aramızdır, bacı, deyəsən, könlündən restorana getmək keçir.

– Yox! Mən sənə görə dedim.

– Heç elə şey yoxdur. Gedəcəyik. – Mən də bacımın könlünü açmaq, onu əyləndirmək üçün öz sözündən istifadə etməyə çalışdım. Bu da bir bəhanə idi əlimə düşmüşdü. Mazut, nöyüt iyisi verən perronda gəzməkdənsə, keçib içəri kölgəlikdə oturmaq bundan hər halda sərfəli idi. Özü də qatarın gəlməsinə hələ çox qalırdı. Həm də sudan-seldən içib bir az sərinləyəcəkdik.

İçəridə bacımla mübahisəm düşdü. Belə ki mən özüm üçün bir azca araq, onun üçün isə gizlincə badamlı süzüb:

– İçəcəyik! – dedim.

Qız ürkək nəzərlərlə bir qədəhinə, bir də mənə baxdı. Sonra əlini üzünə çəkdi.

– Booy, qağama bax, mən araq içənəm?!

Sözümü daha da bərkitdim.

– Niyə içmirsən? Nə var burda?

Qız gülə-gülə dedi:

– Keflənərəm axı?

– Yox əşi. Bir damcı araqla adam keflənər?

– Bəs nə olar?

– Heç nə.

– Onda bəs daha niyə içirəm.

– Bilmirsənmi, bacı, bunu içsən əhvalın yaxşı olar. Lap elə bilərsən dünya sənindir.

– Ey! Dünyanı neynirəm.

– Necə yəni dünyanı neynirəm. Dünya gözəldir, Səlmi. Alması, armudu...

– Alma, armud həyətimizdə də var.

– Başqa şey götürərsən dünyadan.

– Sağlıq-salamatlıq olsun, heç nə istəmirəm.

– Onda mən içirəm, əziz bacım, sənin sağlığına! Sənə xoş günlər arzulayıram. – Qədəhimi götürüb içdim. Sonra yeyə-yeyə danışdım. – İstədim səni aldadam.

Səlmi xoş bir təbəssümlə soruşdu:

– Niyə?

– Sənin üçün badamlı süzmüşdüm.

– Doğrudan? Deyirəm axı qağam niyə üstümə düşüb ki, iç, iç!

Nəhayət, mən bacımla görüşüb qatara minəndə Səlmi kövrəkliklə dedi:

– Atam-anam, ay qağa, özünə fikir ver, tez-tez də məktub yaz.

– Yaxşı.
– Həmişə söz verirsən, amma yazmırsan.
– Bu dəfə yazacam. Mütləq yazacam.
– Yaaaz! – Qatar tərpənəndə bacım vaqonun yanınca qaça-qaça mənə əl elədi.

Deyirəm əzizi-gözü adamın yanında olanda qədrini heç o qədər bilmir. Elə ki ayrıldı, uzaqlaşdı ürəyin titrəyir ondan ötrü. Mənim də bu ara bacımdan ötrü ürəyim darıxdı. İçəridə qəfəsə düşən quşa döndüm. Gah o pəncərənin ağzına qaçdım, gah bu pəncərənin ağzına qaçdım. Hər yerdə də üzümü-başımı soyuq şüşələrə söykəyib dörd gözlə elə baxırdım ki, deyirdin həmişəlik gedirəm. Sonra da tambora yüyürdüm. Bələdçi qadın qapını örtməyə hazırlaşırdı. Tez hövlnak səsləndim:

– Dayan. Dayan. Hələ örtmə.

Mənim belə hətələk-hütələk danışığımdan qadının az qala ürəyi düşmüşdü. Buna baxmayaraq, təmkinini pozmadı, əlini-qolunu qapının arasından çəkməyərək mənə çevrildi.

– Nədir? Qalan var?
– Yox-yox! – Qapının harasındansa tutub başımı bələdçi qadının qolunun üstdən çölə uzatdım və geri baxdım.

Bacım da bu ara məni itirdiyindən döyükmüş baxırdı. Amma əli havada idi. Deyirdim özünü görə bilməsəm də, heç olmasa əlini görüm.

– Yaxşı! Geri durun. Əyilməyin, yıxılarsınız! – deyə, nəhayət, qadın məni ətli qolu ilə içəri itələdi.

Mən də məcbur olub başımı çəkib geri durdum.

Bunları xatırlamışdım ki, bacım Səlmi bu ara böyrümdən çıxdı. Mənim üçün indi elə bil o vaxt idi. Və qatarda yellənib gedirdim, necə oldusa bacım da hoppanıb mindi. İndi ikimiz də elə bil meşənin qatarında idik. Mallı-qoyunlu harasa çıxıb gedirdik. Bu fikir-xəyalın, hissin təsiri altında mən çox şən bir əhvalla, gülümsəyə-gülümsəyə Səlmiyə baxdım. Yeyin-yeyin gəldiyindən tövşüyürdü. Pörtüb yanaqları qızarmışdı. Onu tərifləmək, onunla zarafat etmək istəyirdim ki:

– Ay bacı, ay bacı, belə nə yaxşısan, necə gözəlsən! – Sözüm ağzımda qaldı. Belə ki Səlmi məni əli çomaqlı görüb cin atına minmədimi?!

– Booy! Allah mənə ölüm ver! Allah mənə ölüm ver! – deyə üzünü cıra-cıra yan-yörəyə boylandı. Yəni buralarda bizdən başqa adam varmı? Mən isə quruyub qalmışdım. Deyirdim, görəsən, bu qıza nə olub? Yaxud mənim nəyimdən nigarandır? Ona görə intizarla qabağına getdim.

– Nə olub, bacı, niyə belə təlaşlısan?
– Ay qağa, sən burada nə edirsən?

– Mən? – Güldüm. – Görürsən mal otarıram.

– Ölüm qabağında, ay qağa, bu nə işdir tutursan?!

– Nə olub, bacı?

– Yekə adın-sanın var. Çomaq götürmək sənə yaraşarmı?

– Çomaq götürmək eyib işdir, bacı?

– Bilmirəm! – Qız qeyzlə başını silkələdi. – Ağacı yerə tulla, bəri gəl gedək.

– Bu ağac babamın-dədəmin həmişə əlində olub, bacı.

Qız daha da əsəbiləşdi.

– Bilmirəm! Bilmirəm!

– Elə orası pisdir ki, bilmirsən. Babamın başdaşının bir üzündə çomaqdır, digərində qırxılıq. İndi nə oldu ki, çomaq mənim üçün eyib hesab edildi?

– Booy, ay qağa, sən nə danışırsan?! Hamı sənə güvənir.

– Mənim nəyimə güvənir, bacı?

– Yekə institutda alim adamsan. Qoy bu mal-heyvan cəhənnəm olsun. Bir elə bu qalmışdı ki, naxıra da gedəsən. – Bacı əlini atıb yerdən bir çırpı götürdü, dərənin yaxasında, orda-burda yatmış malları şarappaşarap döyməyə başladı. Qız belə etdikcə heyvanlar yerlərindən sıçrayıb qalxır, yan-yörəyə dağılışırdılar.

– Dayan, bacı?! – Qızın qolundan tutdum. – Bilirsən ki, bu acı da olsa yalamalıyam.

– Niyə?

– Çünki camaata söz vermişəm.

– Nə olsun söz vermisən?! Nə böyük iş olub.

– Elə deyil, bacı. Camaata verdiyi sözdən qaçan adamlardan mənim zəhləm gedir.

– Sən də yaxşı, ay qağa.

– Qulaq as, səni başa salım, – əlimi bacımın çiyninə qoydum. – Ümumiyyətlə, yalan danışmaq, aldatmaq çox pis şeydir. Olsa-olsa adamın özünü aldatmağa gücü çatar. Camaata yalan danışmaq, camaata verdiyin sözün üstündən qaçmaq isə... bu, rəzillikdir.

– Qəribə oğlansan, – deyə bacım təəccüb hissi ilə başını buladı. – Uşaq ağlın hələ də başındadır.

– Nə olub ki, mənə, bacı?

– Heç bilirsən bayaqdan qapımıza nə qədər adam gəlib-gedib. Hoqqar Alı, şetovod Mərdan, ekonomist Sarı, yekəboğaz Məmməd.

– Xeyir olsun, o qədər adam məni neynirdi?

– Səni qonaq aparmaq istəyirlər. Adına erkək kəsmək istəyirlər. Başına mərəkə yığırlar. Bulaqların üstündə məclislər düzəltmək istəyirlər. Sənsə...

Əllərimi açıb üzümü göyə tutdum.

– Çox şükür sənə, ilahi. Nə yaxşı ki, evdə olmamışam. Onların nə erkəklərini istəyirəm, nə də mərəkələrini. Bir qırıq zəhrimar verirlər, sonra da gəlirlər adamın üstünə ki, bu uşağı instituta itələ. Yox, bacı, yox. İstəmirəm onların hörmətlərini... Onların mərəkələrində oturmaqdan mal otarmaq yaxşıdır.

Bacım üzümə baxıb, baxıb sonra yumşaqlıqla dedi:

– Neynək, ay qağa, getmə qonaqlığa. Heç mən də razı deyiləm. Ancaq o ağacı tulla, bəri gəl evimizə gedək. Sənə eyibdir.

– Yox, axı mən söz vermişəm. Camaat mənə ümidli olub, – deyə yenə razılaşmadım.

Onda bacım daha da dilxor olub acıqla:

– Heç, eybi yoxdur, qağa, – dedi. – Mən atamın qızı deyiləm bilet alıb bu gün səni yola salmasam.

– And içmə, bacı.

– Kişi qızıyam. Dediyimi eliyənəm.

Bacım məndən tamam inciməsin deyə zarafat etdim:

– Afərin. Mənim prinsipial adamlardan xoşum gəlir.

– İndi görərsən. – Qız əlini yelləyib yola düzəldi.

Başım mübahisəyə qatışanda mallar ora-bura dağılmışdılar. Onların ağzını bir yerə yığanacan mənimki mənə dəydi. Qorxurdum ki, heyvan itirəm. Qanunu naxırçı olmasam da, hər halda yaxşı deyildi. Ona görə gah o yana hərlənir, gah bu yana hərlənir, mal-qaranı gözdən qoymurdum. Günortaya yaxın meşəli dağın üstü ilə yastanaya qalxdıq. Fikrim var idi ki, buradan naxırın ağzını geri çevirəm, bayaq qızdan ayrıldığım yerə sarı gedəm. «Bəlkə, danalarının ardınca oralara gəlib çıxdı», – deyə fikirləşir, onu bir də görmək istəyirdim. Ancaq naxırın qabağına keçənəcən heyvanlar yerlərindən qopdular dərənin o üzünə sarı axışdılar.

– Ay inək! Ay üzülmüşlər, buynuzunu qıracam, – deyə yüyürüb orda-burda naxırın qabağına keçmək istədimsə, mümkün olmadı. Dərədə nə vardısa ağır gövdəli inəklər də sözümə baxmayıb fısıldaşa-fısıldaşa xüsusi bir cəldliklə aşağı enirdilər. Arabir ordan-burdan, o şaxdan, bu şaxdan tutsam da, üzüaşağı olduğu üçün özümü saxlaya bilmədim. Ağacların arası ilə yellənib düz mal-qaranın töküldüyü çökəyə gəldim. Uzanıb qalxmış enliyarpaq meşə otlarının daha da qalınlaşdığı yerdə özümü güclə saxladım. Bir addım da ayağımı atsam, suya düşəcəkdim. Sən demə, heyvanlar yaxşı otladıqdan sonra su içmək istəyirlərmiş.

– Ay-hay! – Öz-özümə başımı buladım ki, belə sadə şeyləri unutmuşam.

Məndən bir az aşağı çökəyə doluşub, bəzi yerlərdə sıralanıb, bəzi yerlərdə isə biri-birini itələyə-itələyə, biri-birini buynuzluya-buynuzluya su içən heyvanlara tamaşa etməyə başladım. Uşaqlıqdan beynimin harasındasa ehtiyatda qalmış, çoxdan bəri işlətmədiyim bir səsi dilimin ucuna gətirdim.

– Urroo! Urrooo! – Bilirdim ki, belə səs çıxaranda heyvanlar yaxşı su içirlər.
Nəhayət, mallar başlarını axar sudan qaldırdılar. Sərin sudan sorub qarınları bellərinə çıxmış inəklər daha da ağırlaşmışdılar. Heyvanlar dodaqlarının yanlarından su damcılaya-damcılaya üst tərəf yastanaya çıxanda inəklər dizlərini qatladılar. Deyəsən, yaxşı otlamışdılar. İndi yatışıb dincəlmək istəyirdilər. Mən də aşağı oturdum ki, bir qədər dincimi alım. Yamaca sarı ayaqlarımı uzadıb göy otluğa dirsəkləndim. Buralara daha söz olmazdı, çox səfalı yerlər idi. Amma bir burası vardı ki, bərk acmışdım. Düzünü deyim, bayaqdan qarnım quruldayırdı. Üzlülüyümə salıb qızdan xahiş elədim, o da... Bir də gördüm, odur, eyy, aşağı meşənin ayağından burula-burula tüstü qalxır. «Yəqin, kabab bişirirlər» – dedim. Bəlkə də, məni qonaq etmək istəyən adamlardır. Məni tapmayıb dilxor olublar, acıqcan gediblər özləri vurmağa. İndi bax, orada, o tüstü gələn yerdə, manqalda yağı tökülə-tökülə cız-bızla bişən kabab burada olaydı! Nə yeyərdim?! Bax, o süfrədə ağ-qırmızı görünən şüşələr, əsasən, mənim üçün alınmışdı. Bax, tərs damarıma salmayıb bacımla qayıtsaydım, indi o süfrənin baş tərəfində, görkəmli bir yerde əyləşib özüm üçün kef edirdim. Piyalələr mənə tərəf uzanırdı. Xoş, qanadlı, bəzəkli sözlər mənim ünvanıma deyilirdi. Hər tərəfdən tərif eşidirdim. Yağlı tikələr mənim nimçəmə qoyulurdu.
– Sağ olsun Zöhrab qağam. Yaşasın Zöhrab qağam, – badələr dönə-dönə mənim sağlığıma qaldırılırdı. Belə təmtəraqlı məclislər az görməmişdim. Onlardan necə yeyib doymuşdumsa, ac olmağıma, bağırsaqlarım doğranmasına baxmayaraq, heç indi də bir tikələrini də kəsmək fikrində olmadım. Bir tikə çörək verib sonra adamın boğazına çöküb, «filan işi düzəlt» – deyə az qala adamın canını almaq istəyən belə adamlardan bu gün qaça bildiyimə sevinib, acqarnına arxası üstə uzanmaq, qollarımı yana açıb mavi səmaya, günəşə tamaşa etmək istəyirdim ki, qulağıma tappıltı səsi gəldi. Tez dikəlib oturanda ağacların arasından yanıma bir atlı çıxdı. Yarlı-yaraqlı, dolu bir oğlan idi. Boynuna keçirtdiyi tüfənginin ucu sağ çiyninin üstündən ilan başı kimi görünür, istər-istəməz adamda qorxu hissi yaradırdı. Elə özü də sir-sifətdən zəhmli idi. Qalın bığları sallanıb dodaqlarını örtmüşdü. Üzü də tüklü idi. Paltarından, şapkasından gördüm ki, meşə təsərrüfatı işçilərindəndir. Ancaq mənim yanıma nəyə gəldiyini bilmədim. Düzü, ağlıma elə bir ciddi şey gəlmədi. O isə atının başını çəkib əvvəlcə məni başdan-ayağa diqqətlə süzdü. Əyin-başıma baxdı. Cins şalvarıma, qısaqol üst köynəyimə diqqət yetirdi. Sonra da hiss etdim ki, geyimimə o qədər də əhəmiyyət vermədi. O da qınanmalı deyildi. İndi çoxları belə geyinirdi. Xülasə, gördüm ki, mənim onun qabağında belə arxayın-arxayın oturmağımdan bərk acığı gəldi, hirslə dedi:
– Malını aparacam. Özünü də cərimələməliyəm.

Narahat olmaq əvəzinə, nəyə görəsə bir az elə bil arxayınlaşdım. Guya, onu heç saymırdım. Əslində isə elə deyildi. Mən sadəcə olaraq, günahımı bilmirdim.

– Niyə? Nə etmişəm?

Elə bunu dediyimi gördüm.

– Necə nə etmişəm?! – Oğlan üstümə bərk qışqırdı. Bura sənə örüş-zaddır. Gətirib doldurubsan malı meşəyə.

Onun nəyə irad tutduğunu indi başa düşdüm. Soruşdum:

– Bə harda otarım?

– Əşi, cəhənnəmin isti bucağında otar! Mən nə bilim harda otarırsan otar, – deyə indi də lap bağırdı və atını sürüb yatışan heyvanları qamçılayıb qaldırmağa başladı.

Dilsiz-ağızsız heyvanlara qarşı onun belə qəddar olmağından xoşum gəlmədi.

– Dayan bir görək, nə edirsən?! – deyə cəld qalxıb qabağına qaçdım. İstədim deyəm, əşi, mən naxırçı-zad deyiləm, heç burada da yaşamıram, bu da bir təsadüfdür, arvadlara yazığım gəldi, onların xatirinə gəlib buralara çıxmışam. Yoxsa mən hara, mal otarmaq hara?! Əlbəttə, belə desəm, o, başqa cür hərəkət eliyərdi mənə sərt, kobud münasibətini dəyişərdi. Amma demədim. Fikirləşdim ki, o şeylərin bura nə dəxli var?! Hər kiməm. Lap elə mal otaranam. Bu oğlan bir az mədəni rəftar edə bilməzdi?! Hər şeyin təhəri var axı. Həqiqətən, atını düz üstümə sürüb az qalırdı məni ayaqlasın. Qorxusu-hürküsü yox idi. Əlacım kəsilib əlimdəki ağacı qaldırdım. Dedim, bəlkə, gözü ayağının altını seçə. Sən demə, buna heç nə kar eləmirmiş, dəlinin biri imiş. Atı yenə düz üstümə sürdü, məcbur etməyə çalışdı ki, qabağından qaçım.

Mən də dedim, nə olur, olsun, qaçmadım. Həm də onu başa salmağa çalışdım.

– Ə, yekə oğlansan, düşmən malı ha deyil, camaatın heyvanıdır. Öz camaatımızındır. Ora qoymayın, bura qoymayın. Bəs bu yazıq heyvan neynəsin?

– Mən bilmirəm. Baldırına bağla, qapında otar, – deyə o daha da kobud cavab verdi.

Gördüm başa düşmür, tərs-tərs onu süzdüm. O da elə bildi ki, vuracam, məndən qabaq tərpəndi, qəfildən qamçı ilə vurub əlimdən ağacımı saldı. Yer-göy başıma dolandı. O, atı sürüb inəkləri qabağına qatanda, daha dayana bilmədim. Bu məni nə hesab eləyirdi? Qabağından qaçdıqca ayağı niyə yer alırdı? Demirdimi qarşımdakı da adamdır. Xülasə, hirsli-hirsli atılıb atın üstünə, göz qırpımında çəkib yəhərdən saldım. O mənim, mən onun yaxasından yapışmışdıq ki, səhərki qız bu ara böyürdən çıxdı. Düzü, qızı görəndə ikimizin də əllərimiz boşaldı. Aralandıq. Elə bil heç dalaşıb eləmirdik. Qızın əlində balaca bağlama vardı. Aydındı ki, mənim üçün yemək gətirmişdi. Güman etmirdim ki, gələcək. Amma o gəldi. Bilmədim heç ona təşəkkürümü, minnətdarlığımı necə çatdırım.

Bir-iki dəqiqə qabaq çox acıqlı, qəzəbli olsam da, indi gülümsəyə-gülümsəyə qabağına getdim?

– Sizi əziyyətə saldım. Çox sağ olun.

Qız hələ də heyrətlə baxır, bizim nəyin üstündə əlbəyaxa olmağımızı bilmək istəyirdi. Mən də çalışırdım ki, buna əhəmiyyət verməsin. Bağlamanı əlindən alıb hərəkətlərindən, kobudluğundan acığım gəlsə də, ona qarşı kinim, qəzəbim hələ də ürəyimdə olsa da, indicə savaşdığım oğlana sarı çevrildim.

– Ə, bəri gəl, oturaq çörək yeyək, – deyə aramızda heç bir şey olmamış təkin onu dəvət etdim.

Düzü, duruşundan, baxışından hiss elədim ki, bu meşəçi oğlan da qızın yanında özünü o yerə qoymur. Guya, biz sadəcə olaraq zarafatlaşırdıq. Ancaq dəvətimi qəbul etmədi.

– Yox. Sağ ol. Mən ac deyiləm, – deyə çıxıb getdi.

Atı da, yəqin ki, buralarda olardı. Savaşmağımızdan hürkmüş olsa da, yəhərli-yüyənli at daha çox uzaq getməzdi. Bu məni o qədər narahat eləmədi. Nigarançılığım yalnız camaatın heyvanından idi. Gördüm meşəçi oğlan daha onlara dəymədi, bir az arxayınlaşıb bağlamanı yerə qoydum, özüm də bardaş qurub oturdum. Bağlamanı aça-aça qıza:

– Siz də əyləşin, – dedim. – Ayaq üstə dayansanız yeyə bilməyəcəyəm, boğazımdan ötməz. Mən də, deyəsən, daha ağ eləmişdim. Heç belə üzlü olmağımı bilməzdim. Özümü elə aparırdım ki, guya, bu qız mənə borcludur. Meşəçi oğlanın kobudluğu, deyəsən, məni sırtıqlaşdırmışdı. Qız məndən bir azca aralıda oturdu, ayaqlarını da altına yığdı. Ona daha bir söz demədim. Fikrim əsasən yeməkdə idi. Bağlamanı açanda gözlərimə inanmadım.

– Bəh! Bəh! Bu lap əladır ki! – deyə şappıltı ilə əlimi-əlimə vurdum. Qızardılmış cücə, pendir, yağ, göy-göyərti, yuxa... Daha bundan artıq mənə nə lazım idi?! – Yaxın oturun, birgə yeyək, – deyə qızı da dəvət etdim.

– Sağ olun! Mən yemişəm. – Qız utana-utana cavab verdi.

Mən əllərimi açıb yeməkləri göstərdim.

– Mən bu qədər şeyi yeyə bilərəm?

– Orda nə var ki? – Qız gülümsədi.

– Nə danışırsınız?! Burada azı üç-dörd adamın...

Nə demək istədiyimi qız başa düşüb gülümsədi və mənə rişxənd etdi.

– Bəlkə, on beş adamın...

Mən də zarafata keçdim.

– Ağ eləməyin. On beş adam üçün az olar.

Qız bir az açılışdı.

– Neynim. Sözünüzdən belə görünür ki, az yeyənsiniz.

– Elədir. – Başımı tərpətdim. – Bilirsiniz mən bəzən nə qədər yeyirəm?

Qız xəfifcə çiyinlərini atdı. Həqiqətən, bu haradan bilsin ki, mən nə qədər yeyirəm. Barmağımın birini qaldırdım.

– Bax, bir sosiska.

Qız təəccüb elədi. O da barmağını qaldırdı.

– Elə bircəciyini?

– Hə. – Sonra süfrəyə baxdım. Cücənin ağ döşü dolu budlarının arasına elə bil sığmırdı. Əlimi atıb götürdüm və parçaladım. Budunun birini ağzıma apardım. Az yeməyimdən söhbət açmağıma baxmayaraq, elə dişdəm götürdüm ki, əlimdə quruca sümüyü qaldı.

Qız bildi ki, zarafat eləyirəm. Gətirdiklərini belə iştahla yeməyimdən onun məmnun olduğunu hiss elədim. Əlbəttə, qız nə qədər zəhmət çəkmişdi. Hər bir işini çox səliqə ilə tutmuşdu. Cücəni elə qızartmışdı ki, tox adamın da iştahı gələrdi. Mən də cücəni belə acgöz-acgöz dişimə çəkirdim ki, bayaqkı əhvalat bu ara gözümün qabağına gəldi. İndi o mənə gülməli göründü. Çünki mən hara, savaşmaq hara?!. Hər nə təhər daha özümü saxlaya bilməyib birdən pıqqıldadım. Tez özümü ələ almağa, iş vaxtı boş lağlağıdan uzaqlaşmağa cəhd edib gülüşlərimi içəri salmağa çalışsam da, səsimə qız dedi:

– Nəyə gülürsünüz?

– Nəyə? – Bir az duruxdum. Sonra sözün düzünü deməyi lazım bildim. – Bilirsinizmi vaxtında gəlib çıxdınız. Elə ayıdır, qanıb-qandırmır.

Səmimi etirafım qızın xoşuna gəldi. Həm də hiss elədim ki, bu məsələ ilə qız maraqlanır, bilmək istəyir ki, bizim nəyimiz ortaq düşüb? Amma soruşmağa utanır. Bu qız mənə, əlbəttə, hədsiz hörmət eləmişdi. Mənə yemək gətirmişdi. Demək, qayğıma qalmışdı. Ac qalacağımdan narahat olmuşdu. Bilənə bu, çox böyük iş idi. Bunları fikirləşib məsələni gizlətməyi özüm-özümə məsləhət bilmədim.

– Mənə deyir burda mal otarmaq olmaz. Gör heç sözdür. Bunun üstündəcə.

Qız məsələnin nə yerdə olduğunu başa düşdü. Amma bilmirəm nəyə görəsə dedi:

– Siz o oğlanı tanıyırsınız?

– Yox. Hardan tanıyıram?! – Başımı buladım. Sonra da ondan tamam zəhləm getdiyini bildirdim. – Öz aramızdır, axmaq adama oxşayır.

Qız zəndlə üzümə baxdı. Mənə elə gəldi ki, oğlan haqqında belə sərt fikir söylədiyimə ya təəccüb etdi, ya da mənimlə razılaşmadı, hər nə təhər, bu söhbətin üstündən keçmək istəyirdim ki, qız dedi:

– O oğlanı mən tanıyıram. Bizim qonşu kənddəndir. Tez-tez bizim kəndə də gəlib gedir.

– Belədirsə o, yəqin bilir ki, bu heyvan da elə öz kəndçilərinindir. Onlar, biz, nə təfavütü var, aramız heç üç kilometr olmaz, bəs o niyə belə hörmətsizlik edir. – Mən daha o barədə danışmamağı lazım saydım. Hər nə olub, keçmişdi. Çöllükdür, belə şeylər hər adamın başına gələ bilər. Bu zaman haradansa bu qızgilin danaları yadıma düşdü. – Bax, o dana olmasa idi, mən yəqin ki, ac qalacaqdım, – gülə-gülə dedim. – Sizin dananın çolkası da var.

– Çolka nədir? – Qız maraqlandı.

– Buynuzlarının arasından qaşının üstə bir çəngə tük tökülüb ha, bax o, çolkadır. Ona siz nə deyirsiniz?

– Nə deyəcəyik?! Tük.

– Şəhərdə qızlar saçlarını o formada düzəldib adına da çolka deyirlər. Məncə, kənd yerində də ona nəsə deyirlər. Hə, hə. Cığa. Məsələn, deyərlər ki, cığalı qız. Elə deyil?

Qız çiynini atdı. Mən də bu ara bir az pis oldum ki, bəlkə, yersiz söhbət elədim. Gör heç sözdür?! Cığa belə getdi, cığa elə getdi. Öz-özümü beləcə tənqid edib daha danışmadım. Başımı sallayıb yeməyimi yedim. Əməlli-başlı nahar edib doydum. Bəlkə də, heç vaxt belə ləzzətlə yemək yeməmişdim.

– Sağ olun. Çox sağ olun! – deyə qıza təşəkkür edib bir az qırağa oturdum.

Qız o dəqiqə durdu, gəlib süfrəni yığışdırdı. O belə eliyəndə anam yadıma düşdü. Bax, anam həmişə atamı beləcə yedizdirər, sonra da durub süfrəsini yığışdırardı. Atam çörək yeyəndə anam həmişə onun ağzına baxırdı. Özü də yaxşı söhbətlər eliyərdi ki, kişinin qanı qaralmasın, iştahla yesin, yediyi canına sinsin. Bacımla mən də nəsə müəyyən bir şeyin üstə qanqaraçılıq etmək istəsək, səs salsaq, anam o dəqiqə bizə acıqlanardı.

– Yaxşı. Bəsdir. Qoyun atanız rahatlıqla çörəyini yesin.

Atam da anama qarşı çox mehriban, qayğıkeş idi. Nəsə bir ağır şey götürməyə, əyər-əskiklik barəsində çox fikirləşməyə qoymazdı.

– Sənin işin yoxdur, – deyirdi. – Sən evin səliqəsilə, bişi-düşüsü ilə məşğul ol, qalan şeylərin qeydinə qalma.

Bizə də sözü bu olurdu ki, pis-pis şeylərə qoşulmayın, oxumağınıza fikir verin, ağıllı olun. Bir də canınızı heç vaxt yaddan çıxarmayın, sağlamlığınızı həmişə qoruyun, onu bilin ki, can ələ düşən deyil. Anam da onun sözünə qüvvət verirdi.

– Bə nə?! Bə nə?! – deyirdi. – Ananız sizi bir də ha doğmayacaq.

Atam canına baxan adam deyildi. Elə görürdün ki, evdə də, işdə də uşaq yerinə də yüyürür, böyük yerinə də. Xüsusilə müharibədə çox çətinliklər çəkmişdi. Bədəninin bir neçə yerində qəlpə vardı. Bəzilərini kəsdirib çıxartmışdı. Amma bəziləri qalırdı. Tez-tez şikayətlənərdi ki, incidir. Hərdən görürdün ki, kürəyini anama tərəf tutub:

– Aaz, aaz, sən allah bir belimi qaşı, – deyirdi. – Gicişir.
O da əlini köynəyinin altından salıb onu incidən yeri axtarardı.
– Bax, oranı. Bax oranı, – deyə atam xoşlandığını bildirərdi.
Sonra soruşurdu. – Arvad, bir şey hiss eliyirsənmi?
– Nəyi?
– Əliyin altındakını.
– Əlimin altında nə var?
– Qəlpə.
– Booy! Ətim çimçəşdi, – anam tez əlini çəkirdi.
Ondan sonra üstünə ilan da salsan əlini uzatmırdı. Elə bil qəlpə oradan çıxıb buna dəyəcəkdi. Soruşurduq:
– Ay ana, niyə belə eləyirsən?
– Əlimin altında olduğunu hiss edəndə pis oluram, – deyirdi. – Elə bilirəm ürəyimin başında oynayır.
Bu fikir-xəyaldan ayrılanda gördüm qız yığışıb getmək istəyir. Tez ayağa qalxdım.
– Qoyun sizi ötürüm, – dedim və qızın yanınca getmək istədim.
– Yox. Çox sağ olun, mən özüm gedərəm, – qız razılaşmadı, bir ayağını qaçaraq qoydu. Mən yenə əl çəkmədim.
– Siz məndən ötrü nə qədər əziyyətə düşdünüz, indi mən...
– Heç bir əziyyəti yoxdur, – qız yeyinlədi, mənim onu ötürməyimə imkan vermədi.
Məcbur olub dayanmışdım ki, səs gəldi. Kimsə yaxınlıqda çox böyük həvəslə, eydirə-eydirə oxuyurdu.

*Səsim yetməz, ünüm çatmaz,*
*Harda qaldın, a Xanpəri?*
*Mənciyəzi bu çöllərdə*
*Oda saldın, a Xanpəri.*
*Ağrın allam, a Xanpəri,*
*Dərdin allam, a Xanpəri.*

Oxuyan kim idi? Bu Xanpəri kim idi? Tanıya bilmədim. Ancaq onu bildim ki, bu oxuyan oğlan mahnını sevdiyi qıza özü qoşub. Çünki indiyədək elə mahnı eşitməmişdim. Bir azdan elə darıxdım ki, həmin sözlərə mən də qızın adını qoyub ürəyimdə oxumağa başladım.
Axşam naxırı kəndə gətirəndə məhəlləmizin az qala bütün arvadları qabağıma çıxmışdı. Heyvanlarını naxırdan seçib aparanda hərəsi bir tərəfdən mənə dil-ağız eləyirdi:

– Ağrın allam, ay Zöhrab.

– Atam-anam ... ədə.

Evə gələndə bacıma demək istəyirdim ki, görürsən, camaat məndən necə razılıq edir. Amma o buna imkan vermədi. Mən içəri girəndə, yanımdan qaşqabaqlı tez eşiyə çıxdı. Gülə-gülə:

– Dayan bir sənə sözüm var, – deyə ardınca səsləndimsə də, bacım məni eşitmək istəmədi.

Bu ara gördüm stolun üstə bir bilet var. Düzü, əvvəlcə gözlərimə inanmadım. Dedim, yəqin, köhnə biletdir. Götürüb işığa tutdum, tarixinə diqqət yetirdim. Bilet bu günə idi. Deməк, bacım onu mənim üçün almışdı. Mən Səlminin tərsliyinə bələd idim. Amma mənə qarşı bu qədər qəddar olacağını bilməzdim. Bu qız, həqiqətən, gerçəkləmişdi. Qaldım nə edəm? Dayanıb bir az fikirləşdim. Məzuniyyətimin qurtarmasına hələ çox qalmasına baxmayaraq, çıxıb gedə bilərdim. Mən onsuz da getməli idim. Ancaq bacım qabağımı kəsdi. Fikirləşdim ki, indi məni evdən qovsa da, gedəndən sonra dəli olacaq. Onu da özünə bir dərd eliyəcək. Ağlayıb gözünün suyunu tökəcək. Həm də bu gün ardımca mənə yemək gətirən qızı görmək istəyirdim. Xoşuma gəlmişdi. Ağıllı, sadə qıza oxşayırdı. Bütün günü fikrimdə-xəyalımda o qız olmuşdu. Qərəz ki, həm bu, həm də o məsələ məni bir az təmkinli hərəkət etməyə çağırdı. Bileti də götürüb eşiyə çıxdım. Bacım eşikdə tut ağacının altında inək sağırdı. Bu inək də, əslində, bacımın hesabına qalmışdı. Çünki atam-anamdan sonra mal-heyvanımızın hamısının kökü kəsilmişdi.

– Ay bacı, gəl bunu da sataq, canın qurtarsın. Yoxsa saxlamaq çətindir. – Neçə dəfə təklif etmişdimsə, bacım razılaşmamışdı ki, bəs sən yaydan-yaya gələndə süd içməyəcəksən. Ona görə qışda bir qohuma verib puluynan saxlatdırır, yazda-yayda da öz qapımıza gətirirdi.

Əlimdə bilet gəlib yanında dayandım. Yenə nəsə tərslik edəcəyindən səsimi çıxartmağa qorxurdum. Bacım üsulluca inəyin şüşələnmiş əmcəklərinin ucundan tutub çəkdikcə süd cızqırıb mis badyananın içərisində yan-yörəyə dəyir, çiliklənib qabın divarlarını ağ rəngə boyayırdı. Beləcə süd köpüklənib qalxır, qabın ağzı ilə siləlenirdi. Qeyri-iradi olaraq özümdən razı-razı dedim:

– A bacı, görürsənmi, bu gün heyvanları nə yaxşı otarmışam. İnəyin südünü deyirəm...

Dedim bacım ya dillənməyəcək, ya da köntöy cavab verəcək. Ancaq elə-belə dedi:

– Çox sağ ol, a qardaş.

Təşəkkür etsə də, onun mənə qarşı hələ də acıqlı olduğunu səsindən hiss elədim. Amma malı yaxşı otarmağımdan və buna görə də südün artmasından qırışı-

ğım bir qədər açılmışdı. Əlbəttə, bu, balaca iş deyildi. Badyana baxa-baxa fikirləşirdim ki, həmişə belə ola, əməyin hər yerdə beləcə süd ağlığı ilə daim gözə görünə, köpüklənib aşa-daşa. Nəhayət, mətləb üstə gəldim.

– Bu bilet mənim üçün alınıb?

O qədər alçaqdan dilləndi ki, südün qıjıltısından güclə eşitdim.

– Hə-ə.

– Eləsə mən... – Bilmədim özgə nə deyim. – Hə. Paltarlarımı qablayıbsanmı?

– Qablamışam. Çamadandadır. – Bacım başını aşağı tutdu, elə bil inəyin qarnının altında gizlətmək istəyirdi.

Səlmiyə qıymadım. Başa düşdüm ki, mənə qatara bilet almış olsa da, getməyimi istəmir. Ancaq sadəcə olaraq acığa düşmüşdür, hər nə təhər get deyir, gedərəm, ancaq bu göz yaşı tökmək nə üçün idi? Ona görə:

– Yaxşı. Niyə ağlayırsan, – dedim. – Hiss eləyib inək də südünü çəkər.

– Çəkir çəksin, kim içəcək? – deyə bacım anasının ayağına bağladığı buzovun çatısını açdı, buruntağını alıb inəyin altında durdu.

Bu ara inəyin o biri tərəfindən səs gəldi.

– Ay Səlmi! Ay Səlmi!

Səsindən qohumum ekonomist Sarını o dəqiqə tanıdım. Başıma elə bil bir qazan qaynar su tökdülər. Beləsinə yaxşı deyirlər ki, it əl çəkər, motal əl çəkməz. Tez Səlmiyə yalvardım:

– Ay bacı, qurban olum. Ay bacı, başına dönüm, məni xəbər alsa, deynən burda yoxdur. Deynən harasa çıxıb gedib.

Mənim qonaq çağırılmağımdan, başıma mərəkə yığılmağından bacım çox xoşlanardı. Belə şeyi sevən qız idi. İndi isə elə yalvardım ki, üzümə baxa-baxa qaldı. Ona hay verdi:

– Heyy!

– Aaz, Zöhrab gəldimi?

– Yox! – Cavab verəndə qucaqlayıb bacımı öpdüm.

Səlminin də dönəcəyi yaxın idi. Kin saxlayan qız deyildi. Ona görə gülümsədi və əlini mənə uzatdı.

– Bileti bəri ver görüm. Bakıya gedən var, verim, hayıfdır, batmasın.

Bacımla barışdığıma elə sevinirdim ki, eyvanda tranzistoru qurdalayıb nəsə şən bir şey tutmaq istəyirdim ki, bacım gəlib yanımda dayandı, sakitcə dedi:

– Yaxşı eləmədin, çağırdılar, getmədin. Birincisi, qohumdur. İkincisi, qonşuyuq, sən çıxıb gedəcəksən mən bunların yanında qalacam. Həmişə başıma qaxacaqlar ki, qardaşın bizi əndirmədi.

Elə dedi ki, yumşaldım.

– Axı daha gecdir, bacı.

– Gec olsa da, getsən yaxşıdır. Deyərsən başqa yerə getmişdim, indi gəlmişəm.

– Onda gəl bir yerdə gedək. Sonra da səni bəhanə tutub tez gələrəm.

– Yox-yox! Mən nəyə gedim?! Hamısı kişilər olacaq. Sən özün get.

Məcbur olub durdum. Elə ki mən gedirdim... Nə ekonomist Sarının, nə hoqqar Alının, nə də şetovod Mərdanın üzünü görmək istəmirdim. Bilirdim üçü də orada olacaq. Çünki cur idilər. Az qala bir-birlərilə qaşıq dəyişirdilər. Ancaq bir şeyə görə gedirdim. Deyirdim, bəlkə, təsadüfən yolda-izdə qıza rast oldum.

Elə gözəl gecə idi ki, göydə ulduzlar bir-birini çağırırdı, yerdə də işıqlar. Məni də qohumum ekonomist Sarı çağırmışdı. Amma evlərinə yaxınlaşanda gördüm çoxlu it-küçük var. Çəpərin ardında vurnuxur, gah da başlarını ordan-burdan həyətə soxub sümsünürlər. Hərdən də acıqlı-acıqlı mırıldaşır, az qalırlar bir-birinin əllərini-ayaqlarını yesinlər. Həqiqətən, elə həmin dəqiqə bunların arasına bir boğuşma düşdü ki, dedim indi gəlib məni də tutacaqlar. Arada bir balaca küçüyü də necə dişlədilərsə, bağıra-bağıra gəlib mənim yanımdan qaçdı. İtlərdən ehtiyatlanıb çəpərə sarı sivişsəm də, küçüyün belə qaçması məni bir az elə bil ürəkləndirdi. Əlimi yerdə gəzdirib bir-iki sanballı daş tapdım. Sonra onları dal-badal itlərin yığnağına necə atdımsa, o dəqiqə aralanıb dağılışdılar. Mən arxayın-arxayın ekonomist Sarının doqqazına yaxınlaşdım. Eşitdim danışırlar. Özləri də qızışıb elə hündürdən-hündürdən danışırlar ki, dedikləri aydınca eşidilir. Eşitdim qohumum Sarı deyir:

– Yoldaşlar, bilirsiniz ki, pərtəm. Dedim içərəm keçər, amma daha da pis oluram.

Məclisdəkilərdən kimsə səsləndi:

– Ayə, elə şeyə görə kefini pozma.

– Yox eyy, ona görə pərtəm ki, mənim kimi dağdan ağır kişinin sözü yerə düşür. Mən axı niyə onu minnətdirirəm ki, o da özünü toy toğlusu kimi dartır. Evdə ola-ola özünü danızdırır.

Söhbətin mənim barəmdə getdiyi aydın idi. Misal var, deyərlər ki, milçək bir şey deyil, amma könül bulandırır. Bəlkə də, o haqlı idi. Bəlkə də, mən düzgün hərəkət eləmirdim.

Yenə ekonomist Sarının səsi gəldi:

– Yenə kişi özümüzü gördüm, ayə.

– Uraaaa. – Kimsə yerindən qışqırdı. Amma sonra nə oldusa, boğazında nə qaldısa, cüyüldədi.

– Təklif budur ki, içək özümüzün sağlığına.

– Sağ ol, Sarı! Sağ ol! – Məclisdəkilər yer-yerdən səsləndilər.

Qulaqlarıma inana bilmirdim. Yerimdəcə quruyub qalmışdım.

Düzü, mənim barəmdə bu cür söhbət olacağını heç ağlıma da gətirməzdim. Özü də kim? Doğmaca qohumum. Başqa vaxtlar bu mənə bir dillər tökür ki, deyirsən daha ondan yoxdur. İndi isə...

– Belə ikiüzlü adamın çörəyini kəsməyə dəyməz, – deyə qəti qərarla doqqazdan geri durdum.

Qonaqlığa getməsəm də, evə qayıtmaq istəmədim. Bacım üstümə düşəcəkdi ki, niyə tez gəldin? Nə deyəydim? Düzünü deyəcəkdim, bacım onu da özünə bir dərd eliyəcəkdi. Bəs nə edim? Gecə vaxtı iki çəpərin arasında fikirləşə-fikirləşə qalmışdım. Qohumum Sarının mənim ünvanıma haqq-nahaq sözlər deməsi hər halda, mənə çox pis təsir eləmişdi. Ürəyim partlamağa gəlirdi. O qədər pis olmuşdum ki, bu gün meşədə o oğlanla dava-dalaş eləməyimiz də yadımdan çıxdı, bilmədim ki, nə edəm. Beləcə ağır düşüncələr içərisində Sarının doqqazının ağzından aralandım, bir də gördüm gəlib bir çəpərin ardında dayanmışam və həyətlərinə baxıram. Evlərinin böyründəki balaca meydançada mal-qaraları yatışırdı. Eyvanda yanan lampanın işığında bunlar aydınca görünürdü. Bax, o inəkləri idi, o düyələri, o biri ayaq üstə olan da danaları idi. O dəqiqə tanıdım. Qəribə burası oldu ki, mən ona baxanda bugünkü sevincimə mane olan dana birdən qarnını şişirib «bööö» elədi. Elə bil qarnında dərdi-azarı vardı, «bööö» elədi ki, hamısı tökülüb itsin. Az qaldım mən də onun təkin «bööö»liyəm, bəlkə... Sonra fikirləşdim ki, belə bir yerdə durmaq yaxşı deyil, görən olar, deyər bu niyə burda dayanıb? Cürbəcür fikrə düşənlər olar. Ona görə yavaş-yavaş evimizə tərəf gəlməyə başladım. Fikrim var idi ki, bir az gəzim, vaxt keçsin. Təsadüfə baxın ki, Xeyransa arvadın evinin ardına gələndə Sənəmə rast oldum. Bu görüşümüzə ikimiz də təəccüb etdik. Qız təntiyib qaldı.

– Axşamınız xeyir, – mən tez dilləndim.

Qız özünü ələ aldı.

– Axşamınız xeyir.

Düzü, mən özüm də bir az özümü itirən təki olmuşdum. Birdən qız elə bilər ki, mən məhz onu görmək məqsədilə bura gəlib çıxmışam. Qəsdən onun qabağını kəsirəm. Yaxşı deyil, deyər ki, üz verdik, astar da istəyir. Ona görə özümü sərbəst aparmağa və bir qədər də laqeyd olmağa çalışdım.

– Xeyir olsun, belə hardan?

– Xalamgildən gəlirəm, – qız da utanıb sıxılmadan cavab verdi.

– Gecə vaxtı tək qorxmursunuz?

– Nədən qorxacağam?! Adam yeyən var?!

– Hər halda. İndi sizi ötürmək lazımdır, – deyə yanına düşdüm.

Bu dəfə qız etiraz eləmədi. Dinməz-söyləməz bir qədər getdik.

Ancaq mən çox asta-asta gedirdim. Demək olar ki, ayaqlarımı sürüyürdüm. Mən olmasaydım, indi bu qız evlərinə çoxdan çatmışdı. Bəlkə də, evdə vacib işi

vardı, tez getməli idi. Amma utanıb dillənə bilmirdi. Mən isə danışmağa maraqlı bir şey axtarırdım. Xatalı təki yadıma heç nə düşmürdü. Elə bil heç nə görməmişəm, heç nə eşitməmişəm. Bu ara qız özü mənə müraciət etdi.

– Zöhrab müəllim.

– Bəli, – tez qıyqacı ona baxdım.

– Bilirsinizmi, bəlkə də, bunu demək artıqdır, ancaq bir şeyə görə demək istəyirəm. Sonra biləndə, eşidəndə nəsə artıq söz-söhbət olmasın.

Qız elə başladı ki, istər-istəməz şübhəyə düşdüm. Birdən-birəcə ürəyim üzüldü, dedim, görəsən, nə deyəcək. Cəmi-cümlətanı bizim tanışlığımızın bircə günlük ömür tarixi vardı. Görəsən, bu qız...

– İstəyirəm bu gün meşədə savaşdığınız oğlanla sizi tanış edəm. Bilirsinizmi o sizin bacınızı istəyir. Bu gün-sabah elçi gələcəklər.

– Belə deee! – Əlimi qaldırıb çənəmi ovuşdurdum. Bu gün onu atdan çəkib salanda, eləcə əzişdirmək istəyirdim, ancaq yerə düşəndə gördüm bu xına o xınadan deyil. Kələ-kötür oğlan idi. Hələ, deyəsən, yontalanmamışdı. İndi qız belə deyəndə bütüncə qanım qurudu. Gör təsadüf necə gətirmişdisə, gələcəkdə yeznəm olacaq bir adamla ilk görüşdən çəp gəlmişdik, az qala qanlıbıçaq olmuşduq. Qanımızın arasına bu qız girmişdi. Yoxsa ikimizin də dəliliyimiz tutmuşdu, yəqin ki, tarappa-turup düşəcəkdi. Bunlar bir-birini haradan tapıblar? Necə olub ki, bacım Səlmi elə bir axmaq oğlana rast gəlib? Bəs bu qız görmürmü ki, bu oğlan heç nə başa düşən deyil. – Mən haman o meşəçi oğlana qarşı kinli-kinli düşünəndə qız çox səmimi bir şəkildə:

– Eləliyinə baxmayın. Yaxşı oğlandır! – dedi.

– Yalansa ona nə deyim! – Bədgümanlıqla dilləndim. Əlavə etmək istədim ki, eləsi ömründə yaxşı ola bilməz. Bir adam ki, gecə-gündüz meşədə ola, ondan nə ummaq olar. Aparıb qızın günün qara eliyər. Ancaq fikrimi bu qıza bildirmədim. Artıq söz nəyə lazım idi. Əksinə, gülə-gülə:

– Nə olar? – dedim. – İstəmək bəyəm qadağandır?!

Mənim oğlana qarşı belə kinsiz olmağımdan, ona bir növ xoş münasibət bəsləməyimdən qızın, deyəsən, xoşu gəldi. Gülümsəyərək şən-şən başını tərpətdi.

Axşam yerimə uzanıb yatanda belə güman edirdim ki, yenə arvadların səsinə obaşdan oyanmalı olacağam. Amma səhər oyananda gördüm gün günorta olub. Tez şalvarımı qıçlarıma çəkib eşiyə çıxdım.

Sən demə, bacım çoxdan qalxıbmış. Durub çay-çörək hazırlayıb. Tut ağacının altına qoyduğumuz stolun üstə səliqəli bir süfrə açıb, samovarı da dızıldaya-dızıldaya oxuyur. Məni eyvandan həyətə düşən pilləkənin başında görcək şən-şən:

– Ay qağa, nə çox yatdın, – dedi. – Görünür, dünən qonaqlıq çox çəkib. Mən gözləyib-gözləyib yatmışam, nə vaxt gəlmisən xəbərim olmayıb.

– Hə-ə, uzun çəkdi, – qonaqlıqda olmamağımı, orda-burda fırlanıb evə özüm qəsdən gec gəlməyimi ondan gizlətdim. Hələlik belə lazımdı. Sonra necə olacaqdı bilmirəm.

Mənim heç nədən xəbərim olmayıb. Bu gün novata kim getdi, camaatın mal-heyvanını çölə otarmağa kimin apardığını xəbər aldım.

– Tükəzban arvad. – Bacım yerə baxdı.

Başımı buladım. Gecdən-gec dedim:

– Belə yaramaz. Danışmaq lazımdır. Yoxsa bu da camaata bir azar olub. – Birdən yadıma düşdü ki, demək olmaz, bacım qonaqlıqdan söhbət salar, soruşar ki, necə gəldi. Çaşıb qalaram. Bilmərəm nə deyim. Ona görə əlimi alnımın üstə qoydum, dedim. – Başım ağrıyır.

Bacım tez çay süzdü.

– İç, – dedi. – İndi kəsər. Yəqin, çox içmisən.

– Yox əşi, – əlimi yellədim, yəni daha o barədə bir söz soruşma.

Mən qaynar-qaynar çay içəndə dünən dalaşdığım oğlan yadıma düşdü. Altdan-altdan bacıma baxdım və öz-özümdə bunları müqayisə elədim. Belə bir gözəl-göyçək, incə-mincə bir qızı o cür kələ-kötür oğlana heç cür yaraşdırmadım. Fikir elədim ki, bəlkə, elə boş söhbətdir, bu barədə indidən narahat olmağa dəyməz.

İki gün sonra isə üç-dörd maşın adam qapımıza töküləndə içərilərində də haman oğlanı görüb dəli olmadımmı. Elçiləri az qaldım elə qapının ağzından qaytaram. Deyəm çıxın gedin, sizin itkiniz bizdə yoxdur. Birtəhər özümü saxladım. Yanıb-tökülürdüm ki, gör kimə rast gəldim. Gör kimnən durub-oturmalı olacam. Maşında qalmış oğlan tərəfə baxa bilmirdim. O da quruyub qalmışdı. Özünü gizlətməyə çalışsa da, o boyda gövdə hər yerdən görünürdü. Mətləb açılandan sonra bizimkilər mənim üzümə baxdılar. Əsas söz mənim idi. «Hə», «yoxu»nu mən deməli idim. Mən də üzdə büruzə verməməyə çalışdımsa da, içəridə partlamağım gəlirdi. Axırı bacımın rəyini, razılığını nəzərə almadan özüm öz yanımdan:

– Yox. Mən oğlanı tanımıram! – deyə qəti etiraz elədim. Gələnlər durub kor-peşman gedəndən sonra bu münasibətlə bizə yığışmış qonşular üstümə düşdülər.

– Niyə belə elədin? Adam o cür iş tutardımı?!

Sən demə, naxıra dana qoşan qızın – Sənəmin nənəsi Zəlihə qarı da bizdə imiş. Əlindəki əsa ilə mənim qoluma-qıçıma vura-vura:

– Ədə, bu qızı yanında nə vaxtadək saxlayacaqsan. Nə vaxtadək sənin evinə qarovulçuluq eliyəcək?! Qoysana gedib ev olsun, eşik olsun. – dedi.

– Əşi, el adamına oxşamır, – deyə oğlanın heç xoşuma gəlmədiyini bildirdim.

Hərə bir yandan təəccüblə üzümə baxdı.

– Necə yəni el... Camaatın bura nə dəxli var?

– Niyə yoxdur?! Var! – Mən də uşaq təki ağzımı kənara tutdum. Sonra durub əlimi cibimə dürtüb saymazyana gəzməyə getdim. Daha heç kəsə fikir vermədim. Bir xeyli oyan-buyanda fırlandıqdan sonra bulaq tərəfdən gələndə yolda Sənəmə rast oldum. Məni görcək:

– Zöhrab müəllim, siz allah bağışlayın, – dedi.

Onunla mənim aramda heç nə olmamışdı. Ona görə təəccüb etdim.

– Nə olub, Sənəm?

Bu qızın xasiyyəti elə idi ki, elə bil hər bir sözünə bir təbəssüm qatırdı. Onda qız daha mehriban, daha səmimi görünürdü. Və Sənəm bu cür mənim çox xoşuma gəlirdi. Düzü, belə görünüşdə qızdan ötrü lap ürəyim gedirdi.

– Deyəsən, nənəm sizi bir azca döyüb, hə?

Bildim nəyi deyir, o dəqiqə şən halda başımı tərpətdim.

– Hə, hə. Döydü də sözdür. Lap qolumu-qıçımı sındırdı. – Gördüm qız bir az pis oldu. Tez zarafat etdiyimi bildirdim. – Əşi, eybi yoxdur, bağışlayıram, qoca arvaddır.

– Evdə üstünə düşmüşəm ki, ay arvad, sən nə etmisən? Başına hava gəlib, nədir. Mənə deyirsiz cavanların başına hava gəlib... Amma siz də yaxşı eləməmisiniz, Zöhrab müəllim. O cür də olmaz!

– Bəs nə cür olar? – Bir qədər açıq ifadə edən tərzdə sual etdim.

Qız özünü məndən təmkinli apardı. Çox sakit bir halda:

– Öz aramızdır, Zöhrab müəllim, – dedi. – Elin söhbəti eləmisiniz, axı orada camaat nə gəzirdi.

– Camaat özü yox idi, amma camaatın heyvanı orada idi. – Qeyri-iradi olaraq səsimi qaldırdım.

Nəyə görəsə qız üzümə baxa-baxa qaldı. Ya dediyimi başa düşmədi, mənası ona çatmadı. Ya da təəccüb elədi ki, nə üçün mən belə sözlər danışıram. Bəlkə də, bu qız mənə dəli kimi baxdı. Yəqin, dedi ki, bu oğlanın ağlı yerində deyil. Təəccüb elədi ki, bu ki ağıllı oğlan idi, yazığa nə oldu ki, birdən-birə azdırmağa başladı. Elə mən deyən kimi fikirləşdiyi üçün də birdən-birə:

– Sağ olun, Zöhrab müəllim, məni gözləyirlər, – deyə tələsdiyini bildirərək məndən aralandı, çiynində səhəng bulağa sarı getdi.

Bütün kəndə yayılmışdı ki, bəs Xancallı Qərib kişinin qızına yuxarı kənddən elçi gəlibmiş, qardaşı verməyib. Deyib o nədir ki, ona qız verərəm, heç it küçüyüm də olsa vermərəm. Hər nə təhər birinin də üstünə beşini qoyub danışırdılar və bir-birlərindən soruşurdular.

– Ayə, bu Zöhrab onu hardan tanıyır? Bu Bakıda, o burda kənddə olur, onu harda görüb ki?

Mən isə belə sözlərə fikir vermirdim. Kim nə deyir desin. Daha vacib işlərlə məşğul idim. Şəmməd kişini görüb camaatın heyvanı barəsində onunla danışmışdım.

– A kişi, – demişdim. – Sən bu camaatın heyvanın niyə ortalıqda qoymusan? Niyə otarmırsan?

– Harda otarım, a bala? – O da əllərini açmışdı. – Örüş yoxdur, örüş! Örüş versinlər otarım.

Görmüşdüm düz deyir. Kənd sovet sədrinin yanına getmişdim. O da cavan adam idi. Məndən bir neçə yaş böyük olardı. Amma hamı ondan razılıq edib deyirdi ki, yaxşı oğlandır, hər şeyin yerini biləndir, düz adamdır. Mən ağzımı açanda o, gülə-gülə:

– Ayə, a şəhərli qardaş, – dedi. – Siz elə bilirsiniz biz sizin dərdinizi çəkmirik?

– Çəkirsiniz, bəs niyə?..

– İmkan yoxdur, qardaş, imkan. Bax, kəndin həndəvərini görürsən ki, hamısı sovxozun əkin yerləridir. Bax, o kol-kos da bütüncə meşə təsərrüfatınındır. İndi gəl koru körpüdən keçir. Mən evini allah yıxmış nə qayırım? Başıma haranın daşını salım?

Bu elə dedi ki, daha danışmağa sözüm olmadı. Bir ara ikimiz də susduq. Yenə o danışdı.

– Bir qaldı o Daşdı güney.

– İnsafınız olsun, qardaş, insafınız olsun. Camaat yazıqdır. – Bu iş üçün onu tənbeh elədim.

Deynən ağzını açıb bir söz dedimi? Xeyr. Fikirləşdim ki, yəqin, səhvini başa düşüb dillənmir, düşünür ki, görsün necə etsin, camaatın bu işinə necə əncam çəksin. Sonra dedi:

– İnsafımız da var, mürvətimiz də, amma örüşümüz yoxdur. İndi sən de, mən də eləyim.

– Mən bilmirəm.

– Bax, görürsən ki! – Sədr əllərini açdı və bu vəziyyətdə bir xeyli xəyala dalmış təki qaldı. Sonra birdən durdu. – Qalx gedək vuraq.

– Nə? – Təəccüb etdim.

– Vuraq.

– Qəribə oğlansan.

– Niyə?

– Mən sənin yanına gəlmişəm...

– Gedək. Gedək! – deyə o, qətiliklə əlini yellədi.

Məcbur olub durdum.

İki yüz, üç yüz tullayandan sonra örüş-mörüş hamısı yadımdan çıxdı. Yadımda bircə Sənəm idi. Necə şeydisə bu qız başımdakı fikirlərin hamısını sıxışdırıb çıxartmış, bütün varlığıma elə bil özü hakim kəsilmişdi. Belə ki indi yalnız onun haqqında fikirləşirdim. Elə istəyirdim söyləyəm ki, o bizim Qara Qafarın nə qəşəng qızı varmış. Canın üçün ölmüş dünya gözəlidir. Özü də yaman ağıllı, mehriban qız imiş. Hətta az qalırdım onun mənim dalımca yemək gətirdiyini də deyəm. Deyəm ki, o qız yaman xoşuma gəlib. Mən bu haqda fikirləşirdim ki, sədr dedi:

– Deyirlər, aşağı kənddən adamlar gəlibmiş, qaytarıbsan.

Aydın idi ki, kimləri soruşur. Kobud cavab verdim.

– Ə, qoy rədd olsunlar. Camaata – deyir – it hürər, mənə də çaqqal.

Deyəsən, məndən belə söz gözləmirdi. Məna ilə üzümə baxıb-baxıb susdu, bir söz demədi. Hiss elədim təəccübləndi ki, bu nə cür danışıqdır, özü də yekə, oxumuş adamdır, şəhərdə yaşayır, bizim ağıllımız, alimimiz belə olanda, bəs onda dəlimiz necə olar. Onda gərək dəlisini görəndə baş götürüb bu ölkədən çıxasan. Mənə elə gəldi ki, buna görə sədr dostum xeyli pis oldu, ürəyindən elə bil nəsə qırılıb düşdü. Amma çalışdı ki, bütün bunları büruzə verməsin. Hər nə təhər pərtliyimi mən də gizlətdim və bununla bərabər, bu sözə görə onun ağzından vurmağıma, ümumiyyətlə, bu söhbətin ardına daş dığırlamağıma sevindim. Bundan sonra da nə qədər yeyib-içdik, ayağa duranda hiss elədim əməlli-başlı dəməm, sədrə heç təsir eləməmişdi. Bəlkə də, özü az içmişdi. İndi yadıma düşdü ki, deyəsən, axıradək içməyib qədəhlərinin dibində saxlayırdı. Amma mən elə bil görməmişəm... Buna görə ürəyimdə özümü danlaya-danlaya fikirləşdim ki, belə kənd arasına çıxmaq ayıbdır. Sədr dostumun harasa tələsdiyini və onun nəsə vacib işi olduğunu hiss eləyib əlimi uzatdım.

– Mən meşəyə gəzməyə getmək istəyirəm. Bir az hərlənəcəm. – Onunla görüşüb ayrıldım.

Məni də harda itirsələr meşədə tapardılar. Meşədən ötrü yanırdım. Könlümə gəzmək düşəndə mütləq meşəyə gedirdim. Halbuki sovxozun elə bağ sahələri vardı ki, ucu-bucağı görünmürdü. Bağları əlimdən alan yox idi. Əksinə, sovxozun rəhbərləri özləri dəvət edirdilər.

– Bağa gəl, – deyirdilər. – Yaxşı dadlı meyvələrimiz var. Gəl qonağımız ol.

– Əşi, meyvə evimizdə də var.

– Ağacdan dərib yeməyin ayrı ləzzəti var.

– Yaxşı. Gələcəm, – söz verirdim.

Amma evdən çıxanda görürdüm yenə meşəyə gəlmişəm. Lap yuxarılara çıxa bilməsəm də, aşağı ətəklərdə gəzib dolanır, günümün çoxunu oralarda keçirirdim. Bir az içdiyimdən indi kol-kos məni daha çox çəkirdi. Meşənin

ətəyindəki zoğallıqda bir neçə uşaq vardı. Biri o zoğal ağacının başına çıxmışdı, biri bu zoğal ağacının. Onların şax-şəvəri, sıx yarpaqları arasında iri quş yuvaları təkin qaralırdılar. Məni görəndə bir-birlərilə baxışdılar. Sonra bir-birindən soruşdu. Elə ucadan deyirdi ki, bir qədər uzaq olsam da aydın eşidirdim.

– Ayə, o kimdir?

O da xeyli baxıb, nəhayət, dedi:

– Nə bilim, ayə. Yolunan keçəndir.

Yaman pis oldum. Az qaldım qışqırıb deyəm ki, ə, köpək uşağı, mən olanda siz hardaydınız? Heç ananızın qarnında da deyildiniz. İndi məni tanımırsınız? İndi mən yoluna keçənəm. Zərər yoxdur, Bakıya oxumağa gələndə sizdən xəbər alaram. Atanızı yandırmaq mənə borc olsun. Əlbəttə, bu elə-belə söz idi. Yalan-gerçək ürəyimdə uşaqları beləcə yanıya-yanıya gedirdim ki, Səlmini istəyən oğlan qabağıma çıxdı. Hayana gedirdim bu da mənə rast olurdu. Elə bil bağrı mənimlə badaş idi. Özü də indi də atlı idi. Mən meşəyə gedirdim, o isə meşədən gəlirdi. Görünür, bizim kənddə işi vardı. Bəlkə də, bizdən keçib öz kəndlərinə gedəcəkdi. Öz işi idi. Mənim gücüm bir ona çatdı ki, tez üzümü yana çevirdim, onu heç görmək istəmədim. Bununla ona bildirmək istədim ki, mən adama salam verrəm, sənə yox. Ağlıma gəldi ki, mənim belə eləməyimə, sərt hərəkətimə baxmayaraq, o, salam verməyə, mənimlə bir ünsiyyət yaratmağa çalışacaq. Amma o da dillənmədi, səssizcə yanımdan ötüb keçdi. Öz-özümə:

– Öz işini bilir, – dedim, – bilir ki, havayı işdir, yüz cürə dil töksə də, qabağımda diz çöksə də, ona qız verən deyiləm.

Yaxşı yeyib-içməyim bir yana qalsın, həm də bu fikirdən kefim bir az da kökəldi. Gedib yalı-yamacı, o dərəni, bu dərəni gəzib dolandım. Qayıdan başı ordan-burdan da bir yekə qom gül-çiçək dərdim. Dürmək bulağından doyunca su içib fıştırıq çala-çala evə dönmək istəyirdim ki, görəm bu «gədə» atdan düşüb yolun üstündəki çəmənlikdə uzanıb, dirsəklənib. Atı da bir tərəfdə otlayırdı. O dəqiqə barmağımı dişlədim. Bildim ki, bu, boşu-boşuna deyil. Bildim ki, bu «gədə» mənimlə danışmaq istəyir. Düzü, mən bunu arzu eləməzdim. Nə danışacaq axı?! Bizimki əzəldən düz gətirməmişdi. Aramızda elə münasibət yaranmışdı ki, indi bir-birimizin kölgəsini qılınclayırdıq. Ona görə gen gəzsək daha yaxşı idi. Amma bu oğlanın fikri, deyəsən, başqa cür idi. Haqq üçün, məni görəndə ayağa qalxdı, əynini-başını bir az səliqəyə saldı. Köhnədən aramızda incikliyimiz, lap düşmənçiliyimiz olsa da, hər halda, ədəb-ərkan gözlədi. Belə fikir elədim ki, o, hələ də qızdan əlini üzməmişdir. Hələ də ümidlidir ki, mən yumşala bilərəm. Ay-hay! Elələriylə durub-otursaydım heç camaatın üzünə çıxa bilməzdim. Tanış-biliş məni tənbehləyərdi. Heç etməsələr də, mən özüm... Qərəz ki, belə kinli-kinli düşünürdüm ki, oğlan məni səslədi:

– Zöhrab müəllim!

Qəzəbimi boğub səsimi çıxartdım:

– Buyurun.

Belə deməyim onu bir az ürəkləndirdi.

– Mən əvvəlcədən sizdən üzr istəyirəm.

Düzü, oğlanın belə iltifatlı, böyük-kiçik gözləyə-gözləyə danışması məni bir qədər təəccübləndirdi. Ancaq yenə də ona qarşı kinimi soyutmadı. «Görür başqa cür işi keçmədi, indi məni qılıqlamaq istəyir» – dedim. Buna görə də dinmədim, dayanıb gözlədim ki, görüm nə deyir:

– Bəlkə də, belə deməyim artıqdır, ancaq məcburam. İnanın ki, yoxsa ürəyim partlamağa gəlir. Nə üçün axı mənə o cür ittihamnamə verilsin. Mənim camaata nə pisliyim keçib? Nə yamanlıq etmişəm camaata?

O dəqiqə bildim ki, hansı söhbətdir. Dediyimin üstündən necə qaça bilərdim. Necə deyə bilərdim ki, bəs yalan sözdür, elə şey olmayıb. Yaxud olubsa da, elə-belə olub, zarafat eləmişəm. Kənddə bu barədə nağara-zurna çalırdılar. Eşitmişdim birinin üstünə də beşini qoyub danışırdılar. Guya, o oğlanı mən endirmirəm, guya, özümə tay-bərabər hesab eləmirəm. Əslində isə elə deyildi, sadəcə olaraq oğlanın xasiyyətindən xoşum gəlmirdi. Ona görə... İndi oğlan gördü mən dillənmirəm, o öz sözünü dedi:

– Bir də, Zöhrab müəllim, kimin camaata daha çox canı yanır onu bilmək olmaz? Camaatın bir dəfə mal-qarasını otarmaqla ha iş bitmir...

Gördüm bu məni sancır. Düzü, o belə deyəndə, yanıb-töküldüm. Az qaldım yaxasından tutub soruşam, – bəs mənim oradakı işim? O ki hər il dəstə-dəstə tökülüb gəlirlər üstümə... Onları adam eləmək elə bilirsən asan işdir? Ancaq başqa söz dedim:

– Sən de görüm canı yanmaq nə təhər olur?!

Gördüm cavabımı ləngidir. Qəsdən onu sancdım:

– Yoxsa at minib meşədə gəzməknəndir. – Bu o demək idi ki, sən nə edirsən?! Bu onun işini, fəaliyyətini kiçiltmək idi. Bu onun əməyinin səmərəsinin çox az olduğunu, cüzi olduğunu demək idi. Fikirləşdim ki, bununla onu yandırıb-tökəcəm. Ona həyatda yerini bildirəcəm ki, daha çox da döşünə döymə. Bundan sonra onun ağzını açmağa imkanı olmayacaq. Biləcək ki, yox, elə deyil, belədir. O isə «hm» – eləyib fınxırdı. Sonra soyuqqanlıqla:

– O da lazımdır, Zöhrab müəllim, o da lazımdır, – dedi. Bəs eşitməmisiniz, deyərlər ki, meşəsi çox olan yerin qəbiristanlığı az olar.

Bu, qəfil atılan güllədən də betər oldu. Məni elə bil qaldırıb yerə vurdular. Özümə gəlməmiş yenə o dedi:

– O gün də malı salmısınız meşəyə. Bilirsiniz nə qədər ziyan vurub?!

– Nə ziyan? – Təəccübləndim.

– Bax, o həmin yerlərdə təzə şitillər əkmişik. Çoxu da meyvə ağaclarıdır. İnanın hamısının başını mal otlayıb. Bir quru çubuqları qalıb. Bəziləri də heyvanın dırnağında gedib.

«Hm» – günahımı indi başa düşüb təzədən şok vəziyyətinə düşdüm. İndi bildim ki, o gün o oğlan niyə belə qəzəbli, acıqlı imiş. Mənə qarşı hər cür kobudluq etmiş olsa da belə haqlı imiş.

– Zöhrab müəllim.

Necə oldusa ona:

– Bəli, – dedim və onun qarşısında özümü yığışdırdım. İnstitutda mənim bunun kimi yüzlərlə tələbəm vardı. Məni görəndə bilmirdilər başlarını harada gizlətsinlər, lap siçan deşiyini satın alırdılar. Amma indi mən bunun qabağında...

– Deməyim budur ki, üstümüzü unlu görüb, adımızı dəyirmançı çağırmayın. Az-çox bizim də ağlımız var. Camaatın nə olduğunu biz də başa düşürük.

O dəqiqə bildim ki, hardan vurur. Mən də onu güllələməyə yer axtardım. Nəyinsə ardına sinib atım. Amma heç nə... tapa bilmədim. Sonra fikirləşdim ki, mən bu «gədənin» yanında niyə dili qısa olum. Niyə minnət götürüm. Ona görə:

– Yaxşı, mənim o verdiyim ziyan necə olacaq? – dedim.

– Ziyanı ödəməlisiniz, Zöhrab müəllim.

– Necə? Nə yolla?

– Cərimə olunubsunuz. Gəlib baxıblar. Yoxlayıblar. Yəqin ki, bir-iki günə sizi çağıracaqlar. Yaxud əvvəlcə kağızı gələcək. Xülasə, bu artıq sənədləşdirilib. Amma... Mən yenə diksinən təki oldum.

– Nə amma?..

– Amması budur ki, ziyanı ödəsəniz də, xeyri yoxdur. O şitillərin çoxu bir daha göyərməyəcək.

Bu belə deyəndə, məni elə bil divara dirədilər. Şaraqhaşaraq atıb başımdan, qolumdan, qıçımdan güllələdilər. İnanın ki, oğlanın qabağında ayaq üstə güclə dayanmışdım. Bu zalım oğlu məni yaman qısnamışdı. Özümü müdafiə eləməyə bir qırnıq da olsa imkanım yox idi. Oğlan özü də bunu hiss eləmişdi. Ona görə daha uzatmadı. Onsuz da sözünün hamısını canıma döşəmişdi.

– Bağışlayın, Zöhrab müəllim. İşim var, mən gedim.

– Buyurun. Buyurun. – Mən daha onu gözləməyib yoluma davam etdim. Amma düzünü deyim yaman pərt idim. Yan-yörəmdə bir canlı-cinli olmasa da, başımı qaldırıb kol-kosun, ağac-uğacın da üzünə baxmağa xəcalət çəkirdim. Düzünü deyim həm də möhkəm acıqlanmışdım. Oğlanın qanuni iş tutduğunu başa düşsəm də, düzgün hərəkət etdiyini bilsəm də, yenə müəyyən mənada ondan inciyirdim. Belə düşünürdüm ki, o haradasa mənə qarşı bir az qanacaqsızlıq

edib. Bəlkə də, bu ona görə belə idi ki, indiyədək heç kəs mənim barəmdə bu cür hərəkət eləməmişdi, öz kəndimizdə də, qonşu kəndlərdə də, ümumiyyətlə, hər yerdə məni hər vaxt hörmət, izzətlə qarşılamışdılar. Hara getmişdimsə də orada camaatın nəzər-diqqətində olmuşdum. Hər yerdə xoş söz eşitmişdim. İndiyədək bir sözümü iki eliyən olmamışdı. İndi... meşə təsərrüfatının adi bir işçisi mənim üstümə şeşələnmişdi, hələ bir üstəlik məni cərimələmişdi də. Özü də Səlmini istəyir. İstəyir yeznəm olsun. Bəs o bu barədə fikirləşmirmi ki, o cür adamı evin heç kandarına da yaxın qoymaq olmaz. Eləsini görəndə gərək bir verstlik aralıdan keçəsən ki, bəlkə, şəlpəsi sənə dəyməsin. Belə-belə çox fikirləşdim ki, bu oğlanı başa düşəm, bir şey anlaya bilmədim. Əksinə, ona qarşı kinim-qəzəbim biraz da artdı. Elə səhəri gün hamıdan gizlincə avtobusa minib rayon mərkəzinə getdim ki, bu iş ağarmamış, cərimələnməyim dilə-ağıza düşməmiş haqq-hesabı çürüdüm. Qorxdum orda-burda şəbədə eləyib gülsünlər ki, bəs Zöhrab müəllimin başına belə bir iş gəlib. Tam bu fikirdə idim ki, eşidən-bilən onu qınayacaqdı, yenə də bu barədə söhbət getməsini istəmirdim. Əvvəlcə meşə idarəsinə gedib tanışlıq verdim. Dedim belə-belə... Bu işdən xəbərdar olduqlarını bildirdilər.

– Ancaq nə etmək olar?! Qanundur. Cərimə gərək ödənilsin, – dedilər.

– Hə. Hə. Mən elə cəriməni verməyə gəlmişəm, – əlimi cibimə saldım.

– Alın bu kağızı və xahiş edirik əmanət kassasına gedəsiniz.

Mənə pulun orada ödənilməsini başa saldılar.

Heç nədən özüm-özümə iş açmışam. Amma buna görə qanım qara deyildi. Axtarasan hələ bir az da xoşuma gəlirdi. Ona görə gülə-gülə gedib cəriməni ödədim. Əmanət kassasından çıxanda yolda QAİ işçisi bir maşın saxlamışdı. Başının üstündən sallanan işarəni göstərərək hirslə:

– Ay yoldaş, görmürsən buradan maşın sürmək olmaz. Görmürsən yol bağlıdır, – deyə ona acıqlanırdı.

Sürücü də heyvərənin biri idi. Yepyekə gövdə QAİ işçisinin qabağında çiynini-başını qısaraq, bürüşərək:

– Vallah görmədim, – deyirdi.

– Pah atonnan! – QAİ işçisi başını bulayırdı.

Öz-özlüyümdə mən də sürücünü qınadım: «Ə, zalımoğlu, – dedim, bu da mal deyil ki, yaxşı otlu yer axtarasan, maşındır, burdan icazə verməzlər, o yandan sür».

Sonra nə oldu, baş qoşmadım. Ancaq yaxşı deyiblər ki, cəhənnəmə gedən özünə yoldaş axtarar. İndi ki məni cərimələmişdilər, istəyirdim hamını cərimələsinlər, QAİ işçisi cibindən kağız, qələm çıxarıb dizinin üstündə nəsə yazanda mən son dəfə onlara baxıb şən-şən gülümsədim və dönüb yola düzəldim. Geri

qayıtmaq üçün avtobus dayanacağına sarı gedirdim ki, Sənəmə rast gəldim. Ağzımı açmamış o gülə-gülə:

– Xeyir olsun, Zöhrab müəllim, – dedi.

Bic-bic gülməyindən elə bildim məsələdən xəbərdardır.

– Sizin dananın zibilinə düşmüşəm, – dedim.

Qız təəccüb etdi:

– Nə dana? Başa düşmədim.

– Dana daa. Buzovun böyüyü. O gün onları meşədə otardığıma görə məni cərimə ediblər. 100 manat. Sən demə, ora şitillər əkiblərmiş.

Qız əvvəl buna inanmadı. Gülümsəyərək:

– Elə şey olmaz, – dedi.

– Niyə olmur?

– Ona görə olmaz ki, – qız Səlmi məsələsini xatırlatdı.

– Ay, hay! – küçənin ortasındaca şən-şən əlimi yellədim. – O elə şey başa düşən deyil. İnanmırsan al, bu da pulun kağızı, indi verib gəlirəm.

Sözümün yalan olmadığını görüb qız daha danışmadı. Bu işə mat qaldığı üçündür ki, tez kağızı alıb baxdı və inandı. Və şaqqanaq çəkib necə güldüsə səsi küçə ilə bir oldu. Sonra özü bu hərəkətindən peşmanlayıb tez əlini ağzına aparıb gülməyini birtəhər saxladı.

– Görürsən dəəə, yaxşılıq keçmir. Həm aparıb haqsız camaatın malını otarasan, həm də cərimələnəsən.

Qız da nəyə görəsə zarafata saldı. Bəlkə də, ona görə ki, oğlanı mənə tərifləmişdi.

– Allah üzünüzə baxıb.

– Necə?

– Yaxşı ki, heyvan itirməyibsiniz. Canavar da yeyə bilərdi.

– Canavar?

– Hə-ə.

– Elə şey də ola bilərdi, hə?

– Əlbəttə, olardı. Çöllər canavarla dolu deyilmi?

Axırı mən əsəbiləşən təki oldum. Qıza da acığım tutdu.

– Əşi, mən sizin üçün naxırçı-zadam. Camaat qalmışdı əl-harayda. Mən də özüm öz xoşuma... Bu camaata da yaxşılıq yoxdur.

– Bunlar hamısı öz yerində, bunlar hamısı öz yerində, – qız sözümü kəsdi. – Bunlara görə çox sağ ol. Amma o işin, məsuliyyətin altına girmisən, zəhmət çək cavabdehliyini də elə.

– Pah atonnan! – Əlimi yenə şappıltı ilə bir-birinə vurdum və həmin sözü bir də təkrar elədim. – Camaata yaxşılıq yoxdur.

Əlbəttə, qız başa düşürdü ki, mən bu sözləri elə-belə deyirəm. Çünki bu cərimə məsələsi mənim üçün elə bir şey deyildi. Yüzləri yüz yerdə xərcləmişdim. Bu da olsun biri. Ancaq onunla bərabər, mən o oğlan tərəfdən özümə qarşı bir diqqətsizlik görüb inciyirdim.

Şaqqanaq çəkib gülməyindən çöhrəsində bir topa təbəssüm qalmış qız dedi:

– Bəs bilmirsən, el üçün ağlayan gözsüz qalar, deyərlər.

Qulağım yaxşıca eşitsə də, onun bir sözünü qeyri-iradi təkrar etdim.

– Gözsüz?

– Hə.

– Pa-hoo! – Çox bərk təəssüfləndim. Niyə belə elədim, heç özüm də bilmirəm.

Qız maraqlandı:

– Nə oldu?

– Nə olacaq? – Əllərimi açdım. – Gözsüz adamı kim sevər.

– Tapılar, – qız şən-şən üzümə baxıb gülümsədi.

– Doğrudan?

– Əlbəttə. Eləsini sevən həmişə tapılar. – Qız yanımda bənd olmayıb qaçdı. Mən ona heç fikir vermədim. Az qaldım qışqırıb aləmə car çəkəm.

– Görürsünüz daaa, o oğlanın pisliyi özünə qaldı.

Sonra özümü saxladım. Və daha sonra öz-özümü danladım ki, bu söz-söhbət niyə lazımdır, niyə danışırsan. Elə qızın özü də mənim haqqımda pis fikrə düşə bilər. Deyər, aciz-avara oğlandır. Ağzında söz saxlaya bilmir, nəyi var hamısını açıb danışır. Həqiqətən də, bundan sonra bu barədə bir adama bir kəlmə söz demədim.

Sən demə, yer qulaqlı imiş. Bir də gördüm, hardan eşitmişdilərsə, can-ciyərlərim yer cırırlar.

– Zərər yoxdur. Bu hayıfı onda qoymarıq, – deyə ekonomist Sarı ilə şetovod Mərdan qarınlarını yerə sürtürlər.

– O haranın tulasıdır ki, bizə dolaşır.

– Anasını ağlatmaq bizə borc olsun.

Beləcə hamısı məni cərimələyən oğlanı yamanlayırdı. Asırdılar, kəsirdilər. Elə bil ki, dünya dərəbəyilik idi.

Yaxud bunlar nə bilim kim idilər. Özlərini elə aparır, elə sözlər deyirdilər ki, guya, hər şey bunların əlindədir və nə istəsələr eliyə bilərlər. Düzü, əvvəlcə mən də qızışdım, həmin oğlana qarşı kinim-küdurətim daha da artdı. Onların sözlərindən elə bir vəziyyətə gəldim ki, indi o, əlimə düşsə cırıq-cırıq eliyərdim. Sonra fikirləşdim ki, axı bunlara nə düşüb ki, belə danışırlar? Bəyəm bunların mənə canı yanır? Bəyəm bunlar məni istədiklərindən belə danışırlar? Bir də axı,

yekə kişi olduqları halda niyə belə danışırlar? Məni niyə qızışdırırlar? Guya, mənim təsifimi çəkirdilər. Nəhayət, qərarları belə oldu ki, onun barəsində gedib rayon mərkəzində müəyyən adamlara qandırsınlar. Onlar da haqq-nahaq onu dolaşdırsınlar. Heç bilməsin ki, bu zərbə ona haradan dəydi. Bax, onda bilər ki, analar necə oğullar doğub. Onda bilər ki, özündən irisinə sataşmaq nə deməkdir. Düzü, bundan qabaq onların sözləri qulağıma girmirdi. Çünki kəramətlərinə az-çox bələd idim. Nə yuvanın quşları olduqlarını yaxşı bilirdim. Ancaq söhbət bura gəlib çıxanda belə müxənnətlik edə biləcəklərinə tam inandım. Bəzisinin mayası elə bununla tutulmuşdu. Axtarsan hamısının sözündə, hərəkətində bir biclik, çiylik tapılardı. Ona görə dələduzluq eliyə bilərdilər. Ona görə birdən-birə bərk narahat olmağa başladım. Özümü saxlaya bilməyib acıqla dedim:

– Mən bilərəm, o bilər, heç kəsə borc qalmayıb, xahiş edirəm hər kəs öz işində olsun, bizim işimizə qarışmayın.

Xasiyyətimə az-çox bələd idilər. Bilirdilər ki, tərs damarım tutdu, qurtardı. Ona görə hərəsi bir yandan:

– Ə, yaxşı! Yaxşı! Hirslənmə! – dedilər. – Özün bilərsən.

– Əlbəttə, özüm bilərəm! – Daha da acıqlandım.

Can-ciyərlərim yaman pərt oldular. Tez ayağa durdular.

– Onda sağ ol.

– Sağ olun. – Mən də dərhal ayağa qalxdım ki, çıxıb getsinlər. Qaldıqca məni əsəbiləşdirirdilər. Xüsusilə o gün qonaqlıqda dedikləri sözləri yada saldıqca onlardan lap acığım gəlirdi.

Hiss etdim ki, belə eləməyim bacımın da xoşuna gəldi. Çünki bayaqdan qara bulud, göy şüyüd olub tutulmuşdu. Asmaq, kəsmək söhbətini eşitdikcə qızın qanı qaralır, qaşqabağı yer süpürür. Elə ki mən bunların ağzından vurdum, qız açılışan təki oldu, üzü güldü. Hətta gətirib qabağıma bir stəkan yaxşı dəmlənmiş çay da qoydu.

Onu da deyim ki, mən həmin oğlan barəsində bacımla söhbət etmək istəyirdim. Görüm o da mən deyənimi deyir? Təxminən o fikirdə idim ki, elə bir oğlanla həyat qurmağa o özü də razı olmaz. Başa düşər ki, mən onun qardaşıyam, pis gününü istəmərəm, xoşbəxtliyinə çalışaram. Ona görə də mən deyəni deyər. O oğlana az-çox meyli varsa da, ürəyindən çıxarıb atar. Bilər ki, o, yaxşı oğlan deyil. Mənə qarşı belə nadanlıq eliyən adamdan nə çıxar?! Onun qədrini nə bilər? Bu fikirlə də dilləndim.

– Səlmi.

– Hə.

Qız başını qaldırıb üzümə baxmırdı. Hiss eləmişdi ki, mən onunla nə barədə söhbət eliyəcəm.

– Bu işlərə sən necə baxırsan?
– Hansı işlərə?
– Bu işlərə.
– Dünyada o qədər iş var ki, nə bilim hansını deyirsən.
– Hansını?
– Hə.

Bilmədim necə deyəm? Necə açılam. İndi fikirləşdim ki, gərək heç özüm deməyəydim. Sənəmə dedizdirəydim. O yaxşı idi. Qızın rəyini öyrənərdi. Mən də bilərdim iş nə yerdədir. Bu ara eşikdən maşın səsi gəldi. Düüüd... Gördüm lap bizim evin yanındadır. Ürəyimə damdı ki, bizi çağırırlar. Onsuz da sözümü deyə bilmirdim, əlimə girəvə düşdü.

Dayan bir görüm, bu nə maşındır, – tez qapıya yönəldim. Eşiyə çıxanda gözlərimə inanmadım. Oğlanın elçiləri yenə gəlmişdilər. Ədəb-ərkanla maşından düşürdülər. O dəfə demişdim ki, oğlanı tanımıram. Bunlar da çıxıb getmişdilər ki, nə olar, sonra gələrik. Bax, indi gəlmişdilər. «Pah atonnan! Oğlanda üzə bax. Bu necə adamdır!» – deyə fikrə getdim. Oğlanla ilk tanışlığım, onun bütün hərəkətləri bir andaca gəlib təzədən gözümün qabağından keçdi. Gördüm yox, bu, çox inadcıl, prinsipial oğlandır. İşinə-gücünə məsuliyyətli yanaşandır. Dediyindən dönmür. Görünür, qızı da çox istəyir ki, əl çəkmir. Qaldım necə eləyim. Darmacal olsa da, bunlar gələndə utandığından qaçıb o biri otağa girmiş bacımın yanına getdim. Qızın fikrini öyrənmək istəyirdim. Nəhayət:

– A Səlmi, qonaqlar üçün çay düzəlt, – dedim. – Eyibdir. Elə olsun yaxşı yola salaq.

Səlmi əlini samovara yetirəndə mən də şən halda yaxamı, başımı səliqəyə salaraq elçilərin qabağına çıxmağa hazırlaşdım və fikirləşdim ki, mənim dönəcəyim necə yaxın imiş. Görünür, dönəcəklə inad insanın qəlbində bir-birinə çox yaxındılar. Amma elə edəsən ki, ikisi də hər bir işdə insanın xoşbəxtliyinə çalışa.

Məzuniyyət günləri davam edirdi.



# HEKAYƏLƏR

## QUŞLAR YUVALARINI UNUTMURLAR

Maşından düşüb evə gəldiyim yarımca saat olmazdı ki, içəridə oturmaqdan darıxdım.

– Ay ana, gəlsənə eşiyə çıxaq. Həyət-bacaya tamaşa eləmək istəyirəm, – deyə ayağa durdum.

– Çıxaq, başına dolanım. Çoxdandır kəndə gəlib-getmirsən. Gəz, tamaşa elə.

Yorğun olmağıma baxmayaraq, məni də dartıb eşiyə çıxaran bu həvəs idi. Eyvandan həyətə enəndə yaz şəfəqlərinin ılıq nəfəsi məni haman dəqiqə məst elədi. Tut ağacının atlas yarpaqları, qızılgülün butası könlümü oxşadı. Həyətin ümumi yaşıllığında, quşların cəh-cəhində, xallı kəpənəklərin uçuşunda əsəblərimə xoş təsir edən bir asudəlik, rahatlıq duydum. Üzümdə-gözümdə təmiz havanın, xəfif mehin sığalını duya-duya qonum-qonşunun həyətlərinə, kəndimizin ümumi mənzərəsinə daldım. Yaşıllığa qərq olmuş aynabəndli, qırmızı kirəmitli, ağ şiferli abad evləri görüb gözüm-könlüm açıldı. Dönüb öz evimizə, damına, daş-divarına bir də diqqətlə baxdım... Xırda-para təmirə ehtiyacı olsa da, ümumiyyətlə, səliqə-sahmanda idi.

– Ay ana, deyəsən, aynabəndin pəncərəsindən bir şüşə sınıb.

– Hə, dərdin alım. Yerinə salmağa şüşəm yox idi. Fanerka tapa bilmədim. Önlüyümü çıxarıb asdım. Yağış yağanda içəri su düşüb döşəməni xarab eləyirdi.

Anam elə qayğı ilə danışdı ki, düzü, üzünə baxa bilmədim. Evimizlə əlaqədar bir əhvalatı xatırladım. Nə gizlədim, bir vaxt həmin bu evi satmaq fikrinə düşmüşdüm. Anamı da qılıqlayıb şəhərə aparmışdım ki, bir az yanımda qalsın, istirahət etsin, bəlkə, bir yeri ağrıyır, həkimə düşsün, müalicə olunsun.

Anam əvvəlcə razılıq verməmişdi.

– Nəyə gedim, ay oğul. Çox sağ ol. Sizin sağlığınız mənim üçün bəsdir. Mən də evimdəcə oturmuşam.

– Bəs başqalarının anaları niyə gedirlər? Nəvələrinin də gözü yollarda qalıb.

Söhbət bu yerə çatanda anam əlacsız qalıb razılaşmışdı.

– Yaxşı, gedib bir az qalaram.

Şəhər anamın xoşuna gəlmişdi. Onun gözəlliyinə vurulduğunu hələ qatardan düşüb taksi ilə evə gedəndə yolda bildirmişdi:

– Nə gözəldir, qadan alım. Baxdıqca adamın həvəsi gəlir. Odun-ocaq dərdi çəkmə, təndir qalama, çörək bişirmə, suya getmə. Hər şey evin içindəcədir – deyə anam mənzilimizdən də xoşu gəldiyini bildirmişdi.

– Gəlmirdin, ana. Görürsən şəhər nə yaxşıdır?!

– Bundan da yaxşı olsun, oğlum.

– Çox sağ ol! – deyə anamın şəhər barədə belə tərifli sözlərindən sevinir və güman edirdim ki, anam bir daha...

Bir axşam gəbənin üstə, anamın dizinin gözündə oturub dedim:

– Düzünü de, gələndə bir dəfə ayağın palçığa batıb?

– Yox, başına dolanım.

– Görürsən?! Şəhərlə kəndin nə işi?!

Oğlum o yandan dilləndi.

– Yazıq nənəm gələndən eşiyə çıxıb ki, ayağı palçığa batsın? Bütün günü... Elə bil dustaqxanadadır.

– Sən də kəs səsini!.. Əlində yazını yaz! – hirsimdən dodaqlarımı çeynədim.

Uşaq üzümə baxmadan mızıldandı:

– Bir söz demədim ki?! Düzü belədir.

– İşinin adı nədir?! Aparıb gəzdirsənə.

Uşaq cəld çiyni üstə qanrıldı.

– Getmir. Deyir maşın iyindən ürəyim bulanır. Düzdür, nənə?

– Düzdür, qurbanın olum, – deyə anam başını tərpətdi.

Uşağın sözü mənə dərs olmuşdu. İşdən-gücdən bir balaca boşalan kimi anamı şəhərə gəzməyə aparırdım. Funikulyora mindirirdim. Dağüstü parkda gəzdirirdim.

Anam da:

– Kəndə gedəndə, – deyirdi, – arvadlara o qədər şey danışacağam ki, ağızları açıq qalsın.

Bir dəfə belə bir söhbət əsnasında dedim:

– Kənddə nə var?! Nəyə gedirsən? Gəlmisən bir dəfəlik...

– Bəs evimiz?..

– Əşi, quru daxmadan nə yapışmısan?! Satarıq çıxıb gedər. Yoxsa bir ayağımız burda, biri orda... Bilmək də olmur şəhərliyik, yoxsa kəndçi.

Sözümün doğruluğunu anam tam yəqin eliyə bilmədi.

– Düz sözündürmü, bala?

– Bəs necə?! Daha səni qoymaram gözümdən uzaq olasan. Yanımdaca saxlayıb qulluğunda duracam.

Özümü elə tutmuşdum ki, guya elə-belə deyirəm. Qorxurdum evin satılmasına anam razılıq verməyə. Məsələni yavaş-yavaş həll etmək istəyirdim. Hər

halda, sözü arvadın qulağına çatdırmışdım. Fikrimcə, indi əsas iş bu idi ki, anam şəhər həyatına alışsın.

İşə gedəndə dönə-dönə uşaqlara tapşırırdım ki, nənənizə yaxşı qulaq asın, sözünə baxın, onu incitməyin.

– Özümüz bilirik, – deyə onsuz da nənələrinin hər qulluğuna daim hazır olan uşaqlar xorla cavab verirdilər.

İşdən gələndə görürdüm uşaqlar nənələrini yumşaq kresloda əyləşdirib yan-yörəsində fırlanırlar. Lazım olmadığı halda hər dirsəyinin altına hələ xırda balış da qoyublar. Birini də ayağının altına atıblar ki, qıçları döşəmədən soyuq çəkməsin.

Uşaqların hərəkətindən o qədər razı qalırdım ki, bilmirdim onları necə tərifləyim.

– Afərin!.. Afərin!.. – onları qucaqlayıb bircə-bircə öpürdüm.

– Atam-anam, sənin bu uşaqların mənim başıma nə oyun açırlar?! – deyə anam belə rahatlığa öyrəşmədiyini bildirirdi.

İşə gedəndə yenə tapşırırdım:

– Elə eləyin nənəniz darıxmasın.

Bir dəfə də qayıdanda gördüm uşaqlar nənələri üçün teatr açırlar. Oğlum üzünü-gözünü qaralayıb, əyninə də uzun bir xalat geyib. Uşağın bircə dişləri ağarır. Əllərini qaldırıb hirslə deyir:

– Ah!.. Dezdemona!.. Mən indi səni öldürəcəyəm.

Başına nənəsinin kəlağayısını salmış qız isə əllərini açıb yalvarır.

– Öldürmə, Otello! Xahiş edirəm, öldürmə!.. Qoy dərslərimi hazırlayım.

– Ədə, qızı incitmə! – deyə onlara tamaşa edən anam da dözə bilməyib oğlana acıqlanır.

Anamı tez-tez küçəyə gəzməyə çıxarmağıma, evdəki rahatlığına və uşaqların cürbəcür əyləncələrinə baxmayaraq, o darıxır, nəyinsə xiffətini çəkirdi. Amma nəyin fikrini etdiyini yəqin bilmirdim. Ev barədə söhbət salmağa ehtiyat eləyirdim. Birdən...

– Can ana, bəlkə, xəstələnibsən? Yoxsa bir yerin ağrıyır?

– Heç yerim ağrımır, dərdin alım. Nigaran qalma.

– Yox. Yox. Həkim çağırım. Bir səni müayinə etsin.

Həkim də çağırdım. Poliklinikaya da apardım. Elə bir xəstəliyi yoxdur, – dedilər. Bəs anamın dərdi nə idi?

Bir səhər işə getməyə hazırlaşırdım. Anamla oğlum eyvana çıxıb havalarını dəyişirdilər. Gördüm anam əlini gözünün üstə qoyub uzaqlara boylanır. Şəhərkənarı ucqarlardakı tikintiləri göstərib nəvəsinə deyir:

– Oğlum, ora haradır?

– Şəhərdir, nənə.

– Bəs bax, bu yandakı haradır?

– Ora da şəhərdir, nənə can.

– Ədə, bunun hamısı şəhər oldu ki, – deyə anam nəsə təəssüf hissiylə köks ötürdü.

Uşaq nənəsinin səsindəki kövrəkliyi hiss edib onun üzünə diqqət etdi. Sonra qollarını belinə doladı.

– Darıxırsan, nənə can?

– Evimizi istəyirəm, ömrüm-günüm. Babanın yurdunu. İndi hamının evindən tüstü çıxır, amma... – Gördüm anam kövrəlib ağladı.

Uşaq çılğınlıqla başını nənəsinin qucağına sıxdı:

– Ağlama, ay nənə. Bax, mən də ağlayacağam.

Anam əyilib nəvəsinin alnından öpdü.

– Sən niyə, qadan alım?

– Axı mən də kəndi istəyirəm. Yadındamı tut çırpdım. Sonra yığıb yedik. Bulağa da getdik. Uşaqlar at çimizdirirdilər. Mən də ata mindim. Sən də qarılarla söhbət etdin.

Uşağın söhbəti anamı daha da kövrəltdi.

Özümü saxlaya bilməyib tez yanlarına getdim.

– Ana, bəs bunu məndən niyə gizlədirsən?

– Mənə bilet al, ömrüm-günüm, yola sal gedim. Daha dura bilmirəm, – deyə anam kövrək səslə danışıb qəti fikrini bildirdi.

Anamı yola salandan sonra da onun ürəyinə dəydiyimi xatırladıqca əzab çəkirdim...

İki il qabaq olmuş bu əhvalatı indi xatırlayıb səhv iş tutduğumu düşünüb yenə sıxılan təki oldum. Anamın üzünə baxa bilmədim. Bilmədim araya nə söz qatam, bunları unudam. Ortalıq yolunu uzununa qaza-qaza getmişdilər. Yolun nə üçün qazıldığını soruşdum.

– Qaz çəkirlər, – dedi. – Bizim kənddə də sizin şəhərdəki kimi olacaq. Evimizdə qazımız, suyumuz... arvadların günü ağaracaq.

Başımı tərpətdim ki, bu, çox böyük işdir.

– Çoxdandır kəndimizi görmürəm. Qoy bir fırlanım, – deyə anamdan bu ara icazə alıb həyətdən çıxdım.

Kəndimiz, həqiqətən, anam deyən kimi idi. Az qala şəhərdən də ötə olmuşdu. Abad həyətlərə baxdıqca adamın həvəsi gəlirdi. Çox evlərin damından televizor antenaları ucalırdı. Kəndimizdə təzə məktəb binası tikildiyini, görkəmli yerdə mədəniyyət sarayının ucaldığını isə çoxdan eşitmişdim. İndi də gözlərimlə görüb sevinirdim. Kəndçilərim də orda-burda rast gəlib mənimlə səmimiyyətlə görüşür, əlimi hərarətlə sıxıb:

– Hamı yoldan sağlıqla, əmioğlu, – deyirdilər.

– Sağ olun, sizi xoş gördük.

– Daha gec-gec gəlirsən. Yoxsa bizi unudursan?

Giley-güzarlarına etiraz edə bilməsəm də, günahı boynuma götürmək də istəmirdim.

– Əşi, iş-güc çox olur. Başımız elə qarışır ki...

– Yox.Yox. Vaxt tapıb gəlmək lazımdır. Sağ olsun qarı! Görürsən ev-eşiyi necə şenləndirib.

Vəziyyətdən, bu sözdən-söhbətdən açıqca hiss etdim ki, bax bugünkü gün üçün, dağa-yamaca bol-bol yayılmış günəşin hərarətli şüaları üçün, aydın səma üçün, sinə dolu udduğum təmiz hava üçün, kəndimizin gözəl mənzərəsinə tamaşa edə bildiyim üçün, onun səmimi, xeyirxah adamları ilə görüşdüyüm üçün və başqa hər şey... hər şey üçün yalnız anama borcluyam. Belə fikir edə-edə bir də gördüm gəzə-gəzə qəbiristanlığa gəlmişəm. Hələ şəhərdə fikrim bu idi ki, elə birinci gün atamın qəbrini ziyarətə gedim. Yaxınlaşdıqca qəbir daşları elə bil yerdən boy atıb uzanır, sanki canlı kimi onlar da gələn adamın qarşısına çıxırdılar. Mən papağımı başımdan götürüb yan-yörədəki qəbirlərə nəzər sala-sala irəli getdim. Atamın qəbri önündə sükutla dayandım. Sonra yaxın durub başdaşını öpdüm. Daşın bir qədər mamır ətri verən soyuqluğundan başqa bir şey hiss eləmədim. Elə bil bu mənə azlıq elədi, atamın varlığını hiss eləmək istədim. Bəlkə, bu hissin təsirindən əlimi başdaşının üstə qoydum. Qəribə idi ki, bu ara öz başımda nəsə hiss elədim. Elə bil kimsə əlini ehmallıca saçlarıma toxundurdu, başımı sığalladı. Bəlkə, bundan idi ki, atam sağlığında əlini beləcə mənim başıma çəkərdi.

– Saçın nə yaman uzanıb, ayə?

– Qoy uzansın. – Mən də telli olmaqdan xoşum gəldiyini bildirirdim.

– Müəllimin nə əcəb belə icazə verir. Axı şagirdin saçı gərək qısa, səliqəli olsun.

Müəllimin də belə dediyini ondan gizlədirdim.

– Yox, belə yaramaz. – Atam saçımı mütləq vurdurmağı məsləhət görürdü. – Töküntülü olmaqdan nə çıxar?! Belələrinin fikri-xəyalı da dağınıq olur. Nə etdiyini bilmir.

Mən elə bil onu, həqiqətən, eşidirdim... Ucadan-ucadan deyirdi ki, birdəfəlik qulağımda qalsın.

Evə qayıdanda anam həyətdə dayanmışdı. Samovar qoymuşdu. Dudkeşin ağzından alov çıxıb, əl boyda qırmızı parça təki yellənir, samovarın dızıltısı güclənirdi. Anama baxdım. Mənə elə gəldi ki, qarşımda ulu, müqəddəs bir heykəl dayanıb. Bilmədim ona necə sitayiş edim. Dizi üstə yıxılıb ayaqlarından öpmək istədim. O ayaqlardan ki, isti bir bucaqda, yumşaq kresloda dinclik tapmadı, gəlib ocağını qaladı, evini şenləndirdi.

– Eyvanımızdakı qaranquş yuvası yadındamı, ömrüm-günüm?

– Niyə yadımda deyil. – Çiynim üstə qanrılıb eyvan dirəyinin üstə çatmanın altına baxdım. Birinin əvəzinə üç-dörd yuva gördüm. Üzü günəşə qurulmuş yuvalarda sarıdimdik balalar civildəşirdi.

– Qabaqlar bir yuva var idi. İndi gör...

Anamın mehriban çöhrəsi daha da aydınlaşdı.

– Bəs necə oğlum?! – dedi. – Quşlar da artır, çoxalır. Onlar yuvalarını heç vaxt unutmurlar.

Başımı tərpədərək çevrilib bir də yuvalara baxdım. İnsan vücudunun müqabilində çox xırda olan varlıqda doğma yerə, torpağa bağlılığın, məhəbbətin nə qədər güclü olduğunu düşünüb heyrətə gəldim.

– Deyirsən, uşaqlar lap yaxşıdırlar, – deyə anam nəvələrindən bir də hali olmaq istədi.

– Çox sağ ol, ay ana. Yaxşıdırlar.

– Bə buralara niyə gəlmirlər?

– Onlar da hey səni arzulayırlar. Böyüyü bu gün-sabah qurtarır. Təyinatını da nənəsinin yanına almaq istəyir.

– Yer-yurd gen, kəndimizdə nə iş də desən var. Yoluna gül döşənsin, – deyə söhbətdən çiçəyi çırtlamış anam sevincdən bilmədi nə etsin.

## HAMIMIZ QONŞULUQDA YAŞAYIRIQ

Dünənədək heç nə Zəkinin vecinə gəlmirdi, əli durur, ayağı oynayır, ayağı durur, əli oynayırdı. Bu günlərdə də bir qızla tanış olmuşdu. Onunla görüş təyin edəndən bəri oğlanın lap çiçəyi çırtlamışdı. Şadlığından bilmirdi nə etsin. Bir də görürdün uşaq təkin fit çaldı.

*«Sən Müşfiqin yanında*
*Qal, sənə qurban!»*

Bu sözləri fitlə dodağında elə qaynadırdı ki, deyirdin dillə söyləyir. Buna görə o gün anası onu möhkəm tənbeh eləmişdi:

– Yaxşı deyil, oğlum, evdə fit çalmaq olmaz.

– Baş üstə, ana! – Zəki eşiyə xəlvətə çıxmışdı, hərəkətlərinə irad tutan olmasın. Deməsinlər qaşının üstündə qara var. Çünki özünə arxayın deyildi. Bilirdi ki, fikri-xəyalı qızın yanındadır. O barədə düşünəndə hər şeyi unudur.

– Bax, gözləyəcəyəm. Mütləq gələrsiniz. Gözlərimi yolda qoymayın! – Oğlan qızdan dönə-dönə xahiş eləmişdi. Qızın dilindən «hə» sözü almış olsa da, ondan nigarançılıqla ayrılmışdı.

Bu səhnə daima oğlanın xəyalında idi. Qız gülümsünüb elə bil indi də ona baxırdı. Nəzərlərindən mehribanlıq, səmimiyyət tökülürdü. Güclə bir kəlmə söz deyəndə yanaqları qızarırdı. Bax belə bir gözəl, ismətli qızın bu gün-sabah onun görüşünə gələcəyini oğlan fikirləşəndə az qalırdı çırtıq çalıb oynasın.

Kefinin belə bir şən vaxtında Zəki işdən evə gələndə həyətə gircək bir yerdə elə bil mıxlanıb qaldı. Gördü balkonlarının qabağında bir dəstə adam dayanıb. Evlərinə də gələn-gedən var. O dəqiqə bildi ki, bu qalmaqal atasından uzaq deyil. Çünki atası bir az nasaz idi. Yıxıla-yıxıla eşikdə-bacada gəzirdi. Oğlan bilmədi nə etsin, yüyürüb hövlnak özünü içəri saldı. Gördü, atası nə gəzir, kişi çoxdan keçinib. Oğlan ürəyində ağrı hiss etdi.

– Ata!.. Ata can!.. – İndiyədək yağ yeyib yaxada gəzən Zəki tabutun qabağında diz üstə yerə çökdü, iki əlli başını tutub hönkürtü ilə ağladı.

Kimsə arxadan qolundan tutdu.

– Özünü ələ al, oğlum!

– Ata can!.. – Başını ovuclarında silkələyib Zəki ürək yanğısı ilə hönkürdü.

Səhər işə gedəndə o, atasında qorxulu bir şey hiss eləməmişdi, kişini evdə ayaq üstə sağ-salamat qoyub getmişdi. Hələ otaqdan çıxanda onunla xudahafizləşmişdi də.

Atası da:

– Sağ ol, oğlum! – deyə durub oğlunun ardınca dəhlizədək gəlmiş, qapını da özü örtmüşdü.

İndi həmişə var olan, gözə görünən, danışan, gülən adam yox idi. Zəki atasını elə hərarətlə andı ki... Elə bil çoxdan görməmişdi. Görmək istədi, mümkün olan şey deyildi. Ata yoxluğundan qəlbi sızıldadı, su dəymiş kirəmit təki elə bil ovum-ovum olub tökülməyə başladı. İstədi son dəfə heç olmasa o mehriban, qayğıkeş insanın üzünə baxsın, ancaq əlini atıb mələfəni onun üzündən üsulluca çəkməyə belə cəsarəti çatmadı. İki-üç metrlik adicə bez ata-oğulu bir-birindən bir dünyalıq ayırmışdı.

Mərhum yatanda üstünü çox örtüb basdırmağı sevməzdi. Qışın soyuqlu, şaxtalı günlərində də çox vaxt sinəsinədək açıq yatardı. İndi isə onu tamam ağa bürümüşdülər. Hələ üstündən də nəsə salmışdılar.

İnişil bir dəfə xəstələnmişdi: ona möhkəm soyuq olmuşdu. Odun-közün içərisində ufuldayırdı. Tez-tez ona lumulu, mürəbbəli çay süzüb gətirən arvadı çox dedi:

– Tərləməsən ayılmayacaqsan, a kişi. Başını da yorğanın altına sal, bəlkə, canın nəmişlənə.

Xəstəlik kişinin hövsələsini daraltmışdı, üstünü örtmədiyi bir yana, səsini də qaldırdı:

– Nə danışırsan? Bəs necə nəfəs alım?! – Sinəsini lap açıq qoydu.

İndi isə onun üçün fərqi yox idi. Evin bütün paltar-palazını da üstünə salsan, inciməz, darıxmaz, nəfəsinin daralacağından şikayətlənməzdi.

Zəki sakit ola bilmirdi.

– Yaxşı... Bəsdir! – Adamlar onu kənara çəkib təskinlik verirdilər. Oğlan yaylığı ilə gözünün yaşını silib toxtaq dayanmağa cəhd etdi. Yenə... Bütün bunları oğlanın gözü görsə, ağlı kəssə də, inanmaq istəmirdi. Bu amansız ölüm niyə gəldi, haradan gəldi, necə gəldi? Bəlkə, yalandır. Heç belə şey olmayıb, yuxu görür...

– Xəstəliyi nə idi, Zəki? – Elə bil qəsdən belə soruşdular ki, o öz-özünü aldatmasın. İnansın, bilsin ki, atası daha yoxdur, ölüb. Başına çarə qılsın, dərdini-azarını çəksin. Zəki çiyni üstə çevriləndə həyət uşaqlarını, tay-tuşlarını gördü. Sağ olsunlar, eşidib hamısı gəlib.

Fitinin səsi küçənin o başından eşidilən Zəki qəmli-qəmli dedi:

– Ürəyi idi. Deyirdi ağrıyır.

Ona yaxın hüznlə dayanmış bakenbardlı oğlan dilləndi:

– O gün, deyəsən, həkim çağırmışdınız. Qapınızda təcili yardım maşını dayanmışdı.

Xeyli müddət idi ki, atasının xəstəliyi ilə əlaqədar olaraq həkimlərə tez-tez müraciət etməli olurdular. Srağagün isə məcbur olub təcili yardım çağırmışdılar. Zəki onu xatırlayıb başını tərpətdi.

– Hə... onda halı çox xarab idi. İynə vurdular, «poduşka» verdilər. Dünən isə özünü çox yaxşı hiss edirdi.

Qovruldu, atasının ölümünə heç inanmaq istəmədi. Qocalıq, xəstəlik onu üzsə də, kişiyə heç ölüm yaraşmırdı. Ayaqdan çox yüngül adam idi. Nasaz vaxtlarında belə evdə-eşikdə boş bekar durmaz, başını müəyyən bir işlə qarışdırardı. Bu yaz qonşular yığışıb həyət-küçəni təmizləyir, səkilərin qırağına ağac əkirdilər. O da pəncərədən onların işinə tamaşa eləyirdi. Həvəsə düşdü, evdə rahat dayana bilmədi. Durub o da getdi, bir-iki ağac da o əkdi.

– Yalnız əkməklə iş bitmir, oğlum, gərək onu becərəsən ki, əməyin hasil ola, – o, axşam da, sabah da aparıb vedrə ilə ağaclara su verirdi.

O gün isə mətbəxlərinin su yolu tutulmuşdu. Zəki tənbəllik elədi. Amma fikri var idi ki, vaxt tapıb boruları söküb təmizləsin. Axşam işdən gələndə gördü atası bu işi tək başına görüb. Su güllə təki gedirdi.

Bunları xatırlayan Zəkinin dodaqları əsdi, təzədən kövrəldi. Atasının hər bir işi, xasiyyəti onun indi xoşuna gəlirdi, qədrini bilirdi, qiymətləndirirdi. Və heyifsilənirdi ki, belə bir işgüzar, mehriban insan olan atası daha yoxdur. Budur, sağlığında bir dəqiqə belə boş dayanmayan, ümumiyyət üçün, ailəsi üçün nə isə xeyirli bir iş görən adam – nəhayət, sakitcə uzanmışdı. Onun ölümünə inanmaq çətin idi. Çaşqın vəziyyətdə Zəkinin fikirli nəzərləri atasının sakit, hərəkətsiz görkəminə zillənib qalmışdı. Birdən, deyəsən, onu qara basdı, uşaq təki ağlından qəribə fikir keçdi. Eşitmişdi ki, adamlar qocaldıqda uşaqlaşırlar. Bəlkə, atası da uşaq bəhrinə düşüb. Ağın altına girib gizlənpaç oynayır. Bax, indicə bezi atıb ağın altından çıxacaq:

– Hə... Tapa bilmirdiniz?! – deyə balacalar kimi şən-şən səslənəcəkdir.

Sən demə, bu adicə uşaq oyununda bir dünya sevinc varmış. Bax, indi atasının o cür etməyə imkanı olsaydı, Zəki sevincdən bu qədər camaatın arasında mayallaq aşardı. Nə bilim, nə edərdi, atdanıb-düşərdi. Elə bilərdi atası onu uşaq təki havada atıb-tutur. O gün uşaqlar həyətdə asfaltın üstündə şəkil çəkirdilər. Tabaşirlə baş əvəzi dairə cızırdılar. Gözə qoşa nöqtə qoyurdular. Ağız-burun əvəzi üfüqi-şaquli bir-iki qısa xətt çəkirdilər. Ayaq çəkirdilər. Əl düzəldirdilər. Heç nədən olurdu adam şəkli. Çox asanca əmələ gələn bu şəkillər də elə bil həmin əməliyyatdan sevincək olurdular.

Uşaqlar şəkillərini şad bir əhvalda təsvir etmişdilər. Bax, atası bu dəqiqə qalxa bilsə, Zəki də eləcə əllərini başı üstə qaldırıb atdanıb-düşərdi, sevinci yerə-göyə sığmazdı.

– Bir bəri gəl görək. – Yoldaşları nə iş üçünsə onu kənara çəkəndə Zəki fikrindən ayrıldı. Həmçinin bu an dərk etdi ki, boş-boş fikir-xəyal etməyin mənası yoxdur, onun uşaq-uşaq fikirləri yaranmış vəziyyəti dəyişməyə qadir deyildi. Çünki artıq onun atası yoxdur, ölüb. Yoldaşları dedilər:

– Bəlkə, bir şey lazımdır, biz də sənin...

Onun üçün çox sıxıntılı, ağır olan bu dəqiqələrdə Zəki yoldaşlarının əhatəsində özünü bir qədər yaxşı hiss elədi. Evlərinin bu iş üçün əyər-əskiyindən xəbəri olmasa da, minnətdarlıq hissi ilə başını tərpətdi.

– Çox sağ olun, məncə, bir şey lazım deyil.

Fasiləsiz siqaret sümürən bakenbardlı oğlan dedi:

– Nə lazım olsa, utanma de! Ölməmişik ha!..

– Atanın şəklini ver, üzündən çoxlu çıxardım. Tez hazır eliyərəm. – Qış, yay, yaz başına bir şey qoymayan, daima başı açıq gəzən, saçlarını çox vaxt boynunun ardınadək uzadan başqa bir oğlan da bu yandan dilləndi. Onun şəkil çəkmək üçün cürbəcür aparatı, evdə səliqəli laboratoriyası var idi. Şəkil çəkməkdə mahir idi.

Xüsusi «Volqa» maşını olan, gündə az qala bir cür paltar geyinən qonşu da bu fikri bəyəndi.

– Hə, ver çıxartsın. Qara lentin üstə yapışdırıb döşümüzə sancarıq.

Zəki təəccüb etdi ki, o nə əcəb buradadır? Çünki o, evdə-həyətdə tapılan deyil. O gün Zəki görmüşdü ki, bu oğlan evlərinin tinində həyətlərində yaşayan Sədaqət adlı bir qızın qarşısını kəsib ona dil tökür.

– Hamı dənizdədir, kroşka. Bu istidə sən də oturmusan burda, bəri gəl, gedək.

Qız sarafanının ətəyindən tutub çox incə bir əda ilə keçmiş xanımlar təkin oğlana təzim etmişdi.

– Kroşeçka! – oğlan bir əlini ürəyinin üstə qoyub, o biri əliylə yaşadıqları binanın qabağında saxladığı maşına işarə eləmişdi. – Sənin üçün hazırdır...

Qız da əllərini sinəsinə qoyub minnətdarlıqla əyilmişdi.

– Göydən yerədək paklon! Ancaq keçəl suya gedən deyil.

Zəki indi hiss eləmişdi ki, qız da bayaqdan onu sarıyır.

Oğlanı görəndə o əhvalat Zəkinin yadına düşdü. Başqa vaxt olsa idi, Zəki bunu onun mütləq üzünə çəkər, «adə, ay utanmaz, o qızı niyə yoldan çıxardırsan?» – deyərdi. İndi isə... bunun yeri deyildi.

– Anamdan soruşum, görüm nə deyir. Sonra şəkli verərəm, üzünü çıxardarsan, – deyə Zəki maşını olan oğlana fikir verməyib üzünü fotoqraf yoldaşına tutdu. Şəklin üzünü çıxartmaq sən deyən ağır iş olmasa da, yoldaşının bu yerdə ona kömək etmək, nə isə bir iş görmək cəhdi, sözsüz, Zəki üçün çox qiymətli idi. Onun heç gözləmədiyi, ummadığı bir nəfərin də həssaslığı Zəkinin qəlbini lap ehtizaza gətirdi. Görünür, onların şəkil barədə söhbətlərini eşitmişdi. Cavanca qız ola-ola bir bölük kişinin içində yaxınlaşıb əkə-bükə arvad təkin onu kənara çəkdi.

– Şəkil üçün qara parça, – dedi, – lazım olsa mənə deyərsən. Yaxşımı?!

– Yaxşı, Sədaqət. – Zəki bilmədi qıza necə təşəkkür etsin. Düşündü ki, gör necə qanacaqlı, ağıllı qızdır. Həm də təəssüfləndi ki, yaxın qonşu olmalarına baxmayaraq, indiyəcən belə bir xoşxasiyyətli qızı yaxından tanıyıb, ona bələd olmayıb. Deyəsən, hər bir şeydə belə olur. Yaxşını yanında görmürsən, hardasa uzaqda, əlçatmaz yerdə axtarırsan. Bax, bu günlərdə Zəki plyaja getmişdi. Sahildə gün adamın başını deşirdi. Ona görə Zəki sudan çıxmaq istəmirdi. Ördək təki tez-tez başını suya salıb dərinliklərə cumur, gözünü açıb bir anlığa olsa da, dənizin dibinə baxırdı. Günəşin şüalarını şüşə qırıqları təki elə bil çilikləyib sulara tökmüşdülər. Dənizin qatlarında lent-lent çəpəki düşən şüalar necə gözəl görünürdü. Zəki də suya baş vurub onlarla oynamaq istəyirdi. O böyük gözəl günəşi yerdə, göyün üzündə qoyub onun qırıntılarını elə bil sularda axtarırdı.

– Atam da dənizə getmək istəyirdi. – Zəkinin fikri yenə mərhum atasının üstə qayıtdı. Fikirləşdi ki, indi elə bir şey olsa idi, sevincindən bilməzdi nə etsin. Ata-oğul dənizə gedərdilər. Zəki ona suların qatlarında oynaşan günəşin tellərini göstərərdi. Heyhat... Zəki ürək ağrısı ilə düşündü ki, daha bu mümkün deyil. Atasının səfəri tamam başqa yerədir. Günəşin şüaları gedib ora çıxmır. Sonra da fikirləşdi ki, bəlkə, ora da gün düşür. Bəs necə? Günəşin qızılı telləri yerin alt qatlarına işləməsəydi, torpaq necə isinərdi? Yer nəfəs ala bilərdimi? Yaşıl otlar, güllər, çiçəklər torpaqdan necə cücərib çıxardı?!

– Atam deyirdi ki, torpağa qarışacağam – Zəki bunu da xatırladı. O vaxt bu söz Zəkinin qulağına girməmişdi. Nəsə əhəmiyyət verməmişdi. Amma indi... Oğlan düşünürdü ki, atasının torpağa qarışmasına az qalıb. Cəmi bir gecəlik qonaqdır. Sabah aparıb dəfn edəcəklər. Orda da torpağa qarışacaq.

Həyatın bu qəribə oyununun, belə bir ayrılığın nə qədər ağır olduğunu Zəki indi dərk edirdi. Necə ki atası ayaq üstə idi, sağ idi, belə şeylər ağlına gəlmirdi.

– Qadan alım, bəs sən ac deyilsən? – axşam olub evdə qələbəlik bir qədər azalandan sonra anası dərdini-azarını buraxıb onun qeydinə qaldı. Zəkinin isə ona acığı tutdu. «Nə olub axı?! Acından ölmədim ha!..»

– Yemişəm. Aclığım yoxdur, – dedi və darıxdığından eşiyə çıxdı. Ürəyi papiros çəkmək istədi. Birini bakenbardlı oğlandan alıb çəkmişdi. Düşündü ki, indi gərək özününkü olsun...

Küçəyə çıxanda gördü ki, hər kəs öz kefindədir. Gəzməyə çıxana bax!.. Qəhqəhə çəkib gülənə bax!.. Heç kəsin xəbəri yox idi ki, bax bu küçənin arxasında, bircə divar o yanda fağır bir kişi ölüb, ailəsi yasa batıb.

Siqaret alıb Zəki evə qayıtdı. Axşam yatanadək siqaret qutusunu yarıladı.

Səhər də iştahası qəti yox idi. Yemək yadına düşmürdü. Heç çay da içmədi, siqaret yandırdı, acgözlüklə sümürməyə başladı, elə bil canını-ciyərini odlamaq istəyirdi. Anası yanında dayanıb ona öyüd-nəsihət verirdi:

– Bax, oğul, özünü ələ al, toxtaq dur. Gələn adamlar sənin başına toplaşırlar. Daha deməsinlər ki... – Kişinin ölümündən sonra fağırca arvad sarsılıb özünü tamam itirmişdi. Əli qoynunda qalmışdı.

Ananın sözü təsirsiz qalmadı. Zəki özünü ələ aldı. Köynəyinin yaxasını düzəltdi. Əli ilə saçlarını daraqlayıb səliqəyə saldı. Qəddini düzəltdi. Bəs necə? Deməsinlər bivec oğlandır... Axı bilmirlərmi ki, onun atası ölüb. Belə çıxır ki, bu cür ağır dəqiqələrdə də adam öz adi, təbii halında olmamalıdır. Nəsə artistlik etməlidir. Özünü başqasına əslində olduğu kimi yox, özgə cür göstərməlidir. Deməsinlər ki, bu necə oğlandır, çətinliyə düşən təki özünü itirir. «Hər halda başa düşən olar ki, atam ölüb. Mən ən əziz adamımı itirmişəm».

Bir dəfə həyətdə bir uşağın əlində yekə bir kartof var idi. Uşağa-böyüyə göstərib deyirdi:

– Bir buna baxın, lap adama oxşayır.

Həqiqətən, elə bil qəsdən əllə düzəltmişdilər. Başı, gözü, ağzı, burnu, gövdəsi... təbiətin də qəribə möcüzələri varmış. Uşaqlardan biri maraqla soruşdu:

– Zəki, bu necə olub? Torpağın altında kim bunu belə düzəldib?

– Heç kəs. Özü elə bitib.

– Bəs bu deyir ölülər düzəldib.

– Mən səni aldadırdım, – sual verənin yanında dayanmış mırıq bir uşaq bic-bic gülümsəyib sözünü geri götürmüşdü. Sonra uşağın kartofunu asfalta vurub parçalamışdılar. O da ağlayırdı ki, mənim kartof adamımı...

Dünən də Zəki yaman ağladı, yaş gözündən dolu təki tökülürdü. Bəs necə? O boyda atası ölmüşdü. Sonra oğlanı kiritdilər. Qoymadılar lap çox ağlasın. Atası da onu bikef dayanmağa qoymazdı. Nə günahı olsa, bir söz deyib xatirinə dəyməzdi. İstəyirdi oğlunun kefi daim kök olsun. Atası onlara çox mehriban idi, ailəsindən ötrü on barmağını da canı tutana qədər şam eləyirdi. Ən çətin yerlərdə işləmişdi ki, ailəsi yaxşı dolansın, heç bir şeydən korluq çəkməsin. Amma bir dəfə Zəki atasının könlünə dəymişdi. Oturub hamılıqla çay içirdilər. Təzə satışa buraxılan «Jiquli» maşınlarından söhbət düşmüşdü. Böyük yeznəsi çox təriflәyirdi.

– Ailə üçün əntiqə maşındır.

– Varlı-hallı ata ola, o maşından birini ala, – deyə Zəki də söhbətə qarışdı. Bilmədi bu fikir ağlına haradan gəldi, söz ağzından necə çıxdı. Gördü stəkan xəstə atasının əlində əsir, yerə qoyanacan çay çalxalanıb üstünə, süfrəyə töküldü. Zəki səhvini anlamışdı. Anlamışdı ki, sözü ağzından bişirib çıxartmadı, atasının könlünə dəydi. Bilmədi vəziyyətdən necə çıxsın. Üzr istəyərdi. Amma xəcalətindən sıxılıb danışa bilmədi. Durub o biri otağa keçdi. Sonra eşitdi ki, atası onun hərəkətindən çox narazılıq edib:

– Əşi, bəzi cavanlar hazırın naziri olmaq istəyir...

Danışdıqca da hirslənib, narahatlıqla otaqda var-gəl edə-edə bəzi-bəzi adamların qarasınca danışıb:

– Harınladılar!.. Qudurdular!.. Rüşvət alıb şişdilər!.. Camaatın da tərbiyəsini pozdular.

O biri gün axşam isə kişinin halı nə üçünsə dəyişilmişdi. Nəfəs alması çətinləşmişdi. Təcili yardım çağırdılar. Gəlib iynə vurdu, «poduşka» verdi.

Günahını başa düşən Zəki xəcalətindən bilməmişdi nə etsin. Atasının gözünün qabağında necə duruş gətirsin. Həmin əhvalat indi yadına düşəndə Zəki daha da pis oldu. Əzab çəkdi ki, xəstə atasının könlünə dəyib.

– Qadan alım, gələ get qənd-çay al. – Anası çağırıb onu işə buyurdu.

Qonşu binanın altı mağaza idi. Zəkigil ərzaqlarını buradan alırdılar. O qədər yaxın idi ki, hətta atası da xəstə-xəstə gəlib bu mağazadan şey-şüy alırdı. Bir dəfə isə yağ satan qızla möhkəm dava eləmişdi.

– Ay insafsız, – demişdi, – mənim aldığım nədir ki, onu da az çəkirsən. Bax, iki yüz əlli qram. Şikayət kitabını bura ver görüm.

Əsəbi-əsəbi kişi evə gələndə də «qram-qram» deyinirdi. «Qram» üstündə dava elədiyinə xəcalət çəkirdi.

Kişinin ölümünü, deyəsən, bunlar da eşitmişdilər. Çünki Zəki qənd alanda müdir onu gördü. Kök, tosqun adam idi. Yeriyəndə də ayaqlarını yanakı basır, ördək təki gedirdi.

– Allah rəhmət eləsin, – dedi, – kişinin ölümünü eşitdim, yaman pis oldum.

O da qəmli-qəmli dayandı, bir söz demədi. Çünki atasının bunlardan zəhləsi gedirdi. Bunların da onu görməyə, deyəsən, gözü yox idi.

Qənd alıb evə qayıdanda gördü qonşularının qızı Sədaqət yenə onlara gəlib. Yenə qonşu! Adamın köməyinə birinci qonşu gəlir. Necə ki, Sədaqət gəlib. Gəlməyə də bilərdi. Çünki cavan qızdır, deyən-gülən vaxtıdır, belə hüznlü, yaslı yerlərdə nə işi var?!

Zəki bu qızı görəndə dünən görüş təyin elədiyi qızı xatırladı. Daha doğrusu, qız onun xəyalına gəldi. Ağbəniz, nazik qız idi. Elə bil çörək yeyib, su içməmişdi. Amma suyu şirin qız idi. İlk dəfədən də Zəkinin xoşuna gəlmişdi. Qız onu o qədər valeh etmişdi ki, axşam-sabah ardınca sürünməkdən ayaqqabılarının dabanlarını asfalt aparmışdı. Oğlanın əl çəkmədiyini qız özü də hiss eləmişdi, bəlkə də, oğlanın belə dəyanətli olmasından qızın da xoşu gəlmişdi. Oğlan ilk dəfə ona yaxınlaşıb tanış olmağı təklif edəndə qızın özünün də marağı olsa da, əvvəlcə çox ciddi dayanıb üz göstərməmiş, axırda dillənmişdi.

– Ay oğlan, mən sizi tanımıram, əl çəksəniz!..

– Tanış olarıq, biri-birimizi tanıyarıq.

– Axı nə üçün? Niyə?

Oğlan onda cavab verə bilməmişdi. Bilməmişdi nə desin. İndiki ağlı başında olsa deyərdi: «Əbədi dost olmaq üçün... ömür-gün yoldaşı olmaq üçün»... Necə ki, Zəkinin atası-anası uzun zaman ömür-gün yoldaşı oldular. Birgə yaşadılar. Zəkinin isə ilk görüşü baş tutmadı. Bəlkə də, bu məsələ elə bununla da qurtaracaq, ilk sevgisi, ilk məhəbbəti baş tutmayacaq. Onun ağlına gəldi ki, bəlkə, atasının da ilk görüşü baş tutmayıb, ilk məhəbbətinə qovuşmayıb. Ölən məhəbbət olub. Bu necə ola bilər axı? Məhəbbətin ölə, amma özün yaşayasan.

Belə fikir etdisə, ancaq ağlına batmadı. Ağlına batmadı ona görə ki, məhəbbətsiz insanın yaşamasını başa düşə bilmədi. Daha doğrusu, bu cür yaşamağı istəmədi, ürəyincə olmadı. Bəlkə, ona görə ki, özü sevirdi, həm də möhkəm sevirdi. Gələcəyini, səadətini eşqində, sevdiyi o qızda görürdü. Gözünə onsuz heç nə gəlmirdi. Onsuz heç yaşamaq istəməzdi. Bunun üçün də məhəbbətin ölüb, adamın özünün yaşaması fikrini yaxın qoymadı, tərsinə düşündü. Yəni adamın özü ölə, məhəbbəti yaşaya. Bu necə olar? Adam öləndən sonra məhəbbəti necə yaşayar? Oğlan cavab almağa uzağa getmədi. Bax, atası ölüb. Bəs indi onun məhəbbəti?.. Zəki qeyri-iradi olaraq anasına baxdı. Dünəndən bəri qoca arvadın ayaqları altına yığışmırdı. Evdə ağsaqqallıq edib gah bu, gah o biri işi görürdü. Hərdən də ərinin cənazəsinə baxıb əli qoynunda qəhərli-qəhərli başını yırğalayır və göz yaşı axıdırdı. Bəlkə, elə o dumduru damlalar atasının məhəbbəti idi. İndi onu özünə qaytarırdı.

Burası da qəribə idi: necə ki, atası sağ idi, ayaq üstə idi, nəfəsi gedib-gəlirdi, Zəki belə şeylər haqqında düşünməz, dərinə getməzdi. Evdə də adicə söhbətlər edərdilər.

O gün anası bir qonşu qızın geyimindən xoşlanmadığını bildirdi:

– A-a-a yerə soxum onun anasını, – deyirdi. – Gül təki qızın tərbiyəsini indidən pozur. O gündən görürəm əynində bir donu var, ətəyi iki qarış dizindən yuxarıdır.

Evləri tamam ayrı, uzaq blokda olsa da, həmən qızı Zəki tanıyırdı. Bir həyətin uşaqları idilər. Kök qız idi. Həqiqətən, gödək geyinirdi. Ancaq Zəkinin fikrincə, qısa paltar qızı qəşəng göstərirdi.

– Nə olar, ana can. Qoy geysin özü üçün, – Zəki əlini yelləmişdi. Sözü açıq, birbaşa deməsə də, hərəkəti ilə anasının zövqü ilə razılaşmadığını bildirmişdi. Bildirmişdi ki, belə də olar. Cavan qızdır. Baldırı-başı da qəşəngdir. Daha nə üçün gizlətsin?! Həm də onun da sevdiyi qız uzun geyinən deyildi. Donu bir-iki barmaq dizindən yuxarı dururdu. Zəki dərdinə indidən qaldı. Bu mübahisəli məsələni bu başdan həll etmək istədi ki, anasının sonra sözü olmasın, sevdiyi qızda qüsur görməsin.

Zəkigil şəhərdə məşhur ailə deyildilər. Ancaq onların da özlərinə görə tanışları vardı. Kişinin ölümünü eşidib gəlirdilər. Bəzisi içəri keçir, bəzisi həyətdə oturur, «yaxşı kişi idi, allah rəhmət eləsin» deyirdilər.

Günortadan sonra adam lap çoxaldı. Stul çatışmadı. Cavanlar qalxıb qocalar oturdular. Hələ divar uzunu kubik daşlar qoyub əyləşənlər də olurdu. Zəki bu adamların hər birinə minnətdarlıq hissi ilə baxırdı. Bilmirdi onlara necə qulluq etsin, təşəkkürünü necə bildirsin. Hər gələn olanda ayağa dururdu, oturmağa yer göstərirdi. Axı zəhmət çəkiblər, onların qapısına gəliblər.

Atası da xeyirdən-şərdən qalan deyildi. Canı tutan vaxtı hər yerə gedərdi. Ehtiyacı olana əlindən gələn köməkliyi edər, yıxılanın qolundan tutardı.

Gəlib özü yıxıldı.

Zəki qovruldu. Bilmədi nə etsin.

Çiynini cənazənin altına verib küçə ilə yavaş-yavaş addımlayanda Zəkinin hələ də ürəyində təskinlik var idi: atasını hələlik tamam itirməyib, hələlik ona yaxındır. Budur, çiynindəcədir. Soruşan olsa deyə bilər: bax, bu kişi mənim atamdır. Çünki hələlik adamların arasındadır, dünya üzündədir.

Zəkinin atası bədəncə yüngül adam idi. Özü deyirdi ki, mənim nəyim var, quş kimiyəm. İndi isə kişi elə ağırlaşmışdı ki, deyirdin yanına daş yığıblar. Hə, eşitmişdi ölü ağır olar. Elə bil atası da ağırlığını qəsdən salır: oğlu bu yükün altında bərkisin, möhkəm olsun, bərkə-boşa düşsün. Həyatın heç də asan olmadığını bilsin. Həm də o, daha tək qalır. Ailənin ağırlığı indi, əsasən, onun üstünə düşür.

Hava çox xəfə idi. İstidən asfalt boşalmışdı. Qırın bürkülü havası adamların nəfəsini daraldırdı. Üstəlik havada tüstü, yanıq iyi vardı. Zəki baxmasa da, hiss etdi ki, yanından ötüb keçdiyi balkonların hansındasa kabab bişirirlər. Bəlkə də, əllərində şiş dayanıb onlara tamaşa edirlər.

«Bu da ölməyə vaxt tapdı, nəşəmizi pozdu» deyirlər. Daha demirlər ki, ölüm vaxta, vədəyə baxmır, birdən gəlir.

«Bunlar da kef eləməyə vaxt tapdılar», Zəki də ürəyində acıqcan onları qınadı. Qorxdu iy adamları vura. Diqqətlərini ölüdən-diridən yayındıra.

Zəki başa düşürdü ki, burada bir dərd-fikir çəkməyən, narahat olmayan adam varsa atasıdır. Axı o ölüb. Dünyadan nə xəbəri var?! Heç nə hiss eləmir, heç nə eşitmir. Əli-ayağı tutmur. Ona görə də adamların çiyni üstə gedir.

Özü həmişə başqasına kömək olub. Müharibədə özü də yaralı ola-ola bir yoldaşını belinə alıb, mühasirədən çıxarıb... İndi isə... Sözsüz, kababın iyini də hiss eləmədi. Sağlığında da hər şeyə tamah salan deyildi.

Onların binasında da tez-tez kabab bişirirdilər. Bir də görürdün hansı eyvandansa tüstü qalxıb yan-yörəni basdı, kabanın iyi hər yeri bürüdü.

Onların balkonları isə yox idi. Birinci mərtəbədə yaşayırdılar. Neçə dəfə istəmişdilər ki, manqalı həyətdə qalasınlar. Atası razı olmamışdı.

– Həyətdə yaxşı düşməz, – demişdi. – İy dəyən olar. Bəlkə, biri bu gün kabab bişirmir.

Kimsə onun qoluna toxundu, əlini qaldırıb cənazədən tutmaq, onu dəyişmək istədi.

– Yorulmamışam, – Zəki kənara çıxmadı. Canı elə yanıqlı idi ki, atasının dəfnində nə eləsə, ona çox cüzi görünürdü. Evdə Zəkinin balacalıq şəkli var. Bir may nümayişində atasının çiyninə minib. Bir əlində qırmızı bayraq, bir əlində şar tutub. Mırıq dişlərini göstərib gülür. Atası söyləyirdi ki, sonra şarın əlindən çıxdı. Uçub havaya qalxdı. Gedib-gedib partladı.

Cənazəni maşına qoyanda Zəki yenə Sədaqəti gördü. Qızın belə yaxınlığından xeyli məmnun qaldı. Necə olub ki, onun bu cür yaxşı qız olduğunu bu vaxtadək bilməyib?

Bir dəfə qız bayıra günün qabağına çoxlu dibçək çıxarmışdı. Nazik rezin borudan yetişdirdiyi güllərin üstünə yağış təki su yağdırırdı.

– Nə çox dibçəyin var?! Bu qədər dibçəyi neyniyirsən?

– Ərə gedəndə cehiz aparacağam, – deyə qız gülə-gülə cavab vermişdi.

O vaxt oğlan ürəyində qıza «dəli» demişdi. Amma indi başqa fikirdə oldu, qızın zarafatından sonradan xoşlandı.

Bir dəfə də işdən gəlirdi, bərk acmışdı. Ayağını həyət qapısından içəri qoycaq küncdəki zibil qutusunun içərisindən bir yekə pişik atlandı. Qutunun ağzına necə toxundusa yanı üstə çevrildi, zibil töküldü. Zəki pişiyin ardınca başını bulayıb keçirdi ki, Sədaqət qabağına çıxdı. Qaşlarını dartıb mehribanlıqla dedi:

– Bu elə belə qalacaq?

Oğlan dayandı, qızın gülümsər, səmimi çöhrəsini süzüb, sözünü yerə salmadı.

Əmrinin yerinə yetirilməsindən çiçəyi çırtlayan qız oğlanın qolundan səmimiyyətlə tutdu:

– Dayan! Gedim xəkəndazı gətirim! – Keçi təki atlana-atlana evə qaçmağı ilə qızın qayıtmağı bir oldu.

Bir dəfə də qız içəridən vedrə ilə su daşıyıb həyəti sulayırdı.

– Onunla həyət sərin olmaz.

– Neyniyək?! – Yəni olanımız, imkanımız budur.

Zəki düşündü ki, qız haqlıdır, bir şeyə ki köməyin dəyməyəcək, daha o barədə boş-boş danışmağın nə mənası var?! Borclu qalmaq istəmədi.

– Sənin acığına bir gün gərək bu həyəti su ilə gölləyəm. Venetsiyanın küçələri təki lap qayıqla keçəsiniz.

Qız bic-bic oğlanı süzüb başını buladı.

– Elə niyə. İndi Kür gəlib, sudan bol nə var?! Ancaq baxan var ki?! Suyu gur buraxmırlar ki, turbaları partladar. Qoçaqlığınız olsun turbaları dəyişin.

Oğlan gördü ki, qız onu çətinə çəkdi. Ona görə üstündən keçdi, zarafata saldı. Əli ilə həyəti göstərib dedi:

*Küçələrə su səpmişəm*
*Yar gələndə toz olmasın.*
*Elə gəlsin, elə getsin*
*Aralıqda söz olmasın.*

Onların aralarında belə-belə söhbətlər olmuşdu. Amma Zəki bunların heç birinə ciddi məna verməmişdi. Qıza göz qoymamışdı, qızla maraqlanmamışdı. Elə-belə qonşu tək yeri gələndə salamlaşmışdı da, söhbət də eləmişdi.

Maşın bir darısqal yerdə silkələnib dayananda Zəki xəyaldan ayıldı, gördü qəbiristanlıqdı. Fikir-xəyala başı elə qarışmışdı ki, yolu necə gəldiyini bilmədi.

İndiyədək Zəki heç görməmişdi ki, atasına görə belə çox adam narahat olsun. Ömründə görməmişdi ki, atasının müəyyən bir işi üçün bu qədər adam toplaşsın. Onun adına bir şey təşkil edən olsun, camaat elliklə yığışıb əziyyət çəksin. Hə. Yadına düşdü. Bildirmi, inişilmi anası zarafatla hərdən deyərdi:

– A kişi, gəlsənə biz də rojdeniyamızı keçirək.

– Niyə durursan, arvad, keçir daaa!..

Kişinin eyhamını arvad o dəqiqə alsa da, kişini cinləndirməyindən xoşlanıb sözü uzadırdı.

– Haçan bu dünyaya təşrif gətirmisən?

– Düzü, ilini bilirəm, ayını, gününü isə yox.

– Başburtunda yazılmayıb?

– Təxmini yazılıb. Ancaq... anadan olduğum yeri bilirəm. Bax, həmşəri palanının qabağında. Rəhmətlik anam danışardı.

Ərinin tərcümeyi-halını beş barmağı kimi bilən arvad söhbətdən çiçəyi çırtlayıb soruşdu:

– Aaa, orda niyə?

– Anam bazara gedirmiş. Ağrısı tutur. Daha nə qayırsın. Yaxşı ki, yoldan keçən bir zənən dadına çatıb.

Kimin nə vaxt, harada, hansı şəraitdə anadan olduğu barədə söhbət etsələr də, ad günü qeyd eləyən yox idi.

Bu işi Zəki özü təşkil edə bilərdi. «Hm» – Zəki ürəyində buna çox təəssüfləndi, təzədən peşman oldu, heç olmasa bir dəfə atasının ad gününü qeyd eliyərdilər. Yemək-içmək düzəldərdi, beş-on adam dəvət eliyərdi. Bu, çox yaxşı bir iş olardı. Atası da razı qalardı ki, oğlum...

Kişini qəbrə qoyub üstünü torpaqlayanda Zəki bir anlıq karıxıb qaldı. Elə bil tamam unutdu ki, kişi nə təhər idi, necə adam idi. Qınayan olmasa idi, açdırar, son dəfə diqqətlə atasına baxar və çöhrəsini həmişəlik yadında saxlayardı. Elə qəhərləndi ki, dodağını dişinin altına aldı, sıxdı. O gün şəkillərini sildiyi uşaqları xatırladı. Onlar da beləcə... Zəkinin xəyalında şəkillər təzədən canlanır, balaca-balaca damcılara çevrilirdilər. Çöp qıçlarını yanakı qoyub, əllərini gic-gic göyə

qaldırıb tvist oynayır, ya da futbol azarkeşləri təki atdanıb-düşürdülər. Uşaqların belə xoşuna gəlmişdi, belə də çəkmişdilər. Balaca olanda o özü də hərdən şəkil çəkərdi. At...dəvə...dovşan... Amma həqiqi adam şəkli çəkə bilmirdi, pis çıxırdı.

Bu ara Zəkinin qulağına elə bil pıçıldayıb belə dedilər: «Nə lazım idi, elədin, bir işin qalmadı, arxayınlaşdın». Görüşü yadına düşdü, təəssüfləndi ki, görüşə gedə bilmir. Fikri vardı qızı katerə mindirsin, dəniz seyrinə çıxartsın, şəhərə sulardan tamaşa eləsin. Görəsən, oradan bura görünürmü? Böyük, geniş dünyanın bu dar-duracağında məskən salmış atasının qəbri haradan görünə bilər! Zəki ayaq saxlayıb, yan-yörəyə diqqətlə nəzər saldı. Qəbrin yerini yanılmasın: bilsin haradadır, onu yad etmək üçün üstünə hara ilə gəlmək olar. Bax, yan-yörə qəbirdir. Üstü götürüləni də var, götürülməyəni də. Bir-ikisinin də baş tərəfinə adicə daş, taxta sancıblar. Onlar da ovulub-ovulub yerə çökmüşdülər. Düşündü ki, o da atasının qəbrinin üstünə bir daş qoysun, kubiklərlə dövrələsin, yoxsa qəbir itib gedər.

– Görəsən, bu kimin qəbridir? – deyə Zəki üstü qara mərmərlə götürülmüş qəbrə nəzər saldı. Adını, təvəllüdünü oxusa da, tanıya bilmədi. Hər kimdisə atası ona qonşu gəlib. Özü də bir-iki günlüyə deyil, əbədi qonşu gəlib. Sağlığında, yəqin ki, biri-birlərini tanımırdılar. Amma burda, torpaq altında qonşu olublar.

Zəki atasının xasiyyətinə bələd idi. İmkanı olsa, qonşuları ilə burada da maraqlanardı. Necə adamdırlar?

Sağlığında deyərdi:

– A bala, hamı zahirən adamdır. Ağzı, burnu, qaşı-gözü... Di gəl sən onların batilini axtar, gör... – əliəyriləri, dələduzları görməyə kişinin gözü yox idi.

Zəki qəbrin önündə dizi üstə çökdü. Nəmli torpağı dəlicəsinə qucaqlayıb, hönkürtü ilə ağladı.

* * *

Həyətdə avtobusdan düşəndə Zəki gözlərinə inanmadı. Elə bildi yuxu görür, elə bildi onu qara basır, yaxud gözü alacalanır. Bunu o, heç ağlına gətirmirdi. O gün görüş təyin elədiyi qız hüzr yerinə gəlmişdi. Qara paltarda qızın çöhrəsi kağız təki ağ görünürdü. Haradan xəbər tutub, kim deyib, ünvanı necə öyrənib?

Onu bildi ki, qız darvazanın ağzında dayanıb nabələd-nabələd yan-yörəyə boylanır. Zəki cəld ona sarı getdi. Atası da həmişə belə çevik olardı. Zəkiyə elə gəldi ki, atasının yerişini yeriyirdi. Bəlkə, atası da bir vaxt beləcə... Hər halda, məhəbbətsiz həyat yoxdur. İnsanı yaşadan da məhəbbətdir.

## DAĞ HAVASI

Bayırda elə bil dünya dağılırdı. Göy tez-tez guruldayır, şaqqıltısından içəridə qulaq tutulurdu. Sonra da yağışın şırıltısından adam vahiməyə düşürdü. Səhərədək belə yağsa, su hər yeri götürər, yekə ağız dərələr bir-birinə qovuşardı. Fermaçılar yaylağa çıxandan belə yağış görməmişdilər. Ancaq Ömər kişinin alaçığında rahatlıq idi. Alaçıq geniş qurulmuşdu. İki adamlıq yaylı çarpayı yuxarı başa qoyulmuşdu. Balaca stol, oturmaq üçün stullar da öz yerində. Oğlu ilə gəlini onların yanına yaylağa çıxanda alaçığa baxıb demişdilər:

– Heç otaq da belə olmaz. Təkcə televizorunuz əskikdir.

– Darıxma, o da düzələcək! – Ömər kişi həmişəkindən fərqli indi öz işlərindən çox razı danışmış, ferma işçilərinin vəziyyətinin get-gedə yaxşılaşmasından söhbət açmışdı.

– Ay oğul, hamısı qayğıdan, can yandırmaqdan asılıdır. Bax, elə hey süd-süd deyirdik, heyvana baxmasan, ağartı haradan olacaq?! Elə də fermanın işçiləri...

Gəlin də alaçığın şəraitindən xoşlanıb demişdi:

– Soyuducunuz da olsa, lap əla...

Ömər kişinin batıq ovurdlarının dərisi yuxarı – yanaqlarına sarı dartılmışdı. Bığaltı qımışaraq demişdi.

– A gəlin, dağ özü yekə soyuducu deyilmi? Üzüyuxarı gedən dərələrin boğazlarında elə soyuq bulaqlar var ki, əlini bir dəqiqə içərisində saxlaya bilməzsən. İndi təzə gəlibsən, görəcəksən hamısını...

Xülasə, bu cür gözəl şəraiti olan alaçığı Ömər kişi bütüncə oğlu ilə gəlininin ixtiyarına vermişdi. Özləri üçün onların yanında bir balacasını düzəltmişdi. Nə olası idi, ağac-taxta bol, palaz da nə qədər istəsən. Fermanın hazırca çadırları vardır ki, altında iki-üç külfət yerləşdirmək olardı.

– Alaçıqdan dammasa yaxşıdır. – Gəlin bədənini üşürgələndirib, çiyinlərini qısdı. Elə bil jaketinin arasına daha yığcam girmək istəyirdi ki, soyuqlamasın.

Qəribə idi. Ömər kişi həmişə oğlundan çox gəlininin qeydinə qalar, ondan ötrü narahat olar, bir şey gərəyi olanda tez düzəltməyə çalışardı. Amma bu dəfə ona fikir vermədi. Gəlin danışanda o tərəfə heç baxmadı da. Elə bayaqdan alaçığın ağzında qaşqabaqlı oturmuşdu. Neçə dəfə qalxıb öz dəyəsinə getmək istəmişdisə:

– Hara tələsirsən, qoy söhbət eliyək, – deyə arvadı onun qolundan basıb aşağı oturtmuşdu.

Yağış get-gedə güclənirdi. Elə bil göydən alaçığın üstə suyu qazanla əndərirdilər. Damcıların çadırın üstündə qopardığı tappıltıdan lampanın işığı atdanıbdüşürdü. Şüşənin yuxarı ucunun bir tərəfi bekarca his eləmişdi.

– Ata, niyə bəri əyləşmirsən, qapının ağzında nə üçün oturmusan? – deyə ona stul təklif etdisə, Ömər kişi ona da üz göstərmədi, oğlunun sözünü eşitməməzliyə saldı, alaçığın qapısına tutduqları köhnə cecim parçasını qaldırıb eşiyə baxdı. Bayır zülmət təki idi.

Göy bu ara daha bərk gurladı, alaçıqla üzbəüz qənşər dağın üstə şimşək oynadı. Elə bil səmanın özü də nəhəng alaçıq idi, kiməsə qəzəbi tutduğundan xəncərini sivirib göyün çadırını doğram-doğram eyləyirdi. Şimşəyin işığı qarşı dağın döşünə düşdü. Ömər kişi bu gün sürünü həmin o döşlə lap yuxarılara qaldırmışdı. Çünki aşağıların otunun daha çayırı çıxırdı. Hər yeri heyvan ayaqaltı, döyənək eləmişdi. Doymadığından qoyun otun ardınca qaçırdı. Elə bilirdin ki, hinduşka çəyirtkənin ardınca qaçır. Yallar xam idi, elə örüşlər vardı ki, hamısı gül-çiçək idi. Buna görə Ömər kişi əziyyətinə baxmayıb sürünü haylayıb yaxşı örüşlərə çıxartmışdı.

Amma sürünü bəri tökəndə həmin döşdə kişinin qanı bərk qaralmışdı. İndi də şimşək oynayıb, ildırım çaxıb dağların döşü işıqlananda həmin əhvalat yadına düşdü. Belə ki, rahatca otlaya-otlaya gedən sürü birdən, nədənsə, hürküb onun üstünə qayıtmışdı. Az qalmışdı heyvan dağdan-daşdan uçub dərələrə tökülsün. Ömər kişi «hey!.. hey!..» eləyib çomağını qaldırmış, heyvanların dağılmaması üçün sürünün qabağına durmuşdu. Sürünü birtəhər sakitləşdirmişdi. Ancaq bilmirdi heyvan nədən hürkdü? Bax, o bələnin ağzındakı qalınlıqda nə var? Kişi öz-özünə danışmışdı: «Ağzı yanmış canavar olar, ayə?»

Arxadan gələn itlər də nəsə iy alıb hürüşürdülər ki, qalınlıqda bir şey tərpəndi. Kişi gözünü zilləyib baxırdı. Bir də otların arasından bir çılpaq adam qalxdı. Əynində yalnız tuman var idi.

Ömər kişi heyrət içərisində kirpik çala-çala dedi:

– Kimsən, ayə?

– Mənəm! – Çılpaq adam səsini çıxaracaq itlər cumdular. Ömər kişi çomağını başı üstə qaldırıb yüyürdü.

– Ay it!.. ay it!.. Ay sizə quduz dəysin!

Yaxınlaşanda gördü oğlu. İtlərdən necə qorxmuşdusa, «gədənin» bənizi kağız təki ağarmışdı. Əli-ayağı titrəyir, şalvarını qıçlarına çəkə bilmirdi. Bu yana baxanda da kişi gəlinini gördü. O da tələsik paltarını geyirdi. Deməə, ər-arvad altlarına nəsə salıb çıl-çılpaq göylüyə uzanıblarmış. Gözlərinə də qara eynək taxıb, özlərini günə verirlərmiş. Ömər kişini elə bil qara basırdı. Sanki gözləri alacalanırdı. O bu qədər dağda-daşda gəzmiş, dolanmış, hələ belələrinə rast gəlməmişdi.

Kişi elə pərt olmuşdu ki, sanki kimsə boğazından tutub onu boğurdu. Qəzəbini gizlədə bilməyib, qaşqabaqlı mızıldandı:

– Burada nə edirsiniz?
– Zaqar götürürük, ata.
– Nə?
– Zaqar. Bədənimizi günə veririk.
– Geyinin, a bala, geyinin.
Kişi onlara tərəf baxmadan üstüörtülü oğluna-gəlininə çatdırmaq istədi ki, belə yaramaz, görən olar, eyibdir.
Qoyunlar onsuz da hürküb geri çevrilmişdilər. Ömər kişi bir də sürünün yönünü geri döndərdi. Fikirli-fikirli qoyunların ardınca getdi. Bələnin o üzünə aşanda ferma müdiri Ədhəm kişi qabağına çıxdı. Qayğılı-qayğılı:
– Nə var, nə yox? – dedi. – Heyvan ac qalmır ki?
– Yox, bu gün pis otlamadı.
– Bilmirəm necə edək, südü artıraq?! Belə getsə, planı ödəyə bilməyəcəyik.
– Bilirsənmi, yoldaş müdir? – Ömər kişi bu barədə öz fikrini bildirdi. – Arxacla örüş bir-birindən çox uzaqdır. Bax, qoyun hər gün bu dağlara çıxıb düşür. Düzünü deyim, aşağı enəndə yuxarılarda otdadığı da yazıq heyvanın burnundan gəlir. Ya gərək köçü-avadanlığı yuxarı qaldıraq. Ya da yalnız sürü yuxarıda olsun. Sağına gəlməsin. Yuxarıda sağıb, südü aşağı endirərik.
Sədr fikirli halda dilləndi:
– Bu il qoyun gözümə yunlu dəyir. Ona görə yun planından arxayınam. Amma bu süd məsələsi, düzü, məni dəli eləyib, bilmirəm, necə edək? Arada-bərədə də ağartı çox işlənir.
Ömər kişi də süd məsələsinə görə özünün nigarançılığını bildirdi:
– Nə bilim, Ədhəm, süd məsələsi bir az çətin işdir.
– Deyirsən örüşü dəyişək, artım olar, hə?
Ömər kişi çiyinlərini atdı. Həm də qəsdən belə etdi ki, müdir arxayın düşməsin, heyvanı otlu örüşlərə aparmaq üçün tədbir görsün.
Sağım vaxtı idi, sürünü hayladılar.
Oğlu ilə gəlinin elə soyunub özlərini günə verməiləri Ömər kişinin çox pisinə gəlirdi. «Bəlkə, bu əhvalatı nahaq yerə ürəyinə salır, bəlkə, elə-belə olmalıdı» – deyə çox düşünmüşdü, çox götür-qoy eləmişdi, ancaq hər cür özünə təskinlik verib ürəyindən çıxara bilməmişdi. Sürü arxaca töküləndən sonra arvadı Əsməti xəlvətdə görüb incik-incik dedi:
– Sən uşaqların oturub-duruşlarına fikir verirsənmi, arvad?
– Necə, ay kişi?
– Heç elə-belə... Yəni hər yerin bir adəti, dəbi var. Elə olmasın ki, onlar gedəndən sonra dallarınca nağara-zurna çalsınlar.
– Sözlü adama oxşayırsan.
Kişi daha dayana bilməyib açıldı.

– Allahdan gizlin deyil, səndən nə gizlədim. Bu gün ikisini də bu dağda-daşda çılpaq görmüşəm. – Ona elə gəlirdi ki, bu xəbəri eşitcək arvad təəccüblənəcək. Ancaq sözü çox soyuqqanlı qarşılandı.

– Yaxşı, sən də! – dedi. – Hər şeydən ötəri... Hər gün gəzməyə çıxırlar. Dağların bu lilparlı suyunda çimib özlərini günə verirlər, nə olar?!

Ömər kişi təəccüb qaldı. Bu necə iş idi?! Əsmət dünənədək döşü-başı açıq gəzənlərə, donları dizdən yuxarı duranlara lağ edərdi, onların ərlərini günahlandırardı. İndi isə... yoxsa onun da zövqü dəyişilib, nəsə başqa cür olub.

Bugünkü hadisə kişiyə necə təsir etmişdisə, onun nəzərlərində təbiət də dəyişilib, dondan-dona düşürdü. Bax, indi dağların axar-baxarlı, cah-calallı vaxtıdır. İndi gözlərini oxşayan, könlünü açan bu çöl-çəmən sonra solacaq, rəngini, görünüşünü dəyişəcək. İndi pardaxlanıb açılmış güllər, çiçəklər xəzana düşüb, məhv olacaqlar. Bütün bunlar bu ara Ömər kişiyə uşaq oyunu kimi gəldi. Təbiət qurur, düzəldir, sonra da vurub uçurur. Çox böyük həvəslə, məhəbbətlə bitirdiyi cürbəcür bitkiləri sonra insafsızcasına, qəddarcasına soldurur. Məgər başqa cür ola bilməzdimi? Ömər kişi təbiətin belə işlərindən bu ara nəsə narazı kimi oldu, həyatı, onun təbii qanunlarını nəsə başqa cür görmək istədi.

«Bəs bu ağlı başında olan şüurlu adamlar nə üçün durub-durub birdən özlərindən fokus açırlar, bu dağ-daş, bu kol-kos kimi çılpaqlaşırlar, lütləşirlər?» – deyə Ömər kişi burada, alaçığın ağzında oturub neçə dəfə alnını yığıb-açdı, yığıb-açdı, yenə baş aça bilmədi.

Yağış kəsmək bilmirdi. Hərdən arxacdan çobanların səsi gəlirdi: «Fişt! Fişt!.. Ay qoyma ha!.. Bozdar, bas...» Elə bir təhlükə olmasa da, çobanlar hərdən beləcə səslənir, hər ehtimala qarşı qara-qışqırıq salıb qurdu-quşu əvvəlcədən mal-qoyundan uzaqlaşdırmaq istəyirdilər. Onlar səsləndikcə, itlər də yağışdan tolamazdı dəymiş kimi zingildəşir, arxacın dörd böyründə çırpına-çırpına dolanırdılar. Yağış isə yenə yağır, şimşək oynayır, göyün üzü dilim-dilim, doğram-doğram olur, alaçıqlar göbələk kimi ağarışır, tezcə də qaranlığa qovuşurdular.

Fikirli olsa da, Ömər kişinin yarı canı arxacda, sürünün yanında idi. Buna baxmayaraq, qapının palazını saldı ki, eşiyin soyuğu içəri gəlməsin, demək olmaz, qonaqlar üşüyərlər, şəhər adamlarıdırlar, belə havalara öyrəşməyiblər.

– Məəəə – alaçığın qapısının palazı tərpəndi. Sonra altından bir qoyun başı çıxdı. Yağışdan qulaqlarını sallamışdı. Ağız-burnundan selik tökülürdü. Qoyun başını içəri soxcaq fınxırıb seliyini içəri dağıtdı.

– Ay sənin damazlığın kəsilsin! – Ömər kişi astaca heyvanın burnuna vurub geri qaytardı. – Duz istəyir, çoxdandır heyvana duz verilmir.

Gəlin pıqqıldadı. Əri gözünü ağartdı.

– Nəyə gülürsən?!

– Qoyunun duz istəməyinə.

Arada sakitlik oldu. Sonra Ömər kişi dilləndi:

– Burada gülməli nə var ki?..

– Şəhərdə bizim bir qonşumuz var, o da tez-tez gəlir ki, bir azca duz ver, almamışam. O yadıma düşdü.

İçəri darısqallıq olsa da, bayaqdan bəri əyilə-əilə alaçıqda işgüzarlıqla hərlənən, qurdalanan, xırda-para iş görən Əsmət arvad, nəhayət, oturaraq dedi:

– Geri qalmış, o necə arvaddır?

– İndi mənim qoyunum da sizin qonşunuzun gününə düşüb, – kişi yenə ona tərəf baxmadan danışdı.

Qayınatanın incik olmasını gəlin də hiss etməmiş deyildi. Əslində, həmin hadisəyə görə o da yaman utanmışdı. Arabir kəlmə kəssə də, qayınatasının üzünə baxa bilmirdi. Həm də istəyirdi ki, barışsınlar. Bəlkə də, bu məqsədlə ona yaxın oturub mehribanlıqla dedi:

– Axı ay əmi, o qoyun hardan bildi ki, sən buradasan?

– Heç hardan! Heyvandır. Görünür, mədəsi duz tələb edir. O da bax, bu cür özünü ora-bura vurub paltar-palazı çeynəyir. – Ömər kişi zahirən sakitliklə cavab verirdisə də, daxilən birtəhər olmuşdu. Yekə arvadın belə uşaq-uşaq danışmasına təəccüblənirdi.

– Buy... Südü çalmamışam, az qalmışdı unudam. Səhər qatıqsız qalardınız, – yerini təzəcə rahatlayıb oturmuş Əsmət arvad dik atıldı. Stəkanda saxlamış olduğu mayanı çalxalayıb südə tökdü və qaşıq götürüb südü qarışdırdı. Qazanın qapağını qoydu, üstünü təmiz süfrə ilə möhkəm-möhkəm basdırdı.

– Ay əmi, qurban olum, bir söz deyəcəyəm, incimə, – gəlin nəvazişlə qayınatasına müraciət etdi.

Xoşluqla deyilən sözdən Ömər kişi riqqətə gəldi. Üz-gözündə həlim bir ifadə, ona sarı çevrildi, az qaldı desin: «Günü keçmiş adamam, qızım, mənə niyə elə deyirsən».

Gəlin şirin dillə əsl məqsədə keçdi:

– Bu necə işdir, ay əmi, mən səni həmişə paltarlı görürəm? Oturanda da, duranda da. Belə olmaz axı!

Ömər kişi özünü çıxılmaz vəziyyətdə hiss elədi. «Necə yəni geyincəkli, məgər mən də...»

Qayınata bir söz deyənədək gəlin əlini kişinin papağına apardı.

– Bax, bunu başından götür, qoy saçlarının dibi nəfəs alsın. Yapıncını da çiynindən...

– Dayan görüm, a gəlin.

– Yox, yox. Bayıra çıxanda sənə soyuq olar, – gəlin kişinin yapıncısını da aldı, hamısını səliqə ilə böyürdəki palıdı rəngli çamadanın üstə qoydu. – Köynəyinin düymələrini aç, qoy boyun-boğazın boşalsın.

Ömər kişinin bu da ağlına gəldi ki, gəlini onu uşaq yerinə qoyur. İstədi desin: «Sağ ol, a gəlin, hörmətin atan evində qalsın». Ancaq gəlinin nəvazişli hərəkətləri onu saxlamışdı ki, bayırda itlər hürüşdü, zingildədi. Arxacda sürüyə gözətçi duran çobanlar qışqırışdılar. Ömər kişi papağını cəld başına qoydu, yapıncısını çiyninə atdı, tez alaçığın palazını qaldırıb özünü eşiyə tulladı.

– Hey!.. Hey!..

Dalbadal iki dəfə atəş açıldı. Qatı qaranlıq içərisində tüfəngin lüləsinin ağzı alovlanıb söndü. İtlərin boğuq səsi uzaqlardan gəldi.

Ömər kişi yoldaşını səslədi:

– Ayə, a Tapdıq!

– Hey!..

– Nədir, nə olub?

– Ağzı yanmış canavar var. Acıxıb özünü sürüyə toxuyurdu, itlər duyuq düşdü.

– Gözdə-qulaqda olun, qadanız alım. – Ömər kişi yoldaşlarına ayıq-sayıq olmağı tapşırdı. Arxacda sakitlik yaranandan sonra yenə içəri gəldi. Papaqlı, yapıncılı qapının ağzında oturub üz-gözünün suyunu yerə sildi. Gəlin daha bir kəlmə danışmadı. Hətta bayaqkı hərəkəti, sözləri ona boş, mənasız göründü.

Ömər kişi gördü hamı susub, özü danışdı.

– Yağış bir az azalıb. Ötüb keçmək üzrədir.

– Doğrudan? – Gəlin yerindən qalxıb palazı qaldırdı. – Hə, azalıb. – Əlini uşaq təki yağışın altına tutdu.

Yağışın şırıltısı azaldıqca, qonşu dəyələrdən danışıq eşidilirdi. Deyəsən, hələ heç kəs yatmamışdı. Onların qonşuluğundakı alaçıqda isə uşaq ağlayırdı.

Ömər kişi uşağın səsinə tablamayıb ucadan səsləndi:

– Ayə, ay uşaq, niyə ağlayırsan?

– Hü... Hü... Hü...

Ömər kişi uşağın anasını səslədi.

– A Bənövşə!

– Bəli!

– Aaz, o uşaq niyə ağlayır?

– Bıy, bunu görüm yarımasın.

– Aaaz, sən allah qarğama.

– Bə neynim? Bax, deyir acmışam. Qatıq verirəm – yemir, qaymaq verirəm – istəmir.

Ömər kişi də maraqlandı:

– Bəs nə istəyir?

– Çeçə!..

Ömər kişi dərindən nəfəsini çəkdi, yaxası əzik-üzük olan köynəyinin altda köksü qabarıb qalxdı, elə bil yapıncı ilə bir oldu. Sonra gülümsünmüş ucadan səsləndi:

– Aaaz, ona deynən canavar da çeçə istəyir, indi biz necə edək?.. Hansına cavab verək?

Gəlin də söhbətə qarışıb zarafatla dedi:

– Uşağa, ay əmi, uşağa. İndi ağlamağına baxma. Gör böyüyüb necə oğlan olacaq?!

Ömər kişi gəlinə sarı çevrildi. Onun sivri çənəsinin cod tükləri yapıncının sulu saçaqlarına toxunurdu. Gəlinin uşaq mehrli olmasından xoşlanan Ömər kişi ürəyində özünə də oğuldan-qızdan bir nəvə arzulayıb:

– A qızım, biz də elə uşaqlar üçün çalışmırıqmı?! – dedi, onunla həmfikir olduğunu bildirdi və bir azdan üzünü arvadına tutdu. – Dur gedək, arvad. Səhər yatıb qalaram, heyvan yazıqdır, acından qırılar.

Səhər alaqaranlıqda Ömər kişi durub sürünü örüşə yelləyəndə yadına nə düşdüsə, qayıdıb arvadına pıçıltı ilə dedi:

– Aaaz, uşaqlara yaxşı yemək-içmək düzəlt, qoy korluq çəkməsinlər. Amma onlara de daha zaqar götürməsinlər.

Əsmət arvad yuxulu-yuxulu danışdı.

– O nə olan şeydir? Mənə xəngəl bişirməyi tapşırıblar, indi durub yayaram.

Heyvan arxacda qaldığından Ömər kişinin hövsələsi daralmışdı.

– Əşşi, mən dedim yayma, bişirmə?! Nə istəyirsən elə. Amma zaqar götürməsinlər. Soyunub günün qabağına yıxılmasınlar. Nə qədər götürüblər bəsləridir. Sonra gün sətəlcəmi olarlar. Eşitdinmi?

Axşam o qədər gec yatmışdılar ki, indi Əsmət arvadın gözləri açılmırdı.

– Yaxşı, yaxşı. Bişirərəm. Korluq çəkməzlər, – başını yastığa qoyub gözlərini yumdu.

Gecə yağış dağlara yaman divan tutmuşdu. Döşlərdən sellər-sular oynayıb, orda-burda torpağın bərəkəti, ziynəti olan yaşıl çəmənləri yuyub aparmış, çuxurlar əmələ gətirmiş, xəndəklər açmışdı. Dərələrdə qıjıldayan sular bulanıq idi.

Sürü dolaylana-dolaylana hündürlərə qalxan zaman günəş də çırtdı, ilk zərrələri ən uca zirvələrə saçıldı. Bir azdan isə dağları günəşin isti şəfəqləri büsbütün bürüdü, hər yan qızılı don geydi, otların üzərində, gül-çiçəyin qönçələrində bitən enliyarpaqlı dəvədabanların, əvəliyin üstündə gecədən düzüm-düzüm qalmış yağış damcıları mirvari təki par-par parıldaşdı. Təbiətin bu xoş üzündən vəcdə gəlib havalanmış quşların şən nəğmələri, xəfif pırıltıları eşidildi.

– Şükür olmuş, bu gecə niyə kürlük eləyirdin?

Ömər kişi üzünü şəfəqli dağlara tutub öz-özünə danışırdı, təbiətin bugünkü ab-havasından razı qaldığını, çox-çox xoşlandığını bildirdi, sürünün belə halda yaxşı otlayacağını, südünün də artıq olacağını məmnunluq hissi ilə düşündü.

Qoyun sağına qayıdanda da hava çox xoş idi. Ömər kişi yapıncısını qoltuğunda tutmuşdu. Yer-yurd get-gedə təpiyir, bulanıq sular durulub at yalı təki oynayırdı. İçəri gün düşsün deyə çadırları belinə qatlanmış alaçıqların aralarında ocaq

tüstülənir, tərtəmiz yuyulub yaxanmış qab-qacaq, iri qazanlar, bidonlar ağarışırdı. Binənin qarşısındakı gicitkənliyin üstünə də çoxlu pendir torbaları sərmişdilər.

Ömər kişi qoyunu arxaca tökəndə gördü gəlini qonşu dəyənin qabağında qışqırda-qışqırda bir uşağı soyundurur. Başa düşə bilmədi ki, gəlinin məqsədi nədir, nə edir. Sürünü arxacda buraxıb, asta-asta ora gəldi.

Xoşluqla dedi:

– A gəlin, nə edirsən?

– Bu uşağı çimizdirmək istəyirəm, əmi can.

– Uşağı saxlayan arvad hanı axı?

– Məndən utanır, çimizdirməyə qoymur, – üzü bəri baxan alaçıqdan ağbəniz bir gəlin çıxdı.

Bu arvad uşağın xalası idi. Bacısı uşağını özü ilə yaylağa gətirmişdi.

Kişi ağzını doldurdu ki, desin «bəs səndən utanırsa, bizim gəlindən niyə utanmasın, hə?» Sözünü saxladı. Gəlin oğlanın köynəyini başından dartıb çıxartdı, maykasını da soyundurdu. Oğlan şalvarının başından nə qədər bərk-bərk yapışdısa, gəlin onu da çəkib qıçlarından çıxartdı.

– İndi su gətirin, – dedi, əllərini qabağına tutub aşağı əyilmiş uşağa baxaraq gülümsədi.

Sağından sonra sürünü yelləyəndə həmin oğlan da orada idi. Ömər kişiyə kömək edirdi. Əvəlik özəyi ilə qoyunları tovlayıb qaldırdı, hərdən kişi-kişi səslənib qoyunlara acıqlanırdı. Ömər kişi onun ipək təkin yumşaq saçlarına, təmiz boyun-boğazına baxıb, çevik hərəkətlərinə diqqət yetirib xoşlandı.

– Necəsən, a qoçaq bala? – dedi, əlini mehribanlıqla uşağın başına çəkdi.

Oğlan Ömər kişinin nəvazişindən daha da açıldı.

– Yaxşıyam, baba.

– Deyəsən, bu gün yaxşı çimmisən, hə?

Oğlan şən-şən başını tərpətdi. Sonra dedi:

– Hələ zaqar da götürəcəm, baba. Gəlin bacı məsləhət görür.

– Hm!.. – Ömər kişi fınxırdı.

O biri gün ferma yuxarı Yelatan deyilən dağa, təzə örüşlərə köçməli oldu. Böyük-kiçik hərə bir yandan əl-ayaq verib alaçıqları sökdülər. Avadanlığı yığışdırdılar, ata-ulağa yükləyib hissə-hissə yola saldılar. Axırıncı yük Yelatana çatanda hamı yüngüllüklə nəfəsini dərdi. Çünki bura dağların ən səfalı yeri idi.

– Əmi can, bura nə gözəldir! – gəlin yan-yörəni heyran-heyran süzüb təzə düşərgələrindən xoşu gəldiyini bildirdi.

– Hə, qızım, səfalı yerlərdir. – Ömər kişi gəlininə şirinliklə cavab verdisə də, başına qorxulu bir fikir gəldi: yoxsa burada da zaqar götürəcəklər.

Beş-altı gün keçmiş sürü hay-harayla bərəyə vurulurdu. Heyvanın yan-yörəsini nə qədər möhkəm kəsirdilərsə, yenə ara-bərədən qoyun oğurlanıb qaçırdı.

– Ay uşaqlar, haradasınız? – deyə neçə gündən bəri heyvanın südünün artmasından kefi kökəlmiş ferma müdiri Ədhəm balacaları qoyunun sağınına kömək etməyə səsləyirdi.

Böyürdən üç-dörd oğlan çıxdı; hamısı da qurşaqdan yuxarı çılpaq idi. Onların ikisi bərənin sağ cinahında, ikisi sol cinahında dayandı. Dördü də pəhləvan təki qürurlu idi. Onların qıvraq duruşları, cəldliyi Ömər kişinin xoşuna gəlsə də, yenə qanı bərk qaraldı. Elə bilirdi adamlar altdan-altdan bir-birinin üzünə baxıb pıqqıldaşacaqlar ki, bu dəbi kim çıxardıb.

«Buradan getsəm yaxşıdır, nə gözüm görər, nə də qulağım eşidər» – Ömər kişi ürəyində öz-özü ilə danışırdı. Ancaq birdən-birə sağını qoyub getməyə arlandı. Əsəbiləşdiyindən kişi hərəkətini də bilmirdi. Qoyunlar bərəyə öz qaydasınca vurulmuş olsa da, o, ağacını uzadıb nahaq yerə ortadakı qoyunları vurdu, dizinin gözü ilə qabağındakıları irəli itələdi. Sonra ağacını tulladı.

– Əşşi, siz burdasınız, mən gedib bir az dincəlim.

Cığırın altında-üstündə əjdahaya oxşayan qıllı köpəklər yatışırdı. Qanı qara olduğu üçün Ömər kişinin itlərə də acığı tutdu.

– Bu quduz dəymişlər niyə ölüb ora-bura yıxılıblar. – Əlini yerə uzadıb hərəsinə bir daş atdı.

Zingildəşə-zingildəşə itlərin hərəsi bir yana dağılanda Ömər kişi alaçığına sarı gələ-gələ oğluna, gəlininə deyəcəyi sözləri beynində bir-birinin ardına düzür, silah kimi hazır tuturdu.

«Yığışın, a bala, yığışın! Çıxın gedin! Məni abırdan saldınız, daha bəsdir!» Bilirdi ki, narazılıq olacaq, oğlu da, gəlini də ondan inciyəcəklər. Onların xatirinə dəydiyi üçün arvadı da pis olacaq, qanı qaralacaq. Ömər kişi yalnız ona qıymırdı. Çünki Əsmət arvadın canı nasaz idi, son vaxtlar tez-tez xəstələnirdi. O gün zarafatla:

– Ay arvad, – demişdi. – Deyəsən, səni boşayacağam.

– Niyə, a kişi?

– Çünki özünə baxmırsan. Bilirsən, necə arvadlar var. Peşələri yeyib-yatmaqdır.

Əsmət arvad bir söz deməyib gülüb ötürmüşdü.

«Yox! Yox. Qoy çıxıb getsinlər, arvadın da qarğaşası azalar», – Ömər kişi alaçığına gəldi, əsəbi-əsəbi içəri girdi. Heç kimi görmədi. Qayıdıb o biri alaçığa baxdı. Burada da heç kəs yox idi. Eşiyə çıxıb ucadan söyləndi:

– Bunlar hara cəhənnəm olublar?

– Odur! Bulağın üstə qaynar asıblar, – balaca bir qız əvəlikliyi göstərdi.

Ömər kişinin qərarı necə qəti idisə yorulmağına baxmayıb, acıqlı-acıqlı aşağı endi. Bulağın üstə yaxınlaşar-yaxınlaşmaz birdən dayandı. Gözlərinə inana bilmədi: əvəlikliyin qalın yerində gəlin su töküb qayınanasını çimizdirirdi. Gah boyun-boğazını, belini sürtür, gah sabun çəkirdi. O da narahatlıqla deyirdi:

– Aaaz, qadan alım, tez elə, gələn-gedən olar.

– Bir dayan, qoy yaxşı-yaxşı çimizdirim, – gəlin işindən qalmır, dönüb-dönüb su tökürdü.

Gəlin qımıldadıqca hündür qalxmış özəkli dağ əvəliklərinə toxunur, onların tünd-yaşıl yarpaqları arasında qayınananın solğun bədəninə yarpaq-yarpaq gün işığı süzülüb düşür, onun zəif çiyinlərində, ağarıb gödəlmiş saçlarında pul-pul olub oynayırdı. Ömür-gün yoldaşını belə zəif, solğun görən Ömər kişinin elə bil ürəyinin başı qanadı. Hər şeyi unudub bircə onun haqqında düşündü. Bilmədi Əsmət üçün nə etsin. Sonra... Dabanı üstə dönüb, səssizcə geri qayıtdı ki, gəlin tələsməsin, qayınanasını gözəl dağ havasında, günəşin isti şəfəqləri altında yaxşı-yaxşı çimizdirsin.

# SAĞLIQ

Qonaqlar üst-başlarının qarını çırpıb içəri keçdilər, paltolarını soyunub asdılar, papaqlarını başlarından götürdülər. Sonra böyük aynanın qabağına keçdilər, saçlarını darayıb, qalstuklarını düzəldib özlərini qaydaya saldılar.

Ev sahibləri isə bilmirdilər onlara nə dil töksünlər. O yan-bu yanlarına keçə-keçə deyirdilər:

– Buyurun!

– Əyləşin!

– Biz çox şadıq ki, sizin kimi əziz və hörmətli dostlarımız, qonaqlarımız gəlib.

– Həmişə siz gələsiniz!

Qonaqları beləcə çox mehribanlıqla qarşıladılar. Sadıq dəhlizdə minnətdarlıqla əlini arvadının kürəyinə döydü. «Malades, Liliçka!» Belə elədi, belə dedi ki, arvad bir az da həvəsli olsun, əlli-ayaqlı tərpənsin, əziz qonaqlar üçün yaxşı yemək-içmək düzəltsin.

Sadığın anası Səkinə isə neçə gün idi ki, xəstə idi. O biri otaqda yorğan-döşəkdə yatırdı.

Leyla ərinin bığlarına oxşar qaşlarını əda ilə çəkib mızıldandı.

– Mən tək canımla neynim?! Maman yenə yatır.

Onlar xəstə yatan otağa keçdilər. Sadıq gözlərini anasının enib-qalxan sinəsinə dikib acıqlı bir tərzdə səsini çıxartdı.

– Ma-ma!

Səkinə gözlərini açıb oğluna baxdı. Qoca arvadın gələn qonaqlardan xəbəri yox idi. Oğlu ilə gəlinini başının üstündə görəndə elə bildi ki, ona görə narahat olub yanına gəliblər.

– Nədir, sizə qurban olum?

Sadığın fikri qonaqların yanında idi. Anası gözünə görünmürdü. Ona görə sərt bir ifadə ilə:

– Sən yenə yatırsan?! – dedi. – Gecə yat, gündüz yat, nə xəbərdir?!

Oğlunun danışığı, rəftarı xoşuna gəlməsə də, Səkinə arvad bunu üzə salmadı.

– Nə edim?! Tutarım qalmayıb. Gethaget vaxtımdır.

– Nə olub ki, qar-boran tökürsən?

– Xəstəyəm. Mənə həkim gətir.

– Həkim?! – Sadıq bilmədi sonra nə desin. Ona necə başa salsın ki, indi həkim çağırmaq vaxtı deyil. Ondan da vacib işlər var. Onlara çox hörmətli qonaqlar gəlib. Ən əvvəl qonaqların qeydinə qalmaq lazımdır.

Qayınanası ilə arası olmayan Leyla bu ara özünü saxlaya bilmədi. Ərindən üz görüb qoca arvada çımxırdı.

– Ay arvad, nə həkimbazlıqdır! – dedi. – Yeyəndə iki qabdan qayıtmırsan. Dur ayağa!

Səkinə gəlininə cavab vermədi. Qəribə bir ifadə ilə, gözlərini qırpmadan oğlunun üzünə baxa-baxa qaldı. Güman etmək olardı ki, Sadığın arvadına acığı tutacaq ki, anamla nə üçün belə danışırsan. O isə Leylanın gözünü də üfürmədi. Çarpayının baş tərəfinə yaxın dayanıb ağzını anasının qulağına yaxın tutdu, arvadın saçlarından gələn tər iyindən üz-gözünü turşudub dedi:

– Bilirsən, bizə kimlər gəlib?

Arvad başını buladı.

– Biri Liliçkanın müdiridir, söz verib ki, ikimizi bir çaxır dükanına qoyacaq. Bir özüm olacağam, bir də Liliçka. Çaxır boçka-boçka. Pula pul demiyəcəyik. – Sadıq anasının qolundan tutub gözlərinin içinə baxdı. – İndi sən necə durmaya bilərsən? Xəstə olsan da, gərək qalxasan. Dükan-bazara get, xörək hazırla. Liliçka bacarmaz. Bir də o, gərək qonaqların yanında olsun.

Səkinə köksünü ötürdü. Dodaqlarını yaladı.

– Qalxsam, ayaq üstə dura bilərəmmi?

– Durarsan. Səndə heç nə yoxdur, – deyə Sadıq cavab verdi və Leylanın qolundan tutub qapıya tərəf çəkdi.

Səkinə yastığa dirsəklənib əlini koftasına atdı, ancaq gözlərinə qaranlıq çökdü, ürəyi sıxıldı, otaq başına dolandı. Əli-ayağı əsə-əsə güclə geyindi. Yan otağa keçib:

– Xoş gəlibsiniz, – deyə qonaqlara ötəri nəzər saldı.

Qonaqlar, deyəsən, heç arvadı görmədilər; bir-birilə danışıb gülürdülər. Bir tərəfdə də gəlin piano çalır, arabir çiyni üstdən qonaqlara baxaraq dişlərini ağardırdı.

Sadıq anasının qolundan tutub mətbəxə apardı, bazarlıq eləmək üçün tapşırıq verdi.

Səkinə nimdaş şalını çiyninə salıb zənbili götürdü, küçəyə çıxdı. Külək qarı sovurub onun üz-gözünə çırpdı. Ananın arıq bədəni sır-sır bağlanmış quru ağac kimi titrədi. Qanı qaçmış dodaqları gömgöy göyərdi...

Evdə başqa aləm idi: Leyla qonaqların qarşısında əzilib-büzülür, gah da şaqqıldayıb gülürdü.

Sadıq anasının gəldiyini görcək onu tələsdirdi. Səkinə xörək hazırlamağa başladı.

Süfrə açıldı, yemək-içmək başlandı.

– İçin, dostlar! – deyə Sadıq məclisə müraciət etdi. Sonra çiyinləri üstdən anasına baxdı:

– Sən qutabı kəsmə!

– Yaxşı.

– İsti-isti gətir.

Birdən müdir araqla dolu qədəhi süfrəyə qoyub üz-gözünü turşutdu, ətrafa boylandı, ancaq axtardığını tapa bilmədi:

– Borjom!..

– Qurtardı, – deyə süfrədə oturanlardan biri cavab verdi.

– Mən borjomsuz bircə damcı da içə bilmərəm. İş ki belə oldu, mən yavaş-yavaş yığışım.

Müdir özünü elə apardı ki, guya bu dəqiqə acıq eləyib məclisdən çıxıb gedəcəkdir. Leyla böyründə oturan ərinin qolları üstündən əlini uzadıb, müdirin tüklü biləyindən tutdu, gözlərini süzdürüb qıyğacı baxdı. Bununla da elə bil müdirin alovlanan sinəsinə qar səpildi.

Sadıq anasına səsləndi:

– Mama!

– Nə buyurursan, bala?

– Borjom!

Səkinə mətbəxə keçib divara söykəndi. Sadığın səsi eşidildi.

– Mama, ancaq tez gəl ha.

Gecə saat on bir olardı. Ana əlində zənbil, başına tökülmüş qar dənələri ilə pilləkənlə yuxarı qalxırdı. O, ayaqlarını zorla sürüyürdü. Bəlkə də, bu, ananın son gücü idi. O, otağa keçib suları süfrəyə düzdü. Mətbəxə qayıtdı. Bu zaman kimsə qışqırdı:

– Sağlıq deyin! Məclis soyuyur!

Sadıq ayağa qalxdı, boğazını arıtladı, əlini nazık bığına çəkdi. Ancaq məclisdəkilərin hamısının sağlığına içmişdilər. Onun yadına bir şey düşmüş kimi tez sözə başladı:

– İcazə verin, bu badələri də içək anaların sağlığına! – Sadıq məclisə göz gəzdirdi. – Sözüm ondadır ki, analar olmasaydı, biz olmazdıq. Biz olmasaydıq, bu məclis olmazdı. Anaların sağlığına!

– Ananın özünü məclisə çağırın! – deyə müdir qarnını stolun altından çəkərək özünü irəli verdi.

Sadıq qapıya tərəf baxıb səsləndi:

– Mama, bura gəl! Sənin sağlığına içirik.

Anadan cavab gəlmədi. Sadıq əlində badə yırğalana-yırğalana mətbəxə keçdi. Dəhşətdən gözləri böyüdü. Ana huşsuz halda döşəməyə yıxılıb qalmışdı.

Sadığın əlləri əsdi, qədəh döşəməyə düşüb çilik-çilik oldu.

Bayırda qar yağır, külək qapının ağzında ulayırdı...

## KƏKİLLİ CUMULDAQ

Nahardan sonra yoldaşlarımla dəniz kənarına getmək istədiyimi bildirdim:

– Dəli olubsan, nədir?! Bu küləkdə hara gedirsən? – deyə hamı məni qınadı. Həvəsim məni sözümün üstündə durmağa məcbur etdi. Əvvəla, açıq havada gəzmək istəyirdim, ikincisi də dünəndən, srağagündən dənizdə qanadlı dostlarım qalmışdı. Bilmək istəyirdim ki, belə tufanlı havada neyləyirlər? Qasırğalı dənizdə özlərini necə hiss edirlər?

Sanatoriya qumsal sahilin üstündəki yovşanlı təpədə yerləşirdi. Onunla dənizin arası yaxın idi. Yeməkxananın yanından sahilə asfalt cığır enirdi. Mən isə ayrı yolla getdim. Gəlib sahil qayalarının üstündə dayandım. Dünən yaxşı hava vardı, dəniz sakit idi. Səhər gəzintisi adama ləzzət verirdi. Təzə-təzə doğan günəş sulara qızılı şüalarından hörmə toxuyub salmışdı.

Sahildən bir az aralıda ördəklər üzürdü. Hərdən bizi görüb suya cumur, dənizin altı ilə gedib gah sol cinahdan, gah sağ cinahdan çıxırdılar. Mən hər vəchlə onlara yaxından tamaşa etmək istəyirdim. Xoşuma gəlirdi. Suyun üzərində açılmamış dümağ güllərə oxşayırdılar. Uzun boğazlarını geri dartıb qürurlu-qürurlu suyun üstündə gəzəndə balaca olsalar da, hərəkətlərindən, görkəmlərindən qu quşlarını xatırladırdılar. Dünən səhər bu quşlardan biri sahilə yaxın gəlmişdi.

Sahildə ora-bura qaçır, idman edirdim. Məni görcək quş hürküb suya cumdu. Maraqlanıb dayandım ki, görüm hardan çıxacaq. Bir də gördüm qaçdığım istiqamətdə yox, əks tərəfdə göründü.

– Ay bic, – deyə uzaqdan-uzağa gülümsünüb əlimi yelləyəndə o bir də batdı.

Bu gün isə dənizdə başqa bir görkəm vardı. Suların geniş mavi sinəsində ağ ləpələr oynaşırdı. Hələ bir az aralıda mənə elə gəldi ki, külək haradansa çoxlu pambıq götürüb, dənizə töküb. Bir başqa cür də təsiri olurdu. Guya dəniz böyük bir yaşıl vadidir, ağ-ağ güllər açıb və külək bu ağ gülləri aramsız tərpədir. Sahildə isə həyat başqa cür idi. Təlatümlü dəniz sahil qayalarına çırpılırdı. Daşların o üz-bu üzünə yağlı bir şapalaq çəkib geri qayıdır, təzədən bir də qabarıb irəli atılırdı. İlk baxışda dəniz hirsli görünürdü. Amma bu ara mənim ürəyimə başqa bir hiss axıb doldu. Mənə elə gəldi ki, yan-yana, çiyin-çiyinə dayanmış qayalar Xəzərin övladlarıdırlar. Dəniz də bu gün onları bir ana kimi çimizdirir, dönüb-dönüb onların başından aşağı su tökür, tərtəmiz etməyincə onlardan əl çəkməyəcəyini

bildirir. Onlar da sözə baxan, çimməkdən xoşu gələn uşaqlar təkin sakitcə suyun altında durur, elə bil analarının vurduğu şapalaqdan da incimirdilər.

«Bəs dünən bu sularda üzüb çimişən quşlar hanı?» – deyə düşündüm. Yastı qayanın üstə çıxıb dənizi diqqətlə seyr etməyə başladım. Suyun üzündə bir canlı gözümə dəymədi. Belə havada dənizdə, yəqin ki, quşlar üçün də çətin olur.

Çimərlik tərəfdə suyun qırağında gözümə bir şey dəydi. Mənim qanadlı dostlarımdan idi. Necə olmuşdusa yoldaşlarından ayrı düşüb tək sahilə çıxmışdı. Mən bu quşları quruda heç görməmişdim. Ona görə də qayaların ardına sinə-sinə ona tərəf getdim. Ona yaxından tamaşa etmək istəyirdim. Daldalardan açıq çimərliyə çıxanda quş məni gördü. Suya sarı döndü. Bu ara güclü külək onu arxası üstə çevirdi. Quş ayaqlarını havada oynada-oynada sulu qumsallıqda çapalayırdı. Belə başa düşdüm ki, o ya yaralıdır, ya da xəstədir.

Xülasə, ona nəsə olub. Yüyürdüm ki, tutam. Mən çatanacan dalğa gəlib quşu götürdü, özü ilə dənizə apardı.

– Bay sənin! – deyə əlimi-əlimə vurub bir azca tez çata bilməməyimə təəssüf etdim.

Açıq sahildə dayanmaq mümkün deyildi. Külək tozanaq qaldırmışdı. Narın qumu götürdükcə yeri çopurlayırdı. Sahildə saysız-hesabsız balıqqulaqları ağarışırdı. Neçə günlük müşahidəmdə, artıq mənə bəlli idi ki, bu yerlərdə heç bir şey öz başına buraxılmamışdır. Təbiət elə bil sərbəst deyildir. Daş, torpaq, ağac, bitki, hamısı küləyin əsməsindən, xəzrinin coşmasından asılıdır.

Yaxınlıqdakı talvarın altına keçdim. Yayın istisində burada dayanmaq adama ləzzət verərdi. Amma indi dəhşət idi. Talvar küləyi daha bərk çəkirdi. Soyuğa, küləyə baxmayıb nazik dəmir dirəyin ardında tərpənmədən elə dayanmaq istəyirdim ki, pusqusunda durduğum quş məni görməsin. Əmin idim ki, o, yenə sahilə çıxacaq. Çünki uzağa getmirdi. Sahilə çırpılan dalğa hər dəfə onu altına alıb əzirdi. Yazıq quşcuğaz bu zərbələrə müqavimət göstərmək iqtidarında deyildi. Hiss edirdim ki, əldən düşüb. Əbədi oylağı olan dəniz indi onun üçün təhlükəli idi. Quruya çıxmaqdan başqa əlacı yox idi.

Güman etdiyim kimi bir azdan o, yenə sahildə göründü. Qanadlarını çırpa-çırpa sudan bir-iki addım aralandı. Döşü üstə qumun üstə yatıb qaldı. Dincəlmək istəyirdi. Külək aman vermədi. Xəzri birdən güclənib bu yazıq quşcuğazı böyrü üstə yıxdı, yumalayıb xeyli bəri gətirdi. Yazığın halına ürəyim ağrıdı. Bilmədim ona necə kömək edəm. İstədim dirəyin ardından çıxıb yüyürəm. Ancaq qorxdum yenə tuta bilməyəm.

Dəli dalğaların girdabında quşcuğaz məhv ola bilərdi. Ona görə dayanıb gözlədim. Bəlkə, bir az da bəri gələ, dənizdən aralana.

Bu zaman quşun qanadlanıb dənizə uçmaq istədiyini gördüm. Belə başa düşdüm ki, pusqusunda dayandığımı duyub. Ancaq qanadlarını açsa da, bədənini

yerdən üzə bilmirdi. Bir az ayaqlarına, bir az qanadlarına güvənib azacıq getdi, sən deme... Əli ağaclı bir nəfərin yuxarıdan ona tərəf qaçdığını görcək tez yerimdən götürüldüm.

– Vurma quşu! Vurma!

İkimiz də birgə çatdıq. O, ağacını başının üstə qaldırmışdı ki, özümü irəli atdım.

– Tufan onu təntidib. Kömək etməkdənsə...

Quş az qala ayaqlarımız altında əziləcəkdi. Boğazını uzadıb bizi dişləyəcəyi ilə hədələyirdi. Əyilib quşun belindən yapışdım. Yuxarı qaldıranda qolumu dimdikləyirdi. Buna fikir verməyib başımı qaldıraraq əli ağaclı adama baxdım. O, rişxəndlə əynimə, başıma baxdı:

– Sən onu nə edəcəksən? – dedi.

Kinayə ilə gülümsündüm.

– Bunu nə edərlər?! Yolmağa tükü yox, yeməyə əti. Yazıqdır, kömək etmək lazımdır. Hava yaxşılaşanda yenə dənizə buraxaram.

Üz-gözünü turşutdu.

– Uşaq təkin oynayırsan.

Könlümə dəydiyi üçün mən də onu sancdım:

– Canavar təki sahildə gəzməkdənsə uşaq təki oynamaq yaxşı deyilmi?! – mən özüm qəsdən belə dedim. O da haradan vurduğumu yaxşı başa düşdü. Eşitmişdim ki, bəzən dəniz quşlarının başına qəribə fəlakətlər gəlir. Məsələn, birdən bilmirlər mazutlu suya düşürlər. Qanadlarını, ayaqlarını mazut bütüncə tutur. Ondan sonra uçmaq çətinləşir. Məcbur olub sahilə çıxırlar. Belə bir insafsıza rast gəldimi... İşi bitdi.

– Sağ olun, mən getdim, – deyə onunla xudahafizləşdim.

Tək olurdum. Qapını açıb içəri girdim.

– Sən bizə xoş gəlmisən! – deyə qonağı qapının ardında yerə qoydum.

– Qa... Qa... – Dimdiyin atdı. Sağ əlimin baş barmağının üstündən qan çıxdı.

Qonağın hərəkəti xoşuma gəlməsə də, könlünə dəymək istəmədim. Xoşluqla başımı bulayıb dedim:

– Eh, əzizim. Qanımı almaq istəyirsən? Gecikmisən. Beş-on gün bundan qabaq qanımdan nümunə götürüblər. Deyilənə görə yaxşıdır. Gemoqlabin 88 faizdir. Leykosit 6500, royam 18. Bu deyirlər çoxdur. Aşağı olmalı idi. Nə bilim, nədəndir?

– Qa... Qa... – Quş yerə palaz təki sərələnib başını mənə sarı uzadırdı. Boğazı xeyli uzun idi. Boynunun yumşaq ağ tükü var idi. Alnı yastı idi. Qara kəkili onu yaraşıqlı göstərirdi. Təxminən çeçələ barmaq uzunluğunda olan dimdiyinin ucu biz təki idi. Ayaqları isə elə bil quyruq hissəsinin yanından çıxmışdı. Bu əlamət-

lərdən hiss etdim ki, bu, ördək deyil. Ayağımın ucu ilə ehmalca itələdim. Gördüm yeriməklə də işi yoxdur.

– Gəl tanış olaq, mənim adım...

– Qa... Qa...

– Hə. Bildim, tanıdım, sən Cumuldaqsan. Kəkilli Cumuldaq.

– Qa... Qa... – Cumuldaq hərəkətimdən ürküb yerində narahatlıqla çapaladı.

– Sən heç narahat olma, Cumuldaq. Tufan, dənizin təlatümü səni yorub, əldən salıb. Ona görə arxayınca dincini al.

– Qa... Qa...

– Hə. Hə. Bura sanatoriyadır. İstirahət edilən yerdir. Bax, mən də istirahət edirəm.

– Qa... Qa...

– Bəs necə?! Burada qalmağa sənin də hüququn var. Niyə də olmasın axı. Biz hamımız bir torpağın... Nə fərqi var, sən suda, mən quruda.

Cumuldaq boynunu sual işarəsi şəklində əyib belinin üstə qoydu. Qanadlarını da tərpədib yığdı.

– Hə. Bax, eləcə istirahət elə. Sonra ayrılarıq, sən o dəryaya, mən bu dəryaya... Bəs necə, Cumuldaq. Qurunun özü də dəryadır. Orada da gərək üzməyi bacarasan.

Kəkilli Cumuldaq bu dəfə səsini çıxarmadı. Gördüm sakitləşib yatır. Daha danışmadım. Mən də stul çəkib səssizcə oturdum.

Axşam yeməyi zamanı mənim Cumuldağımdan hamı xəbərdar idi.

– Yazıq indi acdır. Ona nə vermək olar? – deyə hərə bir yandan qayğı göstərmək istəyirdi. Biri kotletindən, biri balığından kağıza büküb götürdü. Mən də kağızın arasında bir az makaron, bir tikə də ət bükdüm. Kinoya tələssək də, qaçdıq ki, onu yemləyək. Ancaq nə qədər cəhd etdiksə, Cumuldaq yeməkdən qəti imtina elədi. Qabağına neçə növ yemək düzmüşdük. Onlara heç gözünün ucu ilə də baxmaq istəmirdi.

– Hər halda, yeməyin pisdir. Görəsən, bizim həkimlərin bundan başları çıxarmı? – deyə yoldaşlardan biri məsləhət tərzi ilə öz fikrini bildirdi.

Biri də ona etiraz etdi ki, adam həkiminin quşdan nə başı çıxacaq?!

Gətirdiyimiz yeməkləri onun qabağındaca qoyub kinoya getdik. Qayıdanda gördüm yeməklər eləcə də durur.

– Niyə yemirsən, Cumuldaq? Axı ac qalmaq yaxşı deyil. Eh!.. Sən yenə qığıldayırsan. Bəlkə, utanırsan, xəcalət çəkirsən ki, mənə nəsə mane oldun...

– Qa... Qa...

– Boş şeydir. Elə şeyləri heç ağlına gətirmə. Bir az belə... Hə... üzlü ol. Yoxsa işin keçməz. Ye... Bax, görürsən ki, otağımız da böyükdür, yer-yurd ikimizə də çatar. Hər halda, sən buraları kənardan görməmiş deyilsən. Bax, gəldin içərisini

də gördün... Mən də sənin baş vurduğun suların altını görmək istərdim. Deyirəm, bəlkə, onun içərisi üzündən də gözəldir. Quşları bilmirəm, ancaq insanlar batili gözəlliyi daha çox qiymətləndirirlər.

Bu dəfə Cumuldağın səsi çıxmadı, başını sual işarəsi şəklində tutub belinə söykədi və beləcə sakit dayandı. Gördüm gözləri süzülüb yumuldu və şirincə yuxuya getdi. Ancaq qanadlarını və ayaqlarını hərdən xəfifcə tərpədirdi. Düşündüm ki, bəlkə də, onun xəyalında, yuxusunda yenə dəniz idi. Bəlkə, bu qəribə quşcuğaz yenə özünü mavi suların qoynunda hiss edirdi. Bəlkə də, başqa cür idi. Bəlkə də, buranı oradan daha üstün tuturdu. Kim bilir?

– Yaxşı, yat! – dedim və özüm də yatmağa hazırlaşdım.

Bir azdan işığı söndürüb yerimə uzandım.

Sakitlikdə dənizin səsi otağa gəlirdi. Bu elə-belə səs deyildi. Dəniz hayqırırdı. Elə bil dəniz gecənin qaranlığından darıxdığı üçün belə edirdi. Demək, ağağ dalğaları, ləpələri də onun məşəlləri idi.

Eh! Əfsus ki, Cumuldaq yatmışdı. Yoxsa mən ondan çox şey xəbər alardım. Bax, belə qaranlq gecələrdə, tufanlı, qasırğalı havalarda siz nə edirsiniz? Yəqin ki, çətin olur. Bəlkə, heç getməyəsən, hə? Mən sənə həyan olaram.

Uşaq təki belə fikirlər edə-edə nə vaxt yuxuya getdiyimdən xəbərim olmadı. Bir də oyandım ki, otaqda nəsə şappıltı var. Hövlnak gözlərimi açıb dikəldim. Kəkilli Cumuldağı dənizə tərəf, eyvana açılan şüşə qapının ardında gördüm.

– Ah!.. Bu sənsən?! – deyə onu maraqla süzdüm. Dənizin səsini eşidib bu tərəfə gəldiyini başa düşdüm.

Cumuldaq artıq axşamkı quş deyildi. Başını qaldırıb diribaş-diribaş yan-yörəyə boylanırdı. Xırdaca, girdə şüşəyə bənzər gözlərinin maviliyində təlaşlı bir ifadə vardı. Mənə elə gəldi ki, ildırım çaxmamışdan qabaq göylər də belə ifadəli olur. Quşun təşvişli hərəkətinə məəttəl qalmışdım. Elə bil kimsə bayırda onu haraylayırdı:

– Eyy!.. Cumuldaaaq!..

Mən də başımı tərpədə-tərpədə dedim.

– Gözlərin anan dənizə oxşayır, Cumuldaq!

Səsim çıxcaq quş əyri ayaqlarının üstə dikəldi, qanadlarını qaldırıb yelpik təki açdı. Özünü tulladı, şüşə divara dəyib tappıltı ilə geri düşdü. Onu pərdə saxladı, yoxsa şüşə burun-başını əzə bilərdi.

– Əşi, bilirəm ürəyin dənizindədir, özünü öldürmə?! Dayan! – deyə əlimi paltarıma atdım, gözüm quşda ola-ola tezcə geyindim.

Sahilə enəndə tək deyildim. Yoldaşlarım da mənə qoşulmuşdular. Onlar da bu quşcuğazın yaşaması üçün əllərindən gələni etmişdilər. Otağımda bir küncdə döşəmə üzərində kağıza bükülü nə qədər yemək qalmışdısa, qayıdan baş onları götürüb atmalı idim.

– Heç yaxşı eləmədin, Cumuldaq. Ağzına bir  qismət şey almadın, – deyə dostum cavan oğlan elə bil üzümdən fikirlərimi oxuyub dedi və əlində, ovcunda ehmalca tutduğu quşu sahilin nəmli qumsallığı üstə qoydu.

Dəniz iki addımlıqda idi. Arabir ləpə vurduqca su qumsal sahili həsrətli-həsrətli yalayıb lap yaxına gəlir, sonra geri çəkilirdi. Dəniz elə bil əlini uzadıb balasını götürmək istəyirdi. Məni isə bu ara qəribə bir hiss çuğlamışdı. Bax, təxminən bir gündən də az vaxtda biz bir-birimizə xeyli öyrəşmişdik. Onu özümə yaxın bilirdim. Gecə bir damın altda qalmışdıq. Bir otağın havasını almışdıq. İndi bu xırdaca məxluqu onun müqabilində çox-çox nəhəng olan tufanlı, qasırğalı dəryaya tapşırmağa ürəyim gəlmirdi.

Dəniz elə bil köksünü ötürdü, mavi əlini irəli uzatdı. Ancaq Cumuldağa çatmayıb əlini çəkdi. Quş gözlərini zilləyib baxdı. Baxdı, sonra necə çırpınıb tullandısa, bir göz qırpımında suyun üzərində oldu. Üzə-üzə getdi! Qəfildən başı üstə batdı. Başqa vaxtlar səhərdən axşamadək dənizdə cumuldaqların biri batıb, biri çıxırdı. Bir-iki dəqiqə bundan qabaq əlimizdə-ovcumuzda tutduğumuz bu Cumuldağa görə isə bərk narahat olduq. Elə bildik daha batdı. Bir də aralıda suyun üzündə görünəndə sevincdən hamımızın dodağı qaçdı.

– Ay səni, Cumuldaq. Yaman şeytan quşsanmış.

O, dəniz anasının əl-qolunun üstə sevincək atdanıb-düşən körpə təki idi.

# LAL

Əzgilli dərənin başındakı kol-kosluğun arasında bir dəstə biçinçi ot çalırdı. Yeldöyəndəki armud ağacının budaqlarından onların azuqə torbaları, tərli köynəkləri sallanırdı. İki təkərli su arabasını da ağacın kölgəsində açıb, üstünü şax-şəvəllə, təzə biçilmiş yoncalı otla örtmüşdülər ki, çəllək qızmasın. Bir tərəfdə də ocaq tüstülənirdi.

Göycə qayışının altına keçirdiyi yeyəni çıxarıb, bir-iki dəfə kərəntinin ağzına çəkdi, sonra qollarını oynadaraq Alpaşanın dalınca biçə-biçə getdi.

O, ucaboy, canlı bir oğlan idi. Kürəyinin arasında bir adam gizlənərdi. Qıvrım saçları günlüyü uzun şapkasının altından çıxıb alnına dağılmışdı. Hava bürkü olduğundan üst köynəyini çıxartmışdı. Əynində qolsuz tor köynək vardı. Boyun-boğazı, çiyinləri günəşdən yanıb qabıq qoymuşdu.

Qıjıltı biçənəyi başına götürmüşdü. Alpaşa kişi hamıdan qabaqda üzüaşağı biçə-biçə zillənib gedir, «əyə, gün getdi, gəlin!» – deyə arabir də həvəslə səslənib biçinçi yoldaşlarını işə ruhlandırır, yorğunluqlarını canlarından elə bil çıxardırdı.

Alpaşa xoşxasiyyətli, sözlü-söhbətli kişi idi. Bir söz demək istədikdə adəti üzrə əvvəlcə altdan-altdan adamın üzünə qıyqacı nəzər salar, sonra «əyə» – deyə sözə başlardı.

Alpaşa kişi qanrılıb geri baxanda gördü ki, Göycə kərəntisini qıjıldada-qıjıldada dalınca sallanıb gəlir. Hiss etdi ki, cavan oğlan geri qalmaq istəmir, onunla ayaqlaşmağa cəhd edir. Belə işgüzarlığı, zəhmətkeş olmağı xoşuna gəlsə də, Alpaşa kişi yenə ona qıymadı, lehrəsini başa vurub, kərəntini çiyninə aldı, yuxarı çıxa-çıxa əli ilə gənc dostunu başa saldı: «Çox da tələsmə, tez yorularsan».

Göycə qımışdı, qolunu daha da geniş açaraq qanadlandı, bir az da artıq həvəslə biçdi və dönüb kölgədə oturaraq biçinçilərə tamaşa edən briqadirə baxdı.

Briqadir Dünyamalının Tamaşa adlı bir dul bacısı vardı. Şux əndamlı, gözəl gəlin idi. Elə bil camaat yeyib, təkcə o sinirmişdi. Döşləri baş yarırdı. Yanaqları lalə tək qıpqırmızı idi. Qoç buynuzuna oxşar buruq-buruq cığaları gözlərinin üstünə düşüb, onu daha da yaraşıqlı göstərirdi. Beləcə yarlı-yaraşıqlı olmasına baxmayaraq, qızıl-qırmızı gəlin ocağında qalmışdı, necə işdisə, bir istəyəni hələlik yox idi. Dünyamalı onsuz da gözəl-göyçək olan Tamaşanı bir az da yağlayıb-ballayıb Göycəyə calamaq istəyirdi. Çünki Göycə çox qoçaq, diribaş idi. Hər oğulun ağzı deyildi ki, işdə-gücdə onunla bəhsə girsin. Göycənin də gözü onu tutmuşdu. O, bir dəfə günorta çağı kolxozun öküzlərini çaya sulamağa apar-

mışdı. Tamaşa da çayın qırağında qaynar asıb, paltar yuyurdu. Dəyişəcəkləri bir-bir sıxıb, ətli baldırlarının arasına yığırdı. Göycə asta addımlarla irəli gəlib onun başı üzərində dayandı və gəlinə tamaşa elədi. Tamaşanın əynindəki mavi rəngli ipək alt köynəyi islanıb ətəyinə yapışmışdı. Aşağı əyilib-qalxdıqca uzun hörükləri çiyinlərindən sürüşüb suya düşdü, çayın axarında oynadı.

Tamaşa birdən diksinib arxaya baxdı. Göycəni qarşısında gördü: «Boy! Biabır oldum!» – deyə özünü düzəltdi. Göycə çiyinləri qalxa-qalxa güldü. Tamaşa da qımışdı və suyu şappıldada-şappıldada qırağa çıxdı, söyüd ağacının altına gəldi, aşağı əyilib donunu tez başına saldı. Öküzlər su içib yola düşdülər. Göycə də ayaqlarını sürüyə-sürüyə onların dalınca getdi, uzaqlaşdıqca çiyinləri üstündən qanrılıb dönə-dönə Tamaşaya baxdı.

Bundan sonra Göycə Tamaşanı tez-tez görməyə can atdı, onlara gedib-gəlməyə başladı...

Göycə indi briqadirə baxıb gülümsəyəndə bunları xatırlayırdı.

O bu xatirədən ilhamlanmış kimi işə bir az da həvəslə girişdi. Kərənti indi daha bərk qıjıldadı. Biçə-biçə lap aşağı getdi. Seyrək kol-kosluğun arasından böyük talaya çıxanda bir dəstə qız-gəlinlə qarşılaşdı. Onlar biçilmiş otu yığıb xotmalara vururdular. Zərnişan oğlanı görcək hürkmüş ceyran kimi atılıb tapılın dalına keçdi. Qızlar kəklik təki qaqqıldaşdılar. Göycə kərəntisini çiyninə alıb duruxdu.

Zərnişan kimi-kimsəsi olmayan, özgə qoltuğunda yaşayan yetim bir qız idi. Göycədən onun da umacağı vardı. Aləm-aşkar deyirdi ki, gəl məni apar. Ölsəm yerin payıyam, qalsam sənin. Göycənin anası Gözəlin də meyli bu qızda idi. Bir-iki dəfə də oğluna demişdi: «Yaxşı qızdır, ay oğul, gəl onu al».

Oğlan çaşbaş qalmışdı, bilmirdi necə eləsin. Həm anasının məsləhəti onu düşündürürdü, həm də qız əl çəkmirdi. Hətta deyirdi ki, almasa da, zorla gedəcəyəm, belə gedib evlərində oturub sularını-sellərini gətirəcəyəm. Anası da daha yaşlaşıb, ona qulluq edəcəyəm. Görüm ondan sonra nə eləyəcək. Qərəz, qızın gecəsi-gündüzü yox idi, oğlandan ötrü ağlayıb özünü öldürürdü. Çünki Tamaşanın oğlanı yoldan çıxartdığını eşitmişdi, Göycə onun yadından çıxmırdı. Yetim qız çılğın bir məhəbbətlə inad edirdi.

– Tamaşa ona getsə, dağı-daşı yandırram, onun saçlarını bircə-bircə yollam.

O, bir gün işdən gələndə xəlvətdə Göycəyə qandırmışdı ki, eşikdə buxarının ağzında yatacağam, gəl məni apar, qurtar canımı bunların əlindən. Oğlan da «hə» demişdi. Gecənin birində, həqiqətən, gəlib onu götürüb aparmaq istəmişdi. Ancaq birdən fikrini dəyişmişdi. Ovcunun içərisindən havaya üfürüb qıza, «ağlın yoxdur, demişdi, – nə yelbeyin qızsan, bir dəfə gəlməklə özün yanıma düşüb gedirsən».

Zərnişan pərt olub ikiəlli üzünü tutaraq ağlamış, oğlan isə əlini yelləyərək çıxıb getmişdi.

İndi Göycə Zərnişanı görcək həmin əhvalatı xatırladı.

* * *

Göycə dərənin yaxası boyu düşmüş ağ bir cığırla Çömçə bulağının üstünə endi. Suyun gölləməsində oynaşan qara cücülər gecənin gəldiyini hiss edib bulağın gözünə dolaraq bir yerə toplaşmışdılar. Böyürdəki moruqluğun içərisində quşlar pırıldaşır, gecələmək üçün yerlərini rahatlayırdılar.

Oğlan paltarını çırpdı, sonra əlini suya çəkib üst-başının otunu-pıtırqanını təmizlədi. Uzunboğaz çəkməsinin üzünü su ilə yuyub, işıldatdı. Saçlarını daradı. Gümüş sallama kəmərini açıb yenidən səliqə ilə bağladı, şalvarının üstündən buraxdığı üst köynəyinin ətəyini qayışın altında geri yığdı. İçi yemlik və quzuqulağı dolu yaylığı qoluna keçirərək yola düzəldi. Kəndə çatanadək Tamaşa barədə fikirləşdi. «Tez gətirəcəyəm. Anam da təkdir. Qocalıb, innən belə rahat olar».

Göycə evlərinin yanından xəlvətcə keçib Tamaşagilə getdi.

Dünyamalının evi iki göz otaqdan ibarət idi. Böyük bir mal damının qapısı da bu otaqlara sarı açılırdı. Onun böyründə isə köhnə talvar vardı. Dağlardan qar əskik olardı ki, qış-yay bu talvarın üstündən ot əskik olmazdı. Dünyamalı həmin talvarın dörd böyrünü qızıl söyüdün çubuğu ilə halqalama hördürmüş, ağzına da qapaq düzəltdirmişdi. Buraya xeyli taxta-tuxta yığılmışdı. Küncdə iki dənə də qırıq boyunduruq vardı. Talvarın üstə qoyulmuş bel ağaclarından biri də ucları mazutlu araba oxu idi. Dünyamalı bunların hamısını kolxozdan gətirmişdi. O, lazım oldu-olmadı kolxozdan gətirilən bir çürük qozu da özünə qənimət bilirdi. Bacısını Göycəyə verməkdə də məqsədi vardı. Dünyamalı xəyalında ayağını ayağının üstündən aşırıb eyvanda ağa tək oturur, Göycəni ora-bura buyururdu. O da ağzı bağlı mal kimi dama-daşa yüyürürdü...

Göycə doqqazın qapısını azca aralayıb başını içəri saldı. Dəmbər irəli cumdu.

– Ay it, sənə quduz dəysin! – deyə Dünyamalı onun qabağına çıxdı. Dəmbər səsini xırp kəsdi. Sahibinin ayaqlarına döşənərək, quyruğunu buladı, Göycə əlində yaylıq doqqazdan içəri həyətə keçdi.

Tamaşa tut ağacının altında qıjhaqıj inək sağırdı. Göycə ona gözaltı baxa-baxa eyvana çıxdı. Geri dönəndə Dünyamalını yanında görmədi. Dəvə boyda kişi bir anın içində harasa yoxa çıxmışdı.

Oğlan çaşbaş qaldı. Bilmədi evə getsin, yoxsa burada gözləsin. Ətrafa boylanıb gördü ki, çox xəlvətlikdir. Səsini çıxartdı. Tamaşa çiyni üstdən dönüb geri baxdı və başı ilə evi göstərdi.

– İçəri keç, indi gəlirəm.

Göycə otağa keçib, yuxarı başda qoyulmuş taxta çarpayıda oturub mütəkkəyə dirsəkləndi. Papağını qaşının üstündən yuxarı itələdi, ətrafa baxdı. Divarlara çoxlu şəkil vurulmuşdu. Tamaşanın böyüdülmüş şəkli də üst tərəfdən, güzgünün başından asılmışdı.

Tamaşa inəyi sağıb qurtardı. Eyvanda üst-başını düzəltdi. Gözünün üstə tökülmüş tellərini barmağı ilə buruq-buruq elədi, sonra içəri keçib badyanı kamodun böyrünə qoydu.

Tamaşa işıqda oğlanın gözlərinə ay parçası tək göründü. Qız stola söykənib dayandı. Ala gözləri qələm qaşları altından süzülüb oğrun-oğrun oğlanın üzünə dikildi. Göycə özünü itirdi. Qaşları çatıldı, alnında cizgilər əmələ gəldi. Bu dəqiqə onun sinəsi sözlə dolu idi. Dili quruca bir söz tutsa idi, yəqin ki, o bu qədər həyəcanlanmazdı. Axı Göycənin dili yox idi. O, anadan lal doğulmuşdu.

– Nə yaxşı gəlibsən? – deyə Tamaşa ona yaxınlaşdı.

Göycə bilmədi nə desin. Qızın üzünə baxa-baxa qaldı.

Oğlanın sıxılıb-basıldığını hiss edən gəlin isə onunla zarafat elədi ki, bir az açılışsın. Böyrünə bir dul dumbuzu vurdu. Lal qımışdı, ancaq tərpənmədi. Qız yenə şitəndi.

Bu dəfə oğlan əlini atıb onun boynunu qucaqladı və özünə tərəf çəkdi.

– Ədə, qara vurğunlu! – Tamaşa dartındı və gözlərini oğlana ağartdı. – Ey, farağat dur!

Göycə özünü yığışdırdı. Bunu görən Tamaşa dişlərini ağardıb güldü. Lal cəsarətə gəldi, başını qaldırıb əli ilə qapını göstərdi və işarə ilə bildirdi:

– Gəlib səni aparacağam.

Tamaşa tərs-tərs oğlana baxdı və başını buladı.

– Getməyəcəyəm.

Lal təəccüb etdi. Qaşqabağını tökərək şəhadət barmaqlarını qoşalayıb ayırdı. Yəni:

– Mənə gəlmirsən?

– Hə! – Tamaşa naz ilə əllərini qoynuna qoyub arxasını ona çevirdi.

Oğlan Tamaşanın qolundan tutub özünə tərəf çəkdi. O isə dartınaraq, evinin avadanlığını göstərib oğlana belə qandırdı:

– Bunları hara aparım? Hazır qurulu evdir.

Lal fikirləşmədən «hiş-hiş» eləyib əlini havada oynatdı. Başa salmaq istədi ki:

– Arabaya doldurub apararam.

Tamaşa dodağını büzdü, sonra əli ilə oğlanı belə başa saldı:

– Sən gələrsən! Bura yaxşıdır.

Lal oğlan təəccüblə əlini döşünə vurdu:

– Mən?!

Tamaşa qolunu onun boynuna salıb başını tərpətdi.

– Hə, – deyə ağzını açdı.

Oğlan fikrə getdi. Sonra «yox» işarəsi olaraq başını buladı, əlini ağzına toxundurdu. Dodaqlarını marçıldadıb xəyalən öz daxmasını öpdü, – ora yaxşıdır, – demək istədi.

Tamaşa hirsindən qızardı. Pərt olub oğlanı özündən kənara itələdi. Sonra da əlini-əlinə vurub:

– Bıy! Heç gələn günün olmasın! – deyə kükrədi və barmağını qapıya tuşladı. – Bu yol, bu da sən! Dərdim ürəyinə!

Göycə dinmədən ayağa qalxdı. Kor-peşman evdən çıxdı. Tamaşa fikirləşdi ki, gec-tez bu oğlan yenə onun yanına qayıdıb gələcəkdir. Göycə bu məsələni Alpaşaya açmaq, ondan bir məsləhət almaq istədi. Ancaq kişinin yanına gələndə bu fikrindən vaz keçdi. Düşündü ki, axı o buna nə eləsin? Bu işi ancaq özü həll etməlidir.

Alpaşa da onun gəlişindən heç nə başa düşmədi. Bir az oturub o yan-bu yandan söhbət etdikdən sonra üzünü lala tutub dedi:

– Əyə, gəlsənə gedib əməkgünümüzü yoxladaq?

Lal oğlan qocanın hərəkətindən nə demək istədiyini başa düşdü. Onlar qalxıb kolxoz idarəsinə getdilər.

Kolxozun hesabdarı Fəridə stolun arxasında sakitcə oturub işləyirdi. Stolun üstü cürbəcür naryad kağızları, haqq-hesab kitabçaları ilə dolu idi. O gah yazır, gah da sayğacı şaqqıldadırdı.

Alpaşa stul çəkib ona yaxın əyləşdi. Lal oğlan da dəmir sandığın üstündə oturdu. Qoca dedi:

– Günün ağ olsun, a qızım, zəhmət olmasa bizim əməkgünümüzü yoxla.

Nə qədər ciddi məşğul olsa da:

– Bu dəqiqə, Alpaşa dayı, yoxlayım, – deyə Fəridə qocaya xoş üz göstərdi. Stolun siyirtməsindən haqq-hesab kitabını çıxartdı. Töküb-töküşdürdü, irəli-geri vərəqlədi.

– Sənin bu beş günlükdə səkkiz əməkgünün olub.

– Allah bərəkət versin, – Alpaşa əlini saqqalına çəkdi. – Yaxşı, gör bizim bu oğlanınkı da yazılıb?

Göycə söhbətin onun haqqında getdiyini hiss edib dəmir sandığın üstündən durub hesabdarın stoluna yaxın dayandı. Fəridə kitabı yenə vərəqlədi.

– On əməkgünü, – iki əlini yuxarı qaldırdı.

Alpaşa qızın əllərinə diqqət etdi. Lal oğlan isə Alpaşanı göstərdi.

– Bəs onun?

Qız barmağının ikisini yumdu.

– Səkkiz...

Lalın gözləri təəccüblə Alpaşanın üzünə dikildi. Alpaşanı da fikir götürdü. Öz-özünə düşündü: «Qocalmışam. Görünür, cavanlarla ayaqlaşa bilmirəm. Əlbət, buna görə əməkgünümüzdə fərq qoyurlar».

Alpaşanı darıxdıran əməkgünü deyildi. Belə şeylərə o, fikir verməzdi. Gözü-könlü tox adam idi. Özü üşüsə də, közü yoldaşının qabağına çəkərdi ki, qızınsın.

İndi bir az qocalığına görə pis oldu. Daha işdən-gücdən bir az geri qaldığını ürəyinə salıb kefsizlədi. Düşündü: əvvəllər ona biçində kim çatardı axı?! Kərəntisinin qıjıltısı yeri-göyü götürərdi. Hər lehrəsi bir araba yolu boyda olardı. Birnəfəsə bir tayalıq ot biçərdi.

Alpaşaya ot çalmaqda, əslində, indi də çatan yox idi. Hamını yorub yarı yolda qoyurdu. Bunu bütün kənd bilirdi. Bəs niyə belə olsun? Əməkgününün az yazılması barədə danışmadı, xoşxasiyyət hesabdar qıza «sağ ol» deyərək otaqdan çıxdı. Alpaşanın donqar beli isə Göycənin gözləri önündən getmədi. Tərdən suya batıb çıxmış köynəyi, şahmar günün altında bozarmış çalması gəlib onun gözləri qarşısında durdu. Pıtırqanlı patavası, enli ağızlı, uzun saplı dəryazı canlandı. Alpaşanın beli lalın xəyalında daha da donqarlandı, qolları oynadı, kərənti qızıl ilan kimi otun içərisində şütüdü. Biçə-biçə getdikcə saqqalının arasına tər gəldi.

Bundan təsirlənən lal oğlanın beyni qıjıldadı, qızmış pələngə döndü. Gözləri təpəsində oynadı. Tez qapıya yönəldi. Astanada Dünyamalı qabağından gəldi. Briqadir çöplə dişinin dibini qurtdalayırdı. Bir əlini də meşin gödəkçəsinin cibinə qoymuşdu. Kefi kök idi. Bu əhvalla o, lala göz vurub kefini soruşdu. Lal isə sərt baxışlarla onu süzdü. Başının hərəkəti ilə «gedək» – dedi.

O, Dünyamalını idarənin dalına çəkib əlini çənəsinə apardı, bir az aşağı əyilib belini donqarlandırdı. Bu, Alpaşaya işarə idi. Sonra əli ilə ovcunu ikiyə böldü: saqqallının əməkgününü niyə kəsmisən?

Dünyamalı ona cavab verənədək lal qolunu göstərdi və nə isə rədd edilmiş kimi əlini tərpətdi. Bununla da belə demək istəyirdi:

– Mən topal deyiləm ki, əlim sağ, ayağım sağ. Bu əl-ayaq öz başını saxlar. Ondan kəsib mənə niyə artıq yazırsan?!

Dünyamalı əlini atıb lalın papağını gözünün üstünə basdı.

– İşıq gələn yerə papağını tıxayır. Gorbagor olasan, oğul əkən!

Dünyamalının hərəkəti Göycənin heç xoşuna gəlmədi. O, papağını hirslə yuxarı qaldırdı. Briqadirin yaxasından yapışdı, çəkə-çəkə idarəyə gətirdi. Dünyamalı çox dartındı, ancaq yaxasını onun əlindən qurtara bilmədi. Göycə qalmaqal salaraq məsələni əli ilə hesabdara qandırdı. Dünyamalının paxırı açıldı.

* * *

Kənddə bu axşam toy çalınırdı. Qız köçürürdülər. Səs-küy kəndi bürümüşdü. Adamlar yola çıxıb bir-birlərini səsləyirdilər. Arvad-uşaq bəzənərək, axışıb toya gəlirdi. Orda-burda itlər hürüşürdü.

Göycə də təzə paltar geyib toya gəldi. Xeyli camaat vardı. Talvarın altda qulplu qazanlar böyür-böyürə düzülmüşdü. Domuşuq bir kişi əlində çömçə burnunu tüstüyə verir, hərdən də qazanların qapağını qaldırıb buğlana-buğlana xörəyin dadına baxır, ətin bişib-bişmədiyini yoxlayırdı. Balkonda da iki qoşa samovar qaynayırdı.

Amma bunlara hələlik fikir verən yox idi. Camaat çalıb-oynayırdı. Dəfçi döşünü irəli verib, başını dik tutaraq dəfin qabırğasına döşəyirdi. Zurnaçı başını silkələyə-silkələyə çalırdı. Züyçünün ovurdları donba qalmışdı. Ortada isə sındırhasındır idi. Eləsi vardı ki, meydandan çıxmaq bilmir, çalğıçıları yorub əldən salmayınca əl çəkmirdi. Oynamaqdan ötrü gönü yanmış kimi elə hey süzürdü. Arada çalğıçılara nəmər çatanda dəfçi daha həvəslə çalır, pul verən adamın adını qışqıra-qışqıra ucadan deyirdi:

– Sağ olsun Alı!

– Sağ olsun Səlimxan!

– Sağ olsun Dünyamalı!

Toyu Dünyamalı idarə edirdi. Onun bu işdə yaxşı səriştəsi vardı. Çox belə yığıncaqlar yola vermişdi. İndi də «Gerdən! Gerdən!» – deyə o, dövrədə qıvraq-qıvraq hərlənir, qabağa çıxıb əlindəki çubuqla meydanı daraldan adamların ayağına vururdu. Qızlar-gəlinlər isə bir tərəfdəcə ayaq üstə dayanmışdılar. Meydanda oynayanlara baxıb, hərdən də öz aralarında nəsə pıçıldaşıb gülüşürdülər.

Göycə qızlara göz gəzdirdi. Birinci dəfə Zərnişanı gördü. Qız başına yeləni bozarmış ağ kəlağayı örtmüşdü. Xırda gülləri olan parçadan isə koftası vardı. Döşlərinin üstündən iki cərgə qırçın tökülmüşdü. Boynundan da bir qatar muncuq sallanırdı.

Bu qızın gəliri böyük bir ailəni dolandırırdı. Ancaq əməyi özünə qismət olmurdu. Əlindəkini təpəsinə vurub alırdılar. Qızın daha canı boğazına yığılmışdı. Ona görə də pisdən-yaxşıdan birinə çıxıb getmək istəyirdi. Lal oğlanı isə qızın gözü çox bərk tutmuşdu.

Zərnişan bir qədər arxada dayanmışdı. Durna boğazını uzadıb qabağındakı gəlinin çiyinləri üstündən oynayanlara baxırdı. Qızın ürəyi atlanırdı. Onun könlündən oynamaq keçirdi. Bəs kimi gözləyirdi? O, niyə oynamırdı? Axı bu yetim qızı oynamağa dəvət eləyən bir kəs yox idi. Zərnişanın əlindən tutub ortaya çəkən qardaşımı, yoxsa əmisi, dayısı oğlanlarımı vardı?! Yoxsa nişanlısımı oynadacaqdı?! Qızlar, gəlinlər oynayır, o isə onun-bunun üzünə baxırdı. Baxırdı ki, onu da oynatsınlar, əlinə pul versinlər, süzüb qabağına çıxsınlar. Bəzən kobud hərəkətlər etsə də, lal oğlanın çox incə, xeyirxah ürəyi vardı. O, adamda belə xırda şeyləri də görə bilir və bundan təsirlənirdi. Ancaq... Tamaşa da burada idi. O, yuxarı başda hamıdan qabaqda durmuşdu. Başına sarı saçaqlı şərf salmışdı. Ayağında qara lak tufli var idi. Tez-tez əlini başına çəkir, özünə sığal verirdi.

Göycə Tamaşanı görəndə havalandı, qabağa keçib özünü ona göstərmək istədi.

Toy getdikcə qızışırdı. Adamlar çoxalır, oynayanların sayı artırdı. Bir azdan Tamaşa da bir hava sifariş edib ortalığa çıxdı. Yırğalana-yırğalana o yandan bəri gələndə şərfi sürüşüb boynuna düşdü. Saçları yağ sürtülmüş kimi işıldadı. Tamaşa şərfini nazla başına çəkdi və qollarını qaldırdı, büzməli donunu yellədə-

yellədə oynamağa başladı. Onun tərəf-təsnifi çox idi. Həm də qardaşına görə... Necə olsa briqadir idi; müəyyən bir iş üçün ona xahişə gedən olurdu. Odur ki, pul Tamaşanın başından gül kimi tökülürdü. O, meydanı dolana-dolana pulu barmaqları arasına yığdı.

Lal oğlan daha dayana bilmədi. Necə həvəsə gəldisə, əlini döş cibinə saldı. Bir şax yüzlük çıxardıb ürəklə ona tərəf uzatdı. Tamaşa isə almadı. Lal pərt oldu. Adamlara baxıb qızardı. Qolunu aşağı salmayaraq:

– Ə... Ə... Ə... – qışqırdı.

Tamaşa ona yenə məhəl qoymadı, başını qaldırıb üzünə də baxmadı. Dünyamalı isə lalın döşündən geri itələyərək, onun ağzını yamsıladı:

– Ə... Ə... Ə... Bu lal qoduq da adam olub cərgəyə qoşulur.

Xətrinə dəyildiyindən çox pərt olmuş lal qərib baxışlarla Tamaşanı, Dünyamalını süzdü. Elə bil soruşmaq istəyirdi ki, sizə nə oldu, niyə belə edirsiniz?

– Yeri get, ə! – Dünyamalı onu bir də geri itələdi. Lal oğlan daha dayana bilmədi. Necə qəzəbləndisə qızılquş təki zoğal çubuğunu dartıb əlindən aldı və onun beli uzunu çəkdi.

Onları aralaşdırdılar.

* * *

Adamlar yenə bir əldən dəstə-dəstə olub toya gəlirdilər. Göycə isə toyxanadan evə dönürdü. O, heç kimə rast gəlmək istəmirdi. Ömründə birinci dəfə idi ki, şikəstliyinin ağrısını bu qədər dərindən duyurdu. Onun könlündə acı bir rüzgar əsir, hər şeyi uçurub dağıdırdı.

Gözəl oğlunu çox kefsiz gördü.

– Nə olub, ay oğul? – dedi.

Göycə cavab vermədi. Eyvandakı taxtın üstə uzanaraq, əllərini başının altında çarpazladı. Gözəl onun üzünə baxa-baxa qaldı. Qayıdıb qorun üstünə qoyduğu sapılcadakı xörəyi qarışdırdı, donun ətəyi ilə dəstəyindən tutub Göycənin yanına gəldi.

– Dur ye, dərdin alım, bəlkə, acsan. İndi sarfan qarışdı. – Gözəl oğlunu dürtmələdi. – Dur.

Göycə tərs-tərs anasına baxıb dəlicəsinə başını silkələdi. Onun üz-gözündən bu sözlər oxundu: «Mənə toxunma!»

– Bəri qalx! – Gözəl onun qolundan daha bərk çəkdi. Göycə bu dəfə anasının üstünə qışqırdı. Gözəl təəccüblə barmağını dodağına apardı, diqqətlə oğlunun üzünə baxdı. Onun gözlərinə elə bil qan sağılmışdı. Baxışları da qorxulu və qəzəbli idi. Bozarmış yanaqlarında yaş damlaları göründü. Onu qəhər boğurdu, arabir içini çəkirdi. Özünü saxlamasaydı, yəqin ki, hönkürtü ilə ağlayardı.

Gözəl bunların hamısını hiss etdi. Ana qəlbi od tutub yandı. O, dilsiz oğlunu heç bu vəziyyətdə görməmişdi. Gözəl həmişə oğlu ilə öyünürdü. Çünki o, qorx-

mazdı, ürəkli idi, əlindən nə desəydin gəlirdi. Kolxozda hansı işə göndərsələr, yarıdırdı. Buna görə də Gözəl oğlunun lallığını da unutmuşdu, anaya elə gəlirdi ki, dünyada var-yox təkcə Göycədir.

Ana oğlunun ağladığını görcək sarsıldı. O, gözlərini oğlundən çəkməyərək dodaqları əsə-əsə əlini tərpətdi.

– Nə olub, ay bala?

Göycə qəzəblənmiş pələng kimi ağzını ayırdı. Dilini çıxarıb anasına göstərdi və başını buladı.

– Mənim dilim hanı?

Ana tutuldu. Üzünü göyə tutub əlini açdı.

– Allahın işidir, məndə nə günah var?

Göycə isə əlini anasının çiyninə vurdu.

– Günahkar sənsən!.. – O, yastığı götürüb dəlicəsinə üzünə basdı, sonra isə əlinin hərəkəti ilə körpəliyini xatırlatdı. O belə demək istəyirdi: «Balaca olanda ağzıma yastıq basıb məni niyə öldürmədin?»

Göycə bununla da kifayətlənmədi, özünü ağzı üstə çarpayının üstə atdı: «Qundaqda ağzı üstə qoyub məni niyə öldürmədin?»

Onun başına elə bil hava gəlmişdi. Nə elədiyini bilmirdi, durub anasını itələdi. Gözəl dalı üstə yerə yıxıldı, qolu altında qalıb əzildi, şalı sürüşüb başından düşdü, ağ birçəkləri üz-gözünə dağıldı.

Gözəl başını örtüb ocağın qırağına gəldi. Gözlərini yumub gildir-gildir yaş tökdü. Ağ muncuq boyda yaş damlaları yanaqlarından yuvarlanıb külün üstünə səpələndi, orda-burda görünən qığılcımları söndürdü...

Kəndin başından gələn toyun səsi aydınca eşidilirdi. Bu səs Gözələ öz toyunu xatırlatdı: Belə bir gecə idi. O da on səkkiz yaşlı bir qız idi. Gözlərində həyat eşqi, üz-gözündə bir çiçəyin məsumluğu və gözəlliyi vardı. Başına bir dəstə qız-gəlin toplaşmışdı. Onun topuğuna düşən qara saçlarından iki hörük düzəldib, üzərinə çiçək düzürdülər...

İndi o qara hörüklər gödəlmiş, şəvə saçlar qar təki ağarmışdı.

O, Göycənin yolunda çox əziyyətlər çəkmişdi. Əri öldükdən sonra təkcə balasının üstündə oturub ömrünü-gününü onun yolunda çürütmüşdü. Böyüdüb boya-başa çatdırmışdı. İndi oğlu onu sümüyünün bu kövrəkləyən vaxtında diri-gözlü öldürürdü. Onsuz da ana bu dərdi çəkirdi.

Göycə anasının ağladığını görüb yerində qurcuxdu, dərindən nəfəs alaraq köksünü ötürdü. Gözəlin bozarmış yanaqlarından süzülüb tökülən isti göz yaşları onun ürəyini yandırıb-yaxdı, qəlbini dərin bir peşmançılıq hissi çulğadı. Buna dözə bilməyərək durub yanına gəldi, boynunu qucaqlayıb üzündən öpdü, göz yaşlarını əli ilə sildi, sonra durub dinməz-söyləməz hara isə çıxıb getdi.

Göydə ulduz ulduzu çağırırdı. Göycə isə kəndin böyründən keçən Xram çayının kənarı boyu düşmüş meşənin üstündə dayanıb durmuşdu. Elə bil ulduzlar

da, ay da heç yana tələsmədən bu gözəl mənzərələrə – qıvrıla-qıvrıla axan çaya, su aşağı uzanan tala-tala meşəyə, boz dağların ətəyində işıqları görünən kəndə doyunca tamaşa etmək istəyirdilər.

Göycə yol ilə gedə-gedə Xram aşağı baxdı. Suyun yaxasındakı böyük qovaq ağacının döşü ağarırdı. Bu mənzərə ona uşaqlığını xatırlatdı. Göycə balaca vaxtı hər gün günortaüstü otardığı çəpişləri həmin qovaq ağacının kölgəsinə gətirərdi. Oğlaqlar ağacın üzdə qalmış köklərinin arasına girib yatışardılar. Anası əlinə keçən uşaqlarla ona çörək, su göndərərdi. Ona çörəyi bir-iki dəfə də Zərnişan gətirmişdi. Göycə isti çörəklə pendirdən dürmək büküb yeyənə kimi qız oturub gözləmişdi. Sonra da yaylığını qoltuğuna vurub geri dönmüşdü. İndi Zərnişan böyüyüb yetişmiş qız olmuşdu.

Lalı fikir götürmüşdü. O özünə həyatda əsl ömür-gün yoldaşı axtarırdı. Tamaşa ilə Zərnişan onun gözləri önündən gəlib keçdi. Yetim qız indi nədənsə, ona daha gözəl, daha qəşəng göründü. O hər iki əli ilə başını tutub köksünü ötürdü.

...Göycə çəpərin böyründə durub ətrafa boylandı. Üst köynəyinin ətəyini kəmərinin altında düzəltdi, alnına dağılmış saçlarını yığıb, papağını bir az yan qoydu, geri çəkilib çəpərdən tullandı. Qabaqdan it səsi gəldi.

Göycə ətrafına boylanıb görən olmasın deyə sinə-sinə irəli yeridi. Otaqdan işıq gəlmirdi. Talvarın altındakı inək şirin-şirin kövşəyib, arabir də ayaqlarını çəkib uzadırdı. O, yavaş-yavaş gedib eyvana çıxdı. Buxarının ağzındakı taxta çarpayıda Zərnişan mitil yorğana bürünüb yatırdı. Toydan o da tez qayıtmışdı.

Göycə qızı yavaşca dümsüklədi.

– Ə... Ə... Ə...

Zərnişan yerində qurcalandı. Üstü açıldı, onun köhnə maykasının altından yumru döşləri görünürdü. Oğlan yorğanı onun üstünə çəkib yenə səsini çıxartdı.

Qız oyandı. Yorğanı sinəsinə çəkib küncə qısıldı. Qara, dəyirmi gözlərini geniş açıb oğlanın üzünə baxdı. Əvvəlcə qaşqabağını sallayıb çığırmaq və qapıdan qovmaq istədi. Ancaq lal qızın gözlərinə çox qəmli dəydi. Oğlanın keçirdiyi ağır mənəvi iztirabları baxışlarından oxudu.

Zərnişan başa düşdü ki, Göycə bu dəfə yaxşı niyyətlə gəlmişdir.

Lal şəhadət barmaqlarını qoşalaşdırıb bir-birinə sürtdü. Başa saldı ki, səni aparmağa gəlmişəm. O, qıza aman verməyib çarpayının başındakı donu alıb Zərnişanın başına saldı.

Zərnişan gülümsəyərək ovcunun içərisindən havaya üfürüb – ağlın yoxdu, mən burda dura-dura özünü dağa-daşa niyə salırdın? – dedi.

Lal qara, nazik bığları altından qımışdı və Zərnişanın qolundan tutub yola tərəf çəkdi.

Kəndin başındakı evdən işıq gəlirdi. Lal və yetim qız evə tələsirdilər.

## İDMAN DƏRSİ

Müəllimin danlağını heç olmasa bu dəfə götürmək istəmədim. Həm də yoldaşlarım körpünün üstdən qurbağa təki şappaşap suya tökülüşəndə həvəsə düşdüm. Elə bil qolumdan tutub soyunma otağına saldılar. Əynimdən paltarımı tezcə çıxarıb atdım. Dizliyimin balaqlarını çırmadım.

Əynində parusin pencək, şalvar olan idman müəllimimiz qapının ağzında mənə diqqət etdi.

– Qısa tumanın yoxdur?

– Yoxdur daa!.. Məcbur edirsiniz ki, adam özünü biabır eləsin.

– Forman yox, qısa tumanın yox, bu necə işdir?! – deyə müəllim də acıqla danışdı. Əsəbi hərəkətlə küncdən bir xilasedici götürüb verdi. Gördü ondan istifadə etməyi bilmirəm, ipini boynuma saldı, üzərinə brezent çəkilmiş taxta qatlarını sinəmdə qanad təki açdı.

Hirsimdən boğulub qalmışdım. Bilirdim ki, yalvarsam da, xeyri yoxdur, dərsdən azad eləməyəcək. «Var-yox» bilən adam deyil, heç nə başa düşmək istəmir, tələbənin dərdinə-azarına qalmır.

Əvvəlki dərsdə idman salonunda kəndirlə yuxarı dırmanmaq öyrədirdi. Özü də jurnalda qiymət qoyurdu ki, bunu imtahanda nəzərə alacaq. Növbə mənə çatanda əlimi kəndirə yetirdim. Müəllim saxladı.

– Sənə icazə vermirəm.

– Niyə müəllim?

– Neçə dəfə demişəm formasız olmaz.

Hər dərs bu sözü eşitməkdən üzüm əppək duvağına dönmüşdü. İmtahana buraxılmayacağımdan ehtiyatlanıb bir növ xahiş tərzində dedim:

– Alacam, müəllim.

– Ancaq sonuncu dəfə olsun ha... – Müəllim hədələdi. – Bir də formasız gəlsən, səni dərsə heç buraxmayacam.

– Yaxşı, – kəndirə dırmanmağa başladım. Bir anda necə çıxdımsa başım salonun hündür tavanına dəydi, aşağı baxanda gördüm müəllim gözünü mənə zilləyib gülümsəyir. Belə şeylər mənim əlimdə nə idi ki?! Kənddə-kəsəkdə peşəm ağaclara çıxmaq idi. Elə hündür qoz ağaclarına çıxardım ki, anam aşağıdan baxıb:

– Allah, mənə ölüm ver, gör bu uşaq hara dırmaşıb, – deyər, əlini dizinə vurardı. – Ədə, düş aşağı!

– Qorxma, ay ana. – Salba ilə ağacın uc budaqlarını döyəclər, çataqlı qozlar tıppatıp yerə – xəzəlin üstə tökülərdi. İstəmirdim anam şax-şəvəlin arasında əli yerlərdə, tikanda qalsın. İstəyirdim bolluq olsun, anam xanım-xatın otursun, nə ürəyindən keçsə, əlini uzadıb götürsün. O vaxtlar, hətta yuxumda görmüşdüm ki, çox uca bir ağaca çıxmışam. O qədər ucadır ki, salba ulduzlara çatır. Ulduzları bir-bir vurub anam üçün salıram. O da götürüb yaxasına düzür. Anam elə bil şəfəq saça-saça yanır. Mən də ona baxıb xoşbəxt-xoşbəxt gülümsəyirəm.

Bax, o vaxtlardan mənim belə işlərə xüsusi səriştəm var idi. Kəndir isə onun yanında uşaq oyuncağı idi.

– Sənə məqbul yazacağam. Yaxşı çıxdın, forma almağı isə unutma ha! – Müəllim sonra da bu məsələni xatırlatdı.

Formaya görə bir dəfə də qızların üstə müəllimlə mübahisə eləmişdim.

– Mənim dərsimdə çox passiv iştirak edirsiniz. Başınızı girləyirsiniz. Sizin üçün belə keçməyəcək. Xahiş edirəm, özünüzə idman forması alın və məşğul olun...

Qızları danlayırdı ki, dilləndim.

– Müəllim, lap ağ eləyirsiniz. Elə gərək qızlar da forma geysin!

Sözümdən kişi elə bil diksindi, qanrılıb mənə nəzər saldı.

– Geyinməsinlər deyirsən?

– Yox.

– Niyə?

– Eyibdir axı!

Müəllim üzünü qızlardan çevirib tamam mənə sarı döndü. Duruşu indi də gözümün qabağındadır. Məna ilə məni süzüb, bu dəfə sakitcə, lakin çox nüfuzedici bir tərzdə dedi:

– Nədən eyibdir, ay qeyrət qəhrəmanı?

Tutuldum. O məni daha da üstələdi. Əllərini qaldırıb:

– Nin-nini, nin-nini – eləyərək qollarını başı üstə oynatdı.

Hərəkətinin mənasını başa düşmədiyimdən çaşıb qalmışdım. Sonra boy-boya dayanmış bir dəstə qızı göstərib mənə dedi:

– Səncə, bunlar elə «nin-nini» oynasınlar?.. Elə sənin də əlindən «nin-nini» oynamaqdan başqa şey gəlmir. Əslində, heç onu da əməlli-başlı bacarmırıq, ay yazıq!

O gün elə dilxor idim ki, dərsdən sonra təqaüdümü alanda yoldaşlarımdan biri qoluma girib boğazına çırtma vurdu:

– Ayə, bəri gəl, gedək vuraq.

O günə kimi səhər, axşam bir stəkan rəngsiz salma çaydan və günortalar bir qab şorbadan başqa yemək görməyən mən necə oldu restorana gəldim, bilmirəm.

– Pivə qurtarıb, – dedilər.

– Zalımlar az qalırlar boçkasına girsinlər, – yoldaşım yan-yörəyə boylanıb qabaqlarına qrafin-qrafin pivə düzmüş adamları acgözlüklərinə görə qınadı. Sonra əlini yellədi:

– Cəhənnəmə, çaxır içək.

Bir-iki stəkan çaxırdan sonra çənəmi yoldaşıma sarı uzadıb idman müəllimimizi tənqid edirdim:

– Eşitdin, mən ölüm, nə deyirdi? Deyir guya bizim əlimizdən heç nə gəlmir. Guya fərsizik, guya heç oynamağı da bacarmırıq.

Yeyəndə çənəsini dovşan təki yeyin-yeyin oynadan yoldaşım udqundu, tikəsini boğazından ötürəndən sonra sinəsini qabartdı, bədənini düz tutdu, qollarını qaldırıb elə oturduğu yerdəcə əllərini bir-iki dəfə oynatdı.

– Niyə oynaya bilmirik, ə?! Ləzginka da oynayırıq. Vağzalı da. Hələ istəsən dasniçors da oynayarıq.

Yoldaşımın da mən ağılda, mən fikirdə olması könlümü açdı. Qızışıb müəllimin ardınca alıb-verdim.

Səhəri gördüm cibimin canını almışam...

«Özünə forma al! Formasız səni dərsə buraxmayacağam. Sənə məqbul yazmayacağam». İndi başımın ayıq vaxtında belə ciddi xəbərdarlıq edən müəllimin səsini eşidir, cərgədə enlibalaq şalvarımın arxası yer süpürə-süpürə addımlamağım gözümün qabağına gəlir, xəcalət çəkirdim.

Oturub evə məktub yazdım. Salam-kalamdan sonra tezcə mətləb üstə gəldim: «Dədə, mənə pul göndər». Zərfi tələsik poçta salmağa yüyürdüm... Fikir içində gedirdim, atam gözümün qabağına gəldi. Bir ayağı havada, qoltuq ağacının üstə elə bildim qarşıma gəlir. Anamın səsini eşitdim:

– A kişi, hara gedirsən?! Nə işin var de, biz edərik.

İki-üç il idi ki, müharibə qurtarıb atam gəlmişdi, qoltuq ağacını hələ ata bilməmişdi. Evin-eşiyin bütün qayğısı yenə də yazıq anamın üstünə düşürdü. Müəllimim kimi «var-yox»u mən də bilmək istəmirdim.

Məktubu xırda-xırda necə cırıb atdımsa, külək götürüb yan-yörəmdə fırlatdı. Hər kağız qırığına elə bil yalnız bir söz yazılmışdı: «Dədə, mənə pul göndər. Dədə, mənə pul göndər. Dədə... mə... pul... dər».

Bax, mənim vəziyyətimdən hali olmaq istəməyən müəllimlə münasibətim belə şəraitdə pisləşmişdi. İdman dərsinin bu məşğələsində də aramızda artıq söz-sov olmasın deyə, uzunbalaq tumanda çimməyi qərara almışdımsa, qrupumuzun qızlarından utanırdım. Bilmirdim necə edəm ki, onlar məni heç görməsinlər. Xüsusilə parta yoldaşım Günaydan eyib eləyirdim. Nədənsə həmişə çalışırdım ki, onun gözünə yaxşı görünəm, nəzərində sayılan oğlan olam. O da sanki mənimlə maraqlanırdı. Bir dəfə tənəffüsdə hamı dəhlizə çıxmışdı. Sinifdə ikimiz idik. Növbəti dərsimiz dialektik materializmdən seminar idi. İcmalımızı nəzərdən keçirirdik. Xumar gözləri dəftərində olsa da, fikri mənim yanımda imiş, birdən üzünü mənə çevirdi.

– Köynəyinin cibləri düz deyil, – dedi. – Bax, gör bu cibin haraya düşüb... Qoltuğunun altına sarıdır. Kim tikib?

– Anam.

– Qəzetə bük, gətir, aparıb düzəldim.

– Sağ ol. – Onunla söhbət etmək mənim üçün çox xoş olsa da, əlimi alnıma söykək verib nəzərlərimi icmalıma dikdim. «Həyatda hər şey dəyişilir, inkişaf edir, bir şəkildən başqa şəklə düşür». Dilim astaca bu sözləri desə də, fikrimdə başqa şey idi. Əgər sevmir, niyə cibimə baxır. Əgər sevmir, niyə ciblərimin əyriliyini, düzlüyünü görür? Əgər sevmir, nə üçün deyir ki, köynəyini qəzetə bük, gətir, aparıb düzəldim?

Bir əlim dizliyimin başında soyunma otağından çıxıb qızlardan gizlicə özümü dəli dalğaların arasına atmaq istəyəndə dəniz qaynar qazana bənzəyirdi. Sular qabarıb qalxır, enib çökəlir, elə bil yüksək istilikdən daşıb-tökülmək dərəcəsinə gəlirdi. Yoldaşlarımsa, kimi qolatma, kimi eşmə üzür, suyu ləzzətlə şappıldadırdı, hələ canında yayın hərarəti olan ilk payız günəşinin pul-pul şəfəqləri altında beləcə kef çəkdiklərini nümayiş etdirirdilər. Uşaqlardan biri də arxası üstə üzürdü. Burnunun yastısı, ayaq barmaqlarının ucu görünür, hərdən də ölü balıq təki qarnının altı ağarırdı.

Qızların körpünün üstə bizdən xeyli aralı öz aralarında nə barədəsə söhbət edib gülüşdüklərini görcək qaçıb özümü dənizə atdım. Üzü üstə necə düşdümsə, su qarnımı qamçı təki yandırdı. Bunu vecimə almayıb üzməyə başladım. Dənizdə üzmək mənə asan gəlmişdi. Xəyalımda bıçqı balıq təki üzə-üzə gedirdim, necə deyərlər: «Araz aşığımdan, Kür topuğumdan» idi. O qənaətlə də qollarımı atır, ayaqlarımı tərpədirdim. Ağır gəmilər kimi də «Puf! Puf!» eləyə-eləyə tez-tez də ovurdlarımı qovluq təki doldururdum. Qarşıdan qabara-qabara bir dalğa gəlib mənə çatdı, sinəmdən necə vurdusa, üstümdən aşdı. Başımı silkələyib dalğanın altından təntik çıxanda özümü suların sinəsində, dərin bir boşluqda hiss etdim. Elə bil quyu idi, sular ləngərləyib geri çəkilir, mən isə ördək balası təki döşü üstə əlli-ayaqlı onun dibinə gedirdim. Fikrimdə, qənaətimdə yanıldığımı dərk edib az qaldım çığıram: «Vay!..» Nəsə ağzımı kilidləyib, dişimi-dişimə sıxıb səsimi çıxarmağa qoymadı. Xilasedici də boğazıma keçib döşümün altından tamam çıxmışdı.

Onu gördüm ki, bir nəfər qəfildən qolumdan tutub məni suyun üstünə çıxartdı. Elə çaşmışdım ki, qorxumdan boğazından yapışmaq istədim. O buna imkan vermədi. Körpüyə çatcaq tez əlimi atıb suya enən dəmir pilləkəndən tutdum.

– Belə-belə öyrənərsən. Formaya düşərsən, – saçları həmişə kirpisayaq bir bərabərdə vurulmuş olan, islanmasına baxmayaraq, indi də dik-dik dayanan müəllim məni sakitləşdirdi.

Bu vəziyyətdə görən olmasın deyə, sudan çıxan kimi özümü hövlnak soyunma otağına saldım.

Müəllim ardımca gəldi:

– Qoy hələ qurusun, elə geyinmə! Soyuq olar, – qayğıma qaldı, sözə baxmayıb şalvarımı ayağıma çəkdim. – Sənə demədimmi islaq-islaq geyinmə!..

Mızıldanıb üzümü çevirdim. Bütün bu işlərə bais müəllimim idi. Hər tələbi elə ciddiliklə yerinə yetirməyə səy göstərirdi ki, deyirdin dünyada bundan vacib iş yoxdur.

Dənizdən cərgə ilə instituta gələndə arxadakı uşaqlar hırıldayıb gülürdülər:

– Ay evin tikilsin, şalvarın bütüncə sudur.

– Müəllim, ayaqqabımın bağı açılıb. Xahiş edirəm icazə verin, – bu bəhanə ilə cərgədən çıxdım, dala qaldım. Bulvara gəlib xəlvət yerdə oturdum. Özümü günə verir, şalvarı qurudurdum.

İnstituta gələndə dedilər idman müəllimi səni axtarır.

– Əşi, o da canımı boğazıma yığdı, neynir məni?

– Səndən çempion eliyəcək, – sinif nümayəndəsi cavab verdi. O, bir yaxşı, xətirli-hörmətli oğlan idi. Əsgər olmuş, müharibədə iştirak eləmiş, hələ bir neçə də orden-medal almışdı. Burada da bizi başına yığıb ağsaqqallıq edirdi. İndi də təkid etdi ki, çağırır, get.

Bədən tərbiyəsi və idman kafedrasına gedəndə düşündüm ki, müəllim məni yenə danlayacaq, bəlkə, bugünkü üzməyimə görə bir «2» də yazıb. O, tək oturub məni gözləyirdi. Düzü, indiyədək ona heç belə diqqətlə baxmamışdım. Bu dəfə qulaqları gözümə çox qəribə dəydi. Elə bil vaxtında yaddan çıxıbmış, sonradan qulaq əvəzi başının hər tərəfinə bir parça qalın ət yapışdırmışdılar. Bədəninin quruluşunda olan bu uyğunsuzluq mənim ona olan hirsimin üstə gəldi, istəmədim üzünə baxam. Bunu hiss etdiyindənmi, yoxsa başqa səbəbdən müəllim də mənə qəzəbli baxdı və bu ara qəribə söz dedi:

– Tur de bra.

Başa düşmədim. Mənə elə gəldi ki, onu yaxşı eşidə bilmirəm. Yəqin, dənizdə qulağıma su dolub.

– Tur da teş, bra rule...

Daha da karıxdım. Qulağımın tutulmasına qəti şübhəm qalmadı.

– Tur de anş antet.

Belə düşündüm ki, müəllim məni ələ salır. Stolun üstündə yazı ləvazimatının kənarlarında iki mərmər suçəkən vardı. Hirslə əlimi atıb götürdüm. Qulağımın dibində bir-birinə vurub, bir ayağımın üstündə atdanmağa başladım.

Müəllim əlini yelləyərək ayağa qalxdı və acıqlandı.

– Özünü əməlli apar!.. Kafedradasan. Tələbəmə bax!

– Sizi yaxşı eşidə bilmirəm, müəllim. Sözlərinizi başa düşmürəm. Qulağıma su dolmuş olacaq, – bir ayağımın üstə quruyub qalmışdım.

Müəllim ağzını tavana tutub enli çiyinləri qalxa-qalxa güldü. Qəddimi düzəldib suçəkənləri yerinə qoydum.

– Müəllim, mənimlə nə işiniz vardı?

– Getmək istəyirsən?

– Hə.

– İncimə məndən, Ramiz, – gözləmədiyim halda mehribanlıqla danışdı. Adımı da özünə çox yaxın adam kimi, xətrimi dünyalarca istəyən bir şəxs təki tələffüz etdi. – Bayaq dediyim sözlər başqa dildə güləş fəndlərinin adıdır. Eləbelə dedim. Səninlə zarafat etmək istədim. İncimə! Həm də dedim, bəlkə, sən də maraqlandın, bu fəndlərin necə olduğunu bilmək istədin. Hə. İncimə!

– Eybi yoxdur, müəllim.

– Afərin!.. Yaxşı oğlansan, – indiyədək aramızda olan incikliyin, mübahisələrin üstündən qələm çəkib təriflədi. Stolun üstündən bir kağız bükülü götürdü və çox səmimi bir hərəkətlə mənə tərəf tutdu.

– Al.

Müəllimin üzünə baxa-baxa qaldım. Bu nə idi, o mənə verirdi?

– Müəllim?..

– Elə-belə şeydir. Sənə aiddir. Xahiş edirəm, götür, – müəllim məni danışmağa qoymadı, bükülünü qucağıma basdı.

Marağım daha da artdı. «Var-yox» bilməyən, hələ bir az da əzazil hesab etdiyim müəllimin mənə belə təkidlə verdiyi nə idi axı? Sözümlə-hərəkətimlə könlünə dəyəcəyimdən ehtiyat etsəm də, bükülünü açdım. Mağazadan təzəcə alınmış, boğazı qırmızı haşiyəli, göy rəngli idman formasını görcək məəttəl qaldım. Bəlkə də, bu, böyük hədiyyə deyildi, qiyməti elə baha deyildi. Ancaq bu adamın həssaslığı, alicənablığı, qayğıkeşliyi qarşısında özümü itirdim. Onun yapışıqlı, qaynar nəzərləri daim yanmaqda olan işıq şöləsi kimi tələbkarlığı ilə bərabər xeyirxahlıq, səmimilik saçırdı. Mən bu ifadəni onun gözlərində indi kəşf edib qəlbən sevinir və özümü onun yanında dəyanətli, şəxsiyyətli hiss edirdim. O bu görkəmi ilə qəlbimin dərinliklərinə insanların ən yaxşı, ən səmimi hislərini bəxş edirdi.

Bükülünü səliqə ilə stolun üstə qoydum. Səmimi tərzdə:

– Xahiş edirəm inciməyəsiniz, müəllim, – dedim. – Qoyun öz formamı özüm tapım. Özüm-özümü formaya salım.

Cəld çevrilib qapıya yönəldim...

## QARAÇI QIZI

Xram çayı boyunca sallanıb gedən köhnə kənd yolunun üstündəki böyük, daşlı düzənliyə qaraçı köçü düşmüşdü. Düşərgənin ortasından burula-burula ağ tüstü qalxır, çaya tərəf əyilərək uca qovaq ağaclarının şax-şəvəli arasında əriyib itirdi. Qaraçı madyanları suyun qırağındakı yoncalığın başında otlayırdı. Əl ayısı isə pəncələri üstə qalxaraq donquldanırdı. Kəndin arası qaraçılarla dolmuşdu.

Bayram işə gedən zaman su yolunun altındakı bağın yanında gənc bir qaraçı qızı ilə rastlaşdı. Oğlan başını aşağı salıb keçmək istədi, qız isə onun yolunu kəsdi, boynunu büküb gözlərini oğlanın üzünə dikdi.

– Oğlan, qoy falına baxım.

– Yox, lazım deyil! – Bayram kənara çəkildi.

– Ay gözəl-göyçək, ürəyi təmiz, əli açıq oğlan, – deyə qız dil tökməyə başladı. – Mən sənə sirr açacağam.

– Ay qız, məndən əl çək! – Bayram qabağa yeridi. Qaraçı qızı onun pencəyinin ətəyindən tutub saxladı.

Bayram dönüb başdan-ayağa qaraçı qızını süzdü. Onun paltarı nə qədər cındır və köhnə olsa da, özü gözəl idi; uca boyu, balaca ağız-burnu, yumru sifəti, xırda sədəf dişləri vardı. Ala gözləri qara, çatma qaşları altında xumar-xumar baxırdı. Qaraçı qızı qulaqlarına sırğa taxmış, boğazına boyunbağı salmışdı. Büzməli donu yalın ayaqlarının üstünə düşürdü.

Qaraçı qızı oğlanın ona diqqətlə baxdığını görüb, aralığa söz qatdı və əsl mətləbə keçdi:

– Oğlan, əlini ver.

Bayram qızın könlünü qırmamaq üçün əlini ona uzatdı. Qaraçı qızı oğlanın əlini kiçik ovucları arasına aldı.

– Nəzir ver.

Bayram əlini cibinə salıb bir beşlik çıxartdı, qızın gözləri oynadı. O, dodaqaltı mızıldadı:

– Dildən şirinsən, ürəkdən təmiz. Kin, kifir bilməzsən. Dalınca da iki uzun saçlı qızın gözü baxır.

– Bu, yalan oldu, – deyə Bayram şaqqıldayıb güldü. – Pulumu qaytar.

Bayram beşliyi dartıb qızın əlindən aldı.

Qız pərt olub qızardı. Belə işlərdə bu onun ilk addımları idi, o da boşa çıxırdı. Qaraçı qızı kəndi gəzməyə həmişə anası ilə çıxardı. Anası fala baxar, pul yığar, o isə «nəzirləri» torbasına dolduraraq anasının dalınca gəzərdi. İndi ana bərk xəstə idi, yorğan-döşəkdə yatırdı.

Qaraçı qızı qaşqabağını töküb, burnunu salladı və acıq eləyib getdi.

Bayram onun xətrinə dəydiyindən peşman oldu, pulu geri almasından da utanaraq başını aşağı saldı. Ürəyində isə «bu nə qənirsiz gözəl idi», – deyə qaraçı qızının dalınca baxa-baxa düşündü.

Elə bu vaxt anası Balaxanımın çığıra-çığıra qabağından gəldiyini gördü.

– Səni görüm qaramurazlı olasan!

– Ay ana, nə olub? Kimə qarğıyırsan?

– Qapıda bir qaraçı gəzirdi. – Balaxanım ayaq sallayıb nəfəsini dərdi. – Donumu suya çəkib günə sərmişdim, necə götürüb bilməmişəm. Köpək qızı gözdən qıl qırpır.

Bayram əlinə-əlinə vurub güldü.

– İndicə biri belə getdi, – deyə o, əlini qızın getdiyi istiqamətə uzatdı.

Balaxanım söylənə-söylənə yolu əlinə aldı. Oğlu isə ondan ayrılıb, xəstəxanaya döndü.

* * *

Axşam çağı selləmə yağış gəldi. Bayram pəncərənin qarşısında dayanmışdı. Qaraçıların köçü Xramın başında aydınca görünürdü. Qapı-baca bomboş idi. Arvad-uşaq qaçıb dəyələrə dolmuş, od-ocaq sönmüşdü. Bircə orta ocağın qırağındakı palıd kötüyündən zəif tüstü qalxırdı. Örüşdəki atlar da quyruqlarını baldırlarının arasına qısmış, qulaqlarını sallamışdılar.

– Görəsən, yağışa düşdümü? – deyə Bayram qaraçı qızını xəyalında canlandırmağa başladı. Ancaq xəstəxanaya tərəf gələn at arabası onu xəyaldan ayırdı. Bu, qaraçı arabası idi. Sürücüsü də qadın xeylağına oxşayırdı. Saçları pırpızlanıb boynuna tökülmüşdü.

Araba xəstəxananın qarşısında dayandı. Bayram cəld qapıya yönəldi. O, astanada xəstə bir qadını körpə uşaq kimi dalına almış cavan bir qızla üz-üzə gəldi. Qız başını qaldırmadan içəri keçdi, xəstəni koridordakı divanın üstə uzadıb çiyinləri üstündən arxasına baxdı. Onlar bir-birlərini tanıdılar.

Bayram xəstənin biləyindən tutaraq böyründə durmuş qaraçı qızının üzünə baxıb fikrə getdi. Qaraçı qızı için-için ağlayır, balaca qara əlləri ilə gözlərini ovxalayıb burnunu çəkirdi. Doğrudan da, adama kənardan, halına-xasiyyətinə bələd olmadan qiymət vermək olmazmış. Bayram indiyə kimi qaraçı tayfasına, qapı-qapı dolaşıb gəzənlərə pis gözlə baxmaqda nə qədər yanılmışdı. Bu gün yolda könlünə dəydiyi ayaqyalın, başı açıq qaraçı qızının köksündə çırpınan ürək

necə də odlu və böyük idi. Qız bərk islanmışdı, koftası bədəninə yapışmışdı, əti görünürdü, soyuqdan gömgöy kəsilmişdi. Ayağını da daş çapmışdı, baş barmağı qan içində idi.

Qaraçı qızının xəstə anasını palatalardan birinə aparıb rahatladılar. Bayram lazım olan tədbiri gördü. O, koridora çıxanda qız:

– Doktor, anam?.. – deyə dəlisov bir hərəkətlə Bayrama yaxınlaşıb soruşdu. Bayram əvvəlcədən qızın ürəyinə qorxu salmaq istəmədi.

– Görək, – deyə çiyinlərini çəkdi. – Ancaq gec gətirmisiniz. Niyə tək gəlmisən?

– Razı olmurdular. Mən öz zoruma salıb gətirmişəm, – deyə qız dilləndi.

İslaq paltar qaraçı qızını bərk üşüdürdü. Soyuqdan dişləri dişlərinə dəyirdi. Bayram ona dəyişəcək verdirdi. Həyətdəki atları isə arabadan açdırıb tövləyə göndərdi. Bütün bu işləri xəstəxananın təsərrüfat müdiri bığlı Murtuza tapşırdı.

Murtuz qara, yekə adam idi, başına da buxara papaq qoyardı, Danışanda da həmişə papağını yuxarı, alnının üstünə qaldırar, qaşlarını dartar, bundan sonra kəlməsini deyərdi. Murtuzun Koroğlu dəstiri qara şeşə bığları da vardı, sol əli daim bığında olardı. Elə buna görə də ona bığlı Murtuz deyərdilər.

Ertəsi gün qaraçı dəstəsindən bir adam gəldi. Günortaüstü buradan köçəcəklərini söylədi və xəstəni də, qaraçı qızını da geri aparmaq istədi. Lakin qız razılıq vermədi.

– Anamın halı yaxşı deyil, – dedi, – mən yazıq nə edə bilərəm?!

– İndiyədək bizlərdən hansı birimiz xəstəxanada yatmışıq?! Nə dərdimiz-azarımız olubsa ayaq üstə çəkmişik.

– Anamın ayaq üstə durmağa halı yoxdur.

– Qaraçı həyatının qanunu belədir, bala, təkərlər üstə doğuluruq, öləndə də...

– Yox!.. Bu vəziyyətdə mən onu yerindən tərpədə bilmərəm, – deyə qız kövrələ-kövrələ başını tərpətdi.

– Başa düş!.. Biz də burada çox qala bilmərik, – deyə qoca qaraçı qızın başına ağıl qoymağa çalışdı. – Hər qapıya azı beş-on dəfə dəymişik...

– Eləsə gedin!.. Siz gedin! Mən sonra gəlib sizi taparam. Ancaq insafınız olsun, anamı incitməyin! – deyə qız qəti etiraz etdi.

Gələn adam acıq edib getdi.

Köç qalxanda qızın ürəyi tab gətirmədi, o qaçıb xəstəxananın böyründəki təpənin döşünə çıxdı, təkərlərin taqqıltısı qulaqlarında səsləndi. Arabaların dalınca qaçışan daylaqlara baxdı, ayının tənbəl-tənbəl yeriməsinə tamaşa elədi. Köç gözdən itdi...

O, palataya dönəndə Bayramı yenə anasının yanında gördü. Onlar üz-üzə durub söhbət edirdilər. Ana qızını da bir böyründə oturtdu, dönüb bir qızın, bir də oğlanın üzünə baxdı. Kim bilir ürəyindən nələr keçdi?!

Aradan üç-dörd gün keçdi. Bayram çox çalışdı ki, xəstəni sağaltsın, ancaq mümkün olmadı, qoca qaraçı qadını bir gecə canını tapşırdı. Kolxozçular onu aparıb hörmətlə öz qəbiristanlıqlarında dəfn elədilər.

Anasının ölümündən sonra qaraçı qızı bərk darıxdı. Bir neçə dəfə qaçıb yurd yerinə dönə-dönə baxdı. Onlar arabanı burada – köhnə yolun üstündəki armud ağacının kölgəsində açmışdılar. Xəstə anası əsə-əsə arabanın böyründə ocaq qalamışdı. İndi kösövlərin ucları qaralırdı. Ancaq onun sacayağı qoyduğu qara ocaq daşları eynilə dururdu.

Qaraçı qızı köçün dalınca getmək üçün tələsik tədarük gördü. Atların dalınca adam göndərdi, arabanı nizama saldı.

– Dedik qalıb işləyər, ev-eşik sahibi olar. Bu bədbəxt qızı hara gedir? – deyə adamlar narazılıqla başlarını buladılar.

Kənd soveti sədri qızın yanına gəldi.

– A bala, qal, sənə ev də verərik, işləyərsən, lap yaxşı dolanarsan.

Bayram da atın cilovundan tutdu.

– Hara gedirsən?! Qoymaram, mütləq burada qalacaqsan.

Qız inad etmədi. Gözaltı Bayrama baxaraq sakitcə dayandı. Bayram atları açıb buraxdı.

– Ə, deyəsən, bu qız sənə bənd olub, – deyə bığlı Murtuz qız gedəndən sonra Bayrama söz atdı.

– Qoy görək. Ürküdərsən, kimsəsiz qız uşağıdır. Çöllərə düşüb həlak olar, yazıqdır.

– Nə deyirəm. Ancaq onlar üçün təfavütü yoxdur. Arı yeyib, namusu da bellərinə bağlayıblar.

– Yaxşı! – deyə Bayram acıqla dilləndi.

Bığlı Murtuz qımışaraq dedi:

– Acığın niyə tutur? Görünən dağın dibi yaxındır.

Doğrudan da, qız Bayrama çox yaxınlıq edirdi. Bu yaxınlıq tez dilə-ağıza düşdü və bir gün Balaxanım arvadın da qulağına gəlib çatdı. O bu məsələni oğlundan başıörtülü öyrənmək istədi.

– Dərdin alım, eşitmişəm evlənmək istəyirsən. Ancaq əsli-nəsli olsun, yaxşı yerin qızını al. Bizim də adımız-sanımız olub. Sayılmışıq. Rəhmətlik dədən Mustafa kişinin adı ellərə sığmırdı. Kimlə behləşmisən?

– Qaraçı qızı ilə, – deyə Bayram çoxdan bəri ürəyində saxladığı sirri açdı.

Balaxanım oğluna and verdi:

– Sən öz canın kimin qızıdır?

– Dedim ki, qaraçı qızıdır.

Balaxanım oğlunun gerçəklədiyini görüb qaşqabağını tökdü.

– Donumu oğurladığı yetmir, hələ bir gəlinim də olmaq istəyir?! Kül onun başına. – Balaxanım birdən ciddi vəziyyət alıb nəfəsini dərdi, sonra qətiyyətlə

əlavə etdi. – Belə iş olsa, üstümüzdəki o allah haqqı bu evə baş salmaram. Elə bir o qalmışdı ki, sümüyümüzü aparıb qaraçı sümüyünə calayaq. Ölərəm, onu qapımdan içəri buraxmaram!..

Bayram da sözünü ciddi dedi:

– Yox, ana, evlənəcəyəm.

Balaxanımı od götürdü.

– Boy! Evim yıxıldı, – arvad əlini dizlərinə çırpdı, üzünü cırdı. – Gorun çatlasın, ay Mustafa, qaraçı qızından nəvən olacaq!..

Bayram başını aşağı salıb susurdu. O, anasının dediklərini ürəyində götür-qoy edirdi. Deyəsən, bu sözlərin ona təsiri olmuşdu. Nəhayət, o, zarafata salıb arvadın könlünü aldı.

– Eh, sənə də bir küy gərəkdir. Mənə nə olub onu alıram. Çox da ki, gözəldir. Üzündə qatıq doğraması yeyəcəyəm? Sənin oğlun ancaq namuslu qızla həyat qurar.

Balaxanım sakitləşdi.

Bayram kor-peşman xəstəxanaya gəldi. Qaraçı qızı gözə dəymədi. Bığlı Murtuz ona yaxın gəlib gülümsəyərək dedi:

– Qaraçı qızı – toyuğun çıxartdığı kəklik çolpası. Fərqi yoxdur.

Bayram bu eyhamlı sözlərin ona aid olduğunu başa düşərək üzünü bığlı Murtuza çevirdi.

– Nə təhər, a Murtuz dayı?

– Belə də, ay oğul, – deyə Murtuz əlini bığına çəkib uclarını barmaqları arasında burdu. – Kəklik balasını gətirib toyuğun altına qoyursan, yenə görürsən çıxıb gedir. İndi bu qız da...

Bayram qaşlarını çatıb fikrə getdi. Bığlı Murtuz sözünə davam etdi.

– Oğul, o qızı kənddə saxladınız, ancaq ağlım bir şey kəsmir. Gözü-qaşı da çox oynayır. Qorxuram arada sən pis olasan. Kənddə hər ağızdan bir avaz gəlir...

Bayram birdən-birə narahat oldu. O bu barədə heç düşünməmişdi. Sadəcə olaraq qız onun xoşuna gəlmiş, gözü tutmuşdu. Qızın burada qalması və oturaq həyata tezliklə alışması onu sevindirmişdi. Bəs indi bu danışıqlar nə idi? Bunun axırı necə olacaqdı?!

Bayram fikirli-fikirli içəri keçdi, pəncərənin qabağına gəldi. Qaraçı qızı qarşıdakı arxın üstündəki söyüd ağacının salxım budaqları altında oturub dizlərini qucaqlamışdı. Onun ətli baldırları görünürdü. Yeyin-yeyin nəfəs aldığından koftasını dəlib az qala bayıra çıxan döşlərinin də enib-qalxması hiss edilirdi. İri gözləri suya dikilmişdi. Bir an Bayrama elə gəldi ki, arxın üstündə oturan qaraçı qızı yox, əfsanələrdən eşitdiyi su sonasıdır. Onun ürəyi titrədi, ağlı başından çıxdı, tab gətirə bilməyib yenidən bayıra çıxdı, qızın yanına gəldi.

– Ay qız, niyə təkcə oturmusan?

Qız qəmgin-qəmgin dilləndi:

– Bəs neyləyim?

– Gəl bir gəzməyə çıxaq. Görürəm darıxırsan.

Qaraçı qızı heç nə demədən ayağa qalxdı. Onlar gəzə-gəzə xəstəxananın yanındakı meşənin ətəyinə getdilər. Ətrafın darıxdırıcı sakitliyi içində Bayram sakit-sakit dilləndi:

– Sənin adın nədir?

Qız başını qaldırıb ona cavab vermədi. Bayram bir an susub təkrar dilləndi.

– Biz neçə vaxtdır tanışıq, amma bir-birimizin adımızı bilmirik. Gəl yaxından tanış olaq.

O dayandı. Əlini qıza sarı uzatdı. Qız balaca yumru əlini onun ovcunun içinə qoydu.

– Mənim adım Nəzirədir.

– Mənimki də Bayramdır.

Onlar yenə susdular, gəlib ətrafı pöhrənlik olan böyük bir palıd ağacının kölgəsində oturdular. Qız həyəcanlı olduğu üçündür ki, tez-tez nəfəs alırdı. Bayram da özündə deyildi. Papirosu papirosun oduna yandırırdı. Sükut uzun çəkdi. Nə oğlan dilləndi, nə də qız. Axırda Bayram o yan-bu yana boylanıb əlini cibinə saldı, bir qalaq pul çıxartdı.

– Al, lazım olar.

Bu, qız üçün çox gözlənilməz oldu. O, Bayramın bu pulu nə üçün verdiyini başa düşə bilmədi. Gah oğlanın üzünə, gah da onun əlindən tutduğu dəstə pula baxdı.

– Al! – Bayram israr elədi. – Götür. Bir yerə kül tökmək, yurd-yuva salmaq lazımdır. Gərəyin olar.

– Yox! – deyə qız etiraz etdi və Bayramın ona sarı uzanmış əlini rədd eləyib tez ayağa qalxdı. – Ayıb olsun! Yoxsa elə bilirsən mənim kimilərin namusu yoxdur, – qız ağlamsındı, onun qara, qəşəng gözləri doldu, yanaqlarında isti yaş damcıları göründü.

Bayram qızardı. Utandığından başını yerdən qaldırmadı... Qaraçı qızı dəlisov bir hərəkətlə geri, xəstəxanaya doğru yüyürdü...

* * *

O axşam Nəzirə arabasını yenidən qoşdu. Yol qəbiristanlığın altından keçirdi. Qaraçı qızı arabanı yoldan kənara çəkərək saxladı, düşüb anasının üstünə getdi. Axşamın ala-toranlığının ağır sükutu içərisində xəyala dalmış qəbir daşları qızın ürəyinə qorxu saldı. Göz yaşları yanaqlarında qurudu. O, anasının məzarına yaxınlaşdı, ətrafındakı sarı çiçəklərdən göy ot qarışıq bir dəstə yolub məzarın üstünə qoydu. Başı köksünə əyildi. Bir az durmuşdu ki, qəbir daşlarının üstündən

küyültü ilə bir dəstə quş ötüb keçdi. Qız başını qaldırıb quşların dalınca baxdı. Onların da yurdları, yuvaları var. Quşlar da gecənin gəldiyini hiss edib öz yuvalarına döndülər. Bəs Nəzirə? O, hara gedirdi?

Nəzirə son dəfə olaraq üzünü kəndə tərəf çevirərək qırmızı kirəmitli evlərə tamaşa eləməyə başladı. Ancaq kövrəldiyindən dodaqları büzüldü. O, nələr düşünürdü, indi nələr oldu. Gizlincə könül bağladığı, gecələr səhərə qədər xəyalı ilə danışıb-güldüyü oğlan da onu təhqir etmişdi. Bundan da böyük dərd olardımı? Nəzirə üst-başına baxdı. Əyni çox yuxa idi. Barmaqları cırıq ayaqqabılarının burnundan eşiyə çıxmışdı. Corablarında tutar yox idi, dabanları görünürdü. «Bəlkə də, bu ucuz paltarıma görə namusumu da ucuz tutdular», – deyə Nəzirə düşündü.

Atlar ayaqlarını yerə döyüb, qulaqlarını şəklədilər. Nəzirə geri döndü, bir adam tövşüyə-tövşüyə ona tərəf gəlirdi.

* * *

Qaraçı qızı evə ayaq basan gündən Balaxanım oğlu ilə dava salaraq ondan ayrıldı. Bir dəst yorğan-döşək götürüb, balaca otağa köçdü. Oğluna isə sözü bu oldu:

– Oğul, mən deyən olmadı. İndi heçin ayrı, köçün ayrı, nə xeyrin lazımdır, nə də şərin.

– Ay ana, bir qulaq as, gör nə deyirəm. – Bayram anasını yola gətirmək istədi.

– Yox! Yox! Məni ana gözündə görmədin. – Balaxanım gözlərinin yaşını silə-silə otağına keçdi, qapını bərk çırpdı.

Balaxanımın varı-yoxu, gözünün ağı-qarası bircə Bayram idi. O, oğlunu nə çətinliklə böyüdüb boya-başa çatdırmışdı. «Toyunu da görsəm, ölmərəm» – deyirdi. İndi iş gör necə gətirmişdi? Gəlinini görməyə gözü yox idi.

Balaxanım dözə bilmədi. Orta qapıya yanaşdı, oğlugilin söhbətlərinə qulaq asdı. Bayramla Nəzirə qabaq-qabağa oturub dərdləşirdilər.

– Ay Bayram, heç yaxşı iş olmadı. Anan bizim evlənməyimizə razı deyilmiş.

– Bıy, kül başına, gələndən sonra təzə ağıl eləyir, – deyə Balaxanım qapının dalında öz-özünə pıçıldadı. – Bəs bilmirdin ki, qaraçını heç kim evində gəlin eləməz, dərdim ürəyinə.

Balaxanımı hirs boğdu, o, içəridə də dayana bilməyib, bayıra çıxdı və öz qapısını təmizləmək üçün söylənə-söylənə süpürgəni axtarmağa başladı. Qaraçı qızı qayınanasının səsinə eşiyə çıxıb süpürgəni götürdü. Balaxanım arxasını ona çevirdi, ağız-burnunu büzdü.

Nəzirə qapı-bacanı süpürdü, tərtəmiz elədi, zibili aparıb zibilliyə tökdü, evdə hər şeyi sahmana saldı. Dəyişəcəkləri yumaq üçün ocağa su qoydu. Balaxanım gözünün ucu ilə baxıb, gəlininin əlinə-ayağına fikir verdi.

Qaraçı qızını tanımaq olmurdu. Paltar onu abıra salmışdı. Başına saldığı yaşıl yelənli ağ kəlağayı onu daha da gözəl göstərirdi. Donu elə bil üstündə biçilmişdi.

– Bıy, qaraçı adam olub. – Balaxanım qaşlarını çatdı, amma üzdə deməsə də, ürəyindən keçirtdi. – Nə əlli-ayaqlı adama oxşayır.

Nəzirə hər gün obaşdan qalxar, gedib su gətirər, evi silib-süpürər, çay-çörək hazırlar, ərini yedizdirib yola salar, evin işini görərdi. Sonra da kəndin gəlin-qızına qoşulub kolxoza işə gedərdi. Balaxanım ayrı olsa da, canı təzəcə dincəlmişdi, çünki sudan-seldən xəbəri olmurdu. Qalxanda sənəyini dolu, qapısını süpürülmüş görürdü. Balaxanım hələ bir dəfə acıqla sənəyi aparıb itin yalağına tökmüşdü. Nəzirə isə gedib sənəyi bir də doldurub gətirmişdi.

Nəzirədən hamı razılıq edirdi. Ancaq təkcə Balaxanımın ulduzu onunla barışmırdı.

* * *

Qaraçı qızı ağrı çəkir, Bayram həyətdəki tut ağacına söykənib keçmişi, anasının sözlərini xatırlayırdı. «Oğul, sümüyünü gör kimin sümüyünə calayırsan?.. Gorun çatlasın, ay Mustafa, qaraçıdan nəvən olacaq».

Bu zaman arxadan kim isə Bayramın papağını götürüb qaçdı.

– Gözün aydın olsun, oğlun oldu, muştuluq!

Bayram sevindiyindən quş təki qanadlansa da, anasını düşünüb qolları yanına düşdü və kədərləndi. Qaşqabağı bulud kimi tutuldu, dillənmədi.

Ancaq Balaxanım bu müddətdə xeyli dəyişmişdi. Nəzirənin qoçaqlığı və mehribanlığı onu xeyli yumşaltmışdı, indi evdə oturub intizar içində uşağın doğulmasını gözləyirdi. Birdən ara qapısı açıldı, muştuluqçu sevinclə dedi:

– Xala, muştuluq, nəvən oldu, özü də oğlan.

– Bıy, – deyə Balaxanım tələsik qalxıb, donunu çəkə-çəkə oğlunun otağına keçdi. – Qədəminə qurban, ay bala. – Balaxanım özünü uşağın üstünə saldı. – Dərdjiyini allam, nə yaxşıcadır, lap özümüzə çəkib.

Anasının mehribanlığı Bayramı da sarsıntıdan qurtardı. O sevindi. Elə bu dəqiqə arxadan onun çiyninə bir əl toxundu. Bayram geri dönəndə bığlı Murtuzu qarşısında gördü.

– Oğul, yoldan keçirdim, eşitdim oğlun olub, gəldim ki, gözaydınlığı verəm.

– Çox sağ ol, Murtuz dayı.

Uşaq içəridə Balaxanımın qucağında vığıldadı. Bayrama elə bil dünyanı bağışladılar.

## ASFALT YOLDAN KƏNARDA

Burnunun qanadları bərabəri bığ qoydurmuş kolxoz sədri and-aman eləmişdi ki, mən rayon mərkəzində olmuşam. Konsertdə iştirak etməmişəm.

Bu işdə hamıdan çox narazılıq edən, yalnız sədrdən yox, cəmi idarə heyətinin üzvlərindən küsən sağıcı Qənirə sədrin yalanını çıxartmışdı.

– Bəs o kim olub ki, axırda səhnəyə çıxıb, artistlərə təşəkkür eləyib. Deyib bir də gəlin, gözümüz üstə yeriniz var, hə?!

Sədrin dodaqları qaçmışdı.

– Aaz. Canım üçün, axırına gəlib çatdım.

Qənirə sədrin üzünə baxmayıb narazılıqla əlini yelləmişdi.

– Yaxşı. Yaxşı. Heç olmasa danışmayın. Belə çıxır ki, gözdən uzaq, könüldən də uzağıq.

Sədrlə Qənirənin arasında olan bu mübahisə fermanın işçilərinin hamısının ürəyindən idi. Yalnız əri Göygöz Mansur narazı qalmışdı. Bu məsələ elə tövlədə, mal-qara ələflənən vaxtı müzakirə olunanda kişi hirsindən özünü saxlaya bilməyib Qənirəni acılamışdı.

– Sən niyə özünü ortalığa atıb konsert davası döyürsən?

Bu ara yem gözləyən inək mələmişdi.

– Maaa!..

Arvadını tənqid etməyə bir bəhanə axtaran Mansur tez dillənmişdi.

– Bax, sənin konsertin budur, buyur qulaq as!

Tövləni çalğılayan Qənirə dayanıb incik nəzərlərini ərinin üzündə saxlamışdı.

– Axırı belə oldu, hə?

– Bəs sən necə bilirdin?! – Mansur səsini daha da ucaltmışdı.

Qənirə də hirslə çalğını onun üstə tullamış, qapıya yönəlib tövlədən çıxmışdı. Bax, ondan bəri idi ki, Qənirə ilə Mansur küsülü idilər. Kişi bir neçə dəfə barışmağa cəhd etmişdisə də, bir şey çıxmamışdı. Arvada nə deyir, ondan nə soruşurdusa, cavabsız qalırdı.

O gün Qənirə evdə xörək hazırlayırdı. Peç gurhagur yanır, o da ocağa yaxın dayanıb qazana kartof salırdı. Böyürləri qıpqırmızı olan peçin hərarətindən Qənirə pörtmüşdü. Koftasının yaxası açılmış, gəlinin dümağ boyun-boğazı görünürdü. Göygöz Mansur oğrun-oğrun arvadını süzüb nahaq yerə onun könlünə dəydiyini düşündü. Səhvini düzəltməyə cəhd etdi.

– Ay arvad, peçi də elə qalamısan ki, istidən içəridə dayanmaq olmur. Sənə görə deyirəm, eşiyə çıxanda soyuq olar, bir az kənarda dur, – deyə əlini atıb arvadın qolundan tutdu.

Qənirənin qolu havada fırlandı.

– Mənə toxunma!.. Uzaqda dur!..

– Yaxşı. Yaxşı. Kartofun suyunu üzümə sıçratdın, – deyə kişi gülə-gülə geri çəkildi, barışmaq üçün bu cəhdindən də bir şey çıxmadığını təəssüf hissi ilə düşünüb yenə yerində əyləşdi... Bir azdan qabağına kağız qoyub, əlinə qələm götürüb deyirdi:

– Biz də acıqcan Bakıya yazaq. Qoy bizim xahişimizlə konsert versinlər. Həm də radioda adımızı çəkərlər. Sən hansı mahnını istəyirsən? Sənin üçün kim oxusun?

– ...

Kişi özünü o yerə qoymadı.

– Neynək, fikirləş, gör hansı hava, hansı mahnı çox xoşuna gəlir. Doğrudur, elə mahnılarımızın hamısı yaxşıdır. Yenə də biri-birilərindən üstünlükləri var. Bax, çöl-çəməndə də gül-çiçək çox olur. Ancaq birini dərib döşünə taxmaq istəyəndə, yaxud yarına vermək istəyəndə gözünü dolandırırsan ki, görəsən, hansı daha gözəl, daha yaxşıdır.

Qənirə yenə söhbətə qarışmadı. Guya o, ərini heç eşitmirdi.

– Bilirəm, kimin oxumağını istəyirsən! Elə mən də... Günüağ canını silkələyə-silkələyə oxumurmu, düzü, mahnısı da yadımdan çıxır, elə özünə baxıram.

Arvad əlində çömçə ona sarı çevrildi. Elə bil onunla dalaşacaqdı. Birdən pıqqıldadı. Mansur pərtliyindən bilmədi nə etsin. Bayaqdan arvadının saqqızını yumşaltmağa çalışsa da, indi sərtləndi.

– Nəyə gülürsən?

Qənirə cavab vermədi, gülə-gülə üzünü ondan döndərdi.

Mansur xörək-çörəyini yeyəndən sonra dilxor-dilxor gəlib ot tayasının üstünə çıxdı, yabalayıb aşağı tökməyə başladı. Bir də gördü belini-başını yun şalla sarımış arvadı da gəlib. Gəlib aşağı tayanın dibində ərinin tökdüyü otu bir yerə yığmağa və tövləyə aparmaq üçün vaqonetkaları doldurmağa.

Qənirənin pıqqıltısı bayaqdan Mansurun ürəyində qalmışdı. Arvadın istehzalı, eyhamlı gülməyi kişinin könlünə dəymişdi. Ona görə çox fikirli idi ki, Qənirə nə üçün ona belə aşağı nəzərlərlə baxır. Bəs bu o Mansur deyilmi ki, Moskvadan Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindən belə dəfələrlə gəzib gəlib. İndi də adı tez-tez qabaqcıllar sırasında çəkilir. Bəs bu o Mansur deyilmi ki, Bakıda müşavirədə maldarlar adından çıxış edib, heyvandarlıq məhsullarını artırmağa, yağ, süd bolluğu yaratmağa çağırıb. İndi ona nə olub ki, Qənirənin gözündə aşağı düşüb.

İşini qurtarandan sonra Göygöz Mansur dayanıb arvadını yuxarıdan süzdü. Tayanın başı külək çəkirdi, sazaq idi. Tayanın dibi dalda idi. Külək sən deyən tutmurdu. Bir də Göygöz Mansur uzaqdan-uzağa hiss etdi ki, arvadının çiyninə salıb, kürəyini, sinəsini örtüb sıxaraq böyründə bərk-bərk bağladığı şalın arası indi istidir. Kişinin ağlından uşaq-uşaq əllərini şalın arasına salıb qızdırmaq fikri keçdi. Bu hisdən Mansurun başı necə dumanlandısa pilləkənlə düşmədi, yabanı kənara tullayıb, tayanın yaxası ilə balacalar kimi aşağı sürüşdü. Elə beləcə də arvadın yanına düşdü. Qənirə onun hərəkətinə təəccüb etsə də, yenə özünü ciddi tutdu, bir söz demədi.

– Kömək et, qalxım, aaz, – deyə Mansur əlini uzadıb arvadın qolundan tutdu.

Qənirə dartındı.

– Sən də bir o yanda dur!

Mansur bu dəfə arvadın qolundan bərk yapışmışdı. Özü qalxmaq əvəzinə dartıb arvadı da yanına yıxdı.

İstədi gizlincə onu öpsün.

– Əşi, o yana cəhənnəm ol! – deyə Qənirə əlini atıb ovcunun mayasını kişinin tüklü çənəsinə dirədi, necə itələdisə, az qaldı Mansur başını qanırsın. Ərinin hərəkətindən çox narazı vəziyyətdə ayağa qalxdı. Barmağının ucuna baxa-baxa ufuldadı.

Göygöz Mansur pərt olmuşdu. Qənirə də fikir vermədən gedib yabasını yerdən qaldırdı, dırmıq əvəzi yan-yörəyə çəkib dağılmış otu bir yerə yığmağa başladı.

Tövlə tərəfdən səs gəldi.

– Ayə, a Mansur, ot hazırdımı?

Mansur işindən qalmadan başını könülsüz səs gələn tərəfə döndərdi. Donqarburun, sallaqdodaq briqadirini gördü. Onun işindən, adamlığından xoşu gəlsə də, başına şlyapa qoymasından zəhləsi gedirdi. Bir-iki dəfə demişdi:

– Sənə yaraşmır, at getsin.

– Niyə yaraşmır, ayə?

Mansur bilməmişdi fikrini necə izah etsin. Nəhayət:

– Bilirsənmi, – demişdi, – belə birtəhərdir. Bax, şlyapanın da qabağı sallanır, burnun, dodağın da sallaqlıdır. Belə çıxır ki, səndə hər şey üzüaşağıdır.

– Hi... hi... hi... – Briqadir gülümsündü. – Ayə, elə şeyə fikir vermə. Planımız ki, ildən-ilə üzüyuxarı gedir. Bil ki, insan öz işi, əməli ilə gözəl olur.

Briqadirin hələ də ona sarı baxıb cavab gözlədiyini görən Mansur başını tərpətdi.

– Bu dəqiqə vaqonetkaların hamısını dolduraram.

Bir azdan hamı tövlədə idi. Axurlar yazın ətirli, yumşaq otu ilə doldurulmuşdu. İnəklərin fısıldaşa-fısıldaşa ələf yeməsi onlara ləzzət verirdi. Mal-qaranın

nəfəsindən tərləyib tutqunlaşmış lampoçkalar dumanlı havada olduğu kimi görünürdülər. Tövlənin pəncərələrinin bəzilərini açıq qoymuşdular. Bunlardan isti hava axını tüstü təki burulub çıxır, bayırın şaxtalı havasında əriyib yox olurdu. Maldarlar isə axurların arasında gəzir, yerə düşən otu götürüb heyvanın qabağına atırdılar.

Qanı qara olan Göygöz Mansurun da bir gözü arvadında idi. Qənirənin əlinə nə olmuşdusa, gah o lampoçkanın, gah bu lampoçkanın altında dayanıb işıqda əlinə baxır, barmağının ucunu qurtdalayırdı.

Briqadir köhnə palan içi tökdü.

– Bəkidən-Şəkidən qonaq-qara gələndə ardlarına salıb fermaya gətirirlər. Ya da adam göndərirlər ki, qonağımız var... Amma konsert olanda yada düşmərik.

Mansurun ürəyi düşdü ki, Qənirə yenə söhbətə qoşulacaq. Ancaq dinmədi. Ərinin elə xoşuna gəldi ki, ürəyindən onu danışdırmaq arzusu keçdi. Bilmədi nə desin. Yaxınlaşıb:

– Sarğız inək bu gün-sabah doğacaq, – dedi.

– Nədən bilirsən?

Arvadı danışdırdığına  Mansur sevindi.

– İnək quluncunu qırıb.

– Hə, onda gərək gözdə-qulaqda olaq ki, salamatlıq olsun.

– Bəs nə?! Növbə ilə gərək keşikdə dayanaq, – deyə Mansur bu işə həvəsli-həvəsli cavab verdi. Sonra da qorxdu ki, Qənirə onu tənqid etsin, desin ki, inəyin doğmasından çiçəyin çırtlayır, amma mən konsert istəyəndə acığın tutur.

Amma Qənirə dinmədi. Mansur söhbətin üstündən tez keçdi.

– Əlinə nə olub?

– Nəsə batıb. – Qışın sazağından qaysaqlanmış dodağını Qənirə dişlədi. Görünür, ağrının təsirindən belə edirdi.

Kişinin gözü arvadın üzündə qaldı. Ona canı yandığını bildirərək həlim bir tərzdə dedi.

– İncidir?

Arvad əlinə baxa-baxa başını buladı.

– Yaman ağrıdır.

Göygöz Mansur yaxın dayanıb iki inəyin arasında arvadın əlindən tutdu.

– Qoy bir baxım, bəlkə...

– Belə görünməz, bayıra çıxanda işıq gözünə...

– Canavar təkin qaranlıqda mən daha yaxşı görürəm, – deyə kişi zarafata salıb arvadın qolunu daha da yuxarı qaldırdı. Xüsusi görüşə çıxmış adamlar təkin üz-üzə, göz-gözə dayandılar.

Qənirə cəld əlini çəkdi. Tövlənin o biri başındakı adamlara sarı boylandı. Hərəkətilə ərinə bildirdi: «Eyibdir, özünü ağıllı apar, şitlik eləmə».

Beş-on gün sonra isə Qənirənin barmağı daha bərk incitməyə başladı. Bir gecə Mansur evdə nəsə kövrək səs eşidib hövlnak qalxdı. Yuxulu-yuxulu otağa boylandı. Eşikdə az qala dizə çıxan təzə qarın ağımtıl şövqü otağı ala-toran işıqlandırmışdı. Stolun yanında kimsə qəribə vəziyyətdə dayanmışdı. Mansura elə gəldi ki, bu onun Moskvada gördüyü heykəldir. Onun da qolu yox idi. O qız da belənçik bir qədər qüssəli, ürkək vəziyyətdə dayanmışdı. Bəs qolsuz qız heykəli haradan gəlib onun fermada yaşadığı bu evə çıxmışdı. Mansur astadan dedi:

– Aaaz, Qənirə!..

Heykəl qımıldandı. Mansur özünü onun yanına atdı. Gördü Qənirə qolunu dirsəkdən büküb, qoynuna, gecə köynəyinin altına qoyub, qolsuz heykəl təki görünür.

– Nə olub, aaz, sənə? Niyə belə edirsən?

Qənirə ufuldadı.

– Barmağım ağrıyır.

– Birtəhər döz, sabah həkimə gedərik. – Sonra da öz-özünə söyləndi. – Beş-on dana üçün baytar həkim göndərirlər, amma bu qədər adam üçün heç olmasa bir nəfər medbratdan, medsestradan...

Səhər Mansurla Qənirə həkimə getməyə hazırlaşırdılar ki, sədrin maşını fermaya gəldi. Təkcə şofer idi. Maşından sevincək düşüb:

– Bakıdan artistlər gəlib, – dedi. – Sizi konsertə çağırırlar. Məni göndərdilər ki, indidən xəbər verəm, axşam gələsiniz.

Sarıqlı əlini qoynundan çıxarmayan Qənirə birinci dilləndi.

– Gözümüz aydın, nə yaxşı bizi yada salıbsınız?

– Siz elə həmişə yaddasınız. Sizə bu yaxınlarda televizor da verəcəklər.

– İnanan daşa dönsün.

– Niyə? Nə üçün? – deyə şofer işindən qalmayaraq bu barədə izahat gözlədi.

– Ədə, radiouzelləri var idi. Hamısı qırılıb tökülüb. Heç fikir verən var?!

– Darıxmayın, hamısı düzələcək.

– Televizor alsalar öz kabinetlərinə qoyarlar, – deyə Qənirə belə şeylərin, adətən, necə bölüşdürüldüyünü bilən, görən adamlar təkin danışdı.

Sağıcı yoldaşları onu dartdılar.

– Aaaz, sən də bəri gəl, gedək konsertə hazırlaşaq.

Briqadir arvadların yolu ağzında dayanıb üzünü şoferə tutdu.

– Bəlkə, heyvanı da konsertə aparaq, hə?! Bu barədə bir söz demədilərmi?

Şofer gülümsədi, briqadirin sözünün məğzini başa düşdüyündən dedi:

– Gərək elə hamınız gedəsiniz?! Nümayəndənizi göndərsəniz yetər.

Konsertə gedəcəklərindən çiçəyi çırtlamış arvadlar bu sözdən pis oldular. Qənirənin nasazlığına görə ürəyi yuxalmış Mansur tez dilləndi:

– Əşi, siz hamınız gedərsiniz, mən qallam, heyvana baxaram.

Qənirə ona gözünü ağartdı. Mansur sarsılan təki oldu.

– Nə olub, aaz?

– Sən nə üçün qalırsan?! Konsertə bir yerdə gedəcəyik!

Camaat arasında arvadın onunla bu tonda danışması Mansurun könlünə dəymişdi, acıqlandı:

– Əşi, hələ sən barmağının dərdinə qal, sonra...

– Hə, maşın da var, gedək barmağımı həkimə göstərim, – deyə Qənirə uşaq təki sevincək səsləndi.

Yarım saat sonra onlar kəndlərinin xəstəxanasında idilər. Qəbul otağında oturub həkimi gözləyirdilər. Qənirə barmağını dodağının üstünə qoyub nəyəsə təəccüb etdi.

– Bax, görürsənmi, soruşmadıq Bakıdan hansı artistlər gəlib.

Mansur təəccüb qaldı ki, o nə üçün öz dərdini çəkmir, barmağının qeydinə qalmır.

– Həkim bilməmiş olmaz, gələndə soruş.

– Əşi, dayan bir görək barmağının ağrısı keçirmi? Bir də sənin üçün nə fərqi var, kim oxuyur oxusun, – deyə Mansur hirsləndi.

Qənirə onun qolundan tutdu.

– Bıy! Bəs onu istəmirsən? İstəmirsən ki, o gəlmiş ola? Canı yanmış elə gözəl oxuyur ki, adamın ruhu...

Mansur onun da sevimli müğənnisinin ünvanına deyilən tərifdən xoşlanıb arvadı ilə zarafat etdi.

– Onu sən harda görübsən, aaz? Yoxsa məndən ayrı konsertə gedibsən?

– Özün de, səndən ayrı bir addım atmışammı, heç?! Sən də ki, bir dəfə məni bir yerə...

Qənirənin gileyindən Mansur pis oldusa da, büruzə vemədi. Şənliklə:

– Bax, bu gün ikimiz də qoşalama konsertə gedəcəyik, – dedi, – özü də lap qabaqda oturarıq, yaxşımı?!

Qənirə uşaq sevinci ilə başını silkələdi.

Həkim Qənirənin barmağına baxandan sonra isə konsert məsələsi yaddan çıxdı. Çünki həkim dedi ki, bunun üçün cərrah lazımdır, rayon mərkəzinə getməli olacaqsınız. Mansur başını buladı.

– Belə bilsəydik, səhərdən...

Cavan həkim təmkinlə, xoşluqla başa saldı.

– Mən nə edim, əzizim-gözüm. İxtiyol çəkib sarıtdıra bilərəm. Ancaq cərrahın baxmağı məsləhətdir.

Göygöz Mansur elə pis oldu ki, qınayan olmasa idi, bir «Of!» deyərdi. Çünki səhərdən arvadı yanına salıb fermadan bura gətirmişdi. İndi də heç insafdan idimi ki, ona bir kömək olmasın.

– Di bəri gəl gedək, – deyə kişi qovrula-qovrula qabağa düşdü. Tezcə maşın tapdı, arvadı mindirdi. Yarımca saat keçməmiş rayon mərkəzində oldular.

Cərrahın qəbuluna gedəndə Göygöz Mansur ürəyi ağrıya-ağrıya deyirdi:

– Bilirəm barmağın zoqquldayır. Çarə yoxdur, bir az da döz, tezliklə yaxşı olarsan.

Sən demə, Qənirənin barmağının yumşaq əti lap içəridən irin eləyibmiş, qanına keçirmiş.

– Bir neçə gün gec gəlsə idiniz, çətin olardı, barmağınız gec sağalardı, – deyə cərrah onları bir az qorxutsa da, tez əncam çəkdi, iynə vurub keylətdirəndən sonra yarıb təmizlədi, dərman çəkib səliqə ilə sarıdı.

Xəstəxanadan çıxanda ikisinin də üzü gülürdü. Solğun bənizli qış günəşi qüruba sarı əyilmişdi. Qənirə kişini tələsdirdi.

– Günümüz bütüncə getdi, tez ol, konsertə gecikəcəyik. Yolun qırağında maşın dayanmışdı. Yaxınlaşıb:

– Bizi «Şəfəq» kolxozuna apararsanmı? – dedilər.

– Pulunuza minnət, niyə aparmıram.

Maşına oturandan sonra Qənirə şoferin danışığından xoşu gəlmədiyi üçün dedi:

– Belə çıxır ki, bu yollarda pul qovursan, ay qardaş.

Şoferin qulaqları tərpəşdi. Söz ona toxunmuşdu. Amma özünü o yerə qoymadı, zarafata saldı:

– Neynəyək?! Hərə bir şey qovur. Biri dovşan, biri tülkü... mən də pul qovuram, bacı.

Qənirə daha onunla mübahisə eləmədi. Çevrilib ərinə baxdı. Ağzını açmasa da, elə bil ondan soruşdu: «Bəs biz nəyi qovuruq, hə?»

Mansuru qaşqabaqlı görəndə başa düşdü ki, əri ondan narazı qalıb. Yad kişi ilə söz güləşdirməsindən narazı qalıb. Əhvalı yaxşı olsa idi, ona gülə-gülə bu sözü deyərdi. «Başqa şeyi bilmirəm. Onu bilirəm ki, sənin dərdin-azarın konsertdir, dımbıltıdan ötrü ölürsən». Qənirə düşünürdü ki, indi kənddə arvad-uşaq konsertə getməyə hazırlaşır. O da tələsdi; tez çatsın, evə dəysin, paltarını dəyişsin, sonra klubda əri Göygöz Mansurla qoşa əyləşsin.

Maşın sürətini artırdıqca elə bil rezin təkin uzanıb asfalt yola yatırdı. Bir xeyli mənzil qət edəndən sonra Qənirənin ağlına nə düşdüsə, narahatlıqla ərinə sarı döndü.

– Mansur?.. Səhərdən çıxanıq. Heç bilmədik fermada kim qaldı, konsertə kim gəldi.

Mansur çiyinlərini atdı ki, mən nə bilim, səhərdən sənin barmağının həşirinə düşmüşük.

Ərinin qaradinməzliyi Qənirəni darıxdırdı. Onun qoluna toxunub:

– Bəlkə, biz fermaya qayıdaq, – dedi. – Onları tez göndərərik konsertə. Gələrlər, bu dəfə biz onların əziyyətini çəkək.

Mansur arvadının sözünə təəccüb etdi, axı o, neçə gündən bəri konsert davası edirdi. İndi nə olmuşdu ki?.. Çevrilib yanakı Qənirəni süzdü, onun qayğılı çöhrəsində tanıdığı, bildiyi adamlar üçün, iş yoldaşları üçün nə isə yaxşı bir iş görmək hissini duyub məmnun qaldı. Amma bir söz demədi. Yenə çiyinlərini atdı ki, özün bilərsən.

Kəndə çataçatda Qənirə maşın sahibinə dedi:

– Qardaş, kolxozun ferması bu yanda, Sulu dərədədir, bəlkə, bizi ora aparasan.

Şofer başını buladı.

– Apara bilmərəm.

– Niyə, qardaş? Pulla olan bir şey deyilmi?

– Yox, yox. Asfaltdan çıxa bilmərəm. Astarı üzündən baha başa gəlir.

– Hə. Astarın-üzün qiymətini yaxşı bilirsən. Onda saxla düşək. Belə kəsəsinə fermanın üstə enərik, – deyə Qənirə əlini qapının dəstəyinə uzatdı.

Bir azdan qarlı əkin yeri ilə bir arvadla bir kişi gedirdi. Tez-tez kələ-kötürə düşsələr də, biri-birilərinin əlindən-qolundan tuta-tuta yeyin-yeyin gedir və nəsə deyib gülürdülər.

## UŞAQLAR GÜLƏNDƏ

Qışın qarlı-boranlı günlərini arxada qoyub, bahara çatmağa az qalmış olsa da, qoca Mahalın evindən asqıraq-öskürək hələ kəsilməmişdi. Xüsusilə qocalar tez-tez xəstələnirdilər, çünki özlərinə baxa bilmirdilər. Dərdləri, azarları uşaqlar idi: əllərinə düşəni onlara verirdilər. Uşaqlar yeyəndə ağızlarına baxırdılar, elə bilirdilər özləri yeyirlər.

– Biz birtəhər keçinərik, ay qarı, – qoca Mahal payından bölüb uşaqlara verir və xahiş edirdi ki, buna görə narahat olmasın.

Xatın qarı başa salmağa çalışırdı:

– Yeməsən olmaz axı?! Üzülərsən.

– Bəs sən?! Niyə öz qeydinə qalmırsan. Azdan-çoxdan sən də ye! Hamıya pay çəkirsən, amma özünə... qazanın dibini yalandan qazıyırsan.

– Eh, nə olar qazıyanda, qorxursan toyumuzda qar yağa...

Qoca Mahal köks ötürüb deyirdi:

– Bu köpək uşaqları qoydular ki, dolanaq. Davanı başlayıb hamının başını qarışdırdılar. Toyum da yadımdan çıxıb, heç bilmirəm olub-olmayıb. İnanın ki, özüm heç yadıma düşmürəm. Uşaqların, sənin dərdini çəkirəm.

– Mən balacayam ki, dərdimi çəkirsən?!

– Qoca balacadan da betərdir, qarı. Bax, onunçun da tez-tez naxoşlayırsan.

– Heç özündən demirsən?

– Əşi, nə edək?! Əslində, ikimiz də bir gündəyik. Dönmüşük uşaqların taxta üstə yellənmələrinə. O ki bir uzun taxtanı kötüyün-daşın üstə çəpəki qoyub yellənirlər ha! Bax, biz də onlar kimi... Birimiz yatanda, birimiz dururuq.

Düzünü gəzsən, Xatın qarı qoca Mahala nisbətən bir az diribaş idi. Canı nə qədər ağrısa da, yorğan-döşəyə girməzdi. Elə onu görərdin ki, hıqqıldaya-hıqqıldaya həyət-bacada hərlənir, bayırda qalan şeyi içəri gətirir, yerinə qoyur, içərinin artıq şeyini eyvanın künc-bucağında, kirəmitli damda yerləşdirir.

– Kiş!.. Kiş!.. İçərinizə azar düşsün! – Otağa doluşan toyuq-cücəyə də acıqlanmaqdan cana doymuşdu. Qırılmışlar gününü qara eləmişdilər. Qapıdan qovub-çıxardır, pəncərədən gəlir, pəncərədən çıxardır, qapıdan girirdilər. İçəri dolan kimi gözəməninin üstünə çıxırdılar. Bunun azarından Xatın qarı daima ayaq üstə olur, çuvala keşik çəkirdi. Hələlik üyütməyə də qoymurdu. Deyirdi üyütsək, beş-on günə qurtaracağıq, birtəhər yola gedək, təzə taxıla az qalmış üyüdüb yeyərik.

Xatın qarı ailənin dolanması üçün əri qoca Mahal kimi özünü oda-közə vurmağa hazır idi. Hər cür çətinliyə qatlaşır, canına cəfa basırdı. Bu günlərdə isə çox bərk xəstələnmişdi. Gözünü aça bilmirdi, sayıqlayırdı.

Axşamçağı qarı bir az özünə gəlib gözlərini açdı, gördü başına xeyli arvad yığışıb.

– Aaz, nə xısınlaşırsınız? Yoxsa elə bilirsiniz?.. Yox!.. Yox!.. Gedənlər gələnəcən hayana ölürəm. Oğlum gəlməmiş, onun şümşad boyunu görməmiş yüz əzrayıl da üstümə düşsə, can verməræm...

Nənəsinin bu hərəkəti Elbəyin elə xoşuna gəldi ki, bilmədi nə etsin. Səsini içinə salıb bayırda qara-qorxu içərisində lal-dinməz dayanmış olsa da, indi özünə gəldi, canlandı, bədəninin üyüşüyü açıldı. Çarpayısına yaxınlaşıb gülə-gülə üzünə baxdı, bir söz deməsə də, baxışları ilə əhvalının yaxşılaşmasından sevindiyini bildirdi. Xatın qarının sağlamlığı da elə bil öz əlində imiş. «Hayana ölürəm?! Gedənlər gələnəcən ölməyəcəyəm!» Elə inamla, qətiyyətlə dedi ki, Elbəy tamam əmin oldu ki, ona heç bir şey olası deyil. Həqiqətən, elə o gündən qarı get-gedə yaxşılaşmağa başladı və bir səhər qalın geyinib, belini-başını şallaçitlə çəkib ayağa qalxdı.

– Yox, daha dizlərim tutmur. Gözlərimə qaranlıq çökür, – deyə ondan iki-üç gün sonra dibinin torpağını sel yuyub aparmış nəhəng ağac təki qoca Mahal inildəyib yıxıldı.

Evdə heç kəs güman eləmirdi ki, babanın xəstəliyi uzun çəkə. Elə bilirdilər yenə bir-iki gün yatıb duracaq. Bu dəfə isə ailə üzvlərinin düşündüyü kimi olmadı. Necə şeydirsə kişinin ayaqları şişmişdi. Xatın qarı tez-tez yorğanın ucunu qatlayıb ərinin ayaqlarına baxırdı. Barmaqlarının ucunu ona toxunduranda elə bil kündənin üstə qoyurdu. Qoca Mahalın ayağının əti çökəlib ağarır, gecdən-gec yenə öz rənginə düşürdü. Babanın tirtap olub yorğan döşəkdə qalmağı qarını çox narahat edirdi. Çünki davanın pis vaxtı idi. Deyirdilər vuruşmalar yaxında gedir. Kəndin aralarında da xəndəklər qazırdılar. Belə bir vaxtda onun xəstələnməsi...

Bir dəfə mala ələf verəndə Xatın qarı nəvəsi Elbəyi talvarın altında saxlayıb dedi:

– İndi bu kişinin halı-günü necə olacaq, dərdin alım. Elin-günün bu ağır, çətin vaxtında...

– Necə?

– Başa düşmürsən, bala? Yəni deyirəm bu boyda kişi o çuxura girəcək?! Axı deyirlər o it uşaqları qaz buraxanda hamımız ora dolacağıq.

Elbəy babasını xəyalən gözünün qabağına gətirdi, onun da ağlı kəsmədi. Bilmədi nə cavab versin. Qarı dilləndi:

– O günü sən məktəbdə idin. Babana deyirəm, ay kişi, söylənənə görə düşmənlər bura, deyəsən, yaxınlaşırlar. İşdir gəlib çıxsalar, nə edəcəksən? Sənciyəzin dərdini çəkirəm. Baban gülür.

«Baban gülür» – deyəndə Elbəy bu söhbətlərin boş şey olduğunu düşündü. Nənəsinin bu ara ondan diqqətinin yayındığını və bu barədə ondan bir məsləhət, tədbir gözləmədiyini görüb sakitcə aralandı, talvarın üstündən götürdüyü otu qucaqlayıb axura tökməyə getdi.

Elbəy bir gün harasa getmişdi, gələndə gördü torpaq eyvanlarında toyuqlar eşələnirlər. Nənəsinin gözündən iraq. Bildi ki, evdə yoxdur. Fikirləşdi, bəlkə də, babası yatıb. Astaca yaxınlaşıb, qapını yavaşca araladı, içəri keçdi. Qoca Mahal evin ortasında ağ tuman-köynəkdə əlində tüfəng dayanmışdı. Diqqəti tüfəngə necə yönəlmişdisə, nəvəsinin evə gəldiyini də hiss eləmədi. Tüfəngin çaxmağını irəli, yerinə itələyib yana burdu, sonra silahın o üz-bu üzünə baxdı.

Elbəy birtəhər olmuşdu. Bəlkə, ona görə idi ki, babasını indiyəcən belə görməmişdi. Tüfəngi olduğunu bilirdi. Özü söyləyirdi ki, Elbəyin yaşından çox-çox qabaqlar «ətryəd» olub, qaçaqlarla vuruşub. Bu tüfəngi də o vaxtlar veriblər. Şəxsən onun adına yazıb ömürlük veriblər. Amma Elbəy babasının tüfəngi əlinə alıb, çaxmağı, patrondaşı ilə belə uşaq təki oynadığını bu vaxtadək görməmişdi. Ona da təəccüb elədi ki, babası nə əcəb ayaq üstə dayana bilib. Kündə ayaqları yerə yappalanıb qalmışdı. Əyri-üyrü barmaqları torpaqdan zəli təki yapışmışdı. Yox, qoca Mahalın hərəkətləri heç vaxt belə qəribə olmamışdı. Hətta ən yorğun, işə-gücə görə ən ağır vaxtlarında da baba belə qorxunc olmamışdı. Əksinə, kişinin üzü daim mülayim olardı. Kotanın ardınca məci tuta-tuta, ayaqları şumun kələ-kötürünə düşə-düşə gələndə də onun çöhrəsində nə isə səmimi bir ifadə gəzirdi. Babası ilə hodağa gedən Elbəyə elə gələrdi ki, o, torpağa baxa-baxa nə üçünsə gülümsəyir və sevinir. Bu ifadə daima onun üzündə olardı. Elə bil o, torpaqda nə isə görürdü. Dodaqlarını tərpətməsə də, nəvəsinə belə gəlirdi ki, o, torpaqla ürəyində nə barədəsə danışır, söhbət eləyir. Bu baxışda, bu duruşda isə onu ömründə görməmişdi. İndi açıqca gördü ki, babası özündə deyildir. Həmişə nurla dolu olan çöhrəsinin ifadəsi tamam dəyişib. Üzünə qara bir kölgə qonub və ağzı-burnu elə bil əyilib. Haçandan-haçana o tüfəngi aşağı salıb tərpətmək istədi. Lakin kündə ayaqları əsdi, titrədi. Kişi qorxdu ki, yıxılsın, tezcə tüfəngin qundağını yerə dirədi, ona dayaq dura-dura yatdığı çarpayıya yaxınlaşdı, halsız yerinə uzandı. Xırıltılı səslə:

– Qoy gəlsinlər! Qoy gəlsinlər, – dedi.

Bayaqdan heç nə başa düşməyən Elbəy səsini çıxartdı.

– Kimlər gəlsin?

– O nemeslərdir, nədir?! – Qoca Mahal qəzəblə səsini ucaltdı. – Evimdən çıxası deyiləm. Top-top olsam da, içəri girəni gözündən odduyacağam.

«Ətryəd» olmuş qoca Mahal «Odduyacağam!» – deyəndə nəvəsi ruhlandı. Babasına tam arxayın oldu ki, almanlar buralara gəlsələr, faşistlərin hamısını qıracaq. Nənəsi isə buna görə nahaq yerə narahat olurmuş. Babası çıxış yolunu tapıbmış. Bundan Elbəy elə sevindi ki, dabanı üstə geri dönüb necə bayıra atıldığını bilmədi. Yalnız onu bildi ki, qışqırıb bütün kəndə car çəkmək istəyir:

– Qorxmayın!.. Bircə qırnıx da qorxmayın. Hitlerçilər bizə bata bilməz!

* * *

Davadan qabaq bir dəfə Elbəygili məktəbdən şəhərə ekskursiyaya aparmışdılar. Sirkə gedib baxmışdılar. Burunlarının ucunda top oynadan suitiləri görəndə ağızları açıla qalmışdı. Qaçan at belində ayaq üstə duran cəld, çevik oğlan onları valeh eləmişdi. Şalvarı-pencəyi əynindən tökülüb itən yekə burun kişinin məzəli hərəkətlərinə də gülməkdən qarınlarının əti ağrımışdı. Heyvanxana da uşaqların eynən beləcə xoşlarına gəlmişdi. Xüsusilə şirləri görəndə dayanıb xeyli tamaşa eləmişdilər. Bax, boynu, üzü-gözü tüklü bir yekə şir taxta döşəmənin üstə uzanmışdı. Balaca-balaca şirlər də onun üstündən o yana-bu yana keçir, biri qarnının, biri ayağının üstündə, biri də çənəsinin altında uzanıb yatır, istədikləri yerdə arxayınca uzanırdılar. Qoca şir də heç nə eləmir, balalarının şən-şıltaq hərəkətlərindən qəti daralmırdı. Gündüzlər bir az arxayınçılıq olsa da, axşamlar qoca  Mahal şirin gününə düşürdü. Qızlarının, oğlanlarının uşaqları da yığılıb dədə-baba yurduna gəlirdi. Elbəygilə qoşulub evdə bir oyun açırdılar ki, qışqırmaqdan nənənin boğazı tutulurdu. Baba isə onların xatirinə dəymirdi. Uzandığı yerdə sinəsi üstə alıb oynadır:

– Quzu bala, yaxşı bala, – deyə onları söylədirdi. Nəvələrindən ötrü kişinin ürəyi gedirdi. Onların hamısını görməyəndə darıxırdı. Adam göndərib çağırtdırırdı.

Düzü, bəzən Xatın qarı söylənirdi.

– Qalmaqalı niyə başına yığırsan?! Qoysana hər kəs evində otura, biz də dərdimizi-sərimizi bilək.

– Sən yenə işində ol. Onların nə maneçiliyi var. – Qoca Mahal bu barədə qarısının sözünə qulaq asmaq istəmirdi.

O gün axşam qonşuları Sinə arvad da onlara gəlmişdi.

– Aaz, darıxdım, gəldim ki, bir az söhbət eləyək.

– Yaxşı eləyirsən, a bacı. Gecənin biri bir ilə dönüb. – Evin böyük gəlini olan Elbəyin anası onu xoş qarşıladı, yanında otuzdurdu. Bir çəngə pambıq gətirib qabağına qoydu. – Did!.. Əlimiz bekar dayanmasın. Ağzımız sözdə olsun, əlimiz işdə.

Çəlimsiz, qarayanız Sinə arvad pambıq götürüb didir, söhbət edə-edə çiyidini ətəyinə yığırdı. Sonra bunları peçin üstə töküb qovurdu və ağzına atıb çırtlamağa başladı. Qonaqcıl Xatın qarı qazana su töküb ocağa qoydu. Un torbasına  əl atanda məlum oldu ki, xəşil bişirir.

– Yeməyə ha gəlməmişik, ay bacı. – deyə Sinə arvad etiraz elədisə o, işindən qalmadı. Xəşil çalıb adama yağlı-bəhməzli bir qab çəkdi. Sinə arvad barmağını xəşilə bulayıb ağzına apardı. Yeyib təriflədi.

– Elə bil quymaqdır.

Qarı tərifdən açıldı.

– İnşallah quymaq da yeyərik.

– Niyə yemirik? Dava qurtarsın, kişilər gəlsin.

– Paşa dayım gələndə quymaq bişirəcəksən? – deyə, necə oldusa, Elbəy də söhbətə qarışdı.

Sinə arvad yeyə-yeyə gülümsündü.

– Paşa dayın gələndə heyvan kəsəcəm. Başına çoxlu adam yığacağam. Toy çaldıracağam. Quymağı isə doğmuş arvadlara çalarlar, dərdin alım. Bax, analar sənin kimi oğullar doğanda.

Qoca Mahal bu ara başını tərpədə-tərpədə deyirdi.

– Dünyada uşaqdan gözəl nə var?! Uşaq adamın qolu-qanadıdır. Uşaq çox böyük dövlətdir. Uşaq insanın ürəyinin yağıdır. Evin yaraşığıdır.

Gecə ağlına nə gəlmişdisə, səhəri gün qoca Mahal qarısını, gəlinini, qızlarını yanına çağırtdırb:

– Sizdən bir təvəqqem var, – dedi. – Mən öləndə üstümdə toy çaldırın. Olmaya-olmaya ağlayasınız.

– O nə sözdür, danışırsan?! – Hərə bir yerdən kişini belə bəd söz üçün qınadı. – Oğlanların gəlməmiş hayana ölürsən?!

– Ölüm haqdır. – Qoca Mahal özünü sakit tutdu, üzünü qarısına çevirdi. – Dünyanın işini nə bilmək olar, ay arvad?! Birinci ağlamayın, ona görə ki, uşaqlar qorxarlar. Onların ürəyini qana döndərməyin. İkincisi, düşmən eşidib görər ağlaşırsınız sevinər, daha da üstümüzə ayaq alar. Toy çala-çala aparıb basdırsanız, onlar da sarsılarlar, deyərlər: bunların ürəyinə bir bax!

Qoca Mahal toy deyəndə nəvəsi Elbəy davadan qabaqkı illəri xatırladı. Onda kəndlərində tez-tez toy olardı. Gündə bir evdən toy səsi gələrdi. Üç gün, üç gecə çaldıranlar olurdu. Toyun səsinə o qədər alışırdılar ki, qurtarandan sonra da nağaranın, zurnanın səsi qulaqlarından getmirdi.

Dəfçi Məmməd təkcə onların kəndində deyil, bütün obada məşhur idi. Bir nağara vurardı ki, səsi haralardan eşidilərdi. Dirədöymə, cəngi havalarında əllərini görmək mümkün deyildi. Cıdır havasını xüsusi ustalıqla çalırdı. Atlılar cıdıra çıxanda Məmməd kişi az qalardı nağaranın qabırğasını deşsin. Toy ağacını lap yuxarı qaldırır, elə bərk vururdu ki, nağaranın səsi ucadan çıxsın, gumbultusu neçə kilometrlərlə uzaqlaşıb, aralanmış atların qulağına gedib çatsın. Atlılar geri qayıdanda da uşaqlar bir yerdə rahat dayana bilmirdilər.

– Görək hansı at qabaq gələcək. – Yoluq cücə təki adamların arasından sivişib qabağa çıxır, bəzən də dama-daşa, hətta ağacların başına dırmaşırdılar.

Qoca Mahal «Mən öləndə ağlamayın, toy çalın» dedikdə nəvəsi bunları elə həsrətlə andı ki, tüstüsü təpəsindən çıxdı. Davadan qabaqkı günlər üçün darıxdı.

Bir dəfə necə oldusa Elbəy uşaqlara dedi:

– Babam deyir, mən öləndə toy çalın.

– Toy?! – Hamı təəccüblə onun üzünə baxdı.

– Hə, deyir ağlamayın, uşaqlar qorxar, – Elbəy babasının bu işdə məqsədini yoldaşlarına çatdırmağa cəhd etdi.

Uşaqlar nəsə fikrə gedib bir söz demədilər. Görünür, bu sözdən ağılları bir şey kəsmədi. Axı ölmək nə yaxşı şeydir ki, hələ ondan ötrü toy da çalasan, şənlik edəsən.

Elbəy səhər dəfçi Məmmədin oğlunu gördü. Dünən babasının vəsiyyətini uşaqlara deyəndə o da orada idi. Elbəyi görcək başını bulayıb, qəmli-qəmli dedi:

– Ayə, deyəsən, baban öləcək.

Elə bil Elbəyi ildırım vurdu. Necə yəni «baban öləcək». Az qaldı oğlanın xirtdəyindən tutub boğsun.

– Bu gecə qəribə yuxu görmüşəm. Deyirəm, bəlkə, dünənki söhbətindir.

– Nə görübsən?

– Gördüm toy çalıram. Amma elə böyük nağara idi ki, ömrümdə eləsini görməmişdim. Bax, ağacları da ona binəm idi. Gördüm yerə qoyub çalıram. Səsi bilirsən hara gedib çıxırdı? Dünyanın o başına! Səsini eşidən qaçıb gəlirdi, görsün necə olan şeydir. Hamı baxıb məəttəl qalırdı. Mən də daha bərk çalırdım. Bir də oyanıb gördüm heç nə yoxdur.

Sayad son cümləsini elə təəssüflə dedi ki, toy üçün Elbəyin də ürəyi əsdi:

– Kaş bu, həqiqət olaydı, – dedi.

O bilirdi ki, Sayaddan olsa səhərdən axşamadək nağara çalardı. O buna, toyun, zurnanın səsinə balacalıqdan öyrənmişdi. Elbəy bunu onun özündən eşitmişdi ki, anadan olub dünya üzünə gələndə ilk dəfə toy səsi eşidib. Anasının uşağı olmurmuş. Nəhayət, o olanda, arvadlar atasını muştuluqlayanda kişi sevindiyindən bilmirdi nə etsin. Nəməri verib nağaranı götürür. Elə o axşam məclis qurub toy çaldırır. Guya Sayad toyun səsinə bu vaxtdan alışır. Söyləyirdilər ki, hələ bələkdə olanda nağaradan ötrü yüz cür oyun çıxardırmış. Toy səsini eşitdimi, qolu-qıçı bağlı olsa da, yay təkin dartınıb-açılır, dikəlməyə çalışır, yerində qımır-qımır qımıldayırmış. Böyüdükcə toya olan həvəsi artır. Bir dımbıltı eşitdimi, oğlan dingir-dingir dingildəyərmiş. İpdə-sapda durmurmuş. Əllərini qoşalama uzadıb nağaranı tutmaq istəyirmiş.

– Eyyy, qollarımı qırdın, yeri get! – deyə anası axırda onun əziyyətinə dözə bilməyib uşağı qucağından yerə düşürürmüş. Sayad iməkləyə-iməkləyə irəli cumanda atası qabağına gəlib aşağı əyilərmiş.

– Ala!.. Ala!.. – deyə nağaranı onun qabağına tutanda balaca Sayad atasının qolundan, qıçından tutub day durar, topuş bədənini nağaranın üstə yıxıb qucaqlayarmış. Qucağına sığmasa da, tutmağa çalışarmış.

Bir az böyüyəndən sonra Sayad toy çalınan kimi təklifsiz-filansız, baldırı-başı açıq ortalığa çıxıb süzürmüş. Sayad toy-zurnanın bu vaxtlardan dəlisi olmuşdu.

Bunları Elbəy xəyalından keçirə-keçirə Sayadı intizar içərisində dinləyərək:

– Yox, babam ölməyəcək! – deyə yuxunu başqa cür yozdu. – Babam deyir uşaqlar ağlamayıb şənlik edəndə düşmən korlanır. Sarsılıb qüvvəsi azalır.

– Doğrudan? – Sayad dərin bir maraqla Elbəyin üzünə baxdı. Elbəy də inamla dilləndi:

– Bəs necə?! Bax, görürsən sənin də yuxuda çaldığın nağaranın səsi dünyanın lap o başında eşidilirmiş.

– İndi o boyda nağaranı haradan tapasan ki, səsi dünyanın o başında eşidilə, – deyə Sayad əllərini açdı.

Elbəy dodağını çeynədi: o bunları bilirdi. Ancaq babasının xəstəliyi onu necə çaşdırmışdısa, elə bil danışığından xəbəri yox idi.

– Nə bilim, babamın sözüdür, – deyə Elbəy çevrilib qəmli-qəmli evlərinə sarı getdi. Evə gələndə gördü kolxoz sədri babasına dəyməyə gəlib, oturub şirin-şirin söhbət edirlər...

Kolxozun iş-gücündən, əkin-biçinindən danışan Səlimxan kişi durub getməyə yaxın dedi:

– Görürsən nə qədər işlərimiz var, qoca?! Ölmək vaxtı deyil, ayağını yerə bərk bas.

Sədrin babasına dediyi bu sözlərdən Elbəyin xoşu gəldi. Hətta bu fikirdə oldu ki, Səlimxan kişi ki, dedi, demək, babası ölməyəcəkdir. Çünki Elbəy bilirdi ki, Səlimxan kişinin sözü daşdan keçir. Elbəy bilirdi ki, Cıdırlıda Səlimxan kişinin bir sözünü iki eləyən yoxdur.

– Mən gedim, amma Mahal kişi, – sədr ayağa qalxdı, ətli barmaqlarını toqqasının uclarında qayışının altına salıb, qalifeyi şalvarının üstündən buraxdığı şal köynəyini geri, belinə sarı sığalladı, – sən də danışdığımız kimi ayağını yerə bərk-bərk bas. Kolxozdan da bir şey lazım olsa, adam göndər yanıma gəlsin.

– Yaxşı, a Səlimxan, ömrün uzun olsun. – Az qala külfət taxtı ilə bir olan qoca Mahal üz-gözünü, tük-saqqal basmış başını tərpətdi və əllərini yanlara verib bədənini yuxarı dartdı.

Bayaqdan babası ilə sədrin söhbətini dinləyən Elbəyə elə gəldi ki, məsələ daha tamamilə həll olundu. Qəmdən, qayğıdan azad olduğu üçün durub sevincək eşiyə qaçdı. Həyətə çıxanda qulaqlarına inana bilmədi. Kəndin yuxarı başından daramhadaram toy səsi gəlirdi. Bunu çalan kim idi, nə münasibətlə çalırdılar.

Bəlkə də, qulağı səsə düşüb. Oğlan özünü itirmiş vəziyyətdə bir anlığa yerindəcə donub qaldı. Bilmədi bu nə olan şeydir. Həqiqətən, toy çalındığını yəqin etcək isə oğlanın donu birdən açıldı. Gülümsünüb yerindən götürüldü, səs gələn səmtə tərəf qaçdı. Bilirdi ki, Sayadın işidir. Yəqin, Elbəylə söhbətindən sonra nə fikirləşibsə, nəhayət, bu qərara gəlib. Bəs anasından qorxmurmu? Eşitmişdi ki, bir dəfə Sayad uşaqları öz evlərinə yığıb toy çalırmış. Anası da evdə yoxmuş. Qəfildən anası içəri girir.

– Ədə, bu nə hoqqadır açırsan, camaatın bu qəmli-qayğılı vaxtında kefin gəlib?!

Sayad görür işi fırıqdır, anası döyəcək. Tez böyürdən sivişib özünü bayıra atır. Qaçanda necə olursa, nağara qoltuğundan düşür, evləri dikdə olduğundan üzü aşağı dığırlanır. Oğlan təntiyir, bilmir nə etsin. Əlbəttə, Sayad bilsə idi ki, nağara əlindən düşəcək, anası onu döysə də, qaçmazdı. Təki onun sevdiyi çalğı aləti, atasının yadigarı əvvəlki tək təptəzə olsun, hərdən onun qəmini, qayğısını dağıdan bu aləti daşa-kəsəyə dəyib, ağac-uğaca ilişib cırılsa, əzilsə, Sayad dəli olardı. Hərdən həvəsə düşüb nağaraya əl vuranda dımbıltısından köksünün altında ürəyi oynayır, özünün də, başına yığılanların da qəmi-qayğısı dağılırdı. Odur ki, nağara əlindən düşüb dığırlananda Sayad az qaldı iki əlli dizlərinə vurub ağlasın. Sonra ləngiməyib nağaranın ardınca qaçır. Xoşbəxtlikdən nağara nəyəsə ilişib qalır. Sayad yüyürüb götürür. Bir şey olmayıb. Yenə gözünə inanmayıb qoltuğuna basır. Çalır ki, görsün səsi əvvəlki tək çıxırmı. Dambudu!.. Dambudu!..

– Ana, ana, heç nə olmayıb.

– Dayan!.. Dayan!.. Sənin ciyərini çıxardacam! – deyə əsəbiləşən anası yetirib onu döyür, nağaranı da dartıb əlindən alır.

Elbəy bu fikirlə yüyürüb kəndin başına çatanda gördü uşaqlar bir təpənin döşünə çəkilib toy çalıb oynayırlar. Ayaqyalın, başı açıq bir dəstə uşaq halqa vurub böyük bir dairə əmələ gətirib. İki cındır uşaq ortalığa çıxıb süzür.

Elbəyin dodaqları qaçdı. Sevincək onların yanına gəldi. Əlini o cibinə, bu cibinə salıb nəsə bir parça kağız tapdı, onu tezcə xırda-xırda kəsib, guya puldur, oynayanlara uzatdı.

Sayad şən-şən ona göz vurub atası dəfçi Məmməd təki kişi-kişi səsləndi.

– Sağ olsun Elbəy!..

– Yaşasın Elbəy!..

O belə deyib gücü çatdıqca nağaranı elə döyəcləyirdi ki, səsi dünyanın o başında eşidilsin. Eşidib bilsinlər ki, bunlar qoçaq uşaqlardır. Heç nədən qorxmurlar.

Evə gələndə Elbəy gözlərinə inanmadı. Yorğan-döşəkdə qoyub getdiyi babası durub geyinib, peçin böyründə oturur. Sən demə, toyun səsini eşidib qalxıbmış,

pəncərəyə yaxın gəlib qulaq asırmış. Babasının ayağa qalxa bilməsindən Elbəy elə sevindi ki, bilmədi nə etsin. İstəkli babasının boynundan qucaqlayıb kövrəldi. Titrək səslə:

– Ölmə, baba, ölmə! – dedi.

Qoca Mahal da özünü saxlaya bilmədi, gözləri yaşardı. Nəvəsinin alnından öpdü, uşağı isə kövrəldib ağlatmamaq üçün toxtaq-toxtaq:

– Ağlın haradadır, ay saqqalı ağarmış, – dedi, – sənin kimi nəvəsi olan baba da ölərmi?

Bir neçə gün sonra hamı bir yerə toplaşıb qəzetdən oxudular ki, bizim qəhrəman soldatlar faşistləri qabaqlarına salıb qovurlar. Bu şad xəbərdən daha da ürəyi açılıb, əhvalı yaxşılaşan qoca Mahal gülə-gülə nəvəsinə dedi:

– Gördün, sözümüz düz çıxdı. Mən ki sənə deyirdim  kişi ağlamaz. Danışar, gülər, şənlik edər.

– Onda düşmən korlanar, qüvvəsi azalar, – deyə nəvəsi Elbəy qoca Mahalın sözünü tamamladı...

## HƏR KƏSİN ÖZ ADI

Kəndimizin yanından keçən yolu təmir edirdik. Çökəklərə daş düzür, hamarlayır, üstündən qır basırdıq. Təmir olunan sahənin o başbu başına yolun bağlılığını göstərən nişan qoymuşduq. Günortaçağı gördük aşağıdan bir maşın gəlir.

Qabağına durub maşını saxlatdım.

– Ayə, a yoldaş, görmürsən, yol bağlıdır?

– Nə olsun bağlıdır?! – deyə hələ bir tutduğu işdən utanmayan sürücü mənə yekəxana-yekəxana cavab qaytardı. Daha beləsinə nə deyəsən. Camaatın qabağında abırını almaq istədim. Qoymadılar.

– Bu dəfə get! Amma bir də yolu xarab eləsən, camaatın əməyini korlasan, məndən küsmə, – deyə ciddi xəbərdarlıq etdim.

– Bilmirəm kimə güvənirsən, kimin yelinə uçursan. Bir gün səndən xəbər alaram, – deyə şofer donquldana-donquldana maşını işə saldı.

Onun bu sözü ürəyimə dəysə də, dillənib bir şey demədim.

Bir dəfə də... mebel almışdım, maşını həyətə sürdürüb boşaldırdıq. Nişanatoya xərc-xəracatımız çox çıxsa da, hər halda bu da lazım idi. Anam deyirdi ki, boş evə gəlin gətirmək yaxşı deyil.

– Mübarəkdir! Sağlığına qismət olsun, – deyə qonum-qonşu tökülüb gəldi, hərə bir şeyin qulpundan tutdu. Eşitdim deyirlər:

– Halal olsun direktora, qızına qurulu ev verir.

Dayana bilməyib gülə-gülə cavablarını qaytardım:

– A kişi, öz əlimin əməyi ilə almışam.

Üzümə baxıb qımışdılar ki, yalan deyirsən.

Bu danışdıqlarımdan bir neçə gün sonra işdən evə gedirdim. Möhkəm yağış yağmışdı. Yol palçıqlı idi. Bulaqdan ayağı sürüşə-sürüşə bir arvad gəlirdi. Çiynində dolu səhəng, qabağımı ərklə kəsib dedi:

– Özün də yol mühəndisisən, dərdin alım. Bu çal-çamırdan canımız nə vaxt qurtaracaq?

Düşündüm ki, düz deyir, niyə düzəltmirik, kimi gözləyirik? Səhəri direktorun yanına getdim. Qayınatam olsa da, rəsmi danışdım.

– Mənim özümün işçiyə ehtiyacım var. Fermanın tikintisi yarımçıq qalıb. Sənə hardan kömək edə bilərəm.

– Bu da vacibdir, – deyə təşəbbüsümün vacibliyini bildirdimsə də, yenə bir şey çıxmadı.

Amma dediyimi elədim. Sağ olsunlar iş yoldaşlarım, yaxşı kömək etdilər. Xüsusilə yol maşınlarının şoferləri bir sözümü iki eləmədilər. Neçə gün işdən sonra qalıb çaylaqdan daş-qum daşıyıb kəndin arasına tökdülər. Hələ məktəbin qabağını da bir ala-babat düzəltdik.

– Sağ olsun!.. Bizim direktorumuzdan olmaz, – deyə bu işdə də onun adını tutdular.

O gün də rayon mərkəzinə getmişdim. Yol idarəsində bir-iki xırda-para işim var idi, danışıb həll elədim. Oradan çıxanda ağlıma nə yerləşdisə, dərziyə gedib özüm üçün yaxşı bir kostyum sifariş etdim. «Şalvarın balağını azacıq enli eləyin», – dedim. Pencəyin yanlarına iki kəsik qoymağı tapşırdım. Xülasə, necə demişdimsə, kostyumu eləcə də bircə həftəyə tikib hazır elədilər. Geyinib kəndə gəldim.

– Əla kostyumdur, sağlıqla geyəsən.

– Sağ olun, – deyə cibimdən çıxarıb hərəsinə şirinlik bir konfet verdim.

Birinin də ucundan özüm dişləyirdim ki, çiynimə zarafatla yumruq ilişdi.

– Bura bax, nə olar, kişiyə de, bu parçadan bizim üçün də tapsın. Bir də ustasına desin ki, bunlar da öz adamımızdır...

Lap yanıb-töküldüm.

– Əşi, – dedim, – bəlkə, mən sabah kosmosa uçacağam, onda da bu kişi...

– Ə, bəs nə?! – deyə yoldaşlarımdan biri əlini mənə sarı uzatdı. – Bir səbəb olmasa, kimdir səni kosmosa göndərən...

– Bah atonnan! – Əlimi-əlimə vurdum. Gördüm heç kəsi başa sala bilməyəcəyəm. Daha danışmadım. «Ürəklərindən nə keçir, qoy söyləsinlər».

Srağagün isə kəndimizdə toy var idi. Qonşumuzun qızını köçürürdülər. Bir az gecikmiş olsam da, durub getdim.

– Buyur, buyur, – deyə məni çox hərarətlə qarşıladılar.

Dərhal da sağlığıma badə qaldırdılar:

– Gəlin içək hörmətli direktorumuzun hörmətli kürəkəninin sağlığına!..

– İçək, içək! – Hərə bir yerdən qədəhini mənə sarı uzatdı.

İstədim deyəm: «Allah sizə insaf versin, qoysanız bir tikə çörək yeyək». Ancaq susdum.

– Sağ olun, – deyə badəmi yuxarı tutdum.

Nə qədər içdiyimi bilmirəm. Onu bilirəm ki, nə süzürdülər içirdim. Əlimi stola vurub sağlıq demək üçün səndələyə-səndələyə ayağa qalxdığımı da bilmirəm. Səhər söylədilər ki, məclisdə əlimi yelləyib yersiz sözlər danışmışam.

– Hamınıza kostyum tikdirəcəm. Tamada, sənin üçün də... kost...yum. A qayınata, sən də raz...merin de... içək hamınızın sağlığına!..

## ZOOPARKDAN PƏLƏNG QAÇIB

Bir dəfə söhbət əsnasında dostum dedi ki, əşi, nə vaxtadək eyni yerdə, aşağı vəzifədə külüng vuracaqsan? Çalış, yaxşı bir vəzifə tut, gör işin necə «xod» gedir.

Güldüm. Dinmədim.

– Yalan deyirəmsə, bax, bu ölsün! – deyə dostum əlini şappıltı ilə üzünə vurdu. – Adə, bil, hər şeyi vəzifə həll edir. O ki, qaldı gerisinə, mütləq parlayacaqsan, istedadın da fontan vuracaq. Talantının lap apogeyinə qalxacaqsan.

– Tutaq ki, sən deyəndir. İndi gedib mən kimə nə...

– Elə yox! – Dostum məni təlimatlandırmağa başladı. – Elə etsən, olan-qalan hörmətini də itirərsən. Deyərlər, vəzifəpərəstdir. Ancaq bu yerdə də qaxılıb qalma ki, altından qara su çıxsın. Sabahda-zadda özünü ora-bura vur.

– Hara?

– Kinoya, teatra, konsertə, yas yerinə, bulvara...

– Bəyəm vəzifə paylayırlar bulvarda?

– Yox ey! – dilini-sirrini başa düşməməyimdən əsəbiləşən dostum məni qıyqacı süzdü. – Təsadüfən birinə rast gələrsən, yaxınlaşıb salam verərsən, söhbətə tutarsan, bəlkə, birinin səndən xoşu gəldi. Nə olub, qənfet kimi oğlansan. Götürüb...

Ağlımı oğurlatdım. Səhəri gün işə gəlcək ağzıma bir-iki tikə çörək alıb bulvara qaçdım. Dəniz havası dərmandır deyirlər. Böyük vəzifəli adamlar da hər halda dəniz kənarına çıxmamış olmazlar. İşləri bir azca hava korlayırdı. Külək adam yıxırdı. Bulvarı xeyli ölçdüm, ayaqlarım döyənək oldu. Dostum deyən vəzifəli şəxs gözümə dəymədi ki, dəymədi. Yorulub bir skamyada əyləşdim. Plaşımın boynunu yuxarı qaldırıb, şlyapamı yanpörtü gözümün üstə basdım. Elə bu vaxt əhli-kefin biri əlini havada oynada-oynada mənə yanaşdı.

– Bacıoğlu, – dedi, – gözləyirsən gəlmir, hə?!

«Rəhmətliyin oğlu. Gəlməyən başqa şeydir. Sən nədən danışırsan?! Bu saat vəzifədən ötrü sinov gedirəm. Gözümə başqa şey görünmür».

Ürəyimdən keçəni nə bilsin. Gördü dillənmirəm, pəsdən oxuya-oxuya yanımdan ötüb keçdi.

*«Nazlı yarım gecə gəldi, gecə getdi.*
*Heç bilmirəm necə gəldi, necə getdi»*

– Ay səni yar öldürsün! Gör bir nəyin fikrini çəkir, – deyə üzümü ondan çevirdim.

Fikir-xəyal dəryasına qərq olub, bulvarda küləyin qabağında nə qədər oturduğumu bilmirəm. Çiynimə bir əl dəydi. Qanrılanda gördüm üç-dörd uşaq:

– Əmican, qalmağa yerin yoxdur? Bu soyuq havada...

Balacaların qayğıkeşliyi məni kövrəltdi. İstədim deyəm: «Var, oğlum. Evim, arvadım... Hamısı var. Ancaq vəzifəm yoxdur».

«Mən görə narahat olmayın» – deyib uşaqları xoşluqla yola saldım.

Bir dəfə də bilet alıb operaya getdim. Girəcəkdə ayaq saxladım ki, hamı buradan gəlib keçir, münasib yerdir. Bileti yoxlayan kişi dedi:

– A yoldaş, yoxsa biletiniz yoxdur? Kassaya müraciət edin...

«Bu da danışdı da! Bilet nə olan şeydir ki, onun üçün boynumu büküm... Özgə dərdin azarını çəkirəm. Vəzifəm olsa, buralara gələndə heç biletimə də baxmayıb buyur-buyurla içəri dəvət edərsiniz, aparıb lap lojada əyləşdirərsiniz».

Biletimi göstərib içəri keçdim.

Tamaşa zamanı yerimdə rahat otura bilmirdim. Gözüm lojalarda qalmışdı. Fasilədə proqram çap olunmuş kağızla üzümü yelləyə-yelləyə foyeyə çıxdım. Sonra da... Lojaların həndəvərində hərləndim. Qabağıma qəfildən şux geyinmiş bir gənc çıxdı:

– Nə axtarırsınız, yoldaş?

– Vəzifə.

– Nə?..

...Söz patrondan da betərdir. Çaşıb tətiyə toxundun, gedəsidir. Qaldım nə deyim.

– Əşi, bizim tanış bir qız var, adı Vəzifə... Onu axtarıram.

Bir axşam isə küçədə bir nəfəri vəzifəli şəxsə oxşadıb ardına düşdüm. Nəhayət, çatıb təzim etdim:

– Salaməleyküm!

– Əleyküməsəlam!

– Necəsiniz, Qərib Qasanoviç!

Kişinin enli sifəti qəribə bir gülüşlə doldu.

– Səhv edirsiniz... mən Əbdül Əli oğluyam.

Pərtliyimdən gəzməyə də həvəsim qalmadı. Küçədə rəngli skamyaların birində əyləşdim.

Səhər obaşdan isə bir bağda idim. Vəzifə azarı məni necə hala salmışdısa, gecələr yuxu da yatmırdım. Çıxmışdım ki, hava alım, həm də görüm nə tədbir tökürəm.

Səhərə qalmış ay göyün qübbəsinə qalxmışdı. Bax, onun orbitində yerdən olan ən uzaq nöqtəsinə apogey deyilir. Mən də ay təki istedadımın ən ucuz zirvəsinə...

«Ah, bircə əlimə vəzifə keçirə bilsəydim!»

Bu fikirlə bağda yavaş-yavaş gəzişirdim. Birdən qabağımda yolun üstə kolkosluğun tərpəndiyini gördüm. Sarmaşıqlığın arasından nəhəng bir canlı çıxırdı. Birinci ağlıma gələn pələng oldu. Zooparka yaxın bağda daha nə olası idi?! O dəfə də zooparkdan iki pələng qaçmışdı. Bütün şəhər bir-birinə dəymişdi. Riskə getmək istəmədim. Yüyürüb ağaca dırmaşdım. Tarzantək budaqdan-budağa tullandım. Budağın necə qırıldığını bilmədim. Əlli-ayaqlı yerə gəldim. Bir heyvərə küçə iti də məndən qorxub geri qaçdı...

O gün sürünə-sürünə zorla işə getdim. Məni vəzifə azarına salıb işimdən-gücümdən eyləyən dostumu qınaya-qınaya ürəyimdə deyirdim: «Sənin o vəzifən qara gəlsin, belə dost. Gözüm elə qorxub ki, neçə ildən bəri öyrəşdiyim o balaca stola yaxınlaşmağa da ehtiyat eləyirəm. Elə bilirəm kətilin də altında pələng yatıb».

## KİŞİNİN OĞLU

Təhməz Bəhməzli qonağı özü-öz əli ilə yedirib içirtsə də, gözlərinə inana bilmirdi ki, bir vaxtlar qəbul otağında saatlarla boyun büküdüyü kişinin oğlu onun şəxsi qonağıdır. Özündə buna qənaəti hasil etmək üçünmü, yoxsa kiminlə oturub-durduğunu yaman gözlərə dürtməkdən ötrümü yanına salıb şəhərin tünlüklü yerlərini dönə-dönə gəzdirmişdi. Növbə kəndə çatmışdı. Yaxşı da fürsət düşmüşdü: qohumlardan birinin toyu idi. Kənd görüşləri çox xoşuna gəldi. Onun özünə bir əllərini uzatdıqları halda, kişinin oğlunun əlini iki əlli sıxırdılar. Təhməzin bu zaman elə bil dodaqlarını qayçı ilə halqalama kəsib götürmüşdülər. Fərəhindən dişləri ağara qalmışdı.

Amma yanlarına o qədər gəlib-gedən oldu ki, Bəhməzli axşama yaxın yoruldu. Bəlkə də, yorulmamışdı. Bunu bəhanə edirdi. Bəzi məsələləri əziz qonağının yanında danışmağı lazım bilmirdi. Onu yatağa uzadıb, öz təşkilatçılıq məsələləri ilə məşğul olmaq istəyirdi. Birdən toy başlananda adamlar xəbərsiz olub, kişinin oğlunu masabəyinin yanından durquzmaq istəyərlər, birdən uşaq bilib ona alma uzadarlar.

Axşam çalğı başlanandan bir qədər sonra hörmətli qonaqları ayırıb, ikinci mərtəbəyə dəvət etdilər. Burada fəxri stol açılmışdı. İynə atsaydın, beşulduz konyakın, qırmızı şampanın, qızarmış çolpanın əlindən yerə düşməzdi. Qonaq məclisdəkiləri yaxşı tanımadığına görəmi, yoxsa onlara nisbətən çox cavan olduğu üçünmü danışıb eləmir, sakitcə yeyir, sakitcə də qədəhini boşaldırdı. Bəhməzli isə yemək-içməkdən qalsa da, əlavəsiz bir sağlıq da keçirmirdi. Əlavələrin də hamısını açıq və ya üstüörtülü sədaqət, vəfa, etibarla, ağılın yaşda yox, başda olması ilə bağlayırdı. Nəhayət, masabəyi him-cimlə anladı və qonağın ünvanına xüsusi sağlıq dedi.

Məclisin çox qızğın bir yerində masabəyi yenə ayağa qalxdı, növbəti sağlığını dedi, uzun danışsa da, qısası bu oldu ki, qonaq bizim əzizimiz, iki gözümüzdür.

– İçək!.. Sağ olsun qonaq-qardaş! – deyə adamlar ordan-burdan ayağa qalxıb badələrini Bəhməzliyə və onun əziz qonağına sarı uzatdılar.

Bəhməzli özündən çox razı halda gülümsəyərək ayağa qalxdı, əlində badə nəzərlərini qonağın üzünə dikib nə isə fikirləşdi. Sonra dedi:

– Yoldaşlar, mənim bir əlavəm də var.

– Buyurun, eşidirik, – deyə ordan-burdan dilləndilər. Bəhməzli udqunub sözə başladı:

– Deyirəm, həm də içək özü aramızda olmasa da, ürəyi bizimlə olan kişinin sağlığına.

Yan-yerdən onun sözünə qüvvət verdilər.

– İçək! İçək!

– Təvəqqe edirəm bu sağlığa ayağa qalxıb içəsiniz. Özü də Məmməd qağanın oğlundan xahiş edək bizim sözlərimizi eyni ilə atasına yetirsin.

Hamı tikəsini, qismətini qabağındakı qaba salıb, yarıkönül ayağa duranda, Bəhməzli gözlərini əziz qonağının üzünə zillədi. Bir söz deməsə də, duruşu, baxışı bütün istəyini ifadə edirdi. Bununla bildirmək istəyirdi ki, yaxşı bax, gör dədəyin şərəfinə nələr edirəm... Soldat kimi boyun-boyuna verib ayaq üstə qalmış bu adamların cərgəsi gözlərinin qabağından getməsin. Bunu beləcə dədənə nəql edərsən. Deyərsən ki, sənin bir həqiqi dostun varsa, o da...

Qədəhini başına qaldırıb içmək istəyirdi ki, bir də gördü bu qədər ayaq üstə qalmış adamın içərisində tək bircə nəfər yerindən durmayıb. Başını stolun üstə əyib yeyir. Bu, Bəhməzlinin xatirinə dəydi. Fikirləşdi ki, saymamazlıq edir. Bəhməzli özündən çıxıb onu ləqəbi ilə çağırdı.

– Ayə, kefkom!

– Nədir, dərdin alım? – deyə o, başını qaldırdı.

Bəhməzli əli ilə məclisi göstərdi.

– Bu işlərin sənə dəxli yoxdur?

– Niyə yoxdur? Sözsüz...

– Bəs orada nə qayırırsan?

– Çörək yeyirəm.

– Axı biz ağzımızda qızıl kimi söz danışırıq. Sağlıq deyirik. Xalqımızın adət-ənənəsi var, böyük-kiçik var, sənsə...

– Əşşi, mən içdiyimi içirəm, siz işinizdə olun, – deyə o etiraz etdi.

Bu dəfə Bəhməzli ərklə dedi:

– Ə, dur ayağa, Mamed qağanın sağlığına içirik.

– O kimdir?

Bəhməzli tamam hövsələdən çıxdı.

– Mamed qağanı tanımırsan?

– Başın haqqı tanımıram.

Bəhməzli qonağın atasını müzakirəyə qoyduğundan ehtiyat etdi. «Sabah qayıdıb bunları bircə-bircə dədəsinin ovcuna qoysa, necə olar?!»

Bu anda gənc qonaq cərgədən çıxıb oturan kişinin yanına gəldi.

Məclis quruyub qaldı. Hamı gözləyirdi ki, cavan oğlan yaxasından yapışıb onu yerindən qaldıracaq və... Cavan oğlan əlindəki qədəhi ehmalca kişinin gözü önünə gətirib, sakitcə dedi:

– İçirəm sizin sağlığınıza. Tanımasam içməzdim, əmi can.

## BİZ ERKƏN OYANIRIQ

O, stadionu dolanaraq, hər dəfə gəlib qarşımdan keçdikcə marağım daha da artırdı. Elə bil ayın üstündə yüyürürdü. Qu tükü kimi yüngül idi, sanki qaçmır, havada uçurdu. Qolları – ağ göyərçin qanadına oxşar qolları gah irəli, gah da geri açılırdı.

«Gözəl qızdır», – öz-özümə danışdım. Elə bunu dediyimi gördüm, ayağımın burnunda çömbəlib dayanmış Topuş yerindən götürüldü. Dəli olmadımmı?! «Yoxsa ona hürmək istəyir?» Mən müəyyən bir fikrə gələnədək Topuş qıza çatdı və ona qoşulub stadionda qaçmağa başladı. Qız da baxıb bir söz demədi.

«Sümsüklüyünü yenə göstərdi, – ürəyimdə deyindim, uşaqlar elə sənə yaxşı ad qoyublar: «Sümsük...»

O gün də stadionda itlərin yarışı vardı. Döşü nişanlı, medallı o qədər it gətirmişdilər ki, adam baxanda məəttəl qalırdı. Mənim Topuşum da ağzını açıb ləhləyə-ləhləyə gah o itə, gah bu itə baxır, elə bil bu qədər nişanı-medalı hardan aldıqlarını bilmək istəyirdi. Onlar Topuşa məhəl qoymurdular. Bir boz canavara oxşayanı vardı, heç Topuşa baxmadı ha! Hələ o qara it! Elə bil qatrana salıb çıxarmışdılar. Uzun ayaqları, uzun boyu vardı. Sıçrasa, göydə quşu tutardı. Bunların yanında Topuş nə idi! Bir balaca təpinsələr, «Sümsük» qaçıb gizlənməyə siçan yuvasını satın alardı. Amma yarışa gələn itlərin arasında balacaları da vardı. Əlinə alıb bükələsən lap yumruq boyda olardı. Ancaq balacalıqlarına nə baxırsan, onların da medalları vardı, yeriyəndə cink-cink cingildəyirdi. Özləri də yüz cür oyun çıxarda bilirdilər. Əllərini qaldırıb dal ayaqlarının üstündə elə yeriyirdilər ki, gülməkən camaat uğunub gedirdi.

Mənim küçüyüm elə baxırdı ki, deyirdin bu dəqiqə o da atdanıb tamaşaçıların qabağına çıxacaq. Yarışın bir yerində Topuş lap ağ elədi. Növbəti nömrə belə idi ki, guya, sərhəd stadiondan keçirdi, əyninə sırıqlı geyinmiş bir nəfər də sərhədi pozurdu, «casus» idi. Gözünə döndüyüm it o dəqiqə duyuq düşüb «casusu» yaxaladı. Döşü ilə vurub yıxdı.

– Hə, gözlərinə su ver, yaxşı bax! – deyə mən yanımda dayanmış Topuşa baxanda o, ağzını ayırıb ulayırdı. Yan-yörədəki adamlar ona gülüşdülər. Mən də boynunun ardına bir yumruq ilişdirdim: kiri, başı batmış!..

«Bəlkə, indi haman itlərin oyununu çıxardır, – deyə idmançı qızın yanına düşüb stadiona qaçan küçüyümə baxa-baxa fikirləşdim. – Yaxşı olmadı, sümsük

məni tanımadığım bir adamın yanında biabır elədi. Burada elə bir şey olmasa da, hər halda, yaxşı deyil. Bəlkə, elə bu qızın itdən acığı gəlir. Heç olmasa gedim, üzrxahlıq eləyim, heyvandır, nə qanır».

Qız fırlanıb bərabərimdən keçəndə muşqurub küçüyü yanıma çağırdım, ona acıqlandım. Yaxşı... sənin belini sındırmaq mənə borc olsun!

Qız bir də hərlənib gələndə onun qabağına getdim:

– Bağışlayın, – utana-utana qıza müraciət elədim.

Deynən idmançı qız heç bəri baxdımı! Bayaqkı təki qollarını ata-ata çıxıb getdi. Düzü, pərt oldum. Qəşəng qız olsa da, mədəniyyətdən, qanacaqdan uzaq olduğunu düşündüm. Qayıdıb kənarda, bir skamyada oturdum. Qız tərəfə heç baxmaq istəmədim. Sonra fikir elədim ki, yəqin, qız məni eşitməyib. Durub qızın qarşısına bir də getdim:

– Bağışlayın, xanım qız, bayaq heç yaxşı olmadı.

– Nə olub? – Qız yavaşıdı, heyrətlə üzümə baxıb məni dinləmək istəsə də, dayanmayıb əlləri döşündə yan-yörəmdə fırlandı.

Mən asta-asta dedim:

– Bilirsinizmi... küçük, deyəsən, bir az maneçilik törətdi. Düzü, mən bayaqdan pərtəm, başa düşürəm ki, yaxşı olmadı. Birdən ağlınıza gələr ki, küçüyü mən öyrədib göndərmişəm.

– Siz ona görəmi narahat olursunuz? – Qız dövrəmdə fırlana-fırlana məni süzüb, deyəsən, belə düşük-düşük danışdığıma görə gülümsədi. – Heyvandır, yəqin, birdən onun könlünə qaçmaq düşüb.

– Əlbəttə!.. Əlbəttə!.. – deyə qızın sözünü təsdiq etdim.

– Boş şeydir. Mən incimirəm, – qız əlini yelləyib qaçdığı səmtə yönəldi.

Elə deyil ki, qız qəhətliyi olsun. Bizim şəhərdə gözəl-göyçək qızlar çoxdur. Əl oyunları meydançalarına getsən, bilməzsən hansı qızı sevəsən. Buna görə də qız komandaları arasında oğlanlar sərçə təki toplaşırlar. Amma bu səhər gördüyüm qız nədənsə daha çox xoşuma gəlmişdi. Tən-dürüst bədəni, qaçdıqca kürəyində sığal çəkə-çəkə yellətdiyi saçları, yumşaq hərəkəti gözümün qabağından getmirdi.

Bəlkə, elə buna görə səhər evdə bir xeyli işləyib dincəlmək üçün yenə də stadiona gəldim. Stadiona çatanda gördüm Topuş da ardımca düşüb gəlib. Bir istədim acıqlanıb qaytaram, sonra qıymadım. Babam sağlığında Topuşu həmişə özü ilə gəzməyə çıxarırdı.

– Gəl, Topuş, gəl, – deyə onu daha da həvəsləndirirdim.

Küçük elə bil bu sözümə bənd idi. Ürəyimin kövrəkliyini hiss edib o dəqiqə qabağa qaçdı, oyan-buyana yüyürdü. Mən də bir az qabağa getdim, gördüm haman qız yenə stadiondadır. Bir yerdəcə ipin üstə tullana-tullana oynayır.

Fikirləşdim ki, əməlli-başlı tanış olmasam da, yanından kirimiş keçmək yaxşı düşməz.

– Salam! – deyə səsləndim. O da məşqindən qalmayaraq salamımı aldı.

Mən daha bir söz deməyib yoluma davam edirdim ki, Topuş qaça-qaça gedib qızın yanında dayandı. Şöngüyüb ona tamaşa etməyə başladı.

Qız özünü saxlaya bilmədi, pıqqıldayıb güldü, dayandı.

– Sizin küçük nə qəribədir! Elə baxır ki, deyirsən öyrənmək istəyir.

– Bax, indi inandınız ki, mən onun işinə qarışmıram, bunların hamısını o, özbaşına edir?!

– İnanıram. İnanıram... – Qız nəzərlərini Topuşdan çəkməyərək başını tərpətdi. Bu söhbətdən istifadə edib, ona yaxın getdim.

– Düzü, sizi belə görəndə mən də dayanıb tamaşa etmək istəyirəm. Elə gözəl qaçır, elə gözəl tullanırsınız ki, adam qanadlanır, quş kimi uçmaq istəyir.

Qız şən-şən qollarını açdı.

– Bu boyda stadionu kimdir sizin əlinizdən alan?! İdmanla nə üçün məşğul olmursunuz?

Bilmədim nə deyəm, necə cavab verəm.

– Vallah düz deyirsiniz. Vaxt məsələsi bir az adama mane olur.

– İdman üçün mütləq vaxt tapmaq lazımdır.

İpin üstündən uşaq təki tullanan qızın başıma ağıl qoymaq iddiasında olması mənə birtəhər gəldi. Üstünü vurmadım. Necə deyəydim ki, elmi işçiyəm, bu gün-sabah müdafiə edəcəyəm, hələ sənin də mənə çatmağına çox var.

Mən ağzımı açanadək qız yenə danışdı:

– Adam özünü şən, gümrah saxlamaq üçün mütləq idmanla məşğul olmalıdır. Mən bunu hər yerdə deyirəm. Bəlkə, belə danışmağıma sənətim məcbur edir. Mən idman müəllimiyəm. Bu yaxında orta məktəb var, orada dərs deyirəm. Çalışıram ki, uşaqlar idmanı sevsinlər. Böyüyəndə də quş təki yüngül, sağlam olsunlar. – Qız idmanla məşğul olmayan adamlardan gileyləndi. – Oturduqları yerdən qalxmaq istəmirlər. Bir az da hava, gün dəyəndə qıcqırmış xəmir təki yayılırlar.

Qızın birdən belə tənqidə keçməsi məni də pis vəziyyətdə qoydu. Bəlkə, bu sözləri o məni nəzərdə tutub demirdi, hər halda öz payımı götürdüm və söhbəti davam etdirmək ürəyimdən olsa da, deməyə söz tapa bilmədim.

– Bilirsiniz, belələri ilə necə eləmək lazımdır?

– Bir yaxşı uzun qamçı...

Qızın dodaqları qaçdı:

– Mən elə demədim... Bilirsinizmi, idman bədəninin yalnız fiziki möhkəmliyi, sağlamlığı deyildir, həm də sağlam ruhdur. Bax, qədim yunanlar poeziya, musiqi, idman arasında sən deyən elə bir ciddi fərq görmürlərmiş. İncəsənət və idman tamaşaları bir məfhum altında birləşibmiş – «aqonistika»! Sözün kökü

«aqon»dur. Qədim yunanlarda bu söz istər incəsənətə aid olsun, istərsə də idmana – yarış mənasında işlədilirmiş.

– Maraqlıdır.

Diqqətlə qulaq asdığımı görən qız dediklərini izah etməyi də lazım bildi:

– Tutaq ki, mən ip üstündən tullanıram, yaxud qaçıram. Bir tamaşaçı kimi buna baxmaq sizə xoşdur, elə deyilmi?

Başımı tərpətdim.

– Əlbəttə!.. Mən istərdim həmişə!..

– Demək, qədim yunanlar incəsənətlə idman arasında ciddi bir fərq görməməkdə haqlı imişlər. Maraqlı bir idman yarışına baxmaq gözəl yazılmış şeirə, yaxud musiqiyə qulaq asmaqdan heç də pis deyildir. Məsələn, fiqurlu konki...

Bunun adı gələndə mən idmanın bu növünə vurğun olduğumu gizlədə bilmədim.

Qız:

– Nağıldır, – dedi. – Sözün düzü, fiqurlu konkiyə baxanda mənə elə gəlir ki, yuxu görürəm, yaxud şirin bir nağıl danışırlar, qulaq asıram.

Elə maraqla söhbət edirdik ki, qız axşamadək danışsa da bezməzdim. Onun balaca ağzına, yaraşıqlı burnuna çox tamaşa etmək, məlahətli səsini çox dinləmək istəyirdim. Lakin o:

– Sağ olun, mən tələsiyirəm, – deyib getdi.

Mən evə gəldim. Bir az yazı işim vardı, oturub onu tamamlamaq istədim, səbrim çatmadı, qızı unuda bilmirdim. Məni əməllicə əsir-yesir eləmişdi. Mətbəxə keçdim, kükü bişirən nənəmə dedim:

– Bir qız var, ancaq sən baxıb bəyənməsən, yaxın duran deyiləm. –Nənəm sözümə məhəl qoymadı, çünki aramızda belə zarafatlar çox olurdu. Söz ciddiləşəndə deyirdim:

– Müdafiə eləyim, sonra.

Qarı kükünü təmiz bir nimçəyə boşaldıb qabağıma qoydu, göyərtini, çörəyi yaxınıma sürüşdürdü. İstiot, duz qabını da mənə sarı itələdi:

– Duzu kəm olsa, özün səp, – dedi. – Qaldı o məsələ, inanmıram!..

– İnan, ay nənə, inan!

Qarı məni süzdü. Üz-gözümdən nə oxudu, nə başa düşdüsə, stulu çəkib üzbəüz əyləşdi. Sözümə sən deyən inanmasa da, mənimlə gerçək-gerçək danışdı:

– Neynək, gör deyirsən, görüm...

Kükünü eninə-uzununa doğradım. Səhərdən heç bir şey yeməmişdim, iştaham yox idi.

– Nə vaxt gedə bilərik, nənə?

– Sən nə vaxt istəsən!

Ertəsi gün, atam-anam işə gedəndən sonra nənəm danışdığımız kimi bayırlıq paltarını geyindi. Evimizlə Ordu İdman Klubu stadionunun arası yaxın idi. Nənəm bilmirdi ki ora gedirik. Mən stadiona tərəf burulanda qoca arvad təəccüb elədi:

– Oğlum, deyəsən, əvvəlcə futbola baxmaq istəyirsən, hə?

– Futbol gələn həftə olacaq, nənə, amma qız...

– Burdadır?

Başımı tərpətdim.

– Yox!.. Yox!.. Mən burda elçilik eləyə bilmərəm.

– Nənə, – dedim, – heç yaxşı eləmirsən.

– Nənə sənə qurban, məni günaha batırma, qoca arvadam, axı bura elçilik yeri deyil. – Qarı mehriban-mehriban danışdı ki, könlümü alsın.

– İdmançı olmasına baxma, bilirsən necə ağıllı qızdır?! – deyə mən də açıq-aşkar tərifə keçdim. – Elə bir gəlinin olsa, yüz yaşayarsan.

Qarı qəribə baxışlarla məni süzdü, sözümün canını başa düşməyə çalışdı:

– Bəyəm o qız həkim-zaddır?

Əlimi yellədim:

– Eh, həkim də dərman verməkdən başqa nə bilir?! Amma o heç xəstələnməyə qoymur.

– Nə edir? – deyə nənəm bir az da yaxınımda dayanıb başını əsdirdi.

Mən də gülüb qollarımı oynatdım.

– İdman elətdirir.

Nənəmin, deyəsən, ağlı bir şey kəsmədi. Mən fikirlərimi bəzəməyə başladım:

– Bilirsən, nənə, idmanla məşğul olan adamı heç vaxt infarkt vurmaz. İndi bəzi adamlar ona görə qəfildən ürəklərini tutub ölürlər ki, maşınla gedib, maşınla da gəlirlər.

O gün nənəm mənə xoş üz göstərmədi. Amma səhər məni yanına çağırıb gecə babamı yuxusunda gördüyünü söylədi. Dedi, gördüm cavan vaxtımızdır. Böyük bir yolla qaçıram. Bir nəfər də ardımca yüyürə-yüyürə gəlir. Guya, məni tutmaq istəyir. Mən qaçdım, o qaçdı... Mən qaçdım, o qaçdı... Bir də arxaya baxanda gördüm ardımca düşən adam yıxılıb. Yazığım gəlib qayıtdım ki, qolundan tutub qaldırım. Yanına gələndə gördüm kim?.. Rəhmətlik babandır... «Ay insafsız, – deyir, – adam da belə üzüdönüklük edərmi? Məni qoyub hara qaçırsan?»

– Qadan alım, sən o cavanəzəni bura gətir. Desən, bilirəm gələr. Mən də baxıb görərəm necə qızdır.

– Əşi, o da elə-belə söz idi, – deyə əlimi yellədim. Amma o biri gün tezdən durub stadiona yollandım. Küçüyü də özümlə apardım.

Səhər ertə hava dumanlı idi. Stadiona beş-on addım qalmış o yanı görmək mümkün deyildi. Ona görə də qaçış xəttinə yaxın getdim. Bu ara qulağıma səs

dəydi. Diqqətlə qabağa baxanda gördüm bir nəfər əllərini sinəsinə sıxıb qaça-qaça gəlir. Bu, uzundraz bir oğlan idi, qabağımdan keçdi. Onun ardınca da biri gəldi. Onun ardınca da biri qaçırdı. Hamısı da arıq-quru oğlanlar idi.

– Salam!.. Sabahınız xeyir!.. – Görüşünə gəldiyim qızın səsini eşitdim. Cəld arxaya çevriləndə onu gördüm.

– Sabahınız xeyir. Bəs bu gün nə üçün qaçmırsınız?

– Qaçmışam, – qız gülümsədi. – Bu gün həmişəkindən də çox qaçmışam.

– Nə vaxt? Mən axı... görmədim.

Qız çiyinlərini atdı.

– Yəqin, çoxdan gəlmişsiniz.

– Hə. Mən burda olanda hələ heç kəs yox idi.

Heyifsiləndim:

– Görürsünüz, bir az gecikdim... istəyirdim sizinlə mən də qaçam. Axı bu işin xeyirxahı sizsiniz!..

– Tək, cüt nə fərqi var! Siz də qaçın. – Qız stadiona işarə etdi.

O gedəndən sonra yüz cür fikir elədim. Axırda belə düşündüm ki, sabah yenə gəlim.

Yuxuma haram qatıb bu dəfə dünənkindən də tez durdum. Topuş məndən əl çəkmədi.

Qızla tullanmaq yerinin yanında görüşdük. Məni görcək dodaqları qaçdı:

– Görünür, bu dəfə idman edəcəksiniz, hazırlıqlı gəlmisiniz.

– Elədir, – onun sözünü təsdiq etdim. Qızın əynimdəki idman formasına işarə etdiyini başa düşüb, plaşımı soyundum.

– Gəlin qaçaq, – şən-şən dilləndi.

Əllərimi döşümə tutub tez ona çatdım. Topuş stadionun alt yanındakı kolkosluqda yeri imsiləyə-imsiləyə vurnuxdu, biz tərəfə heç baxmırdı da.

Qızla bərabər stadionu iki dəfə dolandım. Üçüncü dəfədə qabırğamın altından sancı qalxdı, daha onunla ayaqlaşa bilməyəcəyimi etiraf etdim:

– Mən axı...

– Bəsinizdir, daha qaçmayın.

Bu sözlərin qızın dilindən çıxmağı ilə mənim geri qalmağım bir oldu. Bir az da qaçsam, nəfəsim kəsiləcəkdi. Tövşüyə-tövşüyə plaşımı atdığım yerə gəldim. İstədim yaşıl meydançada, göy otun üstünə uzanım. Qız fikrimi başa düşüb uzaqdan mənə əl elədi; başa saldı ki, olmaz, hərəkət eləməlisən.

Məndən sonra hələ dörd-beş dəfə də stadionu dolaşıb qaçan qız yanıma gələndə xəcalət çəkirdim. Deyirdim indi mənə ürəyində lağ eləyir. O isə başqa söz dedi:

– Bax, sabah bir dairə də artıq qaçarsınız. Belə-belə, get-gedə artırarsınız? Sonra...

– Əşi, qaçıb hara tələsirik axı, – deyə zarafat etdim. – Bəri gəlin, astaca söhbət edə-edə gəzək.

Qız etiraz eləmədi. Biz danışa-danışa stadiondan kənara çıxdıq. Dağın döşü küknar meşəliyi idi. Bir qoca beş-on qoyun otarırdı. Bir əmlik ağacların arasında oynaqlayırdı.

– Nə qəşəngdir! – Qız quzuya yaxınlaşdı. O da yaxın gəlib dodaqlarını qızın barmaqlarına toxundurdu. Qız onu qucağına aldı, boynundan, başından öpüb sinəsinə sıxdı.

Qoca asta-asta qabağa gəldi.

– Qurbandır, a qızım.

Qız təşəkkürünü bildirdi.

Mənim ürəyimdə isə başqa şey idi: «Buna haradan rast olduq».

– Paltarınızı çirkləndirər, – dayana bilməyib ona quzunu yerə qoymağı məsləhət gördüm.

Qız acığıma quzunu bir də sinəsinə sıxdı.

– Çirkləndirməz, tərtəmizdir.

Biz qocadan aralanıb yuxarı çıxanda elə yerlə getdim ki, xəlvətlik olsun; bir kəsə rast gəlməyək.

Balaca bir çökəyə düşəndə həzin şırıltı ikimizi də xoşhal etdi. Ağzına taxta çiv çalınmış dəmir borudan su fışqırıb bir xeyli hündürə qalxır, oradan yağış təki küknar ağacının üstünə tökülürdü. Ağacın bir yanı yamyaşıl idi. Su tutmayan yanı isə bomboz idi.

– Kür gəldi, bir neçə ilə Abşeron başdan-başa meşə olacaq.

– Əlbəttə, suyun hökmü böyükdür, – bu ara cəsarətlənib, qızın qolundan tutdum.

Qız bir söz deməsə də, hərəkəti ilə başa saldı ki, üzlülük edirsən.

Özümü o yerə qoymadım, əlimi damcıların altına tutdum.

– Görün necə soyuqdur!..

– Soyuqdur? – Qız da əlini uzatdı və ovcuna tökülən damcılardan xoşlanıb mənə baxa-baxa gülümsədi.

O, həqiqətən, qəşəng qız idi. Kirpiklərinin üstünə göyümsov sürmə çəkmişdi, bu onu bir az da gözəl göstərirdi.

Dünən axşam evdə bu qız haqda fikirləşəndə ağlıma bilirsiniz nə gəlmişdi? Onu, nənəm demişkən, evimizə dəvət eləyim. Bu fikirdə idim ki, sözümü yerə salmaz, «elmi işçi olduğumu, bu gün-sabah namizəd olacağımı bildirəndən sonra qız məndən ötrü axıb gedəcək!»

– Su var, torpaq var, baxan-becərən olsa, hər yan meşə olar.

O məndən bir az aralı dayandı. Əllərimi şalvarımın ciblərinə soxub yan-yörəyə boylandım.

– Buralar bir az da qalınlaşsa, ayı-canavar məskəni olar; ovçular uzağa getməzlər.

Zarafat etdiyimi bilib gülümsədi, amma hiss edirdim ki, təlaş içərisindədir.

Yaxınlıqdan quş səsi gəldi: çik... çirik...

Mən dedim:

– Bülbüldür.

O dedi:

– Yox!

Mən dedim:

– Bəs belə gözəl oxuyan hansı quşdur?

O dedi:

– Deyə bilmərəm.

Ətrafa nə qədər diqqətlə baxdımsa, quşu görə bilmədim. Bir-iki addım qabağa getdim, ayağımın altından pırıltı ilə bir quş qalxdı, elə bil qoynumdan uçdu, qanadları çənəmə toxundu.

– Ay sənin! – deyə əlimi-əlimə vurub, geri çəkildim.

Qız başını bir çiyni üstə əyib xəyala getmişdi.

– Bax, belə dayanın.

Dağın döşünə qalxdım. Dayandım. Guya, kafedrada idim, cərgə-cərgə küknarlar isə qarşımda sıra-sıra oturmuş tələbələrimdi, onlara mühazirə oxumağa hazırlaşırdım. Özümü qıza göstərmək istəyirdim. «Qoy bilsin ki, mən kiməm, nəçiyəm; sabah onun kimi yüzlərlə tələbəm olacaq. Qız bunu bilsə, məndən ötrü ürəyi gedər, bir sözümü iki eləməz».

– Yoxsa mənə dərs demək fikrinə düşübsünüz?..

Qızın təmkinli sorğusu, mənalı baxışları məni tutdu. Xəyaldan çıxdım:

– Yox! Nə danışırsınız?! Hələ aspirantam...

Elə bunu dediyimi gördüm. Qız dabanı üstə geri fırlandı: «Sağ olun!» – deyib qaça-qaça getdi.

Heç belə pərt olmamışdım. Elə bil ağacların arasından qırx quldur çıxıb məni yaxşıca əzişdirmişdi.

Qızı görüb ondan üzr istəməyi qərara aldım. Neçə gün stadiona gəldim. Qızı görə bilmədim.

«Məktəbləri bir-bir gəzib tapacağam» – öz-özümə söz verdim. Bu iş üçün gedəndə Topuş da ardımca düşürdü, elə bil hara getdiyimi, kimi axtardığımı bilirdi. Məktəblərin idman salonları birinci mərtəbədə olduğundan içəri girmirdim, bayırdan boylanırdım. Elə ki pəncərəyə yaxınlaşırdım, Topuş da əllərini qaldırıb pəncərəyə qoyur və içəriyə baxırdı. Məşğələ zamanı içərinin tappıltısından qulaq tutulurdu. Biri kəndirə dırmaşırdı, biri tullanırdı. Topuşun hara baxdığını deyə bilmərəm, mən isə birinci növbədə müəllimə baxırdım.

Neçə məktəbə dəydik, qızı tapa bilmədik. Axırda bir məktəbə gəlib çıxdıq. Binanın ətrafında fırlandıqsa da, idman salonunu görə bilmədik.

– Topuş, sən burada dayan, mən gedib içəridən soruşuram, – küçüyü bayırda qoydum. Burada da onu tapa bilmədim. Müəllimlər otağına təzəcə girib kor-peşman çıxmışdım ki, eşikdən qulağıma qarmaqarışıq səs gəldi. Topuş yadıma düşdü. Axı o, bayırda qalmışdı. «Demək olmaz, dəcəl uşaqlar fağırı daşa basarlar, incidərlər». Cəld qapını açıb eşiyə çıxanda gördüm «sümsüyün» işi şuluqdur, məhəllə itləri yığışıb onu boğur.

– Görüm sizi qırılasınız!.. – Asfaltda əlimə alası bir şey gözümə dəymədi, o qədər təntidim ki, əllərimi boşca qaldırıb, bir-birinin boyun-boğazını gəmirən itlərin üstünə getdim:

– Ay it!.. Ay it!..

Səsim itlərin qulağına girmədi. Topuşun vəziyyəti ağır idi. Bu ara qonşu həyətdən kök bir qadın çıxdı, əlində də bir vedrə su. Tez suyu gətirib boğuşan itlərin üstünə əndərdi. İtlər aralandı.

Tezcə özümü küçüyün üstünə saldım. Deyəsən, canında tutar qalmamışdı. İtlər qol-qıçını dişlək-dişlək eləmişdi. Zingildəyə-zingildəyə qılçalarımın arasına girdi. Vedrəli arvad da dayanıb baxırdı. Küçüyə yazığı gəldiyi üçün dedi:

– Ay oğlan, yazığı niyə gözündən qoyursan?

– İşdir oldu.

Xəcalətli-xəcalətli əlimi yellədim. Kor-peşman oradan aralandım. Bütün yol boyu bircə dəfə də olsun dönüb küçüyə baxa bilmədim. Başı aşağı gedə-gedə düşünürdüm ki, görəsən, lovğalığın, özünü öyməyin, dartmağın, yekəxanalığın aqonistikaya dəxli varmı? Əgər yoxdursa, qədim yunanlar bəs buna nə deyiblər? Bəlkə, o vaxtlar bu hiss insanlarda heç olmayıb?

## TƏNDİRLƏR QALANDI

Sən demə, babam təzəcə yuxuya gedibmiş. Biz içəri girəndə gözlərini açdı. Yuxudan kal qalxdığından bizi tez tanıya bilmədi, hər birimizi bir xeyli diqqətlə süzdü, sonra: «Qapının ağzında niyə durubsunuz? Bəri gəlin, indi nənəniz də sizə bir şey bişirər», – dedi.

Nənəm durub xəşil bişirdi, qablara çəkdi, taxta qaşığın dalı ilə hər birini yastılayıb çökəltdi, bəkməz, yağ əridib tökdü. Biz barmağımızı xəşildə hərləyib-bulayıb ağzımıza apardıqca babam bizə baxır, batıq gözləri hərdən işıqlana-işıqlana deyirdi: «Yeyin qadanızı alım, yeyin!»

Müharibə ili camaatın başı öz gedəninə-gələninə, aclığına-susluğuna qarışmış olsa da, qohum-qonşular babama baş çəkirdilər. Böyük-kiçik içəri bir girən oldumu babam da o dəqiqə bax beləcə üzünü nənəmə çevirər, vara-yoxa baxmaz, deyərdi:

– A qarı, dur xörək-çörək hazırla.

– Yox, sağ olun, ac deyiləm, indicə yemişəm, – deyən olurdusa da, babam əl çəkmirdi. Yanına gələn adamı olanından yedizdirib yola salmasa, rahat olmurdu. Hələ qonağı gedəndən sonra da dönə-dönə deyirdi ki, deyən, xörəyimiz az oldu, yaxud yaxşı olmadı, filankəs bu evdən ac qayıtdı.

Söyləyirdilər ki, babam çox çörəkli adam olub. Həqiqətən, bizim evdə qonaq-qara həmişə olardı, qıraq yerlərdən atlanan bu kəndə bizim qapıya düşərdi. Qonağı olmayanda kişi elə bil darıxırdı. Dava illərinin aclıq, qıtlıq vaxtlarında da babam hərdən yol üstünə çıxar, şər vaxtı ötənə-keçənə rast gəlsə, onu saxlayar: «Əşi, belə vaxtsız hara gedirsən? Bəs biz şənlik deyilik?! Qal qonağımız ol», – deyə dilə tutub evə gətirər, axşam da, səhər də yedizdirib-içizdirib yola salardı.

Bu gün babama dəyməyə kimsə gəlmişdi. O gedəndən sonra babam narazı-narazı başını yırğalayıb nənəmə dedi:

– Gəlib-gedənin, uşağın başını cadla, kələfətirlə aldadırsan. Niyə xəmir yoğurub çörək bişirmirsən?

Onun bir sözünü iki eləməyən, qabağında heç vaxt diliacı olmayan nənəm bu dəfə özünü saxlaya bilməyib acıqlı cavab verdi:

– Nə danışırsan, a kişi! O qədər un haradadır ki, qollarımı çirməyib xəmir yoğuram, sən deyən çörək bişirəm.

Babam nənəmin düz dediyini başa düşüb dinmədi. Dağ boyda kişi sıxılıb, bükülüb yorğanın altında yumağa döndü. Sonra nəzərlərini hirsli-hirsli bəri çevirdi:

– Gəbədən, kilimdən nəyiniz var, çıxardın, birtəhər aparıb sabahda, biri gündə satım.

Evin palazının satılması sözü gələndə odlanan nənəmi hirs götürdü. Əlini ona sarı uzadıb:

– Bir o altındakı gəbə qalıb, – dedi, – onu da satsaq, arxayınçılıq, təmizlik olar.

Babam çoxdan azarlı olub zəifləsə də, bütün qüvvəsini toplayıb qışqırdı:

– Bəs səncə, necə olsun? Paraya dəymə, bütünə toxunma, doğra doyunca ye?! Sən də qəribə arvadsan.

– Ay kişi, qursağın daralıb, yaman kəmhövsələ olubsan, – deyə nənəm, nəhayət, mülayim-mülayim danışıb onu sakitləşdirməyə cəhd etdi.

Bir gecə isə başımıza qəribə bir hadisə gəldi. Axşamdan yerimizə girib təzəcə yatmışdıq ki, nənəmin səsinə oyandım. Anamı çağırıb qorxu içərisində deyirdi:

– Aaaaz... aaz!.. Kişi yerində yoxdur. Gözüm də görmür ki, bir ora-bura baxım.

Anam tez durdu. Pəncərələrin taxta qapılarını açdı, lampaya işıltı saldı. Babamın yerini, həqiqətən, boş görüb:

– Bəlkə, çölə çıxıb, – dedi. Çiyninə nə isə salıb qapıya yönəldi. Biz də onun ardınca getdik.

Lampamızın sən deyən gur şöləsi olmasa da, hər halda işıqdan çıxdığımıza görə eşik bizə qaranlıq gəldi. Bir az bundan əvvəl yerinə uzanıb gözümüzün qabağında olan, hərdən bizimlə söhbət edən, bəzən də heysiz nəzərlərini qapıya zilləyib nə barədəsə təklikdə fikirləşən babamı bu qatı qaranlıq içərisində tapa bilməyəcəyimizə ümidim elə bil heç yox idi. «Aaz, olma əl-ayağı dolaşıb, büdrəyib kişi buralara yıxılıb», – deyə nənəm qaranlıqda narahatlıqla qımıldandı, əlini ora-bura çalanda mən anamın qoltuğunun altından qulançar təki uzanıb başımı irəli çıxartdım, yan-yörəyə baxdım. Bu ara gördüm təndirin qabağında uca bir şey ağarır.

– O nədir? – anamı dartışdırdım.

Anam mən göstərdiyim səmtə baxıb, o dəqiqə səsini çıxartdı:

– Əmi!..

Gecdən-gec xırıltılı, qəhərli səs gəldi:

– Hə... nədir, a bala?

– Bıy, orada niyə durmusan? – deyə anam özünü irəli atdı. Gedib babamın qolundan tutub gətirdi.

Babamın sağ-salamat tapılmasına həm sevinən, həm də onun bu hərəkətindən hirslənən nənəm babamı əyri-əyri süzüb söylənirdi:

– Bir tutduğu işə bax! Uşağı, böyüyü dəli elədi. Eşiyə çıxmısan, tezcə də qayıt gəl, daha orada niyə durmusan? Demirsənmi soyuq olar?!

Babam əsə-əsə yerinə uzanıb:

– Əşi, sən məndən nə istəyirsən, – dedi, – təndirə baxırdım, dedim görüm içində odun varmı?

– Neynirdin?

– Bəs çörək bişirmək lazım deyilmi?

Nənəm diksinib içini çəkdi və əlini dodağının üstə qoydu, elə bil qorxdu. Sonra əli-ayağı əsə-əsə anamı kənara çəkdi, pıçıltı ilə:

– Aaz, olmaya bu kişinin başına hava gəlib, – dedi.

Anam da əllərini qoynuna qoyub tutulu quş təki dayandı:

– Nə bilim, ay bibi!..

İstədim soruşam ki, adamın başına hava necə gəlir, onda nə olur, nənəm qayğılı-qayğılı dedi:

– Görmürsənmi kişi sözünü çıldıradır!.. Elədiklərini bilmir.

Bu əhvalatı səhər olduğu kimi danışdıq, kişi nə qədər fikirləşdisə, ağlına gətirə bilmədi: «Elə şey olmaz», – dedi.

Bundan iki-üç gün sonra məktəbdən gələndə babam məni «qadan alım, ağrın alım»la qarşılayıb soruşdu:

– Necəsən, ay oğul? Necə işlədin? Taxıl biçə bildinmi?

– Ta...xıl?.. Mən axı məktəbdən gəlirəm, baba.

– Hə, hə... – səhv elədiyini düşünüb fikrə getdi.

Mən isə kitablarımı stolun üstünə atıb körpə quzular üçün çəpərin dibindən göy ot yoluşduran nənəmin yanına xəbərə qaçdım.

– Nənə!.. Nənə! Mən məktəbdən gəlirəm, amma baba mənə deyir ki, taxıl biçdinmi?

Fağırca nənəmin əli xışmalanıb yolmaq istədiyi göy otda qaldı. Bir ara nə qımıldana, nə də bir söz deyə bildi. Nəhayət, əlini sürüşdürüb otdan çəkdi. Nə isə bir bədbəxtlik üz vermiş kimi əllərini dizlərinə vurdu:

– Deyirəm kişinin başına hava gəlib inanmırlar!..

Nənəmi belə görəndə öz-özümə söyləndim, ağılsız hərəkətimlə onu qəmləndirməyimə, qorxutduğuma görə xəcalət çəkdim.

Babamın halı günbəgün xarablaşmağa başladı. Yazıq kişi get-gedə az-çox yeməyindən də qaldı. Elə bir vəziyyətə gəlib çıxdı ki, daha özünü-sözünü bilmirdi. Qızdırmadanmı, canının ağrısındanmı – yerində də rahat uzanmağa hövsələsi yox idi. Başına çəkdiyi çiti tez-tez pırtladıb çıxardır, dikəlir, ayaqlarını taxtdan yerə sallayıb durmaq istəyirdi. Ona görə top-top olub gecə-gündüz yanını kəsdirmiş nənəm də yalvarıb-yaxarıb onu yerinə yıxırdı. Belə halların birində babam etiraz elədi:

– Məni niyə tutursan?

– Axı xəstəsən, nə işin var ki, qalxırsan?

Babam kirpiklərini qırpmadan diqqətlə onu süzüb birdən dedi:

– Gələnlərin qabağına çıxmayaqmı bəs?

Bu ara hiss etdim ki, nənəm çox pis oldu. Elə bil onun qüvvəsini aldılar, əli-ayağı boşaldı. Bir ara hərəkətsiz qaldı, tərpənmədi.

– Ey... Sən bircə uzan, – deyə sonradan nədənsə narazı, bəlkə də, başına gələn bu müsibətlərdən şikayətli bir ifadə ilə dillənib onu yerinə salmaq üçün qılıqlayan təki oldu.

Babam xırıltılı səs çıxararaq başını əsdirdi və yenə qalxmağa cəhd etdi:

– Elə şey olar?! Kənardan baxan adama nə deyər?! Axı qo...naq...lar...

Nənəmin də səbir kasası daşdı:

– Sən də bilmirəm nə danışırsan, bu yıxılmışa gələn kimdir? – deyə özünün bir tutarı qalmamış olsa da, kişinin ayaqlarını qucaqlayıb qaldırdı. Onu yerinə yıxdı, yorğanı üstünə çəkdi.

Babam indi də uzaq yol qaçmış adamlar kimi tövşüyə-tövşüyə başını qaldırdı:

– Xəmir acıdımı, a qarı? – dedi.

Nənəm elə bil heç eşitmədi. Babam sözlərini bir də təkrar etmək istəyirdi ki, nənəm çox astaca başını tərpətdi.

– Eləsə, a bala, dərdini alım, – deyə babam indi də üzünü mənə çevirdi, – anana de, kündə töksün, təndiri də qalasın.

Yerimdəcə donub qalmışdım. Babam bunları elə deyirdi ki, inanmaq olmurdu, elə bilirdim bizə, həqiqətən, qonaqlar gəlir, biz də hazırlıq görməliyik.

Anamın sudan gəlib, səhəngi belindən düşürüb aşağı tərəfdə bikef-bikef dayandığından xəbərim olmamışdı. Çiyni üstə qanrılanda gördüm o, babamın sözlərindən kövrəlib ağlayır, solub rəngi getmiş nimdaş kəlağayısının yeləni ilə gözlərini silir. Məni də ağlamaq tutdu. Anam bu ara:

– Bibi! – deyə nənəmi çağırdı.

Nənəm ona yaxınlaşanda anam pıçıltı ilə dedi:

– Gəlsənə xəmir yoğurub çörək bişirək.

– Un azdır, – deyə nənəm də gözlərini sıxıb ağladı. Təknənin künc-bucağında qalar. Kişi də ki, görürsən ö...lür...

– Qoy gedib kolxozdan bir az avans alım.

– Aldın, nə edəcəksən?

– Aparıb üyüdərəm.

Nənəm başını buladı.

– Yox, gəlin xeylağı... belə vaxtsız...

– Eh, sən də!.. – Anam kəlağayısını düzəldə-düzəldə bayıra çıxdı. Birbaş idarəyə getdi. Xeyli taxıl alıb gətirdi. Gələn kimi də kisənin ağzını burub çatı bağladı, belinə aldı, yola düzəldi. Öz kəndimizdə dəyirman yox idi. Dən üyütməyə həmişə bir neçə kilometr aralı olan qonşu kəndə gedərdik. Axşamüstünün

sazağında anam palçığa bata-bata həyətdən çıxanda dayana bilməyib ardınca yüyürdüm:

– Qoy mən də gedim, ana!..

– Yox, yox, baban xəstədir, nənə də təkdir, – deyə anam məni doqqazın ağzından qaytardı.

Evə gələndə gördüm babam yenə «beynindəkiləri» çağırır: «Ay uşaq, ay böyük, xəmiri kündələdinizmi? Təndiri qaladınızmı?» O belə dedikcə onsuz da qocalıb balacalaşmış nənəm daha da sıxılır, kiçilir, canına-ciyərinə od düşürdü. Gördüm darıxıram, az qalır ürəyim partlasın, dayana bilməyib eşiyə çıxdım, babam o qədər «təndir-təndir» demişdi ki, özüm də hiss eləmədən gəlib orda dayandım. Çoxdan idi ki, bu təndirə od salmırdıq. Dava başlanandan üç-dörd ay sonra təndirin ağzına qaratikan, şax-şəvəl basmışdıq. O vaxtdan təndirin ağzı beləcə qarala-qarala qalmışdı. «Təndirə od salın! Çörək bişirin!» Qulağım, deyəsən, səsə düşmüşdü. Babamın sözləri burada da qulağıma gəlirdi. Axırda dözə bilmədim, geri evə qaçdım. Nənəmdən gizlincə peçdən yanan bir kösöv götürüb bayıra yüyürdüm. Gətirib təndirin ağzındakı şax-şəvəlin altına qoydum, kösövü üflədim. Alışan kimi həyətimizdən çoxlu odun, taxta, kör-kötük yığıb təndirə doldurdum. O da elə bil odun-ocaq həsrətində idi, tezcə gur-gur yanmağa başladı. Alov təndirin içini bürüdü, qaralmış daşların rəngi dəyişildi, qızardı. Yuxarı baxanda gördüm ki, bacadan da bir topa alov çıxır.

Sən demə, mənim təndir qalamağımı yoldaşlarım görübmüş. İki-üç dəqiqə keçməmiş hamısı tökülüb gəldi. Nə üçünsə mənə baxıb şən-şən gülümsədilər. Hamısı arı təki bir yerə toplaşıb təndirə yaxın dayandılar. İşıltılı nəzərlərlə bir gurhagur yanan təndirə, bir də mənə baxıb soruşdular:

– Çörək bişirirsiniz?

Belimi təndirə söykəyib başımı köksümə əydim:

– Yox.

Onların üzünə baxmasam da, hiss etdim ki, uşaqlar təəccüblənibllər. Elə buna görə də:

– Bəs təndiri niyə qalamısınız? – deyə dilləndilər.

Bilmədim nə deyəm, onları necə başa salım.

– Ba...bam... – Kövrəldim, zorla danışa bildim. – Ba...bam. Öl...ür., axı... deyir tən...di...ri... qala...yın, mən də...

Uşaqların heç birindən səs çıxmadı. Haçandan-haçana biri maraqla dedi:

– Təndiri qalayanda adam ölmür?

Çiyinlərimi çəkdim.

– Hə də... ölməz. Adam soyuqdan ölər, – deyə yoldaşlarımdan biri əlini təndirin ağzına tutdu.

Bundan sonra uşaqlar mənim yanımda çox bənd almadılar. Xısınlaşıb arı təki necə vızıltı ilə gəlmişdilərsə, eləcə də çıxıb getdilər.

Bir azdan başımı qaldıranda gördüm ki, orda-burda işıltı oldu, ocaq yandı, alov dilləri gücləndi, şöləlndi. Qohum-qonşu da tökülüb bizə gəldi.

Nənəmə içəridə nə dedilərsə, o söylənə-söylənə eşiyə çıxdı.

– Bıy, a bala, təndiri niyə boş yerə qalamısan?

Arvadlardan biri yüyürüb araya keçdi, onu sakitləşdirdi.

– Sən allah, uşağın  xətrinə dəymə. Ürəyinə gəlib, qoy yandırsın. Odur ey, bizimkilər də yandırıblar.

Nənəm yumşaldı. «Nə bilim!» – deyib əllərini açdı. Mənə fikir verməyib geri döndü. Evə qayıtdı. Mən də təndirin yanında bir az dayanıb, babamdan xəbər tutmaq üçün evə getmək istəyirdim ki, kişinin qolundan tutub eşiyə çıxartdıqlarını gördüm. Babamın gah sağına, gah da soluna keçən nənəm ona:

– Bax, bax! – dedi. – Təndiri qalamışıq.

– Hə?! – Deyib babam diqqətlə baxdı. Qonşularımızın da təndirinin yandığını görəndə gözləri işıqlandı. Gülümsəyərək qırıq-qırıq, həm də sakit-sakit:

– Nə yax...şı. Nə yax...şı, – dedi, – hamının tən...di...ri yanır.

## YETƏR NƏNƏ

Atlar çöldən tutulub gətiriləndən atılıb-düşürdüm: «Sabah bunları yaxşıca minib səyirdəcəm». Çidarlayıb arxaca buraxsalar da, əmin idim ki, ya yola düşməzdən qabaq, ya da gedib-gələndən sonra beş-on dəqiqəliyə də olsa, bu atların ixtiyarını mənə verəcəklər. «Bəlkə, Sərxan qağanı ötürməyə mən getdim, aparıb maşın ayağından yola salaram. Sonra da atın birini minib, birini də yedəyimə alıb qayıdaram».

Yetər nənənin yanına qaçdım, başımı dəyəyə salıb dedim:

– Ay nənə, Sərxan qağam nə vaxt gedir?

– Sabah, – dəyəsində iş görən Yetər nənə belini güclə düz tutub qəmli-qəmli üzümə baxdı. Onu tanıya bilmədim. Elə bil bir ay bundan qabaq oğlunun şəhərdən yaylağa dincəlməyə gəldiyini eşidəndə uçmağa qanadı olmayan, qollarını onun boynuna dolayıb: «Sən gələn yollara qurban olum, ay oğul!» – deyən, bizə konfet paylayan Yetər nənə deyildi. Bət-bənizi qaçmış, beli bükülmüşdü. – Atları gətirdilərmi ki? – deyə o soruşdu və başımı tərpətdiyimi görcək kefsizlədi.

Atlar arxacın yuxarı başındakı gicitkənliyin qulağında ağız-ağıza dayanıb gəmirişirdi. El yaylağa qalxanda yalda-yamacda buraxma otlayan atların beli dümdüz olmuşdu. Mənə görə onların belinə heç yəhər də qoymaq lazım deyildi. Bax, elə beləcə, çıl-çılpaq minib sürmək mənə ləzzət verərdi...

Birdən hiss etdim ki, buna həvəsim qalmayıb. Yetər nənənin pərişan olması məni də ruhdan saldı. Lakin ürəyim bir az bundan qabaqkı təki atdanmasa da, içəridən məni nə isə yenə üstələdi, gözümü atlardan çəkə bilmədim. Sabah bu atları yəhərləyib-yüyənləyib Yetər nənənin oğlunu yekə dəm-dəsgahla, hamılıqla yola salacaqlarını gözümün qabağına gətirdim. Bilirdim ki, Yetər nənənin nə işi olsa, hamı canla-başla əl yetirir, çünki onun özü də belə adam idi. Son illər bir az candan düşsə də, yenə hər bir işdə qohum-qonşunun köməyinə gələrdi. Bax, elə o gün Yetər nənə çayın qırağında qaynar asıb paltar yuyurdu. Biz də çimmək üçün çayda gölməçə düzəltmişdik. Gah çimir, gah da sudan qırağa çıxıb, kərtənkələlər təki şümal çaylaq daşlarının üstünə uzanırdıq.

Əri Qoca baba sürünü sağına töküb asta-asta onun yanına gəldi. Başı aşağı vurhay paltar yuyan Yetər nənəni mənalı-mənalı süzdü. Sonra yaxınlaşıb:

– Soruşmaq eyib olmasın, ay arvad, – dedi, – biz dağda neçə nəfərik?

Yetər nənə əl saxlayıb ona sarı döndü, sonra gülümsünüb, barmağının ikisini sabunlu-sabunlu yuxarı qaldırdı.

– Bəs bu iki nəfərin nə çox paltarı var?

– Yoldaşlarınındır, ay kişi!

Bir dəfə də quzuçu oğlan qəfildən xəstələnmişdi. «Sancı məni öldürdü», – deyə ikiqat olub qalmışdı. Yetər nənə tezcə yer-yurd düzəldib onu yorğan-döşəyə saldı, başının şalı ilə onun qarnını çəkib sıxma bağladı. Sonra belini möhkəm-möhkəm ovdu, hələ çay da qaynadıb verdi, naxoş yaxşılaşanadək yanından uzaqlaşmadı.

Onun canı hamıya beləcə yanırdı...

Yetər nənənin belə-belə işləri indi gəlib gözümün qabağında durdu. Bu fikirlə qanrılıb geri boylananda gördüm ki, Yetər nənə dəyədən bayıra çıxıb qəmli-qəmli bəri baxır. Ağlıma gəldi ki, mən onu haradasa bu görkəmdə, bu duruşda görmüşəm. Barmağımı dodağımın üstünə qoyaraq, xeyli fikirləşəndən sonra tapdım. Dağ köçü «Qayalı» stansiyasına çatıb dəmiryolundan keçəndə Yetər nənə nə isə birtəhər olub dayanmışdı. Sürü çəkilib getsə də, o tələsmirdi. Sağa-sola uzanan relslərə, vaqonlara və orda-burda hərlənən adamlara baxırdı. Mən yanındaca durmuşdum. O hər şeyə diqqət yetirib ağır düşüncələr içərisində başını tərpətdi:

– Ananız daşa dönsün, bala, – şəhərdə yaşayan Sərxanla Qaraxanı yadına saldı, onların xəyalı ilə danışdı. – Bu qalmaqalın içərisində necə gün keçirirsiniz?

Bilirdim ki, Yetər nənə bircə dəfə də şəhərdə olmayıb. Dağ-aran köçü şəhər adına bircə bu stansiyanı görüb. Ona görə də şəhərdən söhbət düşəndə «Qayalı» stansiyasında gördüklərindən deyirdi.

Nəhayət, stansiyadan tərpənib yol gəldikdən sonra hündür bir təpənin aşırımında Yetər nənə ayaq saxlayıb maraqla soruşdu:

– Bakı hansı tərəfdədir, ömrüm-günüm?

Əvvəlcə çaşıb cəhətləri müəyyənləşdirə bilməsəm də, sonra əlimi yalan-gerçək aşağı, suların axarı səmtinə uzatdım.

– Uzaq olar?

– Bəs nə? Düz birgünlük yol olar.

– Booy!.. Taqqataraq gedənəcən adam bezər.

– Niyə bezir?! Yıxıl yat, ya da otur, maşın özü aparacaq.

– Qoca baban da elə deyir. Ancaq qorxuram tablamayam.

Onu da bilirdim ki, Qoca baba şəhərdə olub, bir-iki dəfə gedib oğlanlarına dəyib, özü də şəhər onun xoşuna gəlib. Amma bir şeyə məəttəl qalıb: deyirdi ki, ağrısını aldığım Sərxanla gedirdim. Bir də gördüm qabağımızda yekə bir maşın dayandı. Maşın deyəndə lap vaqondan da iri. Kabinasından iki yekəpər önlüklü

kişi düşdü. Gəlib maşının dal qapısını açdılar. Onda gördüm hərəsi çiyninə bir cəmdək aldı.

– Bu nədir, ağrın alım?

– Ətdir, dədə, mağazaya daşıyırlar.

Bir az qabağa gedib baxdım. Gördüm nə? Cəmdək cəmdəyin üstə qalanıb. İnanın, tüstüm təpəmdən çıxdı. Bu qədər də heyvan qırmaq olardı?! Sərxan da dedi ki, bu nədir, ay dədə! Bu heç şəhərin bir küçəsindəkilərə bəs eləməz.

Cinim yığıldı.

– Ayə, – dedim, – buna heyvan çatdırmaq olar?! Bircəciyinin burnu qanayanda dözmürük. Sərxan da yaxşı dedi. Dedi ki, ay dədə, kənd şəhərə, şəhər də kəndə göndərir, bir-birini dolandırır. Düz deyir, bizim əskiyimiz ordan, oranın da çatışmayanı burdan düzəlir.

Onun sözündən-söhbətindən mənim qulağıma bir şey də gəlib çatmışdı. Bunu hamıya söyləmişdi. Deyirmiş ki, guya, böyük oğlu Qaraxan axşamlar o qədər gec yatır, səhərlər yerindən sürünüb güclə durur. Tənbəl-tənbəl mətbəxə gəlib özü çay qoyur, sonra da bircə stəkan salma çay içib işə gedir. «Günorta nə yeyib-yeməyindən xəbərim olmadı, bir də axşamtərəfi qayıdıb gəldi. Qoltuğunda da çoxlu kitab, jurnal, qəzet. Bir də içində göy-göyərti, kartof, bir-iki butulka da qazlı su olan kağız torba. Gəlin də nə bilim ev-eşiklə, özü ilə məşğul olur, gah saçını kəsdirməyə, gah da barmaqlarını qırmızılatmağa gedir. O olmayanda da telefon məni lap bezdirmişdi. Bir görürsən səsləndi. Götürürsən – olmur, götürmürsən – küncdə uşaq təki zıqqıldayır. «A başınıza dönüm, ev yiyələri yoxdur. Qaraxan işə gedib, gəlin də şəhərə çıxıb, – deməkdən canım boğazıma yığılmışdı. Dözə bilməyib qaçdım».

Hələ onu da eşitdim ki, Qoca baba indi getməyə hazırlaşan Sərxandan da bir az incikdir. Guya, o da birinə uyub, öl desə – ölür, qal desə – qalır. Bunu da, guya, ona Qaraxanın arvadı danışıb. Onu da deyirlər ki, bütün bu əhvalatlardan Yetər nənənin xəbəri yoxdur.

Bir dəfə qəribə bir səda çıxdı. Guya, Yetər nənə iki əlini də dizlərinə vurub: «Ay allah, mənim bu pəhləvan oğlanlarım arvadların əlində əsir-yesir oldular?» – deyib ağlayıb. Bunu Yetər nənəyə yazıqları gələ-gələ, halına acıya-acıya danışırdılar. Yetər nənənin övladlarının yolunda əzab-əziyyət çəkdiyini söyləyirdilər. O vaxtları görməsəm də, danışılanlardan Yetər nənənin keçmiş günləri gözümün qabağına gəlirdi. Görürdüm ki, Yetər nənə uşağı şalla belinə sarıyıb, əlinə də çubuq alıb, sürünün ardınca gah dağlara qalxır, gah da düzlərə enir. Yetər nənə bələk əsgilərini barxana yüklənmiş atın, ulağın üstündə gedə-gedə qurudub. Körpələrin ayaqları yer tutub, ağılları kəsəndən sonra da min cür dərd-sərləri olub. Dağ-aran köçü vaxtı başlarına qəribə əhvalatlar gəlib. Bir dəfə dağ köçü

vaxtı Yetər nənə ata minib oğlunun birini tərkinə, birini də qucağına alıbmış. Körpüdən keçəndə qabağından bir maşın çıxır. At ürkür, sərpir, az qalır ki, onları belindən atsın.Yetər nənə atın başını tez yığır. Körpünü o yana keçəndə, Yetər nənənin dodaqları iki yarılıbmış.

Uşaqlarından ötrü hər vaxt ciyəri çəkilən, onların bircə saatlıq ayrılığına dözməyən, onlardan ötrü əldən-ayaqdan gedən Yetər nənə indi oğlanlarının üzünü ayda-ildə bir dəfə görəydi, ya görməyəydi...

Bildir Yetər nənə bərk xəstələnmişdi. Teleqram vurub oğlanlarını gətizdirdi. Qarının halı, həqiqətən, pis idi. Oğlanları ki qoşa içəri girdilər, arvadın elə bil gözlərinə işıq gəldi. Durub oturdu, hətta qalxıb oğlanlarına qulluq etmək də istədi. Oğlanları ki gəldi, Yetər nənənin əli-ayağı yerə dəymirdi. Oğlanları artıq çoxdan onun yanında yaşamasalar da, ancaq onların hərəsinə bir dəst yorğan-döşək də düzəltmişdi. «Uşaqları» gələnə yaxın o bu yorğan-döşəyi eşiyə tökər, günə verərdi. Oğlanları gedəndən sonra Yetər nənənin əhvalı qarışardı.

Sərxan gəlməmişdən qabaq, Yetər nənə danışırdı ki, bu gecə yuxu görmüşəm. Gördüm balaca vaxtlarıdır. Uşaqların hərəsini bir tərəfimdə yatırtmışam. Yatmışam. Oyanmışam, uşaqları itirmişəm, axtarıram...

– Ömrüm-günüm, hardasınız?

İkisi də birdən cavab verdi:

– Burdayıq, ay ana!

Baxanda görəm nə?.. Uşaqlar qollarımın üstündən dığırlanıb dəyə çubuqlarının dibinə düşüblər. Çıl-çılpaq... Canları buza dönüb. Tez qucağıma basdım.

– Ananız ölsün, ay bala!

Yetər nənə məni yanına çağırıb dedi:

– Dərdin alım, nə olar, get mənə bir az yarpız dər gətir, dovğa bişirim. Sərxan qağan çox xoşlayır. Bu gethagetdə heç olmasa bir dəfə yesin.

Yarpız dərib binəyə qayıdanda  dağların seyrinə çıxmş Sərxan da qayıdıb gəlmişdi. Üst köynəyini anasına göstərib deyirdi:

– Bunu hara qoymuşdun ki, beləçi əzilib. İndi mən bunu necə geyim?

– Çubuqdanca asmışdım, dərdin alım.

– Budur, bax, burasına da ləkə düşüb.

– Ver görüm təmizləyə bilərəm?!

– Ala, ay Yetər nənə, – deyib bağlamanı ona verdim.

– Sağ ol, ömrün uzun olsun, bala!

Axşamdan xeyli keçəndən sonra yata bilmədim, bayıra çıxdım.

Onların dəyəsinə sarı getdim. Yetər nənə hələ yatmamışdı, məni görən kimi sevindi,  dəyənin qabağında ocaq qalamışdı, dovğa bişirirdi. Astadan:

– Ömrün uzun olsun, – dedi, – elə gözəl yarpız dərmisən ki, ətri dəyəni bürüyüb. Bir az saxladım ki, Sərxan qağan onun ətrini ala-ala yatsın.

Ocağın işığı dəyənin içinə düşür, orada yatan Sərxanın üzündə oynayırdı. Onun başının yanına bir dəstə yarpız qoyulmuşdu. Bundan elə təsirləndim ki, uşaq olsam da istədim içəri girəm, onu oyadam, yaxasından tutub silkələyəm, deyəm ki, gör anan sənin üçün nə edib!..

– Gəl bunu bir azca qarışdır, çürüməsin.

Çömçədən yapışıb bulamağa başladım.

O da gah içəri girir, gah eşiyə çıxır, nə isə bir iş görürdü. Səhərin gözü açılandan beləcə idi. Bir azdan gəlib, ocağın qırağında palaz salıb mənimlə üzbəüz oturdu, buğlanan qazana diqqət yetirdi.

– Qoca baban da bu axşam gələ bilmədi, – dedi. – Onlar da qoyunu aşağı tökmək istəmirlər. Deyirlər heyvan dərəyə enib-qalxmaqdan ətini tökür. Yuxarı arxacda saxlayırlar.

– Yəqin, səhər tezdən gəlib görüşər.

Yetər nənə qəmli-qəmli çiyinlərini çəkdi, nəzərlərini yan-yörəyə gəzdirdi:

– Bu necə şeydir, – dedi, – atların heç hənirtisi yoxdur.

– Buralarda olarlar. Cidarlı-cidarlı hara gedəcəklər?!

Yetər nənə köksünü ötürdü:

– Görmədinmi kim cidarladı?

– Qoca babam.

– Eləsə, atlar heç yana tərpənə bilməzlər.

Anam məni çağırdı, yolumu cidarlı atların yanından saldım... öz dəyəmizə getdim. Səhər tezdən geyinib bayıra çıxdım. Gördüm Yetər nənənin dəyəsinin qabağında bir neçə adam dayanıb, Sərxan qağa da plaşı qolunun üstünə atıb, bikef-bikef onların arasında durur, çamadanı da yanında.

– İndi mən nə edim? – deyə o, əlacsız-əlacsız başını yırğaladı.

Yetər nənə də qəmli-qəmli:

– Mən nə qayırım, ay bala, – dedi. – Dədən daha qocalıb, əli-ayağı əsir. Yəqin, pis bağlayıb, atlar açılıb.

Məsələnin nə yerdə olduğunu o dəqiqə başa düşdüm. Gördüm fağırca Yetər nənəni pis vəziyyətə salmışam, oğlunun yanında xəcalətli eləmişəm.

Sərxan qağanın qabağına gəlib dedim:

– Atları mən açıb buraxmışam.

– Sən?! – Özgə vaxtlar məni mehribanlıqla dindirib-söylədən, kəndə gələndən-gələnə necə oxumağımla maraqlanan, şəhərdən, teatrlardan maraqlı söhbətlər edən Sərxan qağa bu dəfə üzümə heyrətlə, kinlə baxdı. Mən də, düzü, ağzımı açmağıma peşman olmuşdum. Məndən soruşmazdılarmı atları niyə açıb buraxmısan? Başımı köksümə əyərək fikirli-fikirli dayanmışdım ki, Sərxan qağa mənə bir şillə vurdu. Beynim qıjıldadı. Bir istədim yerin-yurdun daş-kəsəyini onun

başına yağdıram, ağzıma gələni deyəm. Lakin ağzımı açmadım, səsimi çıxarmadım, onların yanından tez getmək istədim. Yetər nənə səsi titrəyə-titrəyə:

– Əlin-qolun ağrısın, bala, – dedi. – Necə qıyıb onu vurdun? – Sonra özünü üstümə saldı. Kövrələ-kövrələ: – Bilirəm, bilirəm, dərdin alım, bilirəm. Atları mənə görə açıb buraxmısan. Deyibsən ki, oğlu gec gedər, Yetər nənəm də az darıxar. İncimə, canım-ciyərim, Yetər nənə sənə qurban olsun, incimə!..

O məni qucaqlayıb, köksünə sıxdı.

Nənə nəvazişlərini üstümə çiçək kimi səpələyəndə ürəyimə isti bir təsəlli axıb doldu.

## QOVAQ AĞACI VƏ YOLABAXAN

Qara bulud dağlardan sallanıb oynaya-oynaya dərə aşağı gəlsə də, Alşan kişi tələsmədən yola xır dağıdır, işindən qalmırdı. Yan-yörəyə iri yağış damcıları düşəndə isə belini çiyninə aldı və yol qırağındakı qovağın altına gəldi, ağacın gövdəsindəki ovuğa sığındı, bura damcı da yağış düşmürdü.

Bu qovaq yol işçisi Alşan kişinin yaman karına gəlirdi. Bura onun, demək olar ki, ikinci evi idi. Hər gün günorta çağı o bu qovağın altında süfrə açıb çörək yeyər, dincələr, sonra kürəyini ağacın gövdəsinə söykəyib bir saat mürgüləyərdi. İşini qurtarıb evinə dönəndə belini, külüngünü ağacın ovuğuna qoyardı. Buna görə Alşan kişi bu qovağı çox istəyirdi, hətta yol qırağındakı daşlara əhəng çəkəndə qovağın gövdəsini ağartmışdı ki, cücü-mücüsü olmasın.

Bir gün Alşan kişinin iş yerində qurduğu bu nizam dağıldı: dağlara selləmə yağış yağdı, qovağın iki addımlığından axan çay daşdı, sel yolu basdı. Qovağın çay axan tərəfində dərin bir xəndək əmələ gəldi. Ağacın kökləri üzdə qalmışdı. Su indi də qovağı döşləyib yıxmağa çalışırdı. O boyda gövdənin başı yavaş-yavaş yerə əyilirdi. Səhər tezdən işə gələn Alşan kişi bunu görcək gözü kəlləsinə çıxdı. Ayaqlarını soyunub çirməndi, birtəhər keçib bel-külüngünü ovuqdan çıxartdı, sonra yol haqqında fikirləşdi: «Ağac qəfildən yıxılar, fəlakət törədə bilər». Alşan kişinin bədəni gizildədi, yolun ortasına çoxlu daş yığdı. Gələn maşınlar dayandı. Bir-birinin ardınca düzülərək siqnal verməyə başladı.

Kişi çiynində bel qabağa çıxıb ucadan dedi:

– Ay canım, ay gözüm, görürsünüz yol bağlıdır, daha hay-küy salmağın nə mənası var?!

O maşının-bu maşının kabinəsindən neçə baş çıxdı, neçə ağız-burun göründü, dəyənək təki neçə qol bayıra uzandı, neçə nazik-yoğun səs gəldi:

– Yolu niyə bağlamısan, a kişi?

Alşan kişi səsini aşağı dabana endirdi:

– Görürsünüz yol xarabdır, – dedi və vəziyyəti onlara izah etməyə başladı: – Baxın, ağacın alt tərəfi necə ovulub, yol da əndərilib gedir.

Bayaq dəyənək təki uzanmış qollar şırp aşağı düşdü, hər şoferin ağzından bir avaz gəldi:

– A kişi, bizi avara eləmə. Sən mühəndissən?

– Mən sənə iki daşın arasında mühəndisi hardan tapım, ay bala! Bir də nəyə lazımdır bu?

Qabaqkı maşının şoferi damağındakı Kazbeki «tfu» eləyib açıq pəncərədən yerə atdı və motoru işə saldı:

– Daşları götür, a kişi!

– Yox! – deyə Alışan kişi başını buladı və daha söz güləşdirməmək üçün dönüb o yana getdi. Bir az aralanmışdı ki, şoferlər maşınlardan düşdülər. Kişinin yolun ortasına yığdığı daşları götürüb bir-bir qırağa tulladılar. Qoca səsə geri dönüb bunu görcək dəli oldu:

– Ayə, nə qayırırsınız? – dedi, əlindəki beli çiyninə alıb yüyürdü. O, yola çatanadək şoferlər gülə-gülə qaçıb maşınlarına oturdular, maşınlarını sürüb getdilər. Alşan kişi bir-birinin ardınca ötüb keçən maşınlara baxa-baxa narazılıqla başını yırğaladı.

Alşan kişi o gün özünü-sözünü bilmədi. Şoferlərin özbaşınalığı onu yaman əsəbiləşdirdi. Axşamlar işini qurtarıb evə gələndə həmişə maşına oturduğu halda, bu gün piyada yola düşdü. Arxadan bir maşın gəlib onun bərabərində dayandı.

– Alşan dayı, keç maşına otur!

Alşan kişi cəmi şoferlərdən küsdüyü üçün könülsüz-könülsüz cavab verdi:

– Sağ ol, hörmətin artıq olsun. Ayaqla gedəndə yola fikir verirəm, sökülübdağılmış yerlərini manşırlayıram ki, vaxtında düzəldim.

Alşan kişi yoluna davam etdi və yolun qorxulu olması haqda şoferlərə bir daha bir söz deməyəcəyini düşündü. Belə fikirləşdi ki, xəbərdarlıq edib borcundan çıxmışdır.

Evdə isə yenə narahat oldu. Bilmədi nə etsin, yorğun olsa da, durub qonşuluqdakı şofergilə getdi.

– Dərdin alım, – dedi, – bilirəm, o ağac bu gündə-sabahda yıxılacaq. Qorxuram xata sizin başınızda çatlasın. Ağacın yıxılmağı ordan maşın keçən vaxta düşsə, böyük bədbəxtlik olar. Deyirəm, bəlkə, bu üzümüzə gələn sabah hər şofer bir maşın daş-torpaq gətirib suyun qabağına töksə, xata sizdən uzaq olar.

Qucağında körpə uşaq tutan şofer dişlərini ağardıb rişxəndlə güldü:

– Eh, rəhmətlik oğlu, başımızı qaşımağa heç macal tapa bilmirik. O boyda tikinti ağzını açıb...

– Bilirəm, ay oğul. Ancaq o yolda işləmək çox qorxuludur.

Şofer etinasızlıqla dedi:

– Heç nə olmaz, qorxma!

Alşan kişi dik-dik şoferə baxdı, əlini üzünə çəkdi. Onun duruşu, baxışları, hərəkəti bu sözləri ifadə edirdi. «Mən axı ağsaqqalam!..»

Şofer yenə özünü laqeyd apardı:

– Hələ o qovağın canı yoxdur, – dedi. – Bir də axı ora nə qədər torpaq töksən, su yuyub aparacaq.

Qanı qaralan Alşan kişi ayağa durdu, sözü tutulmadığından ev sahibi ilə soyuqca xudahafizləşib çıxdı. O, çox vaxt axşamlar evdə olar, görüləsi bir iş varsa, onu görər, bu olmayanda isə ayaqqabılarını, corabını çıxarıb, döşünü-başını açıb eyvanda oturar, dincini alardı. Bu dəfə qonşudan çıxandan evə tələsmədi, evinin yanından keçən kələ-kötür yolda dayanıb öz-özünə: «Nə qayırım? Bu işə necə əncam çəkim?» – dedi. Özü deyib özü eşitdi. Kişi darıxdı. Bu gün iş yerində danışdığı, bu barədə söhbət elədiyindən, onu başa düşməmələrindən, irəlini-gerini fikirləşməmələrindən əsəbiləşən, hövsələsi daralan Alşan kişi bu məsələni təkcə özü həll eləmək qərarına gəldi. Fikirləşdi ki, o da buna soyuq yanaşsa, fikir verməsə, bunun müqabilində qəza baş versə, bədbəxtlik olsa, hamı onu qınayacaq, qınamasalar da o özü buna dözə bilməyəcəkdi. Hələ indiyədək dığırlanıb yola düşən daş-qayanı, şax-şəvəli Alşan kişinin görüb götürmədiyi hal olmamışdı. Elə buna görə də onlardan xeyli uzaqda olan rayon mərkəzində, yol idarəsində Alşan kişinin «yaxşı yol işçisi» kimi böyük bir lövhədən şəkli asılmışdı. Hələ indiyədək onun xidmət elədiyi yolda bir maşının böyrü də əzilməmiş, bir şoferin burnu da qanamamışdı. Baxmayaraq ki, şoferlərin bəziləri qanıb-qandırmırlar, sürəti 100-ə, 120-yə qaldırıb ötüşürlər. Ah, Alşan kişinin cavan vaxtları olsaydı, elənçilərin yaxasından tutub gölə-gölməçəyə basar, təntiyib yalvarmasalar: «Qələt eləmişik, bir də belə ağılsız hərəkət eləmərik», – deməsələr buraxmazdı.

Alşan kişi özünü ələ aldı, fikirləşib ağacı kəsmək fikrinə gəldi. Ancaq bu onun qəti qərarı deyildi. Qoca ağaca qıymırdı, tərəddüd edirdi. Bu qovaq qoca üçün adi ağac deyildi. Alşan kişi ona köhnə dost, yol yoldaşı, həmsöhbət kimi baxırdı. Yolda bir adam olmayanda Alşan kişi onunla danışmış, dərdini-sərini onunla bölüşmüşdü. Bəs indi necə olsun? «Hələ arada bir gecəmiz var. Bəlkə, qovağın özü... külək-zad əssə, tab gətirməz, daha gethagetdir», – deyə Alşan kişi səhəri gözləməli oldu və keçən illərdə olan bir tufanı xatırladı. O vaxt Alşan kişi çay qırağında deyil, başqa bir səmtdə, yolda işləyirdi. Birdən bərk tufan başladı. Yolun qırağına uzun, cavan ağaclar əkmişdilər. Külək vurduqca qələmlərin qəddi əyilir, başları yerə dəyirdi. Belə getsə, bunların hamısı qırılacaqdı. Alşan kişi bel-külüngünü yığışdırıb qələmlərin qeydinə qaldı. Tez baltanı götürüb yaxınlıqda pöhrəlikdən payalar kəsdi, gözlərinə toz-torpaq dola-dola, yıxıla-qalxa, gətirib qələmlərin böyrünə sancdı. Ağac sivrimi ilə, ot-ələflə onları möhkəm-möhkəm sarıdı. İndi o qələmlər böyüyüb, yekə ağaclar olub. «Bax, o cür külək əssə...», – deyə Alşan kişi yenə bayaqkı fikrinin üstünə gəldi. Ağacın bu vəziyyətdə qalmasına razı deyildi. Çünki qorxulu idi. Başqasının başı üstündə cəllad təki dayanıb, onu-bunu qorxuda-qorxuda yaşamağın nə mənası var?!

Meh əsdi, Alşan kişinin qoyun-qoltuğuna dolub paltarını torbalandırdı.

– Şükür olmuş, hardasan, niyə bağlanıb qalmısan, – deyə Alşan kişi mızıldandı. Dostuna tufan arzuladı. Ağır düşüncələrin qabağında qovrulsa da, asta addımlarla evinə gəldi. Həmişə oturub arvadı ilə oyan-buyandan söhbət edən Alşan kişi bu dəfə axşamdan soyunub yerinə uzandı. Fikir ona yenə rahatlıq vermədi. Nəzərində yol, maşın, nəhəng qovaq ağacı... Gözlərini yumdu ki, heç nə görməsin.

Gecənin bir vədəsində qulağına balta səsi gəldi: Taq!.. Taq!..

Kişi yuxulu-yuxulu yerində qımıldandı. O biri üzü üstə döndü: «Bu nə idi?» Qalxdı. Sən demə, yuxuda ağacı kəsibmiş.

Tələm-tələsik geyindi. Evdən çıxdı.

Qoca qovağın döşü hələ uzaqdan ağarırdı – əzəmətlə, vüqarla! O bu həndəvərdə olan ağacların ən nəhəngi, ən ucası idi. Uzaqdan baxanda onun burada indən belə min il də duracağını güman etmək olardı. Ancaq Alşan kişi ora çatıb vəziyyəti daha da qorxulu gördü. Qovağın yarpaqları solğunlaşmışdı. Qoca qovağı belə görcək dayana bilmədi:

– Daha köç vaxtındır, qoca! – dedi, gözlərini ağacdan çəkmədən susdu, elə bil qovaqdan bir cavab gözləyirdi.

Alşan kişinin yenə ürəyi darıxdı:

– Niyə dinmirsən, qoca! – deyə o bayaqkına nisbətən xeyli ucadan dilləndi. Ağacın başından yekə bir quş qalxdı. Səsdən təlaşa düşdüyü üçün çayın axdığı səmtə sarı uçdu. Ağacın başından yerə quru budaqlar düşdü. Alşan kişiyə elə gəldi ki, qovaq onunla danışdı, onun sözünü təsdiq elədi, qocaldığını bildirdi. Quşun çox təlaşla uçub getməsi isə Alşan kişinin ürəyinin başını göynətdi, nəzərlərini səmada xırdaca bir nöqtəyə çevrilən quşdan çəkə bilmədi. Elə baxdı ki, elə bil quşu harasa uzaq səfərə yola salırdı və bir daha onu görməyəcəkdi. Bu hiss onda keçən müharibədən qalmışdı. Dava başlanıb oğlu əsgər gedəndə buracan birlikdə gəlmişdilər. Bax, bu qoca qovağın altında oturub söhbət eləmişdilər. Ayrılarkən qucaqlaşıb öpüşmüşdülər. O zaman yol belə deyildi. Kələ-kötür, əyri-üyrü və dar idi. İki maşın bir-birinin yanından keçə bilmirdi, hətta bir-iki dəfə qəza da olmuşdu, xoşbəxtlikdən salamatlıqla qurtarmışdı. Ancaq yolun düzəldilməsi, buradan təzə və rahat yol salınması məsələsi var idi. Alşan kişinin oğlu da bu işlə yaman maraqlanırdı, yolun çəkilməsində özü də iştirak etmək istəyirdi. Bu haqda söhbət düşəndə: «Təzə yolu çəkək, gör buralarda nə aləm olacaq. Enli, asfalt yol...» – deyirdi. Budur, onun arzu elədiyi yol. Dağ-daş, çöl-çəmən də öz yerindədir, özü isə...

Alşan kişidə belə hallar çox olurdu. Müharibəni, oğlunu xatırlayanda özünü tamam unudurdu. İndi o vəziyyətdə idi. Yaxşı ki dağlardan səhər küləyi əsdi. Qulağının dibində qovağın yarpaqları xışıldamağa başladı. Ağacın yarpaqlarının

səsi özünü iri çaylaq daşlarına, şümal qayalara çırpa-çırpa qıjıltı ilə axan çayın səsinə qarışdırdı. Qoca qovağa baxa-baxa, yarpaqların xışıltısını, pıçıltısını dinləyə-dinləyə ürəyində danışdı: «Burada, bizim bu torpaqda, yolun kənarında yekə bir qovaq bitmişdi. Yayın cırhacırında ətrafa sərinlik yayırdı. Gəlib-gedən onun kölgəsində dincəlirdi. Onun özü kimi Alşan adlı qoca bir dostu da vardı. Səhərdən axşamadək yola qulluq edər, yalaqları, çökəkləri xırla doldurardı. Maşınlar rahat yolun üstü ilə su təki axıb keçdikcə o baxıb sevinərdi».

Alşan kişi özünü qovaqdan ayırmadı. Onun ağlında qoca qovağın taleyi ilə öz taleyi birləşdi, iki həyatın mənası eyni oldu. Bu hislər, fikirlər Alşan kişini mənən böyütdü, o, qoca qovaqla bir boyda oldu. Alşan kişi fikirlərin bu ucalığında dayanmadı, qoca qovaqla birgə yerə yıxılmaq istədi. Mavi boşluğun altında, dolu, qara torpağın köksündə... Ancaq əmin idi ki, yıxılsalar da, onların həyatı qurtarmayacaq, onlar bu yerin adamlarının, buradan gəlib keçənlərin ürəklərində, qaynar gözlərində qalacaqlar.

Alşan kişi bu fikirlərdən çox təsirləndi, bayaqdan mağmın-mağmın dayansa da, yolda gediş-gəlişin başlanmasına az qaldığını fikirləşib, evdən çıxarkən qoltuğuna vurub gətirdiyi baltanı başı üstə qaldırdı. Ancaq balta bir müddət havada qaldı, kişinin ağacı kəsməyə yenə əli gəlmədi.

Sonra oğlunun da bu yolu rahat, səliqəli, qorxusuz görmək istədiyini fikirləşib, baltanı endirdi. Ağacdan əl boyda qamqalaq qopub kişinin qabağına düşdü. Alşan kişinin ürəyinin başı sızıldadı. Az qaldı balta əlindən yerə düşsün. Zorgüc özünü toxtatdı, qovağı kəsdi. Çayın qırağını boş görüb kefsizlədi. Bir azca aralıda qoca qovağın kökündən qalxmış şiki görəndə qəddini düzəltdi...

## TAMAH
*(nağıl)*

Günlərin bir günü bir məmləkətdə xəbər tutdular ki, onların torpaqlarına təcavüz eləmək istəyənlər var. O dəqiqə bildilər ki, bu nankorluq hansı tərəfdən ola bilər. Bu qara yel hardan əsir. Kimlərin xislətində çiylik var. Kimlər çörəkbasanlıq eliyir. Bu qəlbi qaralar, üzə irişib ayaq altını eşənlər çoxdan bəlli idi. Odur ki bunun şayiə olmadığını bilib tədbir tökməyə başladılar. Məsləhət-məşvərətdən sonra ilk qərarlarından biri bu oldu ki, bayraqlarını təcili aparıb öz torpaqlarının sərhədinə sancsınlar. Düşmən baxıb görsün ki, bu, özgə torpağıdır. Onlar da yatmayıblar. Onu qoruyan oğullar var. Bəlkə, ondan sonra düşmən bəd niyyətindən əl çəkə. Qırğın olmamış, qan tökülməmiş hər kəs öz yerində rahat yaşaya. Ona görə igid hesab etdikləri adamlarından bir nəfəri çağırıb bu işi ona əmr etdilər.

Yüyənli-yəhərli at da hazır idi. Kişnəyib şahə qalxır, az qalırdı göyə sıçrasın. Sahibini gözləyirdi ki, gəlib minsin. Camaat isə bayrağı aparacaq adamı dövrəyə almışdı. Ağsaqqallar irəli durub ona ümidlərini bildirirdilər.

– Oğlum, – deyirdilər. – O bir Allah şahiddir ki, heç kəsin torpağında gözümüz yoxdur. Ancaq məkrli düşmənin niyyəti olduqca pisdir. Torpağımıza yiyə çıxmaq istəyir. Buna yol vermək olmaz. Biz doğma Vətənimizi müdafiə etməliyik. İndi, igid, elə elə ki, tapşırığı tez yerinə yetirəsən. Bu şərəfli iş sənə qismət olub. Tanrı özü sənə yar olsun. Qoy səhər-səhər gün doğanda bayrağımızın şöləsi əcdadlarımızın ruhu dolaşdığı hər yerə düşsün. Yad əlindən, yad nəfəsindən nə bir çiçəyimiz üşüsün, nə də bir gülümüz.

Atı yaxına çəkdilər. At ha deyildi, görənək bir şey idi. Yüyənindən neçə igid yapışmışdı. Bir dəliqanlı da üzəngidən basdı. Bayrağı aparan şəxs atın belinə qalxdı. Qamçısını bekaraca qaldırmağa bənd idi ki, kəhər götürüldü.

Bayrağı necə möhkəm tutmuşdusa, əyilib eləmədən başının üstündə təntənə ilə yellənirdi. Əsas məqsəd bunu mənzil başına tez çatdırmaq idi. Qoy uzaq sərhəd nöqtəsində vüqarla dalğalansın. Düşmən baxıb kor olsun. Bilsin ki, mərd oğullar canlarından keçər, amma torpaqlarından keçməz.

Dördnala qalxıb, az qala qanad açıb quş təki uçan atın ayaqlarının tappıltısı da bunu deyirdi. Çapa-çapa bir xeyli getmişdi ki, qabağına şəbbəxeyir bir nəfər

çıxdı. Yolun qırağında dayanmışdı, bunu görcək irəli gəldi. Az qalmışdı atın ayağının altına düşsün. Çox mühüm tapşırıq ardınca getdiyindən bərk tələssə də atlı:

– Həə! Tprrr! – eləyib köhləni saxladı və ona acıqlandı. – Nədir, a kişi?! Nə müşkül işə düşmüsən ki, bu yerdə məni yolumdan eləyirsən.

– Belə də at sürmək olar?! – Bu da ərklə ona acıqlandı.

– Necə?

– Çox bərk sürürsən, heyvan yazıq deyilmi?! – Guya, onun atının qayğısına qalırdı.

Bayrağı aparan adam gülümsündü.

– Buna görə nigaran qalma. – Bilirdi ki, onun mindiyi at elə-belə atlardan deyil. Bərkə-boşa çox düşüb. Cıdırlarda həmişə nəmər alıb. Ona görə belə sözlərə ilişib ləngiməyi lazım bilmədi. Qamçısını qaldırıb atı sürmək istəyirdi ki, şəbbəxeyir əlini atın yüyəninə atdı.

– Qulaq as, çatdadarsan atı, bir bax, bütüncə qan-tərə batıb.

Bayrağı aparan adam atına diqqət yetirəndə gördü ki, heyvan, həqiqətən, bərk tərləyib. Döşündən, paçalarının arasından bir buğ qalxır ki, elə bil qaynar qazana salıb çıxardıblar. Ondan sonra dayanmağa razı oldu ki, at bir az yornuğunu alsın.

Şəbbəxeyir, sən demə, buna bənd imiş. Çiçəyi çırtlaya-çırtlaya gah yüyəndən tutdu, gah üzəngidən basdı, beləcə atlının düşməsinə kömək elədi. Sonra xüsusi bir canfəşanlıqla qulluğunda durdu. Bağlaması-boğçası yerin altındaydımı, üstündəydimi, onu görmədi, ancaq onu gördü ki, bir göz qırpımında yolun kənarında, göy otluğun üstündə bir süfrə açdı ki, gəl görəsən. Hər cür ləziz yeməklər var idi. Şər-şərabı da öz yerində. Bayaqdan tələssə də, necə şeydisə bu atlı oğlan da özünü saxlaya bilmədi, bir də gördü ki, süfrənin qırağında oturub. Bişmişləri yeyə-yeyə dadından-tamından «bəh-bəh» elədikcə şəbbəxeyir «elə sənə nuş olur, mənə də xoş» – deyirdi. Özü də dinə-məssəbə and verirdi ki, yaxşı ye.

– Yeyirəm, yeyirəm, – bayraqdar da, həqiqətən, əlini süfrədəki təamların hamısına uzadırdı. «Ə, bu nə yaxşı adamdır», – deyə ürəyində düşünüb get-gedə ondan xoşu gəlirdi. Tapşırıq yadından çıxmışdı. Gözü süfrədə idi. Qab-qacaqların arasında əl boyda qəribə bir şeyin par-par yandığını görcək isə tamam hər şeyi unutdu. Onun şövqündən süfrədə nə var, hamısı işım-işım işıldayırdı. Hələ bunun üzünə də düşüb gözünü qamaşdırırdı. Məəttəl qaldı ki, bu nə olan şeydir. Axırı hövsələ eləməyib xəbər aldı.

– A kişi, bu nədir belə?

– Bu, – şəbbəxeyir diqqətlə müsafirinə diqqət etdi, – qızıldı!

«Qızıl?!» – Atlı duruxan təki oldu. Sonra əl atıb qızıl külçəsini götürdü. Bir o üzünə baxdı, bir bu üzünə baxdı. O, qızıl görmüşdü, amma bu boydasını görməmişdi. O dəqiqə ürəyindən keçdi ki, bu, bir adamın ola, nəvə-nəticəsinə də çatar. Sonra da qaytarıb yerinə qoydu.

– Daha bunu bura niyə qoymusan? – dedi. – Yeyiləsi deyil ki, adam yesin.

Şəbbəxeyir bir söz deməyib, tezcə götürüb külçəni bayraq aparan adamın qucağına qoydu.

– Götür onu! – dedi. – Peşkəşdi sənə. Elə burdanca da qayıt. Bayrağı da buralara sancarsan. Deyərsən, atı gecə-gündüz sürdüm, bu qədər mənzili zorla kəsə bildim. Ondan sonra get özün üçün kefnən yaşa.

Bayraqdar onun ağzının havasını başa düşüb duruxdu. Bu adam necə cəsarət eləyib ona belə bir təklif elədi. O bunu nə hesab eləyir? Neçə başı vardı ki, belə oyunlara gedir. Demirmi asarlar, kəsərlər. Boğazını elə üzərlər ki, başı kəsik toyuq təki qalar çapalaya-çapalaya. Ancaq bununla bərabər, külçəni əlindən yerə qoymurdu. İkiəlli elə bərk-bərk tutmuşdu ki, elə bil kimsə bu saat əlindən alacaq. Bu cür ona xoş gəlirdi. Və ürəyindən cürbəcür arzular keçirdi. Bu boyda qızıl onun olsa, hamı ona baş əyər, hamı onu barmaqla göstərər, qabağında nökəri-qaravaşı olar.

– Yaxşı. Mən razı, – deyib bayrağı aparan adam əlində külçə necə ayağa durduğunu heç özü də bilmədi.

Səhəri gün ölkədə hamı bir-birinə dəydi. Bayrağın axıradək aparılmamasını, yaxın yerə sancılmasını, düşmənin də qoşununu çəkib həmin yerədək gəlməsini və «bu torpaqlar mənimdir» deməsini eşidib sarsılmışdı. Bu, necə iş idi? Kim idi günahkar? Naxələflik hardan gəlirdi? Yoxsa at etibarsız çıxmışdı? Onu yarı yolda qoymuşdu. Amma bu, ola bilməzdi. Yaxşı qaçan at idi. Neçə-neçə ilxının içindən tək onu seçmişdilər. Sürücüsünü heç vaxt yarı yolda qoya bilməzdi.

– Yalan deyir! – Camaat ordan-burdan səsini qaldırdı, bu işdə birbaşa bayrağı aparan şəxsi günahlandırdıqlarını bildirdi.

Həqiqətən, ciddi surətdə axtarış aparıldığı zaman məlum oldu ki, satqınlığı elə bu adam eləyib.

– Tfu! Vicdansız! – deyə hamı satqını söyürdü. Adamları yandırıb-tökən bu idi ki, satqınlığı özününkü eləmişdi. Öz cibini, öz mənfəətini güdmüşdü. Xalqı fikirləşməmişdi. Dünya malını xalqın, torpağın şərəfindən artıq tutmuşdu. Bu məmləkətdə hələ belə vicdansızlıq olmamışdı.

* * *

Xalqın qəzəbi aşıb-daşırdı. Xalq müttəhimi mühakimə etməyi tələb edirdi. Hökmün tez çıxarılmasını və yerinə yetirilməsini ləngitmək olmazdı.

– Asılsın!

– Kəsilsin!

– Vəhşiləşmiş itlərin qabağına atılsın!

– Güllələnsin!

– Boğazına kəndir salınıb sürüdülsün!

– Doğram-doğram edilsin!
– Yüz arşınlıq quyuya salınsın!
– Üstünə əfi ilan buraxılsın!

Ayaqlarından başı aşağı asılmasını təklif eləyənlər də olurdu. Bəziləri də deyirdi ki, öldürülməsin, boğazına zəncir salınıb kəndbəkənd, şəhərbəşəhər gəzdirilsin, hər onu görən üzünə tüpürsün. Hətta tonqalda yandırılmasını istəyənlər də tapılırdı. Xülasə, hərə bir cür cəza təklif edildi. Hamısı da ən ağır cəza olurdu. Ölüm! Ölüm! Ölüm! Vətən xainini heç kəs əfv eləmirdi. Amma bu cəzaların heç biri elə bil ayrı-ayrılıqda heç kəsi təmin eləmirdi. Elə bil hamısını bir yerdə tətbiq eləmək istəyirdilər ki, bəlkə, xalqın ürəyindən tikan çıxa, acığı bir az soyuya, sakitləşə. Ancaq hamısını bir yerdə necə edəsən? Onun ölümü üçün bir cəza da kifayət idi. Bu işə baxan hakimlər çiyinlərini çəkə-çəkə qalmışdılar. Bilmirdilər necə qərar çıxartsınlar ki, xainə layiq olsun.

Nəhayət, məhkəmənin qərarı oxundu.

– Aldığı qızıllar əridilib boğazına tökülsün.

Qəzəblənmiş camaat hökmə mat-məəttəl qaldı. İndiyədək müəyyən günah işləmiş adamlardan asılan, güllələnən görmüşdülər. Hətta əl-qolu kəsilən də görmüşdülər. Amma bu cürünü görməmişdilər. Belə cəza veriləcəyini heç ağıllarına da gətirmirdilər.

Hökm icra edilməmişdən qabaq müttəhimə söz verildi.

– Bəlkə, bir sözün var, buyur, danışa bilərsən.

Müttəhim dünya malına tamah salıb bütün xalq qarşısında böyük günah etdiyini başa düşmüşdü. İndi əfv edilməsini xahiş etmək məqsədiləmi, yoxsa, həqiqətən, belə cəzaya layiq olduğunu bildirərək heç olmasa ruhunun xəcalətli, başıaşağı olmamasını təmin etmək üçünmü danışmağa cəhd etdi, amma bacarmadı. Səsi hələ cəzasını almamışdan batmışdı.

...Müttəhimin meyiti bir azdan ortalıqda qalmışdı. Elə ləyaqətsiz iş tutmuşdu ki, qohum-əqrəba da yaxın gəlmirdi. Onların da dilində bu söz çox səslənirdi: «Hələ ona bu da azdır! Hələ ona bu da azdır! Hələ ona bu da azdır».

Hamının diqqəti başqa yerə yönəlmişdi. Fəxrlə, iftixarla deyirdilər ki, neçə-neçə igid bayrağımızı götürüb düşmən qoşununu yara-yara sərhədlərimizə sarı çapır. Hamı onlardan danışırdı. «Analarının südü halal olsun!» – deyirdilər.

## RUHLAR ÇAĞIRIR

Anamı bu gecə yuxuda görmüşəm. Sağlığında necə görmüşdümsə elə eləcə idi. Başını mavi rəngli çit ilə alnının üstündən çəkmişdi. Belinə və kürəyinə qarışıq şal sarımışdı. Soyuq havalarda həmişə belə eləyirdi. Canı bir növ nasaz idi. Buna baxmayaraq, anam yastığa baş qoyan deyildi. Elə onu görərdin ki, həyət-bacada hərlənir, toyuq-cücəsinə dən səpir, bağ-bağçasını becərir. Hələ bir-iki dənə xırda heyvanı da var idi. Mən gedəndə quzusundan, toğlusundan mütləq bir heyvan kəsərdi. Yeyib-içib başımı onun dizinin üstünə qoyub deyərdim:

– Mənim gözəl anam. Mənim qəhrəman anam. Mənim pəhləvan anam. Mənim fil ürəkli anam.

Bu, həqiqətən, belə idi. Atam öləndən sonra yurdda təkcə o qalmışdı. Oğul, qız, özü demişkən, sağ olsunlar, hərəsi bir yana dağılıb getmişdi. Neçə il idi ki, bir damın altında tək-tənha yaşayırdı. Çox demişdim ki, ay ana, qurban olum, axı belə olmaz, gəl aparım səni şəhərə, öz yanıma, hamımız bir yerdə yaşayaq, az taparıq az yeyərik, çox taparıq çox. Bir də ki, allaha şükür nə olub?! Hər şeyimiz var.

– Bəs bura necə olsun, ay oğul? Bu var-dövləti kimə qoyub gedək?

– Eh sən də! Bunun nəyi var-dövlətdir?! – deyə mən də onun sözünə irad tutmuşdum.

Bu məsələdə anam mənlə heç razılaşmırdı.

– Elə demə, oğul. Əsl var-dövlət bu gördüyün torpaqdır. Bir də məsələ onda deyil?! Lap quru çöllük olsun. Axı bura ata ocağıdır. Buranın gərək həmişə işığı yansın, bacasından tüstü çıxsın. Necə ki canımda can var, çalışacağam atanın evi heç vaxt bağlı olmasın, axşamlar işığı yansın, səhərlər həyətində qoyun-quzu mələsin.

– Ay mənim qəhrəman anam, – deyə boynunu qucaqlayıb üzündən öpmüşdüm. Nə edə bilərdim? Ona bu cür xoş idi. Xətrinə heç vaxt dəyməzdim.

Həqiqətən, anam ölən günədək belə yaşamışdı.

İndi onu görəndə yuxuda da olsa, məəttəl qaldım ki, sağlığında evindən çıxmayan anama nə olmuşdu ki, öləndən sonra yolunu bura – şəhərə, mənim yanıma salmışdı? Gün hardan doğmuşdu? Yoxsa yol azmışdı? Tez-tələsik xəbər almağa utandım.

– Xoş gəlibsən, ay ana, – deyə əlimi uzatdım.

Anam mənimlə elə-belə əl tutub görüşməklə kifayətlənərdimi?

– Ömrüm-günüm. Sənə qurban olum, – deyə məni bağrına basıb o üzümdən, bu üzümdən marçamarç öpdü. Sonra da əlini gözünə aparıb uşaqtək ağladı.

– Bu olmadı. Bu olmadı. Daha niyə ağlayırsan?! – deyə qolundan tutub yumşaq kresloda otuzdurdum, sakitləşdirməyə çalışdım, – söylə görək nə var, nə yox?

– Sağlığın.

– Sağlıq olsun.

– Siz nə təhərsiniz, dərdin alım?

– Niyə, pis deyilik. Allaha şükür dolanırıq.

– Do...la...nın.

Do...la...nın. Anam ağlayıb bir az həyəcanlı olduğundanmı, yoxsa başqa bir səbəbdən, nəsə qırıq-qırıq danışırdı. Səsi titrədi. Çalışdı ki, mən bunu sezməyim, amma gizlədə bilmədi. İçəridə ürəyinin döyündüyünü də hiss etdim. Yəqin, daha kənddə yaşaya bilmir, əziyyət çəkir. Ürəyimdə and içdim ki, onu daha qoymayacağam getsin. Bu da əvvəlki illər deyil ki, hər dəfə saqqızımı oğurlasın. Bir də yadıma düşdü ki, axı bu, yuxudur. Anam həyatda yoxdur. Budur o, neçə ildir ki, rəhmətə gedib.

Həqiqətən, bütün bunlar yuxuda baş verirdi. Mən də elə yuxuda çaşbaş vəziyyətdə qalmışdım.

– Ancaq hər nə təhərsə, budur, anam gəlib. Gözümün qabağında dayanıb. Daha bundan artıq sevincli nə ola bilərdi?! Az qala çırtıq çalıb oynayacaqdım ki, anam dilləndi.

– Səndən küsmüşəm, oğul.

– Bıy! Niyə? – Maraqla soruşdum.

– Necə niyə? Bəs adam anasına dəyməzmi? Gözlərim yollarda qaldı, amma sən bircə dəfə hərlənib o qapıya gəlmədin.

Eh! Anam yenə köhnə bayatısını çağırırdı. Yəni çox-çox qabaqlar bu cür açıq, sərt formada olmasa da, yumşaq şəkildə bir az gileylənərdi ki, başına dönüm, kəndə az-az gəlirsən, mən də səndən ötrü darıxıram.

Hər dəfə söz verirdim ki, bundan sonra tez-tez gələcəm, amma düzünü deyim, vədimə xilaf çıxırdım. Aspirantura, namizədlik, doktor olmaq eşqi acı bağırsaq təki uzana-uzana başımı elə qatırdı ki, kənd-kəsək hamısı yadımdan çıxırdı.

– Belə də etibarsızlıq olarmı, ay oğul, – deyə anam indi məni topa-tüfəngə tutmaq fikrində olduğunu bildirdi, – demirsənmi geri yanımda yurdum-yuvam var. Dədə-baba ocağında gedim görüm nə oldu? İtdi, batdı, dağıldı? Adam bir maraqlanmazmı?

Ruhlar çağırır

Nədənsə kiriyib qalmışdım, hiss edirdim ki, bu xına daha o xınadan deyil. Anam o qədər acıqlıdır ki, bir söz desəm, lap qəzəblənər.

– Mən yolu qara da harasa getmişdim. – Anamın gözləri təzədən dolurdu. – Qayıdanda gördüm ev nə gəzir. Viran olub gedir. Daş-divar uçub, evin damı da əndərilib o yandan bəri gəlib. Oturub elə ağlayıram ki, səsim dünyanı başına götürüb. Bir də görürəm nə?.. Səsimə o yandan rəhmətlik Nənəş arvad, Sayalı qarı, Çalxar həvvası, böyrümüzdən Niyar arvadla Xeyransa, yuxarıdan Əsmətlə Reyhan tökülüb gəldilər. Bunlar da mənə qoşulub başladılar ağlamağa. Deyirəm aaz, siz niyə ağlayırsınız? Deyirlər, həncəri bizim də öylərimiz uçub, dağılıb. Sonra da yadıma düşdü ki, axı bunlar ölüblər, ev-eşik bunların nəyinə lazımdır? Belə deyəndə cavab verdilər ki, bəs sabah əziz bir gün olanda biz hansı qapıya gedək ki, bir az ürəyimiz açılsın.

Anamın dediklərinə qulaq asa-asa yenə yadıma düşdü ki, axı mənim anam da ölüb. Amma yazıq arvad. O özü elə bilir ki, sağdır, o birilər ölüb. Daha bilmir ki, o özü də ölüb. Əslində, sağ olduğunu zənn etsə yaxşıdır. Ona görə söhbəti başqa səmtə çəkdim ki, özünü bir az yaxşı hiss eləsin.

– Yaxşı, söylə görək necə gəldin? Yolda əziyyət çəkdinmi?

– Yox, axırı xeyir olmuş, məni bir nəfər yola saldı. Elə sənin kimi boylu-buxunlu bir adam idi. Danışığı, elə səsi də sənə oxşayırdı. Birinci dəfə uzaqdan görəndə elə bildim sənsən. Amma o soldat paltarında idi.

– Soldat paltarında? – Yəni bu qiyafədə olan adama mən necə oxşaya bilərdim.

– Hə. Hələ çiynində avtomatı da var idi. Bax, məni vağzala qədər gətirdi, qatara biletimi də o aldı. Vaqona da mindirdi. Hələ tapşırdı ki, bu anaya yolda diqqət yetirin. Bəlkə, ona bir şey lazım oldu. Ona görə vaqonda hamı mənim qulluğumda durmuşdu. Biri çay gətirirdi, o biri yerimi düzəldirdi. Bir başqası da ağzımı söhbətə tuturdu ki, darıxmayım.

– Sağ olsunlar. Sağ olsunlar, – deyə mən də başda o soldat paltarlı olmaqla anama xidmət etmiş, qulluğunda durmuş bütün şəxslərə qiyabi təşəkkür edirdim.

Eh! Bəs mən niyə durmuşam. Anam xeyli vaxtdır yoldan gəlib, amma ona çaydan-çörəkdən heç nə verməmişik. Qulluğunda özüm durmaq istədim.

– İndi sənə yaxşı dəmli çay verəcəyəm, – deyə tez ayağa durdum.

– Yox, yox! Durma, durma, – anam qolumdan tutdu. Yenə köhnə xasiyyətində idi. Elə bil durub bir stəkan çay süzsəm, əriyim əziləcəkdi. Qıymırdı. Özü durdu ki, mən gedirəm.

Məəttəl qaldım. Anam axı indicə gəlmişdi.

– Hara gedirsən?

– Hara gedəjəm, dərdin alım?! Öyümə-eşiyimə gedirəm.

Tez əlindən tutdum ki, amandır getmə. Çünki yatmış olsam da, bütün bunları real, canlı şəkildə yuxuda görsəm də, bununla bərabər, başa düşürdüm ki, bütün bunlar həqiqətdə baş vermir. Yuxudur, yuxu. Amma məni bir hiss də çuğlamışdı: Necə ki anam burda mənim yanımdadır, deməк, o, diridir, sağdır. Çıxıb getsə, o dəqiqə öləcək. Bunu, deyəsən, özü də bilirdi. Yenə də kömək istəyirdi.

– Ana, qurban olum, getmə, – ayaqlarına düşüb yalvardım, – sən allah getmə!

– Yox, dərdin alım, getməliyəm. – Anam mənə qarşı dəhşətli bir soyuqqanlıqla cavab verdi. Mən onu heç vaxt belə görməmişdim. Acıqcan səsimi qaldırdım.

– Axı hara gedirsən? Niyə gedirsən?

Acıqcan o da səsini ucaltdı:

– Bəs mənim öyüm-eşiyim yoxdur? Viran oldu getdi axı. Bəs bilmirsənmi yiyəsiz evə it girər?

Axırı dayana bilməyib açıldım.

– Axı ora getsən, öləcəksən.

– Ölsəm də, qalsam da gedəcəyəm. Mən burada necə rahat otura bilərəm ki, oraları itlər murdarlasın.

Belə deməyi ilə anamın qapıdan çıxıb yola düşməyi bir oldu. Təzədən mən bunun ardınca uşaq təki düşmüşəm. Onu çağıra-çağıra elə qaçıram ki, aləm tamaşama durub.

– Ay ana, əylən, mən də gedirəm. Ay ana, dayan, mən də gedirəm.

Bir də gördüm gəlib kəndimizə çıxmışam. Həm də mənimlə bərabər, kəndə o qədər adam gəlib ki, saymaqla qurtarmaz. Yol uzunu o üz, bu üz cərgə ilə dayanıblar. Deyirəm, ay allah, bunlar nə vaxt gəliblər? Niyə sıraya düzülüblər? Deyirlər, bəs necə. Bunlar axı hamısı soldatdır.

– Doğrudan? – Sevincək səslənirəm. Fikirləşirəm, yəqin, anamın dediyi soldat da buradadır. İndi onu görərəm. Təşəkkürümü bildirərəm. Ancaq heç bir an keçməmiş aləm necə qarışdısa mənim həmin soldatı tapmağa heç imkanım olmadı. Çünki indiyədək yiyəsiz qalmış həyətlərdə, ev-eşiklərdə itlər gah birbir, gah sürü ilə çıxıb quyruqlarını qıçlarının arasına qısaraq mırıldaşa-mırıldaşa elə qaçırdılar ki, dallarınca ancaq güllə çatardı.

Yazıq anam düz deyirmiş. Yerini, yurdunu gərək heç vaxt yiyəsiz qoymayasan.

Ruhlar çağırır

## SARIKÖYNƏK GÜNƏŞİ NECƏ GƏTİRDİ

Meşəyə bərk qar yağmışdı. Şaxta idi. Ağaclar elə bil donmuşdular. Hərdən əsən küləkdən budaqlar qəribə səs çıxarır, sanki şüşə sınırdı. Balaca-balaca quşlar isə lap titrəşirdilər. Biri yazıq-yazıq dedi:

– Cik-cik... Soyuqdan donuruq, bu günəşə nə oldu?

Quşlar məyus-məyus göyə baxdılar. Səma bomboz idi. Günəş sönmüş ocaq yerini xatırladırdı.

Bir quş budaqdan tıppıltı ilə qarın içinə düşdü. Bir tülkü kolun dibindən atdanıb onu qapmaq istədi. Quşlar şığıyıb yoldaşlarını qarın içindən dimdiklərinə aldılar. Tülkü tullandı ki, havada onlardan birini qarnına ötürsün, ağzı çatmadı. Arxası üstə yıxılıb buza dəydi, güclə qalxa bildi, belini tuta-tuta kənara çəkildi. Quşlar isə yoldaşlarını gətirib rahatca yuvasına qoydular. Belini-başını, ayaqlarını ovxaladılar ki, donu açılsın.

– Gəlin ocaq qalayaq, onda qızışarıq, – deyə bir sarıköynək quşlara təklif etdi.

Quşlar elə bil canlandılar, hərəkətə gəldilər.

– Hə, qalayaq, qalayaq, – deyə sevincək razılaşdılar.

Biri dedi:

– Cik-cik... Ocağı necə qalayaq, odu haradan alaq?

– Mən od gətirərəm, siz çır-çırpı yığın, – deyə sarıköynək üşümüş qanadlarını tərpədib uçdu.

Quşlar onun ardınca baxdılar. Sonra ordan-burdan çör-çöp gətirib bir ağacın dibinə yığmağa başladılar. O qədər yığdılar ki, lap bir yekə qalaq oldu. Bir quşsa ağacın zirvəsinə qonub qanadının ucunu gözünün üstə qoyaraq kəndə sarı boylanırdı: görsün sarıköynək harda qalıb?

Kənddə isə bir həyətdə ocaq qalamışdılar. Üstündə də bir böyük qulplu qazan vardı. Ondan aralıda bir arvad zivəyə paltar sərirdi. Ondan bəridə talvarın altda küçük yatmışdı. Çaxçağın üstə qonmuş sarıköynək gözünü küçükdən çəkmirdi. Küçük bəzən qulaqlarını şəkləyib diqqətlə baxır, bəzən də gözlərini yumub yatırdı. Sarıköynəksə məqam gözləyirdi. Nəhayət, küçüyün tamam yuxuladığını görcək cəld uçub ocaqdan bir çırpı götürüb qalxdı. Küçük hürə-hürə onun ardınca cumdu. Quşa çata bilmədi, mırıldana-mırıldana geri qayıtdı.

Ağacın zirvəsindən bütün bunları görən quş muştuluğa qaçdı.

– Cik-cik... Sarıköynək gəlir. Od da gətirir.

Quşlar pırıldaşıb ağacın zirvəsinə qalxdılar. Hamısı sarıköynəyin od gətirməsinə baxmaq istəyirdi. Ağacın uc budağı isə onların ağırlığına tab gətirmirdi. Əyilirdi. Az qalırdı sınsın.

Sarıköynək uça-uça gəlirdi. Neçə təpədən aşdı, neçə düzəndən keçdi. Od isə dimdiyində tüstülənirdi. Birdən közərməyə başladı. Sonra da alışıb yandı. Az qaldı sarıköynəyi alov bürüsün. Bunu görən quşlar təlaşla pırıldaşdılar, həyəcanlandılar, bəziləri baxa bilməyib gözlərini yumdu, bəziləri də qışqırdı:

– Odu sal! Odu sal!

Sarıköynək odu salmadı. Daha da yeyin uçub meşəyə çatdı. Yoldaşları onu havada qarşıladılar. Yan-yörəsində uçub: – Sarıköynök, at odu, yanarsan, – dedilər.

Sarıköynək çox çətinliklə gətirdiyi odu qarın içərisinə salmadı. Gətirib çör-çöpün altına qoydu. Sonra da qanadı ilə yellədi. Bir azdan bir tonqal vardı ki, gəl görəsən. Quşlar qanad-qanada uçub ağacın dövrəsində yallı gedirdilər. Sonra da ocağın üstündə belədən-belə, elədən-elə keçirdilər. Qıçlarına, qanadlarına alov dəydikcə xoşhallanırdılar. Sarıköynək də bir budaqdan onlara baxıb sevinirdi.

Bir də gördülər ki, dibində ocaq qaladıqları ağac da yanır. Ağac saqqallı-bığlı adam qiyafəsinə düşüb səsləndi.

– Siz nə etdiniz, ay quşlar? Məni niyə yandırırsınız?

Quşlar qorxub kənara uçdular, ətrafda olan ağaclara qondular.

Səsə yan-yörədən başqa quşlar da gəldi. Şanapipik, ağacdələn, qarğa, bülbül, bildirçin, göyərçin, qaratoyuq, kəklik, sağsağan yanğını görcək təlaşa düşdülər. Tez yaxınlıqdan axan çaya uçdular. Oradan ağızlarına su alıb, gətirib odun üstə tökürdülər. Ağacların qabıqları arasından çıxan böcəklər də qarı odun-alovun üstə yığırdılar. Bəzi quşlar da qamış çubuqları uc-uca calayıb çayadək uzatdılar. Balıqlar oradan su vurmağa başladılar.

Bir azdan yerdə sönmüş çır-çırpı tüstülənirdi. Sarıköynək çox pərt idi. Aralıda, bir budaq üstə qəmli-qəmli dayanmışdı. Qaratoyuq onun yanına gəldi.

– Nə oldu sənə? Elə bil heç bayaqkı sarıköynək deyilsən?

– Nə edim? Yaxşı iş görmək istədim, o da belə oldu.

– Gərək bir az kənarda qalayaydıq.

– Hə.

– Bu bizim səhvimizdir. Amma sən... Qoçaqsan, sarıköynək.

– Mən nə etdim axı?

– Gedib bizim üçün ağzında od gətirdin. Ocaq qalayıb xeyli qızışdıq, daha bundan artıq nə olar?!

– Eh, o nədir ki, mən sizin üçün lap günəşi gətirərəm.

– Günəşi?!

– Hə.
– Necə gətirərsən?
– Uça-uça gedərəm günəşin yanına. Sonra da tellərini dimdiyimə alıb gətirib gəlləm.
Qaratoyuq bir solğun qış günəşinə, bir də sarıköynəyə baxıb heyrətlə başını buladı. Sarıköynək dedi:
– Onda hamı üçün yaxşı olar, eləmi? Hər yer günəşli olar. Heç kəs üşüməz.
Qaratoyuq başını tərpətdi.
– Əlbəttə, yaxşı olar, amma mümkün olan şey deyil.
– Mən mümkün edərəm, – deyə sarıköynək budaqdan qopdu.
Qaratoyuq təlaşa düşdü:
– Sən nə edirsən? Qayıt geri!
Sarıköynək günəşə sarı səmt almışdı. Qaratoyuq onun ardınca bir də səsləndi:
– Sən günəşlə zarafat etmə, sarıköynək, od tutub yanarsan.
Sarıköynök sözə qulaq asmadı. Yenə uçmağında davam etdi. Qaratoyuq uçub quşların yanına gəldi:
– Ay quşlar, ay quşlar! – dedi. – Görün, sarıköynək yenə nə oyun açdı?
Quşlar onun başına cəm oldular. Hərə bir yandan xəbər aldı:
– Nə oyun açıb? Hanı sarıköynək?
– Odur ey, sarıköynək günəşi gətirməyə getdi.
Quşlar cəld yuxarı baxdılar. Sarıköynək, həqiqətən, uça-uça günəşə sarı gedirdi. Qaratoyuq isə deyirdi:
– Sözümə qulaq asmadı. Dedi gedib günəşi gətirəcəyəm ki, isti olsun.
Şanapipiklər nigaranlıqla dedilər:
– Bəs demədinmi yanarsan?
– Mən çox dedim, o, az eşitdi.
Şanapipiklərdən biri üzünü bildirçinə tutdu:
– Xahiş edirəm, tez sarıköynəyə xəbər ver ki, qayıtsın, yoxsa ona çətin olar.
Bildirçin uçub uca bir budağa qondu, oradan üzünü göyə tutub morze əlifbasına oxşar bir şəkildə dilini şırtdatmağa başladı:
– Bup-bulum, bup-bulum, bup-bulum.
Bütün quşlar intizar içərisində sarıköynəkdən xəbər gözləyirdilər. Bir azdan cavab siqnalı eşidildi:
– Düüd, düüd, düüd.
Quşlar üzünü bildirçinə tutdular, yer-yerdən soruşdular.
– Nə cavab gəldi?
– Qayıtmaq fikri yoxdur. Uçuşuna davam edir.
Şanapipik təkid etdi.

– De ki, çox təhlükəli iş tutubsan, tez qayıtmalısan.

Bildirçin yenə dilini işə saldı:

– Bup-bulum, bup-bulum, bup-bulum.

Bütün quşlar intizarla sarıköynəkdən yenə xəbər gözləyirdilər. Bir azdan cavab siqnalı eşidildi:

– Düüd, düüd, düüd.

Quşlar yenə soruşdular:

– İndi nə deyir?

– Deyir, günəşi götürməmiş qayıtmayacağam.

Göyərçinlərdən biri həyəcanlı şəkildə qanadlarını çırparaq dedi:

– Mən gedim ardınca, bəlkə, qaytara bildim.

Dillənib bir söz deyən olmadı. Ümumi razılığı hiss edən göyərçin qanadlandı. Çox uçdu, çox yüksəldi, lakin sarıköynəyə çatmadı, qayıdıb gəldi.

Quşlar nəzərlərini göyə zilləmişdi. Sarıköynək günəşə sarı uçmağa davam edirdi. Get-gedə günəşə yaxınlaşdı. Uzaq-uzaq bir yerdə dayanıb qanadları ilə günəşi yelləməyə başladı.

Günəş közərdi, közərdi və birdən tamam işıqlanıb şəfəq saçdı. Sarıköynək bu şəfəqlər içərisində get-gedə görünməz oldu, bir işartı təki parıldadı və sürətlə yerə sarı gəldi.

Quşlar əl-ayağa düşdülər. Bilmirdilər nə etsinlər. Sonra qanadlarını bir-birinin ucuna tutub halay vurdular.

Sarıköynək gəlhagəldə onların qolları üstə düşdü. Qanadları, tükləri qarsalanıb yanmışdı. Tez onu yuvaya apardılar. Şanapipiklər elə bil şəfqət bacıları idilər. Hərəsi bir yandan onun qulluğunda durur, bədəninə cürbəcür məlhəm kimi yarpaq qoyurdular. Dimdiklərində su gətirib onun üstə çiləyirdilər.

Bir azdan sarıköynək gözlərini açdı. Günəş səmadan şəfəq saçırdı, yerdə qar əriyir, bulaqların şırıltısı eşidilir, ağaclar tumurcuqlanır, yarpaq açır, çiçək açır, torpaqdan otlar baş qaldırırdı.

Sarıköynəyin də tükləri gəlir, qanadları uzanırdı.

## ÜFÜQDƏ TONQAL YANIR

Bir dəfə balaca Şahmərdan anasına dedi:

– Anacan, bu necə işdir ki, siz həmişə məndən tez durursunuz?

– Çünki bizim işimiz-gücümüz var, oğlum. Əgər tezdən durub onları bir-bir görməsək, yığılıb üst-üstə qalar. Sonra da heç çatdırmaq olmaz. Bildin?

– Bildim.

– Babalar da bilirsən nə deyib, oğlum?

– Nə deyiblər?

– Deyiblər ki, əldən qalan, əlli il qalar. Bax, ona görə tezdən dururuq.

Şahmərdan bir qədər fikirləşib dedi:

– Mən də erkən qalxmalıyam. Lap sizdən də qabaq.

Oğlunun belə deməyi ananın ürəyini açdı. Mehriban baxışlarla onu süzüb dedi:

– Özün bilərsən, oğlum. Xətrin necə istəyir, elə də et.

Sabahı gün Şahmərdan oyanıb gözlərini açanda özündən başqa heç kəsi görmədi. Hamının çarpayısı yığışdırılmışdı. Örtükləri salınmışdı. Yalnız o yatıb yuxuya qalmışdı. Şahmərdan tamam dilxor oldu. Tez anasını səslədi:

– Ana!

Oğlunun səsini eşidən ana eyvandan içəri gəldi.

– Nədir, qadasın alım.

Şahmərdan qaşqabaqlı soruşdu:

– Mən niyə tezdən durmamışam?

Ana şən-şən güldü:

– Nə bilim, ay şeytan. Mən qapı-bacanı yığışdırdım. İnəyi də sağıb süd bişirdim.

Şahmərdan danışmadı. Sonra xahiş etdi:

– Anacan, sabah tezdən məni oyadarsan?

– Oyadaram, mənim balam.

– Bax, yadından çıxmasın ha!

– Heç elə şey olar?!

O biri gün də Şahmərdan yuxudan oyananda az qala gün-günorta olmuşdu. Odur ki yenə qaşqabaq töküb dedi:

– Bəs məni niyə oyatmamısan, ana?

– Oyatdım, oğlum.

– Belə oyadarlar?

– Nə edə bilərdim. Oyatdım, sənsə başını balışa qoyub yenə də yatdın. Mən də sənin yanında durası deyiləm ki. Heyvanlarımızı aparıb örüşə ötürdüm. Odur eyy, lap o uzaqdakı yamaca ötürdüm.

Şahmərdan bu dəfə hirsli-hirsli danışdı:

– Sən məni bir də oyadayadın. Bir də! Bir də! Lap çarpayıdan düşürüb geyindirəydin.

– İgid oğlanlar özləri oyanırlar, oğlum. Özləri durub geyinirlər.

Şahmərdan suçlu-suçlu dedi:

– Bəs mən neynim? Yatıb yuxuya qalıram.

Ana çiyinlərini çəkdi:

– Nə bilim, oğlum. Yenə özün bir əncam çəkməlisən.

– Ana?

– Hə.

– Anacan, elə olurmu ki, igidlər heç yatmayalar.

– Niyə olmur, ömrüm-günüm. Elə igid oğlanlarımız var ki, bəzən bütün gecəni yatmırlar, keşikdə dayanırlar. Nə gözlərini yumurlar, nə dizlərini qatlayırlar. Ayıq-sayıq vətənimizi qoruyurlar.

– Onların yuxusu gəlmir, ana?

– Gəlir.

– Yuxuları gələndə necə edirlər, hə?!

– Necə edəcəklər?! Yatmırlar. Çünki onlara keşikdə dayanmağı tapşırıblar. Tapşırığı isə qoçaq, igid oğlanlar igidliklə yerinə yetirirlər. Sən də cəhd elə ki, istədiyin vaxtda oyanasan. Ümumiyyətlə, tezdən durmağa öyrəş. Onun xeyri çoxdur. Adam obaşdan qalxanda gümrah olur. Təsəvvür elə ki, sən Günəşdən qabaq oyanmısan. O, qızıl yallı atını minib səma səfərinə çıxmamışdan, sən gözlərini açıb bu geniş dünyamıza baxırsan. Deməк, sən günəşdən də qoçaqsan.

– Anacan, Günəşi də oyadırlar, yoxsa o özü durur?

– Günəş özü durur, mənim balam.

– Nə əcəb, heç bir dəfə də olsun yatıb yuxuya qalmır, həmişə vaxtında qalxır.

– Ona görə ki, Günəş işində çox dəqiqdir. O bilir ki, hər yerdə insanlar onun yolunu gözləyirlər. Ona görə də...

– Anacan, Günəş heç balaca uşaq olub?

– Günəşmi, qadasın alım?! Düzünü desəm, mən gözümü açandan onu beləcə, bax, indi sən gördüyün kimi görmüşəm.

– Demək, o səndən də qabaqlar uşaq olub.

– Ola bilər.

– Görəsən, onda necə olub?

– Kim bilir.

– Mənim kimi balaca...

– Hə, sənin kimi, əziz oğlum. Bax, sən mənim qəşəng balamsan. Sən də Günəş olub elin-obanın işığını-odunu bol eləməlisən. Bunun üçün ağıllı, qoçaq, iradəli, diribaş olmalısan. Eşitdinmi?

– Eşitdim, anacan. Sabah lap obaşdan duracağam. Günəş oyananda görəcək ki, mən ondan qabaq qalxmışam.

Şahmərdan sözünün üstündə duran oğlan idi. Gündüzlər öhdəsinə nə düşsə, boynuna nə alsa, nəyə söz versə, yerinə yetirərdi. Amma bu səhər də yatıb yuxuya qaldı. Səhər duranda gördü az qala gün-günorta olub. Bu dəfə Şahmərdan anasına bir söz demədi. İgidlər sayağı qaşqabaqlı dayanıb dodaqaltı öz-özünə danışdı.

– Mən də Məlikməmməd kimi barmağımı qanadıb yerinə duz basacam. Qoy əlimi acışdırsın, göynətsin, bəlkə, yuxum gəlməyə, bəlkə də, heç yatmayam.

Ana təlaşla başını buladı:

– Yox, yox, qadan alım, elə şey eləmə.

– Niyə?

– Barmağın ağrıyar.

– Ağrısın daa! Mən axı Günəşdən qabaq oyanmaq istəyirəm. İstəyirəm ki, səhərin necə açıldığını görəm.

– Görəcəksən, əziz balam. Görəcəksən ki, qaranlıqlar necə sökülür, üfüqlər necə qızarır.

– Üfüq harda olur, anacan?

– Üfüq? Bax, bizim şiş təpənin ardından o yanda. Göylə yerin birləşdiyi kimi görünən yerdə.

– Orda tonqal qalayırlar?

– Tonqal?! Hə, elə bil üfüqdə tonqal yanır. Axı üfüq alov rəngində olur.

– Alov? Qaqaşın qalstuku rəngdə?

– Hə, lap qaqaşın qalstuku rəngdə. Sənin bayrağın rəngdə.

– Mən sabah sizdən də tez qalxacağam. Üfüqdə yanan tonqala baxacağam, – deyə Şahmərdan bu dəfə də qəti söz verdi.

Axşam yatanda Şahmərdan öz-özünə deyirdi:

– İgidlər gecə-gündüz keşikdə dayanırlar, nə gözlərini yumurlar, nə də dizlərini qatlayırlar. Vətənimizi ayıq-sayıq qoruyurlar.

Onun sözlərindən xoşlanan ana da gülümsəyərək belə deyirdi:

– Yat, körpə balam, yuxun şirin olsun.

– Siz də yatırsınız, ana?

– Yatırıq, oğlum. İndi hamı yatıb dincəlmək istəyir.

– Sən də, anacan?

– Hə, mən də!

– Atam da?
– Hə atan da!
– Qaqaşım da?
– Qaqaşın da!
– Ha-mı?
– Hə. Ha-mı. Bax, belə hesab elə ki, yaşadığımız bu dünya qara saçlı, qara gözlü qəşəng bir qızdır. Bax, indi o da yatmaq istəyir. Gözlərini yumub saçlarını üzünə tökür. Deməк, axşamdır. Səhər isə gözlərini açıb saçlarını yığıb arxasına atır, hər yan aydınlaşır, hər yan işıq olur. Demək, səhər açılıb gündüz olur.

Ana bu sözləri deyib qurtarcaq Şahmərdan üzünü əlinin üstünə qoyub yatdı. Səhər obaşdan oyanan ana isə yenə oğluna qıymaq istəmədi. Üsulluca durub şapşaplarını ayaqlarına aldı, asta-asta addımlarla çıxıb getmək istəyirdi ki, birdən Şahmərdan oyanıb dik atıldı.

– Ana! Anacan!

Ana ayaq saxladı:

– Nədir, qurbanın olum.
– Günəş çıxıbmı, ana?
– Hələ yox, başına dönüm.
– Uraaa! – Şahmərdan əllərini başı üstə qaldıraraq sevincək bayıra qaçdı.

Üfüqdə elə bil, həqiqətən, tonqal qalamışdılar. Şahmərdan üfüqün belə alışıb yandığını heç görməmişdi. O bu möhtəşəm mənzərə qarşısında sehrlənmiş kimi dayanmışdı. Bir azdan Günəşin lalə yanaqlarını görcək Şahmərdan şən-şən qışqırdı.

– Ey Günəş, görürsən, mən səndən qabaq oyan-mı-şaaam!

## BƏNÖVŞƏ

Qatara minəndə Xasayın əlində elə bir şey yox idi. Buna baxmayaraq, o, vaqona çox ehtiyatla qalxdı. Axı əlində bir dəstə bənövşə tutmuşdu. Səhər çöldən dərib gətirmişdi. Şəhərdə yaşayan dayısına aparırdı. Bilirdi ki, dayısı bənövşəni çox sevir; rəngindən, ətrindən yaman xoşu gəlir.

Xasay bənövşəsini vaqonda da əlindən yerə qoymadı. Kupedəkilər ona diqqətlə baxıb deyirdilər:

– Ay qoçaq, bənövşələrin çox gözəldir!

– Lap təzə-tərdir. Ətrindən adam məst olur...

Adamlar belə dedikcə Xasay əlindəki bənövşə dəstəsini barmaqları arasında daha da sıxırdı. Elə bil onu itirəcəyindən qorxurdu. Sanki əlindəki adi çiçək deyildi, bənövşə qiyafəsində nəsə sehrli bir quş idi. Barmaqlarını azca boşaldan kimi pırıltı ilə uçacaqdı.

Güllü paltarlı bir qadın Xasaya dedi:

– Yaxşı, onu nə vaxtadək eləcə tutacaqsan?

Xasay çiyinlərini atdı.

– Səhərəcən?

Xasay gülümsünüb başını tərpətdi.

Güllü paltarlı qadın dedi:

– Axı onları xarab edərsən, tez soluxarlar.

Xasay təşvişlə dilləndi:

– Niyə?

– Çünki saplaqlarını sıxırsan. Onlar da bundan inciyirlər.

Xasay barmaqlarını bir qədər boşaltdı. Güllü paltarlı qadın əli ilə bönövşələrin saplaqlarını göstərib dedi:

– Bax, o qədər sıxmısan ki, barmaqlarının yeri görünür. Qoy bir az sərbəst qalsınlar. İstəyirsən gətir, kağıza büküb sərin bir yerə qoyaq.

Təklif ağlına batdığı üçün Xasay razılaşdı.

– Bükək, – dedi və üzbəüz oturmuş qadınla söhbət edən anasına müraciət etdi:

– Kağızın varmı, ana?

– Məndə sellofan var. Bu dəqiqə...

Bir azdan bələdçi qadın gəldi. Gözü səliqə ilə sellofana bükülüb pəncərənin qabağına qoyulmuş bənövşə dəstəsinə sataşdı.

– Nə gözəldir! – dedi. – Kimindir?
Xasay:
– Mənimdir, – dedi.
O düşündü ki, bənövşədən yalnız onun dayısının yox, hamının xoşu gəlirmiş. Belə bilsəydi, lap çox yığardı, çoxlu dəstə bağlayardı. Gətirib hərəyə bir neçəsini bağışlayardı. Hamının könlünü şad eləyərdi. Nə biləydi ki, adamların yanında bənövşənin bu qədər xətir-hörməti var?! İndi az da olsa, Xasay bələdçi qadına yenə təklif etdi:
– Xalacan, görürəm bənövşədən çox xoşunuz gəlir, bölüm yarısını götürün.
– Yox, yox! Çox sağ ol! Ancaq bilirsənmi mən nəyin fikrini çəkirəm?
– Nəyin, xala?
– Onu düşünürəm ki, hər halda vaqon isti olacaq. Qorxuram bənövşələr dözməyə. Axı onlar çox zərifdirlər.
Güllü paltarlı qadın da onun sözünə qüvvət verdi:
– Elədir. Mən də onun dərdini çəkirəm.
Bələdçi qadın:
– Ona bu saat bir əlac edərik, – deyib, tələsik kupedən çıxdı. Çox keçmədi ki, bir stəkan su gətirdi. Xasayın bənövşə dəstəsini onun içərisinə qoyub sevinclə dedi:
– Daha qorxusu yoxdur.
Xasay mat-məəttəl qaldı: yaşlı adamlar iş-güclərini buraxıb uşaq kimi bir dəstə bənövşənin qayğısını çəkirdilər.
Vaqonda yatmaq vaxtı gələndə bığlı bir kişi dedi:
– Gecə bir az ehtiyatlı olmaq lazımdır. Birdən stəkana toxunarıq, bənövşənin suyu dağılar.
Bığlı kişi bənövşə dəstəsi qoyulmuş stəkanın yan-yörəsindəki artıq şeylərin hamısını götürdü. Pəncərəyə bitişik vaqon stolunun üstündə yalnız Xasayın bənövşəsi qaldı.
Bir azdan hamı yerinə uzanmışdı. İndi vaqon alaqaranlıq idi. Xasayla bığlı kişi kupenin üst qatında yatmışdılar. Onlar vaqonun tavanından başqa bir şey görmürdülər. Orada isə elə bir maraqlı şey yox idi. Bəlkə, bu səbəbdən yanıüstə çevrilib aşağı, suya qoyulmuş bənövşə dəstəsinə baxırdılar. Birdən bığlı kişinin pıçıltısı eşidildi.
– Yəqin, şəhərdə qız dostun var, bənövşəni onun üçün aparırsan, hə?
Xasay:
– Xeyr, – dedi.
Bığlı kişi yenə pıçıltı ilə soruşdu:
– Bəs kimin üçün aparırsan?
– Dayım üçün!

– Dayın üçün?.. Dayın uşaqdır?
– Xeyr, yekə kişidir. İnstitutda işləyir.
– Dərs verir?
– Xeyr.
– Bəs nə edir?
– Yarasaları öyrənir.
– Yarasaları?..
– Bəli! Öyrənir ki, yarasalar gecənin qaranlığında necə uçurlar? Qaranlıqda nə əcəb bir şeyə toxunmurlar?
– Nəyə toxunasıdırlar?! Havada uçub özləri üçün kef edirlər.
– Bəs elektrik məftilləri, ağaclar, antenalar, dirəklər? Eh!.. havada görün nə qədər şey var. Lap elə bizim qatarın özü...
Bığlı kişi Xasayın sözündə nöqsan tutdu:
– Biz bəyəm havadayıq?! Məncə, qatarlar relslər üzərində hərəkət edir.
Xasay özünü hər şeydən baş çıxaran adamlar tək aparırdı:
– Qatarın ayaqları yerdədir, yuxarı hissəsi isə havadadır.
Bığlı kişi onun məntiqi danışığına təəccüb elədi. Ağızdolusu dedi:
– Ayə, sən nə ağıllı oğlansan?!
Daha danışmadılar. Bığlı kişi bir azdan yuxuya getdi.
Qatar sürətlə gedirdi. Vaqon da elə bil havadan asılmış nənni idi: yırğalana-yırğalana gedirdi.
Xasay görürdü ki, onun bənövşəsinə baxanların çöhrəsinə o dəqiqə sevinc qanadlanıb qonur, gözləri şən-şən gülür, könlü şad olur. Bu balaca oğlan elə bil özü ilə bu boyda qatara bir dəstə bənövşə yox, bir vaqon sevinc gətirmişdi. Yam-yaşıl dağların, düzənlərin, naxışlı çəmənlərin, məxmər yamacların xoş nəfəsini, ətrini gətirmişdi. Bu xoş hislərlə gözlərini yuman Xasayın yuxusu daha da şirinləşmişdi. O, gözlərini yumub təzəcə yuxuya gedəndə də bənövşəsini gördü. Çox qəribə yuxu idi. Gördü ki, bənövşəsi xəfifcə tərpəndi, ləçəklərinin arasından utancaq və göyçək bir qız boylandı.
Xasay bu qəşəng qıza xoşluqla, mehribanlıqla dedi:
– Ay qız, sən kimsən?
– Mən?.. Mən Bənövşəyəm.
– Bənövşə?
– Hə. Baxsana! Özüm utancaq, örpəyim bənövşəyi.
– Yaxşı. Sən orada neyləyirsən?
– Əl-üzümü yuyuram.
– Sonra nə edəcəksən?
– Oynayacağam.
– Yəqin, «Bənövşə» oyunundan xoşun gəlir?!

– Hə. Çox xoşum gəlir.

Bənövşə qız gülümsəyərək Xasayın ən çox sevdiyi bir mahnını oxudu. Sonra Xasay dedi:

*Bənövşə*
*Bəndə düşə.*
*Bizdən sizə*
*Kim düşə?*

– Xasay düşə, – deyə Bənövşə qız əllərini uzatdı.

– Mə...ən?

Xasay yuxudan oyandı. Az qaldı taxtaya dəysin. Gördü səhər açılıb, adamlar oyanıblar, yır-yığış edirlər.

Gedib əl-üzünü yudu. Qatar mənzil başına çatanda bənövşəsini üsulluca suyun içərisindən götürdü. Stəkanın suyunu boşaldıb sahibinə qaytardı.

– Xalacan, çox sağ olun, – dedi.

Bələdçi qadın xoş əhvalla başını tərpətdi:

– Sən də sağ ol!

Xasay əlində bənövşəsi vaqonun çıxış qapısına sarı gedə-gedə pəncərədən eşiyə boylanırdı. Perronda güldən-çiçəkdən xoşu gələn qayğıkeş, mehriban adamlar dayanmışdılar. Xasaya elə gəlirdi ki, hər yan, gözəl may günlərində qızıl bayraqlarla bəzənmiş bütün şəhər gül-çiçək içərisindədir. Amma hamı onun bənövşəsinə baxır...

## OD

Nərminə müəllimə dəftərləri yoxlamamış yatmaq istəmədi. Çünki səhər şagirdlərə paylamalı idi. Həm də bilmək istəyirdi ki, uşaqlar bu dəfə inşanı necə yazıblar? Necə cümlələr qurublar? Maraqlı fikirləri varmı? Səhvləri çoxmu olub?

Otaq çox soyuq idi. Nərminə müəllimə bir az bundan qabaq peçi qalayıb özü üçün çay-çörək düzəltmişdisə də, çır-çırpının istiliyi otağı qızdırmamış, tezcə sovuşub qapı-pəncərənin arasından bayıra çıxmışdı. Peçi yenidən qalamağa isə bir şey yox idi. Belə ki onun işlədiyi kənddə odun məsələsi çox çətin idi. Meşə uzaq olduğundan hamı çır-çırpı, pambıq çöpü yandırırdı. Belə yanacağın nə hovqatı olacaqdı?! Onların alışdığı ilə söndüyü bir olurdu.

Bir qalaq dəftər stolun üstündəcə dururdu. Elə bil dəftərlər sahiblərinin adından dil açıb deyirdilər:

– Müəllimə, götür yazılarımızı yoxla. Səhvlərimizi bircə-bircə düzəlt, yanlarına qırmızı karandaşla işarə qoy! Qiymətlərimizi yaz!

Sənətinə, işinə qarşı çox diqqətli və həvəsli olan Nərminə müəllimə paltosunu çiyninə salıb stolun ardına keçdi, dizlərinin üstə qalın yun şal salıb qıçlarını bürüdü. Dəftərlərin birini götürüb açdı. Şagirdlərindən birinin yazdığı inşanı təzəcə oxumağa başlamışdı ki, bayırdan şıqqıltı eşidildi. Nərminə müəllimə qırmızı karandaşını vərəqin üstə qoyub gözlədi ki, indi qapını döyən olar. Bəlkə, qonum-qonşudan kimsə onun yanına söhbət etməyə gəlir. Bəlkə, ona işi düşən var? Ancaq daha səs-səmir olmadı. Nərminə müəllimə düşündü ki, bəlkə, qulağı səsə düşüb. Bəlkə, həyətə it-pişik gəlib. Ona görə karandaşını götürüb yenə öz işində oldu.

Səhər tezdən durub məktəbə yollananda gözlərinə inanmadı. Onun qapısı ağzına bir qucaq odun tökülmüşdü. Müəllimə o dəqiqə başa düşdü ki, axşamkı şıqqıltı nə imiş və qaşlarını çatıb fikrə getdi: «Bu işi kim etmiş olar?»

Düzü, Nərminə müəllimə əvvəlcə istədi ki, bu əhvalatı iş yoldaşlarına, məktəbin direktoruna desin. Hər halda, onlar yerlidirlər, kəndlərinin adamlarını yaxşı tanıyırlar. Bilərdilər ki, bu işi kim etmiş olar. Ancaq nə üçünsə heç kəsə bir söz demədi.

Bir neçə gün sonra həmin əhvalat bir də təkrar olundu. Onda Nərminə müəllimə Mingəçevir tikintisində işləyən qardaşına məktub yazırdı. Yazırdı ki, qış

tətilində hökmən Bakıya gedəcək. Çünki bəzi şagirdlərinin kitabı yoxdur. Görsün şəhərdən onlar üçün kitab-dəftər tapa bilərmi? Sonra da yazırdı ki, yaz gəlib, günlər qızanda uşaqları Mingəçevirə ekskursiyaya aparmaq fikrindədir. «Sənin ekskavatorunun yanında şəkil çəkdirərik. Qoy uşaqlar bilsinlər ki, respublikamızda necə böyük işlər görülür».

Nərminə müəllimə məktubunu təzəcə tamamlayırdı ki, bayırdan yenə şıqqıltı gəldi. Kimsə odunu qapının dabanına töküb şappaşap qaçdı.

Səhəri gün müəllimə əhvalatı olduğu kimi məktəbin direktoruna danışdı. Direktor orta yaşlı, gülərüz, mehriban bir adam idi. Müharibədə olmuş, bir neçə dəfə yaralanmış, orden və medallarla qayıtmışdı. Qoltuq ağacını elə bu yaxınlarda atmışdı.

Direktor gülə-gülə dedi:

– O nə yaxşı adamdır, ay Nərminə müəllimə. Desənə, bizim üçün də odun gətirə?

Nərminə müəllimə də gülümsədi:

– Üzünü görmüşəm ki, deyəm.

– Hər kimdirsə, çox sağ olsun. Bizdən o, yaxşı adamdır. Odunları yandır, qoy otağın isti olsun, xəstələnib eləyərsən.

– Mən o odunları yandırmaram, Səftər müəllim.

Direktor təəccübləndi.

– Nə üçün?

– Bilirsinizmi, o cür yaxşılıq, xeyirxahlıq mənim xoşuma gəlmir. Mənə elə gəlir ki, o odunları qalasam da, otağım qızmaz. Əksinə, buza dönər, üşüyərəm.

– Bu nə sözdür, Nərminə müəllimə?

– Az-çox xasiyyətimə bələdsiniz, Səftər müəllim. Mən özüm açıq adamam. Açıq hərəkəti, söz-söhbəti sevirəm.

– Bunu bilirəm. Ancaq sözünün mənasını başa düşə bilmədim.

– Qorxuram, bu gizli xeyirxahlığın ardında başqa şeylər ola, Səftər müəllim.

Səftər müəllim çapıq üzünü ovuşdurub dedi:

– Mən maraqlanaram. Amma sən odunları yandır.

– Ürəyimcə olmaz, Səftər müəllim.

– Eləsə, məktəbdən sənin üçün bir az odun göndərərəm.

Nərminə müəllimə başını bulayıb qəti etiraz etdi:

– Yox, yox! Siniflər soyuq olur. Mənim hələlik çır-çırpım var.

Bu məsələni məktəbin direktoruna, yoldaşlarına demiş olsa da, Nərminə müəllimə ona gecələr gizlicə odun gətirən adamı şəxsən özü tutmaq istəyirdi. Amma bilmirdi necə etsin.

Bir dəfə evin işığını yanılı qoyub eşiyə çıxdı, divarın dibində gizləndi. Nə qədər gözlədisə, gələn olmadı. Üşüdüyü üçün məcbur olub içəri gəldi. Kitab-

dəftərini götürüb səhərki dərslərinə hazırlaşırdı ki, yenə qapının ardından şıqqıltı eşidildi. Nərminə müəllimə cəld durub özünü bayıra atdı. Kimsə odunu töküb qaçırdı. Nərminə müəllimin həyəcanlı səsi eşidildi:

– Dayan!

Qaraltı uzaqlaşmağa cəhd etdi. Nərminə müəllimə onun ardınca gedə-gedə dedi:

– Axı başa düş, mən sənin kim olduğunu bilməyincə bu odunları yandırmayacağam!

Bu sözü dediyini gördü. Qaçan adam o dəqiqə dayandı. Kimsə başına bir soldat şineli salıb dayanmışdı.

– Kimsən?

Ondan səs çıxmadı.

– Səninləyəm axı. Məni nə üçün intizarda qoyursan?

Zəif, utancaq bir səs eşidildi.

– Mənəm, müəllimə.

Nərminə müəllimənin sinəsindən sevinc qarışıq bir təəccüb nidası qopdu.

– Ah! Bu sənsən! Gəl gedək, gəl evə gedək, əzizim.

O, qaranlıqda həmin adamın boynundan qucaqlayıb evə gətirdi. Otaqda onun başına saldığı şineli götürüb, diqqətlə üzünə baxdı. Bu, Nərminə müəllimənin sevimli şagirdlərindən Qaçay idi.

Müəllimə mehribanlıqla soruşdu:

– Yaxşı, de görüm bu işi niyə gizlin tuturdun? Mənə odunu nə üçün gecə gətirirdin?

Qaçay utancaq-utancaq cavab verdi:

– Qorxdum, yoldaşlarım mənim bu hərəkətimi pis başa düşərlər, müəllimə. Elə sizin özünüzdən də ehtiyat etdim.

– Axı sən onsuz da yaxşı oxuyursan. Bütün qiymətlərin «beş»dir.

Qaçay çiyinlərini atdı.

– Nə bilim. Sizə soyuq olmasın deyə...

– Ay mənim balaca Prometeyim, – deyə Nərminə müəllimə Qaçayı qucaqlayıb alnından öpdü. – Gör mən necə xoşbəxtəm! Əgər sənin ürəyinə balaca bir xeyirxahlıq odu sala bilmişəmsə, həqiqətən, xoşbəxtəm.

## YANDI

Müharibə illərində bizim məktəbin süpürgəçisi Sənubər xalanın dörd-beş yaşlarında bir oğlu vardı. Dəhlizdə, sinif otaqlarında anasının ətəyindən tutub zıqqıldaya-zıqqıldaya yanınca sürünür, işinə-gücünə mane olurdu.

– Bala, məni tutulu quş təki niyə mağmın qoymusan, – deyə Sənubər xala da işini görə-görə hərdən deyinər və bəzən də onu özündən kənara itələyərdi. Bunların uşağa heç təsiri olmazdı; yenə anasının ətəyindən tutar, heysiz-heysiz zıqqıldayardı. Özü də elə arıq idi ki, burnunu tutsan canı çıxardı.

O vaxtlar, qışın ortalarında bizə – əsgər ailələrinin uşaqlarına məktəbdə kartof bişirib verərdilər. Adama bir-iki kartof düşərdi. Çörəksiz yeyərdik. Sənubər xalanın oğluna da verərdilər. Yalnız həmin dəqiqələr mən onun ağlamadığını görərdim. Qazandan təzəcə çıxarılmış kartoflar nə qədər isti olsa da, xırdaca barmaqlarını, ovcunu yandırsa da, o əlindən-bu əlinə keçirərək üfləyib soyudardı.

Məktəb sahəsindən yığılmış kartofun dibi suda ha deyildi, beş-on gündən sonra o da qurtardı, qaldıq lələ huy! Biz böyük idik, vəziyyətin ağırlığını başa düşürdük. Amma Sənubər xalanın oğlu qanıb-qandırmır, səhərdən-axşamadək kartofun kürlüyünü edirdi. Eşitdiyimə görə, bir az kartof qalmışdı, onu da toxumluq üçün saxlamışdılar. Bəs necə, bu ilin gələn ili yox idi?! Di gəl Sənubər xalanın «dil bilməz, tanrı tanımaz» oğlunu başa sal. Onun zıqqıltısını eşidəndə bizim sinfin döşəməsinin altında saxlanan toxumluq kartof haqqında düşünər, qulağıma heç nə girməz, gözümə heç nə görünməzdi. Tərs təki zirzəmiyə də yol bizim sinifdən idi. Taxta qapağın ağzına bir paslı qıfıl vurmuşdular. Onu da bir balaca tərpədəndə açılırdı.

Bir dəfə daha dayana bilmədim. Tənəffüsdə uşaqları qapıya keşikçi qoyub tez qıfılı açdım, qapağı qaldırıb aşağı düşdüm. Bura qaranlıq idi, axtarıb kartofları güclə tapdım. İrilərindən beş-onunu seçdim. Qoynuma doldurub çıxırdım ki, birdən taxta qapaq taqqıltı ilə örtüldü. «Niyə belə etdilər? Yəqin, gələn var».

– Salam, uşaqlar! – Bu ara sinfə müraciət edən müəllimin səsini eşitdim. Yerimdəcə donub qaldım. Düz bircə dərs Sənubər xalanın oğlu üçün götürdüyüm kartofların iriliyini, xırdalığını yoxlaya-yoxlaya zirzəmidə qaldım. Zəng bayıra vurulub müəllim gedəndən sonra yoldaşlarım qapağı qaldırıb:

– Ə, çıx! Çıx! – deyə məni tələsdirdilər.

Çıxdım. Kartofları qoynumdan yerə boşaltdım. Uşaqlar tez yığışdırıb peçə tökdülər, külə basdırdılar.

– Niyə belə elədiniz? – deyə soruşdum.

– Çiy yeyəcək?! Bişmiş yaxşıdır.

Sənubər xala uşağı ağlaya-ağlaya dəhlizdə qoyub qara bata-bata su götürməyə getmişdi. Balacanın əlindən tutub sinfə gətirdim ki, sakit dur, sənə kartof verəcəyik, külə basdırmışıq, qoy bişsin.

Sevindi. Çəkib yanımda oturtdum. Mənim partam da peçə yaxın idi. Dərs zamanı peçə odun qoymaq və yaxud ocağın közünü eşmək, üfüləmək lazım gələndə müəllimlər həmişə məni buyurardılar.

Müəllim jurnalda adları oxuyub qurtarandan sonra onu görüb dedi:

– O uşaq burda nə edir? Kim gətirib?

– Anası suya gedib, müəllim. Eşikdə əl-ayağı donurdu, – deyə uşağa yazığım gələ-gələ danışdım ki, müəllim ona rəhm edib sinifdən çıxartmasın.

Müəllim etiraz eləmədi:

– Amma səs salmasın, – dedi, – bu gün inşa yazacaqsınız.

– Ağıllı uşaqdır, müəllim.

O isə müəllimin dediklərini yaxşı başa düşürmüş kimi, ağzını açıb mənim üzümə baxırdı. Elə bil soruşurdu ki, o nə deyir?

– Sən kefini pozma. Lal-dinməz yerindəcə arxayın otur. Kartof da indi bişəcək, – deyə əyilib bu sözləri onun qulağına pıçıldadım.

– Yaxşı. Qələm-dəftər çıxarıb hazırlaşın, – bu ara müəllimin səsi bütün sinfə hakim kəsildi.

Təzə, köhnə dəftərdən, qələmdən, karandaşdan kimin nəyi var idisə çıxarıb partanın üstünə qoydu. Müəllim yazacağımız mövzunu demişdi ki, arxamdakı partada oturan oğlan məni dümsükləyib:

– Ə, kartof yandı! – dedi.

Bayaqdan korun-korun yanan odunlar qızışıb birdən necə alışdısa, elə bil tonqal qalandı. Tez yerimdən qalxdım ki, peçin odunu dağıdam. Müəllimin səsi eşidildi:

– Rövşən!..

– Müəllim, peç böyrümüzü yandırır.

Müəllim icazə vermədi. Əlacsız-əlacsız oturdum. Ancaq yarı canım kartofların yanında qalmışdı. Bir az keçmiş burnuma yanıq iyi dəydi və qulağıma ordan-burdan səslər gəldi. «Kartof yandı! Ə, kartof yandı!»

– Bu nə pıçıltıdır? – deyə müəllim başını qaldırıb nəzərlərini sinifdə gəzdirdi.

Müəllimin diqqəti sinifdən yayınanda yenə pıç-pıç başlandı: «Kartof yandı! Kartof yandı! Eşitmirsən, kartof yandı!» Bütün sinif arı təki vızıldayıb «Kartof yandı!» deyirdi. Az qalırdım qulaqlarımı tutub qaçam.

Balaca da gözlərini peçə zilləyib baxırdı. Ümidli idi ki, kartof yeyəcək. Yenə müəllimdən gizlincə qalxdım, peçin odunlarını astaca dağıtmaq istədim. Müəllim gördü:

– Keç yerində otur. Yazını yaz. Vaxta az qalır, – deyərək mənə acıqlandı.

Bir gözüm gurhagur yanan peçdə ola-ola yazmağa başladım. Zəng vurulanda dəftəri təhvil verdim. Müəllim gedəndə isə tez peçin ağzını açıb əllərimi od-ocaq yandıra-yandıra külü-közü eşələyib kartofları bəri çıxartdım. Sənubər xalanın balaca oğlu az qala kömürü çıxmış kartofları yamaqlı üst köynəyinin ətəyinə yığıb sevinə-sevinə sinifdən qaçdı.

Ertəsi gün müəllim dəftərləri paylayanda gördüm iki almışam. Sən demə, «Məşəl yandı!» əvəzinə «Kartof yandı» yazmışam.

## QUŞ QANADLA UÇAR

Biri vardı, biri yoxdu, bir qaranquş vardı. Abad, gülşad bir eyvanda yuva qurmuşdu. Yuvada da üç balası vardı. Bir gün balalardan biri anasına dedi:

– Anacan, mən də uçmaq istəyirəm.

Ana qaranquş balasının diribaşlığından xoşlanıb, yumşaq tüklü üzünü onun zərif yanaqlarına toxundurub dedi:

– Hələ tezdir, mənim balam. Qoy qanadların bir az da uzansın. Sonra uçarsan.

Qaranquş balası sarı ətçə dimdiyini lovğa-lovğa dik tutub anasına etiraz etdi:

– Yox!.. Qanadları neynirəm, mən uçmaq istəyirəm.

– Heç elə şey olar, ay şeytan? – Ana qaranquş balasını başa salmağa çalışdı. – Bax, bütün quşların qanadı var. Axı quş qanadla uçar. Sənin də qanadların uzanacaq, möhkəmlənəcək. Ondan sonra hara istəsən uçub gedərsən. Hələ darıxma, hər şeyin vaxtı var.

Bir dəfə ana qaranquş balaları üçün yem gətirməyə getmişdi. Qayıdanda gördü ki, həmin nadinc körpəsi yuvadan yerə düşüb divarın dibində döyükür.

Tezcə özünü balasının üstünə atdı:

– Neyləmisən?

– Uçmaq istəyirdim, ancaq necə oldusa, bura düşdüm.

– Sənə deməmişdim hələ tezdir?! Sözə baxmayanda görürsən necə olur?!

Qaranquş balası bilmədi nə cavab versin.

– Anacan, bax, mə...ə...ən, hə?! Bilirsən, bu cür uçmaq öyrənmişəm. İstəyirsən göstərim?

Ana qaranquş dedi:

– Göstər görüm necə uçursan!

Qaranquş balası yerdə atdana-atdana getdi. Ancaq bunu da yaxşı bacarmırdı. Döşü-başı orda-burda daşa-kəsəyə dəyə-dəyə, uça-uça anasına baxdı.

– Gördün, anacan?

– O, uçmaq deyil, balası.

– Bə nədi?

– Ona atdanmaq deyərlər. Sərçələr uçmaqla bərabər, yerdə elə də gəzirlər. Ancaq biz nəsil quşların elə vərdişi yoxdur.

– Neynək, mən həm sənin kimi uçmağı öyrənəcəyəm, həm də belə atdana-atdana gəzməyi.

– Hər şeyi öyrənmək, bilmək yaxşıdır, mənim balam. Ancaq bunlar sonranın işidir. Mən indi fikirləşirəm ki, biz nə edək?

– Nəyi?

– Sən axı yuvamıza necə gedəcəksən?

– Necə? Bax belə, atdana-atdana.

– Elə mümkün deyil axı!

– Niyə?

– Çünki yuvamız çox hündürdədir. Odur eyy...

– Onda məni sən apararsan, anacan.

– Məəən?! Əlimdən gəlsəydi, dərdim olardımı?

– Bacarmazsan?

– Yox, iki gözüm. Bu, heç olan iş deyil.

– Eləsə, siz bura köçün gəlin.

Ana qaranquş bilmədi onu necə başa salsın. Onu qorxutmaq istəmirdi. Hələ körpə idi. Həyatın bərk-boşuna düşməmişdi. Ancaq həqiqəti gizlətmək də istəmirdi.

– Bu da mümkün deyil, balası...

– Niyə mümkün deyil?

– Eh, sən də! Görmürsən ki, bizim burda yuvamız yoxdur? Bir də...

– Hə, bir də nə?

– Pişik bizi yeyər.

– Pişik də quşdur?

– Yox. Bax, o da bir cür heyvandır. Dörd ayağı var.

– Dörd ayağı var? Ay aman... Bəs bizim ayaqlarımız niyə dörd deyil, ana?

– Onun əvəzinə qanadlarımız var, bala, uçuruq.

– Anacan, o bizi yeyər, hə?

– Hə.

– Niyə yeyir axı?

– Bilmirəm... Ancaq... əllərinə düşsək, bizi yeyəcəklər.

– Mən heç qorxmuram.

– Qorxmadığın yaxşıdır. Ancaq hər halda, ehtiyatlı olmaq lazımdır.

– Ehtiyatlı?.. O nə deməkdir?

– Ah! Ürəyimi çəkdin. Heç bilmirəm səni necə başa salım. Ehtiyatlı olmaq, yəni özünü təhlükədən gözləyəsən.

– Deyirsən buralarda gizlənim, anacan?

– Başqa çarə yoxdur.

– Nə vaxtacan?

– Uçmağı bacaranadək. O vaxtadək qanadların da...

– Gecələr də burada qalacağam?!

– Özgə nə etmək olar? Sözə baxmadın, özünü də, məni də işə saldın.

– Deyirsən mənə heç kəs kömək edə bilməz, hə?

Ana qaranquş boynunu büküb, çox qəmgin dayandı. Körpəsi yenə maraqla soruşdu:

– Heeeç kəs kömək edə bilməz, hə?

Bu ara nəsə şıqqıltı gəldi. Ana qaranquş təlaşa düşdü. «Ay aman!.. Görəsən, bu nə şıqqıltı idi? İt-pişik olmasa yaxşıdır. Körpəm əlimdən gedir». Tez onu qanadının altına aldı. Balası pıçıltı ilə soruşdu:

– Anacan, gələn pişikdir?

– Bilmirəm. Səssiz dayan.

– Heç olmasa sən uç get, mənə görə...

– Dedim danışma.

– Bacılarım səni gözləyir, ana.

Bu ara ana qaranquş nə gördü, nə düşündüsə birdən «pırr» eləyib qalxdı. Bala qaranquş fikirləşdi ki, daha hər şey bitdi. İndicə pişik onu «hop» eləyib yeyəcək. «Eh! Gərək anamın sözünə qulaq asaydım. İşləri yaman korladım».

Qarşısında nəhəng bir canlı dayandı. Qaranquş balası atdana-atdana qaçmaq istədi. Ancaq mümkün olmadı. Onu tutdular və yerdən yuxarı qaldırdılar. Qaranquş balası çırpındı, qaçmaq istədi. Ancaq... Sonra sakitləşdi. Nəsə rahat yerdə idi. Özünü lap yuvada olduğu kimi hiss edirdi. Bir azdan isə onu lap yuxarı qaldırdılar və... Qəribə idi. Onu yuvaya qoydular. Anası da uçub gəldi. Yaman sevinirdi.

– Anacan, o nə idi, məni götürüb yuvama qoydu?

– O, insan idi, mənim körpəm. Yaxşı ki, bizi gördü. Yoxsa...

– Hə. İnsan... İnsan əlləri elə yumşaq idi ki, anacan, məni heç incitmədi, elə bil yuvamdayam...

– İnsanlar xeyirxah olurlar, mənim balam.

– Anacan, onların da qanadları olur?

– Yox, onların qanadları olmur.

Qaranquş balası çox məyus oldu:

– Anacan, onlar uçmurlar?

Ana qaranquş balasının qəmlənməyini istəmirdi.

– Uçurlar, – dedi. – Mən onların uçduğunu görmüşəm.

– Axı deyirsən onların qanadları olmur?

– İnsanlar ağılları ilə uçurlar, bala. Quş qanadla uçar, insan ağılla.

## YARPAQ

Tumurcuğundan yenicə çırtıb çıxmış bir yarpaq vardı. Budağın üstündə sakitcə dayanıb utana-utana yan-yörəyə boylanırdı.

Səhər-səhər Günəş doğanda qızıl telinin birini də onun üstünə atdı. Yarpaq şəffaf rəngə boyandı, qamaşan tək oldu. Dedi:

– Aaa, sən kimsən, burada, mənim yanımda nə işin var?

Uzaqdan boylanan Günəş gözlərini qırpıb gülümsədi. Özünü yarpağa təqdim etdi:

– Mən Günəşəm. Dünyanın istisi, hərarəti məndədir. Üşüyənlər mənə sığınırlar. Məni hər yerdə, hər zaman özlərinə yaxın dost tuturlar.

Yarpaq Günəşin hərarətindən xoşlandı. Onun parlaq, işıqlı çöhrəsinə baxıb sevincək dedi:

– Aaa, nə yaxşı! Onda mən heç vaxt üşümərəm.

Günəş göylərə yüksələ-yüksələ yarpağın üstünü tamam örtdü.

– Bəs necə! Bəs necə! Mən həmişə sənin yanında olacağam!

Günəş yalan demirmiş. Yarpaq gördü ki, o, sözünün üstündə möhkəm durur. Səhər-səhər gözünü açan kimi qızıl saçlı Günəş onun yanında hazır olurdu.

Bir dəfə isə... yarpaq budağın üstə dayanmışdı. Birdən yanağına nəsə düşüb onu üşütdü. Yarpaq diksindi. Sonra biri də düşdü.

Yarpaq dözə bilmədi, acıqlı-acıqlı soruşdu:

– Axı sən kimsən belə?

– Mən yağışam. Çoxlu suyum var. Məskənim isə göylərdir. Buludların qoynunda oluram.

Yarpaq hirsləndi:

– Yalan demə! Göydə Günəş olur.

– Yox, yalan demirəm. Mən də göydə oluram. Sənin yanına da məni Günəş göndərib. Göndərib ki, səni yaxşı-yaxşı çimizdirim, yuyundurum. Bir də, bəlkə, susamısan?!

Yarpaq yağışın onu çimizdirməsindən xoşlandı. Damcıların altında sakit-sakit dayandı:

– Aaa, nə yaxşı! – dedi. – Demək, mən heç vaxt çirkli olmaram?!

Yağış daha da güclənib dedi:

– Səni yuyundurub-çimizdirmək mənim boynuma. Onun fikrini çəkmə.

Sən demə, yağış da düz deyirmiş. Bir də görürdün ki, şırıltı ilə tökdü. Yarpaq da yağış suyu ilə üzünü, gözünü yuyub qəşəngləşir, daha da yaşıl olurdu.

Bir dəfə isə qəribə bir həşərat yarpağın üstə çıxdı. Onun çoxlu ayağı və bıçaq təki dişi vardı. Ağzını yarpağın ucuna təzə yetirirdi ki, budağın üstə pırıltı ilə bir şey düşdü. Həşəratı dimdiyi ilə vurub saldı.

Yarpaq dedi:

– Bəs sən kimsən?

– Mən?.. Mən quşam.

Bir dəfə də həsir şlyapası ilə yaxasını yelləyə-yelləyə yaxınlıqdan bir adam keçirdi.

Yarpaq maraqlandı:

– Görəsən, bu kimdir?

Adam bunu eşidib özünü yarpağa təqdim etdi.

– Mən insanam.

– Ey insan, nə üçün yaxanı yelləyə-yelləyə gedirsən?

İnsan cavab verdi:

– Çünki mənə istidir.

– İsti?.. Eləsə yaxın gəl, kölgəmdə bir az dincəl.

İnsan yarpağın xətrinə dəymədi. Yarpaq isə bundan daha da təsirlənib özünü qızmar Günəşin qabağına tutdu:

– Qoy gün mənə dəysin, insana dəyməsin, – dedi.

İnsan bunu eşidib yarpaqdan razı qaldı. Durub gedəndə dedi:

– Əcəb sərinlədik.

– Yenə gəl, ey insan, yenə gəl! – deyə yarpaq onun ardınca səsləndi.

Çoxdan bəri yarpağın hərəkətlərinə göz qoyan ağac, nəhayət, dayana bilməyib dedi:

– Afərin, mənim balam. Əgər sənə edilən yaxşılıqları bilməsəydin, qiymətləndirməsəydin... onda sənə balam deməzdim. Ancaq indi gördüm ki, yaxşı ürəyin var.

Anasının tərifindən yarpaq utanıb qızardı. O gündən üzü qızarmağa başladı. Hərdən yaxınlıqdan axan suda özünü görüb deyirdi:

– Gör nə yaxşı olmuşam. Yanağıma günəşin rəngi qonub.

Bu rəng yarpağın o qədər xoşuna gəlmişdi ki, axırda tamamilə sarı rəngə boyandı. Lap qüruba enən Günəşin rəngində idi.

Bir gün budağından qopdu. Yellənə-yellənə yerə düşdü. Əvvəlcə bu xoşuna gəldisə, sonra pis oldu.

Bu ara onun yanına bir quş qondu. Yarpaq onu tanıdı.

– Salam, dost!

– Salam!

– Sən bura niyə gəlmisən?
– Səni aparmağa.
– Hara?
– Yuvama.
– Aaa, doğrudan?
– Hə, Günəş dedi ki, get onu mənə yaxın gətir. Yoxsa üşüyərsən axı.
– Bəs mən yuvada nə edəcəyəm?
– Heç nə. Bir yerdəcə dayanacaqsan.
– Yox.
– Uzanıb yatarsan.
– Yox.
– Yaxşı, mənim evim olarsan.
– Necə?
– Ovcunda məni tutarsan, yıxılmağa qoymazsan. Razısan?
– Hə, onda razıyam. Axı mənasız yaşamaq istəmirəm!

Quş sarı yarpağı dimdiyinə alıb qanadlandı. Onlar uçub səmaya yüksəldikcə Günəş uzaqdan baxıb gülümsəyirdi...

## KİTABDAKILAR

Ruhu bizimlədir *(V.Yusifli)* ....................5

### POVESTLƏR

Ömrün iki payızı ....................17
Tərs külək ....................157
İnsan yaşayır ....................321
Qurumuş bulağın nağılı ....................509
Əsas ürəkdir ....................541
Məhəbbət çölü....................581
Keçən günün əzabı....................617
Sevən həmişə tapılar ....................649

### HEKAYƏLƏR

Quşlar yuvalarını unutmurlar....................689
Hamımız qonşuluqda yaşayırıq ....................695
Dağ havası....................707
Sağlıq ....................717
Kəkilli cumuldaq....................720
Lal ....................726
İdman dərsi ....................736
Qaraçı qızı....................742
Asfalt yoldan kənarda ....................750
Uşaqlar güləndə ....................758
Hər kəsin öz adı ....................767
Zooparkdan pələng qaçıb....................769
Kişinin oğlu....................772
Biz erkən oyanırıq....................774
Təndirlər qalandı....................783
Yetər nənə ....................789
Qovaq ağacı və yolabaxan ....................795
Tamah....................800
Ruhlar çağırır ....................804
Sarıköynək günəşi necə gətirdi ....................808
Üfüqdə tonqal yanır ....................812
Bənövşə....................816
Od....................820
Yandı ....................823
Quş qanadla uçar....................826
Yarpaq ....................829